ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF EDUCATION OF
AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS
MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ
CONFERENCE PROCEEDINGS

2022 № 6

SUMQAYIT - 2022

2022 № 6
MATERİALLARI
KONFRANS

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF SCIENCE AND EDUCATION AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2022 № 6

SUMQAYIT – 2022
СУМГАИТ – 2022
SUMGAYIT – 2022

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV *prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ *проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV *prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV *prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ

RESPUBLİKA ELMİ KONFRANSI

(20-21 oktyabr 2022-ci il)

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

РЕСПУБЛИКАНСКАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ

(20-21 октября 2022 год)

ACTUAL PROBLEMS OF SOCIO-ECONOMIC DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN

REPUBLICAN SCIENTIFIC CONFERENCE

(Oktober 20-21, 2022)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
İQTİSADİYYAT İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ

RESPUBLİKA ELMİ KONFRANSI

(20-21 oktyabr 2022-ci il)

Sumqayıt – 2022

TƏŞKİLAT KOMİTƏSİ

HƏMSƏDRLƏR

Elxan Hüseynov	Sumqayıt Dövlət Universitetinin rektoru, professor
Nazim İmanov	İqtisadiyyat İnstitutunun direktoru, professor

SƏDR MÜAVİNLƏRİ

Ramazan Məmmədov	Sumqayıt Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, professor
Müşviq Atakişiyev	İqtisadiyyat İnstitutunun icraçı direktoru, professor

ÜZVLƏR

Natiq Talıbov	Sumqayıt Dövlət Universitetinin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent
Təbriz Əliyev	İqtisadiyyat İnstitutunun "Biznes mühitinin tənzimlənməsi və sahibkarlığın inkişafı" şöbəsinin müdiri, professor
Qafar Atayev	Sumqayıt Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent
Allahyar Muradov	İqtisadiyyat İnstitutunun "İnnovativ iqtisadiyyat və rəqəmsal transformasiya" şöbəsinin müdiri, dosent
Naib Hacıyev	Sumqayıt Dövlət Universitetinin İqtisadi məsələlər üzrə prorektoru
Rəsmiyyə Abdullayeva	İqtisadiyyat İnstitutunun "İnklüziv sosial inkişaf" şöbəsinin müdiri, i.e.d., dosent
Əsəd Məmmədov	Sumqayıt Dövlət Universitetinin Ümumi işlər üzrə prorektoru
Aynurə Yəhyayeva	Sumqayıt Dövlət Universitetinin İqtisadiyyat fakültəsinin dekanı, dosent
Tofiq Hüseynov	İqtisadiyyat İnstitutunun "Sənaye siyasəti və investisiya problemləri" şöbəsinin müdiri, professor
Qalib Hüseynov *(Məsul katib)*	Sumqayıt Dövlət Universitetinin Biznesin təşkili və menecment kafedrasının müdiri, dosent
Leyli Allahverdiyeva *(Məsul katib)*	İqtisadiyyat İnstitutunun elmi katibi, dosent
Samir Orucov	Sumqayıt Dövlət Universitetinin Elmi hissəsinin müdiri, dosent

PROQRAM KOMİTƏSİ

Ziyad Səmədzadə	akademik, Milli Məclisin üzvü
Vüqar Bayramov	dosent, Milli Məclisin üzvü
Əli Məsimli	dosent, Milli Məclisin üzvü
Vüsal Qasımlı	professor, Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru
Vahid Novruzov	professor, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri
Nazim İmanov	professor, İqtisadiyyat İnstitutunun direktoru
Sakit Yaqubov	professor, Azərbaycan Dövlət İqtisad Universitetinin Elm üzrə prorektoru
Tərbiz Əliyev	professor, İqtisadiyyat İnstitutunun Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri şöbəsinin müdiri
Şəfa Əliyev	professor, SDU-nun Dünya iqtisadiyyatı və marketinq kafedrası
Məhəbbət Məmmədov	professor, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənayenin təşkili və idarə edilməsi kafedrasının müdiri
Qənimət Səfərov	professor, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Həmkarlar İttifaqı Hərəkatı və Sosial elmlər kafedrasının müdiri
Qəzənfər Süleymanov	professor, ADNSU-nun Menecment kafedrasının müdiri
Ramiz İsgəndərov	professor, Azərbaycan Texniki Universitetinin İqtisadiyyat və statistika kafedrası
Mübariz Bağırov	professor, Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və mühasibat kafedrası
Beykəs Xıdırov	professor, İqtisadiyyat İnstitutunun Sənaye siyasəti və investisiya problemləri şöbəsinin baş elmi işçisi

PLENAR İCLAS

QLOBAL ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİ

Quliyev Musa İsa oğlu
Azərbaycan Respublikasının Milli Məclisi

Xülasə: *Məqalədə müasir şəraitdə Azərbaycanın sosial-iqtisadi inkişaf istiqamətində həyata keçirdiyi islahatlar və onların perspektivləri araşdırılır. Dünyanı bürüyən böhran və onun nəticələrinin iqtisadiyyata təsiri haqında məlumat verilir və Azərbaycanın bu sahədə həyata keçirdiyi tədbirlər şərh edilir. Əhalinin sosial müdafiəsi, xüsusilə həssas təbəqələrin sosial təminatı, pensiya sistemində mühüm keyfiyyət dəyişikliyi barədə təhlil aparılır.*

Açar sözlər: *sosial-iqtisadi inkişaf, infrastruktur, sosial təminat, milli hədəflər, milli prioritet*

Müasir dövrdə etnik və dini zəmində problemlər bütün dünyanı bürüyüb. Dünyada müxtəlif siyasi oyunlar gedir. Eyni zamanda Covid-19 pandemiyası hələ sona çatmıyıb. Pandemiyanın gətirdiyi müxtəlif iqtisadi, sosial, psixoloji və yoxsulluq çətinliklərlə əlaqədar ərzaq qıtlığı problemi bütün dünyada mövcuddur. Belə bir dünyada heç şübhəsiz ki, hər bir dövlət özünün sosial-iqtisadi və siyasi strategiyasını yaxın 10 il üçün müəyyənləşdirib, qlobal çağrışlara adekvat cavab vermək üçün öz siyasi sistemini - konyunkturasını müəyyənləşdirib. Həmrəylik mühiti düzgün idarəetmə, neft kapitalının insan kapitalına çevrilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, innovativ metodların və texnologiyaların tətbiqi son 10 ildə iqtisadi gücümüzün xeyli artmasına, qüdrətli və peşəkar ordumuzun yaranmasına, etibarlı sosial təminat sisteminin formalaşmasına möhkəm zəmin yaratmışdır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında yürüdülən uzaqgörən daxili və xarici siyasət ölkənin qarşısına qoyduğu mürəkkəb sosial-iqtisadi məqsədlərə nail olunmasına, habelə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə həlledici təsir göstərmişdir. Bəhs edilən dövrdə Respublikada minimum əmək haqqı 2,7 dəfə, orta aylıq əmək haqqı 2 dəfə artmış, pensiyaların minimum məbləğində isə 3,3 dəfəyədək yüksəlmə qeydə alınmışdır. Əhalinin aztəminatlı təbəqələrinə dövlət tərəfindən verilən ünvanlı sosial yardımın təyin edilməsi üçün nəzərdə tutulmuş ehtiyac meyarının məbləği son on il ərzində 2,3 dəfə artmışdır. Belə ki, bu göstərici 2011-ci ildəki 75 manat həddindən 2022-ci ildəki 200 manat həddinə çatdırılmışdır. Sözügedən dövr ərzində ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılmasına yönəlik ardıcıl şəkildə həyata keçirilən genişmiqyaslı dövlət proqramları sayəsində məşğul əhalinin sayı 14%, muzdla işləyən əhalinin sayı 22,9% artmışdır. Heç şübhəsiz ki, işsizliyin səviyyəsinin artmasında bütün dünyanı bürüyən pandemiyanın da təsiri iz buraxmış və 2021-ci ildə ölkə üzrə bu göstərici 6% təşkil etmişdir. Ali Baş Komandanın rəhbərliyi altında 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində 30 illik erməni işğalında olan torpaqlarımızın azad edilməsi dövlətçilik tarıximizin şanlı bir səhfəsi olmaqla yanaşı xalqımız və dövlətimiz üçün yeni bir mərhələnin başlanğıcı olmuşdur. Artıq biz bu bölgənin qalib xalqıyıq və bütün regional layihələrdə əsas söz sahibiyik. Əldə etdiyimiz beş fundamental nəticə: 44 günlük Vətən müharibəsində düşmənə qalib gəlmiş dövlət imici, qazandığımız beynəlxalq nüfuz, təhsilli cəmiyyət prioritetləri, nəhəng iqtisadi potensial və daim artan rifahı üzərində dayandığmız on illik dövr ərzində ölkəmizin sosial-iqtisadi inkişaf nailiyyətləri sırasına yaza bilərik. Əldə etdiyimiz bu uğurların uzunmüddətli dövr ərzində ölkə iqtisadiyyatını keyfiyyətcə dəyişdirəcəyi və onun sosial-iqtisadi inkişafının yeni cizgilərinin formalaşmasına öz töhfəsini verəcəyinə əminik. Qazandığımız uğurları son on ildə həyata keçirilən, genişmiqyaslı hədəfləri öz qarşsına qoymuş islahatların nəticəsi hesab edirik. Cəsarətlə deyə bilərik ki, ölkələrin tarixini araşdırsaq cəmi 30 il ərzində bu qədər uğur hekayələrini öz aktivinə yazan az ölkə tapa bilərik. Qürurla deyə bilərik ki, artıq Azərbaycan bölgədə, eləcə də dünya səviyyəsində böyük maliyyə resurslarına malik, mühüm geosiyasi və geoiqtisadi məkan olmaqla, həm də qlobal enerji təhlükəsizliyinin təmin edilməsində strateji rola, sabit və dayanıqlı iqtisadiyyata malik ölkəyə çevrilmişdir. Ölkəmizin qarşısında növbəti 10 illikdə həm beynəlxalq, həm də milli səviyyədə yeni hədəflər, yeni məqsədlər dayanır. Yaxın 10 ildə minimum hədəflərə çatmaq üçün ölkəmiz beynəlxalq səviyyədə BMT-nin dayanıqlı inkişaf məqsədlərini dəstəkləyir. Milli səviyyədə isə maksimum hədəflərə nail olmaq üçün Azərbaycan-2030 sosial-iqtisadi inkişafa dair milli prioritetləri təsdiqləmişdir. BMT-nin dayanıqlı inkişaf məqsədləri milli inkişaf məqsədləri adlanan sənədin davamı olaraq hazırlanmış, dünyada 2030-cu ilədək yoxsulluğun aradan qaldırılmasını hədəfləyən 17 davamlı inkişaf məqsədini özündə əks etdirən qlobal bir layihədir. Burada haşiyəyə çıxaraq söyləmək istəyirəm ki, hazırda dünyada 2 milyard insan

lazımı səviyyədə qidalanmır. 800 milyon insan demək olar ki, mütləq yoxsulluq həddində yaşayır. İqtisadçıların diliylə desək onların gündəlik gəliri 1 dollardan aşağıdır. Dünyada 3 milyon 100 min uşaq hər il aclıqdan ölür. Hər 4 uşaqdan biri kifayət qədər qidalanmadığına görə boy artımından geri qalır və müxtəlif xəstəliklərə tutulur. Azərbaycanda isə 2000-ci illərin əvvələrindən 2003-cü ildən başlayaraq yoxsulluqla mübarizə olduqca böyük nəticələr vermişdir. Bu gün Azərbaycanda nə ifrat yoxsulluq, nə də mütləq yoxsulluq yoxdur. Azərbaycan dayanıqlı inkişaf məqsədlərini uğurla həyata keçirən ölkələrdən biridir. Azərbaycan bölgədə ilk olaraq dayanıqlı inkişaf məqsədlərinin icrasıyla bağlı 3-cü könüllü milli hesabat hazırlayıb təqdim etmişdir. Qlobal çağrışlara ləyaqətlə cavab verən ölkəmiz həm də öz qüdrətli potensialına güvənərək qarşıya daha böyük hədəflər qoymuşdur. Ölkəmizin tarixi torpaqlarının geri alınması və ərazi bütövlüyümüzün bərpa edilməsi onun iqtisadiyyatının perspektivə hesablanmış inkişafı ideyalarının həyata keçrilməsi üçün əsaslar yaratmışdır. Milli iqtisadiyyatımız yüksək gəlirli ölkələr sırasına daxil olmağı hədəfləyib. Bildiyimiz kimi dünyada 14 belə ölkə vardır. Bu hədəfə çatmaq üçün dayanıqlı və inkulizivlik keyfiyyətlərinə mailk iqtisadi böyüməyə nail olunmalıdır. Unutmayaq ki, hər bir Azərbaycan Respublikası vətəndaşının gəlirinin davamlı olaraq yüksəlməsinə məhz belə bir iqtisadi artım sayəsində nail olmaq olar. Yaxın 10 ildə qarşıya qoyduğumuz milli hədəflərə çatmaq məqsədilə Azərbaycan-2030 sosial-iqtisadi inkişafa dair milli prioritetlər təsbit olunmuş və bu prioritetlərə söykənən 2022-2026-ci illərdə sosial-iqtisadi inkişaf strategiyası hazırlanmış və cənab Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuşdur. Növbəti on il üçün Azərbaycanın sosial-iqtisadi inkişaflnı özündə əks etdirən beş milli prioritetin reallaşmasını məqsədəuyğun hesab ediirk:

- dayanıqlı böyüyən rəqabətqabiliyyətli iqtisadiyyat;
- dinamik inkişaf edən, inküliziv və sosial ədalət prinsiplərinə söykənən cəmiyyət;
- rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması, müasir innovasiyalara əsaslanan məkanın yaradılması;
- işğaldan azad olunmuş bölgələrə böyük qayıdışın təmin olunması;
- öləkənin təmiz ekoloji mühit və yaşıl artım paramertlərinə malik məkana çevrilməsi.

Qeyd edilən strategiyanın reallaşması ilə 2026-ci ilin sonundan etibarən ölkə iqtisadiyyatının simasında əhəmiyyətli dəyşiklilərə səbəb olacağına ümid edirik. Eyni zamanda iqtisadi böyümənin bütövlükdə yeni keyfiyyət amilləri bazasında əldə ediləcəyi, xüsusilə prioritet hesab edilən istehsal və xidmət sahələrində artım sürətinin daha da artacağı, iqtisadiyyatın və məşğulluq səviyyəsinin dayanıqlığının daha da genişlənəcəyi da bu gözləntilər sırasındadır. Bu prosesə təkan verən səbəblər içərisində insan kapitalının davamlı inkişafını da göstərə bilərik. Məhz onun yeni keyfiyyətdə trasformasiyası sayəsində iqtisadi inkişaf mühiti və vektorları daha da təkmilləşəcək. Milli iqtisadiyyatımızda innovasiyaların sürətlə mənimsənilməsi drayveri üçün tələb olunan ekosistemin yaranacağı, habelə Respublikanın büsbütün yaşıl enerji məkanına çevriləcəyi və nəticə etibarilə ətraf mühitin sağlamlaşması prosesinin sürətlənəcəyi gəldiyimiz qənaətlər sırasındadır. Əhalinin sosial müdafiəsi sistemi daha da möhkəmlənəcək, xüsusilə aztəminatlı əhali təbəqələrinin sosial vəziyyəti xeyli yaxşılaşacaq, pensiya təyinatı sistemində əhəmiyyətli keyfiyyət dəyişiklikləri baş verəcək və onların miqdarı nəzərəçarpacaq dərəcədə artırılacaqdır. Bütün bunlar birmənalı olaraq əhalinin əmək haqlarının artmasına, onların layiqli həyat səviyyəsinin təmin edilməsinə gətirib çıxaracaqdır. İstehsalatda çalışanların layiqli həyat səviyyəsinin təmin edilməsi üçün minimum əmək haqlarının səviyyəsinin artırılması da bu strategiya ilə nəzərdə tutulmuşdur. Bildiyimiz kimi davamlı olaraq minimum əmək haqları hər il artırılır.

Biz qalib bir xalqın nümayəndələriyik. Fəxr edirik ki belə gözəl vətənimiz var. İnanıram ki, qüdrətli liderimizin rəhbərliyi altında və bu mərd xalqın zəkası və əməyi ilə gözəl vətənimiz Azərbaycanı dünyanın cənnətinə çevirəcəyik.

Ədəbiyyat

1. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında. Bakı şəhəri, 2 fevral 2021-ci il, № 2469

2. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında”, Bakı şəhəri, 10 dekabr, 2021-ci il

Резюме

Гулиев М.И.

Перспективы социально-экономического развития Азербайджана в условиях глобальных вызовов

В статье рассматриваются реформы, проводимые Азербайджаном в направлении социально-экономического развития в современных условиях и их перспективы. Приводится

информация о мировом кризисе и его влиянии на экономику, а также комментируются меры, осуществляемые Азербайджаном в этой области. Приводиться анализ важных качественных изменений в социальной защите населения, особенно в социальной защите уязвимых групп, пенсионной системе.

Ключевые слова: *социально-экономическое развитие, инфраструктура, социальная защита, национальные цели, национальный приоритет*

Summary

Guliev M.I.

Prospects for Socio-Economic Development of Azerbaijan in the Conditions of Global Challenges

The article discusses the reforms carried out by Azerbaijan in the direction of socio-economic development in modern conditions and their prospects. Information is provided on the global crisis and its impact on the economy, as well as comments on the measures taken by Azerbaijan in this area. An analysis of important qualitative changes in the social protection of the population, especially in the social protection of vulnerable groups, and the pension system is given.

Key words: *socio-economic development, infrastructure, social protection, national goals, national priority*

AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YENİ SƏVİYYƏYƏ QALDIRILMASINDA AQRAR SAHƏNİN ROLU

Rzayev Tahir Musa oğlu

Azərbaycan Respublikasının Milli Məclisi

Xülasə: *Tezisdə aqrar iqtisadiyyatın əsas inkişaf ənənəsi, iqtisadi kateqoriyası, strukturu, aqrar bazarın faəliyyət xüsusiyyətləri geniş təhlil olunmuşdur. İstehsal torpaq, xammal və əmək resurslarından səmərəli istifadə olunması məsələlərinə baxılmışdır. Kənd təsərrüfatında istehsalın intensivləşdirilməsi, ixtisaslaşdırılması və inteqrasiya prosesləri öz izahını tapmışdır. O cümlədən, kənd təsərrüfatının investisiyası, istehsalda xərclər və qiymətin əmələ gəlməsi məsələləri öz əksinin tapmışdır.*

Açar sözlər: *kənd təsərrüfatı, məhsuldar qüvvələr, ixrac potensialı, ərzaq təhlükəsizliyi, hüquqi tənzimləmə*

Bu gün dövlətçilyimizin inkişafı yolunda qazandığımız nailiyyətlərə müxtəlif mövqelərdən yanaşılır. Sözsüz ki, siyasətimizi dəstəkləyən beynəlxalq maliyyə orqanları, təşkilatlar, haqqı-ədalətin yanında olan ölkələr bu yanaşmaları görür və onlara real qiymət verirlər. İstər xaricdə yerləşən, istər daxildəki bir çox müxalif qüvvələr nailiyyətlərimizə kölgə salırlar. Həmin qüvvələr həm də müharibədə qazandığımız qələbələri həzm edə bilmirlər. Bu insanların məqsədi, həmçinin gənclərimizi çaşdırmaq, dövlətimizin nailiyyətlərinə qara yaxaraq onlarda yanlış fikir oyatmaqdır.

Cənab Prezident İlham Əliyev öz çıxışlarında qeyd edir ki, biz dünyada gedən hadisələrə reallıqlar baxımından qiymət verməliyik. Çünki reallıq düzlükdür, reallıq tərəqqidir, reallıq həm də nöqsanları qiyməndirərək irəliyə atılan addımdır. Ona görə də biz reallıqları qiymətləndirərkən keçmişə baxmalı, Azərbaycanın keçmişi ilə bu gününü həmin rakursdan müqayisə etməliyik. Paralel olaraq biz son 30 ildə çəkdiyimiz əzablardan sonra qazandığımız qələbəni qiymətləndirməli, bizə qarşı olan təhdid və təqiblərin fonunda hansı yolu keçdiyimizi, hansı sahədə qələbə qazandığımızı geniş təhlil etməliyik.

Hazırda Azərbaycan özünün tarixi günlərini yaşayır. Əlbəttə, ugularımızı qeyd etdikdə Ulu Öndəri yada salmalıyıq. Çünki, bu nailiyyətlərin altında Ulu Öndərin imzası var. İstər müstəqilliyimizin qorunub saxlanılması, onun davam etdirilməsi, istərsə də qələbələrimizin əldə edilməsində onun rolu əvəzolunmazdır. Əgər vaxtıilə ulu öndər güclü ordu konsepsiyasını irəli sürməsəydi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyini yaratmasaydı, gənclərimizin zabit kimi formalaşmasına diqqət yetirməsəydi biz II Qarabağ Müharibəsində qalib gələ bilməzdik. Həmçinin Ulu Öndər Yeni Azərbaycan Partiyasının yaranmasının ideya müəllifi olmasaydı sözsüz ki, bu gün müasir Azərbaycandan danışmaq mümkün olmazdı. Çünki, Yeni Azərbaycan Partiyası ölkədə gedən ictimai-siyasi hadisələrə öz qiymətini verdi və öz liderini qısa müddətdə hakimiyyətə gətirməyə nail oldu. [3, s.117]

Aqrar sahədə də vəziyyət təxminən bu cürdür. Nəzərinizə çatdırmaq istəyirəm ki, ölkənin aqrar sektoru, kənd təsərrüfatının inkişafı Ulu Öndərin adı ilə bağlıdır. 1969-cu ildə Ulu Öndər hakimiyyətə ilk

dəfə gələndə Azərbaycan acınacaqlı vəziyyətdə idi. Nəinki Azərbaycanın iqtisadiyyatı, həm də kənd təsərrüfatı da iflic vəziyyətində idi. Real həyatda irəliləyişlər yox idi. Azərbaycan İttifaqın ən geridə qalmış respublikalarından biri idi. 1969-cu ildə 299 min ton pambıq istehsal olunmuşdu. Ancaq 1981-ci ildə bu göstərici 1 milyon tonu keçdi. 1969-cu ilə ölkə üzrə 272 min ton üzüm istehsal olunmuşdusa, 1982-ci ildə Heydər Əliyev Moskvaya gedərkən bu göstərici 1 milyon 800 min tonu keçmişdi. Taxılçılıq 2 dəfədən çox inkişaf etmişdi.

Kənd təssərrüfatı yalnız yeyınti məhsulları ilə məhdudlaşmır, onun inkişafı digər sahələrin inkişafını da zərurətə çevirir. Bu sıraya emal sənayesi, toxuculuq və digər sahələr aiddir. Sovet dövründə Azərbaycanda pambıqçılığın sürətlə inkişaf etdirilməsi həm insanların maddi rifah halının yüksəllməsinə səbəb olur, həm də sənayenin inkişafını irəli aparırdı. Pambıq zavodlarının yaradılması toxuculuq sənayesinin inkişaf etdirilməsinə böyük təkan verirdi. Üzümçülüyün inkişaf etdirilməsi şərab zavodlarının yaradımasına, ölkədə şərabçılığın inkişafına rəvac verirdi. Şərabçılıqdan gələn gəlir bilavasitə insanların həyat şəraitinin yaxşılaşdırılmasına sərf olunurdu. Həmin dövrdə insanların həyat səviyyəsi nəzərəçarpacaq dərəcədə yüksəlməyə başladı, yeni şəhər və qəsəbələr salındı, dəmir yolları çəkildi, yeni zavodlar istifadəyə verildi. Rayonlarda demək olar ki, böyük müasirləşmə həyata keçirildi. Əlbəttə ki, bu ənənələr sonrakı dövrdə də həyata keçirilməkdə davam etdirilməli idi. Çox təəssüf ki, ittifaqın dağılması, 1990-cı illərdə hakimiyyətə səriştəsiz rəhbərlərin gəlməsi ölkədə aqrar sektorun, kənd təssərrüfatının inkişafına böyük zərbə vurdu. Əvvəlki illərdə tikilən iri heyvandarlıq kompleskləri, pambıq zavodları, şərab, emal sexlərinin hamısı dağıdıldı. Halbuku, bu zavodların tikilməsində çox böyük həm zəhmət, həm də külli miqdarda xərc çəkilmişdi.

Bu gün Azərbaycan dövləti əhalinin qoyun ətinə olan tələbatını 100%, mal ətinə olan tələbatını 90%, quş ətinə olan tələbatını isə 80% təmin edə bilir. Bir çox sahələrdə inkişaf var. Lakin müəyyən problemlər də mövcuddur. Torpaqlarımızın 20%-nin işğal olunması bu problemi yaradan əsas səbəblərdən biri oldu. Həm də bu torpaqlar münbitliyinə, məhsul vermək imkanına görə ən yaxşı torpaqlar hesab olunurdu və ölkənin kənd təsərrüfatının 15-20%-ni təmin edirdi. [4, s.237].

Bu gün qarşıya qoyulan plan, vəzifə həmin torpaqlarda kənd təsərrüffatının yenidən yüksək səviyyədə və müasir texnologiyalarla təmin olunmasıdır. [6]. Hazırda Azərbaycan dünyanın bir çox ölkələrinə 1 milyard manatlıq kənd təsərrüfatı məhsulları ixrac edirsə, bu yaxşı göstəricidir. Keçən il xarici ölkələrə 877 milyon manatlıq kənd təsərrüfatı məhsulları ixrac edilmişdir. Bu ilin nəticələri göstərir ki, bu rəqəm artıq 1 milyard manatı keçib və həmin göstəricinin daha da artırılması davam etdiriləcəkdir.

Sözsüz ki, pambıqçılığın, baramaçılığın, üzümçülüyün inkişaf etdirilməsi bizə ixrac potensialımızı artırmağa yeni imkanlar yaradır. Çünki, bildiyimiz kimi ölkədən məhsulların ixrac olunması ölkəyə külli midarda valyutanın gətirilməsi deməkdir.

Bu aspektdə əsas məsələlərdən biri ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. [2,s.44] Bu isə kənd təsərrüffatının üzərinə çox boyük vəzifələr qoyur. Xatırladaq ki, bu gün dünyada 8 milyona yaxın əhali aclıq həddində yaşayır. BMT-nin Ərzaq və Kənd Təsərrüffatı Təşkilatının verdiyi məlumata görə dünyada 1 milyard 600 minə yaxın insan aclıq təhlükəsi altında yaşayır. Proqnozlar göstərir ki, müharibələrin davam etməsi bu aclığın səviyyəsinin daha da yüksəlməsinə səbəb ola bilər. Belə bir vaxtda ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması ölkə rəhbərinin qarşısında duran əsas vəzifə sayılır. Biz, xüsusilə, özümüzü ərzaqlıq buğda ilə təmin etmək üçün ciddi proqram və layihələr ilə çıxış etməliyik. Ölkəmiz Türkiyə və Qazaxıstandan ərzaqlıq buğda idxal edir. Ancaq ən çox ərzaqlıq buğda ixrac edən ölkələr Rusiya və Ukraynadır. Bu gün dəhşətli müharibə üzündən həmin ölkələrdən buğdanın gətirilməsi çətinləşib.

Bu gün ölkə rəhbəri qarşıya belə bir məqsəd qoyub ki, biz bir neçə ildən sonra özümüzü ərzaqlıq buğda ilə təmin etməliyik. Bu isə məhsuldarlığın artırılması hecabına olmalıdır. Ölkənin builki nəticələrinə əsasən hər hektardan 30 sentnerdən artıq taxıl məhsulu götürülüb. Keçən il məhsuldarlıq daha yüksək idi. Lakin cari ildə hava şəraitinin quraqlığı məhsuldarlığın artırılmasına imkan vermədi.

Cənab Prezidentin qeyd etdiyi kimi, hər hektardan 40 sentner məhsul götürə bilsək, müəyyən mənada buğdaya olan tələbatı ödəyə bilərik. Digər tərəfdən kənd təsərrüfatında müasir texnologiyalar tətbiq etməliyik. Bunlar qarşıda duran ən vacib məsələlərdəndir.

Ölkəmizdə aqrar sahənin inkişafı üçün çox münbit şərait var. Bu istiqamətdə hüquqi baza formalaşmışdır. Son 30 ildə 300-dən artıq qanun, qanunlarda dəyişikliklər, əsasnamələr qəbul olunub. Bu əsasnamələr bilavasitə kənd təsərrüfatının bir sıra sahələrinin yaradılması, həmçinin onun hüquqi bazasının formalaşmasına istiqamətlənib. Bu gün elə bir sahə yoxdur ki, orada hüquqi tənzimləmə olmasın. Müasirlik, beynəlxalq təcrübənin öyrənilməsi və bu kimi digər amillərin tətbiqi ilə əlaqədar qanunvericilik bazası möhkəmləndirilməlidir. Hazırda işğaldan azad olunmuş torpaqlar minadan təmizlənir. .[1, s.56].

Nəzərdə tutulur ki, buğda əkilmiş torpaqlar 100 min hektara çatdırılsın. Təbii ki, daha böyük işlər görülə bilər. Bu ilin yay aylarında heyvandarlıqla məşğul olan bir çox sahibkarlarımız öz təsərrüfatlarını

Kəlbəcərə köçürdülər. Bu torpaqlar çox güclü potensiala malikdir. Keçmişə nəzər salsaq Ağdamda, Füzulidə pambıqçılıq və taxılçılıq üçün münbit şərait olduğunu deyə bilərik. Digər dağ rayonlarında isə tütünçülük və heyvandarlığın inkişafı üçün çox geniş baza var. Ona görə də qarşıda duran mühüm vəzifələr kənd təsərrüfatı sahələrini inkişaf etdirməyə imkan verir.

Ölkədə sahibkarlığın və xüsusilə də kənd təsərrüfatının inkişafı üçün perspektivlər mövcuddur. Həmçinin bu gün kənd təsərrüfatının inkişafına maraq çox böyükdür. Qeyd edək ki, kənd təsərrüfatının inkişafı yalnız insanların zəhmətindən deyil, həmçinin təbii şəraitdən çox asılıdır. Biz hər bir şeyi hesablamalıyıq. Əvvəllər əgər regionlarda ciddi yol, işıq, qaz problem var idisə, hazırda bu problemlər artıq həll olunub. Bu baxımdan kənd təsərrüfatının inkişafı əsaslı dərəcədə yaxşılaşdırmağa doğru gedir. [1, s.104]

Ümumiyyətlə, kənd təsərrüfatını inkişaf etdirmək üçün yeni layihə, proqram və tədbirlərin tətbiqi nəzərdə tutulur. Fikrimizcə, bu layihələrin tətbiqi bizə kənd təsərrüfatını inkişaf etdirmək üçün əsas verəcək. Ancaq hər kəs müəyyən çətinliklərimizin olduğunu da bilməlidir Ölkədə kənd təsərrüfatını, aqrar sektoru inkişaf etdirmək üçün toxumçuluq təsərrüfatlarını inkişaf etdirmək lazımdır. Çünki, yaxşı, məhsuldar toxum olmadan kənd təsərrüfatını inkişaf etdirmək mümkün deyil. Heyvandarlığın cinsi yaxşılaşdırılmalı, müasir texnologiyalar tətbiq olunmalıdır.

Bu gün bütün dünyada həm içməli, həm də əkin üçün su çatışmazlığı var. Azərbaycanda da su qıtlığı hiss olunur. Ona görə də yay aylarında bir sıra rayonlarda 100 hektarlarla torpaqlarda pambıq su çatışmazlığından qurudu. Bu problemləri aradan qaldırmaq üçün kompleks tədbirlər həyata keçirilməlidir. Ölkə rəhbəri bu tədbirlərə start verib. Onlarda hər birimizin iştirakı vacibdir. Vətəndaşlarımızın bir qismi kənddə yaşamaq, heyvandarlıqla məşğul olmaq və işləmək istəmirlər. Ancaq biz normal qidalanmaq, ölkəmizin qida təhlükəsizliyini təmin etmək və öz tələbatımızı ödəmək istəyiriksə, mütləq şəkildə işləməli, bərabər şəkildə çalışmalıyıq.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. 1995.
2. Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyinin Proqramı. Bakı, 2001.
3. Əliyev İ.Ş. Aqrar sahənin inkişafının əsas maliyyə rəhbəri Bakı, 2007.
4. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri Bakı , 2005.
5. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi Bakı, 2011.

Резюме

Рзаев Т.М.

Роль аграрного сектора в подъеме социально-экономического развития на новый уровень в Азербайджане

Подробно анализируются основные традиции развития аграрной экономики, экономическая категория, структура и особенности аграрного рынка. Рассмотрены вопросы эффективного использования производственных земель, сырья и трудовых ресурсов. Процессы интенсификации, специализации и интеграции производства в сельском хозяйстве нашли свое объяснение. В том числе были отражены инвестиции в сельское хозяйство, себестоимость продукции и ценовые вопросы.

***Ключевые слова**: сельское хозяйство, производительные силы, экспортный потенциал, продовольственная безопасность, правовое регулирование*

Summary

Rzayev T.M.

The Role of theAagrarian Sector in Raising Socio-Economic Development to a New Level in Azerbaijan

In the thesis, the main development tradition of the agrarian economy, economic category, structure, activity characteristics of the agrarian market were extensively analyzed.The issues of effective use of industrial lands, raw materials and labor resources are considered. The processes of intensification, specialization and integration of production in agriculture have found their explanation. In particular, investments in agriculture, production costs and price issues were reflected.

***Key words:** agriculture, productive forces, export potential, food security, legal regulatio*

AZƏRBAYCAN RESPUBLİKASINDA KREDİT MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA ZƏMANƏT MEXANİZMİNİN ROLU

Abdullayev Loğman İmran oğlu
Sumqayıt Dövlət Universiteti
Loqman.2005@mail.ru

Xülasə: *Ölkənin sosial-iqtisadi inkişafı maliyyə resurslarından səmərəli istifadə etməni tələb edir. İstehsal və xidmət sahələrində işgüzar fəallığın yüksəldilməsi maliyyə vəsaitləri ilə təmin olunma zərurəti yaradır. Burada kredit mənbələrinin müəyyən olunması, onlardan məqsədyönlü şərtlərlə istifadə edilmə, həmin sahələrdə səmərəli fəaliyyəti təmin edir. Kreditlərin verilməsində zəmanət mexanizminin yaradılması mövcud qanunverici bazaya əsaslanaraq yerinə yetirilir. Xüsusən daşınan əmlak üzrə dövlər reyestrinin yaradılması, sonrakı mərhələdə zəmanətli kreditlərin verilməsində yeni yanaşmanı təzahür etdirir.*

Açar sözlər: *bank, kredit, ipoteka, daşınmaz əmlak, daşınan əmlak*

Müasir dünyada kreditləşmə təminatının mahiyyətindən irəli gələrək səmərəli iqtisadi fəaliyyətə uyğun kredit sistemi formalaşır. Bu istiqamətdə ölkəmizdə son dövrlər beynəlxalq təcrübəyə əsaslanacaq müxtəlif islahatlar yerinə yetirilir. Respublikamızda kreditləşmə sahəsində müntəzəm araşdırmalar aparan maliyyə və bank strukturları kredit sisteminin səmərəli inkişafı üçün beynəlxalq təcrübədə uğur qazanmış məlumatlardan istifadə edərək öz fəaliyyətlərini tənzimləyirlər. Kredit alınması zamanı müəyyən olunur ki, kredit təşkilatı hər zaman təqdim etdiyi vəsaitə uyğun zəmanətin yüksək olmasına maraqlıdı. Burada kredit növlərindən asılı olaraq onların girov tərkibi də fərqli olur. Beynəlxalq təcrübəyə diqqət yetirdikdə məlum olur ki, daşınar və daşınmaz əmlakın girov qoyulması əsasında kreditləşmə aparılması mexanizmi mövcuddur və bu bir sistem olaraq səmərəli şəkildə fəaliyyət göstərir. Daşınmas əmlakın girovuna uyğun formalaşacaq mexanizmin geniş yayılmış forması ipoteka kreditləşməsidir. Eyni zamanda daşınar əmlaka uyğun kredit münasibətlərinin inkişafı müasir dünyada tədricən genişlənməkdədir və bu sahədə xüsusi imkanlar yaranmışdır. Azərbaycan Respublikasında kredit təminatı olaraq ümumi kreditləşmənin təxminən 70%-i daşınmaz əmlakın girovu əsasında təmin olunur və 30% məhz daşınar əmlakın girov qoyulmasına əsaslanır. Buradan müəyyən olur ki, kredit təşkilatları əsasən müəssisələrin aktivində olan daşınmaz əmlakların likvidlik xüsusiyyətinə daha çox diqqət yetirirlər. Həmçinin onlar kreditləşmə dairəsinin genişlənməsi baxımından ipoteka kreditlərinin verilməsinə maraqlı olurlar. Ölkə əhalisinin yaşayış evləri ilə təmin olunmasında güzəştli və adi kredit təminatı tam olaraq ipoteka münasibətlərinin inkişafına əsaslanır. İpoteka krediti borc forması olaraq daşınmaz əmlakın kredit təminatına uyğun yerinə yetirilir. Dünya təcrübəsində ipoteka kreditinin klassik, dəyişkən faizli, mövcud qiymətə uyğunlaşdırılmış, zaman fərqindən asılı olan qarışıq formaları tətbiq olunur. Burada ilk olaraq daşınmaz əmlakın maliyyə mənbəyi müəyyənləşir. Xüsusən Almaniya, Avstriya və Fransa kimi ölkələrdə vətəndaşlar malik olduğu pul vəsaitini daşınmaz əmlak üzrə kredit verəcək quruma əmanət şəklində verirlər və müəyyən müddətdən sonra yaşayış evini alan zaman aşağı faizlə kredit ala bilirlər. Meksika, Braziliya, Türkiyə və bu kimi digər inkişaf etməkdə olan ölkələrdə daşınmaz əmlakın əldə olunması üçün maliyyə vəsaitləri ilə təmin olunmada sosial müdafiə fondlarının vəsaitlərindən müqavilə əsasında istifadə olunur. ABŞ, İngiltərə və inkişaf etmiş əksər ölkələrdə kommersiya bankları tərəfindən toplanmış depozitlər əsasında depozit maliyyəşləşdirmə sistemi tətbiq edilir. Danimarka, İsveç və Avropanın bir sıra ölkələri eyni zamanda ipoteka istiqrazlarını emissiya etməklə maliyyələşməni təmin edirlər.

Ölkə əhalisinin mənzillə təmin olunması dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Qeyd olunan istiqamətdə fəaliyyət göstərəcək mövcud qurumlar hökümətin tərkibində, mərkəzi bank strukturunda və ya ayrıca müstəqil təşkilat olaraq yaradıla bilər. Yaponiyada ölkənin iqtisadi siyasətindən asılı olaraq mövcud istiqamətə uyğun səmərəli iş görəcək dövlət qurumu olan Yaponiya Dövlət mənzil kreditləşməsi korporasiyası (Housing Loan Corporation) 1950-ci ildə yaradılmış və həmin dövlət qurumu 2007-ci ildə agentlik şəklində fəaliyyətin davam etdirmişdir. Taylandda Tayland mənzil inkişaf şurası 1953-cü ildə yaradılmışdır. Hindistanda Mərkəzi bankın tərkibində milli mənzil bankı 1988-ci ildə yaradılmışdır. Cənubi Koreyada Koreya mənzil maliyyələşdirilməsi korporasiyası 2004-cü ildə yaradılmışdır. Sovet ittifaqının dövlət olaraq ləğvindən sonra ora daxil olan respublikalarda bu sahədə dünya təcrübəsinə əsaslanaraq fəaliyyət istiqamətləri müəyyən olunmağa başladı. Rusiyada 1997-ci ildə mənzil ipoteka kreditləşməsi agentliyi yaradılmış və həmin qurum tam olaraq hökümət tərəfindən idarə olunur. 2000-ci ildə Qazaxıstanda səhmləri tam olaraq dövlətə məxsus olan ipoteka fondu yaradılmışdır. Ölkəmizdə mövcud dünya təcrübəsinə əsaslanaraq bu istiqamətdə ilk olaraq Mərkəzi Bankın tabeliyində 16 sentyabr 2005-ci ildə İpoteka fondu yaradılmışdır. Sonrakı illərdə bu istiqamətdə aparılan məqsədyönlü islahatlar nəticəsində

Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2017-ci il tarixli 1760 nömrəli Fərmanı ilə iki mühüm qurumun ("Azərbaycan İpoteka Fondu" ASC və "Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" ASC) bazası əsasında İpoteka və Kredit Zəmanəti fondu yaradılmış və ipoteka siyasətinə uyğun olaraq sosial evlərin tikintisi uğurla həyata keçirilməsi təmin edilmişdir. Hal hazırda fondun elektron məlumat bazasına əsasən qeyd etmək olar ki, fond tərəfindən verilən kreditlərin sayı 40372, verilmiş ipoteka kreditlərinin məbləği 2 276 932 309 manat, zəmanət və subsidiyalar üzrə verilmiş kreditlərin məbləği 320 751 000 manat təşkil edir. Fond tərəfindən zəmanətli olaraq verilən güzəştli ipoteka kreditləri 3,7-4 %, digər ipoteka kreditləri 7 -8% dərəcə ilə təqdim edilir.

Ölkəmizdə daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikası qanunu 29 iyun 2004 –cü ildə qəbul olunmuşdur. Mövcud Qanunun tələblərinə uyğun olaraq kiçik və orta sahibkarlığın inkişafı baxımından kreditlərin verilməsində olan yeniliklər biznes mühitinin inkişafına xidmət göstərir. Lakin sosial iqtisadi sahədə yeni yanaşmaların və tələblərin olması, kreditlər üzrə təmin olunmada təkmilləşdirmənin aparılmasına ehtiyac yaradır. Xüsusən girov mexanizminin tərkibində daşınar əmlakın artırılması mühüm əhəmiyyət kəsb edir. Əksər hallarda banklar və kredit verən digər təşkilatlar tərəfindən kredit almaq istəyən subyektlərdən gəlirləri haqqında məlumat tələb olunur. Bu kimi hallar müəyyən uyğunsuzluqlara səbəb olur. Təbii ki kredit verilməsində yalnız daşınmaz əmlakın girov olaraq yüklü edilməsi kifayət edə bilməz. Digər şərtlər daxilində də kreditlərin təklif olunması səmərəli kreditləşmə siyasəti hesab oluna bilər.

Bu sahədə Avstraliya, Kanada və Yeni Zellandiyanın təcrübəsi diqqəti cəlb edir. Həmin ölkələrdə daşınar əmlakın yüklülüyü reyestri mövcuddur. Qeyri neft sektoru üzrə inkişafın əldə olunmasını əsas istiqamət olaraq müəyyən edən hər bir dövlət mikro səviyyədə iqtisadi imkanlardan istifadənin yüksəldilməsi üçün daşınar əmlakın reyestrinin yaradılmasına maraqlı olmalıdır. Daşınar əmlakın reyestrinin yaradılması ölkədə biznes mühitinin inkişaf etməsinə səbəb olur. Kredit təşkilatları mal-qara, televizor, kompyutor və digər ev avadanlıqlarını, maşın və kiçik texnikaları girov olaraq yüklü olaraq təhvil alır. Daşınar əmlakın reyestrinin yaradılması nəticəsində xırda sahibkarların az miqdarda vəsaitlə təmin olunması imkanları genişlənir və kredit təqdim edən qurumların müştəriləri artır.

2 may 2017-ci ildə Daşınar əmlakın yüklülüyü haqqında Azərbaycan Respublikası qanunu qəbul olunmuşdur. 28 maddədən ibarət olan qanun öhdəliklərin icrası ilə bağlı daşınar əmlakın yüklülüyünün hüquqi əsasını, icra qaydalarını, dövlət reyestrinin aparılması və istifadə olunma məsələlərini tənzimləyir. Qanunun qəbulu əsasında kredit alan zaman girov olaraq qoyulacaq daşınar əmlak rəsmi reyestrdə qeydiyyata daxil edilir və onun öhdəlik təmin olunana qədər yenidən girov qoyulması mümkün deyil. Ümumilikdə daşınar əmlakın yüklülüyünün dövlət, bələdiyyə və xüsusi növlərə vardır. Həmin daşınar əmlaklar satıldığı zaman girov üzrə öhdəlik alan tərəfə şamil edilir. Daşınar əmlakın yüklülüyü üzrə reyestrin yaradılması nəticəsində girov qoyulmuş fərqli adda əşyalar qeydiyyata alındığı üçün digər kredit verən qurumlar tərəfindən ikinci dəfə yüklü edilə bilməz və həmçinin onun satışıda aparıla bilməz. Yalnız yüklülükdən azad olunduğu halda onun yenidən girov predmeti olaraq istifadəsi mümkün olur.

Bununlada qeyd etmək olar ki, ölkəmizdə sosial iqtisadi inkişafın mühüm istiqamətlərindən biri olaraq kreditlərin verilməsində təminat mexanizminin formalaşması uğurla həyata keçirilir.

Ədəbiyyat

1. Məmmədov Z.F. Beynəlxalq valyuta-kredit münasibətləri və xarici ölkələrin kredit sistemi. Dərslik, Bakı, 2012;
2. "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun inkişaf istiqamətləri 2020-2025" Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurasının 24 fevral 2020-ci il tarixli, 01-2020 nömrəli qərarı .
3. Rəşad Həsənov, MA, Gülnar İsmayılova, MSc, Fərhad Bayramov Azərbaycanda ipoteka sistemi: real vəziyyətin təhlili və təkmilləşdirilməsi istiqamətləri. Bakı, 2013;
4. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu. 10 dekabr 2004-cü il. № 802-IIQ. (17 aprel 2007-ci il, 9 oktyabr 2007-ci il, 6 noyabr 2007-ci il, 26 may 2009-cu il, 19 iyun 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə)
5. İpoteka haqqında Azərbaycan Respublikası Qanunu.15 aprel 2005-ci il №883-VO.
6. Daşınmaz əmlakın dövlət reyestri haqqında Azərbaycan Respublikası Qanunu . 29 iyun 2004-cü il № 713-IIQ.
7. Daşınan əmlakın yüklülüyü haqqında Azərbaycan Respublikası Qanunu. 2 may 2017-ci il № 667-VO.
8. Girov haqqında Azərbaycan Respublikası Qanunu. 15 iyul 1994-cü il № 852.
9. Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikası Qanunu. 25 dekabr 2009-cu il.

10. Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının Qanunu. 29 dekabr 2006-cı il № 226-IIIQ.
11. Azərbaycan Respublikası Mərkəzi Bankının İllik Hesabatları.
12. Банковское дело: учебник /О.И.Лаврушин, И.Д.Мамонова, Н.И. Валенцева, под ред. засл. деят. Науки РФ, д-ра экон. наук, проф.О.И. Лаврушина.–8–е изд., стер.Москва КНОРУС, 2009. -768 с.

Резюме
Абдуллаев Л.И.
Роль гарантийного механизма в развитии кредитных отношений в Азербайджанской Республике

Социально-экономическое развитие страны требует эффективного использования финансовых ресурсов. Повышение деловой активности в сферах производства и услуг создает потребность в обеспечении финансовыми ресурсами. Здесь выявление кредитных источников, их использование на целенаправленных условиях обеспечивает эффективную деятельность по указанным направлениям. Создание гарантийного механизма предоставления кредитов осуществляется на основе существующей законодательной базы. В частности, создание реестра движимого имущества свидетельствует о новом подходе к предоставлению гарантированных кредитов на более позднем этапе.

Ключевые слова: *банк, кредит, ипотека, недвижимость, движимое имущество*

Summary
Abdullayev L.I.
The role of the Guarantee Mechanism in the Development of Credit Relations in the Republic of Azerbaijan

The socio-economic development of the country requires the efficient use of financial resources. Increasing business activity in the areas of production and services creates a need for financial resources. Here, the identification of credit sources, their use on purposeful conditions ensures effective activities in these areas. The creation of a guarantee mechanism for granting loans is carried out on the basis of the existing legislative framework. In particular, the creation of a movable property registry indicates a new approach to the provision of guaranteed loans at a later stage.

Key words*: bank, credit, mortgage, real estate, movable property*

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF STRATEGİYASININ ŞƏFFAFLIQ AMİLİ

Novruzov Vahid Tapdıq oğlu
Azərbaycan Respublikası Auditorlar Palatası

Xülasə: *Şəffaflıq dedikdə, mövcud vəziyyət, qəbul edilən qərarlar və həyata keçirilən tədbirlər barədə informasiyanın bütün maraqlı tərəflərə əlçatan və anlaşıqlı olması üçün şəraitin yaradılması başa düşülür. Şəffaflıq informasiyanın əlçatanlığı deməkdir, burada bütün maraqlı tərəflər özlərinə uyğun informasiyalar əldə etmək imkanlarına malikdirlər. Demokratik ölkələrdə şəffaflıq yüksək səviyyədə qorunur. Beynəlxalq reytinqlərə görə şəffaflığın yüksək olduğu ölkələrdə həm korrupsiya, həm də kölgə iqtisadiyyatının səviyyəsi aşağı olur.*

Açar sözlər: *İqtisadi inkişaf strategiyası, şəffaflıq, hesabatlılıq, uçot, korrupsiyaya qarşı mübarizə*

Azərbaycan Respublikasının siyasi müstəvidə zəfərinin əsasında Ulu öndərimizin əməyi, onun strategiyası dayanır. Eyni zamanda son illərdə möhtərəm prezident İlham Əliyevin başçılığı ilə həyata keçirilən inkişaf göz önündədir. Bütövlükdə müstəqilliyimizin bərpası bir neçə mərhələdən keçmişdir. Birinci dövr dövlət müstəqilliyimizin bərpasının hazırlıq dövrüdür ki, bu dövr ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasına ilk rəhbərlik dönəminə təsadüf edir. Həmin illərdə çox mühüm işlər həyata keçirmişdir. Cəmşid Naxçıvanski adına Hərbi məktəb həmin illərdə istifadəyə verilmişdir. Belə ki, Qarabağ müharibəsində vuruşan zabitlərimizin 73%-i məhz həmin məktəbin yetirmələridir. Əgər bu məktəb vaxtında ulu öndər tərəfindən yaradılmasaydı yəqin ki, həm I, həm də II Qarabağ müharibəsində ciddi çətinliklərlə qarşılaşardıq. Həmin məktəbin yaradılması tarixindən danışarkən dəfələrlə qeyd etmişik ki, o hansı çətinliklər bahasına Azərbaycanda açılmışdır. Həmin dövrdə Ulu Öndərin təşəbbüsü ilə 8 min Azərbaycanlı

gənc İttifaqın qabaqcıl ali təhsil müəssisələrində təhsil almış və sonrada Respublikamıza qayıdaraq iqtisadiyyatımızın müxtəlif sahələrində fəaliyyət göstərmişlər. Təbii ki, müstəqilliyimizin bərpası, onun qorunub saxlanılması, uzaqgörən xalqımızın təkidli tələbindən sonra müdrik Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması sayəsində oldu. Xalqımız onun rəhbərliyi ilə dövlət çevrilişi cəhdlərinə, həm daxili, həm də xarici qüvvələr tərəfindən aparılan təxribatlara sinə gərdi. Bütün çətinliklər məhz Ulu Öndərin sayəsində aradan götürüldü və özünün də qeyd etdiyi kimi müstəqilliyimiz əbədi və geri dönməzdir. Ancaq onun dediyi kimi bu müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan da çətindir. Bu uğurlu siyasətin möhtəşəm şəkildə davamı kimi möhtərəm prezidentimiz İlham Əliyev cənabları, müstəqilliyimizin qorunub saxlanılmasına öz töhfəsini vermiş, həm də onun 2020-ci ildən öz qüdrətli səviyyəsinə çatmasına nail olmuşdur. Onun sayəsində xalqımız qalib xalq kimi dünyada tanınmışdır. Şəffaflığın artırılmasına Respublikamızda da çox diqqət yetirilir. Prezident Cənab İlham Əliyev şəffaflığın artırılması sahəsində silsilə sənədlər, dövlət proqramları, qanun, fərman və sərəncamlar imzalamışdır. Bu sənədlərin sayəsində Azərbaycanda şəffaflığın səviyyəsi kifayət qədər artmışdır və bu, digər ölkə rəhbərləri tərəfindən də dəyərləndirilir [5]. Bu yaxınlarda Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden İlham Əliyevə ünvanladığı məktubda ölkə başçımız tərəfindən qanunun aliliyinin qorunması və hesabatlılığın təmin edilməsi sahəsində atılan addımları alqışlamışdır. Bu, çox böyük bir diqqətdir. Əgər cəmiyyətdə şəffaflıq, hesabatlılıq varsa, deməli bizdə həyata keçirilən, qurulan demokratik quruluş dəyərləndirilir, bu isə ölkəmizə olan münasibəti, etimadı artırır. Mən şəffaflığın ölkə prezidentinin iqtisadi strategiyasında daim qırmızı xətt ilə keçdiyini və bu sahədə tədbirlərin artan xətlə həyata keçirildiyini xüsusilə qeyd etmək istəyirəm. Nəyə görə şəffaflığa bu qədər önəm verilir? Birincisi, idarəetmədə düzgün qərarların, proqnozların verilməsi üçün mütləq əldə olunan məlumatlar həm düzgün, həm də əlçatan olmalıdır. Şəffaflıq isə öz növbəsində uçotun, hesabatın keyfiyyətli aparılmasını və bu baxımdan əldə edilən məlumatların proqnozların əsasını təşkil edərkən öz töhfəsini vermək iqtidarında olmasını zəruri edir [1].

Yeri gəlmişkən qeyd edim ki, son vaxtlara qədər ölkəmizdə hesabatlılığın, uçotun aparılması sahəsində çox ciddi problemlər var idi. Möhtərəm prezidentimizin dəfələrlə təkidi nəticəsində artıq bu sahədə vəziyyət yaxşılaşmağa başlamışdır və kölgə iqtisadiyyatının səviyyəsi xeyli aşağı düşmüşdür. Hətta bir çox şüarlarda bu öz əksini tapmışdır: qaranlıqdan aydınlığa doğru. Ümumiyyətlə ölkə iqtisadiyyatı ilə şəffaflığın dialektikasından, əlaqəsindən danışarkən qeyd etmək istərdim ki, kölgə iqtisadiyyatı və korrupsiya demək olar ki, dünyəvi bir bəladır [4]. Müxtəlif səviyyələrdə olsa da bütün ölkələrdə kölgə iqtisadiyyatı mövcuddur. Hətta Dünya Bankının özünün rəsmi sənədlərində də qeyd olunur ki, kölgə iqtisadiyyatı iqtisadiyyatın inkişafının təkərinin yağlanmasıdır. Ümumiyyətlə, dünya alimləri tərəfindən kölgə iqtisadiyyatının hər bir ölkədə 10% olması məqbul hesab olunur. Lakin onun dərəcəsi 20%-dən yuxarı olanda ölkənin iqtisadiyyatı üçün ciddi problemlər yaranır. Ona görə mən bir daha qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının iqtisadi inkişafında şəffaflığın artırılması, kölgə iqtisadiyyatının kifayət qədər azaldılması ölkəmizdə əmək müqavilələrinin bağlanması sahəsində neqativlərin aradan qaldırılmasına səbəb olub. Şəffaf əmək müqaviləsi bağlanması o deməkdir ki, işçi kölgədən işiğa çıxır [2]. Bir daha qeyd edirəm ki, möhtərəm prezidentimiz İlham Əliyev şəffaflığın artırılmasında, kölqə iqtisadiyyatının azaldılmasında, uçotun, əmək müqavilələrinin bağlanmasında dəfələrlə öz dəyərli fikrini müxtəlif şəkillərdə çatdırmışdır. Onu da əlavə edim ki, şəffaflıq sahəsində, korrupsiyaya qarşı mübarizə sahəsində iqtisadi siyasətimizin özülündə ulu öndərimiz Heydər Əliyevin irəli sürdüyü fikirlər dayanır. 1994-cü ilin 9 avqustunda ilk dəfə olaraq Ulu öndər Heydər Əliyev tərəfindən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində fərman imzalandı. 1996-cı ildə lüzumsuz yoxlamaların azaldılması, 1997-ci ildə nəzarət sisteminin təkmilləşdirilməsi və bu kimi tədbirlər gətirib ona çıxardı ki, biz korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul etdik. Artıq qeyd etdiyimiz kimi, müvafiq sahə üzrə dövlət proqramları iqtisadiyyatımıza öz təsirini göstərdi [3, s.4].

Belə ki, Azərbaycanın iqtisadi strategiyasında, prezidentimizin çıxışlarında ictimai nəzarətin möhkəmləndirilməsi mühüm, piroritet bir məsələ kimi qoyulmuşdur, bu sahədə hüquqi baza da hazırlanır. Biz hər birimiz təbii ki, öz hüquqlarımızı, vəzifələrimizi də gözəl bilirik. Mənim təmsil etdiyim qurum - Azərbaycan Respublikası Auditorlar Palatası da şəffaflığın artırılması istiqamətində qanunvericiliklə üzərinə qoyulmuş vəzifələrin icrası istiqamətində çalışır. Mənə elə gəlir ki, bugünkü iştirakçısı olduğumuz konfrans da istər Azərbaycan iqtisadiyyatının bütövlükdə strategiyası, o cümlədən şəffaflığın artırılması istiqamətində öz töhfələrini verəcək.

Ədəbiyyat

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Bakı şəhəri, 2 fevral 2021-ci il, № 2469

2. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 22 iyul 2022-ci il, №3378
3. Novruzov V.T. İqtisadi siyasətdə şəffaflıq amili, Azərbaycan.- 2010.- 1 avqust.- S. 4.
4. audit.gov.az/Az/page/909
5. vergiler.az/news/economy/12251.html

Резюме
Новрузов В.Т.
Фактор прозрачности стратегии экономического развития Азербайджанской Республики

Прозрачность означает создание условий для доступности и понимания информации о текущей ситуации, принимаемых решениях и действиях всеми заинтересованными сторонами. Прозрачность означает доступность информации, когда все заинтересованные стороны имеют доступ к соответствующей информации. Прозрачность поддерживается на высоком уровне в демократических странах. Согласно международным рейтингам, уровень как коррупции, так и теневой экономики низок в странах с высокой прозрачностью.

Ключевые слова: *Стратегия экономического развития, прозрачность, подотчетность, учет, борьба с коррупцией*

Summary
Novruzov V.T.
Transparency Factor of the Economic Development Strategy of the Republic of Azerbaijan

Transparency means creating conditions for the accessibility and understanding of information about the current situation, decisions and actions taken by all interested parties. Transparency means the availability of information when all interested parties have access to relevant information. Transparency is maintained at a high level in democratic countries. According to international ratings, the level of both corruption and the shadow economy is low in countries with high transparency.

Key words: *economic development strategy, transparency, accountability, accounting, fight against corruption*

I BÖLMƏ

AZƏRBAYCANDA İQTİSADİ ARTIM VƏ MAKROİQTİSADİ SABİTLİYİN TƏMİN OLUNMASININ AKTUAL MƏSƏLƏLƏRİ. SOSİAL SİYASƏT MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNİN DAVAMLI İNKİŞAFINI TƏMİN EDƏN ALƏT KİMİ

İNSAN VƏ MÜƏSSİSƏ ARASINDA QARŞILIQLI ƏAQƏLƏRİN QURULMASI

Abbasov Nicat Yaşar oğlu
Gəncə Dövlət Universiteti
nicat_ec@mail.ru

Xülasə: *İnsan maşın deyildir və o, istənilən işi yerinə yetirərkən özünün bütün şəxsi keyfiyyətləri və əhvali-ruhiyyəsi ilə yaşayır ki bu da onun əməyinin kəmiyyət və keyfiyyətinə hökmən təsir göstərir. Əgər insan və müəssisə əhatəsinin qarşılıqlı təsiri probleminə insanın yerinə yetirdiyi rol prizmasından daha geniş baxsaq, onda aydın olacaq ki, onun şəxsi xarakterinin əhəmiyyəti nəinki çox böyükdür, həm də bir çox hallarda bu insanla müəssisə arasındakı qarşılıqlı təsirdə müəyyənedici də ola bilir.*

Açar sözlər: *müəssisə, müəssisə əhatəsi, insan davranışı, müəssisənin funksiyaları, müəssisənin gözləmələri, strateji idarəetmə*

Hər bir müəssisənin əsası və ən başlıca sərvəti insanlardır. Baxmayaraq ki, maşın bir çox texnoloji və idarəetmə proseslərində insanlari az qala tam sıxışdıraraq hökmüran vəziyyətindədir lakin, yenə də müəssisələrdə insanın rolu və əhəmiyyəti nəinki azalmamışdır, əksinə daha da artmışdır.

Bununla yanaşı insan müəssisənin nəinki əsas və ən dəyərli eyni zamanda ən bahalı resursuna cevrilmişdir. Firmaların yeni bazarlara və yeni reqionlara kecə bilməsi bir çox hallarda məhz bu amillə əlaqədar olur. Yaxşı müəssisələrdə öz işçilərinin maksimum səmərəli istifadəsinə cəhd edilir, bunun üçün işçinin öz imkanlarını mümkün qədər tam istifadə etməsini və onun potensialının intensiv inkişafını təmin edən hər cür şərtlər yaradılır. Məhz bu cəhət müasir dövrdə insan və müəssisənin qarşılıqlı təsirinin mühüm bir tərəfini təşkil edir. Lakin bu qarşılıqlı təsirin başqa tərəfi də vardır ki, buda insanın müəssisəyə necə yanaşmasında, onun həyatında müəssisənin hansı rol oynamasında, ona nə verməsində və nəhayət insanın müəssisə ilə öz qarşılıqlı münasibətlərinə hansı məna verməsində əks olunur. Müəssisələrin strateji idarə olunması üçün insanla müəssisələr arasında qarşılıqlı təsirin qurulmasının bu hər iki istiqaməti çox mühümdür.

Beləliklə, strateji idarəetmənin ən mühüm vəzifələrindən biri əməkdaşların müəssisə həyatına qoşulmasını harmonik və faydalı şəkildə təmin etməkdən ibarətdir. Bunun üçün insanla müəssisədəki əhatəsi arasında qarşılıqlı təsirin düzgün qurulması çox əhəmiyyətlidir. Bu iş böyük fəaliyyət və ixtisaslı biliklər tələb edir.

İnsanla müəssisə arasında qarşılıqlı təsirin necə qurulmasının başa düşülməsi üçün bu qarşılıqlı təsir probleminin mahiyyətinin nədən ibarət olmasının aydınlaşdırılmasının zəruri olması ilə yanaşı həm də müəssisədə insanın davranışını onun şəxsiyyətinin hansı cəhətlərinin müəyyən etməsi və müəssisə əhatəsinin hansı cəhətlərinin insanın müəssisə fəaliyyətinə qoşulması prosesinə təsir etməsi məsələləridə aydınlaşdırılmalıdır.

İnsan və müəssisə əhatəsi arasında qarşılıqlı təsirin qurulmasına iki müxtəlif yanaşma mümkündür. Fərdi mövqeydən insanın müəssisə əhatəsinə qoşulması modeli, müəssisə mövqeyindən insanın müəssisə əhatəsinə qoşulması modeli. İnsanın müəssisə əhatəsi ilə qarşılıqlı təsiri proisesi çox mürəkkəbdir və hər iki tərəf üçün olduqca mühümdür. Bunun üçün aşağıdakıların araşdırılması zəruridir. Müəssisə əhatəsi, adətən müəssisə əhatəsi dedikdə müəssisənin o hissəsi başa düşülür ki, insan işləyərkən bu hissə ilə təmasda olur.

Hər bir konkret şəraitdə insan və müəssisə əhatəsi arasında yaranan çətinliklərin və problemlərin konkret, bu şəraitə uyğun bu problemləri yaratmış səbəbləri tapıla bilir. Müəssisənin insana münasibətdə gözləmələrinin kombinasiyası və eyni zamanda hər bir ayrı-ayrı gözləmələrin müəssisə üçün əhəmiyyəti müxtəlif müəssisələrdə fərqli olur.

İnsanın və müəssisənin bir birinə münasibətində gözləmələrinin uyğunlaşdırılması və bununla da insan və müəssisə əhatəsi arasında yaranan problemlərin və toqquşmaların aradan qaldırılması və ya minimumlaşdırılması üçün insanın müəssisədə hansı yerə iddealı olmasını, hansı rolu bacarmasını və yerinə

yetirməyə hazır olmasını və nəhayət müəssisənin ona hansı rol verməyi nəzərdə tutmasını dəqiq bilmək lazımdır.

İnsan və müəssisə arası qarşılıqlı təsirin qurulmasına rola görə yanaşmadan istisfadə edilməlidir. Belə ki, müəssisə insandan müəyyən rolun yerinə yetirilməsini gözləyir.Əgər müəssisə üzvü öz rolunu müvəffəqiyyətlə yerinə yetirirsə və əgər bu vaxt o müəssisədə öz fəaliyyətindən və müəssisə əhatəsilə oz qarşılıqlı təsirindən şəxsən razıdırsa onda insan ilə müəssisə arası qarşılıqlı təsiri pozan, konfiliktli ziddiyyətlər meydana çıxmır insan və müəssisənin qarşılıqlı təsirinin qurulmasına rola görə yanaşma ona əsaslanır ki, müəssisənin öz funksiyalaını həyata keçirməsi prosesində yerinə yetirdiyi fəaliyyətin bütün məcmusu müəyyən məzmun və spesifikaya malik, hər bir konkret işi yerinə yetirməli olan işçinin malik olmalı olduğu peşəkarlığı, bilik və təcrübəni müəyyələşdirən ayrı-ayrı işlərə bölünməlidir. Öz rolunu yerinə yetirmək üçün işçiyə hüquqlar verilir, o müəssisə qarşısında öz üzərinə müəyyən ohtəliklər götürür və müəssisə əhatəsində müəyyən status alır.Bu cürə yanaşılma halında insan müəssisə üçün birinci növbədə müəyyən bir işi yerinə yetirən və bunun üçün zəruri olan biliklərə və vərdişlərə malik mütəxəssis olaraq qəbul edilir. İnsan və müəssisə arası qarşılıqlı əlaqələrin qurulması məsələlərinin tədqiqatından cıxarılan nəticələr ondan ibarətdir ki, birincisi, insanla müəssisə arasında qarşılıqlı təsirin necə qurulmasının başa düşülməsi üçün bu qarşılıqlı təsir probleminin mahiyyətinin aydınlaşdırılması ilə yanaşı həm də müəssisədə insanın davranışını onun şəxsiyyətinin hansı cəhətlərinin müəyyən etməsi və müəssisə əhatəsinin hansı cəhətlərinin insanın müəssisə fəaliyyətinə qoşulması prosesinə təsir etməsi məsələləri aydınlaşdırılmalıdır.

İkincisi, insan və müəssisə əhatəsi arasında qarşılıqlı təsirin qurulmasına iki müxtəlif yanaşma mümkündür. Fərdi mövqeydən insanın müəssisə əhatəsinə qoşulması modeli, müəssisə mövqeyindən insanın müəssisə əhatəsinə qoşulması modeli. İnsanın müəssisə əhatəsi ilə qarşılıqlı təsiri prosesi çox mürəkkəbdir və hər iki tərəf üçün olduqca mühümdür. Bunun üçün aşağıdakıların araşdırılması zəruridir. Müəssisə əhatəsi**,** adətən müəssisə əhatəsi dedikdə müəssisənin o hissəsi başa düşülür ki, insan işləyərkən bu hissə ilə təmasda olur, Fərdin və müəssisənin gözləmələri. Hər bir konkret şəraitdə insan və müəssisə əhatəsi arasında yaranan çətinliklərin və problemlərin konkret, bu şəraitə uyğun bu problemləri yaratmış səbəbləri tapıla bilir.Müəssisənin insana münasibətdə gözləmələrinin kombinasiyası və eyni zamanda hər bir ayrı-ayrı gözləmələrin müəssisə üçün əhəmiyyəti müxtəlif müəssisələrdə fərqli olur.

Rol və yerin uyğunluğu.İnsanın və müəssisənin bir birinə münasibətində gözləmələrinin uyğunlaşdırılması və bununla da insan və müəssisə əhatəsi arasında yaranan problemlərin və toqquşmaların aradan qaldırılması və ya minimumlaşdırılması üçün insanın müəssisədə hansı yerə iddealı olmasını, hansı rolu bacarmasını və yerinə yetirməyə hazır olmasını və nəhayət müəssisənin ona hansı rol verməyi nəzərdə tutmasını dəqiq bilmək lazımdır.

Üçüncüsü, insan və müəssisə arası qarşılıqlı təsirin qurulmasına rola görə yanaşmadan istisfadə edilməlidir. Belə ki, müəssisə insandan müəyyən rolun yerinə yetirilməsini gözləyir. Əgər müəssisə üzvü öz rolunu müvəffəqiyyətlə yerinə yetirirsə və əgər bu vaxt o müəssisədə öz fəaliyyətindən və müəssisə əhatəsilə oz qarşılıqlı təsirindən şəxsən razıdırsa onda insan ilə müəssisə arası qarşılıqlı təsiri pozan, konfiliktli ziddiyyətlər meydana çıxmır.

Ədəbiyyat

1. İsmayılov B.V. Strateji Menecment. Bakı,2018
2. Quliyev T.Ə.Menecmentin(idarəetmənin) əsasları.Dərslik, Bakı, 2005
3. Vəliyev D.Ə. «Karyera: şəxsi müvəffəqiyyətin strategiyası» Bakı,“Azərbaycan Universiteti”, 2005.

Резюме

Аббасова Н.Я.

Установление связей между людьми и предпрятиями

Человек не машина, и при выполнении любой работы проявляет свои личные качества и настроение, что неизбежно сказывается на количестве и качестве его труда. Если мы посмотрим на проблему взаимодействия людей и предприятий с точки зрения той роли, которую играет человек, то станет ясно, что значение его личностного характера не только очень велико, но во многих случаях может быть и значительным, иметь решающее значение во взаимодействии человека и предприятия.

***Ключевые слова**: предприятие, сфера деятельности предприятия, поведение человека, функции предприятия, ожидания предприятия, стратегическое управление*

Summary
Abbassov N.Y
Building Relationships Between People and Enterprises

Man is not a machine, and when he performs any work, he lives with all his personal qualities and mood, which inevitably affects the quantity and quality of his work. If we look at the problem of the interaction between people and the enterprise from the perspective of the role played by a person, it will be clear that the importance of his personal character is not only very great, but in many cases it can also be decisive in the interaction between a person and an enterprise.

***Key words**: enterprise, enterprise scope, human behavior, enterprise functions, enterprise expectations, strategic management*

QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİNİN MÖVCUD TENDENSİYALARI

Abbasova-Zeynalova Nuranə Nazim qızı
Mingəçevir Dövlət Universiteti
a.z.nurana@mail.ru

Xülasə: *Qeyri-neft sektorunun inkişafı makroiqtisadi sabitliyin əsasıdır. Müasir iqtisadi proseslər və tendensiyalar onu sübut edir ki, iqtisadiyyatın diversifikasiyasının, neft amilindən asılılığın azaldılmasının, biznes mühitinin təkmilləşdirilməsinin, sahibkarlığın inkişaf etdirilməsinin nəticəsi kimi iqtisadi stabillik və inkişaf əldə etmək olar. İqtisadi inkişafda qeyri neft-sektoru məhsullarının rəqabətə davamlı olması üçün atılan addımlar bazarda onların yerini xüsusi olaraq möhkəmləndirir. Müasir dövrün tələblərinə uyğun olaraq, əhalinin müxtəlif növ məhsullara (əmtəə və xidmətlərə) tələbinin artması və onların ödənilməsi nəticəsində ticarət və sosial xidmət sahələrinin sürətli inkişafı tendensiyası müşahidə edilir. Həmçinin nəqliyyat sektorunda müxtəlif infrastruktur layihələrinin reallaşdırılması, informasiya-kommunikasiya texnologiyalarının (İKT) və ondan səmərəli istifadənin inkişaf etdirilməsi sahəsində intensiv iş və islahatlar aparılır.*

***Açar sozlər:** qeyri-neft sektoru, iqtisadi tədqiqatlar, ixrac potensialı, yerli məhsulların rəqabətqabiliyyətliliyi, inkişaf tendensiyaları, xarici ticarət*

Müasir iqtisadiyyat son dərəcə mürəkkəbdir. İqtisadiyyatın necə və hansı prinsiplər əsasında qurulmasından asılı olaraq onun hansı vəzifələri həll edə biləcəyini, cəmiyyətin hansı maraqlarını, müxtəlif sosial qrupları qane edə biləcəyini müəyyənləşdirə bilərik. Hər bir müasir iqtisadi sistemin normal işləməsinin təmini işində mühüm rol dövlətə məxsusdur. Bütün tarix boyu dövlət nizam, qanunçuluğun qorunması və milli müdafiənin təşkili vəzifələri ilə yanaşı iqtisadi sahədə də müəyyən funksiyaları yerinə yetirmişdir. Mövcud iqtisadi doktrinalardan asılı olmayaraq, ölkənin iqtisadi vəziyyətinə görə milli hökumətlərin üzərindən məsuliyyəti götürmək olmaz. Beləliklə, iqtisadiyyatın dövlət tərəfinfən tənzimlənməsi ölkənin iqtisadi və sosial cəhətdən artması üçün vacibdir. Həm də dövlət iqtisadiyyatı tənzimləyərkən büdcə, vergilər, pul siyasəti, iqtisadi qanunvericilik və s. instrumentlərdən istifadə edir. Bütün iqtisadi sistemlərdə istisnasız olaraq dövlət iqtisadiyyatı bu və digər dərəcədə tənzimləyir. Müasir bazar iqtisadiyyatında bu cür tənzimləmə, məsələn, inzibati-amirlik sisteminə nisbətən daha aşağı səviyyədə olsa da, bu gün dövlətin iqtisadi rolu hələ də böyükdür.

Məlumdur ki, müəyyən bir ölkənin iqtisadi vəziyyəti əsasən onun sənayesinin artım səviyyəsindən asılıdır. İqtisadi müstəqilliyin təmin edilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi, əhali üçün layiqli həyat səviyəsinin təmin olunması, ətraf mühitin iqtisadi cəhətdən yaxşılaşdırılması və dünya iqtisadiyyatına bərabər və qarşılıqlı faydalı şərtlərdə inteqrasiya etməsi üçün strateji və taktiki vəzifələrin uğurla həll edilməsini müəyyənləşdirən ölkənin sənaye kompleksinin indiki vəziyyəti və inkişaf dinamikasıdır. Üstəlik, iqtisadiyyatın ən labüd sahəsi kimi sənayenin aparıcı rolu həm də sosial istehsalın bütün digər sahələrinin və komplekslərinin sənayeləşməsində həlledici faktor kimi çıxışı, onların texniki və texnoloji səviyyəsini, elmi-texniki bazanın və sahələr və sektorlararası komplekslərin vəziyyətini müəyyən etməsi ilə əlaqələndirilir.

Beləliklə, sənaye bu sahələrdə istehsalın həcminə fəal təsir göstərir, onların ölkənin ÜDM-də, dövlət büdcəsinin formalasmasında, işçi qüvvəsinin məşğulluq səviyyəsində iştirak dərəcəsini müəyyənləşdirir və nəticədə əhalinin hayat səviyyəsini və keyfiyyətini formalaşdırır. Buna görə dövlətin başlıca vəzifəsi yerli sənayeni qorumaq, inkişaf etdirmək və dəstəkləməkdir. Millətin iqtisadi həyatında, dövlətin iqtisadi siyasətində sənayenin inkişafı bir nömrəli prioritet olmalıdır.

Həqiqətən, milli sənaye, birincisi, müxtəlif mallara və xidmətlərə olan başlıca daxili ehtiyacları təmin etməli, ikincisi, idxalla uğurla rəqabət aparmalı, üçüncüsü, ixrac üçün rəqabətqabiliyyətli məhsulların istehsalını təmin etməlidir. Bunun üçün bazar rəqabətini əks etdirən və gələcək tələbə uyğun sənayenin inkişafının təsirli sahələrinin formalaşmasına kömək edən mallara tələb və təklifin hərtərəfli təhlilini aparmaq lazımdır. Bazar amilləri sənayenin inkişafı üçün mayak rolunu oynayır və buna görə sənayenin gələcək quruluşunu təyin edərkən aşağıdakı faktorların təsiri nəzərə alınmalıdır:

- məhsul bazarlarında məhsul və xidmətlərə olan ehtiyac;
- rəqabətqabiliyyətli məhsullarla dünya bazarlarına çıxmaq imkanı;
- sənayenin üstünlük təşkil edən texnoloji ixtisası;
- rəqabətli məhsul istehsalı üçün sənayenin inkişafında müəssisələrin, dövlətin, ticarət strukturlarının investisiya imkanları.

İqtisadiyyatın dövlət tənzimlənməsi - cəmiyyətin və dövlətin maraqlarını reallaşdırmaq məqsədi ilə iqtisadi proseslərin sabit və effektli inkişafını təmininə yönəlmiş, icra, məhkəmə, qanunverici orqanları tərəfindən təmsil olunan dövlətin tədbirlər məcmusudur. Dövlət tənzimləməsinə planlaşdırma, proqnozlaşdırma, maliyyələşdirmə, büdcə, borc vermə, vergi, idarəetmə, mühasibat uçotu, nəzarət kimi komponentlər daxildir [1].

Dövlətin iqtisadı siyasəti iqtisadi sistemin vəziyyətini, var olan sosial-iqtisadi problemllərin öyrənilməsinə və təhlilinə, habelə bu problemlərin aradan qaldırılması və ya nəticələrinin yaxşılaşdırılması üçün mövcud imkan və ehtiyatlar nəzərə alınmaqla zəruri tədbirlərin sonrakı tətbiqinə əsaslanır. Dövlət idarəetməsinin məqsədi cəmiyyətin və dövlətin müəyyən bir səviyyəsinə, onların inkişaf perspektivlərinə uyğun olaraq nail olmaq üçün maksimum yaxşı şərait yaratmaqdır. Dövlət idarəçiliyinin məqsədlərini strukturlaşdırarkən, hər bir əvvəlki hədəfin növbəti birini təyin etdiyi bir sistem kimi dövlətin tarixi inkişaf prosesinin məntiqindən çıxış etmək lazımdır. Təbii ki, ümumi məqsədlə yanaşı, dövlət bir çox digər vacib məqsədlər də güdür ki, bunların da hamısının başlıca hədəfi inkişafla bağlıdır.

İqtisadi sahədə dövlət idarəetməsinin məqsədləri ölkənin iqtisadi artımının uzunmüddətli strategiyasını müəyyən etmək, vətəndaşların maddi rifahının həqiqi və davamlı böyüməsini dəstəkləmək üçün münbit şərait yaratmaqdır.

Dövlət idarəçiliyinin məqsədlərinin həyata keçirilməsi, idarəetmə, tənzimləmə və nəzarət edilən subyektlərin standart fəaliyyətlərinin bir-biri ilə əlaqədar bir dəsti vasitəsilə həyata keçirilir. Dövlət idarəçiliyinin məqsədlərinə nail olunması səlahiyyətli dövlət və sosial qurumlar tərəfindən tənzimlənən və idarə olunan idarəetmə subyektinin standartlaşdırılmış fəaliyyətinin qarşılıqlı əlaqəli bir dəsti vasitəsilə realizə olunur. Cəmiyyətin fərqli inkişaf mərhələlərində iqtisadiyyatın dövlət tənzimlənməsinə ehtiyac birmənalı olaraq qarşılanmadı. Dövlət tənzimlənməsi, inzibati amirlik idarəetmə sistemində olduğu kimi iqtisadi sahənin də tamamilə mənimsənilməsini nəzərdə tutmur.

İqtisadiyyatda istehsal sənayesi onunla hesablaşmağı tələb edən bir qüvvədir. Reallıq budur ki, iqtisadiyyatda müəyyən maneələr olmadıqda istehsalın daha çox inkişaf potensialı mövcud olur. İstehsalçıların üzləşdikləri ən böyük problemlər arasında tənzimləyici proseslər, digər bəzi ölkələrlə müqayisədə qeyri-bərabər vergi sistemi və bir sıra hallarda xarici hökumətlər tərəfindən bəzi sənaye sahələrinə ayrılan haqsız subsidiyalar var. İstehsalçılar tənzimləmə yolu ilə təhlükəsiz və sağlam bir iş mühitinin təmin edildiyini qəbul edirlər. Lakin, qaydaların mürəkkəbliyi istehsal əməliyyatları üçün lazımsız qaydaların təkrarlanması, zəif hazırlanması və nəticəsiz qalması ilə nəticələnir [2].

İqtisadiyyatda gedən proseslərə dövlət müdaxiləsinin zəruriliyi haqqında müasir fikirlər müxtəlif elm və müəlliflərin fikirlərinin cəminə əsaslanır. R.A.Kuçukovun fikrincə, bu gün dövlətin iqtisadiyyatdakı rolunun formalaşdırılması və öyrənilməsi iqtisadi təhlilin ayrılmaz hissəsidir. Dövlət tənzimlənməsinin başlıca rolu iqtisadi proseslərin birbaşa və dolayı tənzimləyicilərindən və metodlarından istifadə etməkdir. Yerli iqtisad elmi indi yeni bir mərhələyə keçir: o, əslində 90-cı illərin əvvəllərində mübarizə ilə əlaqəli iqtisadiyyatın dövlət tənzimlənməsinin tamamilə inkar edilməsindən, inzibati idarəetmə sistemindən 1990-cı illərin sonlarında iqtisadiyyatın dövlət tənzimlənməsi mövzusuna qayıtmaq məcburiyyətində qaldı. Başqa sözlə, demək olar ki, 10 illik dağıdıcı bazar dəyişikliklərindən sonra dövlətin iqtisadi rolunun gücləndirilməsi zəruriliyi qəbul olunmağa başladı. İndi qəti şəkildə deyə bilərik ki, 1990-cı illərdə sürətlənmiş islahatların ən vacib xüsusiyyəti milli maraqların özəl maliyyə qruplarının maraqlarına "keçidi", dövlət qurumlarının xüsusi-korporativ qurumlar tərəfindən yüksək səviyyədə özəlləşdirilməsidir. İqtisadiyyatın və bütövlükdə cəmiyyətin bazar iqtisadiyyatına keçidi prosesində dövlətin rolunun kəskin şəkildə zəifləməsi, əlbəttə ki, təsadüfi deyildi, əksinə, bir tərəfdən planlı iqtisadiyyata adekvat olan qurumların sürətlə məhv edilməsinin, digər tərəfdən isə bazar strukturlarının və qurumlarının deformasiyaya uğramasının nəticəsi idi.

Bazar münasibətlərinə keçid ilə əlaqədar iqtisadi islahatlar aparıldıqda, yəni əmlak, maddi istehsal, əmək bazarı və maliyyə bazarında islahatlar aparılarkən dövlət tənzimlənməsi xüsusilə vacibdir. Ərazi

tənzimlənməsində, bölgələrarası və rayonlararası nisbətləri müəyyənləşdirməkdə, bölgələrin sosial-iqtisadi inkişaf səviyyələrini düzəltməkdə və regional bazarların formalaşmasında dövlət tənzimlənməsinin rolu çox vacibdir. Dövlət bazar münasibətlərinin başlıca məqsədinə - sosioloji xarakterə, əhalinin rifahının artırılmasına uyğun olaraq iqtisadiyyatın struktur tənzimlənməsini həyata keçirməlidir. Dövlət tənzimlənməsi- sivil biznesin davranışının başlıca tənzimləyicisidir və ölkə əhalisinin sosial bərabərsizliyinin nisbi səviyyədə qurulmasına şərait yaradır [2].

Həqiqətən də, hazırda maliyyə və büdcə siyasətini həyata keçirməyən, vergi prosedurlarını tənzimləməyən, mövcud sosial və iqtisadi problemləri aradan qaldırmadığı, əhalinin həyat səviyyəsinə nəzarət etmədiyi bir cəmiyyət təsəvvür edilməz. Ona görə xalqın sosial-iqtisadi həyatını tənzimləmək məqsədilə dövlət qurumlarının fəaliyyətini yaxşılaşdırmaq üçün səyləri cəmləşdirmək lazımdır. Cəmiyyətin inkişafı ilə, maddi-texniki bazada mütərəqqi dəyişikliklər, təsərrüfat subyektləri arasındakı iqtisadi əlaqələrin mürəkkəbliyi, ictimai həyatın müxtəlif sahələrinin aktuallaşması və inteqrasiya proseslərinin intensivləşməsi ilə bu funksiyalar daha da artır. Cəmiyyətin vəziyyəti və inkışafı ilə əlaqədar keyfiyyətcə yeni funksiyalar yaranır. İqtisadçılar xüsusilə aşağıdakı funksiyaları önə çəkirlər:

- dəqiq müəyyən edilmiş sənaye siyasətini yürütmək;
- texnologiyaların inkişafı və onun ölkədə tətbiqi üçün sənayenin və bölgələrin inkişafını stimullaşdıran xüsusi iqtisadi zonaların yaradılması;
- sərhədlərin müəyyənləşdirilməsi və dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi.

Sənayenin fəaliyyətinin son nəticələri malların və satışların bazar mübadiləsi sahəsində dövlətin istehsal və sosial problemlərinin həlli ilə özünü göstərir. İqtisadiyyatın dövlət tənzimləmməsinin subyektləri ənənəvi şəkildə dövlət orqanları və hökumətlərdir. Bütün ölkələrdə iqtisadi və cəmiyyətin digər sahələrinin dövlət tərəfindən tənzimlənən effektli, ənənəvi alətləri müxtəlif qanuni aktlara, müxtəlif hüquqi formalara çevrilmək məcburiyyətində olan vergilər, rüsumlar, standartlar, dövlət sifarişləri, hər növ tariflər və s. bu kimi dövlət təsiri vasitələrinin istifadəsi ilə nəinki dövlət büdcəsinin doldurulması, həmçininn müxtəlif dövlət proqramlarının maliyyələşdirilməsi, dövlət aparatının saxlanılması, ordu, polis və s. məsələlər həll olunur.

Effektiv tənzimləmənin müsbət təsir göstərməsi üçün müvafiq strategiya hazırlanmalı və icra edilməlidir. Qaydalar zəruridir, lakin onlar şəffaf və qənaətcil olmalıdırlar. Mövcud qaydalar müntəzəm olaraq yoxlanılarsa, köhnə və səmərəsiz siyasət yeni qanunvericilik tətbiq olunmazdan əvvəl aradan qaldırıla bilər [3].

Ədəbiyyat

1. Allahverdiyev H, Qafarov K, Əhmədov Ə. “Milli iqtisadiyyatın dövlət tənzimlənməsi”. Bakı: ADİU, 2017, 215 s.

2. Alıyev İ.H, Məmmədov Y.Ə. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının tətbiqi Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf proqramı. Bakı: “Avropa”, 2014 134 s.

3. Əliyev T.N. Azərbaycanın qeyri-neft sənaye sektorunda innovasiya prosesinin investisiya təminatı. “İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər” mövzusunda BEPK-nın materialları. Sumqayıt, “DSK”, 2016, s. 40-43.

Резюме

Аббасова-Зейналова Н.Н.

Существующие тенденции регулирования развития ненефтяного сектора

Ненефтяной сектор является основой макроэкономической стабильности. Современные экономические процессы и тенденции доказывают, что экономическая стабильность и развитие могут быть достигнуты в результате диверсификации экономики, снижения зависимости от нефтяного фактора, улучшения деловой среды, развития предпринимательства. Предпринимаемые шаги по повышению конкурентоспособности продукции ненефтяного сектора в экономическом развитии укрепляют ее позиции на рынке. В соответствии с требованиями современной эпохи наблюдается тенденция стремительного развития сферы торговли и социального обслуживания в результате увеличения спроса населения на различные виды продукции (товаров и услуг) и их оплаты. Также ведется интенсивная работа и реформы в сфере реализации различных инфраструктурных проектов, развития информационно-коммуникационных технологий (ИКТ) и их эффективного использования в транспортной сфере.

Ключевые слова: *ненефтяной сектор, экономические исследования, экспортный потенциал, конкурентоспособность местных продуктов, тенденции развития, внешняя торговля*

Summary
Abbasova-Zeynalova N.N.
Current Tendencies of Non-Oil Sector Development Regulation

The non-oil sector is the basis of macroeconomic stability. Modern economic processes and trends prove that economic stability and development can be achieved as a result of diversifying the economy, reducing dependence on the oil factor, improving the business environment, and developing entrepreneurship. The steps taken to make non-oil sector products competitive in economic development strengthen their place in the market. In accordance with the requirements of the modern era, the trend of rapid development of trade and social service areas is observed as a result of the increase in the population's demand for various types of products (goods and services) and their payment. Also, intensive work and reforms are being carried out in the field of implementation of various infrastructure projects, development of information and communication technologies (ICT) and its efficient use in the transport sector.

Key words: *non-oil sector, economic researches, export potential, competitiveness of local products, development trends, foreign trade*

MİQRASİYANIN ÖLÇÜLMƏSİ METODLARI: ƏDƏBİYYATLARA BAXIŞ

Ağayarova Akifə Akif qızı
İqtisadiyyat İnstitutu
akifaaqayarova1980@gmail.com

Xülasə: *Məqalədə miqrasiya prosesini iqtisadi nöqteyi-nəzərdən öyrənən əsas nəzəriyyələr və bu nəzəriyyələrin əsaslandığı determinantların müqayisəli təhlili aparılır. Miqrasiyanın neoklassik nəzəriyyəsinə əsasən, əsas determinantlar kimi miqrantların sayı, minimum əmək haqqı ilə bağlı qanunvericiliyin tələbləri, həmçinin ölkələrdə əmək miqrasiyası ilə bağlı qanunvericiliyin tələbləri götürülə bilər. Müasir iqtisadi şəraitdə əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsi determinant olaraq əməkhaqqı səviyyələri arasındakı fərqi əsas götürür.*

Açar sözlər: *iqtisadiyyat, inkişaf, miqrasiya, sosial, əmək*

Müasir dövrə xas olan, iqtisadi, siyasi, sosial və sair təsirləri olan hadisədir. Hər bir ölkə miqrasiyanın tənzimlənməsi yolu ilə onun mənfi təsirlərini azaltmağa və müsbət təsirlərini inkişaf etdirməyə çalışırlar. Belə tədbirlərin həyata keçirilməsi miqrasiyanın əsas determinantlarının müəyyən edilməsini və bu determinantların ayrı-ayrılıqda və ya sistem olaraq tənzimlənməsi yolu ilə reallaşır. Odur ki, bu tədqiqatda biz bir neçə sualın cavabını axtarmağa çalışacağıq. Birinci sual ondan ibarətdir ki, iqtisadi ədəbiyyatda miqrasiya, bir proses olaraq, nəzəri cəhətdən necə xarakterizə olunmuşdur, yəni iqtisadi ədəbiyyatda miqrasiya nəzəriyyələri bir-birindən necə fərqləndirilir? İkinci sual ondan ibarətdir ki, iqtisadi ədəbiyyatda beynəlxalq miqrasiyanın hansı determinantları fərqləndirilir və miqrasiya nəzəriyyələrində bu determinantlar arasında fərqlər varmı? Üçüncü sual ondan ibarətdir ki, miqrasiyanın tənzimlənməsinin mahiyyəti nədən ibarətdir? Nəhayət, dördüncü sual miqrasiyanın tənzimlənməsinin miqrasiyanın determinantlarına necə təsir göstərməsi ilə bağlıdır.

Qeyd edək ki, bu sualların hər biri iqtisadi ədəbiyyatda geniş müzakirə edilir, lakin hər biri üzrə birmənalı qəbul edilən cavablar yoxdur. Bunun əsas səbəbi təkcə miqrasiya prosesi və onun determinantları ilə bağlı statistik məlumatların məhdudluğu ilə bağlı deyil, həm də nəzəri modellərin hələ də mükəmməl olmaması ilə bağlıdır. Digər tərəfdən, miqrasiya proseslərinin tədqiqatında mühüm problem həm də miqrasiya və onun determinantları ilə bağlı dövlət siyasəti ilə miqrasiyanın bütövlükdə və ya onun hər hansı aspektinin akademik və nəzəri tədqiqatı arasındakı əlaqənin zəif olmasıdır. Başqa bir problem miqrasiyanın iqtisadi aspektləri ilə digər aspektlər, məsələn, siyasi, sosial, psixoloji, demoqrafik və sair aspektlər arasındakı əlaqənin nəzəri tədqiqatlara daha az cəlb edilməsi və ya belə tədqiqatlar üçün müvafiq metodologiyanın olmamasıdır. Bunları nəzərə alaraq, biz də yalnız bu suallara olan mövcud cavabların müqayisəli təhlilini aparmağa cəhd edəcəyik.

Miqrasiya prosesi insan cəmiyyəti yaranandan mövcud olsa da elmi araşdırmaların predmeti olaraq, nəzəri səviyyədə tədqiqi qədim tarixə malik deyil. Bu günə qədər beynəlxalq miqrasiya proseslərinin birmənalı qəbul edilən nəzəriyyəsi mövcud deyil. Lakin miqrasiyanın bu və ya digər aspektlərini prioritet hesab edən müxtəlif nəzəriyyələr işlənmişdir. Bu nəzəriyyələrdən biri Miqrasiyanın Ravenşteyn Qanunudur. Görkəmli ingilis çoğrafiyaçısı E.Ravenşteyn miqrasiya ilə bağlı elmi ədəbiyyatda “Miqrasiyanın Ravenşteyn

Qanunu” kimi tanınan 11 tezisi 1885-ci ildə özünün Londonun Statistik Cəmiyyəti jurnalında dərc edilən “Miqrasiyanın qanunları” məqaləsində verir. O, böyük insan kütləsinin bir yerdən digər yerə köç etməsinin səbəblərini elmi cəhətdən əsaslandırmağa çalışmışdır -(Ravenstein E.G. The Laws of Migration // Journal of the Statistical Society of London, Vol. 48, No. 2. (June, 1885)).

Qeyd edək ki, Ravenşteyn qanunlarının əsasında “səpələnmə” və “hopdurma” və ya “udma” konsepsiyası dayanır. O ölkədən insanlar gedirlər ki, o ölkədə iqtisadiyyat zəifdir və insanların həyat şəraiti digər ölkələrlə müqayisədə pisdir. Bu halda “səpələyənməyə” meyilli və “səpələnmə” imkanında olan insanlar daha yüksək həyat şəraitinə malik ölkələrə miqrasiya edirlər. Miqrantları cəlb edən və ya onları “hopduran” və ya “udan” ölkələrdə iqtisadi inkişaf yüksək olur və bu ölkələrin miqrantların gəlişinə əlavə ehtiyacları yaranır. Ravenşteyn qanunlarının ikinci mühüm cəhəti ondan ibarətdir ki, miqrasiya prosesləri məsafədən asılıdır və məsafə çoxaldıqca miqrasiya azalır.

Miqrasiyanın Ravenşteyn Qanunlarının 1-ci tezisində deyilir ki, ərazilər arasında əhali qeyri-bərabər paylandığından vaxtaşırı yenidən paylanma prosesi gedir. Məhz miqrasiya nəticəsində əhalinin yenidən paylanması müxtəlif regionların iqtisadi inkişafına təkan verir. Əgər dövlət regionlar üzrə əhalinin paylanmasına səmərəli nəzarət edərsə bu, əmək məhsuldarlığının artmasına və regionların sürətli inkişafına təkan verə bilər.

İkincisi, regionlar iqtisadi xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Hər bir regionun digərlərinə nisbətən müqayisəli və ya mütləq üstünlüyü ola bilər. Regionun coğrafi mövqeyi, onun təbii resurslarla zənginliyi, iqlim üstünlüyü və sair mövcud ola bilər.

Ravenşteyn qanunlarına əsasən, miqrasiya mərhələli şəkildə baş verir. Bu prosesi demək olar ki, həm hər bir ölkənin timsalında, həm də qlobal səviyyədə müşahidə etmək mümkündür. Belə ki, hər bir ölkənin daxilində baş verən miqrasiya prosesində kiçik yaşayış məskənlərindən, xüsusilə, kəndlərdən şəhərlərə köç mərhələli olur. Hətta asanlıqla müşahidə etmək olar ki, bir neçə onilliklər ərzində hər hansı kəndin əhalisinin sayında ciddi dəyişikliklər baş verməyib. Gənclərin hər il ali təhsil almaq üçün böyük şəhərlərə getməsi və ya ölüm halları nəticəsində əhalinin azalan hissəsi yeni doğulanlarla kompensasiya olunur.

Ravenşteyn qanununa əsasən miqrasiya prosesləri nəticəsində hər hansı regionda əhali artımı bu ərazilərdə əks prosesin, yəni əhalinin digər qruplarının ərazini tərk etməsinə səbəb olur. Tarixən belə proseslər hər hansı ərazidə yerli əhalinin miqrantların təzyiqi nəticəsində öz yerlərini dəyişməsinə səbəb olub. Bu proses bəzi hallarda hiss edilməyəcək dərəcədə yavaş gedən proses olur.

Miqrantlar adətən uzun məsafələri yalnız o zaman qət edirlər ki, iqtisadi cəhətdən daha inkişaf etmiş regionlara və ya böyük şəhərlərə gəlsinlər. İnkişaf etmiş regionlarda miqrasiya etməklə insanlar öz iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq məqsədi daşıyırlar. Şübhəsiz ki, bütün dövrlərdə böyük şəhərlərin daha geniş imkanlar yaratması stereotipi indi də mövcuddur. Böyük şəhərlərdə işlə təminat imkanı daha realdır.

Ravenşteyn qanunlarına əsasən, şəhər əhalisinin miqrasiya etmək arzusu, kənd əhalisinə nisbətən daha azdır. Heç bir zorakılıq halları, məsələn, müharibə və terror təhlükəsiz olmadığı hallarda şəhər əhalisinin kəndlərə köç etməsi demək olar ki, baş vermir. Əksinə kənd əhalisinin şəhərlərə axını demək olar ki, bütün ölkələrdə arasıkəsilmədən baş verən hadisədir. Eyni ilə də inkişaf etməkdə olan, az gəlirli ölkələrdən daha yüksək gəlirli ölkələrə, siyasi cəhətdən gərgin ölkələrdən daha sabit siyasi sistemi olan ölkələrə əhalinin yerdəyişməsi baş verir.

Ravenşteyn qanununa əsasən, böyük şəhərlər məhz miqrasiya nəticəsində böyüyürlər. Belə böyümə öz növbəsində yeni miqrasiya axınını cəlb edir. Çünki şəhər böyüdükcə onun iqtisadi imkanları da genişlənir, ora daha çox kapital yönəlir və sənaye inkişaf edir. Sənaye inkişaf etdikcə xidmət sektoru da genişlənir və sair.

Ravenşteyn qanunlarına əsasən miqrasiyanın əsasında regionlararası, ölkələrarası iqtisadi inkişaf fərqləri dayanır. Hətta bəzən miqrasiya üçün ciddi əsas olan digər hadisələrin də, məsələn, müharibə və terror hadisələrindən də əsasında, dolayısı ilə, iqtisadi səbəblər dayanır.

Beləliklə, Miqrasiyanın Ravenşteyn qanunlarını qısa olaraq belə ifadə etmək olar: 1) miqrasiya əsasən qısa məsafələrdə baş verir; 2) miqrasiya mərhələlərlə baş verir; 3) uzunmüddətli miqrasiya şəhərlərə yönəlir; 4) hər bir miqrasiyanın əks istiqamətli nəticələri olur; 5) kənd əhalisi şəhər əhalisinə nisbətən daha çox miqrasiya edir; 6) ölkədaxili miqrasiyada qadınlar daha üstünlük təşkil edirlər; 7) miqrantların əsas hissəsi yaşlı əhalidir; 8) böyük yaşayış məskənləri təbii artıma nisbətən daha çox miqrasiyanın hesabına böyüyürlər; 9) miqrasiya iqtisadi inkişafla bağlı olaraq artır; 10) əsas miqrasiya axını kəndlərdən şəhərə yönəlib; 11) miqrasiya əsasən iqtisadi səbəblərlə bağlıdır.

Miqrasiyanın Ravenşteyn qanunlarını əsas götürərək miqrasiyanın əsas determinantları kimi

1) ölkələrarası məsafəni; 2) kənd əhalisinin orta gəlirləri ilə şəhər əhalisinin orta gəlirləri arasındakı fərqi; 3) ölkələrarası həyat keyfiyyəti arasındakı fərqləri; 4) ölkələrarası minimum əmək haqqı səviyyəsini;

5) təhsil və səhiyyə xərcləri arasındakı fərqləri; 6) təhsil və səhiyyə xidmətləri arasındakı fərqləri; 7) adambaşına ÜDM fərqlərini və sair götürmək olar.

Ravenşteyn qanunlarında miqrasiya üçün ölkələrarası məsafə deyiləndə yalnız fiziki məsafə nəzərdə tutulurdu. Lakin miqrasiya üçün hazırda "məsafə" anlayışı hazırda xeyli dəyişib. Burada ölkələrarası dil fərqləri, dini fərqlər, mədəniyyət fərqləri də müəyyən "məsafə" yaradır. Belə ki, iqtisadi amillərlə yanaşı dil, din və mədəniyyət yaxınlığı miqrasiya prosesinə ciddi təkan verə bilər. Müasir şəraitdə insanlar az hallarda yalnız fiziki və bioloji varlıqlarını qoruyub saxlamaq, təhlükəsiz mühitdə yaşamaq məqsədilə miqrasiya edirlər. Bu hallar yalnız müharibədən, terrordan qorunmaq və ya zorən ölkələrindən qovulan insanlara aiddir. Məsələn, 1989-cu ildə yüz minlərlə Azərbaycanlı əhalinin Ermənistandan zorla qovulması, 2003-cü il müharibəsi zamanı minlərlə insanın İraqdan, 2011-ci ildən sonra yüz minlərlə Suriyalının Türkiyəyə miqrasiyası iqtisadi amillərlə şərtlənmirdi və belə miqrasiya halları zamanı əsas məqsəd fiziki təhlükəsizliyin qorunmasıdır. Lakin "azad miqrasiya" zamanı miqrantlar daha çox iqtisadi amilləri əsas götürürlər və bu zaman getdikləri ölkədə cəmiyyətə inteqrasiya məsələləri mühüm əhəmiyyət daşıyır.

Miqrasiya proseslərinin determianatlarına əsaslanaraq ədəbiyyatda miqrasiyanın müxtəlif növlərini fərqləndirirlər -(Jennissen, R. P. W. (2004). Macro-economic determinants of international migration in Europe. Amsterdam: Rozenberg Publishers).

1) Əmək miqrasiyası (labour migration); 2) geri qayıtma ilə bağlı miqrasiya (return migration); 3) zəncirvari miqrasiya (chain migration); 4) qaçqınlıqla bağlı miqrasiya (Asylum migration). Yuxarıda qeyd etdiyimiz kimi əmək miqrasiyası bir ölkədən bigər ölkəyə iş axtarmaq məqsədilə insanların axınıdır. Adətən belə miqrantlar arasında aşağı ixtisaslı işçilər üstünlük təşkil edir. Lakin bu qrupa yüksək ixtisaslı kadrları da əlavə edə bilərik. Belə miqrasiya "zəka axını" kimi qiymətləndirilə bilər. Əgər miqrant öz ölkəsinə qayıdaraq orada heç olmazsa bir il yaşayırsa, belə miqrasiya "geri qayıtma ilə bağlı miqrasiya" hesab olunur . Əgər miqrant ailə qurmaq məqsədilə bir ölkədən digərinə gedirsə və orada ailə qurursa, belə miqrasiya zəncirvari miqrasiya adlanır. Öz ölkəsindən müxtəlif səbəblərə görə qaçaraq digər ölkədə sığınacaq almaqla bağlı miqrasiya "qaçqınlıqla bağlı miqrasiya" adlanır. Bu dörd növ miqrasiyanın hər biri müxtəlif determinantlarla xarakterizə olunur və onların dövlət tənzimlənməsi mexanizmləri də fərqlidir.

Miqrasiyanın neoklassik nəzəriyyəsinə əsasən, əsas determinantlar kimi miqrantların sayı, minimum əmək haqqı ilə bağlı qanunvericiliyin tələbləri, həmçinin ölkələrdə əmək miqrasiyası ilə bağlı qanunvericiliyin tələbləri götürülə bilər. Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsində əmək haqqı səviyyələri arasındakı fərq mühüm determinant kimi götürülə bilər.

Ədəbiyyat

1. Ravenstein E.G. The Laws of Migration // Journal of the Statistical Society of London, Vol. 48, No. 2. (June, 1885), pp. 167–235

2. Jennissen, R. P. W. (2004). Macro-economic determinants of international migration in Europe. Amsterdam: Rozenberg Publishers

3. Arango, J. (2000). Explaining migration: acritical view. International social science journal, 52(165), pp. 283-296

4. De Jong, G. F., & Fawcett, J. T. (1981). Motivation for migration: An assessment and a value-expectancy research model. In G. F. De Jong & R. W. Gardner (Eds.), Migration decision making: Multidisciplinary approaches to microlevel studies in developed and developing countries (pp. 13–58). New York: Pergamon Press.

5. De Haas, H. (2010b). Migration and development: a theoretical perspective1. International migration review, 44(1), pp. 227-264

6. Faist, T., & Faist, T. (2000). The volume and dynamics of international migration and transnational social spaces. Oxford: Oxford University Press

7. Gülalıyev Mayıs, (2018). Xarici iqtisadi əlaqələr: tənzimləmə ilə liberallığın tarazlığı. (Yenidən işlənmiş ikinci nəşr). "Elm və bilik" nəşriyyatı, Bakı, 2018, 382 səh.

8. Hammar, T., Brochmann, G., Tamas, K., & Faist, T. (1997). International Migration Immobility and Development: Multidisciplinary Perspectives. London: Bloomsbury Academic

9. Harris, J. R., & Todaro, M. P. (1970). Migration, unemployment and development: a two- sector analysis. The American economic review, pp. 126-142

10. Hart R.A., (1975). İnterregional economic migration: some theoretical considerations (part II). Journal of Regional Science. Volume15, Issue3 December 1975 Pages 289-300. https://doi.org/10.1111/j.1467-9787.1975.tb00932.x

11. Lewis, W. A. (1954). Economic Development with Unlimited Supplies of Labour. Retrieved from http://www.globelicsacademy.net/2008/2008_lectures/lewis%20unlimited%20 labor%

20supply%201954.pdf
12.Massey, D. S., Arango, J., Hugo, G., Kouaouci, A., Pellegrino, A., & Taylor, J. E. (1993). Theories of international migration: a review and appraisal. Population and development review, 19 (3), pp. 431- 466
13.Piore, M., Birds of Passage. Migrant Labor and Industrial Societies, Cambridge University Press, Cambridge, 1979
14.Stark O. and Bloom D, (1985). The New Economics of Labor Migration. Vol. 75, No. 2, Papers and Proceedings of the Ninety-Seventh Annual Meeting of the American Economic Association (May, 1985), pp. 173-178
15.Todaro, M. P. (1976). Internal Migration in Developing Countries: A Survey. In R.A. Easterline (Ed.), Population and Economic Change in Developing Countries (pp.361-402). Chicago: University of Chicago Press

Резюме
Агаярова А.А.
Методы измерения миграции: обзор литературы
В статье представлены основные теории, изучающие миграционный процесс с экономической точки зрения, и сравнительный анализ детерминант, на которых основаны эти теории. Исходя из неоклассической теории миграции, в качестве основных детерминант можно взять количество мигрантов, требования законодательства о минимальной заработной плате, а также требования законодательства о трудовой миграции в странах. В современных экономических условиях новая экономическая теория трудовой миграции в качестве детерминанты берет за основу разницу уровней заработной платы.
Ключевые слова: *экономика, развитие, миграция, социальная, труд*

Summary
Aghayarova A.A.
Migration Measurement Methods: Literature Review
The article presents the main theories studying the migration process from an economic point of view, and a comparative analysis of the determinants on which these theories are based. Based on the neoclassical theory of migration, the number of migrants, the requirements of legislation on minimum wages, as well as the requirements of legislation on labor migration in countries can be taken as the main determinants. In modern economic conditions, the new economic theory of labor migration takes as a determinant the difference in wage levels.
Key words: *economy, development, migration, social, labor*

İNVESTİSİYA QOYULUŞLARININ SOSİAL-İQTİSADİ MAHİYYƏTİ VƏ İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN QISA NƏZƏRİ TƏHLİLİ

Aslanov Habil Hüseyn oğlu, Eyvazov Zöhrab Səməd oğlu
Bakı Dövlət Universiteti
dosent1966@mail.ru; zohrab.eyvazoff@mail.ru

Xülasə: *İqtisadi artım elementlərindən olan investisiyaların iqtisadi səmərəliliyi məsələsi mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, indiki şəraitdə iqtisadi inkişafın əsas məqsədlərindən biri investisiyalardan istifadənin səmərəliliyinin yüksəldilməsidir. İnvestisiyaların sosial – iqtisadi mahiyyəti onun səmərəliliyi ilə müəyyən olunur, həmçinin bu iqtisadi səmərəlilik Ümumi milli gəlir və Ümumi daxili məhsul göstəricilərindən istifadə etməklə müəyyən edilir. İqtisadiyyata investisiyaların faktiki iqtisadi səmərəliliyi hesablanarkən, onların hər bir manatına orta hesabla hansı miqdar Ümumi daxili məhsulun artımını təmin etməsi əsas götürülür. Məqalədə bu və digər məsələlərin qısa nəzəri təhlili verilmişdir.*
Açar sözlər: *investisiya, iqtisadi artım, davamlı inkişaf, investisiya mühiti, investisiya cəlbediciliyi, işğaldan azad olunmuş ərazi*

İlk növbədə qeyd etmək istəyirəm ki, investisiya (latınca “invest” sözündən olub, tərcüməsi “geyindirirəm” mənasını verir) iqtisadiyyatın inkişaf etdirilməsində mühüm rol oynayan iqtisadi vasitədir.

İnvestisiya eyni zamanda müəyyən sosial iqtisadi səmərə əldə olunması məqsədi ilə bu və digər fəaliyyət növlərinə uzun müddətə maddi, maliyyə və əqli sərvətlərdən ibarətdir.

Buradan aydın olur ki, investisiya bir anlayış kimi iqtisadi səmərə əldə olunmasını nəzərdə tutan vəsait qoyuluşlarını əhatə edir. İqtisadi səmərə əldə olunması məqsədi ilə vəsait qoyuluşlarına maddi dəyərlilər olmaqla pul vəsaitləri, qiymətli kağızlar, texnologiyalar və s.aid edilir. Bütün bunlar istehsalın imkanlarının artırılmasına , son nəticədə iqtisadi artımın genişləndirilməsinə gətirib çıxarır [4, səh.175].

Məhz investisiyaların tətbiqi ilə ölkənin milli sərvətinin artımı təmin edilir. Həmçinin gələcəyə qoyulan vəsait kimi, investisiyalar eyni zamanda inzan kapitalına istiqamətlənir.

Qeyd edim ki, bütövlükdə investisiyalar ölkənin makroiqtisadi sistemində bir tərəfdən məcmuu tələbə kəskin şəkildə təsir göstərə bilir ki, bu da öz növbəsində həm istehsala , həm də məşğulluğa əhəmiyyətli dərəcədə təsir etmək imkanına malikdir. Digər tərəfdən investisiya lar kapital kapital yığımının artımına gətirib çıxarır. Bu isə öz növbəsində uzun müddətə iqtisadiyyatda artımın təmin edilməsinə şərait yaradır. Bütövlükdə qeyd edə bilərik ki, investisiyalar əvvəldə bildirildiyi kimi iqtisadiyyatda ikili rol oynamaqla qısa zaman ərzində istehsala məcmuu tələb ilə təsir edir. Bu proses uzun müddətə də həm istehsala , həm də məcmuu təklifə təsir göstərmək imkanına malikdir.

İnvestisiya fəaliyyəti investisiya mühiti ilə bağlıdır. İnvestisiya cəlb ediciliyi ölkədə formalaşan investisiya mühiti ilə müəyyən edilir. İnvestisiya mühiti milli iqtisadiyyat çərçivəsində formalaşan ümumi işgüzar mühitin ayrılmaz tərkib hissəsidir. İnvestisiya mühiti həm hüquqi, həm də iqtisadi sahəni əhatə edir.

İnvestisiyanın iqtisadi inkişafın təmin olunması istiqamətində onun səmərələşdirici rolunun müəyyən edilməsi baxımından müxtəlif nəzəriyyələr formalaşmışdır. Bu nəzəriyyələr ənənəvi olaraq - neoklassik, neokeyns, marksist və müsir nəzəriyyələrə isə - TMK konsepsiyası, portfel investisiyası nəzəriyyəsi, kapital qaçışı nəzəriyyəsi aiddir [2, səh.98].

Məlum olduğu kimi, Investisiya ilə mühüm makroiqtisadi göstərici olan ÜDM arasında da qarşılıqlı əlaqə mövcuddur. Məhz investisiya qoyuluşlarının artımı ilə ÜDM-un artımı arasındakı əlaqəni xarakterizə ediən nəzəriyyə Kembric məktəbinin yaradıcısı A.Marşalın, A.Piqunun tələbəsi, həmçinin davamçısı olan, makroiqtisadi nəzəriyyənin əsaslarının yaradıcısı, öz nəzəriyyəsində Investisiya qoyuluşlarına həlledici əhəmiyyət verən C.M.Keyns tərəfindən müəyyən edilmişdir.

C.M.Keynsə görə, iqtisadiyyatda multipikator investisiyanın həcminin dəyişilməsindən asılı olaraq, ÜDM-in dəyişilməsini göstərən əmsaldır. Yəni, Multipikator (M) = Δ ÜDM/ Δ Investisiya. O, göstərirdi ki, investisiya ilə ÜDM arasında mütənasiblik vardır, belə ki, investisiyanın artması nəticəsində ÜDM da artır. Bu bir daha sübut edir ki, investisiya qoyuluşlarının iqtisadi inkişafda rolu danılmazdır. Düzdür bir qədər sonra Amerika iqtisadçıları əvvəlcə E.Xansen, sonra C.Klark iqtisadiyyatda yeni akselerator prinsipini irəli sürərək, gəlirlərin artımı ilə investisiyanın artımı arasındakı əlaqənin olduğunu qeyd edirdilər. Burada əsas diqqətin istehsal müddətinə verilərək, real investisiyaya olan tələbin artmasını nəzərdə tutan müddəa irəli sürdülər. Həmçinin qeyd edirdilər ki,əgər multiplikator kapital qoyuluşunun artımı ilə müşahidə olunurdusa, akselerator gəlirlərin artımının investisiyalar qoyuluşunun yüksəldilməsi meyli ilə xarakterizə olunur. C.M. Keyns hesab edirdi ki, ödəmə qabiliyyətli tələbin yüksəldilməsində həlledici rolu investisiya oynayır [1, səh.275].

Qeyd edim ki, investisiya ilə iqtisadi artım arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi ilə bağlı iqtisadi tarzlığın klassik və neoklassik modellərində, eyni zamanda bazar tarazlığı problemini təhlil edən L.Valras, C.Robertson, E.Çemberlin, C.Klarkın yanaşmaları da diqqətəlayiqdir.

İqtisadi nəzəriyyələr və dünya təcrübəsi sübut təlif iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq iqtisadiyyata investisiya qoyuluşları məsələsi həmişə aktualdır. Bu aktuallıq müstəqil milli iqtisadiyyatını formalaşdıran ölkəmiz üçün zərurətdən irəli gəlir. Dünya təcrübəsi də birmənalı olaraq təsdiq edir ki, ölkənin iqtisadi artımının , davamlı inkişafının təmin olunmasının əsası investisiya qoyuluşları ilə bağlıdır. İnvestisiyalar iqtisadiyyat sahələrinin müvazinətli inkişafının təmin olunmasının mühüm amili hesab olunur.

Məlum olduğu kimi, Azərbaycanın dayanıqlı sosial iqtisadi inkişafı və işğaldan azad olunmuş ərazilərin bərpası dövlətin diqqət mərkəzindədir.

Belə ki, Prezident İlham Əliyev 2021-ci ilin yekunlarına həsr olunmuş müşavirədə qeyd edib ki, torpaqlarımızın işğaldan azad edilməsi son otuz ilin ən mühüm tarixi hadisəsidir. Eyni zamanda, qədim yaşayış məskənlərimizdə tariximizi, mədəniyyətimizi, iqtisadiyyatımızı yaşatmaq üçün bu sahələrə tədricən sənaye investisiyalarının və digər investisiyaların cəlb edilməsi də mühüm vəzifədir.

Beləliklə, dünya təcrübəsi göstərir ki, ilkin zərər müəyyən edildikdən sonra minimum həyat səviyyəsinin təmin edilməsi prioritetdir. Minimum həyat səviyyəsini təmin edən mühüm amillər bunlardır: işğal olunmuş ərazilərin minalardan təmizlənməsi, elektrik enerjisi ilə təmin edilməsi, kritik yol xətlərinin bərpası, içməli suyun, kanalizasiya qurğularının və suvarma sistemlərinin bərpası, ev/mənzil üçün yaşayış

sahəsinin bərpası, humanitar məqsədlər üçün hava limanının tikintisinə ilkin sərmayə qoyuluşu gələcəkdə sosial-iqtisadi dirçəlişə töhfə verəcək.

Bu vəzifələrlə əlaqədar olaraq işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı, bu ərazilərin iqtisadi potensialının, xüsusən də iqtisadi potensialının bərpası istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərin görülməsi ölkə üçün mühüm əhəmiyyət kəsb edir, bu o deməkdir ki, qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsi üçün baza yaradılacaq. Bu işlərin yerinə yetirilməsi zamanı dövlət vəsaitlərinə qənaət və investisiyaların səmərəliliyinin artırılması məqsədi ilə avtomobil nəqliyyatı, ictimai infrastruktur, ənənəvi və alternativ enerji istehsalı sahələrində investisiya layihələrinin həyata keçirilməsində dövlət-özəl tərəfdaşların imkanlarından geniş istifadə edilməsi, meliorasiya sisteminin və digər sahələrin tikintisi, iqtisadi fəallığın stimullaşdırılması məqsədilə işğaldan azad edilmiş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiqi məqsədəuyğun hesab edilmişdir [6, səh.115].

Nəzərinizə çatdırım ki, artıq 2021-ci il dekabrın 10-da dövlət başçısı bu sahələrdə istehsal fəaliyyətini həyata keçirəcək sahibkarlıq subyektlərinin idxal rüsumlarından, xammal və avadanlıqların idxalı rüsumlarından müvəqqəti azad edilməsini nəzərdə tutan sərəncamın imzalanması, o cümlədən həmin sahibkarların güzəştli vergilərə cəlb edilməsi bu istiqamətdə həyata keçirilən çoxsaylı tədbirlərdən biridir.

Bu işlərin uğurla həyata keçirilməsi üçün Prezident İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli sərəncamı ilə "Qarabağın Dirçəliş Fondu" yaradılıb. Bu fond işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, eləcə də davamlı iqtisadiyyatın təmin edilməsi üçün vasitədir. Bundan əlavə, 2021-ci il dövlət büdcəsindən 2,2 milyard manat, 2022-ci ildə ayrılan 2,6 milyard manat, habelə milli sərvətlərdən - torpaq, meşə, su, faydalı qazıntılar, əmlak və mədəni sərvətlərin dövriyyəyə cəlb olunmaqla kapital fondu kimi istifadəsinə də təmin edilir. Bütün bunların səmərəli istifadəsi azad olunmuş ərazilərin davamlı inkişafının təmin edilməsinə hesablanıb.

Ədəbiyyat

1. Allahverdiyev H.B., K.S. Qafarov, Ə.M.Əhmədov Milli İqtisadiyyatın dövlət tənzimlənməsi, Ali məktəblər üçün dərslik, "Elm" nəşriyyatı, Bakı 2006, 834 s.
2. Bayramov Ə.Ə Regional iqtisadi inteqrasiya – nəzəriyyə və praktika, Bakı 1997, 160 s.
3. Əhmədov M.A., Hüseyn A.C., İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları Metodik vəsait, Bakı, "İqtisad Universiteti" , 2011, 120 s.
4. Əliyev A.Ə. "Azərbaycanın xarici ticarət-iqtisadi əlaqəsi". Bakı ,"Ozan" nəşriyyatı, 2001,203 s.
5. Əliyev A.Ə., Şəkərəliyev A.Ş., İ.Ş.Dadaşov Dünya İqtisadiyyatı : Müasir dövrün problemləri, Monoqrafiya. Bakı, "Elm" nəşriyyatı, 2003,684 s.
6. Əliyev A.Ə., Şəkərəliyev A.Ş. "Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti". "Elm" nəşriyyatı, Bakı, 2002, 209 s.

Резюме

Асланов Г. Г., Эйвазов З.С.

Социально-экономическая природа инвестиций и краткий теоретический анализ воздействия на экономическое развитие

Большое значение имеет вопрос экономической эффективности инвестиций с элементами экономического роста. Потому что одной из основных целей экономического развития в современных условиях является повышение эффективности использования инвестиций. Социально-экономический характер инвестиций определяется их эффективностью, а эта экономическая эффективность определяется с помощью показателей валового национального дохода и валового внутреннего продукта. При расчете фактической экономической эффективности инвестиций в экономику учитывается, насколько они обеспечивают прирост Валового внутреннего продукта в среднем на манат. В статье дается краткий теоретический анализ этих и других вопросов.

Ключевые слова: *инвестиции, экономический рост, устойчивое развитие, инвестиционная среда, инвестиционная привлекательность, территория, освобожденная от оккупации*

Summary

Aslanov H. H., Eyvazov Z.S.

Social-Economic Investment and Brief Theoretical Analysis of Impact on Economic Development

The question of economic efficiency of investments with elements of economic growth is of great importance. Because one of the main goals of economic development in modern conditions is increasing the efficiency of using investments. The socio-economic character of investments is determined by their efficiency, and this economic efficiency is determined by indicators of gross national income and gross

domestic product. When calculating the actual economic efficiency of investments in the economy, it is taken into account how much they provide an increase in the gross domestic product on average per manat. The article provides a brief theoretical analysis of these and other issues.

Key words: *investment, economic growth, sustainable development, investment environment, investment attractiveness, territory freed from occupation*

AZƏRBAYCANDA SOSİAL TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN NƏZƏRİ-PRAKTİKİ ƏSASLARI

Cəfərova Tamam Şaməmməd qızı
Azərbaycan Respublikasının Milli Məclisi
tjafarova59@mail.ru

Xülasə: *Sosial siyasət hər bir ölkənin mühüm maraqlarından biridir. Azərbaycan hərtərəfli inkişafı qarşısına məqsəd qoyan ölkə kimi həyata keçirdiyi sosial siyasətin səmərəliliyinin artırılmasına ciddi diqqət yetirir. Bununla belə, keyfiyyətli sosial siyasət yalnız elmi cəhətdən müəyyən edilmiş sosial prinsiplər əsasında mövcud ola bilər. Bu məqalə Azərbaycanın sosial təminat siyasətini mövcud elmi prinsiplər işığında nəzərdən keçirmək cəhdidir. Həmçinin sosial siyasətin iqtisadi, maliyyə, informasiya və digər siyasət sahələri ilə əlaqələndirilməsi kursunu müəyyənləşdirir.*

Açar sözlər: *Azərbaycan, sosial təhlükəsizlik, sosial ədalət, konstitusiya, ailə institutu*

Sosial təhlükəsizlik anlayışı iki – dar və geniş mənada işlənilir. Dar mənada sosial təhlükəsizlik cəmiyyətin ən aşağı təbəqəsinə ünvanlanan sosial yardım və sosial dəstəyi özündə ehtiva edir. Geniş mənada sosial təhlükəsizlik əhalini tam olaraq əhatə edən, dövlətin sosial-iqtisadi, təhsil-səhiyyə sferalarını qarşılıqlı əlaqəli formada koordinasiya edən və cəmiyyətin sosial rifahını özü üçün ali məqsəd kimi müəyyən edən bir siyasətdir. Öz növbəsində sosial rifah – sosial təhlükəsizlik siyasətinin fəaliyyət effektivliyinin inteqral göstəricisi olub, əhalinin həyat keyfiyyəti və həyat səviyyəsinin keyfiyyət ölçüsü kimi özünü büruzə verir.

Azərbaycan dövləti üçün əhalinin sosial rifahı ali məqsədlərdən biri hesab olunur. Azərbaycan Respublikası Konstitusiyasının preambula hissəsində ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək istəyi [1] dövlətin əsas niyyətlərindən biri kimi müəyyən edilmişdir. 2007-ci il tarixli Azərbaycan Respublikası Milli Təhlükəsizlik Konsepsiyasına əsasən, "*Ölkənin iqtisadi inkişafının davamlı olması hökumətin iqtisadi siyasətinin təməl prinsipidir. Bu həm iqtisadi, həm də sosial ölçülərin bərabər səviyyədə nəzərə alınmasını tələb edən kompleks bir məsələdir. Ona görə də Azərbaycan Respublikası bu istiqamətlərin hər biri üzrə sinxron və əlaqələndirilmiş proqram həyata keçirmək niyyətindədir*" [2].

Bununla belə Azərbaycan dövləti həyata keçirtdiyi sosial təhlükəsizlik siyasətini 6 prinsip əsasında həyata keçirir. Dövlətin əlində rəhbər tutduğu birinci və ən əsas prinsip sosial ədalət prinsipidir. Bu prinsip özünü bərabərləşdirici və bölüşdürücü ədalət formasında biruzə verir. Bərabərləşdirici ədalət o deməkdir ki, Azərbaycanda yaşayan bütün kəslər qanun qarşısında bərabərdirlər. İqtisadi və ya sosial imkanlarına, siyasi çəkisinə, dövlət və cəmiyyət qarşısında imtiyaz və nailiyyətlərinə baxmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Praktiki cəhətdən bu o deməkdir ki, ölkə vətəndaşları onların sosial hüquqlarını tapdalayan digər fiziki və hüquqi şəxslərə, hətta dövlət qurumlarına qarşı aiddiyyatı orqanlara və məhkəmə instansiyalarına müraciət edə bilərlər. Azərbaycan Respublikası həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxslərə (apatridlərə) də Azərbaycan vətəndaşlarına çox yaxın hüquq və azadlıqlar bəxş edir. Onlar da respublika vətəndaşları kimi dövlət qurumlarına və məhkəmə instansiyalarına müraciət edə bilər. Vətəndaş və əcnəbi arasında baş verə bilən məhkəmə işində ədalət mühakiməsi mütləq sürətdə Azərbaycan vətəndaşının yox, haqlı tərəfin yanında olacaqdır.

Bölüşdürücü ədalət hər bir insanın fiziki və əqli keyfiyyətlərinə, cəmiyyətə verdiyi töhfəyə uyğun olaraq mütənasib əks-təsir almasını özündə simvolizə edir. Başqa sözlə desək ölkə vətəndaşları qanun qarşısında bərabər olsalar da, təbbi və sosial durum cəhətdən bərabər deyillər. Azərbaycan kommunizm sistemindən imtina etdiyinə görə gəlirlərin əhali üzrə bölgüsü proporsional olaraq bölüşdürülmür. İnsanlar öz imkan və potensiallarına görə cəmiyyətin fərqli təbəqələri üzrə bölüşürlər. Belə şəraitdə cəmiyyətin aşağı təbəqələrində qərarlaşan kasıb və yoxsullar, fiziki və əqli çatışmazlıqlara malik vətəndaşlar daha həssas qruplar olduğundan dövlətin xüsusi qayğı və dəstəyinə ehtiyac duyurlar. Azərbaycan dövlətinin bu təbəqələrə xüsusi qayğı göstərməsi, sosial müavinatların və ünvanlı yardımların bu təbəqələrə daha çox etməsi beləliklə, bölüşdürücü ədalət prinsipinə tam uyğundur. Dünya Bankının hesablamalarına görə Azərbaycan 1995-ci ildən 2008-ci ilə qədər Cinni əmsalı üzrə nəzərəçarpan dəyişiklik nümayiş etdirmişdir

[7]. Qeyd edək ki, Cinni əmsalı gəlirlərin əhali üzrə mütənasib bölüşdürülməsini özündə nəzərdə tutan bir göstəricidir.

Dövlətin sosial təhlükəsizlik siyasətinin əsasında duran digər vacib prinsip fərdi sosial həmrəylik prinsipidir. Bu prinsipə əsasən, sosial rifaha ilk növbədə fərdin özü can atmalıdır. Əgər fərd öz qüvvələri hesabına iqtisadi-sosial təminata nail ola bilmirsə, ona ailəsi, qohumları, yaxınları yardım etməlidir. Dövlət yalnız o vaxtı fərdi özünün hərtərəfli himayəsinə almış olur ki, bu fərdin heç bir sosial kapitalı yoxdur. Bu prinsip bir tərəfdən fərdləri daha müstəqil və təşəbbüskar olmağa stimullaşdırır, digər tərəfdən isə ölkənin effektiv idarə olunmasına imkan verir. Beləki insanların dövlətdən həddindən artıq asılı olması, öz sosial rifahlarının əsas mənbəyi qismində dövləti görməsi iki mümkün təhlükəli vəziyyətə gətirir: 1. Təbii və süni problemlər şəraitində dövlətin qəfil zəifləməsi onunla birlikdə əhalinin sosial rifahının da kəskin aşağı düşməsinə səbəb ola bilər; 2. Dövlətdən çox asılı olma insanın ailə institutu ilə bağlılığını zəiflədir. Fərqli funksiyalar yerinə yetirən sosial institutlar içərisində ailə institutu xüsusi seçilir və digər institutların bazisi hesab olunur [3]. Ailənin əsas funksiyalarından biri uşaq və qocalara qayğıdır. Bu funksiyanın böyük hissəsinin dövlət tərəfindən həyata keçirilməsi ailə institutunu çox vacib bir funksiyadan məhrum edib, onun zəifləməsinə səbəb olur. Ailə cəmiyyətin təbii hüceyrəsi olduğundan ailə institutunun zəifləməsi cəmiyyətin də zəifləməsinə gətirir. Dövlət cəmiyyəti idarə edən siyasi institutlar toplusu olduğundan cəmiyyətin zəifləməsi obyektiv olaraq dövlətin də zəifləməsinə gətirir. Beləliklə, dövlətin sosial təhlükəsizlik siyasətində həddindən artıq aktivlik nümayiş etdirməsi adətən əks nəticələrə səbəb olur.

Sosial tərəfdaşlıq prinsipinə görə işçi, işəgötürən və dövlət arasında bərabərhüquqlu münasibətlər qurulmalıdır. Azərbaycan sosialist yönümlü ölkələrdəki kimi işçi və həmkarlar ittifaqına və ya "laissez faire" yanaşmasının mövcud olduğu ölkələrdəki kimi sahibkarlara digəri qarşısında üstünlük vermir. Sosial tərəfdaşlıq prinsipi dövlətdən sosial-iqtisadi siyasətdə neytral və qərəzsiz olmanı tələb edir.

Sosial zəmanət prinsipi Azərbaycan cəmiyyətinin hər bir üzvünə minimal yaşayış standartlarını vəd edir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən, hər kəsin tibbi yardım almaq hüququ var (I bənd), dövlət isə müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır (II bənd). Konstitusiyanın 42-ci maddəsinə görə isə dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir (II bənd) və maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir (IV bənd) [1].

Sosial kompensasiya prinsipi cəmiyyətin həssas təbəqələrinin (yoxsul, qoca, əlil və s.) çatışmazlılqlarının sosial təhlükəsizlik siyasəti ilə kompensasiya etməyi özündə ehtiva edir. Sosial müavinatlar haqqında Azərbaycan Respublikası qanununa əsasən, ölkə üzrə dövlət qulluqçularına ömürlük, yaşa, əlilliyə, ailə başçısını itirməyə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə, 3 yaşınadək uşağa qulluğa, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə), 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə, beşdən çox uşağı olan qadınlara, övladlığa götürülən uşağa, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə aylıq müavinətlər mövcuddur (maddə IV) [5].

Sonuncu, subsidiarlıq prinsipi dövlətin sosial siyasətə digər qeyri-dövlət aktorların cəlb edilməsini özündə təcəssüm etdirir. Sosial müdafiə siyasətinin subyekti təkcə dövlət deyil. Dövlətdən savayı sosial müdafiə sferasında ailə, ictimai təşkilatlar, xeyriyyə təşkilatları, özəl sığorta şirkətləri və pensiya fondları fəaliyyət göstərir. Bu qeyri-dövlət aktorlarının sosial müdafiə sahəsində aktivlik nümayiş etdirməsi dövlət üzərindən sosial yükün böyük hissəsinin götürülməsinə səbəb olur və dövlət qənaət etdiyi vəsaitləri əhalinin iqtisadi inkişafına, hərbi qüdrətinə və əhalinin ən aşağı təbəqələrinin sosial təminatına yönləndirə bilir. Subsidiarlıq prinsipi olduqca vacibdir. O dövlətin zəif olduğu və ya ümumiyyətlə, xarici işğal altında olduğu müddətdə əhalinin sosial müdafiəsinin təmin olunmasına yardım edir. Məsələn, Azərbaycanın görkəmli xeyriyyəçiləri olan Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Ağabala Hacıqulu oğlu Quliyev, Aşurbəyova Nabat Xoca qızı, Gövhər ağa, Hacı Hacıağa Dadaşov, İsa bəy Əbdülsalam bəy oğlu Hacinski, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Teymur bəy Aşurbəyov, Teymur bəy Qulubəyov, Yusif ağa Dadaşov [6] xalqımızı tarixin çətin vəziyyətlərində dəstəkləmiş, əhalinin savadlanması, kasıbçılığın azaldılması, səhiyyənin inkişaf etdirilməsi sahəsində böyük işlər görmüşlər. Hal-hazırda adı çəkilən şəxslərin fəaliyyətini Heydər Əliyev fondu başda olmaqla digər xeyriyyəçi fondlar və şəxslər davam etdirir. Heydər Əliyev Fondu təhsil, mədəniyyət, maarif, elm, texnologiyalar, ekologiya və idman sahələrində müxtəlif layihələrə dəstək verməklə, həm ölkə çərçivəsində, həm də beynəlxalq səviyyədə fəaliyyət göstərir [4].

Aparılan tədqiqat nəticəsində Azərbaycanın sosial təhlükəsizlik siyasətinin nəzəri və praktiki əsasları təhlil edilmişdir. Azərbaycanın sosial müdafiə siyasətini həyata keçirərkən əlində rəhbər tutduğu 6 prinsip əslində ümumi prinsiplərdir və bütün dövlətlər üçün münasib və vacib baza konturlarıdır. Azərbaycan nəzəri

cəhətdən sosial təhlükəsizlik siyasətini kifayət qədər əsaslı təşkil edə bilsə də, qəbul edilən qanun və normativ aktların praktikada reallaşması obyektiv səbəblərdən vaxtaşırı müəyyən problemlərlə qarşılaşır. Sosial siyasətin daha dayanıqlı və möhkəm olmasına nail olmaq üçün sosial siyasət iqtisadi siyasət, maliyyə siyasəti, müdafiə siyasəti, xarici siyasət və digər sahələrlə koordinasiya olunmuş formada həyata keçirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiyası (2002, 2009, 2016-cı il düzəlişləri ilə). Bakı. 1995-ci il.
2. Azərbaycan Respublikasinin Milli Təhlükəsizlik Konsepsiyasi, Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli 2198 nömrəli Sərəncamı ilə Təsdiq Edilmişdir.
3. Həsənova Şəfiqə, Ailənin sosial institut kimi müasir cəmiyyətdə rolu və əhəmiyyəti, Psixologiya elmi tədqiqat institutu // https://psixologiyainstitutu.az/2020/12/14/ail%C9%99nin-sosial-institut-kimi-muasir-c%C9%99miyy%C9%99td%C9%99-rolu-v%C9%99-%C9%99h%C9%99miyy%C9%99ti/
4. Heydər Əliyev Fondu // https://azerbaijan.az/related-information/232
5. Sosial müavinətlər haqqında Azərbaycan Respublikasinin Qanunu, Bakı şəhəri, 7 fevral 2006-cı il, № 55-IIIQ.
6. Xeyriyyəçi milyonçular // https://www.azerbaijans.com/content_760_az.html
7. Azerbaijan Gini Coefficient (GINI Index): World Bank Estimate. 1995 - 2008 | YEARLY | % | WORLD BANK // https://www.ceicdata.com/en/azerbaijan/poverty/az-gini-coefficient-gini-index-world-bank-estimate

Резюме

Джафарова Т.С.

Теоретические и практические основы политики социального обеспечения в Азербайджане

Социальная политика является одним из важных интересов любой страны. Как страна, которая ставит перед собой цель всестороннего развития, Азербайджан уделяет особое внимание повышению эффективности своей социальной политики. Однако качественная социальная политика может существовать только на основе научно вычлененных социальных принципов. Данная статья - sэто попытка рассмотреть политику социальной безопасности Азербайджана в свете существующих научных принципов, а также проанализировать вопрос координации социальной политики с экономической, финансовой, информационной и др. сферами политики.

Ключевые слова: *Азербайджан, социальная безопасность, социальная справедливость, Конституция, институт семьи*

Summary

Jafarova T.S.

Theoretical and Practical Basics of Social Security Policy Azerbaijan

Social security policy is one of the main interests of any country. As a country that sets itself the goal of comprehensive development, Azerbaijan pays close attention to improving the effectiveness of its social policy. However, a qualitative social policy can exist only on the basis of scientifically defined social principles. This article is an attempt to consider the social security policy of Azerbaijan in the light of existing scientific principles, and also set the course for coordinating social policy with economic, financial, information and other policy areas.

Key words*: Azerbaijan, social security, social justice, Constitution, family institute*

ELEKTRON TİCARƏTİN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

Cəmilzadə Şəhla Vəkil qızı

Sumqayıt Dövlət Universiteti

cemilzade76@mail.ru

Xülasə: *Məqalədə informasiya texnologiyalarının insan fəaliyyətinin sahələrinə təsiri tədqiq edilmişdir. İnformasiya texnologiyalarına əsaslanan elektron ticarətin mahiyyəti açıqlanmışdır. Elektron ticarətin inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır. Elektron ticarətin əsas üstün və mənfi cəhətləri araşdırılmışdır. Elektron ticarətin fərdlərə, sahibkarlıq subyektlərinə, ölkənin iqtisadi inkişafına və*

bütövlükdə cəmiyyətə təsiri öyrənilmişdir. Elektron ticarətin stimullaşdırılması və təkmilləşdirilməsi ilə bağlı tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

Açar sözlər: *elektron ticarət, rəqəmsal iqtisadiyyat, texnologiya, informasiya, əhali, İnternet*

İKT elektron ticarətin yaranması və formalaşması üçün əlverişli şərait yaratmışdır. Bu gün insanların çoxu onlayn ticarət etmək imkanına malikdir. Onlayn ticarətin köməyilə şirkətlər əməliyyat xərclərini azalda, məhsulların satışı prosesini sürətləndirə və istehlakçıların dairəsini genişləndirə bilərlər. Bu gün elektron ticarət malların alınması üçün ən populyar üsullardan biridir. Bununla belə, COVID-19 pandemiyası səbəbindən bu bazar yenicə inkişaf etməyə başlayır. İnformasiya texnologiyalarının inkişafı insan fəaliyyətinin müxtəlif sahələrinə, o cümlədən elektron ticarətə təsir göstərmişdir. Geniş mənada, elektron ticarət elektron informasiya texnologiyalarının istifadəsini əhatə edən istənilən iqtisadi fəaliyyətdir. Dar mənada, bu, qazanc əldə etmək üçün İnternetdə mal və ya xidmət alqı-satqısı üçün ticarət fəaliyyətidir.

Elektron ticarətin əhatə dairəsi coğrafi və ya milli sərhədlərlə deyil, kompüter şəbəkələrinin çoxalması ilə müəyyən edilir. Ən vacib şəbəkələr qlobal olduğundan, elektron ticarət, ən kiçik müəssisələrə belə qlobal səviyyədə olmağı və qlobal miqyasda iş görmələrini təmin edir. Elektron ticarətin inkişafı daha çox elektron ödənişlərin texniki infrastrukturu və texnologiyalarından, eləcə də əməliyyatların təhlükəsizlik səviyyəsindən asılıdır.

Rəqəmsal iqtisadiyyatda bilik və məlumat istehsalın əsas amillərinə çevrilib. Bu kontekstdə innovasiya və texniki tərəqqi davamlı iqtisadi inkişafa böyük töhfə verir. Elektron ticarət bu informasiya əsrində müəssisələrin rəqabət qabiliyyətinin açarıdır, yeni bazar seqmentlərinə çıxışı təmin edir, biznesin inkişaf sürətini, kommersiya siyasətinin çevikliyini artırır, hazırlıq, satış və reklam xərclərini azaldır, prosedurları sadələşdirir. Elektron ticarətin şirkətlərə və cəmiyyətə təsiri həm dərəcə, həm də intensivlik baxımından böyük əhəmiyyət kəsb edir. Elektron ticarət iqtisadi artımda yeni dəyişikliklərə səbəb olan və sahibkarlara və istehlakçılara dəyər əlavə edə bilən fəaliyyətlərdən biridir. Elektron ticarətin meydana çıxması sənaye inqilabından bəri ən mühüm inkişafdır və gələcəkdə iqtisadi artım üçün ən mühüm amil ola bilər. İnternet bütün sivilizasiya tarixində ən mühüm artımı yaşamış ünsiyyət vasitəsi və məlumat mənbəyidir və bütün zamanların ən sürətlə inkişaf edən vasitəsi ola bilər. İnternetin istifadəsi və İnternet saytlarının dünya səviyyəsində istifadəsi ilə bugünkü rəqəmsal inqilab elektron ticarətin əsasını qoyub. Transformasiyada İKT, İnternet və elektron ticarət vasitəsilə informasiya iqtisadiyyatının konvergensiyası sənaye inqilabı kimi mühüm əhəmiyyət kəsb edir. Bu "yeni iqtisadiyyat" informasiya və biliyə "köhnə iqtisadiyyat"la müqayisədə daha yüksək qiymət verən rəqəmsal iqtisadiyyatdır. O, dünya iqtisadi şəraitini dəyişməyə və təşkilati strukturlarını yenidən təşkil etməyə imkan verir. Yeni iqtisadiyyat və ya rəqəmsal iqtisadiyyat bir çox insanın yaşadığı və işlədiyi şəraiti dəyişir, heç bir səy göstərmədən müxtəlif mal və xidmətlər haqqında məlumat verməklə həyatı asanlaşdırır [3, s.26].

Elektron ticarət özünü rəqəmsal iqtisadiyyatın ən dinamik və görünən komponenti kimi fərqləndirir, gələcək bilik iqtisadiyyatında dominant mövqe tutur. Yeni konsepsiya və nəzəriyyələrlə həyata keçirildiyi rəqəmsal iqtisadiyyat kontekstində elektron ticarətin inkişafı reallıqdır və həyatımızın ayrılmaz hissəsinə çevrilir. Sahibkarlıq fəaliyyətinin ən optimal növü elektron ticarətdir. Çünki elektron ticarət sahibkara həm vaxtına, həm də maliyyə resurslarına qənaət etməyə imkan verir. Elektron ticarət biznesin aparılması miqyasının qloballaşmasında, xərclərin azaldılmasında, mal və xidmətlərin tədarük zəncirinin təkmilləşdirilməsində, malların sürətlə rəqabətli bazara çıxarılmasında və aşağı qiymətdə özünü göstərir. İstehlakçılar üçün elektron ticarətin müsbət təsiri mal və xidmətlərin alınmasının hər yerdə olmasında, anonimlikdə, fərdiləşdirmədə, mal və xidmətlərin geniş seçimində, aşağı qiymətlərində özünü göstərir. Elektron ticarət cəmiyyətə də müsbət təsir göstərir ki, bu da göstərilən xidmətlərin geniş spektrində, əhalinin yaşayış səviyyəsinin, milli təhlükəsizliyin yüksəlməsində özünü göstərir. Ümumiyyətlə, elektron ticarət, alıcı ilə fiziki təması minimuma endirmək üçün bir üsuldur, əlavə olaraq, yükün qəbulunu nəzərdə tutmur. Bu üsul təkcə sağlamlıq və vaxta qənaət baxımından deyil, həm də təcrübə və enerjiyə qənaət baxımından vacibdir

COVİD-19 pandemiya səbəbindən bir çox müəssisələr mövcud vəziyyətə hazır olmadıqları üçün öz fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalıblar. Sahibkarlar kiçik bizneslərini davam etdirmək üçün yeni biznes modellərinə müraciət etməli olublar [4, s.154]. Uğurlu biznes modellərindən biri məhz elektron ticarətin tətbiqidir. Koronavirus pandemiyası dövründə elektron ticarət sayəsində bir çox ticarət şirkətləri, ictimai iaşə müəssisələri, əhaliyə müxtəlif xidmətlər göstərən müəssisələr mal və xidmətlər bazarında fəaliyyət göstərməyi, əhalini öz mal və xidmətləri ilə təmin etməyi, həmçinin qazanc əldə etməyi bacarmışdır. Elektron ticarət sayəsində kiçik müəssisələr də sağ qalmağı və uzaqdan satış kanallarının işini artırmağı bacarıblar.

Yuxarıda qeyd olunan bütün müsbət amillər müasir mərhələdə elektron ticarətin effektivliyinə dəlalət edir. Kiçik və orta biznes üçün elektron ticarətin üstünlüyü daha da aşağı xərclər və bizneslə məşğul olmaq üçün müxtəlif lisenziya və sənədlərin alınmasına ehtiyacın olmamasıdır.

Beləliklə, elektron ticarət alətlərindən istifadənin səmərəliliyi aşağıdakılarla əldə edilir:

• ticarət və satınalma təşkilatlarının xərclərinin azaldılması;
• İnternet texnologiyaları hesabına satıcı və alıcı arasında vasitəçi əlaqələrin sayının azaldılması;
• biznes proseslərinin oflayn və onlayn komponentlərinin maksimum inteqrasiyası.

Elektron ticarət, ticarət prosesinin bütün hissələrini öz iştirakçıları (istehlakçılar, vasitəçilər, istehsalçılar və s.) ilə bir zəncirdə birləşdirir.

Elektron ticarətin tətbiqinin üstünlüklərinə baxmayaraq həm fərdi istehlakçı, həm də bütövlükdə cəmiyyət üçün bir sıra mənfi cəhətləri vardır. Bunlara saxtakarlıq üçün cəlbedici mühit formalaşması, dövlət büdcəsinə vergidən yayınma ehtimalının artması və digərləri daxildir.

Elektron ticarətin inkişafına təsir edən əsas amillər aşağıdakılardır:

• əhalinin rifahının yüksəlməsi;
• İnternet istifadəçilərinin sayının artması;
• e-ticarət üçün normativ baza;
• vergi və gömrük qanunvericiliyi;
• əhalinin ümumi mədəniyyəti;
• mütəxəssislərin mövcudluğu və İnternetin rolunun düzgün başa düşülməsi.

Elektron ticarətin inkişafı üçün vacib amil İnternet istifadəçilərinin sayının artmasıdır. Azərbaycanda İnternet istifadəçilərinin sayını təhlil etmək üçün aşağıdakı şəkilə diqqət yetirək (şəkil 1.).

Şəkil 1-dən ölkəmizdə tədqiq olunan dövrlər ərzində hər 100 nəfərə düşən İnternet istifadəçilərinin sayının davamlı olaraq artdığını müşahidə etmək olar. 2021-ci ildə bu artım 2010-cu ilə görə 88,7%, 2015-ci ilə görə 12,6%, 2020-ci ilə görə isə 2,5% təşkil etmişdir.

Şəkil 1. Azərbaycanda hər 100 nəfər üzrə İnternet istifadəçilərinin sayı, nəfərlə

Şəkil 2-dən 2021-ci ildə Azərbaycanda İnternetdən ən çox informasiya axtarmaq məqsədilə istifadə edildiyi görünür (33,8%). İnternetdən ən az isə əmtəə və xidmətlərin sifarişi və ticarəti məqsədilə istifadə edilmişdir (4,1%).

Yaxın gələcəkdə elektron ticarət aşağıdakılar tərəfindən stimullaşdırılacaq:

• 5G texnologiyaları;
• onlayn xidmətlərin keyfiyyətcə yeni səviyyəsi;
• onlayn ödənişlərin təhlükəsizliyinin təkmilləşdirilməsi;
• logistika sisteminin səmərəliliyi;
• fərdi məlumatların mühafizəsi sisteminin təkmilləşdirilməsi, informasiya sızmasına nəzarət;
• elektron sənəd dövriyyəsi və elektron rəqəmsal imzadan istifadə [2, s.97].

Kompüter, İKT və onlayn bankçılıq inkişaf etdikcə elektron ticarət də daim genişlənir. Bu amillərin hər ikisinə təsir edən əsas aspekt daha çox onlayn istehlakçı cəlb edən və həm elektron ticarəti, həm də rəqəmsal iqtisadiyyatı stimullaşdıran rəqəmsal əməliyyatlardır. Həm rəqəmsal iqtisadiyyat, həm də elektron ticarət elm və texnologiyanın inkişafı ilə gələcək üçün böyük perspektivləri olan paradiqmalardır. Bu,

sahibkarların gələcəyidir və bütün dünyada biznesin və iqtisadiyyatların qlobal rəqəmsallaşmasına gətirib çıxaracaq.

Şəkil 2. 2021-ci ildə Azərbaycanda İnternetdən istifadənin məqsədləri, faizlə

Elektron ticarətin təkmilləşdirilməsi nəticəsində aşağıdakılar proqnozlaşdırılır:

• əhalinin rifahının yaxşılaşması;

• istehsalçının ticarət xərclərinin qiymətinin təxminən üçdə biri qədər azaldılması;

• elektron əməliyyatların hüquqi əhəmiyyətinin artırılması.

Daimi dəyişiklik şəraitində orta və uzunmüddətli perspektivdə elektron ticarət üçün nəzərdə tutulan stimulları və artım amillərini dəqiq proqnozlaşdırmaq mümkün deyil.

Beləliklə, elektron ticarət indiki mərhələdə sahibkarlığın inkişafı üçün perspektivli sahələrdən biridir. Bu, ölkədə təkcə sahibkarlığın deyil, bütövlükdə onun iqtisadiyyatının inkişafına töhfə verir. Elektron ticarət müasir biznesin rəqabətli bazarda səmərəli fəaliyyət göstərməsinə imkan verir, müəssisənin rəqabət qabiliyyətini artırır, müvafiq olaraq müasir müəssisələrin mənfəətinin artmasına kömək edir və büdcə gəlirlərinin artımına təsir edir.

Ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2022, 748 s.

2. Веригина, А. В. Приоритеты развития электронной коммерции в 2022 году / А. В. Веригина, Д. В. Коваль // Экономика. Налоги. Право. – 2022. – Т. 15. – № 1. – С. 94-104

3. Коваленко, Б. Б. Роль электронной коммерция в развитии экономики / Б. Б. Коваленко, С. Р. Ирмухамедов // Colloquium-Journal. – 2018. – № 10-4(21). – С. 25-26

4. Маглинова, Т. Г. Электронная коммерция и торговля / Т. Г. Маглинова // Экономика и бизнес: теория и практика. – 2022. – № 8(90). – С. 153-156

Резюме

Джамилъзаде Ш.В.

Роль электронной коммерции в экономическом развитии страны

В статье изучено влияние информационных технологий на сферы деятельности человека. Объясняется сущность электронной коммерции на основе информационных технологий. Обоснована необходимость развития электронной коммерции. Рассмотрены основные преимущества и недостатки электронной коммерции. Изучено влияние электронной коммерции на физических лиц, субъектов хозяйствования, экономическое развитие страны и общества в целом. Выдвинуты рекомендации по стимулированию и совершенствованию электронной коммерции.

Ключевые слова: *электронная коммерция, цифровая экономика, технологии, информация, население, Интернет*

Summary

Jamilzade Sh.V.

The role of E-commerce in the Economic Development of the Country

The article studies the influence of information technologies on the spheres of human activity. The essence of e-commerce based on information technology is explained. The necessity of development of

electronic commerce is substantiated. The main advantages and disadvantages of e-commerce are considered. The influence of e-commerce on individuals, business entities, the economic development of the country and society as a whole has been studied. Recommendations have been put forward to stimulate and improve e-commerce.

Key words: *e-commerce, digital economy, technology, information, population, Internet*

SƏNAYE RAYONLARININ ƏRZAQ TƏMİNATININ YAXŞILAŞDIRILMASINA TƏSİR EDƏN AMİLLƏR

Əhmədov Zakir Talıb oğlu
Gəncə Dövlət Universiteti
ahmedov53@bk.ru
Əhmədova Tamella Süleyman qızı
Azərbaycan Texnologiya Universiteti
tamellaz.a@bk.ru

Xülasə: *Ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil etdiyi üçün növbəti illərdə bu sahədə görülən işlər genişləndiriləcək, nəzərdə tutulan tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daimi əsaslarla dayanıqlı təmin edilməsinə istiqamətlənəcəkdir.*

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə ərzaq təhlükəsizliyiyinin dayanıqlığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsinin strateji hədəfləri müəyyənləşdirilir və məqalə bu strateji hədəflərin yerinə yetirilməsi prioritetlərinin tədqiqinə həsr edilir.

Acar sözlər: *ərzaq məhsulları, sənaye rayonları, kənd təsərrüfatı, aqrar-ərzaq, sənaye müəssisələri*

Ərzaq təminatı və özünü daxili resurslar hesabına ərzaqla təmin etmə məsələsi iqtisadi inkişafın müasir mərhələsində bütün dünya ölkələrinin qarşılaşdığı əsas problemlərdən biridir. Bu problemlər sırasında iri şəhər və sənaye rayonlarının özünü ərzaqla təmin etmə məsələsi daha da dərinləşməkdədir.

Sənaye rayonları öz potensialı hesabına bu rayonlarda yaşayan əhalini xüsusən təzə kənd təsərrüfatı mənşəli ərzaq məhsullarına olan tələbatını ödəmək iqtidarında deyildir. Bunun əsas səbəblərindən biri bu ərazidə olan kənd təsərrüfatına yararlı torpaq sahələrinin tikililər, o cümlədən sənaye müəssisələri, istehsal və sosial infrastruktur obyektləri altında olmasıdır.

Sənaye rayonları əhalisinin ərzaq məhsullarına olan tələbatı aşağıdakı mənbələrdən ödənilir:

- yaxın ərazilərdən gətirilən təzə ərzaq məhsulları hesabına;
- ölkənin qida sənayesinin məhsulları hesabına;
- konkret sənaye rayonlarındakı aqroemal müəssisələrinin ərzaq məhsulları hesabına;
- idxaldan daxil olan ərzaq məhsulları hesabına;
- sənaye rayonunda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri və ev təsərrüfatları hesabına.

Təzə ərzaq məhsulları ilə təminat səviyyəsi sənaye rayonlarının ərzaq probleminin həllində xüsusilə aktuallıq kəsb edir. Belə ki, idxal və ölkənin qida sənayesi müəssisələrinin məhsullarının qismən böyük bazarları olan sənaye mərkəzlərində satışı daha asandır. Bu səbəbdən həmin rayonlarda adətən, ərzaq məhsulları satışı şəbəkəsi kənd rayonlarına nisbətən daha yaxşı təşkil olunur.

Sənaye rayonlarının təzə ərzaq məhsulları ilə fasiləsiz təmin olunmasında yaxın məsafədə yerləşən kənd təsərrüfatı müəssisələri ilə əlaqələrin ahəngdarlığı və intensivliyi diqqət mərkəzində olmalıdır.

Sənaye rayonlarının davamlı olaraq ərzaq təminatının yaxşılaşdırılması üçün, ilk növbədə aşağıdakı məsələlər öz həllini tapmalıdır:

- "urbanizasiya zonalarında ərzaq bazarının tənzimlənməsi;
- tez xarab olan və uzaq məsafəyə daşına bilməyən təzə ərzaq məhsullarının bilavasitə urbanizasiya zonaları daxilində və onların yaxın ətrafında intensiv istehsalının stimullaşdırılması;
- zona daxilində kənd təsərrüfatı istehsalının yerləşdirilməsi və ixtisaslaşdırılmasında aqromelarasiya effektinin nəzərə alınması ilə yenidən baxılması;
- şəhərin iqtisadi potensialının ərzaq təsərrüfatının inkişafına yönəldilməsi;
- şəhər və onun infrastrukturunun intensiv inkişafının tənzimlənməsi və s." [1, s.132-133].

Doğrudan da sənaye rayonlarında adətən urbanizasiya proseslərinin intensivləşməsi baş verir. Bu və digər amillərin təsiri səbəbindən sənaye rayonlarında ərzaq bazarının daha fəal və intensiv şəkildə tənzimlənməsi zərurəti yaranır. "Məsələ ondadır ki, ərzaq məhsullarının istehsalçıdan bilavasitə istehlak

yerinə qədər hərəkətinin səmərəliliyi emal, saxlanma, qablaşdırma, təbii ki, daşınma və satış mərhələlərində sürət və keyfiyyət, «istehsalçı-vasitəçi (ticarətçi) - istehlakçı» ardıcıllığının hər bir subyektinin mənafelərinin reallaşdırılması imkanlarından bilavasitə asılıdır" [2, s.104].

Məhsuldar qüvvələrin ölkə ərazisində mütənasib paylanmasına yönəlik tarazlı regional inkişaf xətti, Azərbaycanın sənaye mərkəzlərinin formalaşması prosesinin tənzimlənməsi imkanlarını genişləndirmişdir. Əlbəttə, əhali böyük şəhərlərin və sənaye mərkəzlərinin üstünlüklərindən istifadə baxımından sərbəstdir və onların sənaye rayonlarında cəmləşməsi prosesinə birtərəfli hərəkət kimi baxmaq doğru deyildir.

Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və bir sıra yeni formalaşan sənaye mərkəzlərinin inkişaf potensialı sənaye sahələrinin formalaşması və inkişafı hesabına formalaşır.

Ərzaq təminatı sistemində aqrar-sənaye yönümlü təsərrüfatçılıq subyektlərinin mənafelərinin uzlaşdırılması baxımından sənaye mərkəzlərinin formalaşması amilləri, xüsusi diqqət mərkəzində olmalıdır. İlk növbədə onu qeyd edək ki, sənaye mərkəzlərinin inkişafı və sənaye rayonlarının formalaşmasının əsas amillərindən biri müqayisəli üstünlüklərdir. Müqayisəli üstünlüklər, məlum olduğu kimi istehsala məsrəflərdə (məhsul vahidinə düşən), xammal, məhsulun daşınması və işçilərin iş yerinə çatdırılması xərclərində ifadə olunur. Başqa sözlə, istehsalın pərakəndəliyi və onun məhdud ərazidə cəmləşməsi variantları üzrə yuxarıda adlanan məsrəf göstəricilərinin müqayisəsi sənaye, kənd təsərrüfatı və digər fəaliyyət növlərinin yerləşmə arealını müəyyənləşdirir. "Monomərkəzli şəhərlərdə işçilərin şəhərətrafı ərazilərdən şəhərin mərkəzində yerləşən müəssisələrə daşınması, məhsulun şəhərətrafı müəssisələrdən mərkəzi nəqliyyat qovşağına daşınmasından ucuz başa gəlir" [2, s. 220].

Sənaye rayonlarının çoxfunksiyalı olması halında məsafə və daşınma xərci amilinə fərqli yanaşma lazım gəlir. Belə ki, xammal və hazır məhsulun kütləsi nisbəti, bir neçə nəqliyyat qovşağının mövcudluğu şəraitində onların cəlbetmə arealı, iqtisadi fəallığın fokusu kimi amilləri nəzərə almadan çoxfunksiyalı sənaye rayonunun müqayisəli üstünlüklərini kifayət qədər dəqiqliklə qiymətləndirmək olduqca çətindir. Çünki birmənalı olaraq üstünlük verilən qiymətləndirmə metodikası yoxdur və adaptasiya edilmiş yanaşmaların tətbiqi, heç də həmişə gözlənilən nəticə vermir.

Sənaye rayonunun təzə ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması prioritetləri qismində aşağıdakıları vurğulamaq olar:

- sənaye rayonunda kənd təsərrüfatına yararlı torpaqlardan istifadə perspektivlərinin müəyyənləşdirilməsində aqrar istehsalçıların mənafeyinin önə çəkilməsi;
- sənaye rayonunda və ona bitişik ərazilərdə məhz sənaye əsaslı quşçuluq, örtülü sahədə tərəvəzçilik, süd istehsalı və emalı komplekslərinin inkişafının dəstəklənməsi;
- qeyd edilən sahələrin inkişaf etdirilməsində sənaye rayonunun enerji resurslarından təkrar istifadə imkanlarının gerçəkləşdirilməsi;
- yaxın ərazilərdə yerləşən kənd təsərrüfatı müəssisələrinin sənaye müəssisələri ilə birbaşa əlaqələrinin yaradılması və genişləndirilməsi.

Sənaye rayonunda kənd təsərrüfatı, sənaye, xidmət və s. müəssisələrinin birbaşa əlaqələrinin digər növləri də, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında müəyyən rola malikdir. Kənd təsərrüfatı müəssisələrinin enerji təminatında həmin əlaqələr özünəməxsus rol oynaya bilər. Yaxın ərazidə yerləşən kənd təsərrüfatı müəssisələri sənaye qovşağının enerji resurslarından (tullantılarından) istifadə etməklə, məhsulun maya dəyərini, əhəmiyyətli dərəcədə aşağı salmaq imkanına malikdirlər. Məsələ ondadır ki, kənd təsərrüfatı məhsulları istehsalında məsrəflərin mühüm hissəsi enerji xərcləridir.

Sənaye rayonlarının aqrar-ərzaq bazarının özünəməxsusluğu, burada baş verən proseslərin tənzimlənməsi zamanı aşağıdakı məsələlərin önə çəkilməsini tələb edir:

- sənaye və aqrar marketinqin mütərəqqi üsullarından birgə istifadə etməklə, geniş marketinq tədqiqatlarının həyata keçirilməsi;
- müvafiq infrastruktur şəbəkəsinin iqtisadi və texnoloji baxımdan səmərəliliyinin və onun səviyyəsinin yüksəldilməsi imkanlarının qiymətləndirilməsi;
- sənaye və aqrar potensialın müştərək istifadəsi üçün əlverişli şəraitin yaradılması və s.

Sənaye rayonlarının ərzaq məhsulları ilə təminatı sistemi bu və ya digər regionun ərzaqla özünütəminetmə xəttinin qismən məsrəfli xarakterini və bir sıra digər neqativ nəticələri neytrallaşdırmağa çalışmalıdır. Unutmaq olmaz ki, «ərzaq bazarında subyektiv amillərin təsirindən irəli gələn seqmentləşmə müvafiq əlaqələrdə əlavə məhdudiyyətlər yaratmaqla, kənd təsərrüfatı istehsalının intensivləşmə tempini ləngidir» [2, s.103].

Deyilənləri ümumiləşdirərək, artıq qeyd olunanlarla yanaşı sənaye rayonlarının ərzaq təminatının yaxşılaşdırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- sənaye rayonunu əhatə edən ərazilərdə aqrar-ərzaq potensialının qiymətləndirilməsi və onun fəallaşdırılması məqsədilə, burada aqrar-sənaye inteqrasiyasının stimullaşdırılması;

➢ sənaye rayonunun istehsal potensialından ətraf ərazilərdəki kənd təsərrüfatı müəssisələrinin inkişafında, qarşılıqlı faydalılıq əsasında istifadə edilməsi mexanizminin qurulması;

➢ haqqında danışılan rayonların təzə ərzaq məhsulları ilə təmin edən ərazilərdə resursqorumanın qapalı texnoloji sisteminin qurulması üçün adekvat institusional mühitin yaradılması;

➢ sənaye rayonunun aqrar-ərzaq bazarının istehsal və satış məkanının birgəliyi nəzərə alınmaqla tənzimlənməsi üçün özünəməxsus sistemin yaradılması.

Ədəbiyyat

1. Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı, "Elm", 2007, s. 132-134.

2. Məmmədov S.M. İntensiv urbanizasiya mühitində kənd təsərrüfatının inkişafı. Bakı, Caşoğlu, 2010, s. 103-104; 220.

Резюме

Ахмедов З.Т., Ахмедова Т.С.

Факторы, влияющие на продовольственное обеспечение промышленых районов.

Поскольку обеспечение продовольственной безопастности является одним из важнейших направлений государственной политики, в ближайшие годы будут расширены меры направленные на обеспечение населения страны продовольственными товарами необходимого объёма и качества на постоянной основе.

"Стратегической Дорожной Картой по производству и переработке селькохозяйственной продукции в Азербайджанской Республики" определены стратегические цели укрепления институционального потенциала для обеспечения продовольственной устойчивости и статья посвящена исследованию приоритетов выполнения этих стратегических целей.

Ключевые слова: *продукты питания, промышленные районы, сельское хозяйство, агропродукт, промышленные предприятия*

Summary

Ahmadov Z.T., Ahmadova T. S.

Factors Affecting Improvement of Food Supply of Industrial Regions

Though the support of food safety is one of the important directions of state policy in future there will be measures directed on support of population of country with food goods on necessary quantity and quality on constant base.

"Strategy Road Map on manufacting and of agriculture production and rework in Azerbaijan Republic" is determined on strengthening of strategical aims for instutional potencial for supporting of food stability and article is devoted to research of prioritets of strategical aims

Key words: *food products, industrial regions,agriculture, agriproduct, industrial enterprises*

REGİONAL RƏQABƏTLİ İNNOVATİV İNSAN KAPİTALININ FORMALAŞMASI PROBLEMLƏRİ

Əliyev Teyyub Qəni oğlu, Əliyeva Şəms Teyyub qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
teyyub-qenioglu@mail.ru ; adnsu.nenk73@mail.ru

Xülasə: *Məqalədə qeyd edilir ki, işğaldan azad edilmiş regionların iqtisadiyyatının inkişafında innovativ insan kapitalının formalaşması və istifadəsi xüsusi rol oynayacaqdır. Bu regionlarda innovativ insan kapitalının formalaşması və onların iqtisadiyyatının innovativ inkişafının təmin edilməsi üçün ilkin tələb olunan resurslar mövcuddur. İşğaldan azad edilmiş ərazilərdə innovativ insan kapitalının formalaşması üçün ilk növbədə, bu ərazilərdə fasiləsiz innovativ təhsil fəaliyyəti təşkil edilməlidir. Bu məqsədin reallaşdırılması bir sıra problemlərin həll edilməsi səviyyəsindən və zamanından bilavasitə asılıdır. Mövcud problemlərin həlli üçün məqalədə bir sıra təklif və tövsiyələr irəli sürülür.*

Açar sözlər: *innovativ, insan kapitalı, problemlər, regionlar, təkliflər*

İstehsal texnologiyasında baş verən əsaslı dəyişikliklər, eləcə də, ictimai istehsal sferasında xidmətlərin, elmin və təhsilin üstünlük təşkil etməsi nəticəsində bəşəriyyətin yeni inkişaf mərhələsinə qədəm

qoyması, onun qarşısına yeni hədəflər və vəzifələr qoymaqdadır. Müasir şəraitdə fərdin cəmiyyətdəki rolu da dəyişmişdir - o, innovativ fikirlərin təşəbbüskarına çevrilmiş və bununla da insan kapitalı istehsalın əsas amilinə, cəmiyyətin əsas iqtisadi mənbəyinə çevrimişdir. Nəticədə insanın peşə bilik və bacarıqları, intellektual qabiliyyətləri yalnız onun şəxsi xüsusiyyətləri olmaqdan çıxmış, milli sərvət və ölkənin regionlarının inkişafı üçün qaynağa çevrilmişdir.

Mübaliğəsiz demək olar ki, indi istənilən regionun qlobal rəqabət mübarizəsində lider mövqelərə çatma imkanı, böyük ölçüdə, onun əhalisinin insan kapitalının səviyyəsi ilə müəyyən edilir. Eyni zamanda, daim dəyişən dünyada qlobal səviyyədə rəqabətqabiliyyətliliyi qorumaq üçün region əhalisinin aktiv hissəsinin əsas xüsusiyyəti rolunu oynayan və biliklərin cəmiyyətin iqtisadi mənbəyinə çevirməsinə imkan yaradan innovativ insan kapitalına ehtiyac olduğunu nəzərə almaq lazımdır. Nəticə etibarilə, regionun inkişafı, ora istiqamətlənmiş sosial inkişaf metodologiyasına əsaslanmalıdır ki, bu da innovativ insan kapitalının idarə edilməsi strategiyasını qəbul edərkən region əhalisinin xüsusiyyətlərini nəzərə almağa imkan verir. Eləcə də, nəzərdən qaçırmaq olmaz ki, insanın sosial münasibətlər sistemindəki rolunun və yerininin dərk edilməsi həm də, dövlət idarəçiliyinin insan yönümlü iqtisadiyyat modelinə, sosial sahəyə, innovativ insan kapitalına investisiyaların stimullaşdırılmasına əsaslanan siyasət istiqamətində transformasiyasını tələb edir.

Müasir dünyada biliyin sosial rolunun dəyişməsi ilə ictimai quruluşun transformasiyası arasında sıx bir əlaqə mövcuddur ki, bu da bilik istehsalında və yaranmasında iştirak edən idrak işçilərinin meydana çıxmasına səbəb olmuşdur. İnsanın idrak işçisinə aid edilməsi dolayı əlamətlərə əsasən müəyyən edilə bilər. İnvestisiya mühitini və idrak işçilərinin fəaliyyətinin şəbəkə xüsusiyyətini bu əlamətlərə aid etmək olar. İnnovativ insan kapitalının investisiya xarakteri, onun normal təkrar istehsalı üçün şərt kimi bu kapitala davamlı investisiya qoyuluşunu tələb edir. İdrak işinin şəbəkə təbiəti isə, idrak işçilərinin iyerarxatik olmayan şəbəkə strukturları və layihələri çərçivəsində qarşılıqlı əlaqələri ilə bağlı fəaliyyətlərinin təşkili yolu kimi başa düşülür.

İnnovativ insan kapitalı, müəyyən sahədəki fəaliyyətdən əlavə gəlir əldə etməyə imkan yaradan, sahənin yeni məhsulunun (əmtəənin və ya xidmətinin) bazara çıxarılmasına, müəssisədə istehsal proseslərinin və yeni marketinq metodlarının təşkili üçün zəruri olan peşəkar bilik və bacarıqdır. İqtisadiyyatda innovativ insan kapitalının rolu, ilk növbədə onun müəssisə tərəfindən mənfəət əldə etmək məqsədi ilə yüksək keyfiyyətli istehlak malları və xidmətləri istehsal etmək qabiliyyəti ilə əlaqədardır. Mal və xidmətlərin istehsalının bütün üsulları arasında ən çox "biliktutumlu" (yəni bilik əldə edilməsinə sərf edilən xərclərin malların maya dəyərində böyük pay alacağı) üsul innovasiyaların tətbiqinə əsaslanan istehsal üsuludur. Müəssisənin innnovativ fəaliyyət göstərməsi üçün əsas şərtlərdən biri onun innovativ insan kapitalına malik olmasıdır. Ancaq innovativ insan kapitalını yalnız bir müəssisənin xüsusi insan kapitalı kimi müəyyənləşdirmək düzgün deyildir, çünki yalnız müəyyən bir müəssisədə tətbiq olunan innovativ biliklər, bəzi hallarda digərləri üçün innovativ olmur. Eyni zamanda, innovasiyaların tətbiqi həmişə müəyyən bir spesifik sahə xüsusiyyətinə malik olduğundan innovativ insan kapitalı ümumi insan kapitalı ilə eyniləşdirilə bilməz.

Region tərəfindən innovativ insan kapitalından istifadə mexanizminin əsasında ona məhdud bir mənbə kimi yanaşılması dayanır. İnnovativ insan kapitalı region (kollektiv sosial subyekt) tərəfindən məkan-axınlar daxilində (dünya iqtisadiyyatında rəqabət qabiliyyətini artırmaq üçün) və məkan-yer daxilində (regionun sosial inkişafında inovativ mühiti formalaşdırmaq üçün) mənfəət (fayda) əldə etmək məqsədi ilə istifadə olunur. İnnovativ insan kapitalı, innovativ mühitdə biznes layihələrində istifadə edildiyi zaman təhsil, peşə təcrübəsi, özünü inkişaf etdirmə yolu ilə investisiya qoyuluşu əsasında formalaşır və artır.

Müəyyən bir regionda innovativ insan kapitalının inkişaf reytinqi iki göstərici qrupundan asılıdır. Birinci qrupa daxil olanlar regionda innovativ mühitin inkişafı üçün zəruri olan innovativ insan kapitalının inkişafının göstəriciləridir (elmi tədqiqatların və xidmətlərin inkişafı səviyyəsi; ETLKİ strukturlarında işləyənlərin sayı); ikinci qrupa aid edilənlər regiona biznes layihələrini cəlb etmək üçün lazım olan innovativ insan kapitalının inkişafı göstəriciləridir (yeniliklə əlaqəli bilik əldə etmək üçün təşkilatlar tərəfindən maliyyələşdirmə səviyyəsi; texnoloji yenilik; texnoloji yenilik üçün avadanlıq alınması; elmi tədqiqat və marketinq araşdırmaları).

İnnovativ insan kapitalının fəaliyyəti spesifik sahə xüsusiyyətlərinə malikdir. İqtisadiyyatın aparıcı sahələrində innovativ insan kapitalının inkişaf səviyyəsi, onun gəlirlilik dərəcələrinin müəyyən edilməsi əsasında müəyyən edilir. Bir qayda olaraq innovativ insan kapitalının böyük gəlir əldə etdiyi sahələrə ticarət, istehlak xidmətləri, maliyyə, enerji sənayesi və neft-qaz sənayesi aid edilir.

İnnovativ insan kapitalının inkişafında regional hakimiyyət orqanlarının əsas funksiyalarından biri bölgədə innovativ insan kapitalının daşıyıcıları arasında fikir mübadiləsi üçün şərait yaratmağa imkan verən yenilikçi mühitin formalaşdırılmasıdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərirk ki, regional hakimiyyət orqanları baxımından yenilikçi mühitin formalaşması üçün ilkin şərtlər əsasən konkret müəssisələr çərçivəsində yaradılır. Bu zaman həm də nəzərə alınır ki, regionların innovativ inkişafı proqramlarında fikir mübadiləsi və biznes layihələrində iştirak üçün şərait yaratmaqla yanaşı, universitet və aspirantura təhsilin dəstəklənməsi, yeniliyin stimullaşdırılması ilə bağlı da müvafiq tədbirlər görülməlidir. Bu yanaşma, təhsil sisteminin idarə edilməsi və yeniliyin birbaşa stimullaşdırılması yolu ilə dövlətin innovasiyalardakı iştirak hüdudlarını genişləndirir.

Regionlarda insan kapitalının əsas istehsalçıları, fəaliyyətləri innovativ insan kapitalı üçün sosial sifarişin stimullaşdırılması çərçivəsində həyata keçirilən universitetlərdir. Ali təhsil müəssisələrində innovativ insan kapitalı üçün stimullaşdırıcı sosial sifariş indeksi:

$$S = (E_1 + E_2 + E_3) / 3$$

düsturuna əsasən əsasən hesablanır.

Burada: E_1-universitet tələbələri arasında praktik təcrübənin formalaşmasının göstəricisidir;

E_2 -təhsil və istehsalın inteqrasiyasının göstəricisidir;

E_3- universitetin bölgənin innovativ təhsil mühitinə inteqrasiyasının göstəricisidir.

Bu düstur universitetin tələbələrlə, biznes strukturları və regional hakimiyyət orqanları ilə qarşılıqlı əlaqələrini (fəaliyyətini) əks etdirir.

Regionlar, bir qayda olaraq, həmin ərazilərdə dövlət maraqlarının təminatçısı, qoruyucusu kimi çıxış edir. Regional iqtisadiyyatın innovativ inkişafı, formal və qeyri-formal təsir institutları ilə yanaşı insan kapitalının formalaşması və inkişafı üçün əlverişli şəraitin mövcud olduğu institusional bir mühit tələb edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq və Azərbaycanda mövcud olan sosial-iqtisadi sisteminin xüsusiyyətləri nəzərə alınaraq insan kapitalının formalaşması və inkişafı üçün elə səmərəli institusional mühit yaradılmalıdır ki, bu regional iqtisadiyyatın innovativ inkişaf xüsusiyyətlərini əldə etsin.

İnnovativ insan kapitalının formalaşması və inkişafı üçün təsirli istiqamət iqtisadiyyatın bilik tutumlu sahələrinin inkişafına sistematik yanaşmanı təmin edən elm, təhsil və biznesin kompleks inkişafı üçün səmərəli sistemin yaradılmasıdır. İnnovativ tədbirlərin həyata keçirilməsində qarşılıqlı təsir və koordinasiya üçün təsirli bir mexanizm yaradaraq iqtisadiyyatın elmtutumlu sahələrinin, eləcə də, sənaye, kənd təsərrüfatı və xidmət sektorunun inkişafına nail olmaq mümkündür. Bu məqsədin reallaşdırılması və regional iqtisadiyyatın innovativ inkişafına nail olmaq üçün elm və istehsalın müxtəlif variantlarda və innovasiya prosesinin müxtəlif mərhələlərində inteqrasiyasına imkan yaradan mühit formalaşdırmaq lazımdır. Bu indiki zamanda, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının işğaldan azad edilmiş ərazilərinə "Böyük qayıdış"la bağlı, xüsusilə vacibdir. Ancaq, təəssüf ki, bu regionlarda rəqabətli innovativ insan kapitalının formalaşması üçün bir sıra vacib problemləri həll etmək lazımdır. İlk növbədə erməni vandalları tərəfindən yerlə yeksan edilmiş ərazilərimiz bərpa olunmalı, doğma yürdlarından köçkün dümüş vətəndaşlarımız öz doğma yurdlarına qaytarılmalı, onlar üçün müvafiq yaşayış şəraiti və iş yerləri təşkil edilməlidir. Dağıntıların miqyası və məcburi köçkünlərin sayı nəzərə alınarsa bu problemlərin həlli üçün xeyli zamana ehtiyac olduğunu söyləmək olar. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə 2021-ci ilin əvvəlinə işğaldan azad edilmiş rayonlarda qeydiyyatda olan əhalinin sayı 900 min nəfərə yaxındır. Təbiidir ki, indi onların sayı daha çoxdur. Bunlara Naxçıvanın Kərki kəndinin və Qazax rayonunun hələ də işğal altında olan və yaxınlarda azad ediləcək 7 kəndinin əhalisi də əlavə edilərsə, doğma yurdlarına qayıtmalı olan Azərbaycan əhalisinin sayının bir milyona yaxın olduğunu söyləmək olar.

Göründüyü kimi, işğaldan azad edilmiş ərazilərdə innovativ insan kapitalının hazırlanması üçün kifayət qədər əmək ehtiyatları vardır.

İşğaldan azad edilmiş ərazilərində: Ağdam [2], Cəbrayıl [3], Fizuli [4], Xocalı [5], Xankəndi [6], Kəlbəcər [7], Qubadlı [8], Laçın [9], Şuşa [10] və Zəngilan [11] rayonlarında yeni, müasir tələblərə cavab verən biznes strukturlarının yaradılması üçün zəngin təbii sərvətlər və səfalı iqlim şəraiti vardır. Başqa sözlə, işğaldan azad edilmiş rayonlarda innovativ insan kapitalının formalaşması və onların iqtisadiyyatının innovativ inkişafının təmin edilməsi üçün ilkin tələb olunan resurslar mövcuddur.

Fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə innovativ insan kapitalının formalaşması üçün ilk növbədə bu ərazilərdə fasiləsiz innovativ təhsil fəaliyyəti təşkil edilməlidir. İnnovativ təhsil fəaliyyətinin ən vacib sahələrindən biri biznes strukturlarının mütəmadi olaraq peşəkar kadrlarla təmin olunmasının əsas şərtlərindən olan fasiləsiz təhsil mexanizminin tətbiqi, müxtəlif səviyyəli yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasının təşkilinə zəmanət, müxtəlif səviyyəli biznes strukturlarının kadrlarının, eləcə də bütün səviyyəli təhsil müəssisələrinin pedaqoji kadrlarının inkişaf etdirilməsi və yenidən hazırlanması üçün səmərəli sistemin yaradılmasıdır. Belə sistemin formalaşması qeyd edilən regionlarda fasiləsiz təhsil ideyasının həyata keçirilməsinə, hər kəsin istəklərinə, imkanlarına, cəmiyyətin, eləcə də biznesin ehtiyaclarına uyğun tədricən təhsil almasına imkan yarada bilər. Bunun üçün regional fasiləsiz təhsil sistemi kadr, peşə hazırlığı, təlim və peşə uyğunlaşma funksiyalarının yerinə yetirilməsinə yönəldilməlidir. Hesab

edirik ki, işğaldan azad edilmiş rayonlarda innovativ kadr hazırlığının (tam orta məktəb- orta ixtisas təhsili - ali məktəblər-aspirantura- doktorantura) fasiləsiz həyata keçrilməsi üçün bəzi rayon mərkəzlərdində - məsələn Şuşada, Ağdamda, Fizulidə-bu rayonlarda yaradılması nəzərdə tutulan biznes strukturlarının profilinə uyğun kadr hazırlanması üçün orta ixtisas və ali məktəblərin təsis edilməsi məqsədəuyğun olardı.

Regionların iqtisadiyyatının innovativ inkişafının vacib bir sahəsi də innovativ iqtisadiyyatın inkişafının özəyi ola biləcək və tədqiqat mərkəzlərini, istehsal və xidmət müəssisələrini özündə cəmləşdirən güclü mərkəz rolunu oynayan elm şəhərlərinin yaradılmasıdır. Fikrimizcə, bu şəhər kimi Şusa seçilə bilər. Bu cür mərkəzlərin yaradılması zamanı insan kapitalının səviyyəsinin və keyfiyyətinin formalaşmasının, potensialının reallaşdırılmasının sosial-iqtisadi, təşkilati və hüquqi şərtlərlə birbaşa bağlı olduğu nəzərə alınmalıdır.

Fikrimizcə, yuxarıda irəli sürülən təklif və tövsiyələr dövlət qurumları tərəfindən işğaldan azad edilmiş regionların inkişafı strategiyaları müəyyənləşdirilərkən, onların sosial-iqtisadi və innovativ inkişafı üçün proqramlar hazırlanarkən istifadə edilə bilər.

Ədəbiyyat

1. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə, Bakı, DSK, 2020. 532 səh.
2. ATS.https://azertag.az/xeber/Agdamin_tebii_servetleri_ermeniler_terefinden_ talan_ edilir-26562.
3. CTE.https://azertag.az/xeber/Cabrayıl_rayonunun_tabıı_sarvatları_ermanı_ısgalchıları_tarafından _dagıdılır-490547.
4. FTE. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=5426.
5. XTS.http://deyerler.org/23921-dedal-altinda-olan – xocali -rayonundaki-tzhbdd.html.
6. XTS.http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6016.
7. KTS.https://finance-group.az/k-lb-c-r-rayonu-t-bii-s-rv-tl-ri/.
8. QTS.https://reyting.az/iqtisadiyyat/43103-qubadl-rayonu-da-bu-zonada-tbii-yataqlar-il-frqlnir-thlil.html.
9. LTS.https://azertag.az/xeber/Lachin_rayonunun_tebii_servetleri_19_ildir_ki_ ermeniler_terefinden_talanir-523179.
10. ŞTS.https://azertag.az/xeber/18_ıldır_kı_susanın_tabıı_sarvatları_ermanılar_tarafından_dagıdılır-477792.
11. ZTS. https://aqreqator.az/az/iqtisadiyyat/1066365.

Резюме

Алиев Т.Г., Алиева Ш.Т.

Проблемы формирования регионального конкурентоспособного инновационного человеческого капитала

В статье отмечается, что формирование и использование инновационного человеческого капитала играет особую роль в развитии экономики освобожденных регионов. В этих регионах имеются ресурсы, необходимые для формирования инновационного человеческого капитала и инновационного развития их экономики. Для формирования инновационного человеческого капитала на территориях, освобожденных от оккупации, в первую очередь должна быть организована непрерывная инновационная образовательная деятельность. Реализация этой цели напрямую зависит от уровня и времени решения ряда задач. В статье выдвинут ряд предложений и рекомендаций по решению существующих проблем.

Ключевые слова: *инновационный, человеческий капитал, проблемы, регионы, предложения*

Summary

Aliyev T.Q., Aliyeva Sh.T.

Problems of Formation of Regional Competitive Innovative Human Capital

The article notes that the formation and use of innovative human capital will play a special role in the development of the economy of the liberated regions. These regions have the resources necessary for the formation of innovative human capital and the innovative development of their economies. In order to form innovative human capital in the territories liberated from occupation, first of all, continuous innovative educational activities should be organized. The realization of this goal directly depends on the level and time of solving a number of tasks. The article puts forward a number of proposals and recommendations for solving existing problems.

Key words: *innovative, human capital, problems, regions, proposals*

AZƏRBAYCANDA HƏYAT SIĞORTASININ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİNDƏ ROLU

Əliyeva Mələk Allahverdi qızı
İqtisadiyyat İnstitutu
melekaliyewa@gmail.com

Xülasə: *Həyat sığortası bazarının dinamik inkişafı ölkədə əhalinin sosial müdafiəsinin gücləndirilməsində bir alət kimi çıxış edə bilər. Həyat sığortası dövlətin üzərinə düşən yükün müəyyən qədər azaldılmasına və insanların təfəkküründə möhtaclıq kimi nüansları perspektivli yatırıma çevirə bilər. Qısa təhlildən sonra Azərbaycanda həyat sığorta bazarının inkişafına dövlətin əsaslı müdaxilə edə biləcəyi bir qisim aspektləri aydınlaşdırmış olduq. Aldığımız nəticəyə görə müəyyən hallarda qanunverici-hüquqi bazanın təkmilləşdirilməsi, digərlərində isə stimullaşdırıcı tədbirlərin görülməsi həyat sığorta bazarını inkişaf etdirə, əhalinin sosial müdafiəsində isə köklü dəyişikliklərə yol aça bilər.*

Açar sözlər: *həyat sığortası, sosial müdafiə, həyat sığorta bazarı*

Giriş. Həyat sığortası çağdaş dövrdə bir sıra ölkələrdə əhalinin sosial müdafiəsinin gücləndirilməsində könüllülük prinsiplərini özündə ehtiva edir. Belə ki, inkişaf etmiş ölkələrdə kifayət qədər normallaşmış həyat sığortası əhalinin ələbaxımlılıq, klassik sosializmdən çıxmış ölkələrdəki kimi mərkəzləşmiş, konkret dövlətdən birbaşa dəstək, yardım almaq və sair kimi məfhumları yox edir. Dövlətin üzərinə düşən yük xeyli azalır. Cəmiyyət həyat sığortasına güvənir və buna yatırım məqsədli yanaşmadan dolayı könüllü həyat sığortasına kifayət qədər məbləğlərdə maliyyə vəsaiti ödəməklə gələcəklərini sığorta etdirməyə çalışırlar. Post-sosialist ölkələrdə isə bu bir qədər mürəkkəb prosesdir və insanlar konkret olaraq gələcək ilə bağlı narahatçılıqlarını dövlətdən müəyyən gözləntilər hesabına uzlaşdırmağa çalışır. Nəticədə, bu tipli ölkələrdə, o cümlədən də, Azərbaycanda tam formalaşmamış həyat sığortası mədəniyyəti dövlətə müxtəlif dərəcəli yükü öhdələnməyi şərtləndirir.

Qeyd etmək lazımdır ki, bu kimi situasiyalarda həyat sığortasını inkişaf etdirmək müxtəlif bazar oyunçularının hər birinin qarşısına özünəməxsus tələb qoyur. Buna misal olaraq, dövlət üçün tənzimləyici, əhalinin istehlakçı hüquqlarının müdafiəçisi və s. kimi bu qəbildən tələblər qoyulursa, sığortaçılar üçün tələblər isə riskləri və bazar fəsadlarını minimuma endirmək, sığorta məhsullarının çox çeşidliliyini və əlçatanlığını təmin etmək, istehlakçılar arasında maarifləndirmə kimi tədbirlər icra etmək və s. hesab oluna bilər. Burada cəmiyyətin də öz mövqeyi nəzərə alınmalı və müxtəlif icmalarda həyat sığortası təbliğ olunmalıdır ki, onun əhali üçün nə vəd etməsi hər kəs tərəfindən müəyyən qədər anlaşıqlı olsun.

Şəkil. Həyat sığortası növləri

Mənbə: Şəkil Profam (2022)əsasında müəllif tərəfindən hazırlanmışdır [4].

Təhlil və qiymətləndirmə. Hal-hazırda dünyada adambaşına toplanan həyat sığorta haqları kifayət qədər çoxdur və təəssüf ki, ölkəmiz bu trenddən kənarda qalır. Buna müxtəlif səbəblər vardır və ən başlıcası həyat sığorta bazarının təşəkkülü problemləridir. Təhlilə ilk olaraq həyat sığortasına iyerarxik baxışla başlamaq istərdik (Şəkil).

İcbari həyat sığorta növlərində toplanmış sığorta haqları daşınılabilir portfel olmalı və vətəndaşın tələbləri çərçivəsində dövlətin əməkdaşlıq etdiyi özəl sığorta şirkətlərindən birinə köçürülməsi mümkün olmalıdır. Bu sığorta bazarında liberallığı artırmaqla, onun inkişaf etdirilməsində mühüm addımlardan biri ola bilər. Eyni zamanda da, müəyyən hallarda vətəndaşın sığorta haqlarına sığorta şirkətindən qaynaqlanan xüsusi risklərə əsaslı şübhələr olduqda, yaxud qarşılıqlı inamsızlığa dair fikir formalaşdıqda, könüllü sığorta əmanətləri dövlət yaxud, onunla əməkdaşlıq edən bir sıra digər sığorta şirkətlərinin hesabına köçürmək mümkün olmalıdır. Bu da sığorta bazarında şəfaflığın, hesabatlılığın artırılması ilə yanaşı, eyni zamanda vətəndaş məmnuniyyəti və rəqabətqabiliyyətlilik kimi ünsürlərin də formalaşmasına təkan verə bilər. Qeyd edək ki, bu da dövlətin bazarda tənzimləyici kimi rolunun artırılması və yenə sonda vətəndaş, sığorta şirkətləri və dövlət üçlüyü arasında qarşılıqlı inamın formalaşması ilə sığorta bazarının dayanıqlı inkişafını artıra bilər. Dövlət bir başa maliyyə yükündən azad olmaqla, bazarda hüquqi əsasın formalaşdırılması və sığorta qanunvericiliyinin təkminləşdirilməsində maraqlı olacaqdır.

Azərbaycanda həyat sığortasının siniflər üzrə son beş illik dinamikasına nəzər yetirdikdə könüllü həyat sığortasının icbarini dəfələrlə üstələməsi müşahidə olunur. 2021-ci ildə pandemiyadan əvvəlki dövrlə, yəni 2018-ci illə müqayisədə artım icbari həyat sığorta növündə 1.8 dəfə, könüllü həyat sığorta növlərində isə 0.05 dəfə müşahidə edilmişdir. 2022-ci ilin isə ilk səkkiz ayı ərzində toplanmış könüllü sığorta haqları 2021-ci illə müqayisədə nəzərə çarpacaq dərəcədə artmışdır (Diaqram 1).

Diaqram. Həyat sığortası üzrə könüllü və icbari sığorta sinifləri, min manatla

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik hesabatı (2022) əsasında müəllif tərəfindən hazırlanmışdır [2].

Könüllü sığorta üzrə əmək qabiliyyətinin itrilməsi üçün ödənişlər buna müvafiq uyğun gələn DSMF müavinətlərində əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkənlərə aylıq kompensasiyanın ödənilməsindən dəfələrlə azdır. Ümumiyyətlə isə, 2021-ci ildə əmək qabiliyyətinin sığortası üzrə haqlar yığılmamış, 2022-ci il üçün isə hələlik 0.8 mln AZN sığorta haqqı daxil olmuşdur [2]. Ailə başçısının itrilməsinə görə müavinətlər bir qayda olaraq rəsmi işsiz kimi qeydiyyatdan keçmiş, yaxud da qeyri-formal məşğulluq ilə kifayətlənən şəxslərin ailələrinə verilir və dövlət üçün müəyyən qədər yük rolunu oynayır. Şəxs formal məşğulluq tipində fəaliyyət göstərsə və həyat sığorta növünü seçsə bu həyatın ölüm halından sığortasına uyğun gəlir. Həyatın ölüm halından sığortası vərəsəlik prinsipinə əsaslanır və şəxsin vəfatından sonra onun ailə üzvlərinin maddi təminatını iki formada, ya birdəfəlik, ya da aylıq olaraq təmin edir. Dövlət qulluqçularına verilən müavinət həyatın yaşam sığortasına uyğun gəlir. Bu xüsusda dövlət qulluqçuları üçün hüquqi aspektdən daha liberal yanaşma formalaşdırıla bilər. Onlar üçün nəzərdə tutulmuş portfelin müəyyən miqdarı müvafiq şərtlər daixilində dövlətin əməkdaşlıq etdiyi həyat sığorta şirkətinə transfer edilə bilər. Dövlət qulluqçusu üçün bu nisbətən investisiya xarakteri daşıyacaqdır və bu halda dövlət administrativ

yükdən azad oluna bilər və dövlət həyatın yaşam sığortası üzrə bazarı stimullaşdıra bilər. Bu kateqoriya üzrə ödənişlər 2021-ci ildə 2 080 AZN, 2022-ci ildə isə 1820 AZN civarında olmuşdur (Cədvəl).

Cədvəl.

Sığorta sinifləri üzrə ödənişlər və DSMF-dən ayrılmış müavinətlər (min manatla)

Sığorta sinifləri	**2017**	**2018**	**2019**	**2020**	**2021**	**2022**[1]
1	**2**	**3**	**4**	**5**	**6**	**7**
Könüllü - Həyat sığortası üzrə	126407	94978.9	121798	280441	235714	157362
həyatın yaşam sığortası	124046	93366.0	120548	275662	231719	155446
1	**2**	**3**	**4**	**5**	**6**	**7**
həyatın ölüm halından sığortası	2351	1612.9	1250	4780	3968	1858
əmək qabiliyyətinin sığortası	0	0.0	0	0	0	27
sağalmaz xəstəliklərdən sığorta	10	0.0	0	0	27	30
İcbari - İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta	4226	3136	3101	2559	4071.6	2423
DSMF-müavinətlər						
ailə başçısını itirməyə görə	2585	2691	3128	3760	3935	4344
əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkənlərə aylıq kompensasiya	100	94	89	87	82	63
dövlət qulluqçularına (ömürlük)	1.93	1.89	1.84	2.35	2.08	1.82

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankının statistik hesabatı (2022) və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2022) əsasında müəllif tərəfindən hazırlanmışdır [2, 1].

Nəticə və təkliflər

Düşünürük ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsində həyat sığortasının kifayət qədər rolu mövcuddur. Belə ki, həm könüllü sığorta, həm də icbari sığorta üzrə 5 illik dinamikada sığorta haqları və ödənişləri üzrə artım müşahidə olunmuşdur. Sığorta ödənişlərində artım əhalinin sosial vəziyyətinin yaxşılaşmasıdır ki, bununla da onlarda möhtaclıq və dövlətdən ayrılan birbaşa yardımlara ehtiyac hissi nisbətən əriyir. Dövlətin həyat sığorta bazarına təsiri hüquqi tənzimləyici aspektdən olarsa bu zaman şəfaflıq, rəqabətqabiliyyətlilik və s. kimi müasir bazar ünsürlərinin daha da artması proqnozlaşdırılır. Müəyyən hallarda vətəndaşların DSMF-də olan portfelləri dövlətin əməkdaşlıq etdiyi sığorta şirkətlərinə həvalə olunarsa bu bazarı stimullaşdıra bilər və dövlətin əlavə administrativ xərclərini azalda bilər. Təbii ki, bu halda kifayət qədər hərtərəfli işlənmiş hüquqi əsasın olması vacibdir.

Dövlət daha çox təminat vəd etməklə əhalinin bir sıra, məsələn məşğulluq və digər bu qəbildən olan sahələrdə "tənbəlləşməsinə" səbəb ola bilər. Aşağı məşğulluq fərdlərin gəlir əldə etmə və investisiya, yığım kimi vərdişlərini tamamilə zədələyib, onları yalnız və yalnız əldə olunmuş müavinətlərin istehlaka yönləndirilməsinə istiqamətləndirə bilər. Məlum olduğu kimi, bir sıra ədəbiyyatlarda həyat sığortası investisiya kimi dəyərləndirilir [3, 5]. Bu mövqedən baxdıqda həyat sığortasının inkişaf etdirilməsi prealitet hesab oluna bilər, çünki bununla dövlət daha çox müavinət verməkdən azad olunacaq və fərdlər öz hesablarına bu kimi xidmətlərdən həyat sığortası ilə faydalana biləcək.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2022). Sosial Müdafiə. Pensiya və sosial müavinətlər. *URL: https://stat.gov.az/source/healthcare/az/002_1_3.xls*
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı. (2022). Statistika-Sığorta-Siniflər üzrə. *URL: https://uploads.cbar.az/assets/ab3b252bb267de60aabb12043.xlsx*
3. Parrish, S. (2019). Is Life Insurance An Investment? *URL: https://www.forbes.com/sites/steveparrish/2019/07/09/is-life-insurance-an-investment/?sh=1d954bc832b4*
4. Profam. (2022). Sığorta növləri. *URL: https://insure.az/info/insurance*

[1]2022-ci il təxmin yaratmaq məqsədi ilə yanvar-avqust aylarında toplanmış sığorta haqları verilmişdir

5. Rojeck, P. (2019). Wealth. Life insurance. Springer. *DOI: 10.1007/978-3-030-24497-2_6*

Резюме
Алиева М.А.
Роль страхования жизни в усилении социальной защиты населения в Азербайджане

Динамичное развитие рынка страхование жизни может выступить инструментом усиления социальной защиты населения в стране. Страхование жизни может в определенной степени снизить нагрузку на государство и превратить такие нюансы, как потребность в мышлении людей, в перспективную инвестицию. После краткого анализа мы выяснили аспекты, в которых государство может существенно вмешиваться в развитие рынка страхования жизни в Азербайджане. По нашим результатам, в ряде случаев совершенствование законодательной и правовой базы, а в ряде случаев реализация стимулирующих мер может способствовать развитию рынка страхования жизни и привести к радикальным изменениям в социальной защите населения.

Ключевые слова: *страхование жизни, социальная защита, рынок страхования жизни*

Summary
Aliyeva M.A.
The Role of life Insurance the Social Protection of the Population in Azerbaijan

The dynamic development of the life insurance market can act as a tool for supporting the social protection of the population in the country. Life insurance can reduce the burden on the state to a certain extent and turn nuances such as neediness in the mind of people into promising investments. After a brief analysis, we have clarified the aspects where the state can substantially intervene in the development of the life insurance market in Azerbaijan. According to our results, in some cases, the improvement of the legislative and legal framework, and in some cases, the implementation of stimulating measures can develop the life insurance market and lead to radical changes in the social protection of the population.

Key words: *life insurance, social protection, life insurance market*

DAĞ TURİZMİ VƏ ONUN AZƏRBAYCANDA İNKİŞAF PERSPEKTİVLƏRİ

Əliyeva Ülviyyə Zakir qızı
Azərbaycan Kooperasiya Universiteti
musayevagulaya1@gmail.com

Xülasə: *Məqalədə dağ turizminin əsas xüsusiyyətləri, inkişaf imkanları və Azərbaycanda dağ turizminin cari vəziyyəti araşdırılmışdır. Ətraf mühitə zərər vermədə dağ turizminin inkişafı hal-hazırda ən çox müzakirə olunan məsələlərdən biridir. Çünki turistləri özünə çəkən landşaft, mənzərə və sair özəlliklərin səbəbi ilə bu sahənin inkişafı özü ilə birlikdə ətraf mühitin çirklənməsi və meşə yanğınları kimi bir sıra problemləri də gətirmişdir. Eyni problem Azərbaycanın dağ turizmində də mövcuddur. Bu prosesin gedişatına dair müəllifin fikirləri verilmiş, tövsiyə və təkliflər qeyd olunmuşdur.*

Açar sözlər: *dağ turizmi, Azərbaycan, inkişaf, prespektiv, Quba-Xaçmaz*

Dağ bölgələri turizm sənayesi üçün böyük əhəmiyyət kəsb edən müxtəlif resurs bazasını təmin edir. Bununla belə, dağ bölgələrində turizm maraqlarının inkişafı və idarə edilməsi qlobal gündəmdə önə çıxan bir sıra əlaqəli məsələlərlə əlaqəlidir. Dağ bölgələri yer səthinin beşdə birini əhatə edir və dünya əhalisinin yarısından çoxunu mühüm resurslarla təmin edir. Turizm dünyanın ən böyük sənaye sahələrindən biri kimi bölgənin inkişafı üçün olduqca əhəmiyyətlidir. Belə ki, dünya üzrə illik qlobal dövriyyə 444 milyard ABŞ dolları təşkil edir ki, bu da dünyanın ən yoxsul 55 ölkəsinin Ümumi Milli Məhsulunun ümumi həcmini üstələyir. Turizmin əhəmiyyətini daha yaxşı görmək üçün bu rəqəmə daxili turizmdən gələn əlavə gəlirlər də əlavə edilməlidir [2, səh.101]. Azərbaycanın dağlıq ərazilərində də eyni hal müşahidə olunur. Belə ki, son zamanlarda dağ rayonlarının inkişafında turizmin nəzərəçarpan əhəmiyyəti müşahidə olunmuşdur və bunu aşağıdakı kimi verə bilərik:

1. Dağ rayonlarında işsizliyin aradan qaldırılmasında rolu vardır. Xüsuən də mövsümi iş axtaranlar üçün dağ turizmi ciddi önəm kəsb edir.
2. Şahdağda yaradılan turizm mərkəzində qış-yay istirahət kompleksi isə ilin bütün fəsillərində xidmət göstərdiyi üçün daimi iş axtaranlar üçün önəmlidir.

3. Xidmət sektorunun inkişafına təkan verir.

4. Ölkəyə gələn turistlərin sayının artması ilə yanaşı ölkə daxilində də turist marşrutlarının intensivləşməsi müşahidə olunur və s.

Dağlarda turizmin inkişafı davamlılıqla bağlı bir sıra əsas sualların həllini tələb edir, o cümlədən:

1. Turizm davamlı dağ inkişafına töhfə verirmi?
2. İqtisadi baxımdan dağ turizmindən kimlər faydalanır?
3. Dağların biofiziki ehtiyatları turizm fəaliyyəti ilə əlaqədar pozulurmu?
4. Turizm dağ icmalarına və cəmiyyətlərinə müsbət və ya mənfi təsir göstərir?

Dağlar özünün coğrafiyası, iqlimi, bitki örtüyü və heyvanlar aləmi cəhətdən çox müxtəlifdir. Hündürlüyündən asılı olaraq bir neçə iqlim tipini özündə cəmləşdirən dağlarda iqlim zonaları bir neçə kilometr məsafədə sıxlaşır. Hətta tək bir dağda, dibində tropik iqlim, orta hündürlükdə mülayim zona, daha yüksək alp şəraiti və nəhayət, ən yüksək zirvələrdə qar və buzlaqların olduğu arktik mühit müşahidə edilə bilər. Biomüxtəliflik də heyranedicidir.

Nəzərə alsaq ki, Azərbaycanın ən hündür zirvəsi 4466 metr hündürlüklə Baş Qafqaz silsiləsində yerləşən Bazardüzü zirvəsidir, ölkəmizin dağlarının biomüxtəliflik, iqlim tipləri və digər bu kimi xüsusiyyətlərinə görə nə qədər zəngin olduğunu görə bilərik [3, səh.29]. Turizmin dağlara təsiri çoxtərəfli araşdırılmalı olan məsələdir. İqtisadi baxımdan yanaşsaq, dağlarda yerləşən turizm kurortları birbaşa müştərilərindən asılıdır. Bundan əlavə, kurort zonalarının daxilində və xaricində bir çox sektorlar və icmalar üçün birbaşa və dolayı gəlir mənbəyi ola biləcək amillər var. Bununla belə, ayrı-ayrı ölkələrin turizm gəlirlərinin əhəmiyyətli bir hissəsi dağlardan kənar ərazilərə sızır. Son zamanlarda Azərbaycanda bu sahədə qismən də olsa bərabərlik təmin olunmuşdur.

Bundan əlavə, turizm fəaliyyəti turistik ərazilər üçün, xüsusən də həddən artıq insanın üz tutduğu yerlərdə biofiziki təsirlərə malikdir. Məsələn, yollar və xizək qaçışları həssas alp sahələrini dəyişdirə bilər; turistlərin dağ yolları boyunca tanınmış təsirləri var və vəhşi təbiət narahat ola bilər. Bunun qarşısını almaq üçün ətraf mühitin mühafizəsi tədbirləri gücləndirilməli, qoruqlar salınmalı, xüsusilə də, nəsli kəsilməkdə olan bitki və heyvanlar xüsusi həssaslıqla qorunmalıdır.

Məsələnin sosial və mədəni tərəflərinə baxsaq, turistlər adət-ənənələri poza, onların sayı və həyat tərzi ilə dağ icmalarına təsir göstərə və dağ kurortlarında daimi sakin olmaq üçün dağlardan kənar xidmət təminatçılarını cəlb edə bilər. Buna görə turistlər və yerli sakinlər arasında əlaqənin düzgün qurulması təmin edilməlidir. Əks halda ciddi münaqişələr yaşana və bu da nəticədə yerli sakinlərin turistlərə olan münasibətini dəyişə bilər.

Dağlarda turizmin təşviqi turizm üçün cəlbedici olan xüsusi xüsusiyyətlərə əsaslanır. Bunlar arasında təmiz, sərin hava, müxtəlif topoqrafiya, dağların və mədəni mənzərələrin mənzərəli gözəlliyi var. Çox müxtəlif təbiət mənzərələri və resursları, yerli adət-ənənələr və sadə həyat tərzi var - hətta bəzən bunlar yalnız turistlər tərəfindən belə qəbul edilsə belə. Bəzi cəsarətli turistləri və xüsusi idman və istirahət fəaliyyətləri üçün xüsusi dağ arenalarını cəlb edən özünəməxsus təhlükələr və ya problemlər var. Ən azı, dağların sağlamlıq və sağlamlıq turizmi, düşüncə və düşüncə üzərində cəmləşən fəaliyyətlər üçün əlverişli olan spesifik keyfiyyətləri var [1, səh.43].

Cədvəl 1-də 2015-2021-ci illər arasında ölkənin dağ turizminin inkişaf etdiyi Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən mehmanxana (hotel) tipli obyektlərdə nömrələrin sayı verilmişdir. İllər üzrə artan tempdə gedən ən yüksək göstərici Xaçmaz rayonunun payına düşür.

Cədvəl.

Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə nömrələrin iqtisadi rayonlar üzrə sayı

Quba-Xaçmaz iqtisadi rayonu	**3 794**	**3 846**	**3 919**	**4 107**	**4 323**	**4 363**	**4 377**
Xaçmaz rayonu	2 309	2 282	2 257	2 405	2 405	2 405	2 419
Quba rayonu	674	633	657	675	710	750	750
Qusar rayonu	770	910	984	981	991	991	991
Siyəzən rayonu	-	-	-	-	-	-	-
Şabran rayonu	41	21	21	46	217	217	217

Mənbə: https://stat.gov.az/source/tourism/

Dünya üzrə dağ turizminin inkişaf istiqamətlərini, turizmin bu növünün xarakterik xüsusiyyətlərini nəzərdən keçirdərək Azərbaycanda dağ turizminin inkişaf prespektivlərinə baxdıqdan sonra dağ turizminin ölkəmizdə inkişaf etdirilməsini təmin etmək üçün aşağıdakı təklifləri irəli sürürük:

– Dağ rayonlarında turizmin inkişafını sürətləndirəcək infrastrukturun qurulması və mövcud infrastruktur nümunələrinin yenilənməsi və inkişaf etdirilməsi faydalı olacaqdır. Bu həmçinin dünyanın bu sahədə aparıcı turizm obyektləri ilə rəqabətdə üstünlük əldə etməyə kömək edəcəkdir.

– Ətraf mühitin mühafizəsinin yüksək səviyyədə təşkilinə nail olunması çox vacibdir. Bu həmin ərazilərdə ehtiyatsızlıqdan yarana biləcək meşə yanğınlarının qarşısının alınması üçün turizmə açıq ərazilərdə atılması şərtləndirilən addımlardandır. Bunun üçün ilkin olaraq maarifləndirmə tədbirlərinin gücləndirilməsinə ehtiyac var. Bundan əlavə, yanğınlara və ətraf mühitin çirkləndirilməsinə qarşı nəzarət mexanizminin gücləndirilməsi qanunvericiliklə də dəstəklənməlidir. Bu məqsədlə qannvericiliyə əlavə və dəyişikliklər edilə bilər.

– Dağ turizmi üçün potensialı olan digər iqtisadi rayonlarda da xüsusi işlər görülməli və həmin ərazilərin də inkişafı üçün tədbirlər görülməlidir. Nəzərə alsaq ki, Azərbaycanın təbiəti bunun üçün əlverişlidir, bu inkişaf üçün əngəl törədə biləcək problemlər aradan qaldırılsa digər iqtisadi rayonlarımızda da dağ turizminin gələcəyi üçün diqqətəlayiq imkanlar mövcuddur.

Ədəbiyyat

1. Tourism in mountain and remote regions, *Joseph LEMA*, Jerome AGRUSA"", Wendy AGRUSA,* Article · January 2009
2. Raoul Bianchi, International Institute for Culture, Tourism and Development, London Metropolitan University
3. Mountains of the world: Tourism and sustainable mountain development, Mountain Agenda Institute of Geography, University of Berne, Switzerland, 1999
4. https://stat.gov.az/source/tourism/
5. https://www.shahdag.az/az

Резюме

Алиева У.З.

Горный туризм и перспективы его развития в Азербайджане

В статье рассматриваются основные особенности горного туризма, возможности развития и современное состояние горного туризма в Азербайджане. Развитие горного туризма в ущерб окружающей среде в настоящее время является одним из наиболее обсуждаемых вопросов. Потому что развитие этой области принесло с собой ряд проблем, таких как загрязнение окружающей среды и лесные пожары, из-за ландшафта, пейзажей и других особенностей, привлекающих туристов. Та же проблема существует и в горном туризме Азербайджана. Приведено авторское мнение о ходе этого процесса, отмечены рекомендации и предложения.

Ключевые слова: *горный туризм, Азербайджан, развитие, перспектива, Губа-Хачмаз*

Summary

Aliyeva U.Z.

Mountain Tourism and its Development Prospects in Azerbaijan

The article examines the main features of mountain tourism, opportunities for development, and the current state of mountain tourism in Azerbaijan. The development of mountain tourism in damaging the environment is currently one of the most discussed issues. Because the development of this area brought with it a number of problems, such as environmental pollution and forest fires, due to the landscape, scenery and other features that attract tourists. The same problem exists in the mountain tourism of Azerbaijan. The author's opinions on the progress of this process were given, recommendations and suggestions were noted.

Key words: *mountain tourism, Azerbaijan, development, perspective, Guba-Khachmaz*

AQRAR SFERADA DÖVLƏT İNVESTİSİYALARI VƏ DÖVLƏT SİFARİŞLƏRİ

Əzizova Kəmalə Vaqif qızı
Sumqayıt Dövlət Universiteti
kamalaazizova74.@mail.ru

Xülasə: *Aqrar sektor Azərbaycan iqtisadiyyatının ən böyük sahələrindən biridir. Aqrar sektorun bir qolu olan kənd təsərrüfatı, əhalinin ərzaq təminatı ilə, sənayenin xammal ilə təmin edilməsində əhəmiyyətli rol oynayır və ictimai əmtəə və xidmətlər dediyimiz bu nemətlərin yaradılması da məhz birbaşa dövlət investisiyaları və dövlət sifarişləri vasitəsilə həyata keçirilir.*

Açar sözlər: *aqrar sfera, səmərəlilik, investisiya, aqrar siyasət, kənd təsərrüfatı, dövlət sahibkarlığı*

Ölkənin aqrar-sənaye kompleksinin böhrandan çıxması üçün investisiya fəaliyyətinin dirçəldilməsi əsas şərtdir. İstər kənd təsərrüfatı, istər emal sənayesi, istər kapital istehsal edən sənaye, istərsə də mənzil-tikinti sektoru olsun, aqrar-sənaye kompleksinin bütün sahələrinin investisiyaya ciddi ehtiyacı var. Sosial ehtiyaclar kütləvi olan ehtiyaclar növüdür. Onlar bütün cəmiyyətdə və onlara daxil olan ayrı-ayrı sosial qruplarda, kollektivlərdə, təşkilatlarda və fərdlərdə yaranır və müəyyən cəmiyyətin məhsuldar qüvvələrinin və istehsal münasibətlərinin inkişaf səviyyəsi, ayrı-ayrı sosial icmaların iqtisadi vəziyyəti ilə müəyyən edilir. Sosial ehtiyaclara təhlükəsizlik, rabitə, mədəniyyət, təhsil, səhiyyə, əmək, məşğulluq və istirahət ehtiyacları daxildir. Milli təhlükəsizliyin ən mühüm komponenti ərzaq təhlükəsizliyidir. Dövlət tərəfindən müəyyən tədbirlər, üsul və vasitələrlə təmin edilir [1, s. 123].

Kənd təsərrüfatı statistikasının təhlili ümumi məhsulun artım templəri ilə kapital qoyuluşlarının həcmi arasında sıx əlaqə olduğunu göstərir. Buradan nəticə çıxır: investisiyaları artırmadan kənd təsərrüfatının böhrandan çıxacağına inanmaq mümkün deyil. Ən son texnologiyaların tətbiqi əsasında kənd təsərrüfatının yenidən təchiz edilməsi son dərəcə vacibdir ki, bu da dövlət üçün prioritet məsələdir. Sənayedə yeni yaradılmış dəyər vahidi üçün sənaye ilə müqayisədə xeyli yüksək xərc tələb olunur ki, bu da kənd təsərrüfatına dövlət dəstəyini daha da zəruri edir. Apardığımız araşdırmalara görə, onun illik birbaşa büdcədən maliyyələşdirilməsinin həcmi sənayenin ölkə iqtisadiyyatına verdiyi töhfədən az olmamalıdır [2, s. 221].

Hazırkı mərhələdə istehsalın modernləşdirilməsinə və texniki cəhətdən yenidən təchiz edilməsinə töhfə verən lizinq əməliyyatları sistemini genişləndirmək lazımdır; kənd təsərrüfatı istehsalçılarının iqtisadiyyatını sabitləşdirmək üçün yerli məqsədli büdcə vəsaitlərinin cəlb edilməsi; sahibkarlıq subyektlərinin güzəştli vergiyə cəlb edilməsi; idxal rüsumlarından sabit ayırmaların tətbiqi və onların kənd təsərrüfatına, investisiyalara yönəldilməsi. Dövlət dəstəyi mexanizmi qanunvericilik əsasında həyata keçirilməli və onu almaq hüququ olan bütün kənd təsərrüfatı təşkilatlarına eyni dərəcədə şamil edilməlidir. Yalnız səmərəli sahiblərə yardım və ya onun rəqabət əsasında bölüşdürülməsi, fikrimizcə, o qədər də perspektivli deyil. Bazar iqtisadiyyatı şəraitində sərmayəçi qismində dövlətlə yanaşı, kənd təsərrüfatı təşkilatları, aqrar-sənaye kompleksinin digər sahələri üzrə müəssisələr və fiziki şəxslər çıxış edirlər. Kompleksin, ilk növbədə kənd təsərrüfatının nisbətən aşağı rentabelliyini nəzərə alaraq, bu prosesin bütün iştirakçılarının birgə səyləri zəruridir. Bundan əlavə, xarici kapitalın da cəlb edilməsi məqsədəuyğundur [3, s. 44].

Daxili və xarici investorlardan maliyyə resurslarının cəlb edilməsinin ən məqbul forması kənd təsərrüfatı təşkilatlarının bazasında xarici kapital nəzərə alınmaqla ödəmə qabiliyyəti aşağı olan müəssisələrin yaradılmasıdır. Belə müəssisələrin yaradılmasının ilkin forması kimi dövlət və kollektiv kənd təsərrüfatı təşkilatlarının bazar dəyəri və əmlak almaq hüququ ilə fiziki və ya hüquqi şəxslərə icarəyə verilməsi məqsədəuyğundur. Eyni zamanda, investorlara əmlakın alınmasına görə möhlət hüququ da verilə bilər - müəssisə qeydiyyata alındığı gündən 5 ilədək, torpaq sahəsinin icarəyə verilməsi isə uzun müddətə - 99 ilədək müddətə məqsədəuyğundur. İslahat təkcə torpağın paylara bölünməsini deyil, həm də onun qiymətləndirilməsini, xüsusi mülkiyyətin sərhədlərinin genişləndirilməsini, torpaq bazarının mərhələli şəkildə tətbiqini nəzərdə tutur. Beləliklə, kənd təsərrüfatımız investorlar, o cümlədən xarici investorlar üçün daha cəlbedici olacaqdır [4, s. 45].

Torpaq girovu əsasında ipoteka krediti yüksək likvid istehsal amili olduğundan bütün dünyada geniş istifadə olunur. Lakin ipoteka kənd təsərrüfatına investisiyanın mühüm mənbəyinə çevrilə bilər. Belə müəssisələrin sürətləndirilmiş texnika ilə yenidən təchiz edilməsi məhsulların keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəlməsinə, əmək məhsuldarlığının yüksəldilməsinə öz töhfəsini verərdi. Digər tərəfdən, işlənmiş, lakin hələ tam köhnəlməmiş texniki vasitələrin dəyişdirilməsi olardı. Bu, iqtisadi inkişaf səviyyəsi aşağı olan müəssisələrə, o cümlədən tez-tez yeni avadanlıq ala bilməyən kəndli (fermer) təsərrüfatlarına və kəndlilərin ev təsərrüfatlarına ciddi ehtiyacı olan işlənmiş avadanlıq bazarının geniş inkişafının başlanğıcı

olardı. Kənd təsərrüfatı istehsalında yerli investorlar, ilk növbədə, maliyyə cəhətdən zəngin kənd təsərrüfatı müəssisələri olmalıdır. İri heyvandarlıq kompleksləri və quşçuluq təsərrüfatları, emal və ticarət təşkilatları investisiya fəallığını artırmağa qadirdir. Aqrar-sənaye kompleksi üçün resursların (yanacaq, gübrə, texnika) tədarükçüləri kənd təsərrüfatı istehsalına investisiya qoya bilərlər. Kənd təsərrüfatına sərmayə qoyan rayon və rayon idarələri olmalıdır. Çünki kənd əhalisinin məşğulluğunun və gəlirlərinin qorunub saxlanmasında, eləcə də rayonun ərzaq məhsulları ilə etibarlı təminatında maraqlıdır.

Maliyyə resurslarının səfərbər edilməsi və yenidən bölüşdürülməsi, iri layihələrin həyata keçirilməsi vasitəsi kimi qiymətli kağızlar bazarının inkişafı investisiya fəaliyyətini asanlaşdırmalıdır. İnvestisiya cəlb etməyin ən mühüm yollarından biri müxtəlif inteqrasiya strukturlarının yaradılmasıdır, o cümlədən kənd təsərrüfatı maliyyə və sənaye qrupları da buraya daxildir. Bu baxımdan dövlət aqrar sahədə kooperativ və inteqrasiya proseslərinin inkişafını stimullaşdırmalıdır. İri emal müəssisələrinin bazasında holdinqlərin yaradılmasını stimullaşdırmaq üçün onların vergiyə cəlb olunan mənfəətini müəssisələrin öz resurs zonalarının genişləndirilməsi və texnoloji modernləşdirilməsinə xərclədikləri məbləğlərlə azaltmaq məqsədəuyğundur. Məbləği qanunla müəyyən edilməli olan bu vəsaitlər kənd təsərrüfatı təşkilatlarının paylarının alınmasına, torpaqların icarəyə verilməsinə və zonadakı kənd təsərrüfatı müəssisələrinin texnoloji cəhətdən müasirləşdirilməsinə ciddi şəkildə istifadə edilməlidir [4, s. 45].

İqtisadiyyatın real sektoruna investisiya vəsaitlərinin cəlb edilməsi ilə bağlı bir çox problemlər vardır. Bunun üçün uzunmüddətli əmanətlər üzrə inflyasiya səviyyəsini aşan dərəcələr müəyyən etmək və yatırılan vəsaitlərin qaytarılmasına təminat vermək lazımdır. Əhalinin xarici valyutada olan əmanətləri üzrə faiz dərəcələrinin kommersiya banklarının dərəcələrinə yaxın səviyyədə müəyyən edilməsi məqsədəuyğun olardı. Eyni zamanda, əmanətlərin sirrinin saxlanması, gəlirləri bəyan etməkdən imtina edilməsi, qoyulmuş vəsaitlərin vaxtında qaytarılmasına dövlət zəmanətinin verilməsi, əhalinin gəlirlərinin leqallaşdırılması və bununla da onun maliyyə institutlarına və dövlətə inamının bərpası vacibdir.

Ədəbiyyat

1. Ağayev A. Maliyyə. Terminlər lüğəti. Bakı, Ziya, 2005, 421 s.
2. Əhmədov G. Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri. Bakı, 2010, 269 s.
3. Allahverdiyev H., Qafarov K.S., Əhmədov H. İqtisadiyyatın dövlət tənzimlənməsi. Dərslik, Nasir nəşriyyatı, Bakı, 2002, 127 s.
4. İbrahimov İ. Aqrar iqtiasadiyyatın aktual problemləri. Təhsil, Bakı, 2002, 320 s.

Резюме

Азизова К.В.

Государственные инвестиции и госзаказы в сфере сельского хозяйства

Сельскохозяйственный сектор является одним из крупнейших секторов экономики Сельское хозяйство как отрасль аграрного сектора играет важную роль в обеспечении населения продовольствием и сырьем для промышленности, а создание этих благ, которые мы называем общественными благами и услугами, осуществляется за счет прямых государственных инвестиций и государственных заказов.

Ключевые слова: *аграрная сфера, эффективность, инвестиции, аграрная политика, сельское хозяйство, государственное предпринимательство*

Summary

Azizova K.V.

State Investments and State Orders in the Agricultural Sphere

The agricultural sector is one of the largest sectors of the economy of Azerbaijan. Agriculture, a branch of the agrarian sector, plays an important role in supplying the population with food and raw materials for industry, and the creation of these benefits, which we call public goods and services, is realized through direct state investments and state orders.

Key words: *agrarian sphere, efficiency, investment, agrarian politics, agriculture, state entrepreneurship*

LOGİSTİKANIN MÜƏSSİSƏNİN FƏALİYYƏTİNƏ TƏSİRİ

Həmidova Almas Məmmədağa qızı
Sumqayıt Dövlət Universiteti
almashamidova@mail.ru

Xülasə: *Yerli və xarici rəqiblər arasında güclənən rəqabət, məhsul bazarlarının doyması səbəbindən firmalar üçün əvvəlki mənfəət səviyyəsini, biznesin inkişaf templərini və ümumi rəqabət qabiliyyətini saxlamaq getdikcə çətinləşir. Eyni zamanda istehsal sektorunda xərclərin azaldılması potensialı kifayət qədər aşağıdır. Bu problemi logistika konsepsiyası ilə həll etmək olar. Logistika biznesin əsasını təşkil edir və onun əsas vəzifəsi mal axınının, eləcə də digər maddi dəyərlərin istehsalçıdan istehlakçıya çatdırılmasını təmin etməkdir. Bu hərəkətin idarə edilməsi bazarda ən mühüm rəqabət amillərindən biri olan məhsulun son maya dəyərinə əhəmiyyətli dərəcədə təsir edir.*

Açar sözlər: *logistika, rəqabət qabiliyyəti, logistika strategiyası, səmərəli integrasiya olunmuş sistem, logistik yanaşma*

Bazar iqtisadiyyatına müasir keçid şəraitində müəssisələrin idarə edilməsində logistika konsepsiyasından istifadə əlverişli iqtisadi, hüquqi və siyasi şəraitə görə çox səmərəli olmalıdır. Tətbiqi xarakterinə görə logistika müəssisələrə məhsulların tədarükü, istehsalı, distribusiyası və satışdan sonrakı xidmətlə bağlı praktiki problemləri həll etməyə imkan verir. Xarici alimlər tərəfindən hazırlanmış və təkmilləşdirilmiş hal-hazırda mövcud logistik modellər və metodlar qarşıya qoyulan vəzifələrin həllində geniş imkanlara malikdir.

Güclü rəqabətli bazarlarda marketinq xərclərini azaltmaq məntiqsizdir. Bir çox təşkilatlar üçün bu gün əhəmiyyətli qənaət edilə bilən ən perspektivli və demək olar ki işlənməmiş fəaliyyət sahələrindən biri logistikadır.

Ümumiyyətlə, müəssisənin rəqabət qabiliyyətinin təmin edilməsi strategiyası çərçivəsində marketinq, istehsal, maliyyə strategiyaları, ETTKİ strategiyası, kadrların idarə edilməsi strategiyası və logistika strategiyasını qeyd etmək olar.

Digər funksional strategiyalardan fərqli olaraq, logistik strategiya müəssisənin bir neçə funksional sahəsini bir anda əhatə edir. Müəssisənin bütün iqtisadi axınları obyekt kimi nəzərə alınarsa, logistik strategiyanın hazırlanması ilə bağlı funksional bölmələrin tərkibi, müəssisənin demək olar ki, bütün bölmələri daxil olmaqla, nəzərəçarpacaq dərəcədə genişlənir.

Dünya təcrübəsi göstərir ki, məhsul istehsalı və satışı zamanı xərcləri azaltmaq mümkün deyilsə, o zaman material axınının (xammal, yarımfabrikat, maddi-texniki dəyərlər) hərəkətini, istehsalçı və satıcı eləcə də son istehlakçı arasında ticarəti təhlil etmək lazımdır. Logistika bütün material axını zənciri boyunca xərcləri azaltmaq üçün effektiv vasitədir. Logistika təşkilatların məqsədlərinə çatmasına töhfə verən maddi, əmək, xidmət, məlumat və maliyyə axınlarını məkan və zamanda idarə edən elm və təcrübə kimi müəyyən edilmişdir [1, s. 75].

Müasir logistika bütün sahələrdə informasiya texnologiyalarının fəal tətbiqi ilə müəyyən edilir. Müasir kompüterlərdən, lokal şəbəkələrdən, telekommunikasiya şəbəkələrindən və proqram təminatından istifadə etmədən bir çox logistika prinsip və sistemlərinin tətbiqi mümkün deyildir. Logistika axınının informasiya təminatının dəyəri olduqca böyükdür, çünki o, informasiya axınlarının və resurslarının hərəkətinin istehsalında və idarə edilməsində mühüm yer tutur. Logistikada bu istiqamət kompüter logistikası adlandırılır [3, s. 24].

Müasir dünyada uğurlu biznesin aparılması səmərəli və hərtərəfli planlaşdırmaya əsaslanır. Bu gün logistika müəssisənin səmərəli planlaşdırılması və inkişafında aparıcı yer tutur. Logistika müəssisəyə daxil olan, orada emal olunan və bu müəssisədən çıxan maddi məhsulların axınının və müvafiq informasiya axınının planlaşdırılması, idarə edilməsi və nəzarəti deməkdir [8, s. 29]. Logistika material axınının hərəkətinin idarə edilməsi üzrə elmlər sistemidir, yəni materialın göndərilməsi və paylanmasının idarə edilməsi deməkdir [9, s. 45].

Logistikanın birinci xüsusiyyəti ondan ibarətdir ki, o, ümumi idarəetmə sisteminin bir hissəsidir, lakin özünəməxsusluğu ilə seçilir. Logistika məkan-zaman strukturuna malik axın proseslərinin idarə edilməsidir. Buradan belə nəticə çıxır ki, logistikanı fiziki axınlar çərçivəsində məhdudlaşdırmaq mümkün deyil [4, s. 59].

Müasir şəraitdə logistikanın obyekti bütün proseslərin və ya hadisələrin, eləcə də onların aralıq nəticələrinin məkan və zamanda alternativ ardıcıllığa malik olduğu və buna görə də müəyyən meyarlara

uyğun olaraq bu cür fəaliyyətlərin idarə edilməsi üzrə təşkilati sistemlərin çoxluq təşkil etdiyi istənilən fəaliyyət növü ola bilər. Bu maddi, nəqliyyat, maliyyə-kredit və informasiya axınlarına aiddir.

Logistikanın ikinci xüsusiyyəti ondan ibarətdir ki, o, təkcə axın proseslərini idarə etməyi deyil, həm də müəssisə üçün əlavə gəlir əldə etmək üçün gizli idarəetmə ehtiyatlarını aşkar edib istifadə etmək məqsədilə onların optimallığını təmin edə bilir.

Beləliklə, bazar subyektləri arasında qarşılıqlı əlaqə sxemlərinin mürəkkəbləşməsi üçün müasir şərait, satışın maksimuma çatdırılması istəyi müəssisələrin biznes proseslərinin təşkili üçün ümumi xərclərin azaldılmasını, onların davamlılığını və rəqabət qabiliyyətinin artırılmasını, logistikanın konseptual əsaslarının tətbiqi hesabına vaxt qazanmasını təmin edilməsini zəruri edir. Bu da logistika sistemlərinin yaradılması və işləməsi proseslərinin öyrənilməsinin aktuallığını və müstəsna əhəmiyyətini göstərir.

Resursların, gəlirlərin və məhsulların dövriyyəsinin həyata keçirildiyi bazarın yaranması və inkişafı bir neçə icbari şərtlərin yerinə yetirilməsi zamanı baş verir. Bu şərtlər aşağıdakılardır [6, s. 211]:

- məhsul və xidmətlərin qaçılmaz mübadiləsinə səbəb olan ictimai əmək bölgüsü;
- ekvivalent mübadilənin əvəzsiz şərti kimi istehsalçıların iqtisadi təcrid olunması;
- sahibkarlıq fəaliyyəti azadlığı.

Logistikanın ümumi vəzifələrindən biri yüksək keyfiyyətli məhsulun çatdırılmasını təmin edən material və məlumat axınlarının tənzimlənməsi və onlara nəzarət edilməsi üzrə səmərəli inteqrasiya edilmiş sistem yaratmaqdır.

Material və məlumat axınlarının qarşılıqlı uyğunluğunun təmin edilməsi prosesi material axınına nəzarət edilməsi və məlumatların vahid mərkəzə ötürülməsi, malların fiziki hərəkəti üzrə strategiya və texnologiyanın müəyyən edilməsi, malların hərəkəti üzrə əməliyyatlarının idarə edilməsi üsullarının işlənib hazırlanması, yarımfabrikatların və qablaşdırmanın standartlaşdırılması formalarının müəyyən edilməsi, istehsalın həcminin müəyyən edilməsi, daşınma və saxlanma kimi problemlər ilə sıx bağlıdır.

Logistikanın prinsipləri və metodları optimal həllərin əldə edilməsinə yönəldilmişdir ki, onların həyata keçirilməsi müəssisəyə ümumi logistika xərclərini və logistik riskləri azaltmağa, xidmət keyfiyyətini və mənfəəti artırmağa imkan verir.

Ədəbiyyat

1. Бауэрсокс Д. Дж., Клосс Д. Дж. Логистика: интегрированная цепь поставок: произв.-практ. изд. / пер. с англ. Н. Н. Барышникова, Б. С. Пинскер. 2-е изд. М. : Олимп-Бизнес, 2008.
2. Долгов А. П., Козлов В. К., Уваров С. А. Логистический менеджмент фирмы: концепции, методы и модели. СПб.: Изд. д. «Бизнес-пресса», 2005.
3. Гаджинский, А. М. Логистика: учебник для бакалавров. 21-е изд. М. : Дашков и К°, 2013.
4. Коммерческая логистика: учеб. пособие / под общ. ред. Н. А. Нагапетьянца. М: ИНФРА-М, 2014.
5. Корпоративная логистика в вопросах и ответах / под общ. и науч. ред. В. И. Сергеева. М: ИНФРА-М, 2015.
6. Логистика: учебник / [А. А. Канке, И. П. Кошевая]. 2-е изд., испр. и доп. М. : ИНФРА-М, 2013.
7. Логистика: учеб. пособие / под ред. Н. Г. Каменевой. М.: ИНФРА-М, 2013.
8. Логистика: учебник для студентов вузов / [Б. А. Аникин и др.]; под ред. Б. А. Аникина. 2-е изд., перераб. и доп. М. : ИНФРА-М, 2001.
9. Неруш Ю. М. Логистика: учебник. 4-е изд., перераб. и доп. М. : Проспект, 2008.

Резюме

Гамидова А.М.

Влияние логистики на деятельность предприятия

Из-за усиливающегося соперничества со стороны внутренних и иностранных конкурентов, насыщенности товарных рынков фирмам становится все труднее поддерживать прежний уровень прибыли, темпы роста бизнеса и в целом конкурентоспособность. Между тем потенциал снижения расходов в производственной сфере достаточно низок. Данную проблему может решить концепция логистики. Логистика - стержень бизнеса, и ее основная задача - обеспечение продвижения потока товаров, а также других материальных ценностей от производителя к потребителю. Управление этим движением существенно влияет на конечную стоимость продукта, которая является одним из важнейших конкурентных факторов в условиях рынка.

Ключевые слова: *логистика, конкурентоспособность, логистическая стратегия, эффективная интегрированная система, логистический подход*

Summary
Hamidova A.M.
Impact of Logistics on the Activities of the Enterprise

Due to the intensifying rivalry from domestic and foreign competitors, the saturation of product markets, it is becoming increasingly difficult for firms to maintain the same level of profit, business growth rates and overall competitiveness. Meanwhile, the potential for cost reduction in the manufacturing sector is quite low. This problem can be solved by the concept of logistics. Logistics is the core of business, and its main task is to ensure the promotion of the flow of goods, as well as other material values from the producer to the consumer. The management of this movement significantly affects the final cost of the product, which is one of the most important competitive factors in the market.

Key words: *logistics, competitiveness, logistics strategy, efficient integrated system, logistic approach*

AZƏRBAYCANDA İLKİN SƏHİYYƏ XİDMƏTLƏRİ VƏ HƏYAT KEYFİYYƏTİ (SOSİAL TƏRƏQQİ İNDEKSİNİN GÖSTƏRİCİLƏRİ ƏSASINDA)

Həsənov Pərviz Səməd oğlu, Nəbiyeva Günəş İlham qızı
İqtisadiyyat İnstitutu
parviz.hasanov@yahoo.com

Xülasə: *Dünyada sosial inkişafı xarakterizə edən göstəricilər sistemi mövcuddur. Son illərdə bu göstəricilər sistemi sosial-iqtisadi inkişafın ən müxtəlif aspektlərini özündə cəmləşdirərək daha da genişlənmişdir. Belə ki, qiymətləndirilərkən adambaşına düşən ümumi daxili məhsul, ümumi milli məhsul, investisiyalar kimi iqtisadi göstəricilərlə yanaşı, həyat keyfiyyətini və məmnunluğunu, insan azadlıqlarını, siyasi hüquqlarını və ətraf mühit keyfiyyətini xarakterizə edən çoxsaylı göstəricilər sistemindən istifadə olunur. Cəmiyyətdə öz potensialını reallaşdırmaq üçün şəraitin formalaşdırılması, bərabərlik, azadlıq, xoşbəxtlik hissi və s. də mühüm məsələlərdir. "Layiqli həyat"ın təmin edilməsi prioritet məsələdir.*

Açar sözlər*: sosial, göstərici, indeks, rifah, səhiyyə, büdcə, vəsait*

Dünyada sosial inkişafı xarakterizə edən bir sıra göstəricilər sistemi mövcuddur. Son illərdə bu göstəricilər sistemi daha da genişlənmiş, özündə sosial-iqtisadi inkişafın ən müxtəlif tərəflərini birləşdirmişdir. Belə ki, qiymətləndirilməsində adambaşına düşən Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul, investisiya qoyuluşu kimi iqtisadi göstəricilərlə yanaşı, həyat keyfiyyətini və məmnuniyyətini, insan azadlıqlarını, siyasi hüquqları, ətraf mühitin keyfiyyətini xarakterizə edən çoxsaylı göstəricilər sistemindən istifadə edilir. İnsanlar üçün cəmiyyətdə potensiallarını realizə edə bilmək imkanlarının formalaşdırılması, özlərini cəmiyyətdə bərabərhüquqlu, azad, rahat, xoşbəxt və s. hiss etmələri də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Yəni "layiqli həyat"ın təmin olunması prioritetdir.

Müxtəlif beynəlxalq təşkilatlar (Birləşmiş Millətlər Təşkilatı, Asiya İnkişaf Bankı və s.) sosial inkişafı qiymətləndirməkdən ötrü metodologiyalar işləyib hazırlayır, reytinqlər müəyyənləşdirir. Onlardan biri də, Sosial İmperativ Qeyri-kommersiya Təşkilatının hazırladığı Sosial Tərəqqi İndeksidir (STİ).

STİ-nin hesablanmasında çoxsaylı (rifah, sağlamlıq, ətraf mühitin keyfiyyəti, şəxsi və siyasi hüquqlar, informasiya kommunikasiya vasitələrinə əlçatanlıq və s.) göstəricilər sistemindən istifadə edilir.

STİ-nin yaradıcıları bu indeksin tərəqqini, rifah halını qiymətləndirmək, ölçmək üçün digər indekslərlə müqayisədə daha dəqiq mənzərə yaratdığını iddia edirlər. Belə ki, bu indeks təkcə insanların xoşbəxtliyini və ya həyat məmnuniyyətini ölçmür, habelə yaşayış yeri və qidalanma kimi təməl və təbii ehtiyaclardan tutmuş hüquq, təhsil, şəxsi təhlükəsizliyə qədər olan sahələrdəki həyat nəticələrinə əsaslanır. Məhz bu müstəsnalıq, indeksi zamanla cəmiyyətdəki dəyişiklikləri izləməyə imkan verən faydalı bir alətə çevirir. STİ insanlar üçün vacib nəticələri, məsələn tibb xidmətlərinə sərf edilən xərcləri deyil, ölkədə səhiyyə sahəsinin təklif etdiyi xidmətlərə əlçatanlığı ölçür.

İnsanın əsas ehtiyacları sub-ideksinin *Qidalanma və ilkin tibbi yardım* alt-indeksi 5 göstərici əsasında formalaşır: Qida çatışmazlığı, Ana ölümü, Uşaq ölümü, Uşaqlarda inkişafdan geri qalma, İnfeksion xəstəliklərdən ölənlər.

Bu alt-indeks üzrə 2020-ci ildə maksimum bal 98,98 (İspaniya), minimum bal 37,09 (Mərkəzi Afrika), orta bal isə 84,63 olmuşdur. Ümumiyyətlə, ilk onluqda olan inkişaf etmiş ölkələrin topladığı ballar 98-dən yuxarıdır. Respublikamız 2019-cu ildə 149 ölkə arasında 91,31 balla 71-ci pillədə, 2020-ci ildə isə 92,47 balla 163 ölkə arasında 77-ci yerdə qərarlaşmışdır. Bu orta göstəricidən 7,84 bal yüksəkdir (Cədvəl 1).

Mənbə: https://www.socialprogress.org/

Qrafik 1. Qidalanma və ilkin tibbi yardım alt-indeksi (Azərbaycan və qonşu ölkələri, 2020)

Qeyd etmək lazımdır ki, respublikamız Qidalanma və ilkin tibbi yardım alt-indeksi üzrə müqayisə aparılan qonşu ölkələrin hamısından geridədir.

Qida çatışmazlığı dedikdə, insanın istehlak etdiyi kalorinin miqdarının onun sağlam və aktiv həyat tərzi üçün yetərli olmaması başa düşülür. Göstərici gündəlik kalori norması ilə minimum kalori norması arasındakı müqayisə əsasında hesablanır və əhalinin tərkibində qida çatışmazlığından əziyyət çəkənlərin xüsusi çəkisini ifadə edir. Bu göstəricinin hesablanmasında BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının statistik məlumatlarından istifadə edilmişdir [4]. 2019-cu ildə olduğu kimi, 2020-ci ildə də Azərbaycan 1-ci sırada yer alır. Belə ki, ölkədə əhalinin yalnız 2,5%-i qida çatışmazlığı ilə üzləşmişdir. Göstərici üzrə minimum həddi 2,5%, maksimum həddi 48,2% və dünya üzrə orta göstərici isə 9,09% olmuşdur. Ölkəmiz üzrə Qidalanma və ilkin tibbi xidmət alt-indeksində ən yüksək nəticə Qida çatışmazlığı göstəricisinə məxsusdur. Azərbaycan qonşu ölkələrdən Gürcüstan (98-ci pillə), İran (70-ci pillə) və Ermənistandan (51-ci pillə) xeyli öndədir.

Ana ölümü dedikdə, bədbəxt hadisə və yaxud təsadüfi səbəblər istisna olmaqla, hamiləlik dövrü və doğuş bitdikdən sonrakı 42 gün ərzində ağırlaşan və hər hansı bir səbəbdən qadın ölümləri başa düşülür. İndeksdə 10-54 yaşda olan qadınlar arasında hər 100 000 doğuşa düşən ana ölümləri nəzərdə tutulur. Sağlamlığı Ölçmə və Qiymətləndirmə İnstitutunun statistikasına əsasən, 2020-ci ildə ən az ana ölümü İslandiyada (0,99), ən çox ana ölümü isə Mərkəzi Afrikada (614,24) qeydə alınmışdır. İndikatorun dünya üzrə orta göstəricisi 99,36 olmuşdur.

2020-ci ildə Azərbaycanda hər 100 000 diri doğulan uşağa ana ölümlərinin sayı 26,61 (69-cu yer) olmuşdur. 2019-cu ildə isə bu göstərici 25,81 təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə ölkəmizdə ana ölümü halları az da olsa artmışdır. Ümumiyyətlə, ölkəmizdə ana ölümü halları ilə bağlı vəziyyət qənaətbəxş hesab oluna bilməz. Bu da, ilkin səhiyyə xidmətlərinin səmərəli şəkildə təşkil olunmaması ilə əlaqədardır. Məlum olduğu kimi, respublikamızda tətbiqi 2020-ci ildə başlayan icbari tibbi sığorta mexanizminin bütün ölkə boyu formalaşdırılması COVİD-19 pandemiyası səbəbindən həmin ildə başa çatdırıla bilmədi. Bu mexanizmin bütün ölkə ərazisində tətbiqi 2021-ci ildə həyata keçirildi. Fikrimizcə, icbari tibbi sığorta mexanizminin tətbiqi ölkədə ana ölümü hallarının azalmasına müsbət təsir göstərəcəkdir. Çünki icbari tibbi sığorta mexanizmi ilkin səhiyyə xidmətlərinin səmərəli təşkilinə əsaslanır. İlkin səhiyyə xidmətlərinin təşkili isə insanların vaxtında müayinə olunması, xəstəliklərin vaxtında aşkara çıxarılması, preventiv tədbirlərin görülməsinə şərait yaradır. Təsadüfi deyil ki, ÜST də hökumətləri səhiyyə sistemində islahat apararkən ilkin səhiyyə xidmətlərinin səmərəli təşkilinə çağırır.

Uşaq ölümü göstəricisi hər 1000 nəfər diri doğulan uşağa düşən 0-5 yaş arası uşaq ölümlərinin sayı əsasında hesablanır. Göstərici üzrə ən yaxşı nəticə Finlandiyada, ən pis göstərici isə Somalidə müşahidə olunur. Belə ki, 0-5 yaş aralığında hər 1000 nəfərə müvafiq olaraq göstərici 1.6 və 121.5 təşkil etmişdir. Ölkəmiz isə 21,52 nəfər uşaq sayı ilə 111-ci yerdə qərarlaşmışdır. 2019-cu illə müqayisədə ölüm hallarında 2,52 nəfər azalma baş verməsinə baxmayaraq, vəziyyəti qənaətbəxş hesab etmək olmaz.

Ana və uşaq ölümlərinin sayının azaldılması üçün ölkəmizdə 2014-cü ildə "Anaların və uşaqların sağlamlığının yaxşılaşdırılması üzrə Dövlət Proqramı" qəbul edilmişdir. Proqramda qeyd olunur ki, "ÜST-nin və digər beynəlxalq təşkilatların ekspertlərinin rəylərinə əsasən bu sahədə görülmüş məqsədyönlü tədbirlərə və xidmət göstəricilərinin yaxşılaşmasına baxmayaraq, respublikada diri və ölü doğulma hallarının mövcud meyarlarının beynəlxalq meyarlara uyğun olmamasına görə rəsmi statistik göstəricilər vəziyyətin real və obyektiv qiymətləndirilməsinə imkan vermir". 2014-2022-ci illəri əhatə edən bu proqramın qəbul edilməsinin başlıca məqsədi Azərbaycan Respublikasında qadınlara və uşaqlara göstərilən müalicə-profilaktika yardımının keyfiyyətini yüksəltmək, onların sağlamlıq vəziyyətini daha da yaxşılaşdırmaqdan ibarətdir [2]. Fikrimizcə, belə proqramların icrası və ilkin səhiyyə xidmətlərinin səmərəli təşkili ana və uşaq ölümü hallarının azalmasına səbəb olacaqdır.

Uşaqlarda inkişafdan geri qalma göstəricisi 5 yaşa qədər uşaqlar arasında müvafiq yaşda boy artımından geri qalan uşaqların xüsisi çəkisini ifadə edir. Birinci pillədə 1,04 balla Almaniya, sonuncu pillədə isə 54,16 balla Burundi qərarlaşmışdır. Göstəricinin dünya üzrə orta qiyməti 21,88 olmuşdur. Azərbaycan bu göstərici üzrə 14,88 balla 100-cü pillədədir. Ölkəmizin nəticəsi orta göstəricidən yüksək olsa da, lakin qənaətbəxş hesab edilmir. Sevindirici haldır ki, 2019-cu illə müqayisədə 2020-ci ildə Uşaqlarda inkişafdan geri qalma göstəricisi üzrə ölkəmizdə irəliləyiş baş vermişdir.

İnfeksion xəstəliklərdən ölənlər hər 100 000 nəfərə infeksion xəstəliklərdən dünyasını dəyişənlərin sayını əks etdirir. Bu infeksion xəstəliklərə HİV/QİÇS, vərəm, ishal, bağırsaq infeksiyaları, tənəffüs yolu infeksiyaları, meningit, difteriya, göy öskürək, tetanus, qızılca, suçiçəyi, herpes, malyariya, quduzluq, cüzam, virus infeksiyası, cinsi yolla keçən xəstəliklər, hepatit və digərləri aiddir. 2020-ci ildə ölkəmiz bu göstəriciyə görə STİ üzrə 92-ci pillədə qərarlaşmışdır. Qeyd edilən ölüm hadisələrinin sayı 54,06 olmuşdur. Dünya üzrə ən aşağı göstərici 6,21 (Finlandiya), ən yuxarı göstərici 893,76 (Mərkəzi Afrika), orta göstərici isə 134,02 olmuşdur. Azərbaycanda ölüm hadisələrinin sayı ümumi orta göstəricidən dəfələrlə aşağıdır. Ölkəmizdə infeksion xəstəliklə mübarizədə peyvəndləmə mühüm rol oynayır. Məlumat üçün bildirək ki, 2020-ci ildə ölkəmizdə 1 yaşa qədər uşaqların 94.1%-i vərəmə, 84.5%-i polimelitə, 98.1%-i B hepatitinə, 79.0%-i difteriyaya, göyöskürəyə, tetanusa, b tipli hemofil influenzaya, 1-2 yaş arası olanların 82.3%-i qızılcaya, məxmərəyə, epidemik parotitə qarşı peyvənd olunmuşdur [3].

Ümumilikdə nəticə olaraq ilk alt-indeksdə ölkəmizi geri salan əsasən Uşaq ölümü və Uşaqlarda inkişafdan geri qalmalar adlı göstəricilərdir. Bu komponentlər üzrə 2019-cu ilə nəzərən 2020-ci ildə ölkəmizdə irəliləmələr baş versə də, lakin vəziyyət qənaətbəxş hesab edilmir (Qrafik 2).

Ana ölümlərinin sayında da artımlar müşahidə edilir. Bu göstərici üzrə də ölkəmizin tutduğu mövqe ürəkaçan deyil.

Mənbə: https://www.socialprogress.org/

Qrafik 2. Azərbaycan Respublikasında Qidalanma və ilkin tibbi yardım alt-indeksi (2017-2020-ci illər)

Qeyd edilən problemlərin səbəblərindən biri ölkəmizdə ümumi səhiyyə xərclərinin tərkibində dövlət səhiyyə xərclərinin payının az olmasıdır. Məlumat üçün bildirək ki, ÜST-nin hesablamalarına əsasən, 2018-

ci ildə ölkəmizdə ümumi səhiyyə xərclərində dövlət səhiyyə xərclərinin payı 27% təşkil etmişdir [6]. Lakin ÜST-nin hesablamalarına əsasən, səhiyyənin təkmil maliyyələşməsi aşağıdakı nisbətdə olmalıdır:

- dövlət büdcəsi - 60%;
- tibbi sığorta - 30%;
- pullu xidmətlər -10% [5].

Bundan başqa, ölkəmizdə ilkin səhiyyə xidmətlərinə dövlət büdcəsindən ayrılan vəsaitlər ildən-ilə artsa da, lakin xüsusi çəkisi son illərdə azalmışdır. Belə ki, bu göstərici 2006-cı ildə 18% olduğu halda, 2019-cu ildə isə azalaraq 13,5% təşkil etmişdir. Halbuki səmərəli səhiyyə siyasəti aparan ölkələrdə səhiyyə vəsaitlərinin çoxu ilkin səhiyyə xidmətlərinə sərf olunur. İlkin səhiyyə xidmətlərinə çəkilən xərclər xəstəliklərin ağırlaşmasının qarşısını almaqla, sağlamlığın qorunmasına və s. gətirib çıxarır [1].

Aparılan tədqiqatlar göstərir ki, səhiyyə xərclərinin artımı ana, uşaq ölümü hallarının azalmasına səbəb olur. Bunu aşağıdakı qrafikdən də görmək mümkündür (Qrafik 3).

Mənbə:https://www.stat.gov.az/source/healthcare/, https://data.unicef.org/country/aze/

Qrafik 3. Azərbaycanda səhiyyəyə dövlət büdcəsindən ayrılan vəsaitlərlə körpə ölümü arasında asılılıq (2008-2019-cu illər)

Qrafikdən də göründüyü kimi, dövlət səhiyyə xərcləri ilə körpə ölümləri arasında yüksək əks korrelyasiya asılılığı vardır. Dövlət səhiyyə xərcləri artdıqca körpə ölümlərinin sayı azalır.

Anoloji vəziyyət ana ölümü halları üçün də xarakterikdir. Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlər artdıqca ana ölümü hallarının sayı azalır (Qrafik 4).

Qrafikdən də göründüyü kimi, dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərlə ana ölümüm halları arasında yüksək əks asılılıq mövcuddur.

Məlum olduğu kimi, ölkəmizin səhiyyə sistemində bir sıra problemlər mövcuddur. Dövlət səhiyyə vəsaitlərindən səmərəli istifadə edilməməsi, səhiyyə sahəsində şəffaflığın lazımi səviyyədə olmaması, qeyri-leqal ödənişlərin xüsusi çəkisinin yüksək olması və s. mənfi hallar mövcuddur. Bu kimi halların aradan qaldırılmasından ötrü 2021-ci ildə ölkəmizdə icbari tibbi sığorta mexanizmi bütün ölkə ərazisində tətbiq edilmişdir. İcbari tibbi sığortanın tətbiqi dövlət səhiyyə xərclərindən daha səmərəli istifadəyə, səhiyyə sahəsində qeyri-leqal gəlirlərin minimallaşdırılmasına, dövlət səhiyyə müəssisələrində çalışan tibbi personalın əməkhaqlarının artırılmasına və s. gətirib çıxaracaqdır. İcbari tibbi sığorta mexanizminin tətbiqi sonrakı mərhələlərdə tibbi personalın biliklərinin, tibbi xidmətlərin keyfiyyətinin artırılmasına da müsbət təsir göstərəcəkdir.

Aparılan təhlillər ölkəmizdə İnsanın əsas ehtiyacları sub-indeksi üzrə vəziyyətin digər sub-indekslərlə müqayisədə yaxşı olduğunu göstərir. Bu sub-indeksin tərkibinə daxil olan Qidalanma və ilkin tibbi yardım alt-indeksində ölkəmizi geri salan uşaq ölümü və uşaqlarda inkişafdan geri qalmalar adlı göstəricilərdir.

Baxmayaraq ki, bu komponentlər üzrə 2019-cu ilə nəzərən 2020-ci ildə ölkəmizdə irəliləmələr baş vermişdir, lakin vəziyyəti qənaətbəxş hesab edilmir. Ana ölümlərinin sayında da artımlar müşahidə olunur. Bu səbəbdən də ölkəmizin tutduğu mövqe ürəkaçan deyil. Bu da, əsasən ilkin səhiyyə xidmətlərinin səmərəli şəkildə təşkil olunmaması ilə əlaqədardır. Məlum olduğu kimi, respublikamızda tətbiqi 2020-ci ildə başlayan icbari tibbi sığorta mexanizminin bütün ölkə boyu formalaşdırılması COVİD-19 pandemiyası səbəbindən həmin ildə başa çatdırıla bilmədi. 2021-ci ildə bu mexanizmin bütün ölkə ərazisində tətbiqi həyata keçirildi.

Lakin icbari tibbi sığorta mexanizmi bütün ölkə boyu formalaşdırılsa da, sistem yeni olduğundan, səmərəli fəaliyyət göstərmir.

Mənbə: *https://www.stat.gov.az/source/demography/?lang=az*

Qrafik 4. Azərbaycanda səhiyyəyə dövlət büdcəsindən ayrılan vəsaitlərlə ana ölümü arasında asılılıq (2005-2020-ciillər)

Sistemin səmərəli işləməsi üçün müəyyən zaman tələb olunur. Fikrimizcə, icbari tibbi sığorta mexanizminin səmərəli fəaliyyəti gələcəkdə ölkədə ana və uşaq ölümü hallarının azalmasına müsbət təsir göstərəcəkdir. Çünki icbari tibbi sığorta mexanizmi ilkin səhiyyə xidmətlərinin səmərəli təşkilinə əsaslanır. İlkin səhiyyə xidmətlərinin təşkili isə insanların vaxtında müayinə olunmasına, xəstəliklərin vaxtında aşkara çıxarılmasına, preventiv tədbirlərin görülməsinə şərait yaradır. Təsadüfi deyil, ÜST də hökumətləri səhiyyə sistemində islahat apararkən ilkin səhiyyə xidmətlərinin səmərəli təşkilinə çağırır.

Qeyd edilən problemlərin səbəblərindən biri də, ölkəmizdə ümumi səhiyyə xərclərinin tərkibində dövlət səhiyyə xərclərinin payının az olmasıdır. Bundan başqa, ölkəmizdə ilkin səhiyyə xidmətlərinə dövlət büdcəsindən ayrılan vəsaitlər ildən-ilə artsa da, lakin xüsusi çəkisi son illərdə azalmışdır. Halbuki səmərəli səhiyyə siyasəti aparan ölkələrdə səhiyyə vəsaitlərinin çoxu ilkin səhiyyə xidmətlərinə sərf olunur. İlkin səhiyyə xidmətlərinə çəkilən xərclər xəstəliklərin ağırlaşmasının qarşısını almaqla, sağlamlığın qorunmasına və s. gətirib çıxarır. Odur ki, ölkəmizdə ilkin səhiyyə xidmətlərinə ayrılan vəsaitlər artırılmalıdır.

Ədəbiyyat

1. Abdullayeva, R.S. Azərbaycan Respublikasında sosial müdafiə sisteminin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi: / iqtisadiyyat üzrə elmlər doktoru dissertasiyası /– Bakı, 2021. – 303 s. http://economics.com.az/images/fotos/dissertasiyalar/resmiye_disertasiya.pdf
2. Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2022-ci illər üçün Dövlət Proqramı. http://e-qanun.az/framework/27839
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Səhiyyə, sosial müdafiə, idman. Səhiyyə, idman. Əhaliyə müalicə-profilaktika xidmətləri. https://www.stat.gov.az/source/healthcare/
4. Food and Agriculture Organization of the United Nations. Food and Agriculture Statistics. http://www.fao.org/economic/ess/ess-fs/ess-fadata/en/
5. Mahmudov, S.M. Əhalinin sosial müdafiəsinin gücləndirilməsində tibbi sığorta sisteminin rolunun artırılması istiqamətləri: / iqtisadiyyat üzrə fəlsəfə doktoru dissertasiyası /– Bakı, 2021. – 153 s. http://economics.com.az/images/fotos/dissertasiyalar/SamirMahmudov.pdf
6.World Health Organization. Global Health Expenditures Database. https://apps.who.int/nha/database/ViewData/Indicators/en

Резюме
Гасанов П.С., Набиева Г.И.
Первичные услуги здравоохранения и качество жизни в Азербайджане
(на основе показателей индекса социального прогресса)

Существует система показателей, характеризующая социальное развитие в мире. В последние годы эта система показателей еще больше расширилась, объединив самые разные стороны социально-экономического развития. Таким образом, при оценивании помимо экономических показателей, таких как валовой внутренний продукт на душу населения, валовой национальный продукт, инвестиции, используется система многочисленных показателей, характеризующих качество жизни и удовлетворенность, свободы человека, политические права, качество окружающей среды. Формирование условий для реализации своего потенциала в обществе, чувство равноправия, свободы, счастья и т.д. также являются важными вопросами. Обеспечение «достойной жизни» является приоритетом.

Ключевые слова: *социальный, показатель, индекс, благополучие, здравоохранение, бюджет, ресурсы*

Summary
Hasanov P. S., Nabiyeva G. I.
Primary Health Services and Quality of Life in Azerbaijan
(Based on Social Progress Index Indicators)

There is a system of indicators that characterizes social development in the world. In recent years, in the assessment of social development, in addition to economic indicators such as Gross Domestic Product per capita, Gross National Product, investment, a system of numerous indicators is used that characterizes the quality of life and satisfaction, human freedoms, political rights, and the quality of the environment. Formation of opportunities for people to realize their potential in society, to make themselves equal in society, free, comfortable, happy, etc. feelings are also important issues. In other words, providing a "decent life" is a priority.

Key words: *social, indicator, index, well-being, healthcare, budget, resources*

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA NƏQLİYYAT-LOGİSTİKA SİSTEMLƏRİNİN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Hüseynova Məlahət Soltan qızı
Sumqayıt Dövlət Universiteti
huseynovyusif2003@mail.ru

Xülasə: *Məqalədə nəqliyyat-logistika sistemlərinin ölkənin iqtisadi inkişafında rolu tədqiq edilmişdir. Nəqliyyat-logistika sistemlərinin əsas tərkib elementləri olan nəqliyyat və logistikanın ayrı-ayrılıqda əhəmiyyəti nəzərdən keçirilmişdir. Nəqliyyat-logistika sistemlərinin inkişaf etdirilməsi strategiyasında nəzərdə tutulan konkret istiqamətlər və vəzifələr müəyyənləşdirilmişdir.* Ölkədə nəqliyyat-logistika sistemlərinin ölkənin iqtisadi inkişafında rolunun artırılması məqsədilə bu sahədə qarşıya qoyulan konkret strateji hədəflər tədqiq edilmişdir. *Milli nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsinin əsas məqsədləri açıqlanmışdır.*

Açar sözlər: *nəqliyyat-logistika sistemləri, nəqliyyat, logistika, rəqabət, inkişaf, müəssisə*

Azərbaycanda nəqliyyat logistika sistemi dövlət tərəfindən milli iqtisadiyyatın sektorları ilə sosial sahənin qarşılıqlı əlaqəsini təmin edən istehsal infrastrukturunun ən vacib komponenti kimi qəbul edilir. Nəqliyyat nəqliyyat-logistika sisteminin əsas tərkib ünsürlərindən biridir. Nəqliyyata dövlət səviyyəsində diqqətin artırılması onun iqtisadiyyatın gücləndirilməsində və ölkənin müdafiə qabiliyyətinin təmin edilməsində rolu ilə izah olunur. Nəqliyyatın dayanıqlı inkişafı vahid iqtisadi məkanın, mal və xidmətlərin sərbəst hərəkətinin, rəqabətin və iqtisadi fəaliyyət azadlığının, bütövlüyün və milli təhlükəsizliyin təmin edilməsinin, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasının təminatıdır.

Müasir həyat tərzi nəqliyyatın təşkilinə yeni yanaşmalar tələb edir ki, bu da elm və praktikada yeni istiqamətin - nəqliyyat logistikasının yaranmasına gətirib çıxarır. Nəqliyyat logistikasının ən mühüm vəzifələri bunlardır: hər bir konkret daşıma üçün ən uyğun nəqliyyat növünün tapılması; iş rejiminin formalaşdırılması və ona əməl olunmasına nəzarət; ən sərfəli marşrut xətlərinin çəkilməsi; əməliyyatların

sayını və daşınma prosesinin mərhələlərini minimuma endirməklə yüklərin daşınmasının müddətinin və mürəkkəbliyinin azaldılması [2, s.77].

Bu gün logistika da ölkənin nəqliyyat-logistika sistemində çox mühüm rol oynayır. Logistika olmadan tamamilə hər hansı bir məhsulun çatdırılması mümkün deyil. Logistika həm alıcı tərəfindən malların qəbulu sürətinə, həm də göndərmə, çeşidləmə və sərfəli çatdırılma marşrutunun qurulması prosesinin düzgün təşkilinə kömək edir. Lakin logistikanın fəaliyyəti bununla bitmir. Buraya həmçinin kadrların idarə edilməsi, anbar, informasiya sistemlərinin təşkili və kommersiya fəaliyyəti daxildir. Logistika yanaşmasının əsas fərqləndirici xüsusiyyəti yüksək səmərəli, asan idarə olunan, ahəngdar şəkildə təşkil edilmiş əmtəə bölgüsü sistemlərini yaratmaq üçün yuxarıda göstərilən bütün funksiyaların vahid mexanizmdə birləşməsidir. Logistikanın inkişafı birbaşa bazarda rəqabətdən asılıdır. Mallar alıcıya nə qədər tez çatsa, sifariş üçün bir o qədər cəlbedici olur. Çatdırılma müddəti nə qədər optimal olarsa, səyahət, əmək haqqı və hər hansı digər xərclər bir o qədər aşağı olar. Beləliklə, logistikanın səmərəliliyi ölkənin iqtisadi artımında və rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır.

Logistikanın nəqliyyatda, eləcə də ticarət və ya istehsalatda istifadəsi podratçıları və rəqabət aparan tərəfləri bu prosesdə bir-birini tamamlayan tərəfdaşlara çevirir. Nəqliyyat logistikasının predmeti ümumi təyinatlı nəqliyyat vasitəsi ilə yüklərin daşınmasının təşkili ilə bağlı vəzifələrin məcmusudur. Müxtəlif tipli məlumat axınlarının avtomatlaşdırılması prosesləri yük axınlarını müşayiət etməklə logistikada əsas texniki komponentlər kimi çıxış edir. Əsas xammal mənbəyindən son istehlaka qədər material axınlarının reallaşdırılması logistik əməliyyatın əsas hissəsidir ki, bunlar da müxtəlif tipli nəqliyyat vasitələrinin istifadəsinə əsaslanır. Bu əməliyyatların dəyəri logistikanın ümumi dəyərinin 50%-ə qədərini təşkil edir [1, s.113]. Nəqliyyat-logistika sistemlərinin inkişaf etdirilməsi strategiyasında nəzərdə tutulan konkret istiqamətlər və vəzifələr aşağıdakılar olmalıdır:

1. Logistika mərkəzlərinin vahid sisteminin formalaşdırılması. Vahid şəbəkənin formalaşdırılması və inkişaf etdirilməsi zamanı ölkənin nəqliyyat-iqtisadi balansından istifadə edilməli, perspektivli yük axınları və optimal həll yolları nəzərə alınmalıdır.

2. Yükdaşımalar sahəsində nəqliyyat xidmətlərinin keyfiyyətini yüksəldən yüksək səmərəli nəqliyyat və logistika texnologiyalarını tətbiq etməklə innovativ nəqliyyat sistemlərinin hazırlanması və tətbiqi. Nəqliyyat, logistika, ekspedisiya, gömrük və digər dövlət nəzarəti orqanlarının qarşılıqlı fəaliyyəti üçün vahid informasiya xidmətlərinin yaradılması.

3. Yük daşımalar sahəsində rəqabətqabiliyyətli inteqrasiya olunmuş nəqliyyat və logistika xidmətləri bazarının yaradılması.

4. Nəqliyyat xidmətləri bazarında ölkənin nəqliyyat-logistika şirkətlərinin rəqabət qabiliyyətinin artırılması.

5. Ölkədə nəqliyyat-logistika fəaliyyətinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi.

6. Konteyner daşımalarının, o cümlədən kiçik və orta biznes üçün multimodal logistika mərkəzlərinin infrastrukturunun inkişafı.

7. Nəqliyyat dəhlizlərində fəaliyyət göstərən, qlobal şirkətlərlə rəqabət apara bilən böyük milli nəqliyyat və logistika şirkətinin yaradılmasına dövlət dəstəyi.

Ölkədə nəqliyyat-logistika sistemlərinin ölkənin iqtisadi inkişafında rolunun artırılması məqsədilə bu sahədə qarşıya konkret strateji hədəflər qoyulmalıdır. Həmin strateji hədəfləri ən ümumi şəkildə aşağıdakı kimi təklif edə bilərik (cədvəl)

Cədvəl

Nəqliyyat-logistika strategiyasında hədəflər

İstiqamətlər	Hədəflər
Ümumi sosial	- əhalinin mobilliyi və nəqliyyat-logistika xidmətlərinin mövcudluğu; - nəqliyyat vasitələri ilə qəzaların, risklərin və təhlükəsizlik təhdidlərinin azaldılması.
Ümumi iqtisadi	- sürət və ritmin artması; - nəqliyyat və logistika infrastrukturunun tikintisi və saxlanması üçün innovativ texnologiyalardan istifadə; - səmərəli dövlət tarif siyasətinin tətbiqi; - iqtisadi rəqabət mühitinin inkişafı üçün müasir mexanizmlərdən istifadə.
Nəqliyyat və logistika	- nəqliyyat şəbəkəsinin iqtisadiyyatın və cəmiyyətin tələbatına uyğun inkişafı; - nəqliyyat və logistika sisteminin gəlirliliyinin və məhsuldarlığının artırılması.

Mənbə: *müəllif tərəfindən tərtib edilib*

Nəqliyyat logistikası nəqliyyat proseslərini optimallaşdırmağa imkan verən vəzifələri də əhatə edə bilər. Əksər hallarda logistika malların daşınması ilə bağlı problemləri həll edir. Nəqliyyat logistikası yükləri daşıya bilən demək olar ki, bütün nəqliyyat növlərini əhatə edir. Siyahıda birinci yerdə təbii ki, avtomobil nəqliyyatı gəlir.

Çatdırılma müddəti düzgün müəyyənləşdirilərsə və seçilmiş marşruta əməl olunarsa, istehlakçıların maliyyə xərcləri əhəmiyyətli dərəcədə azala bilər. Bu nəticəni aşağıdakı şərtlərə riayət etməklə əldə etmək olar:

- istehlakçıların yerləşdiyi yerin xəritəsinin tərtib edilməsi;
- tələb olunan məhsul miqdarının və daşınma həcminin proqnozunun formalaşdırılması;
- müştərilər haqqında məlumatların ötürülməsi;
- yüklərin çatdırılması qrafikinin müvəqqəti sxemlərinin yaradılması;
- tələb olunan hərəkət heyətinin müəyyənləşdirilməsi;
- optimal marşrutun hazırlanması [3, s.167].

Hazırda iqtisadiyyatın və sosial sahənin strateji inkişafının imperativlərindən biri ölkədə müasir nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsidir. Milli nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsinin əsas məqsədləri aşağıdakılardır:

- infrastrukturun, bazarların, malların və xidmətlərin nəqliyyat əlçatanlığı ilə yüksək rifah standartlarının təmin edilməsi;
- yüksək keyfiyyətli nəqliyyat xidmətlərinin əhalinin bütün təbəqələri üçün əlçatan olması;
- innovasiyalara əsaslanmaqla nəqliyyat-logistika kompleksinin müvafiq texniki və texnoloji inkişafına nail olunması;
- sahibkarlıq subyektlərinin xarici bazarlara çıxışının asanlaşdırılması və s.

Bu tədbirlərin görülməsi ölkənin sosial-iqtisadi inkişaf strategiyası ilə bağlı müvafiq şəraitin yaradılmasını tələb edir.

Nəqliyyat-logistika mərkəzlərinin yaradılmasının əsas məqsədləri aşağıdakılardan ibarət olmalıdır:

- nəqliyyat qovşaqlarının dayaq məntəqələrindən yüklərin maneəsiz keçməsinin təmin edilməsi;
- bir neçə nəqliyyat növünü əhatə edən daşıma prosesinin optimallaşdırılması;
- xarici ticarət mallarının təşviqinin sürətləndirilməsi;
- bütün növ nəqliyyatın mövcud imkanlarından maksimum istifadə edilməsi;
- ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə əlavə yük axınlarının cəlb edilməsi.

Ümumiyyətlə, nəqliyyat və logistika mərkəzləri vahid texnoloji vəzifə üzrə işləməlidir - yük axınlarının cəlb edilməsi, daşınma prosesinin optimallaşdırılması, daşınma və emal həcminin artırılması və bu əsaslarla mənfəət əldə edilməsi. Bu məqsədlərə nail olmaq son nəticədə yük sahiblərinin malların daşınması üçün xərclərini, məhsulların maya dəyərində nəqliyyat komponentini azaltmalı, ölkənin nəqliyyat kompleksinin fəaliyyətinin rentabelliyini və dayanıqlığını artırmalı və bütövlükdə ölkə iqtisadiyyatının və ÜDM-in artmasına töhfə verməlidir. Bu məqsədlərə uğurla nail olunması üçün logistika şirkətləri təkcə xidmətlərin keyfiyyətini və çevikliyi yaxşılaşdırmaqla kifayətlənməməli, həm də inteqrasiya olunmuş logistika xidmətini inkişaf etdirməlidir. Bunun üçün təkcə fərdi logistik operatorların iri logistika provayderlərinə çevrilməsinə deyil, həm də müxtəlif profilli operatorların həm digər logistik operatorlarla, həm də müxtəlif iqtisadi fəaliyyət növləri üzrə tərəfdaşlarla ittifaqlarda birləşməsinə diqqət artırılmalıdır. Nəticədə, bu, ümumilikdə logistik xidmətlərin keyfiyyətinin yüksəlməsinə, logistik infrastrukturun inkişafına və fərdi logistik xidmətlərin göstərilməsindən logistik xidmətlərin autsorsinqi əsasında müqaviləli logistikaya keçidinə gətirib çıxaracaq. Bundan əlavə, öz fəaliyyətlərində logistika yanaşmalarından istifadə müəssisələrin bazarda təşkilati və iqtisadi dayanıqlığını artıracaqdır. Logistikanın prinsipləri və metodları optimal həllərin əldə edilməsinə, xüsusən də müəssisənin ümumi logistik xərclərinin minimuma endirilməsinə yönəldilməlidir. Optimal logistik həllər müəssisə tərəfindən yalnız minimum ümumi məsrəflər meyarı ilə deyil, həm də logistika dövrlərinin yerinə yetirilməsi vaxtı kimi əsas parametrlərlə əldə edilə bilər. Bununla əlaqədar olaraq, müəssisələr daim iki ən vacib sahədə seçim etməlidirlər:

- müəssisənin özündə logistikanın inkişafına çəkilən xərclərin miqdarının və logistika xidmətlərinin autsorsinqi zamanı xərclərin müqayisəli təhlili metodologiyasına malik olmaq;
- müəssisəyə logistika xidmətləri göstərəcək ən yaxşı logistika provayderinin seçilməsi metodologiyasına malik olmaq.

Beləliklə, hazırda nəqliyyat və logistika sistemlərinin səmərəliliyinin əsas amili rəqəmsal platformalardan istifadənin artmasıdır. Təchizatçılar və istehlakçılar bir-birləri ilə getdikcə daha çox vasitəçi olmadan qarşılıqlı əlaqədə olurlar və tələb və təklifi birləşdirən qiymət amilləri yeni əməkdaşlıq mexanizmləri (əməkdaşlıq) ilə əvəz olunur, bu da öz növbəsində iştirakçıların tərkibi və müxtəlifliyi baxımından bazarları genişləndirir.

Ədəbiyyat

1. Кропачева, Д.С. Транспортная логистика в национальных и международных логистических системах / Д. С. Кропачева // Актуальные проблемы гуманитарных и естественных наук. – 2016. – № 4-1. – С. 113-116

2. Розов, Д.В. Транспортная логистика и управление качеством в транспортной сфере / Д. В. Розов // Вестник Тверского государственного технического университета. Серия: Науки об обществе и гуманитарные науки. – 2021. – № 3(26). – С. 77-80

3. Савин, Г.В. Логистическая стратегия в обеспечении потоков транспортно-логистической системы мезоуровня / Г. В. Савин // Russian Economic Bulletin. – 2019. – Т. 2. – № 5. – С. 166-171

Резюме

Гусейнова М.С.

Оценка роли транспортно-логистических систем в социально-экономическом развитии Азербайджана

В статье исследуется роль транспортно-логистических систем в экономическом развитии страны. Отдельно рассмотрено значение транспорта и логистики, которые являются основными составляющими элементами транспортно-логистических систем. Определены конкретные направления и задачи, предусмотренные в стратегии развития транспортно-логистических систем. С целью повышения роли транспортно-логистических систем в экономическом развитии страны изучены конкретные стратегические цели, поставленные в этой сфере. Объявлены основные цели совершенствования национальной транспортно-логистической системы.

Ключевые слова: *транспортно-логистические системы, транспорт, логистика, конкуренция, развитие, предприятие*

Summary

Huseynova M.S.

Assessment of the Role of Transport and Logistics Systems in the Socio-Economic Development of Azerbaijan

The article examines the role of transport and logistics systems in the economic development of the country. The importance of transport and logistics, which are the main constituent elements of transport and logistics systems, is considered separately. Specific directions and tasks provided for in the strategy for the development of transport and logistics systems are determined. In order to increase the role of transport and logistics systems in the economic development of the country, specific strategic goals set in this area have been studied. The main goals of improving the national transport and logistics system have been revealed.

Key words: *transport and logistics systems, transport, logistics, competition, development, enterprise*

REGİONAL SİYASƏTDƏ İQTİSADİ ARTIMIN ƏLDƏ OLUNMASI İMKANLARI

İbrahimov Eltun Yulət oğlu

Azərbaycan Milli Elmlər Akademiyası, Naxçıvan Bölməsi
Təbii Ehtiyatlar İnstitutu, İqtisadiyyat şöbəsi
eltunibrahimov@yahoo.com

Xülasə: *Hökumətlər ölkə regionlarının tarazlı inkişafına nail olmaq üçün mühüm proqram və planlar hazırlayır, bu yöndə isə başqalarının, əsasən inkişaf etmiş dövlətlərin təcrübələrindən faydalanır, iqtisadi sisteminin bütün subyektlərinin bir-biri ilə kompleks uyğunlaşmasına imkan yaradırlar. Bu baxımdan düzgün maliyyə-kredit, investisiya siyasətinin hazırlanması, sosial infrastrukturun yenilənməsi, bütün sahələrdə şəffaflığın qorunması və digər məsələlər iqtisadi artımın təmin edilməsi üçün dövlətin diqqət mərkəzindədir. Məqalədə iqtisadi artımın əldə edilməsi istiqamətində valyuta, investisiya, ticarət və başqa amillər təhlil edilir.*

Açar sözlər: *iqtisadi artım, investisiya, ticarət, region, inkişaf*

Tədqiqatlar göstərir ki, aparılan bütün iqtisadi və sosial islahatlarda, görülən tədbirlərdə son məqsəd iqtisadi artımın əldə edilməsidir. Buna görə də iqtisadi artımın əldə edilməsi üçün əsas növ imkan və potensiallar dəyərləndirilməlidir. Qeyd olunduğu kimi, bu istiqamətdə ən vacib amillərdən biri

özəlləşdirmənin zamanında və effektiv həyata keçirilməsidir. Bu yöndə ticarət amili, valyuta və investisiya münasibətləri olduqca mühüm əhəmiyyət daşımaqdadır.

Uzunmüddətli hədəf planı üçün ərazidə iqtisadi sistemin səmərəli təşkilinin təmini və keyfiyyətli iqtisadi artımın əldə edilməsində investisiya amilləri xeyli əhəmiyyətli hesab edilir. Makroiqtisadi inkişaf baxımından götürüldükdə, investisiya yönəldiləcək sahəyə kapitalın təmərküzləşməsinə gətirir. Bu isə, bir tərəfdən iqtisadi inkişafda yüksək göstəricilərə gətirib çıxarır, digər tərəfdən isə kapital qoyan subyektlərin qazanc əldə etməsinə imkan verir. Məlum olduğu kimi, investisiya yönəldənlərin əsas məqsədlərindən biri öz maraqlarını müdafiə etmək, mənfəət əldə etməkdir. İnvestisiya iqtisadi artımın dinamikasına və sürətinə təsir göstərməklə məcmu tələbin bir hissəsi hesab olunur və bundan daha vacibi isə məhsuldarlığın əldə olunmasına əhəmiyyətli ölçüdə köməklik göstərir. Yeni maşın və avadanlıqların alınması, iri şirkətlərin qurulması, avtomatlaşdırma işləri üçün robotların alınması və digər xərclər investisiya daxilində nəzərdə tutulur ki, bu investisiyaların həcmini artırmaq məcmu tələbin və uzunmüddətli artımın baş verməsinin əsas amilidir. Bütövlükdə götürdükdə isə investisiya fəaliyyətini səmərəli icra etmək üçün xeyli şərtlər tələb olunur. Hər şeydən öncə investisiya marağı, daha sonra tələbat işin əsas tərəfləridir. Həmçinin, konkret investisiya layihələri ortaya qoyulmalı, kadr potensialı toplanmalı, maliyyə şəffaflığı, əlverişli mühit yaradılmalı, hüquqi baza və s. şərtlər formalaşdırılmalıdır [s.98, 2].

İnvestisiyaların iqtisadi artıma olan təsirlərini belə xarakterizə edə bilərik. İlk öncə, bu investisiyanın növü ilə müəyyən edilir. Müəyyən mənada, problemləri olan bir hökümətin sənayenin güclənməsinə ayırdığı vəsaitlər bəzən öz effektivliyini göstərməyə bilər. Nəticə olaraq isə, iqtisadiyyatda məhsuldarlığın artması baş verməyəcəkdir. Məhsuldarlığın yüksəlməsində isə özəl sektora yatırılan və xaricdən yönələn investisiyalar faktiki olaraq daha effektiv hesab olunmaqdadır. Çünki özəl layihələr üçün investisiyalarda bilavasitə maraqlı olan qurumlar bu istiqamətdə lazımi məlumatlara sahibdirlər. Bu isə o deməkdir ki, onlar bunun tətbiq edilməsində xeyli problemlərin öhdəsindən gələ bilərlər.

Xüsusi olaraq vurğulanmalıdır ki, iqtisadi artım da dolayı yollarla investisiyalara təsir göstərməkdədir. Biznes mühiti üçün investisiyalar xeyli dəyişkən olur. Şirkətlər gələcək illər üçün hazırlanmış iqtisadi proqnozlarda müsbət meylləri müşahidə etsələr, qarşıdakı illərdəki tələbatların ödənilməsi üçün investisiya xərclərini daha da artırarlar. Buna görə də əgər iqtisadi artım tempi sürətlənərsə, bu da investisiyaların artmasına gətirib çıxaracaqdır. Lakin, tənəzzül meyllərinin müşahidə edilməsi və artım tempinin zəifləməsinin proqnozlaşdırılması vəziyyətində biznes investisiyaları azalacaqdır. İnvestisiyaların səviyyəsi faiz dərəcələrindən, etibarlı iş şəraitindən, elmi-texniki tərəqqinin inkişaf səviyyəsindən və dövlətin tənzimləmə siyasətindən əsaslı dərəcədə asılıdır. İnvestisiyaların səmərəli nəticə verməsi üçün əlverişli mühitin yaradılması vacib amillərdəndir. İnvestisiya siyasətində əsas əsas məqsəd yerli investisiyalarla yanaşı, həm də xarici sərmayəni ölkə və regionların iqtisadiyyatına cəlb etməkdir.

İqtisadi artım amilləri istehsalın real həcminin uzun müddətli artırılması tempi kimi başa düşülür, burda səmərəlilik və keyfiyyət artımı da mümkündür [1, s.35]. İqtisadi artımın davamlı olması uzunmüddətli perspektivlər üçün xeyli əhəmiyyətlidir. Belə ki, əgər bu artım dinamikası sürətlənərsə, ölkədə olan maddi cəhətdən zəif əhali öz təsərrüfatlarını inkişaf etdirər, həyat şəraiti yaxşılaşar. Bu da hökumətlərə imkan verir ki, sahib olduğu resurslardan istifadə etsin, xidmətləri daha da təkmilləşdirsin, vətəndaşlara öz gələcəklərini düzgün müəyyən etməyə köməklik göstərsin. İqtisadiyyatda artım yüksələrsə, inkişaf davamlı olarsa, müəssisələr arasında sağlam rəqabət güclənər. Bu isə fərqli xidmət növlərində, onlar arasında ticarət əlaqələrinin meydana gəlməsinə şərait yaradar. Ticarətin əsas faktorları kimi idxal və ixrac ehtiyacı olan tərəflər arasında müəyyən asılılığın baş tutması ilə mümkün olmuşdur. Təcrübələr göstərir ki, iqtisadi inkişafın əsas səbəbi inkişaf etmiş ölkələrin ixracının artması, inkişaf etməkdə olan ölkələrin isə idxaldan asılılığının sürətlənməsidir. Bəzi tədqiqatçılar isə ticarət əlaqələrinin inkişafını əsasən texnoloji inqilab və kommunikasiya əlaqələrinin sürətlənməsi ilə əlaqələndirirlər. Belə ki, əgər kommunikasiya yaxşı inkişaf edərsə, müştərilər informasiyaları rahat əldə edər. Bu isə onların tələblərini daha da genişləndirər. Digər yandan isə, texnoloji əsaslar daxilində olan istehsal istehlak tələblərinə vaxtında cavab verər və müştəri məmnunluğuna səbəb olar. Günümüzdə əksər iqtisadçılar ticarətin inkişafda başlıca amil olduğu qənaətindədirlər. Onlar inanırlar ki, ticarət mövcud şərtlərdən faydalanaraq qlobal miqyasda potensial gəliri çox olan iqtisadi bizneslərə və layihələrə lazımi investisiyalar etmək baxımından güclü perspektivlər yaradır. Həm də xarici ticarətin genişlənməsi, ölkələrin və şirkətlərin qonşu bazarlara nüfuz etməsinə, mümkün texnologiyaya və resurslardan istifadə etmək yolu ilə iqtisadiyyatda dinamik artımın əldə olunmasına köməklik edəcəkdir.

Ölkənin beynəlxalq sistemdə digər ölkələrlə qarşılıqlı iqtisadi və ticarət əlaqələri nəticə etibarı ilə ödəniş (tədiyyə) balansında özünü göstərir. Belə olan halda, milli valyutanın sabitliyi, ölkədə aparılan fiskal və monetar siyasətin vəziyyəti göz qabağına çıxır. Davamlı olaraq tədiyyə balansının mənfi göstəricilərlə müşahidə olunması vəziyyətində milli valyutanın dəyərdən düşməsi baş verir. Bu da əslində, inkişaf etməkdə

olan və idxaldan asılı olan dövlətlərdə o qədər də arzu edilməyən prosesdir. Çünki belə davam etməsi durumunda, uzunmüddətli perspektivdə iqtisadi artım xeyli aşağı düşəcəkdir. Yəni, valyuta münasibətlərində gedən proseslər iqtisadi artım prosesləri ilə qarşılıqlı təhlil edilməlidir.

Məlum olduğu kimi, valyuta və vəzənnə münasibətlərinə bağlı devalvasiya iqtisadiyyatda mənfi hal kimi xarakterizə edilir. Əslində isə bu proses özü iqtisadi artım yarada bilər. Ucuz məzənnə siyasəti həm də ixracatı ucuzlaşdırır, bu da regionun və ölkənin istehsal etdiyi məhsullara xaricdən olan tələbatın artmasına gətirib çıxarır [3, s.176]. Bu tələb isə artımı stimullaşdıran əsas amildir. Digər yandan, devalvasiya zamanı idxal bahalaşır, nəticədə yüksək daxili tələb ortaya çıxır. Lakin idxal və ixrac üçün tələbin elastikliyi mövcuddursa, iqtisadiyyatda zəruri ehtiyatlar varsa, bu zaman böyümədə müsbət meylə doğru tendensiya meydana gələcəkdir. Qeyd edək ki, investisiya, ticarət və valyuta məsələləri ilə əlaqədar proseslərin nəzarətdə saxlanılması, iqtisadi problemlərdən yayınmaq üçün strateji yol xəritələrinin hazırlanması ölkəmiz və onun regionları üçün mühüm addımlar hesab edilir.

Beləliklə, müəyyən dövr ərzində ölkə və region üçün məhsuldarlığın artmasını özündə ifadə edən iqtisadi artım ən sadə dildə, iqtisadiyyatının sahib olduğu hər növ imkanlarla xarakterizə olunur. Əsas budur ki, buna nail olmaqda bütün vasitələr doğru qiymətləndirilməli, hətta ən arzuolunmaz şəraitlərdə belə əldə olan imkanlar artımı hədəfləyən yeniliklər kimi istifadə olunmalıdır. İqtisadi artıma təkan göstərəcək amillər içərisində hökümətin müxtəlif növ müdaxilələri də əhəmiyyətli addımlar kimi nəzərdə tutulur. Təbii ki, hökumətlər iqtisadiyyatda inkişafa nail olmaq və bu inkişafı idarə etmək üçün əllərindən gələn hər şeyi etməyə çalışırlar. Bu istiqamətdə hazırlamış olduqları geniş büdcə-kredit, investisiya siyasətindən, plan və proqramlardan, vergi və rüsumların stimullaşdırılması amillərindən, beynəlxalq ticarət siyasətindən, özəlləşdirmədən və digər yollardan istifadə edə bilərlər.

Ədəbiyyat

1. Abbasov N.R. İqtisadi artım amilləri və müasir iqtisadi inkişafda innovasiyanın rolu, AMEA İqtisadiyyat İnstitutu, «Elmi Əsərlər», №2, Bakı, 2015, 33-39 s.
2. İsayev Z.S. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2011, 187 s.
3. Mahmudov M.M, Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı: İqtisad Universiteti, 2011, 370 s.

Резюме

Ибрагимов Э.Ю.

Возможности достижения экономического роста в региональной политике

Для достижения сбалансированного развития регионов страны правительства готовят важные программы и планы. В этом направлении они используют опыт других стран, преимущественно развитых, и создают возможности для комплексной гармонии всех направлений экономической системы друг с другом. С этой точки зрения правильная финансово-кредитная, инвестиционная политика, обновление социальной инфраструктуры, сохранение прозрачности во всех сферах и другие вопросы являются координационным центром государства по обеспечению экономического роста. В статье рассматриваются валюта, инвестиции, торговля и другие факторы, стимулирующие экономический рост.

Ключевые слова: *экономический рост, инвестиции, торговля, регион, развитие*

Summary

İbrahimov E.Y.

Possibilities for Achieving Economic Growth in Regional Policy

In order to achieve balanced development of the country's regions, governments prepare significant programs and plans. In this direction, they benefit from the experiences of other countrıes, mainly developed ones, and create opportunities for complex harmony of all matters of the economic system with each other. From this point of view, proper financial and credit investment policy, the renewal of the social infrastructure, the preservation of transparency in all areas and other issues are the focal point of the state to ensure economic growth. The article deals with currency, investment, trade and other factors to drive economic growth.

Key words: *economic growth, investment, trade, region, development*

AQRAR-SƏNAYE SAHƏLƏRİNDƏ İNNOVASİYALI İNKİŞAFIN MALİYYƏ STİMULLAŞDIRILMASI

İbrahimov Fuad Maarif oğlu
Sosial-iqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi İctimai Birliyi
fuadibrahim@mail.ru

Xülasə: *Məruzədə innovasiyaların inkişafda artan rolu və onun maliyyələşdirilməsinin təşviqi məsələləri tədqiq olunur. Aqrar-sənaye sahələrində innovasiyalı inkişafın maliyyə stimullaşdırılmasının vasitə və istiqamətləri xarakterizə olunmuşdur. Həmin sahələrdə innovasiyalı inkişafın dövlət tərəfindən təşviqi imkanları nəzərdən keçirilmişdir. İnnovasiyaların vergi və amortizasiya vasitəsi ilə stimullaşdırılması məsələlərinə xüsusi diqqət verilmişdir. Aqrar-sənaye sahələrində innovasiyaların maliyyə stimullaşdırılmasının sınaqdan çıxmış üsul və vasitələrin birgə istifadəsi imkanları aşkar edilmiş, onların reallaşdırılması yolları göstərilmişdir.*

Açar sözlər: *maliyyə stimullaşdırılması, innovasiya, investisiya, vergi, aqrar-sənaye sahələri*

XXI əsrdə innovasiyalar sosial – iqtisadi inkişafın tempi və proporsiyalarını şərtləndirən həlledici amilə çevrilmişdir. İnnovasiyalı inkişafa investisiyaların stimullaşdırılması tədbirlərinin sistem əmələ gətirməsi mühit yaradan amillərin təsirinin qiymətləndirilməsini nəzərdə tutur. Həmin amillər qismində, ilk növbədə iqtisadi, ekoloji, aqrar texnoloji, rəqəmsal-texnoloji və digər amillər diqqəti cəlb edir. Elm-təhsil-istehsal birliyində elmtutumlu fəaliyyətin təşviqi milli iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin inkişafında yeni keyfiyyət səviyyəsinin əldə edilməsində aparıcı rola malikdir. Haqqında danışılan birlik mənafelərin vəhdətinə əsaslandıqda icra olunan innovasiya layihələrinin maliyyələşmə mənbələrinin müxtəlifliyinin əldə olunması imkanları genişlənir. İnnovasiyalı inkişafın stimullaşdırılması təcrübəsi innovasiya siyasətində müvafiq yanaşmaların müxtəlif olduğunu göstərir. Belə ki, ölkənin iqtisadi potensialı, onun beynəlxalq elmi-texniki inteqrasiya proseslərində yeri və rolu, innovasiyalara həssaslıq (açıqlıq), istehsal sahələrində mühəndis-texnoloji mühitin xarakteristikaları və bu kimi bir sıra digər amillər innovasiya siyasətinin prioritetlərini şərtləndirir [5, s. 2-23].

Maliyyə stimullaşdırılması innovasiya və investisiya siyasətlərinin prioritetlərinin birgə reallaşdırılmasını sürətləndirir. Təkcə onu demək kifayətdir ki, investisiya resurslarının ərzaq təhlükəsizliyinin təmin edilməsinə, aqrar - sənaye sahələrində (o cümlədən, istehsal və emal sahələrində) fəaliyyətlərin şaxələndirilməsinə yönəldilməsinin səmərəliliyi, əsasən investisiya və innovasiya infrastrukturunun inkişafı üzrə prioritetlərin birgə reallaşdırılması sayəsində mümkündür.

Aqrar-sənaye sahələrində innovasiyaların stimullaşdırılması kifayət qədər dinamik sistem əmələ gətirdikdə nəticəyönümlü olur. Əlbəttə, aqrar və sənaye fəaliyyətlərinin dairəsi olduqca genişdir və haqqında danışılan nəticəyönümlük geniş diapazonda dəyişir. Məhsuldarlığın və məhsulun keyfiyyətinin yüksəldilməsi innovasiyaların maliyyə stimullaşdırılmasının əsas motivlərindəndir [10, s.47-65]. İtkilərin azaldılması, o cümlədən aqrar-sənaye sahələrində istiqamətində innovasiyaların stimullaşdırılması amillərin daha geniş spektri əhatə olunmalıdır. Belə ki, bu halda ilk növbədə istehsal, loqistika, satış və istehlak üzrə xarakteristikaları təhlilə cəlb edilməlidir. Bitkilərin seleksiyası sahəsində innovasiyalar və onların stimullaşdırılması məsələləri tədqiqatçıların diqqətini daha çox cəlb edir [3, s.367-390]. Bu zaman, habelə aqrar – sənaye innovasiyalarının patentləşdirilməsi və mühafizəsi problemləri də aktuallaşdırılır.

Aqrar-sənaye sahələrində innovasiyaların stimullaşdırılması mövcud resurs və istehsal potensialına hərtərəfli əsaslandırılmış yanaşma tələb edir. Konkret halda, informasiya və bilik potensialına artan diqqət müşahidə olunur. Bu və digər amillər aqrar-sənaye sahələrinin innovasiyalı inkişafının maliyyə stimullaşdırılması tədqiqatların dərinləşdirilməsi zərurətini şərtləndirir. Əlbəttə resurslardan qənaətlə istifadə, resursqoruyucu texnologiyaların tətbiqi dairəsinin genişləndirilməsi, alternativ enerji mənbələrinin daha fəal surərdə cəlb edilməsi, bir sözlə yaşıl iqtisadiyyat tələbləri müvafiq tədqiqatların predmetinə daxil edilməlidir.

Hazırda keyfiyyətcə yeni maliyyə alətləri, müasir maliyyə texnologiyaları, mütərəqqi maliyyə məhsulları dövriyyəyə daxil olur. Onların aqrar - sənaye sahələrinin innovasiyalı inkişafında rolunun artacağı gözlənilir. Başqa sözlə, maliyyə innovasiyalarının, haqqında danışılan sahələrdə innovasiyalı inkişafı sürətləndirəcəyi ehtimalı yüksək hesab olunur [9, s. 61-81].

İnnovasiyalı inkişafın dövlət tərəfindən birbaşa təşviqi kompleks xarakterli tədbirlərin görülməsini tələb edir. Həmin tədbirlər, ilk növbədə aşağıdakıları əhatə edir "elmi-tədqiqat işlərinin və innovativ layihələrin büdcədən maliyyələşdirilməsi və birgə maliyyələşdirilməsi; innovativ fəaliyyət subyektlərinin hüquqlarının müdafiəsi; ölkə səviyyəsində innovativ layihələrin qiymətləndirilməsi üçün vahid standartların yaradılması; innovativ infrastrukturun yaradılması və

inkişafı; innovasiya sferasında sığorta obyektlərinin inkişafı; innovativ bazarın formalaşdırılması; innovasiya və texnologiya mərkəzlərinin yaradılması və inkişafı; innovativ sənaye komplekslərinin yaradılması və inkişafı; mənəvi dəstək vasitələrinin inkişafı; innovativ kadrların hazırlanması" [2]. İnnovasiyalı inkişafa dövlət himayəsinin dolayı üsullarına aşağıdakılar aid edilir: "innovativ fəaliyyət subyektlərinin güzəştli vergiyə cəlb edilməsi; güzəştli kreditləşdirmə; maliyyə lizinqinə dövlət dəstəyi; françayzinqə dövlət dəstəyi; kiçik və orta innovasiya biznesinə dəstək; riskli (vençur) biznesinin sığortalanmasında dövlətin fəal iştirakı; özəl investorlar üçün investisiya cəlbediciliyinin artırılması" [2].

Ərazi inkişafında innovasiyalar və onların təşviqi amilinin artan əhəmiyyətə malik olduğu müşahidə edilir. Bu baxımdan, aqrar - sənaye sahələrində innovasiyaların maliyyə stimullaşdırılması üçün müxtəlif vasitə və alətlərdən istifadə oluna bilər. İnnovasiya layihələrinə münasibətdə birbaşa maliyyələşdirməklə stimullaşdırma vasitələri və alətlərinin seçiminəd danışarkən, ilk növbədə subsidiyalar, elmi tədqiqatlara qrantlar, müəssisənin (təşkilatın) nizamnamə kapitalına ayırmalar, innovasiya müəssisəsinin öhdəliklərinin satın – alınması, özəl bizneslə birgə maliyyələşdirmə (vençur maliyyələşdirilməsi mexanizmi və dövlət-özəl bölmə tərəfdaşlığı) qeyd edilməlidir" [1].

İnnovasiyaların vergi stimullaşdırılması bu və ya digər sahəyə investisiyaların cəlb edilməsində əhəmiyyətli rola malikdir. Vergi yükünün investor baxımından əsaslandırılmamış hesab edilən ağırlığı innovasiyalara, o cümlədən yeni texnologiyalara investisiyalara, istehsalın səmərəliliyinə, məhsulun keyfiyyətinə və məhsuldarlığına təsiri, müəyyən qeyd –şərtlərlə neqativ olur [12, s. 17-45]. Bu və digər tədqiqatlarda innovasiyalara investisiyaları stimullaşdırmaq məqsədi ilə vergilərin azaldılmasına tərəfdar olanlara rast gəlinir.

İnnovasiyaların vergi stimullaşdırılması üzrə yanaşmalar müxtəlif olsa da, onların böyük hissəsini birgə tətbiq etmək təcrübəsi vardır. Həmin yanaşmalar, ilk növbədə aşağıdakılar aid edilir: investisiyalara vergi güzəşti; məhsul innovasiyalarına azaldılmış ƏDV dərəcəsi və mənfəət vergisi; vergi krediti və s.

Ölkənin iqtisad qüdrəti artdıqca elmi-texniki ideyaların məhsula çevrilməsi biznesinin nüfuzu artır. Dövlətin bu istiqamətdə fəaliyyətində prioritet hesab edilən istiqamətlər innovasiyalı inkişafın xarakteristikalarını, həlledici dərəcədə müəyyən edir. Bu baxımdan innovasiyalı inkişafın vergi stimullaşdırılması məsələləri xüsusi aktuallıq kəsb edir. Müvafiq mənbələrdə göstərildiyi kimi "investisiya və innovasiya proseslərinin stimullaşdırılması baxımından təşkilatların mənfəətindən vergilərə birbaşa güzəştlərin tətbiqi məqsədəuyğundur" [8, s. 85]. İnnovasiyalara investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətində görülən tədbirlər qismində mənfəətin innovasiyalı fəaliyyətə gedən hissəsinə vergi güzəştləri, müvafiq normativlərin və standartların hazırlanması proseslərinin sadələşdirilməsi, amortizasiya güzəştləri, habelə sürətlənmiş amortizasiya yanaşmaları, innovasiya tələbləri baxımından qiymətqoyma, kredit və sığorta mexanizminin təkmilləşdirilməsi qeyd edilməlidir. İnnovasiylı inkişafın maliyyə stimullaşdırılması məqsədi ilə amortizasiya normasını artırmaq təcrübəsi vardır. Deyək ki, Kanadada "avadanlıqların yenilənməsi və sahənin modernləşdirilməsi və onun rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə, avadanlığın istismarının ilk ilində amortizasiya normasının 50 faizə qədər artırılmasına yol verilir" [7, s.159]. Bir sıra digər ölkələrdə də həmin yanaşma tətbiq olunur.

Araşdırmalar inovasiyalı fəaliyyətə investisiyaların təşviqində dövlətin iştirakı fərqli xarakteristikalarda özünü doğrulda bilər. Dövlətin aqrar-sənaye sahələrində innovasiya fəaliyyətinin təşviqində birbaşa təsir vasitələri kimi məqsədli və ya problem yönümlü maliyyələşdirmə investisiya mühitinin fəallaşdırılmasında mühüm rola malikdir. İnnovasiyalı inkişafın stimullaşdırılmasında dövlət investisiyaları, müvafiq proseslərdə dövlətin iştirak formalarının optimal kombinasiyası perspektivli hesab olunur Haqqında danışılan kombinasiyalarda dövlət innovasiyalı fəaliyyətin elmi təminatının gücləndirilməsi, həmin fəaliyyətə məsrəflərin əhəmiyyətli hissəsinin büdcədən subsidiyalaşdırılması, enerjiqoruyucu innovasiyaları geniş surətdə mənimsəyən subyektlərə müxtəlif xarakterli imtiyazların verilməsi və s. kimi variantlara önəm verə bilər. Eyni zamanda, onu da qeyd edək ki, sivil bazar münasibətləri təşəkkül tapdıqca innovasiyalı inkişafın maliyyə təminatında dövlətin xüsusi çəkisinin azalması meyli müşahidə edilir. Aşağıdakı mənbədə göstərildiyi kimi postsovet ölkələrindən fərqli olaraq "inkişaf etmiş ölkələrdə tədqiqatların və işləmələrin maliyyələşdirilməsinin 60-75 faizi iqtisadiyyatın sahibkarlıq bölməsi tərəfindən həyata keçirilir" [6,s. 515-519].

Artıq qeyd olunduğu kimi, innovasiya layihələrini birbaşa maliyyələşdirməklə stimullaşdırma istiqaməti kimi dövlət-özəl bölmə tərəfdaşlığı təcrübədə özünü doğruldur. Aqrar-sənaye sahələrində innovasiyaların maliyyələşdirilməsində dövlət-özəl bölmə tərəfdaşlığı investisiyaların istifadəsində inkişafın çoxsaylı variantlarının müqayisəsini nəzərdə tutmalıdır. Eyni zamanda, yüksək ehtimalla innovasiyaların maliyyə stimullaşdırılması müvafiq təşkilati strukturun optimallaşdırılması məqsədilə çoxvariantlı

eksperimentlərin reallaşdırılması halında nəticə yönümlü ola bilər. Rəqəmsal texnologiyalar həmin eksperimentlərin aparılması imkanlarını dəfələrlə genişləndirir.

İnvestisiyaların innovasiyalı inkişafa adekvat surətdə stimullaşdırılması baxımından vençur biznesi xüsusi diqqətə layiqdir. Vençur fondlarının yaradılması və istifadəsi məsələləri, bu baxımdan tədqiqatçıların diqqətini cəlb edir. Aqrar-sənaye sahələrində vençur müəssisələrinin yaradılması və onların fəaliyyətinin təşviq edilməsi sisteminin səmərəliliyi riskləri bölüşdürülməsi mexanizminin mükəmməlliyindən bilavasitə asılıdır. Təcrübədə, həmin asılılığa innovasiyaların mənimsənilməsinin iqtisadi məqsədəuyğunluğu aspektində baxılır. Belə ki, innovasiyalara yönəlik investisiya fəaliyyətinin tənzimlənməsi müvafiq tələblərə riayət olunmasını nəzərdə tutur ki, bu da müəyyən məsrəflərlə əlaqədardır. İnnovasiya proseslərinin maliyyə stimullaşdırılması inkişaf dinamikasının gücləndirməklə, nəinki həmin məsrəflərin, habelə ümumilikdə innovasiyaların mənimsənilməsinə məsrəflərin ödənilməsi müddətini qısaldır [4, s.391].

Aqrar-sənaye sahələrində innovasiyalı inkişafa investisiyaların stimullaşdırılması sistemində dayanıqlı inkişaf tələblərinə cavab verən texnoloji məqsədəuyğunluq aspekti xüsusi önəm daşıyır [11, s.5-14]. Hazırda texnoloji innovasiyalara tələbin səviyyəsi və strukturu arzu edilən səviyyədə deyildir. İnvestisiyaların stimullaşdırılması sistemində texnoloji məqsədəuyğunluq perspektivlərini məhdudlaşdıran amillər qismində, ilk növbədə aşağıdakılar qeyd edilə bilər: elmin maliyyələşdirilməsinin təşkilində olan bürokratik problemlər; istehsala məsrəflərin azaldılması zərurətinin (məlum olduğu kimi, bu zərurət innovasiyaya investisiyaları stimullaşdırır) alternativsizliyinin heç də həmişə qəbul edilməməsi; elmi ideyaların maddiləşməsi və kommersiyalaşması səviyyəsinin aşağı olması.

Yuxarıda göstərilənləri xülasə edərək qeyd etmək olar ki, aqrar-sənaye sahələrində innovasiyalı inkişafın maliyyə stimullaşdırılması qabaqcıl təcrübədə bu və ya digər dərəcədə sınaqdan çıxmış üsul və vasitələrin birgə istifadəsi imkanlarına xüsusi diqqət yetirilməlidir. Haqqında danıışılan sahələrdə ərzaq təhlükəsizliyinin təminat səviyyəsini yüksəldən innovasiyalı fəaliyyət istiqamətləri, innovasiya sahikarlığını təşviq etmək üçün vergi stimullaşdırılması, resursqoruyucu texnologiyaların tətbiqinin stimullaşdırılması prioritet hesab edilməlidir. Aqrar-sənaye sahələrində maliyyə innovasiyalarının tətbiqi imkanlarının qiymətləndirilməsi istiqamətində təcrübi araşdırmalar davam etdirilməlidir.

Ədəbiyyat

1. Аникина, И.Д., Гукова, А.В., Чекалкина, А.А. Стимулирование инновационной деятельности предприятий региона: выбор финансовых инструментов // Современные проблемы науки и образования. – 2015. – № 1-2. URL:https://scienceeducation.ru/ru/article/view?id=20108(дата обращения: 12.09.2022).

2. Avramchikova N.T., Volkov D.O., Zakharova L.N. Methods and forms of state support of innovative activities in the region (on the example of Krasnoyarsk region) // Сибирский аэрокосмический журнал. 2017. №2. URL: https://cyberleninka.ru/ article/n/ (дата обращения: 14.09.2022).

3. Blakeney, Michael. (2005). Stimulating Agricultural Innovation. 10.1017/ CBO9780511494529.020. pp.367-390

4. Blind, K. (2012) The influence of regulations on innovation: A quantitative assessment for OECD countries. Research Policy 41, 391-400

5. Edler, Jakob & Fagerberg, Jan. (2017). Innovation policy: What, why, and how. Oxford Review of Economic Policy. 33. 2-23. 10.1093/oxrep/grx001

6. Кохно, П.А., Костин, А.Л. Модель будущего. Москва, Алгоритм, 2013.752с., с. 515-519

7. Курбанов, Г. Н Амортизационная политика, формы и системы зарубежных стран// Журнал: Актуальные вопросы экономических наук. Москва. Выпуск № 31 / 2013, с.157-163

8. Гринкевич, А.М. Налоговое стимулирование инновационной деятельности: сравнительный анализ Российского и зарубежного законодательства // Вестник Томского государственного университета.2012, №2 (18), с.81-86

9. Meierrieks, Daniel. (2015). Financial Development and Innovation: Is There Evidence of a Schumpeterian Finance-Innovation Nexus?. Annals of Economics and Finance. 15. 61-81

10. Mohnen, Pierre & Hall, Bronwyn. (2013). Innovation and productivity: An update. Eurasian Business Review. 3. 47-65

11. Pan, Tianqun. Technological Innovation: A Balance between Indispensability and Feasibility. Journal of Integrated Design and Process Science, vol. 23, no. 2, pp. 5-14, 2019. Published: 11 May 2020

12. Thatcher, M.E. & Oliver, Jim. (2001). The impact of technology investments on a firm's production efficiency, product quality, and productivity. Journal of Management Information Systems. 18. 17-45

Резюме
Ибрагимов Ф.М.
Финансовое стимулирование инновационного развития в агропромышленных сферах

В докладе исследуется растущая роль инноваций в развитии и содействие их финансированию. Охарактеризованы средства и направления финансового стимулирования инновационного развития в агропромышленных отраслях. Рассмотрены возможности государственного стимулирования инновационного развития в этих сферах. Особое внимание было уделено вопросам стимулирования инноваций за счет налогообложения и амортизации. Выявлены возможности совместного использования апробированных методов и инструментов финансового стимулирования инноваций в агропромышленных сферах, показаны пути их реализации.

Ключевые слова: *финансовое стимулирование, инновации, инвестиции, налог, государственное участие, агропромышленные отрасли*

Summary
Ibragimov F.M.
Financial Incentives for Innovative Development in Agro-Industrial Sectors

The report examines the growing role of innovation in development and the promotion of its financing. The means and directions of financial stimulation of innovative development in the agro-industrial sectors are characterized. The possibilities of state stimulation of innovative development in these areas are considered. Particular attention was paid to the issues of stimulating innovation through taxation and depreciation. The possibilities of joint use of proven methods and instruments of financial stimulation of innovations in the agro-industrial spheres are revealed, the ways of their implementation are shown.

Key words: *financial incentives, innovations, investments, tax, state participation, agro-industrial sectors*

İNNOVASİYALARIN ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLUNUN TƏDQİQİ

İbrahimova Natavan Vaqif qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
faridfatima.ff@mail.ru

Xülasə: *Tədqiqat işində innovasiyaların və əhalinin həyat səviyyəsinin əlaqəsi araşdırılır.. Ölkə əhalisinin həyat səviyyəsi Azərbaycanın innovasiya iqtisadiyyatına keçməsi üçün zəruri olan keyfiyyətli yeni işçi qüvvəsinin formalaşdırılmasının əsasıdır. Məqalədə dünya ölkələrində innovasiya fəaliyyəti ilə rifah arasındakı qarşılıqlı əlaqə nəzərdən keçirilir. Burada göstərilir ki, innovasiya, yeni texnika, texnologiyaların yaradılmasında və istifadəsində əsas məqsəd onların cəmiyyətin rifahına təsir etməsidir. Tədqiqat işində insanların rifahını xarakterizə edən göstəricilər təqdim edilir.*

Açar sözlər: *əhalinin həyat səviyyəsi, innovasiya, innovativ iqtisadiyyat, inkişaf tendensiyaları, innovasiya və həyat səviyyəsinin qarşılıqlı əlaqəsi*

Giriş. Dünya böhranının fəsadları ölkəmizin iqtisadiyyatının enerji daşıyıcılarının qiymətlərindən əhəmiyyətli dərəcədə asılı olduğunu sübut etdirdi və "xammal" inkişaf yolu problemlərini üzə çıxardı. Aydın oldu ki, Azərbaycanın uzunmüddətli perspektivdə normal iqtisadi fəaliyyət göstərməsi üçün əsas şərtlərdən biri - dünyanın inkişaf etmiş ölkələrindən texnoloji geriliyin aradan qaldırılmasıdır.

Bütün dünyada baş verən dəyişikliklər yeni texnologiyalara və innovativ qərarlara əsaslanan iqtisadi inkişaf modelinə keçidin zəruriliyini nümayiş etdirir. "İnnovasiya" və “innovasiya iqtisadiyyatı” terminləri indi çox tez-tez ölkələrin siyasətçilərinin bəyanatlarında, mətbuatda, iqtisadi tədqiqatlarda işlədilir. İnkişaf etmiş ölkələr "innovasiya iqtisadiyyatı - innovasiya axınına, daimi təkmilləşdirməyə, yüksək əlavə dəyərli yüksək texnoloqiyalı məhsulların istehsalı və ixracına əsaslana iqtisadiyyat növüdür" terminini istifadə edirlər [4].

İnnovasiyalar yeni və ya modifikasiya edilmiş biliklərin ərsəyə gəlməsi və realizasiya prosesi kimi əhalinin rifahının və həyat keyfiyyətinin yüksəldilməsində mühüm rola malikdir [1]. Yeni və yaxud yenilənmiş texnologiyalar, həmçinin innovasiyalara dair qərarlar ölkənin iqtisadi artımını stimullaşdırmaqla yanaşı, onun əhalisinin həyat səviyyəsinin və rifahının yüksəlməsinə təkan verir, eyni zamanda cəmiyyətin

tələbatının düzgün şəkildə ödənilməsinə kömək edir. Həyat səviyyəsinin yüksəldilməsi insanların həm fiziki, həm zehni bacarıqlarının (insan kapitalı) inkişafını təmin edir, bu isə innovativ məhsul, texnika və texnologiyaların yaradılması və tətbiqi üçün baza amili kimi çıxış edir. Yüksək həyat səviyyəsi ölkənin və cəmiyyətin innovasiyalarda marağı üçün ən vacib şərtlərdən biridir. İnsanın bütün əsas tələbatları təmin edildikdə, bu zaman yeniliklərin əhəmiyyətini dərk etmək mümkündür. Tez-tez təhsil və elm xərclərinin ölkənin inkişafı üçün vacibliyi xatırlansa da, innovasiyaların işlənib hazırlanması və tətbiqi üçün iqtisadi-sosial institutların yüksək inkişaf səviyyəsinin zəruriliyi haqqında fikirlər az səslənir. İnnovasiya iqtisadiyyatına sahib olan ölkələrdə yeni quruluşa keçid güclü mexanikləşdirilmiş istehsal fonunda, daha da inkişaf etmiş infrastruktur və yüksək dərəcəli daxili tələbat şəraitində baş vermişdir[3].

Tədqiqatın əsas hipotezləri. Cəmiyyətin həyat səviyyəsinin yüksəldilməsi hər bir mütərəqqi cəmiyyətin əsas hədəfidir. Ölkələrin çoxunda əsas strategiya - insanın inkişafına çəkilən xərclərin artırılmasıdır. Əhalinin həyatının keyfiyyət göstəriciləri iqtisadi və sosial sahələrində qərarların qəbul edilməsi kriteriyasına çevrilib [2]. Azərbaycanda həyat səviyyəsinin araşdırılması və digər ölkələrlə müqayisələrin aparılması məqsədi ilə tədqiqatın terminoloji bazasını müəyyən etmək lazımdır. Tədqiqat işində həyat səviyyəsi ilə bərabər rifah anlayışından da istifadə olunur.

Rifah dedikdə cəmiyyətdə mövcud sosial - iqtisadi həyat şəraitinin, insanın və ya qrupun tələbatlarının təmin olunmasını təmin edən sabit sistem başa düşülür. Rifah səviyyəsinin ölçülməsi üçün iki metodoloji yanaşma mövcuddur:

İlk yanaşma subyektiv olaraq təhlil edilir. Bu zaman, bir şəxs həyatının bu və ya digər meyarlara görə nə qədər yaxşı və ya pis olduğunu özü qiymətləndirir. Ona görə də hər bir fərdin rifahı haqqında təsəvvürü yalnız sosial tədqiqatların nəticələri əsasında əldə etmək mümkündür. Bu halda insanın özü onun həyatının bu və ya digər meyarlarla nə qədər yaxşı və ya pis olduğunu qiymətləndirir, buna görə də hər bir fərdin rifahı haqqında məlumatları yalnız sosioloji tədqiqatların nəticələri əsasında əldə etmək olar.

İkinci yanaşmada rifah insanın subyektiv məmnuniyyətinə görə deyil, bir neçə obyektiv göstəricilərə görə ekspertlərin sorğusu nəticəsində qiymətləndirilir [5]. Bu yanaşma cəmiyyətin rifahının çoxölçülüyünü daha dolğun əks etdirən sosial iqtisadi göstəricilər sisteminin qurulmasını nəzərdə tutur. Həmçinin sosial standartları və normativləri müəyyən etməklə əhalinin rifahının formalaşmasının real şərtləri müqayisə edilir. İnsanların rifahını xarakterizə edən göstəricilər sistemlərini bir çox hökumətlərarası təşkilatlarlar işləyib hazırlayırlar.

Dünya və yerli tədqiqatçılar arasında innovasiyaların işlənib hazırlanması, inkişafı və əhalinin həyat keyfiyyəti kimi kompleks hadisələr arasında qarşılıqlı əlaqələrin təhlilinə az diqqət yetirilmişdir. Əhalinin həyat səviyyəsini müəyyən edən müxtəlif göstəricilər sistemləri işlənib hazırlanmışdır. Tətqiqat işində insanların rifahını xarakterizə edən aşağıdakı göstəricilər göstərilib.

İnsan potensialının inkişaf indeksi (İPİİ). O, 1990-cı ildən başlayaraq hər il BMT tərəfindən İnsan İnkişafı Hesabatında dərc olunur. İPİİ müxtəlif ölkələrin rifah səviyyəsinin ümumi müqayisəsi zamanı standart alət kimi istifadə edilir.

İnnovasiya fəaliyyəti. İnnovasiya fəallığının tədqiqi zamanı innovasiyalarla bağlı əsas anlayışlar hazırlayan İqtisadi İnkişaf Təşkilatı və Birliyi (İİTB) tərəfindən metodoloji tövsiyələrə əsaslanılıb. Oslo təlimatları İİTB – ın innovasiyaların tədqiqinə həsr olunmuş əsas işçi sənədidir [7]. Bu təlimatlara əsasən, "İnnovasiya - yeni və ya təkmilləşdirilmiş məhsul (əmtəə, iş, xidmət), bazarda tətbiq olunan yeni və ya təkmilləşdirilmiş texnoloji proses yaxud istifadə olunan təşkilati və ya marketinq metodu şəklində təcəssüm edilən innovasiya fəaliyyətinin son nəticəsidir". Müəyyən edildi ki, "fərdi rifahın qavranılması" və "vətəndaş rifahı" növbəti göstəriciləri əhatə edirlər: mənzil mövcudluğu, keyfiyyətli səhiyyə, təhsil və məktəb sistemi, havanın və suyun keyfiyyəti, təhlükəsizlik, ümumi həyat məmnuniyyəti, iş, şəxsi sağlamlıq və s.

Ölkələrin innovasiya fəallığının tədqiqi və müqayisəsi zamanı Dünya Bankının göstəricilərindən istifadə edilir: ETTKİ- yə investisiyalar, yüksək texnologiyaların ixrac payı, xidmət müəssisələrinin gəlir payı, sənaye müəssisələrinin gəlir payı, özəl biznesə ayrılan kreditlərin məbləği, gəlir və mənfəət vergisi və s.[6].

Dünya ölkələrinin həyat səviyyəsinə və innovasiya fəallığına görə təsnifatı

Ölkələr üzrə vətəndaşların innovativ inkişaf və rifah səviyyəsinə görə daha ətraflı müqayisə və təsnifləşdirilməsi üçün BMT tərəfindən dərc edilən əsas göstəricilərdən biri olan insan potensialının inkişaf indeksindən (İPİİ) istifadə edilmişdir [9].

Tədqiqat işində ölkənin innovasiya fəallığının insanların həyat keyfiyyətinə nə dərəcədə təsir etdiyini və istehlakçılar arasında innovasiyaların necə qəbul edildiyini araşdırmaq vacibdir. Aparılan tədqiqatlar göstərir ki, əlverişli investisiya mühiti, sahibkarlığa və biznesə dəstək, innovasiya fəallığının yüksək səviyyəsinə malik ölkələrdə əhali özlərini rahat hiss edir və öz rifahını yüksək qiymətləndirir. Yuxarıda

göstərilənlərdən əlavə Qərbi Avropa, Şimali Amerika, "Asiyanın pələngləri", həmçinin Qətər və BƏƏ kimi təbii ehtiyatlara malik ölkələri göstərmək olar [8].

Azərbaycan "resurs lənəti"nin aradan qaldırılması və iqtisadiyyatın inkişafının innovasiya və sosial yönümlü modelinin formalaşması yolundadır. Lakin bu, dövlət, sahibkarlıq və cəmiyyətin bilavasitə qarşılıqlı fəaliyyətinin inteqrasiya olunmuş sistemini işləyib hazırlamadan mümkünsüz hesab edilir. Ölkənin innovasiya imkanlarının tədqiqi dövlətin mövcud innovasiya siyasətinin son məqsədi – insanların rifahının yüksəldilməsinə nail olmaq baxımından kompleks şəkildə qiymətləndirilməsinə imkan verəcəkdir.

Nəticə. Azərbaycanın əsas problemlərindən biri elmin istehsaldan ayrılmasıdır. Tədqiqat və işləmələr əsasən özəl sektorun investisiyaları hesabına deyil, dövlət tərəfindən maliyyələşdirilir. Sahibkarların innovasiya üçün stimulları yoxdur və innovasiya xərclərinin kommersiya cəhətdən fayda verə biləcəyi və alimlərin elmi maraqlarının praktiki məqsədlər üçün istifadə oluna biləcəyi düşüncəsi hələ inkişaf etməmişdir. Müəssisələrin universitetlərlə əməkdaşlığı az inkişaf edib. Təhsil müəssisələri firmanın konkret istehsal məsələlərinin həlli üçün tələb olunan ixtisaslaşmış mütəxəssisləri məhdud sayda buraxırlar. İnsan potensialının yüksək səviyyəsinə və təbii sərvətlərin mövcudluğuna baxmayaraq, Azərbaycan əhalisinin rifahı hələ də çox aşağı olaraq qalır və təkcə inkişaf etmiş Qərbi Avropa, ABŞ və Yaponiyadan yox, həm də texnoloji tərəqqi yoluna qədəm qoymuş bir çox inkişaf etməkdə olan ölkələrdən geri qalır.

Təkliflər. Azərbaycan innovasiya problemlərinin həlli və əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə ciddi məşğul olmalıdır. Həllər innovasiya iqliminin yüksəldilməsindən, texnologiyaların transferinin inkişafından və kiçik innovasiya firmalarının fəaliyyətinin vətəndaşların səhiyyə və sosial təminat problemlərinin həllinə qədər stimullaşdırılmasından başlayaraq bir çox fəaliyyət sahələrinin inkişafını tələb edir.

Bir çox fəaliyyət sahələri aşağıda göstərilən əsas problemlərin həllərinə yönəlməlidir:

- innovasiya iqlimin artırılması,
- texnologiya transferinin inkişafı,
- kiçik innovasiya firmalarının fəaliyyətinin stimullaşdırılması,
- vətəndaşların səhiyyə və sosial təminat problemlərinin həlli.

Yalnız göstərilən bütün problemlərin kompleks həlli Azərbaycanı dünyanın inkişaf etmiş ölkələrdən ciddi şəkildə geri qalmağı, layiqli mövqelərini və beynəlxalq reytinq pozisiyalarını tutmağa kömək edəcək.

Ədəbiyyat

1. Cajaiba-Santana, G. (2013) Social innovation: Moving the field forward. A conceptual framework. Technological Forecasting and Social Change, 82, 42-51 p.
2. Fagerberg, J., Feldman, M, Srholec, M. (2011). Technological Dynamics and Social Capability: Comparing U.S. States and European Nations, Working Papers on Innovation Studies, University of Oslo
3. V. N. Karazin Kharkiv (11/30/2020) Utinskiy_diplom_Zadorozhna_economy_30.11.20.pdf National University (KKNU) (Економічний факультет - кафедра міжнародної економіки та світового господарства)
4. Архипова, М.Ю., Лебедев, А.В. (2012) Инновации и уровень жизни населения: взаимосвязь, тенденции, перспективы. Экономика, статистика и информатика. Вестник УМО. №6, с. 91-96
5. Воронкова, О. В. (2016) Подходы к определению и измерению бедности // Экономический вестник Ростовского государственного университета. № 3.
6. Официальный сайт Всемирного Банка — URL: http://www.worldbank.org
7. Программа развития ООН- URL: http://www.undp.org
8. Румянцева, Е. Е. (2011) Бедность как глобальная проблема // МЭ и МО, С. 57–65–287с.
9. Т.В. Игнатова, С.П, Кюрджиева. (2018). Управление в социальной сфере: состояние, проблемы и тенденции развития. Монография / Ростов н/Д: ЮРИУ РАНХиГС, 200 с.
10. https://www.etis.ee/File/DownloadPublic/

Резюме

Ибрагимова Н.В.

Изучение роли инноваций в повышении уровня жизни населения

В исследовательской работе была рассмотрена взаимосвязь понятий инновации и уровня жизни населения. Уровень жизни населения страны является базой для формирования усовершенствованной новой рабочей силы, необходимой для перехода Азербайджана к инновационной экономике. В статье рассматривается взаимодействие инновационной деятельности и благосостояния в странах мира. Здесь показано, что основной целью новшеств,

разработка, создание и использование новейших методов и технологий является их воздействие на благосостояние общества. В данной работе были указаны показатели, характеризующие благосостояние людей.

***Ключевые слова**: уровень жизни населения, инновации, инновационная экономика, тенденции развития, взаимосвязь инноваций и уровня жизни*

Summary

Ibrahimova N.V.

Study of the Role of Innovations in Improving the Standard of Life of the Population

In this article, the relationship between innovation and the standard of living of the population was investigated. The standard of living of the country's population is the basis for the formation of a qualitatively new workforce necessary for Azerbaijan's transition to an innovative economy. The article examines the interaction of innovation and well-being in the countries of the world. It is shown here that the purpose of innovation, creation and use of new methods and technologies is their impact on the well-being of society. In the research work, indicators were indicated that characterize the well-being of people.

***Key words**: standard of living of the population, innovation, innovative economy, development trends, interaction of innovations and standard of living*

ÖLKƏDƏ DEMOQRAFİK VƏZİYYƏTİN VƏ HƏYAT SƏVİYYƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

İsmayılova Lyudmila Famil qızı
Sumqayıt Dövlət Universiteti
lyuda.ismayilova.75@mail.ru

***Xülasə**: Əhali iqtisadi fəaliyyətin həm obyekti, həm də subyekti kimi nəzərdən keçirilir. Ölkə əhalisinin sağlamlığının qorunması, müdafiəsi və təhlükəsizliyinin təmin olunması, layiqli həyat səviyyəsinin təmin olunması, rifah halının davamlı olaraq yaxşılaşdırılması hər bir dövlətin prioritet vəzifələrindəndir. Ona görə də qeyd olunan məsələlərin öyrənilməsi və qiymətləndirilməsi müxtəlif göstəricilər vasitəsilə həyata keçirilir. Bu sahədə statistikanın böyük rolu vardır. Məqalədə Azərbaycan əhalisinin demoqrafik vəziyyəti və həyat səviyyəsi ilə bağlı bir sıra məsələlər nəzərdən keçirilir.*

***Açar sözlər:** əhali, demoqrafik vəziyyət, təbii artım, məskunlaşma, məşğulluq*

Əhali müəyyən ölkənin, regionun, müəyyən ərazinin sərhədləri daxilində məskunlaşan insanların məcmusudur. Əhali, onun artımı, yerdəyişməsi, məskunlaşması və s. ilə bağlı proseslər demoqrafik proseslər olub özündə əhalinin təbii hərəkətini, nəsillərin əvəzlənməsini, yəni təkrar istehsalını, müxtəlif əlamətlərə görə onun tərkibinin dəyişməsi proseslərini, əhalinin məskunlaşma proseslərini və təbii ki, miqrasiya proseslərini birləşdirir.

Ölkədə demoqrafik vəziyyətin qiymətləndirilməsi üçün, ilk növbədə müxtəlif statistik metodlardan - müşahidə, qruplaşdırma, ümumiləşdirici göstəricilər kimi metodlardan istifadə olunur. Demoqrafik vəziyyətin qiymətləndirilməsi məqsədilə hesablanan göstəricilər əhalinin sayının dinamikası, onun təbii və mexaniki hərəkəti, tərkibi və s. əks etdirən göstəricilərdir.

Cədvəl 1.

2011-2022-ci illərdə Azərbaycan əhalisinin sayı, ilin əvvəlinə (min nəfərlə) [1]

Əhalinin tərkibi	2011	2016	2021	2022
Cəmi	9111,1	9705,6	10119,1	10156,4
şəhər əhalisi	4829,5	5152,4	5358,5	5368,5
kənd əhalisi	4281,6	4553,2	4760,6	4787,9
Əhalinin ümumi sayından:				
kişilər	4517,1	4835,6	5053,8	5074,5
Qadınlar	4594,0	4870,0	5065,3	5081,9

Cədvəl 1.-in məlumatlarına əsasən aparılan hesablamalar 2011-ci ildə Azərbaycan əhalisinin 53%-nin şəhər, 47%-nin isə kənd əhalisi, 2016-cı ildə 53,1%-nin şəhər, 46,9%-nin kənd əhalisi, 2021-ci ildə 53%-nin şəhər, 47%-nin kənd əhalisi olduğunu göstərir. 2022-ci ilin əvvəli üçün bu göstəricilər uyğun olaraq

52,9% və 47,1% təşkil etmişdir. Əhalinin ümumi sayında kişilərin xüsusi çəkisi 2011-ci ildə 49,6%, 2016-cı ildə 49,8%, 2021-ci ildə 49,9%, 2022-ci ildə isə 50% təşkil etmişdir. Müvafiq dövrlərdə qadınların xüsusi çəkisi isə 50,4%, 50,2%, 50,1% və 50% olmuşdur. Hesablamalara əsasən deyə bilərik ki, 2011-ci ilə nisbətən 2022-ci ildə şəhər əhalisi cüzi fərqlə azalmış, kənd əhalisi isə artmışdır. Cins tərkibinin dinamikasına fikir versək görərik ki, ildən-ilə qadın və kişilərin arasındakı say fərqi aradan qalxmış və 2022-ci ildə onların sayı bərabər olmuşdur.

Cədvəl 2.

2016-2021-ci illərdə Azərbaycanda təbii artımın, doğulanların, ölənlərin sayı və ümumi əmsalları[1]

İllər	Təbii artım (nəfərlə)	Doğulanlar	Ölənlər	Əhalinin hər 1000 nəfərinə		
				təbii artım	doğulanlar	ölənlər
2016	102816	159464	56648	10,6	16,5	5,9
2018	81732	138982	57250	8,4	14,2	5,8
2019	85263	141179	55916	8,7	14,3	5,6
2020	50924	126571	75647	5,1	12,7	7,6
2021	35406	112284	76878	3,5	11,2	7,7

Cədvəl 2.-dən göründüyü kimi, 2016-cı illə müqayisədə növbəti illərdə doğulanların sayında azalma, ölənlərin sayında artma müşahidə olunur. Təbii artımın həcmində ciddi surətdə azalma müşahidə olunur. Buna müvafiq olaraq əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı azalmış, ölənlərin sayı artmışdır. Doğumun azalma səbəblərinin və ona təsir edən amillərin aradan qaldırılması ciddi surətdə araşdırılmalı olan bir məsələdir. Əhali arasında ölüm səbəblərinin araşdırılması nəticəsində birinci yerdə qan dövranı xəstəliklərinin, ikinci yerdə yeni törəmələrin, üçüncü yerdə isə tənəffüs sistemi xəstəliklərinin durduğu məlum olmuşdur.

Məlumdur ki, əhali iqtisadi fəaliyyətin həm obyekti, həm də subyekti hesab olunur. Əhalinin miqrasiyasının və məşğulluğunun ölkənin sosial-iqtisadi inkişafına təsiri əhəmiyyətlidir. Bu baxımdan əhalinin məşğulluğunun və iqtisadi fəallığının artırılması səmərəli məşğulluq siyasətinin reallaşdırılması ilə sıx əlaqədardır.

Cədvəl 3.

2019-2021-ci illərdə Azərbaycanda iqtisadi fəal əhali (faizlə)[1]

Göstəricilər	2019	2020	2021
İqtisadi fəal əhali	100,0	100,0	100,0
İqtisadi fəal əhalinin ümumi sayından məşğul əhalinin xüsusi çəkisi	95,2	92,8	94,0
İşsizliyin səviyyəsi	4,8	7,2	6,0

Qeyd etdiyimiz kimi, dövlətin prioritet vəzifələrindən biri əhalinin layiqli həyat səviyyəsini təmin etməkdən ibarətdir. Həyat səviyyəsi elə bir kateqoriyadır ki, o, bir çox göstəriciləri özündə birləşdirir. Hər şeydən əvvəl, bu göstərici əhalinin gəlirləri və istehlak etdiyi mal və xidmətlərin həcmi ilə səciyyələnir. Məlumdur ki, gəlirlər istehlak xərcləri və yığımların maliyyələşdirilməsinə sərf edilir. Vahid bir göstərici olmadığına görə həyat səviyyəsi müxtəlif göstəricilərlə ifadə olunur ki, bunlara da əhali gəlirləri, maddi nemətlər və xidmətlər istehlakı və xərcləri, əmanətlər, əhalinin ev əmlakı və mənzillə təminatı aid olunur. İlkin göstərici kimi əhali gəlirləri nəzərdən keçirilir. Əhalinin gəlir mənbələri işçilərin əmək haqları, sahibkarlıq fəaliyyətindən gəlirlər, mülkiyyətdən gələn gəlirlər və alınmış cari transferlərdən ibarətdir.

Cədvəl 4.

2019-2021-ci illərdə Azərbaycan Respublikasında əhalinin gəlirləri və xərcləri (mln. manat) [1]

Gəlirlər və xərclər	2019	2020	2021
Gəlirlər-cəmi	56769,0	55754,1	57181,5
İlkin gəlirlər	49515,6	47017,8	48238,6
o cümlədən:			
İşçilərə əmək ödənişləri	20349,2	21438,7	22917,3
Sahibkarlıq fəaliyyətindən gəlirlər	25932,3	22813,7	23286,8
Mülkiyyətdən gələn gəlirlər	3234,1	2765,4	2034,5
Alınmış cari transferlər	7253,4	8736,3	8942,9

Xərclər-cəmi	51927,4	49744,0	55201,5
Son istehlak xərcləri	46797,8	43899,5	48378,2
Ödənilən cari transferlər	4580,7	5228,7	5933,4
Mülkiyyətdən ödənilən gəlirlər	548,9	615,8	889,9
Qənaətlər	4841,6	6010,1	1980,0
Qeyri-maliyyə aktivlərinin yığımı	2151,1	1085,4	1377,9
Maliyyə aktivlərinin yığımı	2690,5	4924,7	602,1

Cədvəl 4.-ün məlumatları əsasında aparılan hesablamalara görə 2019-cu illə müqayisədə 2020-ci ildə əhali gəlirləri 1,8% azalmış, 2021-ci ildə isə 0,7% artmışdır. Məlumdur ki, gəlirlərin tərkibində ilkin gəlirlər xüsusi yer tutur. 2020-ci ildə əvvəlki ilə nisbətən ilkin gəlirlərin həcmi 5,% azalmış, 2021-ci ildə isə 2019-cu illə müqayisədə 2,6% azalmışdır. İlkin gəlirlərin tərkibində işçilərin əməyinin ödənilməsi ilə bağlı gəlirlər öncül yer tutur. 2019-cu ildə sözü gedən gəlirlərin həcminin ilkin gəlirlərin tərkibindəki payı 41,1%, 2020-ci ildə 38,4%, 2021-ci ildə 47,5% təşkil etmişdir. Sahibkarlıq fəaliyyətindən gəlirlərin ilkin gəlirlərin tərkibindəki xüsusi çəkisi 2019-cu ildə 52,4%, 2020-ci ildə 48,5%, 2021-ci ildə 48,3% təşkil etmişdir. Mülkiyyətdən gələn gəlirlərin əhalinin ilkin gəlirlərinin tərkibindəki payı 2019-cu ildə 6,5%, 2020-ci ildə 5,9%, 2021-ci ildə isə 4,2% olmuşdur.

Göründüyü kimi, əmək haqları ilə bağlı gəlirlərin payı 2020-ci ildə 2019-cu ilə nisbətən azalmış, 2021-ci ildə isə bir o qədər artmışdır. Sahibkarlıq fəaliyyətindən gəlirlərin xüsusi çəkisi 2019-cu ilə nisbətən 2020 və 2021-ci illərdə azalmışdır. Mülkiyyətdən gələn gəlirlərin payı da 2019-cu illə müqayisədə növbəti 2 ildə azalmışdır. Bu azalmanın əsas səbəbi pandemiya ilə bağlı olmuşdur. Əhalinin xərcləri isə 2019-cu ilə nisbətən 2020-ci ildə 4,3% azalmış, 2021-ci ildə isə 6,3% artmışdır. Təyin olunmuş aylıq pensiyaların məbləği (ilin əvvəlinə) 2020-ci illə müqayisədə 2021-ci ildə 14,6%, 2021-ci ildə isə 2019-cu ilə nisbətən 25,9% artmışdır. Bir nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımının məbləği 2020-ci ilə nisbətən 2021-ci ildə 14,1%, 2022-ci ildə isə 28,5% artmışdır.

Təyin olunmuş aylıq pensiyaların orta məbləği 2020-ci ilə nisbətən 2021-ci ildə 14,6%, 2022-ci ildə (ilin əvvəlinə olan məlumat) 25,9% artmışdır.

Əhalinin hər nəfərinə düşən qida məhsullarının istehlakında 2019-2021-ci illərdə birinci yerdə süd və süd məhsulları, daha sonra bütün növ tərəvəz məhsulları və təzə çörək istehlakı durur.

Cədvəl 5.

2019-2021-ci illərdə Azərbaycanda istehlak qiymətləri indeksi [3]

	2019	2020	2021
İstehlak qiymətləri indeksi, faizlə	156,9	161,2	171,9

Cədvəl 5.-in məlumatları əsasında aparılan hesablamalar göstərir ki, 2019-cu ildə qiymətlərin 56,9% artması manatın alıcılıq qabiliyyətinin 36,3% (1:1,612=0,637) aşağı düşməsinə səbəb olmuşdur. 2020-ci ildə qiymətlərin 61,2% yüksək olması manatın alıcılıq qabiliyyətinin 38% (1:1,612=0,620) aşağı düşməsi ilə nəticələnmişdir. 2021-ci ildə isə qiymətlərin 71,9% qalxması pulun alıcılıq qabiliyyətinin 42% (1:1,719=0,58) aşağı düşməsinə gətirib çıxarmışdır.

Azərbaycan sosial yönümlü dövlətdir və bu baxımdan dövlət siyasətinin əsas prioritet istiqaməti də öz əhalisinin həm azad inkişafını, həm də layiqli həyat səviyyəsinin təmin edilməsidir [2].

Cədvəl 6.

2019-2021-ci illərdə Azərbaycan Respublikasında ÜDM-nin həcmi [3]

İllər	ÜDM-nin həcmi, mln. manat	Hər nəfərə düşən ÜDM-nin həcmi, manatla
2019	81896,2	8268,8
2020	72578,1	7277,4
2021	92857,7	9269,3

Cədvəl 6.-dan göründüyü kimi 2020-ci ildə ÜDM-nin həcmində azalma baş vermişdir. Bunun da əsas səbəbi həmin dövrdə dünyanı cənginə alan pandemiyanın həm dünya, həm də milli iqtisadiyyatlara mənfi təsiri ilə izah edilə bilər. 2021-ci ildə artıq ÜDM-nin həcmində artım baş vermişdir.

Hazırda dünyada baş verən bir çox siyasi proseslər dünya iqtisadiyyatına, eləcə də milli iqtisadiyyatlara bu və ya digər səviyyədə mənfi təsir edir. Belə bir şəraitdə Azərbaycanda dövlət səviyyəsində əhalinin həyat səviyyəsinin mümkün qədər neqativ xarici təsirlərdən qorunması və yaxşılaşdırılması məqsədilə bir çox əhəmiyyətli layihə və proqramlar reallaşdırılmaqdadır.

Ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri, ARDSK, Bakı, 2021
2. Yaqubov S.M., Əliyev Ə.İ. Statistika. Dərslik, Bakı, 2015, 458 səh.
3. Azərbaycan rəqəmlərdə. Statistik məcmuə, Bakı, Narıncı nəşriyyat evi, 2022

Резюме

Исмайлова Л. Ф.

Некоторые вопросы оценки демографической ситуации и уровня жизни населения страны

Население рассматривается как объект и субъект экономической деятельности. Обеспечение охраны здоровья, защиты и безопасности, достойного уровня жизни, постоянного улучшения благосостояния населения страны относятся к числу приоритетных задач каждого государства. Поэтому изучение и оценка указанных вопросов осуществляется через различные показатели. Статистика играет большую роль в этой области. В статье рассмотрен ряд вопросов, связанных с демографической ситуацией и уровнем жизни населения Азербайджана.

Ключевые слова: *население, демографическая ситуация, естественный прирост, заселение, занятость*

Summary

Ismailova L. F.

Some Questions of Assessing the Demographic Situation and Living Standards of the Population of the Country

The population is considered as an object and subject of economic activity. Ensuring the protection of health, protection and security, a decent standard of living, the constant improvement of the well-being of the country's population are among the priority tasks of each state. Therefore, the study and evaluation of these issues is carried out through various indicators. Statistics play a big role in this area. The article deals with a number of issues related to the demographic situation and the standard of living of the population of Azerbaijan.

Key words: *population, demographic situation, natural increase, settlement, employment*

RƏQƏMSAL İQTİSADİYYATDA İNSAN KAPİTALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Kərimov Kərim Seyidrza oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Ağayev Ayaz Əlisəfa oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
ayaz.aghayev@gmail.com

Xülasə: *Məqalədə insan kapitalından istifadəsinin effektivliyinin müəyyənləşdirilməsinin kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi əsaslandırılması üçün insan kapitalının formalaşması və inkişafı proseslərinin öyrənilməsi sahəsində Dj.Minsera modeli təhlil edilmişdir. Xarici ölkələrin sənaye sahələrində IV inqilabın tətbiqinin hazırda istehsal və rəhbər vəziyyətlərdə çalışan işçilər rəqəmsal iqtisadiyyatda "xarici dil bacarıqları" və "Big Date Skills" sahələrində böyük rəqəmsal məlumatlarla işləmək bacarığı, rəqəmsal texnologiyalardan istifadə "rəqəmsal bacarıqlar" kimi səlahiyyətləri araşdırılmışdır. "2025-ci ilin səlahiyyətlərinin hədəf modeli"ndən istifadə etməklə respublikamızda rəqəmsal iqtisadiyyatda insan kapitalının səmərəli istifadəsinin əsas inkişaf istiqamətlərini təklif olunmuşdur.*

Açar sözlər*: insan kapitalı, rəqəmsal iqtisadiyyat, istehsal, model, kəmiyyət*

Müasir elmi tədqiqatlarda insan kapitalının istifadəsinin effektivliyinin müəyyənləşdirilməsi təkcə kəmiyyət göstəricilərinin deyil, həm də keyfiyyət göstəricilərinin müəyyən edilməsi ilə bağlıdır. Bunun əsaslandırılması üçün insan kapitalının formalaşması və inkişafı proseslərinin öyrənilməsi üçün reqressiya tənliklərinə əsaslanan ekonometrik modelləşdirmə metodologiyasından istifadə olunur.

İnsan kapitalının, yəni onun təhsil determinantlarının istifadəsinin səmərəliliyinin qiymətləndirilməsinin müəyyənləşdirilməsində daha çox aşağıdakı Dj.Minsera **[3]** modelinə istinaq edilir:

$$\text{Ln W} = \boldsymbol{\gamma_0} + \boldsymbol{\gamma_1 S} + \boldsymbol{\gamma_2 X} + \boldsymbol{\gamma_3 X^2} + \boldsymbol{U}, \quad (1)$$

burada W- əmək haqqı məbləği, man; $\boldsymbol{\gamma_0}, +\boldsymbol{\gamma_1}, \boldsymbol{\gamma_2}, \boldsymbol{\gamma_3}$ – reqressiya tənliyinin əmsalları; S-ümumi təhsilin sayı, illər; X-istehsal təcrübəsi (əmək bazarında insan kapitalının faktiki dövriyyəsi), illər; U - modelə daxil olmayan faktorların təsiri.

Görkəmli iqtisadçı alimlər (T. Şults, N.Psaharopulosa, R. Layrda, K. Meyhyu, L. Lesli, P. Brinkman və s.) bu modelin insan kapitalının tədqiqatlarında geniş yayılmasını onunla əsaslandırırlar ki, təhlilin məqsədlərindən asılı olaraq model müxtəlif modifikasiyalara malik ola bilər.

Məlumdur ki, səmərəli əmək bazarlarında insan kapitalının dəyəri əmək haqqının ödəniş səviyyəsi ilə müəyyəşləşdirilir. Almaniya və ABŞ firma sahibləri hesab edirlər ki, işçilərin peşə pilləsinin artması ilə orta gəlir də artır. Buda "bilik" kateqoriyasının kvalifikasiyasına tələbatın olması barədə bazara siqnal göndərir və peşəkarlarla səriştələrin inkişafını stimullaşdırır [1].

Xarici ölkələrdə sənaye sahələrində IV inqilabın tətbiqinin təhlili göstərir ki, hazırda rəqəmsal iqtisadiyyatda təkcə peşəkar bacarıqlar kifayət deyil.

Aydındır ki, bu, əmək bazarında kompetensiyaların disbalansına gətirib çıxaracaq.Əyər 10 il ərzində yenidənhazırlanma keçməyən işçilər artıq öz ixtisasları üzrə tələbatdan istifadə edə bilməyəcəklər. Bu gün istehsal və rəhbər vəzivələrdə çalışan işçilər rəqəmsal iqtisadiyyatda "xarici dil bacarıqları" və "Big Date Skills" sahələrində böyük rəqəmsal məlumatlarla işləmək bacarığı, rəqəmsal texnologiyalardan istifadə "rəqəmsal bacarıqlar" kimi səlahiyyətləri öyrənmələri vacibdir.

Qeyd etmək lazımdır ki, dar başa düşülən kompüter savadlılığından fərqli olaraq, rəqəmsal mühitdə kompleks inteqrasiya olunmuş əməkdaşlıq və ünsiyyət bacarıqlarının inkişafına diqqət yetirmək mühüm əhəmiyyət kəsb edir. İnformasiya kommunikasiya texnologiyaları sahəsində texniki bilikləri əhatə edən rəqəmsal bacarıqları və ümumi biliklərlə sıx əlaqədə nəzərə almaq əsasdır [2]. Məsələn, bu cür yanaşma BCG və Global Education Futures tərəfindən ekspert konsensusu və Lominger kompetensiyaları kitabxanasının səlahiyyətlərinin təhlili əsasında hazırlanmış "2025-ci ilin səlahiyyətlərinin hədəf modeli" ilə əyani şəkildə subut olunmuşdur. Bunun üçün onlar bir çox xarici ölkələrin regionlarında insanların sosial-iqtisadi vəziyyəti, onların təhsil, məşğulluq, ixtisas, peşə və sahə mənsubiyyəti, səhiyyə və s. dəyişənlərin dərin təhlili üçün aşağıdakı xətti model təklif edmişlər:

$$LnW = x_0 + x_1 Y + x_2 \text{L} + z_1 E + z_2 G_e + z_3 B_0 + \sum_{n=1}^{N} z_1 R_{ei} + \sum_{kj=1}^{K} z_j P_{nj}, (2)$$

burada müvafiq olaraq $x_0, x_1, x_2, z_1, z_2, z_3$ – kəmiyyət – keyfiyyətsabitləri ; Y – yaş, ; L – istehsal təcrübəsi; E – ümumi təhsil; G_e – gender, cins; B_o – professional; N – tədqiqat; R_{ei} – regional ; P_{nj}- sənaye sahəsi; K-işlədiyi müəssisələrin determinantı.

Göstərilən (2) "Kompetensiyaların hədəf modeli – 2025" XXI əsrin işçinin bacarıq və koqnitiv bacarıqları təsvir edən hədəf modelin bir hissəsi adətən özündə əks etdirən klassik məlumat modelindən fərqlənir. Cünki bura hissi, qavrama, təfəkkür, yaddaş, diqqət, təxəyyül, informasiya ilə işləmək, daimi təhsil almaq, komanda işini təşkil etmək, nəticəyə görə məsuliyyət götürmək üçün lazım olan səlahiyyətlər daxildir. Onlar dəyişən şəraitə uyğunlaşmağa, müxtəlif planlı məsələlər arasında keçid etməyə, effektiv həllər tapmağa imkan verir [4].

Buradan aydın olur ki, rəqəmsal bacarıqlar müasir texnologiyanı təmin edən imkanlardan tam istifadə etmək və süni intellekt və robotların insanı tamamladığı mövqelərdə məhsuldar işləmək üçün zəruridir. Bu modeldən istifadə etməklə respublikamızda rəqəmsal iqtisadiyyatda insan kapitalının səmərəli istifadəsinin aşağıdaki əsas inkişaf istiqamətlərini təklif olunur:

- istehsalın avtomatlaşdırılması, süni intellektin inkişafı, təşkilati strukturların transforasiyası və hər şeydən əvvəl artan dəyişiklik şirkətlərin əməkdaşlara olan yeni tələblərini müəyyən etmək;
- müəssisələr yalnız keçmiş xidmətlərdən bəhs edən peşəkar təcrübənin olmasını görmək istəmirlər. Gələcəkdə müvəffəqiyyətə zəmanət verə biləcək bacarıq və keyfiyyətlərin olmasının vacibliyi;
- tələb olunan keyfiyyətlərin siyahısı daim yenilənməsi;
- işçilərin proqramlaşma bacarığının artırılması;
- rəqəmsal bacarıqlar süni intellektin və robotların insanı tamamladığı mövqelərdə məhsuldar işləmək üçün müasir texnologiyalar verən imkanlardan tam istifadə etmək;
-bu gün təhsilə böyük maraq göstərmək və təlim prosesləri haqqında hansı elmi məlumatların mövcud olduğunu, hansı nəticələrin əldə edilməsinə imkan verdiyini, hansı amillərin onun effektivliyinə təsir etdiyini və bu biliklərdən praktikada necə istifadə edə biləcəyini öyrənmək.

Rəqəmsal texnologiyaya keçid proseslərin çevikliyi və fərdiləşdirilməsini, struktur və korporativ mədəniyyətdə dəyişiklikləri, rəqəmsal reallıqda idarəetmə modelinin optimallaşdırılmasını, təlim proqramlarının transformasiyasını və s.nəzərdə tutur.

Nəzərə almaq lazımdır ki, rəqəmsal texnologiyaların geniş yayılması prosesləri qaçılmaz olaraq "yeni nəsil" kimi bir fenomenin nəzərə alınması zərurətinə gətirib çıxarır. İndiki nəsil tələbələr üçün ən uğurlu tərif prof. M. Prenski tərəfindən verilmişdir – "Digital Natives"- anadan deməkdir [2].

Buna görə də zaman keçdikcə təhsil sistemi təhsil alanların zəruri bilik sayını (auditor sistemi, tədris proqramlarının işlənib hazırlanması) mənimsəməsi üçün bir çox formal xüsusiyyətlər əldə etmiş, təhsil alanların şəxsi xüsusiyyətləri isə ikinci plana çəkilmişdir. Rəqəmsal cəmiyyətdə faktların bilikləri deyil, müstəqil şəkildə öyrənmək, fikir yaratmaq və sistemləri tərtib etmək bacarığı daha əhəmiyyətli olur. Bu səlahiyyətlər hər bir insanın şəxsi keyfiyyətləridir-onlar, ancaq təcrübə ilə beynin strukturlarına təsir etməklə müstəqil şəkildə inkişaf edə bilər.

Digər keyfiyyət göstəriciləri ilə müqayisədə bu göstəricinin töhfəsi cüzi olaraq qalır ki, bu da rəqəmsal iqtisadiyyatda insan kapitalının istifadəsinin effektivliyinin əsas tendensiyalarını başa düşmək üçün əsasdır. Təhsil səviyyəsinin detallaşdırılması üzrə məlumatlardan istifadə edərək, müəllif tədqiqatı toplanmış təhsil illərinin sayının empirik qiymətləndirilməsi ilə tamamlanmışdır.

Təhsilin determinantı. Təhsil amillərinin və istehsal təcrübəsinin insan kaptalının qaytarılmasına təsiri 30 şəklində təqdim olunur. Hər bir amilin təsiri hər bir yığılmış təhsil ilinə fərdi qaytarmanı əks etdirir və göstərir ki, işçilərin fərdi insan kapitalından qayıtması rəqəmsal iqtisadiyyatda məşğulluqdan sosial gəlirdən aşağıdır.

Ədəbiyyat

1. Kelchevskaya, N. R., Shirinkina, E. V., Strih N. I. Evaluation of Digital Development of Human Capital of Enterprises. Advances in Social Science, Education and Humanities Research. ESSD., 2019. vol.N 2., p. 446–449.

2. Luksha, P., Cubista, J., Popovich, M., Laszlo, A., Ninenko, I. A Vision of Societal Transformation Through Educational Ecosystems of the 21st Century. Global Education Futures Report [Электронный ресурс]. Futuref. – 2017. – Режим доступа: https://futuref.org/educationfutures.

3. Dj.Mincer, J. Intercountry Comparisons of Labor Force Trends and of Related Developments: An Overview .Journal of Labor Economics. – 2015.,Vol. 3., N 2.,p. 145.

4. Pedrini, M. Human capital convergences in intellectual capital and sustainability reports.Journal of Intellectual Capital. – 2007. – Vol. 8. – N3., p. 346–366.

Резюме

Керимов К.С., Агаев А.А.

Определение эффективного использования человеческого капитала в цифровой экономике

В статье проанализированы процессы формирования и развития для определения количественных и качественных показателей эффективности использования человеческого капитала на основе модели Дж.Минсера. Были исследованы компетенции внедрения IV революции в отраслях промышленности зарубежных стран, где работники, занятые в настоящее время на производственных и руководящих должностях имеют возможность работать с большими цифровыми данными в области цифровой экономики и использовать цифровые технологии как "навыки иностранного языка" и "навыки больших данных". Используя "целевую модель компетенций на 2025 год", были предложены основные направления развития эффективного использования человеческого капитала в цифровой экономике в нашей республике.

Ключевые слова: *человеческий капитал, цифровая экономика, производство, модель, количество*

Summary

Kerimov K.S., Agayev A.A.

Determining the Effective use of Human Capital in the Digital Economy

The article analyzes the processes of formation and development to determine the quantitative and qualitative indicators of the efficiency of the use of human capital based on the model of J.Mincer. The competencies of the implementation of the IV revolution in the industries of foreign countries were studied, where employees currently employed in production and managerial positions have the opportunity to work with big digital data in the field of digital economy and use digital technologies as "foreign language skills" and "big data skills". Using the "target model of competencies for 2025", the main directions for the development of the effective use of human capital in the digital economy in our republic were proposed.

Key words: *human capital, digital economy, production, model, quantity*

RƏQƏMSAL İQTISADİYYAT İNSAN HƏYATININ YENİ SOSİAL-İQTİSADİ PARADİQMASI KİMİ

Kərimov Kərim Seyidrza oğlu, Əlizadə Şəms Ramik qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
shams.alizade@mail.ru

Xülasə: *Məqalədə rəqəmsal iqtisadiyyatın insan həyatının yeni sosil-iqtisadi paradiqması kimi əhəmiyyəti araşdırılmışdır. Bu paradiqma dəyişikliyinin iqtisadi sahələrdə insan resurslarının rolunun yenidən nəzərdən keçirilməsinə səbəb olmaqla,insan kapitalının xüsusi təzahür forması olması əsaslandırılmışdır. Müasir dünya iqtisadi sistemində rəqəmsallaşma proseslərinin təsiri altında inkişaf etmiş ölkələrdə ÜDM artmasında informasiya və biliklərin toplanması, emalı, saxlanması və yayılmasının rolunun izahı verilmişdir. Qeyd edilmişdir ki, rəqəmsal texnologiyaların insanların sosial və iqtisadi həyatına təsirinin artması müasir insanların düşüncə və davranış modelini dəyişməklə yanaşı ,iqtisadiyyat məkanında informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin ənənəvi dəyər sistemini qırmağa kömək edir. Sosial-iqtisadi həyatın rəqəmsallaşması konteksində informasiya, mobillik, sürət,rahatlıq, vaxta qənaət, xidmət, keyfiyyəti kimi dəyərlər insanın şüurunda və davranışında üstünlük təşkil etməyə başlayır.*

Açar sözlər: *rəqəmsal iqtisadiyyat,insan kapitalı,informasiya, texnologiya, keyfiyyət*

2016-ci ildə Brüsseldə keçirilən Dünya İqtisadi Forumunun məlumatında qeyd olunur ki, « rəqəmsal iqtisadiyyat" cəmiyyətin bütün aspektlərini, o cümlədən insanların öz aralarında qarşılıqlı əlaqəsinin xarakterini, iqtisadiyyatı, yaxşı iş əldə etmək üçün lazım olan bacarıqları və hətta siyasi qərarların qəbul edilməsi prosesini əhatə edməklə, real vaxt rejimində məlumatların mübadiləsinə əsaslanan sürətli iqtisadi inkişafın yeni paradiqmasıdır.

Rəqəmsal iqtisadiyyatın inkişafı müəssisələrin idarə edilməsində keyfiyyət dəyişikliklərinə səbəb olmuşdur. Yüksək keyfiyyətli insan kapitalına olan tələbata gəlincə, belə görünür ki, iqtisadiyyatının yaxın gələcəkdə şansları rəqəmsallaşma və rəqəmsal iqtisadiyyatın perspektivləri ilə bağlıdır, çünki orada yaradıcı inkişaf, unikal və yüksək keyfiyyətli insan kapitalı tələb olunur. Bu paradiqma dəyişikliyi bütün iqtisadi sahələrdə insan resurslarının rolunun yenidən nəzərdən keçirilməsinə səbəb olmaqla, insan kapitalının xüsusi təzahür forması kimi qeyri-maddi aktivlərin mövcudluğu ideyası ön plana çıxarmışdır [2,5].

Massaçusets Universitetinin alimi Nikolas Neqroponte "rəqəmsal iqtisadiyyat" terminini 1995-ci ildə işlətmişdir və o, iddia edirdi ki, "Müasir dünya iqtisadi sistemində rəqəmsallaşma proseslərinin təsiri altında inkişaf etmiş ölkələrin ümumi daxili məhsulunun əhəmiyyətli hissəsi informasiya və biliklərin toplanması, emalı, saxlanması və yayılmasının payına düşür. Biznes mühitində informasiya və biliyin artan rolunun təsiri altında bu biliklərin daşıyıcısı kimi insan kapitalının idarə edilməsi zərurəti getdikcə aktuallaşır" [1].

Dəyişikliklərin sürəti, texnoloji və sosial, təşkilatları daim transformasiya etməyə, yeni texnologiyaları fəaliyyətlərinə inteqrasiya etməyə və komanda işinin effektiv formalarını axtarmağa məcbur edir. Bunu hər bir işçinin hər gün yeni şeylər öyrənmək istəyi və bacarığı olmadan, öyrənməyi iş prosesinin üzvi hissəsinə çevirmədən, bunun üçün zəruri idrak və davranış bacarıqlarını nümayiş etdirmədən etmək mümkün deyil [3,6].

Rəqəmsal iqtisadiyyatın inkişaf mərhələlərinin sistemləşdirilməsi bizə insan kapitalının rəqəmsal inkişafı üçün institusional model yaratmağa imkan verəcək, burada prioritetlər maddi aktivin əhəmiyyətinin azaldılması və rəqəmsal aktiv haqqında biliklərin genişləndirilməsi istiqamətində fərqli şəkildə müəyyən edilir. Əsas istehsal amilləri informasiya, bilik və rəqəmsal texnologiyalar olan inkişaf edən rəqəmsal iqtisadiyyatda "alim – mühəndis – fəhlə – istehlakçı" zənciri təbii ki, müəssisələrin insan kapitalını idarə edərkən nəzərə alınmalıdır. Eyni zamanda, texnologiyanın inkişafı nəticəsində yaranan sosial dəyişikliklər insanların ömür uzunluğunun və iqtisadi fəallıq dövrünün artmasına səbəb olur. Belə şəraitdə şirkət rəhbərləri, ilk növbədə, işçilər arasında liderlik, ünsiyyət və əməkdaşlıq bacarıqlarının inkişaf etdirilməsi zəruriyyətə çevrilməlidir.

İnkişaf etmiş ölkələrin (Almaniya, Yaponiya, ABŞ, Sinqapur və s.) təcrqbəsinindən aydın olur ki, bu ölkələrdə adambaşına düşən ÜDM-in səviyyəsi 50 min ABŞ dollardan çox, Azərbaycanda isə 5 min dollardır. Yüksək insan inkişafı indeksi, 2021-cı ildə Azərbaycanın ilk 30 reytinqində 59-cu yerdə olması. qarşımızda bütün sahələrdə sürəti, texnoloji, social və təşkilatları daim transformasiya etməyə, yeni texnologiyaları fəaliyyətlərinə inteqrasiya etməyə və komanda işinin effektiv formalarını axtarmağa diqtə edir. Bunu hər bir işçinin hər gün yeni şeylər öyrənmək istəyi və bacarığı olmadan, öyrənməyi iş prosesinin üzvi hissəsinə çevirmədən nümayiş etdirmədən etmək mümkün deyil [4].

Təcrübə və bilik mübadiləsi insanlara həmkarları ilə gündəlik ünsiyyət zamanı komanda daxilində davamlı sosial –iqtisadi köməklik edəcəkdir. Eyni zamanda, texnologiyanın inkişafı nəticəsində yaranan sosial dəyişikliklər insanların ömür uzunluğunun və iqtisadi fəallıq dövrünün artmasına səbəb olacaq. Biz razılaşırıq ki, qarşıda çoxlu problemlər var, lakin hesab edirik ki, məhsuldarlığı artıra və əhəmiyyətli iqtisadi səmərə verə bilən yeni və inkişaf etməkdə olan texnologiyaların imkanlarına nikbin baxmaq üçün yaxşı şərait resbuplikamızda vardır.

Bizim fikrimizcə, ölkədə "rəqəmsal" sosial-iqtisadi sistemin formalaşması böyük maraq doğurur. Əsas odur ki, iqtisadiyyatın ayrı-ayrı sahələrinin dəyişdirilməsi və ya istehsalda rəqəmsal texnologiyaların daha geniş tətbiqi reallaşır. Bütövlükdə cəmiyyətin transformasiyası vəzifəsi qarşıya qoyulur, o cümlədən ictimai təfəkkür paradiqması və sosial dəyərlər, institusional və istehsalat idarəetmə metodları meydana gəlir. Bu sahədə biz Yaponiyanın "Cəmiyyət - 5" layihəsinin təcrübəsini ölkəmizin reallıqlarını nəzərə almaqla tətbiqi yaxşı olardı. "Cəmiyyət – 5" ehtimal olunur ki, fiziki məkanda külli miqdarda informasiya kiberməkanda toplanacaq. Bu "böyük məlumatlar" insan tərəfindən deyil, analiz nəticələrini müxtəlif yollarla insanlara ötürməyə başlayacaq süni intellekt tərəfindən işlənəcəkdir. Beləliklə, fiziki və rəqəmsal fəzaların sinerqiyası rəqəmsal mühiti formalaşdıracaq ki, buda insana onun həyatı üçün lazım olan bütün informasiyanın qiymətləndirilməsinə imkan verəcəkdir.

Yeni vəzifələr davamlı texnoloji dəyişikliklərlə birbaşa bağlıdır. Onlar işçilərdən maşınların azad etdiyi işçi qüvvəsinin malik olmadığı yeni bacarıqlar tələb edirlər. Məsələn, qeyri-standart tapşırıqların həlli və ya məlumatların təhlili üçün. Nəticədə, biznes ehtiyacları ilə mövcud işçi qüvvəsinin bacarıqları arasında fərq şirkətlər üçün əsas problemə çevrilir. Bununla yanaşı, texnikanın insanı əvəz etmədiyi, əksinə tamamladığı zaman insan əməyinin maşınlar tərəfindən genişləndirilməsi potensialı var. Əgər maşın adi prosesləri öz üzərinə götürürsə, o zaman işçinin şirkətin məhsuldarlığını və rəqabət qabiliyyətini artıran sırf insani keyfiyyətləri nümayiş etdirmək üçün resursları var: yaradıcılıq, analitik düşüncə və ünsiyyət bacarıqları. Dəyişikliklərin sürəti, texnoloji və sosial, təşkilatları daim transformasiya etməyə, yeni texnologiyaları fəaliyyətlərinə inteqrasiya etməyə və əməyin təşkilinin səmərəli formalarını axtarmağa məcbur edir.

Ədəbiyyat

1. Глазьев, С.Ю. Современная теория длинных волн в развитии экономики. Москва., Экономическая наука , 2012, № 2, сс. 27-42.

2. Дементьев, В.Е. Изменчивость длинных волн экономического развития // Проблемы теории и практики управления. 2016. № 6. С. 41-46.

3. Перес, К. Технологические революции и финансовый капитал. Динамика пузырей и периодов процветания. Москва.: Дело, 2011. 232 с.

4. Рифкин Д. Третья промышленная революция. Москва, Альпина , 2015. 410 с.

5. Тоффлер, Э. Третья волна. Москва, АСТ, 2010. 781 с.

6. Шваб, К. Четвертая промышленная революция. Москва.: Эксмо, 2016. 208 с.

Резюме

Керимов К.С., Ализаде Ш.Р.

Цифровая экономика как новая социально-экономическая парадигма жизни человека

В статье исследуется значение цифровой экономики как новой социально-экономической парадигмы человеческой жизни. Это изменение парадигмы привело к пересмотру роли человеческих ресурсов в экономических сферах,в которых обосновано, что человеческий капитал является особой формой проявления. Дана оценка роли сбора, обработки, хранения и распространения информации и знаний в росте ВВП в развитых странах под влиянием процессов цифровизации в современной мировой экономической системе. Было отмечено, что рост влияния цифровых технологий на социальную и экономическую жизнь людей наряду с изменением модели мышления и поведения современных людей, информационно-коммуникационные технологии в экономическом пространстве способствуют разрушению традиционной системы ценностей общества. В контексте цифровизации социально-экономической жизни в сознании и поведении человека начинают доминировать такие ценности, как информация, мобильность,скорость, удобство, экономия времени, качество

***Ключевые слова**: цифровая экономика, человеческий капитал, информация, технологии, качество*

Summary
Kerimov K.S., Alizade S.R.
Digital Economy as a New Socio-Economic Paradigm of Human Life

The article explores the importance of the digital economy as a new socio-economic paradigm of human life. This paradigm shift has led to a revision of the role of human resources in economic spheres, in which it is justified that human capital is a special form of manifestation. The role of collecting, processing, storing and distributing information and knowledge in GDP growth in developed countries under the influence of digitalization processes in the modern world economic system is assessed. It was noted that the growing influence of digital technologies on the social and economic life of people, along with changes in the model of thinking and behavior of modern people, information and communication technologies in the economic space contribute to the destruction of the traditional value system of society. In the context of the digitalization of socio-economic life, such values as information, mobility, speed, convenience, time saving, quality begin to dominate in human consciousness and behavior
***Key words**: digital economy, human capital, information, technology, quality*

AQRAR SAHƏDƏ TƏSƏRRÜFAT SUBYEKTLƏRİNİN SATIŞ FƏALİYYƏTİNİN TƏŞKİLİ

Köçərli Hicran Rafiq qızı
Sumqayıt Dövlət Universiteti
kocerlih@gmail.com

***Xülasə:** Məqalədə aqrar sahədə təsərrüfat subyektlərinin satış fəaliyyətinin mahiyyətinin və onun funksiyalarının açıqlanması ilə bağlı məsələlərə toxunulur, satış siyasətinin seçilməsinə təsir edən amillər təsvir edilir, satış fəaliyyətinin təşkilinin əsas formaları açıqlanır.*
***Açar sözlər:** aqrar sahə, təşkilat, satış, subyekt, iqtisadiyyat*

İqtisadi ədəbiyyatda "satış" anlayışı bir qayda olaraq iki aspektdə istifadə olunur:

1. Malın istehsalçıdan son istehlakçıya çatdırılmasının vahid prosesi kimi;
2. Faktiki satış aktı kimi.

Bazar iştirakçıları (satıcılar və alıcılar) arasındakı əlaqə və münasibətlərin çeşidliliyinə ənənəvi olaraq mal və xidmətlərin axınının istehsalçılardan istehlakçılara getdiyi yolları əks etdirən müxtəlif paylama kanallarının vahid zənciri kimi baxılır.

N.M. Şarnina [7] satış fəaliyyətinə müəssisənin marketinq siyasətinin həyata keçirilməsi çərçivəsində hazır məhsulların istehsalçıdan son istehlakçıya qədər paylanması və fiziki hərəkəti üzrə tədbirlər kompleksi kimi baxmağa təklif edir.

Hər bir təsərrüfat subyekti öz satış fəaliyyətini elə təşkil etməyə çalışır ki, istehlakçıların tələbatına və onların tələbatının ödənilməsinə yönəldilməsi nəticə etibari ilə genişlənmiş təkrar istehsalı və şəxsi kommersiya maraqlarının həyata keçirilməsi üçün kifayət qədər mənfəət əldə etməyə imkan versin.

Kənd təsərrüfatı müəssisələrinin satış fəaliyyətinin səmərəli təşkili üçün istər təsərrüfat subyektləri səviyyəsində, istərsə də regional səviyyədə adekvat infrastrukturun və satış xidmətinin olması zəruridir. Satış xidməti aşağıdakı funksiyaların həyata keçirilməsinə yönəldilməlidir:

- bazar konyukturasının təhlili və kənd təsərrüfatı məhsullarının satışının həcmi üzrə proqnozun əsaslandırılması;
- bazarın seqmentləşdirilməsinin qiymətləndirilməsi və hədəfini nəzərə alınmaqla reklamın planlaşdırılması;
- məhsulların son istifadəçiləri və ya vasitəçilər ilə alqı-satqı müqavilələrinin bağlanması;
- müqavilə öhdəliklərinin yerinə yetirilməsinin uçotu və nəzarəti;
- satış logistikasının planlaşdırılması, əsas və ehtiyat satış kanallarının əsaslandırılması və seçilməsi;
- təsərrüfat subyektinin ümumi inkişaf strategiyası çərçivəsində satış strategiyasının hazırlanması;
- müəyyən keyfiyyətli mal partiyalarının formalaşdırılması, onun saxlanmasının, göndərilməsinin və istehlakçıya çatdırılmasının təşkili;
- satış fəaliyyətinin informasiya, hüquqi və texniki təminatı;
- istehlakçıların seçimlərini öyrənmək üçün onlarla əks əlaqə.

Mal hərəkəti kanalını seçərkən intensiv, selektiv və eksklüziv satış növləri fərqlənir. İntensiv satış növü mal almağa hazır olan mümkün qədər çox müştərinin (vasitəçilərin) cəlb edilməsini nəzərdə tutur.

Selektiv satış kifayət qədər dar müştəri dairəsini, çox vaxt daimi müştəriləri əhatə edir. Topdan satış malların tədarükü üçün xarakterik olan eksklüziv satış növü adətən başqa coğrafi nöqtəyə sifariş əsasında həyata keçirilir.

Kənd təsərrüfatı istehsalçılarının satış siyasətinin seçiminə istehsalın və kapitalın təmərküzləşmə səviyyəsi, istehsalın miqyası, məhsulların çeşidinin genişliyi, məhsulların istehlak xassələrini itirmədən saxlamaq imkanı, məhsulların emalı imkanı, ayrı-ayrı lokallaşdırılmış ərazilərdə istehlak kooperasiyasının inkişaf səviyyəsi, sahibkarlıq risklərinə hazır olması və s. təsir göstərir.

Aqrar-sənaye kompleksinin müasir infrastrukturunda ənənəvi olaraq satış fəaliyyətinin aşağıdakı təşkili formaları fərqləndirilir:

-topdansatış ərzaq bazarları;

-əmtəə birjaları;

- kənd təsərrüfatı satış kooperativləri sistemi;

- ticarət evləri;

-kənd təsərrüfatı yarmarkaları və s [2].

Ərzaq mallarının topdansatış bazarları əvvəlcədən müəyyən edilmiş qaydada və yerdə kənd təsərrüfatı məhsullarının və mallarının alqı-satqısı üzrə əməliyyatların həyata keçirilməsi ilə məşğul olan kommersiya müəssisələridir. Satış fəaliyyətinin bu cür təşkili forması daha aşağı qiymətə və daha az xərclə yüksək keyfiyyətli, təzə məhsul təqdim etməyə imkan verir. Topdansatış ərzaq bazarlarında satıcı qismində kənd təsərrüfatı və emal müəssisələri, topdansatış kommersiya strukturları, kəndli və fermer təsərrüfatları çıxış edir. İstehlakçılar - fiziki şəxslər, pərakəndə satış və iaşə obyektləri, kiçik topdansatış ticarət strukturlarıdır. Lakin topdansatış ərzaq bazarları bu gün aqrar-sənaye kompleksinin satış infrastrukturunda aparıcı rol oynamağa imkan verməyən malların satış xərclərinin yüksək olması səbəbindən əziyyət çəkir.

Əmtəə birjaları müəyyən xüsusiyyətlərə malik malların satışı üzrə əməliyyatların aparıldığı geniş miqyaslı topdansatış bazarıdır.

Kənd təsərrüfatının satış kooperativləri sistemi kənd təsərrüfatı istehsalçıları ilə bazar arasında birbaşa əlaqənin yaradılmasını, zəncirdə aralıq ticarət həlqələrinin azaldılmasını təmin edir. Satış kooperasiyası birbaşa istehsalçıların maraqlarını təmsil edir. Lakin müasir şəraitdə təchizat –satış kooperasiyası zəif inkişaf etmişdir.

Ticarət evləri alqı-satqı əməliyyatlarını öz adından və öz vəsaitləri hesabına həyata keçirən çoxprofilli ticarət təşkilatlarıdır. Ticarət evləri kənd təsərrüfatı mallarını böyük partiyalarla əhəmiyyətli endirimlə almağa və bu forma həm də pərakəndə, daha kiçik partiyalarla almağa imkan verir.

Kənd təsərrüfatı yarmarkaları kənd təsərrüfatı istehsalçılarına öz məhsullarını satmaq üçün məkan təqdim edir, məhsulun istehlakçılara daha sürətli çatmasına köməklik edir, eyni zamanda bir çox yeni müştərilərlə əlaqə yaratmağa imkan verir.

Beləliklə belə bir nəticəyə gəlmək olar ki, aqrar-sənaye kompleksinin satış infrastrukturu başlanğıc mərhələsindədir, satış fəaliyyətinin təşkili formaları daim inkişaf edir, buna görə də onların əldə edilmiş inkişaf səviyyəsi müasir bazar tələblərinə cavab vermir. Aydındır ki, internet texnologiyalarının və elektron ticarət texnologiyalarının tətbiqi kənd təsərrüfatı istehsalçılarına məhsul satmaq üçün prinsipial olaraq yeni imkanlar açacaq, onların fəaliyyətinin səmərəliliyinin və dayanıqlığının artırılması üçün şərait yaradacaqdır.

Ədəbiyyat

1. Алексеева Н.В. Сущность и особенности конкурентоспособности субъектов малого агробизнеса / Н.В. Алексеева, А.В. Улезько // Вестник Воронежского государственного аграрного университета. - 2014. - Вып. 4 (43). - С. 179-188.

2. Башелутсков П.П. Эволюция форм организации сбытовой инфраструктуры российского АПК/ П.П. Башелутсков // Научные ведомости Белгородского государственного университета. Серия: История. Политология. Экономика. Информатика. - 2008. - Т.10. - №8. - С. 200-207.

3. Улезько А.В. Информационное обеспечение адаптивного управления в аграрных формированиях / А.В. Улезько, Я.И. Денисов, А.А. Тютюников. - Воронеж: изд-во Истоки, 2008. - 106 с.

4. Улезько А.В. Обеспечение конкурентоспособности малых форм хозяйствования аграрной сферы: монография/ А.В. Улезько, Н.В. Алексеева. - Воронеж: Издательскополиграфический центр Научная книга, 2015. - 179 с.

5. Улезько А.В. Приоритетные направления повышения конкурентоспособности малых форм хозяйствования аграрной сферы / А.В. Улезько, Н.В. Алексеева // Политематический сетевой электронный научный журнал Кубанского государственного аграрного университета. - 2015. - №02 (106). - С. 867-882.

6. Улезько А.В. Рынок продовольственных ресурсов в системе обеспечения продовольственной безопасности Дальнего Востока / А.В Улезько, Л.Л. Пашина. - Воронеж: ВГАУ, 2014. - 291 с.

7. Шарнина Н.М. Управление сбытовой деятельностью сельскохозяйственных предприятий: автореферат диссертации на соискание ученой степени кандидата экономических наук (08.00.05) /Н.М. Шарнина, МГТУ - Йошкар-Ола, 2009. - 24 с.

Резюме

Кочарли Х.Р.

Организация сбытовой деятельности хозяйствующих субъектов аграрной сферы

В статье рассматриваются вопросы, связанные с раскрытием сущности сбытовой деятельности хозяйствующих субъектов аграрной сферы и ее функций, описываются факторы, влияющие на выбор сбытовой политики, раскрываются основные формы организации сбытовой деятельности.

Ключевые слова: *аграрная сфера, организация, сбыт, субъект, экономика*

Summary

Kocharli H.R.

Organization of Sales Activities of agricultural Subjects of the Agricultural Sphere

The article deals with issues related to the disclosure of the essence of the marketing activities of economic entities in the agrarian sector and its functions, describes the factors influencing the choice of marketing policy, and reveals the main forms of organization of marketing activities.

Key words: *agrarian sector, organization, sales, subject, economy*

İQTİSADİYYATIN RƏQƏMSALLAŞMASI ŞƏRAİTİNDƏ LOGİSTİKANIN ROLUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

Qazıyeva Səbinə Tahir qızı, Məmmədova Elnarə Məmmədəli qızı

Sumqayıt Dövlət Universiteti

ilqarosmanov1975@mail.ru

Xülasə: Məqalədə müasir şəraitdə rəqəmsallaşma proseslərinin zəruriliyi əsaslandırılmış və logistika sistemlərinin fəaliyyətinə təsiri müəyyənləşdirilmişdir. Logistika müəssisələrinin normal fəaliyyətinin əsas vasitələrindən biri kimi tədqiq edilmiş və mühüm vəzifələri şərh edilmişdir. Logistikanın səmərəlilik indeksinin qiymətləndirilməsi meyarları nəzərdən keçirilmişdir. Logistika sahəsində mövcud problemlər və onların həlli yolları araşdırılmışdır.

Açar sözlər: *logistika, rəqəmsallaşma, müəssisə, istehsal, texnologiya, keyfiyyət*

Cəmiyyətin müasir inkişaf mərhələsi insan həyatının bütün sahələrinin, o cümlədən istehsal sahələrinin sürətlə rəqəmsallaşması ilə səciyyələnir. Geniş mənada rəqəmsallaşma prosesi informasiyanın emalı, yaradılması və mübadiləsinə yönəlmiş innovativ texnologiyalardan fəal istifadə etməklə sosial-iqtisadi sahənin transformasiyası deməkdir. Rəqəmsallaşma məlumatların təqdim edilməsinin yeni formasının qəbul edilməsi prosesidir. Rəqəmsallaşma - müəyyən bir müəssisədə, sənayedə və ya bütövlükdə ölkədə rəqəmsal və ya kompüter texnologiyalarından istifadənin artmasıdır. Rəqəmsallaşma cəmiyyətin elmi, texnoloji, sosial və iqtisadi inkişafında sıçrayış üçün şərait yaradır və eyni zamanda mövcud həyat tərzində bir sıra qeyri-müəyyən dəyişikliklərə səbəb olur. Amma hər şeydən əvvəl rəqəmsallaşma yeni reallığa keçidi təmin edən iqtisadi artımın əsas amillərindən biridir. Rəqəmsal inqilab iqtisadi inkişaf səviyyəsinə və həyat keyfiyyətinin yüksəlməsinə əhəmiyyətli təsir göstərir, ictimai, inzibati və sənaye sahələrində böyük dəyişikliklər yaradır.

Rəqəmsal iqtisadiyyatın formalaşdırılması vəzifəsi istənilən regionun inkişafında strateji istiqamətlərdən biridir. Rəqəmsal iqtisadiyyat logistika fəaliyyətinə də öz təsirini göstərir.

Pandemiyanın nəticələri sübut edir ki, hazırda siyasi, iqtisadi, sanitar, gömrük və nəqliyyat məhdudiyyətlərinin tətbiqi nəticəsində logistikanın ölkələrin iqtisadiyyatında rolu artır.

Logistika, son nəticədə xammal və ya materialların müştərinin (istehlakçının) maraqlarına və tələblərinə uyğun olaraq çatdırılmasına imkan verən daşınma, saxlama və s. kimi müxtəlif əməliyyatların planlaşdırılması, nəzarəti və idarə edilməsi sahəsidir. Logistika, mühəndislik, texnologiya, iqtisadiyyat, idarəetmə, proqnozlaşdırma və planlaşdırmanın vahid kompleksidir.

Logistika təşkilatın normal fəaliyyətinin əsas vasitələrindən biridir. Logistika elmi və praktiki fəaliyyətlə əlaqələndirilir ki, bunlara aşağıdakılar daxildir: təşkilatlarla işləmək, kadrların idarə edilməsi, məhsul və xammal kimi maddi ehtiyatların yaradılmasına və məhsulun istehlakçıya çatdırılmasına kömək edəcək informasiya və maliyyə bazasının yaradılması. İri müəssisələrdə material və informasiya axınlarının optimal hərəkətini təşkil etmək üçün onların resurslarına qənaət edəcək və inventarın optimallaşdırılmasına imkan verəcək logistik proseslər qurmaq lazımdır [2, s.48].

Logistikanın əsas qlobal vəzifəsi minimum xərclə maksimum effekt əldə etməkdir.

Logistikanın əsas vəzifələrini nəzərdən keçirək:

1. Daşıma prosesinin təşkili və nəzarəti;
2. Daşımanın optimal marşrutunun tərtib edilməsi;
3. Anbar proseslərinin idarə edilməsi;
4. Nəqliyyat fəaliyyəti ilə bağlı xərclərin optimallaşdırılması;
5. Nəqliyyat fəaliyyəti haqqında hesabatların tərtib edilməsi.

Ayrı-ayrı nəqliyyat növlərinin səmərəliliyinin öyrənilməsi baxımından yüklərin gediş və təyinat kimi müxtəlif məntəqələr arasında daşınması maraq doğurur. Marşrut o zaman optimal hesab olunur ki, logistika obyekti mümkün qədər tez minimum xərclə, eləcə də çatdırılma obyektinə minimal zərərlə çatdırıla bilsin.

Logistika bazar iqtisadiyyatı şəraitində maliyyə, iqtisadi və hüquqi təminatın vəziyyətinə mühüm təsir göstərir. Bu, ilk növbədə, nəqliyyat xidmətləri bazarı, saxlama anbarlarının təşkili və fəaliyyəti, vasitəçi təşkilat və müəssisələrdə nəqliyyat xidmətlərinin inkişafı ilə əlaqələndirilməlidir. Hazırda logistika sahəsində intensiv tədqiqatlar aparılır ki, bu da alimlərin əsərlərində öz əksini tapmışdır. Bu əsərlərdə logistikanın biznes və ticarət üçün effektiv vasitə kimi rolu vurğulanır [3, s.114]

Ümumilikdə logistika sistemlərinin ölkənin və onun müəssisələrin fəaliyyətində rolu əhəmiyyətli dərəcədədir. Bu, ölkənin və onun müəssisələrinin xarici bazarlarına çıxışında daha aydın özünü göstərir.

Qlobal logistika sistemlərində müəssisələrin fəaliyyətinin nəticəsi logistika sisteminin hər bir həlqəsinin yerinə yetirdiyi işin səmərəliliyindən asılıdır. 2007-ci ildən Dünya Bankı ekspertlər arasında sorğu əsasında dünya ölkələrində logistikanın səmərəliliyi indeksini müəyyənləşdirir. Logistikanın səmərəlilik indeksinin qiymətləndirilməsi kəmiyyət və keyfiyyət amilləri nəzərə alınmaqla formalaşan altı çox meyarlı göstərici üzrə aparılır.

1. Sərhəd nəzarəti orqanları, o cümlədən gömrük orqanları tərəfindən gömrük rəsmiləşdirilməsi prosesinin effektivliyi.
2. İnformasiya texnologiyaları nəzərə alınmaqla ticarət və nəqliyyat infrastrukturunun keyfiyyəti.
3. Rəqabətli qiymətlərlə təchizatların təşkilinin asanlığı.
4. Logistik xidmət sahələrinin bacarığı və keyfiyyəti (məsələn, nəqliyyat operatorları, gömrük brokerləri). 5. Yükü izləmək imkanı.
6. Müəyyənləşdirilmiş və ya gözlənilən çatdırılma müddətlərində malların təyinat yerinə çatdırılmasının vaxtında aparılması.

Bu indeks 1-dən 5-ə qədər dəyişir, bal nə qədər yüksəkdirsə, səmərəlilik də bir o qədər yüksəkdir. Səmərəlilik və keyfiyyət kimi mürəkkəb kateqoriyalara əsaslanan ilk dörd göstərici qiymətləndirmə üçün xüsusi çətinlik yaradır [1, s.109].

Ölkələrdə logistikanın səmərəliliyinin daha obyektiv qiymətləndirilməsi üçün logistika səmərəliliyinin indeksi hesablanarkən logistika axınlarının həcmini və onların ətraf mühitə təsirini nəzərə almaq lazımdır.

Məlumdur ki, satılan məhsulların satış qiymətinin ən mühüm komponentləri nəqliyyat xərcləri, saxlama xərcləri və logistika xidmətlərinin dəyəri olduğundan, hər bir şirkət məhsulların son istifadəçiyə çatdırılma müddətini ən aşağı xərclə azaltmağa çalışır. Müəssisənin logistikasının idarə edilməsi və monitorinqinin effektiv sistemi, məhsulların və malların hərəkətini izləmək üçün müasir informasiya texnologiyalarının tətbiqi logistika xərclərinin minimuma endirilməsini təmin edəcəkdir.

Müasir reallıqlar logistikanın strateji istiqamətini müəyyənləşdirir. Material və əlaqəli axınların idarə edilməsində optimal resurs xərcləri ilə korporativ strategiyanın həyata keçirilməsi logistikanın strateji baxışıdır.

Rəqabət şəraitində yükdaşıyanlar daha sərfəli əməkdaşlıq şərtləri ilə müştəriləri cəlb etməyə çalışır. Bu vəziyyətdə logistikanın inkişafında bəzi əsas istiqamətləri müəyyənləşdirmək mümkündür:

1. İstehsalçılar üçün saxlama yerlərinin sayının minimuma endirilməsi.
2. Logistika xidmətlərinin göstərilməsi ilə məşğul olan üçüncü tərəf təşkilatlarının sayının artırılması.
3. Müəssisələr üçün logistika strategiyalarının hazırlanması.
4. Logistika sistemlərində modelləşdirmənin tətbiqi.

Logistika sistemini təkmilləşdirmək üçün strateji alternativlər haqqında qərar əsasən əsas rəqiblərin reaksiyalarını düzgün proqnozlaşdırmaq bacarığından asılıdır.

Logistika xidmətlərinin keyfiyyəti və səmərəliliyi beynəlxalq ticarət üçün mühüm ola bilər. Logistika xidmətləri yerli iqtisadiyyatın bir neçə sektorunu birləşdirir. Onlar həmçinin daxili iqtisadiyyatı beynəlxalq iqtisadiyyatla əlaqələndirir və bir-birindən asılı olan müxtəlif istehsal sektorları (kənd təsərrüfatı, istehsal, turizm və s.) arasında əlaqəni təmin edir. İqtisadiyyat səmərəli nəqliyyat və logistika sistemləri ilə gücləndirilir, çünki istehsalçılar üçün minimum vaxt gecikmələri ilə mallarını qənaətcil şəkildə təhlükəsiz şəkildə daşımaq vacibdir. Empirik tədqiqatlar göstərir ki, səmərəsiz nəqliyyat infrastrukturu ticarətə mənfi təsir göstərə bilər. Səmərəsiz logistika da ümumi xərcləri artırır və qlobal inteqrasiya ehtimalını azaldır.

Fikrimizcə, logistika sahəsində problemlərin həlli üçün aşağıdakı tədbirlər görülməlidir:

1. Logistikanın inkişafı üçün uzun müddətli proqram hazırlanmalıdır ki, bu proqrama logistika sahəsinin inkişaf etdirilməsi ilə bağlı aşağıdakı komponentlər daxil edilməlidir:

- logistikanın aydın tələblərinin, məqsəd və vəzifələrinin formalaşdırılması;
- logistika idarəetmə proqramının, qarşılıqlı fəaliyyət mexanizmlərinin və məsuliyyətlərin dəqiq müəyyənləşdirilməsi;
- təchizatçılarla nizamlı iş proqramı;
- ehtiyatların, nəqliyyatın, anbarların təkmilləşdirilməsi və inkişafı proqramı;
- təchizat və xidmətlər üçün keyfiyyətin idarə edilməsi proqramı;
- informasiya dəstəyinin inkişafı proqramı.

2. Təchizat zəncirinin idarə edilməsinin vahid əlaqə mexanizminin qurulması. Buna aşağıdakı yollarla nail olmaq olar:

- işçilər arasında səlahiyyət və vəzifələrin dəqiq sərhədlərini müəyyənləşdirməklə, onlar arasında şaquli və üfüqi əlaqələr sisteminin qurulması;
- ayrı-ayrı işçilər arasında işin yaradıcı xarakterini və normal iş yükünü, habelə düzgün ixtisaslaşmanı təmin edən optimal əmək bölgüsünün inkişaf etdirilməsi;
- bir tərəfdən funksiyalar və vəzifələr, digər tərəfdən səlahiyyətlər və vəzifələr arasında uyğunluğun saxlanılması.

3. Kadrların işindəki problemləri aradan qaldırılması üçün həvəsləndirici ödənişlər sistemlərinin inkişaf etdirilməsi.

Ədəbiyyat

1. Захарова, Л. Н. Об оценке эффективности логистических систем в глобальной экономике / Л. Н. Захарова, Р. М. Захаров // Логистические системы в глобальной экономике. – 2022. – № 12. – С. 108-112

5. Куцев, Н. С. Логистика как основная составляющая в организациях по перевозке грузов / Н. С. Куцев // Наука без границ. – 2020. – № 8(48). – С.45-49

1. Мирзобеков, Х. Д. Роль логистики в развитии малого предпринимательства / Х. Д. Мирзобеков // Science and technology research: Сборник статей IV Международной научно-практической конференции, Петрозаводск, 12 мая 2022– С. 111-115

Резюме

Газыева С.Т., Маммедова Э.М.

Оценка роли логистики в условиях цифровизации экономики

В статье обосновывается необходимость цифровизации процессов в современных условиях и определяется ее влияние на работу логистических систем. Изучена логистика как одно из основных средств нормальной жизнедеятельности предприятий и осмыслены ее важные задачи. Рассмотрены критерии оценки индекса эффективности логистики. Исследованы существующие проблемы в сфере логистики и пути их решения.

Ключевые слова: *логистика, цифровизация, предприятие, производство, технология, качество*

Summary

Qaziyeva S.T., Mammadova E.M.

Assessment of the Role of Logistics in the Context of Digitalization of the Economy

The article substantiates the need for digitalization of processes in modern conditions and determines the impact on the operation of logistics systems. Logistics has been studied as one of the main means of normal life of enterprises and its important tasks have been comprehended. The criteria for

evaluating the logistics efficiency index are considered. Existing problems in the field of logistics and ways to solve them are investigated.
***Key words**: logistics, digitalization, enterprise, production, technology, quality*

QARABAĞ İQTİSADİ RAYONUNDA NƏQLİYYATIN İNKİŞAFI

Quluyeva Aynur Allahqulu qızı
Coğrafiya İnstitutu
aynur.memmedli.1993@inbox.ru

***Xülasə:** Məqalədə Azərbaycanın əlverişli geosiyasi və coğrafi mövqeyə malik olması fonunda onun işğaldan azad edilmiş ərazilərinin tranzit potensialından istifadə məsələsi araşdırılır. Həmin ərazilərdə yeni və müasir nəqliyyat infrastrukturunun qurulması çox önəmlidir. Qarabağ iqtisadi rayonunda avtomobil nəqliyyatının əsas göstəriciləri təhlil olunmuşdur. Nəqliyyatın inkişafının digər sahələrin inkişafına da təsirini nəzərə alaraq Qarabağ iqtisadi rayonunda nəqliyyat sisteminin Azərbaycan Respublikasının təsərrüfat sisteminin ayrılmaz tərkib hissəsi kimi iqtisadi-coğrafi baxımdan tədqiq edilməsi mühüm əhəmiyyət kəsb edir. Nəqliyyatın perspektiv inkişafı və onun digər sahələrin inkişafına müsbət təsir göstərəcəyi əsaslandırılır.*
***Açar sözlər:** Qarabağ, nəqliyyat, logistika, geosiyasi mövqe, inkişaf*

Böyük İpək yolu üzərində yerləşən Azərbaycan tarixən əlverişli coğrafi və geosiyasi mövqeyə malik olmuşdur. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan hazırda da regionun mühüm nəqliyyat və logistika mərkəzi kimi tanınır. Ölkə ərazisindən keçən beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Azərbaycanın işğaldan azad olunmuş rayonlarında nəqliyyatın inkişafı həmin rayonlarda sənaye və kənd təsərrüfatının kompleks inkişafına imkan verəcəkdir [3].

İşğaldan öncəki dövrdə iqtisadi rayonda bütün nəqliyyat vasitələri, xüsusilə avtomobil və dəmiryolu nəqliyyatı yüksək inkişaf etmişdi. 30 ilə yaxın işğal altında qalan ərazilərimizdə düşmən tərəfindən nəqliyyat infrastrukturu dağıdılmış, bütün kommunikasiyalar kəsilmişdir. İşğaldan azad olunandan sonra Azərbaycan hökuməti qarşısında dayanan ilk məsələlərdən biri nəqliyyat xətlərinin bərpası, yeni marşrutların yaradılması və kommunikasiyaların bərpası olmuşdur [1]. Hər zaman beynəlxalq əlaqələrin vacibliyini bəyan edən Azərbaycan nəqliyyat amilinin inkişafının regionda sülh və sabitliyin yaranmasını prioritet məsələ olaraq qəbul edir. Xüsusən Zəngəzur dəhlizinin açılmasının həm türk dövlətləri arasında, həm də region ölkələrinin lokal və qlobal inkişafında təsiri böyükdür. Məqalənin tədqiqat ərazisi olan Qarabağ iqtisadi rayonunda, onun inzibati rayonları arasında avtomobil yollarının inkişafı böyük əhəmiyyət kəsb edir. Qarabağın xeyli hissəsində mürəkkəb dağlıq relyefin mövcud olmasına baxmayaraq, burada hələ XX əsrin 60-70-ci illərində bir sıra nəqliyyat yollarının əsası qoyulmuşdur.

Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişafında avtomobil nəqliyyatı xüsusi əhəmiyyət kəsb edir. İqtisadi rayon üzrə avtomobil yollarının uzunluğu 3032 km təşkil edir. Cəmi avtomobil yollarının 5,6%-i Xankəndi, 9,5%-i Ağcabədi, 12,5%-i Ağdam, 12,3%-i Ağdərə, 22,5%-i Bərdə, 8,6%-i Xocavənd, 10%-i Əsgəran, 3,7%-i Şuşa, 12%-i Füzuli, 8,8%-i Tərtər rayonunun payına düşür. Regionda ümumi avtomobil yollarının 40%-ni və ya 1227 km-ni respublika əhəmiyyətli avtomobil yolları, 60%-ni və ya 1865 km-ni isə yerli əhəmiyyətli avtomobil yolları təşkil edir [2].

Region ərazisindəki respublika əhəmiyyətli avtomobil yollarının 5,3%-i Xankəndi, 10%-i Ağcabədi, 13%-i Ağdam, 18,3%-i Ağdərə, 17,1%-i Bərdə, 8,9%-i Xocavənd, 9,6%-i Əsgəran, 3,3%-i Şuşa, 8,1%-i Füzuli və 4,7%-i Tərtər rayonunun payına düşür. Yerli əhəmiyyətli avtomobil yollarının isə 5,3%-i Xankəndi, 8,9%-i Ağcabədi, 12,3%-i Ağdam, 8,0%-i Ağdərə, 27,9%-i Bərdə, 8,2%-i Xocavənd, 9,9%-i Əsgəran, 3,9%-i Şuşa, 9,5%-i Füzuli və 11,3%-i Tərtər rayonunun payına düşür [2]. (Cədvəl 1)

Qarabağ iqtisadi rayonu üçün mühüm nəqliyyat vasitələrindən biri də dəmiryolu nəqliyyatıdır. Dəmiryolu nəqliyyatı iqtisadi rayon üçün ölkədaxili yük və sərnişin daşınmasında mühüm rola malikdir. Bu nəqliyyat növü həm də iqtisadi rayonun sosial-iqtisadi inkişafında, təbii ehtiyat potensialının istismarında və mənimsənilməsində böyük əhəmiyyət kəsb edir. Ermənilər tərəfindən işğal olunana qədər Qarabağın dəmiryolu nəqliyyatında yük və sərnişin daşımalarının və dövriyyəsinin həcmi ilbəil artırdı. Nəqliyyat yollarının keçdiyi ərazilər nisbətən yüksək inkişafa və məskunlaşmaya malik idi. Xüsusilə, Qarabağ iqtisadi rayonunun və Şərqi Zəngəzur iqtisadi rayonunun Cəbrayıl və Zəngilan rayonlarının düzənlik hissələrində bu fərq nəzərə çarpırdı [1].

Cədvəl 1

Qarabağda avtomobil yollarının iqtisadi göstəriciləri, 2021

İnzibati ərazilər	Ərazi, km^2		Yollar, cəmi, km		O cümlədən			
					Respublika əhəmiyyətli, km		Yerli əhəmiyyətli, km	
	Rəqəmlə	Faizlə, %	Rəqəmlə	Faizlə, %	Rəqəmlə	Faizlə, %	Rəqəmlə	Faizlə, %
Qarabağ	**9293**	**100**	**3032**	**100**	**1227**	**100**	**1865**	**100**
Xankəndi	493	5,3	170	5,6	65	5,3	99	5,3
Ağcabədi	1756	18,9	289	9,5	123	10,0	166	8,9
Ağdam	1094	11,8	380	12,5	160	13,0	230	12,3
Ağdərə	1705	18,3	374	12,3	224	18,3	150	8,0
Bərdə	957	10,3	681	22,5	210	17,1	521	27,9
Xocavənd	779	8,4	262	8,6	109	8,9	153	8,2
Əsgəran	935	10,1	303	10,0	118	9,6	185	9,9
Şuşa	269	2,9	113	3,7	41	3,3	72	3,9
Füzuli	1386	14,9	362	11,9	100	8,1	178	9,5
Tərtər	412	4,4	268	8,8	58	4,7	210	11,3

Mənbə: Azərbaycanda Nəqliyyat. Statistik məcmuə. 2022-ci il

İşğal dövründə ermənilərin uzun müddət nəzarət altında saxladığı əsas dəmiryolu xətlərinin ümumi uzunluğu 240,4 km olmuşdur. Bu dəmiryolu xəttinin əsas hissəsi Horadiz-Ordubad sahəsinin (144 km) payına düşür. İşğaldan azad edilən ərazilərimizdə yol-nəqliyyat infrastrukturunun qurulması ilə bağlı dövlət səviyyəsində yenidənqurma və bərpa işləri həyata keçirilir. Bu işlər çərçivəsində Füzuli-Cəbrayıl-Zəngilan-Ağbənd dəmiryolu xətti yenidən qurulur. Horadiz-Füzuli və daha sonra Füzuli-Şuşa (dağlıq ərazilərdən keçməsinə baxmayaraq bir neçə tunel çəkilməklə) dəmiyolunun tikintisinin davam etdirilməsi nəzərdə tutulur [4]. Qarabağ və onun ətraf rayonları dəmiryolu xətlərinin uzunluğuna görə də Azərbaycanın digər regionlarından geri qalır. Bunun üçün Ələt-Mincivan-Culfa və Yevlax-Bərdə-Ağdam-Xankəndi dəmiryolu xətlərinin inşası (bərpası) bu regionların daha da inkişafına təkan verəcəkdir.

Qarabağın və Şərqi Zəngəzurun nəqliyyat infrastrukturunda mühüm yer tutan layihələrdən biri də burada tikilməkdə olan üç beynəlxalq hava limanıdır. Füzuli beynəlxalq hava limanı artıq tikilib istifadəyə verilmişdir. Laçın və Zəngilan beynəlxalq hava limanlarının da tikintisi ilə iqtisadi rayonların hərbi, iqtisadi və strateji əhəmiyyəti artacaqdır. Bu hava limanları Zəngəzur dəhlizinə gedən nəqliyyat və dəmiryolu xətlərinin üzərində yerləşir. Həmin layihələrin həyata keçirilməsi dövlətin qarşısında dayanan prioritet məsələlərdəndir.

Qeyd edilən məlumatlardan bir daha aydın olur ki, Qarabağ iqtisadi rayonunda nəqliyyatın inkişafı regionun sosial-iqtisadi cəhətdən dirçəldilməsinə mühüm töhfə verəcəkdir. Uzun illər işğal altında qalmış Azərbaycan əraziləri iqtisadi şaxələndirmə siyasətinin təkib hissəsi olaraq Avrasiya nəqliyyat sisteminin tərkibində mühüm regionlardan birinə çevriləcəkdir. Zəngəzur dəhlizinin açılmasının reallaşması Azərbaycanın mühüm regional gücə çevrilməsinin bariz nümunəsi olacaqdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. Bakı-2022
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Statistik məcmuə. *Azərbaycanda nəqliyyat.* Bakı-2021, 81 s.
3. Nəqliyyatın iqtisadi coğrafiyası. Ali məktəblər üçün dərslik. Bakı-2020. 455 s.
4. https://president.az/az/articles/view/52872

Резюме

Гулуева А.А.

Развитие транспорта в Карабахском экономическом районе

В статье рассматривается вопрос использования транзитного потенциала освобожденных территорий на фоне выгодного геополитического и географического положения Азербайджана. Очень важно создать в этих районах новую и современную транспортную инфраструктуру. Проанализированы основные показатели автомобильного транспорта Карабахского экономического района. Обосновано перспективное развитие транспорта и его положительное влияние на развитие других сфер.

Ключевые слова: *Карабах, транспорт, логистика, геополитическое положение, развитие*

Summary
Guluyeva A.A.
Development of transportation in Karabagh Economi District

The article deals with the issue of using the transit potential of the liberated territories against the backdrop of Azerbaijan's favorable geopolitical and geographical position. It is very important to create a new and modern transport infrastructure in these areas. The main data of road transport in the Karabakh economic region are analyzed. The prospective development of transport and its positive impact on the development of other areas are substantiated.

Key words: *Karabakh, transport, logistics, geopolitical position, development*

İNNOVATİV İQTİSADİYYAT İQTİSADİ İNKİŞAFIN KEYFİYYƏT AMİLİ KİMİ

Mahmudova Lalə Fəqail qızı
Sumqayıt Dövlət Universiteti
mahmudovalala2021@mail.ru

Xülasə*: Müasir dövrdə istənilən ölkənin iqtisadi inkişafı innovasiyaların səmərəli tətbiqindən asılıdır. İnnovasiyaların geniş tətbiqi ilə innovativ iqtisadiyyatın inkişafı müasir dövrün aktual problemlərindəndir və bu baxımdan da məqalənin mövzusu aktualdır. Məqalədə innovativ iqtisadiyyatın inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmış, ona təsir edən amillər tədqiq edilmişdir. İnnovasiya infrastrukturunun məqsədləri nəzərdən keçirilmiş və innovativ iqtisadiyyatda rolu araşdırılmışdır. İnnovativ iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin zəruriliyi əsaslandırılmış və bu sahədə dəstək tədbirləri müəyyənləşdirilmişdir.*

Açar sözlər: *innovasiya fəaliyyəti, innovativ iqtisadiyyat, texnologiya, elm, istehsal, məhsul*

İnnovativ iqtisadiyyat elmi inkişaf prosesində, yəni elmi tədqiqat prosesində əldə edilən biliklərdən bilavasitə asılı olan iqtisadiyyat növü kimi müəyyən edilə bilər. Fundamental və elmi-tətbiqi tədqiqatlar innovasiya fəaliyyətinin əsas elementləri kimi çıxış edir. Elmi tədqiqatlar biliyə, faktlara və yüksək texnologiyalara əsaslanan XXI əsrin texnoloji cəmiyyətinin və innovativ iqtisadiyyatının yaradılması mexanizmlərindən biridir. Elm, innovasiya və texnologiya sahəsi ölkənin və onun regionlarının gələcək sosial-iqtisadi inkişafı üçün katalizatora çevrilməlidir. Bu sahənin iştirakçıları strateji vəzifələrin, mühüm problemlərin həllinə və cəmiyyətin, biznesinin və dövlətin qarşısında duran qlobal çağırışlara cavab verməyə yönəlmiş qabaqcıl layihələr hazırlamalı və reallaşdırmalıdır. Həmin perspektivli innovativ layihələr investisiyaların cəlb edilməsinə, istehsalın modernləşdirilməsinə, istehsal risklərinin azaldılmasına kömək edə bilər. İnnovativ infrastrukturlar bu cür layihələri reallaşdırarkən ölkənin mövcud iqtisadi və innovativ potensialını tam üzə çıxarmağa imkan verəcək innovativ inkişaf tempinin artırılması, milli rəqabət qabiliyyətinin və bütövlükdə iqtisadiyyatın keyfiyyətcə yüksəlişi üçün keyfiyyətcə yeni perspektivlər yarada bilər.

İnnovasiya infrastrukturu innovasiya iqtisadiyyatını dəstəkləməyə və inkişaf etdirməyə yönəlmiş müxtəlif mülkiyyət və təşkilati-hüquqi fəaliyyət formalarına malik təşkilatlar sistemidir. Buraya ideyaların yaradılması və hazırlanmasından tutmuş yüksək texnologiyalı məhsulların satışına qədər innovativ fəaliyyətin tətbiqinin bütün dövrünü əhatə edən birliklər, təşkilatlar, müəssisələr, firmalar daxildir. Belə təşkilatlara innovasiya və texnologiya mərkəzləri, biznes inkubatorları, elmi və sənaye parkları, təhsil və biznes mərkəzləri, innovativ xidmət müəssisələri və digər ixtisaslaşmış təşkilatlar daxildir. Ümumiyyətlə, innovasiya infrastrukturu innovasiya fəaliyyəti üçün təşkilati, metodiki, maddi-texniki, informasiya, maliyyə, məsləhət və digər xidmətləri göstərən hüquqi şəxslərin, vasitələrin və resursların məcmusunu əks etdirir. İnnovasiya infrastrukturunun məqsədlərinə aiddir:

- innovasiya iqtisadiyyatının inkişaf etdirilməsi;
- innovasiya fəaliyyətinin istehsal və texnoloji təminatı;
- innovativ məhsulların sertifikatlaşdırılması və standartlaşdırılması;
- innovativ layihələrin səmərəli formada hazırlanmasına və tətbiqinə köməklik göstərilməsi;
- vençur layihələrinin dəstəklənməsi və riskin innovasiya prosesinin iştirakçıları arasında bölüşdürülməsi;
- kiçik innovativ, texnologiya yönümlü təşkilatların inkişafı üçün əlverişli başlanğıc şəraitinin yaradılması;

- innovativ layihələrin və məhsulların sərgilərinin keçirilməsi;
- konsaltinq, mühəndislik, ekspert xidmətlərinin göstərilməsi;
- innovativ layihələr üzrə sığortanın, o cümlədən xarici investisiyaların dövlət sığortasının inkişaf etdirilməsi;
- innovasiya fəaliyyəti üçün kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasının artırılması və s. İnnovasiya infrastrukturları regionların və bütövlükdə ölkənin innovasiya fəaliyyətinin əsasını təşkil edir, innovasiyaların qarşılıqlı əlaqəsini xeyli sadələşdirir. İnnovativ infrastruktur o zaman səmərəli olar ki, o, ölkənin və onun regionlarının inkişaf xüsusiyyətlərini nəzərə alaraq yaradılsın və fəaliyyət göstərsin. Bütün bunlar onu iqtisadiyyatın innovativ inkişafının əsas komponentlərindən birinə çevirir. İqtisadiyyatın innovativ inkişafının keyfiyyətinə ninnovasiya infrastrukturunun təsirini aşağıdakı sadə alqoritm kimi təklif edə bilərik (şəkil).

İqtisadi sistemdə innovasiyalar iqtisadi inkişaf mexanizmində ən mühüm həlqə kimi müəssisələrin və sahələrin rəqabət qabiliyyətinin artırılması istiqamətində bir neçə strateji vəzifəni yerinə yetirir. İnnovasiya fəaliyyətinin inkişaf etdirdiyi bir sıra sahələr var:
- yeni texnologiyaların inkişafı;
- məqsədi yeni və ya təkmilləşdirilmiş məhsulların yaradılması olan elmi, təcrübi-konstruktor və texnoloji işlər;
- sosial maliyyələşdirmə;
- yeni proseslərin və məhsulların elmi sınaqlarına, sertifikatlaşdırılmasına və standartlaşdırılmasına investisiya yönəldilməsi;
- innovasiya infrastrukturunun yaradılması və inkişafı və s.

Şəkil. İnnovasiya infrastrukturun innovativ iqtisadiyyatın inkişafına təsiri

İnnovativ iqtisadiyyatın fəaliyyətinin nəticəsi onun iqtisadi yüksəlişi və daha da inkişaf etdirilməsidir. İnnovasiya iqtisadi artıma öz təsirini göstərir və onlar arasında əlaqə vardır. Əgər innovasiya məhsulların keyfiyyətini, istehsalçıların imkanlarını və onların rəqabət qabiliyyətini yüksəltmək yoludursa, iqtisadi artım təsərrüfat subyektlərinin insanların tələbatını daha yaxşı ödəyəcək mallar hazırlamaq qabiliyyətinin artırılmasıdır. Bu, innovasiya və iqtisadi artım arasında güclü və məhsuldar əlaqənin göstəricisidir [3, s.75].

İnnovasiya sisteminin elm və təhsil sistemi ilə əməkdaşlığı çərçivəsində innovasiyaları inkişaf etdirən müxtəlif şirkətlər yaradılır.

İnnovativ inkişaf strategiyası ölkənin dünya birliyinə inteqrasiyası üçün zəruri amildir. İnnovativ iqtisadiyyat, ilk növbədə, yeni şirkətlərin formalaşdığı, köhnələrin itirildiyi, yeni bazarların axtarıldığı, yeni bazar seqmentlərinin mənimsənildiyi çevik, dinamik iqtisadiyyatdır [1, s.75].

İnnovativ iqtisadiyyat, müəssisələrin əksəriyyətinin innovativ texnologiyalardan istifadə etdiyi və innovativ məhsullar istehsal etdiyi postindustrial iqtisadiyyat növüdür. Eyni zamanda, sənaye texnologiyalarını təkmilləşdirmək üçün toplanmış biliklərdən səmərəli istifadə etməklə "kütləvi" innovativ inkişaflar mümkündür ki, bu da rəqabətli bazarda əhəmiyyətli üstünlüklərə sahib olmağa imkan verir.

İnnovativ iqtisadiyyatının əsas komponentləri bunlardır:
- təhsil və elm;
- insan kapitalı (yüksək ixtisaslı mütəxəssislər, yüksək həyat keyfiyyəti);
- innovasiya sistemi (innovasiya sisteminin qanunvericilik bazası və maddi komponentləri);
- innovasiyaları tətbiq edən innovativ sənaye;
- elmin inkişafı və fəaliyyəti üçün əlverişli mühit.

Elm və innovasiya sahəsində inkişaf aşağıdakı göstəricilərlə xarakterizə olunur:
- innovasiyaya fəal dövlət dəstəyi;
- insan kapitalının yüksək səviyyəsi və keyfiyyəti, onun inkişafına əhəmiyyətli investisiyalar;
- vətəndaşların və müəssisələrin şəxsi təhlükəsizliyinin yüksək səviyyəsi;
- sosial və iqtisadi sabitlik;
- cəlbedici investisiya və biznes mühiti;
- həm fundamental, həm də tətbiqi elmin yüksək inkişaf səviyyəsi;
- dövlət tərəfindən dəstəklənən inkişaf etmiş və effektiv vençur kapitalı sistemləri;
- iqtisadiyyatın və sənayenin şaxələndirilməsi;
- innovativ məhsulların dünya texnologiya bazarlarında rəqabət qabiliyyəti;
- ölkənin rəqabətədavamlı texnoloji və elmi inkişafını təmin edən transmilli korporasiyaların olması və s. Bu şərtlər siyahısına diqqətlə baxsaq, onların əksəriyyəti bu və ya digər şəkildə qloballaşma prosesləri ilə bağlıdır.

Bilik iqtisadiyyatının fərqli xüsusiyyətləri elmi-tədqiqat fəaliyyətinin maliyyələşdirilməsinin həcminin artmasıdır; peşə təhsili sisteminin təkmilləşdirilməsi; əqli əməyin payının artması; zəruri infrastrukturla təmin edilmiş və texnologiyaların son məhsula çevrilməsinə imkan verən tam hüquqlu innovasiya sisteminin yaradılması; İT-texnologiyaların və telekommunikasiyaların təkmilləşdirilməsi; istehsal olunmuş məhsulun ümumi həcmində xidmət sektorunun əhəmiyyətli payı; transmilli institutların yaradılması ilə milli iqtisadiyyatların inteqrasiyası.

İnnovativ iqtisadiyyatın inkişafına bilik iqtisadiyyatı əhəmiyyətli dərəcədə təsir edir. Bilik iqtisadiyyatı innovativ cəmiyyətin formalaşması üçün əsas kimi çıxış edən, həyatın bütün sahələrində istisnasız olaraq biliklərin yayılmasını təmin edən postindustrial cəmiyyətin inkişaf mərhələlərindən biridir. Bilik iqtisadiyyatı biliklərin elmi nailiyyətlərə çevrilməsini və tamamilə yeni və ya köklü surətdə təkmilləşdirilmiş innovativ məhsulların yaradılmasını təmin edir ki, bu da istehsal xərclərini optimallaşdırmağa, əmək məhsuldarlığını yüksəltməyə imkan verir ki, bu da öz növbəsində ayrı-ayrı müəssisələrin rəqabət qabiliyyətinin artırılması və bütövlükdə milli iqtisadiyyatın təkmilləşdirilməsi baxımından elmin inkişafı üçün əsas olur [2, s.26].

İnnovasiya iqtisadiyyatının ölkənin sosial-iqtisadi inkişafı üçün artan əhəmiyyətini nəzərə alaraq onun tənzimlənməsi zərurəti çox vacibdir. İnnovativ iqtisadiyyatın tənzimlənməsi sahəsində dövlətin üzərinə mühüm vəzifə düşür. İnnovasiya iqtisadiyyatına dövlət dəstəyinin əsas istiqamətlərinə aşağıdakılar daxil edilməlidir:

1) Milli məhsulların dünya bazarında rəqabət qabiliyyətinin artırılması məqsədilə innovasiya fəaliyyətinə dəstək;

2) Müasir texnoloji nizama uyğun olaraq əsas və təkmilləşdirici yeniliklərə dəstək;

3) İnnovasiya iqtisadiyyatının dövlət tənzimlənməsinin bazar mexanizminin rəqabət qabiliyyəti ilə səmərəli qarşılıqlı əlaqəsinin təmin edilməsi;

4) İnnovativ istehsalın regionlararası və beynəlxalq şəbəkələrinin dəstəklənməsi, milli innovativ sahibkarlığın maraqlarının müdafiəsi.

İnnovativ iqtisadiyyatın dövlət tənzimlənməsi və dövlət dəstəyinə elmi-tədqiqat və innovasiya layihələrinin büdcə vəsaitləri hesabına maliyyələşdirilməsi daxildir. Maliyyələşdirmə ilə yanaşı, innovasiya fəaliyyətinə dövlət dəstəyinin formalarına aşağıdakılar daxildir: ayrı-ayrı ixtiraçılara faizsiz bank kreditləri verilməsi, vençur innovasiya fondlarının formalaşdırılması, dövlət patent haqlarının məbləğinin azaldılması, texnoparklar şəbəkəsinin yaradılması. İnnovativ iqtisadiyyatın dövlət tənzimlənməsi vasitələrinə innovasiya fəaliyyətinin iştirakçıları üçün vergi və kredit güzəştləri, gömrük tənzimlənməsi, beynəlxalq patent-lisenziya mexanizmləri və müxtəlif növ kvotalar da daxildir.

Ümumilikdə, dövlət innovativ iqtisadiyyatı aydın şəkildə dəstəkləməli və inkişaf etdirməli, bütün iqtisadiyyat üçün artım generatorları olan innovativ fəaliyyət mərkəzlərini təkcə mərkəzdə deyil, bütün regionlarda yaratmalıdır.

Ədəbiyyat

1. Гиясов, С. А. Необходимость формирования и развития инновационной экономики / С. А. Гиясов // Инновационные направления интеграции науки, образования и производства : сборник материалов III Международной научно-практической конференции, Керчь, 11–15 мая 2022 С. 263-266

2. Кузюра, А. В. Понятие “экономики знаний”, ее основные черты и последствия / А. В. Кузюра // Экономика: вчера, сегодня, завтра. – 2022. – Т. 12. – № 5-1. – С. 21-28

3. Шовхалова, З. С. Инновации и их влияние на экономический рост / З. С. Шовхалова // Тенденции развития науки и образования. – 2020. – № 66-3. – С. 73-76

Резюме
Махмудова Л.Ф.
Инновационная экономика как фактор качества экономического развития

В современное время экономическое развитие любой страны зависит от эффективного применения инноваций. Развитие инновационной экономики с широким применением инноваций является одной из актуальных проблем современности, и в связи с этим тема статьи также актуальна. В статье обосновывается необходимость развития инновационной экономики, исследуются факторы, влияющие на нее. Были рассмотрены цели инновационной инфраструктуры и рассмотрена ее роль в инновационной экономике. Обоснована необходимость регулирования инновационной экономики со стороны государства и определены меры поддержки в этой сфере.

Ключевые слова: *инновационная деятельность, инновационная экономика, технология, наука, производство, продукт*

Summary
Mahmudova L.F.
Innovative Economy as a Factor in the Quality of Economic Development

In modern times, the economic development of any country depends on the effective application of innovations. The development of an innovative economy with the widespread use of innovations is one of the urgent problems of our time, and in this regard, the topic of the article is also relevant. The article substantiates the need for the development of an innovative economy, examines the factors influencing it. The goals of the innovation infrastructure were considered and its role in the innovation economy was considered. The necessity of regulation of the innovation economy by the state is substantiated and support measures in this area are identified.

Key words: *innovation activity, innovation economy, technology, science, production, product*

İNTENSİV İQTİSADİ ARTIM VƏ İNSAN KAPİTALI

Məmmədova Səxavət Tofiq qızı
Sumqayıt Dövlət Universiteti
vuqar.memmedov.7272@mail.ru

Xülasə: *İnkişaf etmiş ölkələrin müasir və perspektiv strateji inkişaf istiqamətlərində iqtisadi artım və insan kapitalı çox sıx vəhdət təşkil edir. Qloballaşan iqtisadiyyat, rəqabət imkanlarının genişlənməsi, innovativ ideyaların, layhələrin gündəlik həyat tələbinə çevrilməsi insan kapitalının artırılmasını və ondan səmərəli istifadə edilməsini bütün dünya ölkələri üçün inkişaf hədəflərindən biri kimi qəbul etməyə imkan verir. İnsan kapitalı iqtisadi artımın intensiv inkişafına təkan verən əsas amillərdən birinə çevrilir. Bu baxımdan məqalədə insan kapitalı bir intensiv iqtisadi amil kimi təhlil edilir.*

Açar söslər: *insan kapitalı, iqtisadi artım, intensiv iqtisadi artım, kapital, innovasiya, mütəxəssis*

XX əsrin son onilliyində müasir iqtisadiyyatın inkişaf istiqamətlərinə yeni baxışlar formalaşmış və insan kapitalı bir hədəf olaraq seçilmişdir. Bu baxımdan iqtisadi artımın əsas məhsuldarlıq amili kimi fiziki kapital deyil, məhz insanların bilik və bacarıqlarını, sağlamlığını özündə ehtiva edən insan kapitalı qəbul edilmişdir. Demək olar ki, əksər inkişaf etmiş ölkələrin iqtisadi siyasətinin əsasını inkişafa müsbət təsir göstərən insan kapitalına investisiyaların artırılması təşkil edir. İnsan kapitalı ən əsas intensiv iqtisadi artım amilinə çevrilir, müasir dövrün ən dəyərli kapitalı kimi qəbul edilir.

Azərbaycan Respublikasında davamlı iqtisadi artıma nail olmaq üçün inkişaf etmiş dünya ölkələrinin iqtisadi inkişaf meylləri araşdırılır, təhlil edilir və strateji yol xəritələri qəbul edilir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində də əsas hədəflərdən biri kimi insan kapitalının inkişaf etdirilməsi nəzərdə tutulur. Burada göstərilir: *"Əmək məhsuldarlığının və insan kapitalının inkişaf etdirilməsi iki səbəbdən əhəmiyyətli amil hesab olunur. Bir tərəfdən, intensiv əmək tələb edən inkişaf modelində əmək məhsuldarlığının yüksəldilməsi ölkə iqtisadiyyatında birbaşa əlavə dəyər yaratmaqla iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olacaqdır. Digər tərəfdən, yalnız əmək məhsuldarlığının yüksəldilməsinə nail olmaqla daha intensiv bilik tələb edən inkişaf modelinə maneəsiz keçid təmin ediləcəkdir. Bütün bunlar Azərbaycan məhsullarının qlobal*

bazarlarda rəqabətqabiliyyətliliyini təmin edəcək, eyni zamanda insan kapitalına investisiya qoyuluşunu daha cəlbedici edəcəkdir." [2]

Deməli, intensiv əmək tələb edən sahələrin inkişafı olmadan dünya iqisadiyyatına inteqrasiya mümkün deyildir, qlobal bazara çıxış və rəqabət imkanlarının genişləndirilməsi üçün innovativ məhsul istehsalı və müasir tələblərə cavab verə biləcək mütəxəssislər hazırlanmalıdır. Mütəxəssislərin hazırlanması isə vahid istiqamət prinsipinə əsaslanan təhsil, təlim və təcrübənin vəhdətindən bəhrələnməlidir. Əmək məhsuldarlığının yüksəldilməsində insan kapitalının əvəzsiz rolunu nəzərə alaraq bu nəticəyə gəlirik ki, istehsalın intensiv inkişaf amillərinin hər biri insan kapitalının həcmi ilə sıx surətdə bağlıdır. Yəni, insan kapitalının həcminin artırılması həm əmək məhsuldarlığını artırır, həm də keyfiyyətli və dünya bazarına çıxarıla biləcək rəqabət qabiliyyətli məhsul istehsalına imkan yaradır.

İqtisadi artım istehsalın təkmilləşdirilməsi prosesidir, nəticədə iqtisadiyyatın istehsal edə biləcəyi əmtəə və xidmətlərin miqdarı və keyfiyyəti yüksəlir. Başqa sözlə, iqtisadi artım tək bir ölkənin iqtisadiyyatının necə inkişaf etdiyini göstərir. İqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. İqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir [1].

Bu baxımdan iqtisadi artıma səbəb olan amillər aidiyyatı strukturlar tərəfindən daim araşdırılmalı, təhlillər aparılmalı və artıma səbəb ola biləcək dəstək mexanizmləri həyata keçirilməlidir. Məlumdur ki, Azərbaycanın iqtisadi artımına əsasən neft və neft məhsullarından gələn gəlirlər təsir göstərir. Müstəqillik qazandıqdan sonra Azərbaycanın iqtisadi atrtım tempini müəyyən mərhələlərə ayırmaq mümkündür. Bu mərhələlərin hər birinin özünəməxsus xarakterik cəhətləri vardır. Aşağıdakı cədvəldə aparılan islahatların, qəbul edilmiş proqramların, verilmiş sərəncamların, bağlanmış müqavilələrin təsiri ilə iqtisadi artım üzrə bəzi dövrlərdə irəliləyişləri, bəzi dövrlərdə isə geriləmələri müşahidə edə bilərik (cədvəl).

Cədvəl.

Azərbaycanda iqtisadi artım tempinin mərhələləri (1991-2021-ci illər)

Mərhələlər	İllər	Dövr	Dövrün xarakterik xüsusiyyətləri
I	1991-1994	Tənəzzül dövrü	ÜDM orta hesabla 17% aşağı düşməsi, milli valyutanın kəskin ucuzlaşması
II	1995-2003	Dərin iqtisadi islahatlar: keçid və bərpa dövrü	"Əsrin müqaviləsi"nin ilkin iqtisadi səmərəsi, milli valyutanın sabitliyi, strateji xarici valyuta ehtiyatlarının formalaşdırılması və s. Genişmiqyaslı torpaq islahatları, dövlət əmlakının özəlləşdirilməsi, iqtisadi artıma səbəb ola biləcək bazanın yaradılması.
III	2004-2014	İqtisadi inkişaf və tərəqqi dövrü	Qlobal rəqabət qabiliyyətinə görə 37-ci yer, iqtisadi əlaqələrin yaxşılaşması, ÜDM-in orta hesabla 16,9% artması.
IV	2014-2016	Aşağı neft qiymətləri dövrü	Neftin qiymətində kəskin ucuzlaşma, milli valyutanın ABŞ dollarına nisbətən iki dəfəyə yaxın ucuzlaşması, institusional islahatların sürətləndirilməsi.
V	2017- mart 2020	Bərpa dövrü	" Doinq Business" hesabatında ən islahatçı ölkələr sırasında 190 ölkə arasında 25-ci yerin əldə edilməsi.
VI	mart 2020-2021	Böhran idarəetməsi dövrü	Pandemiya, aşağı neft gəlirləri, Ermənistanın hərbi təxribatı. Dövlət büdcəsinin ÜDM-ə nisbəti dünya üzrə göstəricilərdən təxminən 4 dəfə az olması. "Fiskal fəza" siyasəti və 2,3mld. manatlıq əlavə maliyyə təminatının yaradılması.

Mənbə: *[3, s.145-148] məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəldən də göründüyü kimi, Azərbaycanda 1991-1994, 2014-2016 və 2020-2021-ci illər iqtisadi artım baxımından əlverişli dövrlər olmamışdır. Buna baxmayaraq bu dövrlərdə də bir çox islahatlar

aparılaraq bərpa imkanları əldə edilmişdir. 2004-2014-cü illəri əhatə edən iqtisadi inkişaf və tərəqqi dövrü isə ÜDM-in 16,9% artması ilə müşahidə olunmuşdur. Bu artıma səbəb həm də ondan əvvəlki dövrdə, yəni 1995-2003-cü illərdə aparılmış köklü islahatlar olmuşdur.

2020-ci ilin noyabrın 8-də əldə etdiyimiz "Möhtəşəm Zəfər" nəticəsində düşmən tapdağından azad edilmiş əzəli və əbədi torpaqlarımızda modern və innovativ layihələr reallaşdırılır. Nəzərə alsaq ki, həyata keçirilən "ağıllı kənd", "ağılı şəhər", "yaşıl zona" layihələri Qarabağa keyfiyyətli insan kapitalının axınını gücləndirəcək, eyni zamanda insan kapitalının formalaşdırılması üçün zəmin yaradacaqdır. 30 ilə yaxın bir müddətdə işğal altında olan ərazilərimiz qəddarcasına, vəhşicəsinə, heç bir qanuna, konvensiyalara sığmayacaq dərəcədə viran qoyulmuş, nəinki infrastruktur, kommunikasiya, iqtisadi, sosial strukturlar dağıdılmış, hətta kənd təsərrüfatı üçün yararlı olan torpaqlarımız, meşələrimiz, təbii sərvətləimiz talan olunmuşdur. Qəddar düşmənin törətdiyi bu vəhşiliklərin aradan qaldırılması, dağıdılmış ərazilərin yenidən bərpası ölkəmizə kifayət qədər vəsait, maliyyə hesabına başa gələcəkdir. Bu maliyyəni səmərəli şəkildə istifadə etmək, yönləndirmək məsələləri də birbaşa insan kapitalı ilə bağlıdır. Eyni zamanda verilmiş layihələrin qiymətləndirilməsi, yararlılığı və region üçün əhəmiyyətliliyinin təhlili və ən səmərəli metodların tətbiqi keyfiyyətli kadr potensialı hesabına mümkün olacaqdır.

Qarabağın reinteqrasiyası iqtisadi artımda əhəmiyyətli rol oynayacaq. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində aparılan hesablamalar göstərir ki, Qarabağın reinteqrasiyası nəticəsində Azərbaycanda ÜDM 3%, o cümlədən kənd təsərrüfatı 10,4%, mədənçıxarma sənayesi 5,3%, emal sənayesi 5,3%, nəqliyyat xidmətləri 4,9%, artacaq. Eyni zamanda regional kommunikasiyaların açılması Azərbaycanda ÜDM-i 1,2% artıra bilər [3, s.174].

Kadrların ixtisasının yüksəldilməsi və təhsil üçün nəzərdə tutulan xərclərin yüksəldilməsi insan kapitalının artırılmasına səbəb olur ki, bu da iqtisadi artımda xüsusi əhəmiyyət kəsb edir. İxtisaslı kadr ölkənin kadr potensialını formalaşdırır. Bu baxımdan da iqtisadi artıma dövlətin təsiri aşağıdakı istiqamətləri özündə birləşdirir:

- ETT və tədqiqatların stimullaşdırılması;
- dövlət miqyasında kadrların ixtisasının yüksəldilməsi və təhsil üçün nəzərdə tutulan xərclərin yüksəldilməsi;
- vergi sisteminin əsaslı olaraq dəyişilməsi [4, s.373].

İqtisadi artıma dövlət dəstəyini nəzərə alaraq insan kapitalı baxımından ona təsir edən amillərin təhlili zamanı müəyyən nəticələrə gəlmək olar.

İqtisadi artıma aşağıdakı amillər təsir edir [5]:

1) Təbii ehtiyatların kəmiyyəti və keyfiyyəti;
2) Əmək ehtiyatlarının kəmiyyəti və keyfiyyəti;
3) Əsas kapitalın dəyəri;
4) Elmi-texniki tərəqqi;
5)Sahibkarlıq qabiliyyəti və idarəetmə bacarığı.

İqtisadi artıma təsir edən amillər içərisində əmək ehtiyatlarının keyfiyyəti, sahibkarlıq qabiliyyəti və idarəetmə bacarığı insan kapitalının həcmindən asılı olaraq təkmilləşə bilər. İstehsalda və idarəetmədə optimal qərarların verilməsi baxımından insan kapitalının yüksəldilməsi böyük əhəmiyyət daşıyır. İnsan kapitalı əsas kapialın tərkib hissəsinə daxildir, onun amillərinin hərəkətverici qüvvəsidir.

İqtisadi artımın adətən xarici və daxili amilləri də fərqləndirilir. Xarici amillərə ölkənin beynəlxalq əmək bölgüsündə iştirakı, milli iqtisadiyyatın açıqlıq dərəcəsi, ölkənin beynəlxalq iqtisadi inteqrasiya proseslərində iştirakı, beynəlxalq maliyyə-iqtisadi təşkilatlarla qarşılıqlı əlaqəsi və s. aid edilir. İqtisadi artımın daxili amillərinə isə işçi qüvvəsinin keyfiyyət göstəriciləri (təhsil səviyyəsi, təlim, iqtisadi şüur, nizam-intizam və s.) daxildir [6].

İqtisadi artımın iki mühüm tipi fərqləndirilir: [4, səh. 365]

- ekstensiv iqtisadi artım
- intensiv iqtisadi artım

Ekstensiv iqtisadi artımda ümumi daxili məhsulun artması məhsul və ya xidmətlərinin istehsalı prosesinə sərf edilən resursların həcminin, kəmiyyətinin artırılması hesabına baş verir.

İntensiv iqtisadi artımda isə ümumi daxili məhsulun artması məhsul və ya xidmətlərin, istehsalın səmərəliliyinin artırılması və istehsal proseslərində keyfiyyət dəyişiklikləri hesabına yaranır.

Deməli, ekstensiv iqtisadi artım amillərinə istehsal prosesində iştirak edən işçilərin, maşın və avadanlıqların, istehsal sahələrinin və s. sayının, xammal və mareriallarının, enerji resurslarının, investisiya axınının və s. həcminin artırılması aid edilə bilər.

İntensiv iqtisadi artım amillərinə isə, işçilərin ixtisas səviyyəsinin, bilik və bacarıqlarının, iş görmə qabiliyyətinin artırılmasını, yeni texnika və tenologiyanın tətbiqini, xammal və materialların keyfiyyətinin artırılmasını və s. göstərmək olar.

Buradan belə bir nəticəyə gəlmək olar ki, ÜDM-un artımı ekstensiv iqtisadi artımda resursların kəmiyyət artımı hesabına, intensiv iqtisadi artımda isə resursların keyfiyyət artımı hesabına baş verir.

Bütün keyfiyyət amilləri insan kapitalı ilə sıx surətdə əlaqəlidir. Yeni texnika və texnologiyanın tətbiqi, keyfiyyətli xammal və materialların istehsalı, keyfiyyətli idarəetmə metodları yüksək insan kapitalı olmadan mümkün deyildir. Deməli, insan kapitalı intensiv iqtisadi artımın ən əsas və aparıcı amili kimi qəbul edilməlidir.

İşçilərin yaxşı, müasir təlimlərə cəlb edilməsi müəyyən ixtisaslara mükəmməl yiyələnməni təmin edir və nəticədə daha mürəkkəb əməliyyatların yerinə yetirilməsinə imkan yaranır. İnnovasiyatutumlu, elmtutumlu, texnologiyatutumlu sahələrdə optimal və rəqəmsal idarəetmənin tətbiqi menecerlərdən müəyyən işçi qrupunun və komandanın yaradılmasını tələb edir. İstehsal olunan məhsulların və ya təklif olunan xidmətlərin kəmiyyət və keyfiyyəti işçilərin ixtisas səviyyəsindən asılı olduğundan elm, təhsil və təlim, diqqət mərkəzində olmalı, onların inkişafına mütəmadi investisiya yönəldilməlidir. Bazar mühitinin tez-tez dəyişməsi, innovativ istehsal və idarəetmə proseslərinin meydana gəlməsi, yeni rəqiblər və məhsullar istər makro, istərsə də mikro sahələrdə insan kapitalının artırılmasını iqtisadi inkişafın əsas hədəfinə çevirir.

Aparılan təhlilləri aşağıdakı müddəalarla yekunlaşdırmaq olar:

- müasir dövr üçün insan kapitalı iqtisadi artım amillərindən ən əsası hesab edilməlidir,
- iqtisadi artıma səbəb olan bütün resursların səmərəsi həm də insan kapitalının həcmindən asılıdır,
- davamlı iqtisadi artıma nail olmaq üçün insan kapitalı daim artırılmalıdır,
- Qarabağda müasir standartlara cavab verə bilən iqtisadi və sosial mühitin yaradılması üçün oraya güclü insan kapitalı axını olmalıdır, çünki innovativ layihələr keyfiyyətli insan kapitalı nəticəsində formalaşır,
- insan kapitalı intensiv iqtisadi artım amilidir.

Ədəbiyyat

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər //Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı https://president.az/az/articles/view/50474

2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi: [Elekrton resurs] // Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. 111 s. URL: https://mida.gov.az/documents/%C4%B0qtisadiyyat_Yol_%20xeritesi.pdf

3. Qasımlı, V.Ə. İqtisadi artım (Post-konflikt və Post-pandemiya dövrü: Çagrışlar və Həllər). / V.Ə.Qasımlı. – Bakı: Azprint MMC", – 2021. – 234s.

4. Vəliyev,T.S. İqtisadi nəzəriyyə dərslik. /T.S. Vəliyev, R.Ə.Balayev, M.X. Meybullayev və b. – Bakı, Çaşıoğlu, – 2001. – 691s.

5. https://kayzen.az/blog/ekonomiks/8154/iqtisadi-art%C4%B1m.html

6. https://www.vsavm.by/wp-content/uploads/2013/02/Ekonomicheskii-rost.Materialy-dlya-samostoyatelnoi-raboty.pdf

Резюме

Мамедова С.Т.

Интенсивный экономический рост и человеческий капитал

Экономический рост и человеческий капитал образуют очень тесное единство в современных и перспективных стратегических направлениях развития стран. Глобализация экономики, расширение конкурентных возможностей, превращение инновационных идей и проектов в требования повседневной жизни позволяют рассматривать приумножение человеческого капитала и его эффективное использование как одну из целей развития для всех стран мира. Человеческий капитал становится одним из основных факторов, стимулирующих интенсивное развитие экономического роста. В связи с этим в статье анализируется человеческий капитал как интенсивный экономический фактор.

Ключевые слова: *человеческий капитал, экономический рост, интенсивный экономический рост, капитал, качество, специалист*

Summary
Mammadova S.T.
Intensive Economic Growth and Human Capital

Economic growth and human capital form a very close unity in the modern and promising strategic directions of development of developed countries. The globalization of the economy, the expansion of competitive opportunities, the transformation of innovative ideas and projects into the requirements of everyday life make it possible to consider the increase in human capital and its effective use as one of the development goals for all countries of the world. Human capital is becoming one of the main factors stimulating the intensive development of economic growth. In this regard, the article analyzes human capital as an intensive economic factor.

Key words: *human capital, economic growth, intensive economic growth, capital, quality, specialist*

AZƏRBAYCANIN TƏBİİ RESURSLARI VƏ ONLARIN STRUKTURU

Məmmədova Şəfiqə Səfər qızı
Sumqayıt Dövlət Universiteti
shafiga_mammadova@mail.ru

Xülasə: *Məqalədə Azərbaycanın təbii resurslarının qısa xülasəsi və onların strukturu araşdırılmışdır. İlk dəfə olaraq, Azərbaycanın təbii resurslarının strukturu və onun tərkib hissələri sistemləşdirilmişdir. Təbii sərvətlər, o cümlədən mineral-xammal ölkəmizin iqtisadi potensialının inkişafı və əhalinin yaşayış səviyyəsinin yüksəldilməisini şərtləndirən mühüm amil kimi çıxış edir. Azərbaycanın təbii sərvətlərinin strukturunda torpaq resursları, mineral resurslar – faydalı qazıntılar, bioloji resurslar, su resursları və kurort rekreasiya resursları ayrılmışdır.*

Açar sözlər: *təbii resurslar, torpaq, mineral resurslar, faydalı qazıntılar, bioloji resurslar, su resursları*

Azərbaycanın təbii resursları. Azərbaycan çox qədim zamanlardan bəri və hal-hazırda da özünün zəngin olan təbii sərvətlərilə dünyanın daim diqqət mərkəzində olmuşdur. Bu diqqət bir tərəfdən Azərbaycan Respublikasının əlverişli coğrafi mövqedə yerləşməsilə bağlı olsa da, ilk növbədə ölkənin zəngin təbii şəraitə və yeraltı, yerüstü təbii ehtiyatlara malik olması həmişə xarici ölkələrin maraq dairəsində olan önəmli faktorlardan biri olmuşdur. Məhz, təbii sərvətlər, o cümlədən mineral-xammal ölkəmizin iqtisadi potensialının inkişafı və əhalinin yaşayış səviyyəsinin yüksəldilməisini şərtləndirən mühüm amil kimi çıxış edir. Respublikanın mürəkkəb relyef quruluşunu təşkil edən əsas formalar: qarlı və yüksək hündürlüklü dağlar, məhsuldar torpaqlı dağətəyi sahələr, geniş düzənliklər, okean səviyyəsindən aşağı ovalıqlar və s. təbii şəraitin də: iqlimin, torpaq-bitki örtüyünün, su resurslarının müxtəlifliyinə səbəb olmuşdur. Əlbəttə, bu müxtəliflik də öz növbəsində respublikanın təbii sərvətlərinin zənginliyinə gətirib çıxartmışdır.

Azərbaycan Respublikasının təbii sərvətlərinin bütövlükdə strukturu və tərkibini araşdıraraq, bu sərvətləri ən ümumi formada aşağıdakı kimi ayırmaq mümkündür (şəkil):

1. Torpaq resursları;
2. Mineral resurslar – faydalı qazıntılar;
3. Bioloji resurslar;
4. Su resursları;
5. Kurort rekreasiya resursları.

Torpaq resursları özləri də dörd istiqamətə: a) kənd təsərrüfatı təyinatlı; b)kənd təsərrüfatında istifadə olunmayan; c) həyətyanı torpaq sahələri və tikinti altında olan torpaqların sahələri və d) meşə ilə örtülü kolluq sahələrinə ayrılır. Qeyd etmək lazımdır ki, respublikamızın böyük əhəmiyyətə malik torpaq ehtiyatları ilə təminatlılıq səviyyəsi yüksək deyildir. Belə ki, torpaq resursları ilə təminatlılıq adambaşına 0,59 ha, əkin yeri isə adambaşına 0,22 ha təşkil edir. Əlbəttə, bu göstəricilər hər il əhalinin artımından, tikinti-sənaye obyektlərinin sayının artımından, nəqliyyatın və s. infrastrukturların inkişafından asılı olaraq dəyişə bilir[1].

Bioloji resursları meşə, qoruq, otlaq və s., həmçinin balıq, canlı heyvanat aləmi resurslarından ibarət olan heyvan resursları kimi qeyd etmək olar. Bitki və heyvan resurslarının, xüsusi mühafizə olunan təbiət ərazilərinin milli sərvətdə özünəməxsus yeri olmağına baxmayaraq, zəruri informasiyaların olmaması səbəbindən milli sərvətin bir tərkib hissəsi olaraq onların tədqiqat işində qiymətləndirilməsi qeyri-mümkün olmuşdur.

Şəkil. Azərbaycanın təbii sərvətlərinin strukturu və onun tərkib elementləri.

Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.

Su resursları – ölkənin sərvətinin şirin, geotermal, mineral, sənaye, hidroenerji və yerüstü su ehtiyatları kimi tərkib hissələri milli sərvətin çox vacib təbii dəyərlərindəndir. Mümkün məlumatlar əsasında milli sərvətin tərkib hissəsi kimi su resurslarının dəyərləndirilməsi mümkün olmuşdur.

İqlim və kurort rekreasiya resurslarının əsas tərkib hissələrinə iqlim, müalicə, sağlamlıq, landşaftları və s. əhəmiyyətli ehtiyatları aid etmək olar. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasını iqlim resursları nöqteyi-nəzərindən də dünyanın ən məhsuldar ölkələrindən biri hesab etmək olar. Çünki, Azərbaycanda hal-hazırda Yer planetində qeyd edilən 11 iqlim növündən doqquzuna rast gəlinir. Amma, dünyada mövcud olan 13 iqlim qurşağından yalnız ikisi Azərbaycanda vardır. Bu iqlim qurşağından biri subtropik iqlim qurşağı adlandırılmaqla ölkə ərazisinin 65%-ni, ikinci mülayim iqlim qurşağı olmaqla, 35%-ni əhatə edir [2, s.91]. Əlbəttə, Azərbaycan Respublikasının iqlim ehtiyatlarının formalaşmasına ölkənin əlverişli coğrafi mövqedə yerləşməsi, onun özünəməxsus xüsusiyyətlərlə yanaşı, Xəzər dənizi də əhəmiyyətli dərəcədə təsir edir. Xəzər dənizinin sahilboyu zonasının münbit mühiti, bol günəş şüaları, radiasiyası, isti və çimərliklər geniş əhatəli qumluqlar, dənizin faydalı suları və s. kurort-rekreasiya ehtiyatları baxımından çox əhəmiyyətli olduğunu qeyd etmək mümkündür. İqlim ehtiyatlarının əlverişliyi və əhəmiyyəti ilk növbədə iqtisadiyyat, sosial-iqtisadi həyat, kənd təsərrüfatının müxtəlif sahələrinin fəaliyyəti üçün zəruri olan maddi və enerji xüsusiyyətlərlə əlaqədardır.

Bundan başqa, respublikamızın bir sıra bölgə və zonalarında iqlim ehtiyatları eyni zamanda təbii-müalicəvi və istirahət nöqteyi-nəzərindən də mühüm əhəmiyyət kəsb edir. Daha doğrusu, respublikamızın əlverişli iqlim ehtiyatları onlardan istirahət və müalicəvi-kurort məqsədləri üçün istifadəyə əlverişli şərait yaradır. Belə ki, Naxçıvanda müalicə xüsusiyyətlərinə malik yeraltı duz mağaraları, mineral sular, Lənkəran – Astara, Xaltan bölgəsindəki müalicəvi-kükürdlü mədən suları, həmçinin yüksək göstəricili Qalaaltı və Naftalan kurortları, Abşeronun və Xəzər dənizinin sahil boyu çimərlikləri, eyni zamanda Nabran-Yalama meşə-dəniz istirahət kompleksi təbii müalicə və rekreasiya nöqteyi-nəzərindən əhəmiyyətlidir. Azərbaycanın iqlim ehtiyatları ilə bağlı belə müalicə-istirahət imkanları bol olsa da, bu imkanlardan tam və səmərəli istifadə olunmur. Formalaşmış və tanınmış əsas müalicə kurortları Abşeron (Bilgəh, Buzovna, Zağulba) İstisu (balneoterapevtik kurort), Lənkəran (iqlim-balneoterapevtik dəniz sahili kurortlar) və Naftalanda (balneoterapevtik kurortu) yerləşir.

Azərbaycanın müalicəvi neftin möcüzəsi, dünyada məşhur olan Naftalan neftilə təzahür edərək bir çox xəstəlikləri müalicə edir. Bundan başqa, mülayim iqlimi, təmiz dağ havası, qiymətli mədən suları olan Şuşa – Turşsu zonası, Gəncə - Hacıkənd – Göy-Göl, Quba – Xaçmaz – Nabran, Zaqatala – Şəki, Oğuz – Qəbələ və s. zonaları da respublikamızın geniş iqlim və rekreasiya imkanlarındandır. İşğaldan azad olan Kəlbəcərin İstisu zonası da çox faydalı istirahət-müalicə imkanlarına malikdir. Çox təəssüf ki, Dağlıq Qarabağın əlverişli və əhəmiyyətli kurort-müalicə resurslarından istifadə imkanları hələlik ölkə üçün qeyri-mümkündür. Beləliklə, bəzi məlumatlara əsasən Respublika ərazisində 1200 turizm-rekreasiya, balneoloji komplekslər mövcuddur [3]. Bundan başqa, mədəni-tarixi obyektlər ("İçəri şəhər", Qobustanın qədim qaya rəsmləri, müxtəlif rayonlarda qalalar, arxeoloji abidələr və s.) ehtiyatlar ölkədə turizmin inkişafına səbəb olmaqla, milli sərvətimizin dəyərlərindəndir.

Ədəbiyyat

1. https: //kayzen.az.blog/ Azərbaycan coğrafiyası/4614/azərbaycanın təbii ehtiyatları.html.
2. Əliyev Ş. Azərbaycan iqtisadiyyatı/Ş.Əliyev.-Sumqayıt: Sumqayıt Dövlət Universiteti,-2018.-376s.
3. https://az.wikipedia.org/wiki/Azərbaycanın_təbii_sərvətləri.
4. Azərbaycan regionlarında tarazlı və rəqabətqabiliyyətli iqtisadiyyatın inkişaf istiqamətləri. Monoqrafiya/akademik A.A.Nadirovun redaktəsi ilə. – Bakı: Elm, -2013.-302s.
5. Əhmədov N.V. Abşeron regionunda mineral xammaldan istifadənin səmərəliliyi/N.V.Əhmədov.-Bakı: Elm və Bilik, -2018.-326s.

Резюме

Мамедова Ш.С.

Природные ресурсы Азербайджана и их структура

В статье рассматривается краткий обзор природных ресурсов Азербайджана и их структура. В статье впервые систематизированы структура природных ресурсов Азербайджана и их составляющие. Природные ресурсы, в том числе минеральное сырье, выступают важным фактором, определяющим развитие экономического потенциала нашей страны и повышение уровня жизни населения. В структуре природных ресурсов Азербайджана выделяются земельные ресурсы, минеральные ресурсы, биологические ресурсы, водные ресурсы и курортно-рекреационные ресурсы.

Ключевые слова: *природные ресурсы, почвы, полезные ископаемые, биологические ресурсы, водные ресурсы.*

Summary
Mamedova Sh.S.
Natural Resources of Azerbaijan and its Structure

A brief overview of the natural resources of Azerbaijan and their structure is considered in the article. In the article, the structure of natural resources of Azerbaijan and its components are systematized for the first time. Natural resources, including mineral raw materials, are an important factor determining the development of the economic potential of our country and raising the standard of living of the population. In the structure of natural resources of Azerbaijan, land resources, mineral resources, biological resources, water resources and resort-recreational resources are distinguished.

Key words: *natural resources, soil, mineral resources, biological resources, water resources.*

AQRAR SAHƏNİN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

Mikayılova Sevda Məmməd qızı
İqtisadiyyat İnstitutu
mikailovasevda1@gmail.com

Xülasə: *Məqalədə müasir dövrdə dünyada baş verən problemlərə toxunulur. Respublikanın idxaldan asılılığının aradan qaldırılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətləri müəyyənləşdirilir. Kənd təsərrüfatı istehsalçılarının müxtəlif vergilərdən azad olunması, aqrar sahədə iqtisadi inkişaf üçün münbit şərait yaradılmışdır. Lakin aqrar sahədə məşgulluq səviyyəsinin yüksək, işsizlik səviyyəsinin aşağı olmasına baxmayaraq, əksər iş yerlərinin daha çox mövsümi xarakter daşıması qeyd edilir. Dövlətin bu sahədə həyata keçirdiyi Dövlət Proqramları, sərəncamlar, qanunlar onun dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsinə çatdırılması məsələlərinə toxunulur. Ölkəmiz neft sənayesinin inkişafında və enerji təhlükəsiliyinin təmin edilməsində mühüm rola malikdir. Lakin qeyri-neft sektorunun mühüm sahələrindən olan aqrar sahənin idxaldan asılılığının aradan qaldırılmasında xüsusi əhəmiyyət kəsb etdiyi nəzərə çatdırılır.*

Açar sözlər: *aqrar sahə, iqlim şəraiti, ərzaq təhlükəsizliyi, idxaldan asılılıq, maliyyə yardımı*

Müasir dövrdə yaşadığımız dünyanın müasir vəziyyətinə xələl gətirən çoxlu amillər mövcuddur. Bunlara misal olaraq iqlim dəyişikliklərini, xəstəlikləri, müxtəlif növ təhlükəli xəstəliklərin yaranmasına səbəb olan ekoloji amilləri, süni virusların insan orqanizminə vurduğu ziyanlar, su ehtiyatlarının azalması, ərzaq probleminin yaranmasına və onların keyfiyyətinin pisləşməsinə, qiymətlərin kəskin dəyişməsinə səbəb olmuşdur. Dünyaya ağalıq uğrunda gedən müharibələr, münaqişələr iqtisadiyyatı çətin vəziyyətə gətirir. Belə bir vəziyyətdə hər bir dövlət, belə problemlərə diqqətlə yanaşmalıdır.

Son zamanlar yer kürəsində baş verən ekoloji dəyişikliklər, kənd təsərrüfatında yararlı torpaq və su resurslarının erroziya proseslərinin sürətlənməsinə səbəb olmuşdur.

Dünya əhalisinin artım tempi ilə ərzaq məhsullarına tələbatın yetərincə ödənilməməsi ciddi problemlərin yaranmasına səbəb olmuşdur.

Ərzaq məhsullarına tələbatın artım tempi ilə istehsal resursları arasında yaranan kəskin disparitetlik artan dünya əhalisinin ərzaqla təmin olunmasında çətinliklər yaradır. Dünya əhalisinin sayının artımı ərzaqla təminatında problemlər yaradır.

Dünyanın zəngin yeraltı və yerüstü sərvətlərə malik dövlətlərdən olan Azərbaycanın iqtisadi inkişafı – metallurgiya, ağır maşınqayırma, kənd təsərrüfatı və sənayenin digər sahələri – kimya sənayesində plastik kütlə, sintetik kauçuk, süni lif, avtomobil şinləri, yod, xlor, mineral gübrələr, sintetik yuyucu vasitələr, müxtəlif toxuculuq məhsulları, dərmanlar və s. istehsal edilirdi. Son dövrlərdə qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq sosial-iqtisadi sahələrdə açıq-aşkar yüksəklişlərə nail oluruq. Makroiqtisadi göstəricilərdə nəzərə çarpacaq yüksəlişlərin əldə olunmasına imkan yaradılmışdır. Eyni zamanda bir çox iqtisadi göstəricilərin artımı müşahidə edilsə də, bu heç də mövcud potensialdan tam və səmərəli istifadə demək deyildir. Hər bir ölkənin iqtisadi inkişafı müəyyən sahələrdən asılıdır. Ölkəmiz neft sənayesinin inkişafında və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rola malikdir. Hal-hazırda qeyri neft sektorunun inkişafı xüsusi aktuallıq kəsb edir. Bu sahədə müvəffəqiyyətli aqrar islahatlara başlanmış, çox ukladlı təsərrüfatçılıq sisteminin formalaşdırılması ilə bağlı qanunvericilik aktları qəbul olunmuşdur.

Sülh, barış və əməkdaşlığın bərpa olunmasında, qələbədən sonra əldə edilən razılığa əsasən Zəngəzur dəhlizi məsələsi mühüm strateji əhəmiyyət kəsb edir.

Burada toxunulan əsas məsələ Naxçıvan Muxtar Respublikasını digər ərazilərlə birləşdirəcək Zəngəzur dəhlizinin açılmasıdır ki, bu da Naxçıvan dəmir yolu əlaqəsinin bərpası üçün şərait yaradır. Bu bir tərəfdən dəhlizin qitələrarası əhəmiyyətini, Çindən Qərbə doğru yeni nəqliyyat yolunun açılmasını asanlaşdırır, digər tərəfdən Qərb-Şərq dəhlizinin inteqrasiya edilməsi üçün Zəngəzur dəhlizi Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu kimi çıxış etmək potensialına malik olur.

Çox hörmətli Prezidentimiz İ.Əliyev cənablarının qeyd etdiyi kimi, İran üzərindən dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırdır.

Hələ XX əsrin 70-80-ci illərində Azərbaycan aqrar ölkədən kifayət qədər inkişaf etmiş aqrar sənaye ölkəsinə çevrilmişdir ki, bu da ölkədə güclü maddi-texniki baza yaradılmasına. O illərdə ÜDM-45-47%, əsas fondların 30-35%-i aqrar bölmənin payına düşürdü. Ölkəmiz həmin illərdə pambıq, tütün, konyak, şərab, meyvə -tərəvəz məhsulları ixrac edən xammal ölkəsi idi.

Müstəqillik əldə etdikdən sonra ümumi məhsul istehsalı sürətlə aşağı düşməyə başladı. Aqrar sahədə digər sahələr kimi tənəzzülə məruz qaldı. Həmin dövrlərdə ölkəmiz ərzaq məhsulları ixrac edən ölkədən idxal edən ölkəyə çevrildi. Uzun müddət formalaşmış dövlətlər arası istehsal- iqtisadi və elmi – texniki əlaqələr pozulmuşdur; maddi-texniki baza zəifləyirdi, kənd təsərrüfatı məhsullarının istehsalının azalmasına, ərzaq probleminə, işsizliyin artmasına səbəb olurdu. Bank sistemində baş verən böhranlar sahənin maliyyələşməsində çətinliklər törədirdi.

Müstəqilliyini əldə etmiş ölkəmiz milli mentalitetinə və maraqlara uyğun dəyişikliklər apardığı əsas məqsəd kimi ön plana çəkdi. Ümummilli liderimiz H. Əliyev cənablarının 1992-93-cü illərdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə ölkə iqtisadiyyatını böhrandan çıxarmağın yeganə yolunun iqtisadi sahədə islahatların həyata keçirilməsinin vacibliyini qeyd etmişdi. Həmin illərdə ilk dəfə olaraq Culfa rayonunda aqrar islahatlar aparılmasına dair qərar verdi. Bu təcrübə sonralar ölkədə həyata keçirilən islahatlar üçün normativ hüquqi baza qolunu oynadı. Aqrar islahatların həyata keçirilməsi məqsədi ilə, dünya təcrübəsinə əsaslanaraq 1994-cü ildə Çinin, İsrailin, Rusiyanın, Qırğızıstanın bu sahədəki təcrübəsindən yararlanmaq məqsədi ilə "Aqrar islahatların aparılması təcrübəsinə" dair beynəlxalq konfrans keçirilmişdir. Sonralar "Aqrar islahatın gedişi", "Respublikada aqrar islahatların aparılması vəziyyəti", "Torpaq islahatı haqqında" qanun layihəsi və ölkədə iqtisadi islahatların aparılmasına dair islahatlarda məsələlər müzakirə olunmuşdur. H. Əliyev cənabları yaxşı bilirdi ki, aqrar sahədə islahatlar elə aparılmalıdır ki, ölkədə ərzaq təhlükəsizliyi təmin olunsun, işsizliyə son qoyulsun, ölkə iqtisadiyyatı inkişaf etsin. Aqrar sahəni inkişaf etdirmək üçün beynəlxalq təcrübəyə üstünlük verirdi. Onun 1998-ci ildə Yaponiyaya ilk rəsmi səfəri zamanı əldə olunmuş razılığa görə Yapon hökumətinin qrantına görə yüzlərlə adda kənd təsərrüfatı texnikası alınaraq fermerlərə verilmişdir ki, bu da sahənin texniki bazasının möhkəmlənməsinə səbəb olmuşdur.

BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO) hesab edirdi ki, ayrı-ayrı ölkələrdə görülən profilaktik tədbirlər pandemiyanın ərzaq təhlükəsizliyi və insanların sosial-rifahına səbəb olan problemləri qabaqcadan görüb və həll edəcəklər. FAO dünya ölkələrinin həssas əhali qruplarının pandemiya dövründə ərzaqlara olan tələbatlarının ödənilməsinə, qlobal ərzaq ticarətini dəstəkləməyə, sosial müdafiə proqramlarını fəallaşdırmağa və fermerlərin imkanlarını dəstəkləməyə çağırmışdır.

Məşhur amerikan iqtisadçısı, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Cozef E. Stiqlits özünün "Qloballaşma və onun doğurduğu narazılıqlar" adlı əsərində qloballaşmanın inkişaf etməkdə olan ölkələrə mənfi təsirini inandırıcı şəkildə və çoxlu faktlarla göstərmişdir.

Rusiya və Çin eyni iqtisadi sistemdə yaşamalarına baxmayaraq, Çində XX əsrin sonlarından başlayaraq iqtisadiyyatın inkişaf tempi Rusiyadan əhəmiyyətli dərəcədə yüksək olmuşdur. Səbəb ikidir. Birincisi, sosializmin sovet modeli iqtisadiyyatın səmərəliliyini təmin edə bilmədiyi halda, sosializm qurmağın Çin modeli bazar iqtisadiyyatı sistemini rədd etmədiyindən, əksinə onun üstünlüklərindən sosializm qrumaqda istifadə etdiyindən daha mütərəqqidir.

Çin Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının və digərlərinin tövsiyyələrəinə çox da əhəmiyyət verməmiş, öz daxili inkişaflarından maksimum yararlanmış, insan amilinə üstünlük vermişdir ki, nəticədə iqtisadiyyatda ciddi irəliləmələr olmuşdur.

Çində aqrar sahə çox sürətlə inkişaf edir ki, bu da ərzaq probleminin həlli üçün çox vacibdir. Ərzaq və istehlak mallarının idxalından asılılığın güclənməsi, ölkə iqtisadiyyatına güclü təhlükə yaradır, daxili bazarın xarici firmalar və şirkətlər tərəfindən idarə olunması üçün şərait yaradır.

1993-2005-ci illər aqrar islahatların tənzimlənməsi məqsədi ilə 50-yə yaxın qanun, qərar, sərəncam və digər hüquqi sənədlər qəbul edildi.

Respublikanın başqa sahələrində olduğu kimi, Naxçıvanda da aparılan islahatlar aqrar sahədə bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafı üçün imkanlar açılıbdır. Torpaq islahatı

nəticəsində 2000-ci ildə 72 min 578 ailəyə 58 min 372 hektar torpaq sahəsi verilməsi başa çatıb. Sonralar bol məhsul istehsalının əsası qoyulmuşdur. Naxçıvanda əhalinin əsas hissəsi əkinçiliklə məşğul olur. Muxtar Respublikanın Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə 2021-ci ilin məhsulu üçün 64 min 259 hektar sahədə əkin aparılıbdır. Cari ildə 9 ay ərzində Muxtar Respublikada 11 min 44 ton dən üçün qarğıdalı, 105 min 807 ton dənli və dənli-paxlalı, 77 min 470,1 ton tərəvəz, 10 min 158,4 ton üzüm, 395 min ton günəbaxan, 41 min 299,2 ton meyvə, 33 min 615 ton bostan məhsulları, 54 min 689 ton kartof, istehsal olunubdur, digər məhsul növləri də yüksək sürətlə inkişaf edir.

Su təminatının yaxşılaşdırılması kənd təsərrüfatının inkişafı ilə yanaşı torpaq ehtiyatlarının qorunmasına da şərait yaradır. Naxçıvan MR-in Ali Məclisinin sədrinin 2020-ci il 27 noyabr tarixli sərəncamı ilə «2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatlı torpaqlarının münbitliyinin artırılmasına dair» Planına uyğun işlər davam edir. Burada irriqasiya, melorasiya tədbirləri görülür.

Qapalı suvarma şəbəkələri qurulur – bütün bunlar ərzaq təhlükəsizliyinin və məşğulluğun təmin olunmasına şərait yaradır. Babəkdə, Culfada, Kəngərlidə, Şahbuzda qapalı suvarma sistemləri həyata keçirilir. 64,3 hektar sahədə meyvə bağları salınıb, yeni və ənənəvi sortlardan ibarət bağların salınması davam edir. Heyvandarlıq, 100 minədək arı ailəsi var. Bunun üçün nektari bitki növlərinin əkilməsi arıcılığın inkişafına səbəb olur.

«Arıcılıq məhsulu – bal festivalı»nın və satış yarmarkasının keçirilməsi bu sahədə sahibkarlığın inkişafına stimul olur.

Fermerlərə lizinq yolu ilə müasir kənd təsərrüfatı texnikaları verilir. 2019-cu ildə Şərur Sənaye Məhəlləsi yaradılıb, bütün bunlar sahibkarlığın inkişafına təkan verir.

Aqrar sahədə ilk növbədə torpaq islahatı və əmlakın özəlləşdirilməsi məsələsi ön plana keçdi, aqrar islahat nəticəsində təsərrüfat subyektlərinin borcu silindi, idarəetmədə struktur dəyişikliyi baş verdi. Bu dövrlərdə sahibkarlığın inkişafına böyük kömək edildi, kənd təsərrüfatı məhsul istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergilərdən müəyyən müddətə azad edildi, bu güzəştlər 2019-cu ilə kimi uzadıldı. Beləliklə, ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində əldə olunan nəticələrin ölkə iqtisadiyyatına verdiyi töhvələrin, bazar iqtisadiyyatının möhkəmlənməsinə, mülkiyyətçilərin yaranmasına, sahibkarlığın inkişafına təkan verdiyini görürük. Ölkədə aparılan iqtisadi islahatın nəticəsidir ki:

- Yeni iqtisadi münasibətlərin formalaşması üçün hüquqi baza yaranmışdır.
- Aqrar sahədə sahibkarlığın inkişafı üçün torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilmişdir.
- Güzəştli kreditlərin verilməsi sahibkarlar üçün şərait yaratmışdır.
- Ərzaq məhsullarının istehsalının artırılması, idxaldan asılılığın aradan qaldırılmasına xidmət edir.
- Gübrələrin, toxumların, cins heyvanların, yanacağın dövlət büdcəsi vasitəsi ilə güzəştli verilməsi mexanizmi yaranmışdır.
- Sahibkarlar üçün biznes mühiti yaratmaq məqsədi ilə xarici ölkələrdə, kurslarda, təlimlərdə iştirak etmiş, yeni vərdişlərə yiyələnmişlər.

2020-ci ilin sentyabrında ölkəmiz öz tarixinin ən yadda qalan və şanlı dövrünü yaşadı. Torpaqlarımızın 30%-ni işğal edən mənfur qonşumuz və onun havadarlarının 30 il ərzində işğal altında qalan torpaqlarımızı, çox hörmətli Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev cənablarının, müzəffər ordumuzun canı, qanı bahasına 44 gün ərzində azad etdilər. Azad olunan ərazilərdə yeraltı, yerüstü sərvətlərimiz düşmən tərəfindən talan edilmiş, tarixi abidələrimiz, milli – mənəvi dəyərlərimiz məhv olmuşdur. Bu ərazilərdə zəngin su ehtiyatlarının olması, ölkənin sənayesi və kənd təsərrüfatı üçün çoz zəruridir. Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad olunması, ölkə ərazisinin 75 min hektar yeni torpaq sahələrinin suvarılmasını təmin edir. Suqovuşanın azad olunması ölkənin çatışmayan su ehtiyatının təminatı deməkdir. Odur ki, azad olunan ərazilərin bərpa olunması – meliorasiya, irriqasiya sistemləri işləri həyata keçirilir, bu da ölkədə aqrar sahənin inkişafına, ərzaq təhlükəsizliyinin təminatına təkan verəcəkdir.

Rəsmi statistik göstəricilərdə aqrar sahədə məşğulluq səviyyəsinin yüksək, işsizlik səviyyəsinin aşağı olmasına baxmayaraq, əksər iş yerlərində əmək haqları aşağıdır və iş yerləri daha çox mövsümü xarakter daşıyır. Aqrar sahədə çalışanlar təqribən ümumi çalışanların 40%-nə yaxındır, muzdla işləyən işçi qüvvəsinin isə nisbəti isə aşağı səviyyədə, 8% -dən azdır.

İdxal asılılığının zəiflədilməsində əsas amil yerli müəssisələrə, aqrar sahəyə və digər mühüm sahələrə dövlətin maliyyə yardımı gömrük güzəştləri sistemi tətbiq etmək, buğdanın ölkəyə gətirilməsində, həmçinin neft və neft məhsullarının əlvan və nadir metalların ixracında dövlətin inhisarını gücləndirmək zəruridir. Xarici ticarətlə bağlı qanunvericilik, normativ – hüquqi bazarın qaydaya salınması və ona daimi nəzarətin gücləndirilməsi vacibdir.

Kənd təsərrüfat istehsalçılarının müxtəlif vergilərdən azad olunması, aqrar sahədə iqtisadi inkişaf üçün münbit şərait yaradılmışdır.

Həm özəl, həm də dövlət sektorunda kənd təsərrüfatı məhsullarının artımı müşahidə edilir. Bölgələrdə istehsal sahələrinin inkişafında uyğun olaraq, həm fermer təsərrüfatlarında, həm də digər təsərrüfatçılıq formaları fəaliyyət göstərir, əsasən kənd təsərrüfatı məhsullarının istehsalı, amalı və satışı həyata keçirilir. Əlverişli iqlim şəraiti və coğrafi mövqe iqtisadi rayonlarda bitkiçilik və heyvandarlıq məhsullarının artımına səbəb olmuşdur.

Pandemiyanın Azərbaycan iqtisadiyyatına mənfi təsiri də digər ölkələr kimi bir çox sahələrə təsir etmişdir. 2019-cu ilin dekabrından başlayaraq, COVİD 19 pandemiyası ölkə iqtisadiyyatından yan keçmədi. 2020-ci ilin noyabrın 8-də ölkəmiz qələbəni bayram etdi, bu il Azərbaycan tarixində Zəfər ili kimi yaddaşlarda qaldı. İşğal olunmuş torpaqların bərpası istiqamətində müxtəlif sərəncamlar, dövlət proqramları həyata keçirilir. Böyük Qayıdış proqramı icrası istiqamətində ardıcıl işlər aparılır.

2022-ci ilin birinci rübünün yekunlarına dair hörmətli Prezidentimiz İ. Əliyev cənablarının qeyd etdiyi kimi, ölkəmizin taxıl məhsullarına tələbatına - idxalda asılılığın minimuma endirilməsi üçün 50 min hektar sahədə taxıl yetişdirilməsi nəzərdə tutulmuşdur. Bu da ölkənin taxıla tələbatını 70-75% -ni əhatə edir. Bu işlərin həyata keçirilməsi ölkənin ərzaq təhlükəsizliyinin təminatının əsas prioriteti olacaqdır. Bu sahədə xeyli işlər həyata keçirilir. Ölkəmizin son dövrlərdə qazandığı bütün uğurlar H.Əliyev cənablarının siyasətinin davamçısı, möhtərəm prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları ölkənin ərzaq təhlükəsizliyi üzrə tam müstəqilliyə nail olunmasını ən mühüm məsələlərdən biri kimi qiymətləndirir.

Onun da qeyd etdiyi kimi, "hazırda qarşıda duran ən başlıca məqsəd daxili imkanlar hesabına kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminata dayanıqlı inkişafa nail olmaqla Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaqdır".

Ədəbiyyat

1. ФАО. "Вспышка корона вирусной инфекции COVİD-19". http:/www.fao.org/2019-ncov/ru
2. N. Məmmədov, M.Bərxudarov. İqtisadi təhlükəsizlik, Bakı 2006. s 283
3. Meybullayev M.X, S.M.Mikayılova. İqtisadi təhlükəsizlik nəzəriyyəsi . Bakı, 2015

Резюме

Микаилова С.М.

Роль аграрного сектора в экономическом развитии страны

В статье затрагиваются проблемы современного мира. Определяются направления ликвидации зависимости республики от импорта и обеспечения продовольственной безопасности. Освобождение сельхозпроизводителей от различных налогов создало благоприятные условия для экономического развития аграрного сектора. Однако, несмотря на высокий уровень безработицы в аграрном секторе, отмечается, что большинство рабочих мест носит скорее сезонный характер. Государственные программы, приказы и законы, реализуемые государством в этой сфере, затрагивают вопросы доведения ее до уровня развитых стран мира. Наша страна играет важную роль в развитии нефтяной отрасли и обеспечении энергетической безопасности, но отмечается, что особое значение в устранении зависимости от импорта имеет аграрный сектор, являющийся одним из важных направлений ненефтяного сектора.

Ключевые слова: *аграрный сектор, климатические условия, продовольственная безопасность, зависимость от импорта, финансовая помощь.*

Summary

Mikayilova S.M.

The Role of the Agricultural Sector in the Economic Development of the Country

The article touches on the problems of the modern world. The directions of eliminating the republic's dependence on imports and ensuring food security are being determined. Exemption of agricultural producers from various taxes has created favorable conditions for economic development in the agricultural sector. However, despite the high level of unemployment in the agricultural sector, it is noted that most jobs are more seasonal. State programs, orders and laws implemented by the state in this area touch upon the issues of bringing it to the level of developed countries of the world. Our country plays an important role in the development of the oil industry and ensuring energy security, but it is noted that the agricultural sector, which is one of the important areas of the non-oil sector, is of particular importance in eliminating dependence on imports.

Key words: *agrarian sector, climatic conditions, food security, dependence on imports, financial assistance*

AZƏRBAYCANDA TƏHSİL SİSTEMİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ İLƏ ƏLAQƏDAR DƏYƏRLƏNDİRMƏLƏR

Mirzəbəyova Jalə Saməddin qızı
İqtisadiyyat İnstitutu
jale.2003@mail.ru

Xülasə: *Müstəqillik illərində Azərbaycan Respublikasında milli təhsil sisteminin mövcud vəziyyəti, təhsil sisteminin perspektivl əri ilə əlaqədar ümumi dəyərləndirmələr aparılmışdır. Təhsil sisteminin inkişaf etdirilməsi üçün iki əsas istiqamət xüsusi olaraq vurğulanır. Birinci istiqamətə Azərbaycan Respublikasında ali təhsil müəssisələrinin dünyada nüfuzunun kifayət qədər yüksəlməsinə nail olmaq lazımdır. İkinci istiqamət ölkədə rəqəmsal mədəniyyətin inkişafında təhsil müəssisələrinin rolu xeyli artırılmalıdır.*

Açar sözlər: *təhsil, təhsil sistemi, rəqəmsal mədəniyyət, strategiya, təhsilin iqtisadiyyatı*

Müasir dövrdə iqtisadiyyatda baş verən proseslər özünün dinamizmi və həddindən artıq mürəkkəbliyi ilə diqqəti çəkir [3, səh.13]. Məhz bu baxımdan mövcud şəraitdə problemlərin vaxtında və düzgün dərk olunaraq həll edilməsi ilə təhsil sisteminin dövrün tələblərinə uyğun təşkil edilməsi arasında sıx bağlılıq vardır.

Təhsil anlayışının başlıca məzmunu insan qabiliyyətləri və davranışlarının təkmilləşdirilməsi prosesini əhatə edir, mövcud problemlərin həlli isə inkişaf səviyyəsindən asılıdır.

Müvafiq olaraq qeyd etmək lazımdır ki, dünyanın bütün ölkələrində təhsilin əhəmiyyətinə və təhsilə olan maraq günbəgün artmaqdadır, təhsilin inkişaf səviyyəsi və əhalinin müxtəlif təbəqələrinin təhsil almaq imkanları eyni səviyyədə deyildir. [1, səh. 38]. Asanlıqla demək mümkündür ki, müasir dövrün insanı ömrü boyu öyrənir, o, fəal surətdə təhsil sahəsində göstərilən xidmətlərin istehlakçısı kimi çıxış edir. Dövrün tələblərinə adekvat olaraq iqtisad elmində yeni istiqamət, təhsilin iqtisadiyyatı formalaşmışdır. Təhsilin iqtisadiyyatı çərçivəsində təhsil idarələrinin resurs təminatlarının təkmilləşdirilməsi yolları, sözügedən sferaya kapital qoyuluşlarının səmərəliliyinin qiymətləndirilməsi kontekstində, müasir dövrdə ali təhsil sferasında baş verən proseslərin araşdırılması həyata keçirilir.

Öncə Azərbaycan Respublikasında təhsilə çəkilən xərclərlə əlaqədar mövcud vəziyyətin dəyərləndirilməsi yerinə düşərdi. Azərbaycan Respublikasında təhsilə çəkilən xərclər 2020-ci ildə ÜDM-in 2,5%-ni təşkil edir. Məktəbə qədər təhsillə uşaqların təmin olunma əmsalı 40%, ibtidai təhsillə uşaqların 100%, orta təhsillə uşaqların 94%-i, ali təhsillə təmin olunma səviyyəsi 28%, 15 yaşında və 15 yaşından yuxarı əhalinin savadlılıq səviyyəsi 99. 8% olmuşdur [https://hdr.undp.org/en/countries/profiles/AZE]

Azərbaycan Respublikasında təhsil xidmətləri göstərən müəssisələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Məktəbəqədər təhsil (uşaq bağçaları, məşğələ mərkəzləri, hazırlıq qrupları);
2) Orta təhsil (məktəblər, gimnaziyalar, litseylər);
3) Ali təhsil (institutlar, universitetlər, akademiyalar);
4) Ali məktəbdən sonra peşəkar təhsil.

Cədvəl

Müstəqillik illərində Azərbaycan Respublikasında təhsil müəssisələrinin dinamikası

	İllər			
	1990	2001	2011	2020
Məktəbəqər təhsil müəssisələrin sayı	2185	1794	1666	1825
Əyani ümumi təhsil müəsisələrin sayı	4268	4538	4516	4431
Qiyabi ümumi təhsil müəssisələrin sayı	88	13	7	5
Peşə təhsili müəssisələrinin sayı	176	109	108	103
Orta ixtisas təhsil müəssisələrinin sayı	78	69	59	61
Ali təhsil müəssisələrin sayı	17	44	51	52

Mənbə: *https://www.stat.gov.az/source/education/*

Ölkədə təhsil alanların əksəriyyəti orta ümumtəhsil məktəblərində təhsil alırlar. Qeyd edilənlər təhsilin bütün əhalini əhatə etməsi konsepsiyasının reallaşdırılması ilə bağlıdır.

Azərbaycanda təhsilin bütün pillələri üzrə inkişaf dinamikası son 3 on illik üzrə aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Göründüyü kimi, Azərbaycan Respublikasında təhsil sisteminin kəmiyyət və keyfiyyət məzmununun inkişaf etdirilməsi diqqət mərkəzində olan məsələlərdəndir. Məhz kəmiyyət və keyfiyyət göstəriciləri əsasında milli təhsil sistemində baş verən inkişaf təmayülləri haqqında dəyərləndirmələr etmək olar.

Müstəqillik illərində təhsil müəssisələrinin kəmiyyət məzmununun bərpası və inkişafına xüsusi diqqət yetirilmiş, kəmiyyət göstəricilərində diqqəti cəlb edən artım ali və orta təhsil müəssisələrinin kəmiyyətində baş vermişdir.

Nəzərdən keçirilən rəqəmlər kifayət qədər qənaətbəxş təəssürat yaratsa da, milli təhsil sisteminin gələcəyi və inkişaf imkanları ilə əlaqədar bəzi dəyərləndirmələrin aparılmasına ehtiyac vardır. Müvafiq olaraq xarici ölkələrdə təhsil sisteminin inkişaf perspektivi ilə əlaqədar bəzi məsələlərə diqqət yetirək.

Belə bir zəmində ali təhsil müəssisələrin inkişafı ilə xarici təcrübənin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Hal-hazırda dünyanın aparıcı ölkələrində dünya səviyyəli ali məktəblərə sahib olmaq məsələsi gündəmdədir. Müvafiq olaraq sözügedən hədəfə nail olmaq üçün çox saylı modellər formalaşmışdır. Həmin modellər kimi aşağıdakıları göstərmək olar.

Birinci model kimi genişlənmə (breadth-strategy) strategiyası göstərilə bilər. Bu model keyfiyyətli ali təhsildən dünya səviyyəli universitetlərə keçid adlanır. Əhalinin yüksək keyfiyyətli ali təhsil müəssisələrində təhsil alması imkanları genişləndirilir. Ali məktəblərdə elmi araşdırma potensialı tədricən artırılır. Belə bir strategiya adətən Qərb ölkələrində tətbiq olunur.

İkinci strategiya modeli "dərininə" nüfuz etmə (depth-strategy) modeli adlandırılır. Bu modelin tətbiqi dövlət dəstəyi ilə az saylı universitetlərdə mühüm vəzifələrin həll edilməsi hədəf kimi seçilir. Model adətən XX əsrin ikinci yarısında Cənubi Şərqi Asiya ölkələrində, Pekin Universitetində, Tokio Universitetində, Tayvan Universitetində, Seul Universitetində tətbiq olunmuşdur. İndiki dövrdə bu model Səudiyyə Ərəbistanı, Braziliyada tətbiq olunur.

Üçüncü model yuxarıda göstərilən iki modelin kombinə edilmiş halda tətbiqi ilə diqqəti cəlb edir (breadth-depth-strategy) . Belə bir model ABŞ, Çin və Qərb ölkələrində tətbiq edilir [Сацик В.И, 2014. № 1, с. 134-161]. Hesab edirik ki, Azərbaycan Respublikasında birinci modelinin adaptasiya olunması faydalı olardı.

Yeni iqtisadiyyatın quruculuğu kontekstində ali təhsilin, o cümlədən təhsil sisteminin artan rolu rəqəmsallaşmasını gündəmə gətirir. Rəqəmsal mədəniyyətin inkişaf etdirilməsində, informasiya texnologiyaların mənimsənilməsində təhsil sisteminin qarşısında mühüm vəzifələrin həll edilməsi məsələsi dayanır. Mütəxəssislər hesab edirlər ki, rəqəmsal savadsızlığın ləğv edilməsində universitetlər, ali məktəblər o cümlədən təhsil sistemi böyük rol oynamalıdır. Məhz bu baxımdan Azərbaycan Respublikasında milli təhsil sisteminin rəqəmsallaşma mədəniyyətinin inkişafındakı roluna xüsusi yer verilməlidir [2, səh.26].

Bu gün təhsil sistemi ölkənin iqtisadi inkişafa nail olmasında sistem yaradan element kimi çıxış edir. Bu səbəbdən də ölkə iqtisadiyyatının yüksək ixtisaslı, peşəkar kadrlarla təmin etmədən yüksək göstəricilərin əldə edilməsi qeyri mümkündür. Azərbaycan Respublikasında təhsil sistemi, xüsusi ilə ali təhsil sistemi kifayət qədər yüksək göstəricilər əldə etmişdir. Milli təhsil sisteminin gələcəyin tələblərinə cavab verməsi üçün iki istiqamətdə məqsədyönlü şəkildə tədbirlər həyata keçirilməlidir. Azərbaycan Respublikasının ali təhsil məktəblərinin dünya səviyyəli təhsil müəssisələrinə çevrilməsi istiqamətində işlər görülməlidir. İkinci mühüm istiqamət isə təhsil müəssisələrinin rəqəmsallaşması, rəqəmsal mədəniyyətin ölkədə inkişaf etdirilməsi üçün təhsil müəssisələri xüsusi rol oynamalıdırlar.

Ədəbiyyat

1. Kərimli, A. Azərbaycanda təhsilin keyfiyyətinin idarə olunması problemləri və onların həlli istiqamətləri // Azərbaycan məktəbi | Azerbaijan Journal of Educational Studies | 2021. №2. –s.32-42.

2. Məmmədova M.H., Cəbrayılova Z.Q. Təhsil sistemində informasiya texnologiyaları ixtisasları üzrə mütəxəssislərin hazirlığı //İnformasiya cəmiyyəti problemləri, №1, 2010. – s.23-31.

3. Ümumi təhsil sistemində əsas hədəflər və vəzifələr. «Azərbaycan məktəbi» .-2012 .-№ 4 .-S. 10 - 20 . https://www.elibrary.az/docs/jurnal/jrn2012_497.pdf.

Резюме
Мирзабекова Ж.С.
Оценка современного состояния системы образования в Азербайджане и перспективы ее развития

В статье исследована национальная система образования в Азербайджанской Республике за годы независимости и даны общие оценки перспектив системы образования. Особо выделены два основных направления развития системы образования. В первом направлении необходимо добиться достаточного повышения авторитета высших учебных заведений Азербайджанской Республики в мире. По второму направлению следует значительно повысить роль образовательных учреждений в развитии цифровой культуры в стране.

Ключевые слова: *образование, система образования, цифровая культура, стратегия, экономика образования*

Summary
Mirzabayova J.S.
Assessments Regarding the Current State of Education System in Azerbaijan and Development Prospects

In the article investigated national education system in the Republic of Azerbaijan during the years of independence and general evaluations were made regarding the perspectives of the education system. Two main directions for the development of the education system are specially emphasized. In the first direction, it is necessary to achieve a sufficient increase in the reputation of higher education institutions in the Republic of Azerbaijan in the world. In the second direction, the role of educational institutions in the development of digital culture in the country should be significantly increased.

Key words: *education, education system, digital culture, strategy, economics of education*

FİSKAL SİYASƏTİN İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN ƏSAS ASPEKTLƏRİ

Mustafayev Rəşad Arzuman oğlu
Azərbaycan Kooperasiya Universiteti
resad_320_m@mail.ru

Xülasə*: Fiskal siyasət iqtisadi prosesləri tənzimləməyə yönəldilməklə, makroiqtisadiyyatda dövlət büdcəsinin formalaşdırılması, istehsalın artımı, məşğulluğun yüksəldilməsi, aşağı inflyasiya kimi məqsədlərin reallaşdırlmasını hədəfləyir. Fiskal siyasət həmçinin, dövlət xərclərini tənzimləməyə, dövlət büdcəsinin vəziyyətini yaxşılaşdırmağa, iqtisadiyyatı sabitləşdirməyə və sosial problemləri həll etməyə yönəldilir. Bütün bunlar, nəticə etibarilə iqtisadiyyatın inkişafına xidmət etməklə dayanıqlı maliyyə sisteminin formalaşmasının əsas şərti kimi özünü göstərir. Ona görə fiskal siyasətin səmərəli şəkildə həyata keçirilməsi üçün dövlətin iqtisadiyyata təsiri tədbirlərinin mürəkkəbliyini və qarşılıqlı əlaqəsini nəzərə almaq vacibdir.*

Açar sözlər: *fiskal siyasət, tənzimləmə, büdcə, inflyasiya, maliyyə, pul-kredit*

Fiskal siyasət iqtisadi prosesləri tənzimləməyə yönəldilməklə, onlara təsirin istiqamətlərini və ya bu təsirin nəticələrini müəyyənləşdirməyə imkan verir. İqtisadiyyata təsir sferasından asılı olaraq dövlət fiskal siyasətin həyata keçirilməsinin üsulları, alətləri və növlərini fərqləndirir. Makroiqtisadiyyatda fiskal siyasət dövlət büdcəsinin formalaşdırılması və istehsalın artımı, məşğulluğun yüksəldilməsi, aşağı inflyasiya kimi qarşıya qoyulan mühüm məqsədlərə nail olunmanı hədəfləyir. Fiskal siyasət həmçinin, dövlət xərcləri və vergilər vasitəsilə iqtisadiyyatın tənzimlənməsini əhatə edir. Ümumi Daxili Məhsul istehsalında iqtisadi artımın təmin edilməsinə yönəlmiş dövlət xərclərini, vergitutmanı və dövlət büdcəsinin vəziyyətini dəyişdirmək üçün görülən tədbirlər də fiskal siyasət tədbirlərinin tərkib hissəsi olaraq çıxış edir [2, səh. 27].

Qeyd edilənlər göstərir ki, fiskal siyasət müxtəlif istiqamətli tədbirlər toplusudur və ilk növbədə dövlət xərclərini tənzimləməyə, dövlət büdcəsinin vəziyyətini yaxşılaşdırmağa, qarşıya qoyulmuş digər məqsədlərə nail olmaq üçün iqtisadiyyatın sabitləşdirilməsinə və sosial problemləri həll etməyə yönəldilir. Fiskal siyasətin əsas məqsədlərinə iqtisadi tsikldə dalğalanmaların yumşaldılması, iqtisadi artım templərinin dayanıqlığının təmin edilməsi, məşğulluğun yüksək səviyyəsinə nail olunması, inflyasiya səviyyəsinin azaldılması daxildir.

Araşdırmalar göstərir ki, fiskal siyasət vasitəsilə dövlət, milli iqtisadiyyata təsir göstərir və makroiqtisadi məqsədlərə nail olmağa çalışır. Əslində, fiskal siyasətin əsas vəzifələrindən biri məhz makroiqtisadi tarazlığın təmin olunmasıdır. Müasir fiskal siyasətin əsas istiqamətləri maliyyə resurslarından səmərəli istifadə, maliyyələşdirmə və tənzimləmə üsulları, eləcə də əsas xəzinənin doldurulması mənbələri ilə müəyyən edilir. Təcrübədə iqtisadi tənzimləmənin birbaşa və dolayı maliyyə üsulları fərqləndirilir. Birbaşa üsullara büdcə tənzimlənməsi üsulları daxildir. Dövlət büdcəsi aşağıdakı istiqamətləri maliyyələşdirir: geniş təkrar istehsal xərcləri; infrastrukturun inkişafı, elmi tədqiqatlar və s.; struktur siyasətinin aparılması; hərbi-sənaye kompleksinin saxlanması və s. Dolayı üsulların köməyi ilə dövlət maliyyələşmə proseslərinə təsir göstərir.

Büdcə tənzimləməsində istifadə olunan üsulları aşağıdakı kimi qruplaşdırmaq olar. Birincisi, maliyyə və pul-kredit tənzimlənməsinin dolayı üsulları, o cümlədən vergi siyasəti - vergi dərəcələrinin müəyyən edilməsi və vergi güzəştlərinin verilməsi, amortizasiya siyasəti (amortizasiya dərəcəsinin müəyyən edilməsi, amortizasiya xərclərinin indeksləşdirilməsi və s.), kredit siyasəti (uçot dərəcəsinin tənzimlənməsi, maliyyə institutlarının saxlanması tələb olunan minimum ehtiyatların müəyyən edilməs və s., gömrük siyasəti - ixrac-idxal gömrük rüsumlarının müəyyən edilməsi. İkincisi, birbaşa dövlət maliyyə tənzimlənməsi - büdcə investisiyalarının bölgüsü, subsidiyalar və s. [1, səh. 63]. Üçüncüsü, istehsal fəaliyyətinin tənzimlənməsi üsulları - məhsulların tədarükü və müxtəlif fəaliyyət sahələrində işlərin görülməsi üçün sifarişlər. Dördüncüsü, dövlət sahibkarlığının inkişafı - dövlətə məxsus pay ilə qarışıq mülkiyyətdə olan müəssisələrin idarə edilməsində iştirak. Qeyd etmək lazımdır ki, göstərilən vasitələrdən istifadə etməklə fiskal siyasətin səmərəli şəkildə həyata keçirilməsi üçün dövlətin iqtisadiyyata təsiri tədbirlərinin mürəkkəbliyini və qarşılıqlı əlaqəsini nəzərə almaq vacibdir. Bu baxımdan həmin tədbirlərin dövlətin sosial-iqtisadi strategiyasında əks olunan vahid sənədlər paketində formalaşdırılması və ümumiləşdirilməsi əsas məsələlərdən biri kimi çıxış edir.

Araşdırmalara əsaslanaraq demək olar ki, təcrübədə iqtisadi və inzibati tənzimləmə üsulları mövcuddur. İqtisadi tənzimləmə üsulları aşağıdakı istiqamətləri ehtiva edir: pul-kredit siyasəti, vergi siyasəti, dövlət xərcləri, dövlət borcunun idarə edilməsi, xarici ticarət siyasət, ixrac axınlarının lisenziyalaşdırılması, gömrük dərəcələri, idxalı məhdudlaşdıran qeyri-tarif üsulları və s. [3, səh. 41]. Dövlət tənzimlənməsinin inzibati forması qanunvericiliklə bağlı təsir üsulları əhatə edir. İnzibati-tənzimləyici və inzibati nəzarət funksiyaları müasir iqtisadiyyatın ayrılmaz hissəsidir. Ümumiyyətlə, büdcə tənzimlənməsi həm hüquqi, həm də qeyri-hüquqi yolla həyata keçirilir. Hüquqi forma əsasən maddi resursları səfərbər etməyə, yaymağa və istifadə etməyə yönəldilir. Bu formanı həyata keçirmək üçün dövlət maliyyə və hüquqi aktlardan istifadə edir. Büdcənin tənzimlənməsi istiqamətlərinə daxildir: büdcə sistemi xərclərinin bölüşdürülməsi; sabit gəlirin təmin edilməsi; vergilərin bə vergi dərəcələrinin müəyyən edilməsi; maliyyə siyasətində büdcədən yardımların - qrant, subvensiya, subsidiya və s. ayrılması; büdcə krediti şəklində hökumətlərarası kreditləşmə; büdcə xərclərinin azaldılması.

Beynəlxalq təcrübə göstərir ki, fiskal siyasət əsasən iqtisadiyyatı sabitləşdirmək üçün istifadə olunur, lakin onun yeganə məqsədi iqtisadi sabitliklə ölçülmür. Hökumət eyni zamanda əhalinin əmtəə və xidmətlərə olan tələbatının təmin edilməsi və gəlirlərin yenidən bölüşdürülməsi kimi məsələləri həll etməyə çalışır. Göstərilənlər baxımından fiskal siyasətin tətbiqinin müsbət effekti o halda əldə edilə bilər ki, təkmilləşdirmə tədbirləri davamlı olsun və rasionallıq təmin edilsin. Bu isə öz növbəsində fiskal sistemdə iqtisadi və inzibati üsulların qarşılıqlı təsirini ehtiva edir.

Ədəbiyyat

1. Abasquluyev R. Maliyyə və kredit. Bakı “Qanun Nəşriyyatı”, 2012, 256 s.
2. Тарасов, И.Т., Исаев, А.А. Финансы и налоги: очерки теории и политики. Москва Статут (серия "Золотые страницы финансового права"), 2004. С.618
3. Соколова О.В. Финансы и кредит: Учебник. 2-е издание, переработанное и дополненное / Под ред. О.В. Соколовой. – М.: "Магистр", "ИНФРА-М", 2011. С. 463

Резюме

Мустафаев Р.А.

Основные аспекты влияния налоговой политики на экономическое развитие

Налогово-бюджетная политика направлена на реализацию таких целей, как формирование государственного бюджета в макроэкономике, рост производства, увеличение занятости, снижение инфляции путем сосредоточения внимания на регулировании экономических процессов. Фискальная политика также направлена на регулирование государственных расходов, улучшение

состояния государственного бюджета, стабилизацию экономики, решение социальных проблем. Все это, в итоге, служит развитию экономики как главному условию формирования устойчивой финансовой системы. Поэтому важно учитывать комплексность и взаимосвязь мер воздействия государства на экономику для эффективной реализации фискальной политики.

Ключевые слова: *фискальная политика, регулирование, бюджет, инфляция, финансы, денежный кредит*

Summary

Mustafayev R.A.

Impact of Fıscal Polıcy on Economıc Development Maın Aspects

Fiscal policy aims at the realization of goals such as formation of the state budget in macroeconomics, growth of production, increase of employment, and low inflation by focusing on the regulation of economic processes. Fiscal policy is also aimed at regulating public spending, improving the state of the state budget, stabilizing the economy, and solving social problems. All this, as a result, serves the development of the economy as the main condition for the formation of a stable financial system. Therefore, it is important to take into account the complexity and interrelation of measures of the state's influence on the economy for the effective implementation of fiscal policy.

Key words: *fiscal policy, regulation, budget, inflation, finance, monetary credit*

KƏND TƏSƏRRÜFATININ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Nəsibov Afiq Cavanşir oğlu
Azərbaycan Kooperasiya Universiteti
zumrud.nesibova87@gmail.com

Xülasə: *Kənd təsərrüfatı ölkənin iqtisadi inkişafında mühüm rol oynayır və ərzaq təhlükəsizliyi kimi aktual problemin həllinə töhfə verir. Odur ki, bu sahənin tənzimlənməsi zəruridir. Məqalədə kənd təsərrüfatının dövlət dəstəyinin əsas məqsədləri müəyyənləşdirilmiş, spesifik xüsusiyyətləri şərh edilmişdir. Dövlətin kənd təsərrüfatı sektoruna verdiyi dəstəyin əsas istiqamətləri tədqiq edilmişdir.*

Açar sözlər: *dövlət tənzimlənməsi, ərzaq, dövlət dəstəyi, istehsal, kənd təsərrüfatı*

Azərbaycanın kənd təsərrüfatı tarixən ölkənin inkişafı üçün əsas olub və bu gün istehsalın ən sabit və sürətlə inkişaf edən sahələrindən biri kimi seçilir. Belə inkişafın obyektiv şərtləri kənd təsərrüfatı istehsalında cəmlənmiş nəhəng əmək, maddi, bioloji və torpaq ehtiyatlarıdır. Kənd təsərrüfatı dövlətin ərzaq təhlükəsizliyinə zəmin yaradır, odur ki, bütün dünyada həmin sahə istehsalının tənzimlənməsinə böyük diqqət yetirilir. Kənd təsərrüfatı ölkəmizdə həmişə müxtəlif dərəcələrdə dövlət dəstəyi almışdır. Sənayenin inkişaf tempi mahiyyətcə bu dəstəyin mexanizmlərinin effektivliyindən asılıdır.

Kənd təsərrüfatı sahəsində dövlət dəstəyinin əsas məqsədləri aşağıdakılardır:

- kənd təsərrüfatı məhsullarının əsas növləri, eləcə də onun emalı məhsulları ilə əlaqədar idxalın sürətləndirilmiş şəkildə əvəzlənməsi;
- əhalinin rasional normalar səviyyəsində ərzaq məhsulları ilə təmin edilməsi;
- qida məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin artırılması;
- sahə məhsullarının bazarlarda rəqabət qabiliyyətinin artırılması;
- aqrar-sənaye kompleksi müəssisələrinin maliyyə dayanıqlığının artırılması;
- kənd yerlərinin davamlı inkişafı;
- torpaq və digər ehtiyatların qorunması, təkrar istehsalı və istifadəsinin səmərəliliyinin artırılması, habelə istehsalın ekoloji cəhətdən təmizliyinin yüksəldilməsi;
- aqrar-sənaye kompleksində biznesin yaradılması və inkişafı və s. [2, s.202]

Kənd təsərrüfatının spesifik xüsusiyyətləri onun dövlət tənzimlənməsini zəruri edir. Dövlət tənzimlənməsi dövlətin iqtisadiyyatın inkişafına təsir göstərdiyi iqtisadi vasitə və stimullar sistemidir. Kənd təsərrüfatında bazar münasibətləri iki sahədən ibarət olmalıdır. Birinci sfera özünütənzimləmə mexanizminə əsaslanır ki, bu mexanizmə aşağıdakılar daxildir:

- əmtəə istehsalçıları tərəfindən bazar şəraitindən asılı olaraq öz istehsal proqramının müstəqil müəyyən edilməsi;
- istehsal olunan məhsulların satışı üçün istənilən formaların, kanalların və bazarların sərbəst seçimi;

- əldə edilən gəlirin (vergilər və icbari ödənişlər ödənildikdən sonra) öz istədiyi kimi bölüşdürülməsi;

- investisiya layihələrinin maliyyələşdirilməsi mənbələrinin müstəqil müəyyən edilməsi.

Aqrar iqtisadiyyatın bazar münasibətlərinin ikinci sferasının əsasını dövlət tənzimləmə mexanizmləri, əmtəə istehsalçılarını səmərəli təsərrüfat fəaliyyətinə, resurslara qənaətə, sosial məsələlərin həllinə istiqamətləndirən mexanizmlər təşkil edir. Dövlətin təsirinə bazara alternativ kimi deyil, onun səmərəliliyini artırmaq, bazar qüvvələrinin yönəldilmiş hərəkətləri üçün əlverişli şərait yaratmaq, bazar mexanizminin özünün daxili ziddiyyətlərini yumşaltmaq vasitəsi kimi baxmaq lazımdır.

Kənd təsərrüfatının xüsusiyyətləri aqrar sahədə dövlətin aşağıdakı iqtisadi funksiyalarının məzmununu müəyyən edir:

- geniş təkrar istehsalın təmin edilməsi və əməyin məhsuldarlığının artırılması, istehsalın ölkədə optimal yerləşdirilməsi;

- regionlarda kənd təsərrüfatı müəssisələrinin səmərəli fəaliyyətini təmin edəcək iqtisadi mühitin yaradılması;

- sənaye məhsulları, xidmətlər və kənd təsərrüfatı məhsulları üçün qiymət paritetinin tənzimlənməsi;

- qiymətlərin müəyyən edilməsində qeyri-mütənasibliyin aradan qaldırılması, o cümlədən enerji daşıyıcıları üçün qiymət və tariflərin aşağı salınması;

- işsizliyin yaranmasının qarşısının alınması;

- gəlirlərin aqrar-sənaye kompleksinin sahələri arasında bölüşdürülməsi;

- əmtəə istehsalının təşkili və onların pul kütləsi ilə təmin edilməsi yolu ilə bazar proseslərinin tənzimlənməsi;

- şaxələndirilmiş iqtisadiyyatın inkişafına töhfə verən mülkiyyət hüquqlarının qorunması;

- istehsal vasitələrinin, onun texnologiyasının, təşkilinin və idarə edilməsinin təkmilləşdirilməsi.

Dövlətin kənd təsərrüfatının inkişafına təsiri birbaşa və dolayı üsullarla reallaşdırılır. Birbaşa təsir dövlətin istehsal prosesində bilavasitə iştirakı, dolayısı isə iqtisadi mexanizmlərin köməyi ilə istehsal prosesinə təsiridir.

Dövlət tərəfindən iqtisadiyyatın aqrar sektorunun tənzimlənməsinin birbaşa formalarına misal olaraq aşağıdakıları göstərmək olar: normativ-hüquqi aktların, qəbulu, habelə dövlət əmlakının idarə edilməsi, lisenziyalaşdırma, sanksiyaların tətbiqi. Bunun əksinə olaraq, kənd təsərrüfatı sektorunun dövlət tənzimlənməsinin dolayı üsulları sahibkarın seçim azadlığını məhdudlaşdırmır və aşağıdakıları əhatə edir: kənd təsərrüfatı bazarının inkişafına kömək etmək (sahənin inkişafı üçün dövlət proqramlarının maliyyələşdirilməsi, hazırlanması və tətbiqi, güzəştli vergiqoyma, qiymət, sığorta);

- kənd təsərrüfatı məhsullarının, xammalın və ərzaq məhsullarının ixracı və idxalı üçün gömrük rüsumları;

- investisiyaların cəlb edilməsi və elmi tədqiqatların dəstəklənməsi.

Dövlət tənzimlənməsi ən azı istehsalın minimum məqbul gəlirliliyini təmin edən səviyyədə səlahiyyətli orqanlar tərəfindən müəyyən edilmiş zəmanətli qiymətlərin istifadəsi əsasında reallaşdırılır.. Bu qiymətlərlə satış həcmi Azərbaycan Respublikası hökuməti tərəfindən müəyyən edilmiş kvotalardan asılıdır. Kvotaların həcmi kənd təsərrüfatı müəssisələrinin əmtəə məhsulunun orta hesabla 50%-dən çox olmamalıdır. Bu həddi keçərsə, əmtəə istehsalçılarının işini yaxşılaşdırmaq üçün bazar stimulları aradan qalxar.

Hazırda iqtisadiyyatın aqrar sektorunun inkişafının dövlət tənzimlənməsi kreditlər üzrə təyin olunmuş faiz dərəcələrinin subsidiyalaşdırılması, zəmanətli qiymət və tariflərin, vergi güzəştlərinin tənzimlənməsi yolu ilə reallaşdırılır [1, s.455]. Zəmanətli qiymətlərin iqtisadi mahiyyəti məhsul satışının çətin olduğu hallarda müəssisələrə dövlət dəstəyinin göstərilməsidir. Məhsulların, xammalın və ərzaq məhsullarının bazar (müqavilə) qiymətləri minimum səviyyədən aşağı düşdükdə və ya əmtəə istehsalçıları tələbatın azalması səbəbindən mallarını sata bilmədikdə, dövlət zəmanətli qiymətlərlə satınalma müdaxilələrini reallaşdıra bilər. Nəticədə bazar təklifi azalır və qiymət sabitləşir. Əksinə, qıtlıq şəraitində bazar qiymətlərinin səviyyəsi çox kəskin qalxarsa, dövlət milli və regional ərzaq fondlarından mal satmaqla əmtəə müdaxilələri reallaşdırılır.

Müasir şəraitdə qiymət siyasəti balanslaşdırılmış yanaşma tələb edir. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin dövlət tənzimlənməsi kütləvi əmtəə istehsalı zonasında yerləşən hər bir normal fəaliyyət göstərən müəssisəni genişləndirilmiş təkrar istehsalı reallaşdırmaq üçün kifayət qədər gəlirlə, yəni rentabellik səviyyəsini 30-40% səviyyəsində təmin etməlidir. Bundan əlavə, dövlət tənzimlənməsi istehsalçıları öz məhsulları üçün daha sərfəli bazarlar axtarmağa təşviq etməlidir. Bu o deməkdir ki, iqtisadiyyat sabitləşdikcə tənzimlənən qiymətlərlə satılan məhsulların payı azalmalıdır.

Beləliklə, müasir şəraitdə dövlət tərəfindən kənd təsərrüfatı sektorunun tənzimlənməsi iqtisadiyyatın bazar mexanizminin ən mühüm tərkib hissəsidir. Bu tədbirlər həm kənd təsərrüfatının, həm də bütün ASK-nın işləməsi üçün yaxşı fəaliyyət göstərən mexanizmin formalaşmasına töhfə verəcəkdir.

Kənd təsərrüfatı istehsalçılarının fəaliyyəti istehsal və ya gəlirin həcmini istifadə olunan resursların və ya xərclərin həcmi ilə müqayisə etməklə əldə edilən göstəricilər sistemi ilə xarakterizə olunur. Ən mühüm göstərici məhsuldarlıq göstəricisidir ki, bu, heyvandarlıq üçün yem və sənaye üçün xammal istehsalının artırılmasında əsas amil olmaqla yanaşı, məhsul vahidinə çəkilən xərclərin azaldılması amilidir. Dövlət tənzimlənməsi səviyyəsi bu göstəricinin yaxşılaşdırılmasına müsbət təsir edir [3, s.60].

Ölkəmizdə kənd təsərrüfatı istehsalının müasir inkişafı həmin sahənin inkişafına və onun məhsulları, xammal və ərzaq bazarlarının tənzimlənməsinə dair Dövlət Proqramları kontekstində reallaşdırılır.

Beləlikdə kənd təsərrüfatının inkişafı üçün bütün mövcud imkanlardan istifadə etmək lazımdır, yəni:

- istehsalın, o cümlədən əmək tutumlu sahələrin - bağçılıq, tərəvəzçilik və s.-nin bərpası və genişləndirilməsi;
- mövcud iş yerlərinin saxlanılması və yenilərinin yaradılması əsasında əhalinin maksimum məşğulluğunun təminatı;
- vətəndaşların real gəlirlərinin artırılması və əhalinin yoxsulluq səviyyəsinin azaldılması probleminin həlli;
- bitkilərin becərilməsində torpağın münbitlik elementlərinin müsbət balansının təmin edilməsi.

Yuxarıdakı tədbirlər yüksək məhsuldar və ekoloji cəhətdən təmiz məhsul istehsalının yaradılmasında əhəmiyyətli ola bilər.

Ümumiyyətlə, dövlət tərəfindən kənd təsərrüfatı sektorunun tənzimlənməsinin istiqamətləri ölkənin aqrar-ərzaq siyasətinin əsas məqsədinə - rəqabətqabiliyyətli, səmərəli kənd təsərrüfatının yaradılmasına və dövlətin ərzaq təminatına uyğun olaraq müəyyən edilməlidir. Buna uyğun olaraq aşağıdakı istiqamətləri ayırmaq olar:

1. Birinci istiqamət məhsul, xammal və ərzaq bazarının formalaşması və səmərəli fəaliyyət göstərməsidir. Bu istiqamət çərçivəsində aqrar-sənaye kompleksində əmtəə istehsalçılarına həmin sahə məhsullarını, xammal və ərzaq məhsullarını sərbəst şəkildə satmaq imkanı yaradılıb. Bu sahənin bəzi növ məhsullarını bazarda satmaq imkanı olmadıqda və ya istehsal və istehlak balansı pozulduqda, dövlət həmin sahə istehsalçıları tərəfindən məhsullarının satışının təminatçısı kimi çıxış edir.

2. İkincisi, aqrar sahədə təsərrüfat subyektlərinə dövlət yardımı kənd təsərrüfatı istehsalı üçün resurs istehsalçılarının inhisarının aradan qaldırılmasına, habelə bu sahə istehsalçıları ilə bazar arasında vasitəçilərin sayını minimuma endirməyə yönəldilməlidir.

3. Kənd təsərrüfatı torpaqlarının münbitliyinin qorunmasına, yem istehsalının maliyyələşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

4. Dövlət tənzimlənməsinin növbəti istiqaməti məhsulların istehsalı üçün kvotalardır. Dünyanın bütün ölkələrində ərzağa ehtiyacı olan məktəb, uşaq bağçası, ordu və digər qurumlar var. Dövlət aqrar-sənaye kompleksi müəssisələrinə həmin müəssisələr üçün müəyyən həcmdə məhsul sifariş edir. Üstəlik, kvota onların ərzaq məhsullarına olan tələbatına əsaslanmalıdır. Kvotalar təkcə dövlət tənzimləmə mexanizmi kimi deyil, həm də uzunmüddətli planlaşdırma və risklərin azaldılması vasitəsi kimi istifadə olunur.

5. Tenderlər kənd təsərrüfatı müəssisələrinə dövlət dəstəyinin bir forması kimi çıxış edir ki, bu da həmin sahə təşkilatlarını maddi-texniki resurslarla təmin etmək baxımından əhəmiyyətlidir. Tenderlərin keçirilməsinin məqsədəuyğunluğu ondan ibarətdir ki, onların nəticələrinə əsasən ən əlverişli şərtləri, yəni ən aşağı qiymət və yüksək keyfiyyəti təklif edən təchizatçı müəyyən edilir.

Bütün bunlar kənd təsərrüfatının dövlət tənzimlənməsinin əsas istiqamətləridir.

Ədəbiyyat

1. Акмаров, П. Б. Оценка эффективности государственной поддержки сельского хозяйства / П. Б. Акмаров, О. П. Князева // Научные труды Вольного экономического общества России. – 2020. – Т. 223. – № 3. – С. 451-456

2. Борзых, О. В. Эффективность государственной поддержки регионального сельского хозяйства / О. В. Борзых // Вестник Мичуринского государственного аграрного университета. – 2020. – № 2(61). – С. 202-207

3. Волков, С. В. Оценка эффективности мер государственной поддержки в сельском хозяйстве / С. В. Волков // Наука и образование сегодня. – 2017. – № 12(23). – С. 60-62

Резюме
Насибов А.Дж.
Оценка влияния государственного регулирования сельского хозяйства на экономическое развитие страны

Сельское хозяйство играет важную роль в экономическом развитии страны и способствует решению актуальных проблем продовольственной безопасности. Поэтому необходимо регулировать эту сферу. В статье определены основные цели государственной поддержки сельского хозяйства, объяснены их особенности. Изучены основные направления государственной поддержки аграрного сектора.

Ключевые слова: *государственное регулирование, продовольствие, государственная поддержка, производство, сельское хозяйство*

Summary
Nasibov A.J.
Assessment of the Impact of State Regulation of Agriculture on the Economic Development of the Country

Agriculture plays an important role in the economic development of the country and contributes to solving the urgent problem of food security. Therefore, it is necessary to regulate this area. The article defines the main goals of state support for agriculture, explains their features. The main directions of state support for the agricultural sector have been studied.

Key words: *state regulation, food, state support, manufacturing, agriculture*

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYALARI: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR

Nuriyev Əli Xudu oğlu
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Regional iqtisadi və sosial araşdırmalar institutu"

Xülasə: *Məqalədə Azərbaycanin iri sosial-iqtisadi inkişaf strategiyasi kontekstində əldə olunmuş nailiyyətlər və gələcək perspektivlər tədqiq olunmuşdur. Regionların sosial-iqtisadi inkişafı üzrə icra olunmuş dövlət proqramlarının nəticələri ümumiləşdirmiş və icra olunmaqda olan dövlət proqramı (2019-2023-cü illər) barədə fikirlər verilmişdir. Qarabağda sosial-iqtisadi inkişaf istiqamətində tədbirlər müəyyənləşdirilmiş və tövsiyələr verilmişdir.*

Açar sözlər: *Qarabağ, iqtisadi inkişaf, dövlət proqramları, strategiya, sosial-iqtisadi aspektlər*

Müstəqillik illərində Azərbaycanda tezislər iki dəfə sosial- iqtsadi inkişaf strategiyası qəbul edilmişdir. Birinci strategiya 1993-1997 və 1998-2002-ci illəri, ikinci strateji xətt 2003-cü ildən sonrakı dövrü əhatə edir. Hər iki strateji xətt ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmişdir. Lakin ikinci strategiya prezident İlham Əliyev tərəfindən inkişaf etdirilmiş və təkmilləşdirilmişdir.

Əvvəlcə Azərbaycanda demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid strategiyasına nəzər salaq. Sosial-iqtsadi inkişaf üçün Azərbaycanın böyük imkanları var. Bu imkanlar öz ifadəsini birinci növbədə onun əlverişli coğrafi mövqeyinin, zəngin təbii sərvətlərinin, əlverişli, rəngarəng iqlim-torpaq şəraitinin böyük istehsal təcrübəsinə malik, işgüzar əhalisinin olmasında tapır. XX əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında bu imkanlardan istifadə edilməklə Azərbaycan iqtisadiyyatı öz inkişafının ən yüksək səviyyəsinə çatmışdı. Lakin müstəqillik ərəfəsində müstəqilliyin ilk illərində obyektiv və subyektiv səbəblərdən Azərbaycan hərtərəfli iqtisadi-siyasi və mənəvi-psixoloji böhrana düşdü [5]. Xalq təsərrüfatının bütün sahələrində məhsul istehsalı azaldı, xarici mədəni-iqtisadi əlaqələr zəiflədi, işsizlik, yoxsulluq kəskin sürətdə artdı, əhalinin müxtəlif təbəqələri arasında Azərbaycanın gələcəyinə müharibədə mövqe fərqləri artdı, Azərbaycan öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi.

Heydər Əliyev Respublikamızda demokratik cəmiyyət quruculuğu və bazar iqtisadiyyatına keçid strateji xəttini aşağıdakı istiqamətlərdə həyata keçirəcəyini elan etdi:

– Respublikamızda vətəndaş həmrəyliyini, siyasi sabitliyi təmin etmək, dövlətçiliyi qoruyub saxlamaq, demokratik-hüquqi dövlət qurmaq;

– İslahatlar aparmaq, bazar iqtisadiyyatına keçmək;

– Xarici kapitalı, qabaqcıl xarici texnika və texnologiyanı ölkəmizin iqtisadiyyatına cəlb etmək, işsizliyin, yoxsulluğun artmasının qarşısını almaq.

Məhz bu üç istiqamətdə strateji xarakterli tədbirlər həyata keçirməklə 1995-1997-ci illərdə iqtisadiyyatın bütün sahələrində böhranın, işsizliyin, yoxsulluğun artmasının qarşısı alındı, bazar iqtisadiyyatının əsasları yarandı, iqtisadiyyatın bütün sahələrində dirçəliş başladı.

1998-2002-ci illərdə görülmüş tədbirlər, qəbul edilmiş bir çox proqramların icrası nəticəsində bazar iqtisadiyyatının əsasları möhkəmləndi, məhsul istehsalında, xidmət sahələrində xüsusi çəkisi artdı, iqtisadiyyatın bütün sahələri inkişaf etməyə başladı, ÜDM, neftdən gəlirlər sürətlə artmağa başladı (2000-2002-ci illərdə ÜDM hər il orta hesabla 10% artmışdı). İndi iqtisadiyyatın bazar münasibətləri əsasında inkişafının yeni strategiyasını müəyyən etmək vəzifəsi qarşıya çıxdı. Bu vəzifəni ilkin formada ümummilli liderimiz Heydər Əliyev yerinə yetirdi.

2003-cü ildə Azərbaycanda sosial-iqtisadi inkişafın və demokratik cəmiyyət quruculuğunun yeni mərhələsi başlanır. 2003-cü ilin mart ayında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramının (2003-2005-ci illər) təqdimat mərasimində Heydər Əliyev Azərbaycanda sosial-iqtisadi inkişafın strategiyasını və bu inkişafın strateji məqsədlərini müəyyən edərək demişdir: "Bazar iqtisadiyyatının bütün sahələri inkişaf etməlidir, Neft fondu onun inkişafının təminatçısıdır. Ancaq eyni zamanda bizim qeyri-neft sektorunda böyük imkanlarımız vardır. Bu imkanlardan istifadə etməklə qeyri-neft sektorunu inkişaf etdirməklə yoxsulluğu və işsizliyi azaltmaq bizim növbəti vəzifələrimizdir. "Eyni zamanda Heydər Əliyev qeyd etdi ki, bu proqrama özünün yerinə yetirilməsi gedişində əlavələr edilə, təkmilləşdirmələr aparıla bilər. Lakin heç kimə güzəştə getməyən amansız ölüm Heydər Əliyevə bunların həyata keçməsinə rəhbərlik etməyə imkan vermədi. Bunu özünə məxsus formada onun layiqli varisi prezident İlham Əliyev etdi.

İlham Əliyev prezident seçildikdən sonra 2003-cü il noyabr ayının 17-də Respublika hökümətinin ilk iclasında "Biz müstəqil Azərbaycanı son 10 ildə yaradılmış möhkəm təməl üzərində zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevirəcəyik" mövzusunda məruzəsində və özünün "Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanında Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasını yaradıcılıqla davam və inkişaf etdirməyin yollarını əvvala, Heydər Əliyevin sosreial-iqtisadi inkişaf strategiyası nisbətən qısa müddəti əhatə edirdi, özünün qeyd etdiyi kimi təkmilləşməyə ehtiyacı vardı. İlham Əliyv nisbətən uzun müddətli dövrün strategiyasını müəyyən etdi: Son 10 ildə yaradılmış möhkəm təməl üzərində Azərbaycanı hərtərəfli inkişaf etdirmək, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevirmək strategiyasını qəbul etdi. İkincisi, strategiyanın reallaşması üçün "Regionların sosial-iqtisadi inkişafı" (2004-2008-ci illər) Dövlət proqramı qəbul edildi. Heydər Əliyevin proqramında olduğu kimi qeyri-neft sektorunun çox şaxəli inkişafı bu proqramlarda icrasının başlıca vasitəsi kimi müəyyənləşdirildi.

Üçüncüsü, İlham Əliyev proqramlarn icrasına məsuliyyət daşıyan strukturları, proqramın maliyyələşməsi mənbələrini, proqramın icrası üçün həyata keçirilməsi vacib olan tədbirləri müəyyən etməklə onların yerinə yetirilməsi üçün real şərait yaratdı.

Regionların sosial-iqtisadi inkişafı üzrə 3 dövlət proqramı qəbul edildi (2004-2008, 2009-2013, 2014-2018-ci illər) və müvəffəqiyyətlə icra olundu [1; 3; 4]. Bu 3 proqramın icrası nəticəsində Azərbaycan sosial-iqtisadi sahələrdə böyük uğurlara inza atdı, beynəlxalq aləmdə nüfuzu artdı. Dördüncü proqramında (2019-2023-cü illər) müvəffəqiyyətlə icrasına başlandı. Lakin Qarabağda ikinci vətən müharibəsinin başlanması Respublikamızda yeni, çətin vəzifələr ortaya qoydu [2].

Qarabağda ikinci vətən müharibəsində parlaq qələbə, xalqımızın, dövlətimizin ordumuzun birliyi gənclərimizin böyük vətən sevgisini nümayiş etdirdi. Yaxın gələcəkdə Azərbaycanın hərtərəfli inkişafı, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsi üçün Qarabağda həyatın yeni keyfiyyətdə bərpası və inkişafı istiqamətində tədbirləri davam etdirməklə yanaşı aşağıdakı Respublika üçün tale yüklü problem xarakterli məsələlərin həllinə diqqət artırılmalıdır:

– Azərbaycanın istifadə edilən iqtisadi potensialının artırılması Respublikamızın inkişaf üçün böyük potensiala malik olsa, inkişaf səviyyəsinə görə inkişaf etməkdə olan dövlətlər arasında 3-cü yeri tutsada istifadə edilən potensiala görə 30-cu yeri tutur. Regionlarımızda istifadə edilən istehsal potensialının artırılmasına böyük imkan və ehtiyac vardır.

– İnzibati-ərazi bölgüsü və ərazi idarəetmə sistemi məhsuldar qüvvələrin müasir inkişafı səviyyəsinin tələblərinə cavab vermir. Rayonlara bölgü daha da təkmilləşdirilməli, regional icra və bələdiyyə orqanları yaradılmalı, onların hüquqi vəzifələri daha konkret müəyyənləşdirilməlidir. Bu zaman ərazi idarəetmə xərclərinin artmasına yol verməmək daha məqsədyönlüdür.

– Regional siyasətdə ədalətlilik və səmərəlilik, yaxud sosial və iqtisadi yönümlülük düzgün əlaqələndirilməlidir. Bunun üçün birinci növbədə aqrar-sənaye kompleksinin ixtisaslaşmış sahələrinin (baramaçılıq-ipəkçilik, üzümçülük-şərabçılıq, çayçılıq-çay emalı, pambıqçılıq-emalı və i.a) müasir imkanlara

uyğun inkişaf strategiyası və proqramı hazırlanmalı, onların icrası başlıca olaraq dövlətin, hökümətin təşkilatçılığına əsaslanmalı, xüsusi nəzarəti altında olması vacibdir.

– İqtisadiyyat sahəsində elmi potensialdan daha səmərəli istifadə olunmalıdır. Respublikanın iqtisadçı alimləri strategiya, konsepsiya və proqramların hazırlanmasına daha müntəzəm və geniş miqyasda cəlb olunmalıdır.

– Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək və xaricdən asılılığını azaltmaq, mümkün olan halda aradan qaldırmaq üçün kənd təsərrüfatının ərzaq məhsulları istehsal edən sahələrinin və qida sənayesinin inkişafına diqqət artırılmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı./ – Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Bakı: 2014, –151 s.

2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı./ – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir, №500.

3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2009-2013-cü ilər) Dövlət Proqramı. /– "Respublika" qəzeti. Bakı, 2009, 16 aprel.

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). / – Bakı: "Nurlar", 2004, 160 s.

5. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt Dövlət Universiteti, 2018.-384 s.

Резюме

Нуриев А.Х.

Стратегии социально-экономического развития Азербайджана: достижения и перспективы

В статье изучены достижения и даны дальнейшие перспективы в контексте большой стратегии социально-экономического развития Азербайджана. Подведены итоги реализованных государственных программ социально-экономического развития регионов и дано заключение о реализуемой государственной программе (2019-2023 годы). Определены меры по восстановлению и развитию жизни Карабаха в новом качестве, даны рекомендации в этом направлении.

Ключевые слова: *Карабах, экономическое развитие, государственные программы, стратегия, социально-экономические аспекты*

Summary

Nuriyev A.X.

Social and Economic Development Strategies of Azerbaijan: Achievements and Perspectives

The article examines achievements and future perspectives in the context of Azerbaijan's great strategy of socio-economic development. Results of the implemented state programs for the socio-economic development of the regions and conclusions on the implemented state program (2019-2023) are summed up. Measures to restore and develop life in Karabakh in a new capacity are identified, recommendations in this direction are given.

Key words: *Karabakh, economic development, state programs, strategy, socio-economic aspects*

BEYNƏLXALQ ELMİ-TEXNİKİ ƏMƏKDAŞLIĞIN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

Osmanov İlqar Osman oğlu, Osmanov Nicat İlqar oğlu

Sumqayıt Dövlət Universiteti

ilqarosmanov1975@mail.ru ; nicatosmanov12@mail.ru

Xülasə: *Müasir dövrdə bütün dünya ölkələri beynəlxalq əməkdaşlığı inkişaf etdirməyə çalışırlar. Əsas məqsədləri ölkələrinin bütün sahələrdə iqtisadi inkişafına nail olmaqdır. Belə əməkdaşlıq əlaqələrindən biri elm və texnologiya sahəsində olan əməkdaşlıqdır. Məqalədə beynəlxalq elmi-texniki əməkdaşlığın mahiyyəti açıqlanmış, onun formaları haqqında məlumat verilmiş, əsas xüsusiyyətləri şərh edilmiş, belə əməkdaşlığın ölkənin iqtisadi inkişafına təsiri öyrənilmişdir. Elm və texnika sahəsində ölkələr arasında əməkdaşlığın əsas alətləri və onların xüsusiyyətləri nəzərdən keçirilmişdir.*

Açar sözlər: *beynəlxalq elmi-texniki əməkdaşlıq (BETƏ), elm, texnologiya, müəssisə, inkişaf*

Müasir şəraitdə dövlətlərin inkişaf səviyyəsi daha çox onların təhsil, elmi və texniki potensialının inkişaf dərəcəsi ilə müəyyən edilir. İnnovasiya sferasının genişləndirilməsi, təhsil və elmin əhəmiyyətinin aktivləşdirilməsi həm ayrı-ayrı ölkələr səviyyəsində, həm də bütün dünya birliyi səviyyəsində sosial-iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələridir. Hazırda beynəlxalq inteqrasiyanın qurulması prosesləri aktivləşir və bu baxımdan dövlətlər arasında təkcə siyasi-iqtisadi deyil, həm də təhsil, elm və texniki əlaqələr geniş şəkildə inkişaf etdirilir. Elm və texnikanın hazırkı inkişaf səviyyəsi son onilliklərdə müxtəlif dövlətlərin əldə etdiyi uğurlardan xəbər verir. Bir çox ölkələr təhsil, elm, elmi-texniki siyasət və xarici siyasət maraqlarının kəsişmə sferasına çevrilmiş beynəlxalq elmi-texniki əməkdaşlığı (BETƏ) öz elmi potensialının inkişafı və iqtisadi artımın bir aləti kimi qəbul edirlər [3, s.86].

Müasir şəraitdə BETƏ dünya iqtisadiyyatının və ölkələrinin inkişaf perspektivlərini müəyyən edən, yeni dünya nizamını formalaşdıran mühüm, prioritet prosesdir. BETƏ rəqəmsal, şəbəkə iqtisadiyyatının inkişafı kontekstində ölkələrin və müəssisələrin işgüzar fəaliyyətinin beynəlmiləlləşməsi prosesində əsas mərhələdir. Hazırda elmi ədəbiyyatda BETƏ fəal şəkildə müzakirə olunan mövzulardandır. Lakin qlobal miqyasda rəqəmsal, şəbəkə və kreativ iqtisadiyyatın inkişafının təsiri altında formalaşan BETƏ-nin müasir iqtisadi formalarının öyrənilməsinə yönəlmiş hərtərəfli tədqiqatlar yoxdur. Dünya birliyi ölkələrinin elmi, innovativ, sənaye, demoqrafik potensialının xüsusiyyətlərini və mövcudluğunu əks etdirən ölkələr və müəssisələr arasında ETƏ-nin yeni perspektivli iqtisadi formaları kifayət qədər öyrənilməmişdir.

BETƏ-nin nəzəriyyəsi və təcrübəsinə həsr olunmuş çoxsaylı tədqiqatlar göstərir ki, onun müasir paradiqması bir sıra spesifik xüsusiyyətlərə malikdir, bunlardan ən mühümlərinə aşağıdakılar daxildir:

- ölkələr arasında əməkdaşlıq effektiv və çevik yanaşmanı müəyyən edən sinergetik tərəfdaşlığa əsaslanır;
- informasiya yeni beynəlxalq münasibətlər sistemi üçün güc mənbəyi kimi qəbul edilir;
- BETƏ-nin əsas şərti onun bütün potensial istifadəçiləri üçün ən yüksək etibarlılıq standartlarına cavab verən informasiyanın sərbəst və açıq dövriyyəsidir.

Müasir şəraitdə iqtisadi artımın elmi-texniki komponentlərinin əhəmiyyəti kəskin şəkildə artır. Tədqiqat və təcrübə-konstruktor işlərinin genişləndirilməsi böyük maliyyə xərcləri, bahalı avadanlıq və yüksək ixtisaslı kadrlar tələb edir. Bu, iqtisadi və digər münasibətlərin müxtəlif subyektlərini BETƏ-də iştirak etməyə məcbur edir. BETƏ-nin sürətli inkişafı əsasən ayrı-ayrı ölkələrin texniki səviyyəsinin əhəmiyyətli fərqləri ilə bağlıdır. BETƏ-nin dərinləşməsi müəssisələrin elm və texnologiyanın dar sahələrində artan ixtisaslaşmasına səbəb olur. Müasir beynəlxalq münasibətlər nəzəriyyəsində beynəlxalq elmi-texniki və investisiya əməkdaşlığının çoxlu sayda forma və növləri fərqləndirilir. Yüksək texnologiyalı sahələrdə beynəlxalq əməkdaşlıq iqtisadi aspektlərə əsaslanır, çünki bu sahələrin məhsullarına daim artan tələbat və yüksək gəlirlilik investisiya cəlbediciliyini təmin edir.

BETƏ formalarının inkişafı iqtisadiyyatın rəqəmsallaşdırılması üçün lazımi bilik və texnologiyalar əldə etməyə imkan verir ki, bu da müxtəlif ölkələrin müəssisələri arasında ETƏ-nin yeni biznes modellərinin qlobal miqyasda formalaşmasını şərtləndirir. Bu şəraitdə hər bir ölkə üçün ETƏ sahəsində rəqabət üstünlüklərini müəyyənləşdirmək və qlobal texnologiya bazarında onun yerini təyin etmək lazımdır.

İqtisadi ədəbiyyatlarda BETƏ formalarının müxtəlif təsnifatları verilir ki, bunlara aşağıdakılar daxildir: beynəlxalq konfranslar; tədqiqat proqramları; birgə elmi tədqiqatlar; dövlətlərarası maliyyə və sənaye qruplarının və transmilli şirkətlərin yaradılması; texniki sənədlərin, nümunələrin və materialların, texnoloji proseslərin, məlumatların mübadiləsi; mütəxəssislərin qarşılıqlı ezam edilməsi; məsləhətləşmələr və ekspertiza.

BETƏ formalarının inkişafına 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Konfrans böyük töhfə vermiş, onun Yekun Aktında əməkdaşlığın ən məqsədəuyğun formaları təklif edilmişdir:

- kitabların dövri nəşrləri və aidiyyəti təşkilatlar və şəxslər arasında digər elmi və texniki nəşrlər;
- alim və mütəxəssislər arasında mübadilə və səfərlər, habelə digər birbaşa əlaqələr;
- beynəlxalq və milli konfransların və digər elmi toplantıların keçirilməsi;
- qarşılıqlı maraq doğuran proqram və layihələrin birgə hazırlanması və tətbiqi;
- qabaqcıl elmi-texniki təcrübənin öyrənilməsi və ötürülməsi üçün kommersiya mənbələrindən və metodlarından istifadə [2, s.65].

Yuxarıda göstərilən formalar BETƏ-ni təkcə çoxtərəfli əsasda deyil, həm də ikitərəfli əsasda, o cümlədən qeyri-hökumət səviyyəsində nəzərdə tutur. Bu əməkdaşlığın ən rasional və səmərəli formaları aşağıdakılardır:

- istehsalın və əməyin təşkili sahəsində xarici təcrübənin birgə tədqiqi və öyrənilməsi;

- müəssisələrin texniki-iqtisadi göstəricilərini yaxşılaşdırmaq məqsədilə mövcud avadanlıq və texnologiyanın təkmilləşdirilməsi sahəsində birgə təcrübələr;

- elm və texnologiya siyasəti üzrə davamlı koordinasiya və məsləhət;

- ən son elmi-texniki ideyaların, layihələndirmənin, marketinq tədqiqatlarının və texniki-iqtisadi hesablamaların istifadəsi üçün ümumi tədqiqat mərkəzlərinin, büroların, laboratoriyaların yaradılması;

- ixtisaslı elmi kadrların hazırlanmasının təşkili.

Müasir müəssisələrin BETƏ-si isə aşağıdakı formalarda ola bilər:

1. TMK-ların məhsul və ya texnologiyalarının yerli şəraitə (təchizatçılara, istehlakçılara, standartlara) uyğunlaşdırılması.

2. Yerli tələblərə uyğun olaraq yeni məhsulların yaradılması və ya onların istehlak xassələrinin əhəmiyyətli dərəcədə dəyişdirilməsi.

3. Öz elmi-texniki işlərinin səmərələşdirilməsi - əsas müəssisənin mövqelərini möhkəmləndirmək üçün filialların xarici nailiyyətlərindən istifadə edilməsi.

4. Strateji elmi-texniki inkişaflar - rəqabət üstünlükləri əldə etmək üçün xarici nailiyyətlərin monitorinqi və s [1, s.80].

Müəssisənin BETƏ strategiyasının seçiminə birbaşa təsir göstərən amillər sırasına yerli bazarlara uyğunlaşma və istehlakçılar haqqında məlumat əldə etmək zərurəti, ixtisaslı elmi kadrlara çıxış, xarici texnologiyalardan istifadə və onların fəaliyyətinə nəzarət və s. aiddir.

Müasir müəssisələrin davamlı inkişafı düşünülmüş və əsaslandırılmış, iqtisadi və riyazi hesablamalarla təsdiqlənmiş fəaliyyət strategiyası olmadan mümkün deyil. Bu, müəssisənin yaradılması missiyasını əks etdirən və qısamüddətli taktiki və operativ qərarlarda təcəssüm etdirilən uzunmüddətli inkişaf planıdır. Müasir müəssisənin, xüsusən də iqtisadiyyatın texniki cəhətdən mürəkkəb və innovativ inkişaf edən sahələrində inkişaf strategiyasını elmi-texniki komponent olmadan təsəvvür etmək çətindir.

Son dövrlərin əsas qlobal tendensiyalarından biri elmi-texniki sahəyə getdikcə daha çox təsir edən inteqrasiya proseslərinin artması hesab edilməlidir. Müasir cəmiyyətdə elm ölkənin sosial-iqtisadi inkişafını şərtləndirən amilə çevrilir. Şübhəsiz ki, bu, həm başqa ölkələrdən ən yaxşı mütəxəssis və alimləri cəlb etməklə, həm xarici tədqiqat universitetləri ilə əməkdaşlıq etməklə, həm də qabaqcıl texnologiyaları hazırlayanlarla işgüzar tərəfdaşlıq qurmaqla ölkələri elmi-texniki potensialını artırmağa sövq edən səbəblərdən biri hesab edilməlidir.

BETƏ-nin ən təsirli üç aləti var:

1) fondlar və xüsusi proqramlar; 2) beynəlxalq əməkdaşlığı təşviq edən təşkilatlar; 3) beynəlxalq texnologiya transferi.

Birinci alətə BETƏ-nin formalaşmasında əsas yer tutan fondlar və xüsusi proqramlar daxildir. Belə ki, elmi-texniki əlaqələrin inkişaf etdirilməsi və innovativ texnologiyalar sahəsində birgə işlərin aparılması məqsədi ilə beynəlxalq fondlar yaradılır. Belə fondlarda müsabiqə və seçim yolu ilə perspektivli tələbələrə, aspirantlara və alimlərə elmi və elmi-texniki layihələrinin daha da inkişafı üçün mükafatlar ayrılır. Məsələn, dünyada belə fondlara nümunələr DAAD (Almaniya), Milli Elm Fondu (ABŞ), Matsumae Beynəlxalq Fondu (Yaponiya), Rusiya Elm Fondu (Rusiya) informasiya texnologiyaları sahəsində elmi tədqiqatları dəstəkləyir və maliyyələşdirir.

Azərbaycanda da bu sahədə Elmin İnkişaf Fondu yaradılıb. Bu fond elmi-tədqiqat işlərindən tutmuş layihələrin və innovasiyaların təqdim olunmasına qədər geniş fəaliyyət sahələrini dəstəkləyir. Həmin fondun əsas məqsədi müsabiqə əsasında ayrılmış maliyyə vəsaitləri hesabına elmi tədqiqat işlərini dəstəkləməkdən ibarətdir. Fondun qrantları əsasən tədqiqat qrupları tərəfindən reallaşdırılan layihələrə ayrılır [4].

BETƏ-nin ikinci alətinə ali təhsil, elm və texnologiya sahələrində beynəlxalq əlaqələrin inkişafına kömək edən təşkilatlar daxildir. Bu təşkilatların əsas məqsədi tələbələrin, aspirantların, tədqiqatçıların və müəllimlərin akademik mobilliyinə maliyyə və informasiya dəstəyi verməkdir. Məsələn, dünyanın müxtəlif ölkələrindən alimləri birləşdirən Beynəlxalq İqtisadçılar İttifaqı elmi ictimaiyyətin tərəqqisini təşviq edir, yeni texnologiyaların yaradılmasında bilik, ideya və təcrübə mübadiləsinə əlverişli şərait yaradır.

BETƏ-nin üçüncü ən çox yayılmış aləti beynəlxalq texnologiya transferidir. Beynəlxalq transfer, işin yekun nəticəsi ilə bağlı heç bir problem olmasa belə, elmi-texniki layihələri poza biləcək problemlərin həllinə kömək edir. Məsələn, layihənin uğurla başa çatdırılmasına kommunikasiya problemləri (dil maneəsi) və ya əqli mülkiyyət hüquqlarında şəffaflığın olmaması mane ola bilər. Bunun qarşısını almaq üçün beynəlxalq texnologiya transferi şəbəkələri müştərilər və podratçılar arasında vasitəçi rolunu oynayır.

Beləliklə, BETƏ-nin yuxarıda göstərilən bütün alətləri dövlətlər arasında səmərəli qarşılıqlı fəaliyyətin ən mühüm komponentləri hesab edilməlidir, çünki onlar birgə tədqiqat və işlənmələrdə genişlənməyə və əməkdaşlığa kömək edir.

Ədəbiyyat

1. Асман, М. А. Стратегия международного научно-технического сотрудничества компании / М. А. Асман // Таврический научный обозреватель. – 2016. – № 12-2(17). – С. 78-81

2. Коваленко, К. Е. Основные правовые формы международного научно-технического сотрудничества / К. Е. Коваленко // Российско-азиатский правовой журнал. – 2019. – № 2. – С. 64-66

3. Черепанова, О. А. Актуальные аспекты международного сотрудничества государств в образовательной и научно-технической сфере / О. А. Черепанова, И. С. Черепанова // Фундаментальные и прикладные исследования в современном мире. – 2016. – № 13-4. – С. 86-92.

4.https://azertag.az/xeber/Elmin_Inkisafi_Fondu_Asas_Qrant_Musabiqesine_layihe_qebul_olunur-2145029

Резюме

Османов И.О., Османов Н.И.

Роль международного научно-технического сотрудничества в экономическом развитии страны

В современное время все страны мира стараются развивать международное сотрудничество. Их главные цели заключаются в достижении экономического развития своих стран во всех областях. Одним из таких видов сотрудничества является сотрудничество в области науки и техники. В статье раскрыта сущность международного научно-технического сотрудничества, даны сведения о его формах, разъяснены его основные черты, изучено влияние такого сотрудничества на экономическое развитие страны. Рассмотрены основные инструменты сотрудничества стран в области науки и техники и их характеристики.

Ключевые слова: *международное научно-техническое сотрудничество (МНТС), наука, технология, предприятие, разработка*

Summary

Osmanov I.O., Osmanov N.O.

The Role of International Scientific and Technical Cooperation in the Economic Development of the Country

In modern times, all countries of the world are trying to develop international cooperation. Their main goals are to achieve the economic development of their countries in all areas. One such relationship of cooperation is cooperation in the field of science and technology. The article reveals the essence of international scientific and technical cooperation, provides information about its forms, explains its main features, and studies the impact of such cooperation on the economic development of the country. The main instruments of cooperation between countries in the field of science and technology and their characteristics are considered.

Key words: *international scientific and technical cooperation (ISTC), science, technology, enterprise, development*

REGİONLARIN TARAZLI İNKİŞAFI: İMKANLAR VƏ PERSPEKTİVLƏR

Ramazanov V.Z.

İqtisadiyyat institutu

vilayet1980@yahoo.com

Xülasə: *Məqalədə dövlət tərəfindən regionların tarazlı inkişafı istiqamətində görülmüş işlər tədqiq edilir. İqtisadi rayonlar üzrə sənaye və kənd təsərrüfatı sahələrində məhsul istehsalı, yaranmış mənfəət, illər üzrə satış həcmləri təhlil edilmiş,ölkə iqtisadiyyatında sahibkarlıq subyektlərinin payı göstərilmişdir.*

Açar sözlər: *regionlar, davamlı inkişaf, səmərəli istifadə, istehsal həcmi, sənaye, kənd təsərrüfatı, sahibkarlıq*

Ölkə qarşısında duran prioritet məsələlərindən biri regionların tarazlı inkişafının təmin olunması və bölgələr üzrə qeyri-neft sektorunun inkişaf etdirilməsidir.

Ölkədə aparılan iqtisadi islahatların nəticələrindən biri olaraq yeni yaradılan iqtisadi rayonların inkişafının ahəngdarlığının təmin edilməsi əsas məsələlərdəndir. Yenidən bölgüsü aparılan iqtisadi

rayonlar daxildə inkişaf imkanlarına görə bir biri ilə sıx əlaqədə ola biləcək şəhər və rayonları cəmləşirmişdir.

İqtisadi rayonların müasir dövrün təlblərinə uyğun formalaşdırılması, həmçinin ənənəvi sahələrin inkişaf istiqamətlərini öyrənərkən həmin regionu xarakterizə etdirən göstəricilər sistemindən istifadə edilməlidir. Təhlil zamanı göstəricilərin dəyişmə səbələrinin öyrənilməsi və göstəricilər arasındakı qarşılıqlı əlaqələrin qiymətləndirilməsi regionun inkişaf istiqamətlərini müəyyən etməyə imkan verəcəkdir. İqtisadi rayonların təhlili zamanı eyni tipli fəaləiyyət sahələri üzrə müqayisə aparmaq və alınan nəticələrə qiymət verməklə regionun inkişafının təmin edilməsi, həmçinin gələcək dövr üçün proqnozların verilməsi imkanı yaranır.

Regionların inkişafının təmin olunması istiqamətində rəqabətqabiliyyətliliyin artırılması və gücləndirilməsi üçün sahibkarlığa dövlət dəstəyinin sistemli şəkildə həyata keçirilməsi müsbət nəticələrin əldə edilməsinə şərait yaratmışdır. Bu istiqamətdə aparılan işlərin nəticəsi olaraq dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığa dövlət dəstəyi mexanizmi formalaşdırılmış, kiçik və orta sahibkarlığın inkişafına maliyyə dəstəyi artırılmışdır

Beləliklə mövcud resurslardan mümkün qədər tam və səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, yerlərdə yeni innovasiyalara əsaslanan məhsul və xidmət istehsalı sahələrinin dəyər zəncirinin bütün həlqələri üzrə inkişaf etdirilməsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi ilə yaşıl iqtisadiyyatın inkişafı üçün münbit şəraitin yaradılması, bununla da ölkədə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da dayanıqlı inkişafının təmin olunması, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunması, regionlarda, o cümlədən kənd yerlərində yaşayan əhalinin layiqli məşğulluq və gəlir əldəetmə imkanlarının artması və onların sosial rifah halının yüksəlməsi, beləliklə də regionların davamlı və tarazlı inkişafının təmin olunması gözlənilir.[4]

2020-ci ildə ölkənin iqtisadi rayonları üzrə cəm şəklində 307717 vahid mikro, 5943 vahid kiçik, 2710 vahid orta sahibkarlıq subyektləri mövcud olmuşdur və bu nəticə 2019-cu ilə nisbətən 12 faiz çoxdur. Qeyd etməliyik ki, sahibkarlıq subyektləri daxilində ən böyük yeri mikro sahibkarlıq subyektləri tutr. Ölkədə aparılan islahatların nəticəsi olaraq "bir pəncərə" sisteminin yardılması sahibkarlıq fəaliyyəti ilə məşqul olmaq istəyənlərin qeydiyyatının asanlaşdırılması və əhalinin məşğulluq səviyyəsinin artırılmasına hədəflənmişdir. Müəyyən edilmişdir ki, sahibkarlıq subyektlərinin 47.7 faizi Bakı şəhərində, 52.3 faizi isə digər regionlarda fəaliyyət göstərir.. Sahibkarlıq subyektlərində çalışan işçilərin bölgüsünə nəzər salsaq görərik ki, 5.2 faiz kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 23.0 faizi sənaye, 16.8 faiz tikinti, 15.9 faiz ticarət, 39.1 faiz isə xidmət sektorunun payına düşür.

Qrafik.

Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri

Qrafikə nəzər salsaq görərik ki, aparılan uğurlu iqtisadi siyasətin nəticəsi olaraq regionlarda kənd təsərrüfatı müəssisələrində illər üzrə artım tempi müşahidə edilir. Belə ki, müəssisələrin ümumi mənfəəti 2005-ci ilə nisbətdə 2008-ci ildə 4.5dəfə, 2009-cu ildə 5.8 dəfə, 2010-cu ildə 4.7 dəfə, 2011-ci ildə 6.3dəfə həmçinin 2010-cu ilə nisbətdə 1.3dəfə, 2014-cü ildə 10.1 dəfə, 2016-cı ildə 12.8 dəfə, 2018 –ci

ildə 16.4dəfə, 2020-ci ildə 17.6 dəfə, 2021-ci ildə isə 29 dəfə artmişdır. Təhlilin davamı olaraq 2012-ci ildə 294726 min manat satış həcmində 48200min manat mənfəət əldə edilmişdir ki, bu da satışın 16.3 faizini, 2015-ci ildə 391801 min manat satış həcmində 39763 min manat mənfəət əldə edilmişdir ki, mənfəətin ümumi dsatışda həcmi 10.1 faizini, 2018-ci ildə 558807 min manat satış həcmində 96918 min manat mənfəət əldə edilmişdir ki, bu da satışın 17.3 faizini, 2020-ci ildə 637351 min manat satış həcmində 104016 min manat mənfəət əldə edilmişdir ki, bu satışın 16.3 faizini, 2021-ci ilin satış həcmi 794863 min manat satış həcmində 171197 min manat mənfəət əldə edilmişdir ki, bu da stışın 21.5 faizini təşkil etmişdir.

Regionların inkişafı proqramlarının nəticəsi olaraq kənd təsərrüfatı müəssisələrində davamlı inkişafa nail olunmuşdur və daxili bazarla yanaşı kənd təsərrüfatı məhsullarının ixracını da həyata keşirilmişdir.

Sənaye müəssisələri üzrə məhsul istehsalının dəyərinə Bakı şəhəri üzrə 45309.7mln.manat istehsal bundan -85.9 faizi, Abşeron-Xızı iqtisadi rayonu üzrə istehsal 4125.8 mln.manat istehsal bundan -69.9 faizi, Dağlıq Şirvan iqtisadi rayonu üzrə istehsal 88.6 mlin.manat bundan -81.0 faizi, Gəncə-Daşkəsən iqtisadi rayonu üzrə istehsal 861.0 mln.manat- bundan 60.8 faizi, Qarabağ iqtisadi rayonu üzrə istehsal 194.8mln.manat bundan-66.3 faizi, Qazax-Tovuz iqtisadi rayonu üzrə istehsal 416.3mln.manat bundan-76.5 faizi, Quba-Xaçmaz iqtisadi rayonu üzrə istehsal 305.98mln.manat bundan-64.2 faizi, Lənkəran-Astara iqtisadi rayonu üzrə istehsal 340.95mln.manat bundan-80.3 faizi, Mərkəzi Aran iqtisadi rayonu üzrə istehsal 646.1 mln.manat bundan 45.4 faizi, Mil-Muğan iqtisadi rayonu üzrə istehsal 554.5mln.manat bundan-92.6 faizi, Şəki-Zaqatala iqtisadi rayonu üzrə istehsal 440.6mln.manat bundan-83.6 faizi, Şərqi Zəngəzur iqtisadi rayonu üzrə istehsal 7.9mln.manat bundan-61.5 faizi, Şirvan-Salyan iqtisadi rayonu üzrə istehsal 867.3mln.manat bundan-65.5faizi, Naxçıvan Muxtar Respublikası üzrə istehsal 1069.7mln.manat bundan-92.3 faizi qeyri dövlət sektorunun payına düşür.

Bunları nəzərə alaraq deyə bilərik ki, regionların inkişaf etdirilməsində dövlət proqramlarının yerinə yetirilməsi artan istiqamətdə həyata keçirilir, qeyri neft sektorunun inkişafına, bölgələrdə kiçik və orta sahibkarlığın sürətli artımına xüsusi diqqət yetirilir.

Cədvəl

Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı, faizlə

Göstəricilər	2020			
	Cəmi Total	o cümlədən		
		Mikro Micro	Kiçik Small	Orta Medium
Ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə	16.7	6.8	2.5	7.4
qeyri neft-qaz sektoru üzrə	23.7	9.9	3.5	10.3
Müəssisələrdə muzdla işləyənlərin ümumi sayında	42.1	4.9	11.1	26.1
qeyri neft-qaz sektoru üzrə	43.8	6.1	12.9	24.8
Sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda	23.2	8.4	3.3	11.5
qeyri neft-qaz sektoru üzrə	11.5	3.4	7.7	0.4
Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında	99.7	96.9	1.9	0.9

Mənbə: *www.stat.gov.az məlumatlarına əsasən*

2020-ci il üzrə ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə mikro(6.8 faiz), kiçik(2.5 faiz) və orta(7.4faiz) sahibkarlıq subyektlərinin payı 16.7 faiz təşkil etmişdir. Müəssisələrdə muzdla işləyənlərin ümumi sayında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı 42.1 faiz, sahibkarlıq subyektləri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalarda 23.2 faiz, (11.5 faizi orta sahibkarlıq subyektləri), fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında isə 99.7 faiz(96.9 faizi mikro sahibkarlıq subyektləri) təşkil etmişdir.

Nəticə olaraq, ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması və iqtisadi rayonlarda qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində atılan addımların son illərdə regionlarda sənaye zonalarının, aqroparkların, texnoparkların yaradılmasına imkan yaratdı. Beynəlxalq təcrübəyə əsasən demək olar ki, sənaye zonalarının, aqroparkların, texnoparkların yaradılması ölkədə rəqabətqabiliyyətli məhsul istehsalında, idxaldan asılılığın azaldılmasında, ixrac potensialının artmasında, mərkəz və

regionlarda məşğulluğun təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatı sahələrinin inkişafı istiqamətində bölgələrdə aqroparkların yaradılması kənd əhalisinin maddi vəziyyətinin yaxşılaşmasına, qida sektorunda bolluğa və uyğun qiymət formalaşdırmağa təminat verir. Sənaye sahəsində fəaliyyət göstərən texnoparkların, sənaye məhəllələrinin fəaliyyətinin stimullaşdırılması üçün rezidentlərə vergi güzəştləri tətbiq edilir ki, ilk olaraq sahibkarlığın inkişafını, iqtisadi risklərin minimuma endirilməsini, investisiya cəlb ediciliyini təmin edir.

Ədəbiyyat

1. Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf. Bakı, 2017
2. Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, "Elm və Təhsil", 2017.
3. Əzizova G.A. Dövlətin innovasiya investisiya siyasəti. Bakı, 2012
4. https://e-qanun.az/framework/41320
5. https://stat.gov.az

Резюме

Рамазанов В.З.

Сбалансированное развитие регионов: возможности и перспективы

В статье исследуется работа, проводимая государством в направлении сбалансированного развития регионов. Проанализировано производство продукции, полученная прибыль, объемы продаж в промышленной и сельскохозяйственной сферах по экономическим районам, показана доля субъектов предпринимательства в экономике страны.

Ключевые слова: *регионы, устойчивое развитие, эффективное использование, объем производства, промышленность, сельское хозяйство, предпринимательство.*

Summary

Ramazanov V.Z.

Balanced Development of Regions: Opportunities and Prospects

The article examines the work carried out by the state in the direction of the balanced development of the regions. The production, profit, sales volumes in the industrial and agricultural sectors by economic regions are analyzed, the share of business entities in the country's economy is shown.

Key words: *regions, sustainable development, efficient use, production volume, industry, agriculture, entrepreneurship*

AZƏRBAYCANIN XARİCİ İQTİSADİ SİYASƏTİNİN STRATEJİ ASPEKTLƏRİ

Rüstəmova Gülbəs Rəsul qızı, Rəhimli Elxan Şəfahət oğlu

Sumqayıt Dövlət Universiteti

rrufet1979@mail.ru

Xülasə: *XXI əsrin əvvəllərində qlobal iqtisadi və elmi mühitdə davamlı inkişaf mövzusu xüsusi aktuallıq qazanmışdır. Qlobal səviyyədə davamlı inkişaf bir sıra şərtlərdən qaynaqlanır. Azərbaycan Respublikasında əhalinin rifahının yaxşılaşdırılması, suverenliyin və təhlükəsizliyin təmin edilməsi və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması mühüm məqsədlər kimi qarşıya qoyulmuşdur. Bu məqsədlərə çatmaq düzgün seçilmiş iqtisadi siyasətdən, o cümlədən xarici iqtisadi siyasətdən çox asılıdır. Bu da öz növbəsində ölkənin davamlı inkişafına müsbət təsir göstərir.*

Açar sözlər: *dünya bazarı, xarici siyasət, milli iqtisadiyyat, inteqrasiya, milli təhlükəsizlik, beynəlxalq əmək bölgüsü*

Xarici iqtisadi siyasətin effektivliyi milli sərvətlərdən istifadə dərəcəsindən, investisiya, struktur və innovasiya siyasətinin düzgün birləşməsindən, milli iqtisadiyyatın xarici təhdidlərdən qorunma dərəcəsindən və ölkənin dünya bazarındakı mövqeyinin möhkəmlənməsindən asılıdır. Bu proseslərə milli iqtisadiyyatın inkişaf səviyyəsi, quruluşu, iqtisadi gücü kimi amillər təsir edir. Odur ki, dövlət birbaşa xarici iqtisadi siyasət formalaşdırmağa çalışır. Bu, həm daxili, həm də xarici bazarlarda mal və xidmətlərin istehsalı üçün milli iqtisadiyyatın yüksək rəqabətqabiliyyətini qorumağa imkan verəcəkdir. Milli iqtisadiyyatın dünya iqtisadi

sisteminə inteqrasiyası ölkənin iqtisadi qüdrətinin, yüksək əlavə dəyərə malik olan elmtutumlu məhsullar bazarında beynəlxalq rəqabət mövqeyinin gücləndirilməsi üçün ən əhəmiyyətli stimuldur. XXI əsrin birinci onilliyində sürətlə inkişaf edən və yayılan, bu baxımdan yeni bir təkan alan qloballaşma prosesləri, ölkənin sosial-iqtisadi həyatına ciddi təsir göstərir. Hal-hazırda qlobal planetar xarakterli faktorlar hər yerə - iqtisadi, sosial, siyasi, humanitar və mədəni sahələrə və proseslərə nüfuz edir. Ona görə də hər bir ölkədə olduğu kimi, Azərbaycanda da təsirli xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması zəruridir. Belə bir strategiya həm yerli malların və xidmətlərin həcmini artırmaq, həm də bütövlükdə ölkənin rəqabət qabiliyyətini gücləndirmək üçün xarici iqtisadi fəaliyyətin üstünlüklərindən istifadə etməyə imkan verəcəkdir [1, s.48].

Xarici iqtisadi siyasətin əsas məqsədi ölkənin beynəlxalq əmək bölgüsündə səmərəli iştirakı olsa da, planetin biosferinin bir hissəsi olaraq ölkənin təbii kompleksinin reproduktiv potensialını qoruyub saxlamaqla yanaşı, əldə edilmiş nailiyyəti həyata keçirmək də vacibdir. Azərbaycan beynəlxalq enerji, nəqliyyat, rabitə layihələrində iştirak edir, gələcəkdə milli iqtisadiyyatın rəqabət qabiliyyətini artırmaq üçün alternativ enerji (günəş enerjisi, külək və s.) əsasında işləyən texnologiyalardan istifadəni genişləndirməlidir. Mövcud şəraitdə xarici iqtisadi fəaliyyətdə dövlətin əsas vəzifəsi davamlı inkişaf problemlərinin həlli üçün ticarət və iqtisadi əlaqələrin genişləndirilməsidir.

Ölkənin xarici iqtisadi fəaliyyəti beynəlxalq inteqrasiya, mal və xidmətlərin idxal və ixracı, beynəlxalq bazara çıxışı ilə əlaqəli iqtisadi fəaliyyət sahəsidir. Xarici iqtisadi fəaliyyət investorları cəlb etmək və xarici şirkətlər arasında tərəfdaş tapmaq məqsədi daşıyır. Bu, ölkəyə mal və xidmətlərin satış bazarlarını genişləndirmək, beynəlxalq əmək bölgüsündə iştirak və beynəlxalq ixtisaslaşma və istehsal kooperasiyası kimi bir sıra üstünlüklər verir. Xarici iqtisadi fəaliyyət ölkənin inkişafı üçün böyük perspektivlər açır, yeni səviyyəyə çıxmasına, məhsullarını xarici bazarda satmasına imkan verir və ölkənin ÜDM-ni artırır. Ölkənin xarici iqtisadi fəaliyyətdə iştirakının əsas prioritetləri kimi aşağıdakıları sadalamaq olar:

- dünya bazarında məhsulların satış bazarlarını genişləndirməklə ÜDM-i artırmaq;
- xarici ticarət bazarında xammal, yeni texnologiyalar və komponentlər almaq imkanı;
- xarici investisiyalar cəlb etməklə sənaye istehsalının modernləşdirilməsi və yerli müəssisələrin dünya bazarında rəqabət qabiliyyətinin artırılması;
- iqtisadiyyatın inkişafına töhfə verən beynəlxalq əmək bölgüsündə iştirak, istehsalın ixtisaslaşması və kooperasiyası;
- ölkənin uğurlu inkişafı üçün ən əlverişli coğrafi yeri tapmaq;
- xarici ölkələrdən potensial müştərilərin cəlb edilməsi;
- xarici ticarət bazarlarında ucuz mənbələr əldə etmək imkanı;
- xarici bazarlara çıxmaq və daxili bazardan tam asılılığın qarşısını almaq sayəsində gəlir itkisi ilə əlaqədar risklərin minimuma endirilməsi.

2020-ci ildə dünyada yayılan COVİD-19 pandemiyası ilə əlaqədar Azərbaycanın da xarici iqtisadi siyasətində bir sıra mənfi tendensiyalar müşahidə olunmuşdur. COVİD-19 pandemiyasının yayılması, hər yerdə tətbiq olunan məhdudlaşdırıcı tədbirlər həm milli iqtisadiyyata, həm də bütövlükdə qlobal iqtisadiyyata sürətli təsir göstərmişdir. 2020-ci ildə Azərbaycan iqtisadiyyatı, dünya ölkələrinin əksəriyyətinin iqtisadiyyatı kimi, koronavirus infeksiyasının yayılmasının nəticələrinin yaratdığı dərin böhran şoku ilə üzləşdi. Bu böhran digərlərindən demək olar ki, fərqlənmirdi. Birincisi, bu şokun miqyasına görə, ikincisi, müharibədə və ya siyasi böhranda olduğu kimi, şokun müddəti və gücü ilə bağlı çox yüksək qeyri-müəyyənlik mövcud oldu. Üçüncüsü, həmin şəraitdə xarici iqtisadi siyasət tamamilə fərqli bir rol oynamağa başladı. Daha tipik böhranlar zamanı siyasətçilər məcmu tələbi stimullaşdıraraq iqtisadi, o cümlədən xarici iqtisadi aktivliyi ən qısa zamanda gücləndirməyə çalışırlar. Bu dəfə isə böhran əsasən virusun qarşısını almaq üçün lazımi tədbirlərin görülməsi ilə əlaqədar oldu. Bu, stimullaşdırıcı fəaliyyəti daha da çətinləşdirirdi. Bu böhranı iki mərhələdə aradan qaldırmaq mümkün idi: məhdudlaşdırma və sabitləşmə mərhələsi və daha sonra bərpa mərhələsi. Hər iki mərhələdə səhiyyə və xarici iqtisadi siyasət kritik rol oynayırdı. Karantin, özünü təcrid etmək və sosial məsafə, infeksiyanın yayılmasını yavaşlatmaq üçün vacib tədbir idi. Bu tədbirlər daha dərin və daha uzun bir tənəzzülün qarşısını almağa və iqtisadi canlanma üçün zəmin yaratmağa kömək edə bilərdi.

Azərbaycan Respublikası da pandemiyanın nəticələrinə uyğunlaşmaq üçün özünün iqtisadi siyasətində, o cümlədən xarici iqtisadi siyasətində bir sıra dəyişikliklər etmişdir. İlk növbədə, maliyyə sistemindəki stresi azaltmaq strategiyasını həyata keçirməyə çalışdı. Maliyyə sistemindəki sistematik stressi azaltmaq üçün geniş əsaslı təşviq və dəstək mexanizmləri ölkəmizin pandemiyanın mənfi nəticələrindən qurtarmaqda inamını artıra bildi və tələbin daha da daralmasının qarşısını ala bildi, maliyyə sistemi vasitəsilə şokun artmasını məhdudlaşdıraraq sonrakı bir canlanmaya gətirib çıxardı. Həmçinin, dövlət tərəfindən

əhəmiyyətli tədbirlərin sürətlə qəbul edilməsi xarici iqtisadi fəaliyyət sahəsində aktivliyi artırmış oldu. Xarici iqtisadi fəaliyyət sahəsində aktivliyi təmin etmək üçün beynəlxalq iqtisadi təşkilatlar arasında əlaqələrin dərinləşdirilməsi də xüsusi əhəmiyyət kəsb edər. Çünki, çoxtərəfli əməkdaşlıq pandemiyanın mənfi nəticələrindən qurtulmağın əsas yollarından biri idi.

Qeyd etdiyimiz kimi, 2020-ci ildən başlayaraq COVID-19 pandemiyası bütün dünya ölkələrinin, o cümlədən, Azərbaycanın xarici iqtisadi siyasətinə öz təsirini göstərmişdir. Bir çox iri şirkətlərin müvəqqəti bağlanması və ya fəaliyyətinin ciddi şəkildə pisləşməsi ölkənin xarici iqtisadi siyasətinin inkişafına və xarici ticarət dövriyyəsinin həcminin azalmasına təsir edən mənfi amil kimi özünü büruzə vermişdir. Bu, kiçik və orta biznesin vəziyyətində mənfi tendensiyaların yaranmasına, işsizliyin artmasına, istehlakçı tələbatında durğunluğa, dəyər zəncirlərinin qırılmasına gətirib çıxarmışdır. Sənaye və xidmət sektorunun işində yaranan çətinliklər də xarici iqtisadi əlaqələrin vəziyyətinə təsir etmişdir. Bütün bunlar ölkənin xarici iqtisadi siyasət strategiyasına yenidən baxılmasını aktuallaşdırmışdır.

2020-ci ildə ölkədə pandemiyanın mənfi nəticələri ölkənin xarici ticarət dövriyyəsinin ÜDM-də xüsusi çəkisinin azalmasında özünü göstərmişdir. 2021-ci ilin sonuna qədər müsbət tendensiya davam edərək Azərbaycanın xarici ticarətdəki azalmanın öhdəsindən qismən gəlinmişdir.

2015-2019-cu illərdə Azərbaycan hökumətinin əhəmiyyətli səyləri ölkənin xarici iqtisadi əlaqələrinin bərpasına və genişlənməsinə səbəb olmuşdur. Cədvəldən göründüyü kimi, 2015-ci ildən 2020-ci ilin əvvəlinədək ölkə üzrə həm ÜDM-in, həm də xarici ticarət dövriyyəsinin həcmi artmışdır. Həmçinin, xarici ticarət dövriyyəsinin ÜDM-də xüsusi çəkisi artmışdır. Lakin 2020-ci ildə qeyd edilən göstəricilər üzrə azalmalar müşahidə olunmuşdur. Məsələn, 2020-ci ildə 2019-cu ilə nisbətən ÜDM-in həcmi 13,1%, xarici ticarət dövriyyəsinin həcmi 36,6%, xarici ticarət dövriyyəsinin ÜDM-də xüsusi çəkisi isə 11,8% azalmışdır. 2021-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsi 35556,4 milyon dollar təşkil edib [2].

Cədvəl 1.

Azərbaycanın xarici ticarət dövriyysənin ÜDM-də xüsusi çəkisi, faizlə

	2015	**2016**	**2017**	**2018**	**2019**	**2020**
ÜDM, milyon dollar	52996,8	37862,8	40867,9	47112,9	48174,2	42607,2
Xarici ticarət dövriyyəsi, milyon dollar	25809,0	21596,6	24263,8	31782,7	33065,3	24201,1
Xarici ticarət dövriyysənin ÜDM-də xüsusi çəkisi. faizlə	48,7	57,0	59,4	67,5	68,6	56,8

Mənbə: *DSK məlumatları əsasında tərtib edilib*

ÜDM-in və xarici ticarət dövriyyəsinin azalmasına pandemiyanın təsiri olmuşdur. Pandemiyanın nəticələrinin aradan qaldırılması üçün Azərbaycanın xarici iqtisadi fəaliyyət strategiyası ilə bağlı qərarlara yenidən baxılmasını zərurətə çevirmişdir. Belə bir şəraitdə xarici iqtisadi fəaliyyət strategiyası ilə bağlı bir sıra suallar da meydana çıxır. Bu sualların cavabları təkcə Azərbaycan Respublikasının özü üçün çox aktual deyil, həm də ölkənin xarici iqtisadi tərəfdaşları üçün çox aktualdır. Bu baxımdan, milli səviyyədə ortaya çıxan problemləri, Azərbaycan iqtisadiyyatının sabitliyinin qorunmasına təsir edən amilləri təhlil etmək, həmçinin xarici iqtisadi əlaqələr sisteminin işini qiymətləndirmək lazımdır.

Xarici bazara girərkən dövlət özünü sərt beynəlxalq rəqabət şəraitində görür. Pandemiyadan başqa bir sıra amillər xarici iqtisadi fəaliyyətin aparılmasına mane ola bilər. Bunlara daxildir:

- siyasi və hərbi qarşıdurmalar; - iqtisadi böhranlar; - müəssisələrdə məhsulun keyfiyyətinə təsir edən istehsalın texniki təchizatının geriliyi; - digər ölkələrin sanksiyaları və digər iqtisadi məhdudiyyətləri; - dövlət tənzimlənməsinin balanslaşdırılmamış mexanizmi - iki ölkə arasında qeyri –təkmil hüquqi çərçivə.

Həm pandemiya, həm də postpandemiya dövründə ölkənin xarici iqtisadi fəaliyyətinin inkişafına təsir edən amilləri aşağıdakı kimi qruplaşdıra bilərik:

- Siyasi; - İqtisadi; - Sosial -mədəni; - Texnoloji.

Siyasi amillər xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsinə əhəmiyyətli təsir göstərir. Xüsusən də bu, hərbi münaqişələrdən, sanksiyalardan və digər məhdudiyyətlərdən asılıdır. Xarici iqtisadi siyasət dövlət qanunlarına uyğun olaraq planlaşdırılmalıdır. Siyasi amillərə ölkənin müxtəlif birlik və təşkilatlara giriş və çıxışı, dövlətin xarici kapitala münasibəti, investisiya proseslərinə təsir səviyyəsi, vergi siyasəti və digər amillər daxildir. İqtisadi amillərə inflyasiya, ÜDM dinamikası, işsizlik, valyuta məzənnələri, iqtisadi artım templəri, rəqabət səviyyəsi, neft qiymətləri və s. aiddir. Bunlar vətəndaşların alıcılıq qabiliyyətinə və xarici bazarda ölkə məhsullarının istehlak strukturuna təsir göstərir. Ölkənin xarici iqtisadi fəaliyyətinə təsir edən sosial amillər sosial qrupların quruluşunu, istehlakçı seçimlərinin bölgüsünü,

cəmiyyətin yaş və cins quruluşunun bölüşdürülməsinin dinamikasını, əhalinin həyat səviyyəsini, əmək haqqı gözləntilərini və əhalinin təhsil səviyyəsini əhatə edir. Texnoloji amillər dünya bazarında istehsalın inkişaf tendensiyalarına və yeni texnologiyaların istifadəsinə təsir edən elmi-texniki yeniliklərdir. Bunlara elmi kəşflər, patent qanunvericiliyində və sənayedə dəyişikliklər və s. daxildir.

Mənbə: *DSK məlumatları əsasında tərtib edilib*

Şəkil. 2010-2020-ci illər ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi, milyon ABŞ dolları

Hazırda Azərbaycan Respublikasının xarici iqtisadi strategiyasının əsas istiqaməti emal sənayesinin məhsullarının keyfiyyətini dünya bazarında mövcud beynəlxalq standartlara və rəqabət şərtlərinə uyğunlaşdırmaqdır. Bu problemin müasir texnologiyalar və avadanlıqlardan istifadə etməklə həlli yaxın gələcəkdə ən vacib tədbirlərdən biri olmalıdır. Beləliklə, istehsalın və məhsulların keyfiyyətini artırmaqla yüksək potensiala malik olan sahələrin prioritet inkişafını təmin etmək mümkündür [3, s.252].

Qeyd edək ki, son illər ərzində yüksək texnoloji sənayenin yüksəlişi Azərbaycanda iqtisadi artıma təsir göstərmişdir. Ona görə də yüksək texnologiyalı sənaye məhsullarının xarici bazarlara çıxarılması üçün yeni imkanlar tapmaq ehtiyacı pandemiya dövründən başlayaraq Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət kəsb etməkdədir. Dövlətin və özəl korporasiyaların səyləri milli iqtisadi sistemi kökündən modernləşdirərək beynəlxalq standartlara uyğun rəqabət qabiliyyətli bir sənayeye çevirməyə imkan verir. Xarici iqtisadi siyasətin vəziyyətini sabitləşdirmək üçün xarici tərəfdaşlar arasında əlaqələrə də diqqət yetirilməsi tələb olunur. Xarici iqtisadi siyasətdə tərəfdaşlar arasında qarşılıqlı əlaqələrin ətalətliliyini bərpa etmədən yeni layihələri işə salmaq və reallaşdırmaq səmərə verməz. Ümumiyyətlə, hər bir ciddi qlobal böhran kimi, koronavirus pandemiyası da hər hansı bir ölkənin xarici iqtisadi siyasətinə əlavə risklər və təhdidlər yaratmaqla yanaşı, həm də yeni imkan və perspektivlər açır.

Ədəbiyat

1. Əhmədova G.S. Qloballaşma prosesində ölkənin xarici iqtisadi inkişaf strategiyası və onun reallaşdırılması istiqamətləri. İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər: Beynəlxalq elmi konfransın materialları, Sumqayıt, 08-09 iyul 2020, s. 47-50

2. Azərbaycanın xarici ticarəti. Statistik məcmuə. Bakı, 2021, 212 s.

3. Şəkərəliyev A.Ş, Şəkərəliyev Q.A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: Turxan NPB, 2016, 536 s.

Резюме

Рустамова Г.Р., Рахимли Э.Ш

Стратегические аспекты внешнеэкономической политики Азербайджана

В начале XXI века тема устойчивого развития приобрела особую актуальность в мировой экономической и научной среде. Устойчивое развитие на глобальном уровне обусловлено рядом условий. Улучшение благосостояния населения, обеспечение суверенитета и безопасности, повышение конкурентоспособности национальной экономики поставлены в качестве важных целей в Азербайджанской Республике. Достижение этих целей во многом зависит от правильно выбранной

экономической политики, в том числе внешнеэкономической. Это, в свою очередь, положительно влияет на устойчивое развитие страны.

Ключевые слова: *мировой рынок, внешняя политика, национальная экономика, интеграция, национальная безопасность, международное разделение труда*

Summary

Rustamova G.R., Rahimli E.S.

Strategic Aspects of the Foreign Economic Policy of Azerbaijan

At the beginning of the 21st century, the topic of sustainable development has gained special relevance in the global economic and scientific environment. Sustainable development at the global level is caused by a number of conditions. Improving the well-being of the population, ensuring sovereignty and security, and increasing the competitiveness of the national economy are set as important goals in the Republic of Azerbaijan. Achieving these goals depends a lot on a correctly chosen economic policy, including foreign economic policy. This, in turn, has a positive effect on the sustainable development of the country.

Key words: *world market, foreign policy, national economy, integration, national security, international division of labor*

MİLLİ TƏHLÜKƏSİZLİK SİSTEMİNİN STRUKTUR ELEMENTİ OLAN İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ YOLLARI

Vəliyeva Lalə Müsəllim qızı
Sumqayıt Dövlət Universiteti
lale-sdu@mail.ru

Fərhadi Püstə Oruc qızı
Bakı Biznes Universiteti
emin.turant1@gmail.com

Xülasə: *Məqalə iqtisadi təhlükəsizliyin onu təşkil edən elementlər sisteminin məzmununun aydınlaşdırılması, bu sistem daxilində iqtisadi münasibətlərin mahiyyətinin açıqlanması, habelə onların iyerarxiyasının qurulması və iqtisadi təhlükəsizliyin rolunu və yerini müəyyən etmək baxımından öyrənilməsinə həsr edilmişdir. Dövlətin iqtisadi təhlükəsizliyi ölkənin milli təhlükəsizliyinin elementi kimi çıxış edərək və bu münasibətlərin mürəkkəb, çoxşaxəli sistemidir. Ümumiyyətlə, həm mikro, həm də makro səviyyədə iqtisadi təhlükəsizlik iqtisadi sistemin optimal yaşayış şəraitini saxlamaq qabiliyyətini xarakterizə edən əsas keyfiyyət xarakteristikası hesab olunur.*

Açar sözlər: *təhlükəsizlik, milli təhlükəsizlik, iqtisadi təhlükəsizlik, iqtisadi təhlükəsizlik elementləri, təhdidlər*

İstənilən dövlətin inkişafı xarici və daxili təhlükələrin yaranması ilə müşayiət olunan köklü sosial-iqtisadi dəyişikliklərlə bağlıdır. İqtisadi sistemdə baş verən dəyişikliklərlə bağlı ölkənin iqtisadi potensialını azaldan, onun müstəqilliyinə xələl gətirən, milli-dövlət maraqlarının həyata keçirilməsinə mane olan bu cür təhlükələr ölkənin milli təhlükəsizliyinə təhdid hesab edilir. Lakin təhdidlərdən danışmazdan əvvəl "milli təhlükəsizlik" kateqoriyasının məzmunu üzərində dayanmaq lazımdır.

Müasir iqtisadi ədəbiyyatlarda milli təhlükəsizlik sisteminin əsas elementləri bunlardır:

- ekoloji
- iqtisadi
- hərbi
- sosial
- enerji
- innovasiya
- mədəni təhlükəsizlik və s.[4, c.275].

İqtisadi təhlükəsizlik təkcə iqtisadiyyatın məkan-zaman kontinuumunda vəziyyəti deyil, həm də iqtisadi əlaqələri ifadə edən və milli iqtisadi sistemdə müəyyən yer tutan iqtisadi kateqoriyadır [8].

Hər bir mürəkkəb sistemdə olduğu kimi, iqtisadi təhlükəsizliyin mahiyyətinin və məzmununun müəyyənləşdirilməsində problem mövcuddur. Bu problem bir çox iqtisadçıların diqqət mərkəzindədir. Belə

ki, xarici ekspertlərin fikrincə, iqtisadi təhlükəsizliyin əsas elementi həm ölkənin daxili inkişafının vektorunu, həm də onun beynəlxalq əlaqələrinin istiqamətini müəyyən edən qərarların qəbulunda dövlətin müstəqilliyinin təmin edilməsidir.

Ümumiyyətlə, iqtisadi təhlükəsizliyin tərifinə beş əsas yanaşma var:

1) Ölkənin iqtisadi müstəqilliyi kimi. Bu yanaşmaya uyğun olaraq iqtisadi təhlükəsizlik ölkənin milli iqtisadiyyatını xarici və daxili təhdidlərin təsirindən qorumağa imkan verən şərtlər toplusu kimi müəyyən edilir. Müstəqillik iqtisadi təhlükəsizliyin ən mühüm şərtidir.

Lakin qloballaşan dünya iqtisadiyyatında, yəni dünya iqtisadiyyatının müxtəlif sahələrinin və proseslərinin qarşılıqlı asılılığının və qarşılıqlı təsirinin artması şəraitində bu kateqoriya mütləq ola bilməz. Beləliklə, kiçik ölkələr əksər hallarda yüksək bal toplaya bilməzlər. İqtisadi təhlükəsizlik müstəqillik kateqoriyası vasitəsilə nəzərdən keçirilir. Eyni zamanda, bir tərəfdən, müxtəlif amillərdən maksimum dərəcədə müstəqilliyin təmin edilməsi yolu ilə əldə edilən iqtisadi təhlükəsizliyin şərti əsas ola bilər, digər tərəfdən, bu şərt unikal deyil;

2) İqtisadi təhlükəsizliyin tədqiqini onun təmin edilməsi imkanının və şərtlərinin müəyyən edilməsi müstəvisinə keçirən şərtlər və amillər məcmusu kimi;

3) Milli iqtisadiyyatın sabitliyi kimi, bu da öz növbəsində onun struktur elementlərinin möhkəmliyini və etibarlılığını, daxili və xarici kommunikasiyaların və əlaqələrin sabitliyini müəyyən edir. Milli iqtisadiyyatın davamlılığı təkcə milli iqtisadiyyatın inkişafı üçün şəraitin yaradılmasını deyil, həm də bu inkişafa mane olan mənfi amillərin aradan qaldırılmasını nəzərdə tutur. Bu kontekstdə iqtisadi təhlükəsizlik iqtisadiyyatın dayanıqlı iqtisadi artıma, səmərəli idarəetməyə və s. nail olmaqla sosial ehtiyacların səmərəli şəkildə ödənilməsini təmin etmək qabiliyyəti kimi müəyyən edilir;

4) Ölkənin milli-dövlət maraqlarının daxili və xarici təhlükələrdən qorunması kimi. Lakin bu istiqamətin nümayəndələri, bir qayda olaraq, ictimai, milli və dövlət maraqlarını ayrıca nəzərə alırlar ki, bu da onların təmas sahələrini aşkar etməyə imkan vermir;

5) Ehtiyacların ödənilməsi prosesi kimi, yəni iqtisadi təhlükəsizlik iqtisadiyyatın həm milli, həm də beynəlxalq səviyyədə sosial ehtiyacların səmərəli şəkildə ödənilməsi üçün şərait təmin etmək qabiliyyətini nəzərdə tutur. Dövlətin milli təhlükəsizliyi, ilk növbədə, ölkə iqtisadiyyatının vəziyyəti, onun müəssisələrə əsaslanan real sektoru ilə təmin edilir [2, s. 96].

Beləliklə, iqtisadi təhlükəsizlik kateqoriyasının müəyyən edilməsi problemi onun öyrənilməsi və təmin edilməsi məsələlərinin həlli üçün müxtəlif yanaşma və istiqamətləri özündə birləşdirir, həm də iqtisadiyyatı təmin edən mexanizmin elementləri olan xarici və daxili təhlükələrə qarşı mübarizənin əsas istiqamətlərinin formalaşdırılmasını da əhatə edir.

Əgər yerli iqtisad elmindən danışırıqsa, o zaman iqtisadi təhlükəsizliyin mahiyyəti iqtisadiyyatın və hakimiyyət institutlarının vəziyyəti kimi formalaşan, milli maraqların təminatlı müdafiəsi, siyasətin sosial yönümlü olduğu ən çox istifadə edilən şərhdir. Eyni zamanda daxili və xarici proseslərin inkişafı üçün əlverişsiz şəraitdə belə kifayət qədər müdafiə potensialı təmin edilir. Müvafiq olaraq, iqtisadi təhlükəsizlik milli maraqların qorunmasını, daxili və xarici təhlükələrə qarşı müqavimətini, inkişaf etmək qabiliyyətini və insanların, cəmiyyətin, dövlətin həyati mənafelərinin qorunmasını təmin edən milli iqtisadiyyatın belə bir vəziyyətidir. Bundan əlavə, nəzərə almaq lazımdır ki, iqtisadi təhlükəsizlik kontekstində milli təhlükəsizlik çox vaxt şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati mənafelərinin təhlükə və təhdidlərdən qorunmasını xarakterizə edən sosial hadisə kimi müəyyən edilir [1, s.103].

Ölkənin iqtisadi təhlükəsizliyi ayrılıqda mövcud deyil, o, birlikdə ölkənin milli təhlükəsizliyini təşkil edən sosial və hərbi təhlükəsizliklə sıx əlaqədədir. Bundan əlavə, iqtisadi təhlükəsizlik əsasən həm cəmiyyətdəki siyasi sabitlik, həm də cəmiyyətin hüquqi və informasiya mühafizəsi səviyyəsi ilə müəyyən edilir.

Müasir şəraitdə milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin açarı elmi-texniki tərəqqinin nailiyyətlərinin, innovativ texnologiyaların fəal tətbiqi əsasında davamlı intensiv iqtisadi artımın təmin edilməsindən ibarətdir, həmçinin bunun nəticəsi də əhalinin rifahının yüksəlməsi olmalıdır.

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın effektiv dinamik artımına müsbət təsir göstərən və ya əngəl törədən şərtlərin məcmusu ilə müəyyən edilir.

Ümumiyyətlə, təhlükə hədd dəyərləri ilə xarakterizə olunan təhlükə vəziyyətidir. Milli təhlükəsizliyə təhdidlər dövlətin həm ərazisində, həm də ondan kənarda həyata keçirilən milli maraqlar sistemi ilə müəyyən edilir.

Xarici təhlükələr geosiyasi və xarici iqtisadi amillərlə yanaşı, milli suverenliyi sarsıdan qlobal ekoloji proseslərdir. Xarici iqtisadi təhlükəsizliyin təmin edilməsi ölkənin dünya iqtisadiyyatında iştirakının milli iqtisadiyyatın inkişafına töhfə verməsini tələb edir.

Daxili təhlükələr ölkənin öz iqtisadiyyatının vəziyyətinə, sosial gərginliyin səviyyəsinə, iqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin səmərəsizliyinə və digər amillərə görə özünü qoruyub saxlaya bilməməsi və özünü inkişaf etdirə bilməməsidir.

Rəsmi sənədlərdən danışırıqsa, onda ölkələrin iqtisadi təhlükəsizliyinin dövlət strategiyalarında aşağıdakı təhdidlər müəyyən edilir:

- əhalinin əmlak fərqi və yoxsulluq səviyyəsinin artması;
- milli iqtisadiyyatın strukturunun deformasiyası;
- regionların sosial-iqtisadi inkişafının qeyri-bərabərliyinin artması;
- cəmiyyətin kriminallaşdırılması və s. [3, c.194].

İqtisadi təhlükəsizliyə əsas təhdidlərin müəyyən edilməsi praktikada geniş vüsət almışdır:

- əsas fondların yüksək aşınması nəticəsində istehsal potensialının itirilməsi;
- xarici borc və maliyyə böhranının kəskinləşməsi təhlükəsi;
- investisiya fəaliyyətinin qeyri-sabitliyi;
- istehsalın aşağı rəqabət qabiliyyəti;
- əhalinin yoxsulluğunun yüksək səviyyəsi və xalqın böyük hissəsinin həyat keyfiyyətinin aşağı olması;
- kapital uçuşu və s.

Belə ki, milli təhlükəsizlik sisteminin struktur elementi olan iqtisadi təhlükəsizlik ölkənin etibarlı müdafiə qabiliyyətinin təmin edilməsi, sosial sülhün qorunması kimi komponentlərlə birlikdə cəmiyyətdə və ekoloji fəlakətlərdən qorunmaqda müxtəlif təhlükələri zərərsizləşdirməyə kömək edir. Eyni zamanda, bütün istiqamətlər bir-birinə bağlıdır və biri digərini tamamlayır.

Bundan əlavə, iqtisadi qeyri-müəyyənlik elementlərinin qarşılıqlı əlaqəsi kifayət qədər mürəkkəb çoxsəviyyəli sistem təşkil edir ki, bu sistemə üç mühüm element daxildir:

- iqtisadi müstəqillik
- milli iqtisadiyyatın sabitliyi, özünü inkişaf
- tərəqqi qabiliyyəti.

İqtisadi təhlükəsizliyi çoxsəviyyəli sistem kimi nəzərdən keçirən iqtisadçılar iyerarxik sistemi təşkil edən aşağıdakı komponentləri müəyyən edirlər:

– makroiqtisadi – milli iqtisadi təhlükəsizlik (milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyi);
– mezoiqtisadi – regionların və sənaye sahələrinin iqtisadi təhlükəsizliyi;
– mikroiqtisadi – müəssisələrin (firmaların) və ev təsərrüfatlarının iqtisadi təhlükəsizliyi.

Beləliklə, iqtisadi təhlükəsizlik elementləri mürəkkəb çoxsəviyyəli bir sistemdir və onun xarakteri təkcə milli iqtisadiyyatın mövcud vəziyyətini deyil, həm də onun gələcək inkişafı şərtlərini, ölkəyə xarici və daxili təsirlərə tab gətirmək qabiliyyətini müəyyən edir.

Ədəbiyyat

1. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Metodik vəsait. Bakı, 2011, 120 s.

2. Tanrıverdi Əhməd Paşa. Regionların iqtisadi inkişafının dövlət tənzimlənməsinin başlıca problemləri, Bakı: AMEA, 2005, 187 s.

3. Качалов Р.М. Təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyi sistemində dövlətin funksiyaları // Вестник УГТУ-УПИ. Ser.: İqtisadiyyat və idarəetmə. 2006. № 1. 280 с.

4. Sosial-iqtisadi sistemlərin təşkili və idarə edilməsi: monoqrafiya. / red. . Н. И. Лыгиной. Kitab. 2. Sankt-Peterburq, 2007. 322 с.

Резюме

Велиева Л.М., Ферхади П.О.

Пути обеспечения экономической безопасности, являющейся структурным элементом системы национальной безопасности

Статья посвящена изучению экономической безопасности с точки зрения выяснения содержания системы составляющих ее элементов, объяснения сущности экономических отношений внутри этой системы, а также установления их иерархии и определения роли и места, экономической безопасности. Экономическая безопасность государства выступает как элемент национальной безопасности страны и представляет собой сложную, многогранную систему этих отношений. В целом экономическая безопасность как на микро-, так и на макроуровне считается ключевой качественной характеристикой, отражающей способность экономической системы поддерживать оптимальные условия жизнедеятельности.

Ключевые слова: *безопасность, национальная безопасность, экономическая безопасность, элементы экономической безопасности, угрозы*

Summary
Veliyeva L.M., Ferhadi P.O.
Ways of Providing Economic Security, Which is a Structural Element of the National Security System

The article is devoted to the study of economic security in terms of clarifying the content of the system of elements that make it up, explaining the essence of economic relations within this system, as well as establishing their hierarchy and determining the role and place of economic security. The economic security of the state acts as an element of the country's national security and is a complex, multifaceted system of these relations. In general, economic security, both at the micro and macro levels, is considered a key qualitative characteristic that characterizes the ability of an economic system to maintain optimal living conditions.

Key words: *security, national security, economic security, elements of economic security, threats*

SOSİAL ƏHƏMİYYƏTLİ İNVESTİSİYA LAYİHƏLƏRİNİN TƏTBİQİ NƏTİCƏSİNDƏ YARANAN TƏSİRLƏR

Yəhyayeva Aynurə Yusif qızı, Talıblı Südeyif Natiq oğlu
Sumqayıt Dövlət Universiteti
yehyayeva1@gmail.com

Xülasə: *Məqalədə dövlət məqsədli investisiya proqramının formalaşdırılması və reallaşdırılmasının məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Sosial əhəmiyyətli investisiya layihələrinin hazırlanmasının zəruriliyi əsaslandırılmışdır. Sosial əhəmiyyətli investisiya layihəsinin reallaşdırılması nəticəsində müsbət və mənfi sosial təsirlər araşdırılmışdır. İnvestisiya layihələrinin sosial səmərəlilik göstəriciləri və onların qiymətləndirilməsinə metodoloji yanaşmalar nəzərdən keçirilmişdir.*

Açar sözlər: *sosial əhəmiyyətli investisiya layihələri, dövlət investisiya proqramları, səmərəlilik, qiymətləndirmə, əhali, müəssisə*

Bazar şəraitində investisiya fəaliyyəti bütün ölkənin inkişafında böyük rol oynayır. İnvestisiyalar müxtəlif növlərdə olur ki, bunlardan biri dövlət investisiiyalarıdır. Dövlət investisiyası investisiya növlərindən biri kimi büdcə vəsaitlərinin dövlət mülkiyyətində olan obyektlərə qoyulmasını nəzərdə tutur. Dövlət investisiya növünün xarakterinə və istiqamətinə əsasən belə investisiyalar məhdud resursdur və yalnız bir sıra şərtlər yerinə yetirildikdə təsərrüfat subyektlərinə verilir. Bu cür investisiyalar məqsədli dövlət proqramlarının reallaşdırılmasına yönəldilir ki, bu proqramların icrası öz növbəsində vətəndaşları sosial-mədəni vəziyyətinin yaxşılaşdırır, eləcə də onları yaşayış sahələri ilə təminatına imkan verir. Məqsədli proqramların reallaşdırılmasında əsas məsələlərdən biri onların formalaşması və maliyyələşdirilməsi prinsiplərinin müəyyənləşdiriliməsidir.

Dövlət investisiya proqramları və layihələri üçün büdcə vəsaitlərinin bölüşdürülməsi problemi qanunverici orqanlar səviyyəsində həll edilir. Dövlət investisiya proqramlarının hazırlanması dövlət və bələdiyyə idarəetməsi üçün effektiv vasitədir. Dövlət məqsədli investisiya proqramları investisiyaların büdcə planlaşdırılması üçün ən təsirli vasitədir.

Dövlət məqsədli investisiya proqramını formalaşdırarkən və reallaşdırarkən iki səviyyəli metodiki vəzifə həll edilməlidir:

- proqramın formalaşdırılması mərhələsində layihələrin proqrama daxil edilməsi prinsipləri və meyarlarının müəyyənləşdirilməsi;
- proqramın icrası və saxlanması mərhələsində həmin proqramın səmərəliliyinin qiymətləndirilməsi meyarlarının müəyyənləşdirilməsi.

Metodoloji yanaşma baxımından ikinci məsələyə - proqramın effektivliyinin qiymətləndirilməsinə daha çox diqqət yetirilir.

Ümumiyyətlə, investisiya sahəsi sosial ədalət və iqtisadi səmərəlilik arasında tarazlığın qurulduğu bir sistemdir. Son illər sosial əhəmiyyətli layihələri reallaşdıran müəssisələrə dövlət tərəfindən investisiyalar yönəldilir. Özəl investorlar və müəssisələr mənzil-kommunal təsərrüfatı, sosial evlərin tikintisi, kiçik biznesin inkişafı sahələrinə maraq göstəriblər. Bu istiqamətlərdə layihələrin reallaşdırılması regional və

bələdiyyə orqanlarının dəstəyinə arxalanmağa, biznesi şaxələndirməyə, böhran dövründə sabit gəlirləri təmin etməyə və demək olar ki, minimal rəqabət şəraitində bazar payı almağa imkan verir.

Sosial əhəmiyyətli investisiya layihələrinin tətbiqi onların sosial səmərəliliyini hesablamadan mümkün deyil. Səmərəliliyin qiymətləndirilməsi problemi investisiya layihəsinin inkişafının bütün mərhələlərində, yəni layihə proqramlarının planlaşdırılmasından tutmuş görülən işlərin nəticələrinin ümumiləşdirilməsinə qədər sosial investisiyaların təşkilinin fundamental problemidir. İnvestisiyaların sosial səmərəliliyi investisiya proseslərinin nəticələrinin cəmiyyətə əks olunması kimi başa düşülür.

Demək olar ki, bütün iri şirkətlər həm kommersiya, həm də sosial səmərəliliyi olan investisiya layihələri tətbiq edirlər. İnvestorların sosial əhəmiyyətli layihələrə marağının artması ilə əlaqədar belə layihələrin səmərəliliyinin qiymətləndirilməsi ilə bağlı məsələlərin aktuallığı artmışdır. Sosial əhəmiyyətli investisiya layihələrinin effektivliyini qiymətləndirmək üçün kommersiya səmərəliliyi ilə yanaşı, layihənin sosial və ekoloji səmərəliliyi də qiymətləndirilməlidir.

İnvestisiya layihəsinin reallaşdırılmasının sosial effekti həm iqtisadi, həm statistik, həm də sosial göstəricilərlə müəyyən edilir. Layihənin cəmiyyətin maraqları baxımından səmərəliliyi sosial səmərəlilik göstəricilərində özünü göstərir. Müəyyən bir layihənin reallaşdırılması məqsədilə sərf olunan vəsaitlərin və digər resurs xərclərinin məqsədəuyğunluğunu göstərir və təhlil etməyə kömək edir. Sosial layihəni qiymətləndirmək üçün ilk növbədə investisiya layihəsinin nəticələrini müəyyənləşdirmək məqsədilə istifadə edilə bilən göstəricilər sisteminin təyin edilməsi vacibdir. Bu göstəricilərin hazırlanması qiymətləndirmənin ən çətin mərhələsidir [1, s.145]. İnvestisiya layihələrinin sosial effektivlik göstəricilərinə nəzər salaq:

1. Əhalinin həyat səviyyəsinin dəyişməsi - əmək haqqı artımının təsiri ilə hesablanır.
2. Əhalinin məşğulluq səviyyəsinin dəyişməsi - layihənin icrası zamanı cəlb edilmiş işçilərin sayı ilə təyin edilir.
3. Göstərilən xidmətlərin keyfiyyətinin dəyişməsi - ekspert qiymətləndirməsindən istifadə etməklə təyin edilir.
4. Xidmətlərin qiymətlərinin dəyişməsi - qiymət dəyişikliklərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə təyin edilir.
5. İş şəraitinin dəyişməsi - ekspert qiymətləndirməsinin köməyi ilə müəyyənləşdirilir.
6. Nəqliyyat əlçatanlığınını dəyişməsi.

Sosial səmərəliliyin ayrı-ayrı komponentləri kəmiyyətlə ölçülə və layihənin iqtisadi səmərəliliyinin hesablamalarında əks oluna bilər. Bu göstəricilərə aşağıdakılar daxildir: regionda iş yerlərinin dəyişməsi; istehsal heyətinin strukturunda dəyişiklik; rayonların və ya yaşayış məntəqələrinin əhalisinin müəyyən mallarla təminatının etibarlılığının dəyişməsi; işçilərin və əhalinin sağlamlıq səviyyəsinin dəyişməsi; insanların boş vaxtlarına qənaət etməsi və s.

Sosial əhəmiyyətli investisiya layihəsinin reallaşdırılması nəticəsində həm müsbət, həm də mənfi sosial təsirlər yaranır. Müsbət sosial təsirlərə yeni iş yerlərinin yaradılmasını, əhalinin həyat keyfiyyətinin və səviyyəsinin yüksəldilməsini, regionda mövcud olan xidmətlərin (səhiyyə, təhsil, bədən tərbiyəsi və idman, mədəniyyət, mənzil-kommunal təsərrüfatı və nəqliyyat sahəsində) keyfiyyətinin yaxşılaşdırılmasını və bu xidmətlərə əhalinin əlçatanlığının təmin edilməsini, əhalinin sağlamlığının və regionda demoqrafik vəziyyətin yaxşılaşdırılmasını, işçi qüvvəsinin təhsil və ixtisas səviyyəsinin yüksəldilməsini, ixtisassız əməyin istifadəsinin azaldılmasını, miqrasiya axınlarının optimallaşdırılmasını, cəmiyyətdə sosial gərginliyin azaldılmasını, sosial sabitliyin təmin edilməsini və institusional islahatlara sosial dəstək göstərilməsini və s. aid eymək olar. İnvestisiyalardan müsbət sosial effektlərin əldə edilməsi, bir qayda olaraq, makro və mikroiqtisadi səviyyədə aparılan səmərəli sənaye siyasətinin həyata keçirilməsinə gətirib çıxarır. Mənfi sosial təsirlərə aşağıdakılar daxildir: iş yerlərinin ixtisarı; yerli işçi çatışmazlığının yaranması; sosial gərginliyin və sosial münaqişələrin yaranması və s [3, s.38].

Sosial əhəmiyyətli layihələrə investisiya qoyarkən və onları investisiya fəaliyyətinin iştirakçıları ilə əlaqələndirərkən yaranan sosial effektin mümkün variantlarını aşağıdakı cədvəl vasitəsilə əks etdirə bilərik (cədvəl).

Cədvəl.

Sosial əhəmiyyətli investisiya layihələrinin tətbiqi nəticəsində yaranan təsirlər

Sosial investisiya prosesinin iştirakçıları	Sosial investisiya nəticəsində müsbət təsir	
	Sosial	İqtisadi
Dövlət	Əhalinin həyat keyfiyyətinin yüksəldilməsi: - həyat səviyyəsinin yüksəldilməsi; - daha yaxşı həyat tərzi üçün dəyişiklik; - yaşayış şəraitinin yaxşılaşdırılması.	Milli gəlirin artması. Əhalinin pul və real gəlirlərinin artırılması. Əhalinin alıcılıq qabiliyyətinin artması. Milli məcmu kapitalın

	Cəmiyyətdə sosial gərginliyin azaldılması.	artırılması.
Müəssisə	Müəssisə imicinin formalaşdırılması və işgüzar nüfuzunun yüksəldilməsi. Müəssisəyə münasibətdə işçilərin və müştərilərin etimadının gücləndirilməsi və loyallığının artırılması. Müəssisə tərəfindən uzunmüddətli rəqabət üstünlüklərinin əldə edilməsi. Hakimiyyət orqanları ilə əlaqələrin yaxşılaşdırılması.	Müəssisənin satış və mənfəətinin artırılması. Müəssisənin yeni bazarlara çıxması. Maliyyə vəziyyətinin yaxşılaşması. Uzunmüddətli perspektivdə şirkətin dəyərində artım.
Sosial investisiya obyektlərinin istifadəçiləri	Vətəndaşın sosial statusunun yüksəldilməsi. Cəmiyyət üzvləri arasında ünsiyyətdə gərginliyin azaldılması. Şəxsin təhsil səviyyəsinin yüksəldilməsi. Cəmiyyət üzvlərinin sağlamlığının və uzunömürlülüyünün yaxşılaşdırılması. Cəmiyyət üzvləri üçün boş vaxta qənaət edilməsi.	Əhalinin müxtəlif kateqoriyaları üçün gəlir artımı. Yaşayış şəraitinin yaxşılaşdırılması. İstehlak olunan sosial xidmətlərin həcminin, növlərinin artırılması və keyfiyyətinin yüksəldilməsi. Sosial xidmətlərdən istifadə xərclərinin azaldılması.

Dövlət və bələdiyyə büdcələrindən maliyyələşdirilən sosial layihələrin səmərəliliyinin qiymətləndirilməsi bir sıra şərtlərə nail olmağa yönəlib:

- dövlət, regional və bələdiyyə büdcələrinin istifadəsi ilə bağlı məlumatların açıqlığının təmin edilməsi;
- layihənin icrası prosesində dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsinə diqqət yetirilməsi;
- layihə üzrə qəbul edilən idarəetmə qərarlarının səmərəliliyinin artırılması;
- layihədə qarşılıqlı fəaliyyətin idarə edilməsi vəzifələrinin həlli [2, s.9].

Sosial layihələrinin icrasının nəticələrini kommersiya layihələrindən fərqli həmişə iqtisadi effektdən istifadə etməklə qiymətləndirmək olmur. Bundan əlavə, çox vaxt birinci yerdə layihənin effektivliyinin deyil, sosial standartlara nail olunmasının qiymətləndirilməsi durur.

Beləliklə, sosial investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinə metodoloji yanaşma investisiyaların səmərəliliyinin qiymətləndirilməsi üzrə metodiki tövsiyələrdə müəyyən edilmiş və aşağıdakı mövqelərlə tamamlanan mövcud prinsiplər sisteminə əsaslanmalıdır:

- bütün maraqlı tərəflər üçün qiymətləndirmənin vahidliyi;
- inteqrasiya olunmuş sosial sahələr üzrə diferensiallaşdırılan fəaliyyətin uçotu prinsipi;
- sosial investisiya layihəsinin reallaşdırılmasının vacibliyinin nəzərə alınması prinsipi.

Ümumiyyətlə, sosial investisiya layihələrinin səmərəliliyi əsasən layihənin düzgün hazırlanmasından və əsaslandırılmasından asılıdır. Odur ki, risklərin qiymətləndirilməsi və gözlənilən pul vəsaitlərinin hərəkətinin ətraflı təhlili vacibdir.

Ədəbiyyat

1. Букалова, А. Ю. Постановка задачи исследования методов по определению социальной эффективности инвестиционных проектов / А. Ю. Букалова, Я. А. Буторина // Современные технологии в строительстве. Теория и практика. – 2019. – Т. 1. – С. 143-148

2. Ковалевская, Н. Ю. Методические аспекты оценки социальной эффективности инвестиций / Н. Ю. Ковалевская, Г. В. Хомкалов // Baikal Research Journal. – 2020. – Т. 11. – № 4. – С. 1-12

3. Чудинова, Л. Н. Проблемы оценки эффективности социально-значимых инвестиционных проектов / Л. Н. Чудинова // Дельта науки. – 2016. – № 1. – С. 37-40

Резюме

Яхъяева А.Ю., Талыблы С.Н.

Воздействия в результате реализации социально-значимых инвестиционных проектов

В статье определены цели и задачи формирования и реализации государственной инвестиционной программы. Обоснована необходимость подготовки социально-значимых инвестиционных проектов. В результате реализации социально-значимого инвестиционного проекта

исследованы положительные и отрицательные социальные эффекты. Рассмотрены показатели социальной эффективности инвестиционных проектов и методические подходы к их оценке.

Ключевые слова: *социально-значимые инвестиционные проекты, государственные инвестиционные программы, эффективность, оценка, население, предприятие*

Summary

Yahyaeva A.Y., Talibli S.N.

Impacts Resulting from the Implementation of Socially Significant Investment Projects

The article defines the goals and objectives of the formation and implementation of the state investment program. The necessity of preparing socially significant investment projects is substantiated. As a result of the implementation of a socially significant investment project, positive and negative social effects have been studied. The indicators of social efficiency of investment projects and methodological approaches to their evaluation are considered.

Key words: *socially significant investment projects, government investment programs, efficiency, assessment, population, enterprise*

II BÖLMƏ

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA YARADILAN İNFRASTRUKTURUN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ

İŞĞALDAN AZAD OLUNMUŞ ŞUŞA ŞƏHƏRİNDƏ TURİZM PROBLEMLƏRİ

Abbasov Rasim Cavan oğlu, Qasımova Rəna Vasif qızı
Qərbi Kaspi Universiteti
ra545@inbox.ru ; qvarena@gmail.com

Xülasə: *Turizm inkişaf etmiş ölkələr üçün iqtisadi artımın, inkişaf etməkdə olan ölkələr üçün isə iqtisadi inkişafın mühüm vasitələrindən biridir. Məhz bu araşdırmada işğaldan xilas olmuş Şuşanın turizm problemləri və mövcud turizm potensialı araşdırılacaq.*

Nəticədə belə bir qənaətə gəlinib ki, turizm sektoruna lazımi investisiyalar yatırılarsa, turizm Şuşanın inkişafında səmərəli sahə ola bilər.

Açar sözlər: *işğaldan azad edilmiş torpaqlar, Şuşa şəhəri, turizm potensialı, turizm problemləri, mövcud vəziyyət*

Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağın turizm potensialı çox genişdir. Bu gün həmin ərazilərdə aparılan genişmiqyaslı quruculuq və abadlıq işləri də rayonun turizm sənayesinin yaxın gələcəkdə inkişafı üçün çox vacibdir.

Azərbaycanın qədim tarixə malik bu bölgəsində ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi və sağlamlıq turizmi kimi bir çox turizm növlərinin inkişafı üçün bütün imkanlar mövcuddur. Flora və fauna, mətbəx, tarixi mədəniyyət və dini abidələr, qədim qalalar, körpülər, meşələr, su ehtiyatları və s. mənzərələri ilə turistləri cəlb edir. Bu səbəbdən də bu gün qarşımızda duran əsas məqsədlərdən biri işğaldan azad edilmiş torpaqlarımızda turizmin inkişafıdır [1].

Qarabağın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində bütün rayonlarla yanaşı, rayonun turizm iqtisadiyyatına da ciddi ziyan dəyib. Sovet dövründən fəaliyyət göstərən kurort və istirahət mərkəzləri ictimaiyyətin diqqətini cəlb etməklə yanaşı, həm də müalicəvi xüsusiyyətləri ilə tanınırdı.

Təəssüflər olsun ki, 30 ilə yaxın işğal nəticəsində bu ərazilərdə bütün sərvətlərimiz istismar edilib. İşğalçı rejim İkinci Qarabağ müharibəsinin son günlərinə qədər Qarabağın müxtəlif yerlərində qanunsuz arxeoloji qazıntılar aparıb və tapılan əşyalar Ermənistana daşınıb. Tarix və mədəniyyət abidələrimiz talan edilib, bütün infrastruktur dağıdılıb, qədim memarlıq abidələri sayılan məscid və onun minarələri vəhşicəsinə uçurulub, ziyarətgahlar dağıdılıb.

Bu vandallığa, fiziki və mənəvi zərərlərə baxmayaraq, dövlətimiz barbarlığa məruz qalmış dini, tarixi və mədəniyyət abidələrimizin bərpası ilə məşğuldur. Əsas etibarilə, Qarabağ mədəniyyətinin mənbəyi sayılan Şuşada başlanan mədəni quruculuq işləri digər bölgələrdə də davam etdiriləcək [3].

Azərbaycanın bu qədim bölgəsi özünəməxsus flora və faunası, mətbəxi, tarixi mədəniyyət və dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. ilə turistləri cəlb edir. Təbii sərvətlərlə zəngin olan Qarabağ müxtəlif növ ekstremal turizm, aqroturizm və yaşıl turizmi həyata keçirə bilər. Bütün bunlar turizmin inkişafı üçün geniş imkanlar yaradır. Şuşa qış turizmi üçün ideal yerdir.

İşğaldan azad edilmiş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə formasında qurulması çox vacibdir. Şuşa Azərbaycan turizminin simvolik şəhərlərindən biridir. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri və unikal memarlığı yeni turizm marşrutları yaratmağa imkan verir.

Qarabağın əsas turizm potensialı Şuşa və Ağdamda cəmlənsə də, rayonun bütün əraziləri müalicə və istirahət üçün əlverişlidir. Sovet dövründə ötən əsrin 30-cu illərindən Şuşada, 80-ci illərdə Ağdamda turizm potensialı inkişaf etmişdi. Qeyd edək ki, Şuşa şəhərində ilk qocalar evi 1936-cı ildə açılıb.

Şuşa sanatoriya-kurort birliyinin balansı 2 və 3 mərtəbəli 17 binadan ibarətdir. Bundan başqa, diqqətçəkən məqam odur ki, ötən əsrin 80-ci illərində Şuşada 200, Ağdamda 255 yerli sanatoriya binaları tikilsə də, münaqişələr başladığı üçün istifadəyə verilə bilməyib.

Şuşanın infrastrukturu elə qurulub ki, gələn turistlər orada hərtərəfli istirahət etsinlər. Şəhərdə böyük yay kinoteatrı fəaliyyət göstərir. Şuşanın quru və təmiz havası ağciyər, astma və bronxial xəstəliklərdən

əziyyət çəkənlər üçün əvəzsizdir. Mənfur ermənilər həmişə bölgəyə zərər veriblər. Çünki Dağlıq Qarabağda çox gözəl yerlər olsa da, Şuşa qədimliyi və təmiz havası ilə SSRİ-nin əsas turizm mərkəzlərindən biri hesab olunmuşdur.

Təəssüflər olsun ki, 1990-cı illərin əvvəllərində düşmən qonşularımız olan ermənilərin Azərbaycana qarşı bədxah niyyətləri və təcavüzkar siyasəti nəticəsində bütün bu imkanlar məhv edilmişdir. 30 ilə yaxın müddətdə işğal zamanı onun ətrafı, o cümlədən Dağlıq Qarabağ və Şuşa talan edilib. Belə ki, bölgədə tarixi-mədəni tikililər, təbii sərvətlər tamamilə talan edilib.

Şəkil1: Azad edilmiş Şuşa

Mənbə: [4]

Nəhayət, düz 28 ildən sonra ilahi ədalət zəfər çaldı - Azərbaycan ordusu düşməni Qarabağdan, eləcə də Şuşadan təmizlədi. Artıq ölkəmizin ərazi bütövlüyü təmin olunub. İşğaldan azad edilmiş şəhər, rayon və kəndlərdə, o cümlədən Şuşada quruculuq və abadlıq işləri çox sürətlə davam edir. İlk öncə Şuşa şəhərinin 2021-ci ildə Azərbaycanın, 2023-cü ildə isə Türk dünyasının mədəniyyət paytaxtı elan edildiyini söyləməliyik [2].

Şuşada genişmiqyaslı yenidənqurma işləri hələ də davam etdirilir. Bölgə bildiyimiz kimi, işğal zamanı xeyli zərər görmüşdü. Demək olar ki, işaldan sonra Şuşanın əvvəlki turistik əzəməti yoxa çıxmışdır. Bütün bunlar bölgədə başlıca turizm problemidir. Lakin qeyd etməliyik ki, yüksək səviyyədə aparılan mühafizə işləri başa çatdıqdan sonra regionda turizm infrastrukturu yenilənəcək və müasirləşdiriləcək.

Ümumilikdə Qarabağın turizm potensialı çox böyükdür. Bu halda bölgədə turizmin inkişafı üçün turizm sektoru təşkilatları ilə akademik qurumlar arasında əməkdaşlığın vacibliyini vurğulamaq lazımdır.

Prezident İlham Əliyevin 22 iyun 2021-ci il tarixli qərarı ilə Şuşa şəhərinin bərpasını, yenidən qurulmasını, öyrənilməsini, inkişafını və təbliğini təmin etmək məqsədilə "Şuşa Şəhər Dövlət Mühafizə İdarəsi" yaradılıb. Son bir ildə Şuşanın Cıdır düzündə görülən işlər sübut edir ki, Şuşada həm şəhərin tarixi simasının, həm də "Şuşa ruhunun" bərpası istiqamətində böyük irəliləyişlər baş vermişdir.

Nəticə olaraq, Azərbaycan üç onillik qanunsuz işğalı zamanı Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış mədəni və tarixi paytaxt Şuşanı yenidən qurmağı hədəfləyir [5].

28 illik işğaldan sonra 2020-ci il noyabrın 8-də azad edilən şəhərin 7 rayonunda məscidlər, məktəblər, yaşayış kompleksləri və tarixi yerlər də daxil olmaqla binalara ziyan dəyib, bir çoxu qaçmazdan əvvəl erməni silahlı qüvvələri tərəfindən dağıdılıb.

İşğaldan azad olunan kimi Şuşada dərhal bərpa və yenidənqurma işlərinə başlanılıb. Nəzərə alsaq ki, mədəniyyət paytaxtımızda çoxlu tədbirlər keçirilir, şəhər keçmişdə olduğu kimi turistlərin sevimli istirahət məkanlarından birinə çevriləcək, lazımi infrastrukturun yaradılmasına xüsusi diqqət yetiriləcək.

Şəhərin cəlbedici təbii coğrafiyası, Şuşanın tarixi-mədəni obyektlər arasında yerləşməsi, ötən ilin may ayında Şuşada "Xarıbülbül" mehmanxanasının əsaslı təmiri, mehmanxananın yaxınlığındakı 48 mənzil və bağ evinin, "Qarabağ" mehmanxanasının təmiri əsaslı turizmin inkişaf göstəricisidir [4].

Hazırda” Şuşa Boutique Otel”in tikinti işləri davam edir. Məlumdur ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya səfər çərçivəsində mayın 10-da “Şuşa Boutique Hotel” ərazisində olublar. Prezident köməkçisi Anar Ələkbərov burada aparılan təmir-bərpa işləri barədə prezidentimizə və xanımına məlumat vermişdir [3].

Şuşanın dirçəldilməsi konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınacaq və buna uyğun infrastruktur yaradılacaq. Otel zaman keçdikcə müasir standartlara uyğunlaşdırılacaq, Şuşa şəhərinə gələn qonaqların rahatlığı üçün şərait yaradılacaqdır. Burada 13 otaq və kiçik bir restoran qonaqların ixtiyarındadır.

Əslində belə obyektlərin reallaşdırılması Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının gücləndirilməsində çox mühüm rol oynayır. İşğaldan azad edilmiş torpaqlarımızda, o cümlədən tarixi Şuşa şəhərində həyata keçirilən sosial layihələr davamlı və sürətlə həyata keçirilir.

Əmin ola bilərik ki, tarixi eksponatlarla zəngin olan Qarabağ və Şərqi Zəngəzur bölgələri tezliklə Azərbaycanın əsas turizm bölgələrindən birinə çevriləcək.

Ədəbiyyat

1. Şuşa ili 2022:https://aztv.az/az/news/18234/susa-ili-ile-bagli-tedbirler-planinin-detallari
2. Harıbülbül festivali 2022: https://www.aa.com.tr/tr/kultur-sanat/karabagin-sembol-sehri-susada-haribulbul-folklor-festivali-yapildi/2586211
3. Şuşanın turizm potensialı ilə bağlı seminar:https://au.edu.az/az/news/susanin-turizm-potensiali-movzusunda-elmi-seminar-kecirilib
4. Qarabağın turizm potensialı:https://www.azerbaijan-news.az/az/posts/detail/qarabagin-zengin-turizm-potensiali-var-1644093605
5. Azerbaijan eyes reconstruction of liberated Shusha after occupation: https://www.dailysabah.com/politics/azerbaijan-eyes-reconstruction-of-liberated-shusha-after-occupation/news

Резюме

Аббасов Р.Дж., Касумова Р.В.

Проблемы туризма в освобожденном городе Шуша

Следует отметить, что туризм является одним из важных инструментов экономического роста для развитых стран и экономического развития для развивающихся стран. А именно, в данном исследовании будут рассмотрены проблемы туризма и текущий туристический потенциал города Шуши, пережившего оккупацию.

В результате был сделан вывод, что, если в туристический сектор будут вложены необходимые инвестиции, туризм может стать эффективным сектором в развитии города Шуша.

Ключевые слова: *освобожденные земли, город Шуша, туристический потенциал, проблемы туризма, современная ситуация*

Summary

Abbasov R.J., Gasimova R.V.

Tourism Problems in the Liberated City of Shusha

Tourism is one of the important tools of economic growth for developed countries and economic development for developing countries. Namely, in this study, tourism problems and current tourism potential in Shusha, which survived the occupation, will be investigated.

As a result, it has been concluded that if the necessary investments are made in the tourism sector, tourism can be an effective sector in the development of Shusha.

Key words: *liberated lands, Shusha city, tourism potential, tourism problems, current situation*

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ AQRAR SAHƏNİN İNKIŞAFINDA KREDİT TƏMİNATI

Abbasova Vüsalə Mirsəməd qızı, Şirinova Rəsmiyyə Varış qızı

İqtisadiyyat İnstitutu

rasmiyyashirinova@gmail.com

Xülasə: *Təqdim olunmuş məruzədə aqrar sahənin inkişafında mühüm əhəmiyyət kəsb edən kredtləşmə məsələsi araşdırılır. Xüsusən də işğaldan azad olunmuş ərazilərdə aqrar sektorun sıfırdan qurulması,*

islahatların sürətlə aparılaraq ümumi inkişaf səviyyəsinə gətirilməsi üçün vacib olan məsələlər diqqətdə saxlanılır. Qeyd edilir ki, bu istiqamətdə həmişəki kimi dövlətin rolu ön plana çıxır. Əsasən də ixtisaslaşdırılmış dövlət bankının yaradılması ideyası dəstəklənərək onun üstünlükləri qeyd edilmşdir. Məruzədə daha sonra qeyd edilir ki, aqrar sahənin kredit vəsaitlərinə olan tələbatının ödənilməsində mövcud bank-kredit sistemi ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının özlərinin kredit kooperativlərinin yaradılması da mühüm rol oynayar.

Açar sözlər: *aqrar sahə, bank, kredit təminatı, kənd təsərrüfatı, istehsalçı, istehlakçı, işğaldan azad olunmuş ərazilər, maliyyə-kredit və s.*

Ümumiyyətlə, iqtisadiyyatın kənd təsərrüfatı kimi mühüm bir sahəsinin kreditləşdirilməsi üçün möhkəm maliyyə-kredit bazasına malik olan ixtisaslaşdırılmış dövlət bankının fəaliyyəti işğaldan azad olmuş ərazilərdə təmin edilməlidir. Bütün vasitələrdən istifadə edərək, həmin bankı yeni yaradılan təsərrüfat strukturlarının maliyyə dayağına çevirmək lazımdır. Eyni zamanda işğaldan azad olmuş ərazilərdə yaradılacaq aqrar təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin zəifliyi və onların borc vəsaitləri cəlb edilməsinə böyük ehtiyacı olduğu, habelə, dövlətin özünün ciddi maliyyə yükü nəzərə alınaraq, aqrar sahədə fəaliyyət göstərəcək xüsusi kommersiya banklarının yaradılması hər vasitə ilə stimullaşdırılmalı və onların sağlam əsaslar üzərində fəaliyyət göstərməsi üçün tədbirlər görülməlidir.

Fikrimizcə, həyata keçirilmiş olan həm aqrar islahatlar dönəmində alınmış kreditlərin vaxtında qaytarılması, həm də istehsalçıların kredit təminatının təkmilləşdirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

- əkinçi birlikləri yaradılmalıdır;
- xüsusilə tez xarab olan meyvə və digər kənd təsərrüfatı məhsulları üçün ayrıca soyuducu anbarların tikilməsi regionlarda sürətləndirilməlidir;
- *"sourtinq"*deyilən texnoloji sistem *(standartayırma)* inkişaf etdirilməlidir;
- kənd təsərrüfatının hər məhsulu üçün minimum qiymət həddi siyasəti aparılmalıdır;
- satış sistemi yaradılmalı və xarici bazarlara çıxış genişləndirilməlidir;
- kəndlilərin aldığı kreditlərin və başqa borcların ödənilməsində "yumuşaq" və dözümlü hərəkət edilməlidir.

Məlumdur ki, aqrar sahədə mövcud olan sahibkarlıq formaları, yeni istehsal-idarəetmə və səhmdar münasibətləri texnoloji-təşkilati, sosial-psixoloji və digər amillərin təsiri altında formalaşır, təşəkkül tapır və inkişaf edir. Bu baxımdan, işğaldan azad olmuş ərazilərdə bazarın tələblərinə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalının artırılması, istehsalçılara müxtəlif kredit və digər maliyyə xidmətlərinin göstərilməsi istiqamətində aqrar sahənin yeni strukturunun qurulması, həmçinin kənd təsərrüfatında sahibkarlığın müxtəlif formalarının inkişafına şərait yaratmaqla iqtisadiyyatın inhisarlardan qorunması və bu sahədə rəqabətin stimullaşdırılması zəruridir.

Beləliklə, işğaldan azad olmuş ərazilərdə aqrar sahənin kredit təminatının təkmilləşdirilməsi üçün zəruri şərtlərdən biri də, istehsalçıların ehtiyac duyduqları vəsaitlərin texniki iqtisadi cəhətdən düzgün əsaslandırılmasıdır. Bu isə mükəmməl hazırlanmış biznes plandan çox asılıdır. Biznes-plan biznesin (işin) yaranması və inkişafı üçün istifadə olunacaq hər bir üsulun və mənbənin yazılı şəkildə ifadəsidir. Yaxşı hazırlanmış biznes plan, fəaliyyəti addım-addım göstərən məntiqi sxemdir (alqoritmidir). O, nəzərdə tutulan müddətdə, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün atılan addımları və istifadə olunan mənbələri təsvir edir. Biznes plan:

- fəaliyyətin ümumi vəziyyətinə və ayrı-ayrı aspektlərinə nəzər salmağa kömək edir;
- fəaliyyət prosesində yeni ideyaların qiymətləndirilməsi və mövcud fəaliyyətin uğurlu davamında mühüm rol oynayır;
- müəssisənin maliyyə vəsaitləri, o cümlədən kreditlərlə təminatının yaxşılaşdırılmasına köməklik edir;
- yeni ideyaların daha uğurlu həyata keçirilməsinə şərait yaradır, məqsədə çatmaq yollarını göstərir, mövcud qüvvələri həmin məqsədlərə nail olmağa səfərbər edir [1, səh.107-108].

Aqrar sahənin kredit vəsaitlərinə olan tələbatının ödənilməsində mövcud bank-kredit sistemi ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının özlərinin kredit kooperativlərinin yaradılması da mühüm rol oynayar. Kredit kooperativləri fəaliyyət göstərdiyi yüz ildən artıq bir dövr ərzində bir çox ölkələrdə maliyyə-kredit sistemində nüfuzedici sahəyə çevrilmiş, iri mərkəzi banklar da daxil olmaqla, özünün ərazi və yerli xarakterli şöbələri və kassaları formasında hesablaşma, kredit-əmanət təşkilatlarının geniş şəbəkəsini yaratmağa müvəffəq olmuşdur. Hesab edirik ki, respublikanın iqtisadi rayonlarında kredit kooperativləri yaratmaqla, aqrar təsərrüfatı subyektlərinin mövcud maliyyə durumunun sağlamlaşdırılmasına xeyli köməklik göstərilə bilər.

Bunlarla yanaşı, işğaldan azad olmuş ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalçıları özlərinin xalis gəlirlərindən hər il məqsədli ayırmalar edərək, müxtəlif ehtiyat fondları yaratmaq hesabına öz maliyyə

ehtiyaclarının müəyyən hissəsini də ödəyə bilərlər. Bunu ağıllı kəndlərin [3] yaradılmasında görə bilərik. Eyni zamanda, onlar istifadəsiz qalmış vəsaiti az imkanlı təsərrüfatlara bərabər şəkildə faizlə kreditə verməklə və onları çətin vəziyyətdən çıxarmaqla özlərinin pul gəlirlərini formalaşdıra bilərlər.

Biz hesab edirik ki, bazar münasibətlərinin indiki inkişaf mərhələsində işğaldan azad olmuş ərazilərdə aqrar sahədə yeni istehsal münasibətlərinə müvafiq təsərrüfat subyektlərinin yaradılması və onların səmərəli təsərrüfat fəaliyyətinin təmin olunması üçün dövlətin müstəqil maliyyələşdirmə mənbələri, çevik kredit mexanizmi olmalıdır. Çünki, yeni təsərrüfat subyektlərinin fəaliyyətini nəzarətsiz buraxmaq, onların öz imkanları ilə bazarda tələblə təklifin nizamlanacağına və dövlətin köməyi olmadan aqrar sahədə iqtisadi yüksəlişə nail olunacağına ümid bəsləmək yaxşı nəticələr verə bilməz. Lakin, dost ölkələrin biznes dairələrinin işğaldan azad olmuş ərazilərə cəlb edilməsi bu problemin həllində mütərəqqi irəliləyiş əldə edə bilər. Həmçinin dövlətin bu istiqamətdə maliyyə yükünü də azaltmış olar.

Ümumiyyətlə qeyd edə bilərik ki, respublikada aqrar sahənin dayanıqlı inkişafında, o cümlədən kreditləşdirmə sisteminin genişləndirilməsi və inkişafında lizinq münasibətlərinin özünəməxsus yeri vardır. Belə ki, bu sahənin kənd təsərrüfatı maşınları, traktor, nəqliyyat vasitələri və digər zəruri avadanlıqlarla təmin edilməsində kreditlə yanaşı, onun özünəməxsus forması olan aqrolizinqin də xüsusi əhəmiyyətini qeyd etmək lazımdır.

Aqrolizinq kənd təsərrüfatına xidmət göstərməklə yanaşı, bu sahəyə investisiya qoyuluşunun ən etibarlı və səmərəli üsuludur. Respublikada imkanlı təşkilatların sərbəst pul vəsaitləri olan işgüzar adamların və qurumların, habelə səhmdar-kommersiya banklarının maliyyə imkanlarının biznesin bu sərfəli sahəsinə yönəldilməsinin təşkili, yeni yaradılan məhdud imkanlı təsərrüfatların, bütövlükdə aqrar sahənin kreditə olan tələbatlarının müəyyən səviyyədə ödənilməsinə, kəndli əməyinin texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə kömək edə bilər. Bu istiqamətdə işləri işğaldan azad olmuş ərazilərdə də davam etirmək olar.

Formasından və növündən asılı olmayaraq, lizinq xidmətlərindən istifadə istehsal mühitini zənginləşdirir, eyni zamanda təsərrüfat subyektləri arasında təkmil rəqabəti təmin edir. Təkmil rəqabətin yaradılması isə, öz növbəsində milli iqtisadiyyatın davamlı inkişafını təmin edən əsas amillərdən biridir.

Aqrolizinq xidməti mexanizminin təşkilində və idarə olunmasında dövlətin mümkün formalarda iştirak etməsi məqsədəuyğundur. Çünki, iqtisadiyyatın tənzimləyicisi kimi dövlətin, onun subistiqamətlərinin tənzimlənməsində də xüsusi rola malik olması (beynəlxalq təcrübələrə müraciətin edilməsi, maliyyə və təşkilati dəstək, qanunvericilik bazasının təkmilləşdirilməsi, multiplikator konsepsiyalarından istifadə və s.) qeyd edilən mexanizmin dinamik inkişafı ilə nəticələnə bilər.

Aqrar sahədə yüksək məhsuldarlığa malik olan məhsulların xaricdən gətirilməsi və sürətləndirilməsi məqsədilə, təsərrüfat subyektlərinin, xüsusən də özəl qurumların bu sahələrə meyil göstərmələri üçün dövlət səviyyəsində maraqlandırıcı tədbirlərin həyata keçirilməsi zəruri və vacibdir. Xüsusən də kəndli təsərrüfatlarını və digər istehsal strukturlarını bu sahələrə istiqamətləndirmək məqsədilə dövlət güzəştli kreditlər, həmçinin bu təsərrüfatlara ilk vaxtlarda superelit və elit toxumlar, habelə mal-qara əldə etmələri üçün faizsiz kreditlər verməklə cəlb edə bilər.

Ümumiyyətlə, işğaldan azad olmuş ərazilərdə aqrar sahədə yeni təsərrüfat subyektlərinin yaradılması və onların səmərəli fəaliyyətinin təmin edilməsi, təsərrüfatların ölçülərinin sahibkarların məqsədləri baxımından tələb olunan səviyyəyə çatdırılması prosesi, bütövlükdə əsaslı struktur dəyişikliklərinin aparılmasını, istehsalın əsaslı inkişafını və yeniləşməsini tələb edir. Bütün bunlar isə dövlətin əlverişli kreditləşdirmə üsullarının formalaşdırılmasını, həmçinin bu sahəyə böyük həcmli investisiya qoyuluşları proqramlarının hazırlanaraq həyata keçirilməsini zəruri etmişdir. Fikrimizcə, işğaldan azad olmuş ərazilərdə aqrar sahədə lazımi kredit ehtiyatlarının yaradılması-müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfat subyektlərinə güzəştli şərtlərlə kredit verməyə, ssudaya görə ödəməsinin aşağı faizini tətbiq etməyə imkan verə bilər. Etiraf edilməlidir ki, verilən kreditlərin faizi təsərrüfatların fəaliyyətinin iqtisadi normativ rolunu lazımi səviyədə yerinə yetirə bilmir. Həmçinin kreditin, təsərrüfatların özünümaliyyələşdirmə mənafeyinə təsiri, bəzən məqsədəuyğun xarakter daşımır və istehsalın nəticələrinə stimullaşdırıcı təsiri yetərincə deyildir. Kredit faizinə manatla nəzarətin rolunu gücləndirmək üçün, onun indiki praktikasında xırda dəyişikliklər etmək kifayət deyildir. Bunun üçün, aqrar sahədə kredit faizlərinin müəyyən olunması və idarə edilməsi sistemi köklü surətdə dəyişdirilməli, faiz siyasəti dövlətin aqrar siyasətinin, həmçinin bazar münasibətlərinin tələblərinə uyğun qurulmalıdır. Qeyd olunduğu kimi, aqrokredit faizinin əsas müəyyənedici amili vaxt göstəricisi, yəni verilmə müddəti olmalıdır. Kreditlərin verilmə müddəti nə qədər çox olarsa, istehsalda əlavə dəyər yaradılmasına şərait yaranar, kreditin dəyəri və onun aqrar sahə sistemində istehsalın stimullaşdırıcı təsiri yüksələr [2, səh.210]. Bank riskinə gəldikdə isə onu demək lazımdır ki, kreditlərin müddəti artıdıqca onu götürənlərin maliyyə vəziyyətində xoşagəlməz dəyişikliklərin yaranma ehtimalı da artır və kreditin vaxtında qaytarılma təminatı zəifləyir. Kredit faizlərinin səviyyəsinə təsir göstərən amillərdən biri də kənd təsərrüfatında istehsalın mövsümliyidir. Araşdırmalar göstərir ki, mövsümi xüsusiyyətlərə malik olan aqrar sahəyə verilən nisbətən yüksək faizli kreditlər, həmin sahələrlə mövsümi

olmayan sahələr arasında qeyri-bərabər şərait yaradar, bu zaman isə qiymətlə kredit faizi arasındakı iqtisadi bağlılıq pozulur. Fikrimizcə, kənd təsərrüfatı məhsulları istehsalçılarına yüksək əmək və materialtutumlu bitkilərin becərilməsinə, bir sıra zəruri ərzaq məhsulları, habelə ölkə əhalisi üçün gündəlik tələbat məhsulları hesab olunan, lakin daxili bazarda xaricdən gətirilmiş bəzi məhsullara nisbətən xeyli ucuz başa gələn məhsulların istehsalını maraqlandırmaq üçün dövlət subsidiyalarının ödənilməsi sisteminin tətbiqi, bütövlükdə aqrar sahədə təsərrüfatların inkişafına şərait yaradacaqdır.

Ədəbiyyat

1. Mahmudov A.A. Aqrar sahənin kredit təminatının yaxşılaşdırılması. AMEA İqtisadiyyat İnstitutu. Bazar iqtisadiyyatı şəraitində aqrar münasibətlərin inkişafı və təkmilləşdirilməsi. Bakı-Elm-2006, səh.107-108
2. Maliyyə və uçot jurnalı, № 4 (160)/2006, s.210
3. https://dma.gov.az/layiheler/sosial-layiheler/agilli-kend-layihesi?hl=az

Резюме

Аббасова В.М., Ширинова Р.В.

Предоставление кредитных средств для развития сельскохозяйственных угодий на территориях, освобожденных от оккупации

В представленном отчете рассматривается вопрос кредитования, который имеет большое значение в развитии аграрного сектора. В частности, учитываются вопросы важные для построения с нуля аграрного сектора на освобожденных от оккупации территориях, скорейшего проведения реформ и вывода их на уровень общего развития. Отмечается, что в этом направлении на первый план традиционно выходит роль государства. В основном поддерживается идея создания специализированного государственного банка и упоминаются его преимущества.

Ключевые слова: *аграрная сфера, банк, кредитная гарантия, сельское хозяйство, производитель, потребитель, освобожденные территории, финансово-кредитные и др.*

Summary

Abbasova V.M., Shirinova R.V.

Credit Provision for Agricultural Field Development in Territories Freed from Occupation

The presented report examines the issue of lending, which is of great importance in the development of the agricultural sector. In particular, issues that are important for building the agrarian sector from scratch in the territories freed from occupation, and quickly carrying out reforms and bringing them to the level of general development are kept in mind. It is noted that the role of the state comes to the fore in this direction as usual. Basically, the idea of creating a specialized state bank is supported and its advantages are mentioned. In the report, it is further noted that, in addition to the existing bank-credit system, the creation of credit cooperatives of agricultural producers themselves will play an important role in meeting the credit needs of the agricultural sector.

Key words: *agrarian field, bank, credit guarantee, agriculture, producer, consumer, freed territories, finance-credit, etc.*

XƏZƏR DƏNİZİ SƏVİYYƏ TƏRƏDDÜDLƏRİNİN ABŞERON SAHİLLƏRİNƏ TƏSİRİ

Abdullayev İmran Məmmədəli oğlu, Əliyeva Sara Fərhad qızı

Bakı Dövlət Universiteti

sara.rahimova1997@gmail.com ; sara.rahimova1997@gmail.com

Xülasə: *Xəzər dənizinin səviyyəsinin tərəddüdü dənizin morfometrik xarakteristikalarının dəyişməsinə səbəb olur. Xəzər dənizi dünyanın ən böyük və ən nadir daxili axarsız su hövzəsi olub, səviyyəsinin periodik olaraq dəyişməsi ilə digər su tutarlarından əhəmiyyətli dərəcədə fərqlənir. Xəzər dənizinin səviyyə tərəddüdlərinin təsirinə məruz qalan Azərbaycanın sahil boyunca yerləşən Abşeronsahili ərazilərindən 11 inzibati rayonu olan Bakı və Sumqayıt şəhərlərini qeyd edə bilərik.*

Açar sözlər: *dənizin səviyyə tərəddüdləri, Xəzər dənizi, Abşeron yarımadası, Xəzərsahili ətraf mühit, Xəzər dənizinin səviyyə tərəddüdləri*

Xəzər dənizinin səviyyəsinin dəyişməsinə səbəb olan amillərdən dənizin su balans elementlərinin dəyişməsini, dənizdə atmosfer təzyiqinin dəyişməsini, tektonik prosesləri, qabarma əmələgətirən qüvvələrinin təsirini qeyd edə bilərik. [5]

Dənizin səviyyəsinin dövri olaraq dəyişkənliyi ətraf mühitə, sahil zonalarının təbii və antropogen ekosistemlərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bu səbəbə görə tarixi dövr ərzində Xəzər dənizinin səviyyəsinin tərəddüdü alimlərin və ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Müxtəlif dövrlər ərzində alimlər Xəzər səviyyə tərəddüdlərini öyrənmiş, müşahidə və tədqiqatlar aparmışdır. [1]

Xəzər dənizinin səviyyəsinin dəyişməsi müxtəlif tarixi dövrlərdə baş vermiş transqressiya və reqressiyalar burada yaşamış müxtəlif etnosların taleyində həlledici rol oynamışdır. Qumilyovun tədqiqatlarına əsasən X əsrdə Xəzər dövlətinin qüdrətini zəiflədən amillərdən biri də Xəzər dənizinin səviyyəsinin qalxması olmuşdur.

Xəzər dənizinin səviyyə tərəddüdləri bəzən böhran şərait yarada bilər, nəticədə neft və kommunal təsərrüfata, sahil ərazilərdə yerləşən müxtəlif infrastrukturlara, aqrosənaye komplekslərinə, nəqliyyata, zavod və fabriklərin işləməsinə, rekreasiya sahəsinə və digər sahələrə zərərli təsir göstərə bilər və o cümlədən, qrunt suyunun rejimdə dəyişikliklərə, ərazilərin şoranlaşmasına və bataqlıqlaşmasına, əhali arasında müxtəlif xəstəliklərin yayılmasına səbəb ola bilər. Misal olaraq, 1978-1995-ci illərdə baş vermiş transqressiyanı göstərmək olar. Nəticədə, 1995-ci ilin qiymətlərinə əsasən Azərbaycan Respublikasına 2 milyard ABŞ dolları zərər dəydi və ölkədə "ekoloji qaçqınlar" yarandı. [6]

Xəzər dənizi səviyyəsinin qalxması dənizkənarı landşaftlarda özünü müxtəlif formada göstərir. Qurunun su altında qalması nəticəsində landşaft tam olaraq dəyişir və sahil boyu mövcud olan landşaftlar sualtı landşaftlara çevrilirlər. Səviyyənin qalxması nəticəsində dənizkənarı düzənliklərdə qrunt sularının səviyyəsi qalxır, orada mövcud olan torpaq və süxurların fiziki-kimyəvi tərkibi, mikro iqlim şəraiti, bitki örtüyü dəyişir, nəticədə ilkin bitki örtüyü bataqlıq-çəmən və bataqlıq kompleksləri ilə əvəz olunur. [1]

Xəzər dənizinin səviyyəsinin dəyişməsi Abşeron sahillərində abraziya proseslərini nəzərə çarpacaq dərəcədə gücləndirmişdi. Bu isə sahil ərazilərin quruluşunda müxtəlif dəyişikliklərə səbəb olmuşdur. [2]

Cədvəl 1.

Xəzər dənizinin sahil xəttinin 1977-2007-ci illərdə quruya doğru yerdəyişməsi

Sıra sayı:	Məntəqənin adı:	Sahilin quruya doğru hərəkəti, m:
1	Sumqayıt	350
2	Hövsan	360
3	Qaradağ	370
4	Ələt	380
5	Pirsaat	390

Cədvəl 1-də Xəzər dənizi səviyyəsinin son qalxma dövründə sahil xəttinin quruya doğru yerdəyişməsi metr ilə verilmişdir. 1977-2007-ci illər ərzində Respublikanın Xəzər sahili zolağında su altında qalan 50000 ha torpaq sahəsinin 4300 hektarı, yəni 8,6%-i Abşeron yarımadasının payına düşmüşdür. [1]

Aparılmış tədqiqatlara əsasən müəyyən olunmuşdur ki, Xəzər dənizinin qalxması səbəbindən minerallaşmaya məruz qalmış və torpaq səthinə yaxınlaşmış qrunt suları hesabına Abşeron yarımadasının şərq hissəsində yerləşən torpaq örtüyü aqromeliorativ dəyişikliyə uğramışdır. Abşeron yarımadasının Binə-Aeroport, Saray-Xırdalan, Pirşağı-Kürdəxanı, Binəqədi-Novxanı və digər ərazilərində Xəzər dənizinin səviyyəsinin qalxması səbəbindən qrunt sularının yer səthinə yaxınlaşması baş vermiş və süni göllər yarandığına görə 5000 hektara qədər yararlı torpaq sahələri bataqlıqlaşmaya və təkrar şorlaşmaya məruz qalmışdır. Nəticədə, həmin ərazi kənd təsərrüfatı dövriyyəsindən çıxmışdır. [3]

Xəzər dənizi səviyyəsinin 1997-2016-cı illər arasında 20 illik məlumatlarına əsasən səviyyə dəyişməsi qrafiki şəkil 1-də öz əksini tapmışdır. 2011-ci ildən başlayaraq Xəzər dənizinin səviyyəsinin enməsi müşahidə olunmuşdur. Lakin son 3 ildə Xəzər dənizinin stabilləşməsi qeydə alınır və hal-hazırda Xəzər dənizinin səviyyəsi -27,67 m.-dir. [4]

Şəkil. Xəzər dənizinin çoxillik səviyyə tərəddüdləri (1997-2016) qrafiki

Cədvəl 2.

Xəzər dənizinin çoxillik səviyyə tərəddüdləri (səviyyə metrlərlə verilmişdir) (1997-2016)

İllər:	Orta illik:
1997	-26.78
1998	-26.8
1999	-26.83
2000	-26.89
2001	-27
2002	-26.96
2003	-26.92
2004	-26.85
2005	-26.75
2006	-26.84
2007	-26.89
2008	-26.87
2009	-26.9
2010	-26.98
2011	-27.19
2012	-27.25
2013	-27.28
2014	-27.43
2015	-27.68
2016	-27.67

Cədvəl 2-dən göründüyü kimi, 1997-2016-cı illər arasında Xəzər dənizinin orta illik səviyyə tərəddüdü -27.68 metr ilə -26.75 metr arasında dəyişir. Xəzərin 20 illik səviyyə tərəddüdünün analizi onu göstərir ki, Xəzər dənizinin səviyyə tərəddüdünün aylıq və mövsümi dəyişmələrinin də çox böyük əhəmiyyəti vardır.

Bakı buxtasında periodik olaraq baş verən subasma nəticəsində sahilyanı texniki xidmət sahələrinə, gəmi təmiri müəssisələrinə, müxtəlif sənaye müəssisələrinə, dəniz limanına, sahilyanı xidmət sahələrinə, sahilyanı parka böyük zərər dəyir və nəticədə, külli miqdarda vəsaitin artırılmasını tələb edir. [2]

Xəzər dənizinin səviyyəsinin 1977-2000-ci illər ərzində qalxması Abşeron Yarımadasında Dərin Dəniz Özülləri zavodu, Gəmi Təmiri Birlikləri və İstehsal zavodu, Ələt Maşın Təmiri zavodu və Lövbər Doku, Pirallahı tikiş fabriki, Z.Tağıyev adına toxuculuq kombinatı, Hövsan Balıq Kombinatı, Pirallahı və Ələtdəki stasionar balıqovlama bazasına ciddi ziyan vurmuşdur.

Abşeron yarımadasının dəniz sahili zolağı 243 km. təşkil edir. Abşeron yarımadasında əhali sıx yerləşir, burada müxtəlif sənaye sahələri yüksək dərəcədə inkişaf etmişdir. [1]

Bakı ərazisində Xəzərin suları altında qalma təhlükəsi olan ərazilərdən biri də Bayıl sahəsidir. Nəticədə subasmanın təsiri sürüşmənin də artmasına səbəb olur. [2]

Xəzər dənizinin səviyyəsinin qalxması nəticəsində Abşeron yarımadasında yerləşən neft mədənlərinin əhatə etdiyi sahələrin bir hissəsi su altında qalmışdır, nəticəsə ekosistemdə gərginlik yaranmışdır. Alimlərin tədqiqatlarına əsasən Xəzər dənizinin səviyyəsi 2035-ci ilə qədər qalxarsa Abşeron ərazisinin 3000 ha torpaq sahəsinin su altında qalma təhlükəsi var. [1]

Ədəbiyyat

1. Cəfərova A.Ə. Azərbaycanın Xəzərsahili zonasının sahə strukturunun müasir vəziyyəti. ADAU-nun Elmi Əsərləri, №2, Gəncə, 2017
2. İsmayılov Ç. Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası. Bakı, 2005.
3. https://az.wikipedia.org
4. http://eco.gov.az
5. https://meteomelumat.wordpress.com
6. Məmmədov R.M. Xəzər dənizinin hidrometeorologiyası. Bakı, 2007

Резюме

Абдуллаев И.М., Алиева С.Ф.

Влияние колебаний уровня Каспийского моря на Абшеронское побережье

Колебания уровня Каспийского моря вызывают изменение морфометрических характеристик моря. Каспийское море - самый большой и редкий внутренний бессточный водоем в мире, который значительно отличается от других водоемов из-за периодических изменений его уровня. На побережье Апшерона мы можем выделить 11 административных районов Баку и Сумгаита, которые подвержены колебаниям уровня Каспийского моря и расположены вдоль побережья Азербайджана.

Ключевые слова: *колебания уровня моря, Каспийское море, Апшеронский полуостров, окружающая среда побережья Каспийского моря, колебания уровня Каспийского моря*

Summary

Abdullayev I.M., Alieva S.F.

Influence of the Caspian Sea Level Fluctuation on the Absheron Coast

Fluctuations of the Caspian Sea cause changes in the morphometric characteristics of the sea. The Caspian Sea is the largest and the rarest internal drainless body of water in the world, which significantly differs from other bodies of water due to periodic changes in its level. On the coast of Absheron, we can distinguish 11 administrative regions of Baku and Sumgayit, which are subject to fluctuating levels of the Caspian Sea and are located along the coast of Azerbaijan.

Key words: *sea level fluctuations, Caspian Sea, Absheron Peninsula, Caspian Sea coastal environment, Caspian Sea level fluctuations*

"ZƏNGƏZUR" NƏQLİYYAT DƏHLİZİNİN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

Abdullayev Kamran Nurəddin oğlu
İqtisadiyyat İnstitutu
kamran.abdullayev.1978@mail.ru

Xülasə: *Tərtib olunmuş tezis yeni "Zəngəzur" nəqliyyat dəhlizinin ölkənin iqtisadi inkişafında roluna həsr olunur. Son illər bu nəqliyyat dəhlizinin inkişafı istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilməkdədir. "Zəngəzur" dəhlizinin inkişafı ölkəmizin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da inkişafında mühüm rol oynayacaqdır. Aparılmış təhlillər onu göstərir ki, qeyd olunan nəqliyyat dəhlizinin fəaliyyətə başlaması bir sıra inkişaf etmiş ölkələrin iqtisadi maraqlarına uyğun gəlmir. Məhz*

buna görə də ölkəmiz tərəfindən "Zəngəzur" dəhlizinin açılması istiqamətində tədbirləri davam etdirilməlidir.

Açar sözlər: *nəqliyyat dəhlizi, inkişaf, rəqabət, tranzit daşımalar, iqtisadi təsir, iqtisadi inkişaf*

Son ilər Cənubi Qafqazda müşahidə olunan siyasi-iqtisadi, eləcə də hərbi proseslər xüsusən ABŞ, B.Britaniya, Fransa, İtaliya, İran və s. kimi dövlətlərin daim maraq dairəsindədir. Artıq qeyd edilən dövlətlər arasında son iki ildə Cənubi Qafqazda üstün mövqe tutulması uğrunda ciddi rəqabət prosesi davam etməkdədir. Düzdür ABŞ və dünyanın bəzi ölkələri B.Britaniya və Çinin dəstəklədiyi "Zəngəzur" nəqliyyat dəhlizinin inkişafına müəyyən qədər maneə yaratmağa, layihənin fəaliyyətinə başlamamasına cəhd göstərirlər.

Uzun illər "Zəngəzur" dəhlizinin həyata keçirilməsində əsas maneə Ermənistan tərəfindən ölkəmizin Dağlıq Qarabağ və ətraf rayonlarının işğal etməsi ilə bağlı olmuşdur. Məhz bu səbəbdən 30 ilə yaxın Azərbaycan və Naxşıvan arasında nəqliyyat iqtisadi əlaqəsi dayanmışdır.

2020-ci ildə Ermənistanla qırx dörd ərzində davam edən müharibədə davam edən müharibədə qalib gələn ölkəmiz "Zəngəzur" dəhlizinin fəaliyyətinə olan əsas maneəni aradan qaldırdı. B.Britaniya və Çinin birgə dəstəklədiyi "Bir kəmər, bir yol" layihəsinin ölkəmizdən keçən hissəsinin də önü açıldı. Düzdür, ABŞ, B.Britaniyaya Çinlə birgə həyata keçirdikləri nəqliyyat layihəsində iştirak etməməsini tələb etsə də, B.Britaniya bu şərti qəbul etməmişdir.

ABŞ hakimiyyəti belə hesab edir ki, B.Britaniya-Cənubi Qafqaz-Çin nəqliyyat dəhlizi, xüsusən Çinin iqtisadi baxımdan möhkəmlənməsinə səbəb olacaqdır. Nəticədə Çinin dünyanın super gücünə çevrilməsi ABŞ-ın güclü beynəlxalq rəqibinə çevrilməsi ehtimalı artır.

Bundan başqa dünyanın maliyyə, iqtisadi və siyasi mərkəzinin artıq ABŞ-da yox, Çində mərkəzləşməsi ehtimalı da yüksəkdir. ABŞ Çinin həyata keçirmək istədiyi nəqliyyat layihəsi üzrə ölkələrə iqtisadi və siyasi təsirlərini daha da artırır. Məsələn, "Şimal axını-2" layihəsinin ABŞ həyata keçirilməməsinə nə qədər çalışsa da sonradan bu layihənin həyata keçirilməsinə Almaniya, Rusiya, kimi ölkələrə güzəştə getdi. ABŞ bu layihədə iştirak edın əksər dövlətlərə, xüsusən Almaniyaya iqtisadi sanksiyalar tətbiq etmədi. Bunun da əsas səbəbi Rusiyanın B.Britaniya və Çinin dəstəklədiyi nəqliyyat-tranzit layihəsində öz maraqlarını həyata keçirməsi ilə bağlı olmuşdur.

Rusiya tərəfi Ermənistan tərəfə "Zəngəzur" dəhlizinin həyata keçirilməsi üçün öz ərazisindən tranzit yolun ayrılması üçün müəyyən iqtisadi-siyasi təsiredici vasitələrdən istifadə etməkdədir. Bütün bu proseslər ABŞ və onun tərəfdaş ölkələrinin maraqlarına uyğun gəlmir. Fransa, Hindistan, ABŞ Ermənistanın ölkəmizdə yenidən müharibəyə başlaması üçün Ermənistana maliyyə və hərbi dəstəyi artırmaqdadırlar. Qeyd edək ki, bu ölkələrdən Azərbaycana siyasi təzyiqlərin artması məhz bununla bağlıdır.

ABŞ və Avropa Birliyinin qlobal nəqliyyat tranzit layihəsində iştirak edən Çinin, Rusiyanın, Azərbaycan, Türkiyə, B.Britaniyanın iqtisadi baxımdan güclənməsi onların maraqlarına uyğun deyildir. Məhz bunları nəzərə alaraq ölkəmizlə regional dövlətlər arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi zəruridir.

Ümumiyyətlə, yaxın illərdə "Zəngəzur" dəhlizinin tam fəaliyyətə başlaması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

- Azərbaycan və Türkiyənin, Çinin, Orta Asiya ölkələrinin "Zəngəzur" dəhlizinin Ermənistan ərazisindən keçən hissəsində yol nəqliyyat infrastrukturunun yaradılması üçün siyasi təsirlərinin artırması vacibdir;
- "Zəngəzur" nəqliyyat dəhlizinin fəaliyyətinin həyata keçirilməsinə yeni regional xarici ölkələrin, xüsusən İranın cəlb edilməsi zəruridir;
- ABŞ, Fransa, İran kimi ölkələrin " Zəngəzur" dəhlizinin fəaliyyətinə yaratdıqları problemlərin aradan qaldırılması üçün Avropa Birliyi təşkilatının imkanlarından istifadə etmək lazımdır. Bu təşkilat ilə ölkəmiz arasında enerji təhlükəsizliyi, siyasi və iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi məqsədəuyğundur.

Ədəbiyyat

1. Abdullayev K.N. Azərbaycanın tranzit-nəqliyyat xidmətlərinin inkişafında "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinin rolu. // Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu (Respublika elmi konfransı), Sumqayıt.: SDU nəşr., 2020, s.190-192.

2. Abdullayev K.N. Yeni regional tranzit xəttin uaranmasında Zəngəzur dəhlizinin rolunun qiymətləndirilməsi. // Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər (I Beynəlxalq elmi konfrans), MDU, Mingəçevir, MDU nəşr., 2021, s.132-134.

3. Abdullayev K.N. Azərbaycan Respublikasının nəqliyyat xidmətləri bazarı (Monoqrafiya). Bakı.: Elm və Bilik nəşr., 2017, 172 s.

Резюме
Абдуллаев К.Н.
Роль транспортного коридора ”Зангезур" в экономическом развитии страны

Подготовленные тезисы посвящены роли нового транспортного коридора «Зангезур» в экономическом развитии страны. В последние годы постоянно осуществляются меры в направлении развития данного транспортного коридора. Развитие Зангезурского коридора сыграет важную роль в развитии Карабахского и Восточно-Зангезурского экономических районов нашей страны. Проведенные анализы показывают, что открытие данного транспортного коридора не отвечает экономическим интересам ряда развитых стран. Поэтому наша страна должна продолжать свою деятельность в направлении открытия Зангезурского коридора.

Ключевые слова: *транспортный коридор, развитие, конкуренция, транзитные перевозки,экономическое влияние, экономическое развитие*

Summary
Abdullayev K.N.
The Role of ”Zangezur" Transport Corridor in Economic Development of the Country

The thesis is devoted to the role of the new transport corridor "Zangazur" in the economic development of the country. In recent years, measures have been continuously implemented in the direction of the development of this transport corridor. The development of the "Zangezur" corridor will play an important role in the development of the Karabakh and Eastern Zangezur economic regions of our country. The conducted analyzes show that the opening of the mentioned transport corridor does not correspond to the economic interests of a number of developed countries. That is why our country should continue the measures to open the "Zangazur" corridor.

Key words: *transport corridor, development, competition, transit transportation,economic impact, economic development*

QARABAĞ VƏ ŞƏRQİ-ZƏNGƏZURDA YARADILAN YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN STRATEJİ ƏHƏMİYYƏTİ

Bayramova Səbinə Həbib qızı
İqtisadiyyat İnstitutu
sabish.bb@gmail.com

Xülasə: *Tədqiqatın məqsədi Azərbaycanın yol-nəqliyyat infrastrukturunun strateji əhəmiyyətinin öyrənilməsindən ibarətdir. Tədqiqat işində təhlil, müşahidə və təsviretmə metodlarından istifadə edilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti ölkənin imkanlarını genişləndirmək və onun inkişaf dinamikasını artırmaq üçün yol-nəqliyyat infrastukturunun yaradılması ilə bağlı bütün işlərin məqsədyönlü və fəal şəkildə həyata keçirilməsindədir. Tədqiqatın nəticələri Qarabağ və Şərqi-Zəngəzurda yaradılan nəqliyyat infrastrukturunun yaradılması istiqamətində görülən işlərin ölkənin həm ümumi,həm də beynəlxalq əlaqələrinin inkişafında necə əhəmiyyətli olması ilə əlaqədardır.*

Açar sözlər: *yol nəqliyyat infrastrukturu, strategiya, iqtisadi rayonlar, ticarət dövriyyəsi, regional əməkdaşlıq*

Azərbaycan 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanaraq, ərazi bütövlüyünü təmin etmiş, işğaldan azad olunmuş torpaqlarda sürətli bərpa işlərinə başlamışdır. Hazırki dövrdə Azərbaycanın nəqliyyat-logistika infrastrukturu beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Bugün isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması və bərpası istiqamətdə genişmiqyaslı işlər görülməkdədir. Bunun nəticəsi olaraq,Qarabağ logistika mərkəzinə çevriləcək, məhsula sərf olunan xərclərin azalmasına, investisiyaların cəlb edilməsinə,yeni iş yerlərinin yaradılmasına,ixracyönümlü iqtisadiyyatın stimullaşmasına, qlobal bazarların birləşməsinə şərait yaradacaq.

Azərbaycan hava nəqliyyatı infrastrukturunun daha da yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görür.Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yaradılan hava limanları ölkə iqtisadiyyatına Qarabağın reinteqrasiyası ilə yanaşı,yükdaşımaların rolunu da əhəmiyyətli səviyyədə

artıracaq.Azad edilmiş ərazilərimizdə tikilən ilk hava limanı – Füzuli Beynəlxalq Aeroportudur.Bu hava limanı Qarabağ iqtisadiyyatının region bazarları üzrə şaxələnməsinə xüsusi töhfə verəcəkdir. Füzuli Beynəlxalq Aeroportu həm daxili,həm də beynəlxalq yükdaşımalar üçün mühüm əhəmiyyət kəsb edir [5].

Qarabağ münaqişəsinin həll olunması ilə regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaranmışdır.Zəngəzur dəhlizi açıldıqdan sonra Azərbaycanla əməkdaşlıq edən ölkələrin nəqliyyat imkanları artacaqdır.

İkinci Qarabağ müharibəsinin sona çatdıqdan sonra imzalanan atəşkəs müqaviləsi ilə Qərbi Zəngəzur vasitəsilə Azərbaycanın Naxçıvana və daha sonra isə Türkiyəyə uzanan yeni dəhliz yaratması nəzərdə tutulmasına baxmayaraq,Ermənistan hökuməti bu müzakirələrdən boyun qaçırması bu məsələnin yubanmasına gətirib çıxarmışdır.Bununla yanaşı,onlar müxtəlif hərbi cinayətlər də törətsə də,Azərbaycan Ordusu müxtəlif tədbirlərlə onlara qətiyyətli cavab vermişdir.

2022-ci il mart ayının 11-də Bakıda Azərbaycan və İran hökümətləri,Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya əlaqələrinin yaradılması haqqında Anlaşma Memorandumu imzalamışdır.

Azərbaycan hökümətinin regional əməkdaşlığı daha da gücləndirmək məqsədi olduğu üçün Ermənistanın dəhlizlə bağlı yekun mövqeyini gözləməmişdir.Nəticədə isə,yeni dəhliz Ermənistanın yox,qonşu İranın ərazisindən keçərək yeni kommunikasiya xəttinin yaradılmasına şərait yaradacaq.

İndiki mərhələdə bu dəhlizin Azərbaycana mənfi təsiri demək olar ki,yoxdur,əksinə İranla yeni dəhlizin açılması ilə ticarət dövriyyəsinin artması ilə yanaşı,Türkiyəyə uzanan quru yol əldə etmiş olacayıq. Əgər dəhliz Ermənistan ərazisindən keçsə idi Rusiya hansısa formasa nəzarəti öz əlində cəmləşdirəcəkdi.Dəhlizin İran ərazisindən keçməsi ilə bu nəzarət aradan qaldırılaraq,təhlükəsizliklə bağlı risklər də minimuma endirilir. Ermənistanın bu layihədən kənar qalması onun yaxın illərdə digər beynəlxalq səviyyəli tranzit layihələrdən də kənarda qalmasına səbəb ola bilər [3].

Dəhliz üç əsas müstəvidə önəm daşıyır: lokal, regional və interkontinental. Dəhlizin lokal müstəvidəki əhəmiyyəti ondan ibarətdir ki,yeni nəqliyyat yolunun keçdiyi hər bir ölkədə yerli inkişafı stimullaşdırıcı faktor kimi çıxış edir.

Yeni dəhlizin regional müstəvidəki əhəmiyyəti isə müxtəlif istiqamətlər üzrə alternativlik təşkil etməsidir.Bu istiqamətlərdən başlıcası Türkiyə və Mərkəzi Asiya arasında yeni marşrutun ortaya çıxmasıdır.Eyni zamanda,bu yeni dəhliz türk dünyası ölkələrinin Türkiyəyə olan diqqətlərinin da da artmasına səbəb olur ki,bunun da son aylarda siyasi nəticələrinə Türkmənistan nümunəsində rast gəlirik.Təbiidir ki,bu proses Xəzər dənizində gəmi nəqliyyatının artmasında da stimullaşdırıcı amil kimi rol oynayacaqdır.İkincisi,Zəngəzur dəhlizinin reallaşdırılması Azərbaycanın əsas ərazisi və Naxçıvan Muxtar Respublikası ilə alternativ keçid yaradacaq ki, bu da İranın Azərbaycan üzərindəki "Naxçıvan tranziti" məsələsinin təsirini azaldacaq.

Çinin son dövrlərdə artan iqtisadi nəqliyyat şəbəkəsinə yeni bir alternativ olması Zəngəzur dəhlizinin interkontinental,yəni qitələrarası əhəmiyyətini təşkil edir. Bu alternativlik Çindən gələn malların Türkiyə,oradan da Aralıq dənizi və ya İstanbul boğazları vasitəsilə Avropaya daşınmasını təklif edir.Beləliklə də,yaxın gələcəkdə Zəngəzur dəhlizi də Avropa və Asiya qitələri arasında önəmli ticarət marşrutu olmaq potensialını daşımaqdadır [6].

2021-ci ildə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Qarabağ və Şərqi Zəngəzurda çəkilən avtomobil yollarının xəritəsini açıqlamışdır.Bu xəritəyə ümumi uzunluğu 665,4 km olan və hazırda tikilən 10 əsas avtomobil yolu daxildir.Eyni zamanda,xəritəyə tikintisi nəzərdə tutulan,ancaq uzunluğu qeyd edilməyən avtomobil yolları da daxildir.

Müəyyənləşmiş inkişaf strategiyasında uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində təkmilləşdirmə və daha da keyfiyyətli xidmətlərin göstərilməsi ilə əlaqədar olaraq müasir tədbirlər və islahatlar aparılır. Belə ki, 2022-ci ilin avqust ayında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yol infrastrukturuna xidmət göstərilməsi məqsədilə yeni alınan maşın-mexanizmlərin təqdimatı həyata keçirilmişdir.

Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən, alınmış yol təsərrüfatının müxtəlif sahələrində - istismar, təmir, inşaat işlərinin reallaşdırılması məqsədilə nəzərdə tutulan bu maşın-mexanizmlər işğaldan azad olunmuş ərazilərimizdə yol layihələrinin həm vaxtında və keyfiyyətlə, həm də təhlükəsiz həyata keçirilməsinə şərait yaradacaqdır [1]. Bu işlərin həyata keçirilməsində beş Türkiyə şirkəti və eləcə də Azərbaycan şirkətləri və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin öz təsərrüfatları fəaliyyət göstərməkdədir [4].

Məlum olduğu kimi, son 17 ildə dövlət siyasətinin prioritet istiqamətlərindən biri qeyri-neft sektorunun hesabına ölkənin iqtisadi artımına nail olmaqdır. Belə ki, ölkə başçısı yol infrastrukturunun beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi məqsədilə atdığı uğurlu addımların müsbət nəticəsi olaraq,

Azərbaycan bu sahədə üzrə beynəlxalq maliyyə qurumlarının hesabatlarında öz liderliyini qorumaqdadır. Azərbaycan Davos Ümumdünya İqtisadi Forumunun hesabatında inkişaf etməkdə olan 74 ölkə arasında infrastruktur layihələri ilə əlaqədar dəmiryolu nəqliyyatının səmərəliliyinə görə 11-ci, hava yolları xidmətlərinin səmərəliliyinə görə 12-ci, avtomobil yollarının keyfiyyətinə görə isə 24-27-ci yerlərdədir.Bu göstəricilərə əsasən, işğaldan azad olunan ərazilərdə başlıca olaraq müasir standartlara cavab verən yol-nəqliyyat infrastrukturunun yaradılması xüsusi önəm kəsb edir.Ölkənin imkanlarını genişləndirmək və onun inkişaf dinamikasını artırmaq üçün bu işlərin hamısı məqsədyönlü və fəal şəkildə aparılmalıdır [7].

Şəkil.

Mənbə: *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi [2]*

Demək olar ki,Qarabağda yolların tikintisi prosesinin böyük hissəsi artıq tamamlanmışdır.Qarabağ və Şərqi Zəngəzurda yol-nəqliyyat infrastrukturu tamamilə yenidən yaradılıb istifadəyə veriləcəkdir. Çünki reallıq göz önündədir. Həyata keçirilən tədbirlər deməyə əsas verir ki,qısa bir zaman sonra bütün dünya Azərbaycanın gücünə yenidən şahid olacaqdır.

Ədəbiyyat

1. http://www.aayda.gov.az/ - Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəsmi internet səhifəsi
2. Alpər Ziya "Bütün yollar Qarabağa aparır:İnfrastruktur sürətlə qurulur.2021./ URL: https://az.trend.az/business/3478721.html
3. Şərqi Zəngəzur-Naxçıvan dəhlizi: Azərbaycan və İran nə qazanır, Ermənistan və Rusiya nə itirir?.2022. / URL: https://www.bbc.com/azeri/azerbaijan-60770645
4. Qarabağda yol çəkilişlərinə Türkiyənin beş şirkəti - CƏLB EDİLİB.2022./ URL: https://fed.az/az/neqliyyat/qarabagda-yol-cekilislerine-turkiyenin-bes-sirketi-celb-edilib-139113
5. Nəqliyyat-logistika infrastrukturunun inkişafı ilə bağlı böyük planlar var.2022./ URL: https://heqiqetcarcisi.az/siyaset/5354-nqliyyat-logistika-infrastrukturunun-inkiaf-il-bal-byk-planlar-var.html
6. Zəngəzur Dəhlizinin üç müstəvidə əhəmiyyəti.2021./ URL: https://top-center.org/az/ekspert-reyi/3247/zengezur-dehlizinin-uc-mustevide-ehemiyyeti
7. Qarabağın yeni yaradılacaq yol-nəqliyyat infrastrukturu bölgənin inkişafında strateji əhəmiyyət kəsb edəcək.2021./URL: https://yeniazerbaycan.com/SonXeber_e77047_az.html

Резюме

Байрамова С.Х.

Стратегическое значение автотранспортной инфраструктуры, создаваемой в Карабахе и Восточном Зангезуре

Цель исследования изучить стратегическое значение дорожно-транспортной инфраструктуры Азербайджана. В работе использовались методы анализа, наблюдения и описания. Практическая значимость исследования в целенаправленном и активном выполнение всех работ, связанных с созданием дорожно-транспортной инфраструктуры для расширения возможностей

страны и повышения динамики ее развития. Результаты исследования связаны с тем, насколько важна работа, проделанная в направлении создания транспортной инфраструктуры в Карабахе и Восточном Зангезуре, в развитии как общих, так и международных отношений страны.

***Ключевые слова**: дорожно-транспортная инфраструктура, стратегия, экономические районы, коммерческий оборот, региональное сотрудничество*

Summary

Bayramova S.H.

Strategic Significance of the Road Transport Infrastructure Created in Karabakh and Eastern Zangezur

Purpose of the study: to study the strategic importance of the road transport infrastructure in Azerbaijan. Research methodology: the methods of analysis, observation and description were used in the work. The practical significance of the study: the purposeful and active implementation of all work related to the creation of road transport infrastructure to expand the country's capabilities and increase the dynamics of its development. The results of the study are related to the importance of the work done towards the creation of transport infrastructure in Karabakh and Eastern Zangezur, in the development of both general and international relations of the country.

***Key words**: road transport infrastructure, strategy, economic regions, commercial turnover, regional cooperation*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ YENİ MÜƏSSİSƏLƏRİN YARADILMASININ VƏ İDARƏ EDİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Əhmədova Əkimə Əmir qızı, Beybutov Ariz Səttər oğlu

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

arizbehbud@gmail.com

***Xülasə:** Məqalədə işğaldan azad edilmiş ərazilərdə yeni müəssisələrin yaradılması və idarə edilməsi prosesində nəzərə alınması məqsədəuyğun olan xüsusiyyətlər şərh edilir. Müəssisə yaradılarkən işğaldan azad edilmiş ərazilərdə onun yaradılması üçün mövcud olan imkanlarla yanaşı, perspektiv inkişaf imkanları da aydınlaşdırılmalı və bunun əsasında proqnozlar hazırlanmalıdır. Məqalədə həmçinin qeyd edilir ki, yeni yaradılan müəssisənin istehsal və idarəetmə sistemi çevik olmalı, onların qurulmasının əsas meyarı və məqsədi rəqabətqabiliyyətliliyi və səmərəliliyi təmin etmək olmalıdır. Bu məqsədə çatmaq üçün məqalədə müvafiq təklif və tövsiyələr irəli sürülür.*

***Açar sözlər:** işğaldan azad edilmiş ərazilər, müəssisə, yaradılması, idarə edilməsi, xüsusiyyətlər, təkliflər*

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə yeni müəssisələrin yaradılması üçün kifayət qədər təbii resurslar mövcuddur. Ancaq bu resurslardan istifadənin səviyyəsi yaradılacaq yeni müəssisələrin necə təşkil və idarə edilməsindən asılı olacaqdır.Ona görə də yeni müəssisələr yaradılarkən müəyyən xüsusiyyətlər nəzərə alınmalıdır.

Nəzərə almaq lazımdır ki, müəssisə, hüquq və vəzifələrinin hüdudları mövcud qanunvericiliklə müəyyən edilmiş iqtisadi və inzibati cəhətdən müstəqil təsərrüfat vahididir. Müəssisənin təşkilinin və idarə edilməsinin ən mühüm xüsusiyyəti mövcud resurslardan elə istifadə etmək, bütün istehsal sisteminin səmərəli işləməsini elə təmin etməkdir ki, yüksək rəqabət mühitində müəssisənin uzun müddət sabit və səmərəli inkişafı təmin edilsin.Yaradılacaq müəssisənin bütün struktur bölmələrinin fəaliyyətləri (təşkilati, texniki, iqtisadi, sosial) mənfəətin əldə edilməsi üçün məhsulların istehsalına və satışının həyata keçirilməsinə yönəldilməlidir.

Müəssisənin uğurlu fəaliyyəti onun idarə edilməsinin təşkili səviyyəsindən asılıdır. Ümumiyyətlə, idarəetmə dedikdə, məqsədi müəyyən nəticə əldə etmək istəyi olan idarəedici sistemin idarəetmə obyektinə (sisteminə) təsir prosesi başa düşülür. Bu proses sistemin bütün hissələrinin əlaqələndirilmiş işinin təşkilini, həmçinin zəruri hallarda bu fəaliyyətin tənzimlənməsini nəzərdə tutur. Başqa sözlə, müəssisənin idarə edilməsinin məqsədi mənfəət əldə etmək üçün onun bütün struktur elementlərinin fəaliyyətinin əlaqələndirilməsini təşkil etməkdir. Maksimum mənfəət əldə etmək üçün bütün strukturların əlaqələndirilmiş işinə nail olunmalıdır.

İşğaldan azad edilmiş ərazilərdə müəssisənin idarə edilməsinin təşkili aşağıdakı yanaşmalara əsaslanmalıdır [1]: situasiyalı (konkret ərazidə mövcud olan imkanların nəzərə alınmasına); sistemli (idarə edən və idarə edilən sistemlərin düzgün əlaqələndirilməsinə); marketinq (fəaliyyət növünün, istehsal ediləcək məhsullara tələbin, rəqabətin səviyyəsinin və s. nəzərə alınmasına); proqram hədəfli (perspektiv inkişaf istiqamətlərinin mövcudluğunun və ona nail olunması imkanlarının nəzərə alınmasına); normativ (istehsal xərclərinin minimumlaşdırılması imkanlarının mövcudluğuna); kəmiyyət (çeşidlər üzrə məhsul istesalının həcminin düzgün müəyyən edilməsinə); dinamiklik (müəssisənin dəyişən şəraitə operativ reyaksiya vermək bacarığına); funksional (müəssisənin funksional sturukturları arasında səmərəli əlaqələrin təşkilinə); inteqrasiya (gələcəkdə eyni fəaliyyət sahəsində məşğul olan müəssisələrlə ineqrasiya istəklərinə və məqsədəuyğunluğuna.

Müəssisənin yaradılması və idarə edilməsi təşkil edilərkən aşağıdakı xüsusiyyətlərə nəzərə alınmalıdır: əmək bölgüsü; nizam-intizamına riayət edilməsi; səlahiyyət və məsuliyyətin düzgün müəyyən edilməsi; motivasiya (istehsalın nəticəsində maraqlı olmayan işçi öz potensialından tam istifadə etməyəcək); ədalətlilik (ayrı-seçkiliyə yol verməmək); istehsal prosesinin müntəzəmliliyinə inam; iyerarxiyanın saxlanması; təşəbbüslərin dəstəklənməsi.

Nəzərə almaq lazımdır ki, müəssisə əsas vəsaitlər, maddi, maliyyə və əmək ehtiyatları kimi komponentlərə əsaslanan mürəkkəb istehsal sistemidir. Ona görə də işğaldan azad edilmiş ərazilərdə yeni müəssisə yaradılarkən bu resurslardan maksimum səmərəli istifadə etmək əsas vəzifə kimi qarşıya qoyulmalıdır. Məqsəd istehsalın daha da inkişafına töhfə verəcək yüksək keyfiyyətli, rəqabətə davamlı məhsullar istehsal etməkdən ibarət olmalıdır.

Müəssisənin təşkili və idarə edilməsi zamanı bir sıra funksiyalar nəzərə alınmalıdır. Əsas funksiyalar aşağıdakılardır [2]: proqnozlaşdırma; planlaşdırma; təşkilati; laqələndirici; tənzimləmə; motivasiya; nəzarət.

Müəssisə yaradılarkən işğaldan azad edilmiş ərazilərdə onun yaradılması üçün mövcud olan imkanlala yanaşı, perspektiv inkişaf imkanları da aydınlaşdırılmalı və bunun əsasında proqnozlar hazırlanmalıdır.

Proqnozlara əsasən planlaşdırılma həyata keçirilməli və bu zaman yaradılan müəssisənin inkişafı üçün konkret məqsədlər müəyyən edilməlidir. Onlara nail olmaq üçün üsul və vasitələr, konkret hərəkətlər və manipulyasiyalar müəyyən edilməli, bütün idarəetmə qərarları planlara uyğun olaraq qəbul edilməlidir.

Bir qayda olaraq təşkilati funksiya müəssisənin idarəetmə obyektinin formalaşmasına və təkmilləşdirilməsinə yönəlmiş fəaliyyət kimi qəbul edilir. Bu funksiya idarəetmə prosesinin müxtəlif komponentlərini tənzimləyir. Bu funksiyanı istehsalın təşkili, əməyin və idarəetmənin təşkilinə bölmək olar.

Əlaqələndirici funksiyanın əsas vəzifəsi qəbul edilmiş plana uyğun olaraq müəssisənin bütün strukturları arasında optimal səviyyədə uyğunluğu təmin etməkdir.

Tənzimləmə idarəetmə obyektinin funksionallığını qorumaq üçün həyata keçirilir. Bu funksiya ilə istehsal proseslərinin fasilələr olmadan səmərəli şəkildə həyata keçirilməsi təmin edilir.

Motivasiyanın funksiyasından istifadə edilməsində məqsəd istehsal prosesini həyata keçirmək üçün işçilərdə stimul yaratmaqdır. Bu zaman müəssisənin idarə edilməsinin iqtisadi üsullarından da istifadə etmək olar.

Nəzarət funksiyasının vəzifəsi verilmiş tapşırıqların yerinə yetirilməsini yoxlamaqdır. Bu funksiyanın tətbiqi ilə müəssisənin idarə edilməsinin təşkilinin sonrakı təhlili aparıla bilər [3].

Nəzarət aşağıdakı məqsədlərlə aparıla bilər: əldə edilmiş nəticələrin planla müqayisəsi;

kənarlaşmaların müəyyən edilməsi əsasında müəssisənin idarə edilməsinin təhlili; fərziyyələrin və proqnozların sınaqdan keçirilməsi.

Müəsissənin müəyyən etdiyi məqsədlərin həyata keçirilməsi üçün idarəetmə təkmilləşdirilməlidir. Bu zamanı idarəetmənin təşkilinin bir sıra spesifik xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bu xüsusiyyətlərin nəzərə alınması bazar iqtisadiyyatı şəraitində xüsusilə vacibdir.

Təcrübə göstərir ki, idarəetmənin xüsusiyyətləri müəssisənin idarəetmə sisteminin inkişafı və formalaşmasında özünü göstərir və özünəməxsus rol oynvyır. Müəssisənin idarə edilməsi təşkil edilərkən aşağıdakı xüsusiyyətlər nərərə alınmalıdır: dinamiklik; sabitlik; fasiləsizlik. idarəetmə prosesinin əsas mərhələ və pillələrinin qanunauyğunluq xarakteri daşıyan təkrarlanması; idarəetmə mərhələlərinin və əməliyyatlarının əsas qruplarının ciddi ardıcıllığı; çeviklik.

İdarəetmənin dinamikliyi (dəyişkənliyi) özünü aşağıdaklarda birüzə verir: idarəetmənin istiqamətlərinin və onun problemlərinin axınındakı dəyişikliklərdə, ilarəetmə prosesinin müxtəlif mərhələ və əməliyyatlarının aktiv qarşılıqlı təsirində.

İdarəetmə prosesi bütün idarəetmə sistemlərində həyata keçirilməlidir-bu zaman idarəetmə təsiri sistemin müxtəlif hissələrində məqsəddən asılı olaraq müxtəlif ola bilər. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, idarəetmə prosesi daxili və xarici amillərin təsiri ilə də özünün əsas istiqamətlərini dəyişə bilər:

idarəetmə sistemində daha zəif vəsilələr aşkara çıxarıla bilər; idarəetmə sisteminin xarici təsirindən asılı olaraq dəyişməsi zərurəti yarana bilər; kənarlaşmanı aradan qaldırmaq üçün operativ qərarlar qəbul edilməsi tələb oluna bilər.

İdarəetmə prosesinin dinamiklik (dəyişkənlik) xüsusiyyəti müəyyən mənada idarəetmənin operativliyini göstərir ki, bu da bütün idarəetmə fəaliyyətinin səmərəliliyinin artırılmasında xüsusi rol oynayır. Əlbəttə, bu cür dəyişkənliyin müəyyən həddi vardır və bu idarəetmənin digər xüsusiyyəti-sabitliklə bağlıdır.

İdarəetmə prosesinin sabitliyi dedikdə onun həyata keçirilməsini təmin edən forma və kanalların sabitliyi başa düşülür. Bu, məsələn: idarəetmənin təşkilat quruluşunun, onun vəsilə və pillələrinin dəqiq müəyyənləşdirilməsində; ayrı-ayrı idarəetmə orqanlarının funksiyalarının müəyyənləşdirilməsində; idarəetmə zamanı paralelizmə yol verməməkdə; təşkilati aktların qəbul edilməsində və s. özünü biruzə verir.

İdarəetmə sisteminin sabitliyinin təmin edilməsi müəssisənin təsərrüfat-istehsal fəaliyyətinin səmərəli təşkil edilməsində həlledici rol oynayır. Buna görə də idarəetmə prosesinin sabitlik xüsusiyyəti onun ən əsas xüsusiyyəti hesab olunur.

Məlumdur ki, müəssisə bütövlükdə götürüldükdə iki sistemdən ibarətdir-idarə edən və idarəedilən. Müəssisənin təsərrüfat-istehsal fəaliyyətinin nəticələri, onun ahəngdarlığı xeyli dərəcədə bu iki sistemin qarşılıqlı əlaqələrinin qurulma səviyyəsindən asılıdır. İdarəetmə prosesinin fasiləsizlik xüsusiyyəti qeyd edilən sistemlər arasında qarşılıqlı əlaqələrin fasiləsiz təmin edilməsi zərurətindən doğur. Əgər hər hansı bir səbəbdən idarəedən sistemdə qərarların qəbul edilməsində və onların idarəedən sistemə ötürülməsində fasilələr baş verərsə, bu istehsal prosesində fasilələrə, boş dayanmalara səbəb olar və nəticədə itgilərə yol verilər. Belə vəziyyətlərin baş verməməsi, idarəetmə və istehsal proseslərinin fasiləsizliyinin təmin edilməsi üçün idarəetmə qərarlarının qəbul edilməsi və icraçıya çatdırılması istehsal prosesini qabaqlamalıdır.

İdarəetmə prosesinin xüsusiyyətlərindən biri də idarəetmə mərhələləri və pillələrinin təkrarlanmasıdır. İdarəetmə fəaliyyətinin nəticəsi idarəedilən sistemin arzu olunan, şəraitin tələb etdiyi yeni vəziyyətə gətirməkdən ibarətdir. Bu isə öz növbəsində idarəetmənin yeni məqsədinin formalaşmasını və ya mövcud vəziyyətə uyğun əvvəllər müəyyənləşdirilmiş məqsədə müəyyən dəyişikliklərin edilməsini nəzərdə tutur. Bu zaman idarəetmə prosesinin mərhələləri təkrarlanır. Bəzən isə idarəetmənin məqsədinin dəyişdirilməsinə ehtiyac olmur. Bu halda idarəetmənin məqsədinə çatmağın daha səmərəli yolunun axtarılması zərurəti meydana çıxır ki, bu da idarəetmə prosesinin pillələrinin təkrarlanması ilə nəticələnir.

İdarəetmə prosesinin mərhələlərinin və əsas əməliyyatlar qrupunun ciddi ardıcıllığı onun əsas xüsusiyyətlərindəndir. Bir qayda olaraq əgər idarəetmə prosesində ciddi ardıcıllıq gözlənilmirsə, bir sıra əməliyyatlar və mərhələlər yerinə yetirilmirsə, o, qeyri-səmərəli olur.

İdarəetmənin çeviklik xüsusiyyəti müəssisənin tez bir zamanda dəyiən şəraitə uyğunlaşmasını təmin edir. Müasir iqtisadi şəraitdə yeni müəssisənin yaradılması qabiliyyəti və bacarığı, innovasiyaların və bazarın açdığı yeni imkanları əldən verməmək idarəetmə xərclərinə birbaşa qənaətdən daha vacib olmuşdur. Müasir şəraitdə: istehlakçı tələbatına diqqət yetirmək; çevik elm və texnologiya, innovasiya və bazar siyasəti yeritmək; yeniliyə can atmaq yeni idarəetmə fəlsəfəsinin fundamental ideyalarına çevrilmişdir.

Bazar iqtisadiyyatı şəraitində idarəetmənin xüsusi yeri onunla əlaqədardır ki, məhz o, müəssisədə iqtisadi proseslərin ahəngdarlığını və inteqrasiyasını təmin edir. Müəssisə idarəetməsi onun daxili resurslarını və xarici mühitini birləşdirir, ən mühüm komponentləri iqtisadiyyatın dövlət tənzimlənməsi, rəqabət, sosial mühitin vəziyyəti və sairdir. Nəzərə almaq lazımdır ki, idarəetmənin səmərəli təşkili müəssisənin mövcud, dəyişən şəraitə uyğunlaşma qabiliyyətini və rəqabət qabiliyyətini artırır.

Yeni yaradılan müəssisənin istehsal və idarəetmə sistemi çevik olmalıdır. Onun qurulmasının əsas meyarı rəqabətqabiliyyətliliyi və səmərəliliyi təmin etmək olmalıdır. Bunun üçün müəssisənin idarəetmə sistemi aşağıdakı tələblərə cavab verməlidir: minimum tələb olunan sayda idarəetmə səviyyəsinə malik olmaq; ixtisaslı mütəxəssislərdən ibarət kompakt bölmələr təşkil etmək; mütəxəssis qruplarına əsaslanan çevik strukturlara əsaslanmaq; rəqabətli bazara yönəlmiş məhsullar istehsal etmək; istehsalın təşkilini istehlakçı yönümlü etmək.

Nəzərə almaq lazımdır ki, müasir iqtisadi şəraitdə aşağıdakı müəssisələr bazarda uğur qazana bilərlər: öz fəaliyyətinin əsas istiqamətləri üzərində cəmləşənlər və müəssisənin əsas dəyərlərinə arxalananlar; innovasiyaların və ideyaların axınını sürətləndirərək vaxtı səmərəli idarə edənlər; müasir informasiyalı cəmiyyətində iş rejimlərinin çevik təşkili formalarını tətbiq edənlər; işçilərin və qrupların resurslarının və səylərinin müxtəlif birləşmələri üçün münasib şərait yaradanlar; birgə fəaliyyətin bütün iştirakçılarını məmnun edən mənəvi - etik münasibətlərin formalaşmasını müəssisənin ümumi işinin xeyrinə olduğuna inananlar; innovasiya, gəlirlilik və məsuliyyət baxımından yüksək səviyyəli idarəetməyə malik olanlar.

Fikrimizcə, işğaldan azad edilən ərazilərdə yeni müəssisələrin yaradılması və onların idarə edilməsinin təşkili prosesində yuxarıda irəli sürülən təklif və tösiyələrin nəzərə alınması onların uzun müddət sabit və səmərəli fəaliyyətinə imkan və zəmin yarada bilər.

Ədəbiyyat

1. Организация деятельности предприятий: Учеб. пос. Под ред. О.В.Шеменевой, Т.В.Харитоновой. М. изд. «Дошков и К» -2014, -296 с.
2. What is an Enterprise Management System? https://manufacturing- software-blog. mrpeasy.com/enterprise-management-system/
3. Enterprise management system powered by ARIShttps://www.softwareag. com/en_corporate/platform/aris/management-system.html
4. Strategic Enterprise Management and its Components.https://www. simplilearn.com/strategic-enterprise-management-and-its-components-rar101-article
5. Economics and enterprise management. https://fmmp.bntu.by/specialnosti/e-a-en-m/

Резюме

Ахмедова А.А., Бейбутов А.С.

Особенности создания и управления новых предприятий на освобожденных территориях

В статье описаны особенности, которые следует учитывать в процессе создания и управления новыми предприятиями на территориях, освобожденных от оккупации. При создании предприятия, помимо возможностей, имеющихся для его создания на освобожденных от оккупации территориях, должны быть также уточнены перспективные возможности развития и на их основе должны быть подготовлены прогнозы. Также в статье упоминается, что производственно-управленческая система вновь создаваемого предприятия должна быть гибкой, главным критерием и целью их создания должно быть обеспечение конкурентоспособности и эффективности. Для достижения поставленной цели в статье выдвигаются соответствующие предложения и рекомендации.

Ключевые слова: *освобожденные территории, предприятие, создание, управление, особенности, предложения*

Summary

Akhmedova A.A.,Beybutov A.S.

Peculiarities of Creating and Managing New Enterprises in the Liberated Territories

The article describes the features that should be taken into account in the process of creating and managing new enterprises in the territories liberated from occupation. When creating an enterprise, in addition to the opportunities available for its creation in the territories liberated from occupation, prospective development opportunities should also be clarified and forecasts should be prepared on their basis. The article also mentions that the production and management system of a newly created enterprise should be flexible, the main criterion and purpose of their creation should be to ensure competitiveness and efficiency. To achieve this goal, the article puts forward appropriate proposals and recommendations.

Key words: *liberated territories, enterprise, creation, management, features, proposals*

SƏNAYENİN KLASTERLƏŞMƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏ

Ələkbərov Arif Ələkbər oğlu, Xasiyev Eldost Ceyhun oğlu

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

eldostxasiyev2000@mail.ru

Xülasə: *Milli iqtisadiyyatın göstəriciləri regionların göstəricilərinin məcmusudur. Artıq bölgənin performansı nisbətən yaxşı başa düşülür və buda yerli sənaye klasterlərinin gücü və performansından təsirlənir. Sənaye klasterləşməsi və "klaster nəzəriyyəsi" son dövrlərdə aparıcı kimi ortaya çıxdı. Sənaye səmərəliliyinin artırılması üçün geniş şəkildə qəbul edilən iqtisadi siyasət bir bölgənin performansı üçün böyük təsirə malikdir. Sənaye klasteri təşkil etməyə, birlikdə işləməyə kömək edən güclü vasitədir.*

Ehtiyaclarını qarşılamaq və maraqlarını təşviq etmək üçün xarici qurumlarla iş zamanı da klasterlərdən istifadə olunur.

Açar sözlər: *sənaye, iqtisadi siyasət, klaster, beynəlxalq təcrübə, lokalizasiya əmsalı*

Akademiklər, siyasətçilər və hökumətlər davamlı olaraq alətləri inkişaf etdirməyə çalışırlar. Bu iqtisadi inkişafı təşviq edən siyasət üçün geniş qəbul edilən siyasətlərdən biridir-"Klaster nəzəriyyəsidir". Müasir iqtisadiyyatda regional iqtisadi inkişafa təsir edən başlıca amildir [2, s 35]. Klaster nəzəriyyəsinin tətbiqi daha yaxşı nəticələr əldə etmək üçün yanaşmalar təmin edir; dəyişməmiş və ya oxşar girişlərlə; iqtisadiyyatın daha yaxşı başa düşülməsini təmin etmək; hədəflənmiş sənayenin səmərəliliyini artırmaq.

Harvard Biznes Məktəbindən Michael Porter "Millətlərin Rəqabətli Üstünlüyü" kitabında millətlərin və bölgələrin rəqabət qabiliyyətinin əhəmiyyətini vurğuladı. O vaxtdan klaster nəzəriyyəsinin populyarlığı artdı və geniş diapazonda tədqiq edilməyə başladı. Sənaye klasterləşməsi və klaster nəzəriyyəsi sıx tədqiqat mövzusuna çevrilmişdir. Dünya praktikasında klasterlərin müəyyən edilməsi üçün müxtəlif üsullardan istifadə olunur ki, bu da onların strukturlarının mürəkkəbliyi və müxtəlifliyi, habelə yerləşdiyi ərazilərin inkişafı üçün xüsusi şərtlərlə bağlıdır.

E.Fezer, E.M kimi müəlliflər arasında Berqman, Q.Linkvist, T.Mazzarol, E.Markon, iqtisadi modelləşdirməyə əsaslanan kəmiyyət üsulları əsasında klasterlərin müəyyən edilməsi və statistik göstəricilərdən istifadə etməklə klasterləri müəyyən etməyə imkan verir. Bu kateqoriyaya aid üsullara aşağıdakılar daxildir: lokalizasiya əmsalı metodu, giriş-çıxış cədvəli metodu, eləcə də məsafə yönümlü metodlar [4, s 59].

Öz növbəsində O. Solvel, R. Yin, Y. Terras və A. Markusen tədqiqat üçün fikirlər təklif edirlər:

məsələn, ekspertlərin sorğularının keçirilməsi və klasterin tərtibi zamanı əldə edilən keyfiyyətli məlumatlardan istifadə etmək üçün qruplar yaradılır. Klaster təhlili üsullarının nəzərdən keçirilməsinə həsr olunmuş bir sıra əsərlərdə M.Porterin əsərləri xüsusi yer tutur. J. Cortright, T. Anderson da hərtərəfli tədqiqat aparmışlar. Buna klasterlərin müəyyən edilməsi və onların inkişaf səviyyəsinin qiymətləndirilməsi məsələləri aid edilir.

Sənaye klasteri təşkil etməyə, birlikdə işləməyə kömək edən güclü vasitədir. Ehtiyaclarını qarşılamaq və maraqlarını təşviq etmək üçün xarici qurumlarla iş zamanı da klasterlərdən istifadə olunur. Klasterləşmə ideyasının mərkəzi şəxsidir. Sənaye klasterini təşkil edən firmalar fiziki şəxslərdən ibarətdir. Hər bir xüsusi təşkilatı aşan bir cəmiyyətdə yüksək əməkdaşlıq və ünsiyyətcil iştirak etmək lazımdır. Bu mühit geniş klasterin komponentlərinə geniş spektrli üstünlüklər təmin edən kimi qəbul edilmişdir.

Rusiyanın əksər regionlarında klaster siyasətinə maraq rəqabət qabiliyyətini təmin etmək üçün effektiv vasitə kimi artır. Ərazinin ümumi rəqabət qabiliyyətini müəyyən edən rəqabətqabiliyyətli mal və xidmətlərin ayrı-ayrı sahələr daxilində deyil, klasterlər daxilində formalaşdırılması ideyası bunun əsas səbəbidir. Zəngin akademik tədqiqatlara əlavə olaraq, klaster nəzəriyyəsi anlayışı olmuşdur. Müxtəlif ölkələrdə sənayenin müxtəlif sahələrində tətbiqi və təhlili ilə daha da gücləndirilmişdir. Sənaye klasterləşməsi bütün dünyada tətbiq edilmişdir [5, s 76].

Amerika Birləşmiş Ştatları Almaniyaya, İsveçrəyə, Yaponiyaya qədər sənaye sahələrində biotexnologiyadan, informasiya texnologiyalarına İtaliyada keramik plitələr sənayesinə yayım və maliyyə xidmətlərindən istifadə edilməmişdir. Klaster nəzəriyyəsinin geniş şəkildə tətbiqi və təhlil edilməsi aktuallığa imkan verir, tədqiqatçılar həm müvəffəqiyyətlərdən, həm də səhvlərdən öyrənmək və tövsiyələr hazırlamaq ən yaxşı təcrübələr əldə etməyə imkan verir. Nümunə olaraq, Arizona əyalətindəki Morrison İctimai Siyasət İnstitutundan Meri Co Ueyts Arizona klasterinin dizaynında və həyata keçirilməsində əsas rol oynayan universitet iqtisadi inkişaf strategiyası tövsiyə edir..." və bu ortaya çıxacaq ən yaxşı təcrübədir. Avstraliyada ictimai xidmətlərdə səmərəliliyin artırılması ehtiyacı müəyyən edilmişdir və Avstraliya təşkilatlarında mikroiqtisadi islahatların davam etdirilməsinə ehtiyac olduğu kimi sənədləşdirilmişdir. Avstraliyada klaster nəzəriyyəsini başa düşmək bu yolda faydalı müzakirələri təmin etdi və Avstraliya sənaye klasterləşməsi konsepsiyasını qəbul etdi.

Arizona ştatının klaster işçi qrupları kömək etmək üçün klaster təhlil təcrübəsindən istifadə edir. Siyasətçilər sənayeni, sənayenin üzləşdiyi problemləri daha yaxşı başa düşürlər. Buna uyğun olaraq klaster siyasətinə ehtiyac var, yəni klasterləri gücləndirmək və ya inkişaf etdirmək üçün tədbirlərə ehtiyac var. Güclü olan və ya inkişaf etmiş klaster təkcə regionda mövcudluğu nəzərdə tutmur o, həm də oxşar və ya əlaqəli məhsullar istehsal edən şirkətlər qrupunu və bütün kompleksin mövcudluğunu nəzərdə tutur. Son məhsulun yaradılmasında istənilən şəkildə iştirak edən müəssisə, təşkilatlar və ən əsası onların yüksək səviyyədə qarşılıqlı təsirlərə ehtiyacı var. Aydındır ki, regionun klaster siyasəti proqramının, eləcə də ayrıca klaster üzrə inkişaf strategiyasının hazırlanması klaster potensialının ətraflı təhlilinə əsaslanmalıdır, yəni onun bütün elementlərinin mövcudluğunun və onların qarşılıqlı təsir dərəcəsinin müəyyən edilməsidir.

Təyin olunmuş mövzunun aktuallığını, həmçinin mövcud metodların müxtəlifliyi və mürəkkəbliyini nəzərə alaraq, müəlliflər məqalənin məqsədini aşağıdakı struktura uyğun olaraq qurulmuş müqayisəli təhlil yolu ilə ətraflı nəzərdən keçirərək Azərbaycanda klasterləri müəyyən etmək üçün mövcud beynəlxalq metodlardan mümkün istifadəyə dair tövsiyələr hazırlamaq məqsədi daşıyır [1, s 42]:

• məzmunun açıqlanması;

• xüsusiyyətlərin, üstünlüklərin və çatışmazlıqların vurğulanması;

• hamının mövcudluğunu adekvat qiymətləndirmək qabiliyyətinin müəyyən edilməsi,

klaster elementləri və onların qarşılıqlı əlaqə səviyyəsi;

Ən məşhur kəmiyyət metodu ixtisas sahələrini təyin etməyə imkan verən lokalizasiya əmsalının hesablanması üsuludur [3, s 10]. O, ölkə kimi bəzi verilmiş coğrafi vahidin mövqeyindən hesablanır. Bu halda, lokalizasiya əmsalı müəyyən bir sənayedə işçilərin payının nisbəti kimi hesablanır. Regionda məşğul olanların ümumi sayında ölkənin müəyyən sənayesində məşğul olanların ölkədə məşğul olanların ümumi sayındakı payına və tədqiq olunan sənayeni ixtisas sənayesi kimi təsnif etmək üçün əmsal müəyyən səviyyəyə çatmalıdır.

Bununla birlikdə, lokalizasiya əmsalının təmiz formada hesablanması ya çoxluğun bütün elementlərinin mövcudluğunu qiymətləndirməyə imkan vermir, ya da üstəlik, onların qarşılıqlı əlaqəsinin dərəcəsi bu üsulun sənaye sahələrinə yönəldilmişdir və onların qarşılıqlı asılılığını əks etdirə bilməz. Bu, şübhəsiz ki, ümumilikdə və ərazidə onun istifadəsinin səmərəliliyini azaldır. Bununla belə, lokalizasiya amili hərtərəfli metodologiya üçün əsas kimi istifadə edilə bilər. Bu yanaşma M.Porterin əsərlərində öz əksini tapmışdır. Diqqətəlayiqdir ki, M. Porter yerli və resursdan asılı olanlardan fərqli olaraq, yalnız ticarət edilə bilən sənaye klasterlərinin seçilməsinin məqsədəuyğunluğunu göstərir. Bunu ticarət edilə bilən sənayelərin sərvəti artırması ilə izah edir.

Ədəbiyyat

1. Milli iqtisadiyyatın rəqabətliliyi:// struktur islahatları, inkişaf paradiqması, Müəllif: Strateji Təhlil. 2017.

2. Süleymanova Ə. // İnnovasiya tipli məşğulluğun formalaşdırılması müasir mexanizmləri. // "Azərbaycanın vergi jurnalı", 2(082)/2017, s.203

3. Azərbaycan yeni inkişaf mərhələsində, Bakı, //2016, səh.8-15

4. Ülke örnekleri ve sanayileşme modelleri.// T.M.M.O.B. Sanayi Kongresi 2007, Oda Raporu. TC,Ankara, 2008.

5. Бондаренко, Н.Е. //Теоретические концепции инновационного развития экономики //Электронный ресурс/ // 2013, стр. 205

Резюме

Алекберов А.А., Хасиев Э.Дж

Международный опыт кластеризации промышленных отраслей

Показатели национальной экономики представляют собой сумму показателей регионов. Производительность региона в настоящее время относительно хорошо изучена и зависит от силы и производительности местных промышленных кластеров. Промышленная кластеризация и «кластерная теория» стали лидерами в последнее время. Широко принятая экономическая политика, направленная на повышение эффективности промышленности, оказывает большое влияние на показатели региона. Это мощный инструмент, помогающий организовать промышленный кластер и работать вместе. Кластеры также используются при работе с внешними учреждениями для удовлетворения их потребностей и продвижения их интересов.

Ключевые слова: *промышленность, экономическая политика, кластер, международный опыт, коэффициент локализации*

Summary

Alekbarov A.A., Khasiyev E.C

International Experience in Industry Clustering

The indicators of the national economy are the sum of the indicators of the regions. The performance of the region is now relatively well understood and is influenced by the strength and performance of local industrial clusters. Industrial clustering and 'cluster theory' have emerged as leaders in recent times. A widely adopted economic policy to improve industrial efficiency has a major impact on a region's performance. It is a powerful tool to help organize an industrial cluster and work together. Clusters are also used when working with external institutions to meet their needs and promote their interests.

Key words: *industry, economic policy, cluster, international experience, localization coefficient*

QLOBAL TƏHDİDLƏR KONTEKSTİNDƏ AZƏRBAYCANDA İQTİSADİ ARTIM VƏ MAKROİQTİSADİ SABİTLİK MƏSƏLƏLƏRİNƏ KONSEPTUAL YANAŞMALAR

Əliyev Şəfa Tiflis oğlu
Sumqayıt Dövlət Universiteti
shafaaliyev@gmail.com

Xülasə: *Məqalədə qlobal təhdidlər kontekstində Azərbaycanda iqtisadi artım və makroiqtisadi sabitlik məsələlərinə konseptual yanaşmalar əks olunmuşdur. XXI əsrdə Azərbaycan iqtisadiyyatının inkişaf etməsi proseslərinə və xüsusiyyətlərinə dair baxışlar və fikirlər ümumiləşdirilmişdir. Qlobal təsirlərdən yaranan yeni şəraitdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və dayanıqlı iqtisadi inkişaf modelinin formalaşdırılması problemlərinə toxunulmuşdur. İqtisadiyyatın neft amilindən asılılığının azaldılması istiqamətində aktual məsələlər diqqətə çatdırılmışdır. Yaxın perspektivdə Azərbaycanda iqtisadi artım və makroiqtisadi sabitliyin gücləndirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

Açar sözlər: *Azərbaycan iqtisadiyyatı, qlobal təhdidlər, iqtisadi artım, makroiqtisadi sabitlik, konseptual yanaşmalar*

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra sosial-iqtisadi inkşafın yeni mərhələsinə qədəm qoydu. Artıq XXI əsrin iqtisadiyyatının formalaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər görülməli və bununla bağlı zəruri addımlar atılmalı idi. XXI əsr tamamilə fərqli çalarlarla sivilizasiyanı, dünya iqtisadiyyatını, dünya ölkələrini yeni çağırışlara səsləmişdir. Bu əsrin özəlliklərindən biri ondan ibarətdir ki, qlobal iqtisadi transformasiyalar, qlobal yanaşmalar və iqtisadi sistemin köklü bazis şərtlərinin dəyişməsi baş vermişdir. XXI əsrin iqtisadiyyatı hər bir ölkənin iqtisadiyyatından qlobal təhlükələrə qarşı dayanıqlıq nümayiş etdirmək, immunitet formalaşdırmaq və bununla bağlı tədbirlər görməyi tələb edir.

Azərbaycan da bu baxımdan istisna təşkil etmir. Lakin tarix Azərbaycan xalqının və dövlətinin qarşısında daha mürəkkəb sınaqlar və problemlər çıxarmışdır. Bunların həlli istiqamətində davamlı işlərin görülməsi, resurların konsolidasiyası və təsirli tədbirlərin həyata keçirilməsi lazım gəlmişdir. 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycan erməni silahlı qüvvələrinin işğalına məruz qalmışdır. Xarici havadarlarının və keçmiş sovet imperyasından qalan silah-sursatdan, ağır texnikadan istifadə edərək, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 %-ni işğal etmişdir. Resurslarımız talan olunmuş, 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə daş daş üstündə qalmamışdır. Burada əsas faciəvi məsələlər isə insanlarımızın həyatını itirməsi, minlərlə insanın itkin düşməsi və uzun müddət ərzində resurlarımızın dövriyyədən kənarda qalması, erməni qəsbkarları və vandalları tərəfindən vəhşicəsinə dağıdılması, xaricə satılması, o cümlədən təbii ehtiyatlarımızın, milli sərvətlərimizin xarici şirkətlər tərəfindən qeyri qanuni yollarla istismar edilərək xaricə aparılması ilə nəticələnmişdir.

Lakin tarix bütün bunları, baş verən ədalətsizliyi, bununla bağlı ikili standartları cavabsız qoymadı. Azərbaycan xalqı özünün milli-iqtisadi inkşaf modelini formalaşdıraraq, iqtisadiyyatını gücləndirərək, iqtisadi qüdrətini artıraraq, regionda əsas həlledici iqtisadiyyata malik dinamik inkşaf edən ölkəyə çevrildi. 1993-cü illərin ortalarından başlayaraq ölkəmizdə dövlət atributları gücləndirildi. Dünya şöhrətli siyasətçi, dahi zəkaya malik olan Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan özünün yeni inkşaf mərhələsinə qədəm qoydu.

1994-cü il sentyabrın 20-də bağlanılmış "Əsrin kontraktı"ndan sonra neft strategiyasına əsaslanan yeni inkşaf modeli tezliklə özünü doğrultdu. Azərbaycan iqtisadiyyatına xarici investisyalar daxil olmağa başladı. Düzdür, bunlar əsas etibarilə neft sənayesinə daxil oldu, neft hasilatı üçün nəzərdə tutulmuşdu və bu işdə dünya şöhrətli "British Petroleum" şirkətinin rəhbərliyilə yaradılan beynəlxalq konsorsiumun böyük rolu oldu. Azərbaycanda 2050-ci ilədək olan dövr üçün neft və qaz sahəsində birgə fəaliyyətin davam etdirilməsi üzrə razılıq imzalanmışdır. Burada tarixi özəllik və iqtisadi fərqlilik ondan ibarətdir ki, riskli bölgəyə - hələ də davam edən müharibə şəraitində olan bir ölkəyə – Azərbaycana xarici investiayaların axını başladı və hazırda davam edir. Azərbaycan iqtisadiyyatının sabitləşdirici elementləri və amilləri artdı, milli iqtisadiyyatımıza yeni nəfəs verildi, Azərbaycan iqtisadiyyatı özünün inkşafetmə imkanlarını mobilizasiya etməyə tarixi fürsət qazandı.

Bunlarla bərabər, ölkəmizdə sosial-iqtisadi inkşafın yeni mərhələsi başladı. İlk növbədə, iqtisadiyyatın bütün sahələrində sosial-iqtisadi inkşafın əsas elementləri olan infrasturuktur obyektləri şəbəkəsi formalaşdırıldı. Ölkə əhalisinin sosial-iqtisadi inkşafının təmin edilməsi üçün kifayət qədər zəruri

olan addımlar atıldı. Şübhəsiz, öz doğma yurdlarını itirmiş, o cümlədən ermənistandan qovulmuş, bütün varidatlarını, evlərini itirmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülmüşdür, çadır şəhərcikləri ləğv olunmuş, müvafiq infrasturuktur salınmış, rahat və komfort olan yaşayış massivləri istifadəyə verilmişdir. Məcburi köckünlərin problemlərinin həlli istiqamətində önəmli addımlar atılmışdır. Lakin bütün bunlar hələ də az idi, Azərbaycan özünün iqtisadi inkşaf determinantlarından istifadə etməklə, daha güclü iqtisadi inkşaf modelini formalaşdırmalı, ordu quruculuğu üçün zəruri resursları əldə etməli və iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində tədbirlər görməli idi.

Buna görə də Azərbaycan regionda və postsovet məkanında ilk dövlət olaraq aqrar islahatlara başladı. Bu isə təbiidir, Azərbaycan əhalisinin yarısından çoxu regionlarda – kəndlərdə yaşayır, onların məşğulluq problemləri bazar iqtisadiyyatı şəraitində kəskin şəkildə üzə çıxmışdır. Bu problemlərin həll edilməsi olduqca vacib idi və bunu gözəl anlayan Ulu Öndər Heydər Əliyev rəhbərliyi altında aqrar islahatlar reallaşdırldı. Regionların – kənd rayonlarının, ev təsərrüfatlarının inkşafına təkan verən addımlar atıldı, torpaqlar bölüşdürüldü və torpaqlardan istifadə edilməsi üçün infrasturuktur obyektlərinin tikintisinə başlanıldı, yollar çəkildi, körpülər salındı, kənd rayonlarının inkşafı üçün əlavə tədbirlər görüldü. Nəticədə Azərbaycanda əhalinin əhəmiyyətli hissəsinin sosial-iqtisadi inkşafı üçün zəruri addımlar atıldı. Kənd təsərrüfatının müxtəlif seqmentlərinin, xüsusilə heyvandarlığın, əkinçiliyin inkşafından ötrü məqsədli tədbirlər görüldü. Eyni zamanda, ölkə iqtisadiyyatının şaxələndirilməsinə və ənənəvi sahələrin inkşaf etdirilməsinə xüsusi diqqət ayrıldı.

Qeyri-neft sənayesi sahələrinin inkşaf etdirilməsi, bununla bağlı tədbirlərin görülməsi, o cümlədən Sumqayıt sənaye mərkəzinin yenidən qurulması, müasir texnologiyalar əsaslı müəssisələrin yaradılmasına başlanıldı. Bazar iqtisadiyyatı şəraitində investorlar üçün əlverişli olan yeni iqtisadi mexanizmlərdən istifadə edilməsi sürətləndirildi. Bütün bunlar ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması istiqamətində önəmli addımlar kimi qiymətləndirilə bilər. Azərbaycanda bu qəbildən olan tədbirlər 2000-ci illərin əvvəllərindən başlayaraq, artıq sosial infrasturuktur səviyyəsindən yüksək texnologiyalardan ibarət istehsal infrastrukturunun yaradılması proseslərinə keçmişdir. Bundan əlavə, sosial-iqtisadi problemlərin həlli ilə bərabər, həm də sosial-iqtisadi inkşafın keyfiyyətcə yeni mərhələyə qaldırılması tədbirlərinə başlanıldı.

Ölkə prezidentinin diqqətində daha çox regionların sosial-iqtisadi inkşafının balanslı şəkildə inkşaf etdirilməsi olmuşdur. Bir-birinin ardınca məqsədli regional dövlət proqramlarının icra edilməsi, yəni, 2004-2008; 2009-2013 və 2014-2018-ci illəri əhatə edən dövlət proqramlarının yerinə yetirilməsi sayəsində Azərbaycanda regionların siması tamamilə dəyişmiş, rəqabət qabiliyyətli müəssisələr şəbəkəsi yaradılmışdır. Hazirda dördüncü regional inkişaf proqramı - 2019-2023-cü illəri əhatə edən dövlət proqramının icrası davam edir. Bu proqramın icrasında əsas məqsəd artıq rəqabət qabiliyyətli və qlobal təhdidlərə cavab verən istehsal infrasturukturunun yaradılması, sənaye müəssisələrinin istismara verilməsi, innovativ inkşafın təmin edilməsi və əhalinin gəlirlərinin artırılması üçün yeni mənbələrin formalaşdırılmasıdır [1, səh.5].

Bundan əlavə, Azərbaycan iqtisadiyyatının diversifikasiyalaşdırılması istiqamətində sosial-iqtisadi inkşafın tarazlaşdırılması üçün önəmli addımlar atılmışdır. Azərbaycan iqtisadiyyatının özünün yeni inkşaf mərhələsinə qədəm qoyduğunu da söyləmək olar. Belə ki, artıq son on il ərzində əsas iqtisadi artım mənbəyi kimi qeyri-neft sektoru sahələri çıxış edir. Digər tərəfdən, ölkəmizin iqtisadi siyasətində qeyri-neft sektoru sahələrinin inkşaf etdirilməsi, bununla bağlı perspektivli iqtisadiyyat sahələrinin inkşafının ön plana çəkilməsi son illərin prioritet və strateji vəzifələri kimi diqqət çəkir. 2014-cü ilin sonlarında və 2015-ci il ərzində Azərbaycanda baş verən iqtisadi silkələnmələr, maliyyə qeyri-sabitliyi, ilk növbədə milli valyutanın – manatın ikiqat devalvasiyası artıq yeni mexanizmlərə tələbatın və zərurətin ortada olduğunu diqqətə çatdırmışdır. Həmin dövrdə dünya bazarında enerjidaşıyıcılarının qiymətlərinin qeyri-sabitliyi, o cümlədən neftin qiymətinin bir neçə dəfə aşağı düşməsi nəticəsində Azərbaycanın iqtisadi inkşaf tempinə və formalaşmış maliyyə – iqtisadi sabitliyinə ciddi təhdidlər yaranmışdır. Milli valyutanın – manatın ikiqat devalvasiyasından sonra əhalinin gəlirlərinin xeyli hissəsi dəyərsizləşmiş və insanlarımızın maddi vəziyyəti pisləşmişdir, iqtisadiyyatımızın inkşafında problemlər yaranmışdır. Bütün bunlara adekvat olaraq tədbirlər görülməsi məqsədilə milli iqtisadiyyatının şaxələndirilməsi təmin olunmuşdur. Qısa müddət ərzində dünya səviyyəsində baş verən hadisələr təhlil olunmuş, milli və xarici ekspertlərin iştirakı ilə strateji yol xəritələri hazırlanmışdır. 2016-cı il 6 dekabr tarixli Prezident fərmanı ilə 11 perspektiv iqtisadiyyat istiqaməti üzrə strateji yol xəritələri təsdiq olunmuşdur [2]. Strateji yol xəritələrinin icra edilməsi prosesləri demək olar ki, intensiv bir fazaya keçmişdir. Strateji yol xəritələrinin reallaşdırılması nəticəsində qeyri-neft sektoru sahələrinin şaxələndirilməsi, iqtisadiyyatımızın resurs potensialından daha səmərəli istifadə olunması xüsusilə rəqabətqabiliyyətli istehsal sahələrinin inkşaf etdirilməsi mümkün olmuşdur. Hazırda Azərbaycan iqtisadiyyatı özünün iqtisadi inkşaf tempinə görə regionda və dünyada xüsusilə fərqlənən və öndə gedən iqtisadi inkşaf modeli ilə diqqət çəkir [6, səh. 9].

Bunlarla yanaşı, Covid-19 pandemiyasının mənfi təsirindən yaranan yeni şəraitdə ölkə iqtisadiyyatının daha da gücləndirilməsi və məhdudlaşdırılmış iqtisadiyyat sahələrinin tempinin bərpa olunması, bununla bağlı əlavə tədbirlərin görülməsi kifayət qədər yeni mexanizmlərin işlənməsini tələb etmişdir [3, səh. 148]. Digər bir önəmli məsələ və tarixi hadisə Böyük Qarabağ zəfəri, onunla bağlı yaranmış yeni reallıqlardan ibarətdir. 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün ərzində davam edən Böyük Qarabağ Zəfərində müzəffər Azərbaycan ordusunun və ali baş komandanın rəhbərliyi altında əldə etdiyi tarixi qələbə – torpaqlarımızın işğaldan azad olunması və işğalçı ermənistanın təslimçilik aktına imza atması regionda yeni reallıqlar yaratmışdır [5, səh. 279]. İşğaldan azad olmuş ərazilərin dirçəldilməsi istiqamətində strateji hədəflər müəyyənləşdirilmiş, ümumilikdə ölkə üzrə sosial-iqtisadi inkşafın yeni drayverlərinin formalaşdırılması və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi mümkün olmuşdur [4, səh. 109].

Beləliklə, işğaldan azad olunmuş ərazilərin prioritet inkşaf hədəfləri nəzərə alınmaqla, yaxın perspektivdə Azərbaycanda sosial-iqtisadi inkşafın gücləndirilməsi üçün bir sıra istiqamətlər üzrə daha çox işlərin görülməsini vacib hesab edirik:

- Azərbaycan iqtisadiyyatının 2022-2026-cı illərdə nəzərdə tutulmuş strateji fəaliyyət istiqamətlərinin vaxtında və məhsuldar səviyyədə yerinə yetirilməsi üçün ölkənin iqtisadi inkşaf modelinin, mövcud mexanizmlərinin qlobal çağırışlara uyğun şəkildə təkmilləşdirilməsi və ya yenilənməsi vacibdir;
- Azərbaycan iqtisadiyyatının inkşafında mühüm rol oynaya biləcək bir qrup qeyri-neft sektoru sahələrinin inkşaf etdirilməsi baxımından, daha təsirli tədbirlərin görülməsini vacib hesab edirik. Bunların sırasında ənənəvi güclü potensiala malik olan metallurgiya və neft-kimya sənayesinin müəyyən istiqamətlərinin və vaxtilə Azərbaycanda geniş potensiala malik olan cihazqayırma sənayesinin, eyni zamanda yüngül sənayenin inkşaf etdirilməsi istiqamətində güclü resurlar vardır və onlardan daha səmərəli istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir;
- Ölkəmizdə əhalinin məşğulluğunun təmin olunmasında, gəlirlərinin artırılmasında və ümumiyyətlə, iqtisadiyatın yeni əlavə dəyər mənbələrinin formalaşdırılmasında mümkün olan fəaliyyət istiqamətlərindən məhsuldar istifadə edilməsi üzrə davamlı tədbirlər görülməli və iqtisadiyyatın intensiv inkşafında mühüm əhəmiyyət kəsb edən sahibkarlığın fəaliyyətinə daha geniş yer verilməsi məqsədəuyğundur;
- İqtisadiyyatın maksimum azadlığı, şəffaflığın təmin edilməsi, mühasibat və maliyyə hesabatlarının dürüstlüyünün qorunması məsələləri ön plana çıxarılmalıdır, belə ki, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi də olduqca mühüm əhəmiyyət kəsb edir. Son illərdə bu istiqamətlərdə görülən tədbirlər belə bir nəticəyə gəlməyə ümid verir ki, milli iqtisadiyyatın "kölgə" elementlərindən təmizlənməsi yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasına və onların daha dinamik olaraq təşkilinə imkan verə bilər.

Bütün bunlar isə ölkə əhalisinin həyat səviyyəsini yaxşılaşdırmaqda əhəmiyyətli rol oynamaqla yanaşı, sosial-iqtisafi inkşafın sürətləndirilməsi imkanlarının və mənbələrinin yaradılmasına, təbii resurslardan və milli sərvətlərdən əhalinin rifahını yaxşılaşdırılması istiqamətində səmərəli istifadəsinə, rəqabətqabiliyyətli müəssisələrin yaradılmasına, ölkəyə gələn valyuta mənbələrinin müxtəlif alternativ variantlarının formalaşdırılmasına yeni imkanlar yarada bilər. Bunlar isə öz növbəsində Azərbaycan iqtisadiyyatının, ümumilikdə ölkə üzrə sosial-iqtisadi inkşafının əsas mexanizmlərinin 21-ci əsrin tələblərinə və hədəflərinə adekvat olaraq müəyyənləşdirilməsinə və təkmilləşdirilməsinə imkan verə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. / – Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. № 500.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. Nuriyev Ə.X. Ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri (tarix və müasirlik). Bakı: Savad, 2021, 376 s.
4. Алиев Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура. Монография. Баку: «Наука и знание», 2022, 152 с.
5. Алиев Ш.Т., Меликова Л.А. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий / IX Международная Научно-Практическая Конференция «Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков». / Россия, Москва, 28 марта 2022 г., с. 277-286.
6. Muradov A.J., Hajiyev N.O. Competitive Environment Is The Main Factor For Integration Into The World Economy // Journal of Economic Sciences: Theory & Practice. 2014, Vol. 71 Issue 2, p. 5-20.

Резюме
Алиев Ш.Т.
Концептуальные подходы к вопросам макроэкономической стабильности и экономического роста в Азербайджане в контексте глобальных воздействий

В статье исследуются вопросы и проблемы экономического роста и макроэкономической стабильности в контексте глобальных угроз. Обобщены и рассмотрены взгляды и мысли относительно вопросов развития экономики Азербайджана начиная с начала XXI века. Рассмотрены особенности экономического развития страны и даны концептуальные подходы к этим вопросам. Анализирована и раскрыта сущность проблемы формирования модели экономического развития и вопросы её совершенствования в условиях глобальных влияний в новых условиях. Обращено внимание на актуальные вопросы и необходимость усиления минимизации зависимости от нефтяного фактора экономики страны. Подготовлены рекомендации и даны предложения по усилению формирования продуктивных источников экономического роста и макроэкономической стабильности Азербайджана в ближайшей перспективе.

Ключевые слова: *экономика Азербайджана, глобальные воздействия, экономический рост, макроэкономическая стабильность, концептуальные подходы*

Summary
Aliyev Sh.T.
Conceptual Approaches to Macroeconomic Stability and Economic Growth of Azerbaijan in the Context of Global Impacts

The article examines the issues and problems of economic growth and macroeconomic stability in the context of global impacts. The views and thoughts on the development of the Azerbaijani economy since the beginning of the 21st century have been summarized and considered. The features of the country's economic development are considered and conceptual approaches to these issues are given. The essence of the problem of forming a model of economic development and the issues of its improvement in the context of global influences in the new conditions are analyzed. Attention is drawn to main issues and the need to strengthen the minimization of dependence on the oil factor of the country's economy. Recommendations are prepared and proposals are made to strengthen the formation of productive sources of economic growth and macroeconomic stability in Azerbaijan in the near future.

Key words*: Azerbaijan economy, global impacts, economic growth, macroeconomic stability, conceptual approaches*

İŞĞALDAN AZAD EDİLMİŞ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ BƏRPA VƏ YENİDƏNQURMA İŞLƏRİNİN MALİYYƏLƏŞDİRİLMƏSİ PROBLEMLƏRİ

Əhmədzadə Mehman İmamverdi oğlu
Sumqayıt Dövlət Universiteti
axmedzade49@gmail.com

Xülasə: *Azərbaycan-Ermənistan münasibətlərində gərginliyin Beynəlxalq Hərbi Tribunal vasitəsilə aradan qaldırılmasının zəruriliyi göstərilir.*

İşğaldan azad edilmiş rayonlarda bərpa və yenidənqurma işlərinə investisiyaların cəlb edilməsinin kvotalaşdırılması, xarici investisiya kontraktlarının yalnız təbii ehtiyatların respublikanın daxili gücü və vəsaitləri hesabına çıxarılmasının və emalının qeyri-mümkünlüyü halında bağlanmasına yol verilməsi, bərpa və yenidənqurma işlərinin əsasən Azərbaycanın elm, sənaye, tikinti təşkilatları və mütəxəssislərinin iştirakı ilə yerinə yetirilməsinin mümkünlüyü təsdiq edilir.

Açar sözlər: *ərazi, işğal, bərpa, yenidənqurma, xərclər, təbii sərvət. maliyyələşdirmə, kvota, standart, meyar*

Ermənistan tərəfindən 1992-1993-cü illərdə işğal edilmiş Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur rayonlarının 2020-ci ilin payızında 44 günlük müharibə nəticəsində işğalçılardan azad edilməsi Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində mühüm mərhələdir. Dövlətin və ordunun birgə səyləri sayəsində azərbaycanlıların ən qədim zamanlardan məskunlaşdığı ərazilərin üzərində xalqın suverenlik hüququ bərpa olundu, SSRİ-nin tərkibində mövcud olmuş Azərbaycan və Ermənistan respublikaları arasında sərhədlərin delimitasiyası və demarkasiyası tədbirlərinin həyata keçirilməsi üçün

şərait yaradıldı. Eyni zamanda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanmaması, 1922-1991-ci illərdə mövcud olmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin Xankəndi, Ağdərə və Xocalı rayonlarının inzibati statusunun qeyri-müəyyənliyi, eləcə də Azərbaycan ordusunun mövqelərinə Ermənistan ərazisindən mütəmadi olaraq atəş açılması və sərhədyanı ərazilərdə irimiqyaslı təxribatlar törədilməsi insanlarda möhkəm sülhün yaranmasına inamsızlıq yaradir. Hesab edirik ki, Cənubi Qafqazda hazırda yaşanan hərbi-siyasi gərginliyin aradan qaldırılması üçün Azərbaycan ərazilərinin 1992-2020-ci illərdə Ermənistan tərəfindən işğal edilməsi ilə bağlı məsələnin Yuqoslaviyada olduğu kimi, Beynəlxalq Hərbi Trubunalla həll edilməsi, cinayətin sifarişçisinin, təşkilatçılarının, icraçılarının və yardımçılarının cinayət məsuliyyətinə cəlb edilməsi zəruridir [4].

Azərbaycanla Ermənistan arasında sülh prosesinin Ermənistan tərəfinin təqsiri ucbatından ləngidilməsinə baxmayaraq, Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və yenidənqurma layihələrini ortaya qoyur və bu layihələrlə bağlı hüquqi, iqtisadi və təşkilati tədbirlər həyata keçirir. "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il tarixli Sərəncamına uyğun olaraq azad edilən regionların bərpası, milli iqtisadiyyata inteqrasiyası, təbii ehtiyatlardan səmərəli istifadə, ərazilərin sosial-iqtisadi inkişafı proqramlarının icrasına başlanılmışdır [3].

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilməsi zəruri olan bərpa işlərinin siyahısını aşağıdakı kimi təsvir etmək mümkündür:

1. Şəhərlərdə, qəsəbələrdə və kəndlərdə yaşayış evlərinin, kommunal təsərrüfatı obyektlərinin, məktəblərin, xəstəxanaların, tibbi xidmət məntəqələrinin, uşaq bağçalarının inşa edilməsi;
2. Rabitə və yol infrastrukturunun bərpa olunması, yeni yolların, ö cümlədən yeraltı yolların, körpülərin tikintisi;
3. Tarixi abidələrin bərpası, ictimai-mədəni təyinatlı obyektlərin yaradılması;
4. Təbii ehtiyatların geoloji kəşfiyyatı, hasil edilməsi, emalı və nəql edilməsi üzrə investisiya layihələrinin həyata keçirilməsi;

Sadalanan bərpa işlərinin yerinə yetirilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsinin aşağıdakı mənbələr hesabına təmin edilməsi mümkündür:

1. Dövlət büdcəsindən rayon büdcəsinə subvensiyalar;
2. Büdcədənkənar fondlardan rayon büdcəsinə ayrılan vəsaitlər;
3. Hüquqi və fiziki şəxslərdən alınan yardımlar;
4. Məskunlaşan vətəndaşların xüsusi vəsaitləri;
5. Daxili və xarici investisiyalar;
6. Bank kreditləri;
7. Beynəlxalq maliyyə-kredit təşkilatlarından alınan yardımlar, kreditlər, qrantlar;
8. Xarici dövlətlərdən, hüquqi və fiziki şəxslərdən alınan yardımlar və borclar.

Bərpa işlərinin maliyyələşdirilməsinə fərqli mövqedən yanaşmanın mümkünlüyü inkar edilməməlidir. Şəhərlərdə, qəsəbələrdə və kəndlərdə yaşayış evlərinin tikintisi ilə bağlı xərclər məskunlaşan vətəndaşların xüsusi vəsaitləri və dövlət yardımları hesabına təmin edilə bilər. Kommunal təsərrüfatı, istehsal və sosial təyinatlı obyektlərin inşası üçün pul vəsaitləri dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində cəlb edilə bilər. Bərpa və yenidənqurma layihələrinin həyata keçirilməsi ilə bağlı xərclərin daxili investisiyaların, bank kreditlərinin və xarici maliyyə mənbələri hesabına təmin edilməsi istisna edilməməlidir.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinin layihələndirilməsi sahəsində yaranan əsas problemlər təbii ehtiyatlardan istifadə edilməsində cəmiyyətin və dövlətin maraqlarının təmin edilməsi ilə bağlıdır. 1992-ci ilədək Qarabağ və Şərqi Zəngəzur ərazilərində 163 növ faydalı qazıntı, o cümlədən 5 qızıl, 7 civə, 2 mis, 1qurğuşun və sink, 1daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, əhəng xammalı, 10 qum-çınqıl, 1 perlit, 8 pemza-vulkan külü, 16 yeraltı şirin və 11 mineral su yatağı mövcud idi [2].

28 il ermənilərin işğalı altında olan Azərbaycan ərazisindən İstisu mineral suyunun, qızılın, meşələrin, yaşayış evlərinin döşəmə və tavanlarının, qapı-pəncərələrinin, məişət əşyalarının (yorğan, döşək, qab-qacaq, palaz, xalça və s.) ermənilər tərəfindən talan edilib. Ermənistana aparılması haqqında məlumatlar İnternet vasitəsilə bütün dünyaya yayılmışdır. İşğal zamanı talan edilmiş təbii ehtiyatların həcminin və dəyərinin ekspertlər tərəfindən qiymətləndirilməsi başa çatdırıldıqdan sonra həmin ehtiyatların hasilatı, emalı və daşınılması üzrə investisiya layihələrinin qiymətləndirilməsi, seçilməsi və həyata keçirilməsi sahəsində əsaslı tədbirlərin yerinə yetirilməsi üçün əlverişli şərait yaranmışdır [1].

İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma layihələri çərçivəsində daxili və xarici investisiyaların cəlb edilməsi üçün dövlət tərəfindən kvotaların tətbiq edilməsi məqsədəuyğundur. Xüsusilə, İstisu mineral suyunun, qızılın, civənin və başqa qiymətli sərvətlərin ixracatının kvotalaşdırılmasında başlıca

məqsəd respublikanın həmin məhsullara daxili tələbatını və dövlət büdcəsini möhkəm gəlir mənbəyi ilə təmin etməkdən ibarətdir.

İnvestisiyaların cəlb edilməsi və istifadəsi ilə bağlı maliyyə əməliyyatlarının uçotu qüvvədə olan dövlətdaxili və beyəlxalq qanunvericiliyin normalarına uyğunluğu təsdiq edildikdən sonra subyektlərin maliyyə hesabatlarında əks etdirilməlidir. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Şurası tərəfindən təsdiq edilmiş "Təbii ehtiyatların kəşfiyyatı və qiymətləndirilməsi" adlı 6 №li Maliyyə Hesabatlarının Beynəlxalq Standartına əsasən daxili və xarici investisiyanın cəlb edilməsi üçün təbii ehtiyatın çıxarılmasının texniki baxımdan mümkünlüyü və kommersiya baxımından sərfəliliyi əsas meyar hesab edilir. Beləliklə, investisiyaların cəlb edilməsi üzrə kontraktların bağlanması və icrası ilə bağlı əməliyyatların uçot və hesabatda tanınması üçün ilk növbədə təbii ehtiyatın ölkənin daxili gücü və vəsaitləri hesabına çıxarılmasının mümkünlüyü və ya qeyri-mümkünlüyü nəzərə alınmalıdır. Başqa sözlə, təbii ehtiyatların ölkənin daxili gücü və vəsaitləri ilə çıxarılması mümkün olduqda xaricdən investisiyanın cəlb edilməsi məqsədəuyğun deyil və əksinə, təbii ehtiyatın kəşfiyyatı, qiymətləndirilməsi və hasilatı ölkənin daxili gücü hesabına mümkün olmadıqda, xarici investisiyanın cəlb edilməsi məqsədəuyğun hesab edilir. Qeyd edək ki, 6 №li Maliyyə Hesabatlarının Beynəlxalq Standartının Azərbaycanın iqtisadi subyektləri tərəfindən tətbiq edilməsi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 30 yanvar 2017-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynalxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları" və bu qaydalara uyğun istifadə edilən Hesablar Planı ilə tənzimlənilir [2]. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma, o cümlədən təbii ehtiyatların kəşfiyyatı və çıxarılması sahəsində işlərin öhdəsindən gələ bilən elmi tədqiqat, geoloji kəşfiyyat, sənaye layihə, sənaye tikinti, podrat tikinti təşkilatlarının və mütəxəssislərin hazırda mövcud olduğunu etiraf etmək lazımdır. Sadalanan daxili resurslardan bərpa və yenidənqurma prosesində istifadə edilməsi xarici investisiyaların kvota çərçivəsində emaledici sənaye müəssisələrinin yaradılması üçün cəlb edilməsinə maneə yaratmır.

Yuxarıda istifadə olunanlar nəzərə alınmaqla aşağıdakı nəticə və təklifləri əsaslandırmaq mümkündür:

Birincisi, Azərbaycan-Ermənistan münasibətlərində sonu görünməyən siyasi gərginliyin aradan qaldırılması üçün Azərbaycan ərazilərinin 1992-2020-ci illərdə Ermənistan tərəfindən işğal edilməsi ilə bağlı məsələnin Beynəlxalq Hərbi Tribunalla həll edilməsinin zəruriliyi ortaya çıxarılır;

İkincisi, işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma layihələri çərçivəsində daxili və xarici investisiyaların kvota əsasında cəlb edilməsi təklif edilir;

Üçüncüsü, investisiyanın cəlb edilməsi ilə bağlı kontraktların bağlanması və icrası üzrə əməliyyatların 6 №li Maliyyə Hesabatlarının Beynəlxalq Standartına uyğun olaraq uçot və hesabatda tanınması üçün təbii ehtiyatın ölkənin daxili gücü və vəsaitləri hesabına çıxarılmasının və emalının mümkünlüyü və ya qeyri-mümkünlüyü nəzərə alınmalıdır;

Dördüncüsü, işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların kəşfiyyatı, hasilatı, emalı və daşınılması sahəsində işlərin yerinə yetirilməsini təmin edən elmi-tədqiqat, geologiya, sənaye-tikinti-layihə təşkilatlarının və mütəxəssislərinin mövcudluğu inkar edilməməlidir.

Ədəbiyyat

1. İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri / Xalq qəzeti, 9 dekabr 2020-ci il, s. 9

2. Elektron resurs: https: www.e-qanun.az

3. Elektron resurs: https: www.azerbaijan.az

4. Elektron resurs: https: www.un.org/international-tribunals

Резюме

Ахмедзаде М.И.

Проблемы финансирования работ по восстановлению и перестройке территорий Азербайджана, освобожденных от оккупации

Рассматривается необходимость устранения напряженности в отношениях между Азербайджаном и Арменией посредством Международного Военного Трибунала.

Утверждается возможность квотирования привлечения инвестиций, заключения инвестиционных контрактов в связи с разведкой природных запасов до того,как техническая осуществимость и коммерческая целесообразность добычи и переработки полезных ископаемых за счет внутриреспубликанских сил и средств,а также выполнения восстановительных и перестроечных работ усилиями Азербайджанских научных, производственных, строительных организаций и специалистов может быть продемонстрирована.

Ключевые слова: *территория, оккупация, восстановление, перестройка, ископаемые, расходы, финансирование, квота, стандарт, критерий*

Summary
Ahmadzade M.I.
Problems of Financing the Works on Restoration and Reconstruction of the Territories of Azerbaijan, Liberated From Occupation

The need to eliminate tension in relations between Azerbaijan and Armenia through the International Military Tribunal is being considered.

The possibility of quoting the direction of investments to newly created processing enterprises, concluding investment contracts only in case of impossibility of extracting and processing natural resources at the expense of intra-republican forces and means, and performing restoration and restructuring work by the efforts of Azerbaijani scientific, industrial, construction organizations and specialists is approved.

Key words: *territory, occupation, restoration, restructuring, expenses, financing, quota, standard, criterion*

ELEKTRON BİZNESİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ PRİNSİPLƏRİ

Əliyev Teyyub Qəni oğlu, Yahyayev Rəsul Rauf oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
teyyub-qenioglu@mail.ru ; rasulyahyayev13@gmail.com

Xülasə: *Məqalədə qeyd edilir ki, ənənəvi biznes sistemləri ilə müqayisədə elektron biznesin təhlükəsizliyinin çoxlu riskləri var, ona görə də təhlükəsizlik elektron biznes üçün böyük əhəmiyyət kəsb edir. Elektron bizneslə məşğul olan biznes strukturları onun təhlükəsizliyinin təmin edilməsi prosesində bir sıra problemlərlə qarşılaşırlar. Məqalədə elektron biznesin təhlükəsizlik sistemlərinin yaradılması və fəaliyyəti prosesində nəzərə alınması məqsədəuyğun olan prinsiplər şərh edilir, elektron biznesin təhlükəsizliyinin təmin edilməsinə imkan və zəmin yaradan təklif və tövsiyələr irəli sürülür.*

Açar sözlər: *elektorn biznes, təhlükəsizlik, problemlər, təmin etmək, təkliflər*

Müasir dövrdə elektron biznes rahatlığına görə getdikcə populyarlaşır. Ancaq, bir çox şirkətlər tez-tez üçüncü tərəf proqramlarının, hakerlərin müdaxiləsi təhlükəsi ilə üzləşməli olurlar. Ənənəvi biznes sistemləri ilə müqayisədə elektron biznesin təhlükəsizliyinin çoxlu riskləri var, ona görə də təhlükəsizlik elektron biznes üçün böyük əhəmiyyət kəsb edir. Müştərilər, təchizatçılar, işçilər və bir çox başqa insanlar gündəlik olaraq elektron biznes sistemindən istifadə edirlər. Eyni zamanda, münasibətlərin bütün iştirakçıları təqdim etdikləri məlumatların məxfiliyinin gözlənilməsinə böyük əhəmiyyət verirlər. Hakerlər elektron biznesində əsas təhlükələrdən biridir. Ona görə də elektron biznes xarici təhlükələrdən qorunmalı, onun təhlükəsizliyi təmin edilməlidir. Elektron biznesin təhlükəsizliyi məsələlərinə: biznes strukturlarının əməliyyatlarının; müştərilərin şəxsi və məxfi məlumatlarının; onların həqiqiliyinin və bütövlüyünün qorunması daxildir.

Elektron biznesin təhlükəsizliyinin təmin edilməsi elektron ticarət texnologiyalarından istifadə etməklə kommersiya əməliyyatları həyata keçirən biznes subyektlərinin mənafelərinin maddi və digər itkilər təhlükəsindən qorunmasını nəzərdə tutur.

Mülkiyyət növündən asılı olmayaraq təhlükəsizliyin təmin edilməsi dövlət təşkilatlarından tutmuş müxtəlf ölçüdə (mikro, kiçik, orta, iri) biznes qurumları üçün vacibdir. Fərqlər yalnız onların təhlükəsizliyini təmin etmək üçün hansı vasitə və üsulların və nə dərəcədə tələb olunduğundan ibarətdir. Təhlükəsizlik anlayışına əsaslanaraq demək olar ki, hər hansı biznes strukturunun təhlükəsizliyinin təmin edilməsinə aşağıdakılar daxildir:

- biznes subyektlərinin iqtisadi maraqlarının müdafiəsi kimi başa düşülən iqtisadi təhlükəsizliyin təmin edilməsi;
- məlumatın dəyişdirilməsindən və icazəsiz istifadədən qorunmasına aid olan informasiya təhlükəsizliyinin təmin edilməsi;
- işçilərin həyatına və şəxsi maraqlarına qəsdlərdən müdafiənin təmin edilməsi kimi başa düşülən fiziki təhlükəsizliyin təmin edilməsi;

İnformasiya təhlükəsizliyinin təmin edilməsi şirkətin təhlükəsizliyinin təmin edilməsində əsas məqamlardan biridir.

Qərb ekspertlərinin fikrincə, yüz hadisədən altmış halda kommersiya məlumatlarının 20%-nin sızması şirkətin iflasına gətirib çıxarır. Ona görə də fiziki, iqtisadi və informasiya təhlükəsizliyi bir-biri ilə çox sıx bağlıdır.

Təhlükəsizliyin təmin edilməsi probleminin üç komponentini ayırd etmək olar:

- hüquqi müdafiə;
- təşkilati müdafiə;
- mühəndis-texniki müdafiə.

Təhlükəsizlik sistemlərinin yaradılması və fəaliyyəti proseində bir sıra prinsipləri nəzərə almaq lazımdır. Bu prinsipləri üç əsas bloka bölmək olar:

- təhlükəsizliyin ümumi prinsipləri;
- təşkilati prinsiplər;
- təhlükəsizlik sisteminin həyata keçirilməsi prinsipləri.

1. Təhlükəsizliyin təmin edilməsinin ümumi prinsipləri aşağıdakılardır:

a) qeyri-müəyyənlik prinsipi. Bu prinsip onunla bağlıdır ki, mühafizə təmin edilərkən mühafizə olunan obyektin təhlükəsizliyini kimin, nə vaxt, harada və necə pozmağa cəhd edəcəyi məlum deyil;

b) ideal müdafiə sisteminin yaradılmasının mümkünsüzlüyü prinsipi. Bu prinsip faktiki olaraq təhlükəsizlik sisteminin malik olduğu qeyri-müəyyənlik və məhdud resurslar prinsipindən irəli gəlir;

c) minimum risk prinsipi. Bu prinsip ondan ibarətdir ki, mühafizə sistemi yaradılarkən təhlükəsizlik təhdidlərinin xüsusiyyətlərinə, mövcud resurslara və istənilən vaxt mühafizə obyektinin yerləşdiyi konkret şəraitə əsaslanaraq minimum risk dərəcəsini seçmək lazımdır;

ç) hər kəsi hamıdan qorumaq prinsipi. Bu prinsip bütün əlaqə subyektlərini bütün növ təhlükələrdən qorumaq zərurətini nəzərdə tutur.

2. Təşkilati prinsiplərə aşağıdakılar daxildir:

a) qanunilik prinsipi. Bu prinsipə riayət etməyin vacibliyini qiymətləndirməmək olmaz. Azərbaycan qanunvericiliyində yeni hüquq münasibətlərinin yaranması ilə "dövlət mülkiyyəti", "dövlət sirri" kimi tanınmış hüquq obyektləri ilə yanaşı, yeniləri - "xüsusi mülkiyyət", "müəssisənin mülkiyyəti", "intellektual mülkiyyət", "kommersiya sirri", "məxfi məlumat", "çıxışı məhdudlaşdırılan məlumat" kimi yeni anlayışlar meydana gəlmişdir. Ancaq təhlükəsizlik məsələlərini tənzimləyən normativ hüquqi baza hələ də mükəmməl deyildir;

b) şəxsi məsuliyyət prinsipi. Müəssisənin, firmanın və ya onların müştərisinin hər bir işçisi öz səlahiyyətləri və ya müvafiq göstərişlər çərçivəsində təhlükəsizlik rejiminin təmin edilməsinə görə şəxsən məsuliyyət daşıyırlar. Təhlükəsizlik rejiminin pozulmasına görə məsuliyyət əvvəlcədən dəqiqləşdirilməli və fərdiləşdirilməlidir;

c) səlahiyyətlərin bölünməsi prinsipi. Kommersiya sirrinin və ya müəssisənin normal fəaliyyətinin pozulması ehtimalı bu haqda məlumatlı şəxslərin sayı ilə düz mütənasibdir;

ç) qarşılıqlı fəaliyyət və əməkdaşlıq prinsipi. Təhlükəsizliyin daxili mühiti işçilər arasında etibarlı münasibətlərlə əldə edilir. Eyni zamanda, müəssisənin şəxsi heyətinin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi zərurətini düzgün başa düşülməsini və öz mənafeyinə uyğun olaraq mühafizə xidmətinin fəaliyyətinə töhfə verməsini təmin etmək lazımdır.

3. Təhlükəsizlik sisteminin həyata keçirilməsi prinsipləri aşağıdakılardır:

a) mürəkkəblik və fərdilik prinsipi. Mühafizə obyektinin təhlükəsizliyi hər hansı bir tədbirlə deyil, yalnız konkret şəraitə fərdi istinad etməklə həyata keçirilən kompleks, bir-biri ilə əlaqəli və bir-birini təkrarlayan tədbirlər kompleksi ilə təmin edilir;

b) ardıcıl sərhədlər prinsipi. Bu prinsipin həyata keçirilməsi təhlükəsizliyin pozulmasını vaxtında aşkarlamağa və təhlükə dərəcəsinə uyğun olaraq təhlükəyə ardıcı l cavab tədbirləri təşkil etməyə imkan verir.

Mühafizə vasitələrinin təhlükəsizliyi prinsipi “hamıdan” qorunmaq prinsipinin məntiqi davamıdır. Başqa sözlə, istənilən mühafizə tədbirinin özü adekvat şəkildə qorunmalıdır.

Təhlükəsizlik sisteminin yaradılmasına davam etməzdən əvvəl məhv edilməsi, dəyişdirilməsi və ya icazəsiz istifadəsi maraqların pozulmasına, itkilərə və digərlərinə səbəb ola biləcək mühafizə obyektlərini müəyyən etmək lazımdır.

Mühafizə obyektlərini müəyyən etdikdən sonra onların maraq dairələrini müəyyən etmək və mühafizə obyektlərinin təhlükəsizliyinə çoxsaylı təhdidləri təhlil etmək lazımdır. Əgər təhlükəsizlik təhdidləri qəsdəndirsə, o zaman hipotetik hücumçu modeli hazırlanmalıdır. Sonra, mümkün təhdidləri və onların baş vermə mənbələrini təhlil etmək, adekvat qorunma vasitələri və üsullarını seçmək, uyğun vəzifələri tərtib etmək və təhlükəsizlik sisteminin strukturu müəyyənləşdirmək lazımdır.

Eyni zamanda, elektron biznesin kateqoriyasından asılı olmayaraq, subyektlərin üç sinfinin olduğunu nəzərə almaq lazımdır: maliyyə institutlarını, müştəriləri və biznes strukturlarını. Maliyyə institutları fərqli ola bilər, lakin ilk növbədə bunlar banklardır, çünki bütün digər e- biznes subyektlərinin vəsaitlərin hərəkətini əks etdirən hesabları var. Bu vəsaitlərin hərəkəti qaydaları və şərtləri istifadə edilən ödəniş sistemi ilə müəyyən edilir.

İnternet texnologiyalarının açıq xarakteri, İnternet üzərindən ötürülən məlumatların mövcudluğu o deməkdir ki, e-biznes subyektlərinin ümumi maraqları elektron biznesin informasiya təhlükəsizliyini təmin etməkdir. İnformasiya təhlükəsizliyinə qarşılıqlı əlaqə üçün tərəfdaşların autentifikasiyasının, şəbəkə üzərindən ötürülən məlumatların bütövlüyünün və məxfiliyinin, xidmətlərin mövcudluğunun və infrastrukturun idarə oluna bilməsinin təmin edilməsi daxildir.

Elektron biznes subyektlərinin informasiya təhlükəsizliyi sahəsində maraq dairəsini aşağıdakı əsas kateqoriyalara bölmək olar:

- əlçatanlıq (lazım olan xidməti ağlabatan müddətdə almaq imkanı);
- dürüstlük (informasiyanın aktuallığı və ardıcıllığı, onun məhv edilməkdən və icazəsiz dəyişikliklərdən qorunması);
- məxfilik (informasiyanın icazəsiz girişdən qorunması).

İnformasiya təhlükəsizliyi elektorn biznesin təhlükəsizliyinin ən vacib, ayrılmaz komponentlərindən biridir.Elektron biznesin informasiya təhlükəsizliyi sistemi çoxsaylı və müxtəlif daxili və xarici təhlükələrə tab gətirə bilməlidir.

Nəzərə almaq lazımdır ki, elektron biznesin informasiya təhlükəsizliyinə əsas təhdidlər aşağıdakılarla bağlıdır:

- elektron biznes subyektlərinin maraqlarına bilərəkdən qəsd etməklə (kompüter cinayətləri və kompüter virusları);
- xidmət işçilərinin qəsdən olmayan hərəkətləri ilə (səhvlər, nöqsanlar və s.);
- məlumatın təhrif edilməsinə və məhvinə səbəb ola biləcək texniki amillərin təsiri ilə (elektrik çatışmazlığı, proqram təminatının nasazlığı);
- texnogen faktorların (təbii fəlakətlər, yanğınlar, irimiqyaslı qəzalar və s.) təsiri ilə.

Təhlükəsizlik təhdidləri əhəmiyyəti və təsiri demək olar ki, həmişə məlum olmayan amillərin hərəkətləri ilə əlaqələndirilə bilər. Belə qeyri-müəyyənliyin mövcudluğu və mövcud məhdud resurslar və alətlər tamamilə təhlükəsiz sistemin yaradılmasına imkan vermir. Ona görə də, e-biznesin təhlükəsizlik sistemi yaradılarkən təhlükəsizlik təhdidlərinin xüsusiyyətlərinə və elektron bizneslə məşğul olan müəssisənin spesifik şərtlərinə əsaslanaraq, zərər riskinin dərəcəsini minimuma endirmək lazımdır. E-biznesinin təhlükəsizliyinin pozulması nəticəsində baş verə biləcək itkilər birbaşa və dolayı olaraq bölünə bilər.

Birbaşa itkilər aşağıdakı kimi ifadə edilə bilər:

- yanğın, təbii fəlakət, oğurluq, soyğunçuluq, əməliyyat xətaları, xidmət personalının ehtiyatsızlığı, kompüter sistemlərinin və virusların sındırılması nəticəsində zədələnmiş və ya fiziki cəhətdən itirilmiş məlumatların bərpası xərcləri;
- pul və qiymətli kağızlarla elektron formada, kompüter sistemlərinə və şəbəkələrinə icazəsiz daxilolma, habelə məlumatların zərərli şəkildə dəyişdirilməsi, saxlanması, daşınması zamanı elektron daşıyıcılarda məlumatların qəsdən korlanması yolu ilə həyata keçirilən etibarsız (qanunsuz) əməliyyatların dəyəri. və ya məlumatın yenidən yazılması, elektron məlumatların ötürülməsi şəbəkələrində saxtalaşdırılmış sifarişlərin ötürülməsi və alınması xərcləri və s.;
- üçüncü şəxslərə (elektron biznes subyektləri - müştərilər, istifadəçilər) fiziki və/və ya əmlak zərərinin ödənilməsi xərcləri.

Dolayı itkilər:

– müəssisənin təhlükəsizliyinin pozulması nəticəsində müəssisənin fəaliyyətinin məcburi dayandırılması nəticəsində yaranan əmək haqqının;
– kreditlər üzrə faizlərin;
– icarə haqqının;
– amortizasiyanın;
– itirilmiş mənfəətin ödənilməsi üzrə cari xərclərdə ifadə edilə bilər.

E-biznesin təhlükəsizlik sisteminin səmərəliliyini qiymətləndirmək üçün iki əsas göstəricidən istifadə edilə bilər:

- təhlkəsizlik sisteminin dəyərinin (o cümlədən bu sistemin işləkliyini saxlamaq üçün cari xərclərin) təhlükəsizliyin pozulması nəticəsində yarana biləcək itkilərə nisbəti;

- təhlükəsizlik sisteminin dəyərinin bu systemin təhlükəsizliyinin sındırılması xərclərinə nisbəti.

Elektron biznesin təhlükəsizliyiniin təmin edilməsi üzrə tədbirlər hazırlanarkən aşağıdakı amillər qrupu nəzərə alınmalıdır:

a) bazarın hüquqi təminatının vəziyyəti;

b) ölkədə qüvvədə olan hüquq-mühafizə sisteminin səmərəliliyi;

c) elektron biznes bazarı iştirakçılarının savadlılığı və hərəkətlərinin düşünülmüş olması.

Metodoloji mülahizələrə əsasən, e-biznes bazarında müəyyən kommersiya tipli əməliyyatların aparılması şərtlərini müəyyən edən bütün amilləri iki aspektdə nəzərdən keçirmək məqsədəuyğundur:

– əməliyyatlarda iştirak edən bütün təsərrüfat subyektləri üçün ümumi olanları;
– özəl, yəni, konkret biznes subyektinin müşayiət olunan əməliyyatlarını.

Birinci mərhələdə e-tbiznesdə mümkün olan bütün əməliyyatların məcmusu onların hissələrinin müxtəlif kommersiya fəaliyyəti növlərinə aidiyyəti nəzərə alınmaqla müəyyən edilməli və onların tipləşdirilməsi aparılmalıdır. Bu tipik kommersiya əməliyyatlarının hər biri üçün hipotetik təsərrüfat subyektinə münasibətdə yalnız ümumi amillərin təsirini nəzərə almaqla, təklif olunan göstəricilər və meyarlardan istifadə etməklə təhlükəsizliyin qiymətləndirilməsi aparılmalıdır.

İkinci mərhələdə hər bir konkret təsərrüfat subyekti özünün kommersiya fəaliyyətini tipik olanlardan biri ilə müqayisə etməli və konkret amillərin təsirini nəzərə almaqla onun üçün təhlükəsizlik qiymətləndirmələri aparmalıdır.

Elektron biznesin təhlükəsizliyinin təmin edilməsi sahəsində vəzifələr mühafizə obyektləri ilə müəyyən edilməlidir. Eyni zamanda. mühafizə və informasiya problemini, yəni informasiya mühitinin təhlükəsizlik vəziyyəti kimi başa düşülən informasiya təhlükəsizliyi problemini qeyd etmək lazımdır. Bu, bir çox səbəblərdən qaynaqlanır ki, əsasları aşağıdakılardır:

– elektron biznesin təhlükəsizliyinin təmin edilməsi probleminin yeniliyi;
– dəqiq müəyyən edilmiş informasiya təhlükəsizliyi sisteminin olmaması;
– Azərbaycanın müasir informasiya texnologiyaları sahəsində geri qalması.

E-biznesin informasiya təhlükəsizliyi sahəsində hüquqi dəstək problemlərinin həlli üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: qanunvericiliyin təkmilləşdirilməsi; təhlükəsizlik sistemlərinin və vasitələrinin işlənib hazırlanmasında və istehsalında inzibati qaydaların işlənib hazırlanması; informasiya təhlükəsizliyi ilə bağlı sığorta sisteminin təkmilləşdirilməsi.

Ədəbiyyat

1. “Elektron sənədlərin mübadiləsi qaydası” haqqında Azəzbaycan Respublikası Nazirlər Kabinetinin qərarı. 28 yanvar 2006 –cı il № 27. 11 səh.
2. Eyyubov K.Ş. Biznesin təhlükəsizliyi. Bakı Biznes Universiteti., Bakı,2017, 223 səh.
3. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azəzbaycan Respublikasının qanunu, Bakı, 1999 –cu il. Biznesmen bülleteni. 25 səh.
4. Musayev İ,.K., Əlizadə M. N.,Mahmudov A.B. Elektron Biznes, Dərslik, Bakı 2016, “MSVNƏŞR“ nəşriyyatı, 200 səhifə.
5. Безопасность электронной коммерции. http://studopedia.info/Ekonomika/.
6. Jinson Varghese. Ecommerce Security: Importance, Issues & Protection Measures.Updated on: July 3, 2022. https://www.getastra.com/blog/knowledge-base/ecommerce-security/

Резюме

Алиев Т.Г., Яхьяев Р.Р.

Принципы обеспечения безопасности электронного бизнеса

В статье говорится, что безопасность электронного бизнеса сопряжена со многими рисками по сравнению с традиционными бизнес-системами, поэтому безопасность имеет большое значение для электронного бизнеса. Бизнес-структуры, занимающиеся электронным бизнесом, сталкиваются с рядом проблем в процессе обеспечения его безопасности. В статье разъясняются принципы, которые следует учитывать в процессе создания и эксплуатации систем безопасности электронного бизнеса, приводятся предложения и рекомендации, создающие возможность и основу для обеспечения безопасности электронного бизнеса.

***Ключевые слова**: электронн ый бизнес, безопасность, проблемы, обеспечение, предложения*

Summary
Aliyev T.G., Yahyayev R.R.
E-Business Security Principles

The article states that e-business security comes with many risks compared to traditional business systems, so security is of great importance for e-business. Business structures engaged in e-business face a number of problems in the process of ensuring its security. The article explains the principles that should be taken into account in the process of creating and operating e-business security systems, provides suggestions and recommendations that create the opportunity and basis for e-business security.
***Key words**: e-business, security, problems, provision, proposals*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN BƏRPA OLUNMASI PROBLEMLƏRİ

Əliyev Ramil Teyyub oğlu, Mahmudova Sevda Faiq qızı
İqtisadiyyat İnstitutu
art_7_7@mail.ru ; msf_7_7@mail.ru

***Xülasə:** Məqalədə qeyd edilir ki, işğaldan azad edilmiş ərazilərimizin bərpa olunması üçün çoxsaylı, mürəkkəb problemlər həll edilməlidir. Bu problemlər həll edilərkən ölkəmizdə mövcud olan imkanlar, yerli şərait və s. nəzərə alınmaqla, bu sahədə xarici ölkələrdə toplanmış təcrübədən də istifadə edilməlidir. İşğaldan azad edilmiş ərazilər Azərbaycanın bütöv ərazisinin bir hissəsidir və burada bərpa işləri aparılarkən yürüdülən sosial-iqtisadi siyasət ölkədə aparılan islahatların tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. İşğaldan azad edilmiş ərazilərin bərpası prosesində meydana çıxan problemlərin səmərəli yollarla həll edilməsi üçün məqalədə müvafiq təklif və tövsiyələr irəli sürülür.*
***Açar sözlər:** azad edilmiş ərazilər, reallıqlar, bərpa, problemlər, təkliflər*

Azərbaycan xalqının yekdil birliyinə, hərtərəfli dəstəyinə arxalanan müzəffər Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, heç kəsin gözləmədiyi halda, qısa müddət ərzində ildırım sürəti ilə irəliləyərək əzəli və əbədi torpaqlarımızı yağı düşməkdən adad etmişdir. İndi dövlətimizin qarşısında duran bir nömrəli məsələ erməni vandalları tərəfindən tamamilə dağıdılmış ərazilərimizi bərpa etməkdən, öz doğma yurdlarını tərk etmək məcburiyyətində qalan, daim vətən həsrəti ilə yaşayan soydaşlarımızı öz vətənlərinə, evlərinə qaytarmaqdan ibarətdir. Bütövlükdə Azərbaycan xalqı, xüsusilə də məcburi köçkünlər qəti əmindirlər ki, biz, Azərbaycan dövləti olaraq, çox qısa bir zamanda bu vəzifənin öhdəsindən gələcəyik.

Dünyada, əsrlər boyu, qanlı müharibələr onlarla ölkələri viran qoymuşdur. Təkcə ikinci dünya müharibəsi zamanı Avropanın, demək olar ki, bütün ölkələri (az istisnalar olmaqla), keçmiş SSRİ-yə daxil olan Ukrayna, Belarus, Moldava, Rusiyanın xeyli ərazisi, eləcə də, Pribaltika respublikaları, çox böyük dağıtılara məruz qalmış, daşınar və daşınmaz sərvətləri, təbii ehtiyatları talan edilmişdir. Zəmanəmizdə bəzi imperialist qüvvələrin təcavüzü, eləcə də, daxili çəkişmələr nəticəsində İraq, Əfqanıstan, Fələstin, Kosova, Xorvatiya, Suriya əraziləri çox böyük həcmdə dağıntılara məruz qalmış və bəzilərində bu proses hələ də davam etməkdədir. Ancaq sadalanan və sadalanmayan ölkələrdən fərqli olaraq ölkəmizin erməni vandalları tərəfindən işğal edilmiş və 30 ilə yaxın işğal altında saxladıqları ərazilərimizdə törətdikləri vandalizmin, vəhşiliyin həddi-hüdudu yoxdur! Məsələn, İkinci Dünya müharibəsi zamanı alman faşitlərinin Rusiya Federasiyasının işğal edilmiş ərazilərində törətdikləri vandalizm nəticəsində, bu ərazilərdə müharibədən əvvəl mövcud olmuş sənaye müəssisələrinin 13,0%-i, xeyli yaşayış binaları salamat qalmışdı [6]. Ancaq mənfur, alman faşistlərindən daha betər olan erməni faşistləri işğal etdikləri Azərbaycan torpaqlarında bir vahid də olsa tamamilə dağıdılmamış, yerlə yeksan edilməmiş sənaye, kənd təsərrüfatı, xidmət, elm, təhsil, mədəniyyət müəssisəsi, fərdi və ictimai bina qoymamışlar! Erməni faşistləri işğal etdikləri ərazilərdə misilsiz dağıntılar, talanlar törətməklə qalmamış, bu ərazilərdə mövcud olan təbii sərvətlərimizi vəhşicəsinə talan etmiş, əraziləmizi ekoloji terrora məruz qoymuş [7], işğal altında saxladırları ərazilərin demək olar ki, hər addımını minalamışlar və indiyədək müvafiq xəritələri Azərbaycana verməkdən imtina edirlər.

Göründüyü kimi, işğaldan azad edilmiş ərazilərimizin bərpa olunması üçün çoxsaylı, mürəkkəb problemlər həll edilməlidir. Ərazilərin bərpası ilə əlaqədar qarşıya çıxan problemlərə diqqət çəkən bir sıra görkəmli Azərbaycan alimləri, mütəxəssisləri onların həllinə dair öz diqqətçəkən təklif və tövsiyələrini vermişlər və bu proses davam etməkdədir [1;3;4;5,9]. Təbbidir ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə əlaqədar tədbirlər həyata keçirilərkən, ölkəmizdə mövcud olan imkanlar, yerli şərait və s. nəzərə alınmaqla, bu sahədə İkinci Dünya müharibəsindən sonra Marşal planı əsasında Fransada və İtaliyada, eləcə də, Kosovoda, Xorvatiyada, İraqda və s. toplanmış təcrübədən də istifadə etmək olar.

İşğaldan azad edilmiş ərazilərin bərpasında meydana çıxan çoxsaylı, mürəkkəb problemlər nəzərə alınmaqla, onların səmərəli həll yollarının müəyyən edilməsi və tətbiqi məqsədi ilə, Azərbaycanda xüsusi qurum- Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad olunmuş ərazilər "yaşıl zona" elan edilmişdir və bu ərazilərin "ağıllı şəhər", "ağıllı kənd" layihələri üzrə yenidən qurulması nəzərdə tutulur.

Dağıntıların miqyasının həddindən çox olması ərazilərin bərpa edilməsi üçün uzun müddət və küllü miqdarda maliyyə vəsaiti tələb edilir. Bu vəsaitin əsas hissəsi Azərbaycanın dövlət büdcəsi hesabına təmin edilir. Bununla yanaşı, bir sıra dost və yaxın ölkələr də bərpa işlərinə cəlb edilmişdir. Təbiidir ki, bərpa işləri mərhələlərlə aparılacaqdır. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş ərazilər Azərbaycanın bütöv ərazisinin bir hissəsidir və burada bərpa işləri aparılarkən yürüdülən sosial-iqtisadi siyasət ölkədə aparılan islahatların tərkib hissəsi kimi nəzərdən keçirilməlidir. Fikrimizcə bu zaman aşağıdakılara xüsusi diqqət yetirilməlidir:

- ölkəmizin maliyyə və yerli sərvətlərdən istifadə imkanları nəzərə alınmaqla iqtisadi islahatların mərhələlərlə və ardıcıl olaraq həyata keçirilməsinə;
- bərpa işlərinin maliyyələşdirilməsinə özəl sahibkarlıq strukturlarının cəlb edilməsini stimullaşdırmaq üçün hökumətin mövcud maliyyə-kredit-fiskal siyasətinə yenidən baxılmasına, bu strukturların maliyyə mənbələrinə çıxışının asanlaşdırılmasına;
- ərazilərdə yeni sahibkarlıq (dövlət və özəl) strukturları yaradılarkən bölgədə olan təbii sərvətlərin, onların istismar imkanlarının və məqsədəuyğunluğunun nəzərə alınmasına;
- bölgələrdə yeni sahibkarlıq strukturlarının yaradılması ilə öz doğma yurdlarına qaytarılan əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsinin paralel aparılmasına;
- bərpa işlərinə sərf ediləcək vəsaitdən səmərəli istifadə edilməsinə, bu zaman şəffaflığın təmin edilməsinə.

İstənilən yönümlü təsərrüfat strukturlarının səmərəli fəaliyyətinin həyata keçirilməsində maliyyə təminatının əhəmiyyətli rol oynadığı şübhəsizdir. Qeyd edildiyi kimi, azad edilmiş ərazilərin bərpası küllü miqdarda vəsait sərfini nəzərdə tutur. Bu ərazilərdə həm dövlət, həm də özəl sahibkarlıq strukturlarının yaradılması planlaşdırılır. Ancaq, təəsüf ki, ölkəmizdə fəaliyyət göstərən bank strukturlarının maliyyə imkanları, onların təklif etdikləri bank faizləri, eləcə də, bu sahədə mövcud olan inhisarçılıq qeyd edilən strukturların kifayət qədər və ucuz kredit vəsaitlərinə çıxışına imkan yaratmaq iqtidarında deyil. Ona görə də, hesab edirik ki, xarici iri bankların ölkəmizə gəlişi qarşısında qoyulan süni maneələr aradan qaldırılmalı, onların ölkəmizə gəlişini asanlaşdırmaq üçün müvafiq qanunvericilik aktları qəbul edilib tətbiq edilməlidir.

Məlumdur ki, istənilən təsərrüfat-istehsal və xidmət sahələrində fəaliyyət həmişə müəyyən risklərlə bağlıdır. İşğaldan azad edilmiş, tamamilə dağıdılmış ərazilərin bərpa edilməsinə, bu ərazilərdə təsərrüfat strukturlarının yaradılmasına sıfırdan başlamağın lazım gəldiyi nəzərə alınarsa müxtəlif istiqamətli risklərin mütləq meydan çıxacağını əminliklə söyləmək olar. Ancaq risklərdən yayınmaq, onları idarə etmək, bölüşmək imkanları həmişə mövcud olur. Risklərdən yayınmanın (bölüşmənin) ən geniş yayılmış forması işgüzar fəaliyyətin sığortalanmasıdır. Ancaq, təəssüf ki, hələ də ölkəmizdə sığorta sistemi kifayət qədər inkişaf etməyib, tətbiq olunan sığorta faizləri də kifayət qədər yüksəkdir. Ona görə də, fikrimizcə, xarici iri söğorta şirkətlərinin ölkəmizə daxil olmasına yaşıl işığın yandırılmasının vaxtı çatmışdır.

Ancaq indiki dönəmdə həllini gözləyən ən vacib problem azad edilmiş 10 min kvadrat kilometrdən artıq ərazinin minalardan tamamilə təmizlənməsidir. Bu problem aradan qaldırılmayana qədər burada normal həyatı tamamilə bərpa etmək mümkün deyildir. Təbiidir ki, bütün ərazilərin tam minasızlaşdırılmasını gözləməyə ehtiyac yoxdur- bu problemi mərhələlərlə də həll etmək olar və Azərbaycan da bu yolu seçmişdir.

İşğaldan azad edilmiş ərazilərdə yeni sahibkarlıq strukturları yaradılarkən onların ən yeni texnologiyalar və avadanlıqlarla təchiz edilməsinə xüsusi diqqət yetirilməlidr. Bu strukturlarda işləmək üçün tələb olunan mütəxəssislərin hazırlanması da diqqətdən yayınmamalıdır. Bu zaman gələcək işçilərin yerli sakinlər arasından seçilməsi daha məqsədəuyğun olardı. Bərpa işlərinin müəyyən zaman tələb etdiyi nəzərə alınaraq işğaldan azad edilən ərazilərdə yaradılması nəzərdə tutulan strukturlarda işləmək üçün ölkəmizin mövcud ali, orta ixtisas və peşə məktəblərində (eləcə də xaricdə) yerli sakinlər arasından müvafiq ixtisaslar üzrə kadrların hazırlanmasına indidən start verilməlidir. Bununla yanaşı, gələcəkdə Şuşa, Ağdam, Xankəndi şəhərlərində və s. yerli müəssisələrin tələblərinə uyğun kadr hazırlayan ali, orta ixtisas və peşə məktəblərinin yaradılması da məqsədəuyğun olardı.

İşğaldan azad edilmiş ərazilərin bərpası zamanı xarici ölkələrdə sınaqdan keçirilmiş "ağıllı şəhər" və "ağıllı kənd" layihələrindən istifadə edilməsi planlaşdırılır. Zəngilan rayonunun birinci, ikinci və üçüncü Ağalı kəndlərini əhatə edən ilk "ağıllı kənd" pilot layihəsinin icrasına artıq start verilmiş, köçkünlərin bir hissəsi öz doğma yurdlarına qaytarılmışdır. Layihələr beş komponent -yaşayış, istehsal, sosial xidmətlər,

ağıllı kənd və alternativ enerji - üzrə həyata keçirilməkdədir. Təbiidir ki, qeyd edilən layihələrin həyata keçirilməsi zamanı beynəlxalq təcrübəyə istinad edilməsinə xüsusi diqqət yetirilir. Ancaq, hesab edirik ki, işğaldan azad edilmiş ərazilərdə yaşayış, inzibati binalar tikilərkən, təhsil, səhiyyə ocaqları yaradılarkən, sosial infrastruktur obyektləri, memarlıq abidələri bərpa edilərkən bölgəyə tarixən xas olan yaşayış tipləri, tarixi mühit nəzərə alınmalı, onun gözəlliyinə xələl gətirə biləcək şübhəli keyfiyyətli memarlıq layihələrinin həyata keçirilməsinə imkan verilməməlidir.

İşğaldan azad edilmiş və ediləcək ərazilərdə- Fizuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Şuşa, Xocalı, Xocavənd, Xankəndi rayonlarında- həm yerli, həm də xarici iş adamlarının, investorların maraqlarına səbəb ola biləcək kifayət qədər təbii resurslar, strateji aktivlər və geniş potensial bazarlar mövcuddur. Bu haqda həm yerli, həm də xarici iş adamlarını məlumatlandırmaq üçün həm ölkə daxilində, həm də xaricdə geniş reklam kompaniyasının genişləndirilməsi məqsədəuyğun olardı. Bununla yanaşı, qeyd edilən ərazilərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi də məqsədəuyğun olardı:

- istehsal yönümlü yeni sahibkarlıq strukturları yaradan iş adamlarına uzun müddətli, aşağı faizlə bank kredirlərinin təklif olunması;
- yerli və xarici hüquqi şəxslərin iştirakı ilə müştərək müəssisələrin yaradılmasının stimullaşdırılması, bu məqsədlə xarici tərəfdaşların tapılmasında yerli iş adamlarına yardım edilməsi;
- yaradılacaq yeni müştərək müəssisələrin fəaliyyəti nəticəsində xarici tərəfdaşın əldə etdiyi mənfəətin ölkədən sərbəst şəkildə çıxarılmasına təminat verilməsi;
- yeni yaradılacaq kiçik və orta sahibkarlıq strukturlarının müəyyən müddət ərzində (məsələn 3-5 il müddətinə) mənfəət vergisindən azad edilməsi.

Təbiidir ki, işğaldan azad edilmiş ərazilərin bərpa edilməsidə başlıca məqsəd uzun illər boyu öz doğma torpaqlarına həsrət qalan məcburi köçkünləri bu ərazilərə qaytarmaqdan və onlar üçün normal iş və yaşayış şəraitini yaratmaqdan ibarətdir. Bu məqsədin reallaşdırılması üçün müvafiq ərazilərdə iqtisadi və sosial infrastruktur layihələri həyata keçirilməli, o cümlədən su, qaz, elektirik enerjisi şəbəkələri, məişət xidmətləri obyektləri, istirahət ocaqları, səhiyyə, təhsil müəssisələri yaradılmalıdır. Qarşıda duran ən mühüm problemlərdən biri də evlərinə qayıdan əhalinin məşğulluğunun təmin edilməsi ilə bağlıdır. Fikrimizcə, bu məqsədlə yeni istehsal, xidmət strukturlarının yaradılması ilə yanaşı özünüməşğulluğun təmin olunmasına xüsusi diqqət ayrılmalıdır.

Hesab edirik ki, yuxarıda qeyd edilən təklif və tövsiyələrin həyata keçirilməsi işğaldan azad edilmiş ərazilərin bərpası prosesində meydana çıxan problemlərin səmərəli həllinə imkan və zəmin yarada bilər.

Ədəbiyyat

1. Hüseynova X. İşğaldan azad edilən ərazilərin bərpası iqtisadiyyatımızı gücləndirəcək. http://www.azerbaijan-news.az/view-204513/isgaldan-azad-edilen-erazilerin-berpasi-iqtisadiyyatimizi-guclendirecek.
2. İlham Əliyev: "İşğaldan azad edilmiş əraziləri bərpa edəcəyik" https://ona.az/ az/siyaset/prezident-i%CC%87lham-eliyev-i%CC%87sgaldan-azad-edilmis-erazileri-berpa-edeceyik-24458.
3. Qasımzadə Elbay. İşğaldan azad edilmiş ərazilərin və tarixi-mədəni irsin bərpası necə aparılacaq? https://www.medeniyyet.az/page/news/56218/Isgaldan-azad-edilmis-erazilerin-ve-tariximedeni-irsin-berpasi-nece-aparilacaq.html.
4. Qasımlı V. Qarabağın böyük iqtisadi potensialı var. https://iqtisadiislahat.org /news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050.
5. Nazim Müzəffərli (İmanov), Eldar İsmailov. "Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar" Bakı, 2010, 327 səh.
6. Македонская, В.А., Дубинина, С.А. Восстановление экономики в освобожденных районах РФ в годы великой отечественной войны. https://www.science-education.ru/ru/article/view?id=17191.
7. Экологический террор. https://files.preslib.az/projects/azereco/ru/eco_m2_6. pdf.
8. The Occupied Palestinian Territory and international humanitarian law: a response to Peter Maurer. https://international-review.icrc.org/sites/default/files/irrc-890-jabarin.pdf.
9. 9.The prospects that the liberation of the occupied territories offer to the economy of Azerbaijan. https://ereforms. org/news/the_prospects_that_the_liberation_of_the_ occupied_territories_offer_to_the_ economy_of_azerbaijan-792.

Резюме
Алиев Р.Т., Махмудова С.Ф.
Проблемы восстановления территорий, освобожденных от оккупации

В статье отмечается, что для восстановления территорий, освобожденных от оккупации, необходимо решить множество сложных проблем. При решении этих проблем необходимо учесть имеющиеся в нашей стране возможности, местные условия, а также опыт, накопленный в зарубежных странах.Освобожденные от оккупации территории являются частью всей территории Азербайджана, и социально-экономическая политика, проводимая здесь во время восстановительных работ, должна рассматриваться как неотъемлемая часть проводимых в стране реформ. В целях эффективного решения проблем, возникающих в процессе восстановления территорий, освобожденных от оккупации, в статье вносятся соответствующие предложения и рекомендации.

Ключевые слова: *освобожденные территории, реалии, восстановление, проблем, предложения*

Summary
Aliyev R.T., Makhmudova S.F.
Problems of restoration of the territories liberated from the occupation

The article notes that in order to restore the territories liberated from occupation, it is necessary to solve many complex problems. When solving these problems, it is necessary to take into account the opportunities available in our country, local conditions, and the experience gained in foreign countries should also be used. The territories liberated from occupation are part of the entire territory of Azerbaijan, and the socio-economic policy pursued here during the restoration should be considered as an integral part of the ongoing reforms in the country. In order to effectively solve the problems that arise in the process of restoring the territories liberated from occupation, the article makes relevant suggestions and recommendations.

Key words*: liberated territories, realities, restoration, problems, proposals*

TİCARƏT MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNDƏ MAL ƏMƏLİYYATLARININ MÖVQEYİ

Əliyeva Aygün Hüseynəli qızı
Sumqayıt Dövlət Universiteti
alizadaconi@gmail.com

Xülasə: *Məqalədə topdanticarət əməliyyatları seqmentində malların alıcı müəssisələr üzrə bölüşdürülməsi, bunların əsasında satış hesab-fakturalarının tərtib edilməsi, eləcə də malların anbardan buraxılması və satışı əməliyyatlarının uçotda əks etdirilməsi əməliyyatlarının elektron informasiya işləmələri modulu ilə avtomatlaşdırılmış rejimdə yerinə yetirilməsi məsələləri təqdim edilmişdir. Həmçinin, ticarət müəssisələrində fəaliyyət göstərən topdanticarət əməliyyatları seqmentində malların topdansatışı üzrə biznes-təsərrüfat əməliyyatlarının sənədləşdirilməsinin, seqment uçotunun və seqmentar marjinal gəlirin hesablanmasının avtomatlaşdırılmış elektron informasiya işləmələri rejimində yerinə yetirilməsi məsələləri göstərilmişdir.*

Açar sözlər: *ticarət müəssisələri, mal əməliyyatları, marketinq, kommersiya fəaliyyəti, idarəetmə*

Ticarət müəssisələrində seqment uçotunun tətbiqi şəraititndə mal bölgüsü geniş məfhum olub, bir tərəfdən mal ehtiyatlarının seqmentlər üzrə bölüşdürülməsini, digər tərəfdən isə hər bir seqmentin daxilində mövcud olan komponentlər üzrə bölgüsünü özündə ehtiva edir. Bu əməliyyatlar əsas mövqe tutaraq düzgün, optimal və səmərəli təşkil edilməklə, kommersiya fəaliyyətinin uğurlu və effektiv olacağını şərtləndirir. Ehtiyatların tədarük edilməsi, anbara mədaxil edilməsi, seqmentlər arasında bölüşdürülməsi və son satışı da daxil olmaqla, bütün mərhələlər üzrə əməliyyatların sənədləşdirilməsi mütləqdir. Eyni zamanda maddi-məsul şəxslərin daxili idarəetmə hesabatlarının formalarının işlənib təqdim edilməsi, zəruri olan informasiyaların onlarda əks etdirilməsi, mühasibat qaydasında işlənməsi və ümumiləşdirilərək, uçot registrlərinə daxil edilməsi prinsipləri əsaslandırılmalı, onların uçotda ilkin qeydiyyatı və uçot registrlərinə daxil edilmək üçün ümumiləşdirilməsi qaydaları işlənməlidir.

Qeyd etmək lazımdır ki, mal ehtiyatlarının artırılması və maddi-texniki bazanın genişləndirilməsinə yeni investisiyaların cəlb edilməsi məsələləri əsaslandırılmalı, uçot siyasətində lazımi dəyişikliklər edilməlidir. Xarici ölkələrdə olan malsatanlardan alınmış malların müəssisənin öz anbarınadək daşınıb gətirilməsi xərclərinin malların maya dəyərinə daxil edilməsi və bu prosesdə xərclərin malsatanın buraxılış qiymətlərinə əlavə edilməsi əmsalının hesablanması və tətbiqi metodikası işlənməlidir. Bu istiqamətdə biznes-təsərrüfat əməliyyatlarının sənədləşdirilməsi, seqment uçotu və seqmentar marjinal gəlirin hesablanması əməliyyatlarının avtomatlaşdırılmış elektron informasiya işləmələri rejimində yerinə yetirilməsi təmin edilməlidir [1].

Təbii ki, mal əməliyyatlarının fəaliyyətini hərtərəfli təhlil etmək üçün ilk növbədə onları aşağıdakı sxemdə göstərilən müxtəlif qruplara ayırmaq lazımdır (sxem):

Sxem. Müəllif tərəfindən tərtib edilmişdir.Mənbə: [1]

Hər bir müəssisədə ehtiyatların bölgüsü tədarük və təchizat prosesləri arasında əlaqəli şəkildə topdanticarət, pərakəndə ticarət və ictimai iaşə seqmentlərində fəaliyyət göstərir. Bölüşdürücü anbarlarında saxlanılan mal ehtiyatları adları çəkilən hər bir əməliyyat seqmentinin təyin olunmuş obyektləri üzrə nəqliyyat-ekspedisiya və logistika tədbirlərinin yerinə yetirilməsi ilə təyinat yerlərinə çatdırılır [2].

Mal ehtiyatlarının əməliyyat seqmentləri üzrə bölüşdürülməsinin ikinci mərhələsi başa çatdırıldıqdan sonra marketinq və kommersiya şöbəsinin əməkdaşları tərəfindən mal bölgüsü cədvəlləri tərtib edilir və hər bir bölgü cədvəli müvafiq seqment üçün cavabdeh olan menecer tərəfindən imzalanır, baş qərar qəbul edici və ya onun təyin etdiyi bu iş üçün məsul vəzifəli şəxs tərəfindən təsdiq edildikdən sonra seqmentlər üzrə mal təchizatı və mal yeridilməsi proseslərinin təşkil edilməsinə dair müvafiq sənədlərin hazırlanması üçün ticarət müəssisəsinin marketinq və kommersiya şöbəsinin müvafiq operativ qrupuna təqdim edilir. Bununla yanaşı, bölüşdürülən malların çeşidləri üzrə satış qiymətləri həmin malların satışının təşkilinə cavabdeh olan müvafiq mütəxəssis-menecerlər tərəfindən müəyyən edilir. Bunların əsasında operativ qrup tərəfindən malların satışına və əməliyyat seqmentlərinin müvafiq obyektlərinə göndərilməsinə dair sənədlər, əsasən, hesab-fakturalar və nəqliyyat-ekspedisiya sənədləri hazırlanır.

Ümumiyyətlə, mal ehtiyatlarının əməliyyat seqmentləri üzrə bölüşdürülməsi təchizat prosesində informasiyaların düzgün toplanmasını tələb edir. Belə ki, ticarət müəssisəsi tərəfindən öz dövriyyəsinə külli miqdarda mal ehtiyatları cəlb etmək üçün banklardan daha çox kredit almaq yoluna yox, özünün borc alətlərini dövriyyəyə buraxmaq yoluna üstünlük verilməsi məqsədəuyğun hesab edilir. Bu istiqamətdə müasir ticarət müəsisəsinin ölkədaxili fond birjaları və yerli bazarlar ilə yanaşı, xarici fond birjaları və regional bazarlarla da qarşılıqlı əlaqələr yaratması və onların vasitəsi ilə borc alətlərinin genişmiqyaslı dövriyyəsini təşkil etməsi lazımdır. Deməli, burada analitik uçotun qurulması əsas şərtdir. Bu yolla ticarət

müəssisəsi yalnız ölkə daxilində deyil, həm də xarici ölkələrdə fəaliyyət göstərən çoxsaylı istehsalçı müəssisələrlə, eləcə də əmtəə birjaları ilə birbaşa ikitərəfli qarşılıqlı kommersiya əlaqələri yaradaraq müəssisənin gələcək inkişafına öz müsbət təsirini göstərər.

Müəssisənin sonrakı fəaliyyətində daxil olan mallar aşağıdakı iki mərhələdə bölüşdürülür: I-seqmentlər arasında;

II-hər bir seqmentin öz daxilində.

Məlumdur ki, ticarət müəssisələrində çalışan və mal əməliyyatları ilə bilavasitə əlaqəsi olan işçilərin maddi məsuliyyəti mal ehtiyatlarının seqmentlər üzrə bölüşdürülməsi prosesləri əsasında təşkil edilir. Bölüşdürmə prosesi seqment uçotunun ilkin mərhələsini təşkil edir. Malların bir seqmentdən digərinə buraxılması, alıcı və müştərilərə satışı və seqmentin daxili obyektlərində saxlanması əməliyyatları, eləcə də bu əməliyyatların sənədləşdirilməsi və uçotu bölüşdürmə prosesi əsasında qurulur. Odur ki, bu əməliyyatların beynəlxalq standartların tələblərinə uyğun təşkil edilməsi, sənədləşdirilməsi və uçotunun metodiki məsələləri diqqətdən yayınmamalıdır [3].

Beləliklə, mal ehtiyatlarının seqmentlərin daxili şəbəkələti üzrə bölüşdürülməsi və satış sənədlərinin hazırlanması modulunun elektron informasiya işləmələri mexanizminə nəzər saldıqda, belə modullardan istifadənin seqmentar idarəetmə, seqment uçotu və hesabatı üçün nə dərəcədə əhəmiyyətli olduğu aydın olur.

Ədəbiyyat

1. Adıgozalova, A.A. Principles of reflecting information in segmental financial statements and disclosing them in explanatory notes // Научно - аналитический журнал «Финансовая экономика» №3, Москва, Россия, 2021, с.223-227

2. Adıgözəlova, A.Ə. Seqment uçotu şəraitində mal ehtiyatlarının müəssisənin əməliyyat seqmentləri üzrə bölüşdürülməsinin bəzi məsələləri. Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, / Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, 31 may 2021, s. 86-88.

3. Бернстайн, Л.А. Анализ финансовой отчетности (перевод с англ. яз. под ред. Соколова Я.В.) -М.: «Финансы и статистика», 2004, 624с.

Резюме

Алиева А.Г.

Место товарных операций в деятельности торговых предприятий

В статье в сегменте оптовых операций рассмотрено распределение товаров по предприятиям-покупателям, составление на их основе счетов-фактур, а также учет операций по отпуску и реализации товаров со склада. в автоматизированном режиме с модулем электронной обработки информации. Также в сегменте оптовых операций, действующих в торговых предприятиях, показаны вопросы документального оформления хозяйственных операций по оптовой продаже товаров, сегментного учета и расчета сегментного маржинального дохода в режиме автоматизированной электронной обработки информации.

Ключевые слова: *торговые предприятия, товарные операции, маркетинг, коммерческая деятельность, управление*

Summary

Aliyeva A.Q.

The Position of Goods Transactions in the Activity of Commercial Enterprises

In the article, in the segment of wholesale operations, the distribution of goods by buyer enterprises, the drawing up of sales invoices based on them, as well as the accounting of the operations of releasing and selling goods from the warehouse. issues of performing operations in an automated mode with the electronic information processing module are presented. Also, in the segment of wholesale operations operating in commercial enterprises, the issues of documenting business transactions for wholesale of goods, segment accounting and calculation of segmental marginal income in the mode of automated electronic information processing are shown.

Key words: *commercial enterprises, goods operations, marketing, commercial activity, management*

TURİZMİN İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Əliyeva Sədaqət Yusub qızı
Sumqayıt Dövlət Universiteti
ilqarosmanov1975@mail.ru

Xülasə: *Məqalədə turizmin ölkənin sosial-iqtisadi inkişafında rolu tədqiq edilib. Turizmin inkişafı üçün ilkin şərtlər aydınlaşdırılıb və onun iki sektorunun mahiyyəti açıqlanıb. Turizmin inkişafına təsir göstərən amillər araşdırılıb. Hər bir amilin turizmə təsir dərəcəsi müəyyənləşdirilib. Müasir dövrdə turizmə təsir göstərən amillərdən biri kimi İKT-dən istifadənin zəruriliyi əsaslandırılıb.*

Açar sözlər: *turizm, turizm sənayesi, müəssisə, İKT, ölkə, inkişaf*

Turizm dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən biridir. Turizm sənayesinin inkişafı büdcə gəlirlərinin mənbələrinin şaxələndirilməsinə kömək edir ki, bu da digər gəlir mənbələri ilə birlikdə konkret istiqamətin sosial-iqtisadi inkişafının sinergik effekti faktoruna çevrilə bilər. Turizm və əlaqəli fəaliyyətlər iqtisadiyyatın bir çox sahələrinin və sosial sferanın inkişafına təsir göstərir. Destinasiyanın turizm sahəsinin inkişafının əsas nəticəsi əhalinin həyat səviyyəsinin yüksəlməsini, kiçik biznesin inkişafını, əhalinin məmnunluğunun yüksəlməsini təmin etmək olmalıdır. Turizmin regionun inkişafına təsirinin qiymətləndirilməsi ilə bağlı əksər xarici və yerli müəlliflərin müasir nəşrlərində turizmin regionların iqtisadi və sosial sektorlarına artan təsiri müşahidə olunur. Turizmin regionun sosial-iqtisadi inkişafına təsirini qiymətləndirərkən təkcə turizm sənayesinin özünün gəlirləri deyil, həm də turizmlə əlaqəli sahələrin gəlirləri də nəzərə alınmalıdır, çünki turistlərin səfərlər zamanı xərclədiyi xərclər yalnız bu sahəyə aid deyil, həm də nəqliyyat, rabitə, mənzil-kommunal təsərrüfat, pərakəndə ticarət və s. kimi sahələrə də aiddir [3, s.30].

Müasir cəmiyyət sivilizasiyanın üstünlüklərindən istifadə edərək gündəlik və peşəkar həyatda turizm sahələrində müvafiq ehtiyacları formalaşdırır və bununla da turizm sənayesinin infrastrukturunun inkişafına töhfə verir. Turizmin iki əsas sektoru var: gəlmə və getmə. Turizmin getmə sektoru daimi yaşayış ölkəsindən başqa ölkəyə səyahət edən insanları əhatə edir və dövlət sərhədinin keçməsi ilə bağlıdır. Gediş gömrük, valyuta və tibbi nəzarətdən keçməklə müşayiət olunur. Turizmin gəlmə sektoru ölkədə daimi yaşamayan turistlərin daxildə səyahətinə əsaslanır.

Turizmin inkişafı rəqəmsal texnologiyaların təsiri altında dəyişir. Bu, qloballaşmanın artması və texnoloji tərəqqi ilə bağlıdır. Rəqəmsal texnologiyaların inkişafı turizm biznesi ilə bağlı xüsusilə vacibdir. Bu gün İnternet resurslarına çıxış əldə etməklə turist üçün lazım olan məlumatları əldə etmək olar. Bu həm istehlakçı, həm də potensial müştəriləri cəlb edə bilən istehsalçı üçün əlverişlidir. Turizmin rəqəmsallaşması müxtəlif təzahür formaları əldə edir. Əsas olanlar bunlardır: hazır turların onlayn alışı, turistlər üçün nəzərdə tutulmuş mobil proqramların hazırlanması, həmçinin həvəskar turların rəqəmsallaşdırılması. Müasir turistlər olduqca tələbkardırlar və getdikləri yer haqqında daha çox bilmək istəyirlər.

Turizmin inkişafına və turist axınının dinamikasına təsir edən əsas amilləri təhlil edək. Turizmin inkişaf meyilləri iki qrupa bölünə bilən müəyyən amillərin təsirindən asılıdır: xarici və daxili. Xarici olanlar, turizm və qonaqpərvərlik sənayesinin fəaliyyəti ilə əlaqəli olmayan ətrafdakı reallığın komponentlərinin təsiri ilə müəyyənləşdirilir. Daxili amillər turizm sənayesi müəssisələrinin təşkili və fəaliyyətinin xüsusiyyətləri ilə bilavasitə bağlıdır. Turizmin inkişafında sosial-iqtisadi amil əsasdır. Turizmin inkişafı üçün ilkin şərtlər dövlətlər arasında iqtisadi-ticarət sahəsində fəal əlaqələrin gücləndirilməsi, nəqliyyat vasitələrinin müasirləşdirilməsi, insanların adi həyat tərzinin statik həyat tərzindən daha aktiv həyat tərzinə dəyişməsi. Bu amillər qrupuna insanların mədəniyyət səviyyəsinin yüksəldilməsi, özünütəhsil və bilik istəyi, başqa xalqların mədəniyyət və adətlərini öyrənmək istəyi də aid edilə bilər.

Dünya əhalisinin artması ilə əlaqədar olaraq turizm potensialı da artmışdır. Demoqrafik amil turizmin inkişafına bilavasitə təsir göstərdiyi üçün ortaq dil və mədəniyyətə malik olan müxtəlif ölkələrin xalqlarının qarşılıqlı marağı, ictimai və ya peşə maraqları bu prosesə öz töhfəsini verir.

Turizmin artımını təmin amil kimi maddi-texniki baza nəqliyyat, yerləşdirmə, ictimai iaşə, pərakəndə satış, xidmət sahələrinin inkişafı ilə bağlıdır. ETT nəqliyyatın daha sürətli, daha təhlükəsiz və daha rahat olmasına səbəb olur. Nəqliyyat əlaqələrinin xüsusiyyəti ondan ibarətdir ki, onlar bütün dünyanı vahid məkanda birləşdirir. Həm yerli, həm milli, həm də beynəlxalq nəqliyyat vasitələri ilə əlaqəni təmin etmək zərurəti ilə yanaşı, nəqliyyatın sürətinin və texniki təhlükəsizliyinin artırılması da vacibdir, çünki bu, müəyyən nəqliyyat vasitələrinin seçimində mühüm rol oynayır. Qida və yerləşdirmə sənayesi də turizm üçün xüsusi əhəmiyyət kəsb edir. Mehmanxana və restoran xidmətləri mövsümiliyə görə xidmətlərə tələbin

dəyişməsinə məruz qalır ki, bu da onların istehsalının maya dəyərinin artmasına və nəticədə qiymət artımına səbəb olur. Bu, turistlərin, xüsusən də xaricilərin xidmətinə birbaşa təsir edir.

Xarici turistləri qəbul edərkən ölkənin daxili siyasi vəziyyəti böyük əhəmiyyət kəsb etdiyi üçün turizmin inkişafına siyasi və hüquqi amillər mühüm təsir göstərir. Ölkələr arasında iqtisadiyyatın müxtəlif sahələrində, xüsusən də turizm sahəsində hökumətlərarası əməkdaşlıq sazişlərinin bağlanması turizmin inkişafına müsbət təsir göstərən ciddi siyasi məqamdır.

Ətraf mühit amilləri turizmə ən çox birbaşa təsir göstərir, çünki ətraf mühit turizm fəaliyyətinin əsasını və potensialını təşkil edir. Turizmin qeyri-mütənasib inkişafı onun mövcudluğunun əsasını sarsıda bilər: turizm təbii ehtiyatları istehlak edir; kütləvi turizm mərkəzlərində bu proses dağıdıcı xarakter alır. Təbii mühitin məhv edilməsi turist təklifinin azalmasına səbəb olur.

Turizmin inkişafında maneə törədən amil radioaktiv, kimyəvi və digər növ çirklənmə sahələridir. Bundan əlavə, turizm üçün böyük problem həm iqlim, həm də sosial amillərdən asılı olan mövsümilikdir. İstirahət üçün əlverişli hava şəraitinin ilin müxtəlif vaxtlarında çox vaxt eyni olmaması səbəbindən insanlar özləri üçün daha rahat vaxtda dincəlmək imkanı əldə etməyə çalışırlar. Odur ki, turizmdə aktual olan digər göstərici mövsüm amilidir.

Covid 19 koronavirus pandemiyası kimi amilin turizmin inkişafına mənfi təsirini xüsusilə qeyd etmək lazımdır. Karantin dövründə insan həyatının əsas hissəsini ev zonasına keçirib, turizmlə bağlı xidmətlərə tələbat azalıb, kütləvi tədbirlərə qoyulan qadağalar əyləncə sənayesinə öz təsirini göstərib. Covid-19-un yayılması və onunla əlaqəli səyahət və hərəkət qadağaları gündəlik həyatın demək olar ki, hər tərəfinə nüfuz etmişdir. Milyonlarla insan bütün sənaye sahələrində, xüsusən də turizm və qonaqpərvərlik sahələrində işini itirib. Turistlərin sayının azalması birbaşa turizm sənayesinə, bu da öz növbəsində gəlirlərin itirilməsinə və işsizliyin artmasına təsir göstərib.

Turizmin artım templəri, bir qayda olaraq, aşağıdakı amillərdən birbaşa asılıdır (şəkil): - iqtisadi; siyasi; təbii; terrorçuluq; epidemioloji.

İqtisadi amillərin təsiri, bir qayda olaraq, turistlərin ödəmə qabiliyyətinə mənfi təsir göstərən davam edən qlobal iqtisadi böhranlarla əlaqələndirilir. Siyasi amillər, ilk növbədə, konkret ölkədə yaranan hərbi münaqişələr səbəbindən turist axınının zəifləməsində özünü göstərir. Təbiət hadisələri dağıntılara və təbii fəlakətlərə, məsələn vulkan püskürməsinə, zəlzələlərə, sunamilərə səbəb olarsa, təbii amillərin təsiri turist axınının dinamikasına da mənfi təsir göstərə bilər [4, s.19].

Şəkil. Turizmin inkişafına təsir edən amillər

Turist səfərlərinin azalması ayrı-ayrı ölkələrdə qurbanlarla müşayiət olunan və beynəlxalq rezonans doğuran terror aktları nəticəsində də baş verə bilər.

Epidemioloji amillərə gəlincə, burada söhbət təkcə turizm üçün deyil, həm də iqtisadiyyatın demək olar ki, bütün sahələri üçün əsl fəlakətə çevrilmiş koronavirus pandemiyasından gedir.

Turizmin inkişaf amillərinin təhlili onun siyasi, iqtisadi, epidemioloji, təbii və terror meyilləri ilə bağlı mövcud tendensiyalarla birbaşa əlaqəsini göstərdi, çünki turizm, əslində, dünya iqtisadi sisteminin tərkib hissəsidir.

Turizm sənayesində ən mühüm amil kimi infrastrukturun inkişaf səviyyəsi həlledici əhəmiyyət kəsb edir, çünki o, müasir cəmiyyətin bütün tələbatlarının reallaşdırılmasına kömək edir.

Müasir turizmin inkişafında mühüm amil həm də əmək resursları, onların ixtisasları və peşəkar hazırlıq səviyyəsidir. İqtisadi münasibətlərin formalaşması üçün müasir şərait, ictimai həyatın bütün sahələrində qloballaşma proseslərinin sürətli inkişafı, elm və texnika sahəsində ən son texnologiyaların, rabitə vasitələrinin tətbiqi müəssisələrdə çalışan kadrların daim təkmilləşdirilməsi zərurətini diktə edir. Kadrlara olan tələblərin sərtləşdirilməsinə baxmayaraq, ÜTT-nin məlumatlarına görə, turizm sektorunda işçilərin sayı hər il digər sənaye sahələrinə nisbətən təxminən 1,5 dəfə sürətlə artır.

Beləliklə, turizm sənayesi işsizlik problemlərinin tənzimlənməsində və ölkədə ÜDM artımının artırılmasında güclü rıçaqdır. Lakin bu, turizmin sosial funksiyasını xarakterizə edən yeganə amil deyil. Onun rolunu istehlakçı tərəfdən də öyrənmək vacibdir, çünki turizm alıcıların spesifik ehtiyaclarını ödəməyə, həyata müsbət münasibət formalaşdırmağa, insanın ruhunun güclənməsinə, onun əmək qabiliyyətinin və nəticədə əmək məhsuldarlığının artmasına kömək edir [1, s.11].

Turizm fəaliyyətində İKT-dən istifadə mehmanxana və turizm müəssisələri üçün xidmət səviyyəsini xeyli yüksəldəcək və işçilərin işini asanlaşdıracaq. Turizmdə İKT-nin inkişafı bu sahədə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasının tərkib hissəsidir. Müasir kompüter texnologiyalarını bilmək, həmçinin onlardan istifadə və tətbiq etmək bacarıqları yüksək ixtisaslı mütəxəssisin əsas xüsusiyyətlərindən biridir. Mehmanxana və turizm sektoru müəssisələrində İKT-dən fəal istifadə onların təklif etdiyi məhsullara tələbatı xeyli artıra bilər. İKT şirkətin zamanla ayaqlaşmaq qabiliyyətinin göstəricisidir. Bu sahədə müəssisələrin məhsul və ya xidmətinin qiyməti potensial istehlakçıların tələbi nəzərə alınmaqla müəyyənləşdirilir.

Müasir turizm müəssisələrinin istehsal fəaliyyətində İnternetdən istifadə informasiya texnologiyalarının inkişafında mühüm istiqamətdir. İnternetdən istifadə hər hansı bir müasir turizm müəssisəsinin səmərəli fəaliyyətində mühüm amildir, çünki İnternet turizm agentliklərinin fəaliyyəti üçün lazım olan böyük miqdarda məlumatı təmin edə bilər. Belə məlumatlara aşağıdakılar daxildir: mehmanxana ünvanları, nəqliyyat vasitələri və uçuş cədvəlləri, gömrük və viza qaydaları, həmçinin xarici turoperatorların müxtəlif təklifləri. İnternetə qoşulma müxtəlif broşürlərin, kataloqların, bukletlərin istehsalını və yayılmasını azaltdığından mehmanxana və turizm agentlikləri üçün xeyli qənaətə səbəb olur.

Turizm və informasiya ayrılmaz şəkildə əlaqəli olduğundan, informasiya texnologiyalarının və avtomatlaşdırmanın geniş tətbiqi tədricən müasir turizm sənayesinin ən aktual problemlərindən birinə çevrilir. Kompüter texnologiyasının imkanlarından düzgün istifadə edərək, bu gün istənilən müasir turizm müəssisəsi etibarlı və uğurla işləyəcək, tədricən irəliyə gedəcək və sabahkı firavanlığın əsasını qoyacaqdır.

Müasir turizmdə istifadə olunan İKT sistemlərinə bronlaşdırma sistemləri, telekonfrans sistemləri, video sistemlər, informasiya idarəetmə sistemləri, aviaşirkətlərin elektron informasiya sistemləri, elektron pul köçürmələri və s. aiddir. Bundan əlavə, turizmin hər bir seqmenti tərəfindən İKT-dən istifadə bütün digər komponentlərə təsir göstərir [2, s.52].

Ümumiyyətlə turizm müəssisələri tərəfindən müasir İKT-dən istifadə aşağıdakı vəzifələri səmərəli həll edir: zəruri sənədlərin hazırlanması və icrası; mənzil fondunun təhlili; müqavilələrin hazırlanması; xarici və daxili mühitin marketinq tədqiqatları və s. Turizm sənayesində İKT-nin yayılması turizm və mehmanxana müəssisələrinin səmərəli fəaliyyətinin qaçılmaz əlamətidir. Mehmanxana və turizm biznesinin indiki inkişaf mərhələsində şirkətin işini elektron poçt və İnternetdən istifadə etmədən təsəvvür etmək mümkün deyil. Səyahət şirkətləri müxtəlif onlayn sifariş sistemlərindən fəal şəkildə istifadə edirlər. Müştərilər evlərini tərk etmədən, yaşayış yerindən asılı olmayaraq, istənilən reys üçün bilet almaq, müxtəlif otellərdə nömrə bron etmək imkanına malikdirlər.

Turizmin inkişafının əsas xüsusiyyətlərindən biri turist axınının müxtəlif regionlar və ölkələr üzrə qeyri-bərabər paylanmasıdır. Ümumiyyətlə, dünyanın müxtəlif regionlarında turizmdə müşahidə olunan dəyişikliklər turizmin inkişafındakı qlobal tendensiyaları təkrarlayır. Lakin hər bir regionun yerli amillərin təsiri ilə özünəməxsus inkişaf, tənəzzül, durğunluq dövrləri olur. Hazırda ətraf mühitin mühafizəsinə diqqətin artması tendensiyası müşahidə olunur. Avropa yüksək yaşayış və təhsil standartları ilə xarakterizə olunur. Dövlət səviyyəsində suyun və havanın təmizlənməsi, tullantıların utilizasiyası, təbiətin və heyvanların mühafizəsi məsələləri ilə bağlı mütəmadi olaraq müzakirələr aparılır, qərarlar qəbul edilir.

Ədəbiyyat

1. Абдулгазис, В. С. Роль международного туризма в развитии экономики страны: современный аспект / В. С. Абдулгазис, Н. Р. Зиятдинова // Ученые записки Крымского инженерно-педагогического университета. – 2018. – № 4(62). – С. 8-12

2. Бадалходжаев, Т. И. Информационно-коммуникационные технологии в туризме / Т. И. Бадалходжаев // Информационно-коммуникационные технологии в педагогическом образовании. – 2022. – № 2(77). – С. 51-53

3. Бойко, Г. А. Оценка влияния туризма на социально-экономическое развитие региона: проблемы и направления совершенствования / Г. А. Бойко, Н. И. Журавлева // Научные горизонты. – 2018. – № 4(8). – С. 29-36

4. Левченко, К. К. Международный туризм: факторы и перспективы развития / К. К. Левченко // Наука и образование: хозяйство и экономика; предпринимательство; право и управление. – 2021. – № 10(137). – С. 18-22

Резюме

Алиева С.Ю.

Факторы, влияющие на развитие туризма

В статье изучена роль туризма в социально-экономическом развитии страны. Выяснены предпосылки развития туризма и объяснен характер двух его секторов. Исследованы факторы, влияющие на развитие туризма. Определена степень влияния каждого фактора на туризм. Обоснована необходимость использования ИКТ как одного из факторов, влияющих на туризм в настоящее время.

Ключевые слова: *туризм, индустрия туризма, предприятие, ИКТ, страна, развитие*

Summary

Aliyeva S.Y.

Factors Affecting the Development of Tourism

The article studies the role of tourism in the socio-economic development of the country. The prerequisites for the development of tourism are clarified and the nature of its two sectors is explained. The factors influencing the development of tourism are investigated. The degree of influence of each factor on tourism is determined. The necessity of using ICT as one of the factors influencing tourism in modern times is substantiated.

Key words: *tourism, tourism industry, enterprise, ICT, country, development*

MÜƏSSİSƏNİN MALİYYƏ SİYASƏTİNİN ONUN İNNOVATİV İNKİŞAFINA TƏSİRİ

Əmiraslanova Dilarə Əmiraslan qızı

Sumqayıt Dövlət Universiteti

dilare.amiraslanova@mail.ru

Xülasə: *Müasir şəraitdə uğurlu maliyyə siyasətinin strateji vəzifələri mənfəətin artırılması, maliyyə sabitliyinin təmin edilməsi və investisiya cəlbediciliyinə nail olunması ilə yanaşı, uzun müddət ərzində müəssisələrin uğurlu innovativ inkişafını və rəqabət qabiliyyətini şərtləndirən innovasiya fəaliyyətinin səmərəli həyata keçirilməsidir. Uğurlu innovasiya fəaliyyəti üçün fəlsəfə, ideologiya, siyasət, strategiya və taktika daxil olmaqla onun maliyyələşdirilməsinin vahid konsepsiyası olmalıdır. Bu konsepsiyanın bütün elementlərinin məcmusu müəssisənin səmərəli innovasiya fəaliyyətinin formalaşmasına və həyata keçirilməsinə kömək etməlidir.*

Açar sözlər: *müəssisənin maliyyə siyasəti, innovativ inkişaf, vahid maliyyələşdirmə konsepsiyası, müəssisə, innovasiya*

Müasir şəraitdə yerli müəssisələrin davamlı və rəqabətqabiliyyətli inkişafı elmi-texniki işləmələrin yeni məhsula tətbiqi və onun kommersiyalaşdırılması ilə bağlı innovativ inkişaf strategiyasının həyata keçirilməsi əsasında mümkündür. Təşkilatın uğurlu innovativ inkişaf strategiyasının həyata keçirilməsi, bununla da rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, daha çox bunun üçün yaradılan şəraitdən asılıdır və bu da birbaşa müəssisənin həyata keçirdiyi maliyyə siyasətindən asılıdır. Maliyyə siyasətinin savadlı və səmərəli həyata keçirilməsi müəssisədə qarşıya qoyulan məqsədlərə, o cümlədən onun innovativ inkişafı ilə bağlı məqsədlərə nail olmağa kömək edir.

Müəssisədə maliyyə siyasəti və innovasiya fəaliyyəti bir-biri ilə əlaqəli və bir-birindən asılıdır, çünki innovasiyaların həyata keçirilməsi daha çox onların maliyyələşdirilməsi imkanları ilə bağlıdır və ya əksinə müəssisədə innovasiya fəaliyyəti nə qədər uğurla həyata keçirilirsə, bir o qədər rəqabətli, maliyyə baxımından daha sabit, müstəqildir və səmərəli inkişafa daha çox yönəlmişdir [1].

İnnovasiya fəaliyyəti münasibətində müəssisənin maliyyə siyasətini müəssisənin innovativ inkişaf strategiyasının həyata keçirilməsinin səmərəliliyini artırmağa yönəlmiş bir sıra maliyyə alətləri ilə təşkilati

tədbirlər kompleksi arasındakı əlaqə kimi müəyyən etmək olar. Əsas maliyyə alətləri arasında mənfəət, amortizasiya, kredit və zəmanətləri qeyd etmək lazımdır [2].

Eyni zamanda tədbirlər və alətlər sxemdə göstərilən zəncirin ardıcıl işləməsi olan müəssisənin innovasiya fəaliyyətinin maliyyələşdirilməsi mexanizminin formalaşdırılmasının vahid konsepsiyasına daxil olmalıdır.

Fəlsəfə→ İdeologiya →Siyasət →Strategia→ Taktika

Müəssisənin innovasiya fəaliyyətinin maliyyələşdirilməsi mexanizminin formalaşdırılması prosesinin sxemi [3].

Vahid konsepsiyanın əsas elementi fəlsəfədir. Bu fəlsəfə müəssisədə bütün innovasiya prosesinin potensial inkişafına baxışı, onun həyata keçirilməsi zamanı qarşıya qoyulan məqsədləri özündə əks etdirməlidir. Müəssisənin innovasiya fəaliyyətinin maliyyələşdirilməsi fəlsəfəsi dedikdə, müəssisənin ümumi fəaliyyətində innovativ inkişafın maliyyələşdirilməsinin mənası, məqsədi və mahiyyətinə dair baxışlar sistemi nəzərdə tutulur [3]. İnnovativ inkişafın maliyyələşdirilməsinin fəlsəfəsi müəssisənin innovasiya fəaliyyətinin formalaşması və sonrakı inkişaf modelinin təməldir. Əslində məhz fəlsəfə müəssisənin innovasiya fəaliyyətinin maliyyələşdirilməsi mexanizminin formalaşması üçün başlanğıc nöqtəsidir. Ona uyğun olaraq konsepsiyanın qalan elementləri hazırlanmalı və həyata keçirilməlidir:

- ideologiya;
- siyasət;
- strategiya;
- taktika.

Konsepsiyanın bütün sonrakı elementlərinin maliyyələşdirmə fəlsəfəsindən asılı olmasına baxmayaraq onların əhəmiyyəti bununla azalmır. Bundan əlavə, müəssisənin innovasiya fəaliyyətinin maliyyələşdirilməsinin səmərəli qurulması konsepsiyanın hər bir elementinin qurulmasının düzgünlüyündən və dəqiqliyindən asılı olacaqdır. Eyni zamanda konsepsiyanın hər bir elementini hazırlayarkən bütün komponentləri nəzərə almaq lazımdır. Beləliklə, innovasiya fəaliyyətinin maliyyələşdirilməsi ideologiyası:

- cari bazar konyukturuna uyğun olmalıdır;
- müəssisənin işçiləri üçün anlaşılan və motivasiyalı olmalıdır;
- müəssisədə mövcud olan texnoloji və texniki imkanlara uyğun olmalıdır;
- həyata keçirilə bilən olmalıdır.

Maliyyələşdirmə siyasətini hazırlayarkən aşağıdakı komponentlər nəzərə alınmalıdır:

- maliyyənin mövcudluğu;
- texnoloji və kadr imkanları;
- müəssisənin intellektual kapitalı.

Bundan əlavə müəssisənin fəaliyyətində baş verən dəyişikliklərin dinamikasını nəzərə almaqla innovativ maliyyələşdirmə modelini hazırlamaq lazımdır. Qeyd edək ki, hazırda innovasiya fəaliyyəti prosesi bir müddət əvvəllə müqayisədə xeyli mürəkkəbləşib. Bu daha çox cəmiyyətin həyatının total rəqəmsallaşması və nəticədə elmi-texniki tərəqqinin sürətlənməsi, maliyyə idarəetmə alətlərinin əhəmiyyətli dərəcədə artması ilə bağlıdır. V.V. Qluşenko və Qluşenko İ.İ. fikirləri ilə razıyıq ki, innovasiya prosesinin idarə edilməsi maliyyə məqsədlərinin müəyyən edilməsi, marketinq və menecmentin bir-biri ilə əlaqəli proseslərinin məcmusu kimi təqdim oluna bilər [1, s. 77-78].

Beləliklə, müasir iqtisadi şəraitdə müəssisələrdə uğurlu innovasiya fəaliyyəti daha çox səmərəli maliyyə siyasətindən asılıdır. Müəssisələrdə uğurlu innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün onun fəlsəfə, ideologiya, siyasət, strategiya və taktikasını özündə birləşdirəcək vahid maliyyələşdirmə konsepsiyasını formalaşdırmaq lazımdır. Təqdim olunan elementlərin məcmusu müəssisədə innovasiya fəaliyyətini səmərəli həyata keçirən effektiv maliyyə siyasətini təmin edə bilir.

Ədəbiyyat

1. Инвестиционная и инновационная составляющие финансовой политики предприятия [Электронный ресурс]. - Режим доступа URL: https://lektsii.org/15-63171.html (07.11.2021)

2. Финансовый механизм инновационного развития [Электронный ресурс]. - Режим доступаURL:https://bstudy.net/689679/ekonomika/finansovyy_mehanizm_innovatsionnogo_razvitiya

3. Разработка политики финансирования инновационной деятельности предприятия [Электронный ресурс]. -Режим доступа URL: https://wiseeconomist.ru/poleznoe/54916-razrabotka-politikifinansirovaniya-innovacionnoj-deyatelnosti-predpriyatiya (07.11.2021)

4. Глущенко В.В., Глущенко И.И. Исследование систем управления: социологические, экономические, прогнозные, плановые, экспериментальные исследования. Изд. 2-е. г. Железнодорожный, Моск. обл.: ООО НПЦ "Крылья", 2004. 416 с.

Резюме

Амирасланова Д. А.

Влияние финансовой политики предприятия на его инновационное развитие

В современных условиях стратегическими задачами успешной финансовой политики наряду с максимизацией прибыли, обеспечением финансовой устойчивости, достижением инвестиционной привлекательности является эффективное осуществление инновационной деятельности, которое обусловливает успешное инновационное развитие предприятий и их конкурентоспособность на протяжении длительного периода времени. Для успешной инновационной деятельности необходима единая концепция ее финансирования, включающая философию, идеологию, политику, стратегию и тактику. Совокупность всех элементы данной концепции должны способствовать формированию и реализации эффективной инновационной деятельности предприятия.

Ключевые слова: *финансовая политика предприятия, инновационное развитие, единая концепция финансирования, предприятие, инновации*

Summary

Amiraslanova D. A.

Influence of the Financial Policy of the Enterprise on its Innovative Development

In modern conditions, the strategic objectives of a successful financial policy, along with maximizing profits, ensuring financial stability, achieving investment attractiveness, is the effective implementation of innovative activities, which determines the successful innovative development of enterprises and their competitiveness over a long period of time. Successful innovation requires a unified concept of its financing, including philosophy, ideology, policy, strategy and tactics. The totality of all elements of this concept should contribute to the formation and implementation of effective innovative activities of the enterprise.

Key words: *financial policy of the company, innovative development, a unified concept of financing, enterprise, innovation*

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNDA NƏQLİYYAT-LOGİSTİKA İNFRASTRUKTURUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Əsədov Aqil Məhiyəddin oğlu, Satıcı Ayhan Seyit oğlu

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

aqil.asadov@ereforms.gov.az ; ayhan.satici@ereforms.gov.az

Xülasə: *Məqalədə işğaldan azad edilmiş ərazilərdə erməni vandalizminin təsirlərinin aradan qaldırılması və mövcud potensial imkanların qiymətləndirilməsinin aktuallığı qeyd edilir. Regionun inkişafı üçün yol-nəqliyyat infrastrukturunun zəruriliyi əsaslandırılır. Müəlliflər işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Şərqi Zəngəzurda yol-nəqliyyat kompleksinin inkişafı istiqamətində həyata keçirilən layihələri araşdırıb. Məqalədə hava, avtomobil və dəmiryol nəqliyyatı sahəsində görülən işlər təhlil edilib. Yol-nəqliyyat kompleksinin əhəmiyyətini vurğulayan müəlliflər konkret istiqamətlər və layihələr üzrə mövcud vəziyyət və perspektivləri qeyd edib.*

Açar sözlər: *yol-nəqliyyat kompleksi, avtomobil, dəmiryol, hava limanı, işğaldan azad edilmiş ərazilər*

İşğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi tərəqqisi, erməni vandalizminin aradan qaldırılması, ərazilərin bərpası və potensial imkanların təsərrüfat dövriyyəsinə cəlb edilməsi Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritetinə aiddir. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilir ki, bu da qeyd olunanları bir daha təsdiq edir. Təbii ki, dinamik iqtisadi tərəqqinin, hər hansı ərazinin inkişafının zəruri şərtlərindən biri də nəqliyyat-kommunikasiya əlaqələrinin formalaşdırılmasıdır. Bu mənada işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı istiqamətində həyata keçirilən proqram və layihələrin əsas istiqamətlərindən birini yol-nəqliyyat kompleksinin bərpası, əvvəlki yolların işlək vəziyyətə gətirilməsi, yeni yolların və yol ötürücülərinin tikintisi

təşkil edir. Bütün bunlar "Böyük Qayıdış" üçün zəruri olmaqla yanaşı, həm də ərazilərin inkişafı üçün də əsas şərtdir [2].

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarının hər birində yol-nəqliyyat kompleksinin inkişafı istiqamətində fasiləsiz işlər aparılır. Mühüm sosial-iqtisadi və siyasi-strateji əhəmiyyətə malik quru yollarının keçəcəyi Şərqi Zəngəzur iqtisadi rayonunda ilk hava limanının tikintisi də yekunlaşmaq üzrədir. Zəngilanda tikilən beynəlxalq hava limanı iqtisadi rayonun inkişafında böyük əhəmiyyət daşıyaraq regionun beynəlxalq nəqliyyat-logistika habına çevrilməsində mühüm rol oynayacaq. Qeyd edək ki, Zəngilan beynəlxalq hava limanının 2022-ci ilin payızında (Oktyabr ayında) tam istifadəyə verilməsi nəzərdə tutulur [4; 5].

Regionda ikinci hava limanı isə Laçında tikiləcəkdir. Ölkə başçısı tərəfindən 16 avqust 2021-ci il tarixində bünövrəsi qoyulmuş bu limanın 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulur. Rayonun Qorçu yaşayış məntəqəsi ərazisində tikilən hava limanı olduqca mühüm strateji və sosial-iqtisadi əhəmiyyətə malikdir. Digər hava limanları kimi, bu liman da bölgənin inkişafı, mövcud potensial imkanların tam və səmərəli istifadəsi çərçivəsində xüsusi əhəmiyyətə malikdir. Laçın hava limanı, eyni zamanda Şərqi Zəngəzurun ən zəngin turizm potensialına malik Kəlbəcər rayonuna da gediş-gəlişi daha da asanlaşdıracaqdır. Bu isə, öz növbəsində, regionun potensial imkanlarının səmərəli reallaşdırılması və dinamik tərəqqisi üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, Şərqi Zəngəzurda yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi, hava limanları ilə yanaşı, digər nəqliyyat növlərini – avtomobil və dəmir yolunu da əhatə edir. İqtisadi rayonda yol-nəqliyyat quruculuğu istiqamətində görülən işləri konkret istiqamətlər üzrə aşağıdakı kimi təsnifləşdirə bilərik [3; 4; 5 ;6]:

Mühüm istiqamətlərdən biri uzunluğu 101 kilometr olan Zəfər yoludur ki, bu da Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərinə gedişi asanlaşdırır, Şuşanın zəngin mədəniyyət abidələrini, turistik məkanlarını əlçatan edir. Təbii ki, bu yolun, həm də adından da göründüyü kimi, bir rəmzi mənası vardır;

Regionda mühüm layihələrdən biri də Əhmədbəyli-Füzuli-Şuşa yolunun tikintisidir. 4-6 avtomobilin yanaşı hərəkətinə imkan yaradacaq bu yolun uzunluğu 81 kilometrə yaxındır. Yol üzərində, həm də Daşaltı kəndinin ərazisindən keçən hissədə inşa olunacaq tunel məsafəni daha da qısaldacaq. Yolun üzərində hər biri ikizolaqlı olan iki tunel tikiləcəkdir ki, tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr təşkil edəcəkdir;

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yol-tikintisi layihələri içərisində xüsusilə diqqəti cəlb edən istiqamətlərdən biri də Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Bu layihə, həm də ona görə əhəmiyyətlidir ki, Kəlbəcər rayonu uzun illər çox sərt iqlimə malik Murov dağ silsiləsindən keçən yoldan istifadə edirdi. Bu yol isə ilin müxtəlif dövrlərində sərt iqlim səbəbindən keçilməz olurdu. Hazırda çəkilməkdə olan, Göygöl və Kəlbəcər rayonlarını birləşdirəcək yol isə tunellər və müvafiq yol ötürücüləri vasitəsilə daha işlək hala gətiriləcək, sərt dağ yamaclarından aşağı endiriləcəkdir. Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun uzunluğu, ilkin layihələndirməyə görə, 81 km təşkil edir və 2-4 hərəkət zolaqlı inşa edilir. İlin bütün fəsillərində yolun işlək olması, sərt iqlimin yaratdığı fasilə, təhlükə və çətinliklərin aradan qaldırılması üçün Murov dağının altından 12 kilometrlik tunel tikilməkdədir. Tunel Kəlbəcərə, İstisuya gediş məsafəsini və vaxtını azaltmaqla yanaşı, həm də yolun ilboyu istismarına imkan yaradacaqdır. Murovdağ silsiləsindən sonra Kəlbəcərə, İstisuya doğru 2,8 və 0,5 kilometr uzunluqlara malik 2 avtomobil tunelinin də inşası nəzərdə tutulur ki, bu da daha tez və daha asan çatdırılmanı təmin edəcəkdir. Bu isə o deməkdir ki, Toğanalı-Kəlbəcər-İstisu yolu boyunca ümumi uzunluğu 15 km-ə yaxın olan 3 tunel inşa ediləcəkdir. Hər bir tunelin bir istiqamətdə 2 hərəkət zolaqlı və 12 metr enində olması nəzərdə tutulur. Bu yol zəngin turistik imkanlara malik Kəlbəcərin inkişafı, o cümlədən dünyaca məşhur və əhəmiyyətli, "minbir dərdin dərmanı" olan İstisu sanatoriyasının səmərəli fəaliyyətinə kömək edəcəkdir. İlkin hesablamalara görə Kəlbəcər və Laçın rayonları ölkəmizdə qeyri-neft sektorunun inkişafı üçün zəngin potensial imkanlara malikdir və bu rayonlar birlikdə, bərpa və yenidənqurma mərhələsindən sonra Azərbaycan iqtisadiyyatının 4 faizindən də artığını formalaşdırmaq imkanına malikdir.

İşğaldan azad edilmiş ərazilərdə müasir yol infrastrukturu quran Azərbaycan, həmçinin yaradılacaq Zəngəzur dəhlizi boyunca da avtomobil yollarının inşasına nail olmağa çalışır. Bu, Zəngəzur dəhlizinin funksionallığı baxımından çox önəmlidir. Avropanın və əksər dünya ölkələrinin də marağında olduğu Zəngəzur dəhlizi ölkəmiz və ümumilikdə region üçün mühüm siyasi-strateji və sosial-iqtisadi əhəmiyyətə malikdir. Dünyanın əsas yük axınlarının Çindən Avropaya və Hindistana doğru olduğunu, bu marşrut üzrə indiki çatdırma imkanlarının uzun zaman və çox xərc tələb etdiyini nəzərə alsaq, Zəngəzur dəhlizinin əhəmiyyəti aydın olar. Araşdırmalardan aydın olur ki, Çin-Avropa arasında ticarət dövriyyəsi 560 milyarddan və Çin-Türkiyə dövriyyəsi 6 milyarddan çoxdur. Bu rəqəmlərin (daşımaların) Zəngəzur dəhlizi üzərindən daha qısa zamanda və ucuz, eləcə də daha rahat daşınması bütün tərəflər üçün əlverişlidir. Eyni zamanda, Türkiyə-Mərkəzi Asiya arasında 20 milyarddan çox ticarət dövriyyəsinin olduğunu nəzərə alsaq,

Zəngəzur dəhlizinə həm də Türk Dövlətləri Birliyini daha da möhkəmləndirəcək bir bağlantı kimi yanaşmaq lazımdır [1].

Qeyd edildiyi kimi, işğaldan azad edilmiş ərazilərdə yol-nəqliyyat infrastrukturunun yenidən qurulmasının bir istiqamətini də dəmir yolları təşkil edir. Hal-hazırda 47 kilometrlik Bərdə-Ağdam və 111 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması, o cümlədən 84 kilometrlik Füzuli-Şuşa yeni dəmir yolu xəttinin çəkilməsi istiqamətində davamlı işlər görülür. Eyni zamanda, mütəxəssislər tərəfindən 89 kilometrlik Dəliməmmədli-Kəlbəcər dəmir yolunun layihələndirilməsi üzərində də müvafiq işlər aparılır [7].

Bütün bunlar, işğaldan azad edilmiş ərazilərdə yol-nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi istiqamətində ardıcıl və planlı işlərin aparıldığını göstərir ki, nəticədə region bir nəqliyyat-logistika "HUB"ına çevriləcəkdir. Müxtəlif nəqliyyat növlərinə aid infrastruktur təminatın yaradılması regionun və ümumilikdə ölkənin iqtisadi tərəqqisi, potensial imkanların daha səmərəli şəkildə təsərrüfat dövriyyəsinə cəlb edilməsi, yerli və xarici bazarlara daha asan və səmərəli çıxışın təmin edilməsi baxımından da zəruridir. Nəticədə, Prezident İlham Əliyevin sözləri ilə desək "Qarabağı cənnətə çevirəcəyik" və bunun başlıca amillərindən biri də yol-nəqliyyat kompleksinin inkişafı, regionun mühüm nəqliyyat-tranzit qovşağına çevrilməsidir.

Ədəbiyyat

1. Qasımlı V. "Böyük güclər də "Zəngəzur dəhlizi"ndə maraqlıdırlar. https://ereforms.gov.az/az/media/xeberler/vusal-qasimli-boyuk-gucler-de-zengezur-dehlizi-nde-maraqlidirlar-90

2. Əsədov A.M., Salahova S.X. "Zəngəzur dəhlizinin açılmasının region ölkələri üçün siyasi-iqtisadi əhəmiyyəti". "İnformasiya cəmiyyətində iqtisadiyyatın davamli inkişaf problemləri" Beynəlxalq elmi konfransın materialları, SDU, 2021, s.43-46;

3. Nağıyev M. "Qalib Lider Qarabağı cənnətə çevirəcək". https://sesqazeti.az/news/politics/855434.html

4. Abdullayev M. "İşğaldan azad edilmiş ərazilərdə müasir yol-nəqliyyat infrastrukturu qurulur". https://yeniazerbaycan.com/Arxiv_e61004_az.html;

5.https://azertag.az/xeber/Zengilan_Beynelxalq_Hava_Limani_uchus_kutlesi_400_tona_qeder_olan_hava_gemilerini_qebul_ede_bilecek___REPORTAJ_VIDEO-2156318

6.https://www.apa.tv/xeber/reportaj/serqe-acilan-yeni-qapi-zengilan-beynelxalq-hava-limanindan-xususi-reportaj-65868

7.https://corp.ady.az/media/xeberler/isgaldan-azad-olunmus-erazilerde-demir-yolu-infrastrukturu-yeniden-qurulur

Резюме

Асадов А.М., Сатыджы А.С.

Направления развития транспортно-логистической инфраструктуры Восточно-Зангезурского экономического района

В статье отмечается актуальность ликвидации последствий армянского вандализма на освобожденных территориях и оценка существующих потенциальных возможностей. Обоснована необходимость дорожно-транспортной инфраструктуры для развития региона. Авторы исследовали проекты, реализуемые на освобожденных от оккупации территориях, особенно в Восточном Зангезуре, в направлении развития дорожно-транспортного комплекса. В статье проанализирована работа, проделанная в сфере воздушного, автомобильного и железнодорожного транспорта. Подчеркивая значимость дорожно-транспортного комплекса, авторы отметили текущее состояние и перспективы конкретных направлений и проектов.

Ключевые слова: *дорожно-транспортный комплекс, автомобиль, железная дорога, аэропорт, освобожденные территории.*

Summary

Asadov A.M., Satici A.S.

Development Directions of Transportation and Logistics Infrastructure in Eastern Zangazur Economic District

The article mentions the urgency of eliminating the effects of Armenian vandalism in the liberated territories and evaluating the existing potential opportunities. The necessity of road transport infrastructure for the development of the region is justified. The authors investigated the projects implemented in the areas freed from occupation, especially in East Zangezur, in the direction of the development of the road and

transport complex. The article analyzed the work done in the field of air, road and rail transport. Emphasizing the importance of the road-transport complex, the authors noted the current situation and prospects for specific directions and projects.
***Key words**: road-transport complex, car, railway, airport, liberated territories*

KƏND TƏSƏRRÜFATINDA MÜHASİBAT UÇOTUNUN ƏHƏMİYYƏTİ

Hacıyeva Zülfiyyə Elman qızı
Sumqayıt Dövlət Universiteti
haciyeva-zulfiyye@inbox.ru

***Xülasə:** Məqalədə kənd təsərrüfatının əsas xüsusiyyətləri haqqında məlumat verilmişdir. Kənd təsərrüfatında mühasibat uçotunun aparılmasının zəruriliyi əsaslandırılmışdır. Mühasibat uçotunun təşkili qaydalarına uyğun olaraq, uçot üzrə hərəkətlərin ardıcıllığı müəyyənləşdirilmişdir. Kənd təsərrüfatında mühasibat uçotunun əsas xüsusiyyətləri və vəzifələri tədqiq edilmiş, təkmilləşdirilməsi istiqamətləri araşdırılmışdır.*
***Açar sözlər:** kənd təsərrüfatı, müəssisə, mühasibat uçotu, bitkiçilik, heyvandarlıq, istehsal, məhsul*

Kənd təsərrüfatı ölkə iqtisadiyyatının ən böyük sahələrindən biridir. Kənd təsərrüfatı aqrar-sənaye kompleksinin mühüm tərkib hissəsidir. Kənd təsərrüfatı iqtisadi sahə kimi təbii amillərin təsiri ilə müəyyən edilən bir sıra xüsusiyyətlərlə xarakterizə olunur. Kənd təsərrüfatı sektorunun və ayrı-ayrı kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin səmərəliliyi bir çox intensivləşmə amillərindən, torpaq-iqlim şəraitindən, təşkilati-idarəetmə tədbirlərindən asılıdır. Kənd təsərrüfatı istehsalı iki ən böyük sahə - bitkiçilik və heyvandarlıqla təmsil olunur. Öz növbəsində, bitkiçilik və heyvandarlıq sahələrində kənd təsərrüfatı təşkilatlarının bütün növlərində və təşkilati-hüquqi formalarında müstəqil yarımsahələr fərqləndirilir:

1) bitkiçilikdə: yem istehsalı; taxıl istehsalı; tərəvəzçilik; meyvə yetişdirilməsi; kartof yetişdirilməsi; texniki bitkilərin istehsalı və s.;

2) heyvandarlıqda: maldarlıq; atçılıq; qoyunçuluq; donuzçuluq; balıqçılıq və s.

Bu sektorlarda və yarımsahələrdə kənd təsərrüfatı istehsalının əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar bioloji aktivlərdən (canlı bitki və heyvanlar) və kənd təsərrüfatı torpaqlarının növləri üzrə (əkin sahələri, biçənəklər, otlaqlar və s.) təbii sərvətlərindən istifadə edirlər. Kənd təsərrüfatı istehsalında ətraf mühitin mühafizəsini təmin etmək üçün dozalarına ciddi nəzarət tələb edən konkret növ maddi və bioloji əmək obyektlərindən (zəhərli kimyəvi maddələr, mineral gübrələr, dərmanlar, istehsalın artımını təmin edən bioloji və kimyəvi stimulyatorlar və s.) istifadə olunur. Odur ki, bioloji və torpaq aktivlərinin, kənd təsərrüfatı məhsullarına çəkilən xərclərin və onun keyfiyyətinin uçotunun və metodoloji aspektlərinin konseptual əsaslarının hazırlanmasına obyektiv ehtiyac vardır [1, s.860].

Müəssisədə uçotun təşkili ölkənin mövcud qanunvericiliyi ilə təsdiq edilmiş məcburi tələbdir. Mühasibat uçotunun təşkili dedikdə, müəssisənin fəaliyyəti haqqında real məlumat əldə etmək, istehsal ehtiyatlarından və hazır məhsuldan səmərəli istifadəyə nəzarət etmək məqsədi ilə uçotun şərtləri və elementləri sistemi başa düşülür. Uçotunun təşkili nəticəsində bütün məlumatlar elə təqdim edilməlidir ki, ondan istənilən istifadəçi müəssisənin bütün məlumatlarını müqayisə və təhlil etməkdə istifadə edə bilsin. Bunun üçün müəssisənin istifadə etdiyi uçotun təşkilinin vahid prinsipləri və qaydaları əsasında uçot məlumatları qeydə alınmalı, qiymətləndirilməli, qruplaşdırılmalı və ümumiləşdirilməlidir. Hesabatın təşkili uçotun vahid prinsiplərinə və onun standartlara uyğun idarə edilməsinə əsaslanır. Uçotun təşkilində hər hansı təkmilləşdirmə mövcud qanun və qaydalar çərçivəsində aparılmalıdır.

Uçotun təşkili qaydalarına uyğun olaraq uçot üzrə hərəkətlərin ardıcıllığı mövcuddur:

1) İnformasiyanın toplanması və qeydiyyatı - sənədləşdirmə;

2) Məlumatların qruplaşdırılması, sistemləşdirilməsi və toplanması - qeydiyyat;

3) Mühasibat məlumatlarının təhlili və mühasibat hesabatlarının hazırlanması.

Heyvandarlıqda və əkinçilikdə uçot müəssisəyə bu kimi vəzifələri həll etməyə kömək edir:

- müəssisənin əmlak vəziyyəti, onun fəaliyyəti haqqında, müəssisənin təsisçiləri, mülkiyyətçiləri və iştirakçılarının daxil olduğu daxili istifadəçilər tərəfindən istifadə olunan etibarlı məlumatlar formalaşdırılması;

- öhdəliklərin və əmlakın hərəkəti ilə bağlı əməliyyatların həyata keçirilməsi zamanı mövcud qanunvericiliyə tam əməl olunmasına nəzarət etmək, habelə bütün mövcud resurslardan istifadə etmək

məqsədilə məlumatların verilməsi. Bütün bunlar qanunvericilik səviyyəsində təsdiq edilmiş standartlara, smetalara və normalara uyğun aparılmalıdır;

- şirkətin fəaliyyətində neqativ halların qarşısının alınması;
- müəssisənin maliyyə sabitliyini təmin etməyə kömək edən daxili vəsaitlərin müəyyənləşdirilməsi və onların səfərbər edilməsi;
- müəyyən edilmiş bütün ehtiyatların faktiki istifadəsinin qiymətləndirilməsi.

Kənd təsərrüfatı uçotunun özəlliyi ondan ibarətdir ki, burada ilk növbədə istehsal prosesi təbiət, torpaq və əmək obyekti kimi çıxış edən canlı orqanizmlərlə - heyvanlar və bitkilərlə bağlıdır. İstehsal dövrünün əhəmiyyətli bir hissəsi canlı orqanizmlərə məqsədyönlü təsirdən ibarətdir ki, həmin təsir onları müəyyən bir vəziyyətə çatdırmaq, insanlar üçün lazım olan faydalı xüsusiyyətləri əldə etməkdir. Təbii iqlim şəraitinin yaratdığı fasilələr səbəbindən kənd təsərrüfatında istehsal dövrü digər sənaye sahələrinə nisbətən xeyli uzun olur. Belə ki, mal-qara ətinin istehsalı bir neçə il, meyvə ağaclarının becərilməsi uzun illər, tərəvəz məhsullarının istehsalı isə bir il çəkir. Sənayenin ixtisası kənd təsərrüfatında uçotun xüsusiyyətlərini müəyyənləşdirir. Torpaqdan, istehsal ehtiyatlarından, maddi, maliyyə və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması, təsərrüfat uçotunun gücləndirilməsi, xərclərin azaldılması, kənd təsərrüfatı istehsalının rentabelliyinin yüksəldilməsi və təsərrüfatların maliyyə-təsərrüfat vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlər sistemi hərtərəfli, obyektiv və operativ daxil olan məlumatlar olduqda reallaşdırıla bilər.

Kənd təsərrüfatı sektorundakı müəssisələrin təsərrüfat fəaliyyəti haqqında məlumatların əsas mənbəyi mühasibat hesabatlarında olan məlumatlar hesab olunur. Uçot müəssisə idarəetməsinin ən mühüm funksiyalarından biridir, çünki onun məlumatları əsasında təsərrüfat fəaliyyətinin planlaşdırılması, proqnozlaşdırılması və təhlili aparılır.

Cəmiyyətimizdə baş verən bütün hadisələr bir-biri ilə sıx bağlıdır və bir-birindən asılıdır. Kənd təsərrüfatında uçot istehsal proseslərinin gedişi haqqında lazımi məlumatların verilməsinə, əmlakın qorunub saxlanmasının təmin edilməsinə, rentabelliyin, işin səmərəliliyinin artırılmasına və keyfiyyətinin yüksəldilməsinə kömək edir. Yuxarıda göstərilənlərin hamısı nəzərə alınmaqla kənd təsərrüfatında uçotun iki funksiyası ayırd edilə bilər: məlumatlandırıcı və nəzarət. Lakin kənd təsərrüfatında uçot təkcə məlumat funksiyasını deyil, həm də nəzarət funksiyasını yerinə yetirir, xüsusən də təşkilati planın reallaşdırılmasını əks etdirir, müəssisəsinin gəlirliliyini göstərir, həmçinin iş zamanı uğursuzluqların və səhvlərin qarşısını almağa kömək edir.

Beləliklə, kənd təsərrüfatında uçot sahənin spesifikliyini əks etdirən bir sıra əlamətlərlə xarakterizə olunur ki, buna təbii amil səbəb olur. Bundan əlavə istehsal prosesi yerlə və canlı orqanizmlərlə, eləcə də sosial amillə bağlıdır [2, s.88].

Kənd təsərrüfatında uçotun aşağıdakı əsas xüsusiyyətləri, əlaqədar problemlər və vəzifələr vardır.

1. Kənd təsərrüfatında əsas istehsal vasitəsi torpaq olduğundan torpaq sahələrinin və onlara qoyulan maliyyə qoyuluşlarının uçotunu aparmaq lazımdır. Kənd təsərrüfatı torpaqlarının uçotunun təşkili və aparılması zamanı torpaq sahələri fiziki göstəricilərlə (hektar), əlavə investisiyalar (kapital kimi) və alınmış torpaqlar pulla göstərilir.

2. Aqrar-sənaye sektorunda uçotun spesifikliyi kənd təsərrüfatı sahələrinin (bitkiçilik, heyvandarlıq, köməkçi istehsal və s.) müxtəlif xarakter daşıması ilə bağlıdır.

3. Kənd təsərrüfatında istehsal iqlim amillərinə görə mövsümi xarakter daşıyır (ilk növbədə bitkiçiliklə bağlıdır). Uçot işlərin və məsrəflərin mövsümiliyini əks etdirmək üçün nəzərdə tutulmuşdur ki, bu da öz növbəsində uçota təsir göstərir (məsələn, məhsul yığımı və əsas kənd təsərrüfatı işləri zamanı uçot işlərinin həcmi artır, işlərin həcminin mövsümi azalması zamanı isə azalır).

4. Çox vaxt eyni məhsul və ya heyvan növündən bir neçə növ məhsul alınır. Bu, uçotda xərclərin bölüşdürülməsi zərurətinə gətirib çıxarır.

5. Kənd təsərrüfatı məhsullarının istehsalı uzun prosesdir, bəzən bir təqvim ilindən çox vaxt tələb olunur. Bəzi kənd təsərrüfatı bitkiləri və heyvanlar üzrə xərclər cari hesabat ilində həyata keçirilir, məhsul isə yalnız növbəti hesabat ilində (payızlıq taxıl bitkiləri, mal-qaranın kökəlməsi və s.) qəbul edilir. Bu səbəbdən uçotda məsrəflər təqvim ilinə uyğun gəlməyən istehsal dövrləri üzrə bölüşdürülür: cari ilin məhsulu üçün əvvəlki illərin məsrəfləri, gələcək məhsul üçün cari ilin məsrəfləri və cari ilin məhsulu üçün cari ilin məsrəfləri.

6. Öz istehsalı olan məhsulun bir hissəsi təsərrüfatdaxili istehlaka (daxili dövriyyəyə) sərf olunur. Məsələn, bitkiçilik - toxum, heyvan yemi, emal üçün, heyvandarlıq məhsulları isə bitkiçilik gübrələrində və heyvan yemlərində istifadə olunur. Bu baxımdan, iqtisadi dövriyyənin bütün mərhələlərində məhsulun hərəkəti haqqında aydın təsəvvürə malik olmaq lazımdır.

7. Kənd təsərrüfatı istehsalında müxtəlif kənd təsərrüfatı texnikalarından istifadə olunur ki, bu da bütün səyyar maşın və mexanizmlərin etibarlı uçotunu tələb edir.

Bu amillərlə yanaşı, kənd təsərrüfatında uçotun təşkilinə müəssisələrin hüquqi formaları da təsir göstərir. Kənd təsərrüfatı sektoruna aid müəssisələr səhmdar cəmiyyətləri, ortaqlıqlar, məhdud məsuliyyətli cəmiyyətlər, kooperativlər, kəndli təsərrüfatları və onların birlikləri ola bilər.

Azərbaycanın kənd təsərrüfatı sektorunda uçot sisteminin təkmilləşdirilməsi problemlərinin təhlili zamanı maliyyə uçotuna xas olan problemləri nəzərdən keçirməklə yanaşı, idarəetmə uçotunun daha da təkmilləşdirilməsi yollarını öyrənmək lazımdır. Hazırda idarəetmə uçotu mühasibat uçotunun kölgəsində qalıb və onun bir çox problemləri hələ də araşdırılmamışdır. Bununla belə, bilmək lazımdır ki, idarəetmə uçotunun uyğun modelinin yaradılması biznesin və sahibkarlığın inkişafının əsasını təşkil edir. Bu, kənd təsərrüfatı sektorunda fəaliyyəti göstərən müəssisələrə də aiddir.

Demək olar ki, MHBS-yə əsaslanan yerli uçot sisteminin daha da təkmilləşdirilməsinin əsas problemlərindən biri təşkilatlarda iki istiqamətdə həyata keçirilən maliyyə və vergi uçotunun inteqrasiyası, eləcə də uçot sisteminin yaradılmasıdır. Maliyyə uçotunun yeni uyğunlaşdırılmış modeli yaradılarsa, mühasibat uçotunun əmək xərcləri bir qədər azalar. Bundan əlavə, iki müxtəlif hesabat əvəzinə, vergi hesabatlarına xas olan hesablamalar üzrə məlumatların hazırlanmasını təmin edən geniş maliyyə hesabatı yaradılır.

Azərbaycanda maliyyə hesabatlarının keyfiyyətlə hazırlanması və MHBS-nin tətbiqi məqsədilə aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruri hesab olunur:

1. Uçotu və maliyyə hesabatlarının tənzimlənməsi sisteminin təkmilləşdirilməsi.
2. MHBS-nin tətbiqi üçün infrastrukturun yaradılması.
3. Uçotu sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi.
4. Uçotun təşkili və aparılması və maliyyə hesabatlarının tərtibi ilə məşğul olan mütəxəssislərin, eləcə də maliyyə hesabatlarının istifadəçilərinin ixtisasının artırılması [3, s.347].

Heç bir milli uçot sistemi bazar şəraitində beynəlxalq sistemdən təcrid olunmuş şəkildə inkişaf edə bilməz. Kənd təsərrüfatı müəssisələrində MHBS-nin tətbiqi maliyyə hesabatlarının hazırlanması və maliyyə resurslarının cəlb edilməsi xərclərini azaltmağa imkan verir. Bu gün kənd təsərrüfatının dövlət və maliyyə-kommersiya qurumları tərəfindən maliyyələşdirilməsi həmin sahə istehsalçılarımızın əsas problemlərindən biridir. Təsərrüfat subyekti haqqında maliyyə məlumatlarının şəffaflığı və əlçatanlığı kreditlərin götürülməsini asanlaşdırır.

Ümumiyyətlə kənd təsərrüfatı sektorunun inkişafı bu sahədə uçotun təşkili səviyyəsindən asılıdır. Odur ki, uçot sisteminin təşkilinin təkmilləşdirilməsi tələb olunur. Müəssisədə uçot sisteminin təşkilinin təkmilləşdirilməsi sistemin avtomatlaşdırılması yolu ilə həyata keçirilə bilər. Elektron hesablama texnologiyasından istifadəyə əsaslanan uçotun avtomatlaşdırılmış forması ilkin məlumatların toplanmasından mühasibat hesabatlarının qəbuluna qədər uçot prosesinin avtomatlaşdırılmasının mürəkkəb sistemidir. Bu forma mühasibat uçotu metodunun əsas elementi - sənədləşdirməyə əsaslanır. Amma uçot məlumatlarının qruplaşdırılması və ümumiləşdirilməsi kompüterlərin köməyi ilə həyata keçirilir. Kompleks avtomatlaşdırma sisteminin inkişafının əsas tendensiyalarından danışarkən, yeni informasiya texnologiyalarından istifadə, funksionallığın daha da genişləndirilməsi, müxtəlif istifadəçi qruplarının ehtiyaclarına uyğunlaşma üçün yeni imkanların həyata keçirilməsi, qarşılıqlı əlaqə mexanizmlərinin inkişafı nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Алборов, Р. А. Проблемы развития учета и оценки биологических и земельных активов в сельском хозяйстве / Р. А. Алборов, С. М. Концевая, С. В. Козменкова // Международный бухгалтерский учет. – 2019. – Т. 22. – № 8(458). – С. 859-871

2. Альдешова, С. Б. Финансово-хозяйственная деятельность в сельскохозяйственных предприятиях: теоретические аспекты / С. Б. Альдешова, Г. Т. Ахметова, М. С. Дарискалиева // Проблемы агрорынка. – 2021. – № 2. – С. 86-92

3. Малаев, Э. Т. Организация бухгалтерского учета в сельском хозяйстве с применением мсфо / Э. Т. Малаев, А. А. Салюев // Известия Иссык-Кульского форума бухгалтеров и аудиторов стран Центральной Азии. – 2018. – № 2(21). – С. 343-348

Резюме

Гаджиева З.Э.

Значение бухгалтерского учета в сельском хозяйстве

В статье представлена информация об основных особенностях земледелия. Обоснована необходимость бухгалтерского учета в сельском хозяйстве. Последовательность учетных действий определяется в соответствии с правилами организации бухгалтерского учета. Изучены основные

особенности и задачи бухгалтерского учета в сельском хозяйстве. Исследованы пути совершенствования учета в сельском хозяйстве.

Ключевые слова: сельское хозяйство, предприятие, бухгалтерский учет, растениеводство, животноводство, производство, продукция

Summary
Hajiyeva Z.E.
Importance of Accounting in Agriculture

The article provides information about the main features of agriculture. The necessity of accounting in agriculture is substantiated. The sequence of accounting actions is determined in accordance with the rules of the organization of accounting. The main features and tasks of accounting in agriculture are studied. Ways to improve accounting in agriculture have been explored.

Key words: *agriculture, enterprise, accounting, plant-grohing, animal breeding, production, products*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ TÜRKİYƏ TƏCRÜBƏSİ

Hüseynov Nihad Ramiz oğlu
Sumqayıt Dövlət Universiteti
nihadhuseyn@mail.ru

Xülasə: *Məqalədə işğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsində Türkiyə təcrübəsi ilə bağlı məsələlərə baxılır. Böyük Qarabağ Zəfərindən sonra işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi istiqamətində geniş həcmli işlər görülməkdədir. Həmin ərazilərin turizm potensialından səmərəli istifadə edilməsi kifayət qədər aktualdır. Turizmin inkişafı hesabına ərazinin iqtisadiyyat quruculuğunun və ümumilikdə Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsi mümkündür. Bununla əlaqədar turizm sahəsində qardaş Türkiyənin təcrübəsinə xüsusi diqqət yetirilir. Baxılan problemlər üzrə bir qrup tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

Açar sözlər: *Azərbaycan, Türkiyə, işğaldan azad olunmuş ərazilər, turizm, turizm müəssisələri*

Qeyd edək ki, Azərbaycanda makroiqtisadi sabitliyin gücləndirilməsi və ümumilikdə iqtisadi artım tempinin təmin edilməsi problemləri fərqli həll mexanizmlərini şərtləndirir. Qlobal transformasiyalardan və təhlükələrdən formalaşan yeni çağırışlara uyğun olaraq perspektivli iqtisadiyyat sahələrinin imkanlarından daha səmərəli istifadə edilməsi vacibdir. Azərbaycanda bu qəbildən olan iqtisadiyyat sahələri sırasında turizmin xüsusi yeri vardır [1, səh. 7]. Covid-19 pandemiyasından əvvəl turizm Azərbaycanda dinamik inkişaf edən və kifayət qədər faydalı əlavə dəyər mənbələri yaradan iqtisadiyyat sahəsi kimi diqqət çəkmişdir. Ölkəmizdə turizmin müasir infrastrukturunun yaradılması prosesləri sürətlənmiş və turistlərin sayı əhəmiyyətli səviyyədə artmışdır. Nəticədə, Azəbaycanda turizmin inkişaf etdirilməsi üçün münbit şərait yaradılıb və deyə bilərik ki, turizmin əksər növləri, məsələn, müalicəvi, işgüzar, çimərlik, idman, istirahət, rekreasiya və s. inkişaf edir və gələcək perspektivləri böyükdür. Bunun nəticəsidir ki, son illər ölkəmizə yeni-yeni ölkələrdən turist axını artmaqda davam edir [2, səh. 237].

Turizm xidmətlərinin keyfiyyətinin artırılması, daxili və beynəlxalq məkanlarda ölkənin turizm müəssisələrinin fəallığının genişləndirilməsi çoxşaxəli fəaliyyəti özündə ehtiva edir [7, səh. 62]. Digər tərəfdən, turizm ən bəsit şəkildə insanların gəzmək, dincəlmək və fərqli yerlər görmək məqsədilə etdikləri səyahət fəaliyyəti olub, dövlətlərin də bu səbəbə görə səyahət etmək istəyənləri ölkələrinə cəlb etmək məqsədilə yaratdığı iqtisadi, sosial və texniki fəaliyyətlərin məcmusudur. Turizm əsasən 19-cu əsrin sonlarından etibarən inkişaf etməyə başlanmış, 20-ci əsrdən isə insanların yüksələn rifah səviyyəsi və adambaşına düşən gəlirin artması ilə əlaqədar olaraq insanların boş vaxtlarını uzaq məsafələrə edilən səfərlərlə dəyərləndirməsi xüsusiyyətini qazanmışdır. Hazırkı şəraitdə isə turizm sektoru ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri kimi yüksək perspektivə malikdir. Bu isə neftdən iqtisadi aslılığın azaldılmasının və real iqtisadi artımın əsas göstəricilərindəndir.

İndiki obyektiv reallıqlar şəraitində, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm potensialından səmərəli istifadə etmək hesabına ölkə iqtisadiyyatının yeni artım mənbələrinin formalaşdırılması mümkündür. Qeyd edək ki, hələ sovetlər birliyi dönəmində Qarabağda turizmin inkişafı üçün infrastruktur formalaşdırılmış, ittifaq əhəmiyyətli sanatoriya kompleksləri fəaliyyət göstərmişdir.

Keçmiş SSRİ-nin süqutundan sonra, 1990-cı illərin əvvəllərində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən xarici havadarlarının hərtərəfli dəstəyi ilə işğalı nəticəsində bu ərazilər xarabazarlığa çevrilmiş, resurslarımız talan olunmuşdur. Təbii resurslara ciddi ziyan dəymiş, infrastruktur dağıdılmışdır. İtki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2014-cü ildən etibarən başlanan və 2016-cı ildə yekunlaşan birgə hesabatın nəticəsində ümumilikdə Azərbaycana dəyən ziyan 265,3 milyard dollar səviyyəsində hesablanmışdır. Müxtəlif qruplar, qurumlar və müstəqil ekspertlər tərəfindən dəyən ziyanın daha böyük həcmdə olduğu səsləndirilir və dəyən zərərin 820 milyard dollar olması bildirilir. İşğaldan azad olunmuş ərazilər tamamilə minalanmış vəziyyətdədir və təbii resurslar əhəmiyyətli səviyyədə deqradasiyaya uğramışdır.

Bu isə gələcəkdə həm Qarabağ və Şərqi Zəngəzur, həm də Azərbaycanın digər bölgələrinin iqtisadi inkişafının göstəricisidir. Dünya üzrə iqtisadi bir aksiom olan "İqtisadi inkişaf hər zaman bərabərdir cəlbedicilik" fikrindən irəli gələrək və Azərbaycanın turizm potensialını nəzərə alaraq gələcəkdə dünyanın turizm mərkəzlərindən birinə çevrilə biləcəyi faktını ortaya qoyur. Bu potensialdan tam istifadə məqsədilə isə ÜTT-nin göstəricilərinə görə bu sahədə artıq imzasını atmış və turizm üzrə dünyada ilk onluqda olan Türkiyə Respublikasının turizm modelindən istifadə etmək məqsədəuyğundur.

Hazırda işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi prosesləri gedir və sevindirici haldır ki, turizm infrastrukturunun bərpasına da başlanılmışdır. Ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə Kəlbəcər rayonunda "İstisu" müalicə sanatoriyasının tikintisinin təməli qoyulmuşdur [3, səh. 1]. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş həcmli innovasiya-investisiya və nəqliyyat-logistika layihələrinin həyata keçirilməsi turizm potensialının reallaşdırılmasında önəmli rol oynayacaqdır. Hesab edirik ki, bu məsələlərdə Azərbaycan qardaş Türkiyənin turizm sahəsində təcrübəsindən istifadə etməklə daha böyük uğurlar əldə edə bilər.

Belə ki, dünyada turizm sahəsində uğurlu inkişaf modellərindən biri olan Türkiyə turizm modeli çevikliyi və cəlbediciliyi ilə diqqət çəkir. 1960-90-cı illərdə Türkiyədə turizm sahəsinin inkişaf etdirilməsi modelinin əsas məqsədi dünya ölkələri ilə rəqabət edə bilən, dünya standartlarına uyğunlaşan, tələbə yönləndirilmiş və bu prosesləri həyata keçirərkən mühit, təbiət, iqtisadiyyat və sosial sistemləri pozmayaraq ölkədəki təbii, tarixi, mədəni irsi və məşğulluq resurslarını ən məhsuldar formada istifadə edə bilən bir turizm siyasəti hazırlayıb həyata keçirməkdən ibarət olmuşdur. Fikrimizcə, sıfırdan bərpa olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafında, onun infrastrukturunun yaradılmasında Türkiyə təcrübəsi kifayət qədər səmərəli ola bilər.

Türkiyə modelindən istifadə etmək üçün öncəliklə onun planlaşdırılmasına, yaranmasına, idarə olunmasına və ən vacibi isə dövlətin turizm siyasətini dərindən araşdırmaq, öyrənmək, düzgün təhlil etmək və tətbiq etmək lazımdır. Türkiyə Respublikasında turizm, iqtisadiyyatın inkişafında, gəlir əldə edilməsində, valyuta daxilolmalarının təmin edilməsində, məşğulluq imkanlarının yaradılmasında, mədəni və sosial həyata təsirində önəmli rol oynadığı üçün dövlətin xüsusi diqqət ayırdığı bir sektor olmuşdur. Türkiyədə turizm üzrə müvafiq nazirliklər, yerli və mərkəzi hökumət strukturları, Türkiyə Elmi və Texnoloji Araşdırmalar Təşkilatı (TÜBİTAK), özəl təşkilatlar, qeyri-hökumət təşkilatları turizmi gücləndirmək və inkişaf etmiş ölkələrlə rəqabət edə biləcək təsirli bir sektor halına gətirmək üçün səylər göstərirlər [6, səh. 103]. Turizm, xarici iqtisadi ticarət balansını kəsirlə qapayan Türkiyə kimi inkişaf etməkdə olan ölkələrin xüsusi diqqət yetirdiyi və vurğuladığı bir sektordur. Bir çox ölkələrdə olduğu kimi Türkiyədə də turizm, cari hesab kəsiri, işsizlik və digər iqtisadi problemlərin həll yolu olaraq hökumətin çox önəm verdiyi sektorlardan hesab olunur.

Türkiyə coğrafi mövqeyinə, mədəni-tarixi quruluşuna, təbii sərvətlərinə, fərqli iqlim tiplərini eyni anda yaşaya bilməsinə və bir çox sivilizasiyaya ev sahibliyi etməsinə görə yüksək turizm potensialına malik ölkələrdən sayılır [4, səh. 431]. Eyni zamanda, Türkiyə əsrlər boyu bir çox sivilizasiyaya ev sahibliyi edib, ona görə də çox zəngin tarixi və mədəni irsə malikdir. Bundan əlavə, üç tərəfdən dənizlə əhatə olunması, mürəkkəb və maraqlı relyef formalarına malik olması, mülayim iqlim qurşağında yerləşməsi, dörd fəsli yaşaması, təbii resursları, heyvan və bitki müxtəlifliyinə malik olması kimi amillərə görə dünyanın ən əhəmiyyətli turizm cazibəsinə malik mərkəzlərdən birinə çevrilmişdir. Türkiyə təkcə sahil turizmi baxımından deyil, mədəni turizm, termal turizm, sağlamlıq turizmi, qış turizmi, dağlıq turizm kimi turizm növləri baxımından da böyük potensiala malikdir.

Qeyd edək ki, Türkiyənin ümumi iqtisadi strategiyası xidmət və sənaye sektorlarında tələb və təklifin artırılması istiqamətindədir. Bu səbəbdən də turizm iqtisadiyyatın ümumi məqsədlərinə uyğun olaraq inkişaf edir. Türkiyənin qısa və orta müddətli perspektivdə valyuta ehtiyacını sənaye məhsullarının ixracı və ənənəvi kənd təsərrüfatı fəaliyyətləri hesabına tam ödəməsi gerçəkləşməyəcək bir ehtimaldır [5, səh. 7]. Bu şəkildə qeyd olunan kəsirin aradan qaldırılması üçün lazım olan valyutanı təmin etmək baxımından turizm həm vaxt, həm də xərc nöqteyi-nəzərindən kifayət qədər səmərəlidir. Türkiyə iqtisadiyyatının mühüm sənaye

fəaliyyətlərindən biri olan turizm, artan sərmayələri, tədiyyə balansına müsbət töhfəsi, milli gəlirin yüksəldilməsi və məşğulluğu təmin etməsi ilə fərqlənən və diqqət çəkən faydalı iqtisadiyyat sahəsi kimi xarakterizə edilir.

Beləliklə, hesab edirik ki, yaxın perspektivdə Azərbaycanda işğaldan azad edilmiş ərazilərin inkişaf etdirilməsində turizm sektorunun potensialının reallaşdırılmasında Türkiyə təcrübəsinin tətbiqi və Türkiyə şirkətlərinin iştirakı səmərəli nəticələrə gətirib çıxara bilər:

– Türkiyədə turizm sahəsi dünya səviyyəsində inkişaf etmiş hesab olunur və kifayət qədər cəlbedicidir.

– İşğaldan azad olunmuş ərazilədə iri miqyaslı turizm layihələrinin həyata keçirilməsində və turizm infrastrukturunun yaradılmasında Türkiyənin Azərbaycanla birgə səylər göstərmək hədəfləri vardır.

– Hazırda bu ərazilərdə Türkiyə şirkətləri infrastruktur layihələrinin reallaşdırılmasında iştirak edirlər və fikrimizcə, Türkiyənin turizm şirkətləri və potensial investorları da Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına turizmin inkişafı üçün böyük həvəslə gələrlər.

– Ölkəmiz işğaldan azad olunmuş ərazilərdə turizm infrastrukturunun inkişaf etdirilməsi istiqamətində özəl sektorun inkişafına daha münbit şərait yaratmalı, xüsusilə Türkiyədən olan şirkətlərlə birgə turizm müəssisələrinin təşkili proseslərinə dəstək verməli və daha cəlbedici investisiya mühiti formalaşdırmalıdır və s.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016, 98 s.

2. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018. -376 s.

3. İlham Əliyev Kəlbəcərdə "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib. 27 iyun 2022. https://president.az/az/articles/view/56546.

4. Aslan, Ferhat: "Avrupa Birliğinin Turizm Politikası Ve Türkiye Turizm Stratejisi 2023 Üzerine Bir Değerlendirme", Uluslararası Sosyal Araştırmalar Dergisi, C:VII, No:31, 2014, s.427-438.

5. Çımat, Ali, Bahar, Ozan: "Turizm Sektörünün Türkiye Ekonomisi İçindeki Yeri Ve Önemi Üzerine Bir Değerlendirme", Akdeniz İ.İ.B.F. Dergisi, C:VI, 2003, s.1-18.

6. Emekli, Gözde: "Avrupa Birliği'nde Turizm Politikaları Ve Türkiye'de Kültürel Turizm", Ege Coğrafya Dergisi, C:14, No:1-2, 2005, s.99-107.

7. Юрченко, Е.Е. Международный рынок туристических услуг и его основные черты / Е.Е. Юрченко // Вестник Международного Славянского университета. Серия «Экономические науки». – 2012. – Том XV, № 2. – с. 59-66

Резюме

Гусейнов Н.Р.

Опыт Турции в развитии туризма на освобожденных от оккупации территориях

В статье рассматриваются опыт Турции в развитии туризма на освобожденных от оккупации территориях. После Великой Карабахской Победы проводятся широкомасштабные работы в направлении возрождения территорий, освобожденных от оккупации. Здесь важно эффективно использовать туристический потенциал этих территорий. Благодаря развитию туризма можно ускорить экономическое развитие районов и общее социально-экономическое развитие Азербайджана. В связи с этим особое внимание уделяется опыту братской Турции в сфере туризма. Дані пяг рекомендаций и предложений по рассматриваемым проблемам.

Ключевые слова: *Азербайджан, Турция, освобожденные от оккупации территории, туризм, туристические предприятия*

Summary

Huseynov N.R.

Experience of Turkey in Tourism Development in Territories Liberated From Occupation

Experience of Turkey in tourism development in territories liberated from occupation is investigated in the article. Large-scale work is being carried out towards the revival of territories liberated from occupation after the Great Karabakh Victory. So, it is important to use effectively the tourism potential of these territories. Because of the development of tourism, it is possible to accelerate the economic

development of the regions and the socio-economic development of Azerbaijan. In this regard, special attention is paid to the experience of Turkey in the field of tourism. A group of recommendations and proposals on the issues under consideration is given.

Key words: *Azerbaijan, Turkey, territories liberated from occupation, tourism, tourism enterprises*

XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAFI ŞƏRAİTİNDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏT QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Hüseynova Ruhiyyə Adil qızı
Mingəçevir Dövlət Universiteti
h.ruhiyye76@mail.ru

Xülasə: *Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi vəzifəsi hər bir ölkə kimi Azərbaycan üçün də aktualdır. Azərbaycan transformasiya dəyişikliklərinin reallaşdırılması mərhələsindədir və qloballaşma, regionlaşma proseslərinin güclənməsi şəraitində sürətlə inkişaf edir. Azərbaycan üçün, rəqabət qabiliyyəti problemlərin həll edilməsi– ixrac fəaliyyətini səmərəli diversifikasiyalaşdırmağa və ölkəmizin milli maraqlarına uyğun strateji məsələlərin həll edilməsini təmin edən vacib şərtdir. Ölkəmizdə emal sənayesini daha da inkişaf etdirməyə lüzum vardır. Buna görə də, xarici ticarət fəaliyyətinin artırılması iqtisadi siyasət və inkişaf strategiyasının prioritet istiqamətlərindən biri olmaqla yanaşı, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinə də gətirib çıxaracaqdır.*

Açar sözlər: *transformasiya, innovasiya, investisiya, diversifikasiya, rəqəmsallaşma, qeyri-neft ixracı, xarici ticarət, klaster*

Qeyd edək ki, IV sənaye inqilabı, rəqəmsal iqtisadiyyat, inteqrasiya prosesinin güclənməsi şəraitində, milli iqtisadiyyatların rəqabət qabiliyyətliliyi problemlərinə böyük önəm verilir. Milli iqtisadiyyatın rəqabətliliyinin artırılması vəzifəsi digər ölkələr kimi, Azərbaycanda da aktualdır. Bu onunla bağlıdır ki, Azərbaycan transformasiya dəyişikliklərinin həyata keçirilməsi mərhələsindədir və qloballaşma və regionlaşma proseslərinin güclənməsi şəraitində inkişaf edir. Bu, öz növbəsində, onunla bağlıdır ki, dünya iqtisadiyyatının regionlaşması və qloballaşması prosesləri milli iqtisadiyyatın inkişafını daha çox müəyyənləşdirir. Rəqabət qabiliyyətli iqtisadiyyatın inkişafı, bazar mexanizmlərindən istifadə etmədən, islahatlar prosesini tezləşdirmədən və bazar alətlərini təkmilləşdirmədən mümkün deyil. Bu problemin öyrənilməsinə belə yanaşma yeni vəzifələri ortaya qoyur: rəqabətliliyin yüksəldilməsi üzrə iqtisadi potensialı olan prioritet sahələrin seçilməsi; xarici iqtisadi rəqabət qabiliyyəti vasitəsi ilə rəqabət münasibətlərinin və mexanizmlərin inkişaf sürətinə təsir edən amillərin və onların tərkib hissələrinin üzə çıxarılması.

Əsasını innovasiyalar və insan kapitalı təşkil edən dayanıqlı rəqabət üstünlüklərinin formalaşmasını daha geniş stimulluşdırmaq məqsədəuyğundur. Bu innovasiyalar və insan kapitalı ölkələrin rəqabət qabiliyyətinin artırılmasına dəstək verir və dayanıqlı inkişaf və artım templərini təmin edirlər. Qeyri-neft sektorunun inkişafının artırılması ölkə iqtisadiyyatının inkişaf prioriteti olmaqla yanaşı, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin daha da artırılmasına təkan verə bilir. Qarşıda duran məqsədə müvəffəq olmaq üçün, passiv ixrac siyasətindən- onun aktivləşməsinə keçmək məqsədəuyğunluğu müəyyən edilmişdir. Rəqabətliliyin təmin edilməsi və artırılması problemi yalnız genişlənmə və xarici bazarlarda iştirakı deyil, eləcə də, idxalın əvəzlənməsi problemini də nəzərdə tutur. Ölkə iqtisadiyyatının rəqabətliliyinin yüksəldilməsi ehtiyacı aşağıdakı amillərlə şərtlənmişdir:

– iqtisadiyyatın yüksək dərəcəli açıqlığı nəticəsində rəqabət qabiliyyəti qlobal dünya bazarında ölkənin öz guşəsini müəyyən etmək, xidmət və əmtəələrə məcmu tələbin payının əldə edilməsi üçün münbit mühit yaradır, bu da texnoloji və texniki tərəqqiyə və mövcud problemlərin həllinə gətirib çıxarır;

– rəqabət qabiliyyəti maliyyə vəziyyətinin yaxşılaşmasına yardım etməklə ölkənin büdcə bazasını möhkəmləndirir, ekoloji və sosial-iqtisadi problemlərin həllini təmin edir;

– rəqabət qabiliyyəti ölkələrin iqtisadi və eyni zamanda siyasi təhlükəsizliyini təmin edir, xarici amillərdən asılılığı azaldır və müasir meyllər əsasında prioritetləri müəyyən edə bilən iqtisadiyyatın əsasını qoyur;

– rəqabət qabiliyyəti nəinki təbii resurslardan istifadənin səmərəliliyini, həmçinin onların məhsuldarlılığını da təmin edir;

– rəqabət qabiliyyəti, elmin, texnikanın, istehsalın yeni, müasir əlaqə prinsiplərinin inkişafına təkan verir, yəni əsas istehsal resursu –bilik və yeni texnologiyalar olur;

– -rəqabət qabiliyyəti iqtisadiyyatın strukturunun diversifikasiyasına, iqtisadi artımın məhdudiyyətlərinin azalmasına dəstək verir.

Azərbaycan iqtisadçıları iqtisadiyyat və iqtisadi inkişafın rəqabət qabiliyyəti ilə əlaqəsini geniş aspektdə tədqiq etmişdirlər. Belə ki, prof. Nazim Müzəffərlinin fikrincə, «tam və dolğun dövlətlərarası müqayisələrin aparılması üçün inteqral göstəricilərdən istifadə etmək önəmlidir ki, bu göstəricilərdən biri də – ölkə iqtisadiyyatının rəqabət qabiliyyəti göstəricisidir. Hər bir ölkənin aşağıdakı meyarlar üzrə raqəbətqabiliyyətliliyə çalışmağını qeyd etmək olar:

- Dinamik iqtisadi inkişafın mühüm şərti olan siyasi sistemin dayanıqlılığı və səmərəliliyi;
- Fiziki infrastrukturun səviyyəsi (o cümlədən, energetika və nəqliyyat infrastrukturu üzrə)
- İş qüvvəsinin keyfiyyəti (ixtisaslaşma üzrə);
- Sahibkarlıq fəaliyyəti, o cümlədən xarici investisiyalar cəlb edilməklə;
- Sosial-mədəni mühitin komfortluluğu və müxtəlifliyi. [6]

Göstərilən parametrlərin hər birini, ayrı-ayrılıqda, rəqabət qabiliyyəti məcmusu kimi araşdırmaq olar. AMEA- nın müxbir üzvü, i.e.d., prof. Əli Nuriyevin fikrincə, "sənaye – iqtisadiyyatın əsas sahəsidir və burada yeni texnika və texnologiyaların tətbiq edilir və bununla da, rəqabət qabiliyyətli, daha səmərəli və xüsusilə qeyd edtmək yerində olardı ki, innovasiyalara istiqamətlənmiş məhsulun yaranması üçün münbit mühit yaradılır".[1] Prof.Rauf Cəbiyevin fikrincə, iqtisadiyyatın restrukturizasiyasının əhəmiyyətli istiqamətlərindən biri – ölkənin innovasiya potensialının təkmilləşdirilməsi ilə rəqabətə davamlı məhsul istehsalının yüksəldilməsinə nail olmaqdır. Prof.Tərbiz Əliyevin fikrincə, rəqabət qabiliyyətinin yüksəldilməsi yollarını innovasiya siyasətinin inkişafında və onun səmərəliliyindədir. Burdan görünür ki, rəqabət qabiliyyətinə aid qeyd edilən təriflər heç də bir-birinə ziddiyyət təşkil etmir. Onlar, rəqabət qabiliyyəti probleminin müxtəlif aspektlərini göstərə bilirlər. Bunlardan irəli gələrək, rəqabət qabiliyyəti – dövlət dəstəyi ilə iqtisadiyyatın daha davamlı, dinamik inkişafını göstərən obyektiv bir prosesdir və şirkətlərin, ayrı-ayrı sahələrin, əmtəələrin rəqabətə davamlılığından asılı olaraq, kəmiyyət ilə keyfiyyət xarakteristikalarının birləşdirilməsi sayəsində, əhalinin həyat səviyyəsinin və iqtisadiyyatın dayanıqlı artımına şərait yaradır.[7]

İqtisadi açıqlıq dərəcəsi yüksəldikcə, iqtisadi-sosial inkişafın xarici və daxili amillərinin nisbəti də dəyişilir: daxili amillərin təsiri azalır, xarici amillərin təsiri isə artır. Xarici iqtisadi əlaqələr, özünü, Azərbaycanın iqtisadi artımı və inkişafının başlıca amilləri kimi büruzə verirlər. Xarici ticarətin imkanlarından real olaraq istifadə etmək, strateji məqsəd olan innovasiyalı inkişafa keçidə yardım edir, daxili istehlak bazarını diversifikasiya edir, bunlarla yanaşı, müasir bazar təsərrüfatı metodlarından istifadəni də dəstəkləyir. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsini vacib edən ilkin şərtləri aşağıdakı kimi təsnifləndirmək məqsədəuyğun olar:

- İqtisadiyyatın açıqlığının yüksək səviyyədə və dərəcədə olması;
- Rəqabət qabiliyyətli ayrı-ayrı sahələrin və müəssisələrin maliyyə vəziyyəti (məs., xammal və yanacaqdan dan əldə edilən gəlirlər) ölkənin sosial-iqtisadi məsələlərin həllinə yönələn büdcəsinin əsasını təşkil etməsi;
- Rəqabət qabiliyyəti siyasi və iqtisadi təhlükəsizliyi təmin etməklə yanaşı, prioritetlərin müəyyən edilməsinə də şərait yaradır;
- Rəqabət qabiliyyəti təbii resurslardan səmərəli istifadəni daha önəmli edir. Xammal ixracı üzrə ixtisaslaşma səbəbindən, daxili tələbin artması iqtisadi artımın əsas amili olur, aşağı səviyyəli keyfiyyət göstəriciləri isə idxal olunan malların həcmini artırır. Buna görə də, rəqabətə davamlı məhsul istehsalı və istehsalın səmərəliliyinin artırılması hesabına daxili bazarda öz mövqelərinin gücləndirilməsi də əhəmiyyətlidir. Əmtəə rəqabətindən texnologiyaların rəqabətinə keçid də çox vacibdir;
- Rəqabət qabiliyyəti elmtutumlu məhsulların istehsalına əsaslandığından, o, elm, texnika və istehsalın yeni əlaqə prinsiplərinin inkişafıdır;
- Rəqabət qabiliyyəti iqtisadi artımla yanaşı, dünya bazarına çıxışı da təmin edən strukturların mövcudluğunu nəzərdə tutur.[6]

Bildiyimiz kimi, qlobal rəqabətlilik reytinqinə görə, 2016-2017-ci illərin göstəricilərinə əsasən Azərbaycan 37–ci yerdə yer almışdır ki, bu, ümumilikdə, müsbət göstəricidir. Lakin Azərbaycan dünya bazarına elmtutumlu və innovasiyalı əmtəə və xidmətlərlə çıxmır və bu da ölkəmiz üçün heç də məqsədəuyğun deyil. Azərbaycan Respublikasının rəsmi statistik məlumatlarına əsasən, ixracın strukturunda neft məhsullarının ixracının payı çox böyükdür. Birinci sıralarda duran ölkələrin reytinqini təhlilinə diqqət yetirsək, belə nəticəyə gəlmək olar ki, onlar dünya bazarına özlərinin innovasiyalı, rəqabət qabiliyyətli, yüksək elmtutumlu əmtəə və xidmətləri ilə çıxırlar. Fikrimizcə, bu meylləri nəzərə alaraq, elmtutumlu və innovasiyalı əmtəə və xidmətlərlə dünya bazarına çıxışı təmin etmək ölkəmiz üçün daha məqsədəuyğun ola

bilər.[12] Dünya Rəqabətlilik Mərkəzi İMD 2021-ci il üçün Ölkələrin İqtisadi Rəqabət Qabiliyyətinin yeni Reytinqini təqdim edib. Aparıcı mövqeləri İsveçrə (I yer), İsveç (II yer), Danimarka (III yer), Hollandiya (IV yer), Sinqapur (V yer) kimi ölkələr tutur. İnnovasiya, rəqəmsallaşma, sosial birlik, dəstəkləyici dövlət siyasəti, çeviklik, biznesin səmərəliliyi və digər iqtisadi göstəricilər meyarlarına görə qiymətləndirilən reytinqdə 64 ölkə iştirak edib. Ekspertlərin fikrincə, məhz belə meyarlara əməl olunması aparıcı ölkələrə böhrana daha yaxşı tab gətirməyə və rəqabətqabiliyyətlilikdə daha yüksək mövqe tutmağa kömək edib. Beləliklə reytinq pandemiyanın bütün dünyada iqtisadi təsirini örtaya qoyur.[11] İqtisadi inkişafın dayanıqlılığı və davamlı inkişafının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bunun əsasında ölkənin elmtutumlu dayanıqlı üstünlükləri durur. Ölkənin rəqabət qabiliyyətinin qiymətləndirilməsi zamanı pozitiv və neqativ amilləri də nəzərə almaq lazımdır.

Dünya bazarlarında artan rəqabət, qeyri-stabil maliyyə-iqtisadi vəziyyət, dövlətləri, stabil iqtisadi artım yollarının axtarışına və mövcud rəqabət qabiliyyəti üstünlüklərindən istifadə etməklə, inkişafı dəstəkləməyə məcbur edir. Ölkələr, sənayenin modernləşdirilməsi və rəqabətə davamlı məhsul buraxılışı məqsədi ilə, xarici investisiyaları və texnologiyaların cəlb edilməsi üzrə tədbirlər işləyib hazırlayır və onları həyata keçirtməyə məqsədli olurlar. Müasir texnologiyaların əldə edilməsi hesabına rəqabət qabiliyyətli potensialın formalaşmasında iki yanaşma mövcuddur: 1) tanınmış texnologiyalara, məhsul növlərinə və ticarət markalarına lisenziyaların və nou-hauların əldə edilməsi; 2) yerli elmi-texniki potensiala güvənmə. Ayrı-ayrı kiçik və orta sahibkarlığın bazarda uğurlu ola bilməməsinə baxmayaraq, onların inkişaf etdirilməsi, dünya bazarlarında Azərbaycan iqtisadiyyatının rəqabətliliyinin yüksəldilməsinin əsas şərtlərindən biridir. Azərbaycanda üstünlük iri biznesə verilir. Klaster-şəbəkə modellərinin formalaşması innovasiyalı sahələrin inkişafına dəstək verir. Belə demək olar ki, klasterlər birbaşa xarici sərmayələri cəlb edir və bununla da xarici iqtisadi inteqrasiyanı aktivləşdirir, klasterin tərkibinə daxil olan müəssisələrin rəqabətliliyinin yüksəldilməsi hesabına texnoloji bazanın səviyyəsini və iqtisadi artımın keyfiyyətini yüksəldirlər. [4] Klasterlərin fəaliyyətinin əlaqələndirilməsi və texniki əsaslarının gücləndirilməsi, elmin, dövlətin və biznesin qarşılıqlı əlaqələrinin səmərəliliyinin artırılmasına dəstək verir. Kiçik müəssisələrin klasterlərdə birləşdirilməsini, modernləşmə, rəqabət qabiliyyətinin artırılması və texnoloji yenilənmə problemlərinin həllinə dəstək verən strateji innovasiya kimi müəyyənləşdirmək olar.[5]

Xarici ticarət - iqtisadiyyatın ən vacib sahələrindən biri olduğundan onun inkişafına siyasi, iqtisadi və başqa aspektlərin inteqrasiyası, qloballaşması və regionlaşması, ixtisaslaşması və standartlaşması prosesləri də təsir edir. Buna görə də, hal-hazırda real olaraq xarici ticarət fəaliyyətinin artırılması iqtisadi inkişaf strategiyası və iqtisadi siyasətin prioritetlərindən biridir. Bu gün, Azərbaycandakı xarici ticarət fəaliyyəti modeli, faktiki olaraq xammal ehtiyatlarının ixraca istiqamətlənməsi və hazır məhsulların idxalı ilə xarakterizə olunduğundan real iqtisadi artım və inkişaf, beynəlxalq əmək bölgüsündə layiqli yerin əldə edilməsi üçün müəyyən məhdudiyyətlər də yarada bilir. [10] İdxal əsasən, qısamüddətli və ortamüddətli istehlak tələbi mallarından, ərzaq məhsullarından, dərman preparatları və onların istehsalında lazım olan komponentlərdən (idxaldan asılılıq) ibarətdir. Fikrimizcə, bununla bağlı aşağıdakıları təklif etmək daha məqsədəuyğun olar:

– kiçik, orta və iri müəssisələrin kooperasiyasının təmin edilməsi və qapalı istehsal zəncirlərinin yaradılması yolu ilə müəssisələrin təşkilati formalarının diversifikasiyası; dövlət innovasiya-investisiya prioritetlərini reallaşdırmaq imkanlarına malik aparıcı müəssisələrin və birliklərin dəstəklənməsi; elm-istehsal kooperasiyasının və ixracyönümlü innovasiyalı kapital və elmtutumlu layihələrin inkişafı; dövlətlərarası səviyyədə sənaye-maliyyə inteqrasiyası;

– şəbəkə iqtisadiyyatının tərkib hissələrinin üfüqi və şaquli inteqrasiya olunmuş istehsal - satış klasterlərinin formalaşması yolu ilə tətbiq olunması, digər korporasiyalararası əlaqələrin inkişafı;

– bazar konyunkturası, onlarda milli əmtəələrin təklifi haqqında marketinqlə bağlı marifləndirmələr, bu məlumatların yayılması, marketinq və təşkilati strategiyalar və onların nəticələri haqqında təcrübə mübadiləsi edilməsi, yerli məhsullardan istifadə etmənin təşviqi və s.

Fikrimcə, qeyd edilənlər xarici iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi şəraitində ixracın və idxalın əvəzlənməsinin aktivləşdirilməsinə kömək edəcək və ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılmasına təkan verəcəkdir.

Ədəbiyyat

1. Nuriyev Ə. Azərbaycan reqionlarında sənaye məhsulu istehsalının davamlı artımı: nailiyyətlər, problemlər və perspektivlər / AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, region və sahə iqtisadiyyatı , 2015, № 1

2. Qənbərov F. Xarici iqtisadi əlaqələr və iqtisadi artım. Baki, Elm, 2012

3. Rüstəmbəyov H. Milli İqtisadiyyatda rəqabət qabiliyyətliliyin təmin olunmasının nəzəri metodolojı əsasları / kollektiv monoqrafiya – Rəqabət qabiliyyətlilik şəraitində milli iqtisaiyyatın formalaşması və inkişafı problemləri. Bakı: Avropa, 2014

4. Джабиев Р. Социально-экономическое развитие Азербайджанской Республики за годы независимости. Баку, 2005

5. Əliyev T. Regional innovasiya sisteminin təşkili və idarə edilməsi. AMEA Elmi İnnovasiya Mərkəzi. Bakı, Elm və Təhsil, 2013

6. «Müasir Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyi və qeyri-neft sənayesinin inkişafı», Elmi-praktiki jurnal «Xəbərlər». Bakı, 2015, V nəşr

7. "Milli İqtisadiyyatın rəqabət qabililiyyətliliyi və klaster təşkilində innovativ inkişaf". Elmi-praktiki jurnal "Elmi əsərlər toplusu". Bakı, 2016, I nəşr

8. Drucker, P., 'Entrepreneurship and Innovation: Practice and Principles', Harper Business, New York, 1985

9. Joyce T., Stivers B.P., (1999), 'Knowledge and innovation: a classification of US and Canadian firms', International Journal of Technology Management, 18

10.https://arastirmax.com/tr/system/files/dergiler/25825/makaleler/12/arastirmax iqtisadiyyatin-rqabtqabiliyytliliyinin-yuksldilmsi-azrbaycan-respublikasi-iqtisadi thluksizliyinin-tmin-edilmsi-amili-kimi.pdf

11.https://www.campiogroup.com/news/2021/rejting-konkurentosposobnosti-stran-2021-imd/

12.https://gtmarket.ru/news/2016/09/28/7304

Резюме

Гусейнова Р.А.

Пути повышения конкурентоспособности экономики Азербайджана в условиях развития внешнеэкономических связей

Задача повышения конкурентоспособности национальной экономики актуальна для каждой страны, в том числе и для Азербайджана. Азербайджан находится на стадии трансформации и развивается в условиях усиления глобализации и регионализации. Важно перейти от пассивной экспортной политики к ее активизации. Для Азербайджана решение проблемы конкурентоспособности является важнейшим условием эффективной диверсификации экспортной деятельности и решения стратегических вопросов в соответствии с национальными интересами. Необходимо дальнейшее развитие перерабатывающей промышленности в нашей стране. Поэтому увеличение внешнеэкономической деятельности станет одним из приоритетов экономической политики и стратегии развития, а также повышения конкурентоспособности национальной экономики.

Ключевые слова: *трансформация, инновация, инвестиция, диверсификация, цифровизация, несырьевой экспорт, внешняя торговля, кластер*

Summary

Quseynova R.A.

Ways to Increase the Competitiveness of the Azerbaijani Economy in the Context of the Development of Foreign Economic Relations

The task of increasing the competitiveness of the national economy is relevant for every country, including Azerbaijan. Azerbaijan is at the stage of transformation and is developing in the context of strengthening globalization and regionalization. For Azerbaijan, the solution to the problem of competitiveness is the most important condition for the effective diversification of export activities and the solution of strategic issues in line with national interests. There is a need to further develop the processing industry in our country. And increasing foreign trade activity will be one of the priorities of economic policy and development strategy, as well as increase the competitiveness of the national economy.

Key words: *transformation, innovation, investment, diversification, digitalization, non-oil exsport, foreign trade, cluster*

AZƏRBAYCANDA SOSİAL-İQTİSADİ SİSTEMLƏRİN RƏQƏMSAL TRANSFORMASİYASININ AMİLLƏRİ

Xankişiyeva Cəmalə Xankişi qızı
UNEC
jamala78@yahoo.com

Xülasə: *Rəqəmsal iqtisadiyyat uzunmüddətli perspektivdə mikro və makro səviyyələrdə sosial-iqtisadi sistemlərin inkişafı vektorunu müəyyən edir ki, bu da rəqəmsal transformasiya proseslərinin tədqiqini və hərtərəfli təhlilini tələb edir. Bir vaxtlar fərdi innovativ şirkətlər üçün prioritet olan bu gün rəqəmsal transformasiya kütləvi fenomenə çevrilib və müvafiq layihələr təkcə ayrı-ayrı şirkətlərin deyil, həm də regionların və ölkələrin uğurları üçün həyati əhəmiyyət kəsb edir. Eyni zamanda, bu transformasiyanın özü də sosial-iqtisadi sistemlərə xidmət tendensiyası ilə sıx bağlıdır və əsasən onun əsasında həyata keçirilir.*

Azərbaycan və xarici təcrübənin təhlili, eləcə də nəzəri araşdırmalar göstərir ki, sosial-iqtisadi sistemlərin rəqəmsal transformasiyası iqtisadi, sosial və texnoloji prosesləri birləşdirən və rəqəmsal xidmətlərin ekosistemlərini formalaşdıran rəqəmsal platformalar əsasında həyata keçirilir. Bununla əlaqədar olaraq, iqtisadiyyatda yeni institut, xidmət sektorunda biznes strukturlarının yeni kateqoriyası - xidmət inteqratorları formalaşır ki, onların mütərəqqi iqtisadi inkişafda rolu əhəmiyyətli dərəcədə artır.

Açar sözlər: *rəqəmsal iqtisadiyyat, rəqəmsallaşma, informasiya əsri, rəqəmsal transformasiya, təşkilati transformasiya*

Qlobal rəqəmsallaşma və rəqəmsal iqtisadiyyata keçid ideyası özbaşına yaranmayıb. Rəqəmsallaşmanın təkamülü riyaziyyatın rəqəmsal dili şəklində möhkəm nəzəri əsasa malikdir və bu, dəqiq elmlərin və texnologiyada tətbiqi icadların əsasını qoydu. Hesab olunur ki, informasiya-rəqəmsal eranın yaranması rəqəmsal transformasiyaların həyata keçirilməsini, informasiyanın insan müdaxiləsi olmadan işlənməsi və ötürülməsini təmin edən elektron hesablama maşınlarının (kompüterlərin) yaranması ilə başlayıb. Bu, kompüterlər və avtomatik idarə olunan maşınlar arasındakı əsas fərqdir. Süni intellektin yaranması kompüterlərin həllində müstəqilliyi daha da gücləndirdi və kompüterlərin həll etdiyi tapşırıqlar sinfini genişləndirdi.

Akademik S. Qlazyev tamamilə haqlı olaraq qeyd edir ki, "hər yerdə kompüterləşmə və kompüter sistemlərinin əhatə dairəsinin geniş miqyasda genişlənməsi bu gün rəqəmsal inqilabın aktual mövzusunun yaranmasına səbəb oldu" [3].

Rəqəmsal transformasiya, kompüterlərin meydana çıxdığı andan bu günə qədər əhəmiyyətli bir yol keçmişdir, bu müddət ərzində bir neçə texnoloji rejimdə dəyişiklik baş vermişdir, bu gün bu konsepsiya informasiyanın intensiv inkişafı, informasiya-kommunikasiya texnologiyalarının (İKT) və ikinci nəsil informasiyalaşdırma dövrünün başlanğıcı əlaqələndirilir. [4]. Bu, bir çox alim və mütəxəssis-təcrübəçinin hesab etdiyi kimi, yaranan IV texnoloji nizamın əsasını təşkil edir.

Sosial-iqtisadi sistemlərin təkamülü prosesində onların tərkib hissələri yenidən konfiqurasiya olundu. Əvvəlki mərhələdə vacib olan növbəti mərhələnin ayrılmaz hissəsinə çevrildi və rifahın əsas mənbəyi olmaqdan çıxdı. Buna görə də rəqəmsal iqtisadiyyatı iqtisadiyyatın inkişafında təkamül mərhələsi kimi nəzərdən keçirsək, onda onun formalaşması prosesi ilə əsas sərvət mənbələrinin təkamülü arasında əlaqəni ayırd etmək olar.

Rəqəmsal iqtisadiyyatın formalaşması kontekstində əsas sərvət mənbələrinin təkamülü:

1. Malların müştəriyə çatdırılmasının sürətləndirilməsi - Logistika;
2. Müştərinin piyada məsafəsində olan mallar - Pərakəndə;
3. Müştərinin ehtiyaclarını başa düşmək - İnformasiya;
4. Müştəri ehtiyaclarının idarə edilməsi - Bilik.

1. Logistika dövrü. Gəlir əldə etməyin əsas yolu malın alıcıya çatdırılması idi. Məhz bu vəziyyət tacirləri (sahibkarları) coğrafi cəhətdən uzaq ölkələrə riskli ekspedisiyalar təşkil etməyə məcbur etdi ki, bu da, yeri gəlmişkən, Böyük Coğrafi Kəşflərə səbəb oldu. Nəqliyyat xərcləri o dövrdə qiymət strukturunun 95%-dən çoxunu təşkil edirdi.

2. Pərakəndə satış dövrü. Bu dövr mexanikləşdirilmiş nəqliyyatın inkişafı ilə başladı. Gəlir yaratmağın əsas konsepsiyası məhsulu birbaşa son istehlakçıya çatdırmaq idi. Ticarət şəbəkələri gəlir əldə edən əsas yerə çevrildi.

3. İnformasiya dövrü. İnternetin yaranması alıcını biznesə daha da yaxınlaşdırıb. Həm satın alma davranışı, həm də onu öyrənmək üsulları dəyişdi. İstehsalçılar yeni alətlər əldə etdilər və istehlakçı

davranışını yeni üsulla təhlil etməyi öyrəndilər. İnternetdə hədəfləmə konkret alıcıya müəyyən vaxtda ehtiyac duyduğu məhsulu təklif etməyə imkan verir.

4. Bilik dövrü. Son iqtisadi tarix Larry Page, Mark Zuckerberg və Arkady Volojun rəhbərlik etdiyi şirkətlər tərəfindən yazılır. Onların şirkətləri onlayn məlumat toplamaq və öyrənməklə istehlakçı davranışlarını idarə edilməsində rəqəmsal profillərini formalaşdırmaq üçün istehlakılara dair bilik bazası yaradırlar.

Beləliklə, rəqəmsal iqtisadiyyat iqtisadiyyatın təkamül inkişafı kimi nəzərdən keçirilə bilər ki, burada proses iştirakçıları arasında onlayn məlumat mübadiləsi analoq qarşılıqlı əlaqəni əvəz edir və iqtisadiyyatın bütün sektorlarına təsir göstərir.

Eyni zamanda, malların tədarükü yolu ilə ehtiyacların ödənilməsi modelindən getdikcə daha çox fərdiləşdirilmiş xidmətlərin göstərilməsi yolu ilə onların ödənilməsi modelinə tədricən çıxması səbəbindən bütün iqtisadi fəaliyyətin davamlı xidməti mövcuddur. texniki baza məhz rəqəmsal iqtisadiyyat tərəfindən yaradılmışdır.

Sosial-iqtisadi sistemlərin təkamülü onların rəqəmsallaşması və xidmət göstərilməsi ilə əlaqədar olaraq məlum oldu ki, bu inkişaf prosesində prioritetlərdə və əsas inkişaf amillərində tədricən dəyişiklik baş verir. Transformasiya prosesi əsasən aşağıdakılarla müəyyən edilir:

1. Bilik iqtisadiyyatı əmək, kapital, sahibkarlıq qabiliyyəti və torpaq kimi ənənəvi iqtisadi amillərlə yanaşı, bilik kimi yeni amili də əhatə edir. Bilik şirkətlər, regionlar, sənayelər, ölkələr üçün rəqabət üstünlüklərinin yaradılması və məhsul və ya xidmətin dəyərinin formalaşması prosesində digər iqtisadi dəyişənlər arasında lider mövqe tutmağa başlayır.

2. İnformasiya texnologiyalarının inkişafı ona təsir etdi ki, qısa müddət ərzində rəqabət üstünlüyünü qoruyub saxlayaraq, bilik çox tez unikallıqdan ictimai sərvətə çevrilir. Yəni, yeni biliklərlə bağlı innovasiya dövrünün müddəti azalır.

3. Ümumilikdə biliyin yeni rolu təkcə əlçatanlıqla deyil, həm də onların istifadəsi və yaradılması imkanlarının genişlənməsi ilə bağlıdır. İnformasiya texnologiyaları sayəsində qlobal miqyasda sosial şəbəkələrin formalaşdırılması mümkün oldu ki, bu da cəmiyyətə dinamiklik (qeyd, həmişə proqnozlaşdırıla bilməyən) verir.

Bu transformasiyalar - əmtəə istehsalına əsaslanan sənaye iqtisadiyyatından əsas sərişt̂ələrin toplanmasına və formalaşmasına əsaslanan biliklər iqtisadiyyatına, eləcə də iqtisadi və sosial reallıqda xidmətlərin əhəmiyyətinin artmasına, rəqabətin təbiətinə də təsir göstərmişdir. Şəbəkə əlaqələri şirkətlər arasında əməkdaşlıq üçün yeni şərait yaradır ki, bu da istehlakçının gözündə şəbəkənin cəlbediciliyinin artmasına gətirib çıxarır, eyni zamanda onun nümayəndələri arasında şəbəkə daxilində unikal biliklər (yaradıcılıq üzrə) yaratmaq qabiliyyətinə əsaslanan rəqabət yaradır.

Bəşəriyyət texnoloji infrastrukturun o qədər yüksək inkişaf səviyyəsinə çatmışdır ki, məlumatların saxlanması, ötürülməsi, eləcə də emalının sürəti imkanları durmadan artır və gələcəkdə də eksponensial (artım sürəti kəmiyyətin özü ilə mütənasib olduqdakəmiyyətdəki artım) olaraq artmağa davam edəcəkdir. PwC ABŞ-ın Strategiya və Liderlik şöbəsinin rəhbəri Blair Sheppard deyir: "Eyni zamanda inkişaf edən bir neçə əsas tendensiya var. Onların təsirindən qaçmaq mümkün olmayacaq və biz artıq onların nəticələri ilə üzləşirik. Uğurlu təşkilatlar bu tendensiyalara uyğunlaşa və onları necə fürsətlərə çevirməyi başa düşə biləcəklər". [2]

Dünyanın iqtisadi nizamının transformasiyası və yenidən formatlaşdırılması ilə əlaqədar olaraq Azərbaycan da qlobal dəyişikliklər ərəfəsindədir. Dünya ölkələri bir-birinin ardınca rəqəmsal iqtisadiyyatın, bilik və insan kapitalının inkişafına, Sənaye 4.0, Cəmiyyət 5.0 və s. əsaslanan iqtisadiyyatın qurulması ərəfəsindədir. Azərbaycan da yaranan rəqəmsal yarışdan kənarda qalmır. Azərbaycanda rəqəmsal iqtisadiyyata keçidin təşkili üçün əsas şərtlər bunlar idi: İnternetə çıxış üçün fiziki infrastrukturun inkişafı; internet istifadəçilərinin sayında artım; e-ticarətin inkişafı; ölkənin İT sənayesinin inkişafı; milli elektron hökumət sisteminin inkişafı.

Azərbaycanda rəqəmsal iqtisadiyyatın yaradılması dövlət tapşırığı statusu alıb. Azərbaycanda müasir innovasiya məkanının yaradılması prioritet sahələrdən biridir. Bu, respublika Prezidenti İlham Əliyevin 2021-ci ilin fevralında təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" strateji sənədində əksini tapıb. [1] Əsas vəzifə ölkədə əlverişli innovasiya mühitinin yaradılmasıdır. Biz hesab edirik ki, rəqəmsal transformasiya innovativ cəmiyyətə gedən yolda əsas amildir.

Rəqəmsal transformasiyaya nə daxildir? Birincisi, rəqəmsal texnologiyalar vasitəsilə daha yaxşı xidmətlər və daha yaxşı idarəetmə təmin edən rəqəmsal hökumət, ikincisi, prosesləri avtomatlaşdırmağa, rəqəmsal məhsullar yaratmağa və daha dəqiq proqnozlar verməyə imkan verən rəqəmsal iqtisadiyyat və nəhayət, üçüncüsü, rəqəmsal cəmiyyətə gedən yolda insanlar rəqəmsal bacarıqlara malik olurlar, sahibkarlar açıq məlumatlara çıxış əldə edirlər və yeni dəyər açıq məlumat innovasiyası vasitəsilə yaradılır.

2030-cu ilə qədər həyata keçirilməsi nəzərdə tutulan bu proqram çərçivəsində iqtisadiyyatın rəqəmsal transformasiyası aşağıdakı kimi müəyyən edilib:

1. İqtisadiyyatın idarə edilməsi modelinin proqram-məqsədlidən proqram-proqnostikaya dəyişdirilməsi;

2. Rəqəmsal texnologiyaların onlara nüfuz etməsi ilə bağlı iqtisadi strukturun dəyişdirilməsi, ənənəvi bazarların, sosial münasibətlərin, dövlət idarəçiliyinin dəyişməsi;

3. Rəqəmsal infrastrukturlar tərəfindən dəstəklənən daha səmərəli iqtisadi proseslərin formalaşdırılması yolu ilə əsas əlavə dəyər mənbəyində və iqtisadiyyatın strukturunda əsaslı dəyişiklik;

4. İqtisadiyyatın inkişafının aparıcı mexanizmi funksiyasının rəqəmsal modellərə və proseslərə əsaslanan institutlara keçidi.

Azərbaycan şirkətlərinin çoxunun təcrübələrinin öyrənilməsinin nəticələrinə əsasən, qeyd etmək olar ki, bütövlükdə yerli biznes artıq qlobal rəqəmsal transformasiyaya qoşulmaq üzrədir. Mütəxəssislər və şirkət rəhbərləri rəqəmsal texnologiyalardan istifadə etmədən uğurla rəqabət apara bilməyəcəklərini başa düşürlər, şirkətlərdə artıq tətbiq edilmiş rəqəmsal həllərin effektivliyini yüksək qiymətləndirirlər, lakin onlar bu texnologiyalara çox praqmatik yanaşır, artıq onsuz bizneslə məşğul olmadığın mümkünsüzlüyünü anlayırlar.

Bu şəraitdə Azərbaycanda sosial-iqtisadi sistemlərin rəqəmsal transformasiyasının əsas texnoloji tendensiyaları kimi aşağıdakılar müəyyən edilir:

- avadanlıq və istehsal xətlərində intellektual (kvant) sensorların kütləvi şəkildə tətbiqi (əşyaların sənaye interneti texnologiyaları);
- pilotsuz istehsala keçid və robot texnologiyalarının kütləvi tətbiqi;
- öz imkanlarından paylanmış resurslara (bulud texnologiyaları) məlumat saxlama və hesablamaya keçid;
- istehsal və idarəetmə proseslərinin tam avtomatlaşdırılması və vahid informasiya sisteminə inteqrasiyası (avadanlıqdan nazirliyə qədər);
- məcburi rəqəmsallaşdırılmış texniki sənədlərə və elektron sənəd dövriyyəsinə (kağızsız texnologiyalar) keçid;
- texnoloji proseslərin, obyektlərin, məhsulların ideyadan istismara qədər bütün həyat dövrü ərzində rəqəmsal dizaynı və modelləşdirilməsi (mühəndislik proqram təminatının istifadəsi) və i.a.

Ancaq yeni bir şeyə keçid təkcə qarşıya qoyulmuş nəticə və ya məqsədə çatmağa yönəlmiş proses deyil. Bu, həm də təklif olunan dəyişikliklərlə bağlı risklərin qiymətləndirilməsi, rəqəmsal transformasiya proseslərinin uğurunu və səmərəliliyini müəyyən edən şərtləri və amilləri idarə etmək üçün qabiliyyət və bacarıqların inkişafıdır. 4-cü sənaye inqilabı şəraitində texnoloji, innovativ və iqtisadi inkişafı dəyişən əsas tendensiyalar:

1) rəqəmsallaşma (digitalization) - rəqəmsal texnologiyaların inkişafı; real və virtual dünyanın birləşməsi; (hər şey rəqəmsallaşdırılıb, hər şey şəbəkədədir);

2) texnoloji liderlərin ucuz işçi qüvvəsi hesabına başqa ölkələrə apardıqları filialların və şirkətlərin inkişaf nəticəsində inkişaf etmiş ölkələrə qaytarılması və rəqəmsallaşmanın faydaları (əmək haqqı xərclərinin əhəmiyyətli dərəcədə azaldılması, yeni səlahiyyətlərə diqqət yetirilməsi);

3) birgə innovasiyalar (Klaus Schwab), istehsalın təşkilinin yeni formaları yaratmaq bacarığı; yeni texnologiyalar tələb və təklifi dəyişir, yeni ehtiyac və imkanlar yaradır.

Artıq bu gün rəqəmsal texnologiyaların yayılmasında və nüfuzunda köklü sürətlənmə, izləmək və təhlil etmək çətin olan getdikcə daha çox yeni rəqəmsal innovasiyaların və onların tətbiqinin mümkün sahələrinin meydana çıxması, habelə ehtimalın dəfələrlə artması müşahidə olunur. Azərbaycanın sosial-iqtisadi sistemi üçün birbaşa təhlükə ilə yanaşı, bu tendensiyaların daha bir mühüm nəticəsi var. Rəqəmsal ekosistemi başqalarından daha tez qurmağa başlayanlar qeyri-xətti nəticələrdən faydalanırlar. Geridə qalan şirkətlər əsasən adi xətti effekt verən və daha çox "kiçik optimallaşdırma" kimi olan həlləri "yamaq" etməyə məhkumdurlar.

Sonradan belə oyunçular (əgər onların bizneslərinin ümumi sabitliyi prinsipcə fəaliyyətlərini davam etdirməyə imkan verirsə) rəhbərlər tərəfindən hazırlanacaq və onlara təklif olunacaq sistemlərə və yanaşmalara keçmək məcburiyyətində qalacaqlar.

Azərbaycanın sosial-iqtisadi sisteminin rəqəmsal transformasiyası üçün şərait yaradan rəqəmsal transformasiyanın makroiqtisadi, sosial-demoqrafik və texnoloji tendensiyalarını nəzərdən keçirsək görərik: əmək bazarında tarazlığın pozulması (frilanserlərin - ştatdan kənar işilərin sayında sürətli artım, yeni "rəqəmsal" iş yerlərinin yaranması, nəsillər arasında rəqəmsal bilik boşluğu, "əlavə insanlar", əmək miqrasiyası); rəqabətin və liderliyin transmilli xarakteri, innovativ layihələr üçün milli sərhədlərin şəffaflığı (cəmiyyətin və sənayenin tammiqyaslı, hərtərəfli rəqəmsal transformasiyasına malik liderlər üstünlük əldə edəcəklər); dövlətin və cəmiyyətin rəqəmsal transformasiyası (rəqəmsal parlament və hökumət, rəqəmsal

vətəndaş, ağıllı şəhərlər, vətəndaşların rəqəmsal reytinqinə qədər qərarların qəbulu üçün süni intellektdən istifadə); insanın təkmilləşdirilməsi və insanın bioloji xüsusiyyətlərinin idarə edilməsi üzrə inkişaflar; insanın təbii intellektinin deqradasiyası: texnologiyadan intellektual asılılıq, reallıq və illüziya arasındakı xəttin bulanıqlığı, dünya haqqında qeyri-adekvat təsəvvürün formalaşması, rəqəmsal şablonlardan dəyərlər və ehtiyacların alınması; kiber təhdidlər: kiberterrorizm, kibercasusluq, kibermüharibələr və kibercinayətkarlıq.

Bu tendensiyalar sosial-iqtisadi sistemlərin rəqəmsal transformasiyasını məhdudlaşdıran və rəqəmsal transformasiyanın sürətləndirilməsini təmin edən xarici və daxili amillər sistemini müəyyən edir.

İnsan amili, bilik çatışmazlığı, köhnəlmiş avadanlıq, texnologiya və İT sistemləri, müştəri vərdişləri daxili sosial-iqtisadi sistemdə rəqəmsal transformasiyaya əsas maneələrdir. Mənfi amillərin təsirini rəqəmsal transformasiyaya töhfə verən və rəqəmsallaşma proseslərinin sürətləndirilməsinə şərait yaradan amillərin təsirinin aktivləşməsi və gücləndirilməsi ilə kompensasiya etmək olar.

Ədəbiyyat

1.“Azərbaycan 2030: sosial-iqtisadi inkişafın Milli Prioritetləri” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - Bakı şəhəri, 2 fevral 2021-ci il.

2. Blair Sheppard. Ten Years to Midnight: Four Urgent Global Crises and Their Strategic Solutions Hardcover – August 4, 2020

3. Глазьев, С. Великая цифровая экономика: вызовы и перспективы для экономики XXI века [Электронный ресурс] / Авторский блог С. Глазьева. URL: http://zavtra.ru/blogs/velikaya_tcifrovaya_ekonomik.

4. Комарова, А.И. Цифровая экономика: программно-правовые источники / Созидание общества социальной справедливости. Социально-экономический аспект. Москва, 2018.

Резюме

Ханкишиева Дж.Х.

Факторы цифровой трансформации социально-экономических систем в Азербайджане

Цифровая экономика задает вектор, по которому будут развиваться социально-экономические системы микрои макроуровня в долгосрочной перспективе, что обуславливает необходимость исследования и всестороннего анализа процессов цифровой трансформации. Когда-то приоритет для отдельных инновационных компаний, сегодня цифровая трансформация стала массовым явлением, и соответствующие проекты жизненно важны для успеха не только отдельных компаний, но и регионов и стран. При этом сама эта трансформация тесно связана с тенденцией обслуживания социально-экономических систем и во многом осуществляется на ее основе.

Анализ азербайджанской и зарубежной практики, а также теоретических исследований показывает, что цифровая трансформация социально-экономических систем осуществляется на основе цифровых платформ, интегрирующих экономические, социальные и технологические процессы и формирующих экосистемы цифровых услуг. В связи с этим в экономике формируется новый институт, новая категория бизнес-структур в сфере услуг - сервисные интеграторы, роль которых в поступательном экономическом развитии значительно возрастает.

Ключевые слова: *цифровая экономика, цифровизация, информационный век, цифровая трансформация, организационная трансформация.*

Summary

Xankishieva C.X.

Factors of Digital Transformation of Socio-Economic Systems in Azerbaijan

The digital economy sets the vector along which socio-economic systems of micro and macro levels will develop in the long term, which necessitates research and a comprehensive analysis of digital transformation processes. Once a priority for individual innovative companies, today digital transformation has become a mass phenomenon, and the corresponding projects are vital for the success of not only individual companies, but also regions and countries. At the same time, this transformation itself is closely connected with the trend of servicing socio-economic systems and is largely implemented on its basis.

An analysis of Azerbaijani and foreign practice, as well as theoretical studies, shows that the digital transformation of socio-economic systems is carried out on the basis of digital platforms that integrate economic, social and technological processes and form digital service ecosystems. In this regard, a new institution is being formed in the economy, a new category of business structures in the service sector - service integrators, whose role in the progressive economic development is growing significantly.

Key words: *digital economy, digitalization, information age, digital transformation, organizational transformation*

KREDİT VƏ FAİZ RİSKLƏRİNİN KOMMERSİYA BANKININ AKTİV VƏ ÖHDƏLİKLƏRİNİN İDARƏ EDİLMƏSİNƏ TƏSİRİ

İmanova Səyyarə Oruc qızı
Bakı Dövlət Universiteti
imanovasyr@gmail.com@gmail.com

Xülasə: *Məqalədə faiz və kredit üzrə risklərin kommersiya banklarının aktivlərinə, eləcə də öhdəliklərinə və onların idarə edilməsinə təsiri öyrənilir. Bankın əsas likvidliyinin idarə edilməsi alətlərindən biri ALM (asset and liability management) – aktivlərin və həmçinin öhdəliklərin idarə edilməsinin bir sistemidir. Kommersiya bankında ALM-dən istifadə aktiv və öhdəliklərin ardıcıllığına nail olmağa, faiz və kredit risklərini idarə etməyə imkan verir. ALM sisteminin bir hissəsi kimi kredit portfelinin formalaşması aktiv-öhdəlik strukturunun zaman dilimində ardıcıllığı əsasında həyata keçirilməlidir.*

Açar sözlər*: ALM, bank aktivləri, bank öhdəlikləri, bank likvidliyi*

Makro və eləcə də mikroiqtisadi səviyyədə qeyri-müəyyənlik faktorunun yüksəlməsi, iqtisadi proseslərin yuxarı volatilliyi kommersiya banklarının balanslaşdırılmış aktiv və passiv idarəetmə sistemlərinin işlənib hazırlanmasını və onların tətbiqi prosesini şərtləndirir. Bu aktiv və öhdəliklər portfel yanaşması çərçivəsində hərtərəfli risk qiymətləndirməsinə əsaslanır. Aktiv və öhdəliklərin idarə edilməsi konsepsiyası (ALM, Asset-Liability Management) bankın faiz dərəcəsi riskinin (IRR) və likvidliyinin idarə edilməsinə cavabdeh olan bankın maliyyə idarəetmə sisteminin bir hissəsidir [1].

ALM 2 növ faiz dərəcəsi riskini nəzərdən keçirən konsepsiyadır. İlkin risk – balans hesabatının aktivləri və öhdəliklərinin hamısının faiz dərəcələri ilə birbaşa əlaqədə olan xərc və gəlirləri formalaşdırdığını nəzərə alsaq, faiz dərəcələrinin volatilliyi nəticəsində faiz gəlirlərinin necə dəyişməsi ilə əlaqəlidir. İkinci risk isə faiz dərəcələri endikdə kreditlərini yenidən müzakirə edə bilən fərdi borcalanlar üçün erkən ödəmə imkanı kimi bank məhsullarına daxil edilmiş variantlardan yaranır. Eyni növ risklərə kredit riskinin bir hissəsi kimi kreditlərin vaxtı keçmiş qaytarılması halında artan faiz dərəcəsinin təsiri də daxil edilməlidir [2].

Faiz dərəcəsinə təsirin iki mənbəyi var: likvidlik axını və faiz dərəcəsinin dəyişməsi. Hər bir likvidlik axını faiz dərəcəsi riski yaradır. Yeni borc və ya kredit ödənişləri kimi gələcək daxilolmalar üçün faiz dərəcəsi riski həmin daxilolmanın kredit vermək və ya investisiya etmək üçün istifadə edildiyi naməlum dərəcədən yaranır. Faiz dərəcəsi riski həm də likvidlik axını olmadığı halda faiz dərəcəsinin sıfırlanmasından yaranır. Uzunmüddətli dəyişkən faizli borcun bir neçə sıfırlama tarixi var. Məsələn, 1 il müddətinə LIBOR üzən dərəcəsi ilə 10 il müddətinə verilən kredit, faiz dərəcəsi hər il sıfırlanır, əsas pul axını isə geri qaytarılma zamanı baş verir [2].

Faiz riski əməliyyatlarla bağlı faiz dərəcələrinin sabit və ya dəyişən xarakterindən asılıdır. Əməliyyat dəyişən dərəcə aldıqda, dərəcəsinin sıfırlanması faiz gəlirinə həm müsbət, həm də mənfi təsir göstərir. Sabit faiz dərəcəsi aldıqda, dərəcələr sabit dərəcəsindən yüksəkdirsə, aktiv daha aşağı dəyərə malikdir, çünki o, bazardan daha az qazanır və əksinə. Borc bazar dərəcəsindən yüksək olan sabit dərəcəsi ödədikdə, ilkin faiz dərəcəsindən yüksək faizlə borclanma nəticəsində yaranan iqtisadi xərclər yaranır. Bu, "alternativ xərclər", daha yaxşı imkanlardan imtina etməyin qiymətidir. Faiz dərəcəsinin dəyişməsi istər mühasibat gəlirlərində, istərsə də xərclərdə, ya da alternativ məsrəflərdə dəyişikliklərə səbəb olur. Hər bir faiz dərəcəsi bir neçə aktiv və öhdəlik üçün ümumi göstəricidir.

ALM əvvəldən bütün balans hesabatının məcmu və xalis risklərini nəzərə alır. Bank məhsullarına daxil edilmiş gizli variantlar ALM riskini çətinləşdirir. Balans hesabatının faiz dərəcəsi riski faiz dərəcələri arasındakı korrelyasiyadan asılıdır. Çox vaxt bu korrelyasiya yüksək olur, ona görə də eyni faiz dərəcələrinin hərəkətləri arasında fərq qoymağa ehtiyac yoxdur, baxmayaraq ki, bu, təhlil məqsədləri üçün sadələşdirmədir. Bundan əlavə, eyni və ya oxşar faiz dərəcələrinə indeksləşdirilmiş aktiv və öhdəliklər üçün yalnız əvəzləşdirilən risklər tətbiq edilir [2].

ALM-in əhatə dairəsi və funksiyaları çox vaxt aşağıdakı prosesləri əhatə edir [3]:

1. Likvidlik riski: bankın maliyyə vəziyyətinə xələl gətirmədən öhdəliklərini vaxtında yerinə yetirə bilməməsi zamanı yaranan cari və potensial risk. ALM baxımından burada əsas diqqət bankın likvidliyinin maliyyələşdirilməsində riskin, yəni gözlənilən və gözlənilməz itkilərdən yaranan risklərin nəzərə alınmasına

yönəldilməlidir. Bu vəzifə risk sığortası sisteminə bankın likvidliyinin bağlanması üçün təxmin edilən qiyməti daxil etməklə həll edilir.

2. Faiz dərəcəsi riski: faiz dərəcələrinin dəyişməsi nəticəsində itki riski və onların gələcək pul vəsaitlərinin hərəkətinə təsiri. Bu, bankın həm aktiv, həm də passiv əməliyyatlar üçün müxtəlif sabit və üzən alətlər dəstinə malik olması ilə baş verir. Əsas səbəblərdən biri depozitlər və kreditlər baxımından uyğunsuzluqlardır.

3. Kapital bazarı riski: bankın balansında kapitalın hərəkəti və ya kreditlərin hərəkəti zamanı yaranan risk. Analitik bu riski ya riskin lokallaşdırılması, ya da risk mükafatı ilə sığortalayır. Risk opsionlar, fyuçerslər, törəmələr vasitəsilə azaldıla bilər ki, bunlara taktiki və ya strateji hərəkətlər daxildir.

4. Valyuta risklərinin idarə edilməsi: valyuta məzənnələrinin dəyişməsi nəticəsində itki riski, valyuta əməliyyatları sahəsində yaranan risk. Risk səviyyəsi bankların bu sahədəki fəaliyyət dərəcəsindən və müxtəlif valyutalarda ifadə olunan pul vəsaitlərinin hərəkətinin həcmindən asılıdır.

5. Maliyyələşdirmə və kapitalın idarə edilməsi bank kapitalının mütəmadi olaraq adekvat səviyyəsinin təmin edilməsi və saxlanılması mexanizmidir. Bu dinamik və davamlı prosesdir və bankın ümumi strategiyasına və dövrünün planlaşdırılmasına uyğunlaşdırılaraq həm qısa, həm də uzunmüddətli kapital ehtiyaclarını nəzərə almalı (ümumiyyətlə, təxmin edilən vaxt üfüqü iki ildir).

6. Mənfəətin planlaşdırılması və artımı. Bu səviyyəli tapşırıqlar qalan mərhələlərin icrası zamanı yerinə yetirilir və onlardan asılıdır.

7. ALM kredit riski ilə bağlı aspektləri də nəzərə alır. Bu funksiya bankın balansında mövcud olan bütün portfelin (o cümlədən pul vəsaitləri, investisiyalar və kreditlər portfeli) təsirini idarə edir. Kredit riski, xüsusən də kredit portfelində ayrıca risklərin idarə edilməsi funksiyası ilə idarə olunur və ALM yanaşmasında əsas elementlərdən birini təmsil edir.

Kredit portfelinin formalaşdırılması strategiyalarının seçimi bankın qiymətli kağızlar üzrə aktiv və passiv idarəetmə sistemi çərçivəsində faiz dərəcəsi riskinin minimuma endirilməsi üzrə qəbul edilmiş metodologiya nəzərə alınmaqla bankın ekspertləri tərəfindən həyata keçirilir. Həyata keçirilməli tədbirlər sırasında bank aktivlərinin, daşınmaz əmlakın, törəmə müəssisələrin, istənilən biznes sahələrinin satışı, aktivlərin sekyuritləşdirilməsi daxil edilə bilər.

Ədəbiyyat

1. Bessis J. (2015), “Risk management in banking”. Fourth edition, Wiley, 384p.
2. Черкашнев, Р.Ю. О сущности банковских рисков на современном этапе развития. Ученые записки Тамбовского регионального отделения Вольного экономического общества, 2015, 16(1-2), стр.79-88.
3. Чикина, Е. Д. и др. Система управления активными операциями коммерческих банков. Белгородский государственный технологический университет, 2019, стр.111-117.
4. https://elibrary.worldbank.org/doi/10.1596/978-1-4648-1446-4_ch12
5. https://vi.unctad.org/debt2/m1/docs/almoverview.pdf

Резюме

Иманова С.О.

Влияние кредитного и процентного риска на управление активами и обязательствами коммерческого банка

В данной статье рассматривается влияние процентного и кредитного рисков на активы и пассивы коммерческих банков, а также управление ими. ALM (управление активами и пассивами) является одним из основных инструментов управления ликвидностью банка. ALM — это система управления активами и пассивами. Принятие коммерческим банком ALM обеспечивает согласованность активов и пассивов и управление процентными и кредитными рисками. Построение кредитного портфеля должно основываться на временном порядке структуры активов и пассивов в рамках системы ALM.

***Ключевые слова**: ALM, банковские активы, банковские обязательства, банковская ликвидность*

Summary
Imanova S.O.
The Effect of Credit and Interest Risks on the Management of Commercial Bank's Assets and Liabilities

This article examines the effect of interest rate and credit risks on the assets and liabilities of commercial banks, as well as their management. ALM (asset and liability management) is one of the bank's primary liquidity management tools. ALM is a system for asset and liability management. A commercial bank's adoption of ALM enables the consistency of assets and liabilities and the management of interest and credit risks. The construction of the loan portfolio should be based on the temporal order of the asset-liability structure as part of the ALM system.
***Key words**: ALM, bank assets, bank liabilities, bank liquidity*

İNVESTİSİYA PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İsgəndərov Ramiz Kamal oğlu
Azərbaycan Texniki Universiteti
isgenderov_ramiz@mail.ru

Əbdüləzimov Elçin Mehman oğlu
Sumqayıt Dövlət Universiteti
elçin.abdulazizov@gmail.com

***Xülasə:** Maddi istehsalda, o cümlədən sənayedə investisiya fəaliyyətinin səmərəliliyi və nəticələri dövlətin tənzimləyici tədbirlərinin xarakteristikalarından asılıdır. Günümüzdə investisiya proseslərinin tənzimlənməsi sistemi qlobal maliyyə böhranının dərslərini nəzərə almağı tələb edir. Kəskinləşən rəqabət mühitində investisiya proseslərinin tənzimlənməsinin mövcud sistemi heç də həmişə arzuolunan nəticəni vermir. Odur ki, həmin sistemin təkmilləşdirilməsi məsələləri xüsusi aktuallıq kəsb edir. Təqdim olunan məqalədə emal sənayesində investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin bir sıra vasitə və istiqamətləri müəyyən edilmişdir.*
***Açar sözlər:** dövlət tənzimlənməsi, investisiya, innovasiya, vergi, kredit, amortizasiya*

İqtisadi proseslərin dövlət tərəfindən tənzimlənməsi sistemi onun təkcə iqtisadi deyil, habelə sosial, ekoloji və digər aspektlərdə, bir sözlə iqtisadi-təsərrüfatçılıq fəaliyyətinin inreqral səmərəliliyinin yüksəldilməsinə xidmət etməlidir. Hazırda fəaliyyətdə olan tənzimləmə sisteminin metodiki və informasiya bazası, sivil bazar münasibətlərinin, antiböhran idarəetməsinin tələblərinə tam cavab vermir [7]. Digər tərəfdən mövcud tənzimləmə sistemi ümumilikdə iqtisadi proseslərin, o cümlədən investisiya fəaliyyətinin baş verdiyi mühitdə işgüzar fəallığın dəstəklənməsi funksiyasını arzuolunan səviyyədə yerinə yetirmir. Bu və digər səbəblərdən investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi obyektiv zərurətə çevrilmişdir.

Sənaye istehsalının bazar münasibətləri şəraitində inkişafında bazar özünütənzimləməsi və sahədə iqtisadi proseslərin dövlət tənzimlənməsinin təsirlərinin əhatə dairəsi, kəsişmə xarakteristikaları, konkret prosesə və onun nəticənə münasibətdə haqqında danışılan təsirlərin nisbəti mühüm rola malikdir. Belə ki, dövlət tənzimlənməsinin iqtisadi münasibətlərin sosial-iqtisadi səmərəliliyinə təsiri kifayət qədər mühüm olsa da, həmin tənzimləmə sisteminin fəaliyyəti sahədaxili inkişaf motivlərinə və nəticə etibarı ilə istehsalın rəqabətədavamlılığına neqativ təsirləri neytrallaşdırmaq baxımından da kifayət qədər hərtərəfli şəkildə qiymətləndirilməlidir [2]. Haqqında danışılan qiymətləndirmə, araşdırmalardan və qabaqcıl təcrübədən göründüyü kimi çoxamilli təhlil əsasında, imitasiya modelləşdirməsi, ekspert texnologiyası və süni intellektual sistemlərin digər komponentlərindən istifadə edilməklə həyata keçirilməlidir. Belə ki, məhz mütərəqqi metodiki baza və müasir tələblərə cavab verən informasiya-kommunikasiya texnologiyalarından istifadə, sənayedə investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi imkanlarını aşkar etməyə, onları məqbul dəqiqliklə qiymətləndirməyə imkan verir.

Araşdırmalardan məlum olduğu kimi, sənayedə investisiya fəaliyyətinin nəticələri, həlledici dərəcədə dövlətin tənzimləyici tədbirlərinin keyfiyyət və kəmiyyət xarakteristikalarından asılıdır. Sahədə mühüm iqtisadi və sosial nəticələrə nail olmaq baxımından inkişafın dayanıqlı maliyyə təminatında aparıcı rol oynayan investisiya prosesləri dövlət tərəfindən fəal və hərtərəfli əsaslandırılmış surətdə tənzimlənməlidir.

Bu məqsədlə sənayenin bu və ya digər sahəsində investisiyaya tələbatın ödənilməsi səviyyəsinin və ümumilikdə investisiya mühitinin qiymətləndirilməsi üçün monitorinq sisteminin yaradılması, birbaşa və maliyyə investisiyalarının yönəldildiyi sahələrdə multiplikasiya effektinin qiymətləndirilməsi, elmi-texniki nailiyyətlərin reallaşdırılması proseslərinin iqtisadi tənzimlənməsi tədbirləri və i.a. diqqət mərkəzində olmalıdır.

İnvestisiya fəaliyyəti, məlum olduğu kimi qanunvericilik və xüsusi normativ aktlar sistemi vasitəsi ilə tənzimlənir. Dövlət tərəfindən investisiya layihələrinin şəffaf müzakirəsi təşkil edilir, investisiya bazarın bütün iştirakçılarının bərabər hüquqları təmin edilir, əsas kapitala investisiyalar müdafiə olunur. Odur ki, investisiya proseslərinin, o cümlədən sənayedə tənzimlənməsinin institusional təminatının təkmilləşdirilməsi:dövlət investsiya proqramlarının hazırlanması və həyata keçirilməsinin daha səmərəli mexanizminin formalaşdırılmasını; investisiyaların səmərəliliyinin yüksəldilməsi və investorların hüquqlarının qorunması prosedurlarının tranzaksiya məsrəflərinin azaldılmasını; müsabiqəli maliyyələşmə rejiminin əhatə dairəsinin genişləndirilməsini nəzərdə tutmalıdır.

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimləməsinin yeni paradiqmasının təşəkkülünün zəruriliyi, investisiya fəaliyyətinin tənzimlənməsinin forma və istiqamətlərinə yeni yanaşmaları obyektiv zərurətə çevirir. Müvafiq mənbələrdə investisiya fəaliyyətinin tənzimlənməsinin forma və istiqamətləri kimi, əsasən aşağıdakılar qeyd olunur: "maliyyə investisiyalarının tənzimlənməsi, dövlət hüdüdlarından kənarda vəsait qoyuluşlarının şərtlərinin tənzimlənməsi, investisiya fəaliyyətinin vergi tənzimlənməsi, investisiyalaşmanın sahə və obyektlərinin tənzimlənməsi, investorların özəlləşdirmədə iştirakının tənzimlənməsi, investisiya proseslərinin ekspertizası, səmərəli amortizasiya siyasətinin həyata keçirilməsi, güzəştli kreditləşdirmə, investisiyaların qorunması, maliyyə yardımının göstərilməsi" [6, s.121].

Görmək çətin deyildir ki, maliyyə investisiyalarının tənzimlənməsi sistemi dünyada davam edən maliyyə böhranının dərslərindən ibrət almaq zərurətini ortaya qoyur. Həmin sistemin təkmilləşdirilməsi antiböhran idarəetməsi prinsiplərinə, üsul və vasitələrinə diqqəti daha da artırmışdır. Sənayenin antiböhran idarəetməsinin, xüsusilə müəssisə səviyyəsində aşağıdakı əsas istiqamətləri investisiya fəaliyyətinin tənzimənməsi sisteminin təkmilləşdirilməsi zamanı nəzərə alınmalıdır: yeni maliyyə idarəetmə və marketinq strategiyalarının işlənib hazırlanmsı; təsisçilərin sayının və tərkibinin optimallaşdırılması, vəsaitlərinin cəlb edilməsi imkanlarının fəal surətdə reallaşdırılması; müəssisənin maliyyə-iqtisadi vəziyyətinin daimi monitorinq obyekti olması; istehsal güclərindən istifadə vəziyyətinin yaxşılaşdırılması; informasiya axınlarının bütövlüyünə zəmanət verən qaydaların işlənib hazırlanması; xərclərin (daimi və dəyişən) ixtisar olunması; əməyin məhsuldarlığının yüksəldilməsi.

İnvestisiya proseslərinin dövlət tənzimlənməsi investisiya siyasətinin və dövlətin investisiya proqramlarının prioritetlərini nəzərə almaqla, aşağıdakı vasitələrlə həyata keçirilə bilər: emal fəaliyyətinə, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı üzrə sənaye fəaliyyətinə maliyyə yardımının göstərilməsi. Bu halda subsidiyalardan, dotasiyalardan, subvensiyalardan istifadə edilir; diferensasiya olunmuş vergi dərəcələrinin və güzəştlərinin tətbiqini nəzərdə tutan vergi sisteminin tətbiqi; dövlət tərəfindən təsdiq olunmuş norma və standartlara riayət olunmasına nəzarətin həyata keçirilməsi; investisiya layihələrinin ekspertizası; antiinhisar tədbirlərinin həyata keçirilməsi; investisya fəallığının əsaslandırılmış təşviqini nəzərdə tutan qiymət əmələgəlmə və amortizasiya siyasətinin həyata keçirilməsi. Belə bir fikirlə razılaşmaq olar ki, "qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi baxımında əlverişli sayılan sahələrdə tarazlı və dinamik inkişafın təmin edilməsində investisiya proqramlarının rolu əvəzsizdir. Belə ki, elmi – texniki proqramlarla sıx qarşılıqlı əlaqədə tərtib olunan və həyata keçirilən investisiya proqramları maddi – maliyyə ehtiyatlarını ən perspektivli istiqmətlərə yönəldir" [4, s.127].

Dövlət sahədə investisiya fəaliyyətinə birbaşa və ya dolayı yolla təsir edir. Məlum olduğu kimi investisiya fəaliyyətinə birbaşa təsir inzibati üsullarla, dolayı üsullarla təsir isə iqtisadi üsullarla həyata keçirilir. İnvestisiya fəaliyyəti subyektlərinə inzibati təsir etmək üçün dövlət məhdudiyyətlər, icazələr və qadağalar sistemindən istifadə edir. Dövlət investisiya fəaliyyəti subyektlərinə iqtisadi üsulllarla təsir edərkən, həm onların, həm sahənin inkişafı maraqlarını, habelə iqtisadi təhlükəsizlik tələblərini nəzərə alır. Əksər hallarda dövlət investisiya fəaliyyətinə birbaşa və dolayı təsir üsullarını vəhdətdə tətbiq etməkdə maraqlıdır. Odur ki, hökumət strukturlarının investisiya layihələrinin müsabiqə əsasında maliyyələşdirilməsinin normativ-hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində fəallığı investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi baxımından mühüm amil hesab edilir. Belə vəziyyət, qanunverciliyin tələblərinə uyğun olaraq müxtəlif mənbələrdə mövcud olan sərbəst maliyyə vəsaitlərinin investisiyaya transformasiyası proseslərinin asanlaşdırılması məsələlərinə diqqəti artırır. Bu baxımdan əhalinin sərbəst maliyyə vəsaitlərinin investisiyaya transformasiyası prosesinin təşviqi məsələləri, milli iqtisadiyyatın inkişafı xarakteristikalarından asılı olmayaraq demək olar ki, daim gündəlikdə olmalıdır.

İnvestisiya proseslərinin dövlət tənzimlənməsinin iqtisadi alətlərinə [1, s.18-25), artıq qeyd olunduğu kimi aşağıdakılar aiddir: dövlət büdcəsi sistemi və onun köməyi ilə investisiya xərclərinin artırılması; işgüzar fəallığın artırılması tələblərinə cavab verən vergiqoyma sisteminin formalaşdırılması və vergi bazasını genişləndirməklə vergi yükünün azaldılması; investisiyaların istehsal fəallığının dəstəkləyən səmərəli kreditləşdirilməsi sisteminin yaradılması, kreditə görə faizin aşağı salınması imkanlarının aşkar edilməsi və reallaşdırılması; innovasiyalı-intensiv inkişaf tələblərinə uyğun amortizasitya siyasətinin həyata keçirilməsi və amortizasiyanın tezləşdirilməsi.

İnvestisiya fəaliyyətinin güzəştli vergi sistemindən, səmərəli kredit, sığorta və qiymətqoyma mexanizmindən, sürətli amortizasiyadan istifadəni nəzərdə tutan stimullaşdırma sistemi sənayenin, o cümlədən emal sənayesinin dinamik inkişafında həlledici rola malikdir. Vergi və digər sahələrdə güzəştlərin ünvanlılığı investisiya proseslərinin stimullaşdırılması sisteminin fəalliyətinə ciddi müsbət təsir edən amildir. Sənayedə mənfəətin yenidən investisiyalaşmaya (reinvestisiyaya) yönəldilən hissəsinə tətbiq edilən vergi güzəştləri proqram məqsədli inkişafın investisiyalaşması prosesində işgüzar fəallığa rəvac verir.

Sənayenin bu və ya digər sahəsində amortizasiya siyasətinin liberallaşması siyasəti xüsusi və hərtərəfli əsaslandırılmış hazırlıq tələb edir. Məsələ ondadır ki, xüsusi ilkin amortizasiya güzəşti, amortizasiyanın qeyri-xətti üsullarının müqayisəli qiymətləndirilməsi və əldə edilən nəticələrin təsərrüfatçılıq təcrübəsində istifadəsi ilkin informasiya mənbələrindən tutmuş, sənəd dövriyyəsinin son mərhələsinə qədər bütün proseslər tam şəffaf nəzarət predmeti olmalıdır.

Emal sənayesində maddi-texniki bazanın modernləşdirilməsi investisiya proseslərinin tənzimlənməsi dairəsinə təsirsiz qamır. Bu və digər səbəblərdən, həmin " amillər ayrı-ayrılıqda spesifik xüsusiyyətlərə malik olsalar da, son nəticədə onlar istehsal fəallığına artan tələbatın ödənilməsi istiqamətində proporsionallığın təmin olunmasına imkan yaradır" [3, s.7]. Tədqiqatlar və qabaqcıl təcrübə göstərir göstərir ki, investisiya və innovasiya proseslərinin birgə tənzimlənməsi perspektivli yanaşmadır. Elmi-texnoloji işləmələri, əsaslandırılmış təcrübi yanaşmaların ötürülməsini və istifadəsini təmin edən bu mövqe innovasiya və investisiya proseslərinin bir-birini tamamlayan qarşılıqlı əlaqələrindən multiplikasiya effekti əldə etməyi nəzərdə tutur.

Müvafiq araşdırmalarda sənaye istehsalının innovasiyalı və dayanıqlı inkişafının təmin edilməsində investisiya fəaliyyətinin stimullaşdırma sisteminin özünəməxsus yeri və rolu kifayət qədər araşdırılmışdır. Burada isə onu qeyd edək ki, sənayedə investisiyaların stimullaşdırılması meyarlrı əsaslandırılarkən iqtisadi və sosial amillərlə yanaşı, ekoloji amillər də diqqət mərkəzində olmalıdır. Əks halda, sənaye istehsalının, o cümlədən innovasiyalı sənaye istehsalının dayanıqlı inkişafının təmin edilməsi, demək olar ki, qeyri-mümkündür. İnvestisiya layihələri hərtərəfli ekspertiza edilməli və bu zaman dünya standartları baxımından yüksək enerji sərf edən, mənəvi cəhətdən köhnəlmiş maşın, qurğu və avadanlıqların istifadəsi hallarının qarşısını almaq lazımdır. Əks halda, prioritet sayılan enerjiqoruyucu və ümumilikdə resursqoruyucu texnologiyaların tətbiqi istiqamətində ləngimələr baş verə bilər. Odur ki, investorları, o cümlədən xarici investorların innovasiya yönümlü, habelə elm tutumlu fəaliyyətə təşviq etmək istiqamətində tədbirlər fəallaşdırılmalıdır.

Emal sənayesində, o cümlədən onun qeyri-neft sahələrində investisiya proseslərinin tənzimlənməsi fəaliyyətdə olan kredit sisteminin vəziyyətindən, həlledici dərəcədə asılıdır. Sənayenin bu sahəsində kreditləşmənin vəziyyəti, istehlak və yığımın, müəssisənin xüsusi və cəlb etdiyi maliyyə vəsaitlərinin, mənfəətin innovasiyaların investisiyalaşdırılmasına gedən hissəsi və bu kimi bir sıra digər nisbətlərin emal fəaliyyətinin miqyasına, rəqabət qabiliyyətinə və ümumilkdə səmərəliliyinə təsiri həlledicidir.

Əlverişli xarici ticarət rejiminin formalaşdırılması, emal sənayesinin ixrac potensialının fəallaşdırılması sahədə investisiya proseslərinin tənzimlənməsinin prioritetlərindən biridir.Tədiyə balansını əhəmiyyətli dərəcədə yaxşılaşdıran tədbirlərin həyata keçirilməsi üçün əlverişli tənzimləmə mühiti yaradılmalıdır. Son illər milli iqtisadiyyatın ixrac potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli və davamlı tədbirlər, emal sənayesində investisiya proseslərinin tənzimlənməsi sisteminə əlavə tələblər qoyur. Həmin tələblər qismində: yerli xammaldan istifadə edən daxili istehsal müəssiələrinin fəaliyyətinin stimullaşdırılması; yeni hazır məhsul idxalının, tədricən müvafiq yeni texnologiya idxalı (transferi) ilə əvəzlənməsi; sahə və ərazi səviyyəsində istesal və resurs potensialı səfərbər edilməklə idxalın əvəzlənməsi proseslərinin təşviqi; ixrac yönümlü istehsal və emal fəaliyyətinin dəstəklənməsi, o cümlədən beynəlxalq marketinq tədqiqatlarının genişləndirilməsi; ixrac edilən hazır məhsulda idxal komponentlərinin azaldılması və bu kimi bir sıra digər tələblər qeyd edilməlidir.

Artıq qeyd edildiyi kimi, sığorta investisiya proseslərinin, o cümlədən emal sənayesində investisiya fəaliyyətinin tənzimlənməsi sisteminin mühüm amilidir [5, s.175–199]. Nəzərə almaq lazımdır ki, investisiya risklərinin sığortalanması üçün, təkcə sənayenin tədqiq olunan sahəsinin deyil, habelə müasir bazar infrastrukturunun digər elementlərinin də inkişafında zəruri temp və miqyas əldə edilməlidir. Araşdırmalar

göstərir ki, sənayedə risk və gəlir səviyyəsi arasında sıx korrelyasiya asılılığı olduğu kimi, investisiya fəallığı və sığorta işinin səmərəliliyi arasında da düz mütənasiblik vardır. Onu da qeyd edək ki, birbaşa investisiyaların riskliyi maliyyə investisiyalarına nisbətən aşağı olsa da, məhz emal sənayesində innovasiyalı inkişafın prioritet olduğu hazırki dövrdə haqqında danışılan riskin səviyyəsinin texniki və texnoloji təminatın vəziyyətindən bilavasitə asılı olduğu nəzərə alınmalıdır.

Emal sənayesində investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin vasitə və istiqamətlərinə aşağıdakılar aid edilməlidir: sənayenin bu sahəsində inkişafın yerli potensialdan istifadə dərəcəsinin yüksəldilməsi investisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin prioritet istiqamətlərindən biri olmalıdır; tənzimləmə sistemi innovasiyalı inkişafın prioritetliyi şəraitində emal sənayesində investisiyalarin səmərəliliyinin yüksəldilməsi imkanlarını nəzərə almalıdır; investisiya fəaliyyətinin tənzimlənməsi sistemi emal sənayesində şaquli və üfüqi inteqrasiyanın nəticələrini, çoxssenarili imitasiya modelləşdirilməsi ilə qiymətləndirməyə imkan verməlidir; sahədə investisiya proseslərinin tənzimlənməsi sistemində investisiya fəallığının təşviqi mexanizminə diqqət artırılmalıdır.

Ədəbiyyat

1. Bogdanenko, Anatoliy. (2018). Mechanisms of state regulation of investment and innovation processes in Ukraine. Expert: Paradigm of Law and Public Administration. 2. 18-25. 10.32689/2617-9660-2018-2-2-18-25.
2. Dechezleprêtre, Antoine & Sato, Misato. (2014). The impacts of environmental regulations on competitiveness. 10.13140/RG.2.1.2279.1204.
3. Əliyev Q.İ. İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı, “İqtisad nəşriyyatı”, 2008. 274 s.
4. İbrahimov F.M. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalar və onun milli iqtisadiyyatın dirçəlişində rolu. İ.e.n....dis.Bakı,2006,153 s.
5. Klein, R. Principles for Insurance Regulation: An Evaluation of Current Practices and Potential Reforms. Geneva Pap Risk Insur Issues Pract 37, 175–199 (2012). https://doi.org/10.1057/gpp.2011.9.
6. Кулиев Р.А. Регулирование инвестиционной деятельности. Баку, «CBS Polygraphic Production», 2008, 308 с.
7. Tamer, O. & Lapteva, S. & Zaitseva, S. & Kozlov, A.. (2018). The improvement of bachelors training in the field of anti-crisis management of enterprises. Academy of Strategic Management Journal. 17(5).

Резюме

Искандеров Р.К., Абдулазимов Э.М.

Совершенствование системы регулирования инвестиционного процесса

Эффективность и результаты инвестиционной деятельности в материальном производстве, в том числе в промышленности, зависят от особенностей мер государственного регулирования. Сегодня система регулирования инвестиционных процессов требует учета уроков мирового финансового кризиса. В условиях усиливающейся конкуренции действующая система регулирования инвестиционных процессов не всегда дает желаемый результат. Поэтому вопросы совершенствования этой системы имеют особое значение. В представленной статье определен ряд средств и направлений совершенствования системы регулирования инвестиционных процессов в обрабатывающей промышленности.

Ключевые слова: *государственное регулирование, инвестиции, инновации, налог, кредит, амортизация*

Summary

Iskanderov R.K., Abdulazimov E.M.

Improvement of the Investment Process Regulation System

The efficiency and results of investment activity in material production, including industry, depend on the specifics of state regulation measures. Today, the system of regulation of investment processes requires taking into account the lessons of the global financial crisis. In the face of increasing competition, the current system of regulation of investment processes does not always give the desired result. Therefore, the issues of improving this system are of particular importance. The presented article defines a number of means and directions for improving the system of regulation of investment processes in the manufacturing industry.

Key words: *state regulation, investments, innovations, tax, credit, depreciation*

YUXARI QARABAĞ VƏ KƏLBƏCƏR-LAÇIN İQTİSADİ RAYONLARININ İXRAC POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

Kərimli Vüqar Bəhram oğlu
İqtisadiyyat İnstitutu
kerimli.vugar79@gmail.com

Xülasə: *Məqalədə ikinci Qarabağ savaşından sonra Azərbaycanın Ermənistan tərəfindən işğal olummuş ərazilərini azad etdikdən sonra həmin əraziləri yenidən siyasi-iqtisadi meydana qaytarmaq, xüsusilə Yuxarı Qarabağ və Kəlbəcər Laçın iqtisadi rayonlarının ixrac potensialını araşdırmaq və qiymətləndirilməsini həyata keçirilmək əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Tədqiqatın metodologiyası: məqalədə xarici ölkələrdə baş vermiş anoloji situasiyalar, onların təcrübələrindən istifadə etmək, eyni zamanda müqayisə, müşahidə, analitik və statik metodologiyalardan istifadə edilmişdir.Tədqiqatın nəticələri: əhalinin doğma taşayış məskənlərinə köçürülməsi onların pay torpaqları ilə təmin edilməsi, aqrar sahənin inkişafına şərait yaradılması, dağ-mədən sənayesinin imkişaf etdirilməsi məqsədə uyğun hesab edilmiş və bunu yeni iş yerlərinin açılmasına, əhalinin köçürülməsinin stimullaşdirilması kimi göstərilmişdir. Qeyd olunan ərazilərdə məhsuldar torpaqlar, zəngin təbii ehtiyatlara malik olması ölkə iqtisadiyyatının inkişafı üçün çox vacibdir və qeyd olunanları nəzərə alraq konkret təkliflər verilmişdir.*

Açar sözlər: *humanitar fəlakət, post-konflikt, bərpa, inkişaf, reablitasiya.*

Giriş. İşğaldan azad olunmuş ərazilərimizdə aparılacaq bərpa işləri ölkə iqtisadiyyatına müsbət mənada təsirsiz ötüşməyəcək. Belə ki, bu bölgədə geosiyasi və geoiqtisadi dəyişəcəkdir. Uzun müddət işğal altında qalmış kəndlərimiz, yaşayış məntəqələrimiz, qəsəbələrimiz, şəhərlərimiz düşmən tərəfindən məhv edilmiş, infrastruktura demək olar ki, tamamilə sıradan çıxarılmışdır.

Prezident İlham Əliyevin 20 oktyabr 2020-ci il tarixdə xalqa müraciətində qeyd etmişdir: "Otuz il ərzində bizim torpaqlarımızda oturub bizə meydan oxumağa çalışıblar, torpaqlarımızı istismar ediblər, təbii resurslarımızı istismar ediblər. Oğurluq, talançılıq bunların xislətidir. Dağıdılmış kəndlərin və şəhərlərin vəziyyətinə baxmaq kifayətdir ki, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanırlar. Azad edilmiş torpaqlarda bir dənə də olsun salamat bina qalmayıb". Daha sonra Prezident davam etdirərək demişdir: "Biz Böyük Qayıdış astanasındayıq. Gün gələşək bütün dağıdılmış şəhərlərimiz, kəndlərimiz bərpa ediləşəkdir. Azərbaycan dövləti əlindən gələni edəcəkdir ki, işğaldan azad edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşları rahat və əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır." [1]

Beynəlxalq təcrübənin öyrənilməsi: silahlı toqquşmalar nəticəsində iqtisadiyyatı və infrastrukturu dağıdılmış ərazilərin bərpa olunması zərurəti ilə indiyədək bir çox dövlətlər üz- üzə qalmışdır. İkinci dünya muharibəsindən sonra bir neçə Avropa ölkələri, İraq, Vyetnam, Əfqanıstan və s. belə vəziyyətə düşmüşlər.

Azərbaycanla həmsərhəd olan Gürcüstan hərbi toqquşma nəticəsində iki muxtar ərazisi Abxaziya və Cənubi Osetiya 15 ildən yuxarıdır ki, onun beynılxalq səviyyədə tanınan sərhədlər çərçəvəsində bütövlüyünü rədd edir, ayrılaraq müstəqil dövlət qurmağa yaxud Rusiya Federasiyasının tərkibənə daxil olmağa can atır. Bu konflikt zamanı Gürcüstan ərazisinin bir qismi darmadağın oldu, infrastruktur tamamilə yararsız vəziyyətə düşdü.

Kəlbəcər rayonunun iqtisadiyyatı: Kəlbəcər rayonu kənd təsərrüfatında heyvandarlıq tütünçülük, sənayedə mineral su istehsalı, xidmət sektorunda kurort təsərrüfatı üstünlük təşkil etmişdir. Dağ, müalicə və ov turizminin inkişafı üçün böyük potensialı vardir.

Mis-porfil və qızıl-mis-kolçedan filizləşmə növləri daha geniş yayılmışdır. Kiçik Qafqaz ərazisində qurğuşun və sink vardır bunlar əsasən damar tipli kütlələr şəklindədir, lazımınca araşdırılmamışdır və ehtimal olunur ki, böyük deyil. Qüyd olunanlarla yanaşı Kəlbəcər Laçın zonası civə ehtiyatları ilədə zəngindir. Bir neçə civə yataqlarında dərin kəşfiyyat işlərə aparılmış və hələ sovrt dövründə istismar edilmişdir. Məsələn, Kəlbəcər rayonu ərazisində yerləşən civə yatağı, Levçay civə yatağı və s. Laçın rayonundada civə yataqları mövcuddur, Çilgəzçay, Narzanlı yataqları. Kəlbəcər ərazisində Zod yatağı yeləşir. Yatağın 23 qızıl-filiz damarından 16- sı Azərbaycan ərazisində və yalnız 7-si Ermənistan tərəfdədir.

Müharibə qələbəmizlə qurtardıqdan sonra 24 noyabr 2020-ci il tarixdə ölkə Prezidenti cənab İ.Əliyev işğaldan azad olunan torpaqların reablitasiyasının təşkili ilə əlaqədar "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" sərəncam vermişdir. Bu sərəncam işğaldan azad edilmiş rayonlarımızın bərpasının başlanğıcı olmuşdur.[2]

Hələ 1996-cı ildə Ümummilli lider H.Əliyevin müvafiq sərəncamı ilə Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılmışdır. Ölkə ərazilərinin bərpası və yenidənqurulması məqsədilə aparılan bərpa işlərinin koordinasiyasını, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və onların minimum həyat şəraitinin yaradılması, infrastrukturların yaradılması, bir sözlə işğaldan azad olunmuş torpaqların iqtisadiyyatın dirçəldilməsi üçün bu agentliyin üzərinə böyük yük düşür. Buna görə də görüləcək işlərin miqyası böyük olduğuna görə Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyinin gücləndirilməsi və genişləndirilməsi daha məqsədəuyğundur.

Ümumiyyətlə bu tədqiqat bir sıra suallara, o cümlədən "Konfliktsonrası reabilitasiyanın və ümumiyyətlə, regionda aparılacaq yenidənqurma işlərinin parametrləri necə olacaqdır?", "Belə bir reabilitasiya proqramının ümumi dəyəri nə səviyyə də ola bilər?", "Konfliktsonrası reabilitasiya hansı mənbələr hesabına maliyyələşdirilə bilər?" kimi suallara müəyyən qədər aydınlıq gətirmişdir [3].

Nəticə. Nəzərə alınmalıdır ki, işğal altında olan torpaqlarda məlum səbəbə görə torpaq islahatı aparılmamışdır. Kənd təsərrüfatını bərpa etmək məqsədilə ilk növbədə rayonlar və ayrı-ayrı kəndlər üzrə torpaq balansları tərtib edilməli, torpaq paylarının veriləcək insanların siyahısı dəqiqləşdirilməli və nəhayət torpaqlar paylanmalıdır.

İşğal vaxtı ərazilərin çox cüzi bir hissəsindən istifadə edilib. Deməli həmin torpaqların xeyli hissəsinin kənd təsərrüfatı dövriyyəsinə qaytarmaq vacibdir. Həmin ərazilərin ənənəvi təsərrüfatçılıq təcrübəsindən çıxış etməklə demək olar ki, Azərbaycan işğaldan azad olunan torpaqlarda əkinçilik və heyvandarlığın inkişafı üçün yetərincə imkanlar mövcuddur. Eyni zamanda, burada kənd təsərrüfatı məhsullarının emalı və ərzaq sənayesinin inkişaf etdirməkdən ötrü həm potensial, həm də ənənə var.

Dağlıq Qarabağda turizm və turizmlə bağlı sənətkarlıq sahələrinin bərpası bu regionun iqtisadiyyatında mühüm rol oynaya bilər. Kurort-sanatoriya və turizmin inkişafına dair xüsusi tədbirlərin hazırlanması və həyata keçirilməsi,o cümlədən dağ turizminin inkişafına dair kompleks tədbirlərin həyata keçirilməsi işğaldan azad edilmiş ərazilərin inkişafına əvəzsiz töhfə verə bilər. Xüsusilə dağlıq ərazilərdə qış turizminin inkişafı üçün təbii şərait çox əlverişlidir və bundan mütləq yararlanmaq çox vacibdir. Xüsusən Kəlbəcərdə müalicəvi suların olmasını nəzərə alaraq burada yeni və muasir standartlara cavab verən yeni sanatoriyarın tikilib istifadəyə verilməsi məqsədə uyğun olardı.

Dağlıq Qarabağ və ətraf rayonlarda müxtəlif qiymətli metal yataqlarının olmasını nəzərə alraq, Kəlbəcər və Laçında qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daşlar yataqları yerləşir. Uzun müddətdir bu yataqlar Ermənistan tərəfindən qeri qanuni istismar edilirdi. Azərbaycanın işğal olunmuş ərazilərindəki Söyüdlü (Zod), Qızılbulaq, Vejnəli qızıl, Mehmana polimetal və Dəmirli mis-porfir yataqlarını buna misal göstərmək olar. Gələcəkdə iqtisadiyyatımızın inkişafında mühüm rol oynayacaq bu yataqlar tezliklə bərpa edilərək işə salınmalıdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidentinin xalqa müraciəti 20 oktyabr 2020-ci il https://president.az/articles/43696

2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 24 noyabr 2020 https://president.az/articles/47738

3. Müzəffərli N (İmanov)., İsmayılov E. Azərbaycanın postkonflikt ərazilərinin bərpası: konseptual əsaslar". Monoqrafiya, Bakı, 2010

Резюме

Керимли В.Б.

Оценка экспортного потенциала Верхнекарабахского и Кальбаджар-Лачинского экономических районов

В статье после освобождения территорий Азербайджана, оккупированных Арменией после второй карабахской войны, основной целью является возвращение этих территорий в политико-экономическую сферу, особенно исследовать и оценить экспортный потенциал экономических районов Верхнего Карабах и Кельбаджар Лачин. Методология исследования: в статье используются аналогичные ситуации, имевшие место в зарубежных странах, с использованием их опыта, при этом использовались методы сравнения, наблюдения, аналитическая и статическая методики. Результаты исследования: переселение населения в родные поселения, обеспечение его надельными землями, создание условий для развития аграрного района, развитие горнодобывающей промышленности признано целесообразным, что было показано как открытие новых рабочих мест и стимулирование переселения населения. Наличие плодородных земель и богатых природных

ресурсов в указанных районах очень важно для развития экономики страны, и с учетом указанного внесены конкретные предложения.

Ключевые слова: *гуманитарная катастрофа, постконфликтный, восстановление, разработка, реабилитация*

Summary

Kerimli V.B.

Assessment of the Export Potential of Upper Karabagh and Kalbajar Lachin Economic Regions

In the article, after the liberation of the territories of Azerbaijan occupied by Armenia after the second Karabakh war, the main goal is to return those territories to the political and economic sphere, especially to investigate and evaluate the export potential of the economic regions of Upper Karabakh and Kalbajar Lachin.

Methodology of the research: the article uses analogous situations that happened in foreign countries, using their experiences, and at the same time comparison, observation, analytical and static methodologies were used. The results of the study: relocation of the population to their native settlements, providing them with allotment land, creating conditions for the development of the agrarian area, development of the mining industry were considered to be suitable for the purpose, and this was shown as the opening of new workplaces and the stimulation of the relocation of the population. Having fertile lands and rich natural resources in the mentioned areas is very important for the development of the country's economy, and specific proposals have been made taking into account the mentioned.

Key words: *humanitarian disaster, post-conflict, restoration, development, rehabilitation*

BEYNƏLXALQ İQTİSADİ TƏŞKİLATLAR VƏ AZƏRBAYCANIN ONLARLA ƏLAQƏLƏRİ

Qələndərova Ümmühəbibə Məhəmmədtağı qızı
Bakı Dövlət Universiteti
ummuhabibagalandarova@gmail.com

Xülasə: *Məqalədə beynəlxalq iqtisadi təşkilatların beynəlxalq iqtisadi əlaqələrdəki rolu və Azərbaycan Respublikasının BİT-lə münasibətləri araşdırılmışdır. Beynəlxalq ticarətin, maliyyə münasibətlərinin tənzimlənməsində, iqtisadi böhranların və bu zaman yaranan problemlərin aradan qaldırılmasında beynəlxalq iqtisadi təşkilatların rolu danılmazdır. Azərbaycan Respublikası ötən əsrin 90-cı illərinin sonlarından etibarən yeni yaranmış müstəqil bir dövlət olaraq bu kimi təşkilatların təcrübələrindən yararlanmışdır. Bütün bu məsələlərlə bağlı müəllifin fikirləri verilmiş və ümumi vəziyyət təhlil edilmişdir.*

Açar sözlər: *beynəlxalq iqtisadi təşkilatlar, Azərbaycan Respublikası, ÜTT, BVF, Aİ*

Beynəlxalq təşkilat müxtəlif məsələlər üzrə üzvləri arasında könüllü əməkdaşlığa və koordinasiyaya kömək edən bir qurumdur. Beynəlxalq təşkilatların bir çox növləri var. Beynəlxalq təşkilatlar Birləşmiş Millətlər Təşkilatı (BMT), Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) və Ümumdünya Səhiyyə Təşkilatı kimi beynəlxalq hüquq subyektinə malik olan müqavilə və beynəlxalq hüquqla tənzimlənən digər sənədlər əsasında yaradılır. Beynəlxalq təşkilatlar ən azı üç dövlətdən üzv olan qurumlardır.

Əksər Beynəlxalq İqtisadi təşkilatlar ticarət, əməkdaşlıq, ümumi valyuta və inteqrasiyanı vurğulayır. Bu, miqyas iqtisadiyyatından tərəqqiyə yönəlib. Avropada Avropa İttifaqı sərhədsiz ticarəti, İqtisadi inteqrasiyanı və Avro adlı ümumi valyutanın istifadəsini təşviq edir. Qərbi Afrika alt regionunda ECOWAS tərəfindən ümumi valyuta təklifi var. Təklif olunan ümumi valyuta İƏT adlanacaq.

İkinci Dünya Müharibəsindən sonra beynəlxalq iqtisadi sistemi yenidən qurmaq səyi ilə Müttəfiq dövlətlərin nümayəndələri 1945-ci ildə Bretton Woods sazişi ilə Beynəlxalq Valyuta Fondunu (BVF) və Dünya Bankını yaratdılar. Bütün 44 Müttəfiq dövlətdən təxminən 730 nümayəndə toplandı - İkinci Dünya Müharibəsindən sonra beynəlxalq pul və maliyyə nizamının necə tənzimlənəcəyini müəyyən etmək üçün Nyu-Hempşir ştatının Bretton Woods şəhərindəki Mount Washington otelində [2, s.38].

Bretton Vudsdakı nümayəndələr 1918-ci ildə ABŞ prezidenti Vudro Vilsonun azad ticarətin qlobal rifah və sülhü təşviq etdiyi ideyasına böyük ölçüdə qoşuldular. Onlar əmin idilər ki, 1930-cu illərdə və 1940-cı illərin əvvəllərində Böyük Depressiya ilə mübarizə aparmaq üçün qəbul edilmiş siyasət - yüksək tariflər, valyuta devalvasiyaları, ayrı-seçkilik yaradan ticarət blokları - təhlükəli beynəlxalq mühitlə nəticələndi. O

zaman qətiyyət ondan ibarət idi ki, iqtisadi əməkdaşlıq sülhə və firavanlığa nail olmaq üçün yeganə yoldur. Beynəlxalq Valyuta Fondu qlobal bir təşkilatdır. Onun əsas məqsədi valyuta məzənnələrinin sabitləşməsinə kömək etmək və ehtiyacı olan ölkələrə kredit verməkdir. Kuba, Lixtenşteyn və Andorra kimi bir neçə istisna olmaqla, Birləşmiş Millətlər Təşkilatının demək olar ki, bütün üzvləri BVF-nin üzvüdür [3, s.96]. BVF aşağıdakı funksiyaları yerinə yetirir:

1. Beynəlxalq valyuta əməkdaşlığı.
2. Məzənnə sabitliyini təşviq etmək.
3. Ödəniş balansının tənzimlənməsi ilə məşğul olmağa kömək etmək.
4. Beynəlxalq koordinasiya - kreditlər və məsləhətlər verməklə iqtisadi böhranla mübarizəyə kömək etmək.

Azərbaycan hökuməti 1994-1995-ci illərdən etibarən BVF-nin təcrübə, maddi-texniki baza və s. kimi imkanlarından öz iqtisadiyyatını inkişaf etdirmək üçün istifadə etmiş, yeni yaranmış gənc bir dövlət olaraq özünə beynəlxalq iqtisadi təşkilatlar arasında etibarlı nümunə seçmişdir.

1944-cü ildə yaradılan Dünya Bankı Qrupu inkişaf tapşırıqları üçün beynəlxalq institutlar, regional banklar və milli hökumətlərlə işləyir. Təşkilat yoxsulluğun azaldılması, inkişafın maliyyələşdirilməsi və təhsildən tutmuş iqlim dəyişikliyinə qədər geniş spektri əhatə edir. Son 70 il ərzində o, 100-dən çox inkişaf etməkdə olan ölkədəki insanlara kömək etmişdir [1, s.75].

Dünya Bankının rolu beynəlxalq bazarlardakı uğursuzluqları aradan qaldırmaq və yoxsulluğa son qoymaqdır. Qrantlar, sıfır faizli kreditlər və aşağı faizli kreditlər və ya investisiyalar, həmçinin məsləhət və təlimlər təklif edir. Hazırda onun 10,000-dən çox işçisi var və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) daxil olmaqla, beş qurumdan ibarətdir. Təşkilat yarandığı gündən 12 000-dən çox inkişaf layihəsində iştirak edib. Hazırda onun əsas məqsədi 2030-cu ilə qədər qlobal ifrat yoxsulluq səviyyəsini azaltmaqdır. Dünya Bankının digər funksiyası ekoloji dayanıqlığı və yaşıl inkişafı təşviq etməkdir. Bundan əlavə, onun üzvləri dünyanın inkişaf problemlərini həll edən konfranslara və digər tədbirlərə sponsorluq edir və iştirak edirlər.

Azərbaycan Respublikası iqtisadi islahatlar keçirdərkən Dünya Bankının bu sahədə zəngin olan strukturlaşdırılmış islahatlar təcrübəsinə müraciət etmişdir.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) 1995-ci ildə yaranmışdır. Beynəlxalq təşkilatların ən gənci olan ÜTT 1947-ci ildə yaradılmış Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) varisidir. Beynəlxalq Ticarət Təşkilatının təklifi (ITO) ticarəti təşviq etmək və ticarət maneələrini azaltmaq və ya aradan qaldırmaq üçün 1947-ci ildə uğur qazana bilmədi. GATT müvəqqəti saziş idi və 1995-ci ildə ÜTT-nin formalaşmasına qədər bir neçə raund ticarət danışıqları aparıldı. Beləliklə, ÜTT nisbətən gənc olsa da, çoxtərəfli ticarət sistemi ilk olaraq GATT çərçivəsində qurulan 70 yaşdan yuxarıdır. Danışıqlar bununla da bitməyib. 1997-ci ildə telekommunikasiya xidmətləri ilə bağlı razılıq əldə olundu, 69 hökumət Uruqvay raundunda razılaşdırılanlardan kənara çıxan geniş miqyaslı liberallaşdırma tədbirlərinə razılıq verdi. Həmin il 40 hökumət informasiya texnologiyaları məhsullarının tarifsiz ticarəti üzrə danışıqları uğurla yekunlaşdırdı və 70 üzv bank, sığorta, qiymətli kağızlar və maliyyə məlumatı ticarətinin 95 faizindən çoxunu əhatə edən maliyyə xidmətləri müqaviləsi bağladı. 2000-ci ildə kənd təsərrüfatı və xidmətlər üzrə yeni danışıqlar başladı.

Bunlar 2001-ci ilin noyabrında Qətərin paytaxtı Dohada keçirilən ÜTT Nazirlərinin dördüncü Konfransında başlanmış daha geniş iş proqramına, Doha İnkişaf Gündəliyinə daxil edilmişdir.

2013-cü ildə Balidə keçirilən 9-cu Nazirlər Konfransında ÜTT üzvləri büruzəsizliyi azaltmaqla sərhəddə gecikmələri azaltmaq məqsədi daşıyan Ticarətin Asanlaşdırılması üzrə Sazişi imzaladılar.

Ümumdünya Ticarət Təşkilatı 164 üzv ölkədən ibarət olan və xalqlar arasında ticarət qaydaları ilə məşğul olan qlobal bir təşkilatdır. Onun məqsədi ticarətin mümkün qədər hamar və proqnozlaşdırıla bilən şəkildə axmasını təmin etməkdir.

Azərbaycan Respublikası 1997-ci ildən etibarən Ümumdünya Ticarət Təşkilatı ilə sıx əlaqələr quraraq beynəlxalq ticarətdəki rolunu artırmaq üçün addımlar atmışdır. Belə ki, o, 1997-ci ildə üzvlük üçün ÜTT Katibliyinə müraciət etmişdir [4, s.101].

Beləliklə, sadə dillə desək, Avropa İttifaqı ticarət, iqtisadi və sosial maneələri aradan qaldırmaq və bu sahələrdə rifah və inkişafı təşviq etmək üçün nəzərdə tutulmuş 27 Avropa ölkəsinin koalisiyasıdır. 1993-cü ildə yaradılan Avropa İttifaqının qərargahı hazırda Belçikanın paytaxtı Brüsseldə yerləşir [5, s.65]. İkinci Dünya Müharibəsindən sonrakı dünyada Avropa İttifaqı iştirak edən ölkələrin fərdi və kollektiv iqtisadi və sosial rifahını gücləndirməyə, habelə ticarəti və digər sosial dəyərləri təşviq edən vahid qlobal bazar yaratmağa çalışırdı. Yenə də Avropa İttifaqı Şura, Parlament və Komissiya daxil olmaqla üç istiqamətli idarəetmə sistemi ilə fəaliyyət göstərir və "Avro" adlı ümumi valyutadan istifadə edir. Avropa İttifaqının məqsədlərinə aşağıdakıları aid etmək olar:

- Sülhü təşviq etmək və vahid iqtisadi və pul sistemi qurmaq;
- İnklüzivliyi təşviq etmək;
- Ayrı-seçkiliklə mübarizə aparmaq;
- Ticarət və sərhədlər üçün maneələrin aradan qaldırılması;
- Texnoloji və elmi inkişafı təşviq etmək;
- Ətraf mühitin mühafizəsi üzrə çempion;
- Digərləri arasında rəqabətli qlobal bazar və sosial tərəqqi kimi məqsədləri təşviq etmək.

Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında əlaqələr iqtisadi, siyasi, hüquqi və s. olmaqla bir neçə aspektdən aparılır. Bu əlaqələrin güclənməsi isə 1998-ci il Aİ Azərbaycana xüsusi elçisini təyin etdikdən sonra daha da artmışdır.

Ədəbiyyat

1. Beynəlxalq Maliyyət Təşkilatları və Azərbaycan. "Zərdabi-Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi, 2016, 268 səh.
2. Colomer, Josep M. How Global Institutions Rule the World. New York: Palgrave MacMillan. 2014.
3. Jenny Edkins and Maja Zehfuss. Global Politics: A New Introduction. London: Routledge, 2012.
4. Lessambo, Felix. International Financial Institutionsand Their Challenges. United States: Palgrave 2015.
5. Patrick Weller & Xu Chong. Politics of International Organisations: Views from Insider. New York: Routledge, 2015.
6. International organizations, Dr. Boypa Egbe Mr. Ubong James Essien Department of History and International Studies, University of Calabar, Cross River State, Nigeria 2020, 105 p.

Резюме
Галандарова У.М.
Международные экономические организации и отношения Азербайджана с ними

В статье рассматривается роль международных экономических организаций в международных экономических отношениях и отношениях Азербайджанской Республики с информационными технологиями. Роль международных экономических организаций в регулировании международной торговли, финансовых отношений, устранении экономических кризисов и проблем, возникающих в это время, неоспорима. С конца 90-х годов прошлого века Азербайджанская Республика как новообразованное независимое государство извлекла пользу из опыта таких организаций. Приведено авторское мнение по всем этим вопросам и проанализирована общая ситуация.

Ключевые слова: *международные экономические организации, Азербайджанская Республика, ВТО, МВФ, ЕС*

Summary
Galandarova U.M.
International Economic Organizations and Azerbaijan's Relations with Them

The article examines the role of international economic organizations in international economic relations and the relations of the Republic of Azerbaijan with IT. The role of international economic organizations in the regulation of international trade, financial relations, and the elimination of economic crises and problems arising at this time is undeniable. Since the end of the 90s of the last century, the Republic of Azerbaijan, as a newly formed independent state, has benefited from the experiences of such organizations. The author's opinions on all these issues were given and the general situation was analyzed.

Key words: *international economic organizations, Republic of Azerbaijan, WTO, IMF, EU*

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA YARADILAN NƏQLİYYAT-LOGİSTİKA İNFRASTRUKTURUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ

Mahmudov Mahmud Bahadur oğlu
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin 1 saylı Bakı DOST Mərkəzi
m.mahmudov.mlspp@gmail.com

Xülasə: *Məqalədə iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının mühüm və strateji*

aspektlərindən bəhs edilir. Vətən Müharibəsində əldə olunmuş qələbənin mahiyyəti və strateji əhəmiyyəti bəhs edilir. Erməni vandalları tərəfindən ərazilərin işğaldan azad edilməsindən sonrakı reallıqlar nəzərdən keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi səmərəliliyi və inkişaf mexanizmlərindən bəhs edilir. Xüsusilə Zəngəzur dəhlizinin regionda böyük əhəmiyyətə malik olmasından, həmçinin inteqrasiya proseslərinin genişlənməsindən bəhs edilir. Məqalənin sonunda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının regionda böyük əhəmiyyətə malik olması, iqtisadi inkişaf prosesləri və strateji aspektləri ümumiləşdirilmişdir.

Açar sözlər: *İqtisadi rayonlar, Qarabağ, Şərqi Zəngəzur, Zəngəzur dəhlizi*

Azərbaycan ordusunun şanlı qələbəsi ilə bitən İkinci Qarabağ Müharibəsi işğaldan azadedilmiş ərazilər ilə yanaşı Erməni işğalçıları tərəfindən həyata keçirilən dağıntıları tam olaraq üzə çıxmasına imkan yaratdı. Bir daha məlum oldu ki, otuz ilə yaxın davam edən işğal müddətində Erməni işğalçıları tərəfindən zəbt edilən Azərbaycan ərazilərində böyük dağıntılara səbəb olmuş və mövcud olan infrastrukturu demək olar ki, tamamən məhv etmişdir. Biz bu kimi dağıntıları xüsusilə Ağdam nümunəsində şahidi olduq.

Bunları nəzərə alaraq ölkə rəhbərliyi tərəfindən Vətən müharibəsi bitdikdən dərhal sonra "Böyük Qayıdış" proqramının icrasının həyata keçirilməsi istiqamətində işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün tapşırıqlar verildi.

Artıq hamıya bəllidir ki, otuz ilə yaxın müddətə Erməni vandalları tərəfindən işğal edilmiş Azərbaycanımızın əbədi və əzəli torpağı olan Qarabağımızı qəddarcasına işğal edən Ermənistana qarşı qələbə qazandıq. İllərdir mübarizə apardığımız, bir an belə unutmadığımız, hər an səbirsizliklə gözlədiyimiz torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Zəfər günü 03.12.2020-ci il tarixində elan edildi. Məhz Vətən müharibəsində yenilməz ordumuzun qəhrəmanlığı, şücaəti və xalqımızın birliyi nəticəsində əldə etdiyimiz bu qələbə münasibəti ilə xalqımızı təbrik edir, yaralılarımıza Allahdan şəfa diləyir, unudulmaz Şəhidlərimizə isə rəhmət diləyirik.

Cənab Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən iqtisadi rayonların yeni bölgüsü təsdiq edilmiş və ölkə iqtisadiyyatının idarə edilməsinin strateji mexanizmlərinin yenilənməsinə start verilmişdir. Belə ki, ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü təsdiq olunmuşdur. Bu fərmanda qeyd edilir ki, işğaldan azad olunmuş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilsin.

Avtomobil yollarının çəkilməsi işğalçı Ermənistandan azad edilən ərazilərin bərpa-quruculuq işlərinin həyata keçirilməsi zamanı atılan ilk addımlardan biri olmuşdur. Qarabağın dirçəlişi istiqamətində işğal olunmuş ərazilərdə yeni yol-nəqliyyat infrastrukturunun yaradılması "Böyük Qayıdış" proqramının ilk mərhələsi hesab edilir. Qeyd olunan yol-nəqliyyat infrastrukturunun yaradılması Qarabağ ərazisinə Şimal, Cənub və Şərq istiqamətindən hərəkət etmək imkanı yaradacaqdır.

Həyata keçirilən ilk layihələrdən biri Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının yenidən qurulması oldu. Hələ döyüşlərin davam etdiyi dövrdə bu yolların çəkilişinə başlanıldı. Bu yolun Tərtər şəhərindən Suqovuşan kəndinə qədər olan hissəsi 21 km, Suqovuşandan Talış kəndinə qədər olan hissəsi isə 7,5 km-dir. Növbəti mərhələdə isə Çaylı kəndindən Talış kəndinə qədər uzunluğu 8 km.olan yolun, həmçinin Talış kəndindən Naftalan şəhərinə doğru 22 km. uzunluğa malik yeni yolun inşası da planlaşdırılır. Qeyd edilən avtomobil yollarının birləşdirilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də Talış və Suqovuşan istiqamətində hərəkət etmək mümkün olacaqdır.

Digər böyük əhəmiyyət kəsb edən avtomobil yolu isə Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yoludur. Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı 17 noyabr 2020-ci ildə sərəncam imzalanmışdır və sərəncama əsasən Prezidentin ehtiyat fondundan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50 milyon manat ayrılmışdır. Qeyd olunan Füzuli-Şuşa yolu əsgərlərimiz tərəfindən Qarabağın mərkəzinə, xüsusilə də Şuşaya doğru irəlilədikləri yoldur. Ona görə də ölkə başçısı tərəfindən bu yol "Qələbə Yolu" adlandırılmışdır.

Şimal istiqamətində isə Toğanalı-Kəlbəcər avtomobil yolunun çəkilməsi nəzərdə tutulur. Bu yol Göygöl rayonunun Toğanalı kəndindən başlayaraq, Murov dağı silsiləsindən keçərək, Kəlbəcər, İstisu və Laçın istiqamətində davam edəcəkdir. Yolun ümumi uzunluğu təxminən 190 km-ə yaxındır. Toğanalı-Kəlbəcər istiqamətində olan hissəsi 74 km, Kəlbəcər-İstisu istiqamətində 28 km, Kəlbəcər-Laçın istiqamətinə isə 87 km təşkil edəcəkdir.. Yol iki, bəzi hissələrdə üç zolaqlı olacağı planlaşdırılır. Layihənin 16 kilometrliyindən Murov dağı silsiləsi başlanır və bundan sonra yolun keçəcəyi bəzi ərazilərdə yüksəklik 3500 metrə qədər çatır. Bu isə qış mövsümündə bu yoldan istifadəni çətinləşdirəcəkdir. Bu problemin aradan

qaldırılması üçün tunellərin tikintisi nəzərdə tutulur. Tikiləcək tunellərin ümumi uzunluğu təxminən 10-12 km olacaqdır. Tunellərdə hərəkət zolaqlarının sayının isə 4-ə qədər artırılması planlaşdırılır.

Beləliklə qeyd olunan avtomobil yollarının tikintisi nəticəsində şimal və cənub istiqamətindən Laçın və Kəlbəcər rayonlarına aparan müasir yol-nəqliyyat infrastrukturu yaradılacaqdır.

Azərbaycanın işğaldan azad edilən Qarabağ regionunun uğurlu coğrafi mövqeyi, yerləşdiyi ərazidən Avropaya və Asiyaya çıxışı real imkanlarının dahada artması, həmçinin Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya və dəhliz layihələrində fəal iştirakını gücləndirəcəkdir. Bu hal Cənubi Qafqazın strateji və etibarlı dövləti kimi Azərbaycanın iqtisadi və siyasi nüfuzunu daha da artıracaqdır. Hazırda Qarabağ regionunun geoiqtsadi dəyərlərə malik olması regional və beynəlxalq perspektivliyini yüksəldən, xarici ölkələrlə əməkdaşlıq əlaqələrinə müsbət təsir göstərən amilləri daha çox regionun təbii mineral ehtiyatları, şimalla-cənub, qərblə-şərq arasındakı mövcud nəqliyyat-kommunikasiya və tranzit imkanları ilə bağlıdır.

Əsas vacib amillərdər biri isə Qarabağ regionunun nəqliyyat-kommunikasiya sistemini yenidən qurulması istiqamətində aparılan nəqliyyat-logistika layihəsində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə (Mehri dəhlizi ilə) əlaqələndirmək və bununla da Türkiyə ilə Azərbaycan arasında birbaşa dəmir və şose yolunun strateji əhəmiyyətli çəkilişidir. İlk növbədə, bu yolun strateji əhəmiyyəti, şimal-cənub və şərq-qərb istiqamətindən dəhlizlər vasitəsilə Azərbaycana daxil olan yük axınları Bakı Beynəlxalq Dəniz limanında cəmləşərək buradan isə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətini və yaxud gəmilər vasitəsilə şərq istiqamətini təmin edən səmərəli logistika zəncirini formalaşdırmaqdan ibarətdir.

Bütün tarixi hadisələr böyük əhəmiyyət kəsb edir, lakin daha da qiymətlisi iqtisadiyyat ilə bağlıdır. Dəhlizlərlə yük və sərnişin daşımalarında nəqliyyat-logistika əlaqələrinin səmərəliliyinin artırılması, avtomobil yolu, dəmir yolu, hava yolu nəqliyyat xidmətləri ilə beynəlxalq daşımaların həcminin artırılması, vaxtın qısaldılmasına, tranzit daşımaların dəyərinin minimuma endirilməsinə səbəb olacaqdır.

Eyni zamanda, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, Azərbaycanın öz əzəli torpaqlarını inkişaf etdirilməsi, dirçəldilməsi və hansı gücə malik olduğunu ifadə edir. Bu baxımdan bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına şərait yaranır. Aparılan yeni iqtisadi bölgü əsasında yaradılan Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisinin iqtisadi və təbii resurslara malik olması, xüsusilə bu ərazilərdə sənayə, aqrar sektor və kənd təsərrüfatı, bitkiçilik və heyvandarlıq, həmçinin gələcəkdə turizmin inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması beynəlxalq arenada Azərbaycanın strateji rolunu əhəmiyyətli şəkildə artırır. İki yeni iqtisadi rayonun inkişafında strateji hədəflərin olması, Zəngəzur dəhlizi vasitəsilə türkdilli dövlətlərin inteqrasiya prosesinin sürətləndirilməsi, Qərb ilə Şərq, Şimalla Cənub arasındakı yükdaşımaların intensivliyinin artırılması, beynəlxalq ticarət əməliyyatlarının genişləndirilməsi, nəqliyyat- logistika sektorunun əhəmiyyətli səviyyədə inkişaf etdirilməsi sayəsində ölkəmizin siyasi və iqtisadi inkişaf tempinin artmasını formalaşdıracaqdır.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dirçəldilməsi, yüksək texnologiyalar ilə təmin edilməsi, o cümlədən "ağıllı" texnologiyalar bazasında müasir kəndlərin salınması, şəhərlərdə tikinti-bərpa işlərinin aparılması və inkişaf etdirilməsi, bölgəni sürətlə inkişaf edən bir diyara çevirəcəkdir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.

2. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə. [https://nk.gov.az/az/document/5457/print/].

Резюме

Махмудов М.Б.

Влияние транспортно-логистической инфраструктуры, созданной в экономических районах Карабаха и Восточного Зангезура, на социально-экономическое развитие

В статье исследованы о важных и стратегических аспектах создания Карабахского и Восточно-Зангезурского экономических районов в соответствии с Указом Президента Азербайджанской Республики о новом разделении экономических районов. Раскрыта сущность и стратегическое значение достигнутой в Отечественной войне. Рассмотрены новые объективные реалии после освобождения территорий от оккупации армянскими вандалами. Обсуждаются экономическая эффективность и механизмы развития Карабахского и Восточно-Зангезурского экономических районов. Отмечено особое большое значение Зангезурского коридора в регионе, а также расширение интеграционных процессов. Обобщены стратегические аспекты и процессы

экономического развития, а также рассмотрены особое значение Карабаха и Восточного Зангезура в регионе.

Ключевые слова: *Экономические районы, Гарабах, Восточный Зангезур, Зангезурский коридор*

Summary

Makhmudov M.B.

The Impact of the Transport and Logistics Infrastructure Created in the Economic Regions of Karabakh and Eastern Zangezur on Socio-Economic Development

The article talks about the important and strategic aspects of the creation of Karabagh and East Zangezur economic regions according to the Decree of the President of the Republic of Azerbaijan on the new division of economic regions. The nature and strategic importance of the victory achieved in the Patriotic War is discussed. The realities after the liberation of territories from occupation by Armenian vandals are reviewed. The economic efficiency and development mechanisms of Karabakh and Eastern Zangezur economic regions are discussed. In particular, it is mentioned that the Zangezur corridor is of great importance in the region, as well as the expansion of integration processes. At the end of the article, Garabagh and Eastern Zangezur economic districts are of great importance in the region, economic development processes and strategic aspects are summarized.

Key words: *Economic regions, Garabagh, Eastern Zangezur, Zangezur corridor*

QARABAĞDA BAZAR İNFRASTRUKTURUNUN İQTİSADİ İNKİŞAFDA ƏHƏMİYYƏTİ

Məmmədova Samirə Yaşar qızı

Azərbaycan Kooperasiya Universiteti

mammadzade.xanim2022@gmail.com

Xülasə: *Məqalədə Qarabağ İqtisadi rayonu və Şərqi Zəngəzur İqtisadi rayonunun iqtisadi inkişafında bazar infrastrukturunun rolu və hər bir inzibati rayonun ixtisaslaşdığı sənaye, kənd təsərrüfatı sahələri araşdırılmışdır. Təbii sərvətləri, əlverişli coğrafi mövqeyi, eləcə də əkinə yararlı münbit torpaqları bu ərazilərin iqtisadi inkişaf potensialını artırır. Lakin bu potensial düzgün qiymətləndirilməli və davamlı inkişafı şərtləndirən amillər nəzərə alınaraq, bazarın idarə olunması həyata keçirilməlidir. Bütün bu məsələlərlə bağlı müəllifin fikirləri qeyd edilmiş və müəyyən təkliflər irəli sürülmüşdür.*

Açar sözlər: *Qarabağ, inkişaf, bazar, potensial, infrastruktur, sənaye, iqtisadiyat, innovasiya*

Qarabağın iqtisadi inkişaf xüsusiyyətlərini və bazar infrastrukturunu müəyyənləşdirmək üçün məsələyə iqtisadi rayonlar nöqteyi-nəzərdən baxa bilərik. Belə ki, Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu ayrılıqda təhlil edilə bilər [2, s.19].

Qarabağ iqtisadi rayonunun tərkibinə aşağıdakı inzibati rayonlar daxildir:

1. Ağcabədi -1.76 min km^2
2. Ağdam -1.15 min km^2
3. Bərdə -0.95 min km^2
4. Füzuli -1.39 min km^2
5. Xankəndi -0.008 min km^2
6. Xocalı – 1.0 min km^2
7. Xocavənd -1.46 min km^2
8. Tərtər -0.96 min km^2
9. Şuşa -0.31 min km^2

Qarabağ iqtisadi rayonunda 2021-ci ilin statistikasına əsasən 904.5 min nəfər əhali qeydiyyatdan keçmişdir. Qeydiyyatda olan əhali üzrə əmək bazarını nəzərdən keçirsək görərik ki, iqtisadi fəal əhalinin ən yüksək göstəricisi Ağdamda qeydə alınmışdır.Bu, təxminən 99 min nəfərdir.

Qarabağ iqtisadi rayonunun təbii sərvətləri onun gələcək inkişafında mühüm rol oynayacaqdır. Aşağıdakı cədvəldə həmin inzibati rayonlar üzrə mineral ehtiyatların paylanması göstərilmişdir:

Cədvəl 1.

Qarabağ: inzibati rayonlar üzrə mineral resurslar

Ağcabədi	Gil, qum-çınqıl
Ağdam	Üzlük daşı, sement xammalı, qum-çınqıl, gil, yeraltı şirin sular
Bərdə	Gil, qum-çınqıl
Füzuli	Qum-çınqıl, mişar daşı, gil, yeraltı şirin sular
Xankəndi	Üzlük daşı, qum-çınqıl, gil
Xocalı	Üzlük daşı, qum-çınqıl, gil
Xocavənd	Gil, əhəng xammalı
Tərtər	Mişar daşı, qum-çınqıl, gil, kömür, gips, mis-molibden
Şuşa	Üzlük daşı, əhəng xammalı, gil, yeraltı şirin sular, mineral sular

Mənbə:https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf

Mineral ehtiyatların yayılma arealına görə istehsal infrastrukturu qurulmalıdır. Belə olduqda həm istehsal sürətlənmiş olar, həm də nəqliyyat xərcləri azalar.

Qeydiyyatda olan əhalisinin sayı 343.5 min nəfər olan Şərqi Zəngəzur iqtisadi rayonunun ümumi ərazisi 7.47 min km^2 təşkil edir. Şərqi Zəngəzur iqtisadi rayonunun tərkibinə aşağıdakı inzibati rayonlar daxildir [4, s.102]:

1. Kəlbəcər -3.05 min km^2
2. Laçın -1.84 min km^2
3. Cəbrayıl -1.05 min km^2
4. Qubadlı -0.8 min km^2
5. Zəngilan -0.73 min km^2

Şərqi Zəngəzurun əkin sahələrinin proqnozlaşdırılan strukturuna nəzər salsaq görərik ki, aşağıdakı istiqamətlərdə nəzərəçarpacaq dərəcədə potensial mövcuddur:

- Taxıl
- Tütün
- Kartof
- Tərəvəz
- Bostan bitkiləri
- Meyvə və giləmeyvə
- Üzüm
- Yem bitkiləri

Aşağıdakı cədvəldə Şərqi Zəngəzurda torpaq ehtiyatlarının bölgüsü verilmişdir. Cədvəldən də aydın olur ki, burada örüş-otlaq üçün yararlı olan torpaq sahələri daha genişdir. Bu da o deməkdir ki, bölgə heyvandarlığı inkişaf etdirmək üçün əlverişlidir. Bununla yanaşı, çoxillik əkmələrə yararlı olan torpaq ehtiyatlarının azlığı müşahidə olunur.

Cəbrayıl inzibati rayonunun ərazisinin 20.5 min ha, Qubadlı inzibati rayonunun isə 15.0 min ha sahəsi əkinə yararlıdır və bu səbəblə də bu iki inzibati rayonda əkinçiliyin inkişafı üçün infrastruktur şəraiti yaradılmalıdır [5, s.29]. Sözü gedən ərazilərdə əhalinin istehsal vərdişlərini inkişaf etdirmək və bu sahədə ixtisaslı kadrlar yetişdirmək, eyni zamanda innovativ texnoloji yeniliklərdən istifadə edərək minimum əkin sahəsindən maksimum məhsul əldə edə bilmək üçün dərininə inkişaf yolu seçilməlidir.

İxtisaslı kadrlar yetişdirmək və gənclərin yuxarıda göstərilən istiqamətlərdə fəaliyyətini stimullaşdırmaq üçün həvəsləndirici tədbirlər görülə, gənc sahibkarlara xüsusi yardım və güzəştlər tətbiq oluna bilər.

Cədvəl 2.

Şərqi Zəngəzur: Torpaq ehtiyatlarının tərkibi

	Əkin (min ha)	Çoxillik əkin (min ha)	Dinc (min ha)	Biçənək (min ha)	Örüş-otlaq (min ha)	Həyətyanı (min ha)
Kəlbəcər	4.0	-	2.3	7.6	76.4	0.9
Laçın	12.1	0.2	3.7	4.7	69.3	0.9
Cəbrayıl	20.5	7.2	0.6	-	23.2	1.1
Qubadlı	15.0	0.9	-	-	17.6	0.6
Zəngilan	7.7	2.7	0.1	0.2	23.3	0.6

Mənbə:https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf

Yuxarıda qeyd olunanları nəzərə alaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları olmaqla, ümumilikdə Qarabağın iqtisadi inkişafında bazar infrastrukturunun əhəmiyyətinin artırılması yönündə bir sıra tədbirlər görülə bilər. Bunları həyata keçirtmək üçün aşağıdakı təklifləri irəli sürmək olar:

- Hər bir inzibati rayonun iqtisadi imkanları, potensialı, təbii ehtiyatları dəqiq araşdırılmalıdır ki, bölgəyə yatırılan investisiya axını düzgün istiqamətləndirilsin.
- Ən son texnoloji yeniliklərdn istifadə edərək innovativ inkişaf təmin edilməldir. Bu həm vaxt və pul itkisinin qarşısını alacaqdır, həm də işin səmərəliliyini artıracaqdır.
- Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, dövlət proqramlarında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarında nəzərdə tutulan istehsal, emal və xidmət sahələrinin yaradılması və ya genişləndirilməsi həyata keçirilməlidir.
- Aqrar sahədə yeni müəssisələrin açılması və sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin dəstəklənməsi çox önəmlidir.

Ədəbiyyat

1. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Bakı, 2021
2. https://www.azerbaijans.com/content_464_az.html
3. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadi rayonlar üzrə Prioritet istiqamətlər http://edf.gov.az/az/content/105
4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı, dövlət proqramı, (2004-2008-ci illər) Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
5. http://www.geostrategiya.az/news.php?id=187.

Резюме

Маммадова С.Я.

Значение рыночной инфраструктуры в экономическом развитии Карабаха

В статье рассматривается роль рыночной инфраструктуры в экономическом развитии Карабахского экономического района и Восточно-Зангезурского экономического района, а также специализированных промышленных и сельскохозяйственных районов в каждом административном районе. Природные ресурсы, выгодное географическое положение, а также плодородные земли, пригодные для возделывания, повышают экономический потенциал развития этих территорий. Однако этот потенциал должен быть должным образом оценен и управление рынком должно осуществляться с учетом факторов, определяющих устойчивое развитие. Отмечены взгляды автора на все эти вопросы и высказаны определенные предложения.

Ключевые слова: *Карабах, развитие, рынок, потенциал, инфраструктура, промышленность, экономика, инновации*

Summary

Mammadova S.Y.

Importance of Market Infrastructure in Economic Development in Karabakh

In the article, the role of market infrastructure in the economic development of Karabakh Economic Region and Eastern Zangezur Economic Region, and the industrial and agricultural areas specialized in each administrative region are examined. Natural resources, favorable geographical location, as well as fertile lands suitable for cultivation increase the economic development potential of these areas. However, this potential should be properly assessed and market management should be carried out taking into account the factors that determine sustainable development. The author's views on all these issues have been noted and certain suggestions have been put forward.

Key words: *Karabakh, development, market, potential, infrastructure, industry, economy, innovation*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İQTİSADİ POTENSİALI VƏ İQTİSADİYYATIN İNKİŞAFI MƏSƏLƏLƏRİ

Mirzəyev Emil Mehrəli oğlu
İqtisadiyyat İnstitutu
emil.mirzeyev. 84@inbox.ru

Xülasə: *Tesizdə işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın, xüsusilə istehsal və xidmət sahələrinin inkişafı üçün iqtisadi potensial nəzərdən keçirilir, həmçinin mövcud vəziyyətin dayanlqlı-artan inkişafının təmin edilməsi yollarının konseptual əsasları təhlil edilir. Aparılmış təhlil onu göstərir ki, işğaldan azad olunmuş ərazilərin inkişafı üçün geniş imkanlar vardır. Ona görə də bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün dövlət səviyyəsində ciddi iqtisadi tədbirlərin həyata keçirilməsi zəruridir.*

Açar sözlər: *Post-konlikt zonaları, iqtisadi potensial, innovasiya, istehsal, dövlət-özəl əməkdaşlığı*

Post-Konflikt Ərazilərində yeni iqtisadiyyatın və bərpa-quruculuq işlərinin təmin edilməsi iqtisadi siyasətin prioritet istiqmətlərindəndir. Qeyd etmək lazımdır ki, ölkənin istehsal- təsərrüfat dairəsinin effektiv inkişafının təmin edilməsi işğaldan azad edilmiş ərazilərin istehsal-təsərrüfat dairəsinə cəlb eidlməsindən əhəmiyyətli dərəcədə asılıdır. Post- Konflikt zonalarında iqtisadiyyatın ənənəvi və qeyri-ənənəvi sahələrinin inkişafının təmin edilməsi üçün kifayət qədər təbii və iqtisadi resurslar, münbit şərait vardır. Eləcə də, mövcud zonalarda sahibkarlıq və biznes mühitinin əlverişliliyi mövcud zonalarda müvafiq sahələrin inkişafına yerli və xarici sahibkarları cəlb etməklə, inkişafının təmin edilməsinə və effektivliyinin yüksəldilməsinə xüsusi təkan verir. Post-Konflikt zonalarında iqtisadiyyatın ənənəvi sahələrinin inkişafını qeyd edərkən, kənd təsərrüfatı və onun inkişaf meyillərinə xüsusi fikir verilməlidir. Kənd təsərrüfatı maddi istehsalın əsas sferası olmaqla yanaşı, əhali tələbinin və sənayenin tələbatının ödənilməsində, eləcə də təchizat və dəyər zəncirinin formalaşmasında müstəsna əhəmiyyətə malikdir. Geniş təkrar istehsalın fazalarının effektiv formalaşmasında, eləcə də ixracın təmin edilməsində kənd təsərrüfatı mühüm əhəmiyyət daşıyır. Bu baxımdan da işğaldan azad edilmiş ərazilərdə ənənəvi sahələrin inkişaf etdirilməsi üçün kifayət qədər imkanlar var. Rəsmi məlumatlara görə, işğaldan azad edilmiş ərazilərdə 188 min hektar əkinə yararlı torpaq sahəsi mövcuddur. İşğaldan azad edilmiş ərazilərdə üzümçülük, meyvəçilik, taxılçılıq və heyvandarlığın inkişafı üçün çox münbit şərait və potensial vardır. Ölkənin inkişafı, eləcə də ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün mövcud ərazilərdə bu sahələrin inkişafı nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərdə həmçinin, ölkədə tarixən mövcud olan baramaçılıq, arıçılıq ənənələrinin, inkişafının təmin edilməsi strateji hədəf kimi müəyyənləşdirilir [1]. Heyvandarlıq sahəsində iri və xırda buynuzlu heyvan və heyvan mənşəli məhsulların ixrac yönümlülüyünün təşkili və artırılması məqsədilə Qarabağ və Şərqi Zəngəzurun bir hissəsində xüsusi zonaların yaradılması nəzərdə tutulur ki, burada da ixtisaslaşdırılmış laboratoriyaların formalaşdırılması diqqət mərkəzində duran əsas məsələlərdəndir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Qida təhlükəsizliyi Agentliyi bu istiqamətdə müvafiq təkliflər planını ölkə rəhbərliyinə təqdim etmişlər. İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatında heyvandarlığın inkişafının innovativ üsulları ətraflı olaraq nəzərdən keçirilir. Belə ki, Füzuli rayonunda yaradılan heyvanların identifikasiya mərkəzində avtomatlaşdırılmış idarəetmə sistemlərinin köməyilə, baytarlıq normalarının işlənməsi və təkmilləşdirilməsi həyata keçirilir. Bu da öz növbəsində heyvandarlığın sanitar-gigiyena qaydaları əsasında inkişafınına və bu sahədə məhsuldarlığın təmin olunmasına əlverişli şərait yaradacqadır. İşğaldan azad edilmiş ərazilərdə heyvandarlıqla yanaşı, əkinçiliyin də inkişafı prioritet məsələlərdən biri kimi qiymətləndirilir və bu sahənin inkişafı üçün ərazidə kifayət qədər zəngin torpaq-iqlim şəraiti, resurslar mövcuddur [3]. Statistik məlumatlara əsasən, deyə bilərik ki, ilkin olaraq işğaldan azad edilmiş ərazilərin təxminən 155 min hektar sahəsinin kənd təsərrüfatında ümumi əkin dövriyyəsinə cəlb olunacağı nəzərdə tutulur ki, bunun da təxminən 100 min hektarı taxıl və buğda əkinlərinin payına düşəcək. Nətiçədə ölkə üzrə qida sənayesinin inkişafı təmin olunacaq və heyvandarlığın inkişafı məqsədilə xammal resursları formalaşcaq. Bütün bunlarla yanaşı, işğaldan azad edilmiş ərazilərdə maddi istehsal sahələriylə yanaşı, qeyri-maddi istehsal sahələrinin inkişafı üçün də kifayət qədər imkanlar var. Məlum olduğu kimi, turizm sektoru ölkə iqtisadiyyatının əsas sektorlarından biri olmaqla, iqtisadi inkişafın təmin edilməsində və turizm məhsulunun ixracında müstəsna rol oynayır. Respublikamızda bu sektorun inkişafı və dünya turizm sektoruna inteqrasiyasının təmin edilməsi üçün cari turizm potensialı ilə yanaşı, post-konflikt zonalarının da turizm potensialının formalaşdırılması və ölkənin turizm üzrə ümumi dövriyyəsinə cəlb edilməsi vacibdir. İşğaldan azad edilmiş ərazilərin turizm üçün faydalı olan sərvətləri və mədəniyyət abidələri bu ərazilərdə mövcud sektorun inkişafını və turizmə investisiyaların təşviqini təmin edəcəkdir [2]. Məlumat üçün qeyd edə

bilərik ki, Şərqi Zəngəzurun- Laçın, Kəlbəcər və Zəngilan rayonlarında qış və dağ turizminin inkişafı üçün əlverişli şərait mövcuddur. Bütövlükdə işğaldan azad edilmiş ərazilərin inkişafı məqəsdilə aşağıdakıların həyata keçirilməsi məqəsədədiyğundur:

- ilk öncə mövcud ərazilərdə iqtisadiyyatın müvafiq sahəsinin inkişafı perspektivləri müəyyənləşdirilməli, tədbirlər planı işlənib-hazırlanmalıdır;
- mövcud ərazilərdə iqtisadiyyatın inkişafının təmin edilməsi üçün əlverişli biznes və sahibkarlıq mühiti yaradılmalı, ərazilərə investisiyaların təşviqi təmin edilməlidir;
- post-konflikt zonalarında əhalinin məşğulluğu və təhlükəsizliyi təmin edilməlidir;
- ərazilərdə əmək tutumlu sahələrin inkişafı təmin edilməlidir;
- post-konflikt zonalarında iqtisadi inkişafı məqsədilə yerli əhali ilə yanaşı, ölkənin digər rayonlarından olan əhalinin cəlb edilməsinin stimullaşdırılması;
- mövcud ərazilərdə dövlət-özəl əməkdaşlığının təmin edilməsi və korporativ biznes strukturlarının formalaşdırılması;
- iqtisadi sahələrin inkişafının innovativliliyinin təmin edilməsi;
- rəqəmsallaşma tədbirlərinin kompleks inkişafının təmin edilməsi və s.

Ədəbiyyat

1. Satıcı A. İşğaldan azad olunmuş ərazilərin post-konflikt dövründə bərpa prosesi https://ereforms.gov.az/az/ekspert-yazilari/isgaldan-azad-olunmus-erazilerin-post-konflikt-dovrunde-berpa-prosesi-18.

2. Nicat Hacızadə İxrac potensialının yüksəldilməsi və investisiyaların təşviqi https://ereforms.gov.az/az/ekspert-yazilari/ixrac-potensialinin-yukseldilmesi-ve-investisiyalarin-tesviqi-67

3. Günay Quliyeva: "Ermənistanın Azərbaycana vurduğu ziyan- reparasiya, restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və təkrarlamamaq zəmanəti". https://ereforms.gov.az/az/ekspert-yazilari/gunay-quliyeva-ermenistanin-azerbaycana-vurdugu-ziyan-reparasiya-restitusiya-kompensasiya-reabilitasiya-satisfaksiya-ve-tekrarlamamaq-zemaneti-61

Резюме

Мирзоев Э.М.

Экономический потенциал территорий, освобожденных от оккупации, и вопросы экономического развития

В тезисах исследуется потенциал развития экономики, особенно производства и сферы услуг, на территориях, освобожденных от оккупации, а также анализируются концептуальные основы способов обеспечения устойчивого развития в сложившейся ситуации. Проведенный анализ показывает, что имеются широкие возможности для развития освобожденных от оккупации территорий. Поэтому необходимо осуществить серьезные экономические меры на государственном уровне, дла устранеия существующих проблем в этой сфере.

Ключевые слова: *постконфликтные зоны, экономический потенциал, инновации, производство, государственно-частное сотрудничество*

Summary

Mirzoev E.M.

Economic Potential of the Territories Freed from Occupation and Issues of Economic Development

The thesis explores the economic potential of economic development, especially production and services, in the territories liberated from occupation, and also analyzes the conceptual foundations for ways to ensure sustainable development in the current situation. The analysis carried out shows that there are ample opportunities for the development of the territories liberated from occupation. Therefore, it is necessary to carry out serious economic measures at the state level in order to eliminate the existing problems in this area.

Key words: *post-conflict zones, economic potential, innovations, production, public-private cooperation*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BİZNES STRATEGİYASININ SEÇİLMƏSİ

Mürsəlov Malik Marif oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
malik_mursalov@hotmail.com

Xülasə: *Məqalədə qeyd edilir ki, işğaldan azad edilmiş ərazilərdə biznes strukturlarının yaradılması üçün çox növlü təbii sərvətlər, kifayət qədər potensial enerji mənbələri, həm də potensial əmək ehtiyatları vardır. İndi əsas məsələlərdən biri işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyətinin təşkili və inkişafı üçün möcvud imkanlardan səmərəli istifadə etməkdir. Bu məqsədə nail olunması xeli dərəcədə biznes strategiyasının düzgün seçilməsindən asılıdır. Məqalədə işğaldan azad olunmuş ərazilərdə tətbiq edilməsi məqsədəuyğun olan biznes strategiyaları əsaslandırılır və onların səmərəliliyinə nail olunması üçün təklif və tövsiyələr verilir.*

Açar sözlər: *işğaldan azad edilmiş ərazilər, biznes strategiyası, seçilmək, məqsədəuyğunluq, təkliflər*

Ali Baş Kiomadan İlham Əliyevin rəhbərliyi ilə igid əskər və zabitlərimizin qanı və canı hesabına işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyətinin təşkili və inkişafı üçün əlverişli imkan yaranmışdır. Bu ərazilərdə müxtəlif istiqamətli biznes fəliyyətinin təşkili üçün həm çox növlü təbii sərvətlər, kifayət qədər potensial enerji mənbələri, həm də potensial əmək ehtiyatları vardır. İndi əsas məsələlərdən biri işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyətinin təşkili və inkişafı üçün möcvud imkanlardan səmərəli istifadə etməkdir. Bu məqsədə nail olmaq üçün yaradılması nəzərdə tutulan biznes strukturlarının müvafiq inkişaf strategiyaları hazırlanıb həyata keçirilməlidir.

Təcrübə göstərir ki, biznes strategiyarının tətbiqi biznes strukturlarına iqtisadi fayda gətirə bilər. Ancaq son zamanlar biznes strategiyalarının hazırlanmasına və tətbiqinə geniş fiir verilməsinə baxmayaraq, onlar müvafiq strukturların idarəetmə mexanizminin kifayət qədər mənimsənilməmiş alətlərindən biri olaraq qalmaqdadır.

Tədqiqatlar göstərir ki, konkret biznes strategiyanın seçilməsi mahiyyət etibarı ilə bütövlükdə ölkə iqtisadiyyatının inkişaf səviyyəsindən, tətbiq obyektinin strateji potensialından və onun resurslarının genişləndirilməsi imkanlarından asılıdır. Seçilmiş biznes strategiyasının məqsədəuyğunluğuna xarici amillər müəyyən dərəcədə təsir göstərsə də, o, əsasən biznes strukturunun daxili mühiti ilə müəyyən edilir.

Biznes strukturunun işlənməsinin və tətbiqinin bir sıra məqsədləri ola bilər: məsələn, rəqabət üstünlüklərinə əsaslanan istehsal, əmtəə, qiymət və s. Fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə yaradılması nəzərdə tutulan biznes strukturlarının inkişaf strtegiyalarının əsas məqəsdləri:

- rəqabət üstünlüklərinə əsaslanan istehsal proseslərinin təşkilindən;
- onun inkişaf edib böyüməsinə nail olmaqdan;
- milli (əsasən də yerli) istehlakçıların alıcılıq qabiliyyəti nəzərə alınmaqla onların tələbatlarının ödənilməsinə istiqamətlənmiş əmtəələrin istehsalından ibarət olmalıdır.

Son illərdə aparılmış islahatların və bazar şərtlərinin təsiri nəticəsində Azərbaycan iqtisadiyyatı əhəmiyyətli dərəcədə dəyişmişdir. Bununla belə, bir çox biznes strukturlarının fəaliyyətinin səmərəliliyi aşağı səviyyədə qalmaqdadır. Bu strukturların sabit inkişafı və idarə olunması, onların fəaliyyətinin səmərəliliyinin artırılması problemlərinin həlli, düzgün strategiyanın hazırlanmasından və tətbiqindən çox asılıdır. Bu xüsusilə işğaldan azad edilmiş ərazilərdə yaradılması nəzərdə tutulan biznes strukturlarına aiddir.

Firimizcə, qeyd edilən ərazilərdə yaradılacaq biznes strukturları üçün mümkün strategiyalar sabitlik strategiyası və böyümə strtegiyası olmalıdır. Sabitlik strrategiyası aşağıdakıları nəzərdə tutmalıdır:

- konsentrasiyanı;
- mövcud biznes sahələrinin dəstəklənməsini;
- konkret bazar seqmentinə yönəldilməsini;
- istehsalın qabaqcıl texnika və texnologiya ilə təchiz edilməsini.

Müvafiq olaraq, bu halda biznes struturunun siyasəti mövcud resurslardan səmərəli istifadə edilməsinə, mövcud potensialdan daha səmərli istifadə yollarının axtarışına yönəldilməlidir.

Böyümə strategiyası ən perspektivli biznes sahələrini inkişaf etdirməyə yönəldilməlidir Bu strategiyanın həyata keçirilməsi mövcud istehsalın prioritet yenidən qurulmasını və texniki yenidən qurulmasını nəzərdə tutmalıdır. Beləliklə, biznes strukturunun strategiyasının əsas elementi istehsal həcminin artırılması, çeşidin yenilənməsi olacaqdır. Eyni zamanda, vəzifə yalnız istehlakçıların tələbatlarının kəmiyyətcə ödənilməsi olmamalı, həm də əmtəələrin keyfiyyətinin yüksəldilməsi diqqət

mərkəzində olmalıdır, yəni istehsalın daha yüksək texnoloji səviyyəsinə və onun daim təkmilləşdirilməsinə diqqət yetirilməlidir.

Ancaq nəzərə almaq lazımdır ki, fəaliyyətə başlamış biznes strukturunun böyüməsinə və inkişafına nail olunması:

- onun bazar payının artırılması;
- ixtisaslı mütəxəssislərin cəlb edilməsi;
- istehsal xərclərinin azaldılması;
- müştəri xidmətinin keyfiyyətinin yüksəldilməsi;
- vahid idarəetmə komandasının yaradılması;
- korporativ mədəniyyətin inkişafı;
- uzunmüddətli strateji investisiyaların cəlb edilməsi ilə əldə edilə bilər.

Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatda aşağıdakı biznes strategiyalarına da rast gəlmək olar:

- ərzaq-pərakəndə strategiyası;
- marketinq strategiyası;
- rəqabət strategiyası;
- şirkətin inkişaf strategiyası və s.

Hansı biznes strategiyasının seçilməsindən asılı olmayara innovasiya hər bir strategiyanın mərkəzində olmalıdır, çünki eyni xərclərin azaldılması və ya bazar payının artırılması texnoloji və məhsul innovasiyası vasitəsilə əldə edilə bilər. Nəzərə almaq lazımdır ki, istənilən məhsulun yeniliyi texnologiyada dəyişikliyi və ya təkmilləşdirməni tələb edir ki, bu da əksər hallarda avadanlıqların dəyişdirilməsini və ya modernləşdirilməsini tələb edir.

Təcrübədə əldə edilmiş bir qayda dəyişməz olaraq qalır - biznes struturunun uzunmüddətli inkişafı yalnız yeniliklər əsasında mümkündür. İnkişaf etmiş ölkələrin əksər biznes strukturlarının nümunələri bu müddəanın düzgünlüyünü dəfələrlə sübut etmişdir: onların davamlı uzunmüddətli artımını, ilk növbədə innovativ inkişaf yoluna keçid, yeniliklərin tətbiqi sayəsində mümkün olmuşdur.

İşğaldan azad edilmiş ərazilərdə biznes strukturu yaratmaq istəyən sahibkarlar nəzərdən qaçirmamalıdırlar ki, rəqabət mübarizəsində qalib gələn öz fəaliyyətini əsasən innovativ yanaşma əsasında quran, yeni məhsul və xidmətlərin inkişafını strateji planın əsas məqsədi kimi qarşıya qoyan biznes strukturudur. Biznes strategiyasının tətbiqinin nəticəsi:

- biznes strukturunun elmi-istehsal potensialının və onun təşkilati strukturunun rəqabətqabiliyyətli məhsul istehsalı vəzifələrinə uyğunlaşdırılması;
- işğaldan azad edilmiş ərazilərin davamlı maliyyə-iqtisadi inkişafının təmin edilməsi üçün bazanın formalaşdırılması;
- istehsalın davamlı artım templərinə nail olunması;
- ölkəmizdə yerli sənaye üçün xarakterik olan texnoloji boşluqların aradan qaldırılması olmalıdır.

Beləliklə, sadalanan strategiyalardan hər hansı biri işğaldan azad edilmiş ərazilərdə inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi üçün əsas götürülə bilər. Bu və ya digər strategiyanın seçilməsi yaradılan biznes strukturunun sahə xüsusiyyətlərindən, dövlətin yaradılan biznes strukturlarına münasibətdə siyasətindən, istehsal olunan məhsula tələbatın səviyyəsindən və s. asılıdır. Sabitlik, böyümə strategiyaları birmənalı inkişaf istiqamətlərini diktə edirsə, innovativ inkişaf strategiyası bazarların və texnologiyaların yaradılması və inkişafı üçün innovasiyaların işlənib hazırlanmasını və həyata keçirilməsini nəzərdə tutur.

Nəzərə almaq lazımdır ki, biznes strukturunun müvəffəqiyyətlə fəaliyyət göstərməsi biznes strategiyasının düzgün seçilməsindən bilvasitə asılıdır.

Ədəbiyyat

1. Вергилес Э.В. Стратегическое управление организацией /Э.В. Вергилес. М.: Московский международный институт эконометрики, информатики, финансов и права, 2013, 26 с.

2. Егорова А.О. Анализ состояния хозяйственной деятельности предприятия, как базы формирования стратегии развития / А.О. Егорова // Молодой ученый, 2011. №3. Т.1, с. 156-159.

3. Иванов Е.А. Внутренние и внешние факторы стратегии развития предприятия /Е.А. Иванов //Российское предпринимательство. 2011, №6, с. 82-87.

4. Жемчугов А.М. Сильная стратегия предприятия. Разработка и реализация / А.М. Жемчугов, М.К. Жемчугов // Стратегический менеджмент. — 2014. — №4. — с. 304-314.

5. How to Develop a Smart Business Strategy.https://www.masterclass.com/articles/how-to-develop-a-smart-business-strategy.

Резюме
Мурсалов М.М.
Выбор бизнес-стратегии на освобожденных от оккупации территориях

В статье отмечается, что на освобожденных от оккупации территориях имеются много видов природных ресурсов, достаточно потенциальных источников энергии и потенциальных трудовых ресурсов для создания бизнес-структур. Сейчас одной из главных задач является эффективное использование имеющихся возможностей для организации и развития предпринимательской деятельности на освобожденных территориях. Достижение этой цели во многом зависит от правильного выбора бизнес-стратегии. В статье обосновываются бизнес-стратегии, пригодные для целей применения на территориях, освобожденных от оккупации, и приводятся предложения и рекомендации по достижению их эффективности.

***Ключевые слова**: освобожденные территории, бизнес-стратегия, выбор, целесообразность, предложения*

Summary
Mursalov M.M.
Choosing a Business Strategy Territories Liberated from the Occupation

The article notes that in the territories liberated from occupation there are many types of natural resources, there are enough potential energy sources and potential labor resources to create business structures. Now one of the main tasks is the effective use of the existing opportunities for the organization and development of entrepreneurial activity in the liberated territories. Achieving this goal largely depends on the right choice of business strategy. The article substantiates business strategies suitable for the purposes of application in the territories liberated from occupation and provides suggestions and recommendations for achieving their effectiveness.

***Key words:** liberated territories, business strategy, choice, expediency, proposals*

BEYNƏLXALQ TURİZM VƏ ONUN ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

Pənahəliyeva Məlahət Ömər qızı, Babayeva Tuğra Piriş qızı
Sumqayıt Dövlət Universiteti
penahliyeva@mail.ru ; tuqra_babayeva@mail.ru

***Xülasə:** Məqalədə beynəlxalq turizmin mahiyyəti açıqlanmış və ölkələrin inkişafında rolu tədqiq edilmişdir. COVID-19 pandemiyasının beynəlxalq turizmə təsirləri və bəzi ölkələrin bu təsirlərin azaldılması istiqamətində gördükləri tədbirlər nəzərdən keçirilmişdir. Azərbaycanda gəlmə və getmə turizminin mövcud vəziyyəti təhlil edilmişdir. Beynəlxalq turizm və qonaqpərvərlik sənayesində böhran vəziyyətləri kontekstində turist axınının aktivliyinin stimullaşdırılmasının əsas üsulları müəyyənləşdirilmişdir. Turizmin inkişafı baxımından innovasiyaların rolu araşdırılmışdır.*

***Açar sözlər:** beynəlxalq turizm, turist, COVID-19, pandemiya, turizm sənayesi*

Turizm ictimai həyatın bütün sahələrinin inkişafı üçün güclü stimul formalaşdıran, geniş çeşiddə xidmətlər istehsalını və satışını inkişaf etdirən, infrastrukturun inkişafına kömək edən, yeni iş yerlərinin yaradılması üçün zəmin yaradan, investisiya qoyuluşunu genişləndirən ən mühüm iqtisadi kateqoriyadır. Turizm gəlir axınını və dünya iqtisadiyyatlarının diversifikasiyasını artırır. Dövlət iqtisadiyyatı nöqteyi-nəzərindən beynəlxalq turizmin inkişafının əhəmiyyəti, ilk növbədə, ÜDM-ə təsiridir.

Qlobal iqtisadiyyatın inkişafının müasir tendensiyaları dünya turizm bazarının fəaliyyət göstərməsi və inkişafı üçün yeni qaydaları diktə edir. Turizm bazarının sürətli inkişafı bir sıra şərtlərdən asılıdır ki, bunlar turizmin təşkilati-iqtisadi idarəetmə mexanizminin əsaslarının dəyişdirilməsi, turizmin yeni növlərinin yaranması, turizm bazarında rəqabətin güclənməsi prosesləri, turizm sektorunda kapitalın mobilliyinin gücləndirilməsi, habelə turizm xidmətləri üzrə milli bazarların sərhədlərinin genişləndirilməsi və digərləridir.

Azərbaycan spesifik təbii, iqlim və rekreasiya ehtiyatlarına, unikal tarixi abidələrə və etnik mədəniyyətlərin unikal birləşməsinə malikdir ki, bu da turizmin inkişafı üçün əhəmiyyətli potensialdan danışmağa imkan verir. Bu amillər Azərbaycan iqtisadiyyatının mədəni, maliyyə və investisiya imkanlarının genişlənməsinə kömək edir. Müvafiq olaraq, beynəlxalq turizmin inkişafının ən mühüm aspektlərinin, funksional xüsusiyyətlərinin, diversifikasiya üzrə dünya təcrübəsinin öyrənilməsi şübhəsiz ki, Azərbaycan üçün aktualdır.

Beynəlxalq turizm insanda həm mənəvi, həm də maddi mənada özünü təkmilləşdirmək istəyini inkişaf etdirir, zənginləşməyə, intellektual yüksəlişə, elm və texnikanın ən son nailiyyətlərinin inkişafına öz töhfəsini verir. Bundan əlavə, beynəlxalq turizm insanın ən vacib ehtiyaclarından birini - ünsiyyət ehtiyacını reallaşdırır.

Dövlətin beynəlxalq strategiyalarının tətbiqi baxımından beynəlxalq turizmin rolunu qiymətləndirmək çətindir. Turizmin müasir inkişafı fərddən, sahibkarlıqdan tutmuş bütün səviyyələrdə dövlət, beynəlxalq və qlobal səviyyədə hökumət strukturlarının qarşılıqlı əlaqəsi ilə ayrılmaz şəkildə bağlıdır. Beynəlxalq aviaşirkətlərin xidmətlərinin reallaşdırılması, mehmanxana və turizm şirkətlərinin qlobal şəbəkələri, beynəlxalq sığorta təşkilatlarının, iri beynəlxalq bankların fəaliyyəti və bütün növ maliyyə xidmətlərinin, o cümlədən elektron xidmətlərin tətbiqi - bütün bunlar beynəlxalq turizmin tərkib hissəsidir və dövlətin qlobal iqtisadi məkana səmərəli inteqrasiyasına kömək edir. Turizm sahəsində beynəlxalq strategiyaların səmərəli reallaşdırılması və fəaliyyət göstərməsi daha çox turizm fəaliyyətinin idarə olunmasından asılıdır. Bu kontekstdə, ilk növbədə, həm birbaşa turizm şirkətlərinin, həm də turizm sənayesinin səmərəli fəaliyyətini təmin edən beynəlxalq infrastruktur müəssisələrinin fəaliyyətini tənzimləyən ən mühüm beynəlxalq təşkilatların rolunu xüsusi qeyd etmək lazımdır. Beynəlxalq turizm bazarının institusional strukturunun ən mühüm komponentləri arasında BMT, ÜTT, Ümumdünya Səyahət Agentlikləri Assosiasiyası, Beynəlxalq Turizm Assosiasiyası, Beynəlxalq Turoperatorlar Federasiyası və s.-ni ayırmaq lazımdır.

Turizm və onun istehlakçıları nöqteyi-nəzərindən bütün dünya ölkələrini də ayırmaq lazımdır. Bu baxımdan dünya ölkələrini 3 qrupa bölmək olar:

1. Turizmin əhəmiyyətli gəlir mənbəyi olmadığı və ona görə də əlavə turistlərin cəlb edilməsində marağı az olan ölkələr.

2. "Çiçəklənən" ölkələr – onlar üçün turizm əhəmiyyətli gəlir mənbəyidir və turistlər onlara fəal səfər edirlər.

3. "Əlverişsiz" ölkələr – turizm məkanı onlar üçün mühüm gəlir mənbəyi kimi xidmət edir, lakin istehlak edilən ərazinin formalaşmış mənfi imici səbəbindən turist axını azalır.

Beynəlxalq turizmin inkişaf prosesləri ən azı dörd əsas aspekti əhatə edə bilər: - istehsal; - turizm məhsulunun paylanması və satışı; - rəqəmsal transformasiyalar; - beynəlxalq turist axınının proqnozlaşdırılması və planlaşdırılması [3, s.163].

Beynəlxalq turizm sahəsində müasir qlobal tendensiyalar onun inkişafının ümumi iqtisadi, sosial, kommunikativ, təhsil, siyasi və inteqrasiya kimi funksional xüsusiyyətlərini ayırmağa imkan verir. Beynəlxalq turizm dövlətin inkişafında mühüm rol oynayır, onun rəqabət qabiliyyətinin artırılmasını təmin edir, maliyyə imkanlarını, beynəlxalq əməkdaşlığını genişləndirir, əlverişli xarici siyasət mühiti yaradır, əhalinin rifahını və mədəni inkişafını yaxşılaşdırır və onun qlobal iqtisadi məkana inteqrasiyasına təkan verir [2, s.12].

Beynəlxalq turizm siyasi münasibətlərin müxtəlif alətlərinə, təsirlərinə, fəlakətlərinə və stresslərinə ən həssas olanlardan biridir. Bunu XXI əsrin qlobal maliyyə bazarlarının inkişafı və fəaliyyətində baş verən hadisələr və tendensiyalardan, COVİD-19 pandemiyasının nəticələrindən görmək mümkündür. Böhran hadisələri və pandemiya beynəlxalq turizmin inkişafına birbaşa təsir göstərmişdir.

Hazırda Covid-19 pandemiyasının qlobal iqtisadiyyata və ayrı-ayrı ölkələrin iqtisadiyyatlarına təsiri getdikcə uzanır. Pandemiyanın qarşısını almaq üçün hökumətlərin gördüyü tədbirlər turizm sənayesinə də böyük təsir göstərir. Bununla belə, bir çox hökumətlər COVİD-19-un nəticələrini tənzimləməyə çalışır və bir çoxları isə artıq pandemiyanın səyahət və turizm sektoruna təsirini azaltmaq üçün artıq tədbirlər görüblər. Məsələn:

- Yaponiya 2021-ci ildə səyahət məlumatlarını yaymaq və turizm istiqamətlərini tanıtmaq üçün 3,6 milyard yen xərcləyib;
- Norveç səyahət edənlər üçün ƏDV dərəcəsini 12%-dən 8%-ə endirib;
- Fransa məzuniyyətdə olan işçilərə əmək haqqının 70%-ni ödəmək üçün 26 milyard avroluq proqram həyata keçirib;
- Böyük Britaniya qonaqpərvərlik sənayesi üçün ƏDV-ni 20%-dən 5%-ə endirib və kirayə obyektləri tutan pərakəndə satış, qonaqpərvərlik, turizm və istirahət biznesləri üçün 25,000 funt qrant sxemi yaradıb;
- İslandiya ölkədaxili səyahət çekləri təklif edir və beynəlxalq miqyasda genişlənəcək daxili tanıtım kampaniyasını həyata keçirir.
- Rusiya ləğv edilmiş turlar və subsidiyalaşdırılmış əmək haqqılar üçün vergi və öhdəliklərin təxirə salınmasını tətbiq edib.

Azərbaycana gəlincə, təkcə 2020-ci ildə turizm şirkətlərinə 848 milyon manat subsidiya ödənilib [4].

“Azərbaycanın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası” postpandemiya dövründə turizmin inkişafında əsas prioritetlərdən olacaqdır. Bu strategiyada turizm ölkəmizin innovativ inkişafının vacib komponenti kimi nəzərdən keçirilir [5].

Ümumiyyətlə, beynəlxalq turizmin ölkənin iqtisadiyyatına təsiri müxtəlif istiqamətlidir. İlk olaraq, beynəlxalq turizmin inkişaf tendensiyaları müsbətdir, çünki o, yeni iş yerlərinin təşkili mənbəyidir. Turizm sektoru həm öz infrastrukturunda, həm də milli iqtisadiyyatın digər sahələrində yeni iş yerləri yaradır. Bunun sayəsində müasir turizm sənayesi dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən birinə çevrilir. Hazırda beynəlxalq turizm iqtisadi alət kimi tanınır, ondan istifadə gəlirlə yanaşı, həm də ölkəyə problemlər gətirir, məsələn təbii mühitdə dəyişikliklərə səbəb olur. İnkişaf etməkdə olan ölkələrin hökumətləri turizm sektorunun inkişafını proqnozlaşdırarkən və onun təşviqi tədbirlərini planlaşdırarkən əhalinin iqtisadi, sosial və mədəni tələbatlarını nəzərə almalıdırlar. Turizm sənayesinin əsasını təşkil edən ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilməlidir. Turizm sənayesi yüksək gəlirli olmalı və eyni zamanda mühüm sosial rol oynamalıdır. Lakin hazırda bu sahə əsasən iqtisadi vəzifəyə, yəni maksimum gəlir əldə etməyə və bütün səviyyəli büdcələrin gəlir hissəsini vergilər hesabına doldurmağa yönəlib. Belə sırf iqtisadi inkişaf modeli turizmin spesifikliyinə və sosial məqsədinə ziddir. Bu şəraitdə turizm sahəsində təxirəsalınmaz vəzifə turizm sənayesinin inkişafının yeni sosial-iqtisadi modellərinin müasir və elmi əsaslı proqnozlaşdırma sistemi əsasında hazırlanması və reallaşdırılmasıdır. Turizm xidmətləri əhalinin bütün təbəqələri üçün eyni dərəcədə əlçatan olmalıdır. Turizmin inkişafı bütövlükdə dövlət, onun təsis qurumları və bələdiyyələr üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan turizmin inkişafı üçün böyük potensiala malikdir. Turizmin inkişafı və maksimum dərəcədə həyata keçirilməsi dövlətin əsas məqsədidir.

Hazırda Azərbaycanda turizmin inkişafı sahəsində işlər görülür və perspektivli ərazilərin turistlər üçün əlçatan olması istəqamətində tədbirlər reallaşdırılır. Azərbaycan üçün perspektivli turizmin müxtəlif növləri üzrə beynəlxalq sənaye sərgiləri, forumlar mütəmadi olaraq keçirilir, peşəkar təhsil standartları yaradılır, turizm sahəsində ölkənin müsbət imicinin yaradılması istiqamətində işlər aparılır. 2016-cı ildə təsdiq edilən “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” turizmin inkişaf etdirilməsi məqsədilə görülən tədbirlərin bariz nümunəsidir [6].

Azərbaycanda turizmin mövcud vəziyyətini təhlil etmək üçün ölkəyə gələn və ölkədən gedən turistlərin müqayisəsini aşağıdakı şəkil vasitəsilə nəzərdən keçirək (şəkil)

Şəkildən ölkəmizdə 2015-ci il ərzində manatın iki dəfə devalvasiyasının və COVİD-19 pandemiyasının necə mənfi təsir göstərdiyini daha aydın görmək olar. Təkcə 2020-ci ili müqayisə etsək həmin ildə ölkəmizə gələn turistlərin sayı özündən əvvəlki illə müqayisədə 28646 nəfər və ya 13,4 dəfə, gedənlərin sayı isə 62656 nəfər və ya 11,6 dəfə azalmışdır.

Şəkil. Azərbaycanda gəlmə və getmə turizminin müqayisəli təhlili, nəfərlə

Beynəlxalq turizm və qonaqpərvərlik sənayesində böhran vəziyyətləri kontekstində turist axınının aktivliyinin stimullaşdırılmasının əsas üsullarını müəyyənləşdirmək lazımdır:

1. Turistlər üçün yaşayış yerlərinin qiymətinin azaldılması;

2. Əsas xidmət bazarlarında reklam şirkətlərinin iri marketinq proqramlarının hazırlanması və reallaşdırılmasına maliyyə qoyuluşlarının artması;

3. Beynəlxalq turizm sahəsinə aid olan ölkələrin əlverişli ictimai-siyasi və cəlbedici investisiya imicinin formalaşdırılması.

Beynəlxalq turizm sahəsində problemlərin kəskinləşməsində mühüm rollardan birini dünya dövlətlərinin iqtisadi tənəzzülü, eləcə də ərzaq və yanacağın qiymət kateqoriyalarının daim artması oynayır.

Turizm bəzən çox sərt rəqabət şəraitində fəaliyyət göstərən qlobal sosial-iqtisadi hadisə kimi innovasiya proseslərinə məruz qalır ki, bu da çox vaxt turizm təşkilatlarının rəqabət qabiliyyətini müəyyən edən əsas amildir. Turizmdə innovasiya fəaliyyətinin əsas istiqamətlərinə aiddir:

- yeni növ turizm məhsulunun istehsalı;
- ənənəvi məhsulların istehsalında yeni texnologiyalardan istifadə.

Beynəlxalq turizmin hazırkı inkişafı və formalaşması mərhələsi rəqabət qabiliyyətliliyini yüksəltmək üçün innovativ texnologiyalardan istifadə edir. Belə texnologiyalar beynəlxalq turizm infrastrukturunun bütün komponentlərinin müasirləşdirilməsində öz tətbiqini tapır, turizm fəaliyyətinin əsas növlərinin şaxələndirilməsini dərinləşdirir və genişləndirir, müxtəlif istirahət növlərinin seçilməsində getdikcə mürəkkəbləşən insanların tələbatlarını tam və ya qismən ödəyir.

Hazırda qarşıda əldə edilmiş nəticələrin yaxşılaşdırılması, turizm proqramlarının təşkilinin keyfiyyət aspektlərinin təkmilləşdirilməsi və ölkədə beynəlxalq turizmin inkişafından əldə olunan müsbət sosial effektin maksimum dərəcədə artırılmasına şərait yaradılması mühüm vəzifələrdəndir.

Ədəbiyyat

1. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı, 2021, 101 s.

2. Абдулгазис, В. С. Роль международного туризма в развитии экономики страны: современный аспект / В. С. Абдулгазис, Н. Р. Зиятдинова // Ученые записки Крымского инженерно-педагогического университета. – 2018. – № 4(62). – С. 8-12

3. Левченко, К. К. Методический подход к исследованию процессов развития международного туризма / К. К. Левченко, Т. П. Левченко // Вестник Академии знаний. – 2022. – № 48(1). – С. 160-164

4.https://banker.az/az%C9%99rbaycanda-turizm-sirk%C9%99tl%C9%99rin%C9%99-848-mln-manat-subsidiya-od%C9%99nilib/

5.https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf

6.https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf

Резюме

Панахалиева М.О., Бабаева Т.П.

Международный туризм и его роль в социально-экономическом развитии страны

В статье раскрывается сущность международного туризма и изучается его роль в развитии стран. Были рассмотрены последствия пандемии COVID-19 для международного туризма и меры, принятые некоторыми странами для уменьшения этих последствий. Проанализировано современное состояние въездного и выездного туризма в Азербайджане. В условиях кризисных ситуаций в сфере международного туризма и гостеприимства определены основные методы стимулирования активности туристского потока. Исследована роль инноваций в условиях развития туризма.

Ключевые слова: *международный туризм, турист, COVID-19, пандемия, индустрия туризма*

Summary

Panahaliyeva M.O., Babayeva T.P.

International Tourism and its Role in the Socio-Economic Development of the Country

The article reveals the essence of international tourism and studies its role in the development of countries. The impact of the COVID-19 pandemic on international tourism and measures taken by some countries to mitigate these impacts were reviewed. The current state of inbound and outbound tourism in Azerbaijan is analyzed. In the context of crisis situations in the field of international tourism and hospitality, the main methods of stimulating the activity of the tourist flow are determined. The role of innovations in the conditions of tourism development has been studied.

Key words: *international tourism, tourist, COVID-19, pandemic, tourism industry*

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SEKTORUN İNKİŞAF PERSPEKTİVLƏRİ

Rəhimov Hidayət Asəf oğlu
Azərbaycan Kooperasiya Universiteti
hidayatrahimov@gmail.com

Xülasə: *Məruzədə Azərbaycanda postmüharibə periodunda aparılan iqtisadi islahatlar, konkret olaraq, işğaldan azad olunmuş ərazilərlə bağlı yürüdülən aqrar siyasətin iqtisadi perspektivləri təhlil olunur. Məlum olur ki, postmüharibə, postkonflikt mərhələlərində aqrar iqtisadiyyatın yenidən təşkili, təkmilləşdirilməsi, inkişaf etdirilməsi ilə bağlı zəngin dünya təcrübəsi vardır. Azərbaycan həmin təcrübənin verdiyi informativ baza, strateji plan inventarından çox uğurla yararlanmaqla, öz iqtisadi potensialına, bölgənin geosiyasi reallıqlarına, mövcud ekoloji göstəricilərə görə tam uyğun gələn və işğaldan azad olunan bölgələrimizdə kənd təsərrüfatının bərpasını hədəf alan uğurlu "yol xəritəsi" hazırlamışdır.*

Açar sözlər: *Azərbaycan, işğaldan azad olunmuş ərazilər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, aqrar sektor, iqtisadi inkişaf perspektivləri, posrmüharibə aqrar siyasəti*

Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır və hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi bəri başdan prioritetlər seçməlidir. (Prezident İlham Əliyev) [9].

II Qarabağ müharibəsində xalqımızın möhtəşəm Qələbəsi ilə Azərbaycan Respublikası öz tarixi salnaməsində yeni, parlaq və milli ləyaqət anlamını yeni məna çalarları ilə dolduran bir səhifənin başlanğıcına imza atmışdır. Möhtərəm Prezident İlham Əliyevin: "*Biz müzəffər xalqıq, biz qalib dövlətik*" – fikirlərini [8] sonrakı dönəm fəaliyyətinin aparıcı leytmotivini, ideya-konseptual doktrininə çevirmiş dövlətimiz hər sahədə olduğu kimi, iqtisadiyyatda da bu qələbələr silsiləsinin davamlılığının təminatına yönəlik geniş spektrli uğurlu fəaliyyətlərə başlanğıc vermişdir. Belə ki, Möhtəşəm Zəfərdən çox az sonra artıq ölkə prezidentinin təşəbbüsü ilə işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyyatın bərpası və xüsusilə də, aqrar sektorun dirçəldilməsi yönündə layihələrin planlaşdırılmasına başladılmışdır. Belə ki, 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatlı müşavirədə Prezident İlham Əliyev böyük islahat və planların müjdəsini verərək qeyd etmişdir: "*Bizim planlarımız böyükdür. Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb...*" [9]. Prezident müşavirədə bilavasitə onun göstərişi ilə işğaldan azad olunmuş ərazilərdə əkinin başladıldığını vurğulamış və bu ərazilərdə aqrar sektorun inkişafı perspektivlərinin müəyyənləşdirilməsi zamanı uğurlu və uğursuz təcrübələrin verdiyi üstünlükdən çıxış edilməli olduğunu qeyd etmişdir. Konkret olaraq, prezident 1990-cı illərdə aparılmış torpaq islahatının naqis fəsadlarının hələ də Azərbaycanın digər bölgələrində kənd təsrrüfatının idarə edilməsi işində müəyyən çətinliklərə yol açdığı gerçəkliyindən çıxış edərək: "*Amma azad edilmiş torpaqlarda bu səhvlərə əlbəttə ki, yol verilə bilməz*" –qənaətini səsləndirmiş və müvafiq göstərişlərin verildiyini bildirmişdir [9]. Məhz, ölkə prezidentinin bu göstərişləri sayəsində, Kənd Təsərrüfatı nazirliyi "*Azərkosmos" ASC ilə birlikdə azad olunmuş ərazilərdə faktiki əkinaltı torpaqların da çoxillik əkmələrin peyk təsvirləri əsasında xəritələşməsini aparıb. Hazırda həmin torpaqlarda əkinlərin aparılması, o cümlədən çoxillik əkmələrə aqrotexniki qulluq tədbirlərinin göstərilməsi məqsədilə ilkin işlərə başlanılıb*" [2].

Məhz, işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın dirçəlişi və düzgün məcrada inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının prezidenti özünün 7 iyul tarixli fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsünü təqdim etmişdir ki [1], bu da son nəticədə, işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına, o cümlədən vahid aqrar sektor sahəsinə reinteqrasiyasını hədəf almaqdadır.

Azərbaycanın post-müharibə mərhələsindəki iqtisadi islahatlara, o cümlədən işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin dirçəldilməsi yönündə atdığı addımların spontan deyil, düşünülmüş, hazırlıqlı iqtisadi planlaşdırma nəticəsində ortaya çıxdığı danılmazdır. Belə ki, hələ illər öncədən ölkə iqtisadçıları bu perspektivin (yəni, 20% işğal altında olan torpaqlarımızın azad ediləcəyi perspektivinin) real olduğuna sarsılmaz inam nümayiş etdirməklə "Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar" sahəsində araşdırmalar sürdürmüş və bu istiqamətdə öz təkliflərini, tövsiyyələrini dilə gətirmişlər [7]. Hələ 2010-cu ildə səsləndirilən proqnozlarda işğaldan azad olunan ərazilərdə "*kənd təsərrüfatı işlərinin aparılmasına təhlükəsizlik təminatı yaradılması (kənd təsərrüfatı üçün yararlı sayılan torpaqların minalardan təmizlənməsi və sonradan ölkənin iqtisadi sisteminə reinteqrasiyası*)"-nın [7 , s. 80] vacibliyi

vurğulanırdı ki, on il sonra yaranmış gerçəklik bu problemlərin, xüsusilə minalanmış əkin sahələri ilə bağlı yaranmış çətin vəziyyətin, hətta ehtimal edildiyindən də daha ağır fəsadlara yol açdığını ortaya qoydu. Belə ki, minalardan təmizlənmə işində öncüllüyün məhz əkin sahələrinə verilməsi təklifləri [6] həmin ərazilərin ölkənin kənd təsərrüfatındakı mövqeyi ilə bağlıdır. Elə təkcə işğaldan azad olunmuş Ağdam rayonunun timsalında bunu əyani şəkildə təsbit etmək mümkündür. Belə ki, rayon ərazisinin təxminən 92%-nin məhz əkinə yararlı torpaqlar olduğunu vurğulayan Ş.Əliyevin də qeyd etdiyi kimi, belə yüksək göstəriciləri əsasında Ağdam rayonunun ən yaxın gələcəkdə ölkə iqtisadiyyatı üçün böyük töhvə verə biləcəyini ehtimal etmək heç də çətin deyil [3].

Xatırladaq ki, işğaldan öncəki dövrdə Qarabağ-Zəngəzur iqtisadi rayonlarında (konkret olaraq, II Qarabağ müharibəsindəki qələbədən sonra azad edilmiş ərazilərdə) Azərbaycanın ümumi aqrar sektor məhsullarının yarıya qədəri (təxminən 40 %) istehsal olunurdu. Bu baxımdan, heç şübhəsiz ki, həmin ərazilərin azad edilməsi, məskunlaşdırılması nəticəsində kənd təsərrüfatı infrastrukturlarının bərpa edilməsi, habelə minalardan təmizlənmə sayəsində böyük torpaq sahələrinin əkinçilik və maldarlığın inkişafı üçün perspektivli sahələr kimi istifadəyə verilməsi – bütün bunlar ölkəmizin iqtisadiyyatının yeni inkişaf mərhələsinə keçdini təmin edən proseslər sırasında nəzərdə tutulmaqdadır. Məhz, bu səbəbdəndir ki, bu istiqamətdə silsilə addımlar atan ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi layihələri bölgənin təkrar canlandırılması və aqrar sektorun əvvəlki pay çəkisinə varmasını və hətta daha yüksək göstəricilər ortaya qoymasını hədəf almaqdadır. Belə ki, A.Hüseynovun da qeyd etdiyi kimi, "*Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq azad edilmiş ərazilərimizdə kənd təsərrüfatı üçün yararlı torpaqların müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, kənd təsərrüfatı heyvanlarının uçotunun aparılması, saxlanılması və mühafizəsi, fitosanitar və epizotik vəziyyətin ilkin qiymətləndirilməsi həyata keçirilməkdədir*" [5].

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişaf perspektivlərini izləmiş bir çox iqtisadçı alimlərimiz çox haqlı olaraq Azərbaycan dövlətinin bu sahədə qarşısında dayanan məqsəd və vəzfələrin yerinə yetirilməsində dünya təcrübəsinə istinad etməsi vacibliyini vurğulamaqdadırlar. Konkret olaraq, F.F.Fikrətzadə və S.İ.Hacıyeva bu baxımdan İraq, Suriya, Livan, Vyetnam kimi dövlətlərin kənd təsərrüfatının postmüharibə, postkonflikt vəziyyətlərinin, habelə II Dünya müharibəsindən sonra Avropa iqtisadiyyatının bərpası üçün tətbiq olunan "Marşall planı"nın ortaya qoyduğu zəngin təcrübəni xatırladaraq qeyd etmişlər ki, *"Beynəlxalq Aqrar Tədqiqatlar üzrə Məsləhət Qrupu (Consultative Group on International Agricultural Research) isə son 30 ildə Afrika, Asiya və Latın Amerikasında münaqişələrə və təbii fəlakətlərə məruz qalmış bir çox ölkədə kənd təsərrüfatı fəaliyyətinin bərpası ilə bağlı görülən işləri araşdırmış və bu ölkələrin post-konflikt dövründə kənd təsərrüfatı sahəsinin bərpası ilə bağlı həyata keçirdikləri tədbirləri aşağıdakı kimi qruplaşdırmışdır : 1) Kənd təsərrüfatı üzrə elmi-tədqiqat və təcrübi mərkəzlərinin yaradılması; 2) Toxum istehsalı və tədarükü sistemlərinin bərpası; 3) Aqrobiomüxtəlifliyin qorunması və bərpası; 4) İnsan potensialının və institusional potensialın bərpası; 5) Gələcəkdəki münaqişələrə və fəlakətlərə qarşı dayanıqlılığın artırılması; 6) Yardım Təşkilatlarının daha effektiv fəaliyyət göstərməsinin təmin edilməsi*." [4 , s. 23-37].

Maraqlıdır ki, keçmiş SSRİ-nin postmüharibə aqrar siyasətini araşdırmış tədqiqatçılar da maddi resurs yetərsizliyi ilə barabər məhz əmək qüvvəsi çatışmamazlığını həmin çətin dövrdə aqrar iqtisadiyyatın inkişafına ciddi əngəl yaradan səbəblər sırasında nəzərdən keçirmişlər. Elə bu səbəbdən də T.V.Loxova həmin bölgələrdə (müharibənin fəsadlarını üzərində ciddi şəkildə hiss etmiş olan dağıdılmış infrastrukturu tam və ya qismən çökdürülmüş regionlarda – H.R.) əmək qüvvəsinin cəmləşdirilməsi yönündə atılan addımların aqrar iqtisadiyyatın dirçəlişinə yol açan kompleks fəaliyyətlər arasında önəmli yer tutduğunu vurğulamışlar [13 , s. 57-66].

Müharibədən sonra ağır döyüş əməliyyatlarının canlı "şahidi" olmuş coğrafiyalarda, müharibənin dağıdıcı təsir izini öz üzərində hiss etmiş bölgələrdə aqrar sektorun inkişafına mane olan başlıca faktorları qeyd edən M.N.Manelova da kənd ərazilərinin obyektiv infrasktruktur yetərsizlikləri ilə bərabər işçi qüvvənin əlavə təşviq (kompensasiya) proyektlərinin gerçəkləşdirilə bilinmədiyi halda, mövcud maddi itkilərin ağır yükünün dövlətin deyil, əhalinin üzərinə düşməsi ilə bağlıdır [14 , s.21]. Bu mənada mövcud tarixi təcrübələrlə müqayisədən çıxış edərək qeyd etmək istərdik ki, Qarabağ müharibəsinin xalqımız üçün ağır olan insani itki dəyərinə rəğmən, dövlətimizin yürütdüyü uğurlu iqtisadi siyasət mövcud maddi-infrastruktur itkilərin ağır yükünün əhalinin, qaçqınların çiyinləri üzərinə qoyulmaması üçün bütün resursları səfərbər etmişdir. Onu da qeyd edək ki, məhz aqrar sektorda yaranmış çətinliklərin müvafiq kompensasiya və müavinətlər sistemi ilə neytrallaşdırıla bilinməməsi M.N.Manelovanın da qeyd etdiyi kimi, kəndlərdən şəhərə axını sanksiyalaşdırmışdır [14 , s. 14-16]. Analoji vəziyyət təxminən yarım əsr sonra Balkan yarımadasını ağuşuna almış müharibələr nəticəsində də Şərqi Avropanın aqrar sektorunda müşahidə edilmişdir [11, s. 4-7, 18]. Məhz postmüharibə bölgələrindəki bu kimi neqativ trayektoriyalı miqrasiya

halları ilə bağlı təcrübələrdən uğurlu nəticə çıxan Azərbaycan rəhbərliyi pozitiv trayektoriyalı əhali axınını təmin etmək məqsədilə daha sosial imtiyazlı həyat şəraiti təklif etməklə qaçqınların yerləşdirilməsi və onlara aqrar sahədə fəaliyyət göstərə biləcəkləri iş imkanları seçimi verilməsi – bütün bunlar, heç şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərdə aqrar sektorunun formalaşıb inkişaf etdirilməsi üçün sağlıam dövlət tənzimləməsi zəmini ərsəyə gətirmişdir.

Xatırladaq ki, iqtisadçı alim A.F.Dorofeyevin də qeyd etdiyi kimi, aqrar sahədəki insan kapitalını təşkil edən insan resusrslarının dayanıqlı miqrasiyası, ümumilikdə, müasir dünya iqtisadiyyatı üçün xarakterik olan tendensiyadır. Bu da əksər hallarda kənd ərazilərində əhalinin yaşayış səviyyəsinin şəhər əhalisi ilə müqayisədə daha aşağı olması, əmək haqqılarının daha aşağı göstəricilər nümayiş etdirməsi gerçəkliyi ilə şərtlənir [12, s.55, 47]. Başqa sözlə desək, kənd ərazilərindən neqativ yönlü miqrasiyanın sülh şəraitində belə yetərincə akuallıq kəsb etdiyi bir dövrdə, işğaldan azad olunmuş ərazilərdə (yəni, postmüharibənin bütün ağrılı fəsadları ilə üzləşmiş ərazilərdə) aqrar sektorun insan resursları ilə təmin edilməsi, sözsüz ki, yetərincə çətin prosesdir.

Onu da qeyd edək ki, Azərbaycan təkcə ötən yaxın və ya uzaq keçmişin postmüharibə kənd təsrrüfatı dirçəlişi layihə və proqramlarından deyil, eləcə də hal-hazırkı hərbi konflikt və müharibə situasiyaları ilə bağlı mövcud durumların açı təcrübəsinə də istinad edə bilər. Belə ki, Ukraynaya qarşı aparılan hərbi əməliyyatların ölkənin aqrar sektoruna vurduğu sarsıdıcı zərbə öz milli iqtisadiyyatında məhz kənd təsərrüfatına böyük yer ayırar bir ölkə iqtisadiyyatı modeli kimi maraq doğurur. Belə ki, Ukraynada perspektivə nəzərdə tutulan aqrar islahatlar, kənd təsərrüfatı sektoru üçün nəzərdə tutulan imtitazlar paketi də maraqlı təcrübə faktı kimi nəzərdə tutula bilər. Belə ki, A.Kinaxın da qeyd etdiyi kimi, hal-hazırda ərazisində müharibə gedən Ukraynada da postmüharibə iqtisadi dirçəliş proqramlarının hazırlanmasında aqrar sektorun xüsusi imtiyazlarla təşviq edilməsi, dəyən maddi ziyanın kompensasiya edilməsi və s. bu kimi fəaliyyətlərinin planlaşdırılması nəzərdə tutulur. Konkret olaraq, iqtisadçı aqrar sektorla bağlı "*yoxlamaların, cərimələrin ləğvi, yanacağa aksiz vergisinin sıfırlanması, fermerlərə faizsiz kredit verilməsi, sadələşdirilmiş sistemə keçid və 2 faizlik verginin könüllü ödənilməsi, sadələşdirilmiş gömrük prosedurları və s.*" – hədəf alındığını qeyd etmişdir [10].

Beləliklə, yuxarıda qeyd olunanlar əsasında belə nəticəyə gəlmək olar ki, işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatının bərpası və onun vahid aqrosektora reinteqrasiyası baxımından atılan addımlar zəngin dünya təcrübəsinə əsaslanmaqla, Azərbaycan reallıqlarını da nəzərə alır və ən əsası, bu istiqamətdə atılan addımlar, ümumilikdə, bölgənin Azərbaycan iqtisadiyyatı üçün təkrar (təxminən 30 illik fasilədən sonra) "qazandırılması" yönündə sistemli fəaliyyətlərdə mühüm, hətta deyərdik ki, həlledici rol oynayır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 07 iyul 2021 https://president.az/az/articles/view/52389

2. Ələkbərov C. Azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı işlərə başlanılıb // Trend.az, 7 Yanvar 2021 https://az.trend.az/azerbaijan/gundem/3329800.html

3.Əliyev Ş. Ağdam və Füzuli rayonlarinda postkonflikt ərazilərinin intensiv inkişafinin qarabağin dirçəldilməsində strateji əhəmiyyəti // GeoStrategiya. Beynəlxalq ictimai-siyasi, elmi nəzəri jurnal, 02.09.2022 (http://www.geostrategiya.az/news.php?id=201

4. Fikrətzadə F.F., Hacıyeva S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması // Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), s.23-37

5. Mehdiyev E. Azad edilmiş ərazilərimiz kənd təsərrüfatı istehsalının 2 dəfə artmasına səbəb olacaq // Trend az., https://az.trend.az/business/3467037.html

6. Minaların təmizlənməsinə kənd təsərrüfatı torpaqlarından başlamaq lazımdır / Pressklub, 02/10/2021 https://pressklub.az/ekskluziv/abid-serifov-minalarin-temizlenmesine-kend-teserrufati-torpaqlarindan-baslamaq-lazimdir/?amp

7. Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar, Bakı, "Qafqaz" nəşriyyat evi, 2010. – 270 s.

8. Prezident İlham Əliyev: "Biz müzəffər xalqıq, biz qalib dövlətik" https://scwra.gov.az/az/view/news/10370/prezident-ilham-eliyev-biz-muzeffer-xalqiq-biz-qalib-dovletik

9. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə https://president.az/az/articles/view/49933

10. Анатолий Кинах: послевоенная экономика Украины будет кардинально иной // GMK Center – центр экспертизы о промышленности , 20 Мая 2022 https://gmk.center/interview/anatolij-kinah-povoienna-ekonomika-ukraini-bude-kardinalno-inshoju/

11. Белоржэ, Н., Гарбе-Эмден, Б., Хорстманн, С., Кун, А., Фогель, Д., Стаббс, П. Социальные последствия эмиграции и сельско-городской миграции в странах Центральной и Восточной Европы (VT/2010/001) , Европейский Союз, 2012, 20 с. https://ec.europa.eu › social › BlobServlet

12. Дорофеев, А. Ф. Развитие человеческого капитала в аграрном секторе России, диссертация ... доктора экономических наук., Белгород 2018, 404 с.

13. Лохова, Т. В. Послевоенная аграрная политика СССР в 1940-1950-е гг. : курс на восстановление и развитие сельскохозяйственного потенциала Краснодарского края // Известия высших учебных заведений. Поволжский регион. 2015, №1 (33), с.57-70

14. Манелова, М. Н. Аграрный сектор в период послевоенного восстановления и реконструкции управленческой системы (1945 - 1964 гг.). автореферат диссертации. канд. истор. наук. - Пятигорск, 2004, 28 с.

Резюме

Рагимов Г.А.

Перспективы развития аграрного сектора на освобожденных от оккупации территориях

В статье анализируются экономические реформы, проведенные в послевоенный период в Азербайджане, в частности, экономические перспективы аграрной политики, проводимой в отношении освобожденных от оккупации территорий. В мире, имеется богатый опыт реорганизации, оздоровления и развития аграрной экономики на послевоенном и постконфликтном этапах. Азербайджан подготовил успешную «дорожную карту», полностью совместимую с его экономическим потенциалом, геополитическими реалиями региона и существующими экологическими показателями, направленную на восстановление сельского хозяйства в наших районах, освобожденных от оккупации, путем очень успешного использования информативной базы и перечня стратегических планов, предоставленные этим опытом.

***Ключевые слова**: Азербайджан, освобожденные территории, Карабахский и Восточно-Зангезурский экономические районы, аграрный сектор, перспективы экономического развития, послевоенная аграрная политика*

Summary

Rahimov H.A.

Prospects for the Development of the Agricultural Sector in the Territories Liberated From Occupation

The report analyzes the economic reforms carried out in the post-war period in Azerbaijan, in particular, the economic prospects for the agrarian policy pursued in relation to the territories liberated from occupation. It turns out that there is rich world experience in the reorganization, improvement and development of the agrarian economy in the post-war and post-conflict stages. Azerbaijan has prepared a successful road map, fully compatible with its economic potential, the geopolitical realities of the region and the existing environmental indicators, aimed at restoring agriculture in our areas liberated from occupation, through the very successful use of the informative base and list of strategic plans provided by this experience.

***Key words**: Azerbaijan, liberated territories, Karabakh and East Zangezur economic regions, agrarian sector, prospects for economic development, post-war agrarian policy*

LOGİSTİKA COĞRAFİYASININ ƏHƏMİYYƏTİ: DÜNYA ÖLKƏLƏRİ VƏ AZƏRBAYCAN

Rüstəmova Nuray Fərman qızı

Azərbaycan Turizm və Menecment Universiteti

r_nuray@mail.ru

***Xülasə**: Logistika tarix boyu məhsulun bir məntəqədən digər məntəqəyə nəqli kimi başa düşülsə də, günümüzdə logistikaya yeni mənaların yüklənməsi onun ticarət, çatdırılma, coğrafiya ilə əlaqələrinin formalaşmasına gətirib çıxarmışdır. Qeyd edilən sahələrin kəsişmə nöqtəsi isə logistika coğrafiyasıdır. Logistika coğrafiyasının əsas xüsusiyyəti fərqli ölkələr arasında həyata keçirilən logistika fəaliyyətlərinin coğrafiya elminə əsaslanmasıdır. Yəni logistika coğrafiyası ölkələrin coğrafi xüsusiyyətlərini – təbii ehtiyatların ölkələr arasında bölüşdürülməsini nəzərə almaqla logistik mərkəzlərin qurulmasını əsas*

götürür. Logistika əsas göstəricilər uyğun vaxtda minimal xərclərlə məhsulun çatdırılması olduğu üçün yer seçimi və nəqletmə vacib amil hesab edilir. Buna görə də logistik mərkəzlər formalaşdırılarkən yuxarıda qeyd edilən amillər nəzərə alınmalıdır ki, effektiv nəticələr əldə edilsin.

Açar sözlər: *logistika, coğrafiya, logistika coğrafiyası, yer seçimi*

Müasir zamanda qloballaşma ilə birgə iqtisadi həddlər aradan qalxmış və müvəffəqiyyətin ən vacib şərti olan rəqabətin artması ilə şirkətlər və müəssisələr üçün struktur dəyişikliklər məcburiyyətə çevrilmişdir. Bu dəyişikliklərin başında logistikanın idarəedilməsi sahəsində atılmış addımlar durur. Bu addımlar logistika sahəsini hər gün bir addım da irəliyə aparmış və bu sahədəki dəyişikliklərdən təkcə şirkətlər deyil, ölkələr də öz payını almışdır. Dünyada logistik baza sürətlə artmaqdadır. Qərbi Avropa ölkələri başda olmaqla, artıq dünyada bir çox ölkələrin logistik fəaliyyətlər sahəsində təcrübəsi günü-gündən artır. Logistik fəaliyyətlər özü ilə bərabər bir çox ehtiyacı önə çıxarır. Başda ABŞ olmaqla, logistik mərkəzlər sahəsində təcrübəli bir çox ölkə qanunvericiliyi yenidən işləyib hazırlamışdır. Bu məqsədlə bəzi ölkələr xarici investorları ölkəyə cəlb etmək üçün yerli şirkətlərə səlahiyyətlər verirlər. Ölkəyə investisiyanın cəlb edilməsi isə logistik fəaliyyətlərin müasir şərtlərə uyğun inkişafıdır.

Logistik sahənin yüksək səviyyədə inkişafı coğrafi yerləşmədən də çox asılıdır. Buna görə də logistik mərkəzlər planlaşdırılarkən coğrafi dəyərləndirmələr aparılır. Logistikanın tarixini bilmək və onu daha yaxşı dəyərləndirmək iqtisadi cəhətdən üstünlük əldə etməyə kömək edir. Tarix boyu müxtəlif ticarət yollarının açılması da buna xidmət edir. Hər zaman ticarət karvanlarının keçdiyi yollar üzərində olmaq, məhsulların gediş gəlişində əhəmiyyətli rola malik olmaq iqtisadi baxımdan üstünlük olmuşdur. İstənilən nəqliyyat növü ilə daşıma tarix boyu olduğu kimi hazırda da ehtiyac duyulan sahələrdəndir. Ona görə də quru, dəniz, hava və dəmiryolu nəqliyyatı daim dəyər qazanır. Hər il bütün dünyada çox sayda logistik mərkəzlər fəaliyyətə başlayır. İstehsal mərkəzləri ilə istehlak mərkəzləri arasında əlaqə yaratmaq üçün nəqliyyat növləri istifadə edilir. Lakin bu zaman ən az xərclə məhsulun istehlakçıya çatdırılması üçün coğrafi faktorların effektiv istifadəsi vacibdir. Məhsulun istehsal olunduğu coğrafi amillərlə bərabər istehlak bölgəsinə çatdırılma yolu da vacibdir. Bu səbəbdən də logistik coğrafiyaya ehtiyac duyulur. İlkin olaraq logistik mərkəzlərin qurulması zamanı coğrafi amillər nəzərə alınmalıdır.

Çatdırma və ticarət coğrafiyası ilə bir bütün halında olan logistika coğrafiyası daim artan çatdırma və logistik fəaliyyətlərinə əsasən artıq inkişaf edən və daim nəzarətdə saxlanılan bir amilə çevrilmişdir. Logistika coğrafiyası bu sahədə olan problemləri görüb, ona uyğun hərəkət etməyə fokuslanır. Çünki məhsulların təkcə məkan olaraq deyil, həm də coğrafi olaraq yerdəyişməsinin əsas meyarları nəzarətdə saxlanılmalıdır. Logistika coğrafiyası həm ticarət, həm də çatdırılma coğrafiyası ilə əlaqəlidir. Logistika coğrafiyası məhsulun hara, hansı yollarla, hansı minimal müddətdə çatdırılmalı olduğunu hesablamağı əsas götürür. Biz, məhsulu istehlakçıya çatdırmaq üçün logistikanın 7 şərtinin ödənəcəyi coğrafiyanı effekyiv hesab etməli və buna uyğun davranmalıyıq. Daşınma dedikdə məhsulun bir yerdən başqa yerə (istehlakçıya) aparılması nəzərdə tutulur. Çatdırılma isə məhsulun əvvəlcədən müəyyənləşdirilmiş nöqtədən götürüb əvvəlcədən müəyyənləşdirilmiş nöqtəyə çatdırmaq üçün hava, dəniz, avtomobil və dəmiryolundan istifadə etməklə yaranan zəncirdir. Logistika coğrafiyası isə daşıma, çatdırılma, ticarət arasındakı əlaqələr ilə həyata keçirilən ticarət fəaliyyətlərinin marşrutunu və əsas göndərmə məntəqələrini coğrafi baxımdan dəyərləndirib, minimal xərc və minimal vaxtda göndərilməni təşkil edir. Deməli, logistika coğrafiyası çatdırılma, ticarət və iqtisadi dəyəri olan məhsulların istehlakçıya çatanadək olan müddətdə səbəb və nəticə əlaqələrini müəyyənləşdirir. Təbii ki, logistika ilə logistika coğrafiyası arasında da əlaqə mövcuddur. Logistika bildiyimiz kimi ilk öncə hərbi mal materialın hərəkəti və yerdəyişməsinə aid işlərin planlaşdırılması olaraq meydana gəlmişdir. Daha sonra logistikaya müxtəlif mənalar yüklənmiş, o daha geniş sahəni əhatə etməyə başlamışdır. Son olaraq, logistika dedikdə düzgün məhsulu düzgün yer düzgün zamanda, düzgün miqdarda düzgün formada və düzgün (minimal) xərclə müştərilərə çatdırmaq nəzərdə tutulur.

Coğrafi faktorlar logistik fəaliyyətlərin effektivliyinə birbaşa təsir göstərir. İqlim, su enerjisi, resurslar, çatdırılmanın əlverişliyi və s. kimi amillər əsas coğrafi faktorlar hesab edilir. Əslində, hər bir ölkə öz coğrafi şəraitinə uyğun olaraq logistik coğrafiyanı qurur. Belə ki, dənizə birbaşa çıxışı olan ölkələr limanlardan – su nəqliyyatından istifadəni artırarkən, hava şəraitinin tez-tez dəyişməsi və ya qarşı şaxtalı hava şəraitinin çoxluq təşkil etməsi səbəbindən avtomobil nəqliyyatından istifadə minimuma endirir. Ölkələrin əsasən liman şəhərləri olaraq inkişafı limanların nəqliyyat şəbəkələri ilə asanlıqla inteqrasiya oluna bilməsinə görədir. Buna görədir ki, ölkələrin daxilində və ya ölkələr arasında ticarətin geniş inkişafı təbii şərtlərlə birbaşa əlaqəlidir. Həmçinin, təbii resursların ölkələr arasında bərabər paylanmaması da ticarətin inkişaf səbəblərindən biridir. Məsələn, ipək yollarının Osmanlının əlinə keçməsi, Avropanın isə bir neçə marşrutdan istifadə etməklə daha baha qiymətə ipəyi alması İpək Yolunun qurulmasını zəruri edən amillərdən idi. Zaman-zaman bəzi marşrutlar əhəmiyyətini itirərkən, digərləri daha çox istifadə edilən marşrutlara çevrilmişdir. Əslində ölkələrin logistik uğurları əsasən tələb olunan məhsulların tam şəkildə, lazım olan vaxtda və tələb olunan miqdarda istehlakçılara çatdırmalarından asılıdır. Bu isə logistik

coğrafiyada nəqletmənin vacibliyini önə çıxarır. Məsələn, Çinin beynəlxalq bazarda əldə etdiyi uğura görə Asiya ölkələri arasında ticarət genişlənmiş və başda ABŞ olmaqla bütün bölgə ölkələrinin Çindən məhsul idxal etməsinə səbəb olmuşdur. Dünya üzrə Almaniya, Abş, Çin, Yaponiya və Fransanın məhsul ixracında ilk yerlərdə olmasının səbəbi əsasən fərqli qitələrdə yerləşmələridir ki, bu da dünyada ticarətin və logistik fəaliyyətlərin qloballaşmasını göstərir.

Daşıma xərclərinin azaldılması baxımından şirkətlər qurularkən quruluş yerinin doğru seçimi vacib amillərdəndir. Əsasən nəqliyyat növləri yaxınlığı, məsələn limanlara, dəmiryollarına və ya hava limanına yaxınlığı onun əhəmiyyətini artırır. Quruluş yerini seçərkən əsasən iqlim xüsusiyyətləri, bazara yaxınlığı, relyef, ölkənin həmin əraziyə investisiya qoyma səviyyəsi, mütəxəssislərin cəlb edilməsi, çatdırma şərtləri və s. kimi əsas amillər nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə Azərbaycanda Ələt qəsəbəsində azad ticarət zonasının təşkili təkcə yük axınlarının ölkədən keçməsinə deyil, həmiçinin qablaşdırma, saxlama, çatdırılma və xidmətlərdən əlavə dəyər formasında iqtisadiyyata fayda gələcəkdir. Azad ticarət zonası ilə hava limanı arasında yüksəksürətli qatarların olmasının planlaşdırılması onun ticarət baxımından əsas zonalardan birinə çevrilməsinə şərait yaradacaqdır. Həmçinin, belə bir zona üçün Bakının seçilməsində əsas səbəblərdən biri əsas regional ticarət marşrutları ilə əlaqəsinin olmasıdır. Strateji yol xəritəsində Xaçmaz, Gəncə, Astara, Ələt və Qırmızı körpüdə yeni yaradılacaq logistika mərkəzlərinin inkişafı regionların inkişafı üçün yeni imkanlar yaradacaq, həmçinin qeyd edilən regionlarda istehsal edilən kənd təsərrüfatı məhsulları bir mərkəzdə toplanacaq. Bunun nəticəsində isə əsas məqsəd urbanizasiya problemlərini aradan qaldırmaq və regionlararası əlaqəni genişləndirmək olmuşdur.

Ölkənin xarici ticarət əməliyyatlarına nəzər salsaq, ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasını qeyd etmək lazımdır. Belə ki, coğrafi xüsusiyyətlər baxımından ixrac imkanları müxtəlif illər üzrə faiz nisbətlərində öz istiqamətini Amerikadan Avropa ölkələrinin xeyrinə dəyişmişdir, Asiyanın pay nisbəti isə müəyyən dəyişmələrlə öz payını artırmışdır. Ticarət axınının nisbətinin dəyişməsi tendensiyanı müsbət meyllərdə və Azərbaycanın logistik imkanlarının genişlənməsi baxımından təhlil etməyə imkan verir. Qeyd edək ki, ölkə ərazisindən yük axınının artması makroiqtisadi göstəricilərə əhəmiyyətli dərəcədə təsir edəcək və büdcə, xüsusilə logistika gəlirlərinin dövlət büdcəsinin formalaşdırılmasının tamamilə yeni maddələri üzrə daxil olmasına imkan verəcək. Ümumiyyətlə, logistika mərkəzinin rasional fəaliyyəti üçün bir sıra amilləri nəzərə almaq lazımdır: birincisi, logistikanın inteqrasiyası üçün zəruri olan makro səviyyəli logistika infrastrukturunun olması; ikincisi, gələcək logistika infrastrukturu obyektinin parametrlərinə birbaşa təsir göstərən inkişaf üçün konkret sahənin seçimi nəzərə alınmaqla, mikrosəviyyəli logistika mərkəzinin özünün işləməsi üçün lazımi şərait.

Ermənistan ərazisindən keçən dəmir yolu, avtomobil və hava nəqliyyatı marşrutlarının işləməsi şərti ilə Zəngilanda ikinci logistika mərkəzi tikilməlidir. Hazırda yük axınının artması şəraitində ənənəvi marşrutlar Rusiyaya qarşı tətbiq edilən iqtisadi sanksiyalar səbəbindən artan bazar tələbatını tam ödəyə bilmir. Logistika marşrutunda əsas yüklənmə Bakı-Tbilisi-Qars və Bakı-Tbilisi-Ceyhan nəqliyyat qovşaqlarının payına düşəcək. Bu marşrutun intensivliyinə və yüklənməsinə baxmayaraq, yüklərin çatdırılmasının etibarlılığı baxımından o daha cəlbedici hesab olunur. Ermənistan ərazisindən keçən Qərbi Zəngəzur marşrutu açılsa, proporsional bölgü yolu ilə yüklərin daşınması şaxələndirilə bilər. Bu halda Zəngilan ildə 25 milyon ton həcmində logistika axınının hərəkətini təmin edə bilən logistik marşrutun əsas birləşdirici həlqəsi olacaqdır. Bu layihəni həyata keçirmək üçün qovşaqlarda və terminallarda nəqliyyat arteriyalarını birləşdirən multimodal logistika mərkəzi tikmək lazımdır. Bu mərkəzin tikintisi üçün lazım olan ərazilər ağırlıq mərkəzi hesablanmaqla ayrılmalıdır.

Nəticə: Logistika və logistika coğrafiyası arasında əlaqə logistika fəaliyyətləri ilə coğrafiya elmi arasındakı əlaqədir. Yekun nəticə olaraq, logistika coğrafiyası iqtisadi coğrafiya və çatdırılma fəaliyyətlərinin əlaqəsinə əsaslanmışdır. Belə ki, dünyanın hər hansı bir yerindən logistik mərkəzlər vasitəsilə hansı yollarla və hansı yüklərin daşınmasına coğrafi yanaşma ilə yanaşılırsa, deməli artıq söhbət logistik coğrafiyadan gedir. Dünyanın bütün hissələri nəqletmə, çatdırılma üçün eyni dərəcədə əlverişli deyil. Eynilə, bütün ölkələrin dəniz, hava, su və avtomobil nəqliyyatından istifadə səviyyələri də eyni deyildir. Buna görə də şirkətlər qurularkən coğrafi şərtlər və logistik imkanlar nəzərə alınmalıdır. Logistik coğrafiyası baxımından dəyərləndirmələr aparmaq qısa və uzunmüddətli logistik və ticarət fəaliyyətlərinin effektiv nəticələri üçün səmərəli nəticələr verməkdədir. Dünyada dəyişən geosiyasi vəziyyət Azərbaycanı müasir logistik mərkəzlər sistemi ilə yükdaşıma bazarının tələbatını ödəməyə qadir olan iri logistik terminala çevirir. Azərbaycan ərazisindən böyük həcmdə yükdaşımalara malik müxtəlif logistika marşrutları keçəcək. Ən böyük logistika axını, çox güman ki, əsasən Cənub-Şərqi və Mərkəzi Asiya istehsalçılarından malların Ro-Ro logistika mərkəzi vasitəsilə daşınması olacaq. Digər logistika marşrutu yüklərin Rusiya ilə Belarus, İran və Fars körfəzi ölkələri arasında daşınması olacaqdır.

Ədəbiyyat

1. [Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi]. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı
2. Y.Ceran ve A.Alagöz. [Lojistik Maliyet Yönetimi: Lojistik Maliyetler ve Lojistik Maliyet Muhasebesi]. Yönetim Bilimler Dergisi, 2007
3. M.Akyıldız. [Lojistik Dış Kaynak Kullanımının Gelişimi ve Türkiye'deki Kullanım Biçimleri]. Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2004. Cilt 6
4. D.Arnold. Coğrafi Keşifler Tarihi. Çev, Bahadır, O., Alan Yayıncılık, İstanbul, 1995
5. F.Filik. [Lojistik Merkezlerin Rolü ve Önemi]. M. Tanyaş, ve K. Hazır (Ed.), Lojistik Temel Kavramlar. 2011
6. K.G.Gülen. [Lojistik Sektöründe Durum Analizi Ve Rekabetçi Stratejiler]., Ticaret Odası Yayınları, İstanbul, 2011
7. R.Özey. [Ticaret Coğrafyası ve Küreselleşme], Aktif Yayınevi, İstanbul, 2013

Резюме

Рустамова Н.Ф.

Значение географии логистики: страны мира и Азербайджан

Хотя исторически логистика понималась как транспортировка товаров из одной точки в другую, сегодня добавление к логистике новых смыслов привело к формированию ее связей с торговлей, доставкой и географией. Пересечение этих направлений составляет география логистики. Главной особенностью географии логистики является то, что логистическая деятельность между разными странами основывается на науке географии. Другими словами, география логистики основана на создании логистических центров с учетом географических особенностей стран - распределения природных ресурсов между странами. Местоположение и транспортировка являются важными факторами, поскольку основными показателями логистики являются своевременная и экономичная доставка товара. Поэтому вышеперечисленные факторы следует учитывать при формировании логистических центров для достижения эффективных результатов.

Ключевые слова: *логистика, география, география логистики, выбор местоположения*

Summary

Rustamova N.F.

Importance of Logistics Geography: World Countries and Azerbaijan

Although logistics has historically been understood as the transportation of goods from one point to another, today the addition of new meanings to logistics has led to the formation of its links with trade, delivery and geography. The intersection of these areas is logistics geography. The main feature of logistics geography is that logistics activities between different countries are based on the science of geography. In other words, logistics geography is based on the establishment of logistics centers, taking into account the geographical features of the countries - the distribution of natural resources between countries. Location and transportation are important factors because the main indicators of logistics are timely and cost-effective delivery of the product. Therefore, the above factors should be taken into account when forming logistics centers in order to achieve effective results.

Key words: *logistics, geography, logistics geography, location selection*

İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARIMIZDA İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ƏSAS İSTİQAMƏTLƏRİ

Salih Şimşek
Sakarya Universiteti
Hümbətəliyeva Səadət Əsgər qızı
Sumqayıt Dövlət Universiteti
saadethumbataliyeva@mail.ru

Xülasə: *Milli iqtisadi təhlükəsizlik məsələsinin əsas istiqamətlərinin təhlilinə bilavasitə dövlətin iqtisadi təhlükəsizliyinin düzgün qiymətləndirilməsindən başlamaq lazımdır. Belə ki, ölkədə iqtisadi təhlükəsizliyin mövcud səviyyəsini qiymətləndirərkən ona müxtəlif aspektlərdən yanaşma daha çox faydalı ola bilir. Məqalədə milli iqtisadi təhlükəsizlik və onun əsası olan milli mənafe meyarının əsas dəyişənləri*

verilir, bununla yanaşı sosial-iqtisadi təhlükəsizliyinin təminatının tərkib hissələri və göstəriciləri təhlil olunaraq tövsiyə və təkliflər qeyd edilir.

***Açar sözlər**: Qarabağ, iqtisadi təhlükəsizlik, sosial istiqamətlər, milli mənafe, sosial-iqtisadi strategiya*

Milli dövlət, həmçinin milli iqtisadi təhlükəsizlik məsələləri qarşılıqlı şəkildə vəhdət təşkil edən davamlı vacib proseslərdən biridir. Burada ölkənin daxili və xarici siyasəti və onun səmərəli tənzimlənməsi ən mühüm bir məsələdir. Eyni zamanda, ölkənin milli sərvətlər üzərindəki keyfiyyətli nəzarət işinin təmin edilməsi iqtisadi inkişafda təhlükəsizliyin əsas şərti kimi özünü göstərir. Dövlət sosial-iqtisadi strategiyanı yerinə yetirmək, istehsal-sosial sahələrin inkişafını əldə etməyə görə onun təhlükəsizliyini daim təminatçısı olmalıdır. Buradan belə bir nəticəyə gəlirik ki, iqtisadi təhlükəsizliklə bağlı problemlər çoxşaxəli, həmçinin mürəkkəb bir prosesdir [3, s.128].

Azərbaycanın Qarabağ kimi strateji ərazidə bərqərar olması və bunun üçün də həmin məkanda mənafelərin toqquşması, iqtisadi təhlükəsizliyin təminatına mənfi surətdə təsir etməsi qarşılıqlı əməkdaşlığın təşkili zamanı diqqətdə saxlanılmalı və tarixi düşmənimiz olan dövlətlər tərəfindən baş verə biləcək bütün iqtisadi təhlükələr müəyyənləşdirilməli, eyni zamanda onların törədilməsinin qarşısının alınması üçün həyata keçiriləcək tədbirlərin vasitə və üsulları təyin edilməlidir.

44 gün sürən Vətən Müharibəsində Zəfər qazandıqdan sonra işğaldan azad edilmiş ərazilərimizin iqtisadi inkişaf yolu, həmçinin oraya köçürüləcək insanların sosial tələbatlarının təmin edilməsi Azərbaycan dövlətinin prioritet məsələsinə çevrilmişdir [2, s.32]. Belə ki, Qarabağın işğalı zamanı bütün istehsal və sosial infrastrukturlar dağıdılmiş və məcburən evlərindən didərgin salınan insanların dədə-baba ocaqları talan edilmişdir.

Müstəqillik əldə edildikdən sonrakı illərdə dövlətin iqtisadi inkişaf istiqamətləri, həmçinin əhali və onun sosial tələblərinin maksiumum ödənilməsi qaydaları 1995-ci ilin 12 noyabrında qəbul olunmuş Azərbaycan Respublikasının konstitusiyanın 15 və 16-cı maddələrində öz təsdiqini tapmışdır [1].

Dövlət hər zaman çalışır ki, həm daxili, həm də xarici təhlükələr mümkün qədər aradan qaldırılsın. Milli təhlükəsizlik məsələsi təkcə xarici təhlükənin aradan qaldırılması deyil, eyni zamanda da milli dövlətə əks olan daxili qüvvələrin, xüsusən də korrupsiya, terrorizm, narkomaniya və s. kimi ciddi problemlərin də aradan qaldırılması ilə əlaqədardır. Çox qısa zaman kəsiyində müstəqil olan Azərbaycan Respublikası böyük, çətin və şərəfli bir yoldan keçmişdir. Ölkəmizdə dünyavi, hüquqi, eyni zamanda sivil dövlət quruculuğunun uğurlu şəkildə davam etdirildiyini, həmçinin demokratikləşmənin getdikcə daha da dərinləşməkdə olduğunu görürük. Artıq iqtisadi təhlükəsizlik transformasiyasının köməkliyi ilə dövlətimiz bazar iqtisadiyyatı sisteminə keçid edərək öz potensialının, eyni zamanda zəngin olan resurslarının taleyini müstəqil dövlət olaraq həllinə nail olur və davamlı inkişafını təmin edir. Hazırda Azərbaycan Respublikası demək olar kı, tam olaraq beynəlxalq iqtisadi sisteminə inteqrasiya olunub və bunula da dünya birliyinin bərabər hüquqlu üzvü olaraq öz fəaliyyətini göstərməkdə davam edir.

Milli iqtisadi təhlükəsizlik və onun əsasını milli mənafelərin xüsusi dəyişənləri təşkil edir. Onlara ölkədaxili səviyyədə maliyyə, valyuta, ərzaq, sosial təhlükəsizlik, eyni zamanda xarici bazarlardan asılılıq dərəcəsinin aşağı salınması və s. aiddir.

İqtisadi təhlükəsizlik və onun ən başlıca məqsədi ilk öncə ölkənin milli maraqlarını qorumaqdan ibarətdir. V.Pankov iqtisadi təhlükəsizliyi aşağıdakı kimi şərh edir: "Bu iqtisadiyyatın elə halıdır ki, o vəziyyətdəki ictimai istehsal prosesinin normal fəaliyyətini əngəlləyən, əhali tərəfindən əldə olunan həyat səviyyəsinə ziyan vuran və bunlarla da cəmiyyətdəki sosial gərginliyi yüksəldən, eyni zamanda ölkənin mövcudluğu üçün ciddi təhlükə yaradan hallarla mübarizədə iqtisadiyyatın immunitetinə çevrilir".

Sosial təhlükəsizlik dedikdə, həm cəmiyyət səviyyəsində, həmçinin onun ayri-ayri fərdlərinin təhlükəsizliyinin təminatı başa düşülür. O, sosial- iqtisadi inkişafın dayanıqlığının əsasıdır.

İnsan həm sosial varlıq olmaqla cəmiyyətin üzvü, həm də bioloji varlıq kimi canlı orqanizmə malikdir. Birinci halda şəxsiyyətin hüququ təminatından söhbət gedir, onun ümumi sosial normalarla, məsələn maddi təhlükəsizliyi, mülkiyyətin toxunulmazlığı, təsərrüfat, əmlak, əmək və ailə münasibətləri, məişət təhlükəsizliyi, mənzil, mühəndis- kommunal şəbəkəsi və s. təhlükəsizliyi təmin olunmalıdır. İkinci halda şəxsiyyət və onun bioloji, fiziki, kimyəvi, həmçinin radiasiya və digər təhlükələrdən qorunması nəzərdə tutulur. Buraya həmçinin bədən xəstəlikləri, psixi və mənəvi təhlükələr də daxildir. Şəxsiyyətin iqtisadi təhlükəsizlik sistemində onun sağlam milli mənəviyyatının qorunması birinci dərəcəli əhəmiyyətə malikdir. Bu müasir dövrdə iqtisadiyyatın inkişafında insan amili və onun rolunun əvvəlki illərə nisbətən qat-qat artması ilə şərtlənir. Çünki insanın mənəviyyatının əsasında onun ağlı durur. Ağıllı insan hökmən ədalətli olur, bu isə qənaətçilik və zəhmətkeşlik keyfiyyətlərini formalaşdırır. Bu şərtlər tam olaraq təmin edildikdə bütün iqtisadi sistemlərdə, hətta ən əlverişsiz şəraitlərdə belə insanın orta səviyyədə yaşaması mümkündür.

Vətən müharibəsi bitdikdən sonra Azərbaycanda insanların mənəviyyatı güclü dəyişiklik keçirir. Milli dirçəliş, milli qürur, şəxsi maraqların cəmiyyətin və dölətin maraqlarına qurban verilməsi başlıca amilləri təşkil edir. Deməli, erməni işğalından azad edilmiş Qarabağ torpaqlarına köçürüləcək şəxslərin iqtisadi təhlükəsizliyinin kompleks proqramı işlənib hazırlanarkən bütün amillər nəzərə alınmalıdır. Ona görə ki, şəxsiyyət və onun mənəviyyatının sağlamlaşdırılmasında olan mənəvi böhranı yaradan vəziyyətin aradan qaldırılması prioritet məsələlərdəndir. Şəxsiyyətin iqtisadi təhlükəsizliyin təminatında ortaya çıxan çətinliklərdən biri də iqtisadi islahatların həyata keçirilməsində hüququ qanunlara vəhdət halında yanaşılmamasıdır. Belə ki, iqtisadi islahatları həyata keçirmək üçün hüququ baza yaradılmalı və qəbul olunmuş bütün hüqüqıı qanunlar bir istiqamətə - ölkənin mütərəqqi iqtisadi inkişaf potensialını cəmiyyətin və onun müxtəlif üzvlərinin həyat səviyyəsini yüksəltməyə, ölkənin müdafiə qüdrətini artırmağa və hər cür təhlükəni aradan qaldırmağa yönəldilməlidir.

Hazırda işğal altındakı torpaqlarımız azad ediləndən sonra, orada bütün təhlükəsizlik tədbirləri nəzərə alınaraq quruculuq işləri sürətlə davam etdirilir. Bununla da, Azərbaycan dövləti öz xalqının tarixi torpaqlarında hüquqlarının bərpasının təminatçısı olduğunu bir daha dünya birliyinin nəzərinə çatdırır. Bu istiqamətdə Türkiyə Respublikası Böyük Vətən müharibəsi zamanı olduğu kimi gələcəkdə də Azərbaycanın daimi dəstəkçisidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2002, 83 s.
2. Humbataliyeva S.Ə. Sosial indicators of national economic security in the reconstruction and development of Karabakh. Karabakh II. International Congress of Modern Studies in Social Sciences and Humanities Institute of the Caucasus Studies Azerbaijan National Academy of Sciences. 8-10 November 2021, Azerbaijan, p.32
3. Məmmədov N., Bərxudarov M. İqtisadi Təhlükəsizlik. Bakı: İqtisad Universiteti, 2006, 452 s.

Резюме

Шимшек С., Гумбаталиева С.А.

Основные направления экономической безопасности на освобожденных территориях

Анализ основных направлений национальной экономической безопасности следует начинать непосредственно с правильной оценки экономической безопасности страны. Таким образом, при оценке экономической безопасности страны полезен многогранный подход. В статье представлены основные переменные национальных интересов, составляющих основу национальной экономической безопасности, проанализированы компоненты и показатели обеспечения социально-экономической безопасности, даны рекомендации и предложения.

Ключевые слова: *Карабах, экономическая безопасность, социальные направления, национальные интересы, социально-экономическая стратегия*

Özet

Salih Şimşek, Humbataliyeva S.A.

İşgalden kurtulmuş topraklarimizda ekonomik güvenliğin temel yönergeleri

Ulusal ekonomik güvenlik meselesinin ana yönlerinin analizine doğrudan devletin ekonomik güvenliğinin doğru değerlendirilmesinden başlamak gerekir. Dolayısıyla ülkenin ekonomik güvenlik düzeyini değerlendirirken konuya farklı açılardan yaklaşmak daha faydalı olacaktır. Makalede, ulusal ekonomik güvenlik ve dayanağı olan ulusal çıkarların temel değişkenleri verilmiş, aynı zamanda sosyo-ekonomik güvenliğin sağlanmasının kurucu unsurları ve göstergeleri incelenerek öneriler not edilmiştir.

Anahtar kelimeler: *Karabağ, ekonomik güvenlik, sosyal yönler, ulusal çıkarlar, sosyo-ekonomik strateji*

Summary

Shimshek S., Humbataliyeva S.A.

The Main Directions of Economic Security in the Liberated Territories

The analysis of the main directions of national economic security should begin directly with the correct assessment of the country's economic security. Thus, when assessing the economic security of the country, a multifaceted approach is useful.The article presents the main variables of national interests that form the basis of national economic security, analyzes the components and indicators of ensuring socio-economic security and makes recommendations and suggestions.

Key words: *Karabakh, economic security, social directions, national interests, socio-economic strategy*

LOGİSTİKANIN BEYNƏLXALQ TİCARƏTİN İNKİŞAFINDA ROLU

Səmədova Zəhraxanım İsa qızı
Bakı Dövlət Universiteti
samadova.zahra2022@gmail.com

Xülasə: *Məqalədə logistikanın beynəlxalq ticarətdəki rolu araşdırılmışdır. Məhsulların daşınması, itkisiz və zərər dəyməmiş formada alıcıya çatdırılması beynəlxlaq ticarətin inkişafında çox önəmli faktorlardır. Logistika xərcləri azaltmaq, etibarlı ticarət tərəfdaşları tapmaq, ticarət dövriyyəsini artırmaq və s. kimi bir çox vacib məsələdə həlledici rol oynayır. Buna görə də tarixən sürətli inkişaf yolu keçən logistika, bu gün özünün ən inkişaf etmiş dövrünü yaşayır. Şübhəsizdir ki, logistikanın bugünkü inkişafında texnoloji yeniliklərin xüsusi əhəmiyyəti vardır. Bütün bunlarla bağlı müəllif fikirləri göstərilmiş, müxtəlif təkliflər verilmişdir.*

Açar sözlər: *logistika, ticarət, inkişaf, informasiya və kommunikasiya texnologiyaları, alqı-satqı.*

Beynəlxalq ticarət qlobal istehsal prosesinin bir hissəsidir. Bu gün şirkətlər arasında ticarət qlobal ticarətin təxminən üçdə birini təşkil edir və bu pay artır. Qlobal istehsal proseslərində iştirak edən şirkət etibarlı ticarət qaydaları və prosedurlarından asılıdır. Bundan əlavə, komponentlərin və yarımçıq məhsulların ticarəti artmaqdadır ki, birinci halda bu, istehsal olunmuş malların qlobal ticarətinin təxminən 30%-ni təşkil edir. Qlobal istehsal proseslərində istifadə edilmək üçün xaricdən alınan komponentlərin çatdırılması etibarlı və təhlükəsiz beynəlxalq logistika xidmətlərindən asılıdır.

Bu tendensiya təkcə sənayeləşmiş ölkələr üçün aktual deyil, inkişaf etməkdə olan ölkələr də qloballaşan istehsal proseslərində getdikcə daha çox iştirak edirlər. Bu günə qədər inkişaf etməkdə olan ölkələrin ixracının 80%-ni istehsal məhsulları təşkil edir, 20 il bundan əvvəl bu rəqəm cəmi 20%-dir [5]. İstehsal edilmiş malların ticarəti, keçmişdə əksər inkişaf etməkdə olan ölkələrin ixracatında üstünlük təşkil edən xammal ticarətindən daha çox zamana həssas olur.

Logistika xərcləri, vaxtı və mürəkkəbliyi azaltmaqla idxal və ixrac fəaliyyətlərini asanlaşdırır. Çoxsaylı empirik tədqiqatlar logistika performansının ticarət həcminə təsirini araşdırmışdır. Hausman və başqaları. (2013) bir ölkədən digərinə mal gətirmək üçün sərhədləri keçmək xərclərini və logistika səmərəliliyinin ikitərəfli ticarətə təsirini təhlil etmişlər.

Onlar müəyyən ediblər ki, məsafə və malların daşınması xərcləri, habelə tətbiq olunan rüsumlar və vergilər tərəfdaşlar arasında ticarət həcminə təsir göstərir. [2, s.21] Limao və Venables (2001) nəqliyyat xərcləri və beynəlxalq ticarət axınları arasında güclü statistik əlaqə tapırlar. Bu müəlliflər infrastrukturun keyfiyyəti ilə nəqliyyat xərcləri arasında aydın əlaqə tapırlar, bu isə o deməkdir ki, infrastruktura investisiyalar ixracın inkişafı üçün vacibdir. [2, s.21]

İnkoterms kommersiya təcrübəsinin beynəlxalq standartlaşdırılması vasitəsi kimi işlənib hazırlanmışdır; onlar kommersiya tərəflərinin könüllü istifadəsi üçündür. Hər bir ticarətin öz adət-ənənələri var. Alıcılar və satıcılar yerli təcrübələri nəzərə alaraq hər bir əməliyyat üçün ticarət şərtlərini müzakirə etməlidirlər. Razılaşdırılmış inal müddət, standart Incoterm olub-olmamasından asılı olmayaraq, iki ticarət tərəfdaşının bütün hüquqlarını, öhdəliklərini və risklərini müəyyən etməli olacaq.

İnkoterms beynəlxalq alqı-satqı müqaviləsi nəticəsində satılan malların daşınması ilə bağlı satıcı və alıcının qarşılıqlı öhdəliklərini müəyyən edir. Ticarət şərtləri beynəlxalq alqı-satqı müqavilələrinin əsas elementləridir, çünki onlar tərəflərə aşağıdakılarla bağlı nə etməli olduqlarını bildirirlər:

1. Malların satıcıdan alıcıya daşınması
2. İxrac və idxal rəsmiləşdirilməsi.

Onlar həmçinin tərəflər arasında xərclərin və risklərin bölünməsini izah edirlər. Incoterms 2000-nin yenidən işlənmiş nəşri satıcı və alıcıya öz öhdəliklərini müəyyən etmək üçün addım-addım prosesi izləməyə imkan verən yeni formatdan istifadə edir. Incoterms satıcılar və alıcılar arasında baha başa gələn anlaşılmazlıqların qarşısını almağa imkan verir. Hər bir Incoterm üç mühüm məlumat təqdim edir:

1. Riskin ötürülməsi: Daşıma əməliyyatı zamanı yükün itməsi və zədələnməsi risklərinin satıcıdan alıcıya keçdiyini müəyyən edir.

2. Xərclərin bölünməsi: Satıcı və alıcı təkcə kimin nə etdiyini deyil, həm də nəticədə yaranan xərclərin onlar arasında necə bölüşdürüləcəyini bilməlidir. Əsas prinsip ondan ibarətdir ki, satıcı malların razılaşdırılmış çatdırılma nöqtəsinə çatması üçün lazım olan xərcləri ödəməlidir və alıcı bundan sonra hər hansı əlavə xərcləri ödəməlidir.

3. Satıcı tərəfindən alıcıya təqdim edilməli olan sənədlər və ya ekvivalent elektron mesajlar, məsələn, çatdırılma sənədi, nəqliyyat sənədi və ya hər hansı digər (əsllik şəhadətnaməsi, fitosanitar sertifikatı və s.).

Nəqliyyat logistikası, yəni nəqliyyatın digər xidmətlərlə (o cümlədən anbarın idarə edilməsi, məhsulların qablaşdırılması və markalanması, malların hərəkəti ilə bağlı sığorta və bank əməliyyatları, beynəlxalq daşımalar zamanı sərhəd rəsmiyyətləri və s.) inteqrasiyası nəticələnir. müştərilərə xidmət səviyyəsi.

Bu cür təkmilləşdirmələr daha keyfiyyətli məhsullara gətirib çıxarır və bazar paylarını artırmaq (və ya qiymət artımlarını əsaslandırmaq üçün) və bununla da əlavə gəlir əldə etmək üçün istifadə oluna bilər.

Nəqliyyat logistikası yüksək standartlı nəqliyyat xidmətlərindən asılıdır ki, bu da bütün dünya üzrə komponentlərin və məhsulların aşağı həddi üzərində nəzarəti təmin edir, eyni zamanda bazar tələbindəki sürətli dəyişikliklərə reaksiya vermək üçün kifayət qədər çevikliyə imkan verir.

Çeviklik, sürət və etibarlılıq kimi amillər əsas əhəmiyyət kəsb edir:

1. Çeviklik, çünki nəqliyyat logistikası istehlakçı tələblərinin dəyişməsinə və gözlənilməz vəziyyətlərə uyğunlaşmaq qabiliyyətinə malik olmalıdır;

2. Sürət, çünki nəqliyyat əməliyyatlarının həyata keçirildiyi sürət məhsulların və buna görə də kapitalın bağlanma müddətini azalda bilər və;

3. Etibarlılıq, çünki o, malların tədarükü və ya paylanmasında nasazlıq riskini azaldır və bununla da təhlükəsizlik/bufer ehtiyatlarına ehtiyacı azaldır.

İnformasiya və kommunikasiya texnologiyaları (İKT) informasiya aşağı səviyyəsinin səmərəli idarə edilməsi vasitəsilə daha təhlükəsiz, təhlükəsiz, hamar və etibarlı nəqliyyat və ticarətə imkan verir.

Onlar həmçinin qaydaların daha sərt nəzarəti və icrasına, avadanlıq və infrastrukturun məhsuldarlığının artırılmasına imkan verir. Nəqliyyat və ticarət üçün İKT-nin əhəmiyyəti qloballaşmanın gəlməsi və informasiyanın aşağı olması əsas olan beynəlxalq ticarətin genişlənməsi ilə artdı.

Beynəlxalq ticarət və nəqliyyat çoxlu oyunçuları və çoxsaylı və mürəkkəb əməliyyatları əhatə edir ki, bu da daimi məlumatların əldə edilməsi, təhlili və mübadiləsi ehtiyacı ilə nəticələnir. Müxtəlif oyunçular alqı-satqı müqavilələri, daşıma müqavilələri, akkreditivlər və Gömrük ilə bağlı müqavilə razılaşmalarının bir hissəsi kimi çoxlu sayda sənədləri və geniş məlumatları verir, ötürür və dəyişdirirlər.

Ədəbiyyat

1. Abosedra, S., & Tang, C. F. (2019). Are exports a relia-ble source of economic growth in MENA coun-tries? New evidence from the rolling Granger cau-sality method. *Empirical Economics*, *56*(3), 831–841. https://doi.org/10.1007/s00181-017-1374-7
2. Alma Mačiulytė-Šniukienė, Aurelija Burinskienė, Logistics and international trade development relationship: evidence of European Union member states, 11th International Scientific Conference “Business and Management 2020” May 7–8, 2020, Vilnius, Lithuania.
3. Funda Yercan, Turkay Yildiz, International maritime trade and logistics
4. Lu Chen, Theo Notteboom, Determinants For Assigning Value-added Logistics Services To Logistics Centers Within A Supply Chain Configuration, Journal of international logistics and trade, Volume 10, Number 1, April 2012, pp.3~41
5. file:///C:/Users/X540UB/Downloads/Logistics_of_international_trade%20(1).pdf

Резюме

Самадова З.И.

Роль логистики в развитии международной торговли

В статье рассматривается роль логистики в международной торговле. Транспортировка продукции и доставка покупателю без потерь и повреждений являются очень важными факторами развития международной торговли. Снизить затраты на логистику, найти надежных торговых партнеров, увеличить товарооборот и т.д. имеет важнее значение для решение многих вопросов. Поэтому логистика, исторически переживавшая бурное развитие, в настоящее время переживает свой наиболее продвинутый период. Несомненно, особое значение в современном развитии логистики имеют технологические инновации. Относительно всего этого показаны мнения автора и даны различные предложения.

Ключевые слова: *логистика, торговля, развитие, информационные и коммуникационные технологии, купля-продажа*

Summary
Samadova Z.I.
The Role of Logistics in the Development of International Trade

The article examines the role of logistics in international trade. Transportation of products and delivery to the buyer without loss or damage are very important factors in the development of international trade. Reduce logistics costs, find reliable trading partners, increase trade turnover, etc. plays a decisive role in many important issues. That's why logistics, which has historically undergone rapid development, is currently experiencing its most advanced period. There is no doubt that technological innovations have a special importance in today's development of logistics. Regarding all these, the author's opinions are shown and various suggestions are given.

Key words: *logistics, trade, development, information and communication technologies, buying and selling*

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ TƏMİNATININ YÜKSƏLDİLMƏSİNİN İNNOVATİV MEXANİZMLƏRİ

Süleymanov Qəzənfər Salman oğlu, Şeydai Türkan Əli qızı, Səfərli Ziyada Hafiz qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
suleymanov.q.s@gmail.com

Xülasə: *Məqalədə müəssisənin səmərəli təşkili və idarə edilməsinin əsas amili olan maliyyə resurslarına olan təminatının yüksəldilməsinin innovativ üsulları və onun üstünlükləri tədqiq edilir. Bu məqsədlə məqalədə beynəlxalq təcrübə öyrənilir və müəssisənin maliyyə təminatının mənbələri araşdırılaraq, onun yüksəldilməsin ininnovativ modelləri təklif edilir. Bununla yanaşı, müəssisənin maliyyə vəsaitlərinin yüksəldilməsinin ənənəvi və mütərəqqi modelləri tədqiq edilir. Bu məqsədlə,məqalədə müəssisənin maliyyə resurslarının fuksional strukturunun optimallaşdırılması modeli təklif edilir. Məqalənin sonunda isə təklif edilmiş modeldən istifadə etməklə müəssisənin maliyyə resurslarına olan tələbatının ödənilməsi səviyyələri qiymətləndirilir.*

Açar sözləri: *müəssisə, innovasiya, maliyyə, resurs, metod, model*

Müəssisənin maliyyə təminatının yüksəldilməsi həm mikroiqtisadi, həm də makroiqtisadi nöqteyi-nəzərdən aktualdır. Buna görə də, təşkilati xüsusiyyətindən fərqli olmayaraq, hər bir təşkilat özünün maliyyə təminatını formalaşdırmalıdır. Müəssisənin maliyyə mənbələri ilə təmin edilməsində müasir dövrdə dövlət miqyasında yardımların göstərilməsi, orta, kiçik, iri ölçülü olmaqla müəssisələrin maliyyələşdirilməsi üçün verilən kreditlərin faizlərin miqdarının azalması, geriqaytarılan və əvəzsiz şəkildə verilən yardımlar önəmli yer tutur. Hər bir müəssisənin normal fəaliyyətini həyata keçirə bilməsi, mövcud iqtisadi vəziyyətdə rəqabətə tab gətirə bilməsi və inkişafının əsas mənbəyi kimi onun müəyyən olunmuş maliyyə mənbələrinin mövcudluğu sayəsindədir. Bu həmdə müəssisənin müflisləşməsinin və yarana biləcək iflas riskinin qarşısının alınması üçün zəruridir. Buna görə də fəaliyyət göstərən müəssisələr özlərinin maliyyə sabitliyini qorumaq və dayanıqlı inkişafını təmin etmək, həm mikrosəviyyədə, həm də makrosəviyyədə önəmli rol oynayır. Bunun üçün həm dövlət xaricində, həm də ölkəmizdə sahibkarlığın dəstəyi üçün müvafiq qərarlar və qanunlar qəbul olunmuş, yaranan problemlərin qarşısını almaq üçün müvafiq tədbirlər görülmüşdür.

Xarici ölkə alimləri öz əsərlərində qeyd etmişdilər ki, müəssisənin maliyyə vəsaitlərinin idarəedilməsi, müəssisənin maliyyə menecmentində önəmli yer tutur. [1,2] Bununla yanaşı, öz əsərlərində maliyyə resurslarının idarə edilməsinə və yüksəldilməsinə ənənəvi yanaşma metodranınından istifadənin perespektivlərinidə şərh etmişlər. Bu yanaşmaya əsasən maliyyə vəsaitlərinin yüksəldilməsi üçün firmanın həm öz kapitalını, həm də borc kapitalını artırmaq lazımdır. Bu mənbələrin də ayrı-ayrılıqda yüksəldilməsi üçün müxtəlif yollardan istifadə edilməsi məqsədəuyğundur.

Müəssisədə maliyyə resurslarının idarə edilməsi üçün ilk növbədə ənənəvi metodların iki cür təsnifatına diqqət edilməlidir. Belə ki, istənilən sənaye müəssisəsi üçün maliyyə ehtiyatlarını idarə etmək üçün, onların optimallaşdırılması gərəklidir. Hər bir müəssisə malik olduğu öz və borc kapitalını müqayisəli təhlili ilə onları necə optimallaşdıra biləcəyini müəyyən etməlidir [3].

Şəkil 1. Maliyyə vəsaitlərinin yüksəldilməsinin ənənəvi metodu

Şəkil 2-də müəssisənin maliyyə ehtiyatlarının yüksəldilməsinin mütərəqqi metodu ifadə edilmişdir. Mütərəqqi metodda, öz və borc kapitalı ilə yanaşı, firmanın malik olduğu aktivlərinin də otimallaşdırılması lazımdır. Bunun üçün şəkil 2-də müxtəlif üsullar əks olunmuşdur [4].

Şəkil 2. Maliyyə vəsaitlərini yüksəltməyin mütərəqqi modeli

Beləliklə, yuxarıda göstərilən təsnifata əsaslanaq qeyd edə bilərik ki, mütərəqqi metodlar ənənəvi metodlara nəzərən aktivlərin strukturun optimallaşdırılmasını təmin etməklə, həm daxili, həm də beynəlxalq bazarlarda əlavə maliyyə ehtiyatlarının cəlb edilməsinə imkan verir.

Müəssisənin sahib olduğu maliyyə ehtiyatlarının idarə edilməsində perspektiv metodlar əhəmiyyətli rol oynamalıdır. Buna görə maliyyyə resurslarının belə öz və borc vəsaitlərinin nisbətini ifadə etməklə, kapitalın inkişafına və onun rentabelliyinə şərait yaratmaqla, müəssiəsəni böhrandan və digər riskli hallardan qorumaq üçün müəyyən maliyyə sabitliyini təmin etmiş olarıq. Müəssisənin malik olduğu kapitalın strukturunu optimallaşdırmağa çalışmalıdır. Müasir nəzəriyyədə bu problemin həll edilməsi üçün ən çox istifadə edilən üsulları şəkil 3-də cəmlənmişdir [5,6].

Maliyyə mənbələrinin optimallaşdırılması üçün kapitaldan səmərəli istifadə edilməli və daha çox mənfəət əldə edilməsinə yönəldilməlidir. Çünki mənfəət və bazar dəyəri hər bir müəsssisənin əsas hədəfidir və maliyyə mənbələrinin optimallaşdırılması yollarının müəyyənləşdirilməsi nəinki təşkilat rəhbərlərini həm də ölkə iqtisadiyyatı üçün də aktual bir problemdir.

Müəssisələrin maliyyə strukturunun inkişaf etdirilməsinin əsas yollarından digəri bu sahədə dövlət dəstəyinin göstərilməsidir. Dövlət başçısı tərəfindən 2018-ci ildə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək, Sahibkarlığın İnkişaf Fondu yaradılmışdır. Bununla yanaşı kiçik, orta və iri müəssisələrə verilən kreditlərin həcmi, müddəti, güzəşt müddətləri müəyyən olunmuşdur. Sahibkarlığa dövlət dəstəyinin təkmilləşdirilməsi məqsədilə daimi olaraq fondun ehtiyatı və istifadə şərtləri inkişaf etdirilmiş, bu sahədə qanunlar qəbul edilmiş və təsərrüfat subyektlərinin maliyyələşdirilməsi, səmərli fəaliyyəti təmin edilmişdir.

Firmanın optimal kapital strukturunun əsas məqsədi, kapital xərclərini azaltmaqla onun bazar dəyərini yüksəltməkdir. Optimal kapital sturukturuna dair müxtəlif yanaşmalar mövcuddur. Bu yanaşmaların əsas diqqəti, istifadə edilən vəsaitlərin strukturunun dəyişməsinin kapitalın dəyərinə və firmanın bazar dəyərinə necə təsir edə biləcəyini formalaşdırmaqdır. Bu yanaşmalara xalis əməliyyat gəliri, ənənəvi

yanaşma, xalis gəlir yanaşması, Modigliani-Miller yanaşması daxil edilir. Bu yanaşmaların hər biri leverec əmsalı (borc/öz kapital) artarkən, səhmdarların gəlirinin, borc verənlərin gəlirinin və firmanın ümumi kapital dəyərinin necə dəyişəcəyini müəyyənləşdirməkdir. Xalis əməliyyat gəlirində fərziyyələrin dəyərinin dəyişməsi, leverec əmsalının dəyişməsilə əlaqəli deyildir və optimal kapital strukturu mövcud deyldir.

Şəkil 3. Müəssisənin kapital strukturunun optimallaşdırılması modeli

Xalis gəlir yanaşmasında, xarici mənbələr sabitdirsə, kapital strukturundakı dəyişiklik ümumi kapital gəlirliyinə təsir edir. Bu yanaşma, optimal kapital strukturuna maksimum borclanaraq və leverec əmsalını artıraraq, umumi kapital xərclərini azaldar və onnun bazardakı dəyərini artırar. Ənənəvi yanaşma digər yanaşmların cəmi kimi ifadə edilir. Bu yanaşma leverec əmsalı ilə bazar dəyərini yüksəldə bilər. Tədqiqatlada [4,5] təklif edilmiş innovativ modellərində firmanın gələcək dövrdəki nəticələri bilinməsədə, investorların gəlir əldə etmə gözləntiləri vardır. Digər aparılmış araşdırmalar [2,5,6,7] isə kapitalın optimallaşdırılması üçün bir sıra nəticələrin əldə etməsinə imkan verir ki, bu da bir çox müəssisələrin təcrübəsində öz müsbət tərəflərini təsdiqləmişdir. Bu araşdırmalara əsaslanaraq kapitalın optimallaşdırması üçün ən vacib müddəalara aşağıdakıları daxil etmək olar:

– müəssisələr bölüşdürülməmiş mənfəət və amortizasiya hesabına maliyyələşməyə daha çox üstünlük verirlər;

– öz daxili maliyyə ehtiyatlarının çatışmazlığı şəraitində, müəssisələr son çarə kimi öz qiymətli kağızlarının satışını, səhmlərin emissiyasını həyata keçirməyə çalışırlar, yalnız bundan sonra maliyyə və kredit orqanlarından kreditlər və konvertasiya edilən borclar qazanırlar.

Deməli, şirkətdə pul resurslarının hərəkkətinin səviyyəsi onun gələcəkdə kreditin qərarlaşdırılmış zamanlarda ödəmə qabiliyyətininə, zəruri öhdəliklərinin yerinə yetirilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Pul resursları nə qədər sürətli hərəkət edərsə müəssisənin müflisləşməsi ehtimalı azalar və borc kapitalından maksimum yararlanmağa çalışılar.

Ekspertlərin yanaşmasına görə, təşkilatlar maliyyə idarəetmə sisteminin düzgün qurulmamasından və ya olmamasından dolayı hər il minumum 10% gəlir itirirlər. Çünki müasir məlumatlarla təmin olunmaqdakı çətinliklər və lazımlı idarəetmə qərarlarının gec qəbul olunması itkilərə gətirib çıxarır. Şirkətin səmərəliliyini və idarəolunmasının yaxşılaşdırılması üçün maliyyənin idarə edilməsinin effektiv mexanizminin qurulması vacibdir. Bunun üçün görülməli olan işləri aşağıdakı kimi qruplaşdıra bilərik:

– Müəssisənin maliyyə idaretməsində məsuliyyət daşıyan işçilərin təkmilləşdirilməsi üçün təlimlərin həyata keçirilməsi lazımdır;

– Müəssisədə lazımi informasiyaların əldə olunmasının əlçatanlığının təmin edilməsi, təhlükəsizliyinin qorunması, xərcləri müəyyənləşdirməklə maliyyə mənbələrindən ən səmərəlisinin seçilməsi və tələb olunan qədər, qənatlə istifadə edilməsi lazımdır;

– Müəssisənin maliyyə resursurslarından istifadənin inkişaf dinamikasına təsirini müəyyənləşdirmək üçün nəzarəti daim artırmaq lazımdır.

Bununla yanaşı, resurslardan səmərəli istifadə edilməli və daim yüksəldilməsi yollarının araşdırılması da, maliyyə ehtiyatlarını əldə etmək qədər əhəmiyyətlidir. Təşkilat mövcud olduğu zamandan etibarən, müəyyən qədər maliyyəyə ehtiyacı olduğu qədər, fəaliyyət göstərdiyi zaman ərzində də həm özünün malik olduğu mənbələrdən, həm də cəlb etdiyi mənbələrdən maliyyələşmə qərarlarını düzgün qəbul etməlidir. Çünki maliyyə qərarları onun maliyyə sabitliyinə, eləcə də maliyyə cəhətdən müstəqilliyinə, pul

resurslarının sərbəst manevr etməsinə, rəqabətqabiliyyətliliyinə bilavistə təsir göstərməklə, müflisləşməsi riskinin yaranması ehtimalına qarşı müdafiə edir. Müəssisə üçün ən risksiz maliyyə mənbəyi özünün sahib olduğu daxili mənbələri hesab edilir, çünki əlçatanlığı və təhlükəsizliyi, faiz ödəmə kimi öhdəliyinin olmaması nöqteyi-nəzərdən daha əlverişlidir. Lakin borc alınan maliyyə mənbələri də müəssisənin uzunmüddətli əsaslı inkişafı üçün şərait yaratmaqdadır. Həmçinin əldə edilən borcların geri qaytarılma faizlərini qarşılaya bilməsi müəssisə üçün önəmli faktorlardan biridir.

Əhəmiyyətli tərəddüdlər mövcud olmadan ümumilikdə satışların artımını gözləyən müəssisə borc kapitalını artıra bilər, çünki yüksək pul axınları kreditorların öhdəliklərinin icra edilməsinə təminat verir. Əgər müəssisədə satışlar zəifdirsə və iqtisadi geriləməyə görə daha aşağı mənfəət nəzərd tutulubsa, onda borc kapitalından istifadəni düşünməməli və təhlükəsizliyinin təminatına görə onu azaltmağa səy göstərməlidir.

Nəticə və təkliflər

Beləliklə, hər bir müəssisənin yaşaması, rəqabət şəraitində sağ qalması və inkişafının əsas təminatı onun lazımi maliyyə mənbələrinə əlçatanlığının olmasıdır. Müəssisələrin maliyyələşmə mənbələrinin optimallaşdırılmasının təkmilləşdirilməsi üçün aşağıdakı təklifləri tövsiyə edirik:

– Müəssisədə pul resurslarının mövcud dövrdə hərəkətinə dair məlumat toplamaq və gələcək aylarda və illərdəki vəziyyəti haqında proqnoz verə bilmək üçün maliyyə planını formalaşdırmaq;

– Dövlət tərəfindən daim sahibkarlara maliyyə dəstəyinin göstərilməsi və vergi dərəcələrinin yumşaldılması, bankların müəssisələrə təyin etdiyi kredit faizinin dərəcəsinin endirilməsi, əvəzsiz maliyyə yardımlarının göstərilməsinin təmin olunması istiqamətində işlərin görülməsi, qabaqcıl dünya təcrübəsinin metodlarından istifadə edilməsi əhəmiyyətlidir;

– İstehsal olunan məhsulların keyfiyyətinin yüksəldilməsi və məhsulların marketinqi ilə istehsal tempini yaxşılaşdırmağa, balans mənfəətinin yüksəldilməsinə çalışılmalıdır. Çünki müəssiənin mənfəəti onun fəaliyyətinin başlıca iqtisadi göstəricisi, həm də ən əsas maliyyə mənbəyi hesab olunur. Mənfəətin artırılması həm müəssisənin fəaliyyətində, həm də maliyyə mənbələrinin yüksəldilməsində rolu çox böyükdür. Belə ki, hər bir sahibkar gəlirli iqtisadi fəaliyyətlərə yatırımlar edir, çünki bu yolla öz biznesini inkişaf etdirə bilərlər;

– Debitor və kreditor borcları ilə əlaqədar hesablaşmalara, kreditlərin geri ödənilməsinə, faiz dərəcələrinə diqqət edilməlidir, çünki bunlar birbaşa müəssisənin son maliyyə nəticəsi olan mənfəətinə təsir göstərəcəkdir;

– Müəssisənin maliyyə idaretməsində məsuliyyət daşıyan işçilərin təkmilləşdirilməsi üçün təlimlərin həyata keçirilməsi lazımdır.

Beləliklə, verilən təkliflərə nəzərə alınsa, müəsisə və təşkilatla qısa zamanda maliyyələşmə mənbələrini optimallaşdıra, maliyyə cəhətdən sabitliyini təmin edə bilər və bazardakı mövqeyini qoruya bilər.

Ədəbiyyat

1. Approaches to the generation of an enterprise's financial resources in the context of their limitation, Makka Alaudinovna Khamatkhanova.Vol.39. (Number 18). 2018, pp.22

2. Enterprise Performance and Specific Financial Sources, Advances in Economics, Dagmar Camska. Business and Management Research, volume 131, 2020, pp. 777-781.

3. Müəssisələrin maliyyəsi. Ali məktəblər üçün dərslik. İbrahimov E., Ataşov E., Bakı, "Kooperasiya" nəşriyyatı, 209, 336 səh

4. Management of enterprise's financial sustainability and improvement of its methods. Galyna Azarenkova, Kateryna Abrosimova and Olena Golovko. Accounting and Financial Control, 2(1), 2018, pp. 1-14.

5. Internal Sources of Finance for Business Organizations, Vikas Shrotriya, IJRAR June, Volume 6, Issue 2, 2019, pp. 933-940.

6. Разработка алгоритма выбора рационального источника финансирования промышленного предприятия. Золкина А.А., Коровкина Н.И. Вестник Алтайской академии экономики и права. № 5 (часть 3). 2019. С. 70-76.

7. Systematization of models and methods in managing financial resources of companies, Makka Alaudinovna Khamatkhanova. Vol. 39 (Number 18), 2018, pp. 21.

Резюме
Сулейманов Г.С., Шейдай Т.А., Сафарли З.Х.
Инновационные механизмы повышения финансовой обеспеченности промышленных предприятий

В статье исследуются инновационные методы повышения обеспеченности ресурсами затрат и ее преимущества, являющиеся основным фактором эффективной организации и управления предприятием. С этой целью в статье изучается международный опыт и источники финансового обеспечения предприятия, предлагаются инновационные модели его модернизации. Наряду с этим в статье рассматриваются традиционные и прогрессивные модели повышения финансовой устойчивости предприятия. С этой целью в статье предложена модель оптимизации функциональной структуры управления финансовыми ресурсами предприятия. В конце статьи оцениваются уровни удовлетворения потребности предприятия в финансовых ресурсах с помощью предложенной модели.

Ключевые слова: *предприятие, инновации, финансы*

Summary
Suleymanov G.S., Sheydai T.A., Safarli Z.H.
Innovative Mechanisms for Improving the Financial Security of Industrial Enterprises

The article examines innovative methods and advantages of improving the provision of financial resources, which is the main factor in the effective organization and management of the enterprise. For this purpose, the article studies international experience and explores the sources of financial support of the enterprise and proposes innovative models of its improvement. In addition, the article examines traditional and progressive models of raising the financial assets of the enterprise. To this end, the article proposed a model for optimizing the functional structure of the financial resources of the enterprise. At the end of the article, the levels of satisfaction of the needs of the enterprise in financial resources are assessed using the proposed model.

Key words: *enterprise, innovation, finance, resource, method, model*

İŞĞALDAN AZAD OLUNMUŞ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR REGIONLARINDA MƏDƏNİ İRSİN İQTİSADİ DÖVRİYYƏYƏ CƏLB OLUNMASI

Tanrıverdi Paşa
İqtisadiyyat İnstitutu
tpasha_50@mail.ru

Xülasə: *Məqalədə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında mədəni irsin iqtisadi dövriyyəyə cəlb olunması, ərazidə yerləşən mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları, mədəni turizmin formalaşdırılması və inkişafı məsələləri araşdırılır, həmçinin regionların malik olduğu tarixi-mədəni irs potensialı əhəmiyyətinə görə təhlil olunur, həmin ərazilərdə mədəni və tarixi irs abidələrinin təkrar pasportlaşdırılması və işğalın nəticələrinin və dəymiş zərərlərin qiymətləndirilməsi zərurəti əsaslandırılır, mədəni irs obyektlərinin iqtisadi dövriyyəyə inteqrasiyasının təşkilati-iqtisadi mexanizmləri göstərilməklə regionlarda mədəni-tarixi mühitinin yaxşılaşdırılması yolları göstərilir.*

Açar sözlər: *Qarabağ, Şərqi Zəngəzur, işğaldan azad olunmuş ərazilər, region, mədəni irs, mədəni və tarixi abidələr, irs obyektləri, mədəni turizm*

Giriş. Uğurlu dünya təcrübəsi və Azərbaycanın özündə sınaqdan çıxmış bəzi nümunələr mədəni irsin kapitallaşmasının onunla bağlı olan sahələrin – istirahət, yaradıcılıq sahələrinin, kiçik biznesin inkişafından və düzgün əlaqələndirilməsindən asılı olduğunu göstərir.

Bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında mədəni irs palitrasının qorunması ideologiyası çox önəmlidir. Məhz mədəni irs, müasir kreativ sənayelərin və turizmin inkişaf etdirə biləcəyi ən humanitar resurslardır, həm də, bu cür layihələr ölkə vətəndaşlarının, xüsusən azad olunmuş kənd və şəhərlərinə qayıdacaq bölgə əhalisinin mədəniyyəti və tarixinə marağının artması, onların bu bu prosesə daha fəal cəlb edilməsi baxımdan da vacibdir.

Regionda yerləşən mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında yerləşən mədəni irs obyektlərinin kapitallaşdırılması strategiyaları burada xüsusi mədəni tədbirlərin - müntəzəm festivalların, salonların, forumların, bayramların

təşkilini nəzərdə tuta bilər. Bu yaxınlarda azad olunmuş Şuşa şəhərində keçirilmiş Mədəniyyət Festivalına ölkə ictimaiyyətinin böyük diqqəti buna nümunədir. Azərbaycan ordusunun II Qarabağ savaşında azad olunmuş bütün ərazilərdə göstərdiyi qəhrəmanlıq səlnamələrinin yazıldığı yerləri əyani görməyi və baş verənləri eşitməyi arzu edənlərin sayı yüzminlərlədir. Buna qonşu ölkələrdən, xüsusən Türk dövlətlərindən də böyük maraq olacağı şəksizdir. Azad olunmuş ərazilərdə "Türk xalqlarının ədəbiyyatı və folkloru günləri", "Azərbaycanın islam və xristian irsi" və s. kimi festivallar, sərgilər və yarmarkalar da təşkil etmək olar. Bu cür tədbirlər, çox sayda qonaqlar və turist axını cəlb etməklə yanaşı yerli ərazinin daha da populyarlaşmasına, ona davamlı marağın və "dostlar klubu"nun formalaşmasına səbəb ola bilər. Mədəni və turizm komplekslərinin formalaşdırılması yolu ilə mövcud muzeylərin genişləndirilməsi də effektiv strategiya olardı.

Qarabağ və Şərqi Zəngəzur regionlarında yerləşən mədəni irs obyektlərinin kapitallaşdırılması maraqlı biznes subyektlərinin maksimum cəlb edilməsinə, eləcə də mədəni irsdən istifadədə könüllülük fəaliyyətinin genişləndirilməsinə və yerli icmaların iştirakına əsaslanmalıdır. Bir çox hallarda, dövlət-özəl tərəfdaşlıq layihələrinin həyata keçirilməsində əsas maneə - obyektlərin potensial investorların təklifinə hazır olmamasıdır. Bir qayda olaraq, bu regionda yerləşən obyektlərin əksəriyyəti, müxtəlif dərəcədə qorunub saxlanılan bir neçə tikili, infrastrukturu olmayan və formalaşmamış sərhədləri olan, abidənin mədəni və tarixi əhəmiyyəti haqqında fotoşəkillər və məlumatlar olan, lakin gələcək istifadəçilərin məsuliyyət və məhdudiyyətləri aydın şəkildə müəyyən edilməyən bir kompleks şəklindədir. Belə komplekslər potensial investorlar bazarı üçün adekvat deyil, çox böyük investisiyalar və ciddi ilkin qiymətləndirmələr tələb edir. İnvestorların real marağını təmin etmək üçün həmin obyektlərdə əlavə hazırlıq işləri aparılmalıdır: [6, s.100-116]

- turizmin inkişafı və mədəni tədbirlərin keçirilməsi üçün perspektivli ərazilərin və mədəni irs obyektlərinin mədəni potensialının "xəritələri" hazırlanmalı;
- perspektivli mədəni irs obyektlərinin potensial investorların bazarına çəkilən xərclərinə mütənasib investisiya təklifləri ilə (əsasən komplekslər daxilində fərdi tikililərin və ya biznesin inkişafı üçün obyektlərin ayrılması hesabına) təmin edilməli;
- investisiya cəlbediciliyinin ilkin iqtisadi qiymətləndirilməsi və məqbul istifadəçilərin siyahısı ilə lotlar təmin edilməklə, belə xəritələr əsasında lotların reyestri yaradılmalı;
- dövlət-özəl tərəfdaşlığı əsasında müasir mədəni və turizm infrastrukturunun yaradılması üçün perspektivli sahələrdə bir-biri ilə əlaqəli layihələr həyata keçirilməli, məsələn, mühəndis şəbəkələrinə qoşulması üçün mədəni irs obyektinə rayon və bələdiyyə vəsaitləri hesabına yollar çəkilməli, abidənin özü isə turizm biznesi ilə əməkdaşlıqda işləyən investorlar hesabına bərpa edilməli;
- yerli icmanın sahibkarlıq fəaliyyətini dəstəkləmək və stimullaşdırmaq, o cümlədən kiçik və orta biznesin dəstəklənməsi proqramlarında kreativ sənayelər üçün kvotalar ayrılmalı, habelə, mədəniyyət və turizmin iri infrastruktur obyektlərinin inkişafı üçün fərdi sahibkarlıq subyektlərinin fəaliyyətini birləşdirməyə imkan verən korporativ (paylı) təsərrüfat birlikləri formalaşdırılmalıdır.

Mədəni irs özəl sektor, müstəqil biznes strukturları və kreativ məhəllələrin inkişafı baxımından regionların, şəhərlərin və kənd yerlərinin cəlbediciliyinin mühüm tərkib hissəsidir. Mədəni irs, Azərbaycanın bir çox əraziləri üçün dirçəliş və yeni sosial-iqtisadi şəraitə uyğunlaşma üçün əsas mənbəyə çevrilə bilər. Bunun üçün mədəni irsin kapitallaşdırılması və onun obyektlərindən istifadənin səmərəliliyi artırılmalıdır.

Mədəni irs yerlərində keçirilən festivallar və ictimaiyyəti cəlb edən digər bədii tədbirlər yerli sahibkarlar üçün mühüm gəlir mənbəyidir. İqtisadi resursların az olduğu kənd və periferik ərazilərdə mədəniyyət tədbirlərinin iştirakçılarının fəaliyyəti yerli iqtisadiyyata da təkan verir. Bu, öz növbəsində, aztəminatlı sosial kateqoriyalar və çətin vəziyyətdə olan insanlar üçün iş və gəlir əldə etmək üçün imkanlar yaradır ki, bu da sosial-iqtisadi inkişafı və sosial təbəqələşmənin azalmasına gətirib çıxarır.

Mədəni turizmin formalaşdırılması və inkişafı. Turistləri cəlb etmək uğrunda mübarizədə qələbəni ancaq öz bölgəsini başqalarından daha yaxşı tanıtdıra bilən, əfsanəsini və şəxsiyyətlərini, yaxud hansısa möcüzə ilə tarixi mərkəzin qorunub saxlanmasını bacaran şəhər və ya qəsəbələr qazanır. Təbii ki, iqtisadi nöqteyi-nəzərdən, mədəni irsin səmərəliliyinin də hüdudları var. Lakin o, yenə də yerli əhalinin kapitallaşması və sosiallaşmasının güclü mənbəyi olaraq qalır. Axı məhz mədəni irs onlara maraqlı iş əldə etməyə imkan verir, böyük şəhərlərə qaçmaq ehtiyacını aradan qaldırır [1; 2].

Dünyanın əksər ölkələri, xüsusilə də Rusiya, Türkiyə, İran, Ərəb ölkələri ilə yüksək səviyyəli hava əlaqəsinin olduğu Bakı və Gəncə, həmçinin Qarabağ və Şərqi Zəngəzur regionlarında yeni tikilməkdə olan aeroportlar və yaradılan infrastrukturlar, yenidənqurma işləri, yeni mehmanxanaların inşası, bu sahədə müxtəlif layihələrin həyata keçirilməsi sayəsində Azərbaycnın hazırda malik olduğu üstünlüklərdən faydalanmaq lazımdır.

Regionda mədəni-tarixi mühitinin səmərəli qurulması problemləri. Qarabağ və Şərqi Zəngəzur regionlarının mədəni-tarixi mühitinin səmərəli qurulması problemi təkcə mövcud mədəni irs obyektlərinin qorunması ilə bağlı deyil. Fikrimizcə, burada aşağıdakı tədbirləri eyni vaxtda həyata keçirməklə effektiv nəticə əldə etmək olar:

– qeyri-maddi obyektlərin (bu və ya digər yerdə formalaşmış adət-ənənələrin, həyat tərzinin) qorunmasına yönəlmiş tədbirlərin görülməsi;

– mədəni irs obyektləri haqqında məlumatların təhsilin bütün pillələrində doğma torpağın tarixi çərçivəsində gənclərin yaşadıqları rayonla eyniləşdirmə səviyyəsinin artırılması ilə tədris prosesinə fəal inteqrasiyası;

– yerli sakinlərin (ilk növbədə məktəblilərin və tələbələrin) regionda yerləşən mədəni irs obyektlərinin qorunması işlərinə fəal cəlb edilməsinə yönəlmiş tədbirlər görülməsi;

– mədəni irs obyektlərinin tam qorunub saxlanılması və əhali üçün əlçatan olması ilə regionun təsərrüfat mexanizmlərinə inteqrasiyası üzrə daha fəal siyasətin aparılması (məsələn, mülkiyyətçilərin üzərinə məcburi yüklər qoyulmaqla obyektlərin özəlləşdirilməsi və obyektlərin inkişafı);

– mədəni irs obyektləri əsasında turizm məhsullarının və brendlərinin formalaşdırılması, mədəni-tarixi turizmin inkişafı və regional turizm klasterlərinin yaradılması.

Bu tədbirlərin səmərəliliyi, ilk növbədə, onların həyata keçirilməsinin kompleksliyindən asılıdır. Əslində, nəzərəçarpacaq müsbət iqtisadi effekt yalnız orta və uzunmüddətli perspektivdə əldə edilə bilər. Mədəni irs obyektlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatının yüksəlişində qeyri-iqtisadi amillərdən biri kimi xidmət etməsi üçün regionda mədəni irs obyektlərinin idarə olunması üzrə kompleks proqramın hazırlanması zəruridir. Bu proqrama tədbirlər planından əlavə, regionda yerləşən mədəni irs obyektlərinin vəziyyətinin təhlili və müəyyən şərtlərlə mədəni irs obyektlərinin qorunması prosesində iştirak etməyə hazır olan maraqlı biznes nümayəndələrinin bazası daxil edilməlidir.[10]

Qarabağ və Şərqi Zəngəzur regionlarında mədəni irsin qorunub saxlanması xərclərinin maliyyələşdirilməsinə xeyriyyəçilərin cəlb edilməsinə, rayon əhalisinin (xüsusilə gənclərin) mədəni irsin qorunmasında fəal iştirakına yönəlmiş tədbirlər də həyata keçirilməlidir. Xeyriyyəçilik İnstitutu mədəni irs obyektlərinin maliyyələşdirilməsi üçün əlavə kanal kimi çıxış edə bilər. Xeyriyyəçilik fenomenini təhlil edən əksər əsərlərdə, o, təsərrüfat subyektlərinin əmlakının, pulunun əvəzsiz olaraq başqa agentlərə verilməsi, habelə işin heç bir maddi maraq güdmədən yerinə yetirilməsi və ya digər dəstək növləri üzrə fəaliyyət kimi təqdim olunur. Etiraf etmək lazımdır ki, bu gün Azərbaycan regionlarında mədəni irsin qorunmasına yardımla bağlı xeyriyyəçilik institutu kifayət qədər inkişaf etməmişdir və faktiki olaraq, bu əlavə maliyyə kanalından praktikada istifadə edilmir.

Qarabağ və Şərqi Zəngəzur regionlarının tarixi-mədəni irs potensialı. Hazırda Qarabağ iqtisadi rayonu üzrə dünya əhəmiyyətli abidələrinin sayı aşağıdakı kimidir: [7:10] arxeoloji – 8, memarlıq – 3; ölkə əhəmiyyətli abidələrin sayı: arxeoloji – 219, memarlıq – 97; yerli əhəmiyyətli abidələrinin sayı: arxeoloji – 14, memarlıq – 294, bağ-park, monumental və xatirə abidələri – 17; Şərqi Zəngəzur iqtisadi rayonu üzrə dünya əhəmiyyətli abidələrinin sayı: arxeoloji - 1, memarlıq - 4; ölkə əhəmiyyətli abidələrin sayı: arxeoloji - 42, memarlıq - 27; yerli əhəmiyyətli abidələrinin sayı: arxeoloji - 16, memarlıq - 101, bağ-park, monumental və xatirə abidələri - 9; dekorativ, tətbiqi sənət abidələri – 17.

Başqa sözlə, Azərbaycanda mövcud olan dünya əhəmiyyətli abidələrin: arxeoloji – 11,2%-i, memarlıq – 31,8%-i; ölkə əhəmiyyətli abidələrin: arxeoloji – 15,7%-i, memarlıq – 33,2%-i; yerli əhəmiyyətli abidələrinin: arxeoloji – 35,7%-i, memarlıq – 49,4%-i, bağ-park, monumental və xatirə abidələri – 19,7%-i; dekorativ, tətbiqi sənət abidələri – 10,1%-i işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşir.

Qarabağ və Şərqi Zəngəzur regionlarının rəqabət üstünlüklərindən istifadə. İşğaldan azad olunmuş rayonların təbiəti və tarixi-mədəni irs abidələri turist cəlb etmək baxımından üstünlüyə malikdir. Bü üstünlükdən istifadə edilməsi üçün aşağıdakı tədbirlərin görülməsini vacib hesab edirik:

- bu regionlarda müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması;
- işgüzar turizminin aktiv inkişafı, konqres və sərgi infrastrukturunun yaradılması;
- dini turizm klasterinin yaradılması;
- tarixi hadisə, o cümlədən Şanlı qələbəmizlə bağlı hadisə turizmi üçün yerlərin müəyyən edilməsi və abadlaşdırılması;
- tarixi və mədəni irs obyektlərinə sərmayə qoyarkən investorlar üçün əlverişli təşviq şərtlərinin hazırlanması;
- tarixi və mədəni irs obyektlərinin, yaşayış yerlərinin YUNESKO-da qeydiyyatı və müvafiq statusun alınması üçün işlərin gücləndirilməsi;
- orijinal və bərpa edilmiş tarixi mühit əsasında turizm məhsullarının inkişafı və mədəni-maarif turizminin formalaşdırılması.

Mədəni irs obyektlərinin təmiri xeyli maliyyə xərcləri tələb edir ki, bu da indiki şəraitdə bütün regionlarda olduğu kimi işğaldan yeni azad olunmuş, məskunlaşmanın başlamadığı və sosial-iqtisadi həyatın normal məcraya düşməsi bir neçə il çəkəcəyi Qarabağ və Şərqi Zəngəzur regionlarında yerli büdcələrə daxil olacaq gəlirlərlə mümkün deyil. Bununla əlaqədar olaraq, ölkə ərazisində, xüsusən regionun özündə mədəni irs obyektlərinin iqtisadi dövriyyəyə cəlb edilməsi məqsədilə müxtəlif kommersiya təşkilatlarının yaradılmasına ehtiyac vardır. Bu təşkilatların əsas fəaliyyəti daşınmaz əmlakla, o cümlədən mədəni irs obyektlərinin yenidən qurulması və ya təmiri məqsədi ilə aparılan əməliyyatlarla bağlı olmalıdır.

Bu mexanizm, subyektin mülkiyyətində olan, gələcəkdə isə bələdiyyə mülkiyyətində olan mədəni irs obyektlərində təmir-bərpa işlərinin aparılmasına və təsərrüfat dövriyyəsinə cəlb olunmasına imkan verəcəkdir. Buna görə də, işğaldan yeni azad olunmuş hər iki regionun sosial-iqtisadi inkişafına dövlət dəstəyinin kompleks tədbirlərini özündə əks etdirən, mədəni irs obyektlərindən istifadə üçün uzunmüddətli proqramlar tərtib edilməlidir.

Qarabağ və Şərqi Zəngəzur regionlarında mədəni irs obyektlərini qorumaq üçün bərpa işlərinin növlərinə də diqqət yetirilməlidir. Ümumilikdə Azərbaycan xalqının mədəni irs obyektlərinin (tarix və mədəniyyət abidələrinin) mühafizəsi üzrə işlərin siyahısı "Mədəni irsin mühafizəsi üzrə fəaliyyətin

lisenziyalaşdırılması haqqında" Əsasnaməyə əlavədə [4] təsvir edilmişdir. Lakin burada təsvir olunan yenidənqurma anlayışının məzmunu tam aydın deyil. Adətən, ikiqat şüşəli pəncərələrin quraşdırılması, obyekt daxilində müxtəlif növ üzlük işləri artıq bərpa sayılır. Halbuki, mədəni irs obyektlərinin tam bərpası yeni tikintidən bir neçə dəfə baha başa gəlir. Obyektdə struktur yenidənqurma işləri də onu söküb yenidən tikməkdən baha başa gələcək. Obyektdaxili bərpa işləri isə bəzən ümumi xərcləri br neçə dəfə artırır. Ona görə də, maliyyə resurslarının cəlb edilməsində müxtəlif mexanizmlərdən istifadə investorların cəlb edilməsini sürətləndirə bilər.

İşğaldan azad olunmuş rayonlarda həyata keçirilən tədbirlər. Diaqram 4-dən göründüyü kimi işğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış tarix-mədəniyyət abidələrinin dağıdılma vəziyyəti: bütün işğal zonası üzrə 27,7%; Ağdam rayonu üzrə 10,3%; Fizuli rayonu üzrə 36,5%; Şuşa şəhəri üzrə 58,1%; Zəngilan rayonu üzrə 36,8%; Cəbrayıl rayonu üzrə 20,9%% Qubadlı rayonu üzrə 19,0%; Laçın üzrə 1,4% (cəmi 1 obyekt dağıdılıb) olmuşdur. (Xocavənd və Xocalı rayonları hələlik işğal altında olduğundan abidələrin vəziyyəti haqqında məlumat yoxdur.) [5]

"Azərbaycanın mədəniyyət paytaxtı-Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Şuşa şəhərinin inzibati sərhədləri daxilində Şuşa Şəhəri Dövlət Qoruğu yaradılmışdır. [9] Hazırda şəhərdə çoxşaxəli mədəni quruculuq işlərin həyata keçirilməkdədir [10]. 12-13 may 2021-ci ildə Şuşada "Xarıbülbül" festivalı, 30-31 avqust 2021-ci ildə Vaqif Poeziya Günləri, 18-24 sentyabr 2021-ci ildə Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalı, keçirilmişdir. [12]

Tarix və mədəniyyət abidələrinin qiymətləndirilməsi müasir dövrdə daha da aktuallaşmaqdadır. Xüsusən Rusiyanın Ukraynaya hərbi təcavüzü ilə ölkənin onlarla abad və qədim şəhərlərinin, yaşayış binalarının, mədəni irs obyektlərinin dağıdılması və viran qoyulması bu məsələləri daha da aktuallaşdıracaqdır.

Nəticə. Mədəni layihələrin inkişafına marketinq nöqteyi-nəzərindən baxmaq, rəqabət üstünlüklərini müəyyən etmək, unikal təkliflər irəli sürmək və onları həyata keçirmək lazımdır. Uğurlu dünya təcrübəsi və Azərbaycanın özündə sınaqdan çıxmış bəzi nümunələr, mədəni irsin kapitallaşmasının onunla bağlı olan sahələrin – istirahət, yaradıcılıq sahələrinin, kiçik biznesin inkişafından və düzgün əlaqələndirilməsindən də asılıdır. Mədəni və turizm komplekslərinin formalaşdırılması yolu ilə mövcud muzeylərin genişləndirilməsi effektiv strategiya olardı.

Mədəni irs obyektlərinin region iqtisadiyyatının yüksəlişinə xidmət etməsi üçün regionda mədəni irs obyektlərinin idarə olunması üzrə kompleks proqramın hazırlanması zəruridir. Azərbaycan regionlarında mədəni irsin qorunmasına yardımla bağlı xeyriyyəçilik institutu kifayət qədər inkişaf etməmişdir və faktiki olaraq, bu əlavə maliyyə kanalından praktikada istifadə edilmir.

İşğaldan azad olunmuş rayonların (Qarabağ və Şərqi Zəngəzur regionlarının) təbiəti və tarixi-mədəni irs abidələri turist cəlb etmək baxımından üstünlüyə malikdir. Bü üstünlükdən istifadə edilməsi üçün: bu regionlarda müxtəlif turizm növlərinin inkişafı dəstəklənməli, o cümlədən turizm sahəsində göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşdırılmalı; işgüzar turizminin aktiv inkişafı, konqres və sərgi infrastrukturu yaradılmalı; tarixi hadisə, o cümlədən Şanlı qələbəmizlə bağlı hadisə turizmi üçün yerlər müəyyən edilməli və abadlaşdırılmalı; tarixi və mədəni irs obyektlərinə sərmayə qoyacaq investorlar üçün əlverişli təşviq şərtləri hazırlanmalı; regionun tarixi və mədəni irs obyektlərinin, yaşayış yerlərinin YUNESKO-da qeydiyyatı və müvafiq statusun alınması üçün işlər gücləndirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/20925
2. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi https://mida.gov.az/documents/Turizm_ strateji_yol_xeritesi.pdf

3. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://president.az/az/articles/view/44886
4. Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası https://president.az/az/articles/view/44886
5. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə https://irs.gov.az/esasname
6. Абанкина Т.В. Креативная экономика: переход к капитализации культурного наследия. Вопросы экономики. 2017. https://doi.org/10.32609/0042-8736
7. htpp//stat.gov.az›source/regions/
8. https://stat.gov.az/source/system_nat_accounts/az/
9. https://culture.gov.az/az/umumi-xeberler/13467
10.https://az.trend.az/azerbaijan/society/3602659.html
11.https://culture.gov.az/medias/media/other/738/hesabat-2021.pdf
12.https://republic.preslib.az/az_c7-4.html
13.https://www.elibrary.ru/download/elibrary_28767269_15472237.pdf173http://heritageclub.ru/wp-content/uploads/2020/12/Poloznev-D.F.-Kulturno-simvolicheskie-resursy-territorii.pdf?ysclid=l8l

Резюме
Танриверди Паша
Вовлечение культурного наследия в хозяйственный оборот в освобожденных от оккупации Карабахской и Восточно-Зангазурской областях

В статье рассматривается вопросы вовлечения в хозяйственный оборот объектов культурного наследия, стратегии капитализации объектов культурного наследия, формирования и развития культурно-исторического туризма расположенных на территории освобожденных от оккупации экономических районов Карабах и Восточный Зангезур, а также анализируется историко-культурный потенциал этих регионов по значимости, обосновывается необходимость перепаспортизации памятников исторического наследия на этих территориях и оценка последствий оккупации и причиненного ущерба, показывается пути оздоровления культурно-исторической среды в регионах с привязкой организационно-экономическими механизмами.

Ключевые слова: *Карабах, Восточный Зангезур, освобожденные территории, регион, культурное наследие, культурно-исторические памятники, объекты наследия, культурный туризм*

Summary
Tanriverdi Pasha
Involvement of Cultural Heritage in Economic Turnover in Karabakh and East-Zangazur Regions Limited From Occupation

The article discusses the issues of involving cultural heritage objects in the economic turnover, the strategy for capitalizing cultural heritage objects, the formation and development of cultural and historical tourism located on the territory of the economic regions of Karabakh and Eastern Zangezur liberated from occupation, and also analyzes the historical and cultural potential of these regions in terms of importance, the necessity of re-certification of historical heritage monuments in these territories and the assessment of the consequences of the occupation and the damage caused are substantiated, ways of improving the cultural and historical environment in the regions are shown with reference to organizational and economic mechanisms.

Key words: *Karabakh, Eastern Zangezur, liberated territories, region, cultural heritage, cultural and historical monuments, heritage sites, cultural tourism*

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA YARADILAN NƏQLİYYAT –LOGİSTİKA İNFRASTRUKTURUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ

Tağıyeva Vəfa Eldar qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
nurana.tagizade@mail.ru

Xülasə: *Məqalədə Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğal olunmasından, lakin Azərbaycan dövlətinin və xalqının birgə səyi və otuz illik mübarizəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü təmin olunduqdan sonra dövlət başçısının sərəncamı ilə Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsü ilə Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması haqqında ətraflı məlumat verilir. Hacıqabul-Mincivan-Zəngəzur dəhlizindən başlayan Şuşa magistral avtomobil yolunun*

çəkilməsi Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının, eyni zamanda işğaldan azad olunmuş bütün ərazilərimizin bərpası və yenidən qurulması ölkə iqtisadiyyatının inkişafına müsbət təsir edəcək amil kimi diqqət mərkəzinə çatdırılır.

Açar sözlər: *Qarabağ, Zəngəzur, təbii sərvət, iqtisadiyyat, turizm, nəqliyyat*

Azərbaycan Respublikası əlverişli iqlim şəraitinə, rəngarən relyefə, gözəl iqtisadi coğrafi mövqeyə malik olmaqla yanaşı zəngin yeraltı və yerüstü təbii sərvətlərə də malikdir. Elə buna görə də Azərbaycan dövlətinin və xalqının başı daima bəlalar çəkmişdir. Bunu 31 mart soyqırımı və xocalı faciyəsi kimi bəşər tarixində misli görünməmiş vəhşilik törədən erməni vandalizminin Azərbaycan xalqına qarşı törətdiyi işğalçılıq siyasətində də aydın görmək olar. Bədnam erməni şovinistləri zaman-zaman Azərbaycanın dilbər guşəsi olan Dağlıq Qarabağa göz tikmiş və bu esrarəngiz təbiətə malik olan torpaqlarımızı ələ keçirməyə çalışmışdılar. Lakin Azərbaycan dövlətinin yürütdüyü müdrik siyasət və mərd oğullarının göstərdiyi qəhrəmanlıq səltənətinə görə ermənilər çirkin əməllərinə nail ola bilməmişdilər. Artıq otuz illik mübarizə məhz Azərbaycan xalqının qələbəsi ilə nəticələnmişdir. Baxmayaraq ki, bütün bu Vətən müharibəsi dövründə çox böyük itkilərimiz oldu, öz adını Azərbaycanın şəhidlik səlnaməsinə öz igidliyi ilə yazan minlərlə şəhidlərimiz oldu, lakin biz bu qələbəyə Azərbaycanın ərazi bütövlüyünə nail olduq.

Azərbaycanın ərazi bütövlüyü tam təmin olunduqdan sonra Dövlət başçısı İlam Əliyevin sərəncamı ilə Azərbaycan respublikasının iqtisadi rayonlarının yeni bölgüsü aparılmışdır [1].

07.07.2021-ci ildə qəbul olunan fərmana əsasən Azərbaycan respublikasında iqtisadi rayonlarının bölgüsü aşağıdakı kimi aparılmışdır.

Cədvəl

Azərbaycan Respublikasının iqtisadi rayonları

	İqtisadi rayonlar	**İnzibati rayonlar**
1	Bakı	Bakı şəhəri
2	Naxçıvan	Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur
3	Abşeron–Xızı	Sumqayıt şəhəri, Abşeron və Xızı
4	Dağlıq Şirvan	Ağsu, İsmayıllı, Qobustan və Şamaxı
5	Gəncə–Daşkəsən	Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları
6	Qarabağ	Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa Tərtər
7	Qazax–Tovuz	Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz
8	Quba–Xaçmaz	Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran
9	Lənkəran–Astara	Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı
10	Mərkəzi Aran	Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab
11	Mil–Muğan	Beyləqan, İmişli, Saatlı və Sabirabad
12	Şəki–Zaqatala	Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala
13	Şərqi Zəngəzur	Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları
14	Şirvan–Salyan	Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan

Mənbə: [3]

Qarabağ iqtisadi rayonunun tərkibinə -- Xankəndi şəhəri, Şuşa və Tərtər rayonları, Bərdə, Ağcabədi, Xocalı, Ağdam, Xocavənd, Füzuli, Xocalı, Şərqi Zəngəzur iqtisadi rayonunun tərkibinə isə -- Zəngilan, Cəbrayıl, Laçın Kəlbəcər, Qubadlı, və Zəngilan rayonları daxil edilmişdir. Zəngin təbiətə malik olan Xankəndi şəhəri, Xocavənd və Xocalı rayonları eyni zamanda Qarabağ iqtisadi rayonunun tərkibinə daxil olan Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonlarının ərazisində qədim tarixi və dini memarlıq abidələri vardır. Eyni zamanda Qarabağ uğrunda gedən ikinci vətən müharibəsindən sonra işğaldan azad olunmuş və Azərbaycan dövləti tərəfindən yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonu eləcədə onun ayrı-ayrı inzibati rayonları olan Kəlbəcər, Cəbrayıl, Zəngilan, Laçın və Qubadlı, rayonları da əlverişli iqtisadi coğrafi mövqeyə, zəngin yeraltı və yerüstü təbii sərvətlərə malikdir. Yuxarıda adları qeyd olunan bu rayonların geniş turizm imkanları var.

Azərbaycan respublikasının iqtisadi rayonlarının yeni bölgüsündə əsas məqsəd, bölgüyə daxil olan şəhər və rayonların bilavasitə inkişafını təmin etmək və eyni zamanda təbii resurslarından və çoxşaxəli turizm potensialından ölkə iqtisadiyyatının inkişafı üçün hərtərəfli istifadə etməkdən ibarətdir.

Regionda olan tebii resurs potensialını nəzərə alaraq burani " yaşıl enerji " zonasına çevirmək eyni zamanda iqtisadi rayonda " ağıllı şəhər " , " ağıllı kənd " layihələrini tətbiq etməklə burada yenidənqurma

işləri aparmaq dövlət proqramında gələcəkdə icrası nəzərdə tutulan mühüm məsələlərdən biri kimi qarşıya qoyulmuşdur. Bütün bunlarla yanaşı əsrarəngiz təbiətə malik olan Qarabağ və Şərqi Zəngəzur çox gözəl turizm potensiyalına malik olduğuna görə gələcəkdə buranı beynəlxlq turizm zonasına çevirmək prioritet məsələ kimi diqqət mərkəzinə çatdırılmışdır.

Şərqi Zəngəzurun zəngin tarixə, qədim memarlıq abidələrinə qiymətli təbii sərvətlərə eyni zamanda müxtəlif mineral sulara malik olması buranın güclü kurort turizm zonası olmasına imkan verir. Kəlbəcər toponiminin mənası ,,çay üstündə qala deməkdir,,.Burada Tərtər çayı sahilində qədim antropogen mağaralar vardır. Burada aparılan arxeoloji qazıntılar zamanı ibtidai icma qurluşu zamanı istifadə olunan sadə alətlər tapılmışdır ki, bu da Kəlbəcərin ən qədim insan məskənlərindən biri olduğunu sübut edir. Kəlbəcər rayonunda 30 min il bundan qabaq salınmış yaşayış məskənləri, 6 min il öncəyə təsadüf edən qayaların üzərində təsvir olunmuş, qədim türk əlifbasının çöp şəkilli forması, daş abidələr aşkarlanmışdır.

Kəlbəcərdə 30 min hektarlıq meşə ehtiyatı vardırki bu da burada meşə turizmini inkişaf etdirməyə imkan verir. Burada olan palıd, fıstıq, vələs meşələri, geniş ərazini əhatə edən çəmənliklər turizm potensiyalından xəbər verir. Burada qızıl, xrom,civə kimi qiymətli minerallar da vardır.[2, s. 97].

Şərqi Zəngəzurun nadir incilərindən biri də Laçın rayonudur. Laçın inzibati rayonunun da güclü turizm potensiyalı vardır. Laçın rayonu başdan-başa demək olarki dağlıq və meşəlik landşaftdan ibarətdir. Gözəl meşələri, təmiz havası, saf suları, əsrarəngiz təbiyəti, dağlardan axan şəlalələri, sərt sıldırım qayaları, başı qarlı dağları, ucsuz-bucaqsız düzənlikləri, səfalı yaylaqları, mineral bulaqları, zəngin flora və faunası vardırki,bu da bu rayondan turizm məqsədi ilə istifadə etməyə əsas verir.[2, s. 78]

Laçın rayonu müalicəvi əhəmiyyətli mineral bulaqlara malikdir. Belə ki, ərazidə 20-dən artıq bulaq var. Bunlardan narzan, istisu, turşsu kimi mineral bulaqlar dünya şöhrətlidir.

Bütün bu inkişaf perspektivlərindən geniş istifadə etmək üçün birinci növbədə işğaldan azad olunan ərazilərdə təhlükəsizlik tədbirləri planı işləyib hazırlamaq qarşıya qoyulan priaritet məsələlərdən biri olmuşdur. Ərazidə geniş miqyaslı minalardan təmizlənmə işləri aparılmışdır.

Daha sonra inkişafın ən başlıca yolu olan nəqliyyat infrastrukturunun bərpası və tamamlanması işləri görülmüşdür.

Hacıqabul-Mincivan-Zəngəzur dəhlizindən başlayan Şuşa magistral avtomobil yolu yolu tam hazır şəkildə istifadəyə verilmişdir. Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının, eyni zamanda işğaldan azad olunmuş bütün ərazilərimizin bərpası və yenidən qurulması nəinki təkcə o region üçün, bütövlükdə ölkə iqtisadiyyatının inkişafına müsbət təsir edəcəkdir. Dövlət proqramında nəzərdə tutulduğu kimi növbəti illərdə bu tədbirlərin yerinə yetirilməsi geniş miqyaslı yerinə yetiriləcəkdir. 2022-2025-ci illərdə nəzərdə tutulmuş ən ümdə məsələ işğaldan azad olunmuş ərazilərimizin bərpası,vətəndaşların yurd yuvalarına qaytarılması, və birbaşa iqtisadi inkişafın təmin edilməsidir. [3]

Ədəbiyyat

1.Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il

2. Azərbaycan Respublikasının İqtisadi, Sosial və siyasi coğrafiyası. N. Ə. Paşayev, N. H Əyyubov, Z. N. Eminov. 2010. səh 416.

3.“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan

Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə “Bakı şəhəri, 10 iyul 2021-ci il. https://nk.gov.az/az/document/5457/print/.

4. Əliyev, İ. Zəngəzur dəhlizi türk dünyasını birləşdirən əsas nöqtədir. 04.04.2021. https://xalqqazeti.com/az/news/73722.

5. İqtisadi rayonlar üzrə yeni bölgü faydalı iş əmsalını daha da artıracaq Nəcəfxanlı, Ə.11.07.2021.https://xalqqazeti.com/mobile/az/news/80407.

6. Azərbaycanın iqtisadi rayonlaşması.https://www.azerbaijans.com/content_464_az.html.

Резюме

Тагиева В.Е

Влияние транспортно-логистической инфраструктуры, созданной в Карабахском и Восточно-Зангазурском экономических районах, на социально-экономическое развитие

В статье представлена подробная информация о создании Карабахского и Восточно-Зангезурского экономических районов с новым делением экономических районов Азербайджанской Республики по поручению главы государства после обеспечения территориальной целостности Азербайджана в результате совместных усилий Азербайджанского государства и народа и тридцатилетней борьбы после оккупации азербайджанских земель армянами.

Строительство Шушинской магистрали, начиная с коридора Гаджигабул-Миндживан-Зангезур, восстановление и реконструкция Карабаха, Восточно-Зангезурского экономического района, а так же всех наших территорий освобожденных от оккупации были поставлены в центр внимания как фактор, положительно влияющий на развитие экономики страны.
Ключевые слова: *Карабах, Зангезур, природные ресурсы, экономика, туризм, транспорт*

Summary
Tagiyeva V.E.
Impact of Transport and Logistics Infrastructure on Socio-Economic Development of Newly Established Karabakh and East Zangezur Economic Regions

The article provides detailed information about the establishment of Karabakh and Eastern Zangezur economic regions with the new division of the economic regions of the Republic of Azerbaijan after the territorial integrity of Azerbaijan was ensured as a result of the joint efforts of the state and people of Azerbaijan and thirty years of struggle, after the occupation of the Azerbaijani lands by the Armenians. .The construction of the Shusha highway starting from the Hajigabul-Minjivan-Zangezur corridor has been brought to the center of attention as a factor that will positively affect the development of the country's economy.
Key words: *Karabakh, Zangezur, natural resources, economy, tourism, transport*

QARABAĞ REGİONUN BƏRPASINDA AZƏRBAYCAN DÖVLƏTİ İLƏ TÜRKİYƏ ŞİRKƏTLƏRİNİN STRATEJİ TƏRƏFDAŞLIĞININ FORMALARI VƏ PERSPEKTİVLƏR

Yusifov Elşad Məsim oğlu
Azərbaycan Memarlıq və İnşaat Universiteti
elshadyusifov1977@gmail.com
Əsədzadə Nərgiz Kərimxan qızı
Bakı Avrasiya Universiteti
nergizesedzade5@gmail.com

Xülasə: *Məqalədə Qarabağ Regionunda azad olunmuş ərazilərimizin bərpasında Türkyə Respublikası şirkətlərinin rolu dəyrləndirilir. İşğaldan azad olunmuş ərazilərimizin bərpasında həm Respublikamızın, həm də Türkiyə Respublikası şirkətlərinin birgə strateji tərəfdaşlıqları təhlil edilir. Həmin bölgələrimizdə yerinə yetirilən bərpa işlərində Türkiyə Respublikası şirkətləri tərəfindən reallaşdırılan lahiyələr təsbit edilir və həmin lahiyələrin təşkili xüsusiyyətləri şərh edilir. Eyni zamanda məqalədə perspiktivdə Qarabağ Regionunun bərpasında Türkiyə Respublikası şirkətləri ilə Azərbaycan dövlətinin strateji tərəfdaşlığndan bəhs edilir.*
Açar sözlər: *Qarabağ Regionu, Türkiyə şirkətləri, "Zəfər Yolu", "Murovdağ Tuneli", "Sənayə Parkı" "Zəfər Muzeyi", starteji tərəfdaşlıq,"Ağıllı kənd" lahiyəsi*

Respublikamızın bütün regionları onun qədim tarixini əks etdirən silinməz izləri özündə ehtiva edir. Ölkəmizin qədim tarixinin araşdırılmasında ölkə tədqiqatçılarının çoxlu sayda elmi əsərləri ilə yanaşı bu sahədə ciddi tədqiqatlara hələ də ehtiyac vardır. Məlumdur ki, Qarabağ Regionu digər ərazilərimiz kimi Azərbaycanın təbiətinin zəngin gözəlliklərini, xalqımızın həm maddi, həm də mənəvi irsini, eləcə də qədim adət və ənənələrini təcəssüm etdirir. 44 günlük vətən müharibəsi zəfərlə bitdikdən sonra Qarabağ ərazisinin sürətli bərpasına başlanıldı. Bu günlər həm yerli həm də xarici şirkətlər sözün əsl mənasında bərpa işlərinə böyük həvəs göstirirlər. Bu istiqamətdə həm xarici şirkətlərin, həm də yerli şirkətlərin rəhbər nümayəndələri ilə mütamadi olaraq rəsmi görüşlər təşkil edilir, işgüzar danışıqlar aparılır və yekun olaraq əməkdaşlıq ilə əlaqədar müqavilələr imzalanır. Bu günlər qardaş Türkiyəm Respublikası başda olmaqla Rusiya, Böyük Britaniya, Pakistan, İtaliya, İsrail, Macarıstan və digər ölkələrin şirkətlərini reginun bərbasında artıq görə bilirik.

Ümumilikdə isə işğaldan azad olunmuş ərazilərin bərpasında iştirak edən şirkətlər arasında əsasən yuxarıda da qeyd olunduğu kimi qardaş Türkiyə Respublikası şirkətləri aktiv şəkildə təmsil olunurlar [1, s. 119-130]. Türkiyə Respublikası şirkətləri Qarabağda əsasən ilkin mərhələdə vacib infrasturuktur lahiyələrinin icrasında işitirak edirlər. Məsələn, Füzuli-Şuşa avtomobil yolunun inşasını Azərbaycan şirkətləri ilə birlikdə Türkiyə şirkətləri həyata keçirmişlər. "Zəfər Yolu" adlandırılan bu 101 km.-lik yolun inşasında Türkiyə Respublikasınln iki əsas şirkəti olan "Kolin İnşaat Sanayi Turizm və Ticarət A.Ş" və

“Özgün Yapı Sanayi və Ticarət A.Ş” şirkətləri iştirak etmişlər. Ötən ilin noyabr ayının 16-da əsası qoyulan “Zəfər Yolu” öz başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur magistral avtomobil yolundan götürərək Qarabağın incisi olan Şuşa şəhərinə kimi uzanır. “Zəfər Yolu” Qarabağ regionunun inkişaf planına əsasən iki hərəkət zolağı olmaqla ikinci texniki dərəcə standarına uyğun olaraq inşa edilmişdir. Hal-hazırda bu avtomobil yolu boyunca suların maneəsiz olaraq ötürülməsi üçün dairəvi boru və düzbucaqlı formalı su keçidləri və eyni zamanda vacib hesab edilən sahələrdə üç yeni avtomobil körpüsünün inşası həyata keçirilməkdədir. Uzunluqları 33, 75, 99 metr olan bu körpülər yolun 0,6-cı, 26-cı, 57-ci km.-liklərində lahiyələndirilib. “Zəfər Yolu” Xocalı, Xocavənd, Füzuli və Şuşa rayonlarının ərazisindən keçərək Şuşa və Füzuli şəhərləri də daxil olmaqla, 20-dən çox yaşayış ərazilərini əhatə etmişdir.

MÜSİAD-ın İdarə Heyətinin sədri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası layihələrində Türkiyə şirkətlərinin aktiv olaraq iştirakının qürurverici olduğunu vurğulayaraq, bütün bunların gələcəkdə iqtisadi əməkdaşlığa, biznes sahələrinin genişlənməsinə, yeni müəssisələr və iş yerlərinin açılmasına önəmli töhvə olacağını qeyd edərək, iki ölkə arsında iş birliklərinin gələcəkdə daha da gücləndirilməsi ilə əlaqədar fikirlərini bildirmişdir [2, s. 323-328].

Bundan başqa Murov istiqamətində yeni tunelin tikilməsi, Kəlbəcərdə yeni yol və tunellərin, başqa infrastruktur lahiyələrinin icrası da Türkiyə Respublikası şirkətləri ilə birgə həyata keçirilir. Artıq Toğana-Kəlbəcər yolunda Ömər aşırımına qədər olan hissədə torpaq işləri başa çatıb və hazırda həmin istiqamətdə yolun eni müəyyən yerlərdə 15 metr olmaqla 80 km.-lik yol inşa edilməkdədir. Sonra yolun hər iki istiqamətində 2 metr enində mühafizə xəttinin də inşa edilməsi planlaşdırılır. Bu yolda olan Murovdağ tunelini də qardaş Türkiyənin “Çingiz İnşaat” şirkıti inşa edir. Eyni zamanda Ömər aşırımından keçərək Murovdağın Toğanalı istiqamətindəki “Yol Evi”ndən Kəlbəcərə qədər olan və ümumi uzunluğu 11,2 km. olan tunellərin də inşaası Türkiyə Respublikası şirkətlərinə həvalə olunmuşdur.

Ümumilikdə, Kəlbəcərdə böyük qayıdışa hazırlığa qədər planlaşdırılan işlər aprel ayının sonlarından getdikcə sürətlənib. Demək olar ki, artıq kiçik çayların üzərindəki su elektrik stansiyaları, düşmənin 10 noyabr razılıqlarından sonra ərazini tərk edərkən məhv etdikləri qurğuların və avadanlıqların bərpası işlərinə başlanıb. Hazırda isə Kəlbəcər ərazisində inşa olunan yeni və müasir paylayıcı yarımstansiyalarda bitirilmə işləri həyata keçirilir. Bu yarımstansiyalara Daşkəsən rayonundan təzə elektrik xətti çəkilir və eyni zamanda “Qoşqar” dağı istiqamətində bərpa, quraşdırılma işləri davam etdirilir. Bu aylar ərzində istifadəyə verilməsi planlaşdırılan bu yarım stansiya Kəlbəcər rayonunu elektrik enerjisi baxımından təmin edən aparıcı qurğulardan biri sayılır [6, s. 4].

Artıq, Ağdam rayonu ərazisində də bərpa işlərinə başlanıldı. İşğaldan azad edilən rayon ərazilərinin bərpasında eyni zamanda infrastrukturların, torpaq və başqa daşınmaz əmlakların ilkin inventarlaşdırılması işləri də davam etdirilir. Həmin ərazilərdə işlərin mərkəzləşdirilmiş planda həll olunması üçün formalaşdırılmış Əlaqələndirmə Qərargahının tabeliyində fəaliyyətdə olan İdarələrarası Mərkəzin hesabatında qeyd edilir ki, bu dövrə kimi 13 mindən çox əmlakların inventarlaşması işləri tamamlanmış, 1532 km. uzunluğunda avtomobil yolunun, 292 km. uzunliğunda elektrik xəttinin, 45 km. qaz xəttinin, 19 km. su təchizatı xəttinin və 249 km. suvarma şəbəkəsinin inventarlaşdırılması həyata keçirilmişdir. Bununlada, 10 rayonun 168 yaşayış məntəqələrində işlər tamamlanıb və 9 yaşayış ərazisi üzrə isə işlər davam etdirilməkdədir.

Qeyd edək ki, cari ilin 28 mayında Ağdam rayonunda inftastrukturların bərpası ilə bağlı təməl qoyma mərasimində Prezident İlham Əliyev və qardaş Türkiyə Respublikasının şirkətlərinin rəhbərləri iştirak ediblər. Burada dövlət başçısı Ağdam ərazisində inşa ediləcək ilk yaşayış məntəqəsinin və Bərdə-Ağdam avtomobil yolunun təməlini qoyub. Qeyd edək ki, yaxın zmanlarda Ağdam ərazisində yerləşəcək “Zəfər Muzey”nin və açıq havada yerləşəcək “İşğal Muzey”nin yaradılacağı da planlaşdırılır [3, s. 260-263].

Eyni zamanda Ağdam rayonu ərazisində “Sənayə Park”nın qurulması ilə əlaqədar Prezident İlham Əliyev fərman imzalayıb. Bu fərmana əsasən işğaldan azad edilən Ağdamın 190 hektar ərazisində “Sənaye Park”nın yaradılması məqsədi ilə İqtisadiyyat Nazirliyinə ilkin olaraq, 500 min manat vəsait büdcədən ayrılıbdır [4, s. 263-267].

Digər önəmli lahiyələrdən biri kimi işğaldan azad dilən Zəngilan rayonu ərazisində yerləşən Üçüncü Ağalı kəndində “Ağıllı kənd” lahiyəsinin həyata keçirməsini göstermək vacibdir. “Ağıllı kənd” lahiyəsində əsas hədəf ondan ibarətdir ki, insanlar yaşadıqları evindən çıxmadan uzaq məsafələrdən idarə edə biləcəkləri müasir texniki imkanlara, yəni, kənd sakinləri vahid mərkəzdən informasiya sistemləri vasitəsi ilə, məlumatları toplayaraq, iş və başqa əməliyyatlar aparmaq, onlayn xidmətlər və sair işləri həyata keçirmək imkanlarına sahib olacaqlar. Bu uğurlu layihədə də qardaş Türkiyə Respublikası şirkətlərinin rolu danılmazdır. Türkiyə Respublikası şirkətlərindən olan Cengiz Holdinqin məlumatına görə, Qarabağda yerləşən “Ağıllı kənd” dövlət əhəmiyyətli layihə kimi iri lahiyələr içərisində yer alır və onlar bu tenderin

qalibi olublar. Lakin onu da qeyd edək ki, Cengiz Holdinq şkirkəti bu layihəni digər ortaq şirkələr ilə birlikdə icra etmişdir.

Yekun olaraq qeyd etmək istəyirik ki, gələcəkdə işğaldan azad edilmiş Qarabağ Regionunda əsasən Türkiyə Respublikasının şirkətləri və onların təcrübəsi nəticəsində turizm sektorunda, kənd təsərrüfatı sahəsində, dağ-mədən və hasilat sənayesində, tikinti materiallarının istehsalı və eləcə də alternativ enerji mənbələri kimi potensial sahələrinin qurulmasında, onların ölkə iqtisadiyyatına inteqrasiya edilməsində, eləcə də bölgədə yeni nəqliyyat-logistik dəhlizin yaradılması istiqamətindəki həyata keçirilən tədbirlər qardaş ölkə ilə əlaqələrimizin genişləndirilməsində yeni perspektivlər vəd edir [5, s. 2].

Ədəbiyyat

1. Yusifov E.M., Kulu T.K., Dağlık Karabağ'ın Yeniden İmarı ve Kalkınmasında Azerbaycan-Türkiye Ekonomik İşbirliğinin Rolü ve Önemi., Bireyden Yapay Zekaya Sosyoekonomik ve Kültürel Çalışmalar, Akademisyen Kitabevi, Türkiye-2021, S. 119-130.

2. Yusifov E.M., Ağayev E.N., Tikinti sahəsində dövlət və özəl tərəfdaşlığın müxtəlif aspektləri., 16-17 dekabr 2021-ci il tarixlərində Sumqayıt Dövlət Universiteti və Yıldız Texnik Univerisitetinin birgə təşkilatçılığı "İnformasiya cəmiyyətidə iqtisadiyyatın davamlı inkişaf problemləri" mövzusunda beynəlxalq elmi konfrans. Səh. 323-328.

3. Yusifov E.M., Cəfərzadə S.H., Qarabağ Regionunda infrastukturlarin tikintisi və bərpasinin turizm sektorunun inkişafina təsiri perspektivləri., Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Memarlıq və İnşaat Universiteti. "Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemləri" mövzusunda respublika elmi-praktik konfrans. 2 aprel 2021-ci il. Bakı şəhəri. Səh. 260-263.

4. Yusifov E.M., Məmmədova N.S., Qarabağda yaradilacaq innovativ iqtisadi mühitin sənaye müəssisələrinin biznes proseslərinə təsiri., Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Memarlıq və İnşaat Universiteti. "Qarabağ regionunun iqtisadi və sosial inkişaf problemləri" mövzusunda respublika elmi-praktik konfrans. 2 aprel 2021-ci il. Bakı şəhəri. Səh. 263-267.

5.https://azertag.az/xeber/Turkiye_sirketlerinin_Qarabagdaki_semereli_fealiyyeti_berpa_prosesini_daha_da_suretlendirir-2048924

6. https://xalqqazeti.com/mobile/az/news/32619

Резюме

Юсифов Э.М., Асадзаде Н.К.

Формы и перспективы стратегического партнерства Азербайджанского государства и Турецких компаний в восстановлении Карабахского региона

В статье рассматривается роль турецких компаний в восстановлении наших освобожденных земель в Карабахском регионе. Проанализировано совместное стратегическое партнерство как нашей Республики, так и турецких компаний в восстановлении наших освобожденных земель. В реставрационных работах, проводимых в этих регионах, выявляются проекты, реализуемые турецкими компаниями, и объясняются организационные особенности этих проектов. В то же время в статье рассматривается долгосрочное стратегическое партнерство между Азербайджаном и турецкими компаниями в восстановлении карабахского региона.

Ключевые слова: *Карабахская область, турецкие компании, «Дорога к Победе», «Муровдагский тоннель», «Индустриальный* парк», «Музей Победы», стратегическое партнерство, проект «Умная деревня»

Summary

Yusifov E.M., Asadzade N.K.

Forms and Prospects of Strategic Partnership Between the Azerbaijani State and Turkish Companies in the Restoration of the Karabakh Region

The article discusses the role of Turkish companies in the restoration of our liberated lands in the Karabakh region. The joint strategic partnerships of both our Republic and Turkish companies in the restoration of our liberated lands are analyzed. In the restoration work carried out in these regions, the projects implemented by Turkish companies are identified and the organizational features of these projects are explained. At the same time, the article discusses the long-term strategic partnership between Azerbaijan and Turkish companies in the restoration of the Karabakh region.

Key words: *Karabakh Region, Turkish companies, "Road to Victory", "Murovdag Tunnel", "Industrial Park", "Museum of Victory", strategic partnership, "Smart Village" project*

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA NƏQLİYYAT-LOGİSTİKA İNFRASTRUKTURUNUN YARADILMASI

Yusifova Kəmalə Xəlil qızı
Azərbaycan Dillər Universiteti
yusifovakemale38@gmail.com

Xülasə: *Azərbaycan üçün bu günün prioritet sahələrindən biri yol-nəqliyyat infrastrukturunun bərpası, Qarabağ regionundan Avrasiyaya çıxış imkanlarının artırılması, beynəlxalq nəqliyyat-kommunikasiya, həmçinin dəhliz layihələrində fəaliyyətini gücləndirilməsiır. Bu da təsadüfi deyildir. Çünki əsas amillərdən biri olaraq Cənubi Qafqaz bölgəsində yüksək səviyyədə iqtisadi və nəqliyyat əlaqələrin yaradılması bu istiqamətdə iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsi dayanır. Naxçıvanla nəqliyyat-kommunikasiya sisteminin yaradılması məsafə və məhsulların çatdırılma sürəti baxımından da böyük əhəmiyyətə malikdir.*

Açar sözlər: *infrastruktur, logistika, nəqliyyat sistemi, inteqrasiyası, kommunikasiya, regional əməkdaşlıq*

2020-ci ilin 27 sentyabr tarixində Ermənistanın təxribatlarına cavab olaraq ölkəmiz ərazi bütövlüyünü təmin etmək üçün başlatdığı Vətən müharibəsini Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qələbə ilə başa vurdu. Azərbaycan Ermənistanın təcavüzkar siyasətini, ərazi bütövlüyünün pozulmasını dünyada uğurla təbliğ etdi. Bununla da ölkəmiz beynəlxalq səviyyədə siyasi və iqtisadi üstünlüyünü müəyyənləşdirdi. Prezident İlham Əliyev siyasi iradə göstərərək sülh danışıqları zamanı Azərbaycana edilən təkliflərdən daha çoxunu əldə etdi. İllərdir uzanan Qarabağ münaqişəsini həll edərək Ermənistanı reallığı qəbul etməyə sövq etdi.

Ordumuzun əks-hücumu nəticəsində 300-ə yaxın kənd, 5 şəhər və 4 yaşayış məntəqəsi, çoxsaylı strateji yüksəkliklər işğalçılardan azad edildi. Ermənistana aid çoxlu sayda texnika məhv edildi, ya da qənimət kimi götürüldü. Bir neçə gün sonra isə Qarabağın döyünən ürəyi olan Şuşa, 70-dən çox kənd və 8 strateji yüksəkliyi işğalçılardan təmizləndi.

10 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti V.V.Putin və Ermənistan Respublikasının Baş Naziri Nikol Paşinyanın Vətən müharibəsinin bitməsini bildirən birgə bəyanat imzalamışdılar. Daha sonra isə Ağdam, Kəlbəcər və Laçın rayonları düşmən işğalından azad edilmişdir.

Üçtərəfli bəyanatda əks olunan Naxçıvan dəhlizinin açılması ölkə Prezidenti İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir. Bu, yalnız Azərbaycan və qardaş Türkiyənin deyil, həm də regionda yerləşən ölkələrin iqtisadiyyatının inkişafına təkan verəcəkdir.

2021-ci ilin yanvar ayında Moskvada ilk dəfə Azərbaycan, Rusiya və Ermənistan baş nazir müavinlərinin iştirakı ilə üçtərəfli görüş keçirildi. Üçtərəfli görüşün məqsədi müharibədən sonrakı dövrlərin nəticələri və fəaliyyətlərin hansı yöndə olması ilə bağlı bir növ hesabat xarakteri daşıyırdı. Belə demək olarsa, növbəti addım üç liderin 10 noyabrda imzalamış olduğu 9 maddəlik sənəddə yer alan prinsiplərin təsdiqlənməsi və icra olunması, eləcə də bu prinsiplərə əsaslanaraq bölgədə sabitliyin və təhlükəsizliyin bərqərar olması yolunda idi.

2021-ci ilin 2 fevral tarixinə kimi kommunikasiya və yolların açılması, yenilənməsi ilə əlaqəli aktual sahələr üzrə ekspert qrupları yaradılması ilə bağlı qərar verildi.

Bu günün prioritet sahələrindən biri də bəyanatda göstərilən yol-nəqliyyat infrastrukturunun bərpasıdır. Bu da təsadüfi deyildir, çünki əsas amillərdən biri olaraq Cənubi Qafqaz bölgəsində yüksək səviyyədə iqtisadi və nəqliyyat əlaqələrin yaradılması bu istiqamətdə iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsi dayanır. Bəyanatda bildirilir ki, növbəti mərhələ üçün konkret icra strukturunun yaradılması, fəaliyyətin və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi bölgənin nəqliyyat-kommunikasiya infrastrukturu yaxın zamanlarda qarşıdakı mərhələdə bərpa olunmalıdır.

Ölkənin siyasi-iqtisadi nüfuzunu artırmaq məqsədilə dövlət başçısı Qarabağ regionundan Avrasiyaya çıxış imkanlarının artırılması, beynəlxalq nəqliyyat-kommunikasiya, həmçinin dəhliz layihələrində fəaliyyətini gücləndirilməsində çox maraqlıdır.

Cənubi Qafqaz regionunda "yeni regionalizm" konsepsiyasına uyğun bir əməkdaşlıq platforması yaradılmışdır. Qeyd etmək lazımdır ki, "yeni regionalizm" Avropada bir konsepsiya olaraq yaranmış və hazırda Avropa İttifaqının müxtəlif bölgələrə ("Şərq Tərəfdaşlığı" proqramına üzv ölkələr daxildir) siyasətində öz əksini tapmışdır. Xüsusilə "yeni regionalizm" regional əməkdaşlığın Avropa və qonşu regionlarda qlobal əməkdaşlıq və təhlükəsizliklə tamamlayıcılığı kontekstində başa düşülür. Məsələn,

Avropa İttifaqının Baltikyanı siyasəti "yeni regionalizm" konsepsiyasının prinsiplərinə əsaslanır. Eyni məntiqdən çıxış edərək Avropa İttifaqı Cənubi Qafqaza yanaşır.

Rusiya da Türkiyə kimi bölgədə mühüm rol oynayır. Kreml Azərbaycanın regional əməkdaşlıq təkliflərini dəstəkləyir və tətbiq olunması üçün lazımi addımları atır. Bu baxımdan Moskvanın mühüm rollarından biri də Ermənistanı bu layihələrə inandırmağa çalışmasıdır. Regional nəqliyyat və kommunikasiya sistemlərinin açılmasında, Qarabağ regionunda sabitliyin təmin edilməsində Rusiyanın rolu danılmazdır.

İran İslam Respublikası Cənubi Qafqazdakı fəaliyyətini genişləndirməyə çalışır. Bu səbəbdən İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin regionu ziyarət etməsini vacib hesab etmək olar. Rəsmi Tehran regional əməkdaşlıq məsələsində Azərbaycan, Türkiyə və Rusiya ilə eyni mövqedə olduğunu göstərmiş oldu.

Regional layihələrin həyata keçirilməsinə açıq şəkildə ehtiyac duyulur. Bu baxımdan Qarabağın bərpasının təkcə Azərbaycan üçün deyil, ümumilikdə bölgənin inkişafı üçün də son dərəcə vacib olduğu qəbul edilməlidir. Buna görə də bir sıra vacib məqamları vurğulamaq lazımdır. Vurğulanan məqamların fonunda II Qarabağ müharibəsinin geosiyasi və tarixi əhəmiyyətini başa düşmək olar.

Bu gün Azərbaycan üçün azad edilmiş ərazilərdə infrastrukturun bərpasını sürətləndirmək vacib məsələlərdən biridir. Bu məqsədlər üçün 2021 dövlət büdcəsindən 2,2 milyard manat (1,3 milyard dollar) ayrılmışdır. Füzuli, Laçın və Zəngilanda yeni beynəlxalq hava limanlarının, Azərbaycanla Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni yolun, Horadiz ilə Zəngilan arasında Ermənistanla sərhəddə yerləşən dəmir yolunun tikintisi strateji layihələrdən biridir. [1]

Bunların hamısı bölgənin tam inteqrasiyasına dəstək baxımından strateji layihələrdir. Buna görə də Azərbaycan xüsusilə Türkiyə, İtaliya və digər dost ölkələrin şirkətlərinin inşaat işlərində iştirakını müsbət qarşılayır.

Ermənistanla Azərbaycan arasındakı münaqişə və Dağlıq Qarabağdakı müharibə nəhayət ki, sona çatıbdır. Həm Azərbaycan, həm də erməni xalqı uzanan münaqişədən çox əziyyət çəkibdilər. İndi bütün problemlərə baxmayaraq regional iqtisadi inteqrasiya üçün yaxşı imkanlar vardır. Artıq Azərbaycanda bir sıra regional layihələr həyata keçirilib.

Quru yollarının açılması ilə bölgədəki bütün ölkələr tam iqtisadi inteqrasiyadan faydalana biləcəklər. Xüsusilə Zəngəzur dəhlizi Azərbaycan, İran və Ermənistan arasında yük daşımalarında mühüm rol oynayacaqdır. Bölgədə nəqliyyat əlaqələrinin açılması Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin fəaliyyətinin genişlənməsinə təsir göstərəcəkdir.

Türkiyənin Anadolu Agentliyinin verdiyi məlumata görə, Ermənistan dəmir yollarının mülkiyyətinin Rusiyaya məxsus olmasına görə planlaşdırılan marşrutun Ermənistan ərazisindən keçəcək 43 kilometrlik hissəsinin tikintisi üçün Rusiya ilə Azərbaycan razılaşacaqlar. [3]

Rusiya ilə Azərbaycan arasındakı ticarət əlaqələrin, yük daşımaların çox hissəsi şimaldan dəmir yolu vasitəsi ilə həyata keçirilir. Açılan xətt işə düşdükdən sonra şimal qonşumuzdan gələn yüklər davamlı olaraq dəmir yolu ilə Ermənistan, İran və Türkiyəyə çatdırıla biləcəkdir. Bu kommunikasiyalar Çinin "Bir kəmər, bir yol" layihəsinin tamamlanması üçün bir vasitədir və bu məsələlərə geoiqtisadi baxımdan baxdıqda çox maraqlı imkanlar yaratdığını görürük. Gələcəkdə yeni qaz-kəmər layihələrinin həyata keçirilməsi, magistral və dəmir yollarının açılması regionun inkişafına müsbət təsir göstərəcəkdir.

Həyata keçiriləcək layihədə coğrafi mövqeyinə görə Türkiyənin iki müsbət iqtisadi üstünlüyü olacaqdır. Birincisi, marşrutlar diversifikasiya olunur. Marşrutların şaxələndirilməsi hər bir ölkə üçün çox vacibdir. Çünki sabah marşrutlardan birinin istifadə oluna bilməyəcəyi bir vəziyyət yarana bilər. Məsələn, Ermənistanla münaqişəmizin olması nəticəsində təxminən 30 il yollar bağlı qaldı. Bu baxımdan marşrutlar nə qədər diversifikasiya olunarlarsa, üstünlük də o qədər çox olur. Rusiyaya dəmir yolu və dəniz vasitəsilə iki marşrut üzərindən Türkiyənin Orta Asiyaya çıxışını üstünlük hesab etmək olar. Bu, ölkəmiz üçün iqtisadi üstünlük yaradan bir addımdır.

Prezident İlham Əliyev qeyd edib ki, müharibə bir çoxlarına Azərbaycanın potensialının nədən ibarət olduğunu göstərib: "İndi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada əlbəttə ki, Horadiz-Zəngilan dəmir yolu, ondan sonra Zəngilan-Naxçıvan dəmir yolu, Naxçıvan-Türkiyə dəmir yolu layihələri prioritet təşkil edir və digər layihələr də, həmçinin. Çünki hesab edirəm ki, müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz-Ağbənd dəmir yolunun layihələndirilməsi başlasın. Artıq start verildi və digər layihələr də, həmçinin. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin." [2]

2020-ci il 10 noyabr tarixli razılaşmadan əvvəl Azərbaycanla ilə Naxçıvan arasında birbaşa nəqliyyat əlaqələri yalnız hava yolu ilə olurdu. Bu nəqliyyat dəhlizinin açılması yükdaşımalarda idxal və

ixracın daha ucuz qiymətlə başa gəlməsinə şərait yaradır. Beləliklə, ta qədimdən olduğu kimi Naxçıvan regional nəqliyyat sisteminin mərkəzi olacaqdır. Nəqliyyatın quru yolu ilə təşkil edilməsi büdcə gəlirlərini xeyli artıracaqdır.

Quru əlaqələrinin bərpası ilə beynəlxalq səviyyədə Asiya və Avropa arasında çoxtərəfli iqtisadi əlaqələrin inkişafında mövcud daha bir problem həll ediləcəkdir. Saziş bağlanmazdan əvvəl Azərbaycanla quru yolu ilə bağlı olan Naxçıvan MR mühüm regional və beynəlxalq tranzit layihələrindən kənarda qalmışdır. Blokadadan sonrakı dövrdə isə Naxçıvan Xəzər dənizi ilə Aralıq dənizi arasında bir körpü rolunu oynayacaqdır. İpək Yolu üzərində yerləşən ölkələr üçün təhlükəsiz, ucuz və sürətli daşınmanı təmin edəcəkdir. Bundan əlavə, Naxçıvan gələcəkdə Şimal-Cənub nəqliyyat dəhlizinə və planlaşdırılan Qars-İğdır-Naxçıvan dəmir yoluna inteqrasiya yolu ilə beynəlxalq yüklərin Avropaya daşınmasında əsas rol oynayacaqdır.

Naxçıvanla nəqliyyat-kommunikasiya sisteminin yaradılması məsafə və məhsulların çatdırılma sürəti baxımından da böyük əhəmiyyətə malikdir. Gələcəkdə Naxçıvan ərazisindən keçəcək quru yolu xətləri Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin uzunluğundan 343 km az olmaqla daşınmaların xərc və müddətini azaldacaqdır. Həmçinin, Naxçıvan vasitəsilə Türkiyəyə avtomobillə gediş məsafəsi qısaldığı üçün turistlərin ikitərəfli yerdəyişməsinin geniş vüsət alacağı gözlənilir. Əvvəlki illərə nəzər salsaq, təqribən 5-7 min turist Türkiyə və Naxçıvan arasında olan Dilucu sərhəd keçid məntəqəsindən istifadə etmişdir. Naxçıvanla quru yol bərpa edildikdən sonra Azərbaycanın digər bölgələrinə getmək istəyən turistlərin bu yoldan istifadə etməsi sayəsində bu rəqəmin artacağı proqnozlaşdırılır. Naxçıvan vasitəsilə ölkəyə girişin genişləndirilməsi Muxtar Respublikada turizmin inkişafına müsbət təsir göstərəcəkdir. [4]

Naxçıvan MR-ın ölkənin iştirak etdiyi hər bir ticarət layihələrindən uzaqda olmasına səbəb quru yolunun olmaması idi. Bununla da Naxçıvan iqtisadi blokadada qalırdı.

İqtisadi blokada dövründə hava nəqliyyatı və ya üçüncü ölkələrin ərazisindən keçməklə əlaqələr qurulurdu ki, bu da vaxt və əlavə xərc tələb edirdi. Naxçıvanla quru əlaqələrinin təmin olunması ilə Muxtar Respublika öz məhsullarını Azərbaycanın digər bölgələrinə, eyni zamanda Avropa və Asiyaya ixrac edə biləcəkdir. Postblokadadan sonrakı dövrdə nəqliyyat-kommunikasiya sistemini şaxələndirməklə Naxçıvan iqtisadi inkişafını sürətləndirə, idxal xərclərinə qənaət edə, ixracatı artıra və iqtisadi bazarda xarici investisiyalar cəlb edərək böyük bazarlarda tanınmağa nail olacaqdır.

Planlaşdırılan Qars-İğdır-Naxçıvan dəmir yolu vasitəsi ilə Azərbaycandan Türkiyəyə daşınacaq beynəlxalq yük daşımaların vaxtı azalacaq və iqtisadi səmərəliliyi artacaqdır. Bu da Azərbaycandan ixrac olunan məhsulların nəqliyyat xərclərini azaldacaqdır.

Naxçıvan dəhlizi bölgədəki digər ölkələrlə Rusiya arasındakı iqtisadi əlaqələrin möhkəmlənməsi, yükdaşımalarda vaxtın qısaldılması və xərclərin azaldılmasına köməklik göstərəcəkdir. Rusiya dəmir yolu şəbəkəsi Azərbaycan dəmir yolları ilə əlaqəli olduğuna görə Rusiyadan gələn qatarlar Naxçıvan dəhlizinə keçərək asanlıqla İran, Türkiyə və Ermənistana gedən xətlərə birləşdiriləcəkdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin hər zaman dediyi kimi əgər Ermənistan rəhbərliyi "faşizm siyasəti"ndən əl çəkərək mehriban qonşuluq şəraitində yaşamaq istəyərlərsə, regionda həyata keçiriləcək iri layihələrdən bəhrələnə biləcəklər. Ermənistan Naxçıvan dəhlizindən istifadə edərək iqtisadi blokadadan çıxa, regional nəqliyyat layihələrinə qoşula bilər və ən əsası Avrasiya İqtisadi Birliyinin (AİB) bazarlarına çıxış əldə edə bilər.

Ədəbiyyat

1. https://www.bbc.com/azeri/azerbaijan-55666386

2.(https://www.iqtisadiislahat.org/news/regional_neqliyyat_kommunikasiya_sisteminin_yeni_qovsagi_naxcivan_mr-1070

3. https://www.bbc.com/azeri/azerbaijan-55666386

4. https://www.bbc.com/azeri/azerbaijan-55666386

Резюме

Юсифова К.Х.

Создание транспортно-логистической инфраструктуры в Карабахском и Восточно-Зангезурском экономических районах

Одним из приоритетных направлений для Азербайджана сегодня является восстановление дорожно-транспортной инфраструктуры, увеличение возможностей доступа из карабахского региона в Евразию, международные перевозки и коммуникации, а также усиление деятельности в проектах коридора. Это не случайно. Потому что одним из основных факторов является установление высокого уровня экономических и транспортных связей в регионе Южного Кавказа, укрепление экономических и политических отношений в этом направлении. Создание транспортно-

коммуникационной системы с Нахчываном также имеет большое значение с точки зрения дальности и скорости доставки продукции.

Ключевые слова: *инфраструктура, логистика, транспортная система, интеграция, связь, региональное сотрудничество*

Summary

Yusifova Kamala Khalil

Creation of Transportation and Logistics Infrastructure in Karabagh and Eastern Zangazur Economic Regions

One of the priority areas for Azerbaijan today is the restoration of the road and transport infrastructure, increasing access opportunities from the Karabakh region to Eurasia, international transport and communication, as well as strengthening activities in the corridor projects. This is not accidental. Because one of the main factors is the establishment of high-level economic and transport relations in the South Caucasus region, and the strengthening of economic and political relations in this direction. The creation of a transport and communication system with Nakhchivan is also of great importance in terms of distance and speed of product delivery.

Key words: *infrastructure, logistics, transport system, integration, communication, regional cooperation*

DIGITAL ENVIRONMENT: AS A FACTOR OF SOCIO-ECONOMIC DEVELOPMENT OF KARABAKH AND EAST-ZANGAZUR ECONOMIC REGIONS

Asadova Sabina Sadykh
Institute of Economics
sabinaesedova@mail.ru

Summary: *The article examines the issue of the importance of creating an effective digital environment in the post-conflict territories of Azerbaijan as the main condition for the implementation of regional digitalization, which provides new opportunities for the socio-economic development of this region. An analysis of the ICT Development Index in the Karabakh Economic Region of Azerbaijan was carried out, problems and their causes were identified, and the importance of developing human capital was substantiated.*

Key words*: economic development, digital environment, digitalization of districts, information and communication technologies, human capital*

After the liberation of Azerbaijani lands from the Armenian occupation, a new geo-economic reality emerged in the South Caucasus. The geopolitical situation in the liberated and cleared territories creates new opportunities for regional transport corridors, increasing investment activity, removing trade barriers, and creating joint ventures. The unblocking of transport arteries and the building of an extensive network of communications will significantly enhance the transport and economic potential of the South Caucasus, and open up great prospects for development not only in the region, but also beyond its borders.

The return of internally displaced persons to their homes under the name "Great Return" is defined as one of the five national priorities in the adopted by the President Ilham Aliyev of the program "Azerbaijan 2030: National priorities for social and economic development". Post-conflict reconstruction is carried out as part of the overall development strategy of the Republic of Azerbaijan through the reintegration of territories liberated from occupation and joining the value chain. In line with the UN Sustainable Development Goals and the principles of the 4th Industrial Revolution, post-conflict areas will be developed taking into account local characteristics, resources and perspectives. The developed institutional framework for restoration and reconstruction testifies to the application of a new economic model, which will include the formation of a modern infrastructure on the liberated lands. This model of economic development includes tax incentives, incentive mechanisms, as well as the creation of special zones to attract foreign investment.

It should be noted that before the occupation of these territories, the zoning was carried out on the basis of the interests of the Soviet Union and therefore, the target was making a contribution to the economy of the Soviet Union and its center Moscow.

Azerbaijan's victory in The Second Karabakh War and the restoration of territorial integrity led to a new division of economic regions, providing for the creation of 14 economic regions instead of the existing 10. Based on the need to accelerate the restoration of the liberated territories in Karabakh, while eliminating the

century-old unfair division of Karabakh into “mountainous” (Nagorno Karabakh) and “upper”, “lower”, and their reintegration into the economy of Azerbaijan, the President of the Republic of Azerbaijan decided to create the Karabakh Economic Region (Agdam, Shusha, Fizuli, Terter, Khojavend, Khojaly districts and the city of Khankendi, as well as Agjabedi and Barda districts) and the East Zangezur Economic Region (Jabrail, Kalbajar, Lachin and Zangilan districts). This document determined a new strategy for the development of the country with new goals and objectives, and most importantly, with new opportunities.

As is well known, the first Smart Village project has already been implemented in the Zangilan region, which belongs to the East Zangezur Economic Region, which implies an integrated and comprehensive approach to the digital transformation of rural areas. Informatization in public administration is more of an evolutionary process than a revolutionary one. The experience of using and developing information systems, which was obtained by state bodies, is transferred to the regions, more precisely, the regions themselves actively adopt it, putting their own specifics into it. Given the specificity of the Karabakh and East Zangezur Economic Regions, it is required to develop a special approach to organizing digital processes, including technological initiatives of the displaced population (acceptance of projects and proposals based on innovations and start-ups that allow the participation of the residents of these regions in these projects). This approach is one of the important goals in the revival of Karabakh and implies the creation of a new form of public-private partnership.

According to international practice, the full implementation of regional digitalization can only be achieved by building a digital environment that provides new opportunities for the development of individual industries [4]. Without a digital environment, it is impossible to digitalize individual industries. Also, in order to achieve the construction of a digital economy in post-conflict territories, it is necessary to create a digital environment both within the region itself and in interconnection with other regions. The digital environment implies a state when information technologies are being actively introduced in all industries, all public services have been transferred to an electronic format with an effective reduction in paper workflow (by efficiency, we mean that an electronic document does not require any confirmation, approval and insurance in the form of a paper carrier). The success of the formation of the digital economy is closely dependent on the state of the national scientific and technological complex, which determines the ability to generate their own innovations and adapt advanced imported technologies [4]. In this regard, it should be noted that the most profitable and convenient digitalization model can be presented on the basis of the developed concept for creating a digital - "smart" environment in Karabakh in pursuance of the decrees of the President of the Republic of Azerbaijan Ilham Aliyev, clearly defining the national and strategic tasks of the revival of Karabakh. This concept can become an important message for the introduction of intelligent systems management, determine the main directions of technological and organizational work to develop an algorithm for the implementation of technologies and the elements of ICT.

The digital economy is a model reflection of economic relations in production, distribution, exchange and consumption based on information and communication technologies. At the same time, it is obvious that the digitalization of the country will not take place if the corresponding successes are not achieved in the regions. Digitalization will be the main driver of the economic development of district, city, village or individual industries in the region [1].

The digital economy of post-conflict territories will consist of a single financial, economic, information and military-political space, which will function almost exclusively on the basis of high and computer technologies. The essence of the digitalization of districts is the creation of a unified information system so that all systems speak “the same language”. A single language is a single platform for solving various problems of working with data. Accordingly, the main task on this path is to increase the level of digitalization of all administrative regions for effective interregional integration. This objective can be achieved, as the results of our study show, provided that the use of ICT by individuals is ensured and the skills of this use are improved.

In order to build a planned strategy, one must be aware of all the difficulties that administrative regions which are not post-conflict now face: lack of personnel, insufficient use of data in decision-making, not connecting existing equipment to the Internet, replacing digital transformation with automation and digitalization, irrational use of technology and technologies, etc.

There are a number of research organizations in the world that evaluate various aspects of the development of the information society. The index of global competitiveness, the index of innovative development in international comparisons are calculated in order to assess the level of digitalization of a region or a country's economy [2]. Indices that directly reflect the level of development of information technologies are:

- index of development of information and communication technologies (IDI);
- network readiness index;
- e-government development index (EGDI);

- index of digital competitiveness;
- Digital Economy and Society Index (DESI).

An analysis of the state of some indicators that determine the level of development of digitalization can reveal a weak link, factors and causes hindering the development of the digital economy in regions of Azerbaijan. The ICT Development Index is based on a three-stage conceptual framework representing the impact of ICTs on economic and social development. In the first phase, the ICT infrastructure must be in place and widely available.

Let's consider some indicators characterizing Internet access in the Karabakh Economic Region. According to statistical data, over the course of a 10-year period, in general, in the Karabakh Economic Region, there has been a trend in the number of enterprises with access to the Internet. However, in order to identify a deterrent to the digitalization of administrative regions, we pay attention to consider the technical equipment of these enterprises, presenting a comparative analysis of the current state of ICT systems and their use in enterprises of the capital and the Karabakh Economic Region. Despite the observed dynamics in the presented indicators over 10 years, 48.9% of workers use the Internet, where only 44.8% of the total number of computers have access to the Internet in the Karabakh Economic Region. However, in Baku the situation is different: 74.7% of computers in the capital's enterprises and 82.5% of employees have access to the Internet. This situation indicates that, as elsewhere in the world, in Azerbaijan there is a “digital divide” (a 30 percent difference in the level of availability of sustainable Internet) between the urban population and the population of administrative districts [5]. These facts should be taken into account when developing the concept of digitalization of post-conflict territories with the need for the appropriate and efficient use of available technologies, with the condition of increasing literacy and skills in using ICT.

It should be considered that digital literacy is a key indicator for the future of Azerbaijan, capable of creating added value in the economy. The weak level of information education and skills in using the Internet, the lack of qualified personnel act as serious problems in the implementation and application of digital business models. In addition, the results of social surveys conducted among internally displaced persons show that 45% of citizens want to return to villages, to their own homes, 23% - to urban-type settlements, and only 14% - to "smart villages". In matters of employment among the surveyed citizens aged 35-50, 23% prefer to work in the field of agriculture, 17% of young people (17-34 years) choose the sphere of trade and public catering [3].

The process of restoration of post-conflict territories is based on the principles of the 4th industrial revolution, therefore, there is a need to conduct educational work among the future residents of Karabakh about the essence of a “smart” environment, which implies a qualitatively new standard of living. When analyzing the level of digitalization in the administrative regions of Karabakh, which are not post-conflict, it was revealed that the main competence that needs to be developed is the necessity to ensure continuous learning, mastering new knowledge on new technologies. That is why at the initial stage it is necessary to simplify the forms of interaction between citizens and the state; this specifically means literally "fewer form fields to fill out" and requesting only the minimum required data.

Thus, our approach is to develop a scientific and practical strategy for building a digital economy in post-conflict areas. The goals of the digital economy of the region should be synchronized with government priorities. Strategic planning should take into account economic factors and include in the strategy the goals of developing the regional economy, increasing the gross regional product and improving the well-being of residents.

Let us present the key areas and tasks that should be taken into consideration at the initial stage:

1. To study the potential of the economic region and its administrative regions, which will make it possible to determine the stages of digitalization and industries that should be digitized in the first place;

2. Pre-conflict economy of these territories should be examined; a comparative analysis should be carried out. Identify the most priority sectors that should be developed in order to support the import substitution policy;

3. The digitalization of districts should be phased (as these territories are populated), taking into account the features of the region, the needs and demands of the population should be studied, and national goals and recommendations for their achievement should be accepted by the state.

• First stage – ICT infrastructure should be created and widely available;

• The second stage is that the ICT infrastructure should be used in such a way that the quality of use is enhanced by skills.

• These two stages, in turn, lead to a third stage, which builds on the first two stages and is based on three broad dimensions: Internet access, ICT use and ICT skills.

• Promote the relevant initiative by developing a communication and marketing plan that encourages the need to use the Internet in every home and business, introduce incentives for employees who have mastered new technologies.

References

1. Akaev A, Rudskoy A. (2017). Converged ICTs as a key factor in technological progress for the coming decades and their impact on global economic development. International Journal of Open Information Technologies ISSN: 2307-8162 vol. 5, no. 1, 2017.
2. ITU (2017). Индекс развития информационно-коммуникационных технологий / ICT Development Index. [Electronic resource] / https://gtmarket.ru/ratings/ict-development-index
3. Musayev A. (2022) Rebuilding mission of the victorious team / https://www.azerbaijan_news.az/az/posts/detail/muzeffer-komandanin-quruculuq-missiyasi-16497095
4. Oborin M.S. Dıgıtal envıronment as a factor of ıncreasıng the economıc securıty of the regıon / Scientific notes of the Crimean Federal University named after V.I.Vernadsky. Economy and control. 2021. Vol. 7 (73). No. 2. P. 83–91.
5. The State Statistical Committee of the Republic of Azerbaijan. [Electronic resource] / https://www.stat.gov.az/source/information_society/ (date of the application: September 2022).

Xülasə

Əsədova S.S.

Rəqəmsal mühit Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf amili kimi

Məqalədə Azərbaycanın post-konflikt ərazilərinin sosial-iqtisadi inkişafı üçün yeni imkanlar açan regional rəqəmsallaşmanın həyata keçirilməsinin əsas şərti kimi həmin regionda effektiv rəqəmsal mühitin yaradılmasının vacibliyindən bəhs edilir. Tədqiqat gedişində Qarabağ iqtisadi rayonunda İKT-nin İnkişaf İndeksinin təhlili aparılıb, problemlər və onların səbəbləri müəyyən edilib, insan kapitalının inkişafının vacibliyi əsaslandırılıb.

Açar sözlər: *iqtisadi inkişaf, rəqəmsal mühit, rayonların rəqəmsallaşması, informasiya və kommunikasiya texnologiyaları, insan kapitalı*

Резюме

Асадова С.С.

Цифровая среда: как фактор социально-экономического развития Карабахского и Восточно Зангазурского экономических регионов

В статье рассматривается вопрос о важности создания эффективной цифровой среды на постконфликтных территориях Азербайджана как основного условия реализации региональной цифровизации, открывающей новые возможности для социально-экономического развития данного региона. Проведен анализ Индекса развития ИКТ в Карабахском экономическом районе Азербайджана, выявлены проблемы и их причины, а также обоснована важность развития человеческого капитала.

Ключевые слова: *экономическое развитие, цифровая среда, цифровизация районов, информационные и коммуникационные технологии, человеческий капитал*

ECONOMIC ASSESSMENT OF THE TRANSPORT-LOGISTICS INFRASTRUCTURE IN KARABAKH AND EASTERN ZANGEZUR ECONOMIC REGIONS

Gulahmadov Muhammad
Institute of Economics
gulahmadovmahammad@gmail.com

Summary: *The restoration of the transport corridor in the liberated areas after the Second Karabakh war is considered vital for the economic development and social well-being of Azerbaijan. Currently, Azerbaijan is rapidly implementing a policy of restoration in the liberated territories. In this regard, the restoration of the trade and transport system in Karabakh and adjacent regions will make these regions an important transport hub in the region. The country is taking decisive measures to develop the main transport projects in these territories, focusing mainly on the formation of transport and transit systems in two main regions: the Karabakh and Zengezur economic regions, which are considered the transit hub of*

the region. Thus, the article also considers the potential economic aspects of a transport corridor in these areas, provided that in the future Karabakh and Zengezur become the main transport corridor connecting East and West.

Key words: *economic aspects, transport hub, Karabakh, East Zangezur corridor, logistics, Azerbaijan*

Introduction. The paper mainly discusses the core economic aspects of the future transformation of Karabakh into a major regional transport hub between East and West. After the Second Karabakh War, the balance of power in the South Caucasus region changed, a new geostrategic situation arose. At present, Azerbaijan is taking appropriate measures to turn the Karabakh and East Zangezur regions into a major transport hub connecting Central Asia with the South Caucasus and Europe. The author will mainly analyze the main economic factors that may affect the formation of potential transport corridors in Karabakh and Eastern Zangezur, which may also affect the states of the region. [6] The condition of the roads intended for the movement of vehicles is the main factor that indicates the level of economy, culture and work that needs to be carried out in this area. The transport infrastructure created in Karabakh will turn Azerbaijan into a logistics hub between Central Asia and Europe. All transport projects promise to accelerate the economic development of Karabakh and turn this war-torn region into an important regional transport hub. Connecting new and reconstructed transit routes in and around Karabakh with existing road and rail links in eastern Azerbaijan, as well as the Zangezur Corridor, will not only expand the regional transport network, but will also have a positive impact on regional cooperation.

Importance and relevance of the research topic. In recent years, the reconstruction of the country's transport system within the framework of a targeted policy of the state contributes to the development of internal transport infrastructure and turns Azerbaijan into a transport hub of Eurasia. In recent years, the opening of new international airports in various regions of the country, the construction of new roads, playing a leading role in the implementation of regional projects contribute to the development of domestic transport infrastructure within the targeted policy of Azerbaijan, which also turns Azerbaijan into a transport hub of Eurasia. For Azerbaijan, the main goal in the first stage of the recovery process is to create all the necessary transport routes and infrastructure, which can subsequently accelerate the implementation of other projects and economic development in the Karabakh region. [1]

The result of the second Karabakh war with the victory of Azerbaijan and the end of the conflict created the basis for the emergence of new relations in the region. The tripartite statement, signed on November 10, 2020, included a provision on the construction of new transport links linking Nakhchivan with the main territory of Azerbaijan. Currently, active work is underway in the direction of the Zangezur corridor, and the implementation of this corridor will play an important strategic role in trade and economic exchange and increase the potential of not only Azerbaijan, but also the region and neighboring states. [7] The implementation of Article 9 of the November 10 statement, which provides for the restoration of economic and transport links, is the main and decisive stage in the development of Karabakh. Armenia's obligations are stated in the statement: "...guarantees the security of transport links between the western regions of the Republic of Azerbaijan and the Nakhchivan Autonomous Republic." In this regard, the opening of the Zangezur corridor is quite legal and is a historical necessity. [2]

With the opening of the Zangezur corridor, all transport and economic ties in the region will be released from the blockade, and the distance for establishing communication between the regions of Azerbaijan will be reduced. Thus, Azerbaijan will have to connect with Turkey by rail and road through Nakhchivan. On the other hand, the opening of the Zangezur corridor will seriously affect the economy of the Turkic peoples, especially Turkey. As a result, East-West and North-South transport corridors will be formed, and Azerbaijan will become a transport hub and an important economic and strategic center for the whole world. The implementation of road and rail projects in the northern, southern and eastern directions, the road to the villages of Sugovushan and Talysh, the Ahmedbeyli-Fizuli-Shusha Road, the Horadiz-Agband railway, the Barda-Agdam railway are the main part of the Karabakh development strategy. [3]

The main goal of the article. The main goal of the article is to analyze the formation of transport infrastructures and routes in the liberated territories of Azerbaijan, taking into account mainly its future economic potential and trade aspects in the region.

Object and subject of research. The purpose of the paper is to analyze the formation of a transport corridor in the liberated territories of Azerbaijan and the economic and commercial benefits that the use of this corridor can bring to the country and the region. The main direction of the work is the reconstruction of the transport infrastructure of the Karabakh and East Zangezur economic regions and the determination of their transit potential. The transformation of the de-occupied territories of Azerbaijan into an important

transport and transport hub connecting East and West will be further substantiated by relevant facts and arguments in the article

The novelty of the article. Azerbaijan is the country that will benefit the most from the infrastructure projects that will be built in accordance with the terms of the post-war agreement. Because Azerbaijan will receive an economic benefit, as well as a geopolitical advantage over Nakhchivan. The realization of existing economic opportunities in the liberated territories through a new division of economic regions will make a significant contribution to the development of not only the economy of Karabakh and Azerbaijan, but also the trade and transport systems. [4] The economic development of the Karabakh and East Zangezur economic regions and their access to the international north-south and east-west transport corridors, as well as the Zangezur corridor, will make Karabakh an economic locomotive for the entire South Caucasus. As a result, Karabakh will become a symbol of regional cooperation, and not a zone of conflict, as it was during the Armenian occupation. The emerging transport hub in Karabakh will strengthen the position of the entire South Caucasus in the context of trans-Eurasian transport projects, such as the Middle Corridor and the North-South International Transport Corridor - another example of how the outcome of the Second Karabakh War corrects the geopolitical realities of this region of the world. [5]

Literature review. In the chosen article, the researcher will mainly use various scientific articles from electronic databases, including materials related to Oxford Journal Online, SAGE, JSTOR, Cambridge Journal, Carnegie Europe and Taylor & Francis groups, Oxford Gas Journal, statistical data, published by international organizations and institutions. In addition, strategic plans, framework laws, statistical data, newsletters, information booklets, World Bank Logistics Performance Index reports, data from the Census and Economic Information Center will be used to conduct a fundamental analysis of the paper. Including the statistical database of the State Statistics Committee of Azerbaijan on Transport and Transportation, news of the President's Office on the reforms carried out in the territories liberated from occupation, annual reports of European Union journals, United Nations statistics, information will also be mentioned received from state and non-governmental organizations and resources. In this case, the author will refer to the information and reports of the State Committee for Urban Planning and Architecture, Azerbaijan Railways CJSC, the State Automobile Roads Agency of Azerbaijan, Azerbaijan Airlines CJSC and the National Demining Agency of Azerbaijan. Due to the limitations of the monograph and literature, this paper will be based on a kind of "longitudinal case" research method, and the author will mainly empirically analyze the relevant reforms carried out in the transport sector in the liberated territories and the formation of transport corridors will conduct a study by analyzing relevant existing facts and events. This, in turn, gives grounds to turn in the article more to the quantitative method of research than to the qualitative one. Therefore, research work relies on both quantitative and qualitative research methods to collect reliable data from various sources.

Limitation. The main limitation in the paper is related to the lack of literature, scientific monographs and publications, as it covers the last 2 years and the modern period. After the end of the second Karabakh war, news about the holding of relevant events in the territories liberated from occupation can only be obtained from the official websites of state bodies, from publications of the research centers. For the development of theoretical knowledge, there are practically no indexed scientific articles that reflect important proposals and opinions of domestic scientists. This can complicate the work of the author. So, in this regard, the selected paper is based on a longitudinal case study, and as a result, the author will analyze the relevant works and processes in a comparative manner. At the same time, the author should organize a traditional interview with employees of the relevant government agencies and specialists from scientific centers in order to obtain more complete information and highlight the issue in the paper. On the other hand, there is little information about the transport potential of the territories liberated from occupation in foreign magazines and news bases, and they are mainly published on the pages of the media. From this point of view, the effective application of successful transport and transport-transit models of the relevant foreign countries for the formation of a transport-transit system in the liberated territories of Azerbaijan can be implemented as one of the solutions to the problem.

References

1. Air center. Zangazur corridor will stimulate regional cooperation, (2021). Available at: https://aircenter.az/en/post/zangazur-corridor-will-stimulate-regional-cooperation-652

2. Dr. Mehmood Ul Hassan Khan, Strategic Importance of Zangazur Corridor, ANKASAM – Ankara Center for Crisis and Policy Studies, (2021). Available at: https://www.ankasam.org/strategic-importance-of-zangazur-corridor/?lang=en

3. MENAFN, Paving of highways to liberated Azerbaijani Sugovushan, Talysh villages continue, 2020, Available at: https://menafn.com/1101258796/Paving-of-highways-to-liberated-Azerbaijani-SugovushanTalysh-villages-continues

4. Orkhan Baghirov, Karabakh: An Emerging Regional Transport Hub, Publication: Eurasia Daily Monitor Volume: 18 Issue: 87, (2020). Available at: https://jamestown.org/program/karabakh-an-emerging-regional-transport-hub/

5. Paul Goble, A 'Railway War' Is About to Break out in the South Caucasus, Publication: Eurasia Daily Monitor Volume: 17 Issue: 172, (2020). Available at https://jamestown.org/program/a-railway-war-is-about-to-break-out-in-the-south-caucasus/

6. Paul Goble, Growing Azerbaijani–Central Asian Ties Likely to Trigger Conflicts With Russia and Iran, Publication: Eurasia Daily Monitor Volume: 18 Issue: 28, (2020). Available at https://jamestown.org/program/growing-azerbaijani-central-asian-ties-likely-to-trigger-conflicts-with-russia-and-iran/

7. Vasif Huseynov, Zangazur Corridor is the Cornerstone of the Post-War Regional Cooperation Projects in the South Caucasus, Valdai Discussion Group, (2022). Available at: https://valdaiclub.com/a/highlights/zangazur-corridor-is-the-cornerstone-of-the-post/

Xülasə

Güləhmədov M.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında nəqliyyat-logistika infrastrukturunun iqtisadi qiymətləndirilməsi

İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə nəqliyyat dəhlizinin bərpası Azərbaycanın iqtisadi inkişafı və sosial rifahı üçün həyati əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan işğaldan azad edilmiş ərazilərdə bərpa siyasətini sürətlə həyata keçirir. Bu baxımdan Qarabağda və ona bitişik rayonlarda ticarət və nəqliyyat sisteminin bərpası bu rayonları regionun mühüm nəqliyyat qovşağına çevirəcəkdir. Azərbaycan bu ərazilərdə əsas nəqliyyat layihələrinin inkişafı üçün qətiyyətli tədbirlər həyata keçirir, əsas diqqəti iki əsas regionda - regionun tranzit qovşağı hesab olunan Qarabağ və Zəngəzur iqtisadi rayonlarında nəqliyyat və tranzit sistemlərinin formalaşdırılmasına yönəldir. Beləliklə, məqalədə gələcəkdə Qarabağ və Zəngəzurun Şərqlə Qərbi birləşdirən əsas nəqliyyat dəhlizinə çevrilməsi şərti ilə bu ərazilərdə nəqliyyat dəhlizinin iqtisadi potensialını qiymətləndirməyə çalışılır.

Açar sözlər: *iqtisadi aspektlər, nəqliyyat qovşağı, Qarabağ, Şərqi Zəngəzur dəhlizi, logistika, Azərbaycan*

Резюме

Гулахмадов М.

Экономическая оценка транспортно-логистической инфраструктуры Карабахского и Восточно-Зангезурского экономических областей

Восстановление транспортного коридора в районах, освобожденных после Второй карабахской войны, считается жизненно важным для экономического развития и социального благополучия Азербайджана. В настоящее время Азербайджан стремительно проводит политику восстановления на освобожденных территориях. В связи с этим восстановление торгово-транспортной системы в Карабахе и прилегающих районах сделает эти районы важным транспортным узлом региона. Страна принимает решительные меры по развитию основных транспортных проектов на этих территориях, ориентируясь главным образом на формирование транспортно-транзитных систем в двух основных регионах: Карабахском и Зенгезурском экономических районах, которые считаются транзитным узлом региона. Таким образом, в статье также рассматривается экономический потенциал, аспекты транспортного коридора в этих районах при условии, что в будущем Карабах и Зенгезур станут основным транспортным коридором, соединяющим Восток и Запад.

Ключевые слова: *экономические аспекты, транспортный узел, Карабах, Восточно-Зангезурский коридор, логистика, Азербайджан*

III BÖLMƏ

KREATİV İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ. İNKLÜZİV İQTİSADİYYATIN İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

RƏQƏMSAL SIĞORTANIN İNKİŞAFINDA DÖVLƏT DƏSTƏYİNİN ROLU

Abbaslı Yetərxanım Zöhrab qızı
İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Mühasibatlıq və xəzinədarlıq şöbəsi
Yeterkhanim-abbasli@unec.edu.az

Xülasə: *Sığortanın məqsədi riskləri görməyə imkan vermək, iqtisadi artımı dəstəkləmək, innovasiyaları təşviq etmək və nəticədə cəmiyyətin və iqtisadiyyatın dayanıqlığını artırmaqdır. Sığorta müasir cəmiyyətin kiber risklər, texnologiya dəyişikliklərinin təsiri və demoqrafik tendensiyaların yaratdığı sosial dəyişikliklər kimi ən böyük problemlərinin həllinə kömək etməkdə mühüm rol oynayır.*

Məqalədə rəqəmsallaşmış cəmiyyətdə sığortanın dəyərinin qorunub saxlanması, rəqəmsal transformasiya prosesinin çətinlikləri və iqtisadi-sosial faydaları tədqiq edilmişdir. Bu, rəqəmsal iqtisadiyyatda sığortanın rolu ilə bağlı məlumatlı və faktlara əsaslanan ictimai müzakirəyə töhfə vermək məqsədi daşıyır.

Məqalənin yekununda sığorta sahəsində rəqəmsallaşmanın inkişafına dəstək tədbirlərinin intensivləşdirilməsi və təkmilləşdirilməsinə hədəflənən təkliflər irəli sürülmüşdür.

Açar sözlər: *sığorta, rəqəmsallaşma, texnologiya, maliyyə, dövlət dəstəyi*

Problemin aktuallığı: Respublikamızda sığorta sahəsində həyata keçirilən müasir islahatların əsas məqsədi hər şeydən əvvəl, milli sığorta bazarının möhkəmləndirilməsi və onun qloballaşan dünya sığorta sisteminin layiqli üzvünə çevirməkdən ibarətdir.

Sığorta ixtisaslaşdırılmış dövlət və özəl sığorta təşkilatları tərəfindən həyata keçirilir. Sığorta təşkilatlarının fəaliyyət dairəsi daxili (məhdud), xarici və qarışıq sığorta bazarını əhatə edə bilər. Bununla bərabər inkişaf etmiş sığorta bazarı şəraitində sığorta həm ölkə daxilində, həm də ölkənin sərhədlərindən (hüdudlarından) kənarda da həyata keçirilir. [5]

Sığorta haqlarının ÜDM-ə nisbətinin aşağı olmasının əsas səbəblərindən biri sığorta şirkətlərinin müəyyən sektorlar və həmin sektorlar ilə bağlı risklər haqqında tam məlumatlı olmamasıdır. Bu isə sığorta şirkətlərinin həmin qruplar üçün müxtəlif məhsul təklifləri hazırlamağa maraqlı olmamasına gətirib çıxarır.[2]

Cədvəl 1.

2017-2021-ci illər ərzində sığorta şirkətlərinin əldə etdiyi sığorta haqları və sığorta ödənişləri

	Sığorta haqları	Sığorta ödənişləri
2017	556,866,578.60	257,109,597.44
2018	727,954,113.26	240,333,470.73
2019	4,650,530,349.95	1,687,074,068.09
2020	5,230,704,039.66	2,591,748,049.54
2021	5,780,665,014.45	3,242,900,078.69

Cədvəldən də aydın olur ki, son illərdə bu sahədə keçirilən islahatlar ölkəmizdə sığortanın inkişafına təkan vermişdir. Sığorta bazarının genişlənməsi, əhalinin sığorta təminatı almayan hissəsinin sığorta məhsulları ilə əhatə olunması, maliyyə xidmətlərinə çıxışın artırılması və iqtisadiyyatın şaxələndirilməsinin dəstəklənməsi məqsədilə yeni sığorta məhsulları yaradılmışdır: kənd təsərrüfatı sığortası, mikrosığorta, müştərək sığorta, icbari tibbi sığorta və s.

Hər bir sığorta şirkətinin geniş imkanları vardır. Onlar müəyyən qaydalar daxilində öz tarif siyasətində müstəqildirlər. Sığorta şirkətləri mahiyyət etibarı ilə maliyyə sferasında xidmət verməklə mükəlləfdirlər. Bu xidmətin ən önəmli ünsürü qeyri-müəyyən bir zaman kəsiyində sığorta şirkətlərinin müvafiq təzminatları ödəməsidir. Gələcəkdə mümkün risklərin potensialdan reala keçməsi ilə təzminat ödəməli olan sığorta şirkətləri müştərilərindən sığorta haqları toplamaqla məşğul olarkən onların müştəriləri

də zərərlərinin sığorta şirkətlərinə ödənilmiş bu haqlar çərçivəsində kompensasiya ediləcəyi qarantiyası ilə fəaliyyətlərini davam etdirirlər. [4]

Rəqəmsal texnologiya - texnoloji irəliləyişlər və yeni məlumat mənbələrinin mövcudluğu sığorta sənayesində dəyişikliklərə səbəb olur və rəqabət mühitini yenidən konfiqurasiya edir. Məsələn, data analitikasının və süni intellektin artan istifadəsi sığorta biznes modelində məlumatların rolunu genişləndirir. Texnoloji irəliləyişlər risklərin daha səmərəli və effektiv şəkildə azaldılması və qarşısının alınmasına, həmçinin, güclü yeni biznes modellərinin inkişafına təkan verəcəkdir. Rəqəmsal texnologiya əhəmiyyətli iqtisadi və sosial faydalar yaratmaq potensialına malikdir. Təkmilləşdirilmiş məlumatlar risklərin idarə edilməsini və erkən xəbərdarlıq sistemlərini asanlaşdırır ki, bu da itkiləri azaltmaq və sığortalılar üçün əlavə üstünlüklərə səbəb olmasına vaxtında müdaxilələrə imkan verir.

Sığorta iqtisadi inkişafın əsas komponentidir və daha çox müştəri mərkəzli olur. Sığorta vasitəsilə risklərin birləşdirilməsi cəmiyyətimizin üzləşdiyi çağırışlara olduqca müasir cavabdır. Rəqəmsal texnologiya sığortaçıların hansı riskləri əhatə etdiyini və sığortaçıların iddiaları necə yazdığını, bölüşdürdüyünü, idarə etdiyini özündə əks etdirir.

Tədqiqatın nəticələri: Yeni texnologiyalar yeni imkanlar təqdim edir, eyni zamanda müştərilərin, sənayenin özünün və bütövlükdə cəmiyyətin həll etməli olacağı problemlərə və potensial xərclərə səbəb olur. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə və inkişaf etməkdə olan bazarlarda rəqəmsallaşma və yeni texnologiyalar sığortanı daha münasib etməklə, yeni bazarlar yaratmaqla və eyni zamanda sığortanın faydalarını yeni müştərilərə çatdırmaqla ona çıxışı yaxşılaşdırmağa kömək edə bilər.

Məxfilik və məlumatların qorunması sahələrində və ya yüksək riskli şəxslərin sığortaya çıxışı ilə bağlı etik və sosial narahatlıqların olması danılmazdır. Bu narahatlıqların aradan qaldırılmasında dövlət tənzimlənməsi müstəsna rola malikdir.

Rəqəmsal dövr cəmiyyət üçün risklərin təbiətində köklü dəyişiklik gətirir. Artan qarşılıqlı əlaqə bir çox cəhətdən mövcud sistemlər daxilində risklərin azaldılmasına xidmət edir. Bununla belə, sürətlənmiş rəqəmsallaşma, həmçinin, açıq və əlaqəli rəqəmsal mühitlərin böyüməsi bu günə qədər olduğundan daha az proqnozlaşdırıla bilən yeni zəifliklər və potensial nəticələr yaradır. Çox vaxt olduğu kimi, əsas problem yeni texnologiyaların riskləri və imkanları arasında balans tapmaqdır.

Sığorta cəmiyyətlərin bəzi ən böyük problemlərinin həllində mühüm rol oynayır. İqtisadiyyatın getdikcə artan rəqəmsallaşması fonunda gündəlik həyatımızın getdikcə daha çox aspektini fərdiləşdirmək üçün geniş yayılmış tendensiyalara baxmayaraq, sığorta vasitəsilə risklərin birləşdirilməsi sənayenin riskin maliyyə nəticələrinə ən yaxşı cavabıdır. Risklərin birləşdirilməsindən istifadə sığorta biznes modelinin təməl daşı olaraq qalacaqdır.

Rəqəmsal texnologiya sığortaçılara sığortaçıların müştərilərlə münasibətlərini əsaslı şəkildə dəyişdirəcək real vaxt rejimində monitorinq və vizualizasiyadan istifadə etmək imkanı verir. Nümunə olaraq, müştərilər sığortaçılara köhnəlmiş monitorinq cihazları vasitəsilə vərdişlərini izləməyə icazə verərsə, sığortaçılar davranışa təsir etmək və riskləri azaltmaq üçün məlumatlardan istifadə edə bilərlər. Sığortaçıların müştəriləri haqqında daha çox məlumat əldə etmələri, xüsusilə həyat və sağlamlıq sığortasında seçim əleyhinə riskin artmasıdır. Rəqəmsal texnologiya "ədalətlilik" məsələlərini gündəmə gətirə bilər: fərdiləşdirilmiş, tam fərdi riskə əsaslanan sığortanın əhatə dairəsinin artırılması bəzi yüksək riskli şəxslərin sığortadan məhrum ediləcəyi və ya həddindən artıq yüksək sığorta xərcləri ilə üzləşəcəyi anlamına gələ bilər.

Böyük məlumatların istifadəsi nəticəsində sığortanı əlçatmaz hesab edənlərin sığortalaya bilmədikləri hadisə həqiqətən baş verərsə, əhəmiyyətli maliyyə itkiləri gözlənilə bilər. Bu, sığorta sənayesində yeni deyil, lakin getdikcə rəqəmsallaşan iqtisadiyyatda daha çox özünü göstərəcəkdir. Bu sahədə riskin qarşısını almaq və ya azaltmaq mümkün olmadıqda, dövlət tərəfindən müdaxilə və dəstəyə ehtiyac duyulur. Tənzimləyicilər sənayeyə yeniliklər etməyə və məhsul çeşidini genişləndirməyə və texnoloji tərəqqinin faydalarından istifadə etməyə kömək edən tənzimləmə tətbiq etməklə yolu asanlaşdıra bilərlər.

Sənayecə inkişaf etmiş ölkələrdə sığorta işinin təşkili xüsusi sığorta qanunverciliyinə, məhkəmə və sığorta ənənələrinə əsaslanır. Dövlət tənzimlənməsinin zəruriliyi iki amillə əlaqədardır. Bunlardan biri sığortalının müdafiə edilməsi, digəri isə dövlət tərəfindən yeridilən iqtisadi siyasətlə bağlıdır.[6]

Azərbaycan Respublikasında sığorta olunanların, sığortaçıların, digər əlaqədar şəxslərin, habelə dövlətin hüquq və mənafelərinin qorunması, sığorta qanunvericiliyinin tələblərinə əməl edilməsi məqsədilə sığorta fəaliyyətinə nəzarət Azərbaycan Respublikası Mərkəzi Bankına həvalə edilmişdir. Mərkəzi bank maliyyə bazarlarının baş requlyatoru hesab edilir, o cümlədən, sığorta işinə də nəzarəti həyata keçirir.

Mərkəzi Bankın sığorta nəzarəti sığortaçılara sığorta fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya verilməsini, sığortaçıların, sığorta birliklərinin və sığorta brokerlərinin vahid dövlət reyestrinin aparılmasını, sığortaçıların sığorta tariflərinin əsaslandırılmasına və ödəniş qabiliyyətinin təmin olunmasına nəzarət edilməsini, sığortaçıların sığorta ehtiyatlarının yaradılması və yerləşdirilməsi qaydalarının müəyyən

edilməsini, sığorta fəaliyyəti ilə əlaqədar qanunla müəyyən edilmiş səlahiyyət çərçivəsində normativ və metodik sənədlərin hazırlanmasını, sığorta təcrübəsinin ümumiləşdirilməsinə, sığorta fəaliyyətinin inkişafına və təkmilləşdirilməsinə dair təkliflər hazırlamasını həyata keçirir.

Sığorta bazarlarının dövlət tənzimlənməsi sistemlərinin tədqiqi birmənalı olaraq, bu sistemlərin əsasında məhz maliyyə tənzimlənməsi alətlərindən istifadə edilməsinin durduğunu çox aydın bir şəkildə sübut edir. Dövlət maliyyə tənzimlənməsinin əsas məqsədi cəmiyyətdə sosial və istisadi sabitliyin yüksəldilməsi üçün milli sığorta bazarlarının davamlı və etibarlı inkişafının təmin edilməsindən ibarətdir. [3]

Yeni texnologiyalar vasitəsilə innovasiya maliyyə sektorundakı dəyişikliklərin əsas hərəkətverici qüvvəsidir və bu dəyişikliklər ilkin olaraq qeyri-müəyyənlik və şübhə ilə müşayiət olunsa da, bu, ölçüyəgəlməz səmərəlilik artımına səbəb olmuşdur. Sığorta sektorunda xidmət göstərilməsinin yeni üsullarının imkanları, habelə məlumatların toplanması və fırıldaqçılığın aşkarlanması üçün daha geniş imkanlar, risklərin daha yaxşı müəyyən edilməsinə və fırıldaqların azaldılması tədbirlərinə gətirib çıxara bilər.

İnnovasiyalar və yeni texnologiyalar, rəqabət siyasəti mülahizələri ilə birlikdə sığorta şirkətlərinin françayzinq dəyərinə təsir etmək potensialına malikdir. Uyğunlaşdırılmış əhatə dairəsi və sadələşdirilmiş iddia prosesləri olan siyasətlər cəmiyyətin indiyədək maliyyə müdafiəsinə çıxış əldə edə bilməyən seqmentlərinin əhatə dairəsini yaxşılaşdıra bilər.

Təkliflər: Ölkəmizdə rəqəmsal sığorta sahəsinin inkişafı üçün aşağıda qeyd olunan tədbirlərin görülməsinin effektiv nəticələr verən tədbirlər olaraq qiymətləndirilmişdir:

- Sığortanın təklif və imkanları, həmçinin, riskləri minimuma endirməsi qabiliyyəti barədə əhalinin maarifləndirilməsi;
- Dünya təcrübəsindən istifadə etməklə, inkişaf etmiş ölkələrdə mövcud olan sığorta modelinin təşkilinin təmin edilməsi;
- Yeni sığorta məhsullarının yaradılması;
- Ölkə əhalisinin sağlamlıq səviyyəsini yaxşılaşdırılması məqsədilə icbari tibbi sığorta sisteminin tətbiqinin genişləndirilməsi;
- İcbari tibbi sığorta sisteminin bütün subyektləri tərəfindən resursların məqsədli, səmərəli istifadəsi ilə bağlı effektiv mexanizminin təmin edilməsi;
- Dövrün tələblərinə uyğun olaraq rəqəmsal sığorta sektorunun inkişafına şərait yaradılması;
- Dəstəkləyici sistemin yaradılması;
- Sığorta haqlarının ÜDM-də xüsusi çəkisinin Strateji Yol Xəritəsində göstərildiyi kimi 1.4% səviyyəsinə qalxması;
- Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı - Sığorta (cbar.az)
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (8.1.3)
3. Ataşov B.X, Ələkbərov Ə.Ə., Xudiyev N.N. Sığorta işi. Bakı -2018
4. Brockett, P.L., Cooper, W.W. Financial Intermediary Versus Production Approach to Efficiency of Marketing Systems and Organizational Structure of Insurance Companies – USA, Wisconsin-Madison: The Journal of Risk and Insurance – 2001
5. Xudiyev N.N. Sığortanın əsasları. Bakı -2015.
6. İbrahimov E.R., Hüseynov M.C., Salahov E.A., Abbasova Y.Ə. Sığorta işi. Bakı -2017

Резюме

Аббаслы Е.З.

Роль государственной поддержки в развитии цифрового страхования

В статье исследуется, сохранится ли ценность страхования в цифровом обществе, трудности процесса цифровой трансформации и экономические и социальные преимущества. Он призван внести свой вклад в информированное и основанное на фактах общественное обсуждение роли страхования в цифровой экономике.

В конце статьи выдвинуты предложения, направленные на усиление и совершенствование мер по поддержке развития цифровизации в сфере страхования.

Ключевые слова: *страхование, цифровизация, технология, финансы, господдержка*

Summary
Abbasli Y.Z
The Role of State Support in the Development of Digital Insurance

The article describes whether the value of insurance will be preserved in a digital society, the difficulties of the digital transformation process and the economic and social benefits. It aims to contribute to an informed and fact-based public debate on the role of insurance in the digital economy.

The article concludes with proposals aimed at intensifying and improving measures to support the development of digitalization in the field of insurance.

Key words: *insurance, digitalization, technology, finance, state support*

ANTİİNFLYASİYA YÖNÜMLÜ MONETAR SİYASƏTİN İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏR TİMSALINDA TƏHLİLİ

Abbasov Səbuhi Mübariz oğlu
UNEC
sebuhi.finance@gmail.com

Xülasə: *Elmi işdə inflyasiya ilə mübarizə məqsədilə dövlətlərin gördüyü antiinflyasiya tədbirlərinə baxılmış, inkişaf etməkdə olan ölkələrin antiinflyasiya yönümlü monetar siyasətinin müasir istiqamətləri təhlil edilmişdir. İnflyasiyanın ölkə iqtisadiyyatına vurduğu mənfi təsirin daim nəzərdə saxlanılmalı olduğu, monetar siyasət yeridilən zaman antiinflyasiya strategiyalarının diqqətlə və düzgün bir şəkildə seçilməsinin vacibliyi elmi işdə xüsusilə vurğulanmışdır. Sözügedən neqativ təsir İOÖ kimi zəif iqtisadiyyata malik dövlətlərdə daha açıq şəkildə hiss olunmuşdur, odur ki bu ölkələrdə aparılan uğurlu monetar siyasətin müsbət nəticələri İEÖ-ə nisbətən daha güclü şəkildə müşahidə edilmişdir.*

Açar sözlər: *inflyasiya, inkişaf etməkdə olan ölkələr, inkişaf etmiş ölkələr, pul-kredit siyasəti, antiinflyasiya siyasəti.*

Problemin aktuallığı: Tarix boyunca İOÖ öz pul-kredit siyasətlərini formalaşdıran zaman əsaslı mənada İEÖ-in təcrübəsindən faydalanmışdırlar. Bu da ümumi mənada zəif inkişafa malik ölkələrdə iqtisadi sabitliyin əldə olunması baxımından təsirli olmuşdur, lakin bəzi xüsusi iqtisadi şəraitlərin yaranması halında öz effektivliyini qoruyub saxlaya bilməmişdir. Günümüzdə isə İOÖ-in iqtisadiyyatına nəzər salan zaman aparılan siyasətlərin əvvəlki dövrlərlə müqayisədə daha müstəqil xarakterli olmasını müşahidə edə bilirik. Xarici bazardan və ya xarici valyutadan aslı şəkildə iqtisadi fəaliyyət göstərən dövlətlər belə günümüzdə düzgün antiinflyasiya yönümlü pul-kredit siyasəti yeridərək inflyasiya üzərində nəzarəti təmin edə bilirlər. Elmi araşdırmanın əsas məqsəd və vəzifəsi İOÖ timsalında monetar siyasətin müasir formasına nəzər salmaq, onun antiinflyasiya istiqamətlərini müəyyənləşdirməkdir. Elmi araşdırma zamanı istifadə edilmiş məlumatlar həmin ölkələrin akademik ədəbiyyatlarından əldə olunmuş, iqtisadi göstəricilər isə rəsmi statistik məlumatlar əsasında formalaşdırılmışdır. Elmi araşdırma zamanı üzləşilən ən böyük problem inkişaf etməkdə olan ölkələrdə son dönəmlərin pul-kredit siyasətinin vəziyyətini əks etdirən akademik materialların kifayət qədər çox olmaması və bir çox iqtisadi göstəricilərin əldə edilməsində yaranan çətinliklər olmuşdur.

İnkişaf etməkdə olan ölkələr timsalında monetar siyasətin və antiinflyasiya siyasətinin müasir vəziyyəti: İnkişaf etməkdə olan ölkələr (İOÖ) dedikdə inkişaf səviyyəsinə görə ən yüksək inkişaf həddinə çatmış ölkələrdən geri qalan bir sıra dövlətlər nəzərdə tutulur. Bu ölkələr coğrafi baxımdan dünyanın müxtəlif bölgələrində, xüsusilə Afrika, Asiya və Latın Amerikası kimi regionlarda cəmləşmişdirlər. Bu ölkələrin böyük əksəriyyəti öz müstəqilliklərini XX əsrdə əldə etmişdirlər, bu gün hələ də ən yüksək iqtisadi inkişaf səviyyəsinə çatmamalarında vaxtilə müstəmləkə olmalarının rolu olduqca böyükdür. Ölkənin İOÖ və ya İEÖ olmasını müəyyən edən zaman xalqın elm və təhsil səviyyəsi; saglamlıq sektorunun vəziyyəti; nəqliyyat, hüquq və texnologiya kimi sahələrin inkişaf səviyyəsi xüsusilə nəzərə alınır. İOÖ üçün əsasən aşağıdakı xüsusiyyətlər səciyyəvidir:

1.Əhalinin böyük əksəriyyəti şəhərdən kənar ərazilərdə cəmlənmiş olur. Aqrar sahənin daha çox inkişaf etdirilməsi bu ölkələrin iqtisadiyyatının əsas xarakterik xüsusiyyətlərindəndir.

2.Əhalinin sayında artım tempi olduqca yüksəkdir. İOÖ əhalisinin sayına görə dünya sıralamasında həmişə ən yüksək nöqtədə qərarlaşırlar. Əhalinin sayının çox olması baxımından bir nəfərə düşən ÜDM və ÜMM-un həcmi aşağı olur, bu da aşağı iqtisadi göstəricilərin əldə olunması ilə nəticələnir. Bu ölkələrdə rifah səviyyəsi aşağı olur.

3.İqtisadiyyatlarında elm tutumlu və texnologiya tutumlu istehsalat səciyyəvi deyildir. Daha çox təbii sərvətlərin, təbii ehtiyatların emalı və ixracı ilə məşğul olurlar.

4.İxrac və idxalın həcmi bu ölkələr üçün artan tendensiya üzrə hərəkət edir.

5.Bu ölkələrdə turizm, tikinti, təhsil və səhiyyə kimi sahələr getdikcə inkişaf edir.

İnkişaf etməkdə olan ölkələrin özləri də daxilində inkişaf səviyyəsinə görə müxtəlif qruplara bölünürlər. Birinci qrupa ən yüksək iqtisadi inkişafa nail olmuş dünyanın qabaqcıl 20 ölkəsinin formalaşdırdığı G20-yə də daxil olan yüksək inkişaf səviyyəsinə nail olmuş İOÖ aid edilir: Türkiyə, Rusiya, Çin, Brazilya, Hindistan, Meksika və s. kimi ölkələr bu təsnifata aiddirlər. İkinci qrupa adam başına düşən ÜDM-un həcminə görə fərqlənən BƏƏ, Səudiyə Ərəbistanı, Bəhreyn, Küveyt, Oman, Qətər kimi neft ixracatçısı zəngin ölkələr aid edilir. Üçüncü qrup ölkələrə yeni sənaye dövlətləri də deyilir: Yeni sənaye dövlətlərinə inkişafına görə hələ İEÖ-in səviyyəsinə çatmamış, lakin digər İOÖ-dən də olduqca qabaqda olan Argentina, Meksika, Tailnad, Malazya, İndoneziya və s. kimi dövlətlər aid edilir.

Əvvəlcə də qeyd etdiyimiz kimi İOÖ-in önəmli bir qismi tarix boyunca çox uzun müddət müstəmləkə şəklində var olmuşdurlar. Bu da onların özlərinə xas iqtisadi siyasətlərinin mövcud olmaması, müstəmləkəsi olduqları dövlətlərin qanunları əsasında idarə edilmələrinə səbəbiyyət vermişdir. Lakin heç bir təkmil iqtisadi-siyasi təcrübəyə sahib olmayan bu dövlətlər xüsusilə XX əsrdən etibarən öz müstəqilliklərini əldə etməyə başlamışdırlar. Təsadüfi deyildir ki, İOÖ müstəqilliklərinin ilk dövrlərində liberal iqtisadi siyasət yeritməyə qadir olmamışdırlar. Xüsusilə XX əsrin 70-ci illərinə qədər bu ölkələrin pul-kredit siyasətlərinə nəzər salsaq digər İEÖ-in apardığı ənənəvi monetar siyasətin izlərini görə bilərik. XX əsrin 70-ci illərinə qədər İOÖ-in apardığı pul-kredit siyasəti əsasən aşağıdakı amillər ilə səciyyələnirdi [Crockett & Nsouli, 1980] : Pul vasitələrinin istifadəsi olduqca konservativ xarakter daşıyırdı; İnvestisya mühiti yalnızca daxili bazar üzərində formalaşmışdı, xarici mühit mövcud deyildi; Pul-kredit siyasəti əsasən milli valyutanın sabitliyini qoruyub saxlamağa istiqamətlənmiş olurdu; İnvestisya fəaliyyəti önəmli ölçüdə dövlət tərəfindən nəzarət altında saxlanılırdı; Faiz dərəcələrinin müəyyən edilməsi və bu proses üzərində tənzimləmələr yalnız hökümətin nəzarəti altında icra edilirdi.

Daha sonralar XX əsrin 80-ci illərindən etibarən dünyada İOÖ-in istər siyasi, istərsə də iqtisadi baxımdan müstəqilləşməsi prosesi sürətlə başladı. Bu liberalizasiya xüsusilə iqtisadiyyatda və maliyyə sektorunda daha aydın şəkildə müşahidə edildi. Təsadüfi deyildir ki, artıq XX əsrin 90-cı illərindən etibarən bir çox İOÖ iqtisadi inkişafı baxımından İEÖ-ə yaxınlaşmağa başladılar. Xüsusilə Koreya və Çin kimi texnologiya yönümlü fəaliyyət göstərən ölkələrdə bu daha bariz şəkildə özünü göstərdi. Lakin bu iqtisadi sıçrayışın səbəbi yalnızca elmi və ya texnoloji inkişaf deyildi. İOÖ-in müstəqilləşən iqtisadi siyasətlərinin formalaşması bir sıra amillərdən aslı olaraq mərhələli şəkildə baş tutdu. Həmin amillərə misal kimi göstərə bilərik: İnkişaf etməkdə olan ölkələr öz iqtisadiyyatlarını xarici mühitə inteqrasiya etdilər; Müstəqil investisya siyasəti yeridərək xaricdən ölkəyə investisya cəlb etməyə başladılar və xarici bazarlardakı prespektivli sahələrə yatırımlar etdilər; Daha müstəqil pul-kredit siyasəti yeridərək sahibkarlıq fəaliyyətinin inişafını dəstəklədilər; Elm və texnologiya kimi sahələrə yatırımlar edərək gələcəyə istiqamətlənmiş uzunmüddətli iqtisadi sabitlik əldə etməyin yollarını axtardılar; Sənayeləşmə səviyyəsini yüksəldərək yeni sahələrə inteqrasiya imkanları yaratdılar.

Keçən əsrin 90-cı illərindən etibarən qloballaşma prosesi sürətlə reallaşmış, qloballaşan dünya ifadəsi daha intensiv şəkildə istifadə edilməyə başlamışdır. Qloballaşmanın dünya üzərindəki ən böyük təsiri isə dünya iqtisadiyyatı üzərində olmuşdur. Qloballaşma prosesi dünya dövlətlərinin beynəlxalq münasibətlərinin inkişaf etdirilməsi və iqtisadi olaraq bir-biri ilə yaxınlaşmaları baxımından səciyyəvi olmuşdur. Bu vasitə ilə İOÖ dünya bazarına çıxa bilmiş və iqtisadi inkişafa nail ola bilmişdirlər. 70-ci illərə qədər olan dövrlə müqayisədə İOÖ iqtisadi siyasətlərində müstəqillik əldə etsələr də İEÖ-in onlar üzərində olan üstünlüyü hələ də mövcud olaraq qalmışdır. Xüsusilə iqtisadi cəhətdən bu üstünlük daha aşkar şəkildə müşahidə olunmuşdur. Bu üstünlüyün qorunub saxlanılmasında İEÖ-in beynəlxalq yönümlü pul-kredit siyasəti əsas alətlərdən biri kimi çıxış etmişdir. Bunu xüsusilə ABŞ-ın Mərkəzi Bankı olan FED-in fəaliyyətlərində daha açıq bir şəkildə görə bilərik. Təsadüfi deyildir ki, FED-in atdığı hər bir addım, qəbul etdiyi hər bir qərar İOÖ-in pul-kredit siyasətinə də əsaslı şəkildə təsir edir. Bu təsirlərə daha ətraflı bir şəkildə nəzər salaq: Müasir dünya iqtisadiyyatında ABŞ-ın rolu olduqca önəmlidir, xüsusilə dünyada baş verən qlobal maliyyə əməliyyatlarının böyük əksəriyyətinin ABŞ-ın milli valyutası olan dollar vasitəsilə aparılması bunu şərtləndirən başlıca amillərdən biri kimi çıxış edir. ABŞ-ın digər bir əhəmiyyətli cəhəti də onun maliyyə sisteminin olduqca etibarlı olmasıdır, bu etibarlılıq dolların da etibarlı olmasına səbəbiyyət verir və dünya dövlətləri, xüsusilə də İOÖ beynəlxalq bazarda dollar vasitəsilə əməliyyatlar aparırlar. Belə bir mühitdə ABŞ-ın Mərkəzi Bankı olan FED-in fəaliyyəti də olduqca yüksək əhəmiyyətə sahib olur. FED hal-hazırda əhəmiyyəti baxımından dünyadakı ən önəmli maliyyə quruluşlarından biri hesab olunur, aldığı qərarların dünya iqtisadiyyatı üzərindəki təsiri baxımından da ondan daha təsirli başqa bir qurum yoxdur.

ABŞ Mərkəzi Bankının əhəmiyyətini artıran səbəblərə dünya iqtisadiyyatında pul vahidi kimi dollardan istifadə edən ölkələrin sayının günü-gündən artması, milli valyutasını iqtisadi etibarlılığı baxımından dollara sabitləyən İOÖ-in sayının çoxluğu, beynəlxalq borc və kreditlərin dollar ilə verilməsi kimi amillər aid edilir [Beckworth & Crowe,2017]. ABŞ Mərkəzi Bankının İOÖ-in pul-kredit siyasətləri üzərindəki təsiri öyrənilən zaman xüsusilə inflyasiya, valyuta, faiz dərəcələri, dövlət borcu və bir nəfərə düşən gəlirin miqdarı kimi amillərin nəzərə alınması daha məqsədəuyğun olardı. Ümumiyyətlə qeyd edilən amilləri nəzərə alaraq həmin təsirləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1.Faiz dərəcələri üzərindəki təsir: Amerika Mərkəzi Bankı mütəmadi olaraq faiz dərəcələrini elan edir və iqtisadi şəraitdən aslı olaraq faziləri aşağı sala və ya yuxarı qaldıra bilir. Faizlərdəki bu dəyişim qlobal kredit bazarına təsir edir və bu təsir də İOÖ-in daxili iqtisadiyyatına əks olunur. Faizlərdəki azalma ölkələrin iqtisadiyyatına müəyyən mənada müsbət təsir edir – milli valyutalarda sabitlik təmin olunur və istehsalatın həcmi artır, dövlət borcunun həcmi isə azalır. Faizlərdəki azalma digər ölkələrdə də istehsalatın həcmini artırır deyə əsasən təbii ehtiyatların ixracı ilə ixtisaslaşmış İOÖ-in mallarına beynəlxalq bazarda tələb artır və ixracatın həcmi yüksəlir. Faizlərdəki artım isə tamamilə əks təsir yaradır və durğunluq halı ilə müşahidə edilir [Clarida,Gali and Gertler,2001].

2.Milli valyutalar üzərindəki təsir: FED-in atdığı addımlar nəticəsində dolların dəyəri arta və ya azala bilir. Dolların dəyərindəki bu dəyişiklik birbaşa ölkələrin milli valyutalarının dəyərinin qalxması və düşməsi baxımından təsirə malikdir. Dollardakı dəyişiklik həmçinin ixrac və idxal kimi iqtisadi proseslər üzərində birbaşa təsirə malik olur.

3.Digər maliyyə vəsaitləri üzərindəki təsir: ABŞ qlobal maliyyə bazarları da daxil olmaqla beynəlxalq investisya sahəsində önəmli rola sahibdir. Onun dünya bazarındakı ağırlığı İOÖ-in monetar siyasətinin quruluşuna da əhəmiyyətli dərəcədə təsir edir. Bunun da ən əsas səbəbi odur ki, ABŞ qlobal maliyyə bazarında ən çox hissəyə sahib olan dövlətdir. ABŞ-ın bazarda apardığı hər bir əməliyyat - vəsaitlərin alınması və ya satılmasından aslı olmadan dünya iqtisadiyyatına dolayı yolla təsir edir [Bauer and Neely, 2012]. Nəticə etibarı ilə deyə bilərik ki, FED-in monetar siyasəti İOÖ-in pul-kredit siyasəti üzərində istər dövlət borcunu artırması baxımından, istər milli valyutalar üzərində təsiri baxımından , istərsə də ÜDM-un miqdarına etdiyi təsir baxımından olduqca mənfi effektə malikdir. FED həmçinin apardığı kredit-faiz siyasəti ilə İOÖ-in milli valyutalarının real dəyərinin düşməsinə şərait yaradaraq ölkələrdə inflyasiyanın dərəcəsinin yüksəlməsinə də səbəb olur. Dünya iqtisadiyyatındakı mövcud maliyyə əməliyyatlarına dollar kimi valyutaların dominantlıq etməsi İOÖ-in müstəqil pul-kredit siyasəti yürütməsi baxımından olduqca böyük bir maneə təşkil edir. Müasir iqtisadi şəraitdə mümkün görsənməsə də gələcək dövr üçün inkişafı təmin etmək baxımından İOÖ bu məsələnin həlli istiqamətində atıla biləcək addımları dəyərləndirməli, yeni yanaşmalar işləyib hazırlamalıdırlar. Əks halda iqtisadi siyasətin xarici valyutalardan və xarici bazarların vəziyyətindən aslılığı uzun müddət bu şəkildə davam edəcək.

IOÖ-də aparılan antiinflyasiya yönümlü pul-kredit siyasətləri bir çox hallarda uğursuzluğa məruz qalır. Bunun əsas səbəbi isə sözü gedən dövlətlərdə antiinflyasiya tədbirlərinin hədəfinə çata bilməsi üçün bir sıra şərtlərin ödəndiyi monetarist mühitin formalaşmamasıdır. Hər bir dövlət fayda əldə edə bilmək üçün əvvəlcə bu qeyd olunan mühiti formalaşdırmalıdır. Bu mühiti əmələ gətirmək üçün tələb olunan əsas şərtlər isə belədir: Pul-kredit siyasəti formalaşdırılarkən ilk növbədə ölkədə qiymət sabitliyinin əldə olunması hədəflənməlidir; Ölkədə Mərkəzi Bankın müstəqil fəaliyyəti təmin olunmalıdır. Mərkəzi Bankın fəaliyyətinə hökümət müdaxilə etməməlidir və ya Mərkəzi Bank heç bir hökümət qurumundan direktiv almamalı, müstəqil şəkildə pul-kredit siyasəti yeritməlidir; Pul vəsaitləri və digər maliyyə vəsaitlərinin sərbəst alım-satımının təmin edildiyi mütəşəkkil maliyyə bazarları mövcud olmalıdır.

Tədqiqatın nəticəsi: Günümüzdə İOÖ-də pul-kredit siyasəti əsasən milli valyutaların sabitliyinin təmin edilməsi, pul kütləsi və faiz dərəcələri üzərində tənzimləmələrin aparılması və inflyasiya ilə mübarizə istiqamətində aparılır. Tədqiqat işi zamanı gəldiyimiz nəticəyə görə İOÖ-in pul-kredit siyasəti İEÖ-in iqtisadi siyasətindən aslı olaraq mövcud olur və tam olaraq müstəqil xarakter daşımır. İOÖ ötən əsrin sonlarında müstəqil iqtisadi siyasətin mövcudluğunun iqtisadi canlanma və inkişaf üçün nə dərəcədə əhəmiyyətli olmasını təcrübə etmişdirlər. Odur ki, daha yüksək iqtisadi inkişaf səviyyəsinə çatmaq üçün İOÖ öz pul-kredit siyasətlərinin də tam şəkildə müstəqilliyinə nail olmalıdırlar.

Ədəbiyyat

1. Nağdalıyev. (2006). Keçid iqtisadiyyatlı ölkələrdə inflyasiya prosesinin faktorları. Bakı.
2. Şəkərəliyev A.S. (2010). Dünya və beynəlxalq iqtisadiyyat. Bakı.
3. Rzayev R. (2014). Pul, Kredit və Banklar. Bakı.
4. Quliyev T. (2006). İnflyasiyanın anatomiyası. Bakı.

5. Mustafa K. (2021). FED'in para politikalarının gelişmekte olan ülkeler üzerindeki etkisi. Haliç Üniversitesi Sosyal Bilimler Dergisi, 4, 243-266.

6. Mehmet K. (2015). Gelişmiş ülkelerde genişletici, gelişenlerde ise sıkı para politikası ve küreselleşme. Akademik Bakış Dergisi, 52, 207-218.

7. Bauer M. & Neely C. (2012). International Channels of the FED's Unconventional Monetary Policy. Federal Reserve Bank of St. Louis Working Paper Series, Working Paper 2012-028A.

8. Beckworth & Crowe (2017). The international impact of the Fed when the United States is a banker to the world.

9. Clarida R., Gali J. & Gertler M. (2001). Optimal Monetary Policy in Open Versus Closed Economies: An Integrated Approach. American Economic Review.

10. Crockett B., Nsouli S. (1980). Exchange Rate Policies for Developing Countries, Pergaınon Press Oxford.

Резюме

Аббасов С. М.

Антиинфляционная денежно-кредитная политика на примере анализа для развивающихся стран

В научной работе рассмотрены антиинфляционные меры, предпринимаемые государствами в целях борьбы с инфляцией, а также проанализированы современные направления антиинфляционной денежно-кредитной политики развивающихся стран. Негативное влияние инфляции на экономику страны следует всегда учитывать, а в научной работе особо подчеркивалась важность тщательного и правильного выбора антиинфляционных стратегий при реализации денежно-кредитной политики. Упомянутый негативный эффект более отчетливо ощущался в странах со слабой экономикой, таких как развивающиеся страны, то есть положительные результаты успешной монетарной политики, проводимой в этих странах, наблюдались сильнее, чем в развитых странах.

Ключевые слова: *инфляция, развивающиеся страны, развитые страны, денежно-кредитная политика, антиинфляционная политика*

Summary

Abbasov S.M.

Anti-inflationary Monetary Policy analysis for Developing Countries

The anti-inflationary measures taken by the states in order to combat inflation were considered in the scientific work, and the modern directions of the anti-inflation-oriented monetary policy of the developing countries were analyzed. The negative impact of inflation on the country's economy should always be taken into account, and the importance of choosing anti-inflation strategies carefully and correctly when implementing monetary policy was especially emphasized in the scientific work. The said negative effect was felt more clearly in countries with weak economies such as developing countries, that is, the positive results of a successful monetary policy conducted in these countries were observed more strongly than in developed countries.

Key words: *inflation, developing countries, developed countries, monetary policy, anti-inflationary policy*

AZƏRBAYCANDA SOSİAL SAHİBKARLIĞIN İNKİŞAFI

Abdullayeva Rəsmiyyə Sabir qızı

İqtisadiyyat İnstitutu

resmiyyesabir@gmail.com

Xülasə: *Müasir dünyada sosial problemlərin həlli - rifah halının yaxşılaşdırılması, yoxsulluğun azaldılması, inklüzivliyin təmin olunması və s. hökumətlərin sosial-iqtisadi siyasətinin əsas məqsədlərindən biridir. Son illərdə dünyada bir sıra sosial problemlərin həllinin yeni üsulu - sosial sahibkarlıq fəaliyyəti sürətlə inkişaf etməkdədir. Təəssüflər olsun ki, dünyada sürətlə inkişaf etməkdə olan sosial sahibkarlığın ölkəmizdəki mövcud vəziyyəti qənaətbəxş deyil. Bu məqalədə Azərbaycanda sosial sahibkarlığın mövcud vəziyyəti tədqiq olunacaq və inkişaf istiqamətləri göstəriləcəkdir.*

Açar sözlər*: sosial sahibkarlıq, sosial müəssisə, sosial rifah, biznes mühiti, məşğulluq, inklüzivlik*

Sosial sahibkarlıq - sosial, iqtisadi və ekoloji problemlərin həlli, davamlılığı təmin etmək məqsədi daşıyan iqtisadi fəaliyyət növüdür. Sosial sahibkarlıq fəaliyyəti özündə həm biznes, həm də sosial missiyanı birləşdirir. Sosial missiyanın (yəni sosial və ekoloji problemlərin innovativ ideyalarla həlli) önə çıxması bu sahibkarlıq növünü digərlərindən fərqləndirən əsas cəhətdir. Lakin bu missiyanın yerinə yetirilməsi üçün sosial sahibkarlar, digər sahibkarlıq fəaliyyətlərində olduğu kimi bazar prinsipləri ilə fəaliyyət göstərməli, yeni iqtisadi dəyər yaratmalı, mənfəət (gəlir) əldə etməlidirlər [15].

Sosial sahibkarlığın fəaliyyət dairəsi genişdir. Sosial sahibkarlıq daha çox sosial xidmətlər, təhsil, mənzil, ekologiya, mədəniyyət və incəsənət, turizm və s. sahələrdə geniş yayılmışdır.

Son illərdə dünyada sosial sahibkarlıq fəaliyyəti sürətlə inkişaf etməkdədir. Belə ki, son illərdə Avropa İttifaqı ölkələrində yaranan hər 4 müəssisədən 1-i sosial müəssisədir. Hökumətlər işsizliyin, yoxsulluğun, gəlirlərin bölgüsündəki qeyri-bərabərliyin səviyyəsinin azaldılmasından, həssas qruplardan olan insanların məşğulluq səviyyəsinin yüksəldilməsindən, sosial rifahın yaxşılaşdırılmasından, inklüzivliyin artırılmasından, ətraf mühitin qorunmasından ötrü bu fəaliyyət növünün genişləndirilməsi üçün islahatlar aparır, müvafiq qanunvericilik bazası və əlverişlli institusional mühit formalaşdırır, müxtəlif stimullaşdırıcı mexanizmlər tətbiq edirlər. Hökumətlər sosial sahibkarlığı inkişaf etdirməklə, həm sosial problemlərin həllinə, həm iqtisadi artıma, həm də inklüzivliyin təmin edilməsinə çalışırlar.

2016 və 2019-cu illərdə "Thomson Reuters Foundation" "Sosial sahibkar olmaq üçün ən yaxşı ölkələr" adlı araşdırma aparmışdır. 2019-cu ilin nəticələrinə görə Kanada 1-ci yer, Avstraliya 2-ci yer, Fransa 3-cü yer, Belçika 4-cü yer, Sinqapur 5-ci yerdə qərarlaşmışdır. Qeyd edək ki, 2016-cı ildə isə ABŞ birinci pillədə idi. İki tədqiqat arasındakı dövrdə reytinqdə ciddi dəyişikliklər baş vermişdir. Belə ki, Avstraliya 26-cı yerdən 2-ci yerə, Fransa isə 10-cu yerdən 3-cü yerə yüksəlmişdir [1].

Azərbaycanda biznes mühitinin qiymətləndirilməsi

Son illərdə ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması hökumətin iqtisadi siyasətinin prioritetlərindəndir. Bu sahədə islahatlar aparmaq üçün mühüm qərarlar qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2016-cı il tarixli "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı olmuşdur. Bu Sərəncamla Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya yaradılmışdır [6]. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə [13] və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə [7] ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması hökumətin prioritetlərindəndir.

Son dövrlərdə, həmçinin sahibkarların kredit resurslarına çıxış imkanlarının artırılması, kredit üzrə faizlərin subsidiyalaşdırılması və s. mexanizmlər tətbiq olunmağa başlanılmışdır. Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq respublikamızda sahibkarların onlayn rejimdə kreditlərə müraciətinə imkan yaradan platforma fəaliyyətə başlamışdır. Aparılan islahatlar, görülən tədbirlər Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir. Dünya Bankının məlumatlarına əsasən, "Doing Business" hesabatında Azərbaycan 2015-ci ildə 80-ci yerdə olduğu halda, 2016-cı ildə 63-cü, 2018-ci ildə 57-ci, 2019-cu ildə 25-ci yerə yüksəlmişdir (Diaqram).

Diaqram. Azərbaycanın Dünya Bankının "Doing Business" hesabatındakı reytinqi

Mənbə: *http://www.worldbank.org*

2020-ci ildə isə müxtəlif obyektiv və subyektiv səbəblərdən ölkəmizin mövqeyi 28-ci yerdə qərarlaşmışdır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (ARDSK) məlumatlarına görə, Azərbaycanda fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 2020-ci ildə 316 370 olmuşdur. Onun 33 450-si hüquqi, 282 920-si isə fərdi sahibkarlardır.

2020-ci ildə 316 370 sahibkarlıq subyektinin 262 622-sini mikro sahibkarlıq subyektləri, 5 956-sını kiçik sahibkarlıq subyekti olan müəssisələr, 2 726-sını isə orta sahibkarlıq subyekti olan müəssisələr təşkil etmişdir. 2019-cu illə müqayisədə 2020-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 16,6%, mikro sahibkarlıq subyektlərinin sayı isə 17,2% artmışdır. Təəssüflər olsun ki, müvafiq dövrdə kiçik və orta

sahibkarlıq subyektlərinin sayında azalma müşahidə edilmişdir. 2019-cu illə müqayisədə 2020-ci ildə ölkəmizdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin yaratdığı əlavə dəyər də azalmışdır. Belə ki, bu göstərici 2019-cu ildə 11 071,7 milyon manat olduğu halda, 2020-ci ildə azalaraq 10 941,0 milyon manat təşkil etmişdir. Müvafiq dövrdə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas kapitala investisiyalarında da azalma müşahidə edilmişdir. 2019-cu illə müqayisədə 2020-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərində çalışan işçilərin sayı, onlarda çalışanların orta aylıq nominal əməkhaqqı isə artmışdır. Təkcə 2020-ci ildə 167,4 min mikro, kiçik və orta sahibkarlıq subyekti yaradılmışdır. Bunlardan da 167,2 mini mikro, 161-i kiçik, 43-ü orta sahibkarlıq subyektidir. Müvafiq ildə ləğv edilmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 22,5 min olmuşdur ki, bunun da, yalnız 19-u kiçik, 8-i isə orta sahibkarlıq subyektidir. Yerdə qalan 99%-ni mikro sahibkarlıq subyektləri təşkil etmişdir. Təhlildən də göründüyü kimi, yeni yaradılan mikro və kiçik sahibkarlıq subyeklərinin təqribən 13,5%-i fəaliyyətini dayandırmışdır [9].

Mövcud problemlərin həlli, biznes mühitinin daha da yaxşılaşdırılmasından ötrü ölkəmizdə islahatlar davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də sahibkarlığın dəstəklənməsi və inkişaf etdirilməsi mühüm istiqamətlərdən biri kimi qeyd olunmuşdur [4].

Bunlardan başqa, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda da biznes mühitinin təkmilləşdirilməsi, kiçik və otra biznes subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına xüsusi yer verilmişdir [8].

Azərbaycanda sosial sahibkarlığın mövcud vəziyyətinin təhlili

Son illərdə ölkəmizdə əlverişli biznes mühiti formalaşsa da, lakin sosial sahibkarlığın inkişaf səviyyəsi qənaətbəxş deyil. Avropa İttifaqı tərəfindən 2018-ci ilin yanvarında dərc edilmiş "Şərq Qonşuluqda və Qərbi Balkanlarda Sosial İqtisadiyyat" adlı hesabata əsasən, *Azərbaycanda aktiv sosial sahibkarların sayı elə də çox deyil. Onlar da əsasən illik gəliri 200 min manatdan az olan və 25 nəfərdən az işçisi olan mikro və kiçik müəssisələrdən ibarətdir. Bu müəssisələr daha çox səhiyyə, sosial təminat, təhsil, turizm sektorunda fəaliyyət göstərirlər* [14].

Ölkəmizdə sosial sahibkarlığın zəif inkişaf etməsinin bir sıra səbəbləri vardır. Bunların sırasına sosial sahibkarlıqla bağlı əhali arasında məlumatlılıq səviyyəsinin aşağı olması, bu sahədə qanunvericilik bazasının təkmil olmaması, dövlətin stimullaşdırma mexanizminin formalaşdırılmaması və s. daxildir. Qeyd etmək lazımdır ki, sosial sahibkarlıq anlayışı "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit olunmamışdır. Sosial sahibkarlığın biznes modeli olan "sosial müəssisə" anlayışı "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununda öz əksini tapıb. Burada göstərilir ki, "*sosial müəssisə – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün yaradılan ixtisaslaşdırılmış hüquqi şəxsdir"* (Maddə 1.1.20) [2].

Sosial müəssisələr AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və hüquqi və ya fiziki şəxs tərəfindən AR Nazirlər Kabinetinin "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları"nın təsdiq edilməsi haqqında 17 mart 2020-ci il tarixli 97 nömrəli Qərarının tələblərinə uyğun olaraq yaradılır. Standartların 3.2.2 və 3.2.3 bəndlərində göstərilir ki, *"məşğulluq imkanlarının artırılması üçün iş yerində təlim, o cümlədən peşəyönümü və peşəhazırlığı istiqamətində məsləhət xidmətləri göstərən və şəxslərin peşə-əmək reabilitasiyası ilə bağlı tədbirləri həyata keçirən müəssisələr sosial müəssisə hesab olunur"* [5].

Hesab edirik ki, "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları" müasir dünyadakı sosial müəssisə standartlarına uyğun deyil. Azərbaycanda sosial müəssisələrlə bağlı qanunvericilikdə müəyyən müddəalar olsa da, onlar sosial sahibkarlığı tam tənzimləmə gücündə deyildir.Əslində sosial müəssisələrin müəyyənləşdirilməsində mühüm olan məsələ onun məqsədi və gəlirlərinin sosial məqsədlərə yönəldilməsi olmalıdır. Əgər müəssisənin əsas missiyası sosial ehtiyacların ödənilməsi və ekoloji problemlərin həllidirsə, qazancının 50%-indən çoxunu öz missiyalarına uyğun şəkildə investisiyalaşdırırsa, bu təsərrüfat subyektləri sosial müəssisə hesab oluna bilər. Hesab edirik ki, Azərbaycanda sosial müəssisələrin standartlarında dəyişiklik edilməsinə ehtiyac vardır.

Dünya praktikasında sosial sahibkarlığın inkişafında qanunvericilik mühüm rol oynayır. Bir sıra ölkələrdə (Almaniya, İtaliya, Rusiya, Yaponiya, Litva, Latviya, Belçika, Sloveniya və s.) sosial sahibkarlıq fəaliyyəti ilə bağlı ayrıca qanun mövcuddur.

Bundan başqa, mütrəqqi dünya təcrübəsində sosial sahibkarlıq subyektləri üçün vergi və digər güzəşt mexanizmləri mövcuddur. Belçikada sosial müəssisələr müəyyən şərtlər altında azaldılmış Əlavə Dəyər Vergisi (ƏDV) dərəcəsindən faydalanırlar. Regionlarda fəaliyyət göstərən sosial sahibkarlar üçün mənfəət vergisindən endirimlər edilir. Danimarkada xeyriyyə təşkilatları sosial missiyalarını həyata keçirmək üçün zəruri olan iqtisadi fəaliyyətlərə görə heç bir korporativ gəlir vergisi ödəmirlər. Bu təşkilatlar və sosial

müəssisələr 19% əvəzinə 7% azaldılmış ƏDV dərəcəsindən istifadə edə bilərlər. İtaliyada sosial sahibkar statusu alan sosial kooperativlər mənfəət vergisindən azaddır. A tipli sosial kooperativlər güzəştli (5%) ƏDV dərəcəsindən faydalanırlar. Bu sosial kooperativlər işə götürdükləri imkansız işçilər üçün sosial sığorta haqlarını ödəməkdən azaddırlar.

Ölkəmizdə də sosial sahibkarlığın inkişafı üçün mütərəqqi dünya təcrübəsindən istifadə zəruridir. Belə ki, sosial müəssisələrin fəaliyyətini stimullaşdırmaqdan ötrü xüsusi vergi güzəştləri edilə bilər. Bu müəssisələrin maliyyə əlçatanlığının təmin edilməsi də xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir. Ölkəmizdə Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu sosial sahibkarların maliyyə əlçatanlığının təmin edilməsində mühüm rol oynaya bilər. Bundan başqa, bir sıra sosial problemlərin həlllində mühüm rol oynayan Sosial İnkişaf Fondunun yaradılması da məqsdə uyğundur. Azərbaycanda sosial sahibkarlığın inkişafı və dayanıqlı olması üçün əsas məsələlərdən biri də, subyektlərin fəaliyyətini tənzimləyən dövlət orqanının mövcud olmasıdır. Bəzi ölkələrdə (Fransa, Böyük Britaniya, İtaliya və s.) belə dövlət qurumları fəaliyyət göstərir. Ölkəmizdə sosial sahibkarlıqla bağlı məsələlərin koordinasiyasını Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin həyata keçirməsi faydalı olardı. Ölkəmizdə sosial sahibkarlığın zəif inkişaf etməsinin səbəblərindən biri də, əhali arasında məlumatlılıq səviyyəsinin aşağı olmasıdır. Bu sektorun inkişafından ötrü əhali, o cümlədən müvafiq sosial qruplar arasında maarifləndirmə işinin aparılması zəruridir.

Aparılan təhlildən də göründüyü kimi, ölkəmizdə sosial sahibkarlığın inkişaf səviyyəsi qənaətbəxş deyil. Azərbaycanda sosial sahibkarlığın inkişaf etdirilməsi üçün bir sıra islahatların həyata keçirilməsinə ehtiyac vardır. Bunlar aşağıdakılardır:

– "Sosial sahibkarlıq", "Sosial müəssisələr" haqqında qanunlar qəbul edilməlidir. "Sosial sahibkarlıq", "Sosial müəssisə" anlayışları, sosial müəssisələrin yaradılması, onların ləğvi, təşkilati-hüquqi formaları, tənzimlənməsi qaydaları qanunda təsbit olunmalıdır;

– Sahibkar - dövlət münasibətlərinin tənzimlənməsi və əməkdaşlığın genişləndirilməsi üçün bir sıra proqramlar işlənilib hazırlanmalıdır;

– Sosial sahibkarlığın inkişafı üçün dövlət tərəfindən stimullaşdırma mexanizmi hazırlanmalıdır;

– Sosial sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi sahəsində şəffaflığın təmin edilməsindən ötrü KOBİA-nın, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun nümayəndələrindən ibarət Nəzarət Şurasının yaradılması məqsədə uyğundur.

– Əhali arasında sosial sahibkarlıqla bağlı maarifləndirmə işi aparılmalıdır. Bundan ötrü, KİV-də, sosial şəbəkələrdə bu mövzu diqqət mərkəzində saxlanılmalıdır. Sosial sahibkarlıq mövzusu mütəxəssislər üçün diskussiya predmeti olmalıdır. Bu mövzuda ekspertlərin KİV-də çıxışları təşkil edilməli, ekspert rəyləri, məqalələr çap etdirilməlidir;

Bu qeyd olunanların tətbiqi ölkəmizdə sosial sahibkarlıq fəaliyyətinin inkişafına müsbət təsir göstərəcəkdir.

Ədəbiyyat

1. A Map of Social Enterprises and Their Eco-systems in Europe. 2020. European Commission, Brussels
2. AR Məşğulluq haqqında qanunu URL: http://e-qanun.az/framework/39846 1
3. AR Vergilər Məcəlləsi URL: https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi 2
4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. URL: https://e-qanun.az/framework/46813
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı. URL: https://e-qanun.az/framework/44813 3
6. Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2016 URL: https://president.az/az/articles/view/20592
7. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. URL: https://mida.gov.az/documents/Ki%C3%A7ik_v%C9%99_orta_sahibkarl%C4%B1q_s%C9%99viyy%C9%99sind%C9%99_istehlak_mallar%C4%B1n%C4%B1n_istehsal%C4%B1na_dair.pdf
8. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, https://president.az/az/articles/view/56725
9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda sahibkarlıq. URL: https://stat.gov.az/source/entrepreneurship/

10.Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. URL: https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
11.Azərbaycanda sahibkarlığın inkişaf tarixi. URL: http://edf.gov.az/az/content/162
12.Mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsinə dəstək Qaydası. URL: https://e-qanun.az/framework/48584
13.Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında. URL: https://e-qanun.az/framework/34254
14.Social Economy in Eastern Neighborhood and in the Western Balkans. 2018. Country report – Azerbaijan - January 2018 URL: https://bit.ly/3dHkGNf 4
15.Sosial Sahibkarlıq Proqramı. 2022. URL: https://socialentrepreneur.az/az/service/sosial-sahibkarliq-telimleri-15

Резюме
Абдуллаева Р.С.
Развитие социального предпринимательства в Азербайджане

Решение социальных проблем в современном мире повышение благосостояния, сокращение бедности, обеспечение инклюзивности и др.-это одна из важнейших целей государственной социально-экономической политики. В последние годы в мире стремительно развивается новый метод решения ряда социальных проблем - социальное предпринимательство. К сожалению, современное состояние социального предпринимательства, которое стремительно развивается в мире, в нашей стране не является удовлетворительным. В данной статье будет изучено современное состояние социального предпринимательства в Азербайджане и указаны направления развития.

***Ключевые слова**: социальное предпринимательство, социальное предприятие, социальное обеспечение, бизнес-среда, занятость, инклюзия*

Summary
Abdullaeva R.S.
Development of Social Entrepreneurship in Azerbaijan

Solving social problems in the modern world - improving welfare, reducing poverty, ensuring inclusion, etc. is one of the primary goals of the socio-economic policy of the government. In recent years, an innovative method of determining a number of social problems in the world - social entrepreneurship activity is developing rapidly. Unfortunately, the current situation of social entrepreneurship, which is developing rapidly in the world, in our country is unsatisfactory. In this article, the current state of social entrepreneurship in Azerbaijan will be assessed, and development directions will be indicated.

***Key words**: social entrepreneurship, social enterprise, social welfare, business environment, employment, inclusion*

İNNOVASİYA FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

Abdullayeva Yeganə Telman qızı, Şəfiyeva Təranə İsgəndər qızı
Sumqayıt Dövlət Universiteti
yeganeabdullayeva31@mail.ru ; *tshefiyeva.1973@mail.ru*

***Xülasə:** Məqalədə innovasiya fəaliyyətinin milli iqtisadiyyatda rolu tədqiq edilmişdir. İnnovasiya fəaliyyətinin tənzimlənməsinin zəruriliyi əsaslandırılmış və bu sahədə dövlət siyasətinin əsas istiqamətləri araşdırılmışdır. İnnovasiya sferasının tənzimlənməsi subyektlərinin tərkibinin blok-sxemi təklif edilmişdir. İnnovasiya sferasının dövlət tənzimlənməsi üçün göstəricilər sistemi müəyyənləşdirilmişdir. İnnovasiya fəaliyyətini tənzimləmək üçün əsas istiqamətlər verilmişdir.*

***Açar sözlər:** innovasiya, innovasiya fəaliyyəti, dövlət tənzimlənməsi, istehsal, məhsul*

Hal-hazırda innovasiya terminin çox müxtəlif tərifləri var. Lakin əksər hallarda innovasiya yenilik proseslərinin son nəticəsi kimi müəyyən edilir. Başqa sözlə desək, bunlar istifadəyə hazır olan və hazır məhsul kimi bazarlarda yayılan ixtiralardır. Müəssisələrin təkcə sağ qalmasını deyil, həm də uğurunu təmin

etmək üçün idarəetmə qərarlarının axtarışı və tətbiqi uzunmüddətli strategiya əsasında daimi innovasiya axınına çevrilməlidir.

İnnovasiya fəaliyyətinin subyektləri bu fəaliyyət prosesində, yəni elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin başa çatdırılmasında və onların istehsalata tətbiqində, habelə elmi nailiyyətlərdən istifadədə və texnologiyaların transferində iştirak edən fiziki və hüquqi şəxslərdir. İnnovasiya fəaliyyətinin inkişafı üçün böyük elmi potensial lazımdır ki, bu potensial öz növbəsində sahibkarlığın inkişafı yolu ilə tətbiq edilir.

İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin məqsədi müasir ekoloji cəhətdən təmiz, təhlükəsiz, enerji və resursa qənaət edən texnologiyalara əsaslanan yeni rəqabətqabiliyyətli məhsulların istehsalının sürətləndirilmiş şəkildə yaradılmasını təmin edən hüquqi, iqtisadi, sosial, təşkilati və digər şərait yaratmaqdır ki, bu da iqtisadiyyatın inkişafı və respublika əhalisinin həyat şəraitinin yüksəldilməsi maraqlarına xidmət etməlidir. Fikrimizcə, bunun üçün ilk növbədə texnoloji boşluğu aradan qaldırmaq və istehsal olunan məhsulların rəqabət qabiliyyətini artırmaq lazımdır [1, s.48].

İnnovasiya sahəsini tənzimləmək üçün bir neçə subyekt blokunu ayırmaq olar:

• yerli özünüidarəetmə orqanları;
• innovasiya sahəsində sahibkarlıq subyektləri;
• innovativ müəssisə və təşkilatlar (şəkil 1).

Dövlət və özəl biznes arasında əməkdaşlığın yaradılması innovasiyaların gücləndirilməsi və ölkə iqtisadiyyatının inkişafının aktual problemlərinin həlli üçün ən mühüm istiqamətə çevrilir. Dövlət-özəl əməkdaşlıq mexanizminin əsasını dövlətin elmi təşkilatlarının, təhsil müəssisələrinin və özəl sənaye, maliyyə və elmi-innovativ biznesin birgə fəaliyyəti təşkil edir. Dövlət və özəl biznesin qarşılıqlı fəaliyyətinin səmərəli institutlarının inkişafı səmərəli iqtisadi siyasətin formalaşdırılması, investisiya və innovasiya fəallığının artırılması, ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsi, eləcə də sənaye və sosial infrastrukturun inkişafı üçün ən mühüm şərtlərdən biridir [2, s.366].

Şəkil 1. İnnovasiya sferasının tənzimlənməsi subyektlərinin tərkibi

İnnovasiyaları dəstəkləmək və stimullaşdırmaq üçün dövlət orqanlarının tənzimləyici, sosial, maliyyə və iqtisadi idarəetmə elementlərinin vəziyyətini onların dəyişiklik və əlavələrə ehtiyacı nəzərə alınaraq aydın şəkildə təhlil etmək lazımdır. Müvafiq qanunlar, fərmanlar, sərəncamlar, göstərişlər, müqavilələr, qaydalar, şəhadətnamələr, normalar, səlahiyyətlər, anlayışlar, məsuliyyət, lisenziyalaşdırma, sertifikatlaşdırma bu prosesdə məqsədə çatma dərəcəsini qiymətləndirməyə imkan verən göstəricilərə çevrilməlidir. Ümumilikdə innovasiyaların tənzimlənməsi sahəsində dövlət orqanlarının fəaliyyətinin reallaşdırılmasının yekun nəticəsinin qiymətləndirilməsi aşağıdakı göstəricilərə əsaslanmalıdır (şəkil 2).

İnnovasiya fəaliyyətinin reallaşdırılmasında intellektual resurslara xüsusi diqqət yetirilməlidir, çünki müasir şəraitdə onlar ən qiymətli məhsuldar resurslar kimi çıxış edir və onlardan fəal istifadə olunur, müasir tələblərə cavab verən müasir mal və xidmətlərin yaradılmasına yönəldilir.

Bilik iqtisadiyyatı şəraitində ölkənin davamlı iqtisadi artımı yalnız innovativ əsaslarla təmin edilə bilər. Müasir şəraitdə təsərrüfat subyektinin innovativ potensialı onun keyfiyyət vəziyyətinin hərtərəfli

qiymətləndirilməsi kimi başa düşülür ki, bu da resurs intensivliyinin azaldılması və istehsal zəncirinin intellektuallaşdırılması meyarlarına uyğun olaraq rəqabət üstünlüklərini təmin edəcəkdir.

Ümumiyyətlə, innovasiya fəaliyyətinin tənzimlənməsinin əsas alətləri aşağıdakılardan ibarət olmalıdır:

• iqtisadiyyatın real sektorunun əsas fondlarının, texnoloji zəncirlərinin və istehsal güclərinin yenilənməsi üçün məqsədli proqramlar;

• əqli mülkiyyət obyektlərinin monitorinqi, dəstəklənməsi və idarə edilməsi;

• ETT-nin prioritet inkişaf istiqamətləri əsasında inzibati və inzibati-iqtisadi yanaşmalar;

• intellektual potensialın və innovasiya təşəbbüsünün inkişafını təmin edən dolayı təsir üsulları;

• investisiya axınının tənzimlənməsi və milli iqtisadiyyatın mütərəqqi inkişaf istiqamətlərinin birbaşa büdcədən maliyyələşdirilməsi;

• innovasiya sahəsində dövlət-özəl tərəfdaşlıq mexanizminin inkişafı;

• innovasiya layihələri və regional proqramlar üçün dövlət subsidiyaları və zəmanətləri;

• iqtisadiyyatın real sektorunda innovasiya fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş alətlər;

• texnoparklar və biznes inkubatorlar əsasında konsaltinq xidmətlərinin inkişafı;

• innovasiya sferasında biznes strukturlarının inkişafı üçün əlverişli şəraitin yaradılması;

• milli tədqiqat universitetlərinin, biznes qurumlarının və regional hökumətlərin qarşılıqlı əlaqəsi üçün şəbəkə korporativ strukturlarının formalaşdırılması [3, s.136].

Maliyyə-iqtisadi	Maliyyə (iqtisadiyyat)	1. Büdcə gəlirləri, ev təsərrüfatlarının gəlirləri, biznes gəlirləri. 2. Əsas fondların yığılması və yenilənməsi. 3. Regionun ixrac və idxal göstəriciləri. 4. Məhsulun keyfiyyəti və sənaye sahələrində xərclərin səviyyəsi. 5. Ölkənin investisiyaları və ticarət dövriyyəsi və s.
Normativ-hüquqi	Ölkənin innovativ aktiv mühiti	Qanunlar, sərəncamlar, fərmanlar, əsasnamələr, təlimatlar, müqavilələr, qaydalar, konsepsiyalar, sertifikatlar, standartlaşdırma, lisenziyalaşdırma, normalar, səlahiyyətlər, vəzifələr və s.
İnstitusional-təşkilati	Ölkənin innovativ biznes prosesləri	1. Ölkənin innovasiya fəaliyyətini yaradan, tənzimləyən və birbaşa iştirak edən qurumların olması. 2. Ölkənin innovativ fəal subyektlərinin sayı. 4. İnnovativ məhsulların sayı
Sosial	Ölkənin bacarıqları	1. İstehsal bacarıqları. 2. Bilik bacarıqları. 3. Rabitə əlaqələri qurmaq bacarıqları. 4. Effektiv idarəetmə bacarıqları 5. Əməkdaşlıq bacarıqları. 6. Həyata dəstək bacarıqları.

Şəkil 2. İnnovasiya sferasının dövlət tənzimlənməsi üçün göstəricilər sistemi

İnnovasiya fəaliyyətinin tənzimlənməsi sisteminin hazırlanması və tətbiqi zamanı sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün investisiya axını istiqamətində prioritetlərin müəyyənləşdirilməsindən ibarət olan bütün mərhələlərdə idarəetmə qərarlarının səmərəliliyinin qiymətləndirilməsi vacibdir. Mühüm addım innovasiya fəaliyyətinin monitorinqi və stimullaşdırılması və dövlət-özəl tərəfdaşlıq mexanizmindən istifadənin tənzimlənməsidir ki, bu da ölkə üçün sosial-iqtisadi problemlərin həlli baxımından biznesin sosial məsuliyyət dərəcəsini artırmağa imkan verir.

Ədəbiyyat

1. Орозалиева, А. С. Сущность инновационной деятельности и ее значение в государстве / А. С. Орозалиева, С. Ш. Омуралиева // Ежеквартальный научно-информационный журнал "Экономический вестник". – 2019. – № 2. – С. 47-50

2. Карамова, О. В. Внедрение управленческих инноваций. Роль и значение инноваций в организации управления предприятием / О. В. Карамова, Э. Т. Мамедов // Аллея науки. – 2020. – Т. 1. – № 5(44). – С. 365-371

3. Качура, К. И. Проблемы развития инструментов регулирования инновационной деятельности региональных социально-экономических систем / К. И. Качура // Ученые записки Санкт-Петербургского университета управления и экономики. – 2014. – № 4(48). – С. 131-136

Резюме

Абдуллаева Е.Т., Шафиева Т.И.

Направления регулирования инновационной деятельности

В статье исследована роль инновационной деятельности в национальной экономике. Обоснована необходимость регулирования инновационной деятельности и рассмотрены основные направления государственной политики в этой сфере. Предложена блок-схема состава субъектов регулирования инновационной сферы. Определена система показателей государственного регулирования инновационной сферы. Приведены основные направления регулирования инновационной деятельности.

Ключевые слова: *инновации, инновационная деятельность, государственное регулирование, производство, продукт*

Summary

Abdullayeva Y.T., Shafiyeva T.I.

Directions of Regulation of Innovation Activity

The article examines the role of innovation in the national economy. The necessity of regulation of innovation activity is substantiated and the main directions of state policy in this area are considered. A block diagram of the composition of the subjects of regulation of the innovation sphere is proposed. The system of indicators of state regulation of the innovation sphere is defined. The main directions of innovation activity regulation are given.

Key words: *innovations, innovation activity, state regulation, production, product*

BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRDƏ KREATİV İQTİSADİYYATIN YERİ VƏ ROLU

Dadaşova Jalə Bayram qızı

Milli Aviasiya Akademiyası

j.ala@inbox.ru

Xülasə: *Məqalədə kreativ iqtisadiyyatın tətbiqi istiqamətləri və onun beynəlxalq iqtisadi münasibətlərin formalaşmasına təsiri, dünya ölkələrinin inkişafına təsirinin əsas aspektləri təhlil edilir. Kreativ iqtisadiyyatın inkişafı ilə bağlı dünyada baş verən dəyişikliklər, məhz bu dəyişikliklərin dünya təsərrüfatına təsiri araşdırılır. Yaradıcı iqtisadiyyatın nailiyyətlərinin səviyyəsini və onun ayrı-ayrı ölkələrin təhlükəsizliyi ilə əlaqəsini qiymətləndirmək üçün göstəricilərin və amillərin xülasəsi hazırlanıb təhlil edilir. Həmçinin, kreativ iqtisadiyyatın inkişaf etməkdə olan ölkələrdə inkişafı haqqında, qısa da olsa, məlumat verilir.*

Açar sözlər*: kreativ iqtisadiyyat, innovasiya indeksi, təhsil indeksi, insan inkişaf indeksi*

XXI əsrin əvvəllərində iqtisadiyyatda baş verən köklü dəyişikliklər istehsal resurslarında informasiyanın da xüsusi yer alması zaman ötdükcə özünü daha çox göstərir. Bu proses, əlbəttə ki, kifayət qədər uzun dövrü əhatə edir. Bu gün informasiya cəmiyyəti dövrünün ardı kimi hətta təkmilləşmiş informasiya iqtisadiyyatı kimi biz “kreativ iqtisadiyyat” termini ilə rastlaşırıq. “Kreativ iqtisadiyyat” sanki” “gələcək nəsil” iqtisadiyyatıdır. Məhz bu iqtisadiyyat innovasiyalara, yeniliklərə və yaradıcı məhsullara, xidmətlərə əsaslanan iqtisadiyyatdır. Məlum olduğu kimi insan təxəyyülü mürəkkəb olduğu üçün istehlakçı təxəyyülünü də təəccübləndirmək elə də asand iş deyil.

İndi kreativ iqtisadiyyat sabit iqtisadi vəziyyətə və vətəndaşların yüksək həyat səviyyəsinə malik inkişaf etmiş ölkələrdə (ABŞ, Qərbi Avropa) tam şəkildə mövcuddur. Silikon Vadisinin yerləşdiyi və istehsal institutunun inkişaf etdiyi ABŞ-ı əminliklə bu hərəkatın lokomotivi adlandırmaq olar. Amma Asiya ölkələri də tədricən yaradıcı iqtisadiyyata cəlb olunur. Müəyyən dərəcədə yaradıcı iqtisadiyyat demək olar ki, həmişə mövcud olub: insanlar ideyalarını - ixtiralar, şerlər və ya sadəcə olaraq cari hadisələrə öz baxışları şəklində həyata keçirən istedadlı "yaradıcılar "öz fəaliyyətlərindən vaxtaşırı pul qazanmağa nail olublar. Amma kreativ iqtisadiyyat sistemli inkişafa və öz bazarının formalaşmasına yalnız son 10-15 ildə gəlib. 2000-ci illərin əvvəllərindən bu günə qədər yaradıcı xidmətlərin (reklam, məhsul inkişafı, musiqi sənayesi və s.) artım tempi hər il 17% təşkil etmişdir.

Təsadüfi deyildir ki, Birləşmiş Millətlər Təşkilatı da 2021-ci ili Davamlı İnkişaf üçün Yaradıcı İqtisadiyyatın Beynəlxalq İli elan edib.[1]

2021-ci ildə vençur kapitalı investorları yaradıcılıq işinə yönəlmiş 50 startapa ümumilikdə 2 milyard dollardan çox sərmayə qoyublar. Influencer Marketing Hub-ın məlumatına görə, qlobal yaradıcı sənaye bazarı hazırda təxminən 104,2 milyard dollar dəyərindədir. 2024-cü ilə qədər qlobal yaradıcı iqtisadiyyat 1 trilyon dolları keçə bilər.[2]

Ölkələrdə kreativ iqtisadiyyatın inkişaf dərəcəsi tədqiqat və təcrübə-konstruktor işlərinə çəkilən xərclərlə müəyyən edilir. Yaradıcı iqtisadiyyatın səviyyəsinin çox yüksək olduğu ABŞ-da bu istiqamətdə maliyyələşmə sistemli şəkildə aparılır və daim artır. Bu cür investisiyalar əhəmiyyətli dərəcədə biznes təşkilatları tərəfindən, daha az dərəcədə dövlət tərəfindən üstünlük təşkil edir. Gəlirlər daha çox yaradıcı məhsuldarlığın artmasında, verilən beynəlxalq patentlərin artmasında və ümumiyyətlə, yaradıcı iqtisadiyyatda işləyən mütəxəssislərin sayının davamlı artmasında daha çox nəzərə çarpır.

Cədvəl 1.

2021 ci ildə Dünya ölkələri üzrə təhsil indeksi

1	Avstraliya	0,939
2	Danimarka	0,923
3	Yeni Zelandiya	0,917
4	Norveç	0,916
5	Almaniya	0,914
6	İrlandiya	0,910
7	İslandiya	0,906
8	ABŞ	0,900
9	Hollandiya	0,897
10	Böyük Britaniya	0,896

Mənbə:*https://unctad.org[3]*

Cədvəl məlumatlarına baxdıqda aydın şəkildə görmək olur ki, ilk yerləri məhz Avstraliya , Danimarka, Yeni Zenlandiya tutur. Sonrakı yerləri Avropa ölkələri, Yaponiya, MDB ölkələri tutur. Mərkəzi Afrika ölkələrində təhsil səviyyəsi çox aşağı müşahidə edilir. Sosial inkişafın aşağı səviyyədə olması bunun əsas səbəblərindəndir, çünki bu ölkələrdə dövlətin dəstəyi çox aşağı səviyyədədir.

"Kreativ iqtisadiyyat" dan danişan zaman mütləq Qlobal innovasiya indeksini də təhlil etmək lazım gəlir. Çünki məhz bu göstərici ölkələrin inkişafında əsas indeks kimi qəbul edilir.

Cədvəl 2.

2021- ci ildə Dünya ölkələri üzrə Qlobal innovasiya indeksi

1	İsveçrə	65,5
2	İsveç	63,1
3	Amerika	61,3
4	Cənubi Koreya	59,3
5	Niderland	58,6
6	Finlandiya	58,4
7	Sinqapur	57,8
8	Almaniya	57,3
9	Fransa	55
10	Çin	54,8

Mənbə: *https://www.theglobaleconomy.com/rankings/gii_index[4]*

Biliyə əsaslanan iqtisadiyyatın nəzərə alınmalı ilk elementi təhsil indeksidir. Təhsil İndeksi Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNDP) mürəkkəb indeksidir. Bu, sosial inkişafın əsas göstəricilərindən biridir. Məhz aşağıdakı cədvəldə insan inkişaf indeksinin ölkələr üzrə paylanması göstərilmişdir.

2021-ci il üçün 132 ölkə üzrə orta göstərici 34,3 bal təşkil edib. Ən yüksək göstərici İsveçrədə: 65,5 bal, ən aşağı göstərici isə Anqolada olub: 15 bal.

Qlobal İnnovasiya İndeksi müxtəlif iqtisadi inkişaf səviyyələrində olan dünya ölkələrinin innovativ inkişafını təfərrüatlandıran 82 müxtəlif dəyişəndən ibarətdir. Tədqiqatın müəllifləri hesab edirlər ki, iqtisadiyyatın uğuru həm innovativ potensialın mövcudluğu, həm də onun həyata keçirilməsi şərtləri ilə bağlıdır.

Düzgün istifadə edildikdə kreativ sənaye bir çox inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarını çox məşhur olan bilik iqtisadiyyatına sıçrayış etmək üçün vasitə ola bilər. Bu, bir çox digər faydalar arasında iqtisadi transformasiya, iş yerlərinin yaradılması və davamlı insan inkişafı mənbəyi kimi qəbul edilir. Qeyd etdiyimiz kimi, dünyanın bir çox böyük iqtisadiyyatları artıq əsrlər boyu yaradıcı sənayenin dəyərini açmaqda üstünlük təşkil edirlər. Onlar musiqi, film və televiziya, çap mediası və son zamanlar sosial media kimi kreativ iqtisadiyyat sektorları vasitəsilə öz mədəniyyətlərini satıb dünyaya hakim ola biliblər və bununla əlaqədar ÜDM-lərini artırmağa nail olublar. Beləliklə, inkişaf etməkdə olan iqtisadiyyatlar öz dəyərlərini reallaşdırmaq və iqtisadi inkişafa sahib olmaq üçün kreativ sənayeni turizm, kənd təsərrüfatı, mədənçıxarma və s. kimi digər ənənəvi sənayelərlə yaradıcı şəkildə kombinə edə bilərlər. Məhz bunu əsaslı şəkildə həyata keçirmək üçün dövlətlərin sərmayə qoymasına, sənayenin inkişafını dəstəkləməyə ehtiyac vardır.

Ədəbiyyat

1. www.researchgate.net/publication
2. www-developmentaid-org
3. unctad.org
4. https://www.theglobaleconomy.com/rankings/gii_index/

Резюме

Дадашева Ж.Б.

Место и роль креативной экономики в международных экономических отношениях

В статье проанализированы направления применения креативной экономики и ее влияние на формирование международных экономических отношений, основные аспекты ее влияния на развитие стран мира. Происходящие в мире изменения, связанные с развитием креативной экономики, оказывают влияние на мировую экономику. Автором разработана и проанализирована сводка показателей и факторов для оценки уровня достижений креативной экономики и ее взаимосвязи с безопасностью отдельных стран. Также дама краткая информация о развитии креативной экономики в развивающихся странах.

***Ключевые слова**: креативная экономика, инновационный индекс, индекс образования, индекс человеческого развития*

Summary

Dadashova J.B.

Place and role of creative economy in international economic relations

In the article the directions of application of creative economy and its influence on the formation of international economic relations, the main aspects of its influence on the development of the countries of the world were analyzed. The changes occurring in the world related to the development of the creative economy, the impact of these changes on the world economy was investigated. A summary of indicators and factors was developed and analyzed to assess the level of achievement of the creative economy and its relationship with the security of individual countries. Also, brief information about the development of the creative economy in developing countries was given.

***Key words**: creative economy, innovation index, education index, human development index*

AZƏRBAYCANDA REGİONLARARASI BƏRABƏRSİZİLİYİN AZALDILMASININ İNVESTİSİYA ASPEKTLƏRİ

Əhmədov Bağış Sabir oğlu
UNEC
bahmadov@gmail.com

Xülasə: *Məqalədə regional inkişafın nəzəri və praktiki aspektlərinə baxılır. Bazar qüvvələrinin regional bərabərsizliyi artırdığı və insanların regionlarda iqtisadi nemətlərə bərabər çıxışının təmin edilməsinin dövlətin regional siyasətindən asılı olduğu müəyyən edilir. Azərbaycanda investisiya qoyuluşlarının əsas hissəsi Bakı şəhərinin payına düşmüş, iqtisadi rayonlarda investisiya fəallığı əsasən dövlət büdcəsi hesabına təmin edilmişdir. Buna görə də, regional bərabərsizliyin azaldılması üçün hökumət geridə qalmış regionlarda istehlakın və investisiyanın həcminin artırılması üçün tədbirləri davam etdirməlidir.*

Açar sözlər: *regional inkişaf, investisiya qoyuluşları, dövlət siyasəti*

Giriş. Ölkədə resursların coğrafi bölgüsü və regionların inkişaf potensialı tarixən formalaşmış fiziki və insan kapitalının həcmindən, torpağın münbitliyindən, əsas istehsal və istehlak mərkəzlərinə yaxınlıqdan əhəmiyyətli dərəcədə asılıdır. Bu baxımdan, məkan iqtisadi sitemin fəaliyyətinin səmərəlilyinə təsir göstərir.

Azərbaycanda da iqtisadi inkişaf səviyyəsinə görə regionlar bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, 2021-ci ildə ölkə ərazisinin 2,5%-ni təşkil edən və əhalinin 22,7%-nin yaşadığı Bakı şəhərinin ümumi məhsulda payı 71,8%-ə, muzdlu işçilərin sayında payı 51,3%-ə, əhalinin gəlirlərində payı 58,8%-ə bərabər olmuşdur. Xüsusilə, qeyd edilən ildə Bakı şəhərinin şlkədə ticartdə payı 59,7%-ə, nəqliyyat və anbar təsərrüfatında payı 96,7%-ə bərabər olmuşdur ki, bunlar da ölkədə iqtisadi fəallığın əsas mərkəzinin Bakı şəhəri olaraq qaldığını göstərir.

Azərbaycanda regionların iqtisadi inkişaf səviyyələrinin qeyri-bərabər olması və bu bərabərsizliyin azaldılmasının maliyələşdirlməsi imkanlarının mövcudluğu regional siyasətin formalaşdırılması və reallaşdırılmasını əhəmiyyətli edir. Bu sahədə qoyulmuş inkişaf hədflərinə nail olunması regionlarda həyata keçrilən investisiya qoyuluşlarının həcmindən birbaşa asılıdır. Belə ki, milli iqtisadiyyatın struktur baxımından yenidən qurulması, məşğulluq və gəlirlərin səviyyəsinin artırılması və s. bu kimi məsələlər investisiya prosesində həll edilir. Xüsusilə, kifayət qədər sübutlar mövcuddur ki, investisiya uzunmüddətli iqtisadi artımın ən vacib determinantlarından biridir (1).

Nəzəri yanaşmalar. Neoklassik nəzəriyyəyə əsasən regionda investisiyanın həcmi və işçi qüvvəsinin sayı artdıqca, onların son həddməhsuldarlığı azalır. Bu amil nəticəsində mobil iqtisadi resursların inkişaf etmiş regionlardan geridə qalmış regionlara hərəkəti regionlararası inkişaf səviyyələrinin yaxınlaşmasına səbəb olur. R.Barro və X.Salaimartinə görə, resursların regionlararası mobilliyi ölkələrarası mobilliyinə nisbətən yüksək olduğundan, inkişaf səviyyələrinə görə regionlararası yaxınlaşma ölkələrarası yaxınlaşmaya nisbətən daha asan baş verir (2). Bununla belə, neoklassik modellərdə nə məkan quruluşunun, nə də tarixi hadisələrin regionun ikişafına təsiri nəzərə alınmır (9, s.115). Q.Mürdal və P.Kruqman qeyd edirlər ki, bazarda qüvvələrin oyunu normal halda regionlararası bərabərsizliyi azaltmaq əvəzinə, artırmağa meyllidir (6, 10). D.Harviyə görə, xüsusi institusional qaydalar qeyri-bərabərliyi vaxtaşırı azalda və ya artıra bilər, lakin qeyri-bərabər inkişaf olmasaydı, kapitalın həcmində durğunluq yaranardı (3). Bütövlükdə, miqyasdan qənaət, biliklərin yayılması və digər amillər inkişaf etmiş regionların investisiya cəlbediciliyini yüksəldir. Nəticədə, geridə qalmış regionlardan inkişaf etmiş regionlara iqtisadi resursların axını baş verir (10). P.Kruqman qeyd edir ki, böyük regionlarda daxili bazarın nisbətən böyük olması yerli məhsulların əhəmiyyətli hissəsinin daxili bazarda satılmasına və daha çox sayda məhsul istehsalı isə daha az idxala səbəb olmaqla nəqliyyat xərclərini azaldır, nəticədə istehsal xərcləri və qiymətin səviyyəsi kiçik regionlara nisbətən aşağı olur (7). Məsələn, İqtisadi İnkişaf və Əməkdaşılıq Təşkilatının (İİƏT) üzvü olan ölkələrdə 2000-2018-ci illərdə adambaşına düşən ümumi daxili məhsula görə (ÜDM) iri regionlar arasında bərabrsizlik azaldığı halda, kiçik regionlar arasında bərabərsizlik artmışdır (şəkil 1)

Şəkil 1-də İİƏT-in üzvü olan ölkələrin iri və kiçik regionlarda adambaşına düşən ÜDM-ə görə Teyil indeksi (TI) aşağıdakı düsturla hesablanır (11, s.176):

$$TI = \frac{1}{N}\sum_{i=1}^{N}\frac{y_i}{\bar{y}}\ln\left(\frac{y_i}{\bar{y}}\right) \quad (1)$$

Burada, N – regionların sayı, y_i – i-ci regionda bərabərsizlik meyarı olan dəyişən, $\bar{y}$ – y_i-nin orta göstəricisi. Bu indeks 0-dan sonsuzluğa qədər artır və 0 bərabərliyi, onun artımı isə bərabərsizliyin artımını göstərir. Qeyd edilənlərlə yanaşı, İİƏT-in üzvü olan ölkələrdə iri şəhərlərə yaxın regionlarda adambaşına

düşən ÜDM-in artım tempi kiçik şəhərlərə yaxın olan və ya şəhərlərdən uzaq kiçik regionlara nisbətən əhəmiyyətli dərəcədə yüksək olmuşdur (12, s. 55).

Şəkil 1. İİƏT-in üzvü olan ölkələrdə adambaşına düşən ÜDM-ə görə regionlarası bərabərsizlik üzrə Teyil indeksinin dinamikası (12, s. 55)

Ölkə daxilində bir regionun üstün inkişafı burada istehsalın təmərküzləşməsinə səbəb olur ki, bunun da əsas səbəblərindən biri inkişafın özü olur. Belə ki, firmalar mənfəətlərini, ev təsərrüfatlatları isə gəlirlərini və faydalarını maksimumlaşdırmaq üçün yerləşmə yerlərini seçirlər (5, s.135). E.Huuvə, M.Veber və digərlərinə görə, firmalar istehsalı xərclərini minimumlaşdırmağa, bazarlara çıxış imkanlarını yaxşılaşdırmağa və nəticədə, mənfəətlərini maksimallaşdırmağa imkan verən ərazilərdə yerləşirlər (4).

Beləliklə, bazar qüvvələri, xüsusilə iqtisadi inkişafın aşağı səviyyəsində inkişaf səviyyəsinə görə regionlararası bərabərsizliyi artırır. Belə halda, regional bərabərsizliyin azaldılması dövlət tənzimlənməsi vasitəsilə mümükün olur. Bununla yanaşı, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına və innovativ inkişafa diqqətin yönəldilməsi mərkəzləşməyə və geridə qalmış regionların yaranmasına, nəticədə də məkan baxımından ədalətsizliyin yaranmasına səbəb olur (13, s.2). Belə halda iqtisadi artım rifah və həyatdan məmnunluğun yüksəlməsi ilə bağlı məqsəddən kənarlaşır. Bu baxımdan, insanların rifahı və onların regionlardan asılı olmadan iqtisadi nemətlərə bərabər çıxışının təmin edilməsi regional iqtisadi siyasətin əsas konsepsiyası kimi qəbul edilə bilər. Məkan baxımından ədalətin təmin edilməsi iqtisadi sahə ilə yanaşı, sosial və ekoloji aspektləri də əhatə edir. Qeyd edilən məqsədlərə nail olunması isə dövlətin iqtisadi siyasətindən, xüsusilə investisiya siyasətindən asılı olur. Bu siyasətin əsas alətlərindən biri gəlirlərin geri qalmış regionlarda istehlak və investisiyanın artırılması üçün yenidən bölüşdürülməsidir. Bununla bu tədbirlərin birbaşa və dolayl təsirləri fərqli ola bilər. Məsələn, U.Valza görə, regionlararası nəqliyyatın inkişaf etdirilməsi inkişaf etmiş regionlardan məhsulların nəqli xərclərinin azalması hesabına geridə qalmış regionlarda yerli istehsalın həcminə mənfi təsir edə bilər (14).

Azərbaycanda regionların inkişaf səviyyəsi və regional siyasət. 2020-ci ildə ölkədə ÜDM 2000-ci ilə nisbətən 4,4 dəfə artmış, bu dövrdə orta illik artım tempi isə 7,7 faizə bərabər olmuşdur. Azərbaycanda 2020-ci ildə ÜDM-in 2000-ci ilə nisbətən artımı dünya üzrə orta göstəricidən 2,1 dəfə, inkişaf etmiş ölkələr üzrə göstəricidən 3,1 dəfə, inkişaf etməkdə olan ölkələr üzrə göstəricidən isə 1,5 dəfə yüksək olmuşdur (16). 2000-2021-ci illərdə ölkədə qənaət norması 24,7%-lə 55% arasında dəyişmişdir. 2000-2020-ci illərdə Dövlət Neft Fonduna 164,9 mlrd. ABŞ dolları məbləğində vəsait daxil olmuşdur ki, bu da milli iqtisadiyyatın maliyyələşdirilməsinin əsas mənbəyi olmuşdur (17).

Azərbaycanda 2004-cü ildən başlayaraq regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etmək, əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, infrastrukturu yeniləşdirmək, əlverişli investisiya mühiti yaratmaq istiqamətində tədbirlər nəzərdə tutan regional inkişaf proqramları həyata keçirilmişdir. Bu məqəsdlərə nail olunması üçün regionlarda sosial, istehsal və instusional infrastrukturun inkişaf etdirilməsi dövlət büdcəsində investisiya qoyuluşları həyata keçirilmişdir.

Şəkil 2-dən göründüyü kimi, adambaşına buraxılışa (qırmzı xətt) görə regionlararası bərabrəsizlik (sağ şağuli şua) digərlərinə nisbətən (sol şaqulu şua) yüksək olmuşdur. Belə hal ölkədə neft və qaz hasilatının Bakı şəhərində yerləşməsi ilə əlaqədar olmuşdur. Bununla yanaşı, bu göstərici üzrə Bakı şəhəri daxil edilmədən reagionlar arası bərabərsizlik əhəmiyyətli dərəcədə aşağı olmuşdur. Bununla yanaşı, Bakı şəhərində əhalinin adambaşına gəlirləri digər regionlara nisbətən yüksəkdir. Bakı şəhəri nəzərə alınmadandigər iqtisadi rayonlar üzrə adambaşına gəlirlərdə fərq kiçikdir.

Şəkil 2. Adambaşına məhsul buraxılışı və əhalinin adambaşına gəlirlərinə görə Teyil indeksinin dinamikası (18)

Şəkil 3. İqtisadi rayonlarda (Bakı şəhəri daxil edilmədən) əsas kapitala investisiya qoyuluşlarının artım dinamikası (2003=1) (18)

Şəkil 3-dən göründüyü kimi 2021-ci ildə əsas kapitala investisiya qoyuluşları 2003-cü ilə nisbətən 45,4 dəfə artmışdır. Qeyd edilən dövrdə Bakı şəhərinə nisbən digər iqtisadi regionlarda əsas kapitala investisiya qoyuluşlarının artımı Bakı şəhərindəki artımı təqribən 11 dəfə üstələmişdir. Bunula belə, 2003-cu ildə əsas kapitala investisiya qoyuluşlarında iqtisadi rayonların payının kiçik olması yüksək artım tempinin iqtisadi təsirlərinin məhdud olmasına səbəb olmuşdur (şəkil 4).

Şəkil 4. Əsas kapitala investisiya qoyuluşlarının regional strukturu (%-lə) (18)

Şəkil 4-dən göründüyü kimi, əsas kapitala investisiya qoyuluşunda iqtisadi rayonların payı 2003-cü ildə 5,5%-dən 2021-ci ildə 39,3%-ə qədər armışdır. İqtisadi rayonların payının artması əsasən dövlət büdcəsindən həyata keçrilən investisiyalar hesabına təmin edilmişdir. Belə ki, 2016-cı ildə itisadi rayonlara

qoyulan investisiyanın 70,9%-i, 2017-ci ildə 62,9%-i, 2018-ci ildə 62,3%-i, 2019-cu ildə 57,1%-i, 2020-ci ildə 72,4%-i, 2021-ci ildə 65,4%-i dövlət mülkiyyətinin payına düşmüşdür.

Regional inkişafın təmin edilməsi yollarından biri tələbin həcminə təsir göstərməkdir. Bu halda hökumət tərəfindən gəlirlərin geridə qalmış regionların xeyrinə yenidən bölgüsü və bu regionlara iri həcmli investisiya qoyuluşları həyata keçirilir. İkincisi, geridə qalmış regionlarda istehsal-təsərrüfat faəliyytəinin stimullaşdırılması üçün güzəştlər və subsidiyalar verilir ki, bu da həmin regionların investisiya cəlbediciliyini artırır. Qeyd edilənlərlə yanaşı, firmaların istehsalın yerləşməsi ilə bağlı qərarlarına regionda işçilərin ixtisas səviyyəsi, bazarın həcmi, infrastrukturanın inkişaf səviyyəsi və digər bu kimi uzunmüddətli təsirə malik amillər daha çox təsir göstərir. Buna görə də, dövlətin regional siyasətinin əsasında qeyd edilən tədbirlərlə yanaşı, geridə qalmış regionlarda fiziki və insan kapitalının artırılmasına yönəldilən tədbirlər də əhəmiyyətli yer tutmalıdır

Ədəbiyyat

1. Barro R.J. Economic growth in a cross section of countries // Quarterly Journal of Economics, 106(2), 1991, p. 407-443.
2. Barro Robert J., Xavier Sala-i-Martin. Economic growth. Cambridge, MA: MIT Press. 1999.
3. Harvey David. The Limits to Capital. Oxford: Blackwell.,1982.
4. Hoover E.M. The location of economic activity. New York: McGraw-Hill, 1948.
5. Kim Sukkoo. Spatial inequality and economic development: Theories, facts, and policies. In M. Spence, P. C. Annez & R. M. Buckley (Eds.), Urbanization and growth. Commission on growth and development (pp. 1-45). Washington, DC: The World Bank, 2008.
6. Krugman P. A Model Of Balance-Of-Payments Crises // Journal of Money, Credit, and Banking, 1979. Vol. 11, No 3. pp. 311-325.
7. Krugman P. Increasing Returns and Economic Geography // Journal of Political Economy. 1991. Vol. 99, No 3. pp. 483-499.
8. Levine R., Renelt D. A sensitivity analysis of cross-country growth regressions // American Economic Review, 82(4), 1992, pp. 942-963.
9. Maier G. History, spatial structure, and regional growth: lessons for policy making. In: Johansson B., Karlsson C., Stough R.R. (eds), Theories of endogenous regional growth. New York: Springer, 2001.
10. Myrdal G. Economic theory and under-developed regions. N.Y.: Harper & Row, 1957.
11. OECD Regions at a Glance 2016. Paris: OECD Publishing, 2016.
12. OECD Regions and Cities at a Glance 2020. Paris: OECD Publishing, 2020.
13. Soja Edward. Seeking Spatial Justice. Minneapolis: University of Minnesota Press, 2010.
14. Walz U. Long-run effects of regional policy in an economic union // The annals of regional science, 1996, Vol.30, No. 2, pp.165-183.
15. Webber M.J. Industrial location., Beverly Hills, CA: Sage Publications, 1984.
16. https://www.imf.org/external/datamapper/NGDP_RPCH@WEO/OEMDC/ADVEC/WEOWORLD
17. https://www.oilfund.az/report-and-statistics/report-archive
18. https://www.stat.gov.az

Резюме

Ахмедов Б.С.

Инвестиционные аспекты снижения межрегионального неравенства в Азербайджане

В статье рассмотрены теоретические и практические аспекты регионального развития. Определено, что рыночные силы усиливают региональное неравенство, и обеспечение равного доступа людей к экономическим благам в регионах зависит от региональной политики государства. Основная часть инвестиций в Азербайджан приходилась на долю города Баку, инвестиционная деятельность в экономических районах обеспечивалась в основном за счет государственного бюджета. Поэтому для снижения регионального неравенства правительству следует продолжить меры по увеличению объемов потребления и инвестиций в отсталых регионах.

Ключевые слова: *региональное развитие, инвестиции, государственная политика*

Summary

Ahmedov B.S.

Investment Aspects of Reducing Inter-Regional Inequality in Azerbaijan

The article considers theoretical and practical aspects of regional development. It is determined that market forces increase regional inequality and ensuring equal access of people to economic benefits in the

regions depends on the state regional policy. The bulk of investments in Azerbaijan fell on the share of the city of Baku, investment activities in economic regions were provided mainly by the expenditure of the state budget. Therefore, in order to reduce regional inequality, the government should continue measures to increase consumption and investment in backward regions.

Key words: *regional development, investments, state policy*

İNNOVASİYA FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI

Əhmədova Təranə Mütəllim qızı
Sumqayıt Dövlət Universiteti
tarana.7474@mail.ru

Xülasə: *Məqalədə innovasiya fəaliyyətinin ölkənin inkişafında rolu tədqiq edilmiş və onun idarə edilməsi məsələləri şərh edilmişdir. Kadrların idarə edilməsi sahəsində innovasiyaların əsas istiqamətləri nəzərdən keçirilmişdir. İnnovasiya fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılmasının zəruriliyi əsaslandırılmış və bu sahədə dövlət tədbirləri sistemi araşdırılmışdır. İnnovasiya fəaliyyətinin inkişafına mane olan problemlərə toxunulmuş, onların aradan qaldırılması yolları tədqiq edilmişdir.*

Açar sözlər: *innovasiya, innovasiya fəaliyyəti, stimullaşdırma, kadrlar, müəssisə, texnologiya*

Müasir iqtisadi şəraitdə innovasiyalar sosial və iqtisadi inkişaf perspektivlərini müəyyən edən əsas amillərdən biridir. Ölkədə innovativ inkişaflar əsasında dayanıqlı iqtisadi artımın əsaslarının formalaşdırılması zərurəti son dərəcə aktualdır. Çünki innovativ fəaliyyət mövcud istehsal proseslərinin təkmilləşdirilməsi, bütün müəssisələrin səmərəliliyinin artırılması yolu ilə onların iqtisadi cəhətdən davamlı inkişafının formalaşdırılması mexanizmidir.

Bu gün dünyanı innovasiyasız təsəvvür etmək çox çətindir, çünki onların bir çoxu artıq vərdişə çevrilib və gələcəkdə təkamülə öz töhfəsini verəcək. İqtisadi və sosial inkişafda innovasiyalar əsas yerlərdən birini tutmağa başlamışdır. Şübhəsiz ki, innovasiyalarla bağlı fəaliyyətlər dünya birliyinin daha yüksək inkişaf səviyyəsinə çatmasına səbəb olmuşdur.

Hər il insanların ehtiyacları artır və onları ödəmək üçün yeni texnologiyalar, alətlər və üsullar meydana çıxır ki, bunları innovasiya adlandırmaq olar. İnnovasiyalar insanların bəzi gündəlik tələbatlarını, müəyyən iş mexanizmlərini sadələşdirməyə imkan verir, rahat yaşayışını təmin edir. İnnovasiya sözünün konkret tərifini vermək çətindir. Bu termini yeni ideyaların yaranması və ya yeni texnologiyaların tətbiqi kimi təsvir etmək olar. Həmçinin innovasiya insanlara yeni məhsul kimi təqdim olunan yeniliklər ola bilər. Lakin müasir dünyada innovasiya təkcə müxtəlif mal və xidmətlərin istehlak sferalarına aid deyil, insanların idarə olunmasında da tətbiq oluna bilər. Şirkətin uğuru birbaşa menecerin kadrları necə idarə etməsindən asılıdır, çünki kadrlar sistemin düzgün işləməsini təmin edir. Hal-hazırda idarəetmə sahəsində müxtəlif üsullar müasir dünyada mövcud olan resurslardan, yəni innovasiyalardan istifadə edilməsindən asılıdır. İnsan resursları təşkilatın ən vacib kapitalı olduğundan, müəssisədə innovativ idarəetmə sisteminin inkişafı onun idarə edilməsinin effektivliyinin ən əhəmiyyətli göstəricilərini əks etdirir.

Kadrların idarə edilməsi sahəsində innovasiyaların üç əsas istiqaməti var.

1. İnnovativ kadr marketinqi. Bu istiqamət təşkilatın kadr sahəsində yüksək ixtisaslı potensialını formalaşdırmaq məqsədi daşıyır.

2. İnnovativ texnoloji kadrların idarə edilməsi. Müasir texnologiyalardan istifadə ilə bağlı kadrlarla işin yeni üsullarını öyrənmək məqsədi daşıyır.

3. İnnovativ təhsil idarəetməsi. O, tədris prosesində mütəxəssis hazırlığı sahəsində yeniliklərə yönəlib. Burada kadrların idarə edilməsinin ənənəvi üsulları arxa plana keçir, cəmiyyət inkişaf etdikcə müxtəlif sahələr də zaman keçdikcə dəyişir, cəmiyyətlə birlikdə insanlar da dəyişir [1, s.22].

Həm elmi ictimaiyyətdə, həm də dövlət səviyyəsində aydın olur ki, ölkənin uzun və ortamüddətli perspektivdə bütün sosial-iqtisadi inkişafının perspektivləri innovativ dövlətin yaradılması istiqamətində cəmlənmişdir ki, bu da mövcud olan resursları səmərəli şəkildə tətbiq etməyə və yenilərini cəlb etməyə imkan verəcəkdir. Əsas məqsəd indiki şəraitdə şirkətlərin fəaliyyətinə stimullaşdırıcı innovativ fəaliyyətin müxtəlif formalarının təsirini qiymətləndirmək, habelə bu əsasda onun iqtisadiyyatının innovativ inkişafının imkanlarını və istiqamətlərini müəyyənləşdirməkdir.

Uğurlu innovativ fəaliyyət sayəsində sənayedə və regionda yeni yüksək ixtisaslı iş yerləri açılır, həm müəssisənin, həm də regionun imici yüksəlir [2, s.23]. Odur ki, innovasiya fəaliyyətinin stimullaşdırılması zəruridir.

İnnovasiya prosesinin uğuru həmin proses iştirakçılarının innovativ fəaliyyətin və ETİ-nin nəticələrinin istehsalata sürətlə tətbiq edilməsində nə dərəcədə maraqlı olmasından asılıdır. Bunu nəzərə alaraq, innovasiya prosesinin stimullaşdırılması daim təkcə maddi deyil, həm də ən yüksək səviyyədə tələbatların ödənilməsinə yönəlmiş qeyri-maddi (sosial-psixoloji) stimul formalarına əsaslanmalıdır. Belə şəraitdə kadrların innovasiya fəallığı yüksək olacaq ki, bu da müəssisənin innovativ imkanlarını genişləndirəcək. İnnovativ fəaliyyətin motivasiya mexanizminin hərəkətverici qüvvəsi məhz stimullaşdırma sistemidir.

İnnovasiya fəaliyyətinin stimullaşdırılması ölkəmizin aparıcı ölkələr arasında mövqeyini yaxşılaşdırılması və dünya bazarında mövqeyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır. Bütün innovasiya prosesinin əsas iştirakçıları iki kateqoriya subyektdir - dövlət və müəssisələr. Bununla belə, iqtisadi münasibətlərin bu subyektlərinin rolları fərqlidir, əgər korporasiyalar innovator, yüksək keyfiyyətli məhsul və ya konsaltinq xidmətinin yaradıcısı kimi çıxış edirlərsə, dövlət belə bir yeniliyə qarşılıqlı yardımı təmin etmək üçün tədbirlər görür.

Dövlət tərəfindən innovasiya fəaliyyətinin stimullaşdırılması iki istiqamətdə reallaşdırılır:

- birbaşa maliyyələşdirmə (qrantlar, subsidiyalar, nizamnamə kapitalına töhfələr, digər maliyyələşdirmə və kreditləşmə növləri və s.);
- dolayı stimulların tətbiqi (vergi, gömrük, sığorta güzəştləri, kredit zəmanətləri və s.).

Dövlət dəstəyi həm birbaşa, həm də dolayı stimulları əhatə edir. Birbaşa stimullaşdırma üsullarının məcmusu innovativ layihələrin maliyyələşdirilməsinin müxtəlif formalarından, üsullarından və növlərindən istifadəni, dolayı metodlar isə innovasiya yönümlü müəssisələrə gömrük və vergi güzəştlərinin verilməsini nəzərdə tutur [4, s.71].

Ölkənin iqtisadi artım tempi elmin nailiyyətlərindən və texniki inkişaf səviyyəsindən daha çox asılıdır. Bütün bunlar innovasiyaların inkişafı və tətbiqi ilə sıx bağlıdır. İnnovasiyanın inkişafı vergi güzəştləri sistemindən çox asılıdır. Vergitutma səviyyəsi ilə innovasiya fəaliyyəti arasında birbaşa əlaqə mövcuddur. Vergi güzəştləri innovasiyaları dəstəkləyir, özəl biznesdən investisiya cəlb etmək üçün şərait yaradır və məhsullara tələbi stimullaşdırır. Vergi sistemi elə qurulmalıdır ki, ölkə iqtisadiyyatının uğurlu fəaliyyət göstərməsi üçün innovativ fəaliyyətin inkişafına maneələr yaratmamalıdır. Belə ki, bu sistem innovasiyaları həm stimullaşdıra, həm də qarşısını ala bilər. Amma ümumilikdə demək olar ki, vergi güzəştlərinin verilməsi ölkənin və innovativ fəaliyyətlə məşğul olan subyektlərin innovativ inkişafını dəstəkləməyə, biznes nümayəndələrini maliyyə dəstəyində iştiraka cəlb etməyə kömək edə bilir.

Ümumiyyətlə, vergi güzəştlərinin bütün üsulları innovasiyada əlverişli iqlimin saxlanması üçün nəzərdə tutulmuşdur ki, bu da sonradan iqtisadiyyatın bütün innovasiya sektoruna yaxşı təsir göstərməlidir. Bununla belə, vergi güzəştləri sistemi və onun tətbiq etdiyi üsullar müxtəlif əlavə və təkmilləşdirmələrə ehtiyac duyur ki, bu da ölkədə innovativ fəaliyyətin daha uğurlu inkişafına töhfə verəcəkdir.

İnnovasiyanın inkişafına mane olan əsas amillər var ki, bunun qarşısını müvafiq vergi güzəştləri ilə almaq olar. Odur ki, vergi sistemi elə tənzimlənməlidir ki, innovasiyaların tətbiqinə maneələr yaratmasın və beləliklə, elmi tədqiqatların nəticələri təkcə tərtibatçılar üçün deyil, həm də bu nəticələrdən istifadə edəcək şəxslər üçün sərfəli ola bilər. Beləliklə, vergi güzəştlərinin istifadəsi üzrə hazırlanmış və tətbiq edilən sistem ölkəyə iqtisadi səmərə verə bilər.

Hazırda heç bir təşkilat innovativ texnologiyalar olmadan fəaliyyətini həyata keçirə bilməz. İnnovativ texnologiyaların iqtisadiyyatın və bütövlükdə cəmiyyətin inkişafı üçün yerinə yetirdiyi funksiyalar çoxdur. Əsas olanlar aşağıdakılardır:

- uzunmüddətli iqtisadi artımın əldə edilməsi. İnnovativ texnologiyalar həyatın istənilən sferasında cəmiyyətə, o cümlədən onun iqtisadi komponentinə güclü təsir göstərir;
- iqtisadiyyatda yeni sənaye sahələrinin yaradılması. Şübhəsiz ki, iqtisadiyyatda sonradan əsas və aparıcı sahələrə çevrilən yeni sənaye sahələrinin inkişafına töhfə verən radikal innovativ texnologiyaların tətbiqidir;
- vahid bazarın yaradılması. İnsanların bütün səylərini qloballaşmaya nail olmağa yönəltdiyi müasir cəmiyyətdə istənilən yeni innovativ texnologiyanın tətbiqi vahid bazarın yaradılmasına kömək edə bilər;
- dövlətin müdafiə qabiliyyətinin və təhlükəsizliyin gücləndirilməsi. Hakimiyyət orqanlarının əsas vəzifələrindən biri dövlətin və vətəndaşların təhlükəsizliyini təmin etməkdir.

İnnovativ texnologiyalar məhsul istehsal edən hər hansı hüquqi və ya fiziki şəxs üçün mənfəət əldə etməyə kömək edir ki, bu da aşağıdakılar hesabına mümkündür:

- iqtisadiyyatda innovasiyaların istifadəsi hesabına baş verən və istehsalda resurs sərfiyyatının həcmini azaltmağa imkan verən istehsal xərclərinin azaldılması;
- istehsal olunan malların və xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
- ixtisaslı işçilərin sayının artması;

- insanların müxtəlif tələbatlarının ödənilməsi;

- cəmiyyətin qlobal problemlərinin həlli. Hazırda bu problemlər müxtəlif dövlətlərin bir-biri ilə sıx qarşılıqlı əlaqəsinə yönəlmiş, informasiya və təcrübə mübadiləsinə əsaslanan yeniliklərin tətbiqi yolu ilə həll edilə bilər;

- vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması. Bu gün müxtəlif innovativ texnologiyaların inkişafı və gündəlik həyatımızda tətbiqi sayəsində bu vəzifələrin bir çoxu öz həllini tapır.

İnnovasiyaların istifadəsinin stimullaşdırılması tədqiqat və inkişafa təkan verir. Tədqiqat və inkişaf yalnız yeni ideyaların mənbəyi deyil, innovasiya prosesinin müxtəlif mərhələlərində tətbiqi problemlərinin həlli və ən son nəticənin əldə edilməsi vasitəsi kimi çıxış edir. İnkişafın indiki mərhələsində elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin kommersiyalaşdırılması əsasında yüksək texnologiyalı məhsulların yeni bazarlarını inkişaf etdirmək lazımdır. Belə bir problemin həlli innovativ sahibkarlıq subyektlərinin fəaliyyəti ilə təmin edilə bilər. Bu, dördüncü sənaye inqilabı şəraitində innovasiya prosesində əsas rol oynaması ilə izah olunur. İnnovativ sahibkarlıq subyektlərinə innovasiya prosesinin ən mühüm mərhələsinin, yəni innovasiyaların kommersiyalaşdırılması mərhələsinin həyata keçirilməsi funksiyası həvalə edilir [3]

İnnovasiya fəaliyyətinin stimullaşdırılmasının digər mühüm üsulu dövlət sifarişləridir. Dövlət sifarişləri vasitəsilə müəssisələrin məhsullarına ilkin tələbat təmin edilir.

Fəal innovativ fəaliyyətin uğurla reallaşdırılması məqsədilə müəssisələrin rəhbərliyi və dövlət kollektivdə yaradıcılıq, təşəbbüskarlıq və dinamizm mühitinin yaradılması və saxlanması, habelə işçiləri prosesdə iştiraka stimullaşdırmaq üçün mütəmadi olaraq bütün kompleks tədbirlər görülməlidir. Təşkilatın əsas resursunun - insanın bütün xüsusiyyətlərini nəzərə alan belə bir özünü inkişaf sistemi yaratmaq lazımdır. Yuxarıda göstərilən təkliflər innovasiyaların stimullaşdırılması strategiyasının həyata keçirilməsinin keyfiyyətini müəyyənləşdirmək məqsədilə gələcək elmi tədqiqatlar üçün əsasdır.

Ümumiyyətlə, ölkənin innovativ inkişaf səviyyəsini bu sahədəki göstəricilərdən görmək olar. Ölkəmizdə innovasiya fəaliyyətini xarakterizə edən bir sıra göstəricilərin bəzi ölkələrlə müqayisədə aşağı olmasına baxmayaraq, ölkə iqtisadiyyatının hazırkı şəraitində bu fəaliyyətin stimullaşdırılması istiqamətlərinin inkişafı üçün müəyyən potensial mövcuddur.

Ədəbiyyat

1. Абдулшехидова, Х. Э. Инновационные технологии в образовательном процессе / Х. Э. Абдулшехидова // Искусство - диалог культур: Сборник материалов VII международной научно-практической конференции, Грозный, 29–30 октября 2021. – С. 22-25

2. Гумерова, З. Ж. Проблемы активизации инновационной деятельности организаций / З. Ж. Гумерова // Менеджмент и маркетинг в различных сферах деятельности: Сборник научных трудов / Под редакцией И.Я. Рувенного. – Уфа: Уфимский государственный авиационный технический университет, 2021. – С. 18-23

3. Иванов, С. Л. Оценка состояния инновационного предпринимательства в регионе / С. Л. Иванов // Вопросы территориального развития. – 2022. – Т. 10. – № 1

4. Стимулирование развития инновационного предпринимательства в условиях глобализации / И. Г. Павленко, Э. У. Османова, С. Линьши, Н. П. Овчаренко // Вопросы региональной экономики. – 2018. – № 3(36). – С. 68-80

Резюме

Ахмедова Т.М.

Стимулирование инновационной деятельности

В статье изучена роль инновационной деятельности в развитии страны и прокомментированы вопросы управления ею. Рассмотрены основные направления инноваций в области управления персоналом. Обоснована необходимость стимулирования инновационной деятельности со стороны государства и исследована система государственных мер в этой сфере. Затронуты проблемы, сдерживающие развитие инновационной деятельности, и изучены пути их устранения.

Ключевые слова: *инновации, инновационная деятельность, стимулирование, персонал, предприятие, технология*

Summary
Ahmedova T.M.
Stimulation of Innovation Activity

The article studies the role of innovation activity in the development of the country and comments on the issues of its management. The main directions of innovations in the field of personnel management are considered. The necessity of stimulating innovation activity on the part of the state is substantiated and the system of state measures in this area is investigated. The problems hindering the development of innovative activity are touched upon, and ways to eliminate them are studied.

Key words: *innovations, innovation activity, stimulation, personnel, enterprise, technology*

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İNNOVASİYA PROBLEMİ VƏ HƏYATA KEÇİRİLƏN İNNOVASİYA LAYİHƏLƏRİNİN TƏHLİLİ

Əhmədzadə Cəlal Vüqar oğlu
Azərbaycan Beynəxalq Bankı Əməliyyat departamenti
Celal.ehmedzade99@gmail.com

Xülasə: *Azərbaycan dünya miqyasında sabit və sabit iqtisadiyyata malik olan dövlət və böyük maliyyə resursları ilə qlobal enerji təhlükəsizliyinin təmin edilməsində əsas geoiqtisadi və geosiyasi mövqe tutaraq strateji rol oynayır. Ölkəmiz həm regional, həm də beynəlxalq əməkdaşlıqlara mühüm töhfə verir, ölkəmizdə təşəbbüs və iştirakdan ötrü qlobal layihələrə uğurla imzalar atılır. Azərbaycanın sosial-iqtisadi inkişafının beş milli prioritetindən biri azad edilmiş ərazilərə Böyük Qayıdışdır. Ona görə də qələbə ilə başa çatmış 44 günlük ikinci Qarabağ müharibəsindən sonra dərhal həmin ərazilərdə bərpa və yaradıcılıq işlərinə başlanıldı. Məqalənin məqsədi azad edilmiş ərazilərdə həyata keçirilən innovativ layihələri təhlil etmək və potensial təsir imkanlarını qiymətləndirməkdir. Məqalədə ölkəmizin iqtisadi sistemində innovasiya fəaliyyətinin formalaşdırılmasının konseptual əsasları, habelə innovasiya münasibətlərinin mahiyyəti və xüsusiyyətləri, azad edilmiş ərazilərdə həyata keçirilən innovasiya layihələrinin sosial-iqtisadi təhlili və qiymətləndirilməsi nəzərdən keçirilir.*

Açar sözlər: *innovasiya, innovasiya layihələri, Ağıllı şəhər, Ağıllı kənd, Ağıllı kənd təsərrüfatı, texnoparklar, yaşıl enerji*

Giriş. İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da dövlət səviyyəsində innovasiya siyasətinin həyata keçirilməsinə böyük əhəmiyyət verilir. Qeyd edək ki, müasir innovasiya siyasəti müasir dövlətin sosial-iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla, elm, texnologiya, elmi-texniki nailiyyətlərin həyata keçirilməsi sahəsində hakimiyyət orqanlarının fəaliyyətinin məqsəd və istiqamətlərini və formalarını müəyyən edir. Müvafiq siyasətin əsasını elmi, texniki, həmçinin konseptual və hüquqi əsaslar təşkil edir. Bu əsasları inkişaf etdirərkən, əsaslı müddəalar texnoloji istiqamətlərini və proseslərini əsas elm sahələrində həyata keçirmək üçün tədbirləri əhatə etməlidir. Bununla yanaşı, elmi-texniki inkişafın stimullaşdırılması, elm və texnikanın inkişafının prioritet istiqamətlərinin seçilməsi, lisenziya və patent hüquqlarının, intellektual mülkiyyət hüquqlarının qorunması, elmi infrastrukturun yenilənməsi, elmi kadrların mövcud tələblər səviyyəsinə qaldırılması və s. sisteminin təkmilləşdirilməsi zəruridir.

Ümumiyyətlə, iqtisadi ədəbiyyatda dövlətin innovasiya siyasətinin əsas məqsədləri aşağıdakılardır: innovasiya üçün iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması, innovasiyaların təşviqinə, habelə bazar münasibətlərinin və innovasiya sahəsində sahibkarlığın inkişafına yardım göstərilməsi, innovasiyaya dövlət dəstəyinin genişləndirilməsi, innovasiyaların inkişafı üçün dövlət resurslarından istifadənin səmərəliliyinin artırılması və innovasiya potensialının artırılması. Yerli innovasiya məhsullarının beynəlxalq bazarlarda satılması və ölkənin ixrac potensialının inkişafı üzrə tədbirlərin həyata keçirilməsi və s. [1, s.33].

Müasir dövrdə strateji innovasiyaların modelləşdirilməsi, xüsusilə maliyyə təhlükəsizliyi və investisiyalarının cari problemlərinin həlli, müasir dövrün mühüm məsələləri kimi xarakterizə olunur. Buna görə də qlobal iqtisadi çağırışlar kontekstində innovasiya proseslərinin təşkili və strateji idarə olunması məsələləri vacibdir. Bu yanaşmalar arasında ilk növbədə, inkişaf etmiş ölkələrin innovasiya təcrübəsinə əsaslanan və milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini nəzərə alan optimal strateji innovasiya sisteminin yaradılması mühüm şərtdir. İnnovativ inkişaf prosesləri milli iqtisadi sistemin hərəkətverici qüvvəsi olmalı və ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması üçün əlavə potensial formalaşdırmalıdır. Bununla

bağlı dövlət tərəfindən innovasiya proseslərinin strateji aspektlərinin sistemli nəzərdən keçirilməsi məsələlərinə dair xüsusi yanaşmalar və strateji baxışlar nəzərdə tutulmalıdır [6, s.25].

Dövlətin investisiya siyasəti davamlı iqtisadi inkişafa, yeni iş yerlərinin yaradılmasına, yeni texnologiyalar əsasında sənayedə və kənd təsərrüfatında dərin struktur dəyişikliklərinə, bir sözlə, milli iqtisadiyyatın möhkəm əsasda formalaşması və inkişafına yönəldilməlidir [9].

Əsas hissə. Bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın inkişafı və bu inkişafın təbiətinə görə dayanıqlı olması üçün əlverişli şəraitin yaradılması əsasən müasir ölkənin innovasiya fəaliyyətindən və dövlətin innovasiya siyasətindən asılıdır. Müasir dövrdə hər bir ölkənin inkişafında investisiyaların rolu xüsusi əhəmiyyət kəsb edir. İnvestisiyalar ölkə iqtisadiyyatında təhlükəsiz iqtisadi artımı və rəqabət qabiliyyətini təmin edir, əhalinin həyat səviyyəsinin yüksəlməsinə zəmin yaradır. İnvestisiyaların artımını təmin etmək üçün bazar infrastrukturunu genişləndirmək və yaxşılaşdırmaq və iqtisadi artımı təmin etmək, iqtisadiyyatın prioritet sektorlarına investisiyalar yönəltmək, iqtisadiyyatın strukturunda elmi-intensiv sahələrin payını artırmaq lazımdır [7, s.40].

Azərbaycan dövləti 2022-2030-cu illəri əhatə edən postpandemik və postmüharibə dövründə keyfiyyətcə yeni olan strateji inkişaf mərhələsinə qədəm qoyur. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar sayəsində, iqtisadi artımın müasir və davamlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya oriyentasiyasının və maliyyə sabitliyinin daha da möhkəmləndirilməsi və ölkə iqtisadiyyatının dəyərinin yaradılması qlobal zəncirinə səmərəli inteqrasiya sayəsində Azərbaycan dövləti bu məqsəd üçün yeni məqsədlərə nail olmaq əzmində idi. Azərbaycan–2030: sosial-iqtisadi inkişafın milli prioritetləri, 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası işlənib hazırlanmışdır. Bu strategiyanın həyata keçirilməsi ölkə iqtisadiyyatının imicində 2026-cı ilin sonuna qədər böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri əsasında formalaşacaq, artım tempi xüsusilə prioritet sahələrdə sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun sabitliyi isə daha da möhkəmlənəcək. Özəl sektorun, o cümlədən mikro, kiçik və orta biznesin inkişafı yeni və daha effektiv stimullar və inkişaf mühiti hesabına sürətlənəcək, ölkə iqtisadiyyatında özəl və xarici investorların fəallığı artacaq, xammalın ixracı isə genişlənməyəcəkdir [3, s.8].

Əhalinin davamlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri şəraitin yaradılması ilə dəstəklənəcək. Təhlükəsizlik və infrastruktur sistemindən azad edilmiş rayonların tam əhatəsinə nail olunacaqdır. Qabaqcıl şəhərsalmaya aid normaları nəzərə alaraq, regionda yaşayış və qeyri-yaşayış kompleksləri tikiləcək, müasir infrastrukturu olan Ağıllı şəhər və Ağıllı kənd konsepsiyaları reallaşdırılacaqdır. Buna əsaslanaraq bütün region sosial-iqtisadi və mədəni infrastrukturla ən qabaqcıl standartlara uyğun şəkildə təchiz ediləcəkdir. Dövlət xidmətləri şəbəkəsi, xüsusilə də tullantıların idarə edilməsi üçün effektiv sistem yaradılacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticə olaraq ilkin stratejik mərhələ kimi əhalini təhlükəsiz, ləyaqətli və dayanıqlı şəkildə yerləşdirməyə nail olunacaqdır [4].

Məlum olduğu kimi, Azərbaycan dövlətinin son illər qarşıya qoyduğu məqsədlərdən biri də innovativ inkişafdır və bu məqsədə çatmaq üçün bəzi addımlar atılmışdır. Ümumiyyətlə, bir çox ölkələr və təşkilatlar yeniliklərlə bağlı strategiyaların inkişaf etdirilməsindən narahatdırlar. Bunun əsas səbəbləri qlobal rəqabətlə mübarizə aparmaq, iqtisadi cəhətdən inkişaf etmək və sosial rifahın artırılması qabiliyyəti kimi makro məqsədlərə nail olmaqdır. Ölkədə innovasiya layihələrinə daha çox üstünlük verilirsə, bu ölkədə insanların yaşayış şəraiti bir o qədər yüksəkdir. Qlobal İnnovasiya İndeksi hər il ölkələrin innovasiya imkanları əsasında hazırlanır.

Qlobal İnnovasiya İndeksi yalnız ölkələrin innovasiya imkanlarının üzə çıxarılması üçün deyil, həm də onların güclü və zəif tərəflərini innovasiya siyasəti və təcrübələri vasitəsilə aydın şəkildə nümayiş etdirmək üçün nəzərdə tutulmuşdur. 2021-ci ildə Azərbaycan Qlobal İnnovasiya indeksində 132 ölkə arasında 88,4-cü yeri tutub. Burada qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası yüksək və orta gəlirli qruplar sırasındadır.

Qlobal İnnovasiya Indeksi hesabatında Azərbaycan 2021-ci ildə 80-ci yeri tutub və son üç ildə 4-cü yerdə qərarlaşıb. Belə tərəqqinin əsas səbəbi ölkənin innovasiyalara çıxış sub-indeksi, yəni İnnovasiyalar üçün resursların bloklanması ilə təsnifləşdirilməsidir. Yaradıcı nailiyyətlər, biliklər və texnoloji nailiyyətlər də innovativ indeksə aid olan bloklardır.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Fərmanı Azərbaycanın sosial-iqtisadi inkişafının 5 əsas milli prioritetini 2030-cu ilə qədər əhatə edir [2]. Bu, stabil artan rəqabətqabiliyyətli iqtisadiyyatdır - dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, insan kapitalının və müasir innovasiyaların rəqabət məkanı, işğal olunmuş ərazilərdən böyük gəlir, təmiz ətraf mühit və ölkənin yaşıl artım prioritetləri. Bu məqsədlərə nail olmaq üçün innovativ layihələr həyata keçirilməlidir. Xüsusilə işğaldan azad olunmuş ərazilərin bərpası prosesində innovativ yanaşmalara üstünlük verilməlidir.

Qrafik. Qİİ-nin Azərbaycan üzrə yekun reytinqləri (2019-2021)

Mənbə: *Global Innovation Index 2021 Tracking Innovation through the COVID-19 Crisis, WIPO, 2021, s.226*

Əsasən əhalinin artımı və urbanizasiya prosesi, təbii enerji ehtiyatlarının azalması, çirkləndirici resurslardan həddindən artıq istifadə, qlobal iqlim dəyişikliyi, xidmət və məhsullara artan tələbat, iqtisadi, sosial və ekoloji cəhətdən dayanıqlı şəhər və kəndlərin yaradılması üçün innovativ yanaşmaların istifadəsinə tələbat yaradır [5, s.203].

Cədvəl.

İşğaldan azad edilmiş ərazilərdə innovasiya fəaliyyətləri

Sosial	**Ətraf mühit və infrastruktur**
Elektron Səhiyyə; Turizmdə yeniliklər; Təhsildə yeniliklər; Mədəniyyət və idman sahələrində yeniliklər; Fövqəladə hallar və təhlükəsizlik sahələrində yeniliklər; Vətəndaşların iştirakı ilə idarəçilik; Xidmət və məhsullara çıxışın əlçatan olması; Məlumatların əldə edilməsində əlçatanlıq	Şəhərsalmada yenilik olan "Ağıllı şəhər"/"Ağıllı kənd" layihələrinin tətbiqi; İctimai infrastrukturların idarə edilməsində innovativ yollardan istifadə etmək; "Ağıllı binalar" və "Ağıllı evlər"; Bina və evlərin idarəetməsinin avtomatlaşdırılması; Karbon emisyasının azaldılması üçün həllər; Parkların və ictimai sahələrin idarə edilməsində yeniliklər; Tullantıların toplanması və təmizlənməsində "Ağıllı həllər"; Əhalinin həyat keyfiyyətinin yüksəldilməsi.
Enerji	**Nəqliyyat və logistika**
"Yaşıl Enerji" innovativ layihəsi; İctimai işıqlandırmada səmərəlilik; Bərpa olunan enerji mənbələrindən və qurğularından istifadə.	Elektrikli avtomobillərdən istifadə; Velosiped və elektrikli skuterlərdən istifadənin geniş yayılması; "Ağıllı nəqliyyat sistemləri"
İdarəetmə və iqtisadiyyat	
Elektron Hökumət; Yeni biznes modelləri; Məşğulluq; Elektron ticarət; NFP ödəniş platformaları; "Big Daha" və "Bulud Texnologiyaları"ndan istifadə	

Mənbə: *Aslanova A.F., Hüseynli S.A., s.205*

Nəticə. Son illər ərzində Azərbaycanda innovativ iqtisadi proseslər istiqamətində ciddi addımlar atılmışdır. Buna görə də yaxın zamanlarda Azərbaycanda dövlət innovasiya siyasətinin və innovasiya proseslərinin formalaşdırılmasına strateji yanaşmaları əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq lazımdır. Dünya iqtisadiyyatının, xüsusilə COVİD-19 pandemiyası dövründə ciddi böhran yaşanmasına baxmayaraq, Azərbaycanın azad edilmiş ərazilərində iri infrastruktur layihələrinin həyata keçirilməsi onun güclü iqtisadi potensialından xəbər verir. Bununla da işğaldan azad edilmiş əraziləri texnologiya və innovasiya mərkəzinə çevirmək üçün bu sahələrdə innovativ layihələr həyata keçirilir. Bütövlükdə Qarabağda innovasiya fəaliyyətinin genişləndirilməsi müxtəlif sahələrin dirçəldilməsinə kömək edəcəkdir.

Ədəbiyyat

1. Abbaszadə M. Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu. Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 14, 2020. 32-45.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 02.02. 2021-ci il tarixli Sərəncamı.
3. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası, 22 iyul 2022.
4. Bağırov O. Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, 2020.
5. Aslanova A.F., Hüseynli S.A. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən innovasiya layihələrinin sosial-iqtisadi cəhətdən təhlili və qiymətləndirilməsi. Tikintinin iqtisadiyyatı və menecment, № 2, 2022, s.200-207.
6. Mahmudova L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiyamaliyyə təminatının aktual məsələləri Audit № 4, Cild 26, 2019, səh.24-36.
7. Sadıqlı Ş. Ölkədə investisiya mühitinin yaxşılaşdırılması, innovasiyaların tətbiqi və bu sahədə atılmış addımlar. "Statistika xəbərləri, № 3, 2017, s.39-47.
8. Global Innovation Index 2021 Tracking Innovation through the COVID-19 Crisis, WIPO, 2021, s.226
9. http://az.strategiya.az/news.php?id=148153.

Резюме

Ахмедзаде Дж.В.

Проблема инноваций на освобожденных от оккупации территориях и анализ реализуемых инновационных проектов

Обладая стабильной и стабильной экономикой в мировом масштабе, Азербайджан играет важную геополитическую и геоэкономическую роль в обеспечении глобальной энергетической безопасности с большими финансовыми ресурсами. Азербайджан вносит важный вклад в международное и региональное сотрудничество, по инициативе и при участии нашей страны успешно реализуются глобальные проекты. Одним из пяти национальных приоритетов социально-экономического развития Азербайджана является Большое возвращение на освобожденные территории. Поэтому после 44-дневной второй Карабахской войны, завершившейся победой, сразу же начались восстановительные и творческие работы на этих территориях. Цель статьи-проанализировать инновационные проекты, реализуемые на освобожденных территориях, и оценить возможности потенциального воздействия. В статье рассматриваются концептуальные основы формирования инновационной деятельности в экономической системе нашей страны, а также сущность и особенности инновационных отношений, социально-экономический анализ и оценка инновационных проектов, реализуемых на освобожденных территориях.

Ключевые слова: *инновации, инновационные проекты, Умный город, Умная деревня, Умное сельское хозяйство, технопарки, зеленая энергия*

Summary

Ahmadzade J.V.

The Problem of Innovation in the Liberated Territories and the Analysis of Implemented Innovation Projects

Azerbaijan plays a strategic role by taking an important geopolitical and geo-economic position in ensuring global energy security with a stable and stable state and large financial resources on a global scale. Azerbaijan makes a significant contribution to international and regional cooperation, and global projects are successfully implemented with the initiative and participation of our country. One of the five national priorities of socio-economic development of Azerbaijan is a great return to the liberated territories. Therefore, after the 44-day second Karabakh War, which ended with victory, restoration and creative work began immediately in those areas. The purpose of the article is to analyze innovative projects implemented in the liberated territories and assess potential impact opportunities. The article considers the conceptual foundations of the formation of innovation activity in the economic system of our country, as well as the essence and features of innovation relations, socio-economic analysis and evaluation of innovation projects implemented in the liberated territories.

Key words: *innovation, innovation projects, Smart City, Smart Village, Smart agriculture, technoparks, green energy*

AZƏRBAYCANDA TURİZM SƏNAYESİNİN İNKİŞAFINA İNNOVASİYA FƏALİYYƏTİNİN TƏSİRİ

Əliyev Şükür Həsən oğlu
Sumqayıt Dövlət Universiteti
ali.sukurbayil@gmail.com

Nuriyeva Nuşabə Əli qızı
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
nushaba.nurieva@mail.ru

Xülasə: *Turizm sektoru milli iqtisadiyyatın əsas sahələrindən biridir. Azərbaycanda turizm sektoru yüksək templə inkişaf edir və digər sahələrin təkmilləşdirilməsinə şərait yaradır. Bu sahənin inkişafının əsas səbəbi innovasiya aktivliyinin artırılması ilə bağlı olmuşdur. Bu məqalədə Azərbaycanın turizm sektorunun inkişafında innovasiyaların rolundan bəhs edilmişdir. Yeni turizm modellərinin yaradılması, texnologiyaların turizm müəssisələrinə cəlbi prioritet istiqamət kimi götürülmüşdür.*

Açar sözlər: *turizm, innovasiya, texnologiya, ağıllı turizm, rəqabət*

Müasir dövrdə ölkələrin sosial-iqtisadi inkişafında xidmət sektorunun çəkisi xeyli artmışdır. Bəzi inkişaf etmiş ölkələrin büdcəsinə daxil olan gəlirlərin böyük hissəsi bu sektorun payına düşür. Xidmət sektorunun digər sahələrdən fərqini bu cür qeyd edə bilərik. Digər sahələrdə məhsul əvvəlcə istehsal olunur, daha sonra bazara təqdim olunur və satılır. Xidmət sektorunda isə bu proses əksinə baş verir. Yəni xidmət əvvəlcə satılır, sonra istehsal edilir və alıcılar tərəfindən istehlak olunur. Burada istehlakçı faktoru xidmətin istehsalında birbaşa rol oynayır. Bu sahədə fəaliyyət göstərən şirkətlər istehlakçı davranışlarını, onların ehtiyaclarını, bazarın vəziyyətini dəqiqliklə təhlil etməlidirlər. Xidmət sektorunun əhatə dairəsi çox genişdir. Bu sektorun əsas qollarından biri də son dövrlər insanların aktiv şəkildə faydalandığı və müasir dövrün trendlərindən olan turizm sənayesidir. Bu sahə dünyada XX əsrin ikinci yarısından etibarən sürətlə inkişafını davam etdirir. Ölkələrin turizm sənayelərini inkişaf etdirmələrində əsas səbəb bu sənayenin yüksək gəlirgətirmə qabiliyyətinə malik olmaqla, milli iqtisadiyyatda bir çox problemlərin həllində, sosial rifahın təmin olunmasında aktiv şəkildə iştirak etməsidir. Bu sahə regionların inkişafında, onlar arasındakı fərqlərin aradan qalxması ilə regional bərabərliyin təmin olunmasında, ölkənin məşğulluq səviyyəsinin yüksəldilməsində, beynəlxalq əlaqələrin qurulmasında və s. mühüm rol oynayır. Turizmin iqtisadi səmərəliliyi dedikdə, onun milli iqtisadiyyatın sahələri ilə əlaqəsi və paralel inkişafı başa düşülür [1, s.51].

Azərbaycanda turizmin inkişaf etməsi prioritetlərdən biri kimi xarakterizə olunur. Ona görə ki, milli iqtisadiyyatın 80 %-dən çox hissəsini neft sektoru təşkil edir. Dünyada baş verən bütün mühüm hadisələr birbaşa yaxud dolayı yolla bu sahədə qiymət dəyişikliklərilə müşahidə olunur. Qiymətlərin qeyri-sabitliyi iqtisadi təhlükəsizliyimizi təhdid edən bir haldır. Bu səbəbdən Azərbaycanda milli iqtisadiyyatın qeyri-neft sektrounun inkişaf etdirilməsi məqsədi qarşıya qoyulmuşdur. Bu sektorun əsas tərkib hissələrindən biri kimi turizm sənayesi çıxış edir. Azərbaycanda turizm sənayesinin təşəkkül tapması üçün kifayət qədər resurslar mövcuddur. Dövlət tərəfindən həyata keçirilən sistemli siyasət nəticəsində bu resurslardan səmərəli istifadə etmək yolu ilə son illərdə ölkəmizə gələn turistlərin sayında artımlar müşahidə olunmuşdur. COVİD-19 pandemiyasından əvvəlki dövrün statistik göstəricilərinə baxdıqda bunu aydın şəkildə görmək olur. Belə ki, 2019-cu ilin statistika göstəricilərinə əsasən ölkəmizə 2,8 milyon turist gəlmişdir [2]. Ölkəmizdə turizm sənayesinin intensiv inkişafı, dünya turizminə inteqrasiya prosesinin sürətlənməsi üçün innovasiyaların tətbiq edilməsi əsas məsələlərdəndir. Turizm sənayesində innovativ inkişaf buradakı itkilərin qarşısını almaqda, proseslərin sürətlənməsində əsas rol oynayır. Bildiyimiz kimi, ölkəmiz uzun illər ərzində Sovet İttifaqının əsarəti altında qalmışdır. Bu illər ərzində dövrün tələblərinə cavab verməyən texnologiyalar vasitəsilə ölkəmizin sərvətləri səmərəsiz şəkildə istismar olunmuşdur. Bu da öz növbəsində turizm potensialının səviyyəsinin azalmasına, turizm sənayesinin inkişafına mənfi təsir göstərmişdir. Müstəqil Azərbaycanın ilk illərində turizm sahəsində vəziyyət heç də ürəkaçan deyildi. Bir tərəfdən qəsbkar ermənilərin ölkəmizə hücumu, digər tərəfdən ölkə daxilindəki hərc-mərcliklər bütün sahələrə öz mənfi təsirini göstərmişdir. Lakin 1994-cü il 20 sentyabr tarixində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi"-nin imzalanması ölkədə aparılan əsas iqtisadi islahatlardan olmuşdur. Məhz bu müqavilədən sonra xarici investorlar Azərbaycana investisiya qoyuluşları etdilər. Bu dövrdə Azərbaycanda dünya standratlarına cavab verən, son texnologiyalarla təmin olunmuş "Hyatt Regency", "Avropa", "Park-inn", "Radisson SASS" kimi hotellər fəaliyyət göstərməyə başlamışdır.

Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə turizm sahəsində bir çox nailiyyətlər əldə edilmişdir. Ard-arda keçirilən beynəlxalq tədbirlər ölkəmizin dünyada tanıdılmasına, xarici investorların ölkəmizə cəlb olunmasına şərait yaratmışdır. Nəticədə, ölkəmizə işgüzar turizm növü ilə bağlı səyahət edənlərin sayında artımlar müşahidə olunmuşdur. Artan tələbatı ödəmək üçün yeni hotellər, restoranlar fəaliyyətə başlamış, yeni turizm növlərinin inkişafı zərurətə çevrilmiş və əyləncə sektoru inkişaf etmişdir. Bütün bu fəaliyyətlərin səmərəli şəkildə təşkil olunmasında innovasiyanın xüsusi rolu vardır.

İnnovasiya anlayışına bir çox izahlar verilmişdir. Ümumi olaraq yanaşsaq innovasiya sözü yenilik, təkmilləşdirmə mənasına gəlir. Azərbaycanın turizm sənayesinin intensiv inkişafına nail olmaq üçün bir neçə sahə üzrə innovasiyalar tətbiq etmək olar:

- Məhsul innovasiyaları – turizm məhsulunun təkmilləşdirilməsi və ya yeni turizm məhsulunun yaradılmasını əhatə edir. Burada istehlakçıların ehtiyacı xüsusilə nəzərə alınmalı və turizm məhsulu o istiqamətdə istehsal olunmalıdır. Məhz bu formada bazara daxil olan turizm müəssisələri bazarda böyük pay sahibi olacaqdır.
- Proses innovasiyaları – turizm məhsulunun istehsal prosesinin yeni və dəyişdirilmiş metodlarla həyata keçirilməsidir. Bunun üçün turizm müəssisələrinin yeni texnologiyalar, avadanlıqlar və proqram təmiatı ilə təmin edilməsi vacib məsələdir.
- Təşkilati innovasiyalar – turizm müəssisələrinin öz iş üsullarını dəyişərək, bazarın vəziyyətinə adekvat olaraq digər müəssisələrlə rəqabətə tab gətimələrini əhatə edir.
- Marketinq innovasiyaları – turizm məhsulunu, hotelləri, restoranları və s. daha yaxşı təqdim edərək bazar payının artırılmasına xidmət edir. Müəssisənin marketinq siyasəti onun bazarda irəlilədilməsinin əsas vasitələrindəndir.

Milli iqtisadiyyatda turizm şirkətlərinin daha yaxşı xidmət göstərə bilmələri üçün müəssisələrin maraqlarına uyğun texnologiyalar cəlb etməlidirlər. Düzgün texnologiyaların tətbiqi üçün ilk növbədə müəssisənin qarşısında duran problemlər müəyyənləşdirilməli, daha sonra texnologiyalar bazarı dərindən araşdırılmalıdır. Turizm müəssisələrində xidmətin daha yüksək səviyyədə təşkil olunması üçün 3 sahədə texnoloji avadanlıqların tətbiqi vacibdir. Bunlar aşağıdakılardır:

1. Hotel və restoran avadanlıqları;
2. Rabitə texnologiyaları;
3. Nəqliyyat texnologiyaları.

Hotel və restoranlar turizm infrastrukturunun əsas sütunlarını təşkil edir. Ölkəmizdə son illərədə hotel və restoran şəbəkələrinin saylarının artması tendensiyası müşahidə olunmuşdur. 2021-ci ilin statistik göstəricilərinə əsasən ölkəmizdə 712 mehmanxana müəssisəsi fəaliyyət göstərmişdir. Bu müəssisələrin bir qisminə qabaqcıl texnologiyaların tətbiq edilməsi hesabına son illərdə Azərbaycanda xidmətin səviyyəsi artmışdır. Xüsusilə zəngin turizm potensialına malik olan regionlarımızda turizm komplekslərinin yaradılması, buraya innovativ texnologiyaların cəlbi mühüm əhəmiyyət kəsb edir. Misal üçün, Tufandağ, Şahdağ kimi turizm kompleksləri innovativ texnologiyalarla təchiz olunmuş və burada göstərilən xidmətilərin sayı da artmışdır. Hotel və restoranlara texnologiyaların cəlbi və tətbiqlərin yaradılmasının bir sıra müsbət nəticələri olacaqdır:

- bütün əməliyyatların telefondakı tətbiq vasitəsilə idarəsi və ödəmələrin təmassız şəkildə həyata keçirilməsi;
- hotellərdə və restoranlarda rəqəmsal tətbiqlərin vasitəsilə daha rahat şəkildə alış-verişlərin edilməsi;
- İnternet sürətinin artırılması və mobil tətbiqlərin bütün sahələri əhatə etməsilə daha səmərəli bir mühitin yaradılması;
- Bildiriş sistemlərinin inkişaf etməsilə baş verən xətalar barədə məlumatın dərhal verilməsi.

Əməliyyatların onlayn şəkildə həyata keçirilməsi baş verən prosesləri sürətləndirəcək və vaxt itkisinin qarşısı alınacaqdır. Artıq dünya təcrübəsində hotel və restoranlara tətbiq edilən texnologiyaların içərisində süni intellektə əsaslanan robotlardan da istifadə edilir. Məsələn, Sinqapurda Aura adlı robotun hotellərdə istifadə edilməsini qeyd edə bilərik. Bu robot internet texnologiyası vasitəsilə otaqlarda nəyin çatışıb-çatışmadığını müəyyən edərək həmin otaqlarda işləri həyata keçirə bilir.

Turizm sənayesində rabitə texnologiyalarının tətbiqi kompüterlərin yaranması ilə başlamış və internetin inkişafı ilə davam etmişdir. Rabitə texnologiyaları həm istehsalçılar, həm də istehlakçılar arasında qarşılıqlı əlaqələrin qurulmasına, sürətli informasiya axışına şərait yaradır. Həmçinin bu texnologiyalar vasitəsilə müəssisələr turizm bazarının mövcud vəziyyətini, orada gedən proseslər barədə ətraflı məlumata sahib olurlar. Onun vasitəsilə turizm şirkətləri beynəlxalq bazarlara daha rahat inteqrasiya oluna bilirlər. Qeyd etdiyimiz kimi rabitə texnologiyalarının inkişafında internetin xüsusi rolu vardır:

- Turizm müəssisələri və turistlər daha asan və tez informasiyanı əldə edə bilirlər.

- Turistlərin internetdən istifadəyə üstünlük vermələri turizm müəssisələri ilə onlar arasındakı əlaqələri inkişaf etdirərək ticarət üçün daha uyğun bir mühit yaradacaqdır.
- İnternet mühitində yaradılan yeni bazarlarda vasitəçilərin olmaması turistin turizm məhsulunun alınmasına çəkdiyi xərci aşağı salacaqdır.

Turizm sahəsində tətbiq olunan nəhəng rabitə texnologiyalarına, tətbiqlərinə rezervasiya sistemlərini də əlavə edə bilərik. Amadeus, World span, Galileo kimi dünyaca məşhur rezervasiya sistemlərini qeyd edə bilərik. Bu sistemlər özündə nəqliyyat və qonaqlamaya dair müxtəlif şirkətlərin təklif etdiyi qiymətləri istehlakçılara çatdırır. Misal üçün dünyaca məşhur Amadeus sistemində 29 mindən çox yerləşdirmə müəssisələrinin, 700-dən çox aviaşirkətin və 50-dən çox icarə şirkətlərinin məlumatları bu sistemin bazasında mövcuddur. Ölkəmizdə də bu sistemlərdən aktiv şəkildə istifadə olunur. Lakin Azərbaycanda fəaliyyət göstərən hotellərin, restoranların əksəriyyətində onların özlərinin bronlaşdırma sistemləri lazımi səviyyədə inkişaf etməmişdir.

Turizm sahəsində əsas məsələlərdən biri kimi nəqliyyat texnologiyasının inkişaf etdirilməsi mühüm yer tutur. Nəqliyyat texnologiyaları insanların daha rahat və daha təhlükəsiz şəkildə səyahət etmələrinə imkan yaradır. Ölkəmizdə nəqliyyatın bütün növləri sürətlə inkişaf edir. Nəqliyyat əlaqələri genişlənir. Nəqliyyatın inkişafı ilə turistlər qısa vaxtda daha çox yerlərə səyahət edə biləcək. Bu da yeni turizm destinasiyalarının yaradılmasına şərait yaradacaqdır. Nəticədə turizm müəssisələri məhsul innovasiyalarını reallaşdıra biləcəklər. Digər tərəfdən nəqliyyat texnologiyalarının inkişafı yeni turizm növlərini meydana gətirəcəkdir. Məsələn, dəniz nəqliyyatının inkişafı kruizlərlə səfərlərin həyata keçirilməsinə və kruiz turizminin yaranmasına töhfə verəcəkdir.

Azərbaycanda turizm sektorun daha sürətli inkişaf etməsi üçün yeni, innovativ texnologiyalara əsaslanan turizm modellərin tətbiqi vacib məsələlərdəndir. Xüsusilə bir çox Avropa ölkələrində tətbiq edilən ağıllı turizm modelinin yaradılması birbaşa innovasiyaların tətbiqi ilə əlaqədardır. Ağıllı turizm modeli ənənəvi turizm modelindən bir çox xüsusiyyətlərinə görə fərqlənir.

- fərdiləşmişdir;
- ekoloji cəhətədən təmizdir;
- texnologiyalarla qarşılıqlı olaraq inkişaf edir;
- turizm müəssisələri və turistlər arasında qarşılıqlı əlaqələrin qurulmasında vasitəçi rolu oynayır;
- səyahətin bütün dövrlərini əhatə edir.

Ağıllı turizm sistemində yer alan texnologiyalar xidmət təminatçılarına və ziyarətçilərə daha yaxşı qərar dəstəyi, daha dəqiq informasiya, daha çox mobillik və nəticədə daha keyfiyyətli turizm təcrübəsi təqdim edən informasiya sistemlərinin komponentləridir. Ağıllı turizm modelinin yaradılması proseslərin daha qısa vaxta və asan başa gəlməsinə zəmin yaradır. Bu sistem sayəsində turist və müəssisələr cari məlumatlar əldə edərək öz səyahətlərini daha səmərəli şəkildə planlaya biləcəklər. Ağıllı turizm modelinin ölkəmizdə reallaşdırılması rəqabətqabiliyyətliliyinin artırlımasında, davamlılığın təmin olunmasında əsas faktorlardan olacaqdır. Ağıllı turizm modeli ağıllı şəhərlərin bazasında reallaşdırılır. Azərbaycanda cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə ağıllı kənd və şəhərlərin yaradılması prosesinə başlanılmışdır. Bu proses ilk olaraq işğaldan azad edilmiş Zəngilanın Ağalı kəndində reallaşır. Bu layihələrin həyata keçirilməsi tezliklə ağıllı turizm modelinin qurulmasına təkan verəcəkdir.

Ölkəmizdə turizmin inkişafı, strateji yol xəritəsində də göstərildiyi kimi gələcək 10 il ərzində Azərbaycanın beynəlxalq turizm bazarlarında ilk 20-likdə yer tutuması üçün innovasiyaların tətbiqi vacibdir. Bu sahədə əsas problem maliyyələşdirmə məsələləri ilə bağlıdır. Bu prosesdə dövlət aktiv şəkildə iştirak etməli, investisiya, biznes mühitini təkmilləşdirməlidir. Çünki müəssisələrin inkişafı xarici və yerli investisiyalardan əsaslı dərəcədə asılıdır. Xüsusilə vençur fondlarının təsis olunması Azərbaycanda turizm sektorunun inkişafında innovasiyaların tətbiqini daha sürətləndirəcəkdir.

Ədəbiyyat

1. Həsənov H. Turizm sferasının nəzəri aspektləri və iqtisadi əhəmiyyəti // Naxçıvan Universiteti, Elmi əsərlər, 2019, № 3, s. 47-52.
2. https://stat.gov.az/source/tourism/

Summary

Aliyev Sh.H , Nuriyeva N.A

The effect of innovation activity on the development of the tourism industry in Azerbaijan

The tourism sector is one of the main areas of national economy. The tourism sector in Azerbaijan is developing at a high level and it is necessary for the improvement of other fields. The main reason for the development of this field has been related to increasing the innovation activity. In this article, the role of

innovations in the development of Azerbaijan's tourism sector has been mentioned. The creation of new tourism models has been brought to the tourism establishments of the technologiya as a priority.

Key words: *tourism, innovation, technology, smart tourism, competition*

Özet

Aliyev Ş.H , Nuriyeva N.A

Azerbaycanda turizm endüstrisinin gelişimine inovasyon faaliyetinin etkisi

Turizm sektörü, ülke ekonomisinin ana sektörlerinden biridir. Azerbaycan'daki gerçekçilik sektörü yüksek bir hızla gelişiyor ve diğer alanların iyileştirilmesi için koşullar yaratıyor. Bu alanın gelişmesinin temel nedeni, inovasyon faaliyetinin artmasıyla ilgiliydi. Bu makalede, Azerbaycan'ın turizm sektörünün gelişmesinde yeniliklerin rolü tartışılmaktadır. Yeni turizm modellerinin oluşturulması, teknolojilerin turizm işletmelerinde yer alması öncelikli yön olarak alınmıştır.

Anahtar kelimeler*: turizm, yenilik, teknoloji, akıllı turizm, rekabet*

AZƏRBAYCANIN YAŞIL İQTİSADİYYATA KEÇMƏSİ PROBLEMLƏRİ

Əmirov İmran Balamirzə oğlu, Mirzəbəyov Araz Əliosman oğlu
Sumqayıt Dövlət Universiteti
imran_amirov@mail.ru

Xülasə: *Azərbaycanda yaşıl iqtisadiyyata keçid poblemlərinə aydınlıq gətirilməsi məqalədə bir məqsəd kimi qarşıya qoyulmuşdur. Beynəlxalq miqyasda yaşanan enerji böhranlarının aradan qaldırılması fonunda ölkəmizdə enerjiyə olan tələbatın tam ödənilməsi, həm də Azərbaycanın enerji ixrac edərək xarici ölkələrin tələbatlarının təmin edilməsi məsələləri şərh olunmuşdur.*

Bazar münasibətlərində ölkəmizin yaşıl enerji iqtisadiyyatına keçməsilə əlaqədar xarici şirkətlərlə aparılan danışıqlar, yeni sahəyə edilən dəstək və bu istiqamətdə layihələrin reallaşdırılması dövlətimizin milli təhlükəsizliyinin daha da gücləndirilməsinə zəmin yaratması məqalədə xüsusi vurğulanır.

Açar sözlər: *yaşıl enerji, neft, qaz, iqtisadiyyat, energetika, milli təhlükəsizlik, əməkdaşlıq*

Postmüharibə dövründən sonra Azərbaycan Respublikası (AR) iqtisadiyyatının inkişaf etdirilməsində əsas şərtlərdən biri ölkənin milli təhlükəsizliyinin təmin edilməsidir. Ölkə iqtisadiyyatının təhlülkəsizliyi öncə iqtisadiyyatın inkişafının elə bir səviyyədə olması ilə bağlıdır ki, bu dövlətimizin maraqlarına uyğun təsərrüfatçılığın və dövlətin ərazisinin müdafiə qabiliyyətinin lazımi səviyyədə saxlanılmasına hərtərəfli şərait yaratmış olsun [1, s.172].

Dünya iqtisadiyyatına inteqrasiya edən müstəqil dövlətimiz özünün iqtisadi mənafelərinə uyğun milli təhlükəsizlik strategiyasını gerçəkləşdirməkdədir. Balanslı sosial-iqtisadi inkişafa önəm verən AR özünün milli iqtisadi təhlükəsizlik strategiyasını formalaşdırmaqla onun məqsəd və vəzifələrini müxtəlif istiqamətlərdə yerinə yetirməkdə davam edir. İqtisadi, ekoloji, mədəni, elmi-texniki, enerji, innovasiya, sosial, siyasi, hərbi və s. istiqamətlər milli təhlükəsizliyin əsas istiqamətləri kimi çıxış edir. Adı çəkilən istiqamətlər sırasında enerji təhlükəsizliyi özünəməxsus əhəmiyyətə malikdir. Hazırda Azərbaycan elə ölkələrdəndir ki, burada 4 mühüm məhsul növü: xam neft, təbii qaz, neftdən emal edilən digər məhsul növləri və elektrik enerjisi istehsal olunur. Respublikamız indiki gündə nəinki bu məhsul növləri üzrə özünün daxili tələbatını tam ödəyir, hətta göstərilən məhsul növlərini xaricə ixrac edir. Bu da AR-nın enerji təhlükəsizliyinin tam təmin edilməsini bir daha təsdiqləyir.

Dünyada əhalinin sayının davamlı olaraq artması, atom və kömürlə fəaliyyət göstərən elektrik stansiyalarının bağlanması ilə əlaqədar olaraq enerjiyə olan tələbatın çoxalması davam etməkdədir. Bu səbəbdən də AR enerji növlərinin istehsalının artırılması ilə bağlı fəaliyyətlərini genişləndirməyi hədəfləyir. Digər tərəfdən, dünyada gedən qlobal istiləşmə, enerji böhranı və hərbi-siyasi münasibətlərin gərginləşməsi başqa ölkələr kimi Azərbaycanı da bərpa olunan enerji növlərinin istehsalına keçməyə sövq edir. Hazırda digər dövlətlərə enerji ixracı ilə tanınan AR bu ölkələrin enerji təhlükəsiziliyinin təminatında olduqca mühüm rol oynamaqda davam edir.

Dövlətimizin qarşısında dayanan mühüm vəzifələrdən biri də alternativ enerji mənbələrindən effektli istifadə edilməsi probleminin həll olunmasıdır. Alternativ enerji mənbələrindən də biri külək enerjisidir. AR-nın iqlim şəraiti, eləcə də ölkə ərazisində mövcud əlverişli mühitin olması külək elektrik enerjisinin istehsalına böyük imkanlar açır. Hazırda dövlətimizin qarşısında duran mühüm vəzifələrdən biri bu enerji növünün istehsalını artırmaq və bununla bağlı olaraq qabaqcıl ölkələrlə səmərəli əməkdaşlıq etməkdən

ibarətdir. Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin 240 MVt gücə malik "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının (KES) tikintisinə (13.01.22) start verilmişdir. Qeyd olunmalıdır ki, göstərilən şirkətin bu KES-in tikintisini xarici sərmayədarların vəsaiti sayəsində başa çatdırması nəzərdə tutulur. Bu layihənin həyata keçirilməsi ölkə əhalisinin artan enerji tələbatını daha dolğun ödəməyə təminat verəcəkdir.

Hazırda dünya ölkələri, xüsusilə Almaniya bərpa olunan enerji istehsalı sahəsində öncül mövqelərdən birindədir. "Energivende" adlandırılmaqla bərpa olunan enerji mənbələrinə Almaniya artıq uzun müddətdir ki, keçid etmişdir. Adı çəkilən enerji mənbələrindən səmərəli istifadə edilməsi məqsədilə dövlət və özəl sektor, vətəndaş cəmiyyətilə elm və bir çox sahələr qarşılıqlı əlaqədar fəaliyyət göstərməkdədirlər. Növbəti illərdə, konkret desək 2030-cu illərə qədər bu ölkədə artıq nəqliyyat və yaşayış mənzillərində evlərin istiliklə təminatı böyük həcmdə enerji tələb edəcəkdir. Məhz bu dövrdə enerji təminatının ⅓ hissəsinin bərpa olunan enerji mənbələrinin hesabına ödənilməsi üçün xüsusi proqram qəbul edilmişdir. Bir sözlə, nəzərdə tutulan dövrə qədər (2030) ölkədə enerji tələbatının 50%-dən çoxunun bərpa olunan enerjinin istehsalı hesabına ödənilməsini dövlət hədəfində saxlayır. Bu ölkədə aparılan sorğu onu deməyə əsas verir ki, əhalinin 90%-dən çoxu neftdən və atom enerjisindən istifadə olunmasını məqbul hesab etmir. Ona görə də "Yaşıl enerji" estafedasına Almaniya önəm verməklə artıq gələn ildən tikinti sektorunda yeni tikililərə günəş panellərinin quraşdırılacağını planlaşdırır [2].

Beynəlxalq miqyasda gedən geosiyasi proseslərin fonunda ölkəmiz özünün enerji təhlükəsizliyini qoruyub saxlamaqla respublikamızın milli və iqtisadi təhlükəsizliyini daha da gücləndirməkdədir. AR da "Yaşıl enerji" mənbələrindən istifadə edilməsi sahəsində potensiala malikdir. Energetika sənayesində həm külək, həm də günəş enerji mənbələrindən istifadə etməklə ətraf mühitin qorunması gücləndiriləcəkdir. Təbii mühitin qorunmasını nəzərə almaqla ölkə başçısının təşəbbüsü ilə işğaldan azad edilən ərazilərimizin 10000 km^2-nin "yaşıl enerji" zonası elan edilməsi, eləcə də Cəbrayılda 240 meqavat enerji istehsal edən Günəş ES-nın yaradılması ilə bağlı danışıqlar gedir. Aparılan təhlillər onu göstərir ki, ölkə ərazisinin azad olunan torpaqlarında 10000 meqovat bərpa olunan külək və günəş elektrik enerjisi istehsal oluna bilər. Ölkəmizin uğurlu inkişafında və enerji sahəsində artan tələbatın ödənilməsində bundan faydalanmaq enerji təhlükəsizliyimizi daha da güclü edəcəkdir [3].

Cari ilin 9 ayı ərzində respublikada elektrik enerjisinin istehsalı 17 mlrd. kVtst olub, İstilik ES-da 15,5 mlrd. kVtst, Su ES-da (AR-da sayı 14) 1,4 mlrd. kVtst, Naxçıvan Günəş ES-da 28,4 mln.kVtst elektrik enerjisi istehsal edilib. Bu müddətdə alternativ və bərpa olunan enerji mənbələri hesabına Dövlət Agentliyinin tabeliyindəki "Azalternativenerji" MMC tərəfindən 6,7 mln. kVtst elektrik enerjisi istehsal olunub.

Hazırda AR-da alternativ enerji mənbələrindən istifadə edilməsi istiqamətində mühüm işlər görülür. Qarabağ və Şərqi Zəngəzur rayonlarında "yaşıl enerji" sahəsinin yaradılması ilə bağlı razılaşmalar, BƏƏ, İngiltərə və digər ölkələrin təşkilatları ilə iqtisadi əlaqələrin qurulması deməyə əsas verir ki, yaxın gələcəkdə alternativ enerji mənbələrindən istifadə olunması istiqamətində də mühüm addımlar atılacaqdır.

"Yaşıl enerji" iqtisasiyyatına dəstək verilməsilə bağlı bir sıra beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Bankının başçısı S.Maykl göstərmişdir ki, AR-nın yaşıl iqtisadiyyata keçməsi bankın prioritet istiqmətlərinə çevrilmişdir. Beynəlxalq bankın "ölkənin iqlim və inkişaf istiqamətinin planlaşdırmasına görə" yaşıl enerji iqtisadiyyatına keçid prosesinin problemləri və imkanları müəyyən olunmaqla müvafiq təhlillər aparılmışdır. Ötən ildə belə təhlillər Türkiyə və Qazaxıstan ölkələri üzrə gerçəkləşdirilsə də belə araşdırmalar AR üzrə aparılmışdır. Burada məqsəd "yaşıl iqtisadiyyata" keçid üzrə dəstəyin göstərilməsindən ibarətdir [4, s.7]

Azərbaycanda sosial-iqtisadi inkişafın həyata keçirilməsinə dəstək verən və əməkdaşlıq edən beynəlxalq qurumlardan da biri Avropa Yenidənqurma və İnkişaf Bankıdır (AYİB). İndiki günədək AYİB tərəfindən AR iqtisadiyyatına 181 layihənin gerçəkləşdirilməsinə 3,7 mlrd.€-ya yaxın sərmayə qoyulmuşdur. Bank nümayəndələrinin iştirakı ilə keçirilən rəsmi görüşlərdə energetika, xüsusən bərpa olunan enerji istiqamətində mövcud imkanlardan istifadə olunması üzrə müzakirələr aparılır.

Bərpa olunan enerji mənbələrindən istifadə sferasında əməkdaşlıq edən xarici şirkətlərdən biri də BP şirkətidir. AR-nın dövlətilə aparılan danışıqlarda BP şirkətinin erməni vandallarından azad edilmiş ərazilərimizdə bərpa olunan enerjinin istehsalında dəstək göstərməsi olduqca əhəmiyyətlidir. Aparılan danışıqlarda bərpa edilən enerji istehsalının gələcəyin biznesi olduğu vurğulanır. Hazırda bu şirkətlə ölkəmizdə yeni mümkün layihələrin həyata keçirilməsi imkanları və bu sahədə mütəxəssislərin çatışmamazlığı problemi müzakirə olunur [5, s.4].

Beləliklə, dövlətçiliyimizin möhkəmləndirilməsi və ölkəmizin iqtisadi potensialının gücləndirilməsi məqsədilə milli təhlükəsizliyin, xüsusilə enerji təhlükəsizliyimizin təmin olunması olduqca vacibdir. AR-da sosial-iqtisadi inkişafın, siyasi sabitliyin və əlverişli investisiya mühitinin yaradılması alternativ enerji mənbələridən geniş istifadə olunmasına imkanlar yaradır. AR-nın neft və qaz ixracatından gəlirlərin müvafiq olaraq 60% və 300%-dən çox artması bir daha dövlətimizin cari ildə iqtisadi potensialının artmasından xəbər

verir. Energetika Nazirliyinin məlumatına əsasən hazırda 8 ay ərzində neftlə qaz ixracatından AR-nın əldə etdiyi gəlir 24,3 milyard manat təşkil etməsi alternativ enerji mənbələrindən istifadə olunması üzrə layihələrin reallaşdırılmasına sürətli təkan verə biləcəkdir.

Ölkəmizdə bu günki gündə bərpa olunan enerji istehsalı, daha doğrusu "yaşıl enerji" iqtisadiyyatı gələcəyin biznesi kimi genişlənməkdədir. AR-da bərpa olunan enerji istehsalının hərtərəfli genişləndirilməsi istiqamətində mövcud potensialdan istifadə olunması həm xalqımızın, həm də dövlətimizin mənafeyinə tamamilə uyğundur.

Ədəbiyyat

1. Əhmədov M.A., Hüseyn A.C. Dövlətin iqtisadi siyasəti. Dərs vəsaiti, Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2011, s.220

2. Seyidov V. "Yaşıl enerji": Almaniya bərpa olunun enerji mənbələri sferasında liderlik edir. https://azertag.az/xeber/Yasil_enerji_Almaniya_berpa_olunan_enerji_menbeleri_sferasinda_liderlik_edir-2131337 istinad tarixi 20.09.22

3. https://azpolitika.info/?p=659276 Elektron resurs, istinad tarixi 7.10.22

4. ВБ продолжит поддержку Азербайджана в переходе к зеленой экономике Azərbaycan q/t 22-28.10.22 № 40 (1242) s.8 "Azərmedia MMC"

5. Асланбейли Б. BP ведет переговоры с Азербайджаном о новых проектах в сфере ВИЭ İqtisadiyyat q/t Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet 5-11 may 2022 s.8 "Azərmedia" MMC

Резюме

Амиров И.Б., Мирзобеков А.А.

Проблемы перехода Азербайджана к зеленой экономике

В статье поставлена цель выяснения проблем перехода к зеленой экономике в Азербайджане. На фоне ликвидации энергетических кризисов, пережитых в международном масштабе, были разъяснены вопросы полного удовлетворения потребности в энергии в нашей стране, а также удовлетворения потребностей зарубежных стран за счет экспорта энергии Азербайджана.

В статье подчеркивается, что переговоры с иностранными компаниями о переходе нашей страны на зеленую энергетику в условиях рыночных отношений, поддержка новой области и реализация проектов в этом направлении закладывают основу для дальнейшего укрепления национальной безопасности нашего государства.

Ключевые слова: *зеленая энергетика, нефть, газ, экономика, энергетика, национальная безопасность, сотрудничество*

Summary

Amirov I.B., Mirzabekov A.A.

Problems of Azerbaijan's Transition to a Green Economy

Clarifying the problems of the transition to a green economy in Azerbaijan is set as a goal in the article. Against the background of the elimination of the energy crises experienced on an international scale, the issues of fully meeting the energy demand in our country, as well as meeting the needs of foreign countries by exporting energy of Azerbaijan, were explained.

The article emphasizes that the negotiations with foreign companies regarding the transition of our country to the green energy economy in the market relations, the support given to the new field and the realization of projects in this direction lay the foundation for further strengthening of the national security of our state

Key words*: green energy, oil, gas, economy, energy, national security, cooperation*

İNVESTİSİYA PROSESİNDƏ LAYİHƏ HƏLLƏRİNİN KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİ

Həsənov İsmayıl Cəfər oğlu

Bakı Biznes Universiteti

i_hasanov_65@mail.ru

Xülasə: *Layihə həllərinin keyfiyyətini idarə etmək üçün təşkilat problemləri ilə yanaşı, ən mühüm olan iqtisadi və metodoloji xarakterli problemlərin həlli zəruridir. Layihə həllərinin keyfiyyətinin yüksəldilməsinin iqtisadi problemlərinə, ilk növbədə, layihə işlərinin mürəkkəbliyindən asılı olaraq qiymətin*

əmələ gəlməsinin obyektiv bağlılığı və yaradılan layihələrin keyfiyyətindən asılı olaraq qiymətlərin fərqlənməsi aiddir. Həmin problemin sonrakı tərkib hissəsi layihəçilərin əməkhaqqı sisteminin və onun faktiki xərclərinin və yüksəkkeyfiyyətli layihə məhsulunun yaradılmasına uyğunlaşdırılmasıdır. Müasir mütərəqqi və qənaətli texnologiyanın, avadanlıqların, konstruksiyaların, materialların istifadəsi hesabına layihə sənədlərinin effektliyini və keyfiyyətini yüksəltməyə layihə təşkilatları və onların icraçılarının marağı artırılmalıdır.

***Açar sözlər**: investisiya, tikinti konstruksiyaları, tikintinin dəyəri, gəlirlərin qrafiki, layihə*

Müasir şəraitdə layihələrdə səmərəli tikinti konstruksiyaları və materiallarının istifadəsində inşaat müəssisələrinin iqtisadi maraqlarının olmamasında mövcud anomaliya ləğv edilməlidir. Bir təşkilatda tikinti və layihə işlərinin cəmləşdirilməsi mütərəqqi və qənaətli həcm – planlaşdırma layihə həllərinin axtarışı və reallaşdırılmasına maraqlar bərabər olmalıdır. Həmin vəzifələrin həllinin təşkilati əsası layihədə yaradılıbdır (məsələn, «Caspian service», «Akkord» şirkətlər qrupu və s. investisiya-tikinti şirkətləri).

Ən texnoloji yönümlü layihə həllərinin işlənməsi mütərəqqi metodlarla bina və qurğuların tikilməsində, onların yaradılması prosesində qabaqcıl metodlar stimullaşdırılmalıdır; tikinti məhsulunun fiziki həcminin (binaların həcm və sahə göstəricilərinin, kommunikasiyaların uzunluğunun, tikinti ərazisinin) azaldılması hesabına yaradılan obyektlərin kapital tutumu, material tutumu, əmək tutumu və dəyəri azaldılmalı, obyektlərin tikinti müddəti aşağı salınmalıdır və s. Həmin problemin həll edilməsi üçün isə ilk növbədə, zəruri müəyyən texniki şərtlər yaradılmalıdır [1].

Metodiki planda hər şeydən əvvəl layihələrin hazırlanması və həm də hazır layihə məhsulunu müsabiqədə müqayisə etmək və əlverişli variant seçmək üçün layihə həllərinin keyfiyyətini qiymətləndirən vahid göstəricilər sisteminin hazırlanması lazımdır. Müsabiqənin qalibinin seçilməsinin başlıca meyarı təklifin qiymətidir, əsasını isə tikintinin dəyəri təşkil edir.

Bildiyimiz kimi, tikintinin dəyərinə çoxlu sayda amillər təsir göstərir. Həmin amillərə tikintinin əmək resursları, materiallar, maşın-mexanizmlərlə və s. təmin edilməsi sxemləri də daxil olmaqla tikinti istehsalının təşkili metodları aiddir.

Beləliklə, tikintinin dəyəri tikinti obyektinin optimal təqvim qrafikinə, sifarişçinin təklif etdiyi işlərin yerinə yetirilməsinin ödənilməsi qaydalarını nəzərə almaqla əmək və material resursları ilə tikintinin səmərəli təmin edilməsinin axtarışına əsasən müəyyən edilməlidir ki, bunun da əsasında bank krediti faizlərinin ödənilməsi xərclərinin və ya xüsusi maliyyə resurslarının cəlb edilməsi dəyərini müəyyən etməyə imkan verən, podratçının gəlirləri və xərclərinin qrafiki qurulur. Bununla əlaqədar investisiya prosesində yuxarıda göstərdiyimiz amilləri nəzərə almaqla tikinti podratının alınmasına müsabiqənin hazırlanmasında potensial podratçının təklifinin qiymətlərinin müəyyən edilməsi alqoritmini də istifadə etmək olar. Hesablamaları aparmaq üçün informasiyalar tender sənədlərində verilməlidir, orada cizgilər və kəmiyyət göstəricilərinin smetası olmalıdır. Bu zaman kəmiyyət göstəricilərinin smetasının əlavə edilən cizgilərə uyğunluğunun yoxlanılması lazım gəlir. Həcmlərin aşağı salınması aşkar edilən halda və ya obyektin tikintisində yerinə yetirilməsi zəruri olan işlərin ayrıca növlərinin kəmiyyət göstəricilərinin smetasının olmamasında, onların yerinə yetirilməsi xərcləri də nəzərə alınmalıdır. Burada qeyd etmək istəyirik ki, tender sənədlərini hazırlayanlar onun tərkibinə kəmiyyət göstəricilərinin smetasını həmişə daxil etmirlər. Belə halda tikinti müəssisəsinin mütəxəssislərinə cizgilər üzrə işlərin növləri və həcminin müəyyən edilməsi lazım olacaq[2].

Tikintinin dəyərinin qiymətləndirilməsi cari qiymətlərlə aparılır. Əgər podratın yerinə yetirilməsi çox vaxt tələb edirsə, onda tikinti dəyərinin bahalaşmasına inflyasiyanın təsirini təhlil etmək məqsədəuyğundur. Əgər sifarişçi müsabiqə təklifində müsabiqənin qəti qiymətlərlə göstərilməsini tələb edirsə, yəni bu qiymətlər resursların bahalaşmasından asılı olaraq tikintinin gedişi prosesində düzəldilməyəcəksə, onda bazar tədqiqatlarına əsasən həmin bahalaşmanı proqnozlaşdırmaq və qiymətə əlavə etmək lazımdır.

Mənfəət və risk öz aralarında sıx qarşılıqlı əlaqəlidir, ona görə də onların ayrılması qiymətdə nəzərdə tutulmur. Məsələn, mənfəətin kəmiyyəti tikintiyə qoyulan xüsusi vasitələrin kəmiyyətindən və onların itkisinə riskin əvəz edilməsindən asılıdır. Tikintinin dəyərinin müəyyən edilməsində podratçı işlərin həcminin hesablanmasında və resursların dəyərinin dəyişilməsinin proqnozlaşdırılmasında səhvlərin buraxılmasına risk edir. Obyektin tikintisinə saziş bağlananda buraxılan səhvlər podratçının xeyrinə olmaya bilər. Materialların tədarükündə pozulma ola bilər və s. Müsabiqəyə çıxarılan, podratın spesifikasından asılı olaraq tikintinin konkret şərtləri və onun müddəti, tikintinin dəyərinin hesablanması ilə məşğul olan mütəxəssislərin ixtisası mənfəətə və riskə edilən əlavənin (artırılmış qiymətin) həcminə əsasən seçilirlər.

Gəlirlərin qrafiki tender sənədlərində göstərilən işlərin maliyyələşdirilməsi şərtlərinə uyğun işlərin ayrıca mərhələlərinin yerinə yetirilməsi və təhvil verilməsinə ödənişlərin avans ödənişinin cəmi təsvir edilir. Bu sənədlərdə tikintinin qiymətlərinə faizlərlə avans ödənilməsinin kəmiyyəti göstərilir və bu kəmiyyət

həmin mərhələdə hesablanır və beləliklə, avans ölənilməsinin kəmiyyəti dəyər ifadəsində müəyyən edilə bilir. Sifarişçinin ödəniş kəmiyyəti ödənilmənin şərtinə uyğun tikintinin təqvim planına əsasən hesablanır və adətən, yerinə yetirilmiş işlərin qəbulu aktına əsasən hər ay ödənilməsi nəzərdə tutulur. Həmin aktlar işlərin həcminin faktiki yerinə yetirilməsinə uyğun kəmiyyət göstəricilərinin smeta göstəricisinə və smetada göstərilən podratçının hesablanmış qiymət qoymasına əsasən tərtib edilir. Bu qiymətqoymada mənfəətin və riskin kəmiyyətini nəzərə almaq lazımdır. Gəlirlər qrafikini tərtib edəndə nəzərə almaq lazımdır ki, görülən işlərin qəbulu aktı və podratçının hesablaşma hesabına pulların daxil olması arasında bank əməliyyatları və sazişin şərtləri ilə bağlı müəyyən vaxt keçir[3].

Xərclər qrafiki bütün birbaşa xərclərin və resursların tədarükçülərinin ödənilməsi şərtlərini nəzərə almaqla üstəlik xərclərin və işçilərin əmək haqqının ödənilməsinin cəmləşdirilməsinə əsasən tərtib edilir.

Obyektin tikintisi gedişində pul vəsaitlərinin çatışmamazlığını aradan qaldırmaq məqsədi ilə aşağıdakı metodlardan istifadə etmək olar:

- tikintinin başlanğıc mərhələsində işlərin ayrıca növlərinin yerinə yetirilməsinin qiymətləndirilməsini (qiymət qoymanı) süni artırmaq və tikintinin sonunda eyni zamanda da qiymətləndirməni aşağı salmaq lazımdır. Belə halda təklifin qiymətinin dəyişilməməsi üçün qalxma və enmə balansına riayət etmək lazımdır. Bu təklifin rəqabət qabiliyyətini azaltmadan, vəsaitlərin sifarişçi tərəfindən avans verilməsi kəmiyyətini süni artırmağa imkan verir;
- materialların tədarükü qrafikinə yenidən baxılmasını və tədarüklərin həcminin minimuma endirilməsini, eyni vaxtda da onların tezliyinin artırılmasını;
- tikintinin təqvim planına yenidən baxmaq, bahalı və material tutumlu işlərin çoxluq təşkil etdiyi zonadan azlıq zonaya keçirilməsini.

Əgər arzu edilən nəticə alınmırsa, onda üç metodun hamısına bir yerdə baxmaq lazımdır.

Tikintinin dəyərinin hesablanması nəticəsi tender torquna podratçının təqdim etdiyi ofertin qiymətinin əsasını təşkil edir. Yüksək səviyyəli rəqabətdə tikintinin dəyərinin savadlı və vicdanlı podratçı tərəfindən qiymətləndirilməsi və eyni texnologiyanın istifadə edilməsi az fərqlənir, rəqabət üstünlüyü isə üstəlik xərclərin, mənfəətə və riskə əlavənin (artırılmış qiymətin) azaldılması yolu ilə əldə edilir.

Layihə həllərinin keyfiyyətinin qiymətləndirilməsinin nəzəri məsələləri kifayət qədər geniş və tam işlənməlidir. Problemə müxtəlif aspektlərdən baxılmışdır. Texniki-konstruktiv həllərin möhkəmliyi və davamlılığı və onların tikinti texnologiyası mövqeyindən; iqtisadi-layihələndirilən obyektlərin istehlak dəyəri və qənaətliliyi, effektliyi mövqeyindən; texniki-iqtisadi, sosial layihələndirilən obyektlərin erqonomik, ekoloji və estetik xarakteristikaları mövqeyindən, habelə resurs tutumu, əmək tutumu və tikinti obyektlərinin müddəti aspektindən. Bununla bağlı layihələrin keyfiyyətinin qiymətləndirilməsinin yerli və ümumiləşdirici göstəriciləri baxılmalıdır. Qiymətləndirici göstəricilərin əksər hissəsi qurtarmış layihənin alınan xarakteristikasnıı oxşarlarla müqayisə edilməsinə əsasən aparılmalıdır.

Layihələndirmə prosesində layihə işlərinin mərhələlərinin və ya layihənin ayrıca hissəsinin keyfiyyətinin qiymətləndirilməsinə dinamik yanaşmanın reallaşdırılmasına cəhdi göstərilməlidir. Layihə həllərinin keyfiyyətinin qiymətləndirilməsi və tənzimlənməsinə dinamiki yanaşma ən mütərəqqi, perspektiv və effektli təsəvvür edilir, çünki onun istifadə edilməsində hər bir xüsusi qərar son nəticəyə onun təsiri mövqeyindən qiymətləndirilməli, bu isə keyfiyyətsiz layihənin buraxılışının qarşısını alar[4].

Layihələrin keyfiyyətinin qiymətləndirilməsinin əsas göstəriciləri nəinki tikintinin, eyni zamanda layihələndirilən tikinti obyektlərinin istehlak dəyərini də xarakterizə etməlidir. Yaradılan obyektlər onlara təqdim edilən istismar tələblərinə cavab verməlidir: tikintidə qənaətli və tikilmə mərhələsində texnoloji, istismar dövründə səmərəli, sonra isə istehsalın modernləşdirilməsi və yenidənqurulması olmalıdır. Layihələrin keyfiyyətinin qiymətləndirilməsi məsələsi ümumi növdə elə optimal layihə həllərinin axtarışına yönəldilməlidir ki, onlar yaradılan istehsalın istismar tələblərini tam təmin etsin, obyektin resursları minimal xərclərlə tikintinin aparılmasına, onun ən qısa müddətdə istismara verilməsinə imkan yaratsın.

Layihələrin keyfiyyətinin qiymətləndirilməsi göstəricilərinin cəmini və baxılan dövr üçün onların tövsiyə olunan əhəmiyyətini bildikdən sonra keçmişi təsvir edən məlumatlara əsasən əvvəldən kerilmiş keyfiyyət və effektlik göstəricilərinə görə oxşar obyektlərin tikintisinin layihəsini hazırlamağa başlamaq olar. Belə yanaşmada layihələndirmənin keyfiyyətinin planlı idarə edilməsinin proqram-məqsədli prinsipinin reallaşdırılmasını qanuni hesab etmək olar. Belə halda məqsəd layihələrin keyfiyyətinin kəmiyyət göstəricilərinin müəyyən səviyyəsinə nail olunmasına xidmət etməkdir, konkret elmi-texniki tədbirlərin yığımı həmin məqsədin reallaşdırılmasını təmin edən proqramdır[5].

Əvvəlcədən verilmiş keyfiyyət və effektlik göstəriciləri ilə layihələrin işlənməsinə keçid aşağıda göstərilən şərtlərə riayət etməklə mümkündür:

- oxşar obyektlərin layihələndirilməsi və tikintisinin əldə edilmiş baza göstəriciləri səviyyəsinin tam və obyektiv qiymətləndirilməsi;

- elmi-texniki tərəqqinin inkişaf perspektivinin və nailiyyətlərinin reallaşdırılmasını nəzərə almaqla planlaşdırılan dövrə proqnozlaşdırılmış göstəricilərin əhəmiyyətinin hesablanmasının əsaslandırılması;
- tikintinin mövcud informasiya bazasının tam və həqiqiliyinin təmin edilməsi.

İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində investisiya həllərinin qəbul edilməsində və planlaşdırılmasında korporasiyalar layihələrin maliyyələşdirilməsinin daxili və xarici mənbələrinə söykənirlər. Xarici mənbələr səhmdar və ssuda kapitalından ibarətdir. Axırıncı, öz növbəsində, qısamüddətli (tədarükçülərin kreditləri, kredit müəssisələrinin qısa müddətli borcları) və uzunmüddətli (istiqraz və ipoteka borcları) olur. Maliyyələşdimənin daxili mənbələri amortizasiya fondlarından və xüsusi mülkiyyətin satışı nəticəsində alınan kapitalın bölüşdürülməmiş mənfəətindən ibarətdir[5].

İnvestisiyaların maliyyələşdirilməsinin xarici və daxili mənbələri arasında münasibət kreditlərin verilməsi şərtlərindən, korporasiyaların maliyyə sabitliyindən və fond birjasının vəziyyətindən asılı olaraq ayrıca korporasiyalarda müxtəlif olur.

Korporasiya qarşısında qoyduğu məqsəddən asılı olaraq bu və ya digər investisiya həllərini qəbul edir. Onların prioritetliyindən asılı olaraq birinci yerdə investisiya tədbirlərinin mənfəətliliyi durur.

İnvestisiyalar o halda həyata keçirilir ki, mənfəət əvvəlcədən müəyyən edilən minimuma əsasən əldə edilmiş olsun. Investisiya məqsədlərinin ierarxiyasında mühüm əhəmiyyətə, həmçinin korporasiyanın artması malikdir, bu isə korporasiyanın dövriyyəsinin kəmiyyətinin və nəzarət edilən bazarın payının illik yüksəlməsi ilə ifadə olunur. Onların əhəmiyyətinin azaldılması halında, digər investisiya məqsədləri arasında aşağıdakıları ayırmaq olar:

- sifarişçilərlə yaxşı münasibətlərin saxlanılmasını (istehlakçılar arasında nüfuzlularını);
- yüksək əmək məhsuldarlığının əldə edilməsini (bu öz-özünə hələlik yüksək mənfəətli və ya əksinə demək deyil);
- yeni məhsulun işlənməsini;
- heyətin ixtisas səviyyəsinin yüksəldilməsini və s.

İnvestisiya layihəsinin reallaşdırılmasından alınan mənfəətdən asılı olaraq, korporasiya həm obyektlərin kateqoriyaları (investisiya tpləri) üzrə, həm də vaxt üzrə mənfəət normasının fərqlənmə prinsiplərinə əsasən özünün investisiya siyasətini qurur.

Adətən, təsnifatda məcburi adlanan investisiyalar ayrılırlar (istehsalın möhkəmliyinin və texniki təhlükəsizliyinin yüksəldilməsi məqsədi ilə həyata keçirilənlərə). Belə halda kapitalın investisiyalaşdırılması məsələsində və ya əksinə korporasiyanın seçimi yoxdur.

Inkişaf etmiş ölkələrdə tikinti və texnoloji layihələndirmə elmi-texniki tərəqqinin maddiləşdirilməsinin mühüm bölməsi sayılır. Layihələndirmə prosesində gələcək müəssisələrin texniki səviyyəsi və istehsalın iqtisadiyyatı, həmçinin müxtəlif əhəmiyyətli binaların və qurğuların həcm-planlaşdırma və konstruktiv həllərinin optimallıq dərəcəsi, onların elektrik istehlakı səviyyəsi, komfortluğu və məişət rahatlığı dərəcəsi müəyyən edilir.

İnvestisiya prosesinin müvəffəqiyyətlə reallaşdırılmasında layihələndirmənin rolunun gücləndirilməsi məqsədəuyğundur. Onun inkişafının xarakterik xüsusiyyəti elm, yeni texnologiya və tikinti istehsalı ilə sıx əlaqəsidir. Alternativ variantların layihə qabağı tədqiqatının keçmiş layihələndirilməsi yeni tikintinin və ya yenidənqurmanın və modernləşdirmənin məqsədyönlüyü haqqında hərtərəfli əsaslandırılmış həllərin qəbul edilməsinə imkan yaradır. Layihə həllərindən həm tikintinin, həm də layihələndirilən müəssisələrin gələcək xərcləri və ya qeyri-istehsal əhəmiyyətli obyektlərin lazımi vəziyyətdə saxlanılması xərcləri asılıdır. Əslində, layihələndirmə mərhələsində iqtisadiyyatda, o cümlədən tikinti sahəsində investisiya resurslarının effektli istifadə edilməsi problemi həll edilir.

Layihələndirmə sferasının inkişafı, bizim fikrimizcə, əsas kapitala və podrat işləri həcminə investisiyaların ümumi həcminə nisbətən, ən yüksək templə həyata keçirilməlidir. Belə hərəkətin məqsədyönlüyü bəzi səbəblərlə şərtləndirilir.

Birincisi, layihələndirilən obyektlərin mürəkkəbliyi ilə; idarə qərarlarının və layihələrin işlənməsinin qəbul edilməsinin nəzərə alınması amillərinin (müxtəlif istiqamətli investisiya layihəsinin iqtisadi nəticəsinə tez-tez təsir edən) sayının artırılması ilə; qəbul edilən layihə həllərinin əsaslandırılmasının çox variantlı tədqiqi ilə bağlı artması ilə;

İkincisi, məsləhət xidmətlərinin və layihələrin idarə edilməsi üzrə xidmətlərin payının artması.ilə;

Üçüncüsü, tikinti sahəsinin digər sahələri ilə müqayisəsində layihələndirmə sferasında avtomatlaşdırma və kompüterləşdirmə proseslərinin ən yüksək tempi ilə.

Müasir şəraitdə investisiya prosesinin ilk bölməsinin əvəzinə layihələndirmə investisiya prosesinin bütün mərhələləri ilə bağlı məqsədli sistemə çevrilməlidir. O, mühəndis-konstruktor, tikinti, memarlıq və şəhərsalma, ekoloji və çoxlu digər fəaliyyət növləri, həmçinin özünün infrastrukturunu da əhatə edə bilər.

Binaların və qurğuların əhəmiyyəti, istehsalın texnologiyasının xüsusiyyətləri və layihələndirmə metodları haqqında elmi təsəvvürlərin inkişafı ilə binaların və qurğuların bölünməsi, layihə həllərinin sistemaltları və hissələrinin prinsipi dəyişildi. Sistemlik binaların hissəsinin (konstruktiv, texnoloji, sanitar-gigiyenik və s.) layihə praktikasından onun elementləri və hissələrini təşkil edən bütün sistemin əhatə edilməsinə keçiddən ibarətdir.

Tikinti obyektlərinin layihələndirilməsinin avtomatlaşdırılmış sistemi və tikintinin idarə edilməsinin avtomatlaşdırılmış sistemi layihələndirmə məsələlərində həll edilən dairəni genişləndirir, ancaq layihələndirilən obyektlərin tikintisi məsələlərinə toxunmur, onları bu və ya digər növdə tikintinin təşkili layihəsində olan kimi qəbul edir. Tikinti obyektlərinin layihələndirilməsi və onların tikintisinin layihələndirilməsi qarşılıqlı əlaqəsiz yerinə yetirilir. Göstərilən vəziyyət tikinti istehsalının təşkilati-texnoloji etibarlılığının kifayət olmamasını şərtləndirir, hansı ki, layihələndirmədə tikintinin faktiki göstəricilərinin (tikintinin müddəti, tikinti-quraşdırma işlərinin maya dəyəri və s.) əhəmiyyətli kənarlaşmasını göstərir. Təşkilati-texnoloji etibarlılıq əhəmiyyətli dərəcədə tikinti obyektlərinin layihələndirilməsi mərhələsində müəyyənləşdirilir.

Binaların tikintisi metodlarının layihələndirilməsi prosesi layihələndirilmə variantlarına əsaslanır, yəni istənilən variantlardan ən effektlinin seçilməsinə və qiymətləndirilməsinə. Lakin layihələrin işlənməsində və tikintinin təşkili layihəsində binaların və qurğuların tikintisi üzrə qərarların qəbul edilməsi bütün baxılan variantlar üçün praktiki mümkün deyil. Binanın tikintisinin effektli metodunun seçilməsi məkan və zamanda proseslərin inkişafı nəzərə alınmaqla binaların tikintisinin dinamik modelini əks edən, iqtisadi-riyazi modelin işlənməsi ilə təmin edilməlidir.

Ədəbiyyat

1. Виноградова В.В. Принципы и концепция организационно-экономического механизма финансирования строительства социального жилья, Санкт-Петербург, 2016.

2. Ширалиев В.М., Мамедова С.Б. Проблемы инвестирования реального жилищного сектора экономики Азербайджана. Баку: Нурлан, 2007

3. Райзберг Б.А. Государственное управление экономическими и социальными проектами. – М.: Изд-во «ИНФРА-М», 2010.

4. Ларионова Ю.В., Ларионов А.Н., Павлова С.А., Горшков Н.Г. Рынок доступной жилой недвижимости: вопросы государственного регулирования (монография). М.: Изд-во СГУ, 2013.

5. Смирнов, Е.Б. Принципы партнерства при реализации инвестиционно-строительных проектов. Вестник гражданских инженеров, М. 2013.

Резюме

Гасанов И. Д.

Управление качеством проектных решений в инвестиционном процессе

Для управления качеством проектных решений необходимо решать важнейшие экономические и методологические проблемы наряду с организационными. К экономическим проблемам повышения качества проектных решений относится, прежде всего, объективная зависимость формирования цены в зависимости от сложности проектных работ и разница цен в зависимости от качества создаваемых проектов. Следующей составляющей этой проблемы является адаптация системы оплаты труда проектных работников и ее фактических затрат к созданию качественного проектного продукта. Следует повысить заинтересованность проектных организаций и их исполнителей в повышении эффективности и качества проектной документации за счет использования современных прогрессивных и экономичных технологий, оборудования, конструкций и материалов.

Ключевые слова: *инвестиции, строительные конструкции, стоимость строительства, график доходов, проект*

Summary

Hasanov I.J.

Quality Management of Project Solutions in the Investment Process

To manage the quality of design solutions, it is necessary to solve the most important economic and methodological problems along with organizational ones. The economic problems of improving the quality of design solutions include, first of all, the objective dependence of price formation depending on the complexity of design work and the difference in prices depending on the quality of the projects being created. The next component of this problem is the adaptation of the system of remuneration of project workers and

its actual costs to create a high-quality project product. It is necessary to increase the interest of design organizations and their executors in improving the efficiency and quality of design documentation through the use of modern progressive and economical technologies, equipment, structures and materials.

Key words: *investments, building structures, construction cost, income schedule*

QEYRİ-NEFT İQTİSADİYYATININ İNKİŞAFININ DAVAMLI İNKİŞAF VƏ YAŞIL İQTİSADİYYATIN GENİŞLƏNMƏSİNDƏ ROLU

Həsənova Nərmin Ehtibar qızı
Gəncə Dövlət Universiteti
Nermin.hesenova@gdu.edu.az

Xülasə: *Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsinin vacib şərtlərindən biri ixracyönümlü qeyri-neft sektorunun formalaşdırılması hesab edilir. Qeyri-neft sektorunun inkişafında struktur dəyişiklikləri və istehsalın şaxələndirilməsi siyasəti xüsusi əhəmiyyət kəsb edir və bu siyasət, ilk növbədə, ixracyönümlü qeyri-neft sahələrinin səmərəliliyinin artırılmasına, həmin sahələrdə innovativ yeniliklərə əsaslanan maddi-texniki bazanın inkişafına, yeni iqtisadi şəraitdə elm və texnologiyaya söykənən rəqabətqabiliyyətli istehsalın formalaşdırılmasına yönəldilir. Müasir şəraitdə neftdən asılılığın azaldılması və ixracyönümlü qeyri-neft sektorunun inkişaf etdirilməsi iqtisadi siyasətdə də prioritet təşkil edir.*

Açar sözlər: *ixrac, idxal, davamlı inkişaf, qeyri-neft sektoru, rəqabət*

Yaşıl iqtisadiyyat konsepsiyaları iqtisad elmində son onilliklərdə meydana gəlmişdir. Bu konsepsiyalar resursyönümlü iqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, ekoloji iqtisadiyyat, yaşıl siyasət kimi istiqamətlərdən bəhs edir. İnsanların həyat şəraitinin yaxşılaşdırılması, gələcək nəsillərdə normal rifah halının təmin edilməsi və iqtisadi artıma nail olmaq məqsədilə Azərbaycan iqtisadiyyatının innovativ inkişafı, modernləşdirilməsi, sağlam rəqabət mühitinin yaxşılaşdırılması və enerji səmərəliliyinə nail olmaq əsas məqsəddir. Bu məsələ hazırda formalaşmaqda olan davamlı inkişafın təmini kimi müəyyən olunmuşdur.

Yaşıl iqtisadiyyat davamlı inkişafı həyata keçirməyin bir vasitəsi, bu inkişafa gedən yoldur. Azərbaycanda yaşıl iqtisadiyyatın qurulmasını davamlı inkişafın bir komponenti kimi uğurla həyata keçirilən bir siyasətdir. Davamlı inkişaf iqtisadi, sosial və ekoloji komponenetlərin qarşılıqlı fəaliyyətini müəyyən edir. Bu konsepsiyanın əsas məqsədi gələcək nəsillərin normal rifah halını nəzərə almaqla bugünün tələbatını iqtisadi, sosial və ekoloji cəhətdən normal ödənilməsindən ibarətdir.

Davamlı inkişaf konsepsiyası müəyyən zəruri şərtlərin təsirindən yaranmışdır. Bu şərtlərə demoqrafik artım sürəti, bərpa olunmayan təbii ehtiyyatların tükənməyə doğru meyl etməsi, biomüxtəlifliyin azalması, ekoloji amillərin çirklənməsi və s. göstərmək olar.

Azərbaycan Respublikasında ixracyönümlü məhsullar içərisində üstünlük neft və neft məhsullarının payına düşür ki, bu da iqtisadiyyatın neftdən asılılığını göstərir. Qeyri-neft sektorunun inkişafı hazırda ölkə iqtisadiyyatı üçün ən aktual məsələlərdəndir. Bu həm neft sektorundan iqtisadi asılılığın azalmasına, həm də iqtisadiyyatımızı ekoloji təmiz məhsulların istehsalı və ixrac payının artmasına şərait yarada bilər. Neftdən asılılığın azalması və qeyri-neft sektorunun inkişafının davamlı inkişaf konsepsiyalarının həyata keçirilməsində rolu böyükdür. Yaşıl iqtisadiyyat konsepsiyalarını dəstəkləyən məhsullar istehsalını artırmaqla və bu sahədə ixtisaslaşma səviyyəsinə nail olmaqla bu məqsədə çatmaq olar.

Iqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni ”hərəkətverici qüvvələr” tapılmalıdır. Neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir. [Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər. Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı]

Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişafı üçün kifayət qədər potensial mövcuddur. Xüsusilə hazırkı dövrdə işğaldan azad olunmuş torpaqlarda yerinə yetirilməsi nəzərdə tutulan işlər və bu zonada qeyri-neft sahələrinin gələcək inkişaf perspektivləri iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılmasını və bu əsasda iqtisadiyyatın bütün sahələrinin inkişafını şərtləndirir. Qeyri-neft sektorunun inkişafı həmçinin, bu sahədə ixracyönümlü məhsulllar istehsalının artırılmasını təmin etməklə respublikamıza xarici valyuta axınının güclənməsinə və idxalın ixracla əvəzlənməsinə zəmin yarada bilər. Deyilənlər onu göstərir ki, davamlı inkişaf prinsipləri əsasında ixracyönümlü modellərin öyrənilməsi müasir

şəraitdə ölkənin iqtisadi siyasətinin korreksiyası üçün böyük əhəmiyyət kəsb edir. [Дубков С.В. Модели и методы устойчивого инновационного развития экспортоориентированных предприятий / С.В. Дубков. - Минск: Белпринт, 2014. - 243 с.3]

Dünya təcrübəsi göstərir ki, ölkələr ixracyönümlü istehsalın və ixrac potensialının artması üçün əlverişli mühitin formalaşdırılması üçün müvafiq tədbirlər həyata keçirilir. Müqayisəli üstünlüklərin olması ölkənin ixrac potensialını şərtləndirən ən mühüm amildir. Burada əsas şərt ölkənin iqtisadi inkişafı üçün lazımi şərait yaratmaq, iqtisadiyyatın inkişafını stimullaşdırmaq, yüksək ixtisaslı, peşəkar işçi qüvvəsinin formalaşmasını təmin etməkdir. Qeyd edilənləri nəzərə almaqla "qeyri-neft sektorunun inkişafını daha da sürətləndirmək üçün daxili iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi, idxalın əvəzlənməsi fəaliyyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, qeyri-neft sektorunun ixrac imkanlarının artırılması " hazırda dövlətin iqtisadi siyasətlinin prioriteti kimi müəyyənləşdirilmişdir. ["Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 19 sentyabr 2018-ci il.]

Ədəbiyyat

1. "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 19 sentyabr 2018-ci il.
2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 2 fevral 2021-ci il.
3. Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, "Elm və Təhsil", 2017.
4. Дубков, С.В. Модели и методы устойчивого инновационного развития экспортоориентированных предприятий. Минск: Белпринт, 2014

Резюме

Гасанова Н.Е.

Роль ненефтяного развития экономики в устойчивом развитии и расширении «зеленой» экономики

Одним из важных условий обеспечения устойчивого социально-экономического развития является формирование экспортоориентированного ненефтяного сектора. В развитии ненефтяного сектора особое значение имеет политика структурных преобразований и диверсификации производства, которая в первую очередь направлена на повышение эффективности экспортоориентированных ненефтяных секторов, развитие в этих отраслях материально-технической базы основанной на инновационные новшества, формирование в новых экономических условиях конкурентоспособного производства, основанного на науке и технике. В современных условиях снижение зависимости от нефти и развитие экспортоориентированного ненефтяного сектора также является приоритетом экономической политики.

Ключевые слова: *экспорт, импорт, устойчивое развитие, ненефтяной сектор, конкуренция*

Summary

Hasanova N.E.

The role of non-oil economy development in sustainable development and the expansion of the green economy

One of the important conditions for ensuring sustainable socio-economic development is the establishment of an export-oriented non-oil sector. In the development of the non-oil sector, the policy of structural changes and diversification of production is of particular importance, and this policy is primarily aimed at increasing the efficiency of export-oriented non-oil sectors, the development of the material and technical sources relying on innovations in those areas, the competitive economy based on science and technology in the modern economic conditions directed to the formation of production. Under modern conditions, reducing dependence on oil and developing the export-oriented non-oil sector still stays as a priority in economic policy.

Key words: *export, import, sustainable development, non-oil sector, competition*

AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TƏNZİMLƏMƏ PROBLEMLƏRİ

Hüseynov Tofiq Həsən oğlu
İqtisadiyyat İnstitutu
tofiq.hüseynov37@mail.ru

Xülasə: *Məqalədə ölkədə sosial-iqtisadi inkişafın tənzimlənməsində qəbul edilmiş konsepsiyalar, tənzimləmə sistemində İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəzifələri şərh edilir. Sosial-iqtisadi inkişaf konsepsiyalarının, dövlət proqnozlarının, regional inkişaf proqramlarının icrasının mövcud vəziyyəti, koordinasiya sistemi qiymətləndirilir. Qeyri-neft sektorunun və ölkənin xarici ticarət dövriyyəsinin göstəriciləri təhlil edilir. Əsaslandırılmış təklif və tövsiyələr verilir.*

Açar sözlər: *inkişaf konsepsiyası, qeyri-neft sektoru, xarici ticarət, dövlət proqnozları, minimum əməkhaqqı*

İqtisadi nəzəriyyədə və beynəlxalq praktikada bazar iqtisadi sistemində dövlətin iqtisadiyyata müdaxilə səviyyəsini əks etdirən 2 konsepsiya mövcuddur: dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması və qarışıq iqtisadi mexanizmlərdən istifadə. Keçid dövrünün ilk illərindən Azərbaycanda dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması konsepsiyasına üstünlük verildi. Burada unudulmaz Heydər Əliyevin bir kəlamını diqqətə çatdırmaq istərdim. O, demişdir: "Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, biz bazar iqtisadiyyatını vergi yolu ilə təmzimləməliyik". 2005-ci ildə məsələ barədə ölkə başçısı İlham Əliyev də öz mövqeyini bəyan etmişdir. O, demişdir: "Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Buna görə də şəxsən mən hökumətin yeni sənaye sahələrinin yaradılmasına birbaşa müdaxiləsinin tərəfdarı deyiləm... Ölkənin qeyri-neft sahələri özəl sektor tərəfindən inkişaf etdirilməlidir və biz buna nail olmağa çalışırıq [Azərbaycan" qəzeti, 20.10.2005]. 2002-ci ildə İqtisadi siyasət üzrə dövlət müşaviri Vahid Axundov demişdir: "Ümumiyyətlə, dövlət iqtisadiyyatdan getməlidir. İqtisadiyyatda iştirak etməməlidir" ["Azərbaycan" qəzeti, 07.03.2002].

Azərbaycan hökumətinin iqtisadi inkişafın lokomotivi olan investisiya siyasətində emal sənaye sahələrinin və aqrar sektorun maddi-texniki bazasının yenidən qurulmasının özəl investisiyaların hesabına həyata keçirilməsi konsepsiyası üstünlük təşkil etmişdir. Dövlət investisiyalarından bu sektorlarda istifadə olunması bazar iqtisadi sisteminin tələblərinə cavab verməyən baxış kimi qiymətləndirilmişdir. Yuxarıda göstərilən konsepsiyaya da uyğun olaraq bazar iqtisadi sistemini tənzimləyən normativ hüquqi baza yaradıldı. Ölkədə dövlət tənzimləmə vasitəsi kimi məqsədli, regional və sahəvi dövlət proqramlarından, orta müddətli makroiqtisadi dövlət proqnozlarından geniş istifadə edilməyə başlanıldı. 2003-cü ildən Azərbaycanın iqtisadi inkişafında yeni mərhələ başladı. 2003-2005-ci illərdə ölkə prezidenti İlham Əliyevin irəli sürdüyü "tarazlı iqtisadi inkişaf", "idxalı əvəzedən iqtisadi siyasət", "neftdən və neftin qiymətindən asılı olmayan iqtisadiyyat", "insanların iqtisadi cəhətdən azad olması", "xarici amillərdən asılılığın azadılması" konsepsiyaları Azərbaycanın iqtisadi inkişaf modelində müəyyən prinsipial dəyişikliklərin edilməsini zəruri etdi.Təxminən 2006-2009-cu illərdən başlayaraq, dövlətin iqtisadiyyata müdaxiləsi bir qədər gücləndirildi. Nəticədə 2020-ci idə 2003-cü ilə nisbətən ölkənin ümumi daxili məhsulu 3,3 dəfə, sənaye məhsulu 2,6 dəfə, kənd təsərrüfatı məhsilları 1,8 dəfə, əhalinin gəlirləri 9,8 dəfə, dövlət büdcəsinin gəlirləri 27 dəfə artmışdır. 2004-2020-ci illərdə bütün maliyyə mənbələri hesabına iqtisadiyyatın maddi-texniki bazasının modernləşdirilməsinə və inkişafına 274 milyard dollardan çox investisiya qoyulmuşdur. Bununda 51 faizi daxili mənbələr hesabına maliyyələşdirilmişdir. Bu uğurları yüksək qiymətləndirilməklə yanaşı, iqtisadi inkişaf konsepsiyalarının, dövlət proqramlarının və proqnozlarının, prezident fərmanlarının və hökümət qərarlarının necə yerinə yetirilməsini nümayiş etdirmək üçün bir neçə fakta diqqət yetirmək istərdim.

Ölkə başçısının irəli sürdüyü "tarazlı iqtisadi inkişaf", "idxalı əvəzedən siyasət", "neftdən və neftin qiymətindən asılı olmayan iqtisadiyyat" konsepsiyalarının indiyə qədər, yəni 20 il ərzində heç birinin icrası təmin olunmamışdır. Belə ki, 2020-ci ildə 2005-ci illə müqayisədə məhsul idxalı 2,6 dəfədən çox artmış və 10,7 mlrd dollar təşkil etmişdir. Neftdən və neftin qiymətindən asılılıq hələ də əhəmiyyətli dərəcədə davam edir. Belə ki, 2021-ci ildə dövlət büdcəsinin gəlitlərinin 51,3 faizi məhz bu sektordan daxil olmuşdur. 2005-ci ildə ölkənin şimal bölgəsində çıxışında ölkə prezidentinin idxalın əvəzedilməsinin mühüm vəzifə olduğunu vurğulamasına baxmayaraq, 10 illərdi ki, idxalın həcmi ildən ilə stabil olaraq artır və 2020-ci ildə 10,7 milyard dollara çatmışdır. Bu da 2010-cu illə müqayisədə 1,6 dəfə artım deməkdir. 2018-ci ildə qeyri-neft məhsullarının adambaşına idxalı 1033 dollar olmaqla, onların ixracından 6 dəfə çox olmuşdur. Sənaye məhsulları da əsasən yarımfabrikat halında ixrac edilir. Onların ixracı sürətlə artır. Belə ki, 2020-ci ildə 2011-ci illə müqayisədə pambıq lifinin ixracı 38 dəfə, pambıq ipliyinin, fermentləşdirilmiş tütünün, ilkin

formada etilen polimerlərinin ixracı 1,4-2,1 dəfə, emal olunmamış aliminiumun ixracı 3,8 dəfə artmışdır. Baxmayaraq ki, hələ 2011-ci ildə Nazirlər Kabinetinin 8 fevral tarixli sərəncamı ilə ölkədən ixrac olunan xammal və yarımfabrikatların hazır məhsuladək ictehsal edilməsinin təşkili müvafiq nazirliklərə tapşırılmışdır.

"Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda 2020-ci ildə 2010-cu illə müqayisədə ölkənin ümumi daxili məhsulunun əsasən qeyri-neft sektorunun hesabına 2 dəfə artırılması və adambaşına 13 min dollara çatdırılması hədəflənmişdir. Ancaq bu dövrdə ümumi daxilin məhsulun artımı cəmisi 8,7 faiz, qeyri-neft sektorunda isə 13,7 faiz olmuşdur. 2020-ci ildə adambaşına ÜDM-in istehsalı 4272 dollar olmaqla, qəbul edilmiş hədəftən 3 dəfə az təşkil etmişdir. Ona görə də 2020-ci ilə inkişaf konsepsiyasının qeyri-neft sektorunun məhsul ixracının adambaşına 1000 dollara çatdırılması barədə əsas hədəfə nail olunmamışdır. 2020-ci ildə bu göstərici 174 dollar olmuşdur. 2012-ci ildə ölkə başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan-2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nın hədəflərindən biri 2020-ci ilə qədər Azərbaycanın iqtisadi və siyasi cəhətdən inkişaf etmiş ölkə olmasını təmin etməkdən ibarət olmuşdur. 2017-ci ildə ölkə başcısı demişdir: "Dünyanın ən inkişaf etmiş ölkələrinin meyarlarının Azərbaycanda tətbiqi mütləqdir". Hal-hazırda həmin meyarların heç birinə Azərbaycanda nail olunmamışdır. Belə ki, 2020-ci ilə qədər inkişaf etmiş ölkəyə çevrilməyi hədəfləmiş Azərbaycanın sənaye istehsalında emal sənayesinin xüsusi çəkisi 25-30 faiz təşkil etmişdir. İnkişaf etmiş ölkələrdə bu göstərici 65-70 faizə bərabər olur. ÜDM-in xidmət sektorunda yaranan hissəsi 70 faiz əvəzinə Azərbaycanda 35-40 faiz civarındadır.İqtisaiyyatda məşğul olanların 36 faizdən çoxu aqrar sektorda işləyir və ildən ilə də artır. İnkişaf etmiş ölkələrdə bu göstərici 1-3 faiz səviyyəsindədir.

2003-cü ildən başlayaraq, 20 illik dövrü (2004-2023-cü illər) əhatə edən 4 regional dövlət proqramı qəbul edilmişdir. Regional iqtisadi siyasətin əsas hədəflərindən biri onların iqtisadi və sosial inkişafında mövcud olan fərqlərin azadılması və tarazlığa nail olunmasıdır. Regionların tarazlı sosial-iqtisadi inkişafı ilə bağlı konsepsiyanın hədəflərinin icra səviyyəsinin tədqiqindən görünür ki, onların inkişafında fərqlər əhəmiyyətli dərəcədə azalmır və tarazlıq hələlik təmin olunmamışdır. İqtisadi inkişaf səviyyəsi bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, üçüncü regional dövlət proqramının yekununda, yəni 2018-ci ildə, məsələn, Naxçıvan iqtisadi rayonu ilə müqayisədə digər iqtisadi rayonlar (işğaldan azad edilmiş regionlar istisna olmaqla) adambaşına məhsul istehsalına görə 1,5-4, əsas kapitala investisiyaya görə 1,1-1,2, pərakəndə ticarət dövriyyəsinə görə 1,4-1.9 dəfə aşağı pillədə qərarlaşmışdır. Bu sıralamada bütün göstəricilərə görə birinci yer Naxçıvan, ikinci yer Abşeron, üçüncü yer Aran iqtisadi rayonlarına məxsusdur. Ən aşağı göstəricilər 1 milyona yaxın əhalisi olan Lənkəran iqtisadi rayonunda formalaşmışdır. Son 15 ildə qeyri-neft sektorunun inkişafının prioriteyliyini elan etmiş ölkədə 2015-ci ildə tədiyyə balansının cari əməliyyatlar və kapital hesabı 266,4 mln.dollar defisitlə yekunlaşmışdır. Ölkənin ehtiyat aktivləri 11,3 milyard dollar azalmışdır. Bu vəziyyət qeyri-neft məhsullarının və xidmətlərinin idxalı hesabına yaranmışdır. Cünki neft-qaz məhsullarının ixracından ölkəyə 14,1 milyard dollar xarici valyuta daxil olmuşdur. Elmi araşdırmalardan qənaətimiz ondan ibarətdir ki, 2015-ci ildə milli valyutanın 2 dəfə ucuzlaşmasının əsas səbəbi qeyri-neft sektorunun inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının, proqnozlarının və hökumət qərarlarının icrasının vaxtında təmin olunmamasıdır.

ABŞ və Qərbi Avropa ölkələrində ümumi milli gəlir ümumi daxili məhsuldan 5-6% çox olduğu halda, dövlət tənzimləmə sistemindəki boşluqların nəticəsində Azərbaycanda, əksinə, əvvəlki illərdə olduğu kimi 2014-cü ildə ümumi milli gəlir ümumi daxili məhsuldan 1,7 milyard manat və ya 3% az, 2018-ci ildə 3,8 milyard manat və ya 5,8% az, 2019-cu ildə 3,2 milyard manat və ya 4% az təşkil etmişdir.

İqtisadi siyasətin tərkib hissəsi kimi qeyri-neft emal sənayesi sahələrinin və aqrar sektorun aqroemal prinsipi əsasında, miqyaslı və səmərəli inkişafının təmin olunması nəzərdə tutulur. Ancaq ölkədə sahələrin, istehsallların və əmtəə bazarının koordinasiyalı inkişafına əhəmiyyətin verilməmişdir. Bu da kənd təsərrüfatı, yüngül sənaye və istehlak bazarı arasında istehsal-ticarət əlaqələrinin zəifləməsinə gətirib çıxarmışdır. Yüngül sənaye müəssisələrinin çoxu profilini dəyişmiş və ya fəaliyyətini dayandırmışdır. Nəticədə yüngül və yeyinti sənaye sahələri ölkə iqtisadiyyatında öz mövqelərini itirmişdir. Məsələn, 2020-cı ildə yüngül sənaye sahəsinin ümumi sənaye məhsulunda xüsusi çəkisi 1,1 faiz olmuş, 10 mln. nəfərdən çox əhalisi olan Azərbaycanda 544 min cüt ayaqqabı istehsal edilmişdir. 2020-ci ildə isə ölkə dəyəri 67,4 mln dollar olan 31,5 mln cüt ayaqqabı idxal etmişdir. Bu rəqəmlərin müqayisəsi tələb edir ki, bir tərəfdən, kənd əsərrüfatı məhsullarının istehsalı miqyaslı artırılsın, digər tərəfdən, klaster əsasında onların emalında inqilabi dönüş yaradılsın. Bu yolla kənd təsərrüfatı ilə emal sənayesinin proporsional inkişafına və dəyər zənciri əsasında əlavə dəyərin artırılmasına nail olmaq üçün xüsusi mərkəzi idarəetmə orqanına ehtiyac var. Bu məqsədlə Azərbaycanda sənayenin inkişafına məsul olan mərkəzi idarəetmə orqanının, yəni Sənaye Nazirliyinin bərpa edilməsi düzgün olar. Bu istiqamətdə nəzərdə tutulan və digər tədbirlərin həyata keçirilməsini bu nazirliyə tapşırılması məqsədəuyğundur.

Yuxarıda deyilənləri nəzərə almaqla, iqtisadi-sosial inkişaf siyasətinin hədəflərinə nail olmaq üçün Azərbaycan dövlətinin iqtisadi tənzimləmə mexanizmlərində təkmilləşdirmələr həyata keçirməklə, təsərrüfat subyektlərinin, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, iqtisadi fəaliyyətinin tənzimlənməsinin, koordinasiyasının və ona dövlət tərəfindən nəzarət edilməsinin gücləndirilməsi zəruridir.

Tarazlı reqional iqtisadi-sosial siyasətə, aqrar sahədə kooperativlərin yaradılmasına, emal sənayesində məşğulluğun artırılmasına və ölkədə yoxsulluğin azaldılması problemlərinə xüsusi diqqət yetirilməlidir. Hesab edirik ki, Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi, iqtisadi inkişafın yüksək səviyyədə koordinasiyası təmin edilməlidir. Azərbaycanda dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudlaşdırılması, iqtisadiyyatla məşğul olan mərkəzi idarəetmə orqanları arasında vəzifə bölgüsünün və koordinasiya sisteminin önəmli olmaması qədul edilmiş qərarların həyata keçirilməsində arzu olunan nəticələri verməmişdir. Mənim bu qənaətimin əsaslı olduğunu yuxarıda göstərilən faktlar bir daha sübut edir.

2018-ci ilin aprel ayının ortalarında Azərbaycan Respublikası Prezident Adminstrasiyasının o zamankı rəhbəri akademik R.Mehdiyev "Azərbaycan" qəzetində dərc edilmiş "Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri" adlı əsərində idarəetmə sistemində institusional islahatların aparılmasının zərurililiyinə xüsusi diqqət yetirmişdir. O, haqlı olaraq vurğulayır ki, institusional islahatlar birinci növbədə dövlət strukturlarının tənzimləyici rolunun gücləndirilməsini təmin etməlidir. Bu məqsədlə, akademikin fikrincə, islahatlar hər şeydən öncə iqtisadi idarəetmə və tənzimləmə "yükünün" dövlət orqanları arasında "səmərəli" və "ədalətli" bölgüsünə, iqtisadi yönümlü dövlət orqanlarının fəaliyyətinin səmərəli koordinasiyasının təmin edilməsinə, onların hüquq və səlahiyyətləri ilə məsuliyyətlərinin balanslaşdırılmasına yönəldilməlidir. Elə buradaca Azərbaycanda idarəetmə "yükünün" bölgüsünün səmərəli olmadığına aid faktı diqqətə çatdırmaq istəyirəm. Ölkə prezidentinin 2019-cu il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Əsasnamə" ilə İqtisadiyyat Nazirliyinə 15 fəaliyyət sahəsi üzrə dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı statusu verilmişdir. "Əsasnamə"də nazirliyin 23 adda fəaliyyət istiqaməti, 105 bənddən ibarət vəzifəsi nəzərdə tutulmuşdur [2]. Xarıcı ticarət üzrə 15 bənddən, investisiya üzrə 9 bənddən, sahibkarlıq fəaliyyəti üzrə 8 bənddən, sənaye üzrə 7 bənddən ibarət nazirliyin vəzifəsi müəyyən edilmişdir. Bir nazirliyin bu qədər yüklənməsi nə dərəcədə məqbul hesab oluna bilər? Obyektivlik xatirinə demək lazımdır ki, bir nazirliyin bu yükün öhdəsindən gəlməsi, altından çıxması mümkün deyil. Yuxarıda göstərilən faktlar bir daha sübut edir ki, Nazirlik bu vəzifələrin öhtəsindən qənaətbəxş səviyyədə gələ bilmir. 15 fəaliyyət sahəsində dövlət siyasətinin və tənzimləmənin həyata keçirilməsi İqtisadiyyat Nazirliyinə həvalə edildiyinə görə müvafiq dövlət qurumları da ya ona tabe edilmiş, ya da onun strukturuna daxil edilmişdir. Qəribəlik ondadır ki, 100-dən çox rezident müəssisəsi olan sənaye zonalarının, habelə Kənd Təsərrüfatı Nazirliyi ola-ola ölkədə fəaliyyət göstərən 60-dan çox aqroparkın və iri təsərrüfatların idarə edilməsi İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir. Hesab edirəm ki, bu 15 fəaliyyət sahəsindən ancaq biri, yəni makroiqtisadi proqnozların hazırlanması və onların icrasına nəzarət edilməsi nazirliyin səlahiyyətinə aid edilməlidir. Düzgün olaraq makroiqtisadi proqnozların hazırlanması İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir. Ancaq onların icrasına nəzarət və yerinə yetirilməsinin təmin edilməsi heç bir idarəetmə strukturunun vəzifəsinə daxil edilməmişdir. Bu da onun nəticəsidir ki, makroiqtisadi dövlət proqnozlarının təyinatı əsasən dövlət büdcəsinin proqnozlaşdırılması prosesində nəzərə alınmasından ibarətdir. Belə ki, dövlət proqnozlarının hazırlanmasını, təyinatını və məzmununu tənzimləyən Nazirlər Kabinetinin hər il qəbul etdiyi qərardan aydın olur ki, dövlət proqnozlarında məqsəd onun göstəricilərindən dövlət büdcəsinin formalaşdırılmasında nəzərə almaqdan ibarətdir. Apardığım elmi araşdırmalardan qənaətim ondan ibarətdir ki, əvvəla, hal-hazırda tərtib olunan orta müddətli dövlət proqnozlarının heç bir səfərbəredici və koordinasiyaedici əhəmiyyəti yoxdur. İkinci mühüm məsələ ondan ibarətdir ki, dövlət proqramlarının, qəbul edilmiş inkişaf konsepsiyalarının, strateji yol xəritələrinin hədəflərinin icrasını təmin edən hədəflərin ölçüləri dövlət proqnozlarında nəzərdə tutulmur.

Qəribə və təəccüb doğuran da odur ki, dövlət proqnozları tərtib olunan illərdə dövlət büdcəsinin gəlirləri proqnozlara nisbətən artıqlaması ilə icra olunduğu halda, iqtisadi inkişafın natural və dəyər makroiqtisadi göstəriciləri əhəmiyyətli dərəcədə kəsirlə yerinə yetirilir. Hesab edirik ki, makroiqtisadi proqnozların dəyər və məhsul nomenklaturası üzrə vaxtında və nəzərdə tutulmuş həcmlərdə icra edilməsinin ölkənin və regionların tarazlı inkişafında və tələb-təklifin balanslaşdırılmasında mühüm rola malik olduğuna görə onların icrasının təmin edilməsi Nazirlər Kabinetinin və yerli icra hakimiyyəti orqanlarının vəzifələrinə daxil edilməlidir. İqtisadiyyat Nazirliyi isə onların icrası barədə müvafiq informasiyaları əldə etməklə, ölkə başçısına və hökumətə hesabat təqdim etməlidir. Ölkədə sosial-iqtisadi inkişafın tənzimləmə problemlərinin həlli məqsədilə ilk öncə Azərbaycan Respublikasının əsas qanunu olan Konstitusiyanı rəhbər tutaraq, İqtisadiyyat Nazirliyinin fəaliyyət istiqamətlərinə və vəzifələrinə yenidən baxmaq və onları Nazirlər Kabineti ilə bölüşdürmək lazımdır.

“Azərbaycan Respublikasının Konstitusiyası”nda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır [maddə 114]. Həmçinin Nazirlər Kabineti ölkə prezidentinin yuxarı icra orqanı kimi müəyyən edilmişdir. Bizim fikrimizcə, qənaətə gəlmək olar ki, Konstitusiya ilə iqtisadi və sosial sferalarda ölkə prezidentinin icra səlahiyyətləri Nazirlər Kabinetinə verilmişdir. Bu o deməkdir ki, iqtisadi sektorlarda dövlət siyasətini və tənzimləməni həyata keçirən orqan Nazirlər Kabineti olmalıdır [3, maddə 114]. Dövlət büdcəsinin icrasını, maliyyə-kredit və pul siyasətini, habelə dövlət iqtisadi və sosial təminat proqramlarının həyata keçirilməsini təmin etmək Konstitusiya ilə Nazirlər Kabinetinin səlahiyyətlərinə daxil edilmişdir [maddə 119]. Burada bir məsələyə də diqqət yetirmək lazımdır. Bir çox postsosialist ölkələrin (məsələn, Rusiya Federasiyası) təcrübəsini nəzərə alaraq, Nazirlər Kabineti haqqında qanunun qəbul edilməsini məqsədəuyğun hesab edirik. Bu qanunla Nazirlər Kabinetinin vəzifələri və hüquqları daha ətraflı, konkret və geniş təsbit olunmalıdır. Strateji yol xəritəsinin sosial-iqtisadi inkişafın yüksək səviyyədə həyata keçirmək barədə tövsiyyəsini nəzərə alaraq, ölkə üzrə yüksək səviyyədə iqtisadi fəaliyyətin koordinasiyasını, bizim fikrimizcə, həyata keçirmək Nazirlər Kabinetinin borcudur [3, maddə 114, 119 və başqaları].

“Azərbaycan 2030: sosial inkişafa dair milli prioritetlər”də sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılması nəzərdə tutulduğuna görə gəlirlərin ədalətli bölgüsü mühüm əhəmiyyət kəsb edir. Hal-hazirda Azərbaycanda gəlirlərin bölgüsü ədalətli deyil. Azərbaycanda gəlirlərin bölgüsündə problem mövcuddur. Məsələn, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azadılması və davamlı inkişaf Dövlət Proqramı”nda 2011-ci ildən ölkə üzrə minimum əmək haqqının və pensiyaların baza hissəsinin yaşayış minimumu səviyyəsini üstələməklə müəyyənləşdirmək, ehtiyac meyarını yaşayış minimumu səviyyəsinə çatdırmaq hədəf kimi qəbul edilmişdir. Faktiki olaraq 2014-2015-ci illlərə minimum əmək haqqı yaşayış minimumundan 1,2-1,3 dəfə az təsdiq edilmişdir. 2022-ci ilə minimum əmək haqqı yaşayış minimumundan 1,4 dəfə çox, ehtiyac meyarı isə yaşayış minimumundan az təsdiq edilmişdir. Əslində minimum əmək haqqı ilə yaşayış minimumu arasında fərq olmamalıdır. Ona görə də səmərəli bölgü mexanizmindən istifadəyə ciddi ehtiyac vardır. Ölkədə yaranan gəlirlərin bölgü mexanizmində mövcud olan problemlərin nəticəsidir ki, yaranma mərhələsində ümumi daxili məhsulun cəmisi 24-25 faizi əmək ödənişlərinə verilir, 10-11 faizə qədəri dövlətə çatır, 60-65 faizə qədəri isə təsərrüfat subyektlərinin gəlirini təşkil təşkil edir (2020-ci il). Dövlət idarəetmə strukturlarında (Prezident Aparatı, Milli Məclis, Nazirlər Kabineti, hüquq mühafizə orqanları və s.) aylıq əmək haqqı ayrı-ayrılıqda müxtəlif yanaşmalarla təyin edilir. Nəticədə süpürgəçinin əməyi alimin əməyindən yüksək qiymətləndirilir. Sosial yönümlü iqtisadi inkişaf modelini seçmiş Avropa ölkələrində əmək ödənişləri ÜDM-nin 40-60 faizinə bərabər olur. 2018-ci ilə dövlət büdcə xərclərinin 20,3 faizi əmək ödənişləri üçün nəzərdə tutulmuşdur.

Gəlirlərin bölüşdürülməsinə mənfi təsir edən səbəblərdən biri əmək haqqının və sosial müavinətlərin əməyin ödənilməsinin minimum məbləği əsasında müəyyən edilməsi qaydasından 1996-cı ildən Azərbaycanda istifadə edilməməsidir. Beynəlxalq əmək təşkilatının üzvü olan Azərbaycanda onun qəbul etdiyi qaydadan istifadə olunmur. Bu o deməkdir ki, 2030-cu ilə milli prioritetin hədəfinin icrasını təmin etmək üçün bütünlükdə ölkə üzrə əmək haqqının və sosial müavinətlərin əməyin ödənilməsinin minimum məbləği əsasında müəyyən edilməsi qaydasından istifadə edilməsi zəruridir. Bu məqsədlə ölkə prezidentinin fərmanı verilməlidir. Eyni zamanda Azərbaycan Respublikasının Əmək Məcəlləsindəki “minimum əmək haqqı” anlayışının Beynəlxalq Əmək Təşkilatının 131 nömrəli Konvensiyasında verilən tərifə uyğunlaşdırılması tələb olunur. Konvensiyaya əsasən minimum əmək haqqı işçinin və onun ailəsinin tələbatını təmin etməlidir, həyat səviyyəsini lazım olan səviyyədə saxlamağa imkan verməlidir [1]. Əmək Məcəlləsində isə deyilir ki, minimum əmək haqqı ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normadır [maddə 155.2].

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. https://www.e-qanun.az/framework/46943.
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin “Əsasnamə”si. AR Prezidentinin 2019-cu il 30 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuşdur.
3. Azərbaycan Respublikasının Konstitusiysı. Əsas Qanun. 12 noyabr 1995-ci il.

Резюме

Гусейнов Т.Х.

Проблемы регулирования в социально-экономическом развитии Азербайджана

В статье рассматриваются концепсия, принятая в стране для регулирования социально-экономического развития, задачи Министерства экономики и Кабинета Министров Азербайджанской Республики. Анализируется и оценивается состояние выполнения концепции

социально-экономического развития, государственных прогнозов, региональных программ и система координации развития экономики. Анализируются показатели развития внешней торговли и ненефтяного сектора. Вносятся научно обоснованные предложения и рекомендации по регулированию социально-экономического развития.

Ключевые слова: *концепсия развития, ненефтяной сектор, внешняя торговля, государственные прогнозы и программы, минимальная зарплата*

Summary

Huseynov T.H.

Problems Regulation in the Socio-Economic Development of Azerbaijan

The article considers the concept adopted in the country to regulate socio-economic development, tasks of the Ministry of Economy and the Cabinet of Ministers of the Republic of Azerbaijan. The state of implementation of the concept of socio-economic development, state forecasts, regional programs and the system of coordination of economic development are analyzed and evaluated. Indicators of development and foreign trade of the non-oil sector are analyzed. Scientifically based proposals and recommendations are made for to regulate socio-economic development.

Key words: *concept of development, non-oil sector, foreign trade, state forecasts and programs, minimum wage*

MİLLİ İNKŞAF VƏ İQTİSADİ ARTIMIN KEYFİYYƏTİ

Xankişiyev Xankişi Səməd oğlu

UNEC

khanbiznes@mail.ru

Xülasə: *Postindustrial iqtisadi sistemə keçid və iqtisadi həyatın qloballaşması prosesi şəraitində iqtisadi artım fenomeni mühüm dəyişikliklərə məruz qalır. Getdikcə iqtisadi artımın kəmiyyət göstəriciləri deyil, keyfiyyət amilləri həlledici olur. Onlar qloballaşan dünyada milli inkişafın və milli rəqabət qabiliyyətinin əsas səbəbidir.*

Bu artımın təxminləri birmənalı deyil. İqtisadçılar liberal islahatlar siyasətinin effektivliyinin sübutunu görürlər, digərləri isə əsasən enerji resursunu, artımın artırılması üçün ehtiyatı qeyd edir və belə qənaətə gəlirlər ki, gələcəkdə belə artım təkcə ölkənin iqtisadi inkişafına deyil, həm də geriliyi artırır. onun texniki-iqtisadi strukturu. Müzakirələr zamanı müasir Azərbaycanda iqtisadi artımın keyfiyyəti məsələsi önə çəkilir. Artımın keyfiyyəti məsələsinin elmi müzakirəyə çıxarılması çoxşaxəlidir.

Açar sözlər: *milli inkişaf, iqtisadi artım, innovativ inkişaf, iqtisadi əməkdaşlıq, ehtiyatlar*

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi güclənəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır. [1,6]

Postsənaye iqtisadi sistemə keçid və təsərrüfat həyatının qloballaşması prosesində iqtisadi artım fenomeni əhəmiyyətli dəyişikliklərə məruz qalır. Getdikcə iqtisadi artımın kəmiyyət göstəriciləri deyil, keyfiyyət amilləri həlledici əhəmiyyət kəsb edir. Məhz onlar qloballaşan dünyada milli inkişafı və milli rəqabət qabiliyyətini təmin edən əsas səbəbinə çevrilir. Azərbaycanda 2000-ci ildən başlayaraq ÜDM artımı müşahidə edilir. Bu artımın qiymətləndirmələri birmənalı deyil. Bəzi iqtisadçılar onda XX əsrin 90-cı illərin liberal islahatlar siyasətinin effektivliyinin sübutunu görürlər, digərləri əsasən artımın enerji – xammal, ehtiyat doldurulmasını qeyd edirlər və belə nəticə çıxarırlar ki, perspektivdə belə artım təkcə ölkənin iqtisadi inkişafına kömək etmir, həm də onun texniki – iqtisadi strukturunun geri qalmasını gücləndirir. Diskussiyaların əsnasında müasir Azərbaycanda iqtisadi artımın keyfiyyəti məsələsi durur. Artımın keyfiyyəti haqqında məsələnin elmi müzakirəyə qoyulması çoxaspektlidir: ona artımın, onun onun dəyişiklik tendensiyalarının və strukturunun məzmununun, mənbələrinin və amillərinin zəruriliyi daxildir. Hazırda iqtisadi artımın keyfiyyətinin və iqtisadi artımın dövlət siyasətinin dəqiq anlayışı hələ formalaşmamışdır. Azərbaycan iqtisadiyyatı əvvəlki kimi uzun müddətli inkişaf strategiyası seçimi qarşısında durur, buna görə də iqtisadi artımın keyfiyyətinin milli inkişaf amili kimi tədqiq edilməsi çox aktualdır.

İqtisadi nəzəriyyədə iqtisadi artım fenomeninin tədqiq edilməsinə iki əsas yanaşma formalaşmışdır, onları təkrar istehsal və funksional – makroiqtisadi yanaşma kimi qeyd etmək olar.

Təkrar istehsal yanaşması öz başlanğıcını siyasi iqtisad nəzəriyyəsi klassiklərinin əsərlərindən götürür və marksist siyasi iqtisadda, XIX – XX əsrlərin iqtisadçılarının əsərlərində gələcək inkişafını tapır. Funksional – makroiqtisadi yanaşma tam şəkildə ilk dəfə C. M. Keynsin və onun ardıcıllarının əsərlərində verilmişdir və sonradan iqtisadi fikrin "əsas cərəyanı" çərçivəsində inkişaf etmişdir. Lakin göstərilən yanaşmaların uyğun gəlməməsi və onların qarşılıqlı qəbul edilməməsi bu yanaşmaların sistemli müqayisəsi ilə müşayiət edilmirdi ki, bu da, fikrimizcə, iqtisadi artım problemi üzrə tədqiqatların keyfiyyətini aşağı salır.

Göstərilən yanaşmaların bizim tərəfimizdən aparılan ayrılması və müqayisəsi

Cədvəl 1-də öz əksini tapmışdır. Bu cədvəl onlardan hər birində olan nəzəri çalarların bütün müxtəlifliyini özündə sığışdıra bilməsə də hər iki yanaşmanın daha əhəmiyyətli tərəflərini təqdim edir.

Cədvəl.

İqtisadi artımın tədqiq edilməsinə təkrar istehsal və funksional – makroiqtisadi yanaşmaların müqayisəli təhlili

Müqayisə kriteriyaları	Təkrar istehsal yanaşması	Funksional – makroiqtisadi yanaşma
1. İlkin metodoloji prinsiplər	Daha məşhur versiyalarda dialektik metod, dəyərin əmək nəzəriyyəsi	Sistem – funksional metodu, istehsal amilləri nəzəriyyəsi
2. İstehsal prosesinin izah edilməsi	İstehsal prosesi məhsulun istehsalı və dəyərin yaradılmasının vəhdəti kimi	İstehsal prosesi funksional hadisə, həmçins proses kimi. İkitərəflilik yalnız nominal və real ÜDM ayrılmasında təzahür edir (istehsalın qiymət və fiziki həcmi).
3. İqtisadi artımın əsası (İA)	İA kapitalın və genişlənmiş təkrar istehsalın toplanmasının nəticəsidir (istehsal fazalarının fasiləsiz, bərpa edilən hərəkətinin, paylanmasının, mübadiləsinin və istehlakının)	İA makroiqtisadi sistemin fəaliyyətinin nəticəsidir, son məhsulun (ÜDM) potensial buraxılışının artımı ilə eyniləşdirilən uzun müddətli artım trendidir.

Hər yanaşma özünün üstünlüklərinə və çatışmazlıqlarına malikdir.

Təkrar istehsal yanaşmasının üstünlükləri: təkrar istehsal prosesinin vacib tərəfinə diqqət, iqtisadi dinamikanın hərtərəfli nəzərdən keçirilməsi, təkrar istehsal prosesində struktur irəliləyişlərin və iqtisadiyyatın artım və inkişafının sıx əlaqəsinin roluna diqqət. Göstərilən yanaşmanın çatışmazlıqlarına son məhsulun yaradılmasında maddi istehsal sahəsinin roluna həddən artıq diqqət və xidmət sahəsinin töhfəsinə, ikiqat hesablama probleminə, ictimai təkrar istehsalın formalaşmış modellərinin işlənib hazırlanmasında olan çətinliklərə ayrılan diqqətin kifayət qədər olmamasını aid etmək olar.

Funksional – makroiqtisadi yanaşmanın üstünlükləri iqtisadi artımın təqdim edilmə formasının kəskinliyindən, yüksək operativlikdən, iqtisadiyyatın son məhsulunun daha tam uçotindan ibarətdir. Funksional – makroiqtisadi yanaşmanın çatışmazlıqları əsas anlayışların təyin edilməsində metodoloji qeyri – dəqiqliklə (ÜDM artım trendi statistik, hesablama kəmiyyətidir, o iqtisadi artımın vacib meyarı kimi çıxış edə bilməz), təsərrüfat fəaliyyətinin yalnız son nəticələrinə və istehsal prosesinin mürəkkəb daxili qarşılıqlı əlaqələrinə etinasız yanaşma zamanı makroiqtisadiyyatın əsas sahələri arasında son məhsulun paylanma proseslərinə diqqətlə bağlıdır.

Fikrimizcə, iqtisadi artım problemlərinin hərtərəfli tədqiqatı hər iki yanaşmanın - təkrar istehsal və funksional – makroiqtisadi yanaşmaların kompleks istifadəsi zamanı mümkündür. Funksional – makroiqtisadi yanaşma ayrı – ayrı amillərin iqtisadi artıma töhfəsini kəmiyyətcə qiymətləndirməyə imkan verir. Təkrar istehsal yanaşması iqtisadi artımın iqtisadi dinamikasının digər formaları ilə qaarşılıqlı əlaqəsini daha yaxşı göstərməyə, istehsal və artım amillərinin subordinasiyasını aparmağa imkan verir.

Artım amillərinə genişlənmiş təkrar istehsalın imkanlarını və hüdudlarını müəyyən edən başlıca iqtisadi amillər kimi istehsal amilləri (əmək, kapital, təbii resurslar, ETT) daxildir. Makroiqtisadi aspektdə istehsal amilləri təklif amilləri kimi qarşımızda durur. Onlarla yanaşı artım amillərinə artımın müxtəlif parametrlərinə, şərtlərinə və səciyyələrinə, onun potensial və faktiki tərəflərinə təsir göstərən bir sıra digər iqtisadi və qeyri – iqtisadi amillər daxildir. Artım amillərinin ətraflı təsnifatı iki əsas səciyyə üzrə aparıla bilər: 1) məzmun əlamətinə görə və 2) təsir formasına görə.

1. Artım amilləri məzmun əlamətinə görə aşağıdakı şəkildə təsnifatlaşdırılır:

- Yaranma sahəsinə görə: iqtisadi (istehsal amilləri, ümumi tələb amilləri, xarici iqtisadi amillər), siyasi, sosial, mədəni və s.

- Artımın müxtəlif tiplərinə mənsubiyyəti üzrə: ekstensiv (məşğulların sayının, əsas kapitalın və maddi resursların, emal edilən torpaq sahələrinin və s. arması) və intensiv (istehsalın effektivliyinin artması, işçilərin ixtisasının artması, əməyin intensivliyinin artması, resursqoruyucu texnologiyaların tətbiqi və s.);

- Milli iqtisadiyyata münasibətə görə: daxili (daxili tələbatın, investisiyaların artması, milli istehsalçıların rəqabət qabiliyyətinin artması və s.) və xarici (əlverişli xarici iqtisadi konyunktura, devalvasoya effekti və s.);

- Makroiqtisadi parametrlərə görə: ümumi tələb və təklif, əmanətlər və investisiyalar amilləri və s.

2. Təsir formasına görə iqtisadi artım amilləri aşağıdakı meyarlara əsasən təsnifatlaşdırılır:

- Təsir dövrünə görə: qısa müddətli, orta müddətli və uzun müddətli amillər;
- Təsir üsuluna görə: birbaşa və dolayı amillər;
- Təsir gücünə görə: güclü təsir edən və zəif təsir edən amillər;
- Təsir obyektlərinin sayına görə: inteqral (iqtisadi artımın bir neçə parametrlərinə təsir edir) və selektiv (bir parametrə) amillər;
- Təsirin daimilik dərəcəsinə görə: daimi və dəyişən amillər;
- Təsirin nəticələrinə görə: pozitiv və neqativ amillər.

İqtisadi artımın müxtəlif amilləri öz aralarında mürəkkəb qarşılıqlı təsirə daxil olur, onlar bir – birlərini həm qarşılıqlı gücləndirə bilər, həm də qarşılıqlı neytrallaşdıra bilər.

Təkrar istehsal və funksional – makroiqtisadi yanaşmaların birləşməsi aralarındakı nisbəti aşağıdakı şəkildə təyin etməyə imkan verir. Bütün qalan anlayışları əhatə edən başlanğıc anlayış kimi həm son məhsulun artımını, həm də ölkənin istehsal imkanlarının, iqtisadi potensialın artımını bildirən "iqtisadiyyatın artımı" anlayışını ayıraq. İqtisadiyyatın artımının təzahür formaları potensial və faktiki artımdır, həm də, bizim fikrimizcə, hər iki artıma uyğun olaraq ekstensiv və intensiv tərəfləri ayırmaq lazımdır. Potensial artım milli iqtisadiyyatın potensialının artmasıdır: ekstensiv, istifadə üçün əlçatan istehsal amillərinin sayı artır (əmək resurslarının, fiziki kapitalın, təbii resursların) və intensiv, istehsal amillərinin keyfiyyətinin artması baş verir. potensial artım ictimai təkrar istehsalın imkanlarını və perspektivlərini xarakterizə edir. Makroiqtisadi aspektdə potensial artım potensial ÜDM artımı kimi təzahür edir. İqtisadiyyatın artımının digər ifadə forması faktiki artımdır – iqtisadi fəaliyyətin bilavasitə nəticəsi son məhsulun artımıdır (faktiki ÜDM artımı), o da ekstensiv və intensiv ola bilər, həm də intensiv faktiki artım ekstensiv potensial artım əsasında və ya hətta onun olmadığı zamanı istehsal amillərinin daha dolğun şəkildə istifadəsi hesabına – çoxnövbəliliyin tətbiqi, iş vaxtının müddətinin artırılması, təbii resursların yataqlarının həddən artıq istismarı və s. zamanı mümkündür. Lakin, bir qayda olaraq, intensiv faktiki artım intensiv potensial artım əsasında baş verir.

İqtisadi artım ölkənin iqtisadi potensialının keyfiyyətinin artırılması və yüksəldilməsi əsasında real ÜDM faktiki artımında ifadə edilir. Bu zaman hər faktiki artımı iqtisadi artımla eyniləşdirmək olmaz: belə ki, faktiki artımın artıq mövcud istehsal gücü və mövcud işçi qüvvəsi bazasında baş verdiyi təqdirdə belə artım, ciddi desək, iqtisadi artım kimi təyin edilə bilməz. Hətta əgər iqtisadiyyatda faktiki artım müşahidə edilirsə, lakin paralel olaraq əsas fondların deqradasiyası, avadanlığın fiziki və mənəvi köhnəlməsi, iqtisadi cəhətdən fəal əhalinin sayının azalması və işçi qüvvəsinin keyfiyyətinin aşağı düşməsi (sağlamlığının, təhsilinin, ixtisasının) baş verirsə, o zaman belə faktiki artım iqtisadi artım deyil, çünki uzun müddətli perspektivdə ölkənin iqtisadi potensialı azalır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi – Bakı 2016

2. Mensch G. If This Long Wave Steeps-Up and Breaks: What Then? // Kondratieff Waves, Warfare and World Security. Ed. By T.C. Devezas. Amsterdam, 2005.

3. OECD. Environmental Outlook to 2050: The Consequences of Inaction. URL:http://www.oecd.org/document/0,3746,en_ 2649_37465_49036555_1_1_1_37465,00.html.

4. Шумпетер Й. Теория экономического развития. – М.: Прогресс, 1982.

Резюме

Ханкишиев Х.С.

Национальное развитие и качество экономического роста

В условиях перехода к постиндустриальной экономической системе и процесса глобализации экономической жизни феномен экономического роста претерпевает существенные изменения. Все чаще решающее значение приобретают качественные факторы, а не количественные показатели

экономического роста. Они являются главной причиной национального развития и национальной конкурентоспособности в глобализованном мире.

Оценки этого роста неоднозначны. Экономисты видят свидетельство эффективности политики либеральных реформ, другие в основном отмечают энергосырьевой, резерв восполнения роста и делают вывод, что такой рост в будущем не только способствует экономическому развитию страны, но и усиливает отсталость его технико-экономическая структура. В ходе дискуссий особо выделяется вопрос о качестве экономического роста в современном Азербайджане. Постановка вопроса о качестве роста в научную дискуссию многогранна.

Ключевые слова: *национальное развитие, экономический рост, инновационное развитие, экономическое сотрудничество, ресурсы.*

Summary

Xankishiyev X.S.

National Development and Quality of Economic Growth

In the transition to the post-industrial economic system and the process of globalization of economic life, the phenomenon of economic growth undergoes significant changes. Increasingly, qualitative factors, not quantitative indicators of economic growth, are of decisive importance. They are the main cause of national development and national competitiveness in the globalized world.

Estimates of this growth are ambiguous. Economists see evidence of the effectiveness of the liberal reform policy, others mainly note the energy-raw material, reserve replenishment of growth and conclude that such growth in the future not only contributes to the economic development of the country, but also strengthens the backwardness of its technical-economic structure. During the discussions, the question of the quality of economic growth in modern Azerbaijan stands out. Putting the issue of the quality of growth into scientific discussion is multifaceted.

Key words: *sustainable development, economic growth, innovative development, economic cooperation, resources*

AZƏRBAYCAN REGİONLARININ DAYANIQLI İNKİŞAFI: YAŞIL İQTİSADİYYAT

İbrahimli Lalə Nadir qızı, Mirzəyeva Güney Namiq qızı

Azərbaycan Memarlıq və İnşaat Universiteti

ibrahimlilala1975@gmail.com ; gny.mrzyv@gmail.com

Xülasə: *Artıq dayanıqlı inkişaf erasını yaşayırıq. Dayanıqlı İnkişaf resurslardan səmərəli istifadə etməklə, nəinki çağdaş nəslin, hətta gələcək nəslin tələbatlarını ödəməyi qarşısına hədəf olaraq qoyan konsepsiyadır. Hətta İnsan İnkişafı İndeksi yüksək olan bəzi inkişaf etmiş ölkələr dayanıqlı inkişafın davamı olan inklüziv inkişaf erasını yaşayır. Yeni tendensiyaların hökm sürdüyü çağdaş dövrümüzdə inkişafa meyil edən Azərbaycanda Dayanıqlı İnkişaf konsepsiyası öz aktuallığını qoruyur. Məqalədə Azərbaycanın regionlarında Dayanıqlı İnkişaf konsepsiyasının inkişafının və aktuallığının araşdırılması, həmçinin yaşıl iqtisadiyyatın mahiyyətinin müəyyən edilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir.*

Açar sözlər: *dayanıqlı inkişaf, yaşıl iqtisadiyyat, planetar resurslar, yaşıl biznes, insan inkişafı*

Dayanıqlı İnkişaf həm çağdaş nəslin, həm də gələcək nəsillərin maraqlarına cavab verən inkişaf kimi müəyyən edilə bilər. Bir sözlə, gələcək nəsillərin istifadəsi üçün planetar resursları bərpa etmək, saxlamaq və təkmilləşdirmək üçün indiki nəsillərin məsuliyyətinə xüsusi diqqət yetirilir. Dayanıqlı İnkişafa nail olmaq üçünbir neçə prinsip mövcuddur və bu faktorlar bir-biri ilə sıx əlaqəlidir. Bu amillərə nəsillər arasında bərabərliyi təşviq etmək, sistemi daha dayanıqlı inkişaf yollarına çevirmək, biliyi dayanıqlılıq üçün fəaliyyətlə əlaqələndirmək və insanlara digər imkanları həyata keçirməklə birlikdə işləməyə imkan verən idarəetmə mexanizmlərini hazırlamaqdır.[4]

Ölkəmiz ilk dəfə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Dayanıqlı İnkişaf yoluna qədəm qoymuşdur. Bu dövrdə Dayanıqlı İnkişafın məqsədlərini özündə əks etdirən qərarlar qəbul edilmişdir. Prezident İlham Əliyevin uğurlu siyasəti hər bir sahəyə müsbət təsir gösətrdiyi kim ölkəmizin istər sosial, istərsə də iqtisadi sektorun dayanıqlı inkişafına nail olmuşdur. Azərbaycanda Dayanıqlı İnkişaf konsepsiyasına ilk elmi yanaşma Sakit Hüseynov tərəfindən həyata keçirilmişdir. Onun "Dayanıqlı İnkişaf konsepsiyası: meydana gəlməsi, mahiyyəti, perspektivləri" adlı məqaləsində Dayanıqlı İnkişaf konsepsiyasının mahiyyəti əsaslı şəkildə izah olunmuşdur.

Ölkəmizdə "qara qızıl"ın "insan qızıl"ına çevrilməsinə istiqamətləndirilən inkişaf həyata keçirilir. Ölkəmizdə bu istiqamətdə həyat keçirilən siyasət beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. 2015-ci ildə neftin qiymətinin aşağı düşməsi, bununla da sənaye, neft hasilatı və tikinti sektorunda gəlirlərin azalması Azərbaycan iqtisadiyatında yeni bir iqtisadi konsepsiyanın inkişafını tələb edirdi. Bu proseslər iqtisadiyyatda 2016-ci ildə 3.8%, 2017-ci ildə isə 1.7% azalmaya səbəb olub. [3, s 10]

Təbiətə məhəl qoymayan, təbii sərvətlərdən heç vaxt bitməyəcəkmiş kimi istifadə edən iqtisadi inkişaf bəşəriyyətin gələcəyi üçün təhlükə yaradır. Yaşıl İqtisadiyyat Dayanıqlı İnkişafın təməlində durur. Bu termin ilk dəfə 1989-cu ildə meydana gəlmişdir. Daha sonra beynəlxalq təşkilatlar (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, BMT və s.) tərəfindən insan rifahını, ekoloji təhlükəsizliyi nəzərdə tutan anlayış kimi inkişaf etmişdir. Bir sözlə, özündə Dayanıqlı İnkişafın prinsiplərini əks etdirir. Yaşıl İqtisadiyyat "yeni dövrün iqtisadiyyatı" da adlanır. Yaşıl İqtisadiyyat özü ilə birgə "Yaşıl Texnologiya", "Yaşıl Biznes" və s. terminləri də gətirmişdir.

Azərbaycanda Yaşıl İqtisadiyyatın inkişafı Şərq Qonşuluğu Ölkələrində Yaşıl İqtisadiyyat (EaP Green) proqramı ilə başlamışdır. Belə ki, əsas maliyyəçisi Avropa Komissiyası olan bu proqramın məqsədi ölkənin dayanıqlı iqtisadi inkişafına zərər yetirən resursların səmərəsiz işlənməsi və bunun nəticəsində tükənmə təhlükəsi problemindən, həmçinin ekoloji böhrandan uzaqlaşdırmaqdır.[1] Azərbaycanda Yaşıl İqtisadiyyata keçid özünü kənd təsərrüfatı, nəqliyyat və energetikada göstərir. Bu istiqamətdə aparılan araşdırmalara əsasən qeyd olunan sahələrdə Yaşıl İqtisadiyyatın inkişafı üçün potensial daha yüksəkdir. Mütəxəssislərin fikrincə Yaşıl İqtisadiyyat ölkə iqtisadiyyatının neft sektorundan asılılığının azalmasına, qeyri-neft sektorunun inkişafında əsaslı rol oynayacaq. Bu amillər Azərbaycanı regionda güclü iqtisafi mərkəzlərdən birinə çevirəcək. Yaşıl İqtisadiyyat özünü Mingəçevir, Sumqayıt, Pirallahı, Balaxanı, Qaradağ və başqa ərazilərdə Yaşıl Bznes nümunəsi kimi sənaye parklarının yaradılmasında göstərir.[2]

Dayanıqlı İnkişafın təməlində sosial, ekoloji və iqtisadi aspektlər dayanır. Ölkəmizdə Dayanıqlı İnkişaf və Yaşıl İqtisadiyyat sahəsində qanunverici bazanın yenidən nəzərdən keçirilməsi, inzibati funksiyaların gücləndirilməsinə ehtiyac var. Əsas tələblər bu sahədə normativ hüquqi aktların hazırlaması, həmçinin dövlət qurumlarının, xüssusilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliiyyət gücünü artırmaqdır.

Azərbaycan üçün Yaşıl İqtisadiyyatın inkişafı vacibdir. Ölkəmiz zəngin qaz və neft ehtiyatlarından başqa əlverişli alternativ enerji mənbələrindən istifadə üçün də potensiala sahibdir. Azərbaycanda Yaşıl iqtisadiyyat sahəsində aparılan tədbirlər müsbət qiymətləndirilir. Qubada qolf mərkəzinin yaradılmas, Qusarda dağ-xizək turist kompleksinin fəaliyyətə başlaması Yaşıl Biznesin inkişafını göstərir. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası birbaşa olaraq Yaşıl İqtisadiyyatın məntiqini əks etdirir.

Ümumiyyətlə, bütün bu prosesləri nəzərdən keçirdikdə anlamaq mümkündür ki, bu sahədə ən çox ehtiyac duyulan maarifləndirmə tədbirləridir. İnsanların bu istiqamətdə maarifləndirilməsi insan kapitalının inkişafına və onların yaşıl iqtisadi sistemə bəhrə verməsinə, inkişaf etməsinə köməklik göstərəcəkdir. İlk öncə Yaşıl İqtisadiyyatın mahiyyətini bilmək lazımdır ki, onu uğurlu şəkildə həyata keçirə bilək.

Ədəbiyyat

1. Azerbaijan Science Association: https://azescience.org/gb/ekoloji-inqilab-yasil-iqtisadiyyat-ve-texnologiyalar/
2. Bizim yol: https://www.bizimyol.info/az/news/66667.html
3. EaP Green "Azərbaycanda yaşıl investisiyaların və maliyyələşmənin artırılması": http://www.green-economies-eap.org/resources/Azerbaijan_Scaling%20up%20Finance_AZERI%20VERSION_Reduced.pdf
4. International Institute for Sustainable Development: https://www.iisd.org/about-iisd/sustainable-development

Резюме

Ибрагимли Л. Н., Мирзаева Г.Н.

Устойчивое развитие регионов Азербайджана: зеленая экономика

В настоящее время мы живем в эпоху устойчивого развития. Устойчивое развитие – это концепция, направленная на удовлетворение потребностей не только нынешнего поколения, но и будущего поколения за счет эффективного использования ресурсов. Даже некоторые развитые страны с высоким индексом человеческого развития переживают эпоху инклюзивного развития, которое является продолжением устойчивого развития. Концепция устойчивого развития в Азербайджане, которая имеет тенденцию развиваться в нашу современную эпоху, где преобладают новые тенденции, сохраняет свою актуальность. Основными целями статьи являются

рассмотрение развития и актуальности концепции устойчивого развития в регионах Азербайджана, а также определение сущности Зеленой экономики.

Ключевые слова: *устойчивое развитие, зеленая экономика, планетарные ресурсы, зеленый бизнес, человеческое развитие*

Summary

Ibrahimli L. N., Mirzayeva G. N

Sustainable development of regions of Azerbaijan: Green economy

We are already living in the era of sustainable development. Sustainable Development is a concept that aims to meet the needs of not only the current generation, but also the future generation by using resources efficiently. Even some developed countries with high Human Development Index are experiencing the era of Inclusive Development, which is a continuation of Sustainable Development. The concept of Sustainable Development in Azerbaijan, which tends to develop in our modern era where new trends prevail, maintains its relevance. The main goals of the article are to examine the development and relevance of the concept of Sustainable Development in the regions of Azerbaijan, as well as to determine the nature of the Green economy.

Key words: *sustainable development, Green Economy, planetary resources, Green Business, human development*

XİDMƏTLƏRİN KEYFİYYƏTİNİN FORMALAŞMASI VƏ İDARƏ EDİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

İsmayılova Lalə Nurəddin qızı, Rzayeva Yaqut Sahib qızı

Azərbaycan Dövlət Aqrar Universiteti

rzayeva19_97@mail.ru

Xülasə: *Biznesdə keyfiyyətin rolunu müəyyənləşdirilməsi, xidmətlərin keyfiyyətinin formalaşmasının müəyyənləşdirilməsi, müasir biznes idarəçiliyində tətbiq edilən xidmətlərin keyfiyyətinin idarə edilməsi nəzəri aspeklərinin tədqiqindən ibarətdir. Xidmətin keyfiyyətinin yüksəldilməsi üçün müəyyənləşdirilmiş formada istehlakçının xidmət keyfiyyətinin formalaşma yetərsizliyini təyin etməkdir.Yerli və xarici ölkələrin iqtisadçı alimlərinin biznes sferasının idarə olunması sahəsində dərc edilmiş elmi tədqiqatları, nəzəri və praktiki fikirləri. Məqalənin yazılması prosesində ətraflı təhlil edilmiş, məntiqi araşdırma və s. üsullardan istifadə edilmişdir. Müəssisələrin xidmətlərin keyfiyyətinin idarə edilməsi və formalaşması üçün bünövrəsini daha da böyüdülməsini təmin etməkdir. Müəssisələr tərəfindən istehlakçı istəklərinə nəzər yetirərərək müəssisələrin xidmətlərinin keyfiyyətinin idarə edilməsi mexanizmini formalaşdırarkən tətbiq edilir. Müəssisələrin əlavə gəlir və mənəvi keyfiyyət əldə etməsinə imkan yaradan yüksək keyfiyyətli xidmətlərdir. Xidmətin keyfiyyəti müəyyən edilməsi üçün keyfiyyət standartına uyğun qiymətləndirilməsi istehlakçılar tərərfindən edilir. Hər bir xidmət növü standarta uyğun olmalıdır. Xidmətlərin təkmilləşdirilməsi və genişləndirilməsi, müəssisənin təkmilləşməsini və inkişafını təmin edir. Xidmətin keyfiyyətinin idarə edilməsi metodlarının və müəssisələrin xidmətlərinin keyfiyyətinin yüksəldilməsi mexanizminin formalaşmasının nəzəri və metodoloji əsasları işlənib hazırlanmışdır.*

Açar sözlər: *biznes sferası, xidmət, keyfiyyət, idarəetmə, bazar əlaqələri, strategiya, standart*

Müasir devirdə sürətli biznes sferasında inkişaf edən sahələrdən biri də xidmət sahəsidir. Xidmət – müəssisələrin fəaliyyəti nəticəsində alınan xidmətlərin mübadiləsidir. Xidmət bazarın xüsusiyyətləri mövcuddur, bunlar əsasən xidmətlərin xassələri ilə bağlıdır. Məsələn, bir xidmət təklifi edilənə qədər mövcud deyil və bu onun formalaşmasını və qiymətləndirilməsini çətinləşdirir. Xidmətlərdə qeyri-müəyyənlik mövcüddur , bu da öz növbəsində müştərini əlverişsiz vəziyyətə salır, və xidmətlərin təşviqində marketoloqlara müəyyən çətinliklər yaradır. Bazar iqtisadiyyatı qanunlarına əsasən inkişaf edən xidmət əmtəə bazarının bir növüdür .Bundan əlavə, eyni zamanda bir sıra xüsusiyyətlər sahibkarlıq xüsusiyyətlərinə malikdir və marketinq fəaliyyətinə xüsusi yanaşma tələb edir edir.Xidmət müştərilərinin tələbatlarını ödənilməsi üçün yönəldilmiş bir prosesdir.Xidmətin məqsədi-subyektlərin xeyirini nəzərə almaqla istehlakçıların istəklərinin araşdırılması və odənilməsi yolu ilə müəssisənin mənfəət əldə etməsidir.Alıcılar üçün qəbul olunan qiymət və çatdırılma xidmətlərini ilə kifayətlənən ,alıcıcnın ehtiyaclarının ödənilməsinə xidmətin keyfiyyəti deyilir.Xidmətin aktual imkanlarına uyğun olması,alıcıcnın razılığına gətirib çıxardır.İstehlakçıların aspirasiyasının və satınalmanın əsası ,keyfiyyətin idarə edilməsini əhatə edir.

Biznes sferasında xidmət sahəsi ən effektiv üsullardan biri də fəaliyyət zamanı rəqiblərlə müqaisədə daha keyfiyyətli xidmət göstərməkdir.Standartlara uyğun gələn və cavab verən göstəricilərə -keyfiyyət deyilir.Keyfiyyət nisbi göstərici kimi qəbul edilir.Biznesdə keyfiyyəti tələb olunandan artıq yüksəldilməsi israf sayılır yəni boşuna çəkilmiş xərc və yaxud vaxtdır.Keyfiyyətli xidmət üçün ,müəssisə işi vaxtında tez və elastik görmək lazımdır.Müəssisə əsasən problemli məqsədlər içində idarə oluna bilər.Bura daxildir :xərc,keyfiyyət ,sürət,elastiklik və vaxtında işi görmək. Biznesdə keyfiyyətin rolu zəruridirmi?Xeyir.Birinci tələb olunan keyfiyyəti müəyyənləşdirməliyik.İkinci isə problemli biznes məqsədlərini ilə keyfiyyətin yaxşılaşdırılmasının faydasının fərqinə baxmaq lazımdır. Xidmətin keyfiyyətini formalaşdırmaq üçün müəssisənin fəaliyyət göstərdiyi şəraitdən asılıdır. Hər bir müəssisə öz keyfiyyət standartlarını müəyyən edir. Bu standartların qiymətləndirilməsi vacibdir. Xidmət sahəsində keyfiyyət strategiyası keyfiyyətin idarə edilməsi ilə birləşməsi sistemli bağlanma deməkdir. Bu konsepsiya çoxölçülüdür və belə strategiyanın nəticəsi bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif aspektlərdən asılıdır. Həyata keçirildikdə, istehlakçı ilə xidmət göstərən müəssisə arasında bütün əlaqə məqamlarında keyfiyyət səviyyəsinin artması baş verməlidir. Effektivliyi yüksəltmək üçün xidmət göstərən müəssisəyə təqdim olunan xidmətlərin keyfiyyətinə davamlı şəkildə olaraq nəzarət etməlidir. Bunun üçün növbəti məqamlara diqqət yetirmək lazımdır:

• qarşı tərəfin fəaliyyəti ilə qarşılaşdırılması;
• gizlədilmiş çeklər (məsələn, “sirrli” müştərilər sistemi);
• istehlakçıların məcmusunun dərk edilməsi;
• narazıçılıq və irəli sürülmüş fikirlər sistemi,təftişçilər qrupları;
• istehlakçılardan müəssisə liderlərinə məktubların təqdim edilməsi sistemi. [Bayramov Anar, Biznes idarəçiliyi 2018].

İstehlakçıların xidmət barəsində fikirləri təcrübə və reklam vasitəsilə müəyyən olunur.Alıcılar onlara lazım olan xidməti seçirlər və xidmət əldə etdikdən sonra təəsürat və gözləmələrini müqaisələndirirlər.Əgər xidmətin nəticəsi gözləntilərə cavab vermirsə alıcı həmin xidmətə marağını itirir.Əgər nəticələr arzuolunandırsa və ya özünü doğruldursa ,alıcı keyfiyyətli xidmət göstərən istehlakçılarayenidən müraciyyət edirlər.Xidmətin keyfiyyətinin yüksəldilməsi üçün E.Parasuman,V .Caytambl və L.Berri xidmət keyfiyyəti formasını təklif ediblər və ona lazım olan əsas tələbləri araşdırmış və müəyyən etmişlər.Müəyyən olmuş formada istehlakçının xidmət keyfiyyətinin formalaşma yetərsizliyi təyin edən kəsilmə təqdim edilmişdir. İdarəetmə ilə xidmətin keyfiyyətinə olan tələblər arasındakı qırılma.Müəssisə administratoru xidmət standartlarını tətbiq etmədən müştərilərin tələbatını düzgün qəbul etmişdir.Administrator xidməti kəmiyyət cəhətdən nizama salmadan işçilərin tez işləməsini tələb edir. Xidmətə və keyfiyyətə olan tələblərin təqdim olunmasında qırılma.Əsas problemlərdən biridə,istehlakçının təyin edilmiş standartlara cavab verə bilməyən və vermək istəməmyən işçilərlə qaşılaşmasıdır.İşçi müştərinin istəyinə uyğun tez xidmət göstərilməsi ilə diqqətlə qulaq asmaqla arasındakı uyğunsuzluq standartlardada ola bilər. İstehlakçılar və məhsulların məlumatlar bazasını yaratmaq üçün müəssisə şikayətlərin növləri və məlumat qaynağını təhlil edilməsinə və öz siyasətini yenilənməsinə imkan yaradılmalıdır. [Fərhadi Püstə,Biznes əlaqələri, 2013].

Biznes sferasında istehlakçının xidmətin keyfiyyətindən razı qalması hər bir müəssisənin əsas vəzifəsidir.Biznes və biznes aspirasiyalarını tədqiq və xidmət etmək məqsədilə alıcının ehtiyaclarını təyin etmək olar.Xidmətlərin keyfiyyətinin dəyərləndirilməsi üçün əsas aspektlərdən biri də keyfiyyət mexanizmini müəyyən etmək və istehlakçının ehtiyacları ilə müqayisə etməkdir. Yüksək keyfiyyətli xidmətlər müəssisələrə əlavə gəlir gətirməyə və mənəvi keyfiyyət əldə etməyə imkan yaradır.Xidmətlərin keyfiyyətinə olan tələblər müəssisənin inkişaf faizindən,rəqabət dərəcəsindən və mütəxəssislərin peşəsindən aslıdır.Xidmətin keyfiyyəti müəyyən edilməsi üçün keyfiyyət standartına uyğun qiymətləndirilməsi istehlakçılar tərəfindən edilir.Hər bir xidmət növu standartlara uyğun olması vacibdir.Keyfiyyətin dəyərləndirilməsi subyektivdir.Keyfiyyətin ölçülə bilinməsinin səbəbi xidmətə olan tələblərin qeyri-maddi olmasıdır. Alıcıların sayı və gəlirin artmasının səbəbi tədqiqat dövründə müəssisələrin xidmətindən razı qalınmasıdı.Xidmətlərin genişləndirilməsi və inkişafına imkan verən müasir keyfiyyət idarəetmə mexanizmlərinin yaradılması ,müəssisənin təkmilləşdirilməsini və inkişafını təmin edir. Müəssisələrin xidmətinin keyfiyyətinin artırılması,müəssisənin təyin edilmiş strateji ,taktiki və istənilən məqsədə nail olmaq bacarığına əsaslansın.Müəssisənin nailiyyəti bir başa təşkilati hissələrə uyğun səviyyədə vacib və təmin edən bütün xidmət sahələrində idarə etmək üsüllarından asılı olmalıdır.Bu öz növbəsində nəzarət sistemləri əsasında müəssisənin xidmətlərin keyfiyyətinə və onun nəticələrinə əsasən tədqiqatda təklif olunan forma əsasında müəssisənin fəaliyyətinin effektivliyinin artırılmasına keçid etməyə imkan verəcək.

Ədəbiyyat

1. Гаврюшина, Е.В, Совершенствование бизнеса
2. Bayramov Anar,Biznes idarəçiliyi 2018

3. Eken, Musa ve Demirkan, Mahmut (1998); “Yerel Yönetimlerin HizmetAnlayışında Değişimin Gerekliliği ve Toplam Kalite Felsefesini Uygulanabilirliği”, Yerel Yönetim ve Denetim Dergisi, C. 3, S. 2, Mart
4. Fərhadi Püstə,Biznes əlaqələri, 2013
5.https://www.researchgate.net/publication/228694916_Business_service_management_service_and_service_quality
6. I.M.Abbasov, R.F.Sadiqov ,Menecment,Bakı-2013
7. İmanov Ə.Ş, Keyfiyyətin idarə olunması
8. Koloçeva V.V., Xidmətlərin keyfiyyətinin idarə edilməsi,2018
9. Menecement. Şahbazov K., Məmmədov M.H., Həsənov H.S. və b., Bakı-2005.
10. Taizan Chan, Erwin Fielt, Guy Gable, Karen Stark , Business Service Management

Резюме
Исмаилова Л.Н., Рзаева Я.С.
Формирование качества услуг и теоретические аспекты менеджмента

В статье проводится подробный анализ, логическое исследование качества услуг. Он заключается в обеспечении дальнейшего развития основ управления и формирования качества услуг предприятий, используется предприятиями при формировании механизма управления качеством предприятий с учетом потребительских предпочтений. Это высококачественные услуги, которые позволяют предприятиям получать дополнительный доход и моральный дух. Потребители оцениваются по качеству в соответствии со стандартами качества для определения качества обслуживания. Каждый вид услуг должен соответствовать стандартам. Улучшать и расширять услуги, обеспечивать совершенствование и развитие предприятия. Разработаны теоретико-методологические основы формирования методов управления качеством услуг и механизмов повышения качества услуг предприятий.

Ключевые слова: *сфера бизнеса, услуга, качество, управление, рыночные отношения, стратегия, стандарт*

Summary
Ismayilova L.N., Rzayeva Y.S.
The Formation of the Quality of Services and Theoretical Aspects of Management

Defining the role of quality in business, determining the formation of service quality, the study of theoretical aspects of service quality management applied in modern business management. To improve the quality of service is to determine the inadequacy of the formation of consumer quality of service in the prescribed form. Published scientific researches, theoretical and practical opinions of local and foreign economists in the field of business management. In the process of writing the article, detailed analysis, logical research, etc. methods were used. To ensure the further development of the foundation of enterprises for the management and formation of service quality. It is used by enterprises in the formation of the mechanism of quality management of services of enterprises, taking into account the wishes of consumers. These are high quality services that allow businesses to generate additional revenue and morale. Consumers are assessed for quality in accordance with quality standards to determine service quality. Each type of service must meet standards. Improve and expand services, ensure enterprise improvement and development. Theoretical and methodological bases for the formation of service quality management methods and mechanisms for improving the quality of services of enterprises have been developed.

Key words: *business sphere, service, quality, management, market relations, strategy, standard*

AZƏRBAYCANIN DAYANIQLI İQTİSADİ İNKİŞAFININ TƏMİN EDİLMƏSİNDƏ İNNOVASİYANIN ROLU

Kərimli Tahir Vahid oğlu
Azərbaycan Kooperasiya Universiteti
quliyev.taleh2022@gmail.com

Xülasə: *Azərbaycanda Məqalədə innovasiyanın davamlı və dayanıqlı iqtisadi inkişafdakı rolunun müasir aspektləri araşdırılmışdır. Müasir dövrdə texnoloji yeniliklər dünyanın hər yerində iqtisadi inkişafı şərtləndirən ən əsas amillərdən biri hesab olunur. Bu tendensiya Azərbaycanda da baş verir, xüsusilə də*

dayanıqlı inkişafın mühüm aspektlərindən biri hesab olunan resursların səmərəli istifadəsində bunu görə bilərik. Lakin bütün bunlarla birlikdə bir sıra çatışmazlıqlar da mövcuddur. Məqalənin sonunda bütün bunlarla bağlı müəllifin fikirləri göstərilmiş, tövsiyyə və təkliflər irəli sürülmüşdür.

Açar sözlər: *dayanıqlı inkişaf, innovasiya, Azərbaycan, iqtisadiyyat, texnoloji yeniliklər*

İnnovasiya fəaliyyəti ideyaların (adətən tədqiqat və təcrübə-konstruktor işlərinin nəticələri və ya digər elmi və texniki nailiyyətlərin) transformasiyası ilə bağlı fəaliyyətdir:

- bazarda mövcud olan texnoloji cəhətdən yeni və ya təkmilləşdirilmiş məhsul və ya xidmətlərdə;
- təcrübədə istifadə olunan yeni və ya təkmilləşdirilmiş texnoloji proseslərdə və ya xidmətlərin istehsalı (ötürülməsi) üsullarında.

İnnovasiya fəaliyyətlərinə birlikdə innovasiyaya səbəb olan bir sıra elmi, texnoloji, təşkilati, maliyyə və kommersiya fəaliyyətləri daxildir [2, s.38].

Son illər davamlı inkişaf və innovasiya kimi anlayışlar dünya ölkələrinin ən mühüm inkişaf istiqamətləri ilə sinonimləşib. Əksər inkişaf etmiş milli iqtisadiyyatların məqsədi təkcə artım və ya iqtisadi inkişaf deyil, davamlı inkişaf və son illərdə təcrübənin göstərdiyi kimi, innovasiya səviyyəsinin yüksəldilməsi, xüsusən də ekoloji təmiz texnologiyaların inkişafı istiqamətində həyata keçirilir. Azərbaycanda da bu sahədə ciddi müzakirələr aparılır və çatışmazlıqların aradan qaldırılması üçün işlər gedir.

İnnovasiya idarəçiliyi innovasiya prosesinə və innovasiya ilə bağlı maraqlı tərəflər arasında qarşılıqlı əlaqələrə təsir edən qərar qəbul etmə qaydalarına aiddir.[4, səh.13] O, həm mövcud qanunvericilik, qaydalar və digər siyasət qərarları ilə bağlı formal komponentə, həm də innovasiya iştirakçılarının həvəsləndirilməsi və motivasiyası ilə bağlı qeyri-rəsmi və ya davranış komponentinə malikdir. [5, səh.3] İnnovasiya idarəetməsi həm innovasiyaların idarə edilməsi ilə məşğul olan dövlət sektoru qurumlarını, həm də özəl sektorun innovasiya ilə bağlı maraqlı tərəflərini (işlər, maliyyə institutları, innovasiya vasitəçiləri və s.) əhatə edir [3, s.101].

Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafını hədəfləyən siyasətin hazırlanmasında texnoloji innovasiyaların inteqrasiyası həm texnoloji təcrübənin inteqrasiyasını, həm də texnologiyanın dayanıqlı inkişafın sütunlarında olan daha geniş nəticələrin aydın başa düşülməsini nəzərdə tutur. Davamlı inkişaf baza planlarında texnologiyanın təsirini izləmək davamlı iqtisadi inkişaf siyasətlərinə rəhbərlik etməli olan istiqamətləri vurğulamağa imkan verir. [1, səh. 12] Yalnız bundan sonra, texnoloji innovasiyaların bu siyasətlərə inteqrasiyasına əsaslanaraq, davamlı inkişafın təmin edilməsi üçün ən yaxşı şərtlərdən danışmaq olar.

Azərbaycanda innovasiya idarəçiliyində dövlət sektorunun xüsusi funksiyalarından biri siyasətin hazırlanması və həyata keçirilməsinin əlaqələndirilməsidir. Buna ehtiyac, oxşar idarəetmə səviyyəsində bir çox aktorlara təsir edən innovasiya siyasətinin üfüqi təbiətindən irəli gəlir. Effektiv siyasət koordinasiyası innovasiya siyasətinin əsas elementlərinin dizaynından və innovasiya ekosistemi daxilində onlar arasında qarşılıqlı əlaqəyə imkan verən (və ya əngəl törədən) səmərəli əlaqələrin mövcudluğundan asılıdır [3, s.46].

Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan dünya ölkələrində innovasiyaların ümumiləşdirilməsi mühitini dəstəkləmək üçün geniş spektrli təşəbbüslər praktikada artır.

Enerji və Resurslar İnstitutunda ekspert məsləhətləşməsi siyasətin gücləndirilməsinin aşağıdakı sahələrini müəyyən edir:

- Təşkilati/sistemik innovasiya diffuziya üçün kritik əhəmiyyətə malikdir və bununla adekvat şəkildə məşğul olmaq lazımdır.
- Mövcud çərçivə davamlılıq və cəmiyyətlə əlaqə kimi aspektləri nəzərə almayan Ar-Ge və texno-mərkəzli fokusla xəttidir.
- Nəşrlərə və patentlərə meyl var, lakin siyasət həm də qeyri-rəsmi bilik sistemlərini və innovasiyaları əhatə etməlidir.
- Sənəddə maliyyələşdirmə müddəaları və əməliyyatların həyata keçirilməsi üçün lazım olan vəsait göstərilmir.
- İnsan resurslarının inkişafı, ətraf mühit və maliyyə kimi digər nazirliklərlə daha güclü əlaqələr olmalıdır.

Azərbaycan və bənzər iqtisadi inkişaf yolunu seçən bir sıra inkişaf etməkdə olan ölkələr müasir dünyanın dayanıqlı iqtisadi inkişaf modelini izləməlidir. Müasir iqtisadi inkişafın əsas götürülən xarakterik xüsusiyyətlərini təhlil etmək özlüyündə böyük bir təcrübə mənbəyi hesab oluna bilər. Bu xarakterik xüsusiyyətləri aşağıdakı qaydada verə bilərik:

- İnkişaf etmiş ölkələrdə adambaşına düşən məhsulun və əhalinin yüksək artım templəri.

- Məhsuldarlığın yüksəliş sürəti.
- İqtisadiyyatda struktur transformasiyasının sürəti.
- Cəmiyyətin strukturlarının dəyişməsi və onun ideologiyası.
- Nəqliyyat və rabitənin inkişafı ilə qloballaşmanın artması.
- Dünya əhalisinin 75%-i üçün yoxsulluğun yüksək səviyyəsi artımı məhdudlaşdırır.

Azərbaycanda dayanıqlı və davamlı inkişafı təmin etmək üçün texnoloji innovativ yeniliklərin istifadəsi stimullaşdırılmalıdır ki, həm əldə olunan nəticələr bu sahədə çəkilən xərcləri qarşılasın, həm də dünyanın inkişaf etmiş ölkələrindəki təcrübədən istifadə sürətlə və effektov şəkildə optimallaşdırılsın. Bunun üçün isə innovativ yeniliklərlə dayanıqlı iqtisadi inkişafı əlaqələndirmək baxımından uğurlu və zəngin təcrübəyə malik bir sıra inkişaf etmiş ölkələrin keçdiyi ortaq yolu keçmək lazımdır. Bu məqamda isə bütün bunları nəzərə alaraq aşağıdakı təklifləri irəli sürə bilərik:

- ümumi məqsədləri və niyyətləri razılaşdırmaq;
- suala aid olan müvafiq mövcud formal və qeyri-rəsmi bilikləri müəyyən etmək (platformadan kənarda və daxilində əhatə dairəsi);
- bu cür biliklərdəki boşluqları müəyyən etmək və onların doldurulmasına çalışmaq (ETİ vasitəsilə);
- dəyişiklik üçün müvafiq maneələri müəyyən etmək (qaydalar, institutlar, siyasətlər, yoldan asılılıq və s.);
- Səlahiyyət və fəaliyyət istiqaməti məsələləri:
- aktorların özlərinin həyata keçirmək səlahiyyətinə malik olduqları həyata keçirmək üçün digər iştirakçılara ehtiyac duyduqları fəaliyyət istiqamətlərini müəyyən etmək və razılaşdırmaq;
- sözügedən bölgədən, bölgədən, millətdən kənarda daha geniş dünya ilə əlaqə qurmaq

Ədəbiyyat

1. Andreea Constantinescua, Simona Frone, The Role of Technological Innovation in Sustainable Economic Development, 2019, 17.p.
2. Bengt-Åke Lundvall, Aalborg University Birgitte Gregersen, Aalborg University Björn Johnson, Aalborg University Edward Lorenz, University of Nice, Innovation Systems and Economic Development, 2011, 48 p.
3. Iwona Bąk , Katarzyna Cheba, Irena Łącka, Sustainable Development and InnovationsHow They Work Together? 2020, p.93-123.
4. John Bryden, Stig. S.Gezelius and Karen Refsgaard, Governing Innovation for Sustainable Development: Designing'creative institutions, 2013, p.1-27.
5. Manish Anand and Shailly Kedia, The Energy and Resources Institute (TERI), New Delhi, Innovation Policy and Sustainable Development, 2015, p.1-4. https://sustainabledevelopment.un.org/content/documents/6559119-Anand_Innovation%20Policy%20and%20Sustainable%20Development.pdf.

Резюме

Керимли Т.В.

Роль инноваций в обеспечении устойчивого экономического развития Азербайджана

В статье рассматриваются современные аспекты роли инноваций в устойчивом экономическом развитии Азербайджана. На современном этапе технологические инновации считаются одним из важнейших факторов, определяющих экономическое развитие во всех частях мира. Эта тенденция наблюдается и в Азербайджане, особенно в области эффективного использования ресурсов, что считается одним из важных аспектов устойчивого развития. Но при всем этом есть ряд недостатков. В конце статьи показано мнение автора по решению проблемы, выдвинуты рекомендации и предложения.

Ключевые слова: *устойчивое развитие, инновации, Азербайджан, экономика, технологические инновации*

Summary

Karimli T.V.

The Role of Innovation in Ensuring Sustainable Economic Development of Azerbaijan

The article examines the modern aspects of the role of innovation in sustainable economic development and the role of innovation in the sustainable economic development of Azerbaijan. In modern

times, technological innovations are considered one of the most important factors determining economic development in all parts of the world. This tendency also occurs in Azerbaijan, especially in the efficient use of resources, which is considered one of the important aspects of sustainable development. But with all this, there are a number of disadvantages. At the end of the article, the author's opinions on all these are shown, recommendations and suggestions are put forward.

Key words: *sustainable development, innovation, Azerbaijan, economy, technological innovations*

MEYVƏÇİLİYİN İNNOVATİV İNKİŞAFININ İQTİSADİ ƏHƏMİYYƏTİ

Qasımova Nuridə Əliş qızı
Azərbaycan Kooperasiya Universiteti
nurida.qasimova1971@gmail.com

Xülasə: *Məqalədə meyvəçiliyin innovativ inkişafının iqtisadi əhəmiyyəti təhlil olunaraq onun ölkənin iqtisadiyyatının inkişafında xüsusi yerinin olduğu müəyyən edilir. Azərbaycanda meyvə və giləmeyvə məhsulları istehsalında əsas yeri alma, xurma, nar, üzüm, sitrus meyvələri və fındıq təşkil edir. Dünya meyvə bazarında bu məhsulların xüsusi yer tutduğu nəzərə alınaraq, onların intensiv bağçılıq salınması vasitəsilə çoxaldılması, bu məhsulların ixrac potensialının artırılması yolları təhlil edilmişdir. İntensiv bağçılığın salınmasında xaricdən gətirilən tinglərin əkilməsinin meyvə istehsalının artırılmasına təsiri müəyyənləşdirilir.*

Açar sözlər: *meyvəçilik, iqtisadiyyat, investisiya, innovativ inkişaf, rəqabət*

Ölkəmizdə aqrar sahədə aparılan islahatlar, həyata keçirilən dövlət proqramlarında müəyyən edilmiş hədəflərə çatmaq meyvəçilik sahəsində də müsbət nəticələr əldə etməyə imkan vermişdir. Belə ki, 2010-2020-ci illər ərzində meyvə bağlarının sahəsi 127.7 min hektardan 213.8 min hektara, məhsul istehsalı isə 728.5 min tondan 1133.1 min tona çatmışdır. Eyni zamanda 2020-ci ildə Azərbaycanın meyvə məhsulları istehsalı dünya üzrə istehsal olunan meyvə məhsullarının 0.12%-ni, 2020-ci ildə adam başına meyvə istehsalı isə 112 kq təşkil etmişdir ki, bu da dünyada adambaşına düşən meyvə istehsalından (195 kq) 43% aşağıdır. Hazırda ölkədə meyvə və giləmeyvə istehsalında əsas yeri alma, xurma, nar, üzüm, sitrus meyvələri və fındıq təşkil edir ki, bu da meyvə ticarətində əsas ixrac məhsulları olmaqla dünya meyvə bazarında mühüm yer tutur.

Hazırda meyvə sahəsi və məhsuldarlığı üzrə ən yaxşı 9 ağac növü sitrus meyvələri, alma, armud, şaftalı, üzüm, nar və xurmadır. Meyvəçiliyin inkişaf etdirilməsində ən mühüm sahə isə onun emal sənayesi üzrə inkişaf etdirilməsidir. Azərbaycanda meyvəçiliyin inkişafına təkan verəcək əsas sahə onların emal sənayesinin inkişaf etdirilməsi ilə bağlıdır [1, səh.64]. Yeyinti sənaye müəssisələrinin meyvə emalı və alınan məhsulların ixracı 2021-ci illə müqayisədə cari ildə 15% artırılarsa, birbaşa iqtisadi fayda 3,3 milyon ABŞ dolları arta bilər. Məhz bu baxımdan emal sənayesinin inkişafı üçün istehsal olunan məhsulların çeşidləri və istifadə kanallarının genişləndirilməsi tələb olunur. Bura daxildir meyvə şirəsi, meyvə şərabı, meyvə konservləri, mürəbbələr, cemlər, müxtəlif qənnadı və konditer məhsulları, qurudulmuş meyvələr, içkilərin hazırlanması üçün meyvə tozu, meyvənin funksional inqrediyentləri və s. Yeyinti sənayesinin inkişaf etdiyi ölkələrdə meyvə emalı sənayesinin inkişafında dərindən emala böyük əhəmiyyət verilir və meyvə emalının səviyyəsi 80%-dən artıqdır.

Ölkənin ərzaq təhlükəsizliyinin, ekoloji təhlükəsizliyin, insanların sağlamlığının təmin edilməsində, fermerlərin gəlirlərinin artırılmasında və kənd təsərrüfatının dayanıqlı inkişafında meyvəçilik və onun emal sənayesi getdikcə daha böyük rola malik olmaqla, fermerlərin gəlirlərinin artırılmasında, kəndlərin dirçəlişini təşviq etmək üçün mühüm dayaq sahələrindən biridir. Məhz bu baxımdan meyvəçiliyin müasir texnologiyalar hesabına inkişaf etdirilməsi və intensiv bağçılığın genişləndirilməsi istiqamətində mühüm addımlar atılmaqdadır.

Milli müasir kənd təsərrüfatı sənayesi texnologiyası sisteminin və digər xüsusi layihələrin uzunmüddətli və sabit dəstəyi ilə yeni əsas meyvə ağacı sortlarının introduksiyası, yetişdirilməsi və təbliği diqqətəlayiq nəticələr əldə etmiş, meyvə ağacları sortlarının strukturunun tənzimlənməsi işləri aparılmışdır. *Məsələn, Quba Regional Aqrar Elm və İnnovasiyalar Mərkəzi və Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu tərəfindən gilas bitkisinin Regina, Kordia, Summit, Burlat, Ziraat-0900 kimi sortları ölkəmizə introduksiya olunmuş və bu sortlar üzrə yeni meyvə bağları salınmışdır. Bunlardan başqa, gilas bitkisinin GiselA-5, GiselA-6 və MaxMa-14 calaqaltı formaları da introduksiya edilmişdir [4, səh.108].*

Meyvəçiliyin innovativ fəaliyyətin təşkilinin təkmilləşdirilməsi dövlət tənzimlənməsi və bu sahədə subtropik meyvə bağlarının salınmasının stimullaşdırılması ilə bağlı atılan addımlar əsasında subtropik

meyvə bağlarının genişlənməsi uğurla həyata keçirilsə də ənənəvi bağçlıq sahələri üstünlük təşkil edir ki, bu da məhsuldarlığın aşağı olmasına səbəb olur. Eyni zamanda intensiv bağçılığın inkişafı üçün xaricdən gətirilən tinglər (şaftalı, qoz) yerli şəraitə uyğun olmadığından bağların müəyyən hissəsi 3 ildən sonra sıradan çıxır və məhsuldarlıq aşağı düşür. Burada əsas səbəblərdən biri istehsalçıların tinglər haqqında, o cümlədən onların bioloji xüsusiyyətləri haqqında informasiyalarının olmamasıdır ki, bu da yeni salınan bəzi bağların zərərlə işləməsinə səbəb olur.

İntensiv bağların salınmasında meyvə ağaclarının inkişafı üçün uyğun olan torpaq-iqlim şəraitində suvarma suyunun və torpaqların tərkibinin öyrənilməsi, təhlilinin aparılması investor üçün vacib məqamlardan hesab edilir. İntensiv bağçılığın inkişafı logistikanın inkişafını da şərtləndirir. Belə ki, məhsulların itkisiz saxlanılması və daşınması da mühüm məsələlərdən hesab olunur. Və sonda ən mühüm məsələ məhsulun vaxtında sərfəli qiymətlərlə satılmasıdır ki, bu da investoru çox narahat edən suallardan biridir.

Məlum olduğu kimi, bağçılıqda taxılçılıq, tərəvəzçilik və bitkiçiliyin digər sahələrindən fərqli olaraq, meyvə və giləmeyvə məhsullarının nəzərdə tutulmuş ümumi istehsal həcminin əldə edilməsi meyvə və giləmeyvə bitkilərinin əkin sahələrinin həcmini nəzərə almaqla müəyyən edilir. Lakin bununla yanaşı, intensiv və yüksək intensiv bağların ənənəvi bağlardan 2-3 il tez məhsul verməsi və qoyulan investisiyanın geri qayıtması baxımından Dövlət Proqramlarında hədəf kimi götürülməklə təsərrüfatlar tərəfindən intensiv meyvə bağlarının sahələrinin payının artırılmasına üstünlük verilir.

Meyvəçiliyin tərkib hissəsi olan sitrus meyvələrinin inkişafına dair Dövlət Proqramının 2018-2025) icrasından gözlənilən nəticələrin 7.1 bəndində qeyd edilir ki, *Dövlət Proqramının həyata keçirilməsi Azərbaycanda sitrus meyvəçiliyi ənənələrinin inkişaf etdirilməsinə, sitrus meyvələrinə olan daxili tələbatın ödənilməsinə və idxaldan asılılığın azaldılmasına, sitrus meyvəçiliyi ilə məşğul olan rayonlarda əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına təsir göstərməklə ölkənin aqrar potensialını gücləndirəcəkdir [2, səh.206].*

İqtisadi inkişafı əks etdirən əsas amillərdən biri də əhalinin gəlirlərinin artırılması və onların alıcılıq qabiliyyətinin yüksəldilməsidir. Həm əhalinin artan gəliri, həm də əhalinin sayının artımı istər ölkə daxilində, istərsə də qlobal səviyyədə meyvə məhsullarının istehsalının artması üçün mühüm hərəkətverici qüvvəyə çevrilmişdir. İnkişaf etməkdə olan daxili və xarici bazarların yüksəlişi sənaye üçün böyük inkişaf stimuludur, yəni məhsula tələbat artır. Məhz bu baxımdan, bu sahəyə investisya yatırmaq iqtisadi cəhətdən səmərəli hesab olunur. Hesab edirik ki, gələcəkdə emal sənayesi sahələri üçün həm mövcud, həm də inkişaf etməkdə olan bazarlarda istehlak modellərində baş verən dəyişikliklərə ciddi diqqət yetirilməsi, onların davamlı inkişafı üçün vacibdir.

İqtisadiyyatın liberallaşdırılması, bazarlara sərbəst çıxışın təmin edilməsi və rəqabət mühitinin daha da genişlənməsi şəraitində məhsulların istehsalının artırılması və bunun ənənəvi mövcud texnologiyalar ilə edilməsi iqtisadi baxımdan səmərəli deyil. Ekstensiv və yarım intensiv tipli, əkinçilikdə yüksək əmək intensivliyi və aşağı məhsuldarlığı olan az gəlirli, güclü meyvə bağları; bar verməyə gec başlaması və emal sənayesi üçün xammalın gec yetişməsi bir qayda olaraq gələcək perspektivlərə geniş imkanlar açmağa malik deyil.

Ölkəmizdə bağçılığın səmərəli inkişafı üçün, iqtisadiyyatın digər sahələri kimi, sahibkarların, investorların və eləcə də dövlətin aqrar emal sənayesinin genişlənməsinə və inkişafına investisiya qoymaqda maraqlı olması məqsədəuyğundur [3, səh.197]. Bu məqsədlə müxtəlif növ intensiv meyvə bağlarının becərilməsi üçün müasir texnologiyalar işlənib hazırlanmalı və istifadə olunan tinglər rayonlaşdırılmalıdır. Onların həyata keçirilməsi bütün səviyyələrdə ixtisaslı kadrlar tərəfindən həyata keçirilməli, dövlət tərəfindən isə aktiv təşkilati və maliyyə dəstəyi göstərməlidir.

Araşdırma nəticəsində məlum olmuşdur ki, Azərbaycanda meyvə və giləmeyvə istehsalı və istehlakı inkişaf etmiş ölkələrdə əldə olunan səviyyəyə uyğun gəlmir, eyni zamanda rəqabət qabiliyyəti aşağı olmaqla bərabər ixrac coğrafiyasının genişlənməsində yaranan digər çətinliklər səbəbindən əsasən Rusiya Federasiyası bazarlarına ixrac olunur. Bununla belə, adambaşına düşən meyvə və giləmeyvə məhsullarının istehsalında artım meylini qeyd etmək lazımdır. Dünya siyasətində baş verən proseslər məhsullarımızın əsasən ixrac olunduğu ölkələrə (RF və Belarusiya) tətbiq olunan sanksiyalar meyvə və tərəvəzçilikdə ciddi çətinliklərin yaranacağını deməyə əsas verir. Məhz bu baxımdan aqrar emal sənayesinin yüksək texnologiyalarla inkişaf etdirilməsi qarşıda duran əsas hədəflərdən biri olmalıdır.

Ədəbiyyat

1. Alıyev, İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. / İ.H.Alıyev. – Bakı: Elm, - 2008. - 400 s.

2. Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2018-ci il 3668 №-li Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı".
3. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı, 2016, - 655 s.
4. Интенсивное садоводство на юге Украины: Справ. Изд./Сост. Якушев В.И.- Симферополь: Таврия - 2000.-256 с.

Резюме
Гасымова Н.А.
Экономическая значимость инновационного развития плодоводства
В статье проанализировано экономическое значение инновационного развития садоводства и отмечено, что оно имеет важное значение в развитии экономики страны. Яблоки, финики, гранаты, виноград, цитрусовые и орехи занимают основное место в производстве плодово-ягодной продукции в Азербайджане. С учетом особого места этих продуктов на мировом рынке фруктов были проанализированы пути увеличения их воспроизводства за счет интенсивного садоводства и увеличения экспортного потенциала этой продукции. Определено влияние посадки импортных саженцев на увеличение урожайности плодов в условиях интенсивного садоводства.
Ключевые слова: *плодоводство, экономика, инвестиции, инновационное развитие, конкуренция*

Summary
Gasimova N.A.
Economic Importance of Innovative Development of Fruit Growing
In the article, the economic importance of the innovative development of fruit growing was analyzed and it was determined that it has an important importance in the development of the country's economy. Apples, dates, pomegranates, grapes, citrus fruits and nuts occupy the main place in the production of fruit and berry products in Azerbaijan. Taking into account the special place of these products in the world fruit market, ways of increasing their reproduction through intensive horticulture and increasing the export potential of these products were analyzed. The effect of planting imported seedlings on increasing fruit production in the establishment of intensive horticulture has been determined.
Key words: *fruit growing, economy, investment, innovative development, competition*

BİLİK İQTİSADİYYATINDA ƏSAS GÖSTƏRİCİLƏR VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

Qasımova Zülfiyyə Mirzə qızı
Sumqayıt Dövlət Universiteti
qasimovazulfiyya75@gmail.com

Xülasə: *Məqalədə bilik iqtisadiyyatının ölçülməsinin zəruriliyi əsaslandırılmışdır. Bilik iqtisadiyyatının ölçülməsi üçün göstəricilər sistemi müəyyənləşdirilmiş və qiymətləndirilmişdir. Bilik iqtisadiyyatının əsaslandığı sütunlar tədqiq edilmiş və hər bir sütuna daxil edilən göstəricilər aşkar edilmişdir. Dünya Bankının bilik iqtisadiyyatının ölçülməsi metodologiyası nəzərdən keçirilmişdir. Bilik İqtisadiyyatı İndeksinin mahiyyəti açıqlanmışdır. Azərbaycanda bilik iqtisadiyyatından istifadəni əks etdirən göstəricilərdən biri kimi İnternetdən istifadənin mövcud vəziyyəti təhlil edilmişdir.*
Açar sözlər: *İnternet, bilik iqtisadiyyatı, göstərici, metodologiya, innovasiya, informasiya*

Bilik iqtisadiyyatının inkişafının idarə edilməsi müntəzəm monitorinq tələb edir. Buna görə də bilik iqtisadiyyatının ölçülməsi aktual problemdir və iqtisadi tədqiqatların tərkib hissəsinə çevrilir. Müxtəlif beynəlxalq təşkilatlar bilik iqtisadiyyatı üçün göstəricilər sistemlərini və onların kəmiyyətcə qiymətləndirilməsi üsullarını inkişaf etdirirlər ki, bu da bu göstəricilərdəki dəyişikliklərin dinamikasını izləməyə imkan verir. Müvafiq məlumatların olmaması bilik iqtisadiyyatının ölçülməsi üçün əsas maneədir.

Bir çox ekspertlərin proqnozlarına görə, cəmiyyətimizin inkişaf perspektivləri bir insanla, yəni onun istehsal etdiyi, payladığı və istifadə etdiyi biliklər, intellektual kapital və kadrların artan səriştəsi ilə əlaqələndiriləcəkdir. Müasir iqtisadiyyatda bilik istehsalın səmərəliliyini artıra və iqtisadi artımı təmin edə

bilən qeyri-maddi aktivə çevrilir. Bilik iqtisadiyyatına keçid bütün dünya birliyi üçün ən aktual problem və altıncı texnoloji nizama gedən yolda ən mühüm məqsəddir. Onun əsas istiqamətləri aşağıdakı kimi texnologiyalarla təmsil olunur: alternativ enerji; nanotexnologiya; qlobal telekommunikasiya və informasiya şəbəkələri; biotexnologiya; koqnitiv texnologiyalar; süni intellekt sistemləri və s.

Bilik iqtisadiyyatı innovasiya, tədqiqat və sürətli texniki tərəqqi ilə qidalanır. Biliklərə əsaslanan iqtisadiyyatda çalışanların böyük əksəriyyəti kompüterdə yüksək biliklərə malikdir və biznes və maliyyə modelləri yaratmaq bacarıqlarına malikdir. Burada məlumatların toplanması və təhlilinə, həmçinin alqoritmlərin və süni intellektin inkişafına diqqət artır. Universitetlər, tədqiqat və beyin mərkəzləri, habelə onların kəşflərindən istifadə edən müəssisələr arasında bilik mübadiləsi aparılır.

İqtisadiyyatın sektorları getdikcə daha çox bilik tutumlu fəaliyyətlərə əsaslanır ki, bu da fiziki resurslardan deyil, intellektual kapitaldan daha çox asılılıq yaradır.

Təcrübədə bilik iqtisadiyyatı sıx bağlıdır:

- yüksək texnologiyalı istehsalla (kompüter, elektronika, kosmik sənaye);
- təhsil, səhiyyə və proqram təminatının inkişafı kimi xidmət sahələri ilə;
- sığorta, informasiya və rabitə kimi biznes xidmətləri ilə.

Dünya Bankının metodologiyasına görə, "bilik iqtisadiyyatı" 4 sütuna əsaslanır:

1. İnstitusional mühit. 2. İnnovativ sistem. 3. Təhsil və təlim. 4. İnformasiya infrastrukturu [3, s.150].

1. İnstitusional struktur. İnstitusional struktur cəmiyyətin iqtisadi həyatının bütün sahələrində yerli və qlobal biliklərin geniş miqyasda yayılmasını və səmərəli tətbiqini dəstəkləyən, sahibkarlığın inkişafına kömək edən iqtisadi və institusional xarakterli müəyyən stimulların yaradılmasına əsaslanır.

2. İnnovativ sistem. İnnovasiya sistemi innovasiyaları və sahibkarlığı təşviq edən, qlobal biliklərin inkişafı maraqları naminə fəaliyyət göstərən və eyni zamanda, qlobal iqtisadiyyatın tələblərinə uyğun transformasiya edən kommersiya strukturlarını, elmi və tədqiqat mərkəzlərini, universitetləri və digər qurumları əhatə edən səmərəli təşkilati formalar və biznes mühitləri yaradır.

3. Təhsil və təlim. Bu element cəmiyyətin bütün üzvləri üçün layiqli təhsil və ömür boyu təhsil almaq perspektivləri olan ixtisaslı, dinamik və yaradıcı insanlardan ibarət cəmiyyətin formalaşdırılması üçün nəzərdə tutulmuşdur.

4. İnformasiya infrastrukturu. Dinamik infrastrukturun, eləcə də rəqabətqabiliyyətli, innovativ, informasiyalı iqtisadi məkanın yaradılması prosesi cəmiyyətin geniş sahələri üçün nəzərdə tutulmuş müxtəlif səmərəli və rəqabətədavamlı xidmətlər və alətlər təqdim edir. Bu proses təkcə internet və mobil rabitə kimi yüksək texnologiyalar formatında deyil, həm də radio, televiziya və müxtəlif informasiya daşıyıcıları, kompüter texnologiyaları və informasiyanın saxlanması, həyata keçirilməsi və informasiyadan istifadə üçün digər vasitələr, o cümlədən geniş rabitə vasitələri formatında həyata keçirilir. Bilik iqtisadiyyatında texnoloji nizam mühüm rol oynayır. Bu, cəmiyyətin məhsuldar qüvvələrinin inkişafında kəmiyyət və keyfiyyət sıçrayışının əsasını təşkil edən mənimsənilmiş sıçrayış texnologiyalarını, yenilikləri, ixtiraları təmsil edir. Texnoloji inkişafın səviyyəsi məhsuldar qüvvələrin və istehsal münasibətlərinin inkişafını müəyyən edir.

Dünya Bankı dünya iqtisadiyyatlarını təhlil edir və ölkənin bilik yaratmaq, qəbul etmək və yaymaq qabiliyyətini ölçən Qlobal Bilik İndeksini (GKİ) hesablayır. İnnovativ layihələrin inkişafı və onların dövlət iqtisadiyyatında tətbiqi milli iqtisadiyyatların rəqabət qabiliyyətini və dayanıqlığını əhəmiyyətli dərəcədə artırır və bununla da ölkələri "bilik iqtisadiyyatı" quruculuğunu başa çatdırmağa yaxınlaşdırır.

Bilik iqtisadiyyatının təhlilində mühüm addım onun ölçülməsi metodologiyasıdır. "Bilik iqtisadiyyatı"nın ölçülməsi metodologiyası məhz Dünya Bankı tərəfindən hazırlanıb. Metodologiyaya 4 qrupda birləşdirilmiş və aşağıdakı əsas parametrləri xarakterizə edən 109 göstərici daxildir:

- mövcud biliklərdən səmərəli istifadəni və yeni biliklərin yaradılmasını, habelə sahibkarlığın inkişafını stimullaşdıran institusional rejim;
- əhalinin təhsil səviyyəsi və biliklərin istifadəsi, mübadiləsi və yaradılması ilə bağlı bacarıqların mövcudluğu;
- məlumatın səmərəli yayılmasına və emalına şərait yaradan informasiya və kommunikasiya infrastrukturu;
- milli innovasiya sistemi.

Metodologiya iki mürəkkəb indeksin - Bilik İqtisadiyyatı İndeksinin (KEI) və Bilik İndeksinin (KI) hesablanmasını nəzərdə tutur. Bilik İndeksi ölkənin bilik yaratmaq, qəbul etmək və yaymaq qabiliyyətini qiymətləndirmək üçün əhatəli iqtisadi göstəricidir, yəni onun intellektual məhsulların inkişafı üçün ümumi potensialının bir növ göstəricisidir. Bilik iqtisadiyyatı ilə bağlı ölkənin və ya regionun potensialını xarakterizə edir. Bilik İndeksi hökumətin üç ölçünün hər birində üç dəyişən üzrə əldə etdiyi balların arifmetik ortasıdır: təhsil və insan resursları, innovasiya miqyası və IKT.

Bilik İqtisadiyyatı İndeksi ölkənin iqtisadi və sosial inkişafı məqsədləri üçün, biliklərdən istifadəsinin səmərəliliyini qiymətləndirmək üçün hərtərəfli göstəricidir. Bilik iqtisadiyyatı ilə bağlı ölkənin və ya regionun inkişaf səviyyəsini xarakterizə edir.

Bilik İqtisadiyyatı İndeksi dörd alt indeksin arifmetik ortasıdır: institusional rejim, təhsil, informasiya və kommunikasiya infrastrukturu, innovasiya sistemi. Hər bir alt indeks eyni çəkiyə malik üç göstəricidən ibarətdir. Alt indekslərin hər birini ayrıca nəzərdən keçirək.

Ölkənin institusional rejimi. Üç göstəricidən istifadə etməklə müəyyən edilir:

- tarif və qeyri-tarif maneələri;
- tənzimləmə tədbirlərinin keyfiyyəti;
- qanunun aliliyi.

Əhalinin təhsil səviyyəsi. Bu alt indeks üç göstəricidən ibarətdir:

- yaşlı əhalinin təhsil səviyyəsi;
- orta təhsilə ümumi qəbul;
- ümumi ali təhsilə qəbul.

İnformasiya və kommunikasiya infrastrukturu. İKT-nin İnkişafı İndeksi 2007-ci ildə Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) tərəfindən hazırlanmışdır. O, aşağıdakı göstəriciləri ehtiva edir:

- hər 1000 nəfərə düşən telefonların sayı;
- hər 1000 nəfərə düşən kompüterlərin sayı;
- 1000 nəfərə düşən internet istifadəçilərinin sayı.

İnnovativ sistem. İnnovasiya sisteminin inkişafı aşağıdakı göstəricilərlə müəyyən edilir:

- 1 milyon əhaliyə düşən qonoraron və lisenziya ödənişlərinin məbləği. Ölkələr üzrə məlumatların müqayisəliliyini təmin etmək üçün göstərici ABŞ dolları ilə hesablanır;
- əhalinin hər 1 milyon nəfərinə fizika, biologiya, kimya, riyaziyyat, mühəndislik, texnologiya və astronomiyaya həsr olunmuş jurnallarda elmi-texniki məqalələrin sayı [2, s.658].

İqtisadi artım yüksək texnologiyalı məhsul və xidmətlər formasında biliklərin yaradılması, yayılması və tətbiqi ilə təmin edilir. Yuxarıda göstərilənləri nəzərə alaraq, bilik iqtisadiyyatının formalaşması üçün zəruri şərtlər aşağıdakılardır:

- yüksək keyfiyyətli təhsil və yüksək səviyyəli elmi tədqiqat - insan və elmi potensialın formalaşdırılması, onların həyata keçirilməsi biliklərin yaradılmasına, toplanmasına və sistemli istifadəsinə yönəldilmişdir;
- İKT və dinamik inkişaf edən informasiya-kommunikasiya infrastrukturunun geniş yayılması - yüksək əlavə dəyərə malik sənaye sahələrinin inkişafını təmin etmək üçün dövlətin rəqəmsal potensialının formalaşdırılması və həyata keçirilməsi;
- iqtisadi stimullar və institusional rejim - biliklərin sərbəst yayılmasına, İKT-nin tətbiqinə və texnoloji sahibkarlığın inkişafına kömək edən ümumi iqtisadi mühit;
- səmərəli innovasiya sistemi – yeni biliklərin yaradılmasında, onun xaricdən alınmasında və yerli ehtiyaclara uyğunlaşdırılmasında iştirak edən tədqiqat və təhsil universitetləri, özəl firma və təşkilatlar şəbəkəsi.

Ümumiyyətlə, bilik iqtisadiyyatının inkişafının göstəricilər sistemini müəyyən etmək üçün, ilk növbədə, aşağıdakı göstəriciləri nəzərə almaq lazımdır: innovativ inkişaf; iqtisadiyyatın real sektorunda yaradılmış və tətbiq edilən innovasiyaların göstəriciləri; əsas kapitala investisiya; ixtiraların sayı; sosial-iqtisadi inkişafın, ÜMM və ÜDM-in göstəriciləri.

Bilik iqtisadiyyatında əsas göstəricilərdən biri İnternet istifadəçilərinin sayının artım tempidir. O, əhalinin informasiya texnologiyaları sahəsində savadlılıq və fəallıq dərəcəsini səciyyələndirir, ölkənin sosial-iqtisadi tərəqqisinin dinamikasını müəyyən edir.

Azərbaycanda İnternet istifadəçilərinin sayı ildən-ilə artır. Bunu aşağıdakı şəkildən daha aydın görmək olur (şəkil.1).

Şəki 1-dən göründüyü kimi, 2020-ci ildə Azərbaycanda hər 100 nəfərə düşən İnternet istifadəçilərinin sayı artmışdır ki, bu da bütün dövrlər ərzində ən yüksək göstəricidir. Bu, 2010-cu illə müqayisədə 39 nəfər, 2015-ci illə müqayisədə 8 nəfər, 2019-cu illə müqayisədə 4 nəfər çoxdur.

2020-ci ildə İnternet istifadəçilərinin əsas hissəsi 36-64 yaş arası olanlar təşkil etmişdir. Belə ki, bu 36-64 yaş həddində İnternet istifadəçiləri ümumi İnternet istifadəçilərinin 44,2%-ni təşkil etmişdir. İkinci yerdə 7-24 yaş arasında olanlar təşkil edir (30,1%). Bunun əsas səbəbini 2020-ci ildə COVİD-19 pandemiyasının yayılması səbəbindən tədrisin onlayn təşkili olmuşdur.

Mənbə: *ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib [1]*

Şəkil 1. Azərbaycanda hər 100 nəfərə düşən İnternet istifadəçilərinin sayının artım dinamikası

Mənbə: *müəllif tərəfindən tərtib edilib*

Şəkil 2. Azərbaycanda internet istifadəçilərinin yaş həddi

Mənbə: *müəllif tərəfindən tərtib edilib*

Şəkil 3. İnternetdən istifadənin məqsədləri, %-lə

İnternetdən müxtəlif məqsədlər üçün istifadə olunmuşdur. Həmin məqsədlər informasiya axtarışı, əlaqələrin yaradılması, əmtəə və xidmətlərin sifarişi və satışı, təlim və təhsil, sağlamlıqla bağlı, hakimiyyət orqanları ilə əlaqələr üçündür. İnternetdən ən çox informasiya axtarmaq üçün istifadə olunmuşdur (31,9%). Ən az isə əmtəə və xidmətlərin satışı üçün (4,2%) İnternetdən istifadə olunmuşdur.

Bu gün əksər ölkələr istehsal və idarəetmə proseslərinin rəqəmsallaşdırılması əsasında iqtisadiyyatın modernləşdirilməsi prosesində iştirak edir ki, bu da təkcə istehsal texnologiyalarının və iş prosesinin təşkilinin dəyişdirilməsinə deyil, həm də müəssisənin daxili mühitinin transformasiyasına kömək edir.

Hazırda innovasiya müəssisələrin, regionların və ölkələrin rəqabət qabiliyyətinin əsas mənbəyi hesab olunur. İnnovasiyaların yaranmasının ilkin şərtlərindən biri yeni biliklərdir. Məhz bilik əmək məhsuldarlığının artmasına və nəticədə digər iqtisadi göstəricilərin, o cümlədən, ümumi daxili məhsulun, əmək haqqının artımına, həyat şəraitinin yaxşılaşdırılmasına və s. təsir göstərir.

Beləliklə, bu tədqiqatın nəticələrini yekunlaşdıraraq aydın şəkildə qeyd etmək olar ki, bilik iqtisadiyyatının inkişaf perspektivləri mövcuddur, lakin onlar iqtisadiyyatın subyektləri və obyektləri arasında münasibətlər sisteminin regional səviyyədə zəif qarşılıqlı əlaqəsini, dövlət idarəetmə sistemini, iqtisadi sektorlar arasında qarşılıqlı əlaqənin prinsipcə yeni keyfiyyətini tələb edir. Regionlarda və xalq təsərrüfatında bilik iqtisadiyyatının inkişafına təsir göstərən göstəricilər sistemini formalaşdırmaq üçün o, inteqrasiya olunmuş idarəetmə sistemi formasında həyata keçirilməlidir.

Ədəbiyyat

1. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.

2. Гаврилова, И.В. Понятие и характеристика экономики знаний, необходимые условия ее формирования // Молодой ученый, 2016, № 10 (114), с.655-659

3. Тараканов, Н.А. «Экономика знаний» как инновационный фактор экономического роста // Новая экономическая реальность: концептуальные контуры бытия и обновления: материалы конференции. Краснодар: НИИ экономики ЮФО, 2021, с. 149-153.

Резюме

Гасымова З.М.

Ключевые показатели и их оценка в экономике знаний

В статье обосновывается необходимость измерения экономики знаний. Определена и оценена система показателей измерения экономики знаний. Изучены столпы, на которых базируется экономика знаний, и выявлены показатели, входящие в каждый столп. Рассмотрена методология Всемирного банка по измерению экономики знаний. Объясняется суть ее Индекса. Текущая ситуация с использованием Интернета была проанализирована как один из показателей, отражающих использование экономики знаний в Азербайджане.

Ключевые слова: *Интернет, экономика знаний, показатель, методология, инновации, информация*

Summary

Gasimova Z.M.

Key Indicators and their Assessment in the Knowledge Economy

The article substantiates the need to measure the knowledge economy. A system of indicators for measuring the knowledge economy has been defined and evaluated. The pillars on which the knowledge economy is based are studied, and the indicators included in each pillar are identified. The methodology of the World Bank for measuring the knowledge economy is considered. The essence of the Knowledge Economy Index is explained. The current situation with the use of the Internet was analyzed as one of the indicators reflecting the use of the knowledge economy in Azerbaijan.

Key words: *internet, knowledge economy, indicator, methodology, innovation, information*

İNNOVASİYA ƏSASLI İNKİŞAFIN QEYRİ-NEFT SƏNAYESİNƏ İQTİSADİ TƏSİRLƏRİ

Quliyeva Aysel Akif qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
aysel_ibayeva@mail.ru

Xülasə: *Müasir dövrdə innovasiyanın tətbiqi imkanları qeyri-neft sənayesinə əsaslı iqtisadi fayda gətirməkdədir. Belə ki, innovativ yeniliklərdən istifadə nəticəsində xərclərin azaldırması prosesi baş verir ki, bu da daha çox gəlir əldə etməyə və istehsalda artıma səbəb olur. İnnovasiya əsaslı inkişaf qeyri-neft sənayesinin daxili və xarici bazarda rəqabət imkanlarını artırmaqla yanaşı, bazar paylarının genişlənməsinə, eləcə də, xarici bazarların öz iqtisadiyyatlarının proteksionizm siyasətindən qoruyaraq milli iqtisadiyyatın inkişafına gətirib çıxarır. Bu baxımdan sənayedə innovativ yeniliklərdən istifadə iqtisadiyyatımızın inkişafında əsas prioritet istiqamətlərdən biridir.*

Açar sözlər: *innovasiya, sənaye, iqtisadi inkişaf, yüksəliş, gəlir*

Dünya tarixinə nəzər saldıqda bir çox dönüş nöqtələrinə şahid olarıq. XVIII əsrdə məhz texnoloji innovasiyaların əsasında baş vermiş Sənaye İnqilabı qərbi Avropada başlamış, sonralar Amerika və bütün dünyaya sürətlə yayılaraq dünya sənaye tarixinin gedişatını dəyişdi. İnnovasiya anlayışı tətbiqdən asılı olaraq dəyişkən növlərə sahibdir və onun müəssisəyə, dolayısı ilə iqtisadiyyata faydası danılmazdır. Gəlirləri artırmaq, yeni bazarlara çıxış, yüksələn mənfəətlilik və bazarda müəyyən yerə sahib olmaq məqsədləri ilə tətbiq olunmuş bütün fəaliyyətlər innovasiya əsaslı inkişaf hesab oluna bilər.

Cədvəl 1.

Texnoloji innovasiya	***İdeyoloji innovasiya***	
Məhsul yeniliyi	Biznes modelində innovasiya	
İstehsal prosesində innovasiya	Artan innovasiya	
	Radikal innovasiya	

Mənbə: *Müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəldən göründüyü kimi, innovasiyanın məhsul yeniliyi və istehsal prosesində innovasiya kimi növləri istiqamət olaraq texnoloji yeniliklərə aid edilir. Burada əsas məqsəd texnika və texnoloji üstünlüklərin dəstəyi ilə inkişafa nail olmaqdır. Digər koteqoriydan olan növlər isə eyni məqsədlərə isitiqamətlənmiş olsalar belə, tətbiq olunma metodları ilə bir-birindən fərqlənirlər [3]. Aktual innovasiya növü hesab olunan artan innovasiya məhsul yaxud xidmətdə kiçik, lakin davamlı inkişafı təmin edir. Günümüzdə bu növ əksər müəssisələrin istifadə etdiyi üsuldur. Artan innovasiyanın tam əksi radikal innovasiya isə məhsul və xidmətin istehsalında kəskin dəyişiklik edilərək bazarda iştirakı davam etdirməkdir [5].

İnkişaf etmiş dövlətlər innovativ texnoloji yenilikləri sənayedə yeni dəyərin formalaşmasının vacib drayverlərindən biri hesab edir. Son dövrlərdə qlobal sferada fəaliyyətini başlayan böyük əksəriyyət müəssisə və ya firma innovasiya əsaslı inkişafa hədəflənib. Günümüzdə dünya sənayesi üzrə müşahidə olunan yeni ideyaların 70%-dən çoxunu məhz innovasiya istiqamətli dəyərlər təmin edir. Buna misal olaraq Çinin 2015-ci ildə "Made in China 2025" adlı inkişaf strategiyasını nümunə göstərək [4]. On illik strateji inkişaf proqramına əsasən Çin dünya bazarında təkcə kəmiyyəti ilə yox, eyni zamanda yüksək keyfiyyəti ilə seçilən məhsul istehlak edəcək. Bunun üçün isə qeyri-neft sənayesinin 10 əsas istiqaməti müəyyənləşdirilmişdir. Ən müasir texnologiyanın sahələr üzrə tətbiqi ölkəni dünyada rəqabətədavamlı istehsal ölkəsi etməkdədir. Aydındır ki, dünya bazar payında daim aktiv olan ölkə kimi Çin mənfəətini bu yolla daha da artıracaqdır [3].

Azərbaycan da qeyri-neft sənayesindən qazanılmış gəlirləri artırmaq üçün innovasiyanın gücündən istifadə etməkdədir. Sözü gedən istiqamətdə İqtisadiyyat Nazirliyinin iştirakı ilə IV Sənaye İnqlabı üzrə müvqfiq mərkəz yaradılmışdı. Ölkəmiz bu istiqamət üzrə Davos İqtisadi Forumu ilə möhkəm əməkdaşlıq yaradıb [2]. Qurulmuş əməkdaşlıqla yanaşı, ölkəmizin inkişaf etməkdə olan ölkələr arasında hesabatlara əsasən ilk üçlüyə daxil olması azərbaycanın innovasiya əsaslı inkişafı daima dəstəklədiyinə işarədir. Regional baxımdan ölkəmiz innovasiyanı sənayedə prioritet istiqamət kimi qiymətləndirmişdir.

Ölkəmizin qeyri-neft sənayesinin inkişafında digər bir addım kimi Prezident İlham Əliyevin fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətin

əsasında İqtisadi Zonaların İnkişafı Agentliyini qeyd etməliyik. Müasir tələblərə cavab verən agentlik sənayenin əsaslı inkişafına tövhədir.

Azərbaycanın qeyri-neft sənayesinin inkişafı, innovasiyanın istifadəsi nəticəsində idxaldan asılılığın azaldaraq ölkəmizin valyuta ehtiyatlarını artırmışdır. 2020-ci ilin statistik göstəricilərinə əsasən ölkəmizdə qeyri-neft sənaye sahəsində artım 12,5% hesablanmışdır. İnnovasiya əsaslı tədbirlər kompleksinin tətbiqi ilə istər pandemiya, istərsə də ikinci Qarabağ müharibəsi zamanı milli iqtisadiyyatımızda müsbət dinamika müşahidə edilmişdir. Hesablamalara əsasən, qeyri-neft-qaz sənayesi 11,3 faiz artım göstərmişdir [1].

İnnovasiya kapital, əmək və çox faktorlu məhsuldarlıqla artıma töhfə verir. Çox faktorlu məhsuldarlığın artması isə iqtisadi inkişafın mühüm göstəricisidir. Nəticə olaraq innovasiya fəaliyyətinin sənayedə istifadəsi inzibati metodlarla bazar münasibətləri şəraitində müvafiq qanunvericiliyə əsasən tənzimlənməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi saytı.

2. Rəqəmsal texnologiyanın sənayedə səmərəliliyi, https://ted.az/az/view/news/29858/reqemsal-texnologiya-senayede-semereliliyi-ndash-yeni-yaradilan-merkez-azbaycanda-veziyyeti-nece-deyishecek.

3. İnnovasyon nedir? http://thekoray.com/ino

4. Smith Roe, Merritt and Marx, Leo (2014). Does Technology Drive History: The Dilemma of Technological Determinism. United States, MIT PRESS.

5. Mackenzie A, Donald and Wajcman, Judy (2015). The social shaping of technology. Buckingham, Open University Press.

Резюме

Гулиев А.А.

Экономическое воздействие инновационного развития на ненефтяную промышленность

В наше время возможности применения инноваций приносят существенную экономическую выгоду ненефтяной промышленности. За счет использования инновационных инноваций происходит процесс снижения затрат, что приводит к увеличению доходов и увеличению производства. Инновационное развитие не только повышает конкурентоспособность ненефтяной отрасли на внутреннем и внешнем рынках, но и ведет к расширению рыночных долей и развитию национальной экономики за счет защиты внешних рынков от протекционистской политики собственной экономики. . В связи с этим использование инноваций является одним из основных приоритетов в развитии нашей экономики.

Ключевые слова: *инновации, промышленность, экономическое развитие, рост, доход*

Summary

Quliyev A.A.

Economic Impact of Innovative Development on the Non-Oil Industry

In modern times, the possibilities of applying innovation bring substantial economic benefits to the non-oil industry. By using innovative innovations, the process of cost reduction takes place, which leads to more income and increase in production. Innovation-based development not only increases the competitiveness of the non-oil industry in the domestic and foreign markets, but also leads to the expansion of market shares and the development of the national economy by protecting foreign markets from the protectionism policy of their own economies. In this regard, the use of innovative innovations is one of the main priorities in the development of our economy.

Key words: *innovation, industry, economic development, growth, income*

KREATİV İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ

Quliyeva Mətanət Barat qızı

SOCAR "Azərikimya" İstehsalat Birliyi

guliyeva.matanat.barat@mail.ru

Xülasə: *N.Rerix (rus tədqiqatçı-səyyah (1874-1947)) demişdi ki, millət yaratdıqda, ölkə də çiçəklənər, inkişaf edər. Müasir dünya dinamik inkişaf edir, kreativ iqtisadiyyatı dəstəkləyir. Kreativ iqtisadiyyatın perspektivlərindən istifadə edərək yeni iş yerləri yaranır, ölkəyə investisiyar cəlb edilir, yaradıcı turizmi inkişaf etdirilir, milli kimliklər zənginləşdirilir, beynəlxalq əməkdaşlıq, yeni*

rəqabətqabiliyyətli biznes paket seçimləri və yeni ideyalar dəstəklənir. Beləliklə, kreativ iqtisadiyyat getdikcə iqtisadiyyatın şaxələndirilməsinə, bir sözlə, iqtisadi artımın əsas aparıcı qüvvəsinə çevrilir.

Açar sözlər: *kreativ iqtisadiyyat, yeni iqtisadiyyat, yaradıcı sənaye, əqli mülkiyyət, iqtisadi artım*

Dünya əvvəlindən yeni kəşflər sayəsində inkişaf edib. Fəlsəfi baxışlardan ixtiralara qədər hər bir addım dünyanı daha çox tamamlayıb. Kreativ iqtisadiyyat milli və beynəlxalq iqtisadiyyatın müvafiq bir sahəsidir. Yaradıcılıq fəaliyyəti ilə bağlı əmtəəlik məhsul və xidmətlərin yerinə yetirilməsini yayır. Bu iqtisadiyyat yaradıcı imkanları, intellektual layihələri və yeni ideyaları özündə birləşdirir. Vahid formada bir neçə mənanı cəmləşdirən, əhəmiyyəti durmadan artan, yaradıcılığa, əqli fəaliyyətə əsaslanan iqtisadiyyatın xüsusi sektorudur. Bu sektor kreativ, yaradıcı sahələri əhatə etməklə, intellektual məhsul və xidmətlərlə nəticələnir və adətən müəlliflik hüququ obyektləri kimi qorunur.

Merriam-Webster's Collegiate Dictionary-ə görə kreativ sözü ilk dəfə 1678-ci ildə ortaya çıxdı və kreativlik sözü 1875-ci ildə xatırlandı. 1998-ci ildə Böyük Britaniyada Yaradıcı Sənaye Proqramlarının İnkişafı Departamenti yaradılmışdır. Daha sonra 2000-ci ilin avqust ayında Nyu-York-un "Business Week" jurnalında ilk dəfə "kreativ iqtisadiyyat" termini işlədilmiş və nəhayət 2001-ci ildə C.Hokinsin bu sahədə ilk nəzəri "kreativ iqtisadiyyat" əsəri dərc edilmişdir. O vaxtdan etibarən də bu terminin istifadə edilməsi daha da genişlənib.[1]

Beynəlxalq təşkilatlar iqtisadi inkişafın mərhələlərini xarakterizə etmək üçün bir çox anlayışlardan istifadə edirlər: rəqəmsal iqtisadiyyat, informasiya iqtisadiyyatı, innovasiya iqtisadiyyatı, ağıllı iqtisadiyyat, bilik iqtisadiyyatı, yeni iqtisadiyyat, kreativ iqtisadiyyat. İqtisadi inkişafa baxışların müxtəlifliyi müasir və ya gələcək iqtisadiyyatın hansı fərdi amilinin (kreativlik, bilik, informasiya, innovasiya və s.), seqment və ya sektorunun ölkənin iqtisadi artımına və beynəlxalq rəqabət qabiliyyətinə ən çox töhfə verdiyi və ya verəcəyi ilə izah edilə bilər.

Bu göstərilən bütün anlayışların ortaq cəhətləri var. Beləliklə, heç kim şübhə etmir ki, ilk növbədə, ümumi daxili məhsulun (ÜDM-in) elm tutumluluğu ölkənin əldə edilmiş inkişaf səviyyəsini xarakterizə edir, onun mütərəqqi iqtisadi artımını təmin edir. Yaradıcı sənayeyə müxtəlif növ maddi və qeyri-maddi xidmətlər daxildir ki, bu xidmətlər də əqli mülkiyyətdən istifadə etməklə formalaşır. Kreativ sənaye müasir informasiya və kommunikasiya texnologiyaları əsasında əqli mülkiyyətin yaradılması və istifadəsinə yönəlmiş sənayeləri əhatə edir ki, bura daxildir: dulusçuluq, xalçaçılıq, miniatür sənəti kimi sahələr, memarlıq, sənətkarlıq, proqram təminatı, reklam, interaktiv əyləncə proqramları, kinematoqrafiya, musiqi, dizayn, televiziya və radio və s. Xidmətlərin beynəlxalq təsnifatı həm dünyada, həm də bir ölkə daxilində kreativ sənayenin və bütövlükdə kreativ iqtisadiyyatın inkişafını qiymətləndirməyə imkan verir. Yaradıcı iqtisadiyyatın əhəmiyyətini nəzərə alaraq, son illər onun beynəlxalq reytinqləri tərtib edilib. Beləliklə, qlobal yaradıcılıq indeksi 3T modelinə əsaslanır: texnologiya - istedad - tolerantlıq. Texnologiyanın inkişafı ÜDM-in bilik intensivliyi və adambaşına düşən patentlərin sayı kimi göstəricilərdən istifadə etməklə ölçülür. İstedad yaradıcılıq sahəsində məşğul olan insanların sayı və ali təhsilli yaşlıların sayı ilə ölçülür. Tolerantlıq immiqrantlara, irqi, etnik və sosial azlıqlara münasibət kimi əhalinin sosioloji sorğularından istifadə etməklə qiymətləndirilir.[2]

Yaradıcı sənaye və bütövlükdə iqtisadiyyat öz inkişafında müasir informasiya-kommunikasiya texnologiyalarından və xidmətlərindən istifadəyə əsaslanır. Dünyanın heç bir iqtisadiyyatı zəruri müasir texnologiyaların tam siyahısını istehsal edə bilmir. Yaradıcı iqtisadiyyat anlayışdır, yaradıcı sənaye isə konsepsiyanın fəaliyyətidir. Yaradıcı sənayelərin inkişafı üç sütuna əsaslanır: məlumatlılığın artırılması və təlimlərin keçirilməsi, startaplara və onların inkubasiya dövrünə dəstək, sektorların inkişafına və ixraca dəstək. Ölkəmizdə kreativ iqtisadiyyatın inkişafı üçün hansı şərait var, ölkəmizdə o, necə inkişaf edir? Son illərdə "ABAD" müəssisələrinin yaradılması, dulusçuluq və xalçaçılıq şəbəkəsinin genişləndirilməsi yaradıcı sənayeni əhəmiyyətli dərəcədə canlandırıb. Milli iqtisadiyyatın bu mühüm seqmenti stimullaşır. Eyni zamanda, yaradıcı turizm istiqamətinin daha genişləndirilməsinə, kreativ klasterlərin yaradılmasına, yaradıcı şəxslərin sahibkarlıq fəaliyyətinə başlaması üçün onlara lazımi dəstəyin göstərilməsi dövlətimiz tərəfindən dəstəklənir.

Oz coğrafi mövqesinə, azad ticarət zonaları, beynəlxalq səviyyəli infrastrukturuna görə Azərbaycan uğurlu kreativ iqtisadiyyata malikdir. Kreativ iqtisadiyyatın vahid tərifi, onun ölçülməsi üçün vahid sistem hələ mövcud deyil ki, bu da kreativ sənayelərin dəstəklənməsi tədbirlərinin işlənib hazırlanması və səmərəliliyinin qiymətləndirilməsi üçün son dərəcə mühümdür. Ölkələr arasında gələcək qarşılıqlı fəaliyyət Azərbaycan iqtisadiyyatının sahə strukturunun transformasiyasına və müxtəlif sahələrdə innovativ biliklər və informasiya-kommunikasiya texnologiyaları ilə əməkdaşlıqda kreativ ideyalar vasitəsilə yüksək əlavə dəyər yaratmaq məqsədilə onun subyektlərinin qarşılıqlı əlaqəsi üçün şəraitin yaradılmasına töhfələr verəcəkdir.

Azərbaycan dövləti kreativ iqtisadiyyatı daim nəzərdə saxlayır. Müəllif Hüquqları Agentliyi bir neçə ildir ki, Dünya Əqli Mülkiyyət Təşkilatı (DƏMT) ilə razılaşdırılmış xüsusi metodika əsasında Azərbaycanın

kreativ iqtisadiyyatı ilə bağlı araşdırmalar aparır, kreativ iqtisadiyyatın ÜDM-dəki payını müəyyənləşdirir, monitorinqlərin nəticələrini təhlil edir və məlumatları hökumətə təqdim edir. Araşdırmalar göstərir ki, Azərbaycanın son illərdəki iqtisadi inkişafı, yüksək iqtisadi artım tempi kreativ iqtisadiyyatın artımına da böyük təsir göstərib.[3] Qloballaşma şəraitində nəhayət, bir qanunauyğunluq formalaşmışdır: iqtisadi artım iqtisadiyyatın sektorlarının fəal inkişafı ilə təmin edilir. Cəmiyyətin inkişafının müasir tendensiyası kimi dünya ekspertləri kreativ iqtisadiyyatı dünya iqtisadiyyatının ən sürətlə inkişaf edən sektorlarından biri kimi təkcə gəlir əldə etmək baxımından deyil, həm də iqtisadi sistemin innovativ həssaslıq dərəcəsini artırmaq, yeni iş yerlərinin yaradılması və ixrac gəlirlərinin artırılması kimi görür.

Kreativ iqtisadiyyatın inkişafının əsasını insanın yaradıcı potensialı təşkil edir ki, bu da müəyyən səviyyədə iqtisadi biliklərin olması və hər şeydən əvvəl insanın yaradıcılıq qabiliyyətlərinin inkişafı, həmçinin yaradıcı təbəqənin formalaşması və inkişafıdır. İnnovasiya və yaradıcı sektorun inkişafına dəstək rəqabətqabiliyyətlilik sahəsində ən mühüm addımlardan biridir. Buna görə də yaradıcı sektorun potensialını və inkişafının nəticələrini qiymətləndirməyə həmişə böyük ehtiyac olmuşdur. İstehsalın, yaradıcılığın və texnoloji tərəqqinin ikiqat artırılması ideyaları təkcə mövcud olan mənbələrin yenidən qruplaşdırmaq üçün yeni imkanlar açmır. Texnoloji tərəqqi sayəsində ideyalar getdikcə daha çox kapital strukturunun bir hissəsinə çevrilir və bu fenomen inkişafa meyl edir. İnsanın sonsuz yaradıcı düşüncə qabiliyyəti heyrətamiz imkanlar açır. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə ideyalar əmək və kapital yaratmaqla reallaşa bildiyindən bu, məhsul istehsalına təsir edən amildir. Yaradıcılıq qeyri-maddi olsa da, yeni orijinal ideyalar sayəsində, çox əlavə əmək və kapital olmadan, istehsal səviyyəsini yüksəltməyə imkan verir. [4]

Kreativ iqtisadiyyatın inkişafı texnoloji yeniliklərə və nəzərə alınmalı amillərə əsaslanır:[5]

- yeni yolların yaradılmasına kömək edən infrastruktur və əmək resurslarının mövcudluğu, əqli mülkiyyəti qoruyan qanunvericiliyin mövcudluğu, qlobal bazarlara çıxış imkanları və s. kimi kritik uğur amillərini təhlil etmək.
- Yaradıcı müəssisənin inkişafına investisiya qoymaq lazımdır, çünki yerli öyrənmə və innovasiyaya dəstək olmalıdır, onlarsız yeni istedadlar və ya yeni yaradıcılıq olmayacaq.
- Biznes idarəçiliyində və sosial şəbəkələrdə mədəni sahibkarlar üçün yeni imkanlar yaratmaq, onları marketinq fəaliyyətlərinə cəlb etmək, cəmiyyətin sosial və mədəni strukturunun inkişafı üçün əlverişli şəhər yerləri ilə təmin etmək.
- Nəzərə almaq lazımdır ki, kreativ iqtisadiyyat iqtisadi səmərələri ilə yanaşı, həm də inklüziv və dayanıqlı sosial inkişafa nail olunmasına əhəmiyyətli töhfə verən qeyri-pul dəyəri yaradır.
- Mədəniyyəti iqtisadi, sosial və ekoloji inkişaf proseslərinin hərəkətvericisi və təminatçısına çevirmək lazımdır, çünki müsbət dəyişikliklər yalnız mədəni müəyyən edilmiş cəmiyyətdə baş verə bilər.
- Yaradıcı iqtisadiyyatın yerli aktivlərinin xəritəsini çəkməklə imkanları üzə çıxarmaq. Bu təhlil bu sektorda sonrakı fəaliyyət proqramının hazırlanması üçün əsas olacaqdır.
- Regionda hər hansı ardıcıl kreativ iqtisadiyyatın inkişafı siyasətinə fundamental sərmayə kimi ciddi məlumatların toplanması vasitəsilə sübut bazasını gücləndirmək.
- Yaradıcı iqtisadiyyatın qeyri-rəsmi və formal sektorları arasındakı əlaqəni adekvat siyasətin qurulması üçün həlledici əhəmiyyətə malik olduğunu araşdırmaq lazımdır, çünki inkişaf etməkdə olan ölkələrdə kreativ iqtisadiyyat qeyri-rəsmi mədəniyyət sistemlərinə, proseslərə və institutlara dərindən arxalanır və dövlət sektorundan uzaqdır, ailə və dostlar isə yaradıcı sahibkarlar üçün əsas investor olurlar.
- Məhsuldar qarşılıqlı öyrənmə, eləcə də məlumat və təcrübə mübadiləsini asanlaşdırmaq üçün beynəlxalq əməkdaşlığa cəlb olunmaq.
- Əsas mədəniyyəti yerli iqtisadi və sosial inkişaf proqramlarına daxil etmək, hətta rəqabət aparan prioritetlərlə qarşılaşdıqda belə onu bir nömrəli etmək.

Son dövrlərdə yaradıcı sənayenin inkişafı bir növ qlobal xarakter alıb. Belə ki, hazırda bu sahənin inkişaf dinamikası bütün dünya üzrə kifayət qədər yüksəkdir. Yeni artım mənbəyi kimi kreativ sənayelərə dəstək bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da prioritet məsələyə çevrilib. BMT 2021-ci ili "Dayanıqlı İnkişaf üçün Beynəlxalq Yaradıcı İqtisadiyyat ili" elan etmişdir ki, bu da COVİD-19 pandemiyasının yaradıcı iqtisadiyyatı iflic etdiyi vaxta təsadüf etmişdir. Yaradıcı iqtisadiyyat dünya iqtisadiyyatının ən sürətlə inkişaf edən sektorlarından biridir və qlobal ÜDM-in 3%-ni təşkil edir. O, həmçinin gəlirin, iş yerlərinin yaradılması və ixrac gəlirlərinə transformativ təsirə malikdir. Mədəniyyət və yaradıcı sənayelər 2,250 milyard dollar kapitallaşdırmaqla və qlobal miqyasda 29,5 milyon iş yeri yaratmaqla iqtisadiyyatların əsas hərəkətverici qüvvəsidir. Yaradıcı sənayelər insan mərkəzli dəyərə əsaslanır və mədəni irsə, yaradıcılığa əsaslanır. O, davamlı və inklüziv inkişafa nail olmaq, yerli iqtisadiyyatlarda dayanıqlıq yaratmaq, 2030-cu il Gündəliyinə və onun Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermək üçün effektiv vasitələrdən biri hesab olunur.[6] Eyni zamanda ölkəmizdə yaradıcı sənayeni dəstəkləmək üçün və bu sahədə iqtisadi artımı təmin etmək üçün Azərbaycan Respublikası Prezidenti 2021-ci ildə "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncam imzalamışdır.

Son dövrlərdə yaradıcı sənayenin inkişafı bir növ qlobal xarakter alıb. Belə ki, bu sahənin inkişaf dinamikası bütün dünya üzrə kifayət qədər yüksəkdir. Ölkəmizdə kreativ sənayenin inkişaf etdirilməsi, bu sahədə biznesin dəstəklənməsi məqsədilə müxtəlif mövzularda müzakirələr təşkil olunur. Tədqiqatçılar kreativ iqtisadiyyatın sürətlənən inkişaf tempi ilə əlaqədar olaraq bu iqtisadiyyat sektorunun digər inkişaf etmiş istisadiyyat sektorları arasında bərabərsizliyin gələcəkdə durmadan artacağını proqnozlaşdırırlar. Kreativ iqtisadiyyat və onun sənayeləri məşğulluğu, ixrac potensialını, rəqabətqabiliyyətliliyi, məhsuldarlığı və davamlı inkişafı artıra biləcək strateji sektorlardır. İnklüziv İnkişaf üçün Yaradıcı Sənayelər: Mexanizm və Bacarıqların Yaradılmasıdır. Yaradıcı sənayelər ən həssas təbəqələrin həyat şəraitini yaxşılaşdıra və dayanıqlı inkişaf məqsədlərinə nail olmağa kömək edə bilərlər.

Ədəbiyyat

1.https://ru.wikipedia.org/Креативность https://trends.rbc.ru/trends/innovation/5dd54dbf9a79471180f57ce7

2. Данильченко, А.В. Креативная экономика как высшая форма развития постиндустриального общества

3. https://copag.copat.gov.az/copag/az/content/news/118

4. İmanov K. Kreativ iqtisadiyyat və Azərbaycan iqtisadiyyatının inkişafı və Флорида Р. (2005): Креативный класс: люди, которые меняют будущее. М.: Классика-XXI.

5.https://www.culturepartnership.eu/en/article/10-keys-for-the-creative-economy--development

6. https://impakter.com/creative-industries-for-inclusive-development-the-mechanism-and-skills-building/

Резюме

Кулиева М.Б.

Перспективы развития креативной экономики

Н.Рерих (российский путешественник (1874-1947)) сказал, что когда народ творит, тогда приходит и расцвет страны. Современный мир динамично развивается и поддерживает креативную экономику. С использованием перспектив креативной экономики, создаются новые рабочие места, в страну привлекаются инвесторы, развивается творческий туризм, обогащается национальная самобытность, поддерживается международное сотрудничество, и новые конкурентоспособные варианты бизнеса разрабатываются с пакетами и новыми идеями. Таким образом, креативная экономика постепенно превращается в диверсифицированную экономику - главный двигатель экономического роста.

Ключевые слова: *креативная экономика, новая экономика, творческие индустрии, интеллектуальная собственность, экономический рост*

Summary

Quliyeva M.B.

Development Perspectives of the Creative Economy

N. Roerich (Russian explorer-traveler (1874-1947)) said that the country would prosper and develop when the people creates. The modern world is dynamically developing and supporting the creative economy. Using the perspectives of the creative economy, new jobs are created, investors are attracted to the country, creative tourism is developed, national identity is enriched, international cooperation is maintained, and new competitive business options are developed with packages and new ideas. Thus, the creative economy is gradually becoming a diversified economy - the main driver of economic growth.

Key words: *creative economy, new economy, creative industries, intellectual property, economic growth*

TEXNOPARKLARIN FƏALİYYƏTİNİN İNVESTİSİYALAŞDIRILMASI VƏ STİMULLAŞDIRILMASI

Məmmədov İlqar Səməndər oğlu

Sumqayıt Dövlət Universiteti

ilqar-1972@mail.ru

Xülasə: *Məqalədə texnoparkların yaradılmasının zəruriliyi əsaslandırılmış və milli iqtisadiyyatda rolu tədqiq edilmişdir. Texnoparkların əsas vəzifələri müəyyənləşdirilmiş və onların fəaliyyətində iştirak edən əsas tərəflər haqqında məlumatlar verilmişdir. Texnoloji parkların dəstəklənməsi üzrə dövlət tədbirləri araşdırılmışdır. Texnoparkların inkişafı sahəsində problemlərin aradan qaldırılması və texnopark*

strukturlarının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.

Açar sözlər: *texnopark, investisiya, stimullaşdırma, müəssisə, istehsal, innovasiya, maliyyə*

Post-sənaye dövrü şəraitində müəssisələrin texnoloji təchizatı, istehsal olunan məhsulların innovativ xarakteri və milli iqtisadiyyatın rəqəmsal transformasiya tendensiyalarına uyğun strukturu davamlı sosial-iqtisadi inkişafın əsas amillərindən birinə çevrilir. Belə bir şəraitdə əsas sənaye sahələrində fəaliyyət göstərən və daxili və dünya bazarlarının əhəmiyyətli bir hissəsini tutan iri istehsalçılar tam modernləşməni tətbiq etməyə məcburdurlar, əks halda rəqabət qabiliyyətini itirmək riski ilə üzləşərlər.

Milli innovasiya sisteminin formalaşması kifayət qədər elmi-texniki və kadr potensialının, səmərəli dövlət dəstəyinin və əlverişli investisiya mühitinin olmasını nəzərdə tutur. Bütün bu amillərə müsbət təsir göstərmək üçün uyğun vasitə elmi, layihələndirmə, inkişaf və tədqiqat təşkilatlarının, təhsil və yüksək texnologiyalı müəssisələrin birliyi şəklində elm, təhsil və istehsalın ərazi inteqrasiyasının bir forması kimi çıxış edən texnoprklardır. Müvafiq ixtisaslaşdırılmış infrastruktura malik bu məkan birləşmələri dünyada geniş yayılaraq öz effektivliyini təcrübədə sübut edərək ABŞ, Qərbi Avropa, Avstraliya və Asiya ölkələrində texnoloji modernləşmənin drayverinə çevrilmişdir. Texnoparkların fəaliyyətinin universal xarakteri və onların dövlətin, ayrı-ayrı regionların və bələdiyyələrin iqtisadi inkişafına təsiri nəzərdən keçirilən innovativ mexanizmin sənaye və investisiya siyasətinin alətlər toplusuna daxil edilməsinə səbəb olmuşdur [1, s.34].

Texnoparklar elmi-texniki sahədə istehsalın inkişafı üçün əlverişli şərait yaradan, eksperimental baza ilə təchiz edilmiş və yüksək ixtisaslı işçilərin cəmləşdiyi yeni layihələrin tətbiqi üçün elmi bazadır. Texnoparklar sənaye, elmi və texnoloji sahibkarlığın inkişafını təmin edən iqtisadi mühitin yaradılmasına kömək edir, habelə rəqabətqabiliyyətli və yüksək keyfiyyətli məhsulların istehsalı və yerli məhsulların tədarükü ilə məşğul olan yüksək texnologiyalı biznesin yaranmasına təkan verir.

Texnoparkların əsas vəzifələrinə aşağıdakılar daxildir:

- biliklərin əldə edilməsi və təcrübədə tətbiqi;
- bazara çıxarılan məhsulların istehsalı texnologiyalarının tətbiqi;
- kiçik biznes sektorunun köməyi ilə texnologiyanın sənayeyə yönləndirilməsi;
- kiçik biznesə dəstək.
- bilik və ixtiraların texnologiyaya çevrilməsi.
- bilik tutumlu firmaların formalaşması və bazara çıxarılması.
- bilik tutumlu biznes sahəsində müəssisələrə dəstək [2, s.730].

Məlumdur ki, rexnoparkların fəaliyyətində üç əsas tərəf: idarəetmə şirkətləri, baza təşkilatları və texnoparkın rezidentləri çıxış edir. İdarəetmə şirkəti sakinlərin cəlb edilməsi və yerləşdirilməsi, xidmətlərin göstərilməsi ilə məşğul olur. Baza təşkilatları texnoparkın fəaliyyəti üçün zəruri olan infrastruktur obyektləri, avadanlıq, inventar və digər resursları təmin edir. Öz növbəsində rezidentlər texnoparkın ərazisində innovativ layihələr, yəni investisiya və cari təsərrüfat fəaliyyətini reallaşdıran fərdi sahibkarlar və hüquqi şəxslərdir. İdarəetmə şirkətlərindən tikinti üçün torpaq, hazır binalar və avadanlıqlar, marketinq və konsaltinq xidmətləri, mühəndis-texniki kommunikasiyalar və logistika komplekslərinə çıxış, kadr dəstəyi və informasiya dəstəyi üçün istifadə (almaq və ya icarəyə vermək) üçün torpaq alırlar. Sakinlər həmçinin güzəştli kreditlərə sadələşdirilmiş çıxışa, müştərilərin tapılmasında və sənaye bazarlarına çıxmasında, sosial və məişət məsələlərinin həllində yardıma və texnologiyaların sərbəst mübadiləsinə arxalana bilərlər.

Dəstək tədbirlərinin göstərilməsi ilə paralel olaraq texnoparklar inzibati resurslardan istifadəni və lüzumsuz büdcə xərclərini nəzərdə tutan əlavə institutlar yaratmadan təbii bazar mexanizmləri vasitəsilə elmi və istehsalat əməkdaşlığının inkişafını stimullaşdıraraq təhsil müəssisələri, elmi-tədqiqat mərkəzləri və biznes arasında daimi tərəfdaşlıq əlaqələri təşkil edir.

Texnoparkların formalaşması və tam fəaliyyət göstərməsi, bir qayda olaraq, bir sıra mənbələr hesabına ödənilən təsirli maliyyə xərcləri tələb edir. İlkin kapital təsisçilərin və sponsorların töhfələrindən ibarətdir ki, bu da daha sonra parkda tikilmiş torpaqların və tikililərin sakinlərə satışından əldə edilən gəlirlə tamamlanır.

Büdcə vəsaitlərinə qənaət, maliyyə vəsaitlərinin səmərəli xərclənməsi və risklərin dövlətlə biznes arasında bölüşdürülməsi məqsədilə texnoparklar yaradılarkən iştirakçı tərəflərin bərabərliyinə və qarşılıqlı faydasına əsaslanan dövlət-özəl sektor tərəfdaşlığı mexanizmlərindən fəal istifadə olunur.

Texnopark strukturlarının uğurlu fəaliyyəti yüksək texnologiyalı startapların maliyyə vəziyyətini və bazar mövqelərini əhəmiyyətli dərəcədə gücləndirməyə, son məhsulun regional, milli və dünya bazarlarına çıxarılması ilə elmi-texniki layihələri kommersiyalaşdırmağa yerli şirkətləri cəlb etməyə imkan verir.

Yuxarıda göstərilən tendensiyalar ərazinin investisiya mühitinin və onun işgüzar dairələrdə imicinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin yaradılmasına, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə, ölkənin bələdiyyələrinin və subyektlərinin büdcə təhlükəsizliyinin artırılmasına kömək edir.

İri və nüfuzlu universitetlərin ətrafında texnoparkların yaradılması hazırlıqlı kadrların, maddi-texniki və informasiya bazasının ilkin mövcudluğu, maraqlı tərəflərlə qurulmuş xarici əlaqələr və formalaşmış imici hesabına əhəmiyyətli üstünlüklərə malikdir. Texnologiya parklarının fəaliyyətinin effektivliyi bir sıra meyarlarla, o cümlədən dövlət və regional səviyyələrin müvafiq normativ hüquqi aktlarında təsbit edilmiş meyarlarla müəyyənləşdirilir, lakin elmi mənbələrdə bu prosedura daha maraqlı yanaşmalar var.

Uğurlu texnoparkların fəaliyyətinin təhlili onların effektivliyinin əlamətlərinin üç ümumiləşdirilmiş qrupunu müəyyənləşdirməyə imkan verir - maddi, təşkilati və maliyyə. Maddi nöqteyi-nəzərdən səmərəlilik elmi, tədris, istehsalat və inzibati binaların lazımi texniki avadanlıqla olmasını nəzərdə tutur. Təşkilati xüsusiyyətlərə ali təhsil və elmi-tədqiqat müəssisələri ilə qarşılıqlı əlaqə, klaster siyasəti prinsipləri nəzərə alınmaqla regionun innovativ infrastrukturunun ardıcıl formalaşdırılması çərçivəsində fəaliyyət, biznes inkubatorların və idarəetmə şirkətinin rəhbərlik etdiyi səriştəli idarəetmə sisteminin yaradılması daxildir. Maliyyə xüsusiyyətlərinə sakinlərə yüksək keyfiyyətli və populyar dəstək tədbirləri, yüksək səviyyəli logistika xidməti və maliyyənin cəlb edilməsi daxildir.

Bu gün texnoparklar ETT-nin stimullaşdırılması və elmtutumlu sənayenin dəstəklənməsi üçün böyük potensiala malik olan mühüm ərazi inkişafı institutu və regional iqtisadiyyatın innovativ modernləşdirilməsinin hərəkətverici qüvvəsidir.

Fikrimizcə, texnoparklar indiki inkişaf mərhələsində sənaye müəssisələrinin sağ qalmasını təmin edən və onların bazar mövqeyini qoruyub saxlamağa kömək edən əsas agentlərdir. Bilik və innovasiyaya əsaslanan sənayenin formalaşması sənaye müəssisələri ilə texnoparkların sıx qarşılıqlı əlaqəsi əsasında mümkündür. Müasir inkişaf mərhələsində universitet texnoparkları öz inkişaf siyasətini yenidən formalaşdırmalı və milli sənayenin inkişafının konkret problemlərinin həllinə yönəlmiş öz inkişaf strategiyasını hazırlamalıdırlar.

Universitet texnoparkları ilə sənaye müəssisələri arasında qarşılıqlı əlaqənin əsas istiqamətləri kimi aşağıdakı sahələri ayırd etmək olar:

- sənaye müəssisələrinin təşkilati və idarəetmə strukturunun təkmilləşdirilməsinə yönəlmiş idarəetmə innovasiyalarının inkişafı;
- sənaye müəssisəsinin kommunikasiya siyasətinin, xüsusən marketinq və reklam fəaliyyətinin təkmilləşdirilməsinə, əmtəə nişanlarının və milli brendlərin inkişafına yönəlmiş innovativ həllərin hazırlanması;
- innovativ məhsulların hazırlanması və tədqiqat nəticələrinin kommersiyalaşdırılması;
- sənaye müəssisələrinin çeşid siyasətinin yenilənməsi, satışın artırılması və stimullaşdırılması üzrə tövsiyələrin hazırlanması;
- sənaye müəssisələri üçün proqram məhsullarının layihələndirilməsi, fərdiləşdirilməsi, birbaşa marketinqi və inkişafı sisteminin formalaşdırılması, universitet texnoparklarına dövlət dəstəyi və stimullaşdırılması siyasətinin təkmilləşdirilməsi.

Başa düşülməlidir ki, müasir və səmərəli fəaliyyət göstərən texnoparklar elmin kommersiyalaşdırılmasının əsası, sənayenin səmərəli və sürətli yenidən qurulması vasitəsi, işsizliyin azaldılması amili, intellektual potensialın səmərəli istifadəsi və daha da inkişafı üçün platformadır [3, s.167].

Texnopark strukturlarında iştirak edən kiçik sahibkarlıq subyektlərinin sayının artması, onların ölkədə aktiv inkişafı texnoloji inkişafın və yeni biliklərin yaradılması sisteminin formalaşmasının əsasını qoyan müsbət tendensiyanı ifadə edir. Dolayı olaraq, bu tendensiyalar kiçik biznesə dəstək sistemində dəyişikliklərə ehtiyacı, uzunmüddətli perspektivdə keyfiyyət göstəricilərinin prioritetliyini əks etdirir.

Texnoloji parkların dəstəklənməsi üzrə dövlət tədbirlərinin aşağıdakı növlərini ayırd etmək olar:

1. İdxal olunan texnoloji avadanlıqların ƏDV-dən azad edilməsi.
2. İdxal gömrük rüsumları üzrə imtiyazların verilməsi.
3. Kommersiya banklarının subsidiyalaşdırılması yolu ilə ixracatçılara dəstək.
4. Belə təşkilatlar tərəfindən innovativ layihələrin tətbiqinin bir hissəsi kimi müasir texnologiyalar üzrə elmi-tədqiqat və inkişaf xərclərinin müəyyən qisminin kompensasiya etmək üçün subsidiyalaşdırılması və s.

Texnoparkların investisiya fəaliyyətinin stimullaşdırılmasının əsas şərti rəqəmsallaşmanın təmin edilməsi zərurətidir. Rəqəmsallaşmanın nəticəsi istehsal və idarəetmə sistemlərinin səmərəliliyinin artmasıdır. Bunun nəticəsində iqtisadi təhlükəsizlik təmin edilir, yeni rəqabət üstünlükləri formalaşır. Rəqəmsallaşmanın iqtisadi artıma verdiyi töhfənin mümkün qədər səmərəli olması üçün ölkədə regional innovasiya sistemlərini inkişaf etdirmək lazımdır. Regional innovasiya sistemi regional, milli, özəl və ictimai

təşkilatların və onların qarşılıqlı əlaqə mexanizmlərinin məcmusudur, onların daxilində yeni bilik və texnologiyaların yaradılması, saxlanması və yayılması üçün fəaliyyətlər həyata keçirilir.

Regional innovasiya sisteminin ümumi strukturu aşağıdakı alt sistemlərdən ibarətdir:

- elm tutumlu məhsul və xidmətlər bazarı;
- biliklərin və əqli mülkiyyət obyektlərinin yaradılması;
- innovasiyaların istehsalı;
- innovativ infrastrukturlar;
- təhsil və təlim sistemi.

Regional innovasiya sisteminin innovasiya proseslərinə infrastruktur dəstəyinin inkişafı üçün ən perspektivli istiqamət müxtəlif texnoloji parkların və innovasiya yönümlü şirkətlərin daxil olduğu ərazi klasterlərinin yaradılmasıdır. Klasterlər öz mahiyyətinə görə təsərrüfat idarəetməsinin təmərküzləşməsinin, regional səviyyədə iqtisadi fəaliyyətin fəallığının artmasının təzahürlərindən biridir. Ölkə subyektləri üçün ərazi klasterlərinin və klaster strukturlarının müəyyən edilməsi üsullarının inkişafı dövlət-özəl tərəfdaşlıq mexanizmlərinin inkişafı yolu ilə regionun sosial-iqtisadi inkişafının təmin edilməsi üçün zəruri şərtdir. Klaster yanaşmasının tətbiqi aşağıdakı kimi hərəkətlərin tətbiqindən ibarətdir:

- dövlətin və fərdi şəxslərin maraqlarına ən optimal nisbətlərdə riayət edilməsi mexanizminin formalaşdırılması;
- regional iqtisadiyyatın və regional innovasiya sisteminin inkişafı risklərinin şaxələndirilməsi;
- şəhərlərin inkişafı çərçivəsində onların sosial-iqtisadi, istehsal və investisiya potensialından daha maksimum istifadə etməyə kömək edən sinergetik effektin yaradılması;
- iqtisadi sistemlərin rəqabətqabiliyyətlilik səviyyəsinin artırılması;
- yerli müəssisələr əsasında innovasiya yönümlü istehsalın artımının təmin edilməsi.

Klasterlər iqtisadi sferada unikal hadisə olmaqla, təsərrüfat subyektlərinin regional və bələdiyyə səviyyəsində təmərküzləşməsinin göstəricisi kimi çıxış edir və iqtisadiyyatın əlaqəli sahələrində şirkətlərin müxtəlif əlaqələrindən ibarətdir.

Beləliklə, ölkənin investisiya mühitinin yaxşılaşdırılmasına və texnoparkların innovasiya fəaliyyətinin inkişafına yönəlmiş aşağıdakı təşviq mexanizmlərindən istifadə etmək məqsədəuyğundur:

- texnoparkların dəstəklənməsi;
- xüsusi təminat fondu yaratmaqla pay investisiya fondları bazarında investorların maliyyə kapitalının qorunması mexanizminin hazırlanması;
- ölkədə istehlak krediti sisteminin təkmilləşdirilməsi;
- problemli kreditlər portfelinin monitorinqi sisteminin təkmilləşdirilməsi;
- kredit institutlarının işinin təkmilləşdirilməsi və s.

Ümumiyyətlə, texnoparkların inkişafı sahəsində problemlərin aradan qaldırılması və texnopark strukturlarının fəaliyyətinin səmərəliliyinin artırılması üçün aşağıdakı tövsiyələri təklif edirik:

1. Birincisi, büdcə üçün birbaşa maliyyə dəstəyindən daha qənaətcil olan innovativ məhsullara və yeni texnologiyaların inkişafına daxili tələbatın stimullaşdırılması mexanizmlərinin hazırlanması. Belə mexanizmlərə misal olaraq dövlət və bələdiyyə satınalmaları vasitəsilə tələbata təsir, yerli istehsalçılardan innovativ məhsulların alınması üçün istehlakçıların xərclərinin subsidiyalaşdırılması, yeni bazarların inkişafı üçün regionlararası və beynəlxalq əlaqələrin aktivləşdirilməsini göstərmək olar.

2. İkincisi, vençur fondları şəbəkəsinin genişləndirilməsi və böyük investisiya resurslarına, faydalı təcrübəyə və ərazilərin sənaye inkişafında aşkar marağa malik olan texnoparkların maliyyələşdirilməsinə investorların cəlb edilməsi.

3. Üçüncüsü, vergi güzəştləri və qrantlar kompleksi, dövlət zəmanətləri, kadr, informasiya, elmi-metodiki təminatla bağlı yardımlar vasitəsilə texnologiya parklarının idarəedici şirkətlərinə və rezidentlərinə dövlət dəstəyinin həcminin artırılması və s.

Ədəbiyyat

1. Воронов, Н. Д. Технопарки как центры инновационного развития региональной экономики / Н. Д. Воронов // Научный ежегодник Центра анализа и прогнозирования. – 2020. – № 1(4). – С. 33-38

2. Кочиева, А. К. Активизация деятельности технопарков как фактор инновационного развития экономики регионов / А. К. Кочиева, Л. В. Лысак // Региональная экономика: теория и практика. – 2017. – Т. 15. – № 4(439). – С. 729-741

3. Кодиров, Ф. А. Некоторые вопросы ускоренной индустриализации и инновационной активности университетских технопарков / Ф. А. Кодиров // Таджикистан и современный мир. – 2020. – № 4(72). – С. 160-172

Резюме
Маммадов И.С.
Инвестирование и стимулирование деятельности технопарков

В статье обосновывается необходимость создания технопарков и изучается их роль в национальной экономике. Определены основные задачи технопарков и представлена информация об основных сторонах, участвующих в их деятельности. Исследованы меры государственной поддержки технопарков. В целях устранения проблем в сфере развития технопарков и повышения эффективности деятельности технопарковых структур выдвинуты рекомендации.

Ключевые слова: *технопарк, инвестиции, стимулирование, предприятие, производство, инновации, финансы*

Summary
Mammadov İ.S.
Investing and Stimulating the Activity of Technoparks

Summary: The article substantiates the need to create technology parks and studies their role in the national economy. The main tasks of technoparks are defined and information is provided on the main parties involved in their activities. Measures of state support for technology parks are studied. In order to eliminate problems in the development of technology parks and improve the efficiency of technology park structures, recommendations were put forward.

Key words: *technopark, investment, stimulation, enterprise, production, innovation, finance*

NAXÇIVAN TURİZMİNİN İNKİŞAFINA TƏSİR EDƏN ƏSAS AMİLLƏR

Məmmədov Tural Vətən oğlu
İqtisadiyyat İnstitutu
tural.memmedov81@mail.ru

Xülasə: *Naxçıvan MR Azərbaycan Respublikasının tərkib hissəsi olduğundan ölkəmizdə olan bütün problemlər bu regionda da mövcuddur. Bu problemlərin həlli üçün müəyyən işlər görülməlidir. Beynəlxalq səviyyədə yaranmış problemlər regionun turizminə də öz təsirini göstərir. Beynəlxalq turizmin inkişafından asılı olaraq region turizmi formalaşır. Son dövrlərdə baş verən pandemiya beynəlxalq turizmə öz təsirini göstərmiş, bunun nəticəsində də Naxçıvan MR turizminin inkişafı ləngimişdir. Postpandemiya dövründə turizmin inkişafına xüsusi fikir verilmiş, turizmdə yaranan problemlər həll olunmaqdadır.*

Açar sözlər: *sosial-iqtisadi, turizm sahəsi, kadr potensialı, turizm obyektləri, turizm potensialı*

Turizm xarakterik olaraq sosial yönümlü fəaliyyətdən yaranan bir xidmətdir. Bunun nəticəsində iş yerləri açılır, ev təsərrüfatı inkişaf edir, sahibkarlıq genişlənərək bazara uyğun məhsul və xidmət istehsalı yaranır. Turizm əmək tutumlu fəaliyyət olmaqla əhalinin məşğulluq problemini həll etmiş olur. Turizmin nəticəsində ev təsərrüfatında fərdi sahibkarlıq inkişaf etmiş olur. Turizm inkişaf edən ərazidə infrastruktur yaxşılaşdırılır, yeni xidmət sferası yaranır, maliyyə bazarında dövriyyəyə cəlb edilən pulun miqdarında artım baş verir, bank sistemi formalaşır. İxtisaslı kadrların hazırlanmasında, istifadəsində və bölgüsü prosesində yaranan problemlər turizm vasitəsi ilə aradan qaldırılır. Turizmin sosial yönümlü fəaliyyətindən biri də turizmin xarici ölkələrin vətəndaşları ilə əlaqəsi nəticəsində yaranır. Buna həmin ölkələrdən gələn turistlərə xidmətin yüksək səviyyədə təşkil olunması vasitəsi ilə yeni mədəniyyətin, insanlar arasında olan davranışın formalaşması aiddir. (2. 108 s.)

Naxçıvan MR-nın sosial-iqtisadi inkişafında turizmin rolu böyükdür. Turizm regionun ümumi inkişafında mühüm rola malikdir. Azərbaycan Respublikasında, xüsusilə də Naxçıvan MR-da qeyri-neft sektorunun inkişafında turizmin xüsusi çəkisi mövcuddur. Hər bir sahədə olduğu kimi, turizm sahəsinin inkişafında da bir sıra problemlər mövcuddur. Bu problemlər turizm sahəsinin ümumi inkişafına mane olsa da, bu problemlərin həlli üçün müəyyən tədbirlər görülür. Bu tədbirlərin nəticəsində turizmin inkişafına mane olan məsələlər həll olunur.

Naxçıvan MR-nın turizminin inkişafına mane olan məsələlərdən biri və birincisi logistika məsələsidir ki, gediş-gəliş məsələsində çətinliklər yaradır, bu da turistlərin axınına mənfi təsir edir. Ümumiyyətlə turistlərin hərəkətliliyində belə problemlər həlledici rola malikdir. Naxçıvan MR Azərbaycanın

əsas hissəsindən ayrı olması və bura gediş-gəlişin ancaq və ancaq hava nəqliyyatı vasitəsi ilə olması turistlərin bu regiona gəlməsinə mane olan əsas səbəbdir. Hava nəqliyyatı vasitəsi ilə isə tək bir aviaşirkətin məşğul olması qiymət strategiyasına da mənfi təsir edir ki, bu da turistlərin axının azalmasına səbəb olur. Bir neçə aviaşirkət olsa qiymətlə bağlı rəqabət mühiti formalaşdırar ki, bu da həm turistlərə uçuş zamanı aviaşirkətin göstərdiyi xidmətlərin keyfiyyətinə müsbət təsir edər, həm də qiymətlə bağlı olan məsələyə təsir etmiş olar. Aviaşirkət bu zaman xidmət keyfiyyətinin artırılmasına xüsusi diqqət yetirmək məcburiyyətində qalır, turistlərin istəklərinin yaxşı səviyyədə qarşılanması üçün müəyyən strateji addımlar atır. Ancaq bu bir şirkət olanda "xidmətdə özündən razı olma" məsələsi ortaya çıxır. Bunun da nəticəsində turistlər şirkətin təqdim etdiyi xidməti "məcburi" olaraq qəbul edir. Bir neçə aviaşirkət olsa rəqabət mühiti yaranar, turistlərə göstərilən xidmətlərin sayında və keyfiyyətində əsaslı dəyişikliklər baş verər.

Hazırkı dövrdə bu hava nəqliyyatı ilə bağlı alternativ yol təqdim olunur. Qarabağ məsələsi həll olunduqdan sonra Zəngəzur dəhlizi açılması üçün danışıqlar aparılmağa başlanmışdır. Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan vasitəsi ilə Azərbaycanın əsas hissəsi ilə Türkiyəyə çıxışı, bunun vasitəsi ilə də Avropaya çıxışı təmin ediləcək. Naxçıvan Avropa ilə Asiyanı birləşdirən strateji mərkəzə çevrilməsi nəticəsində bura gələn turistlərin sayı həddindən artıq çox olmağı planlaşdırılır. Çünki bu dəhliz vasitəsi ilə gedənlər Naxçıvan MR-dan keçən zaman regionda olan turizm obyektlərindən istifadə etməklə bu ərazinin iqtisadiyyatının (əsasən də turizminin) inkişafına öz müsbət təsirini göstərəsəkdir. Bunu nəzərə alaraq regionda olan turizm obyektlərinin sayının artırılmasına fikir verilməlidir. Hazırkı turizm potensialı müasir dövrdə turistlərin istəklərinin yerinə yetirilməsi şərtlərinə cavab versə də, gələcəkdə bu dəhliz tam gücü ilə fəaliyyət göstərən zaman regiona axışan turistlərin sayının artırılmasına gətirib çıxaracaq ki, bunun da nəticəsində mövcud olan turizm obektləri turistlərin istəklərini qarşılayacaq səviyyədə deyildir. Dəhliz açılan zaman tez bir zamanda turizm obyektlərinin sayını artırmalı, xidmət keyfiyyəti yüksəldilməlidir. Turizmlə bağlı bu sahələrin inkişafı bir-biri ilə sıx bağlı olduğuna görə proqram kompleks şəkildə həyata keçirilməlidir.

Naxçıvan MR-da 4 turizm agentliyi fəaliyyət göstərir ki, bunlar da regionun turizm sahəsinin inkişafında böyük paya malikdir. Bunlar aşağıdakılardır:

1. Gəmiqaya turizm
2. Natiq travel
3. Şəms turizm
4. Qafqaz turizm

Bu turizm agentlikləri həm regiona gələn turistlərə, həm də regiondan başqa yerlərə (ölkə və regionlara) gedən turistlərə öz turizm xidmətlərini təklif edirlər. Daxili turizmin inkişafına o qədər önəm verilməlidir ki, pandemiya dövrünün olduğu və beynəlxalq turizmin bundan təsirləndiyi vaxt istər region daxilində yaşayan turistlərin istərsə də Azərbaycanın başqa regionlarından bu turizm obyektlərinə səyahətlər intensiv xarakter daşımalıdır. Hətta bu sistem elə qurulmalıdır ki, gələcəkdə də bu turizm xidmətlərindən daha da artıq istifadə olunsun. Regionda turizmin inkişafı nəticəsində turistlərin yaxşı istirahətini biznesə çevirib, regionun sosial-iqtisadi inkişafına təsir edir. Naxçıvan MR-a daxili turizm marşrut xətti nəticəsində gəlmiş turistlər xarici ölkələrdən gələn turistlər arasında xidmət fərqi var. Çünki Azərbaycanlı (regiondaxili və ya Azərbaycanın başqa regionlarından) turistlərə xidmət edilən zaman turistlərin istəklərini qabaqcadan bilmək olur və ona uyğun turizm paketlərini hazırlamaq olur. Xarici ölkələrdən olan turistlərin isə istəklərini qabaqcadan bilmək olmur, onların nə xoşladıqlarını, necə əyləncədən və istirahətdən istifadə edəcəklərini qabaqcadan bilmək çətindir. Xarici ölkələrdən bu regiona gələn turistlər azərbaycanlı turistlərdən fərqli olaraq müəyyən problemlərlə (dil bilməmək, valyuta dəyişmək, milli adət-ənənələrə yad olmaq, davranış və geyim tərzində olan fərqlər və s.) üzləşirlər. Azərbaycanın başqa yerlərindən regiona gələn turistlər üçün belə problemlərlə üzləşmək kimi məsələlər yoxdur. (1)

Qiymət amili ölkədə baş verən sosial-iqtisadi məsələlərdən qaynaqlanır ki, bunun da əsasında turistlərin hərəkətliliyinə təsir edir. Qiymətlə və keyfiyyətlə bağlı rəqabət mühiti yaranarsa, turistlərin daha çox regiona gəlməsinə səbəb olar ki, nəticədə regionun sosial-iqtisadi inkişafına müsbət təsir etmiş olar. Regiona turistlər nəqədər çox axın etsə, bir o qədər pul-maliyyə axını baş verər ki, nəticədə turistlərin turizm obyektlərindən istifadə etməsi nəticəsində burada çalışan əhalinin gəlirlərinin artmasına gətirib çıxarar. Naxçıvanda turizimin inkişafı üçün hər cür şərait mövcuddur. Buranın təbiəti, tarixi-memarlıq abidələri, dini ocaqları, mətbəxi və s. turizmin inkişafına şərait yaradan faktorlardan hesab edilir. Burada əsas məsələ turistlərin bu yerləri tanıması və cəlb olunması məsələsidir. Naxçıvanda turizmin inkişafı üçün yetərli dərəcədə turizm obyekti olsa da, onun tanıdılmasında şəraitin kifayət qədər olmaması turizmin inkişafını əngəlləyən məsələlərdən hesab olunur. Naxçıvan MR-da turizmin inkişafı üçün mütəmadi işlər görülür, mane olan məsələlər aradan qaldırılmağa çalışılır. Naxçıvan MR-nın iqtisadi göstəricilərində xidmət

sahələrinin payı getdikcə artmaqdadır. Buna səbəb region iqtisadiyyatında sənaye sahələrinin payının az olması hesab edilir.

Ümumiyyətlə turizmin inkişafına mane olan səbəblərdən biri turizm mütəxəssislərinin az olması və yaxud da kifayət qədər olmaması hesab olunur. Turizm mütəxəssislərinin hazırlanması ölkə səviyyəsində həll olunmalı məsələdir. Bunun üçün Naxçıvan Dövlət Universitetitində kadr hazırlığı prosesi başlamış və uğurla davam etdirilir. Turizm mütəxəssislərinin hazırlanması turizmdə xidmət keyfiyyətinin artırılmasına şərait yaradır və turizm müəssisələrininişinin səmərəli təşkilini formalaşdırır. Bunun da nəticəsində turistlərin xidmətlərdən istifadə zamanı razı qalmasına, turistlərin axının daimiliyinə şərait yaradır. Bu həm də turizm müəssisələrinin reklam olunmasına, başqa yeni müştərilərin (turistlərin) cəlb olunmasına gətirib çıxarır. Turistlərə göstərilən yüksək səviyyədə xidmət həm turizm müəssisələrinin gəlirinin artmasına, həm də regiona daha çox turistin gəlməsinə səbəb olur. İstisaslı kadrların çox olması turizm müəssisələrində xidmət keyfiyyətinin artırılmasına şərait yaradır. Hər turizm müəssisəsi kadr potensialının artırılması üçün müəyyən strateji addımlar atmaq məcburiyyətindədir.

Azərbaycan Respublikasında xüsusilə də Naxçıvan MR-da turizm sahəsində kadr potensialının artırılması üçün müəyyən addımlar atılır. NDU-da yaradılan kadr hazırlığından əlavə, həmin mütəxəssislər üçün təşkil edilən seminar və konfrans vasitəsi ilə turizmdə xidmətin keyfiyyəti artırılır. Naxçıvan MR-da turizmin inkişafı ilə bağlı bir sıra tədbirlər ardı-arası kəsilmədən həyata keçirilir. Naxçıvan turizminin, turizm potensialının həm ölkə üzrə, həm də beynəlxalq səviyyədə tanıdılması üçün müəyyən işlər həyata keçirilir. Burada turizmlə bağlı sərgilər təşkil edilir, turizm potensialı gələnlərə təqdim edilərək insanların istirahətinin yaxşı səviyyədə olması üçün müəyyən addımlar atılır.

Naxçıvan MR-da turizmin inkişafında əsas başlıca məsələ regionun turizm potensialından düzgün və səmərəli istifadə edilməsi, bu sahənin inkişafına mane olan arqumentlərin aradan qaldırılması, turizmin iqtisadi effektivliyinin daha da artırılması hesab edilir.

Ümumiyyətlə Naxçıvan turizmi ilə bağlı yaranmış problemlər Muxtar Respublika səviyyəsində, yəni dövlətin apardığı turizm siyasətinə uyğun həll edilir. Yaranmış maneələrin kökü araşdırılır, turizm sahəsinin inkişafına münbit şərait yaradılır.

Naxçıvan turizmində regionun iqtisadi potensialından düzgün istifadə etməklə inkişaf strategiyası hazırlanmışdır və bununla bağlı işlər həyata keçirilir.

Region turizminin inkişafına təsir edəcək amillərdən biri iri turizm mərkəzlərinin yaradılmasıdır. Regionda bununla bağlı davamlı işlər həyata keçirilir, turizmin inkişafına təsir edəcək turizm obyektləri inşa edilir.

Naxçıvan regionunda daxili turizmin inkişafında beynəlxalq təcrübədən istifadə edərək turizm sahəsinin ümumi inkişafına şərait yaradılır. Turizmin inkişaf etməsi bəzi ölkələrdə strateji məqsədə aid edilir, turizm sahəsinin ÜDM-da payının artmasına gətirib çıxarır. Turizmdən gələn gəlirlərin ÜDM-ə olan nisbəti həmin regionun ya da ölkənin turizm sahəsinin payının göstəricisidir. Eyni zamanda region əhalisinin turizm sahəsi üzrə məşğulluq səviyyəsi bu sahə üzrə çalışan işçilərin regionun ümumi əhalisinin neçə faizini təşkil etməsi regionun həyatında turizmin payını göstərir. Naxçıvan MR-da turizmin inkişaf istiqamətini formalaşdırmaq üçün turizm investisiyası cəlb edilir.

Naxçıvan MR büdcəsində olan ÜDM-in quruluşunda turizm göstəriciləri turizm sahəsinə aid olan bütün obyektləri və xidməti özündə birləşdirir. Naxçıvanın turizm gəlirləri dövlət gəlirinin, sahibkar və əhali gəlirinin daxili elementidir və regional iqtisadiyyatın formalaşmasına gətirib çıxarır. Hər regionun turizm sahəsi onun iqtisadi-sosial potensialının yaranmasına və idarə edilməsinə birbaşa təsir göstərir. Regionun turizminin sosial-iqtisadi vəziyyəti turizm fəaliyyətinin ümumi inkişafını və bundan gələn gəlirləri özündə birləşdirir.

Ədəbiyyat

1. Naxçıvan Turizm İnformasiya Mərkəzi. http://www.turizm.nakhchivan.az/index.php/2015-12-29-07-30-23
2. Ə.Əlirzayev “Turizmin iqtisadiyyatı və idarə edilməsi” Bakı-2011. 494 səh

Резюме

Мамедов Т.

Основные факторы, влияющие на развитие Нахчиванского туризма

Поскольку Нахчыванская АР является частью Азербайджанской Республики, все проблемы нашей страны существуют и в этом регионе. Для решения этих проблем необходимо провести определенную работу. Проблемы, возникшие на международном уровне, сказываются и на туризме региона. Региональный туризм формируется в зависимости от развития международного туризма.

Недавняя пандемия повлияла на международный туризм, в результате чего развитие туризма в Нахчыванской АР замедлилось. В постпандемический период особое внимание уделяется развитию туризма, решаются проблемы, возникающие в сфере туризма.

Ключевые слова: *социально-экономическая, туристическая сфера, кадровый потенциал, объекты туризма, потенциал туризма*

Summary

Mammadov T.

Main factors affecting the development of Nakhchivan tourism

Since Nakhchivan AR is a part of the Republic of Azerbaijan, all the problems in our country exist in this region as well. Some measures should be done to solve these problems. The problems that have arisen at the international level also affect the tourism of the region. Regional tourism is formed depending on the development of international tourism. The recent pandemic has affected international tourism, and as a result, the development of Nakhchivan AR tourism has slowed down. In the post-pandemic period, special attention has been paid to the development of tourism, and the problems arising in tourism are being solved.

Key words: *social-economic, tourism area, personnel potential, tourism facilities, tourism potential*

MÜASİR DÖVRDƏ KREATİV SƏNAYENİN İNKİŞAFI

Məmmədov Yaşar Əzimağa oğlu
İqtisadiyyat İnstitutu
mammadov60@mail.ru

Xülasə: *Kreativ iqtisadiyyat və sənaye müasir dövrdə öz əhəmiyyət kəsb edən mövqeyi ilə seçilməkdədir. Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da kreativ sənayenin inkişafı üçün şəraitin yaradılmasına başlanılmışdır. Konfransa təqdim edilən materialda kreativ sənayenin ölklərin və dünya iqtisadiyyatında inkişaf səviyyəsi araşdırılır. Bu sahənin inkişafı üçün yaradılan mühit və onun verdiyi töhfələr dəyərləndirilir. Ölkəmizdə qəbul olunan proqram və strateji sənədlərdə kreativ sənayenin inkişafı ilə bağlı olan məqamlar tədqiq edilir. Materialda kreativ sənayenin problemləri qeyd edilməklə, bu sahənin inkişafı baxımından əhəmiyyət kəsb edən baxışlar irəli sürlür.*

Açar sözlər: *kreativ sənaye, intellektual mülkiyyət, iqtisadi siyasət, stimullaşdırıcı mühit, mal və xidmətlər*

Müasir dünya dizaynında yeni iqtisadiyyat və sənaye sahələri daha çox diqqət mərkəzində olmaqla, inkişaf edir. Xüsusilə də kreativ iqtisadiyyat və sənaye öz fərqli inkişaf mövqeyi ilə müşahidə edilməkdədir. Kreativ sənaye - ənənəvi sənaye sahələrindən kifayətqədər fərqlənməkdədir. Belə ki, bu sənaye sahəsinin başlıca fərqləndirici xüsusiyyəti onun yeni-innovativ istehsal sahələrini və bilik iqtisadiyyatını özündə təcəssüm etdirməsi ilə də diqqəti cəlb etməkdədir.

Müasir təcürbə deməyə əsas verir ki, kreativ sənaye başlıca olaraq intellektual fəaliyyətin son nəticələrini meydana çıxarır. O, belə bir sahə istiqamətinə malik olmaqla, həm də müasir – innovativ malların və xidmətlərin yaranmasında xüsusiilə nəzərə çarpır. Kreativ sənayenin əsas xüsusiyyətlərinə nəzər salsaq bu kimi məqamlar daha çox diqqəti cəlb etməkdədir:

- ✓ İqtisadiyyatın müxtəlif sahələrində müasir texnologiyaların tətbiqi və yeni ixtiraların yüksəkliyi;
- ✓ Əmək fəaliyyətində yüksək yaradıcılıq qabiliyyətinin öndə olması;
- ✓ Mövcud olan bilik və bacarıqların sürətlə yenilənməsi.

Müasir qərb dünyasında kreativ iqtisadiyyatın – intelektual mülkiyyət sahələrinə daha yaxın olması əsaslandırılır. Məhz bu baxımdan belə iqtisadiyyatın aparıcı sahələrində bu kimi istiqamətlər əsas yer almaqdadır: memarlıq-dizayn, rekalm-marketinq, sənətkatlıq, moda və geyim, kino, musiqi və digər incəsənət sahələri, nəşriyyat-poliqrafiya və s. [9]. Kreativ sənaye son on illiklərdə öz inkişaf səviyyəsi və əhatə sferasının genişlənməsi ilə diqqəti cəlb etməkdədir. Qeyd olunmalıdır ki, iqtisadi göstəricilərinə görə bu sahə artıq dünyada daha da ciddi mövqeyi ilə fərqlənməkdədir. Kreativ sənaye sahələrində 2019-cu ildə mövcud olan müəssisələrin dünya kapitallaşmasındakı payı - 2,3 triliyon ABŞ dolları səviyyəsində olmuşdur [7]. Beynəlxalq aləmdə ümumi əlavə dəyərin yaradılması və həcmi baxımdan kreativ sənaye sahəsində əsas liderlər kimi - ABŞ (988 milyard dol.) və Çin (923 milyard dol.) ən yüksək mövqeyi ilə seçilməkdədir [5].

Kreativ sənayenin konsepsiyasına beynəlxalq metodologiya əsasən belə bir baxış ifadə olunur: bu sahə intellektual fəaliyyətə əsaslanmaqla və onadan istifadə etməklə yeni məhsul və xidmətlərin istehsalını

təmin edir. Bu sahənin əsas fərləndirici xüsusiyyətlərindən biri də onun davamlı inkişafın sürətlənməsində mühüm rolu ilə bağlıdır. Həmçinin, kreativ sənaye - intektual mülkiyyətin və fəaliyyətin kommersiyalaşmasına birbaşa təsir edir [6]. COVİD – 19 pandemiyasının tüğyan etdiyi 2020-ci ildə belə kreativ sənaye sahəsində bir sıra mühüm nailiyyətlər diqqəti cəlb etmişdir [8]:

⇨ Əksər ölkələrin iqtisadiyyatlarında müxtəlif mal və xidmətlər üzrə yaradılmış əlavə dəyərinin əsas payınının bu sahələrin payına düşməsi;

⇨ Rəqəmsallaşmada kreativ iqtisadiyyat və sənayenin aparıcı mövqeyə malik olması;

⇨ Bu sahə üzrə fəaliyyətin əksər növlərində distant iş formalarının uğurla təşkilinə nail olunması.

Pandemiya dövründə əhalinin əmək fəaliyyəti və məşğulluq sektorunda intensiv rəqəmsallaşdırılmanın baş verməsi özünü göstərmişdir. Bu proses eyni zamanda kreativ sənayenin belə bir böhranlı şəraitidə iqtisadiyyatdakı xüsusi çəkisinin artması ilə də nəzər çarpmışdır. Mövcud vəziyyət və gələcək proqnozlar deməyə əsas verir ki, yaxın və ortamüddətli dövrlərdə rəqəmsal texnologiyaların kerativ sənayedə tətbiq imkanları getdikcə sürətlənəcəkdir. Bu amil bir tərəfdən, müsbət məqam kimi qarşılansa da lakin digər tərəfdən, baş verən proseslər intelektual əməyə əsaslanmayan iş yerlərinin kifayət qədər azalması ilə müşahidə olunacaqdır [8]. Dünyada artmaqda olan problemlərin qarşısında məşğulluq probleminin də kəskinləşməməsi xüsusi zərurətdən irəli gəlməkdədir. Artıq dünya ölkələrində olduğu kimi Azərbaycanda da məşğulluq problemlərinin daha mütərəqqi formalarının tapılmasına ehtiyac yaranmışdır. Xüsusilə də iş yerlərinin qorunmasına və yenilərinin yaradılmasına yönələn tədbirlər artırılmalıdır. Belə tədbirlər fiziki əməkdən çox, intelktual – yaradıcı sahələrdə fəaliyyəti mümkün olan əmək fəaliyyətinin və məşğulluğun təşkinə yönəldilməlidir. Ən perspektivli istiqamətlərin kreativ sənayedə mümkünlüyü daha çox diqqət mərkəzində saxlanmalıdır.

Azərbaycanda kreativ sənayenin inkişafına son on ildə diqqət davamlı şəkildə artması ilə müşahidə olunur. Xüsusilə də sahibkarlıq sektorunda belə baxışlar artıq dövlət siyasəti və strateji istiqamətliliyi ilə özünü göstərməkdədir. Belə ki, sahibkarlıq sektorunun, o cümlədən də onun sənaye sahəsindəki mövqeyinin güclənməsi – belə subyektlərin sayının artması və dayanıqlılığının təmin edilməsi ilə bir müstəvidə diqqəti cəlb edir [2]. Ən vacib məsələlərdən biri də onunla bağlıdır ki, bu sektorda kreativ sənayeyə də xüsusi maraq ifadə olunmaqdadır. Ölkəmizdə ortamüddətli dövrdə sənaye sahəsində kreativ sahibkarlıq forması – belə müəssisələrin intellektual dəyər zəncirinin formalaşmasındakı rolunun artması və onların gəlirliliyinin yüksəlməsi ilə birgə mümkün hesab edilməkdədir [2]. Kreaitv sahələrdə qadın sahibkarlığının xüsusi çəkisinin yüksəlməsi də önəmli hesab olunmalıdır. Çünki, müasir təcürbə belə baxışın özünü doğrultduğunu bir daha nümayiş etdirir. Qeyd edilməlidir ki, kreativ sənayenin inkişafı ilə alternativ məşğulluğuq üçün geniş imkanlar açılır. Belə ki, qadınların, gənclərin və sağlamlıq imkanları məhdud şəxslərin bu sahədə çalışması üçün yeni imkanlar yaranır. Azərbaycanda həyata keçirilən regional siyasətdə də kreativ sənayenin inkişafına təşviq artmaqdadır. Belə yanaşma həm də yüngül və sənətkatlıq sənayesində də müşahidə edilməkdədir. Ölkəmizdə son on ildə bu istiqamətli həm yeni müəssisələrin açılışı, həm də bir çox təsərrüfatların fəaliyyətinin təkmilləşdiirlməklə, bərpası bunu dməyə əsas verir. Belə ki, yeni istifadəyə verilən bir sıra texnopark və müəssisələrdə kreativ sənayenin inkişafı müasir texnoloji avadanlıqların tətbiqi və milli brendləri bazarlara çıxarmaq əsasında təşkili şəkilində müşahidə edilməkdədir [4]. Qeyd olunmalıdır ki, son regional proqramda kreativ sənayesnin dəstəklənməsinə və inkişafına yönəlmiş tədbirlər bu sahədə mütərəqqi texniki avadanlıqların və texnologiyaların tətbiqi, regionlar üzrə belə məqsədlərə də xidmət edəcək elmi tədqiqatların aparılması, yüksək ixtisaslı və təcürbəli kadr potensialının yaradılması kimi vacib sahələri əhatə etməkdədir [4].

Dünyada olduğu kimi Azərbaycanda da belə bir mühüm baxış artıq qəbul olunmaqdadır ki, kreativ sənaye sahələri yeni əlavə dəyərin yaradılmasında yüksək potensiala mailkdir. Bu sahələr xüsusilə də son on ildə həm sahibkarlar, həm də investorlar üçün cəlbedici olmaqla, ciddi maraq doğurmaqdadır. Digər tərəfdən, də bu sənaye sahələrinin müxtəlif bazarlara girişi üzrə olan maneələr də bir o qədər yüksək deyildir. Təbii ki, belə önəmli amillər də kreativ sənayenin təşkili və inkişafında cəmiyyətin bütün üzvləri üçün daha sabit və əlverişli şərait yaratmaqdadır. Xüsusilə də belə müasir sahələrin inkişafı üçün həm şəhər, həm də kənd yerlərində kifayət qədər imkanlar mövcuddur. Azərbaycanın yaxın on il üçün sosial-iqtisadi inkişaf üzrə müəyyən edilən milli prioritetlərində ölkəmizdə kreativ inkişafın da sürətlənməsinə təkan verəcək önəmli istiqamətlər öz əksini tapmaqdadır. Belə ki, dövlət səviyyəsində dəstəklənən və inkişafının stimullaşması üçün zəruri mexanzimlər yaradılan belə istiqamətlərə aşağıdakıları aid etmək mümkündür [1]:

⇨ Bütün əhali qrupları üçün səmərəli məşğulluğun və layiqli əməyin təmini;

⇨ Qadınların iqtisadi imkanlara çıxışının artırılması;

⇨ Qadınların müasir fəaliyyət növləri ilə məşğulluğunun yüksəldilməsi;

⇨ Əlilliyi olan şəxslər üçün zəruri reabilitasiya infrastrukturunun əlçatanlığının təmini;

⇨ Ölkəmizdə müasir tələblər nəzərə alınmaqla, yeni insan kapitalının formalaşdırması;

⇨ Emal sənayesinin inkişafının dərinləşdirilməsi və bunun elmtutumlu və müasir sahələrin inkişafına nail olmaqla həyata keçirilməsi.

Ölkəmizdə qəbul olunan növbəti sosial-iqtisadi inkişaf strategiyası artıq inkişafımızın uzunmüddətli dövrə hədəflənməklə və bu dövrlərdəki dünya çağrışlarına uyğunlaşdırmaqla formalaşmasının labüdliyini göstərir. Xüsusilə də digər sahələrdə olduğu kimi müasir iqtisadiyyat sahələrinin də inkişaf zərurətləri bu strateji sənədlərdə önə çəkilir [3]. Belə yanaşma tərzi bir daha deməyə əsas verir ki, ölkələrin iqtisadiyyatlarındakı sürətli rəqəmsallaşmanın baş verməsi və buna uyğun da məhsuldarlığın artımı keyfiyyətli inkişafın təmini üçün fürsətlər yaratmaqdadır. Belə bir vəziyyət bir daha yeni və müasir tələblərlə uzlaşan kreativ sənayenin ölkəmizdə davamlı inkişafını əsaslandırmaqdadır [3]. Əsasən də digər sahələrdə olduğu kimi kreativ sənayedə də intelektual kapitalın və əqli fəaliyyətin nəticələrinin təşviqi, innovasiya və yaradıcılığa dəstəyin genişlənməsi öz əhəmiyyətliliyi ilə diqqət mərkəzində saxlanmalıdır.

Kreativ sənayenin dünya iqtisadiyyatının müxtəlif sahələrinə verdiyi mühüm töhfələr artıq şəkildə öz əksini tapmaqdadır. Yalnız o qeyd edilməlidir ki, bu sahənin dünya ÜDM – indəki orta payı 6%-i keçir. Həmçinin, inkişaf etmiş və aparıcı ölkələrdə bu göstərici 5%-dən yuxarıdır [11]. Kreativ sənayenin vacibliyini və sosial-iqtisadi inkişafa verdiyi bəhrələri əsas götürərək, əksər Qərb ölkələri son iyirmi ildə bu sahənin dəstəklənməsinə xüsusi üsütünlük verir. Bir çox ölkələrdə isə, bu sənaye sahəsini iqtisadiyyatın və ictimai həyatın başlıca inkişaf mənbəyi kimi də qəbul etməkdədirlər [11]. Bu baxımdan demək olar ki, dünya ölkələrində artıq kreativ ərazilərin və şəhərlərin formalaşması prosesi də məhz bu amillə sıx bağlıdır. Qeyd edilməlidir ki, müasir dövrdə bu sahə iqtisadi artımın yüksəlməsində də mühüm rol olyanmaqdadır. ÜDM-də kreativ sənayenin yükəsk göstəriciləri ilə bir çox ölkələrin reytinq səviyyəsi xüsusilə fərqlənir (qrafik 1).

Mənbə: *Qrafik [10] məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Qrafik. Dünya ölkələrinin ÜDM-də kreativ sənayenin payı (2020, %)

Beynəlxalq təcürbədə kreativ sənaye sahələrinin fəaliyyətinin tənzimlənməsinə və inkişafına dəstək məqsədilə müvafiq dövlət orqanları fəaliyyət göstərməkdədir. Belə təcürbə özünü xüsusilə Böyük Britaniyada daha çox doğrultmaqdadır. Avropa İttifaqının kreativ sənayesində mədəni-maddi dəyərlərə, fərdi və kollektiv yaradıcı formalara əsaslanan fəaliyyət özünü göstərir. İttifaqın bu müasir sahənin inkişafı məqsədilə həm də "kreativ Avropa" proqramı həyata keçirilməkdədir. Kreativ sənayenin Avropa modeli – özündə geniş beynəlxalq əməkdaşlığı, kreativ sahələrin müxtəlif istiqamətlərini və onların maliyyə dəstək sistemini təcəssüm etdirir [10; 11]. Kreativ sənayenin bu modeli – müvafiq sahələrin səmərəli maliyyə ekosisteminin yaradılması üzərində də formalaşmışdır. Azərbaycanda bu müasir sahənin inkişafı ilə bağlı müəyyən tədbirlər həyata keçirilsə də, lakin, biz hələ istədiyimiz və gözlənilən nəticələrə yaxınlaşmamışıq. Ölkəmizdə kreativ sənayenin inkişafı sahəsində dövlətin dəstəkləyici tədbirləri hələ kifayətqədər yaradılmamışdır. Xüsusilə də bu sahədə fəaliyyət göstərən və fəaliyyəti olacaq müəssisələrin avadanlıq və digər resursların əldə edilməsi üzrə stimullaşdırıcı dəstək tədbirlərin genişləndirilməsi vacib hesab olunmaqdadır.

Kreativ sənaye sahələrində həyata keçirilən lahiyyələrin dəstəklənməsi və sektor üzrə ekosistemin yaradılması, onların müasir texnoloji bazasının formalaşdırılmasına qayğının yüksəldilməsi məqsədəuyğun hesab olunur. Mədəniyyət sahəsində (kino, incəsənət, sənətkaarlıq və s.) yeni xidmət sahələrinin və əlavə dəyərin yaradıması zəruri hüquqi-normativ bazanın formalaşdırılmasını ön plana çəkir. Kreativ sənaye sahəsində yaradılan mal və xidmətlərin kommersiyalaşdırılması və onların maliyyə dayanıqlığının artırılması baxımından əqli və intelektual mülkiyyət sahəsində hüquqların qorunması, patentləşdirilməsi kimi istiqamətlərdə müasir təcürbənin tətbiqi məsələsinə baxılması xüsusi zərurətdən irəli gəlməkdədir. Milli kreativ sənaye müəssisələrinin xarici bazarlara çıxışının dəsətəklənməsi və bu sahədə tədbirlərin həyata keçiirlməsi də öz vacibliliyi ilə çıxış etməlidir.

Ədəbiyyat

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. Bakı, 2022. https://president.az/az/articles/view/50474
2. “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”. Bakı, 2016. https://static.president.az/pdf/38542.pdf.
3. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”. Bakı, 2022. https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf
4. “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. Bakı, 2019. http://www.e-qanun.az/framework/41320.
5. В ВВП есть место творчеству. Kommersant. (6 августа 2021). https://www.kommersant.ru/doc/4929650
6. Креативная экономика - двигатель и катализатор устойчивого развития https://news.un.org/ru/story/2013/11/1232591
7. Что такое креативные индустрии? Инновации. РБК Тренды. https://trends.rbc.ru/trends/innovation/5dd54dbf9a79471180f57ce7
8. Организация Объединенных Наций по промышленному развитию. Вена, 2022. Ежегодный доклад 2021 г. https://www.unido.org/sites/default/files/files/2022-05/UNIDO_AR2021_RU.pdf
9. Creative Industries Economic Estimates. Department for Culture, Media and Sport Creative Industries Economic Estimates - January 2015. https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/394668/Creative_Industries_Economic_Estimates_-_January_2015.pdf
10. Creative Industries Trade challenges and opportunities post pandemic. https://impact.economist.com/perspectives/sites/default/files/eiu_dit_creative_industries_2021.pdf
11. UNCTAD. Trade and Development Report 2021. https://unctad.org/webflyer/trade-and-development-report-2021.

Резюме

Мамедов Я.А.

Развитие креативной индустрии в современную эпоху

Креативная экономика и промышленность выделяются своим значимым положением в современную эпоху. Как и в большинстве стран, в Азербайджане началось создание условий для развития креативной индустрии. В материале, представленном на конференции, исследуется уровень развития креативной индустрии в странах и мировой экономике. Среда, созданная для развития этой области, и ее вклад ценятся. В программных и стратегических документах, принятых в нашей стране, исследуются вопросы, связанные с развитием креативной индустрии. Отмечая в материале проблемы креативной индустрии, выдвигаются предложения, имеющие значение с точки зрения развития данной сферы.

***Ключевые слова**: креативная индустрия, интеллектуальная собственность, экономическая политика, стимулирующая среда, товары и услуги*

Summary

Mammadov Y.A.

Development of Creative Industry in Modern Times

The creative economy and industry stand out for their important position in modern times. As in most countries, Azerbaijan has begun to create conditions for the development of the creative industry. The material presented at the conference examines the level of development of the creative industry in the countries and the world economy. The environment created for the development of this area and its contributions are evaluated. The program and strategic documents adopted in our country study the aspects related to the development of the creative industry. The material highlights the problems of the creative industry and puts forward views that are important in terms of the development of this industry.

***Key words**: creative industry, intellectual property, economic policy, stimulating environment, goods and services*

MÜƏSSİSƏLƏRDƏ İDARƏETMƏ İNNOVASİYALARININ TƏTBİQİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Məmmədova Səidə Rəhim qızı
Sumqayıt Dövlət Universiteti
seidememmedova@mail.ru

Xülasə: *Məqalədə idarəetmə innovasiyalarının mahiyyəti açıqlanmış və onların tətbiq edilməsinin zəruriliyi əsaslandırılmışdır. İdarəetmə innovasiyalarının tətbiqi prosesininin əsas mərhələləri müəyyənləşdirilmiş və hər bir mərhələnin xüsusiyyətləri şərh edilmişdir. İdarəetmə innovasiyalarının tətbiqinin müəssisələrin fəaliyyətinə təsiri qiymətləndirilmişdir. Müəssisələrdə idarəetmə innovasiyalarının tətbiqini şərtləndirən və ona mane olan amillər araşdırılmışdır.*

Açar sözlər: *idarəetmə innovasiyaları, texnologiya, müəssisə, metod, effektivlik*

Müasir dövrdə innovasiyaların tətbiqi qanunauyğunluğa çevrilir və müəssisələrin rəqabət qabiliyyətini artırmaq üçün yeni imkanlar kimi qiymətləndirilir. Bu gün idarəetmə sistemində innovativ proseslərin rolu artır. İnnovativ proseslər məhsulların çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi, texnologiyanın təkmilləşdirilməsi və istehsalın səmərəli təşkili baxımından əhəmiyyətlidir. İdarəetmə innovasiyaları isə idarəetmə mexanizmləri tərəfindən müxtəlif fəaliyyət sahələrinə təsir baxımından uğurlu yeniliklərdir.

İdarəetmə innovasiyaları dedikdə, şirkətin daxili mühitinin xarici mühitin dinamikasına uyğun olaraq səmərəli tənzimlənməsini təmin edən idarəetmə sistemində baş verən dəyişikliklər başa düşülür. Geniş mənada idarəetmə innovasiyaları - idarəetmə sisteminin ayrı-ayrı hissələrinin, fəaliyyətin idarə edilməsinin və ümumilikdə bütün idarəetmə sisteminin səmərəliliyini artırmağa və son nəticədə təkmilləşdirməyə yönəlmiş yeni texnologiyalar, metodlar, alətlər, təşkilati üsulların məcmusudur [2, s.110]. İdarəetmə innovasiyasının əsas məqsədi digər innovasiyaların effektiv inkişafı və reallaşdırılması üçün şəraitin təmin edilməsidir. İdarəetmə innovasiyalarının tətbiqi innovasiya mühitinin hərtərəfli öyrənilməsini tələb edir.

İdarəetmə innovasiyaları, bir qayda olaraq, bir-biri ilə əlaqəli iki bloku əhatə edir. Bu, bir tərəfdən kadr sisteminə yeni elementlərin, formaların və metodların daxil edilməsidir. Digər tərəfdən köhnəlmiş elementlərin, formaların və metodların kadr sistemindən çıxarılmasıdır. Təşkilatda bu cür yeniliklərin səbəbləri ola bilər:

- müştəri ehtiyaclarının dəyişməsi;
- elm, mühəndislik və texnologiyanın inkişafı;
- təşkilatın daxili ehtiyaclarının dəyişdirilməsi;
- ictimaiyyətlə əlaqələrin inkişafı;
- təşkilatın rəqiblərinin hərəkətləri və s.

İdarəetmə innovasiyalarının tətbiqi üçün universal üsul yoxdur. Onun yerini bir sıra üsul və qaydalar tutur. İdarəetmə innovasiyalarının hazırlanması və tətbiqi prosesində müxtəlif üsul və vasitələrdən istifadə olunur: müqayisə, biznes prosesinin yenidən qurulması, layihə metodu və s. Bu və ya digər metodun tətbiqinin məqsədəuyğunluğu innovasiya prosesinin təşkili mərhələsindəki vəzifədən asılıdır. Ümumilikdə idarəetmə innovasiyalarının təşkili və reallaşdırılması innovasiya prosesinin metodoloji təminatı probleminin həllini nəzərdə tutur.

İdarəetmə innovasiyalarını fəal şəkildə tətbiq etmək lazımdır, çünki bu, istənilən nəticənin əldə edilməsinə ən çox mane olan bir sıra təşkilati problemləri həll etməyə kömək edir [3, s.16]. İdarəetmə innovasiyaları işçiləri düzgün istiqamətləndirməyə kömək edə bilər və nəticədə istehsalın və şirkətin səmərəliliyinin artmasına nail olmaq olar. İdarəetmə innovasiyalarının tətbiqi prosesininin aşağıdakı mərhələlərini ayırd etmək olar:

Birinci mərhələdə şöbələr arasında əlaqələr strukturlaşdırılır, planlaşdırma və büdcələşdirmə tətbiq edilir, kadrlar yenilənir, idarəetmə məlumatlarının emalı kompüterləşdirilir.

İkinci mərhələdə satış və bölüşdürmə şəbəkələri, logistika zəncirləri, marketinq siyasəti qurulur, şaquli inteqrasiya olunmuş holdinqlər formalaşa bilir, məhsulun qablaşdırılması və layihəsi dəyişir, çeşidi yenilənir və genişləndirilir.

Üçüncü mərhələ modernləşdirmə mərhələsidir ki, bu zaman avadanlıqların yenilənməsi, hazır istehsal xətləri və texnologiyaların alınması, borc götürülmüş texnologiyalar əsasında orijinal məhsulların hazırlanması və digər proseslər reallaşdırılır.

Dördüncü mərhələ innovativ və texnoloji inkişafdır: kəşfiyyat xarakterli elmi-tədqiqat işləri aparılır, korporativ tədqiqat institutları və vençur fondları yaradılır, ixtisaslaşmış tədqiqat qrupları cəlb edilir, kiçik

innovativ şirkətlər alınır, yüksək texnologiyalara doğru diversifikasiya aparılır, sürətlə inkişaf edən bazar seqmentləri, aktiv patent və lisenziya siyasəti tətbiq edilir.

İqtisadi ədəbiyyatlarda idarəetmə innovasiyalarının tətbiqinin aşağıdakı əsas mərhələləri də müəyyənləşdirilmişdir:

1) ixtira - yenilik ideyasının yaranması;

2) təşəbbüs - informasiya texnologiyalarından istifadə nəticəsində ideyanın tətbiqi variantlarının axtarışı;

3) diffuziya - bütövlükdə konkret idarələrin və ya müəssisələrin səmərəliliyini artıra bilən ideyanın təcəssümü.

İdarəetmə innovasiyalarının xarakterini formalaşdıran üç əsas amil qrupu var:

- hədəf amilləri;
- təşkilati amillər;
- sosial-psixoloji amillər.

Bu amillərdən hər hansı biri müəssisənin innovasiyalara həssaslığını azalda və hətta onları əngəlləyə bilər. Beləliklə, idarəetmə innovasiyalarının tətbiqinə təsir edən mühüm amilləri ayırmaq olar (Cədvəl).

Cədvəl.

Təşkilatlarda idarəetmə innovasiyalarının tətbiqini şərtləndirən və ona mane olan amillər

İdarəetmə innovasiyalarının tətbiqini şərtləndirən amillər	**İnnovasiya proseslərinə və tətbiqinə prosesinə mane olan amillər**
- idarəetmənin yeni forma və üsullarının tətbiqinə səbəb olan texnika və texnologiyanın dəyişməsi; - müəssisənin rəqabət qabiliyyətinin artırılması; - yerli müəssisələrin innovativ potensialından tam istifadə edilməməsi; - minimum ehtiyatlarla istehsalın təşkili imkanı, yəni, materialların və vaxtın əsassız xərclərinin azaldılması; - innovativ fəaliyyəti stimullaşdıran motivasiya prosesinin olmaması; - işçilər və menecerlər arasında münasibətlərin aşağı mədəniyyətinin səbəb olduğu sosial-psixoloji gərginlik; - nəticə əldə olunana qədər iş vaxtının artırılması və səlahiyyətlərin zəif ötürülməsi; - struktur bölmələrinin həddindən artıq birləşməsi. Bu, onların sıxlığı səbəbindən idarəetmənin səmərəliliyinin azalmasına səbəb olur; - menecerlərin təşkilati strukturun mürəkkəbliyinə yönəldilməsi; - kollektivin innovativ fəaliyyətini ləngidən avtoritar idarəetmə tərzi; - istehlakçılar qarşısında öhdəliklərin yerinə yetirilmə sürətinin aşağı olması.	- şəxsi vəsaitin olmaması; - yüksək iqtisadi risk; - təşkilatın aşağı innovativ potensialı; - ixtisaslı kadr çatışmazlığı; - yeni texnologiyalar haqqında məlumatın olmaması; - innovasiya prosesinin vaxtının qeyri-müəyyənliyi; - innovasiya infrastrukturunun inkişaf etməməsi; - yeniliklərin yüksək qiyməti; - yeniliklərin uzun geri qaytarılma müddətləri; - digər təşkilatlarla, müəssisələrlə əməkdaşlıq imkanlarının olmaması; - texnologiya bazarının inkişaf etməməsi; - innovasiyaları tənzimləyən və stimullaşdıran qanunvericilik-hüquqi və normativ-hüquqi sənədlərin kifayət qədər olmaması; - innovasiya prosesi iştirakçılarının maraqlarının uyğunsuzluğu; - idarəetmə aparatının funksional mütəxəssislərinin və xətti menecerlərinin dəyər yönümlərindəki fərq: - yeniliklərin müəssisənin nəticələrinə əhəmiyyətsiz təsiri; - ixtisaslı yardım və məsləhətə çıxışın olmaması.

Azərbaycanda mövcud iqtisadi vəziyyətdə idarəetmə innovasiyaları daha çox sənaye və ya korporativ maraqlarla müəyyənləşdirilir. Bu maraqlar üç səviyyədə iqtisadi gücün müxtəlif formaları ilə məhdudlaşır.

Birinci səviyyə qlobal maliyyə kapitalının təsirini əks etdirir. Bu səviyyə qlobal koordinasiyanı əks etdirir.

İkinci səviyyə qlobal maliyyə kapitalının təsiri altında olan dövlətin (milli, mərkəzləşdirilmiş) iqtisadi siyasətinin (koordinasiyasının) səviyyəsidir. Bu siyasət rəqabəti qorumaq məqsədi daşıyır. Beləliklə, şirkətlərin birləşməsi və satın alınması formal olaraq sabitləşir və ciddi diqqət mərkəzinə keçir.

Üçüncü səviyyə qlobal və mərkəzləşdirilmiş koordinasiya sistemi çərçivəsində korporativ maraqların uyğunlaşdırılmasıdır.

Daim dəyişən bazar prosesləri kontekstində təşkilatda dəyişiklikləri izləməyə və tendensiyaları müəyyənləşdirməyə, təşkilatın daxili mühitində dəyişikliklərə olan ehtiyaca nəzarət etməyə və təmin etməyə yönəlmiş idarəetmə mexanizmlərinin olması zəruridir. Belə zəruri element idarəetmə innovasiyalarının effektivliyinin qiymətləndirilməsi mexanizmidir. İdarəetmə innovasiyalarının effektivliyi maliyyə, informasiya, təşkilati, psixoloji amillərdən asılıdır.

Bu günə qədər müəssisələrdə tətbiq edilən idarəetmə innovasiyalarının qiymətləndirilməsi metodologiyası tam formalaşmış hesab edilə bilməz. Bir müəssisədə istifadə edilən idarəetmə innovasiyalarının effektivliyini qiymətləndirmək üçün kifayət qədər yanaşma var. İdarəetmə innovasiyalarının effektivliyinin qiymətləndirilməsi problemlərinin öyrənilməsinə nəzəri və metodoloji yanaşmalar bir çox müəlliflərin əsərlərində nəzərdən keçirilir.

Bir çox idarəetmə məktəbi mövcud təşkilatlar səviyyəsində də idarəetmə innovasiyalarının effektivliyini qiymətləndirmək üçün meyarlar hazırlayır. İdarəetmə innovasiyaları innovasiya mühitinin əsas göstəriciləri ilə qiymətləndirilməlidir, məsələn:

- təşkilatda idarəetmə qərarlarının qəbul edilməsində səlahiyyətlərin mərkəzləşdirilməsi (mərkəzləşdirilməməsi) səviyyəsi;
- komandanın innovasiya prosesində iştirakının stimullaşdırılması və əlaqələndirilməsi mexanizmlərinin mövcudluğu (olmaması);
- idarəetmə innovasiyalarının hazırlanması və tətbiqi sahəsində kadrların səriştəsinin səviyyəsi.

Alınan məlumatlara əsasən, idarəetmə innovasiyasının konkret növünün tətbiqi zərurəti barədə qərar qəbul edilir. Diaqnostika belə qərarların qəbulu üçün informasiya bazası yaradır. Dövlət orqanlarının innovasiya mühitinin diaqnostikası üçün empirik məlumatların toplanması və təhlili üçün bütün mövcud vasitələrdən istifadə etmək lazımdır. Bunlara daxildir: sənədlərin təhlili, müşahidə, sorğu, təcrübə [1, s.129].

Bu üsulların hər birinin bir sıra üstünlükləri və mənfi cəhətləri var. Odur ki, həmin üsulların kombinasiyada tətbiq edilməsi məqsədəuyğundur.

Ümumiyyətlə, idarəetmə innovasiyalarının tətbiqi innovasiyaların tətbiqinin təşkilati mexanizminin yaradılmasını nəzərdə tutur. Bu mexanizm təcrübə ilə yaradılır, çünki ən ideal dəyişiklik layihəsi kənarlaşmalarla müşayiət olunur.

İdarəetmə innovasiyalarının strukturunu təhlil etdikdən sonra onların tətbiqinə obyektiv mane olan amilləri müəyyənləşdirmək olar: təşkilati strukturların əhəmiyyətinin lazımi səviyyədə qiymətləndirilməməsi, menecerlərin sadə qərarlar qəbul etməyə meyli, kollektivin yeniliklərə qarşı çıxması və s.

İdarəetmə innovasiyaları yüksək dərəcədə ixtisaslaşmış ola bilməz, onların innovasiyaların idarə edilməsi prosesində diqqətlə təhlil edilməli və nəzərə alınmalı olan bir çox aspektləri var. Yeniliklərin hazırlanması və tətbiqi prosesi təşkilat daxilində razılaşdırılmalıdır. Bir təşkilatda eyni vaxtda müxtəlif dəyişiklik prosesləri baş verə bilər. Nə qədər ki, onlar bir-birindən ayrı fəaliyyət göstərirlər, innovasiyanın təsiri az olacaq. Bu problem inzibati fəaliyyət sistemində innovasiyaların yayılması funksiyasının icrasının mərkəzləşdirilməsi yolu ilə həll edilir. Hamı üçün ümumi olan təşkilati inkişafın vəzifələrini, bütün struktur bölmələr üçün ümumi olan idarəetmə strukturunun dəyişdirilməsi planını müəyyənləşdirmək lazımdır. İdarəetmə innovasiyalarının effektivliyi qurumun rəhbərliyinin innovasiya prosesində marağı və iştirakı ilə düz mütənasibdir. Rəhbərliyin mövqeyi həm edilən dəyişikliklərin faydalı təsirini artıra, həm də yeniliklərin tətbiqi səylərini puça çıxara bilər. Odur ki, idarəedici orqanının idarəetmə heyətinin idarəetmə innovasiyalarına olan ehtiyacı başa düşmək və təşviq etmək üçün kifayət qədər səriştəsi olmalıdır.

Beləliklə, idarəetmə innovasiyalarını tətbiq etmək üçün həm təşkilati, həm texnoloji, həm də insan amilini nəzərə almaq lazımdır. Bunun üçün təşkilati dəyişikliklərin bütün növ texnoloji yeniliklər və kadrların inkişafı ilə inteqrasiyası vacibdir ki, bu, yüksək iqtisadi nəticələr verəcəkdir.

Ədəbiyyat

1. Дюпина, Л. Ф. Оценка эффективности управленческих инноваций / Л. Ф. Дюпина, М. С. Дикунова, В. Н. Прокопов // Научный альманах. – 2015. – № 11-2(13). – С. 128-131

2. Евлоев, Р. Г. Проблемы внедрения управленческих инноваций в современных организациях / Р. Г. Евлоев // Вестник Академии. – 2020. – № 4. – С. 108-113

3. Синькевич, Г. П. Роль и значение управленческих инноваций в административной деятельности / Г. П. Синькевич // Тенденции развития науки и образования. – 2020. – № 62-11. – С. 15-18

Резюме
Маммадова С.Р.
Факторы, определяющие внедрение управленческих инноваций на предприятиях
В статье раскрывается сущность управленческих инноваций и обосновывается необходимость их применения. Определяются основные этапы процесса внедрения управленческой инновации и объяснены особенности каждого этапа. Оценидается влияние внедрения управленческих инноваций на деятельность предприятий. Исследуются факторы, определяющие и препятствующие внедрению управленческих инноваций на предприятиях.
***Ключевые** слова: управление инновациями, технология, предприятие, метод, эффективность*

Summary
Mammadova S.R.
Factors Determining the Introduction of Managerial Innovations in Enterprises
The article reveals the essence of managerial innovations and substantiates the need for their application. The main stages of the process of introduction of managerial innovation are determined and the features of each stage are explained. The impact of the introduction of managerial innovations on the activities of enterprises is assessed. The factors that determine and hinder the introduction of managerial innovations in enterprises are studied.
***Key words**: innovation management, technology, enterprise, method, efficiency*

MÜƏSSİSƏNİN İQTİSADİ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Mikayılova Sevda Məmməd qızı
İqtisadiyyat İnstitutu

Əhmədov Məhəmməd Ələddin oğlu
Sumqayıt Dövlət Universiteti
mehemmed.ehmedov.57@mail.ru

***Xülasə:** Müasir bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən hər bir bazar subyektinin əsas məqsədi insan tələbatlarını ödəyə bilən faydalı məhsullar və xidmətlər çoxluğunu istehsal etməklə mənfəətin hər vasitə ilə maksimallaşdırılmasına nail olmaqdır. Belə bir məqsədin reallaşdırılması üçün hər bir müəssisənin təsərrüfatçılıq fəaliyyətinin idarə edilməsinin yaxşılaşdırılması və iqtisadi vəziyyətinin optimallaşdırılması tələb olunur. Məqalədə müəssisənin iqtisadi fəaliyyətinin təkmilləşdirilməsi məsələləri nəzərdən keçirilir.*
***Açar sözlər:** bazar iqtisadiyyatı, müəssisə, iqtisadi təhlil fəaliyyəti, iqtisadi səmərəlilik, idarəetmə*

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən hər bir bazar subyektinin əsas strateji məqsədi insan tələbatlarını ödəyə bilən maddi nemətlər çoxluğunu istehsal etməklə mənfəətin hər vasitə ilə maksimumlaşdırılmasına nail olmaqdır. Miqyasından asılı olmayaraq bu məqsədin reallaşdırılması üçün hər bir müəssisənin təsərrüfatçılıq fəaliyyətinin idarə edilməsinin yaxşılaşdırılması və iqtisadi vəziyyətinin optimallaşdırılması tələb olunur. Müəssisənin təsərrüfatçılıq fəaliyyəti isə bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan çox müxtəlif iqtisadi prosesləri özündə birləşdirir. Məsələn, müəssisənin maliyyə vəsaitlərinin hərəkəti nəinki onun istehsal fəaliyyətinin nəticələrini özündə əks etdirir, eləcə də onun investisiya imkanlarını müəyyənləşdirir. Bununla yanaşı maliyyə vəsaitlərinin mövcudluğu və onların səmərəli hərəkəti müəssisənin idarə edilməsinin və iqtisadi fəaliyyətinin səmərəlilik göstəricisi kimi də qəbul edilə bilər. Müəssisədə təsərrüfatçılıq fəaliyyətinin idarə edilməsinin yaxşılaşdırılması isə bir sıra amillərdən asılıdır. Belə amillərdən biri müəssisənin iqtisadi fəaliyyətinin təhlilidir. İqtisadi təhlil fəaliyyəti müəssisənin əsas fəaliyyət növlərindən biridir. İqtisadi təhlil fəaliyyətinin əsas məqsədi müəssisənin təsərrüfatçılıq fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilmiş idarəetmə qərarlarının qəbul olunması üçün lazımi məlumatların hazırlanmasıdır. Qəbul edilmiş idarəetmə qərarlarının səmərəlilik səviyyəsi ilk növbədə aparılmış iqtisadi təhlil nəticəsində əldə edilmiş bu məlumatların obyektivliyindən, onların reallıq səviyyəsindən asılıdır. Bu isə iqtisadi təhlil fəaliyyətinin müəyyən elmi biliklər əsasında aparılmasını tələb edir. Müəssisənin iqtisadi fəaliyyətinin təhlili, hər şeydən əvvəl, müəyyən iqtisadi biliklər sisteminə əsaslanmalıdır[1, s.17].

Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən hər bir müəssisənin, sahibkarlıq fəaliyyətinin başlıca məqsədi mənfəətin qazanılması, onun hər vasitə ilə maksimumlaşdırılmasıdır. Bu strateji məqsədə nail olmaq üçün bir sıra şərtlərin yerinə yetirilməsi tələb olunur. Belə şərtlətdən biri müəssisədə istehsal – təsərrüfat fəaliyyətinin təhlilidir**.** İqtisadi təhlil fəaliyyəti müasir təsərrüfatçılıq şəraitində müəssisənin iqtisadi fəaliyyətinin idarə edilməsinin optimallaşdırılmasının ən mühüm şərtlərindən biridir. İqtisadi təhlil bir tərəfdən nəzəri biliklər sistemi, digər tərəfdən isə insanın düşünülmüş fəaliyyət sahələrindən biri olduğunu nəzərə alsaq, o daim təkmilləşdirilməli və müasir dövrün tələblərinə cavab verməlidir. İqtisadi təhlil fəaliyyətinin təkmilləşdiriməsinin zəruriliyini və əhəmiyyətini tələb edən bir sıra şərtlər mövcuddur. Bu şərtlərdən aşağıdakıları göstərmək olar. Hər şeydən əvvəl, zaman keçdikcə iqtisadi təhlil fəaliyyətinin nəzəri – metodoloji əsasları sahəsində dəyişikliklər baş verir, yeni – yeni nailiyyətlər əldə edilir. Bu həm ümumi iqtisad elmlərinə, həm də konkret iqtisad elmlərinə aiddir. İqtisadiyyat elmi sahəsində yeni konsepsiyalar, yeni cərəyanlar, yeni iqtisadi fikirlər, yeni yanaşmalar meydana gəlir, formalaşır. İqtisadiyyat elmində baş verən yeniliklər iqtisadi fəaliyyət sahəsində də müəyyən dəyişikliklərin aparılmasını tələb edir.

İqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsini zəruriləşdirən əsas amillərdən biri də iqtisadi tədqiqatlarda istifadə edilən metod və üsullarla bağlıdır [2, s. 29]. Elmi – texniki nailiyyətlərlə yanaşı iqtisadi tədqiqatlarda istifadə olunan metod və üsullarda da dəyişikliklər baş verir, müasir informasiya texnologiyalarından istifadə edilməklə təkmilləşmiş yeni metod və üsullar yaranmaqdadır. İqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsini zəruri edən əsas amillərdən biri də insan amili ilə, onun ilk növbədə əqli qabiliyyəti ilə bağlıdır. Müasir şəraitdə iqtisadi təhlil fəaliyyətini həyata keçirən mütəxəssislərdən yüksək peşəkarlıq, bilik və bacarıq tələb olunur. Bu zaman, qeyd etmək lazımdır ki, nəinki, iqtisadi biliklər sisteminə yiyələnmək, habelə digər sahələrdə, məsələn, texniki elmlər sahəsində, istehsal texnologiyarı sahəsində, eləcə də, müasir informasiya texnologiyaları sahəsində də dərin biliklərə yiyələnmək tələb olunur.

İstehsal – təsərrüfatçılıq fəaliyyətində iqtisadi təhlilin inkişafına xidmət edən əsas sahələrdən biri də riyazi elmlərin və kompyuter texnologiyasının inkişafıdır. Bu sahələrdə qazanılan yeniliklər iqtisadi təhlil fəaliyyətinin də təkmilləşdirilməsinə səbəb olur.

Praktiki fəaliyyətdə optimal idarəetmə qərarlarının qəbul edilməsi analitik tədqiqatların aparılmasını tələb edir. Bu isə iqtisadi nəzəriyyənin əsaslarının, yəni mikro və makroiqtisadiyyatın əsaslarının mükəmməl öyrənilməsini, mövcud iqtisadi sistemin fəaliyyət mexanizmlərinin öyrənilməsini, dünya iqtisadiyyatının inkişaf meyllərinin öyrənilməsini tələb edir.

Hər hansı bir bazar suyektinin təsərrüfat fəaliyyətini xarakterizə edən və tələb olunun bütün informasiyaların əldə edilməsi, bu informasiyaların əldə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini də zəruri edir. İqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri iqtisadi təhlil fəaliyyətinin metodologiyasının və onun təşkili prosesinin təkmilləşdirilməsidir. Bu zaman əsas üstünlük situativ təhlilin, strateji, layihə, marketinq, SWOT – təhlilinin, eləcə də institutsional təhlilin öyrənilməsinə və risklərin qiymətləndirilməsi məsələlərinə verilməlidir [3, s. 58].

Situativ təhlilin əsasını istehsalatda funksional əlaqələri öyrənən iqtisadi modellər təşkil edir. Bu əlaqələrin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, istehsal - təsərrüfat fəaliyyətinin proqnozlaşdırıması nöqteyi – nəzərdən istehsaldaxili və istehsalxarici əlaqələrin öyrənilməsi müəssisənin iqtisadi fəaliyyətinin dayanıqlığını təmin edir. Strateji təhlil isə uzunmüddətli dövrdə iqtisadi məqsəddən asılı olaraq ən optimal variantın seçilməsini təmin edir. Layihə təhlili bazar münasibətləri şəraitində istehsal – kommersiya fəaliyyətinin ilkin mərhələdə səmərəliliyinin hesablanması və qiymətləndirilməsinə yönəldilməlidir. Marketinq təhlili müəssisənin istehsal etdiyi məhsullara yaxın və uzaq perspektivdə tələbin necə dəyişəcəyinin öyrənilməsinə xidmət edir. SWOT – təhlilinin aparılması müəssisənin fəaliyyətinin hərtərəfli öyrənilməsi əsasında gələcək fəaliyyətində maliyyə nəticələrinin əvvəlcədən müəyyən edilməsinə yönəldilmişdir. İnstitutsional təhlil ölkədə mövcud ictimai və sosial münasibətlərin hüquqi və təşkilati əsaslarının möhkəmləndirilməsini və eləcə də cəmiyyətin iqtisadi, siyasi və hüquqi həyatının müxtəlif tərəflərini tənzimləyən norma və qaydaların öyrənilməsini nəzərdə tutur. Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində müəssisələrin iqtisadi fəaliyyəti qeyri – müəyyənlik şəraitində baş verir. Risklərin öyrənilməsi və riskdən yayınma metodlarının öyrənilməsi iqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biridir.

Ədəbiyyat

1. Əliyev R.R. "İqtisadi təhlilin nəzəriyyəsi", Bakı, 2002, 516 s.

2. Баканов, М.И., Шеремет, А.Д. «Теория анализа хозяйственной деятельности предприятия», М., ДИС, 2001, 502с.

3. Любишин, Н.П., Лещева, В.Б., Сучков, Е.А. Теория экономического анализа. Учебно-методический комплекс. Экономист, 2004, 480 с.

Резюме
Микаилова С.М., Ахмедов М.А.
Вопросы совершенствования экономической деятельности предприятия

Главной целью каждого субъекта рынка, функционирующего в условиях современной рыночной экономики, является достижение всеми средствами максимизации прибыли за счет производства набора полезных продуктов и услуг, способных удовлетворить потребности человека. Для реализации такой цели необходимо улучшить управление хозяйственной деятельностью каждого предприятия и оптимизировать экономическую ситуацию. В статье рассматриваются вопросы совершенствования хозяйственной деятельности предприятия.

Ключевые слова: *рыночная экономика, предприятие, экономический анализ деятельности, экономическая эффективность, управление*

Summary
Mikailova S.M., Ahmadov M.A.
Issues of Improving the Economic Activity of the enterprise

The main goal of each market entity operating in a modern market economy is to achieve by all means the maximization of profits through the production of a set of useful products and services that can satisfy human needs. To achieve this goal, it is necessary to improve the management of the economic activities of each enterprise and optimize the economic situation. The article deals with the issues of improving the economic activity of the enterprise.

Key words: market economy, enterprise, economic analysis of activity, economic efficiency, management

İNNOVATİV İQTİSADİYYATIN İNKİŞAFINDA ELMİN ROLU

Mirzəbəyov Araz Əliosman oğlu
Sumqayıt Dövlət Universiteti
araz.mirze@gmail.com

Xülasə: *Müasir dövrdə elmi innovasiyalarsız təsəvvür etmək olmaz elm və innovasiya bir-biri ilə qarşılıqlı əlaqədədir. Odur ki, elmin innovativ iqtisadiyyatın inkişafında rolunun araşdırılması zəruridir. Məqalədə elm və innovasiya arasında qarşılıqlı əlaqə mexanizmi araşdırılmışdır. Elmin innovasiyaların idarə edilməsində rolu şərh edilmiş və innovativ iqtisadiyyatın inkişafına təsiri qiymətləndirilmişdir. Elmin innovativ iqtisadiyyatın inkişafında hərəkətverici qüvvəyə çevrilməsi məqsədilə dövlətin üzərinə düşən əsas bir sıra vəzifələr müəyyənləşdirilmişdir.*

Açar sözlər: *elm, innovasiya, innovasiya iqtisadiyyatı, elmi tədqiqat, bilik, istehsal*

Elm obyektlər, onların qarşılıqlı əlaqəsi və xassələri haqqında yeni müxtəlif növ biliklər əldə etməyə yönəlmiş insan fəaliyyətinin bir sahəsidir. O, insanın idrak fəaliyyətinin xüsusi növüdür. İnnovasiya hər hansı bir prosesin, metodun, məhsulun təkmilləşdirilməsidir və insanın elmi sahədə fəaliyyətinin nəticəsidir. Deməli, elm və innovasiya bir-biri ilə çox bağlıdır.

Müasir elm insanın dünya ilə aktiv münasibətinin tanınmasına əsaslanır. İnsan elmin subyekti, dünya isə onun tədqiqat obyektidir. Elmi sosial mədəniyyət sahəsi kimi də qiymətləndirmək olar. Sosial-mədəni hadisə kimi elm insanın dünya və istehsal haqqında adekvat biliyə ehtiyacı nəticəsində yaranmışdır.

Elm müasir cəmiyyətin ehtiyaclarına təsir edir və rasional idarəetmənin ilkin şərtinə çevrilir. İnnovasiyanın xüsusiyyəti onun iqtisadiyyata müsbət təsir göstərməsidir. İnnovativ fəaliyyət və elmi inkişaf innovasiya prosesinin tərkib hissələridir.

Elmi tədqiqat investisiya fəaliyyəti ilə, innovasiya fəaliyyəti isə tətbiqi və fundamental tədqiqatlar vasitəsilə inkişaf etdirilir. Nəticədə innovasiya və elmi tədqiqatların inkişafına səbəb olan biliklərin yığılması baş verir. Beləliklə, əminliklə demək olar ki, istər elmi, istərsə də innovativ sahəyə investisiya qoysaq, digərinin inkişafına da təkan vermiş olarıq. Dövlət səviyyəsində elm və innovativ iqtisadiyyat da sıx əlaqəyə malikdir. Dövlət təkcə ölkədə mövcud olan pulları idarə etməli deyil, həm də investisiya cəlb etməlidir. Bu

məsələdə innovasiyalar dövlətə kömək edir ki, bu da ölkənin özündə iqtisadiyyatın güclü inkişafına töhfə verir.

Əvəzində dövlət elm və innovativ iqtisadiyyat arasındakı əlaqəyə nəzarət edir, qanunlar yaradır, lisenziyalar və patentlər verir. Deməli innovasiya və elm bir-biri ilə çox bağlıdır.

Elm və innovasiya strukturunda biznes təşkilatları inkişaf istiqamətini müəyyən edən əsas investorlardan (hərəkətverici qüvvədən) biridir. Elm və innovasiyaya sərmayə qoymaqla müəssisələr gəlirləri çoxaldır və xərcləri azaldır. Rəqabətli olmaq üçün dövlət də fəaliyyət göstərə bilər. Maraqlıdır ki, yeniliklər təkcə iqtisadi sahədə deyil, digər sahələrdə də müsbət təsir göstərir. Hazırda innovasiyaların neçə faizinin elmi müəssisələrdə, neçə faizinin isə əmtəə və xidmətlərin istehsalı prosesində yaradıldığını dəqiq söyləmək mümkün deyil.

Deməli, elmin inkişafı üçün onun cəmiyyətin tələblərinə cavab verməsi zəruridir. İnnovativ iqtisadiyyatda inkişafın hərəkətverici qüvvəsi cəmiyyət tərəfindən tələb olunan bilik və ya innovasiyalardır. Başqa sözlə desək, əgər bilik və ya innovasiyalar iqtisadi cəhətdən sərfəli deyilsə və ya sadəcə olaraq faydasızdırsa, o zaman təkcə sahibkarlığın deyil, həm də bütün dövlətin iqtisadiyyatına ciddi ziyan vuracaq. Odur ki, təkcə elmə sərmayə qoymaq deyil, həm də bütün tədqiqatların cəmiyyətin ehtiyacları istiqamətində getməsini təmin etmək vacibdir.

Beləliklə, elm innovasiyaların idarə edilməsində böyük rol oynayır. Ölkənin müasir iqtisadi inkişafı, ilk növbədə, innovasiya prosesinin fəallığından və səmərəliliyindən asılıdır.

Müasir dünya iqtisadi inkişafının xarakterik xüsusiyyəti qabaqcıl ölkələrin innovativ cəmiyyətin formalaşmasında yeni mərhələyə - ilk növbədə biliklərin yaradılması, yayılması və istifadəsinə əsaslanan iqtisadiyyatın qurulması mərhələsinə keçididir. İqtisadi artımın innovativ modeli formalaşır və onun mahiyyəti innovasiyanın rəqabət qabiliyyətinin artırılmasında və biznesin miqyasının genişləndirilməsində əsas amilə çevrilməsindən ibarətdir. Nəticədə modernləşmə iqtisadi artımın əsasına çevrilir. Davam edən proseslər adətən "bilik iqtisadiyyatına" və ya innovativ iqtisadiyyata keçid adlanır ki, bunun da ən mühüm komponenti işçilərin bilik və bacarıqlarıdır ki, bunlar əsasında səmərəli istehsal texnologiyaları yaradılır və yüksək keyfiyyətli məhsullar istehsal olunur.

Bilik iqtisadiyyatı bu gün dünyanın ən inkişaf etmiş ölkələrinin (ABŞ, Aİ ölkələri, Yaponiya və s.) reallığıdır. Qloballaşma kontekstində onun nümunələri getdikcə daha çox ölkələrə yayılır. Dünyanın aparıcı dövlətləri intellektual liderlik uğrunda rəqabət mübarizəsi aparırlar [2, 98 s].

Bu gün intellektual kapitaldan səmərəli istifadə etmək və təkrar istehsalını genişləndirmək bacarığı ölkənin beynəlxalq rəqabətdə üstünlüyünün əsas amili kimi çıxış edir. Makroiqtisadi inkişafın innovativ strategiyası əksər inkişaf etmiş ölkələr tərəfindən orta və uzunmüddətli perspektivdə sistemli iqtisadi böhrandan çıxmağın yeganə yolu kimi qəbul edilir.

Sənaye cəmiyyətindən postindustrial cəmiyyətə keçidlə universitetlərin rolu getdikcə artır. Tarixən universitetlər bir neçə mərhələdən keçiblər. Əvvəlcə onlar sırf təhsil müəssisələri olub, sonra təhsil funksiyasına elmi tədqiqat funksiyası əlavə edilib. XX əsrdən etibarən onlar həm də öz əməkdaşlarının və tələbələrinin elmi-tədqiqatlarının nəticələrinin kommersiyalaşdırılması ilə məşğul olmağa başlayıblar.

Son vaxtlara qədər universitetlərin təhsil funksiyası üstünlük təşkil edirdi. Lakin indi innovasiya fəaliyyəti universitetlər üçün heç də az əhəmiyyət kəsb etmir. Universitetlər təkcə elmlə məşğul olmamalı, intellektual fəaliyyətin nəticələrini sadəcə hesabatlarda təcəssüm etdirməməli, onların innovasiyaya çevrilməsi üçün hər cür səy göstərməlidir [3, s.23].

İnnovativ fəaliyyətin müasir təşkili, bir qayda olaraq, komanda iş prinsipini nəzərdə tutur. Yeni biliklər yaradan və yayan bütün strukturlar arasında universitetlər ən çevikdir və komandanın intellektual işi üçün əlverişli mühit yaradır.

İnnovativ iqtisadiyyatın formalaşdırılması strategiyasının həyata keçirilməsi fonunda universitetlər üçün ən aktual vəzifələr aşağıdakılardan ibarətdir:

- texnologiyanın sənayeyə ötürülməsi prosesinin intensivləşdirilməsi, o cümlədən elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin nəticələrinin kommersiya cəlbediciliyinin qiymətləndirilməsi,
- elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması strategiyasının hazırlanması;
- potensial maraqları olan biznes nümayəndələri ilə danışıqların aparılması və s.

Əqli mülkiyyətin yaradılması və kommersiyalaşdırılması sahələrində bizneslə universitet arasında qarşılıqlı əlaqənin davamlılığı universitetin vaxt, elmi-tədqiqat və inkişaf büdcəsi baxımından sifarişçi müəssisənin tələblərinə nə dərəcədə cavab verə bilməsindən və ən əsası, işin tamamlanma səviyyəsindən asılıdır.

İstehsalın intensivləşdirilməsi və yeni elmi və texnoloji nəticələrin tətbiqi innovasiya dövrünün kəskin qısalmasını, məhsulların və texnologiyaların yenilənmə tempinin sürətləndirilməsini əvvəlcədən

müəyyənləşdirir. Müasir qlobal çağırışlar elmi tədqiqatların və texnoloji inkişafın müəyyən spesifik sahələrinin qabaqcıl inkişafı ehtiyacını diktə edir.

Elm və texnologiyanın inkişafının əsas beynəlxalq vektorlarından biri ali təhsil müəssisələrində aparılan və yeni innovativ iqtisadiyyat üçün kadrların hazırlanması üçün əsas olan elmi tədqiqatlara dəstəyin artırılmasıdır. İnkişaf etmiş ölkələrdə tədqiqat universitetləri fundamental və tətbiqi tədqiqatların əhəmiyyətli hissəsinin həyata keçirilməsini təmin edən inteqrasiya olunmuş elmi-tədris kompleksinin əsas nüvəsini təşkil edir. Eyni zamanda, elmi tədqiqatlar iqtisadiyyatın inkişafındakı innovativ meyillərlə aydın əlaqədə olmalıdır.

Milli iqtisadiyyat qarşısında hələ də sənayenin modernləşdirilməsi və XXI əsrdə qlobal iqtisadiyyatın konturlarını müəyyən edəcək perspektivli texnoloji sahələrin intensiv inkişafı ehtiyacı ilə bağlı bir çox ciddi çoxşaxəli vəzifələr durur. İqtisadiyyatın innovativ inkişafı ilə bağlı bütün məsələlərin uğurla həlli elmi sahədə sistemli və keyfiyyət dəyişiklikləri olmadan mümkün deyil.

Elmin innovativ iqtisadiyyatın inkişafında mühüm amilə çevrilməsi üçün dövlətin üzərinə böyük yük düşür. Dövlətin əsas vəzifələrindən biri elmi potensialın artmasına səbəb olan innovativ iqtisadiyyat sahəsində fundamental tədqiqatların inkişafını təmin etməkdir. Lakin elmi işlər xeyli maliyyə vəsaiti tələb edir, odur ki, onların maliyyələşdirilməsinə dövlət dəstəyi böyük əhəmiyyət kəsb edir. Əhəmiyyətli elmi tədqiqatlar və texnologiyalar dövlət yardımı və büdcə ayırmaları olmadan yaradıla bilməz. İnnovativ iqtisadiyyatın yaradılmasında dövlətin rolu kifayət qədər çoxşaxəlidir. Elmin maliyyələşdirilməsi ilə yanaşı, bu sahədə qanunvericiliyin tənzimlənməsi də dövlətin əsas vəzifələrinə çevrilməlidir. Dövlət həm də innovasiyaların yaradılması prosesini dəyişdirmək, onları kütləvi istehsal obyektinə çevirmək səlahiyyətinə malikdir. Dövlət elmi inkişafları müasir texnologiyalara çevirən elmi müəssisələr, şirkətlər üçün müəyyən impulslar vasitəsilə innovativ fəaliyyəti stimullaşdırır. İnnovasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsinə ehtiyac onların ölkənin sosial-iqtisadi inkişafı üçün əhəmiyyətinin artması ilə əlaqədardır [1, s.9].

Azərbaycanda elmin inkişafı üçün innovativ inkişafın əsas şərtlərini təşkil edəcək aşağıdakı tədbirləri görmək lazımdır:

1) Azərbaycan elminin səmərəliliyinin təmin edilməsi və innovativ inkişafı məqsədilə dövlət proqramlarının tətbiqinin effektivliyinin qiymətləndirilməsi üçün vahid metodologiya və mexanizmlərin hazırlanması;

2) Ümumi layihələrdə birləşmək, iri sənaye müəssisələrində təcrübələrin təşkili yolu ilə elmi müəssisələr arasında qarşılıqlı əlaqənin inkişafı və səmərəliliyinin artırılması;

3) Gənclərin elmi və innovativ fəaliyyətə kütləvi marağını qorumaq üçün tədbirlər kompleksinin hazırlanması;

4) İxtisaslaşdırılmış mühəndislik mərkəzlərinin (biznes inkubatorlarının) yaradılması, texnologiyaların istehsalata tətbiqi mərhələsinə qədər təkmilləşdirilməsi;

5) Elmi-tədqiqat layihələrinin tətbiqi məqsədilə xaricdən material və avadanlıqların gətirilməsi üçün gömrük prosedurlarının sadələşdirilməsi;

6) Elmi-tədqiqat işlərinin tətbiqi məqsədilə büdcə maliyyələşdirilməsinin cəlb edilməsi üzrə müsabiqələr çərçivəsində ərizələrin verilməsi zamanı formal prosedurların sadələşdirilməsi.

Yuxarıda göstərilən tövsiyələrin reallaşdırılması elmin inkişafı baxımından strateji vəzifənin yerinə yetirilməsinə - Azərbaycanın dünyanın aparıcı elmi gücləri sırasına qoşulmasına, fundamental və elmi tədqiqatlar aparmağa qadir olan tədqiqat və inkişaf sektorunun inkişafına kömək edəcəkdir.

Ədəbiyyat

1. Кадырова, Р. А. Роль инноваций, науки и государства в развитии экономики / Р. А. Кадырова // Universum: экономика и юриспруденция. – 2021. – № 1-2(77). – С. 8-10

2. Степнова С.И. О роли управления организационным развитием в формировании конкурентоспособной экономики, экономики знаний//Креативная экономика. - 2012. - № 10. - С. 98-105.

3. Панасенкова, Т. В. Значимость интеллектуального капитала как важнейшего фактора инновационного развития экономики / Т. В. Панасенкова // Тенденции развития науки и образования. – 2019. – № 52-3. – С. 22-29

Резюме

Мирзабеков А.А.

Роль науки в развитии инновационной экономики

В современное время науку невозможно представить без инноваций, наука и инновации взаимосвязаны. Поэтому необходимо исследовать роль науки в развитии инновационной экономики.

В статье исследуется механизм взаимодействия науки и инноваций. Объяснена роль науки в управлении инновациями и оценено влияние на развитие инновационной экономики. В целях превращения науки в движущую силу развития инновационной экономики определен ряд основных государственных задач.

Ключевые слова: *наука, инновации, инновационная экономика, научные исследования, знания, производство*

Summary

Mirzabeyov A.A.

The Role of Science in the Development of Innovative Economy

In modern times, science cannot be imagined without innovation, science and innovation are interrelated. Therefore, it is necessary to investigate the role of science in the development of innovative economy. The article explores the mechanism of interaction between science and innovation. The role of science in innovation management is explained and the impact on the development of the innovation economy is assessed. In order to turn science into a driving force for the development of innovative economy, a number of main tasks of the state have been identified.

Key words: *science, innovation, innovation economy, research, knowledge, production*

İNNOVASİYA PROSESİNDƏ İNVESTİSİYALARIN ROLU

Muxtarova Pərvin Elman qızı, Həsənova Nərgiz Tofiq qızı, Tağıyev Məcid Anar oğlu

Azərbaycan Dövlət Aqrar Universiteti

nargizaliyeva@inbox.ru

Xülasə: *İqtisadi, sosial və ekoloji xarakterli problemlərin həlli əksər hallarda elm və texnologiya sahəsində ən son nailiyyətlərdən istifadə etməklə tapılır. İstənilən müəssisə və ya təşkilat iqtisadi artımın intensiv növünə can atır və buna yalnız daha yeni, təkmilləşdirilmiş texnoloji amillərdən istifadə etməklə nail olmaq olar. Bu zaman innovativ texnologiyalardan istifadə əsas rol oynayır.*

Açar sözlər: *investisiya, innovasiya, innovasiya prosesi, vençur biznesi*

İnnovasiya dedikdə, sənaye prosesinin təkmilləşdirilməsinə və xassələrinə görə əvvəlki analoqların keyfiyyətlərindən üstün olan yeni məhsul və malların yaradılmasına yönəlmiş sənaye, texniki və kommersiya fəaliyyətlərinin məcmusu başa düşülür. Təbii ki, innovasiyalar ilk növbədə qazanc əldə etməyə yönəlib, buna görə də onların bazara çıxması və innovativ biznesə investisiya yatırması investorlar üçün çox cəlbedici layihədir [1].

Əgər kapital yeni texnologiyaların elmi inkişafına və ya layihənin inkişafının ilkin mərhələlərində marketinq həllərinin tətbiqinə yatırılırsa, o zaman vençur investisiyaları üçün xarakterik olan risklər və müqayisə edilə bilən gəlirlər haqqında danışmaq olar. İqtisadi dövrələr bazarın uzunmüddətli tendensiyasını dəyişdirərək, kapitalın digərləri ilə müqayisədə daha çox mənfəət vəd edən sahələrə axınına kömək edir, eyni zamanda aktivlərin likvidliyini artırır [2].

İnnovasiyaya investisiyanın əsas mənbələri bunlardır:

- müəssisələrin, təşkilatların öz vəsaitləri;
- bütün səviyyəli büdcələrdən və büdcədənkənar fondlardan ayırmalar;
- maliyyə bazarında təşkilatların, qurumların və fiziki şəxslərin borc vəsaitləri;
- xarici investisiyalar.

Öz vəsaitlərinin əsas mənbələri amortizasiya, mənfəət, yığılmış kapitaldır.

Amortizasiya ayırmaları. Onlar şirkətin öz vəsaitlərinin strukturunda aparıcı yer tuturlar, xüsusilə sürətlənmiş amortizasiya şəraitində onların payının artması tendensiyası müşahidə olunur.

Mənfəət. Adətən, müəssisənin ixtiyarında qalan mənfəətin böyük hissəsi istehlaka, yalnız 35-45%-i isə yığımlara gedir.

Yığılmış kapital. Səhmdar cəmiyyətləri əlavə səhm emissiyası vasitəsilə investisiya resurslarını cəlb etmək üçün böyük potensiala malikdir.

İrimiqyaslı elmi-texniki problemlərin həlli məqsədli, kompleks proqramların maliyyələşdirilməsi, bütün səviyyəli büdcələrdən vəsaitlərin formalaşdırılması ilə təmin edilir. İnnovasiyaları maliyyələşdirmək üçün tez-tez borc vəsaitləri cəlb olunur, onların mənbələri bank və kommersiya kreditləri, həmçinin lizinqdir.

İntensiv elmi və texnoloji inkişafın müasir şəraitində innovasiyaların inkişafı investisiyasız demək olar ki, mümkün deyil. Bunu həm özəl sahibkarlar, həm iri sənaye şirkətləri, həm də dövlət rəhbərləri başa düşür, ona görə də ən son elmi nailiyyətlərin istehsalata tətbiqini təşviq etmək üçün investorların maliyyə risklərini minimuma endirmək üçün iqtisadi mexanizmlərdən istifadə olunur. Onlardan biri innovasiyaların riskli maliyyələşdirilməsi - vençur investisiyalarıdır.

İlk vençur investisiyası 1946-cı ildə Bostonda yaradılmış Amerika Tədqiqat və İnkişaf Korporasiyası sonradan kompüter avadanlığının ən böyük istehsalçılarından birinə çevrilmiş DEC şirkətini maliyyələşdirdiyi zaman ABŞ-da qoyulmuşdur.

Vençur biznesi nəinki cəmiyyətin istehsal qüvvələrinin strukturunu dəyişdirdi, həm də mövcud istehsal münasibətlərinə əhəmiyyətli dərəcədə təsir etdi.

Kiçik və orta bilik tutumlu biznes və onların arxasında duran yeni institusional strukturlar yeni elmi biliklərin, maliyyə və idarəetmə üsullarının səmərəli birləşməsini təmin edərək müasir iqtisadiyyatın ön sıralarına çıxmışdır [3]. Bu, iqtisadi nəzəriyyədə də öz əksini tapır ki, iqtisadi artımın yeni modellərində ənənəvi istehsal amilləri - əmək (L) və kapital (K) ilə yanaşı, insan kapitalı (H) amilini də ayırır.

Müəssisənin maliyyələşdirilməsi büdcə maliyyələşdirməsindən və bank kreditləşməsindən əsaslı şəkildə fərqlənir ki, kapital mövcud əmlakın, əmanətlərin və ya sahibkarın digər aktivlərinin zəmanətli təchizatı olmadan perspektivli ideyaya yatırılır. Girov həm patentli, həm də patentsiz (nou-hau) bütün yeniliklərə hüquqların əldə edilməsi və uğurlu olarsa, vençur şirkətlərinin mənfəətində iştirakdır.

Digər fərq ondan ibarətdir ki, investorlar sahibkarla yanaşı, maliyyələşdirilən layihələrin həyata keçirilməsinin bütün mərhələlərində onların idarə olunmasında fəal iştirak edirlər. Müəssisə investisiyaları yüksək dərəcədə risklə doludur, lakin eyni zamanda, əgər uğurlu olarsa, yüksək gözlənilməz mənfəət təmin edir. Buna görə də, investorlar biznes planının araşdırılmasını öz üzərlərinə götürürlər, digər investorların cəlb edilməsi, səhmlərin yerləşdirilməsinə diqqət yetirirlər və şirkətin top-menecerlərindən ibarət komandanın formalaşmasına kömək edirlər [4]. Lakin hətta bu səylər də çox vaxt innovativ layihələrin uğurla həyata keçirilməsi üçün kifayət etmir, bir çoxu müxtəlif səbəblərdən uğursuzluğa düçar olur.

Riskin maliyyələşdirilməsinin əsas təşkilati forması vençur fondlarının yaradılmasıdır. Belə fondlar adətən məhdud məsuliyyətli maliyyə ortaqlığı (ortaqlığı) statusuna malikdir. Onların iştirakçıları yatırılan vəsaitlərə mütənasib olaraq mənfəət əldə edir və zərər verirlər. Vençur fondları yüksək qeyri-müəyyənlik dərəcəsi ilə belə yeni elm tutumlu inkişaflara investisiya qoymağa hazırdırlar, çünki hadisələrin uğurlu inkişafı halında qoyulmuş kapital qısa müddətdə artırıla bilər. Müəssisənin maliyyələşdirilməsi ənənəvi kredit mexanizmləri işləməkdən imtina etdikdə, yüksək dərəcədə risk və qeyri-müəyyənlik ilə əlaqəli hallarda sahibkarın köməyinə gəlir. Mükəmməl məbləğdə mükafat risk və eyni zamanda perspektivli layihələri vaxtında tanımağa və dəstəkləməyi bacaran investorların yüksək peşəkar bacarıqlarına görə mükafatdır.

Son 20 il ərzində vençur maliyyələşdirmə mexanizmi dünyanın əksər inkişaf etmiş ölkələrinin milli innovasiya sistemlərinin mühüm elementinə çevrilmişdir. Bu mexanizmin əsas funksiyası ilkin, ən riskli və proqnozlaşdırılması çətin olan mərhələlərdə sahibkarlıq layihələrinin həyata keçirilməsi üçün maliyyə resurslarının təmin edilməsidir.

Müxtəlif ölkələrdə vençur kapitalının strukturu çox fərqlidir ki, bu da maliyyə sektorunda qanunvericilik tənzimlənməsinin xüsusiyyətlərinin və müəyyən edilmiş normaların nəticəsidir. Müəssisə kapitalının mənbələri arasında sabit yeri sənaye və ticarət korporasiyaları, sığorta şirkətləri, pensiya və digər fondlar tutur.

Son yarım əsrdə vençur kapitalı biznesinə marağın bir neçə alternativ artımı və azalması dövrü olmuşdur. Növbəti tsiklik tənəzzüldən sonra vençur biznesi, bir qayda olaraq, yeni keyfiyyət səviyyəsinə yüksəldi [5].

Vençur biznesinin inkişafına mənfi təsir göstərən bəzi təşkilati-iqtisadi və hüquqi problemlər vardır: misal olaraq innovasiya şirkətləri üçün kadr hazırlığı problemi; innovasiya işləmələri ilə məşğul olan müəssisələrin faizinin aşağı olması; elm və təhsil sisteminin innovasiya potensialından praktiki istifadə edilməməsi; vençur maliyyələşdirməsinin spesifik fəaliyyətini stimullaşdıran normativ hüquqi bazanın olmaması; intellektual mülkiyyətin müdafiəsi institutunun zəif inkişaf etməsi; vençur investisiyalaşdırmasının xüsusiyyətləri haqqında bilgilərin kifayət qədər olmaması və ona investorlar və sahibkarlar tərəfindən inamsızlığın olması kimi problemləri qeyd edə bilərik.

Son olaraq innovasiya sahibkarlığının inkişafını təmin etmək üçün dövlətin maliyyə-kredit dəstək sistemində yeni normativ-hüquqi bazanın yaradılması, girov mexanizminin təkmilləşdirilməsi, kreditorların və borcalanların hüquqlarının müdafiəsi ilə bağlı məsələlərin həlli vacib vəzifə kimi nəzərdə tutulması kimi amillərə diqqət yetirilməsi təmin edilməlidir.

Ədəbiyyat

1. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Monoqrafiya / İ.H. İbrahimov. – Bakı: NBS Printing Company., – 2016. – 655 s.
2. Namazova C.B. İnvestisiyalar. Dərslik. / C.B. Namazova. - Bakı: – 2014. – 423s.
3. Namazova C.B. İnvestisiya fəaliyyətinin vergi tənzimlənməsi problemləri. Monoqrafiya. / C.B. Namazova. - Bakı: CBS nəş – 2012. – 200s.
4. Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf / Ə.X. Nuriyev. – Bakı: Avropa nəşr., – 2017. – 242 s.
5. Беспалов Р.А. Методика анализа эффективности инноваций и инвестиций в страховании / Р.А. Беспалов, О.В. Беспалова // Вестник Брянского государственного университета. – 2014. - №3. – С. 170-174.

Резюме

Мухтарова П.Е., Гасанова Н.Т., Тагиев М.А.

Роль инвестиций в инновационном процессе

Решения экономических, социальных и экологических проблем часто становимся возможньем с использованием последних достижений науки и техники. Любое предприятие или организация стремится к интенсивному типу экономического роста, а этого можно добиться только за счет использования более новых, усовершенствованных технологических факторов. При этом использование инновационных технологий играет ключевую роль.

Ключевые слова: *инвестиции, инновации, инновационный процесс, венчурный бизнес*

Summary

Mukhtarova P.E., Hasanova N.T., Taghiyev M.A.

The Role of Investment in the Innovation Process

Solutions to economic, social, and ecological problems are often found using the latest advances in science and technology. Any enterprise or organization strives for an intensive type of economic growth, and this can be achieved only through the use of newer, improved technological factors. At the same time, the use of innovative technologies plays a key role.

Key words: *investments, innovations, innovative process, venture business*

TƏHSİL, ELM VƏ BİZNESİN İNTEQRASİYASINDA MÜASİR UNİVERSİTET MODELİNİN QURULMASININ TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMİ

Musayev Azər Rəjdin oğlu

UNEC

azer_095@mail.ru

Xülasə: *Tədqiqatın məqsədi Universitet 4.0 bazasında yerli təhsil, elm və biznesin inteqrasiyası üçün təşkilati-iqtisadi mexanizmin formalaşdırılmasıdır.*

Tədqiqatın müəyyən edilmiş məqsədinə nail olmaq üçün elm, təhsil və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizminin mahiyyəti aydınlaşdırılmış, Universitet 4.0 bazasında elm, təhsil və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizminin tərkib hissələri müəyyən edilmiş, universitetdə innovativ ekosistemin formalaşdırılması əsasında təhsil, elm və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizminin işlənib-hazırlanmasına müəllif yanaşması əsaslandırılmışdır.

Açar sözlər: *təhsil, elm, biznes, inteqrasiya, təşkilati-iqtisadi mexanizm, universitet*

Giriş. Son zamanlar dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin ali təhsil sistemlərində köklü transformasiyalar baş verir ki, bu da sosial-iqtisadi və xüsusilə innovativ inkişafın təmin edilməsində universitetlərin rolunun dəyişməsi ilə bağlıdır. Beləliklə, bu gün inkişaf etmiş ölkələrin ali təhsil müəssisələri innovativ proseslərin generatoru rolunu oynayır, dövlət və biznes ictimaiyyəti isə innovativ inkişafların müştərisi, istehlakçısı və müştərək investorudur. Müasir universitetlərin yeni fəaliyyət istiqamətləri təkcə texnologiyaların inkişafı və transferi deyil, həm də elmi fəaliyyətin nəticələrinin kommersiyalaşdırılması, innovativ məhsulların bazara çıxarılması, startapların inkişafı, yeni innovativ müəssisələrin yaradılması, yeni innovativ müəssisələrin yaradılması, mənfəət əldə etmək məqsədi ilə əqli mülkiyyətin idarə edilməsi və s.-dir.

Müasir universitetlər dövlətin və bütövlükdə cəmiyyətin maraqları naminə təhsil, elm və biznes səylərinin əlaqələndirilməsi hesabına sinergik effektlər verən inteqrasiya proseslərinin aktivləşdirilməsi

sayəsində sosial və iqtisadi inkişafı təmin etmək missiyasını öz üzərinə götürürlər [4] .

Buna görə də bir çox sosial-iqtisadi və texnoloji amillərin təsiri altında olan müasir universitetlər fəal şəkildə transformasiya olunur. Universitet modellərinin təkamülünün öyrənilməsi [4] aşağıdakı modelləri müəyyən etməyə imkan verdi: 1.0 modeli universiteti əsas məqsədi biliklərin ötürülməsi olan təhsil mərkəzidir; universitet 2.0 tədqiqat universiteti – elmi-texniki tərəqqi mərkəzi; Universitet 3.0 "Üçlü spiral" konsepsiyasına əsaslanan və elmi nəticələrin kommersiyalaşdırılmasına yönəlmiş sahibkarlıq universitetidir; universitet 4.0 xarici dünyaya və cəmiyyətin inkişafına yönəlib, sənaye ilə dərindən bağlıdır və proseslərin rəqəmsallaşdırılması prinsipləri üzərində qurulub.

3.0 və 4.0 modellərini həyata keçirən müasir universitetlərin yaranması üçün ilkin şərtlər formal təhsil çərçivəsində əldə edilmiş bacarıq və ixtisasların daimi inkişafı ehtiyacı, dərin sənaye tərəfdaşlıqları və tətbiqi tədqiqatların fəal aparılmasına ictimai tələbatın artması idi. elmi və innovativ ideyaların kommersiya nəticələrinə çevrilməsi müddətinin qısalması. rəqəmsal texnologiyaların və ekosistemlərin inkişafı [1].

Dünya reytinqlərində ən yüksək yerləri tutan iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin universitetlərinin əksəriyyəti universitet 3.0 və 4.0 modellərini tətbiq edir. Onlar təkcə elmi tədqiqatlar yaratmaqla kifayətlənmir, həm də biznes təhsilini fəal şəkildə həyata keçirir, sahibkarlıq təcrübəsini yayır, elmi-tədqiqat və işlənmələri kommersiyalaşdırır, ölkə iqtisadiyyatının inkişafına töhfə verir [1].

Eyni zamanda, Azərbaycanda elmi-tədris kompleksinin səmərəliliyinin yüksəldilməsi zərurətinin dərk edilməsi ilə yanaşı, təhsil və elm, biznes və dövlət arasında inteqrasiya son dərəcə aşağı səviyyədədir[1].

Hazırda Azərbaycanda "Universitet 4.0" modelini təmsil edən təmiz universitet yoxdur. Buna görə də, Azərbaycanda təhsil və elm sahəsi davamlı, idarə olunan, mərhələli inkişaf üçün şəraitin formalaşmasına ehtiyac duyur və bu, bir model əsasında təhsil, elm və biznesin inteqrasiyası üçün müəyyən təşkilati və iqtisadi mexanizmlərin işlənib hazırlanması və həyata keçirilməsi ilə müasir universitet təmin edilə bilər[1].

G.Astapova təşkilati-iqtisadi mexanizmin mahiyyətini idarəetmə prosesinə təşkilati-iqtisadi təsir elementləri sistemi kimi müəyyən edir [2]. N.Udaltsova görə, təşkilati-iqtisadi mexanizm bütün təsərrüfat mexanizminin mühüm tərkib hissəsidir və təşkilati-iqtisadi strukturların və idarəetmə səviyyələrinin, o cümlədən maliyyə-iqtisadi, qanunvericilik və təşkilati-inzibati təsir üsullarının məcmusu kimi müəyyən edilir ki, bu da öz növbəsində təşkilati-təsərrüfat fəaliyyətinin həyata keçirilməsini təmin edir. sistemlilik, məqsədyönlülük, uyğunlaşma, potensialın kompleks şəkildə həyata keçirilməsi, qarşılıqlı əlaqədə olan subyektlərin maraqlarının əlaqələndirilməsi və innovativlik prinsipləri əsasında davamlı inkişaf obyektinin təmin edilməsinə yönəldilmişdir [3].

Ümumiyyətlə, "təşkilati-iqtisadi mexanizm" anlayışının mahiyyətinin demək olar ki, bütün tərifləri sistemli yanaşmanın üstünlük təşkil etməsi ilə xarakterizə olunur. Belə sistemin elementləri bunlardır: mərkəz – "mexanizm"in işində iştirak edən müəyyən obyektə təsir göstərən idarəedici element; obyekt – idarə olunan element; subyekt (mərkəzlə üst-üstə düşə bilər) – fənn-praktiki fəaliyyətin daşıyıcısı; iqtisadi və təşkilati fəaliyyət vasitələri, üsulları və rıçaqları; mexanizmin həyata keçirilməsi alqoritmi. Təşkilati-təsərrüfat mexanizminin idarəetmə mərkəzi aşağıdakılar ola bilər: bütün növ idarəetmə orqanlarının, müəssisə və ictimai təşkilatların dövlət orqanları şəklində dövlət. Ümumiyyətlə, qarşılıqlı təsir və təsir mexanizmləri kimi təşkilati və iqtisadi mexanizmlərin formalaşmasına yanaşmalar əsasən mərkəzin onun həyata keçirilməsi prosesinə təsir dərəcəsi ilə fərqlənə bilər və onun tənzimləmə və kommunikasiya proseslərində iştirak ehtiyacından asılı ola bilər.

Əvvəlki tədqiqatları yekunlaşdıraraq, bir-biri ilə əlaqəli təşkilati-iqtisadi elementlərin məcmusu kimi təhsil, elm və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizminin mahiyyətini müəyyən etmək mümkündür: fəaliyyət göstərən alətlər, formalar, vasitələr, rıçaqlar, amillər və idarəetmə üsulları. innovasiyaların həyata keçirilməsinin səmərəliliyini artırmaq və onun fəaliyyətində iştirak edən tərəflərin maraqlarının əlaqələndirilməsi əsasında müəyyən məqsədlərə nail olmaq. Elmin, təhsilin və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizmi ayrı-ayrı regionların və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə elmi-innovativ dövriyyənin bütün mərhələlərinin səmərəli həyata keçirilməsinin təşviqini nəzərdə tutur. Eyni zamanda elmi-innovativ tsikl dedikdə, elmi ideyanın yaranmasından onun həyata keçirilməsinə və mühəndis təminatına qədər olan dövr başa düşülür [5].

Universitet 4.0 əsasında elm, təhsil və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizmi üçün vəzifələrin ümumi siyahısını müəyyən etmək qeyri-mümkündür, çünki onlara onun əsas məqsədinə, iqtisadi fəaliyyət növlərinə, prioritetlərinə uyğun yanaşmaq lazımdır.

Beləliklə, Universitet 4.0 əsasında elm, təhsil və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizmi (modelin xüsusiyyətlərinə görə) mövcud olanlardan fərqli olaraq aşağıdakı şərtlərə cavab verməlidir:

1) çeviklik, uyğunlaşma, xarici və daxili mühitdəki dəyişikliklərə dərhal reaksiya vermək qabiliyyəti,

ona təsir edən amillərin dəyişməsi şəraitində onun effektiv işləməsini təmin etmək üçün düzəlişlər;

2) icra müddətindən asılı olaraq kəmiyyətcə qiymətləndirilməli olan ümumi məqsədə və məqsədlərə nail olmağa yönəlmə;

3) qarşıya qoyulan məqsədə nail olmaq üçün məqsədəuyğun olan müasir təşkilati-iqtisadi vasitələrdən, rıçaqlardan, idarəetmə vasitələri və metodlarından istifadə;

4) idarəetmənin sosial yönümlü olması, onun həyata keçirilməsində hər bir iştirakçı üçün şəffaflıq və başa düşülənlik.

Təşkilati-iqtisadi mexanizmin mühüm cəhəti müəyyən edilmiş prioritetlərdən asılı olaraq onun fəaliyyətinin məqsədlərinin formalaşdırılmasıdır. Prioritetlər təhsil, elm və biznesin inteqrasiyası zamanı çox mühüm rol oynayır, onlar elmi, elmi-texniki və innovativ inkişafın dövlət prioritetləri siyahısından seçilməlidir.

Məhz bu, belə inteqrasiya strukturlarına dövlətdən maliyyə almaq, Məqsədli proqramların müsabiqələrində iştirak etmək və s. Bundan əlavə, bunlar Sənaye 4.0-ın informasiya və kommunikasiya texnologiyalarının inkişafına uyğun olaraq müəyyən edilmiş prioritetlər ola bilər. Prioritetlər də ali təhsil müəssisələrinin sahə istiqamətlərinə uyğun olaraq müəyyən edilə bilər, regionun inkişaf maraqlarına cavab verir və s.

Ali təhsil müəssisələrinin innovasiya ekosisteminə inteqrasiyasına cavabdeh olan Universitetin struktur bölməsi yeni bilik və texnologiyaların yaradılması, onların nəticələrinin praktikada tətbiqi proseslərini əlaqələndirmək məqsədi daşıyır.

Təhsil, elm və biznesin inteqrasiyası üçün təklif olunan təşkilati-iqtisadi mexanizm Sənaye 4.0-ın müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə əsaslanır və gündəlik həyatda qabaqcıl texnologiyaların fəal şəkildə sənaye, səhiyyə və digər fəaliyyət sahələrində tətbiq olunduğu cəmiyyətin formalaşmasına yönəlib.

Hal-hazırkı şəraitdə ABŞ-da aparıcı sənaye sahələrinin əksəriyyətinin formalaşmasının 80%-dən çoxu onun universitetlərində üzə çıxarılan yeniliklərlə əlaqədardır. İndiki dövrdə burada universitetlərin biznes-inkubator modellərindən həlledici rola malik paylanmış tərəfdaşlıq sxemlərinə keçid müşahidə edilir. Avropada isə"mükəmməl şəbəkələr" konsepsiyası kontekstində universitetlərin elmi əhatəsi qlobal səviyyədə şəbəkə strukturlarına çevrilməkdədir və bu zaman hər bir iştirakçının güclü tərəflərindən istifadə edilir.

Azərbaycan üzrə 3.0 Universitetlərin təkamülünü ciddi sosial və iqtisadi problem hesab etmək olar. Çünki bu cür universitetlər hazırkı şəraitdə cəmiyyətin modernləşdirməsi və bilik iqtisadiyyatına transformasiyası istiqamətində aparıcı rola malik olmalı, dövlət başçısının təşəbbüsü ilə aparılan iqtisadi islahatların fəal iştirakçılarına çevrilməlidirlər[1].

Hesab edirik ki, 1.0 və 2.0 universitet tipləri Azərbaycanda artıq formalaşıb. 3.0 isə formalaşma mərhələsindədir, bu tipli universitetlər yaranmalıdır. Hesab edirik ki, dövlətimiz və bir neçə universitet tərəfindən atılan müəyyən addımlar həmin prosesi tezləşdirməlidir.

Elmi fəaliyyətin müasir modelinin 3.0 Universitet səviyyəsinə qaldırılması üçün zəruri istiqamətlər aşağıdakılardır:

- Universitetin tədqiqat nəticələrinə hüquq sahibliyi;
- Kommersiyalaşma nəticəsində gəlirin bölüşdürülməsi qaydalarının mövcudluğu;
- Texnologiyalar üzrə kommersiyalaşma sisteminin yaradılması;
- Əqli mülkiyyət savadının, mədəniyyətinin və biznes-biliklərin artırılması;
- Vençur kapitalının sahiblərində, xüsusi kapital üzrə potensial investorlarda tədqiqatların əlçatanlığına, şəffaflığına və cəlbediciliyinə yönəlik tədbirlərin həyata keçirilməsi.

Nəticə. Beləliklə, aparılan tədqiqatlar aşağıdakıları müəyyən etməyə imkan verdi.

1. “Təşkilati-iqtisadi mexanizm” anlayışının mahiyyətinin vahid başa düşülməməsi ondan təhsil, elm və biznesin inteqrasiyasını təmin etmək üçün istifadəni çətinləşdirir ki, bu da onun aydınlaşdırılmasını zəruri edir. Aparılan tədqiqatlar əsasında “elmin, təhsilin və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizmi” anlayışının bir-biri ilə əlaqəli təşkilati və iqtisadi elementlərin məcmusu kimi şərh edilməsi təklif olunur: alətlər, formalar, vasitələr, rıçaqlar, amillər və idarəetmə üsulları. innovasiyanın tətbiqinin səmərəliliyini artırmaq və onun fəaliyyətində iştirak edən tərəflərin maraqlarının əlaqələndirilməsi əsasında müəyyən məqsədlərə nail olmaq funksiyası. Bütövlükdə, elm, təhsil və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizmi ayrı-ayrı regionların və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə elmi-innovasiya tsiklinin bütün mərhələlərinin səmərəli həyata keçirilməsinə töhfə verməlidir.

2. Dünyanın inkişaf etmiş ölkələrində təhsil və elmin inkişafının nəzəri əsaslarının və müasir təcrübəsinin təhlili əsasında Universitet 4.0 modeli əsasında təhsil, elm və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizmi işlənib hazırlanmışdır. və onun aşağıdakı komponentləri əsaslandırılmışdır: məqsəd və vəzifələr; hüquq normaları; formalaşmanın prioritetləri və prinsipləri; təşkilati-iqtisadi formaları, idarəetmə

üsullarını, alətlərini; tədris, elmi və innovativ proseslərin həyata keçirilməsi vasitələri; rıçaqlar və təsir edən amillər; idarəetmənin səmərəliliyi meyarları; resurs. Təhsil, elm və biznesin inteqrasiyasının təşkilati-iqtisadi mexanizmi sənaye 4.0-ın müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə əsaslanır və qabaqcıl texnologiyaların gündəlik həyatda, sənayedə fəal istifadə olunduğu cəmiyyətin formalaşmasına yönəlib. , səhiyyə və digər fəaliyyət sahələri.

3. Universitet ətrafında innovativ ekosistemin formalaşmasına əsaslanan təhsil, elm və biznesin inteqrasiyasının təklif olunan təşkilati-iqtisadi mexanizmi elmi və təhsil fəaliyyətinin ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına müsbət təsirinin artırılmasına yönəlib. İnnovativ inkişaf ehtiyaclarına uyğun yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməklə, gəncləri elmi fəaliyyətə və startapların inkişafına cəlb etməklə, elmi nəticələrin kommersiyalaşdırılmasını stimullaşdırmaqla, elmi biliklərin geniş miqyasda istifadəsini təşviq etməklə bütövlükdə ölkənin yüksək effektiv texnologiyaların, əmək vasitələrinin, məhsulların, xidmətlərin və yeni biliklərin və s. inkişafı üçün iqtisadi artımın demək olar ki, tükənməz mənbəyini yaratmaq olar.

Ədəbiyyat

1. İmanov K.İ. "**3.0** yaranan Universitetlərin əsasında düşünülmüş əqli mülkiyyət siyasəti durur". Bakı, 2019.

2. Астапова, Г. В., Астапова, Е. А., Лойко, Д. П. Организационно-экономический механизм корпоративного управления в современных условиях реформирования экономики Украины. Донецк : Дон-ГУЭТМим. Туган-Барановского, 2001. 526 с.

3. Удальцова, Н. Л. Организационно-экономический механизм функционирования отрасли национальной экономики. *Экономические науки*. 2012. № 6 (91). С. 94–98.

4. Khaustova V. Y., Doronin A. V., Doronina M. S. Cognitive Resources of New Economy. *Проблеми економіки*. 2021. № 3 (49). С. 124–131.

5. Miller W. L., Morris L. 4th Generation R & D. *Managing Knowledge, Technology and Innovation.* John Wiley & Sons, Inc., 1999.

Резюме

Мусаев А.Р.

Организационно-экономический механизм формирования современной модели университета в интеграции образования, науки и бизнеса

Цель исследования - формирование организационно-экономического механизма интеграции местного образования, науки и бизнеса на базе Университета 4.0.

Для достижения поставленной цели исследования уточнена сущность организационно-экономического механизма интеграции науки, образования и бизнеса, выявлены составные части организационно-экономического механизма интеграции науки, образования и бизнеса, определенная на базе Университета 4.0 Организационная структура интеграции образования, науки и бизнеса, обосновывает авторский подход к разработке экономического механизма на основе формирования инновационной экосистемы в вузе.

Ключевые слова: *образование, наука, бизнес, интеграция, организационно-экономический механизм, университет*

Summary

Musayev A. R.

Organizational-Economic Mechanism of Establishing a Modern University Model in the Integration of Education, Science and Business

The purpose of the study is the formation of an organizational-economic mechanism for the integration of local education, science and business on the basis of University 4.0.

In order to achieve the defined goal of the research, the essence of the organizational-economic mechanism of the integration of science, education and business was clarified, the constituent parts of the organizational-economic mechanism of the integration of science, education and business were determined on the basis of University 4.0, the organizational structure of the integration of education, science and business based on the formation of an innovative ecosystem in the university - the author's approach to the development of the economic mechanism is justified.

Key words: *education, science, business, integration, organizational-economic mechanism, university*

DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ İNKİŞAFI İNNOVASİYALI İNKİŞAFIN ƏSASI KİMİ

Mustafayeva Raminə Ramiz qızı
Azərbaycan Dövlət Aqrar Universiteti
ramina.mustafayeva@adau.edu.az

Xülasə: *İnnovasiyalar sahəsində elmi-tədqiqat və texnoloji fəaliyyətlərdə əməkdaşlığın stimullaşdırılması istiqamətlərindən biri dövlət-özəl tərəfdaşlıq alətinin inkişafıdır. Mühüm layihə və proqramların həyata keçirilməsi dövlət və biznesin institusional və təşkilati birliyinin yaradılmasını tələb edir ki, burada iştirakçılar üçün mövcud olan resurslar, üstünlüklər və imkanlar bir-birini tamamlayır. Beləliklə, dövlət-özəl tərəfdaşlıq mexanizminin formalaşması və inkişafı dövlətin innovativ inkişafında mühüm rol oynayır.*

Acar sözlər: *innovasiya sistemləri, elmi-texniki tərəqqi, dövlət-özəl tərəfdaşlığı, xarici təcrübə*

Müasir şəraitdə ölkəmizin milli innovasiya sisteminin formalaşma prosesi getdiyi bir dövürdə elmi-texniki tərəqqinin investisiya dəstəyi vacib əhəmiyyət kəsb edir. Dövlət siyasətinin keyfiyyətcə yeni istiqaməti qismində prioritet elmtutumlu sahələrə uzunmüddətli yatırımlar edən inkişaf istitutları çıxış edir. Belə qurumlar qabağcıl ölkələrin çoxsunda mövcuddur. Bura əhəmiyyətli və iri innovasiya layihələri reallaşdıran özəl və dövlət tərəfdaşlığı prinsipləri üzərində qurulan, investisiya fondlarını aid etmək olar.

İnkişaf etmiş ölkələrdə elmi-texniki və innovasiya siyasəti hər bir ölkənin milli xüsusiyyətlərindən irəli gələn geniş miqyaslı maliyyə təşkilati-hüquqi mexanizmların köməyi ilə həyata keçirilir. Bununla belə demək olar ki, bütün iqtisadi baxımdan inkişaf etmiş ölkələr öz diqqətlərini dünya bazarına yeni texnologiyaların irəli sürülməsi proseslərində təmərküzləşdirir. Elmi-tədqiqat təşkilatları və müəssisələr arasında yeni texnologiyaların tətbiqi və mənimsənilməsi müddətini qısaldan kooperasiyanın təmin edilməsi üçün təşkilati mexanizmlar yaradılır.

İnnovasiya sahəsində elmi-tədqiqat və texnoloji fəaliyyətin kooperasiylaşmasının stimullaşdırılmasının istiqamətlərindən biri də dövlət-özəl tərəfdaşlığ alətinin inkişafıdır. Bunlar innovasiya fəaliyyətinin bünövrəsini təşkil edir, milli innovasiya sisteminin səmərəliliyini yüksəldən alət olaraq elmi texniki və təcrübi-konstruktor işlərinə (ETTKİ) investisiyaları stimullaşdırır, material, texniki, kadr və maliyyə ehtiyatlarının səmərəli istifadə edilməsinə imkan verir. Əhəmiyyətli layihələrin və proqramların həyata kecirilməsi dövlət və biznes arasında institusional və təşkilatı alyansın qurulmasını zəruri edir, burada iştrakçıların ixtiyarında olan resurslar, üstünlükləri və imkanları bir birini tamamlayır. Bunlara risklərin və məhsuliyyətin, həmçinin maliyyə təminatının onlar arasında rasional bölünməsi yolu ilə nail olunur. Belə alət innovasiya siklini sürətləndirməyə imkan verir, elmi tədqiqatların aparılmasından başlayaraq tam elmtutumlu yüksəktexnoloji məhsul istehsalına qədər.

Məhz buna görə, inkişaf etmiş ölkələrdə müasir innovasiya inkişafı strateqiyalarının işlənilməsi və həyata keçirilməsi zamanı vacib yer dövlət-özəl tərəfdaşlığların formalaşması üçün təşkilatı-hüquqi zəminin yaradılmasına ayrılır. Onlar konkret elmi-texnoloji nəticələr almaq üçün müxtəlif kombinasiyalarda xüsusi şirkətləri, universitetləri, dövlət qurumlarını və təşkilatlarını, elmi-tədqiqat laboratoriyalarını birləşdirir. Bir sıra ölkələr belə tərəfdaşlıqların inkişafını prioritet məsələ kimi müəyyən etmiş və milli innovasiya sistemləri çərçivəsində bu çür əlaqələri aktiv şəkildə formalaşdırır.

Baxmayaraq ki, mövcud dünya təcrübəsində bu ictimai münasibətlər institutuna vahid bir yanaşma təşəkkül etməmişdir, çünki hər bir ölkə dövlət-özəl tərəfdaşlıq alətindən istifadə etdikdə milli şəraitin xüsusiyyətlərini nəzərə alır, hər bir şəraitdə dövlət və biznes münasibətlərinin bu təşkilatı-hüquqi forması istifadə edildikdə onlar kooperasiya sazişləri əsasında tənzimlənir. Qeyd etmək lazımdır ki, elmi-texniki və innovasiya sahəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində münasibətlərin formalaşması bir proqram şəklində həyata keçirilir ki, o da spesifik problemlərin həllinə istiqamətlənir. Dövlət qurumlarının nünayəndələri ümumən proqrama nəzarət edir, aktiv şəkildə onu təşkil edir, lakin altproqramların operativ idarəedilməsinə dövlət elmi-tədqiqat təşkilatları və ali tədris müəssisələri, xüsusi şirkətlər cəlb edilir. Tərəfdaşlıq layihəsinin idarəedilməsinin təşkilatı formaları onun istiqaməti ilə müəyyənləşir.

Dövlət-özəl tərəfdaşlığı çərçivəsində proqramların həyata keçirilməsi yalnız tərəflərin paylı maliyyələşməsini deyil, həmçinin informasiyanın, tədqiqatların nəticələrinin və işləmələrinin, intellektual mülkiyyətin, yeni texnologiyaların və kadrların birgə istifadə edilməsini nəzərdə tutur.

Ümumiyyətlə, forma və məqsədlərinə görə dövlət-özəl tərəfdaşlıq proqramları müxtəlifliyi ilə seçilir:

- büdcə vəsaitlərini istifadə etməklə, dövlət təşkilatlarında yaradılan, tədqiqatlarının nəticələrinin və işləmələrinin transfer prosesinin sürətləndirilməsi;

- dövlət sektoru tərəfindən alınmış, ETTKİ-in nəticələrinin bazara çatdırılması;
- kiçik və orta innovasiya müəssisələrinin dəstəklənməsi və dövlət təşkilatları tərəfindən "start-up" və "spin-off" şirkətlərinin yaradılmasının dəstəklənməsi;
- bazara istiqamətlənmiş, klaster tədqiqatlarının inkişafı;
- şəbəkələrin yaradılması təşəbbüsünün dəstəklənməsi.

Dövlət-özəl tərəfdaşlıq (DÖT) mexanizminin istifadəsində pioner ölkə ABŞ olmuşdur. İlk olaraq qarşılıqlı əlaqənin belə bir yeni təşkilatı formasını müdafiə sahəsində federal proqramın həyata keçirilməsi zamanı tətbiq edilmişdir. Proqram çərçivəsində həyata keçirilən federal müqavilələrin çoxu müdafiyə sahəsində olan müəssisələrlə deyil, ayrı-ayrı kommersiya şirkətləri ilə bağlanmışdır. Belə kommersiya şirkətlərinin texnologiyaları tez tətbiq edilir, qiymətləridə daha ücüz olur və bazar tələbinin dəyişməsinə tez reaksiya verir. Sonradan bu təşkilatı forma digər dövlət qurumları tərəfindən istifadə edilməyə başlamışdır. 1990-ci illərdə Klinton Administrasiyası bütün federal agentliklərdən və qurumlardan elmi-texniki və innovasiya proqramlarının planlaşdırılması zamanı qeyri-büdcə maliyyələşdirilməsi mənbələrinin cəlb edilməsi mümkünlüyünün nəzərdən keçirilməsini tələb etmişdir. Bu addımda biznes strukturlarının elmi-texniki işləmələrə cəlb olunmasını və iki tərəfli maraqların təmin edilməsinə şərait yaratmışdır [2, 13].

ABŞ-da bütün yüksək texnologiyalar yaradılması ilə bağlı nazirliklərə mütləq qayıdada elmi büdcələrinin 10-20%-i xüsusi biznesin iştrakı ilə kooperasiya tədqiqatlarının təşkil edilməsinə ayırmağı göstərişi verilmişdir. Bütün dövlət qurumlardan aparılan işlərin biznes ilə müştərək maliyyələşməsinin genişlənməsi tələb edilirdi, çünki biznesin dövlət ilə birgə işləmələrdə və tədqiqatlarda iştrakı sonradan bu işlərin kommersiyalaşmasına imkan yaradırdı. Keçən əsrin 90-cı illərdən dövlət ilə özəl sektorun müştərək maliyyələşdirilməsi federal texnoloji proqramların əsas formasına çevrilir. Dövlət və özəl maliyyələşmənin nisbəti tərəflərin maraq dərəcəsi ilə müəyyən edilir. Əgər dövlət-özəl tərəfdaşlığı tez bir zamanda gəlir əldə etməyə istiqamətlənirsə və tədqiqatların nəticələri bazara daha yaxındırsa onda xüsusi sektorun maliyyə iştrakının payı daha çox olur və o da sonradan gəlirin əsas hissəsinə sahib olur. Əgər aparılmış tədqiqatın nəticəsində yeni texnologiyaların geniş yayılması təmin edilirsə onda xüsusi sektorun maliyyə iştrakı azalır və dövlət maliyyələşməsi üstünlük təşkil edir. ABŞ-da elm və sənayenin koopersiyasının müxtəlif təşkilatı formaları mövcuddur. Hazırda da, dövlət-özəl tərəfdaşlıq proqramları uğurla həyata keçirilir. Misal üçün, ABŞ-ın Ticarət Nazirliyinin Texnoloji siyasət üzrə idarəsinin himayəsi altında sənayenin, akademik dairələrin və hakimiyyətin bütün resurslarını innovasiyalı inkişafın təmin edilməsinə yönəlmiş "ABŞ-ın İnnovasiya Tərəfdaşlığı Proqramı" həyata keçirilir [4].

Qeyd etmək lazımdır ki, hazırda inkişaf etmiş ölkələrdə elmi və texnikanın inkişafına dövlət ayırmalarının əsas hissəsi dövlət-özəl tərəfdaşlığların payına düşür. Belə ki, Fransada DÖT sahəsində irimiqyaslı proqram dövlət və özəl tərəfdaşlar arasında kooperasiya əlaqələrini təmin edən "Tədqiqatlar və innovativ texnologiyalar şəbəkələrinin" yaradılmasıdır. Belə şəbəkələr bir çox ölkələrdə mövcuddur və dövlət elm mərkəzlərini, iri konsernləri, kicik və orta müəssisələri, universitetləri, sahibkarlıq assosiasiyalarını və s. birləşdirir. Şəbəkələrin yaradılmasında əsas məqsəd dövlətin müəssisələrdə aparılan ETTKİ-nin şəraitinin yaxşılaşdırılması, dövlət tədqiqat təşkilatlarında özəl biznes ilə əməkdaşlıq üçün motivasiyanın yaradılması, texnoloji şirkətlərinin artmasına dəstək olmaq. Bunlardan başqa bu çür şəbəkələrin formalaşdırılması məqsədlərinə ölkənin orta və üzünmüddətli dövrlərdə iqtisadi və sosial tələbatlarının ödənilməsinidə aid etmək olar [5, 151].

Təbiidir ki, innovasiya sahəsində dövlət-özəl tərəfdaşlığının genişlənməsində vacib məqam müvafiq hüquqi təminatın olmasıdır. Bir çox ölkələr dövlət-özəl tərəfdaşlığının inkişafı məqsədilə hüquqi təminatı mexanizminin təkmilləşdirilməsini həyata keçirmişlər. Məsələn Çexiya Respublikasında özəl tədqiqatlrın və işləmələrin dövlət tərəfindən dəstəklənməsi üçün müvafiq qanunvericilik mövcud deyildir. Yalnız 2001-ci ildə yeni qanunvericilik aktları regional subyektlərə DÖT tətqiqatlarını və işləmələrini dəstəkləməyə imkan vermişdir. Bu proses İtaliya, Fransa, Yaponiya və digər ölkələrdə də baş vermişdir. İnkişaf etmiş ölkələrdə innovasiya sahəsində DÖT-in hüquqi dəstək təminatının təkmilləşdirilməsi elm və sanaye arasında əlaqələri daha dərinləşdirmişdir.

Dünya təcrübəsi təstiq edir ki, inkişaf etmiş ölkələrin innovasiya siyasətinin işlənilməsində və həyata keçirilməsində aparıcı rol ərazi-sahəvi klasterlərin yaradılması və dövlət-özəl tərəfdaşlığı mexanizmlərinə əsaslanan əlaqəli müəssisələrin formalaşması təşkil etmişdir. Klasterləşmə yerli səviyyədə regional innovasiya sistemlərinin möhkəmlənməsinə kömək edir. Avropa ölkələrinin əksəriyyəti klaster proqramlarının inkişafına 1990-cı illərin ortalarından başlamışdırlar. Kanada innovativ klasterlərin inkişafı Milli Tədqiqat Şurası (NRC) tərəfindən reallaşdırılan strateqiya əsasında həyata keçirilir. Şura federal, əyalət və bələdiyyə səviyyələrində universitetlər, özəl biznes və dövlət departamentləri arasında qarşılıqlı əlaqə və tərəfdaşlığı təmin edir [1].

İnkişaf etmiş ölkələrin innovasiya sahəsində DÖT-in formalaşdırılması təcrübələrini ümumiləşdirərək qeyd edə bilərik ki, dövlət və özəl sektorlarının innovasiya aktivliyinin artımasında onların rolu daima yüksəlir və bu sahədə həyata keçirilən proqramların sayı durmadan artır. Belə proqramlara kənd təsərrüfatı innovasiya sistemləridə aid edilir.

Kənd təsərrüfatı innovasiya sistemləri tədqiqatçılar, müəllimlər, məsləhətçilər, fermerlər, özəl şirkətlər, qeyri-kommersiya təşkilatları və istehlakçılar da daxil olmaqla geniş spektrli iştrakçıları əhatə edir [3]. Dövlət tədqiqat mərkəzləri ilə yanaşı, universitetlər də kənd təsərrüfatı tədqiqatları və işləmələri aparır. Burada əsas diqqət əlverişli mühitin və konkret investisiya dəstəyi hesabına təsərrüfatlarda və müəssisələrdə innovasiyaların mənimsənilməsinə yönəldilir. Təsərrüfat məsləhət sistemləri də innovasiyalarda mühüm rol oynayır. Onlar yeni ehtiyaclara uyğunlaşmaq, yenidən hazırlıq və çeviklik tələb edən daha geniş spektrli məsləhətlər vermək üçün keçid mərhələsindədirlər. Bu ehtiyacları ödəmək üçün yeni vasitəçilər yaranır.

Əksər ölkələrdə dövlət tədqiqat və innovasiyalar üçün strateji liderlik edir və tədqiqat institutlarına, özəl şirkətlərə və məsləhət sistemlərinə maliyyə yardımı edir. Dövlət maliyyəsi birbaşa tədqiqat institutlarına və ya layihələr üçün vəsait təmin edən tədqiqat şuraları və ya fondlar kimi maliyyə təşkilatları vasitəsilə təmin edilə bilər. Ölkədən asılı olaraq, kənd təsərrüfatı tədqiqatları üçün maliyyənin bir hissəsi və ya hamısı ümumi innovasiya siyasətinə inteqrasiya olunur.

Ədəbiyyat

1. National Research Council Canada, 2022. Sustainable Food Research and Technologies Program.https://nrc.canada.ca/en/research-development/research-collaboration /programs/sustainable-food-research-technologies-program

2. Popper S., Wagner C. New Foundation for Growth: The US Innovation System Today and Tomorrow. Arlington, 2002. P. 13

3. Sulaiman, R.V.2015. Agricultural Innovation Systems. Note 13. GFRAS Good Practice Notes for Extension and Advisory Services. GFRAS:Lindau, Switzeland.

4. Ланшина, Т.А. Инновационный сектор США: государственная политика и тенденции последних лет. Управленческое консультирование №6 2017. Стр. 73-87. file:///C:/Users/Asus/Downloads/innovatsionnyy-sektor-ssha-gosudarstvennaya-politika-i-tendentsii-poslednih-let.pdf

5. Сперанская, Т.С. Французский опыт сотрудничества государственного и частного секторов в сфере высоких технологий. Проблемы прогнозирования. №3, 2007. С.151

Резюме

Мустафаева Р.Р.

Развитие государственно-частного партнерства как основа инновационного развития

Одним из направлений стимулирования кооперации научно-исследовательской и технологической деятельности в инновационной сфере является развитие инструмента государственно-частного партнерства. Реализация важных проектов и программ требует создания институционально-организационного объединения государства и бизнеса, где имеющиеся у участников ресурсы, преимущества и возможности дополняют друг друга. Таким образом, формирование и развитие механизма государственно-частного партнерства играет важную роль в инновационном развитии государства.

Ключевые слова: *инновационные системы, научно-технический прогресс, государственно-частное партнерство, зарубежный опыт*

Summary

Mustafayeva R.R.

Development of Public-Private Partnerships as a Basis for Innovative Development

One of the directions for stimulating cooperation in research and technology activities in the innovation sphere is the development of a public-private partnership tool. The implementation of important projects and programs requires the creation of an institutional and organizational association of the state and business, where the resources, advantages and opportunities available to the participants complement each other. Thus, the formation and development of the mechanism of public-private partnership plays an important role in the innovative development of the state.

Key words: *innovation systems, scientific and technological progress, public-private partnership, foreign experience*

AZƏRBAYCANDA İNKLÜZİV İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ

Nəcəfova Çiçək Məhəmməd qızı
Sumqayıt Dövlət Universiteti
chichak64@mail.ru

Xülasə: *Məqalədə "inklüziv inkişaf" anlayışının tərifi verilmiş, onun mahiyyəti və müasir sosial mühitin innovativ və səmərəli inkişafda rolu araşdırılmışdır. Müasir cəmiyyətin sosial-iqtisadi reallıqlarında dövlətlə cəmiyyətin və biznesin arasında balansın zəruriliyi meydana çıxır. İnklüziv inkişaf cəmiyyətin bütün təbəqələrinin xeyrinə iqtisadi inkişaf dövründə iqtisadi proseslərin iştirakçılarına bərabər imkanlar verən anlayışdır. Bu konsepsiya səhiyyədə ədalətliliyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə və ərzaq təhlükəsizliyinə diqqət yetirərək ənənəvi iqtisadi inkişaf modellərini genişləndirir.*

Açar sözlər: *inklüziv inkişaf, inklüziv iqtisadiyyat, sosial yönümlü yanaşma*

Müasir cəmiyyətin sosial-iqtisadi reallıqları fonunda dövlət, cəmiyyət və biznes arasında tarazlığın qorunması zərurəti yaranır. Bu konteksdən əsas hərəkətverici qüvvə kimi sosial yönümlü yanaşma daha məqsədəuyğun hesab olunur. Ümumiləşdirilmiş şəkildə "inklüziv" anlayışı bir neçə elementin uzlaşmasını, birləşməsini ifadə edir. Bizim düşüncəmizlə, "inklüziv iqtisadiyyat – fərdiləşdirilmiş iqtisadiyyatdır, yəni bu iqtisadiyyat hər bir insanın tələbatının ödənilməsi, insanın şəxsiyyət statusunun subyektiv qiymətləndirilməsi və resurslardan bərabər şəkildə istifadə imkanlarını nəzərə alır.

İnklüziv iqtisadiyyat anlayışına elmi yanaşmaların təhlili inklüziv iqtisadiyyatın mahiyyəti və təbiətinin müəyyən olunmasına əsas elmi-praktiki yanaşmaya imkan verir:

1. Sosial yönümlü yanaşma
2. Sahibkarlıq cəhətdən yanaşma
3. İnnovativ yanaşma
4. Psixoloji yanaşma (insanın şəxsi xüsusiyyətləri nəzərə alınmaqla).

İnklüziv iqtisadiyyatın inkişaf istiqamətlərinə nəzər yetirək. Müasir sosial-iqtisadi şəraitdə inklüziv iqtisadiyyatın inkişaf istiqamətlərindən danışarkən, inkişaf və hərəkət mənasında "istiqamət" sözünün mənasını araşdırmaq yerinə düşər.

Birincisi, iqtisadiyyatın kasıb əhali hesabına artımı. Əhalinin bu kateqoriyası özünün bütün gəlirlərini demək olar ki, öz tələbatlarına xərcləmək məcburiyyətindədirlər [1].

İkincisi, 2018-ci ildə Davosda keçirilən Ümumdünya iqtisadi forumunda (WEF) inklüziv inkişaf müzakirə olundu və İnklüziv İnkişaf İndeksi (İİİ) təklif olundu. Bu indeks vasitəsilə 107 ölkə iqtisadi artım, ədalətlilik və davamlılıq meyarlarına görə qiymətləndirilir. Biz artıq inklüziv iqtisadiyyatı ölkələrin yaşayış səviyyəsinə görə bölünməsi konteksində nəzərdən keçirmişik [2]. O üç qrupda birləşdirilmiş 12 göstərici nəzərdən keçirilmişdir [2]. Bu üç qrupda birləşdirilmiş 12 göstəriciyə əsaslanır:

1. **Artım və inkişaf.** Qeyd olunan qrup ümumdaxili məhsulun artımı, məşğulluq, əmək məhsuldarlığı və gözlənilən ömür müddətini nəzərə alır.
2. **İnlkuzivlik.** Kasıblıq və qeyri-bərabərlik səviyyəsinə diqqət yetirir.
3. **Nəsillərarası ədalətlilik və davamlılıq.** Sosial gərginlik vəziyyətini, cəmiyyətin əhval-ruhiyyəsini qiymətləndirir.

Bu indikatorun üstünlükləri və fərqli xüsusiyyətləri:

- Əhalinin rifah halının səviyyəsini, demoqrafik yüklənməni, dövlət borcunu və ətraf mühitin çirklənməsini müəyyən edir.
- Ölkənin və konkret regionun iqtisadi inkişaf səviyyəsinin qiymətləndirilməsinə kömək edir.
- Bu və ya digər ərazinin iqtisadi inkişafının bütövlüyünü əks etdirir, əhalinin həyat səviyyəsinin davamlılığını müəyyən edir.

4. **Dayanıqlıq indikatoru.** Bu indikator dövlət borcunun hesablanması, asılılıq indeksi sub-indikatorlardan ibarətdir. Azərbaycan Qlobal Rəqabətlilik hesabatında olduğu kimi, bu hesabatda da dövlət borcunun Ümumi Daxili Məhsulda payına əsasən yüksək qiymətə layiq görülüb. Bu indikatorun metodologiyasına nəzərən, xalis borcun tərkibinə müxtəlif öhdəliklər daxil olmuşdur. Depozitlər, istiqrazlar, ödənilməli olan kreditlər, pensiyalar, müavinətlər, sığorta və s. dövlət borcunun tərkibinə daxildir. Hesabatların qiymətləndirilməsi nəticəsində məlum olmuşdur ki, Azərbaycan Respublikası dövlət borcunun Ümumi Daxili Məhsulda payına görə, Müstəqil Dövlətlər Birliyində və eləcə də regionda lider dövlətdir.

2018-ci ildə Davosda keçirilən Ümumdünya İqtisadi Forumun saytlarında yerləşdirilən ekspert hesabatlarında 29 inkişaf etmiş və 78 inkişafda olan ölkə yeni indekslərə əsasən göstərilmişdir. Ölkələrin iki yerə bölünməsinə zərurət onlar arsında kasıblıq səviyyəsinin fərqli olmasıdır [2].

Azərbaycanın və xarici ölkələrin təcrübəsində inklüziv inkişaf istiqamətlərinin amillərinin təhlili göstərir ki, daxili təhdidlərə və iqtisadi böhranlara yüksək davamlılıq o ölkələri əhatə edir ki, həmin ölkələrdə sosial-iqtisadi sistemdə yüksək inklüzivlik mövcuddur və prioritet məsələ kimi sosial problemlərin həlli və siyasətin formalaşması qarşıya qoyulmuşdur ki, bu da ayrı-ayrı sosial kateqoriyaların sosial müdafiəsinə və gəlirlərin bərabərləşdirilməsinə istiqamətlənmişdir.

Şəkil. İnklüziv inkişaf indeksinin modeli.

Ölkələrin qruplara bölünməsinin yekunları aşağıdakı məlumatlara əsasən aparılır:

1. Birinci yerləri skandinaviya ölkələri tuturlar. Norveç iqtisadi cəhətdən ən inklüziv inkiaf etmiş ölkə sayılır.

2. 2016-cı ildən bəri sosial inklüzivlik səviyyəsi 29 inkişaf etmiş ölkədən 20-sinin iqtisadiyyatında aşağı enmişdir, nəsillərarası bərabərlik səviyyəsi isə 74 inkişaf etməkdə olan ölkədən 56-sında aşağı düşmüşdür.

3. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin yarısından azı dilənçiliyin miqyasının azaldılması ilə uğur qazanıblar, və yalnız 8-i gəlirlərin qeyri-bərabərliyinin aradan qaldırılması ilə uğur qazanıblar.

Dünya İqtisadi Forumunun nüfuzlu indeksi hesab edilən "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında Azərbaycan Respublikası ən yaxşı inkişaf etməkdə olan ölkələr arasında üçüncü, MDB ölkələri arasında isə birinci yerdə dayanır. Bu hesabatın nəticələrinə görə, Azərbaycan Litva və Macarıstan istisna olmaqla, bütün inkişaf etməkdə olan ölkələri üstələyib. Bu da müvafiq olaraq 0,17 və 0,05 faiz təşkil edib. Reytinqdə Azərbaycan Latviya, Polşa, Xorvatiya, Ruminiya, Bolqarıstan, Makedoniya kimi ölkələri 0,2–0,5 faiz dərəcələri ilə, Rusiyanı 0,49 faiz, Türkiyəni 0,43 faiz, Gürcüstanı 0,7 faiz, İran İslam Respublikasını 0,61 faiz, Ermənistanı 1,03 faiz qabaqlayıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İTİKM) "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin məlumatına əsasən, Azərbaycanın "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında ilk üç inkişaf etməkdə olan ölkə arasında yer alması və MDB məkanında lider olması sürətli iqtisadi inkişafın nəticəsidir ki, bu da Prezident İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü, hərtərəfli inkişaf iqtisadi islahatların beynəlxalq qiymətidir [3].

Təhlilə əsasən Azərbaycanda inklüzivliyin yüksəldilməsi səviyyəsinin qaldırılması üçün aşağıdakı müddəalar sırası təklif olunur:

1. Sosial inteqrasiyanın yardılması və ümumi rifahın bərabərləşdirilməsi.
2. Yerli özünüidarəetmə sisteminin ədalətliliyin və sosial müdafiənin zamini kimi inkişaf etdirilməsi.
3. Sağlamlığın qorunması, təhsil, mədəniyyət vasitələrinə ümumi əlçatanlığın yüksəldilməsi.
4. Korrupsiya və rüşvətxorluğa qarşı aktiv mübarizə və kommersiya və qeyri-kommersiya strukturıarı arasında məsul fəaliyyətin inkişafı.
5. Cəmiyyətdə ədalətlilik, düzgünlük və ləyaqətlilik hisslərinə əsaslanan ideoloji dəyərlər sisteminin formalaşdırılması.
6. Səhiyyə və təhsil sferasında prioritet inkişafın təmin edilməsi.

İnklüziv inkişaf gənc və müasir fenomendir, belə güman edilir ki, sosial həyatın hər bir üzvünün öz həyat fəaliyyətini təmin etmək üçün cəmiyyətin əsas dəyərlərinə bərabər şəkildə əlçatanlığı olmalıdır. Buna görə də, istənilən sosial sahəyə yönəlmiş ölkənin məqsədi cəmiyyətlə dövlət və biznes arasında ideal tarazlığın tapılmasıdır.

Ədəbiyyat

1. Economic Portal [Электронный ресурс] // Экономический портал. – http://www.economicportal.ru/ponyatiya-all/ekonomicheskiy-rost.html. – Daxil olma vaxtı: 12.09.2022.
2. Индекс инклюзивного развития 2018: Всемирный экономический форум в Давосе [Электронный ресурс] // Новости экономики. –http://www.econominews.ru/mirovaja-jekonomika/524-indeks-inkljuzivnogo-razvitija-2018-vsemirnyjj.html. – Daxil olma vaxtı: 12.09.2022.
3. https://www.azerbaijan-news.az/view-138474

Резюме

Наджафова Ч.М.

Перспективы развития инклюзивной экономики в Азербайджане

В статье дается определение понятия «инклюзивное развитие», исследуется его сущность и роль современной социальной среды в инновационно-эффективном развитии. В социально-экономических реалиях современного общества возникает потребность в балансе между государством, обществом и бизнесом. Инклюзивное развитие – это концепция, дающая равные возможности участникам экономических процессов в период экономического развития на благо всех слоев общества. Эта концепция расширяет традиционные модели экономического развития, сосредоточив внимание на справедливости в отношении здоровья, человеческом капитале, качестве окружающей среды, социальной защите и продовольственной безопасности.

Ключевые слова: *инклюзивное развитие, инклюзивная экономика, социально ориентированный подход.*

Summary

Najafova Ch.M.

Prospects for the development of an inclusive economy in Azerbaijan

The article defines the concept of "inclusive development", examines its essence and the role of the modern social environment in innovative and effective development. In the socio-economic realities of modern society, there is a need for a balance between the state, society and business. Inclusive development

is a concept that gives equal opportunities to participants in economic processes in a period of economic development for the benefit of all sectors of society. This vision expands traditional models of economic development by focusing on health equity, human capital, environmental quality, social protection and food security.

Key words: *inclusive development, inclusive economy, socially oriented approach*

DƏYİŞƏN İQTİSADİ MÜHİTDƏ İNSAN KAPİTALI

Niftiyev Famil Qağamalı oğlu
Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxs
f.niftiyev@mail.ru

Xülasə: *Məqalədə iqtisadiyyatın inkişafının bir hissəsi olan insan kapitalından söhbət açılır. Onun tədqiqi obyekti və məqsədindən danışılır. Həmçinin insan kapitalının konsepsiyasına və onun müddəalarına yer verilib. İnsan kapitalının formalaşmasında təhsilin və ona yatırılan investisiyadan bəhs edilir. İnsan kapitalında keyfiyyət və kəmiyyətin qeyri-qənaətbəxş olmasından söz açılır. Mikro səviyyədə insan kapitalı ilə biznes arasında əlaqə yaradılması və qarşılıqlı fəaliyyət göstərilməsi önə çəkilir.*

Açar sözlər: *insan, kapital, təhsil, keyfiyyət, kəmiyyət, Azərbaycan*

İnsan kapitalına artan maraq iqtisadi inkişaf amillərinin anlayışının dəyişməsi ilə izah edilə bilər. Bu məqalədə müasir inkişaf proseslərini anlamaq və idarə etməyə kömək edən insan kapitalı konsepsiyasının mümkün bir vizionu təqdim edilmişdir. Məsələ ondan ibarətdir ki, ictimai münasibətlər adekvat iqtisadi münasibətlərin inkişafına nə dərəcədə və nə qədər əlverişli şərait yaradır. İnsan kapitalının yaradılması və inkişafı xüsusi investisiyalar tələb edir. Buna görə də, bu kapitalın kifayət qədər miqdarı və keyfiyyəti hər bir millətin yavaş inkişafının qarşısını alır. Məqalə aşağıdakı kimi əsaslandırılır: "İnsan resursları millətin ən dəyərli kapitalıdır. İnsan kapitalına, elmə və təhsilin keyfiyyətinə qoyulan investisiyalar Azərbaycanın qarşısında duran əsas problemlərdən biridir" [2].

Tədqiqatın konkret predmeti keyfiyyətli təhsilin uğurlu gələcək məşğulluğa və peşəkar həyata keçirilməsinə təsiri ilə bağlı problemlərdir.

Tədqiqat obyekti ayrı-ayrı insanın, firmanın və ya dövlətin dünya iqtisadiyyatında uzunmüddətli inkişaf potensialını daha çox müəyyən edən insan kapitalının miqdarı və keyfiyyətidir. Məruzənin əsas məqsədi insanlara sərmayə qoyulmasının, yeni bilik və bacarıqların əldə edilməsinin, iqtisadi və sosial tərəqqiyə aparan amillər kimi bütün həyat boyu təlim keçməyin zəruriliyini əsaslandırmaqdır.

Sosial kapital konsepsiyasının yaradılması ilə bağlı çətinliklər yalnız vərdiş etdiyimiz klassik iqtisadiyyatla bağlı ayrılma problemləri ilə izah edilə bilməz. Bu gün getdikcə daha çox qəbul edilir ki, iqtisadiyyat cəmiyyətə inteqrasiya olunmuşdur. Başqa sözlə, ictimai əsas iqtisadi inkişafın kəmiyyət və keyfiyyət proseslərini müəyyən edir.

İnsan kapitalı insanların faydalı keyfiyyət sistemi kimi əmək prosesində iştirak edir. Onun sahibindən başqa öz varlığı yoxdur. Bu səbəbdən, onu bərpa etmək çətindir. Bundan başqa, onun daşıyıcısı insan olduğundan, onun təbii, o cümlədən təbii hadisə olması barədə yanlış təsəvvür yaradılır. Bərpa etmək və toplamaq qabiliyyəti onu iqtisadi kapitalla müqayisə edir. Yüksək statuslu iqtisadi subyektlər daha yüksək keyfiyyətli insan kapitalına sahib ola bilərlər [1].

İqtisadi təhlil nəzəriyyəsi kimi insan kapitalı konsepsiyasının əsasını bir neçə müddəa təşkil edir [3]:

Birincisi, intellektual və peşəkar planda məqsədyönlü təsirlərin həyata keçirildiyi insan daha məhsuldar işçi qüvvəsinə malikdir ki, bu da inkişaf etmiş insan kapitalının təzahürüdür. İkincisi, insan kapitalının müəyyən kəmiyyət və keyfiyyət səviyyəsinin formalaşması investisiyalarla müşayiət olunur. Onlar müasir cəmiyyətlərdə nəhəng maliyyə resurslarını cəlb edir və onlardan müəyyən səmərə verəcəyinə güvənirlər.

Üçüncüsü, insan kapitalının formalaşması ilə bağlı fəaliyyət olduqca müxtəlifdir və müxtəlif səviyyələrdə təhsil təşəbbüsləri və tədqiqatlar daxildir: səhiyyə, coğrafi mobilliyə investisiyalar, həmçinin şəxsi və ictimai planda müvafiq qurğuların və motivasiyanın formalaşdırılması. Bununla yanaşı, ehtimal olunur ki, daha savadlı insanlar müvafiq olaraq insan kapitalına daha yüksək investisiyalar, həmçinin iş yerində əmək məhsuldarlığının artırılması imkanını təcəssüm etdirirlər.

Dördüncüsü, insan kapitalı nəzəriyyəsinin əsas müddəası ixtisas və istifadə olunan texnologiya arasında uyğunluq tələbidir. İstehsalın texniki-texnoloji səviyyəsi nə qədər yüksəksə, insan kapitalına olan tələblər də bir o qədər artır.

Beşincisi, ödənişli iş və özünü məşğulluq gəlir insan kapitalı investisiya funksiyası və müvafiq təhsil və peşə-ixtisas səviyyəsi var. İnsan kapitalı nə qədər keyfiyyətli olarsa, konkret cəmiyyət üçün gəlir də bir o qədər yüksək olmalıdır.

Altıncı, insan kapitalı ümumiyyətlə kapitalın bəzi universal xüsusiyyətlərinə malikdir, lakin eyni zamanda ona xas və xüsusi xüsusiyyətlər var, çünki o, canlı insan şəxsiyyəti ilə bağlıdır. Xüsusi xüsusiyyət kimi qeyd etmək olar ki, insan kapitalına investisiya yatırılması milliləşdirilməməli və ya özəlləşdirilməməlidir, o, həmişəlik maliyyələşdirilən investisiyalardan tez-tez fərqlənən bir insanın mülkiyyətidir.

İnsan kapitalının yaradılması və inkişafı xüsusi investisiyalar tələb edir. Buna görə də müasir iqtisadi münasibətlərə əlverişli olan sosial kapitalın kifayət qədər miqdarı və keyfiyyəti yavaşıdılmış inkişafa gətirib çıxarır. Keyfiyyətli təhsilin uğurlu gələcək məşğulluğa və peşəkar həyata keçirilməsinə təsiri problemi iqtisadiyyatın cəmiyyətin bir hissəsi olduğunu dərk etməkdən ibarətdir. İnsanlara investisiya qoymaq, yeni bilik və vərdişlər əldə etmək, ömür boyu təlim iqtisadi və sosial tərəqqiyə gətirib çıxaracaq amillərdir. Bu mənada təhsil və təlim baxımından "insan resurslarının inkişafı" əməliyyat Proqramının məqsədi iki prioritet istiqamətdə cəmlənmişdir [4]:

* təhsilin keyfiyyətinin artırılması;

* biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında əmək bazarının tələbatına uyğun olaraq təhsil və tədrisə yaxşılaşdırılması;

Şübhəsiz ki, keyfiyyətli təhsilin uğurlu gələcək məşğulluğa və peşəkar həyata keçirilməsinə təsiri vardır. Deməli, insan kapitalına bütün həyat boyu sərmayə qoymaq lazımdır.

İnsan kapitalının miqdarı və keyfiyyəti daha çox ayrı-ayrı insanın, firmanın və ya dövlətin dünya iqtisadiyyatında uzunmüddətli inkişaf potensialını müəyyən edir. İnsan kapitalının inkişafı bilik iqtisadiyyatının kompleks sisteminin (innovasiya firmaları, biznes mühiti, informasiya və kommunikasiya texnologiyaları) bir hissəsidir ki, bu da hökumətin nəzarətindən kənar bazar amillərinin hərəkətinə tabedir. Bilik iqtisadiyyatına uyğunlaşma bu prioritetlər üçün aydın olduqda zəruridir.

İnsan resurslarına yaxşı planlaşdırılmış investisiyalar qoymaq bütövlükdə cəmiyyətin davamlı sosial-iqtisadi inkişafı üçün uzun müddətli prioritet istiqamətdir

İnsan resurslarının uzunmüddətli inkişaf siyasətinin və ixtisaslaşmasının qurulması üçün real şərait yaradılır [2]. Mikro-korporativ səviyyədə bu, işçi qüvvəsinin yararlılığının artmasına, peşə vərdişlərinin işçi mühitinin tələblərinə uyğunluğunun yaxşılaşdırılmasına, yeni texnologiyaların, innovasiyaların qabaqlayıcı inkişafı və istehsal prosesində müasir informasiya və kommunikasiya texnologiyalarının istifadəsi nəticəsində əmək bazarında problemlərin daha asanlıqla aradan qaldırılmasına gətirib çıxaracaq. Sənaye səviyyəsində təsirlər müəyyən bir iqtisadi sektor çərçivəsində kadrların daha çox rahatlıq və hərəkətliliyi ilə həyata keçiriləcək və təsərrüfat subyektlərinin birləşməsinə klaster yanaşmasını stimullaşdıracaqdır. İnsan kapitalına investisiyaların planlaşdırılması və uğurla həyata keçirilməsi insan resursları sahəsində uzunmüddətli siyasətin ilkin şərtidir.

Avropa iqtisadiyyatına yönəldilmiş və biliklərə əsaslanan ölkə iqtisadiyyatının inkişafı təhsil, elmi-tədqiqat sektoru və biznes arasında əlaqələrin yenidən nəzərdən keçirilməsini və möhkəmləndirilməsini tələb edir. Yeni yanaşma və yüksək əlavə dəyərə malik məhsulun yaradılması, ilk növbədə, yeni məhsul və texnologiyaların hazırlanması və onların praktikada tətbiqinə yardım etmək üçün kifayət qədər və yaxşı hazırlanmış kadrların olmasını tələb edir [5].

Biznes ehtiyaclarını ödəmək üçün ixtisaslı işçi heyəti təmin etmək lazımdır. İxtisaslı kadrların hazırlanması yolu təhsildən keçir. İlk növbədə, ümumtəhsil hazırlığına diqqət yetirmək, daha sonra peşəkar oriyentasiya, peşə təhsili və ömürlük təlim keçmək lazımdır.

Nəzərə almaq lazımdır ki, yaxşı peşə təhsili və təhsili əsasən müasir texniki vasitələrdən istifadə imkanlarından asılıdır. Təhsil müəssisələrində mövcud maddi baza bu tələblərə əhəmiyyətli dərəcədə cavab vermir. Bu mənada, hər iki tərəfin üstünlüyə malik olacağı işəgötürənlərlə tərəfdaşlıq qurmaq lazımdır. Bu, bir tərəfdən müəssisələrdə mövcud olan istehsal bazasının və real iş mühitində praktiki təlim keçməsinə imkan verərdi, digər tərəfdən isə biznes sonradan adekvat hazırlığa malik və konkret tələblərə cavab verən kadrlara malik olacaqdır. Biznes rolu ölkə təhsilinin modernləşdirilməsi prosesində iştirak edə bilər və etməlidir. Buna baxmayaraq, təəssüf ki, təhsil və elm ilə biznes arasında tərəfdaşlıq haqqında kifayət qədər əlaqə yoxdur.

Həm təhsil, həm də elm sahələrində biznes tərəfindən investisiyalar olduqca zəruridir. Müəssisə səviyyəsində bu hələ inkişaf etməmiş bir təcrübədir, lakin bu, işəgötürənlərin əksəriyyəti üçün şüurlu bir zərurətdir. Biznesin dəstəyi ilə" insan resurslarının inkişafı " xüsusilə kiçik və orta müəssisələrdə müsbət inkişaf gözləmək olar.

Nəticə. XXI əsrin əvvəllərində sanki gələcəklərin insan kapitalına üstünlük verəcəyinə dair iddianın lehinə kifayət qədər arqumentlər toplanmışdır. İnsan resurslarının biliyi, intellekti və keyfiyyəti artıq çoxdan istənilən millətin tərəqqisi üçün həlledici qüvvələrə çevrilib, çünki onlar artıq istənilən iqtisadi fəaliyyətin mühüm elementidir.

Ümumiyyətlə, insan kapitalına investisiyaların səmərəli planlaşdırılması və idarə edilməsinə nail olmaq təsərrüfat fəaliyyəti üzrə həyata keçirilməlidir. Proqram investisiya təşəbbüsünü stimullaşdırmaqla ölkədə işəgötürənlərin insan resurslarından daha yüksək istehlak mədəniyyəti yaratmağa sövq edib ki, bu da firmaların fəaliyyətinin iqtisadi göstəricilərini bilavasitə əks etdirəcək.

İnsan resurslarının millətin ən qiymətli kapitalı olması danılmazdır və kifayət qədər əsaslıdır. İnsan kapitalına, elmə və təhsilin keyfiyyətinə qoyulan investisiyalar Azərbaycanda qarşısında duran əsas problemlərdən biridir.

Ədəbiyyat

1. Kərimov E.N., Osmanov B.O. İqtisadi Nəzəriyyə, Bakı 2010, 630 s.
2. Məmmədov Ə., Həmidov H. İnsan resuslarının idarə edilməsi. Bakı, 2002., 203 s.
3. Корицкий А.В. Влияние человеческого капитала на экономический рост : учеб. пособие / А. В. Корицкий ; Новосиб. гос. архитектур.-строит. ун-т (Сибстрин). – Новосибирск : НГАСУ (Сибстрин), 2013. – 244 с.
4. Валерьевич Д. Д. Человеческий капитал как фактор развития российской интеллектуалоемкой экономики в компаративном контексте (историко-экономический анализ). Москва; 2015, 377 с.
5. www.worldbank.org

Резюме

Нифталиев Ф.Г.

Человеческий капитал в меняющейся экономической среде

Статья открывает разговор о человеческом капитале, который является частью развития экономики. Говорят об объекте и цели его изучения. Также было уделено место концепции человеческого капитала и его положениям. Речь идет об образовании и вложенных в него инвестициях в формирование человеческого капитала. В человеческом капитале речь идет о удовлетворении качественным и количественным качеством. На микроуровне выделяется создание связей и взаимодействие между человеческим капиталом и бизнесом.

Ключевые слова: *человек, капитал, образование, качество, количество, Азербайджан*

Summary

Niftaliyev F.Q.

Human Capital in a Changing Economic Environment

The article talks about human capital, which is part of the development of the economy. It speaks of its object and purpose of study. Also, the concept of human capital and its provisions are included. It is about education and investment in the formation of human capital. There is talk of unsatisfactory quality and quantity in human capital. Creation and interaction between human capital and business at the micro level is highlighted.

Key words: *human, capital, education, quality, quantity, Azerbaijan*

AZƏRBAYCAN RESPUBLİKASINDA FOND BAZARININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

Rəsulova Günay Rasim qızı

Bakı Biznes Universiteti

gunay.kerimova85@mail.ru

Xülasə: *Dövlətin və korporasiyaların investisiyalarla təmin edilməsində fond bazarının rolunun artması tendensiyası özəlləşdirmə proseslərindən başlayaraq, büdcə kəsrinin və investisiya proqramlarının maliyyələşdirilməsində dövlət bazarı mexanizmlərindən istifadə etməklə özünü göstərir. İnvestisiya fəaliyyətinin dünya təcrübəsi göstərir ki, qiymətli kağızlar bazarının yaradılması və səmərəli fəaliyyət göstərməsi əsasında ölkədə iqtisadi artımın maliyyə təminatı üçün ilkin şərtlər yaradılır.*

Açar sözlər: *investisiya proqramları, iqtisadi artım, xarici kapital, iqtisadi transformasiya, fond bazarı*

Azərbaycan Respublikası üçün iqtisadiyyatın transformasiyası obyektiv zərurətdir. Respublikada yerli və xarici kapitalın investisiya fəallığının aşağı olması investisiya prosesinin təşkili sistemində bir sıra dəyişikliklərin həyata keçirilməsini, ölkənin maliyyə sisteminin vəziyyətinin real şərtləri əsasında onun aktivləşdirilməsi istiqamətlərinin əsaslandırılmasını zəruri edir.

Qeyd edək ki, Azərbaycan Respublikasında fond bazarı mövcud olduğu dövrdə səmərəsiz investisiya tənzimlənməsi müşahidə olunurdu. Dövlət qiymətli kağızlar bazarının qanunvericilik bazasının təkmilləşdirilməsini, peşəkar bazar iştirakçılarından bu alətlərə xas olan investisiya risklərini düzgün qiymətləndirməyi tələb edirdi. Bu şərtlərdə korporativ investisiya modelinin inkişafı böyük əhəmiyyət kəsb edir.

90-cı illərin ortalarından başlayaraq Azərbaycan Respublikasında aparılan mülkiyyət islahatı Fond Bazarı sisteminin formalaşmasına öz töhfəsini verdi. Araşdırmanın göstərdiyi kimi, Respublikada Azərbaycan iqtisadiyyatının spesifik şərtlərinə, milli maraq və ənənələrə adekvat olan, xarici fond bazarlarının rasional elementlərindən istifadəyə və dünya fonduna inteqrasiyaya yönəlmiş qiymətli kağızlar bazarının formalaşdırılması prosesi gedir [2, səh 143].

Xarici kapitalın cəlb edilməsindən daha səmərəli istifadə əsasında özəlləşdirmə proqramının həyata keçirilməsi üçün respublikada əlverişli investisiya mühiti yaratmaq lazımdır. Bu şəraitdə investisiya müsabiqələrinin təşkili, onların informasiya şəffaflığı, inkişaf mərhələsində geniş strateji və institusional investorların cəlb edilməsi üçün hüquqi və iqtisadi şəraitin yaradılması dövlətə milli iqtisadiyyatın bərpasını həyata keçirməyə imkan verəcək.

Azərbaycanda təkcə kənd təsərrüfatına deyil, həm də tikintiyə, maşınqayırma, elm tutumlu sənaye sahələrinə kapital qoyuluşu yüksək səviyyəyə çatmışdır.

Xarici təcrübəyə əsaslanaraq demək olar ki, xarici sərmayənin daxil olması əsas kapitala investisiyanın effektiv forması kimi çıxış edir. Məqsədyönlü optimal istifadə strategiyasının işlənib hazırlanması əsasında xarici investisiyalardan istifadənin təkmilləşdirilməsi məqsədəuyğundur. İqtisadiyyatın real sektorunun investisiya ehtiyaclarını nəzərə alaraq belə qənaətə gəlmək olar ki, özəlləşdirilən şirkətlər üçün cari hesablaşmaların aparılması və büdcəyə, banklara, podratçılara və digər kreditorlara vaxtı keçmiş borcların ödənilməsi üçün dövriyyə vəsaitlərinin olmaması heç də az əhəmiyyət kəsb etmir. Bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsi öz aparıcı rolunu saxlayır, yalnız onun ictimai istehsala təsir üsulları və büdcə vəsaitlərinin xərclənmə rejimi dəyişir. Azərbaycanın büdcə sistemi əsasında respublikanın milli gəlirinin 40%-ə qədəri yenidən bölüşdürülür və əsas sosial-iqtisadi proqramlar maliyyələşdirilir [1, səh 172].

İndiki şəraitdə borclanma yolu ilə xərclərin dövlət hesabına maliyyələşdirilməsini daha məqsədəuyğun hesab etmək olar. Tədqiqat əsasında belə qənaətə gəlinir ki, dövlət qiymətli kağızlar bazarı təkcə dövlət xərclərinin maliyyələşdirilməsində deyil, həm də bank sisteminin likvidliyinin saxlanılmasında və bütövlükdə iqtisadiyyatın inkişafında mühüm rol oynayır.

Respublikada dövlət daxili istiqrazlı kreditlərin verilməsi və tədavülü məsələlərinin tədqiqi göstərdi ki, onların təşkilinin aşağıdakı əsas müddəalar əsasında qurulması məqsədəuyğundur: birincisi, dövlət daxili borc bazarının inkişafında maraqlıdır; ikincisi, gələcək üçün bazarda cəlb edilən vəsaitlərin həcmini proqnozlaşdıra bilir; üçüncüsü, dövlət investisiya prosesinə fəal təsir göstərir.

Beləliklə, dövlət qısamüddətli istiqrazlar bazarında əməliyyatların və pul kütləsini tənzimləmək üzrə Respublika Mərkəzi Bankının əməliyyatlarının qarşılıqlı təsirini nəzərə alaraq qeyd edir ki, pul kütləsində baş verən dəyişikliklər istiqraz bazarındakı vəziyyətə kifayət qədər tez təsir edir: çünki banklar təkcə pul siyasətinin dirijoru kimi deyil, həm də daxili dövlət borc bazarında əsas diler kimi çıxış edirlər [3, səh 212].

Bundan əlavə, inflyasiya gözləntilərinin dəyərinin təhlili dövlətin qısamüddətli istiqraz bazarına heç də az təsir etmədiyini göstərir. Eyni zamanda qeyd etmək olar ki, bazar respublikada inflyasiya vəziyyətinin pisləşməsinə kifayət qədər tez reaksiya verir, lakin qiymətin artım tempinin azalması heç də həmişə gəlirlilik göstəricilərində azalmanı göstərmir.

Beləliklə, dövlət qısamüddətli istiqrazlar bazarının iştirakçısı üçün qiymətli kağızlara investisiya qoyuluşu barədə qərar qəbul edərkən, bu halda yaranan investisiya risklərinin nəzərə alınması, habelə onların səviyyəsinin qiymətli kağızlarda necə əks olunduğunu qiymətləndirmək vacibdir.

Ədəbiyyat

1. Sadıqov E.M. Azərbaycanın qiymətli kağızlar bazarı və onun inkişaf perspektivləri: Monoqrafiya, Bakı: Adiloğlu nəşriyyatı, 2003. 271 səh.
2. Sadıqov E.M., Nikiforova V.D. Qiymətli kağızlarla əməliyyatlar: Dərslik Bakı: Adiloğlu nəşriyyatı, 2002, 204 səh.
3. Sadıqov E.M. Nikiforova V.D. Birja və birjadankənar fond bazarları: xarici təcrübə: Dərslik. Bakı: "Adiloğlu" nəşriyyatı, 2002, 308 səh.

Резюме

Расулова Г.Р.

Направления развития фондового рынка в Азербайджанской Республике

Тенденция повышения роли фондового рынка в обеспечении государства и корпораций инвестициями проявляется в использовании государственных рыночных механизмов финансирования дефицита бюджета и инвестиционных программ, начиная с процессов приватизации. Мировой опыт инвестиционной деятельности показывает, что на основе создания и эффективного функционирования рынка ценных бумаг создаются исходные условия финансового обеспечения экономического роста в стране.

Ключевые слова: *инвестиционные программы, экономический рост, иностранный капитал, экономическая трансформация, фондовый рынок*

Summary

Rasulova G.R.

Directions of development of stock market in the Republic of Azerbaijan

The trend of increasing the role of the stock market in providing the state and corporations with investments is manifested in the use of state market mechanisms for financing the budget deficit and investment programs, starting with privatization processes. World experience in investment activity shows that on the basis of the creation and effective functioning of the securities market, the initial conditions for financial support of economic growth in the country are created.

Key words: *investment programs, economic growth, foreign capital, economic transformation, stock market*

AZƏRBAYCANDA SƏNAYENİN YENİ İNKİŞAF MƏRHƏLƏSİNİN TƏTBİQİ İMKANLARI VƏ PERSPEKTİVLƏRİ

Süleymanov Qəzənfər Salman oğlu, Bayramova Nuranə Bakıxan qızı

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Bva.nur@inbox.ru

Xülasə: *Məqalədə Azərbaycan Respublikasında sənayenin yeni inkişaf mərhələsinin tətbiqi imkanları və perspektivləri tədqiq edilir. Məhz bu məqsədlə tədqiqat zamanı son onillikdə sənaye sektoru şirkətləri davamlı inkişafa keçid məsələlərinə, yəni ekoloji təhlükəsizlik tələblərinə və cəmiyyətin tələbatına cavab verən istehsal proseslərinin işlənib vrhazırlanması və tətbiqi hesabına rəqabət üstünlüklərinin əldə edilməsinə yönələn dəyişikliklər prosesinə daha çox diqqət yetirirlər. Bununla yanaşı, istehsal biznes proseslərində yeni texnologiyaların tətbiqi ilə şərtlənən radikal dəyişikliklərsiz belə keçid mümkün deyil.*

Məqalədə Sənaye 4.0 konsepsiyasının alt sistemləri araşdırılaraq ətraflı şəkildə təhlil edilir. Eyni zamanda bu məqalədə sənayenin yeni inkişaf mərhələsinin, yəni Sənaye 4.0-ün Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin kənd təsərrüfatına tətbiqinin ümumilikdə ölkə iqtisadiyyatına verəcəyi töhfə araşdırılır.

Açar sözlər: *sənaye inqilabı, Sənaye 4.0, süni intellekt, virtual reallıq*

Tədqiqatlara əsaslanaraq Sənaye 4.0 mərhələsinin alt sistemlərini formalaşdıra bilərik.

Araşdırmalar göstərir ki, Sənaye 4.0 konsepsiyası fiziki əməliyyatların və əlaqəli proseslərin vahid informasiya məkanına inteqrasiyasına əsaslanır və 6 altsistemdən ibarət qlobal, mürəkkəb, çoxsəviyyəli təşkilati və texniki sistemdir (Şəkil 1).

1. PLM (Product Lifecycle Management) – «məhsulun həyat dövrünün idarə edilməsi», obyekt-əməliyyat, fiziki-informasiya dualizmi prinsipinə əsaslanan məhsulların həyat dövrünün idarə edilməsi üçün təşkilati-texniki sistemdir. Logistika, istehsal, istismar, utilizasiya və bütün əlaqəli proseslər fiziki məkanda

baş verir. İK texnologiyalarından səmərəli istifadə etmək üçün fiziki məkanda baş verən prosesləri informasiya problemlərinə çevirmək, həmçinin informasiya proseslərinin fiziki prosesə çevrilməsini tərsinə çevirə bilmək lazımdır.

Belə çevrilmə məhsulun həyat dövrü alqoritminin adekvat modelləşdirilməsi, yəni fiziki və informasiya məkanı arasında təkbətək uyğunluğun qurulması problemi kimi qəbul edilməlidir. PLM-sistemləri kimi tanınan mövzu yönümlü tətbiqi proqram təminatı kompleksləri məlumat massivinin strukturlaşdırılması və məhsulun bütün həyat dövrü ərzində fiziki və informasiya proseslərinin idarə edilməsinin avtomatlaşdırılması üçün nəzərdə tutulmuşdur.

Mənbə: *[6]*

Şəkil. Sənaye 4.0-ın əsas altsistemləri

2. Big Data. Sənayenin rəqəmsal transformasiyası nöqteyi- nəzərindən neft-kimya müəssisəsinin biznes proseslərinin effektivliyi (satış, marketinq, müştəri xidməti, istehsalın idarə edilməsi, texniki xidmət və təmir, satınalmaların idarə edilməsi, innovativ inkişaf, nəqliyyat və s.) bir sıra amillərlə müəyyən edilir ki, bunlar da aşağıdakılardır:

- biznes proseslərinin avtomatlaşdırılması səviyyəsi (müəssisənin avtomatlaşdırılmış biznes proseslərinin payı);

– informasiya axınının idarə edilməsinin keyfiyyəti (məlumatların toplanması, emalı və məlumatın çıxarılmasının sürəti və düzgünlüyü);

- biznes prosesinin həyata keçirilməsində iştirak edən heyətin ixtisası (müəssisənin informasiya sistemi ilə işləmək üzrə praktiki bacarıqların səviyyəsi, alınan məlumatları düzgün şərh etmək bacarığı).

Beləliklə, məlumatların toplanması və emalı proseslərinin informasiyalaşdırılması neft-kimya müəssisəsinin iş proseslərinin sabitliyini müəyyən edir, çünki məlumatların real vaxt rejimində konsolidasiyası, müəssisənin informasiya məkanının yaxşı qurulmuş arxitekturası daxili və informasiya məkanının gizli mənfi təsirini minimuma endirməyə imkan verir.

Yuxarıda göstərilənlərlə əlaqədar olaraq Sənaye 4.0 şəraitində Big Data texnologiyaları biznes prosesləri sisteminin sabitliyini təmin etmək üçün xüsusilə aktual alətə çevrilir. Bu alətin mütləq üstünlüyü yüksək keyfiyyətli məlumat emalındadır ki, bu da konsolidasiya edilmiş məlumatlar, səmərəsiz hərəkətlər və əməliyyatlar əsasında gizli qanunauyğunluqları müəyyən etməyə və nəticədə müəssisənin iş proseslərini düzəltməyə imkan verir.

Böyük məlumat toplularının mənbələri bu və ya digər məlumatları e-poçt, müxtəlif növ fayllar, bildirişlər və istehsal avadanlıqlarında quraşdırılmış sensorlardan toplanan məlumatlar və digər məlumatlar şəklində əks etdirən informasiya sistemləridir. Belə informasiya sistemləri müştərilərlə qarşılıqlı əlaqə haqqında məlumatları saxlayan CRM sistemləri, SRM sistemləri - təchizatçılarla qarşılıqlı əlaqə məlumatları, müəssisə resursları haqqında məlumat verən ERP sistemləri və s. sistemlərdir [5].

Big Data texnologiyaları istehsalda baş verən bütün proseslərin - temperatur, təzyiq, həcm, konsentrasiya, gərginlik, axın və s. parametrlərini əks etdirən Big Data massivlərini rəqəmsallaşdırmağa imkan verir. Rəqəmsal monitorinq toplanmış məlumat əsasında idarəetmə qərarlarının qəbulunu optimallaşdırmağa imkan verir. Süni intellektə əsaslanan bir vasitə kimi fövqəladə halların qarşısını almaq üçün informasiya sisteminin özünü öyrənməsini nəzərdə tutur.

Big Data texnologiyalarının tətbiqi kapitalın intensivliyi və uzun geri qaytarılma müddəti, informasiya sisteminə hücum riski, böyük məlumat massivləri ilə işləmək üçün kadrların hazırlanması zərurəti və aşağı qiymətlərlə əlaqəli bəzi maneələrə malikdir [4].

3. SMART Factory – Düşünülmüş fabrik.

SMART - məqsədləri müəyyən etmək və məqsədləri təyin etmək üçün idarəetmə və layihənin idarə edilməsində istifadə olunan mnemonik abbreviaturadır. Müəyyənedici meyarların necə olmasının lazım olduğuna dair dəqiq tərif yoxdur. Adətən aşağıdakı dəyərlər qəbul edilir:

S (Specific) – xüsusi, dəqiq nəyə nail olmaq lazım olduğunu izah edir.

M (Measurable) - ölçülə bilən, nəticənin necə ölçüləcəyini izah edir.

A (Attainable, Achievable) - əldə edilə bilən, məqsədə çatmağın necə planlaşdırıldığını izah edir.

R (Relevant) - müvafiq, məqsədin həqiqiliyinin tərifi. Bu tapşırığın həqiqətən zəruri olduğundan əmin olmalısınız.

T (Time-bound) - zamanla əlaqəli, məqsədə çatmaq lazım olan başlanğıc/sonunda bir zaman intervalının tərifi.

Smart Factory konsepsiyası məhsulun layihələndirilməsi və istehsal resurslarından istifadənin planlaşdırılması mərhələsindən sahə üzrə aktuatorlara qədər istehsal prosesinin ayrı-ayrı mərhələlərinin (əməliyyatlarının) fasiləsiz əlaqəsinə əsaslanır.

Yaxın gələcəkdə Smart Factory konsepsiyası adaptiv idrak sistemlərinin inkişafı ilə əhəmiyyətli dərəcədə dəyişəcək.

İstehsalda süni intellektə əsaslanan sistemlərdən istifadə insan fəaliyyətinin bir növü kimi istehsalı o qədər dəyişəcək ki, adaptiv idrak sistemləri əsasında istehsalın təşkili üçün yeni texnologiyalar haqlı olaraq beşinci sənaye inqilabı sayıla biləcəkdir.

4. Cyber-physical systems – Kiber-fiziki sistemlər.

Kiber-fiziki sistem informasiya axınının idarə edilməsinin, hesablama resurslarının fiziki istehsal proseslərinə inteqrasiyasının təşkilati və texniki konsepsiyasıdır. Belə bir sistemdə sensorlar, nəzarətçilər və informasiya sistemləri məhsulun bütün həyat dövrü ərzində vahid şəbəkəyə inteqrasiya olunur. Kiber-fiziki şəbəkə həm bir müəssisə daxilində, həm də bir neçə müəssisəni əhatə edən dinamik biznes modeli daxilində ola bilər.

Həyat dövrü ərzində əməliyyatlar idarə etmək, planlaşdırmaq, özünü tənzimləmək və dəyişikliklərə uyğunlaşmaq üçün standart internet protokollarından istifadə edərək bir-biri ilə əlaqə saxlayır. Əşyaların İnterneti kiber-fiziki sistemlər olmadan mövcud ola bilməz, çünki CPS Əşyaların İnternetinin infrastrukturudur.

5. Internet of Things (IoT) – Əşyaların İnterneti.

Artıq bu gün evdə hissələri dizayn etmək və onların istehsalını 3D printerlərdən və digər avtomatik istehsal sistemlərindən İnternet vasitəsilə sifariş etmək mümkündür, burada bir şəxs istehsalçı deyil, avtomatik istehsal prosesinin işləməsini təmin etmək rolunu oynayır. IoT internetə qoşulmuş əşyaları bir-biri ilə əlaqələndirir və bulud hesablama sistemləri tərəfindən idarə olunan birlikdə işləməyə imkan verir. Əşyaların İnterneti fiziki istehsal əməliyyatları və əlaqəli proseslərin qarşılıqlı əlaqəsini təmin edir.

6. Interoperability – qarşılıqlı fəaliyyət.

Sənaye 4.0-ın sənaye konsepsiyasında qarşılıqlı fəaliyyət ən vacib amildir. Bu amil qarşılıqlı fəaliyyət olmadan işləyə bilən inteqrasiya olunmuş istehsal sisteminin Industry 4.0 yaratmaq mümkün olmadığı fikrinə əsaslanır.

Təəssüf ki, avtomatlaşdırma sistemi şirkətləri qloballaşmanın perspektivlərini və müştərilərinin potensial inteqrasiya ehtiyaclarını nəzərə almadan uzun müddətdir ki, vahid standartlar olmadan məhsullarını inkişaf etdirirlər.

Bu tendensiya hazırda müşahidə olunur, lakin son illərdə vəziyyət kökündən dəyişib. Avtomatlaşdırma sistemlərini inkişaf etdirən aparıcı şirkətlər müştərilərinin faktiki ehtiyaclarını ödəyərək məhsullarını bir-birinə uyğunlaşdırmaq üçün dəyişdirirlər. Bununla belə, kifayət qədər şirkətlər qəribə bir iş modeli ilə işləyir və müştərilərini satışdan sonrakı xidmətlərindən asılı edir. Bu şirkətlər avadanlıq və ya proqram təminatının xüsusiyyətlərini məhdudlaşdırmaqla aşağı qiymətlərlə tenderlərdə qalib gəlirlər. Adi insanlar burada ciddi bir fərq görmürlər və yalnız yüksək ixtisaslı mütəxəssislər tender prosedurlarının təşkilində əhəmiyyətli fərqlər tapa bilirlər.

Real vaxt rejimində bütün lazımi məlumatlara sahib olmaq montaj xəttinin konfiqurasiyası və ya quraşdırma vaxtı səbəbindən itkisiz müştəri tələblərinə cavab verən sistemlər istehsal etməyə imkan verəcəkdir. Sənaye 4.0 sənayedə effektiv qərar qəbulunu dəstəkləmək üçün aşağıdakı vacib prinsiplərə əsaslanmalıdır:

– standartlaşdırma və etalon arxitekturası: müəssisələrin dəyər şəbəkələrində əməkdaşlığı ümumi standartlar toplusunu tələb edir;

– mürəkkəb sistemlərin idarə edilməsi: daha mürəkkəb sistemlər onların idarə olunması üçün müvafiq modellər tələb edir;

– sənaye üçün hərtərəfli genişzolaqlı infrastruktur: Əşyaların İnterneti etibarlı və sürətli kommunikasiya şəbəkəsi infrastrukturu tələb edir;

– təhlükəsizlik: insan və maşın, istehsal sistemlərinin sıx qarşılıqlı əlaqəsi insanlara və ətraf mühitə zərər verməməlidir;

– təlim və davamlı peşəkar inkişaf: kadrlar müvafiq təlim və ömür boyu öyrənmə yolu ilə yüksək ixtisaslı olmalıdır;

– normativ baza: təşkilati dəyişikliklərlə yanaşı, dövlət yeni innovasiyaları, xüsusən də məxfiliyin və məsuliyyətin tənzimlənməsini nəzərə almalıdır;

– resurs səmərəliliyi: məhsuldarlığı və resurs səmərəliliyini artırmaqla xammal və enerji istehlakı azaldılmalıdır [3].

Ölkəmiz hər il nüfuzlu reytinqlərdə müsbət artım dinamikası nümayiş etdirir. Azərbaycan İKT-nin inkişafına görə dünyada 65-ci yerdədir və Cənubi Qafqaz ölkələri arasında liderdir. Beynəlxalq Telekommunikasiya İttifaqının "State of Broadband Report 2018" sənədinə əsasən Azərbaycan MDB məkanında internetin yayılmasına görə liderdir. Dünya Bankının "Doing Business 2019" hesabatında ölkəmiz Avropa və Mərkəzi Asiyada ilk on islahatçı ölkə sırasında, dünyanın 190 ölkəsi arasında isə 25-ci yerdədir. Rekord islahatlar hazırda Azərbaycanı texnoloji cəhətdən daha da inkişaf etdirir. Buna baxmayaraq, inkişaf etmiş ölkələrin istifadə etdiyi texnoloji inkişaf modelləri şəraitində ölkəmiz üçün yeni texnologiyaların və innovasiyaların tətbiqi tempi daha da sürətləndirilməlidir. Bunun üçün təhsil modelinin modernləşdirilməsindən başlayaraq ayrı-ayrı şirkətlərdə işgüzar biznes-proseslərin təşkilində müvafiq mədəniyyətlərə keçid etmək, inkişafda aparıcı qüvvə olan telekommunikasiya sahəsində yeni ekosistem yaratmaq, eləcə də sabit texnoloji baza qurmaq və yeniləmək vacibdir [2].

Müşahidələr göstərir ki, "Sənaye 4.0" dövründə ölkələr infrastrukturun inkişafına vəsait qoyur, geridə qalmamaq üçün sərmayələr yatırırlar. Bu mənada Azərbaycanın da iqtisadiyyatının müxtəlif sahələrinə, xüsusən də telekommunikasiya sahəsinə investisiya qoymasına ehtiyac var. Burada dövlət tərəfindən yaradılan əlverişli şərait fonunda özəl sektor müxtəlif layihələri icra etməli, daha fəal investisiya proqramları tətbiq etməli və infrastrukturu genişləndirməlidir. Qeyd etmək lazımdır ki, dünya praktikasında dövlətin tənzimləyici funksiyalarının yerinə yetirilməsi fonunda irimiqyaslı infrastruktur layihələri məhz özəl sektor tərəfindən müxtəlif sahələrə, xüsusilə telekommunikasiya sahəsinə investisiya qoyuluşu, innovasiya proqramlarının reallaşdırılması, texnoloji bazanın yeniləşdirilməsi yolu ilə həyata keçirilir.

Azərbaycanda "Sənaye 4.0" və dərin bilikli ekosistemlər şəraitində innovasiya tətbiq edə bilən intellektualların sayının artırılması və öyrədilməsi də vacibdir. İnnovasiyalar insanlar tərəfindən yaradılır və ölkənin İT ekosistemini yeniləmək və inkişaf etdirmək üçün ölkənin yüksək peşəkarlığa malik İT mütəxəssislərinə ehtiyacı var. Əsas məqamlardan biri onların xaricə getməsinin qarşısını almaqdır [1].

Rəqəmsal texnologiyalar dövründə əhəmiyyətli inkişafa nail olmağın başqa bir yolu ölkəmizdə işgüzar dairələr və tətbiqi elmlər arasında əməkdaşlığın gücləndirilməsi, innovativ məkanların yaradılması, universitetlərin gələcəyin texnoloji inkişafını təşviq etməyə, dövlət və özəl sektor arasında əməkdaşlığı gücləndirməyə qadir mütəxəssisləri hazırlamasıdır.

Hazırda "Sənaye 4.0" Azərbaycana iqtisadiyyat sahəsində qlobal rəqabətdə öz rolunu dəyişməyə imkan verir. Bu isə mövcud potensialdan tam istifadə etməklə və innovasiyaların tətbiqi ilə mümkündür. Azərbaycanın real vaxt rejimində malik olduğu imkanlardan tam şəkildə istifadə etməklə texnoloji irəliləyişlərə və innovasiyalara malik regional rəqəmsal mərkəzə çevrilməsi imkanı olduqca böyükdür.

Onu da qeyd edək ki, dövlətimiz Böyük Qayıdış planına uyğun olaraq sakinlərin doğma yurdlarına qayıtmasını təmin edir və onların işlə təmin olunması istiqamətində tədbirləri davam etdirir. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi müstəsna əhəmiyyətə malikdir. Burada 4-cü sənaye inqilabının alətləri daha uğurlu perspektivlər üçün geniş imkanlar yaradacaq.

Uzun illər becərilməyən torpaqların dirçəldilməsi perspektivlərinə Smart aqro sistemi daxildir. Smart agro bir neçə sahənin bir anda torpağın becərilməsi prosesinə inteqrasiyasını nəzərdə tutur. Smart agro, yəni "ağıllı kənd təsərrüfatı" həm bitkiçilikdə, həm əkinçilikdə, həm də heyvandarlıqda istifadə olunur. Ağıllı texnologiyalar məhsuldar əkin aparmağa, torpağın təhlilinə və əkin sahələrinin monitorinqinə, gübrələrin seçilməsinə və torpaq parametrlərinin müntəzəm monitorinqinə imkan verir. Smart aqro sistemindən istifadə işğaldan azad edilmiş ərazilər üçün geniş perspektivlər açacaq, kənd təsərrüfatında islahatlara və ekoloji sabitliyin təmin olunmasına mühüm töhfə verəcək. Beləliklə, 4-cü sənaye inqilabının ən yaxşı nailiyyətləri Qarabağ torpağına xeyir gətirəcək.

Əkin sahələrində "Əşyaların İnterneti" (IoT) də geniş tətbiq oluna bilər. Sensorlar əkin sahələrini tamamilə əhatə edərək torpaqda gedən proseslər və onun hərəkətliliyi barədə məlumat toplamağa imkan verəcəkdir. Sonra alınan məlumatlar verilənlər bazasına daxil olacaq, təhlil olunacaq və yekunlaşdırılacaq. Aparılan analizlərin nəticələri bitkilərin yetişmə dərəcəsini, suvarmanı, zərərvericilərə yoluxmanı müəyyən etməyə imkan verəcək, təhlükə yarandıqda isə səhvsiz qərar qəbul etməyə kömək edəcək. Əkin sahələrinin peyk monitorinqi mexanizminin tətbiqi aqrar zonaların təhlükəsiz becərilməsini təmin etməyə, ekoloji təmizliyi və məhsulun keyfiyyətini artırmağa imkan verəcək.

Kənd təsərrüfatı texnikasının intellektual idarə olunması da mühüm amildir. "Əşyaların İnterneti" vasitəsilə texnikanı hərəkətə gətirmək, tam idarəetməni təmin etmək, yanacaq sərfiyyatına nəzarət etmək olar. Azərbaycanda müasir, ən yeni texnologiyaların tətbiqi üçün bütün imkanlar vardır. Robot texnikasının tətbiqi insanın əməyini yüngülləşdirəcək və təsərrüfatın müxtəlif sahələrində daha səmərəli nəticələr əldə etməyə imkan verəcək. 4-cü sənaye inqilabı kontekstində smart əlavələrin tətbiqi böyük uğurlar vəd edir. Azad edilmiş torpaqlarda qabaqcıl texnologiyaların tətbiqi onların abadlaşdırılması üzrə işlərin daha sürətli aparılmasına imkan verəcək, əla nəticələr əldə etməyə zəmin yaradacaq.

Ədəbiyyat

1. Hüseynov Ə.A. «Müasir şəraitdə ölkə sənayesinin restrukturizasiyasının əsas istiqamətləri». Bakı:“İpək Yolu” jurnalı. № 1, 2017, 143 s.

2. Klaus Şvab «Dördüncü sənaye inqilabı», Bakı:“İqtisad Universiteti” nəşriyyatı, 2020, 204 s.

3. Frank A. G., Dalenogare L. S., Ayala N. F. (2019), “Industry 4.0 technologies: Implementation patterns in manufacturing companies” // International Journal of Production Economics. V. 210. - pp. 15-26. https://doi.org/10.1016/j.ijpe.2019.01.004

4. Turovets O.G., Chasovskikh T.A. (2011), “Bases of the organization of resource-saving production system of the industrial enterprise”. Bulletin of the Voronezh state technical University, 11-3, 43-46 pp.

5. Shinkevich A.I., Kudryavtseva S.S. «Increase of innovative activity in the sphere of energy saving on the basis of the concept of open innovations». Bulletin of Kazan technological University, 17, 2014, 495-499 pp.

6. Петренко, С.А., Маковейчук, К.А., Четырбок, П.В., Петренко А.С. (2017), «Индустрия 4.0. О готовности к цифровой экономике» // Всероссийская научная конференция по проблемам управления в технических системах, № 1, 2017, с. 99-102

Резюме

Сулейманов Г.С., Байрамова Н.Б.

Возможности применения и перспективы нового этапа развития промышленности в Азербайджане

В статье рассматриваются возможности и перспективы нового этапа развития промышленности Азербайджанской Республики. Именно с этой целью в последнее десятилетие исследований компании промышленного сектора все больше внимания уделяют вопросам перехода к устойчивому развитию, то есть процессу изменений, направленных на получение конкурентных преимуществ за счет разработки и применения производственных процессов, отвечающих требованиям экологической безопасности и потребности общества. В то же время такой переход невозможен без радикальных изменений, вызванных внедрением новых технологий в производственные бизнес-процессы.

В статье подробно рассматриваются и анализируются подсистемы концепции индустрии 4.0. В то же время в данной статье рассматривается вклад нового этапа развития отрасли, т.е. индустрии 4.0, сельского хозяйства освобожденных территорий Азербайджана в экономику страны в целом.

Ключевые слова: *промышленная революция, индустрия 4.0., искусственный интеллект, виртуальная реальность.*

Summary

Suleymanov G.S., Bayramova N.B.

Application Opportunities and Perspectives of the New Stage of Industry Development in Azerbaijan

The article examines the possibilities and prospects of the new development stage of industry in the Republic of Azerbaijan. It is for this purpose during the last decade of research that industrial sector

companies pay more attention to the issues of transition to sustainable development, that is, the process of changes aimed at obtaining competitive advantages through the development and application of production processes that meet the requirements of environmental safety and the needs of society. At the same time, such a transition is not possible without radical changes caused by the introduction of new technologies in production business processes.

The article examines and analyzes the subsystems of the industry 4.0 concept in detail. At the same time, this article examines the contribution of the new development stage of the industry, i.e. industry 4.0, to the agriculture of the liberated territories of Azerbaijan to the country's economy in general.

Key words: *industrial revolution*, industry 4.0., artificial intelligence, virtual reality

TEXNOPARKLAR İNNOVATİV İNKİŞAFIN ƏSAS MEXANİZMİ KİMİ

Şirvani Könül Vaqif qızı
Sumqayıt Dövlət Universiteti
konul.sirvani.75@mail.ru

Xülasə: *Texnoparklar istehsalın, elmi və texnoloji sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafını təmin edəcək iqtisadi mühitin yaradılmasına, habelə rəqabətqabiliyyətli və yüksək keyfiyyətli məhsulların istehsalı, daxili və xarici bazarlara çıxarılması ilə məşğul olmağa kömək edir. Texnoparkın əsas funksiyaları davamlı inkişaf, həmçinin yeni biznesin dəstəklənməsi və maliyyələşdirilməsidir. Məqalədə texnoparkların fəaliyyəti müxtəlif aspektlərdən səciyyələndirilmiş və onun səmərəliliyinin qiymətləndirilməsi metodikası nəzərdən keçirilmişdir.*

Açar sözlər: *texnopark, innovasiya, istehsal, biznes, qlobal iqtisadiyyat, investisiya*

Texnoparklar elmi-texniki sahədə istehsalın inkişafı üçün əlverişli şəraitə imkan verən, eksperimental baza ilə təchiz edilmiş və yüksək ixtisaslı işçilərin cəmləşdiyi yeni layihələrin həyata keçirilməsi üçün yaradılan elmi bazadır. Texnoparkların əsas vəzifələrinə aşağıdakıları daxil etmək olar:

- biliklərin əldə edilməsi və onun praktikada tətbiqi;
- kiçik biznes sektorunun köməyi ilə texnologiyaların sənayeyə çevrilməsi;
- kiçik biznesə dəstək və s.

İlk texnopark ABŞ-da 1949-cu ildə Stenford Universitetinin ərazisində yaradılmışdır. İdeya ondan ibarət idi ki, universitetin mülkiyyətində olan torpaqlar şirkətlərə tədqiqat bölmələrini yerləşdirmək üçün icarəyə verməli idi. Daha sonra bu şirkətlər qabaqcıl texnologiyalar sahəsində elmi inkişaf həyata keçirmək üçün qruplar şəklində birləşməyə başladılar. Tədqiqat on il davam etdi və çox uğurlu oldu, yetmişinci illərdən etibarən texnoparkların sayı dünyada sürətlə artmağa başladı. Qeyd etmək lazımdır ki, texnoparklar müasir dünya iqtisadiyyatında mühüm rol oynayır, çünki onlar innovativ texnologiyaların və bütöv korporasiyaların inkişafına xidmət edir. Elm parklarının təsisçilərini, ilk növbədə, texniki və digər universitetlər, eləcə də elmi və layihə müəssisələri adlandırmaq olar. Onlar ilk dəfə olaraq elmi ideyaları və fundamental bilikləri inkişaf etdirdilər, elmi məsləhətləşmələr aparmağa başladılar, parkı bitişik ərazilər, binalar, avadanlıqlar, kitabxanalar ilə təmin etdilər və bununla da elm parklarının yaradılmasına və inkişafına böyük töhfə verdilər. Həmçinin nəzərə almaq lazımdır ki, texnopark müstəqil və gəlir gətirən obyektdir. Bu cür biznes risklidir. Dünya təcrübəsindən göründüyü kimi, innovativ texnologiyalar sahəsində layihələrin 50%-dən çoxu uğursuz olur, lakin uğurlu layihələr yaxşı gəlir gətirir. Texnoparkın nə qədər gəlirli olacağını qabaqcadan görmək üçün maliyyə komponentindən tutmuş işçilərin seçilməsinə qədər aydın və sistemli planlaşdırma lazımdır [1, s.91].

Texnoparklar müasir iqtisadiyyatın çox mühüm və zəruri elementi oldugu üçün onu müxtəlif nöqteyi-nəzərdən səciyyələndirmək olar. Birincisi, texnopark müstəqil iqtisadi zonadır ki, onun ərazisində elm tutumlu məhsulların işlənməsi, yeni kadrların hazırlanması həyata keçirilir. Bu baxımdan texnopark qlobal iqtisadiyyatda gedən əsas proseslərə uyğundur. İkincisi, elm biznesin, xüsusən də kiçik biznesin inkişafı üçün perspektivlər verir. Həmçinin, texnoparklar kiçik biznesə dəstək rolunu oynayır, istehsalın yeni səviyyəsinə yüksəlməsinə töhfə verir. Üçüncüsü, texnoparkların köməyi ilə elm fundamental və tətbiqi tədqiqatların aparılması üçün maddi baza və digər əlavə güzəştlər əldə edir, bununla da elm dövlətdən maliyyə müstəqilliyi əldə etmiş olur. Bunun sayəsində texnoparkları elmimizə uğurlu dəstək forması da hesab etmək olar.

Texnoparkların səmərəliliyinin qiymətləndirilməsi metodologiyasını uyğunlaşdırmaq üçün texnoparkların tikinti və istismar mərhələləri üzrə qiymətləndirmə amillərindəki fərqləri vurğulamaq

lazımdır. İki növ meyardan istifadə etmək mümkündür: innovasiya şərtlərinin və innovasiyanın yekun effektinin qiymətləndirilməsi. Texnologiya parklarının səmərəliliyinin qiymətləndirilməsi üçün aşağıdakı meyarlardan istifadə olunur:

- Keyfiyyət meyarları;
- Kəmiyyət meyarları.

Keyfiyyət meyarlarında istifadə olunan əsas meyarlar bunlardır: investisiya layihəsinin məqsədi, əvəzedici məhsulların (işlərin və xidmətlərin) kifayət qədər həcminin olmaması, texnoparkın sənaye ixtisaslaşması, yerli regional məhsulun həcminin artması, federal büdcə vəsaitlərinin cəlb edilməsi üçün əsaslar, texnopark üçün dövlət mülkiyyətində olan torpaq sahəsinin mövcudluğu, texnoparkın infrastruktur obyektlərinin və mühəndis şəbəkələrinin təsviri, texnoparkın mövcud (potensial) rezidentlərinin fəaliyyətinin təsviri.

Yeni keyfiyyət meyarları olaraq bunlardan istifadə edilir: texnoparkın məhsullarına tələbatın səviyyəsi, texnologiyaların transferinin (mübadiləsinin) həyata keçirilməsi əmsalı, texnoparkda ekspert şurasının olması, biznes inkubatorun (tədris mərkəzinin) olması, mühəndislik mərkəzinin (elmi infrastrukturun) olması.

Kəmiyyət meyarlarında istifadə olunan meyarlar bunlardır: yaradılmış iş yerlərinin sayı (vahid), texnoparkın yaradılması layihəsinin ümumi dəyərində özəl investisiyaların payı (faiz), layihənin büdcə səmərəliliyi, federal və regional fondların qaytarılması şəklində vergi gəlirləri (faiz).

Yeni kəmiyyət meyarları kimi bunlardan istifadə edilir: büdcə məqsədli proqramlarından vəsaitlərin ödənilmə səviyyəsi, rezidentlərin sayına rezidentlərdən baxılan müraciətlərin sayı, patent və lisenziyaların sayı, tərəfdaş universitetlərdən işləyən tələbələrin sayı [2, s.73].

Son üsulu orijinal ilə müqayisə etdikdə görünən odur ki, orijinal metodologiya texnoparkın yaradılması üçün ayrılan büdcə vəsaitlərinin səmərəliliyini 19 meyar (14-ü makroiqtisadi meyarlar olmadan) əsasında qiymətləndirir. Yekun metodologiya isə makroiqtisadi amillərdən istifadə etmədən texnoparkın effektivliyini 21 meyar əsasında qiymətləndirir.

Meyarların sayının artması texnoparkları daha yüksək dəqiqliklə qiymətləndirməyə imkan verir. Meyarlarda keyfiyyət dəyişiklikləri səhvlərin və yanlış qiymətləndirmələrin qarşısını almağa imkan verir ki, bu da öz növbəsində vəsaitlərin sui-istifadəsinə gətirib çıxara bilər və innovativ məhsullar şəklində gözlənilən iqtisadi effekti və texnopark proqramına dövlət investisiyasının qaytarılmasını vermir. Yekun metodologiya texnoparkın fəaliyyəti mərhələsində büdcə vəsaitlərinin xərclənməsini və investisiyanın gəlirliliyini qiymətləndirməyə imkan verir. Yekun metodologiyanın əhatə dairəsinə texnoparkların idarəedici şirkətlərinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, biznes inkubatorların fəaliyyətinin qiymətləndirilməsi, habelə innovasiya infrastrukturunun digər elementləri də daxil ola bilər.

Azərbaycanda son on il ərzində xüsusi iqtisadi zonaların və texnoparkların yaradılması prosesi intensivləşmişdir. Ilk Azərbaycan texnoparkı Sumqayıt şəhərində yaradılmışdır. 24 dekabr 2009-cu ildə Sumqayıt Texnologiyalar Parkı istifadəyə verilmişdir. Burada bir çox mini zavodlar birləşdirilmiş və rəqabətqabiliyyətli elektromexanika və elektrik avadanlıqları məhsulları istehsal edilir. Bu park çox böyük potensiala malikdir. Digər texnopark – Pirallahı Sənaye Parkında yüksək texnologiyalar əsaslı məhsullarin istehsalı nəzərdə tutulmuşdur [3, s. 244].

Ölkəmizdə yaradılan bu iki texnologiyalar parkında iqtisadi sahələrin müasir inkişafına imkan verən müəssisələr şəbəkəsi yaradılmaqdadır və xaricdən texnologiyalar transfer olunur. Bu proseslərin təşkilinə dövlət dəstəyi hər zaman görünür. Dövlət tərəfindən bu texnoparkların rezidentləri 7 illik müddətinə vergi və gömrük rüsumlarından azaddırlar. Qlobal iqtisadi transformasiyaların dərinləşməsi ilə əlaqədar yaxın gələcəkdə ölkəmizdə texnoparkların iqtisadiyyat sahələrinin innovativ inkişafına təsiri nəzərə alınmaqla bu kimi dünyəvi mütərəqqi iqtisadi vasitələr respublikamızın iqtisadi sitemində daha intensiv tətbiq oluna bilər. Bunun üçün milli innovasiya sisteminin formalaşdırılması vacib məsələlərdəndir.

Ədəbiyyat

1. Рычкова, М. А. Особенности развития технопарков в России / М. А. Рычкова, М. А. Жидкова // Потенциал российской экономики и инновационные пути его реализации: материалы всероссийской научно-практической конференции студентов и аспирантов, в 2-х частях, Омск, 28 апреля 2021 года. – Омск: Омский филиал Финансового университета при Правительстве РФ, 2021. – С. 90-93. – EDN IXQNQR.

2. Динер, А. В. Оценка эффективности управления технопарком / А. В. Динер, Н. В. Бозо // Исследования молодых учёных: экономическая теория, социология, отраслевая и региональная экономика / Под редакцией: О.В. Тарасовой, А.А. Горюшкина. – Новосибирск : Институт экономики и организации промышленного производства СО РАН, 2015. – С. 72-74. – EDN YQVSGJ.

3. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Dərslik. Sumqayıt, 2018, 376 s.

Резюме
Ширвани К.В.
Технопарки как основной механизм инновационного развития

Технопарки способствуют созданию экономической среды, которая будет обеспечивать развитие производственного, научно-технического предпринимательства, в том числе малого и среднего предпринимательства, а также заниматься производством конкурентоспособной и качественной продукции и экспортом ее на отечественный и зарубежный рынок. Основными функциями технопарка являются устойчивое развитие, а также поддержка и финансирование нового бизнеса. В статье разносторенне характеризиетел деятельность технопарков и рассматривается методика оценки ее эффективности.

Ключевые слова: *технопарк, инновации, производство, бизнес, мировая экономика, инвестиции*

Summary
Shirvani K.V.
Technoparks as the main Mechanism of Innovative Development

Technoparks help to create an economic environment that will ensure the development of production, scientific and technological entrepreneurship, including small and medium-sized enterprises, as well as to engage in the production of competitive and high-quality products and their export to domestic and foreign markets. The main functions of the technoparks are sustainable development, as well as support and financing of new business. In the article, the activity of techno parks is characterized from various aspects and the methodology of evaluating its efficiency is reviewed.

Key words: *technoparks, innovation, production, business, global economy, investment*

PANDEMİYA DÖVRÜNDƏ "ABB" ŞİRKƏTİNİN İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜSULLARI

Vəliyev Şahnur Xəqani oğlu
İqtisadiyyat İnstitutu
shahnur.velisoy@gmail.com

Xülasə: *Koronavirusun yayılması şəraitində kommersiya banklarının iqtisadiyyatın inkişafında rolu artır. Kommersiya banklarının sabitliyi bankın qarşısına qoyduğu strateji məqsədlərə nail olmaq üçün mövcud iqtisadi şəraitdə tarazlıq vəziyyətinə nail olmaq və bu vəziyyəti uzun müddət saxlamaqdır. Bank sisteminin sabitliyi onunla səciyyələnir ki, bank sisteminin sabitlik dərəcəsi milli iqtisadiyyatın vəziyyətini, cəmiyyətdə sosial sferanı, siyasi sferanı, beynəlxalq münasibətlər sferasını və ölkənin digər aspektlərini müəyyən edir. Məqalədə pandemiya dövründə "ABB" şirkətinin investisiya fəaliyyətinin təkmilləşdirilməsi yolları araşdırılır, bu istiqamətdə nailiyyətlər əldə etmək üçün müəyyən üsullar tədqiqat predmetinə çevrilir.*

Açar sözlər: *pandemiya dövrü, investisiya fəaliyyəti, kommersiya bankları, koronavirus, bank sistemi*

2020-ci ildə dünya pandemiyasının yaratdığı ÜDM və iqtisadiyyatın daralması, neft qiymətlərinin qeyri-sabitliyi, Dağlıq Qarabağda və onun ətrafında hərbi əməliyyatların aktivləşməsi ilə bağlı sektorda yeni problemlər yaranıb. Bu, sektor üçün yeni təhdidlərin və mənfi tendensiyaların qarışığına səbəb oldu ki, bunların da əksəriyyəti bütün dünyada bank sektoruna aiddir. 2020-ci ildə inflyasiya 2019-cu illə müqayisədə mülayim artıb. Mərkəzi Bankın məlumatına görə, 2020-ci ilin avqust ayında 2,8% səviyyəsində qalıb. 2020-ci ildə devalvasiya ilə bağlı gözlənti 2020-ci ilin yazında neft qiymətləri ilə bağlı qısamüddətli böhran zamanı və hərbi münaqişə zamanı artdı, lakin sonradan səngidi.

Pandemiya ilə əlaqədar karantin rejiminin iqtisadiyyata mənfi təsiri, beynəlxalq ticarət və investisiya fəaliyyətinin ləngiməsi Azərbaycandakı bankların gəlirlərinə təsir göstərmişdir. Bu gün ölkəmizdə kommersiya banklarının investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində həm daxili, həm də xarici maneələr var. Daxili maneələrə idarəetmə sisteminin inkişaf etməməsi, biznesin planlaşdırılmasının aşağı səviyyəsi, idarəetmənin qeyri-qənaətbəxş səviyyəsi, eləcə də kasad biznes təcrübələri daxildir. Xarici risklərə yüksək kredit riskləri, girov qanunvericiliyinin əsas həll edilməmiş problemləri, bankların məhdud resurs

imkanları, əsasən orta və uzunmüddətli öhdəliklərin çatışmazlığı, əhalinin banklara inamının kifayət qədər yüksək səviyyədə olmaması daxildir [3,s.97].

Buna baxmayaraq, Azərbaycan Respublikasının iqtisadiyyatı və bank sektoru investisiyaların dinamikası ilə nisbətən aşağı investisiya cəlbediciliyinə malikdir. Resursların atipik funksiyaları yerinə yetirmək üçün yönləndirilməsi səbəbindən banklara tətbiq edilən inzibati təzyiq hələ də əhəmiyyətli hesab olunur. Kapitalın konsolidasiyası proseduru (kredit təşkilatlarının birləşməsi və alınması) əsassız olaraq mürəkkəbdir. Banklar tərəfindən hesabatların yalnız elektron formada təqdim edilməsi məsələsi həllini tapmayıb. Yenidən maliyyələşdirmə sisteminin daha da inkişaf etdirilməsi zərurəti kimi metodoloji məsələlər də var.

Kommersiya bankları tərəfindən investisiya fəaliyyətinin həyata keçirilməsində əsas problemlər ABB üçün də xarakterikdir:

- yüksək kapital tutumu;
- infrastruktur layihələri üçün uzun geri ödəmə müddətləri;
- hüquqi bazanın qeyri-şəffaf olması.

İnvestorlara vergi güzəştlərinin verilməsinin aydın praktikası yoxdur. İnvestisiyaların sistemli bölgüsü yoxdur, sərmayələr parçalanmışdır. Aparıcı ekspertlərin fikrincə, bu problemi həll etmək olar. Bunun üçün güzəştlərin verilməsi və azad ticarət zonalarının yaradılması nəzərə alınmaqla investisiya fəaliyyətinin bütün sahələrinə üstünlük vermək və vəsait axınını stimullaşdırmaq lazımdır [1,s. 376].

Bugünkü dövrü təhlil edərək, pandemiyadan sonrakı bütün vəziyyətə nəzər salsaq, görərik ki, kommersiya bankları rəqəmsal texnologiyaların genişləndirilməsinə və tətbiqinə ehtiyac duyurlar.

Çin və İtaliyada koronavirusun yayılmasından bir ay sonra rəqəmsal bankçılıq istehlakçılarının sayı 20% artıb. Bu gün onlayn məsləhətləşmələri inkişaf etdirmək, müştərilərin maliyyə problemlərini müzakirə etmək, uzaqdan əməliyyatlarda kömək etmək və effektiv investisiya sövdələşmələri tövsiyə etmək məna kəsb edir [6,s.56]. Banklar öz xidmətlərinin çeşidini genişləndirə, məsələn, investisiya xidmətlərini işə sala, müştərilərə uzaqdan məsləhətlər verə, mühasibat və vergi xidmətləri təklif edə bilərlər. Banklar müştəri diqqəti prinsipi ilə fəaliyyət göstərir: kredit tətilləri tətbiq edir, xəstəlikdən əziyyət çəkən müştərilər üçün gecikdirilmiş ödəniş cəzalarını ləğv edir və s. Məhz bu təkmilləşdirmə üçün daha çox investisiya tələb olunur. Buna görə də, bu istiqaməti həyata keçirmək üçün əsas vəzifələri müəyyən etmək və həll etmək vacibdir. Bunlara aşağıdakılar daxildir:

- Azərbaycan müəssisələrinin səhm və istiqrazlarına investisiyaların cəlbediciliyinin artırılması;
- milli rifahın yüksəldilməsi və təhdidlərin minimuma endirilməsi.

Bu iki məqam kommersiya banklarına investisiya fəaliyyətlərini yenidən istiqamətləndirməyə imkan verəcək. Qiymətli kağızlara investisiya qoyuluşundan sənayeyə investisiya qoyuluşuna keçid bank əməliyyatlarının səmərəliliyini artıracaq. Beləliklə, Azərbaycanda bank investisiya bazarının inkişafının əsas problemləri ilə bağlı aşağıdakı nəticəyə gəlmək olar:

- iqtisadi (yüksək inflyasiya və onun tənzimlənməsi üçün tədbirlərin olmaması və s.);
- bankların fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın mükəmməl olmaması və onların hərəkətlərinə nəzarət etmək imkanı;
- əhalinin kredit təşkilatlarına inamsızlığı, istehlakçıların bank xidmətlərinə olan tələbatının ödənilməməsi;
- fond bazarı infrastrukturu problemi;
- bazarın informasiya açıqlığının artırılması, onun şəffaflığının artırılması problemi;
- kiçik investor problemi və s.

Kredit müddətinin artırılması isə müəssisələrə investisiya məqsədləri üçün böyük məbləğdə kredit almağa imkan verəcək. Faiz dərəcəsinin azaldılması və əsas borcun ödənilməsinin təxirə salınmasının artırılması bankın müştəriləri üçün bu proqramın cəlbediciliyini artıracaq. Həmçinin, bu proqram banka kreditin verilməsi risklərini azaltmaqla müntəzəm olaraq faiz gəlirləri əldə etməyə imkan verəcək [5,s.43].

Respublikamızın iqtisadiyyatının inkişafında mühüm rol oynayan banklardan biri də Azərbaycan Beynəlxalq Bankıdır. Bank bir çox göstəricilər üzrə öz sektorunda ölkə lideridir (Cədvəl).

Cədvəl .

Azərbaycan Beynəlxalq Bankının liderlik mövqeyi

Göstərici	Reytinq	Miqdar/məbləğ
Aktivlərin həcminə görə	1	8,9 milyard manat
Depozitlərin həcminə görə	1	5,8 milyard manat
Mənfəətin həcminə görə	1	148 milyon manat
Kredit portfelinin həcminə görə	1	2,7 milyard manat
Kapitalın həcminə görə	1	1,5 milyard manat

Mənbə: *https://banco.az/*

Cədvəldən göründüyü kimi ABB şirkəti aktivlərin, depozitlərin, mənfəətin, kredit portfelinin və kapitalın həcminə görə banklar arasında 1-ci yerdədir.

ABB şirkəti 2020-2021-ci illərdə bir sıra investisiya layihələrini reallaşdırıb. Belə ki, SOCAR-ın strateji tərəfdaşlarından biri olan ABB "SOCAR Polymer" layihəsinə 65 mln. ABŞ dolları köməklik edib. Bank bu dəstəyi "SOCAR Polymer Investments" şirkətinin buraxdığı istiqrazları almaqla edib. ABB "SOCAR Polymer"in istiqrazlarını almış səkkiz bankın arasında ən çox paya malik olub. Bu, "SOCAR Polymer"ə daha faydalı maliyyə resursları hesabına layihəyə çəkilən xərclərini azaltmağa imkan verəcək.

İnvestisiya qiymətli kağızları

İnvestisiya qiymətli kağızları aşağıdakılardan ibarətdir:

	2020	*2019*
Amortizasiya ilə borc qiymətli kağızlar		
Korporativ borc qiymətli kağızları	**110,516**	**–**
Çıxılsın: dəyərsizləşmə xərcləri üçün ehtiyat	(613)	–
	109,903	**–**
DÜGƏD ilə borc qiymətli kağızları		
Hökumət borc qiymətli kağızları	442,132	63,772
Korporativ bondlar	191,635	72,632
Azərbaycan Respublikası Mərkəzi Bankının buraxdığı notlar	54,452	–
	688,219	**136,404**
DÜGƏD ilə kapital qiymətli kağızları		
Korporativ səhmlər	83,498	71,257
	83,498	**71,257**
Cəmi investisiya qiymətli kağızları	**881,620**	**207,661**

Mənbə: *"Azərbaycan Beynəlxalq Bankı" ASC 2020-ci il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları*

Şəkil: ABB şirkətinin investisiya qiymətli kağızları

ABB-nin pandemiya dövründə və sonrakı gələcək inkişafını təmin edəcək investisiya fəaliyyətinin təkmilləşdirilməsi yolları kimi aşağıdakıları qeyd edə bilərik:

- bankın kapitallaşma səviyyəsinin yüksəldilməsi,
- bankın iqtisadiyyatın real sektoru ilə qarşılıqlı əlaqəsi üçün əlverişli şəraitin yaradılması,
- investisiya fəaliyyətinin modernləşdirilməsinin aktivləşdirilməsi,
- bankın icra hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqəsinin gücləndirilməsi,
- müasir texnologiyalar vasitəsilə bank biznes modellərinin səmərəliliyinin artırılması,
- kredit riskinin idarə edilməsinin təmin edilməsi,
- kredit portfelinin keyfiyyətinin səmərəli idarə olunmasının təmin edilməsi,
- maliyyəyə çıxışın asanlaşdırılması, biznes üçün daha ucuz kreditlərin verilməsi,
- bankın beynəlxalq əlaqələrinin təkmilləşdirilməsi,
- rəqabətqabiliyyətli bank xidmətlərinin yaradılması,
- rəqəmsal bank xidmətlərinin sayının və keyfiyyətinin artırılması,
- onlayn bankçılığın inkişaf etdirilməsi,
- COVID-19 pandemiyası kontekstində daxili və xarici mühitin təhlili, habelə hadisələrin inkişafı üçün mümkün ssenarilər üzrə strategiyaların hazırlanması əsasında risk və təhlükələrin proqnozlaşdırılması sisteminin formalaşdırılması. Belə ki, təhlillər göstərdi ki, hazırda ABB-nin fəaliyyəti pandemiyadan ciddi mənfi nəticələrlə üzləşmir [4,s.87].

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankının investisiya strategiyasının təkmilləşdirilməsi istiqamətində atdığı addımlar aşağıdakı vəzifələri həll etməyə imkan verəcək:

- bankın maliyyə dayanıqlığının artırılması;
- mənfəətin və biznesin bazar dəyərinin artması;
- dəyişən bazar ehtiyaclarına uyğunlaşma;
- yeni səmərəli və rəqabətqabiliyyətli xidmət sahələrinin yaradılması;
- ənənəvi xidmət sahələrinin səmərəliliyinin artırılması;
- xidmət bazarlarının genişləndirilməsi;
- riskin azaldılması.

Bankın investisiya strategiyası qarışıq, yəni geniş mütərəqqi tipə aiddir. Belə ki, bank məhsullarını yeniləməklə xidmətin genişləndirilməsinə nail olacaq.

İnvestisya fəaliyyətinin həyata keçirilməsi üçün seçilmiş maliyyə mənbəyinin şirkətin maliyyə, əməliyyat və investisiya fəaliyyətinə təsirinin qiymətləndirilməsi aparılmalıdır. Yerli şirkətlər iqtisadiyyatın innovativ istiqamətini nəzərə almaqla Azərbaycanın inkişaf strategiyasına cavab verən maliyyə mənbələrinin seçilməsinə üstünlük verməlidirlər. Hərtərəfli qiymətləndirmənin aparılması, onun iştirakçıları üçün hər bir mənbədən istifadənin səmərəliliyinin hesablanması vacibdir. ABB şirkətlər dövlət dəstəyini nəzərə almaqla ən perspektivli maliyyə mənbələrini seçməlidirlər. Pandemiya şəraitində şirkətlər maliyyə mənbələri ilə əlaqəli qərarlarına xüsusi diqqət etməlidirlər. Bu mərhələdə dövlət-özəl tərəfdaşlıq mexanizmindən istifadə perspektivlərini nəzərdən keçirmək, innovasiya və investisiya fəaliyyətinin stimullaşdırılmasının müxtəlif üsullarını (iqtisadi, vergi, maliyyə) nəzərə almaq lazımdır. Pandemiya şəraitində şirkətlər mövcud maliyyə mənbələrinin siyahısını müəyyən edilmədirlər. Mümkün olan, şəxsi, borc götürülmüş, cəlb edilmiş maliyyə mənbələrindən, habelə xarici investisiyalardan seçmək lazımdır. İnvestisyaların səmərəliliyinə nəzarət etmək üçün qarışıq kapital strukturunun və kapitalın (maddi və qeyri-maddi aktivlərin) orta çəkili dəyər göstəricisinin müəyyən edilməsi vacibdir.

Ədəbiyyat

1. Məmmədov Ə., Seyfullayev İ., Vergi və investisiya, Bakı: Caşıoğlu, 2013, 76 s.
2. Əliyev A.Y., Mirzəyev B.S. İnvestisiya qoyuluşunun əsaslandırılmasında iqtisadi təhlil, Bakı: Çənlibel, 2010, 400 s.
3. "Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı", Bakı şəhəri, 18 may 2020-ci il, № 179
4. Промышленность Азербайджана. Статистический сборник Госкомстата Азербайджанской Республики Баку: Сада, 2013, с.132
5. Ахтариева Л.Г. "Современные подходы к оценке инвестиционной привлекательности регионов" // Социально-экономическое развитие. №1, 2014, с. 233-239.
6. "Investment policy responses to the COVID-19 pandemic, Investment policy monitor". Special issue № 4 / United Nations Conference on Trade and Development. – New York and Geneva: United Nations, UNCTAD. 2020. 16 p.
7. "World Investment Report 2020: International production beyond the pandemic" / United Nations Conference on Trade and Development. – New York and Geneva: United Nations, UNCTAD. – 2020. – 268 p.

Резюме

Валиев Ш.Х.

Методы повышения инвестиционной деятельности компании ABB в условиях пандемии

В условиях распространения коронавируса возрастает роль коммерческих банков в развитии экономики. Устойчивость коммерческих банков заключается в достижении состояния равновесия в текущих экономических условиях и поддержании этого состояния в течение длительного времени для достижения поставленных банком стратегических целей. Устойчивость банковской системы характеризуется тем, что степень устойчивости банковской системы определяет состояние национальной экономики, социальной сферы в обществе, политической сферы, сферы международных отношений и других сторон жизни страны. В статье рассматриваются пути улучшения инвестиционной деятельности компании «АББ» в период пандемии, а также отдельные методы достижения успехов в этом направлении становятся предметом исследования.

Ключевые слова: *период пандемии, инвестиционная деятельность, коммерческие банки, коронавирус, банковская система.*

Summary

Valiyev Sh.Kh.

Methods of Improving ABB's Investment Activity During the Pandemic

In the conditions of the spread of the coronavirus, the role of commercial banks in the development of the economy is increasing. The stability of commercial banks is to achieve a state of equilibrium in the current economic conditions and to maintain this state for a long time in order to achieve the strategic goals set by the bank. The stability of the banking system is characterized by the fact that the degree of stability of the banking system determines the state of the national economy, the social sphere in society, the political sphere, the sphere of international relations and other aspects of the country. The article examines ways to

improve the investment activity of "ABB" company during the pandemic, and certain methods to achieve achievements in this direction become the subject of research.
Keywords: *pandemic period, investment activity, commercial banks, coronavirus, banking system*

BİLİK İQTİSADİYYATI ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ HƏRƏKƏTVERİCİ QÜVVƏSİ KİMİ

Vəliyeva Rəvanə Allahqulu qızı, Pənahova Günay Telman qızı
Sumqayıt Dövlət Universiteti
senemsema83@gmail.com; g.penapova@gmail.com

Xülasə: *Məqalədə bilik iqtisadiyyatının formalaşmasının zəruriliyi əsaslandırılmışdır. Bilik iqtisadiyyatının ölkənin inkişafında rolu tədqiq edilmişdir. Müasir iqtisadiyyatda istifadə olunan biliklərin əsas növləri müəyyənləşdirilmiş, biliklər əsas istehsal amillərindən biri kim tədqiq edilmişdir*
Açar sözlər: *bilik, bilik iqtisadiyyatı, innovasiya, texnologiya, istehsal, insan*

Hal-hazırda bilik hər bir şirkətin zəruri resursu hesab olunur və onun maliyyə və maddi resursları ilə yanaşı əhəmiyyətlidir. Şirkətin biliyi və intellektual kapitalı onun effektiv inkişafının və rəqabət qabiliyyətinin əsasını təşkil edir. Buna görə də, müasir iqtisadiyyat biliklərə əsaslanan texnologiyaların intellektuallaşdırılması ilə xarakterizə olunur.

Biliyə əsaslanan iqtisadiyyatın formalaşması təkamül xarakterli inkişaf proseslərinə tabedir və regional sistemlərin tarazlığına diqqətin artırılmasına, innovasiya proseslərinin ahəngdar inkişafına, insan kapitalının formalaşmasına və təbii resursların qorunmasına yönəlmiş səmərəli dövlət siyasətinə əsaslanır. Bilik sisteminin təkamül prosesləri nöqteyi-nəzərindən tədqiqi yeni biliklərin zəngin axınını və onun kulminasiyasını müəyyən edən səbəb-nəticə əlaqələrinin müəyyən edilməsinə kömək edir.

Bilik iqtisadiyyatının formalaşmasına aşağıdakılar daxildir:

• yüksək texnologiyalardan istifadə etməklə innovativ modernləşmə proseslərini təmin edən subyekt və obyektlərin məcmusu;

• mikro, makro və mezo səviyyələrdə tətbiq oluna bilən birinci və ikinci dərəcəli alətlər;

• bilik iqtisadiyyatının formalaşması çərçivəsində regional sistemlərin balansı nəzərə alınmaqla onların tətbiqinin hər bir qaydası üçün normativ-hüquqi baza;

• innovativ inkişaf çərçivəsində tətbiq olunan yanaşmalar, prinsiplər və mexanizmlərlə bağlı institusional siyasət;

• sosial-iqtisadi inkişafı təşviq edən rəqəmsal infrastrukturun formalaşdırılması;

• konkret bilik sahələrində yeni texnologiyaların inkişafı;

• bilik iqtisadiyyatının özəyini təşkil edən və regionun əsaslı dəyişikliklərə hazır olması ilə səciyyələnən innovasiya mühitinin yaradılması;

• insan kapitalının formalaşdırılması və sərişt ələrin genişləndirilməsi;

• innovativ regional inkişaf üçün siyasətin institusional bazanın formalaşmasına və möhkəmləndirilməsinə əsaslanması;

• sinergetik effekt verəcək istehsal texnologiyalarının və innovativ potensialın yaradılması.

Beynəlxalq rəqabətin artması və dünya iqtisadiyyatının qloballaşması şəraitində iqtisadi artımın və onların mütərəqqi inkişafının yeni istiqamətləri formalaşır ki, bu da bilavasitə cəmiyyətin inkişafının əsasına çevrilən informasiya, bilik və innovasiyalardan istifadədən asılıdır.

Hazırda innovasiya müəssisələrin, regionların və ölkələrin rəqabət qabiliyyətinin əsas mənbəyi hesab olunur. İnnovasiyaların yaranmasının ilkin şərtlərindən biri də yeni biliklərdir. Məhz bilik əmək məhsuldarlığının artmasına və nəticədə digər iqtisadi göstəricilərin, o cümlədən, ümumi daxili məhsulun, əmək haqqının artımına, həyat şəraitinin yaxşılaşdırılmasına və s. təsir göstərir. Bilik iqtisadiyyatında artımın əsas mənbəyi qeyri-maddi resurslardır. Belə qeyri-maddi resurslardan biri informasiyadır.

İnformasiyanın müasir şəraitdə əldə edilməsində informasiya və kommunikasiya texnologiyaları (İKT) əsas rol oynayır. İKT inqilabi irəliləyişlər və onların bütün fəaliyyət sahələrinə nüfuz etməsi bilik iqtisadiyyatının yaranmasına imkan vermişdir. İKT sənayesi telekommunikasiya və kompüter avadanlığının, proqram təminatının işlənib hazırlanmasını və istehsalını, həmçinin məlumatların saxlanması, ötürülməsi və təkrar istehsalı xidmətlərini əhatə edir. Hazırda bir çox ölkələrdə İKT ən sürətlə inkişaf edən sənayelərdən

biridir. Bilik iqtisadiyyatının regional və ya ölkə miqyasında təhlili üçün biliklərin yayılmasında və ona çıxışda danılmaz üstünlüklər təmin edən İKT-nin inkişaf səviyyəsi böyük əhəmiyyət kəsb edir [1].

Qloballaşma və texnologiyanın inkişafı ölkələrin milli rəqabət qabiliyyətində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Texnoloji dəyişikliklər qloballaşma və rəqabətqabiliyyətliliyi ilə səciyyələnən müasir iqtisadi inkişafın tərkib hissəsi kimi yeni inqilaba - bilik inqilabına gətirib çıxarmışdır. Son iki yüz ildə sənayenin transformasiyası təbii olaraq dörd mərhələdən keçərək beşinci sənaye inqilabına qədəm qoymuşdur. Hər mərhələdə təkcə texnologiya və istehsala yanaşmalarda deyil, həm də artım və rəqabətqabiliyyətlilik mexanizmlərində dəyişikliklər - qloballaşma baş vermişdir. Artıq bu gün böyük şirkətlər üçün bilik və insan kapitalı əsas resurslara çevrilib.

İqtisadi fəaliyyətin ənənəvi modellərində əsas istehsal amilləri bunlardır: torpaq, əmək, kapital, sahibkar. Müasir ədəbiyyatlarda bilik istehsal amili kimi özünü göstərir.

Bu gün bilik istənilən təşkilatın mühüm resursudur və maliyyə və maddi resurslarla yanaşı qiymətlidir. Təşkilatın biliyi və intellektual kapitalı onun effektiv inkişafı və rəqabət qabiliyyətinin əsasını təşkil edir. Buna görə də, müasir iqtisadiyyat biliklərə əsaslanan texnologiyaların intellektuallaşdırılması ilə xarakterizə olunur. İqtisadi mənada bilik sadəcə müəyyən məlumatların məcmusudur. Vəzifəsi insan resurslarının daha səmərəli istifadəsinə töhfə verən fərdlərin intellektual və yaradıcı kapitalını toplamaq, rəsmiləşdirmək və transformasiya etməkdir.

Bilik məlumatların toplanması və təhlili üçün zəruri texniki bacarıqlar, eləcə də biznesmenlərə müasir qlobal iqtisadiyyatda rəqabət aparmağa imkan verən innovativ idarəetmə təcrübələri üçün əsas yaradır. İxtisaslaşmış bilik və bacarıqlar ya biznes üçün istehsal aktivləri, ya da marketinq və satış üçün məhsul kimi xidmət edə bilər. Bilik ətraf aləmdəki hadisələrin mahiyyətinə nüfuz etmək üçün insanın zehni fəaliyyətinin məhsuludur. Cəmiyyətdə biliklərin yaradılması, toplanması və tətbiqi proseslərinin artan sosial-iqtisadi rolu şübhəsizdir. Bu, sosial-iqtisadi nəzəriyyənin, siyasətin və praktikanın inkişafının zəruri mərhələsidir.

Uppsala Universitetinin (İsveç) professoru B.Lundvall milli innovasiya sistemlərinin yaradılmasında, ilk növbədə, gizli biliklərin və təlim prosesinin əhəmiyyətini qeyd etmişdir. B.Lundvall gizli bilik üçün dörd öyrənmə metodunu müəyyən etmişdir: iş prosesində, istifadə prosesində, axtarış prosesində və qarşılıqlı əlaqə prosesində öyrənmə [4].

Bəzi alimlər biliyin ictimai sərvət olduğuna inanırlar. Bilik bərpa oluna bilir və istifadə edildikdə tükənmir. "İnformasiya" və "bilik" anlayışları, bütün oxşarlıqlarına baxmayaraq, əhəmiyyətli fərqlərə malikdir. Onlar arasında əlaqənin olmasına baxmayaraq, iqtisadi proseslərin idarə edilməsi zamanı istifadə olunan informasiya bir obyektdən digərinə ötürmə vasitəsi olan bilikdir.

Bilik və peşə bacarıqlarının keyfiyyətinin yüksəldilməsi məşğulluğa mühüm təsir göstərir. Belə ki, savadlı və ixtisaslı mütəxəssislər əmək bazarında üstünlüklərə malikdir. Bilik rəsmi və qeyri-rəsmi şəbəkələr vasitəsilə yayılır.

Müasir iqtisadiyyatda biliklərin aşağıdakı növlərini ayırd etmək olar:

- açıq biliklər: - faktlar, rəqəmlər, məlumatlar;
- gizli biliklər: - bacarıqlar, təcrübə, mühakimələr, intuisiya, insanlarla ünsiyyət üsulu və s.

Biliklər kodlaşdırılmış (və ya rəsmiləşdirilmiş), maddiləşdirilmiş (məhsul və xidmətlər şəklində) və şəxsi (və ya insandan ayrılmaz) biliklərə bölünür [2].

Kodlaşdırılmış biliklər asanlıqla təkrarlana bilir, saxlanılır və cədvəllər, diaqramlar, çertyojlar şəklində mediadan istifadə etməklə ötürülür və yeni biliklər istehsal etmək və onu yeni məhsul və xidmətlərdə reallaşdırmaq üçün istifadə olunur. Onlar elmi, texniki, patent və digər informasiya bazarlarında təqdim oluna, həm də təhsil xidmətlərinin tərkib hissəsi kimi çıxış edə bilir.

Şəxsi bilik yaradıcı şəxsiyyətin, insan kapitalının formalaşması nəticəsində meydana çıxır. Onlar formal və qeyri-rəsmi şəbəkə qarşılıqlı əlaqəsi prosesində yaradılır.

Biliyin inkişafı və toplanmasına müasir yanaşmalar, eləcə də dünya iqtisadiyyatında iqtisadiyyatın miqyası təkamül prosesinin şərtləri ilə müəyyən edilir. Onlar inkişafa yönəldilmişdir ki, bu da insanın harmoniya, qarşılıqlı əlaqə və qarşılıqlı dəstək istəyinə əsaslanır ki, bunlar da inkişaf üçün təhlükəsiz mühit yaradır. Qeyd etmək lazımdır ki, təbiət, insan və texnologiya birlikdə inkişaf edir. Təkamül prosesində insan təbii fəlakətlərə və elmi-texniki tərəqqiyə uyğunlaşır. Təkamül inkişafı nəticəsində bir çox yabanı bitki və heyvanlar yox olur, yeni əhliləşdirilmiş meyvə ağacları, kollar, bitkilər və heyvan növləri meydana çıxır. Gen mühəndisliyinin inkişafı irsi məlumatları düzəltməyə, süni şəkildə faydalı genlər yaratmağa imkan verir, onların köməyi ilə əsaslı şəkildə yeni bitki və heyvan növləri meydana çıxır. Təbiətin, insanın və cəmiyyətin təkamülü yer üzündə həyatın qorunub saxlanması, insan inkişafının, biosferin və iqtisadi və texnoloji inkişafın əlaqələndirilməsinin strateji şərtidir ki, bu da mənəvi dəyərlər və insan bilikləri ilə müşayiət olunur.

Birgə təkamül ideyası ondan ibarətdir ki, sosial proseslər və bütün insan həyatı təbiətlə tam ahəngdar şəkildə qurulmalıdır. Çünki insan təbiətin ayrılmaz hissəsidir. Birgə təkamül müəyyən aspektlərdə bir-birini dəstəkləyən, dəyişikliklərin sosial təyinatını tamamlayan əsaslı, mütəşəkkil intensiv davamlı sosial-iqtisadi inkişafın rasional məhsuludur. İnkişaf etmiş ölkələrdə insanın, təbiətin və texnologiyanın qarşılıqlı təsiri daim artır. Zaman keçdikcə təkamül prosesində bilik iqtisadiyyatı formalaşır ki, bunun nəticəsində görünən dəyişikliklərin üzvi inteqral toplusu formalaşır, proseslərin və hadisələrin qarşılıqlı asılılığı və qarşılıqlı əlaqəsi artır.

Hazırda dünya iqtisadiyyatının inkişaf tendensiyaları yeni iqtisadi inkişaf konsepsiyasının formalaşmasına istiqamətlənmə ilə xarakterizə olunur. İqtisadiyyatı inkişaf etmiş ölkələr postindustrial tipə doğru irəliləyirlər. Postindustrial inkişaf milli iqtisadiyyatların sistemli inteqrasiyası, kapitalın beynəlxalq təmərküzləşməsi, malların, xidmətlərin, insanların, kapitalın və ideyaların sürətli hərəkəti, iqtisadi proseslərin qloballaşması ilə xarakterizə olunur.

Müasir dünyada getdikcə daha çox "rəqəmsal iqtisadiyyat", "texnoloji sıçrayış", "bilik iqtisadiyyatı" kimi terminlərlə qarşılaşırıq. Bütün yüksək inkişaf etmiş dövlətlərin diqqəti məhz bu proseslərə yönəlib. Biliyin formalaşması və istifadəsinin xüsusiyyətlərinə görə o, davamlı olaraq yenilənir. Bilik iqtisadiyyatı davamlı olaraq yeni innovasiyalar istehsal edir və yaradır, bununla da yeni biliklər istehlakçının ehtiyac duyduğu müasir keyfiyyətlərə malik yeni mal və xidmətlərə çevrilir. Biliyə əsaslanan iqtisadiyyatda texnologiya deyil, insanlar əsas rol oynayır. Texnologiya insan biliklərinin potensialını üzə çıxarmaq üçün bir vasitədir. Texnologiyaları idarə etməyi bacarmaq lazımdır. Texnologiyanın idarə edilməsi uğurun açarıdır. Texnologiyanı necə idarə edə və onunla işləyə bilmiriksə, o, faydasızdır [3].

Bilik iqtisadiyyatı həm də yüksək intellektual potensiala malik insanlar üçün daha çox imkanlar yaradır. Bilik iqtisadiyyatının çatışmamazlığı bazarda məhdud sayda yüksək ixtisaslı iş yerlərinin olmasıdır. Yüksək texnologiyalı sənayelərin böyüməsinə baxmayaraq, bir çox iş üçün daha yüksək bacarıq səviyyəsi tələb olunmur. Bilik iqtisadiyyatı insan kapitalından və patentləşdirilmiş texnologiyalar kimi qeyri-maddi aktivlərdən asılıdır.

Ümumiyyətlə, bilik iqtisadiyyatı postindustrial cəmiyyətdə formalaşan yeni tip iqtisadi münasibətlərdir ki, burada əsas rolu davamlı texnologiyalar axını yaradan mütəxəssislər oynayır. Bu iqtisadiyyatda bilik aparıcı rol oynayır, onun yaradılması və istifadəsi yüksəliş mənbəyinə çevrilir. Bilik iqtisadiyyatına təsir edən əsas amillər genişlənmiş məhsul təklifi, peşəkarlığın artması, informasiyanın sürətlə köhnəlməsi, fasiləsiz rəqabət mühiti, daha çox qarşılıqlı əlaqə və iştirakçılar arasında rəqabətdir.

Rəqabətli bilik iqtisadiyyatının yaradılmasının başlanğıc nöqtəsi təkcə regionların və işəgötürənlərin ehtiyaclarına çevik cavab verə bilən, eyni zamanda ən son tədqiqat və inkişaf nəticələrindən istifadə edə bilən ali təhsil sisteminin fəaliyyət göstərməsidir.

Ümumiyyətlə, bilik bir tərəfdən özəl, yəni mənimsənilə bilən, digər tərəfdən isə ictimai olan, yəni, cəmiyyətə məxsus məhsuldur. Bu baxımdan, bilik onun əldə edilməsinə çəkilən xərclərlə və istifadə olunan, satılan biliyin bazar qiyməti ilə ölçülür. Xərclərə tədqiqat və inkişaf, təlim, müxtəlif növ dəstək xərcləri daxildir. Nəticə etibarilə, bilik nə qədər çox yaradılarsa və biliyə nə qədər çox tələbat olarsa, bilik iqtisadiyyatı bir o qədər çox məhsul təklif edir. Aydın olur ki, həm alimlərin, həm də bu bilikləri son istifadəçilərə çatdıran insanların əməyi vacibdir.

Ədəbiyyat

1. Əliyev Ə.Q., Şahverdiyeva R.O. İKT əsaslı texnoloji innovasiya iqtisadiyyatı sektorlarının formalaşması və onların sosial iqtisadi proseslərə təsiri aspektləri. İnformasiya cəmiyyəti problemləri, 2021, №1, 94-110

2. Тараканов, Н.А. «экономика знаний» как инновационный фактор экономического роста // Новая экономическая реальность: концептуальные контуры бытия и обновления: материалы конференции. Краснодар: НИИ экономики ЮФО, 2021, с. 149-153.

3. Трофимова, Н.Н. Проблемы и перспективы формирования экономики знаний в условиях постиндустриальной экономики. Стратегии бизнеса, 2021, т.9, №1, с.4-8

4. Lundvall B.A., Johnson B., Andersen E. National Systems Of Production, Innovation And Competence Building // Research Policy, 2002, c.214.

Резюме
Велиева Р.А., Панахова Г.Т.
Экономика знаний как движущая сила социально-экономического развития страны
В статье обосновывается необходимость формирования экономики знаний. Исследована роль экономики знаний в развитии страны. Определены основные виды знаний, используемых в современной экономике. Знания – один из основных факторов производства, который изучается
***Ключевые слова**: знания, экономика знаний, инновации, технологии, производство, человек*

Summary
Valiyeva R.A., Panahova G.T.
The Knowledge Economy as a Driving Force for the Socio-Economic Development of the Country
The article substantiates the need to form a knowledge economy. The role of the knowledge economy in the development of the country has been studied. The main types of knowledge used in the modern economy are determined. Knowledge is one of the main factors of production that is studied
***Key words:** knowledge, knowledge economy, innovation, technology, production, human*

NƏQLİYYAT VASİTƏLƏRİNDƏ, CİHAZ VƏ APARATLARDA PANELLƏRİN UZUNÖMÜRLÜLÜYÜNÜN ARTIRILMASI

Yahyayev Coşqun Dünyamin oğlu

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti Aparatı İşlər İdarəsi
yahyayev.cosqun@mail.ru

***Xülasə**: Deformasiya olunan bərk cisim mexanikasında əsas məsələ dağılma materiallarının müqavimətinin qiymətləndirilməsinin ən mühüm usüllarının işlənib-hazırlanması və tətbiq edilməsidir. Müasir texnologiyanın müxtəlif sahələrində yüksəkdavamiyyətli materiallardan və iri qabaritli konstruksiyalardan, qurğulardan geniş istifadə edilərək cisimlərdə çatların yayılması nəzəriyyəsi xüsusi aktuallıq təşkil edir.*
***Açar sözlər:** nəqliyyat-loqistika, panel, konstruksiya, sərtlik qabırğaları, plitə*

Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsi hər bir sahədə olduğu kimi nəqliyyat-logistika sahəsində də yeni imkanlar yaratdı.

Tranzit mərkəz olaraq Qarabağ regionunun təqdim edildiyi təqdirdə və qeyd olunan Zəngəzur dəhlizi, həmçinin digər kommunikasiya və nəqliyyat xətlərinin bura cəlb edilməsi ilə Azərbaycan nəinki öz daxilində, ümumilikdə, öz iqtisadiyyatında, həmçinin regionda tranzit bir nəqliyyat-kommunikasiya xətləri üzərində yerləşəcək [1]. Bu isə Azərbaycan iqtisadiyyatının artımına müsbət təsir edəcək.

Bu istiqamətdə AYDA tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində yol infrastrukturuna xidmət göstərilməsi üçün maşın-mexanizm parkına 40 adda 360 yeni texnika və avadanlıqlar alınmışdır [2].

Alınmış yol təsərrüfatının müxtəlif sahələrində - istismar, təmir, inşaat işlərinin görülməsi üçün nəzərdə tutulan bu texnikalar işğaldan azad edilmiş ərazilərdəki yol layihələrinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə cəlb olunacaq.

Çatların yayılması nəzəriyyəsi. Yüksəkqiymətli texnikaların, iriqa-baritli konstruksiyaların uzun-ömürlülüyünü, istismar müdətini uzatmaqla iqtisadi səmərəliliyi artırmaq ən vacib məsələlərdən hesab olunur. Bu nöqteyi-nəzərdən nəqliyyat maşınqayırması və bu kimi müxtəlif texnologiya sahəsində konstruksiyaların maddi istehlak xərclərinin azaldılması, onların istismar etibarlığının dayanıqlığını artırmaq mühüm əhəmiyyət kəsb edir ki, bunun üçün də elastik elementlərdə panellərin möhkəmləndirilməsi geniş şəkildə tətbiq olunur.

Deformasiya olunan bərk cisim mexanikasının ən vacib vəzifələrindən biri dağılma materiallarının müqavimətinin qiymətləndirilməsinin ən mühüm usüllarının işlənib hazırlanması və tətbiq edilməsidir. Müasir texnologiyanın müxtəlif sahələrində yüksəkdavamiyyətli materiallardan və iri qabaritli kons-truksiyalardan, qurğulardan geniş istifadə edilməsi ilə bağlı bərk cisimlərdə çatların yayılması nəzəriyyəsi xüsusi aktuallıq qazanıb.

Elmi və texnoloji tərəqqi bütün növ məhsulların, o cümlədən konstruk-siyaların, maşınların və qurğuların etibarlılığını və mənbəyini müəyyən edən materialların keyfiyyətinin artırılmasını nəzərdə tutur. Bu vəziyyətdə ən vacib vəzifə bu məhsulların vaxtından əvvəl sıradan çıxmasının qarşısını almaq və nəticədə onların xidmət müddətini artırmaqdır.

Bir çox qurğuların, maşınların, konstruksiyaların dağılmasının təhlili göstərir ki, dağılma, bir qayda olaraq, müxtəlif oyuqların, dəliklərin, yarıqların və digər sıxlaşdırıcıların səthindən başlayır. Dəyişən xarici yüklənmələrin müəyyən rejimlərində fəaliyyət göstərən konstruksiyalarda və qurğularda sabit çatların olması daha az təhlükəlidir və bu cür konstruksiyaların süni surətdə möhkəmləndirilməsi (pərçimlərin, uzununa tirlərin, dəliklərin açılması hesabına çatların və s. artmasının qarşısının alınması) onların xidmət müddətini xeyli uzada bilər.

Çatların əyləcləmə problemi elmi və vacib praktik əhəmiyyət kəsb edir, çünki onun həlli sənayenin demək olar ki, bütün sahələrində müxtəlif maşınların, qurğuların və məhsulların ömrünü uzatmağa, ən əsası qəfil dağılması ilə bağlı fəlakətlərin qarşısını almağa imkan verir.

Çatların katastrofik inkişafının və konstruksiyaların dağılmasının qarşısını almağa imkan verən bir sıra texnoloji üsullar mövcuddur [4]. Bu üsullardan biri konstruksiyaların (plitələrin) sərtlik qabırğaları ilə möhkəm-ləndirilməsidir. Bundan əlavə, istifadə edilən konstruksiyaların çoxu sərtlik qabırğaları və ya ikiqat plitələr ilə möhkəmləndirilmiş plitələrdən hazırlanır. Üst-üstə qoyulan plitələr çox vaxt çatın yayılmasının qarşısını alan məhdudlaşdırıcı kimi quraşdırılır. Bundan əlavə, sərtlik qabırğalarının bərkidirilməsi istismar çatları aşkar edildikdən sonra təmir yamaqları şəklində həyata keçirilə bilər.

Müasir maşınqayırmada (xüsusilə gəmiqayırmada, təyyarə inşaatında) sərtlik qabırğaları ilə möhkəmləndirilmiş və qüsurları (çat, dəlik) zəiflədilmiş yastı konstruksiya (panel) elementləri geniş istifadə olunur. Sərtlik qabırğaları gərginliyin konsentrasiyasını azaltmaq üçün tətbiq olunur. Sərtlik qabır-ğalarının və qüsurların qarşılıqlı əlaqəsinin xarakteri konstruksiyanın (panelin) gərginlikli-deformasiyalı vəziyyətini əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Yastı elementlərin (plitələrin) iş qabiliyyəti bir çox hallarda yastı elementdə çat kimi qüsurların olması ilə qabaqcadan müəyyən edilir. Bu cür qüsurların yaxınlığında, plitənin deformasiyası prosesində gərginliyin yüksək konsen-trasiyası yaranır ki, bu da plastiklik zolaqlarının yaranmasına və inkişafına, paneldə ilkin çatların meydana gəlməsinə və artıq mövcud olan çatların artmasına səbəb olur.

Hal-hazırda, təhlükəsiz olaraq zədələnən konstruksiyaların yaradıl-masını nəzərdə tutan yeni texnikanın müxtəlif məhsullarının layihələn-dirilməsinin yeni prinsipləri tətbiq edilməyə başlamışdır ki, bu da onların istismar müddətini artırmağa imkan verir. Bu zaman metal kompozit material-lara böyük yer ayrılır. Metal matrisa ilə yeni kompozit materialların effektiv tətbiqi üçün vacib sahə konstruksiyanın nazik təbəqəli elementlərində bir istiqamətli kompozitlərdən çatın yayılmasını məhdudlaşdıran stop zolaqların hazırlanmasıdır.

Konstruksiyanın nazik divarlı elementlərində çatların böyüməsini məhdudlaşdırmaq üçün lifli kompozitlərdən hazırlanan bərkidici elementlərin tətbiqinin səmərəliliyini qiymətləndirmək maraq doğurur.

Buna görə, güc yüklənməsi zamanı sərtlik qabırğaları ilə gücləndirilmiş çatları olan plitələr üçün elastiklik və plastiklik nəzəriyyəsinin problemlərinin həlli böyük nəzəri və praktik maraq doğurur.

Sərtlik qabırğalarının çatların inkişafına dair qarşılıqlı əlaqəsi ilə bağlı tədqiqatların icmalı göstərir ki, çatın olması zamanı köndələn sərtlik qabırğaları ilə gücləndirilmiş plitələrin daşıma qabiliyyətinin qiymətləndirilməsi indiyə qədər kifayət qədər inkişaf etdirilməmişdir. Müəlliflərin əksəriyyəti plastik deformasiyaların təsirini və çatların qarşılıqlı əlaqəsini nəzərə almırdılar. Məlum olduğu kimi, çatın kiçik sonlu civarında dağılmadan əvvəl bir sahə meydana gəlir. Həqiqi bərk cisimlərdə, bu zona ümumiyyətlə plastik deformasiyaya uğramış materialla əhatə olunur. Çatların sonundakı plastik deformasiyaların yayılmasının xüsusiyyətləri və detalları onun gələcək inkişafı üçün şərtləri müəyyənləşdirir. Buna görə çatın ətarfında plastik deformasiyanın tədqiq edilməsi dağılma prosesini təsvir etmək üçün vacibdir. Sərtlik qabırğaları ilə gücləndirilmiş plitədə çatın artmasına dair dəliklərin qarşılıqlı təsiri qətiyyən öyrənilməmişdir.

Bununla əlaqədar, plastik deformasiyaların təsiri, çatlar və dəliklərin qarşılıqlı əlaqəsi nəzərə alınmaqla, sərtlik qabırğaları ilə çatın artmasının əyləclənməsi ilə bağlı tədqiqatlara zərurət duyulur.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında İqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.

2. “Azərbaycan Respublikasında İqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə “Bakı şəhəri”, 10 iyul 2021-ci il.

3. Qarabağ və Şərqi Zəngəzurda yol infrastrukturu üçün yeni alınan maşın-mexanizmlər təqdim olunub. http://www.aayda.gov.az/az/news/4337/qarabag-ve-serqi-zengezurda-yol-infrastrukturu-ucun-yeni-alinan-masin-mexanizmleri-teqdim-olunub. 25 avqust 2022-ci il.

4. Финкель, В.М. Физические основы торможения разрушения. – Москва: Металлургия, 1977, 359 с.

Резюме

Яхьяев Дж.Д.

Увеличение срока службы панелей в транспортных средствах, приборах и приборах

Товышение долгосрогности пагемй приборов и аппоратов в транспормных средсмнах. Разработка и применение важнейших методов оценки сопротивления материалов деформации является ключевым вопросом механики деформируемого твердого тела. Теория распространения трещин в объектах приобретает особую актуальность в связи с широким применением высокопрочных материалов и крупногабаритных конструкций и устройств в различных областях современной техники.

Ключевые слова: *транспортно-логистика, панель, конструкция, ребра жесткости, плита*

Summary

Yahyaev J.D.

Extending the Life of Panels in Vehicles, Appliances and Appliances

Development and application of the most important methods of evaluating the resistance of materials to deformation is a key issue in the mechanics of deformable solids. The theory of the propagation of cracks in objects is of special relevance due to the wide use of high-strength materials and large-sized structures and devices in various fields of modern technology.

Key words: *transport-logistics, panel, construction, stiffness ribs, heater.*

DEVELOPMENT PERSPECTIVES OF THE CREATIVE ECONOMY IN AZERBAIJAN

Huseyin Bahruz Akif oglu

Baku Eurasian University

behruzhuseynli@gmail.com

Summary: *In later times, there have been exceptionally genuine changes within the substance and quality of the economy, one of which is the arrangement of the inventive economy, in other words, the inventive industry.Taking under consideration that the commercialization, exchange and mechanical application of the comes about of mental movement in cutting edge society, as well as the bolster of developments, are among the components that straightforwardly influence the dynamic development of the economy, measures have been taken within the course of inventive advancement and the application of modern advances with the comes about of mental action, their commercialization and exchange, and the incitement of innovative developments.*

Key words: *digitization, economy, economic growth, macroeconomics*

The run of inventive items is very wide. In case we see at it in a conventional setting, craftsmanship items, that's , people imagination - crafted works, depictions, music administrations and items, varying media items and administrations, distributing items, photo administrations and items, exhibition halls, libraries, theaters, preservation administrations, design clothing administrations and etc [1]. From the present day setting, inventive items and administrations shaped with the back of innovation - plan items and administrations, online promoting, media administrations, all sorts of administrations and items related to substance, etc. is displayed. There are a number of challenges in precisely deciding the financial control of this region, which is as of now being worked on in this course with state organizations [2].

Within the final 10 a long time, the volume of worldwide inventive merchandise and administrations has nearly multiplied and come to 624 billion US dollars. Beside financial benefits, imaginative generation moreover makes intangible values and guarantees steady improvement arranged towards people [4]. In Azerbaijan, this field has fair gotten to be a portion of industry or economy. The fundamental system and substance of the imaginative economy goes through the security of mental property rights. In the event that

we assess the level of advancement, we must concede that we have a long way to go in terms of progressing legitimate components, making a favorable environment, and applying the hone of regulation organization. That's , there's incredible potential, but favorable conditions for its monetization ought to be created.

It is conceivable to see certain increments within the markers of wage and generation, productivity and work in chosen zones of imaginative movement from the classification of sorts of financial movement (IFNT) record of the State Insights Committee. Salaries from the arrangement of products, execution of works and provision of administrations within the areas of imaginative action are 1 billion 89 million 459.4 thousand manats in 2017, 1 billion 285 million 607.7 thousand manats in 2018, and 1 billion manats in 2019. 732 million 839.8 thousand manats, in 2020 it was 1 billion 368 million 360.3 thousand manats, and in 2021 it was 1 billion 430 million 469.3 thousand manats. Be that as it may, these figures don't speak to the precise picture [7].

Concurring to data we gotten from the Mental Property Office, the real figures are higher. Separated from the impacts of the widespread, The reason for development within the financial headings that are specifically related to the inventive businesses and not specifically related, but advantage from these ranges in their movement, can be credited to the incredible significance given to promoting, promoting, plan and SMM administrations, and the advancement of the tourism industry. The increment in innovative arrangements and the characteristic conditions made for national showcase members within the field of inventive businesses to effectively trade their administrations to worldwide markets can moreover be cited as the reason for the development.

In spite of all this, there have been certain decays within the advancement of inventive businesses, as in all areas, due to the constrained social separation due to the coronavirus widespread. giving awesome significance to plan and SMM administrations can be related with the improvement of the tourism industry. The increment in innovative arrangements and the common conditions made for national showcase members within the field of inventive businesses to effortlessly send out their administrations to worldwide markets can too be cited as the reason for the development. Despite all this, there have been certain decays within the advancement of imaginative businesses, as in all areas, due to the constrained social separation due to the coronavirus widespread, giving awesome significance to plan and SMM administrations can be related with the advancement of the tourism industry.

The increment in innovative arrangements and the normal conditions made for national showcase members within the field of imaginative businesses to effectively send out their administrations to worldwide markets can too be cited as the reason for the development. In spite of all this, there have been certain decreases within the improvement of imaginative businesses, as in all areas, due to the constrained social separation due to the coronavirus widespread.

We must concede that as of now, the need of standard distribution of comprehensive insights on inventive businesses at the national level does not completely permit measuring the advancement forms of this division. Concurring to the report of UNCTAD, in 2014, Azerbaijan's imaginative businesses item moment was 138.04 million, and its send out was 3.95 million US dollars. As a result, a negative exchange adjust of 134.09 million US dollars was shaped on inventive businesses. In 2017, the "Pointers of Social Advancement" report on Azerbaijan was arranged by the European Union to decide the share of inventive businesses within the economy of Azerbaijan. Within the report, the share of inventive businesses in GDP for 2016 was formally 1%, i.e. 374 million US dollars [8].

Diagram. Presentation of goods in creative fields with income obtained from the provision of services (million manats) [7]

In a consider based on the Methodological Rules of the Worldwide Mental Property Organization conducted in 2019, it is detailed that the share of the inventive economy in Azerbaijan's GDP in 2015 was

5.1%. The investigate appears that from 2003 to 2015 (counting 2015), the development of the inventive industry expanded from 220.5 million manats to 2 billion 815.9 million manats, i.e. 13 times. In other data, agreeing to the 2020 pointers of salary and generation, as well as business, within the areas of inventive movement, the salary gotten from the areas of inventive businesses in our nation is around 1.4 billion manats, and its share in GDP is 1.88%. On the off chance that we allude to Kamran Imanov, Chairman of the Administration Board of the Mental Property Office, the share of the imaginative industry in GDP was 3.5 percent in 2010, 5.1 percent in 2015, and 5.3 percent in 2020. We are going see that the share of Azerbaijan's unique ventures in GDP was 1.8 percent in 2010, and 2.9 perce [8].

As can be seen from the diverse figures over, since the inventive businesses are not categorized as an financial square, the figures collected by the IFNT list appear a distinctive picture. Taking under consideration the universal encounter, the hone of collecting point by point factual information in these mechanical areas in Azerbaijan is based on measurements in 7 fundamental regions (economy, instruction, administration, social interest, sex balance, communication and legacy security) and UNESCO's Culture, which incorporates 22 markers in these measurements.

Reorganization ought to be considered in agreement with the Improvement Pointers methodological direct. Proficient organizations and affiliations within the field of inventive businesses in our nation, the nonattendance or shortcoming of exchange affiliations moreover does not permit getting point by point measurable markers and improvement information on the areas. Systematic activities are required to attain comprehensive measurements on the segment. In specific, proficient organizations ought to back the state in these things, and the state, in turn, ought to increment back for the exercises of proficient organizations.

In common, we are seeing a genuine quality and substance alter within the present day labor advertise. As of now, a number of callings are taking off the showcase and being supplanted by unused callings, and this prepare straightforwardly influences instructive processes [6]. In this respect, it is essential to carefully monitor the forms within the universal labor advertise, and it is required to construct future arranging in like manner. Looking at European insights, there was a add up to increment of more than 800,000 in inventive business between 2011 and 2017, from 7,852 million to 8,658 million.

Considering the changes and advanced change of the final five a long time, this pointer has expanded indeed more. On the off chance that we see at the national level, agreeing to the markers of 2020, 88,000 enlisted individuals and person business visionaries worked in inventive businesses in our nation, and in 2021, this figure was 98,806 [7] this can be it is an gotten marker of imaginative exercises and the ranges of financial action related to it. On the off chance that we include to this the individuals working in imaginative callings in non-creative segments, we will see that there's an increment within the share of GDP and benefit markers together with the work markers. In arrange for this to be conceivable, it is essential to actualize the hone of collecting measurements based on the worldwide involvement I specified. In this case, it is fundamental to create national rules utilizing worldwide involvement with the interest of important teach.

Another most vital issue is the change within the demeanor of today's youth. In other words, youthful individuals all over the world have begun to prefer freelance work. They not offer their brains and administrations for a month to month compensation. day by day and for a shorter period. Young people are building a unused self-employment framework within the labor market with advanced innovative instruments. It is unavoidable to consider this figure within the areas of financial approach

Reference

1. Cristiana P., Decisions Making Processes in Organizations: The Rational versus the Practical, in "Ziarul Financiar", April 2019
2. Florida, R., The Rise of the Creative Class, New York, Basic Books, 2012
3. John H., The Creative Economy. How people make money from ideas, The Penguin Press, 2018.
4. Kaoru N., Urban Development needs Creativity. How creative industries can affect urban areas, in "Development Outreach. Putting knowledge to work for development", November 2020, World Bank Institute, p. 13-16
5. Michael P., The Competitive Advantage of Nations, Macmillan Press, 2020, Chapter 10, p. 645-649
6. Ryan, P., The Creative Economy: Creative Clusters Key to Knowledge-based Economy, in Marubeni Economic Report Tokyo, Marubeni Corporation Economic Research Institute, 2013
7. https://www.stat.gov.az/news/macroeconomy.php?page=1
8. https://www.copat.gov.az/

Xülasə

Hüseyn B.A.

Azərbaycanda kreativ iqtisadiyyatın inkişaf perspektivləri

Son dövrlərdə iqtisadiyyatın məzmunu-keyfiyyəti ilə bağlı çox ciddi dəyişikliklər baş vermişdir ki, bunlardan biri də kreativ iqtisadiyyatın, başqa sözlə, yaradıcı sənayenin təşəkkülüdür. Müasir cəmiyyətdə əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması, transferi və sənaye tətbiqinin, həmçinin innovasiyalara dəstək verilməsinin iqtisadiyyatın dinamik inkişafına birbaşa təsir edən faktorlardan olduğu nəzərə alınmaqla innovativ inkişafa əqli fəaliyyət nəticələrinə əsasən yeni texnologiyaların tətbiq edilməsinin, onların kommersiyalaşmasının və yerdəyişməsi, texnoloji innovasiyaların stimulverici istiqamətlərində tədbirlər həyata keçirilmişdir.

Açar sözlər: *rəqəmsallaşma, iqtisadiyyat, iqtisadi artım, makroiqtisadiyyat*

Резюме

Гусейн Б.А.

Перспективы развития креативной экономики в Азербайджане

В последнее время произошли очень серьезные изменения в содержании и качестве экономики, одним из которых является формирование креативной экономики, иначе говоря, креативной индустрии. Принимая во внимание, что коммерциализация, передача и промышленное применение результатов интеллектуальной деятельности в современном обществе, а также поддержка инноваций относятся к числу факторов, непосредственно влияющих на динамичное развитие экономики, приняты меры в направлении инновационного развития и применения новых технологий с результатами интеллектуальной деятельности, их коммерциализации и трансферта, а также стимулирования технологических инноваций.

Ключевые слова: *цифровизация, экономика, экономический рост, макроэкономика*

IV BÖLMƏ

BİZNES VƏ TƏHSİL. İQTİSADİYYATIN, MENECMENTİN VƏ MALİYYƏNİN AKTUAL MƏSƏLƏLƏRİ

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İNNOVATİV İNKİŞAFA ƏSASLANAN FƏALİYYƏTİ

Bağırova Nuranə Camaləddin qızı
Sumqayıt Dövlət Universiteti
rzayeva-nurana@mail.ru

Xülasə: *Müəssisələrin iqtisadi fəaliyyəti onların elmi-texniki tərəqqinin naliyyətlərindən səmərəli istifadəni tələb edir. Müasir dünyada innovativ ideyalara əsaslanan istehsal və xidmətin təşkili müəssisələrin gəlirlərinin artmasına və istehlakçıların daim yenilənən tələbatlarının ödənilməsinə uyğun fəaliyyət göstərməni formalaşdırır. Burada sənaye müəssisələrində texnoloji ardıcıllığa uyğun olaraq istehsalın təşkili, sənaye parklarının yaradılması kimi müəssisə strukturlarının formalaşması xüsusi əhəmiyyətə malik hal hesab olunur.*

Açar sözlər: *innovasiya, müəssisə, texnoloji proses, istehsal, xidmət, effektivlik*

Müasir dünyada istehsal fəaliyyətinin tənzimlənməsi müxtəlif növ innovativ yanaşmaların nəticəsi olaraq istiqamətlənir. Vahid dövr üzrə müəssisənin maliyyə təsərrüfat fəaliyyəti səmərəli istehsalın təşkili nəticəsində müəyyən olunur. İstehsal texnoloji prosesin ardıcıl qaydada hər bir mərhələsində yeni tələblərə uyğun avadanlıqlardan istifadə əsasında məhsuldarlığın artması formalaşır. Uzun illər vahid təsərrüfatçılıq əlaqələrinə uyğunlaşan müəssisələr müstəqil maliyyə təsərrüfat fəaliyyətlərini müəyyən edərkən tam olaraq dəyişikliklərlə müşayət olunan işlərin və xidmətlərin yerinə yetirilməsi məcburiyyətində qalmışdır. Ölkəmizdə iri, orta və kiçik müəssisələrin fəaliyyəti yeni istehlakçı tələbatlarına uyğun təmin edilir. Bu əsasda ehtiyatların səfərbər edilməsi müəssisələrdən daha yüksək texnoloji və tələbat səviyyəsinə uyğun fəaliyət tələb edir. Belə bir yanaşma məhz innovativ xaraktet daşıyan istehsal, texnoloji və təşkilatı fəaliyyətin birgə tətbiqinə əsaslanır.

Dünya təcrübəsinə diqqət yetirdikdə elmi nəticələrin istehsala tətbiqini əhatə edəcək yeni innovativ ideyaların əsasən Fransa, Avstriya, Yaponiya, Koreya, Portuqaliya kimi ölkərin timsalında daha aydın şərh edilə bilər. XV əsrdən başlayaraq, xüsusən Niderlanda, Böyük Britaniyada, Fransada əl əməyinin maşınlı istehsala keçidi tələbatın ödənilməsi sürətini artırdı. Bununlada sənaye istehsalını xarakterizə edəcək manufakturalar inkişaf etməyə başladı. Hal- hazırda maddi istehsalın təşkili ölkələr tərəfindən beynəlxalq əməkdaşlığa əsaslanacaq iqtisadi əlaqələrə uyğun inkişaf edir. İnnovativ fəaliyyət dedikdə, biz ilk növbədə yeniliklərin yaradılması, mənimsənilməsi, yayılması və istifadəsini başa düşürük. Bundan əlavə, innovasiya fəaliyyəti-elmi, texnoloji, təşkilati, maliyyə və kommersiya kompleksi kimi izah olunur. Eyni zamanda, nomenklatura genişlənib yeniləndikcə, məhsulların keyfiyyəti yüksəlir (mallar, xidmətlər), onların istehsal texnologiyaları təkmilləşdirilir və müvafiq nəticələr əldə edilir. İstehsal olunmuş məhsulların xarici bazara çıxışı tam olaraq onların rəqabətqabiliyyətliliyi əsasında təmin edilir.

Dünyada ölkəmizin inkişafı üçün iqtisadiyyatı müəyyən edən amillərin və mənbələrin rolunda mühüm dəyişikliklər olmuşdur. İnnovativ iqtisadiyyatda resur, sənaye iqtisadiyyatında olduğu kimidir. Belə ki, maddi istehsal amilləri deyil, əmək strukturu və əqli əməyin payı kəskin şəkildə artır. Dünya iqtisadiyyatının müasir vəziyyəti göstərir ki, hansı ölkələrdə innovativ ideyalar əsasında fəaliyyət inkişaf etdirilirsə orada, əhəmiyyətli rəqabət üstünlüyü əldə edilir. Bu da özünü tələbatı yüksək olan həm intellektual məhsullarda, həm də adi mal və xidmətlər istehsalında təcəssüm etdirir. Azərbaycanda ağır sənaye müəssisələrindən fərqli olaraq orta və kiçik müəssisələr tərəfindən məhsul istehsalının artırılması müşahidə edilir. Bunun əsas səbəbi əhali tələbatının gündəlik istehlak mallarına olması zərurətindən yaranır. Ölkəmizdə yeni innovativ yanaşma xüsusən bu səviyyədə olacaq istehsal müəssisələrinin inkişafını xarakterizə edir. Belə ki, innovasiyaların idarə edilməsi iqtisad elminin və peşəkarlığın müstəqil sahəsidir.

Tətbiqi və nəzəri problemlərin həlli zamanı sənaye müəssisələrinin inkişafı və innovasiyaların gücləndirilməsi ilə əlaqədar olaraq yaranan məsələlərin həlli üçün prosesdən və kompleks yanaşmadan istifadə olunur. Həmçinin ümumi elmi-tədqiqat metodları, analiz və sintezi üsulları, statistik və iqtisadi

təhlil, işçi fərziyyələrinin formalaşdırılması və sınaqdan keçirilməsi üsulları, sənaye iqtisadiyyatı metodları, innovativ inkişaf nəzəriyyələri, innovativ idarəetmə, konkret sxemlərin işlənməsi və tətbiqi üsullarından istifadə edilmişdir. İnnovasiyaların planlaşdırılması və idarə edilməsi əsasən proqnozlaşdırılma üsulları olaraq vəziyyətlərin simulyasiya modelləşdirilməsində tətbiq edilir.

Sənaye müəssisələrinin inkişafı proseslərinin öyrənilməsi üçün konseptual əsasların sistemləşdirilməsi sənaye müəssisələrinin inkişafına sistemli, tərkib, tamamlayıcı, struktur, informasiya, simulyasiya-optimallaşdırma, nəzarətçi yanaşmaların inteqrasiyası mövqeyindən yanaşmanı formalaşdırır. Bu yanaşma sənaye müəssisələrinin təsərrüfat-istehsal sisteminin keyfiyyətcə yeni vəziyyətinə keçidini təmin etməyə imkan verir və onların yenilənməsi və müxtəlif növ ekoloji çağırışlara cavab vermə imkanlarını genişləndirir, müəyyən iqtisadi tarazlığın və minimum riskin qorunmasına kömək edir. Bazar transformasiyaları ilə əlaqədar yerli sənayelərdə iqtisadi şəraitdə baş verən dinamik dəyişikliklər sənaye müəssisələrinin inkişafı və onların fəaliyyətinin innovativ sahələrinin təkmilləşdirilməsi üçün yüksək keyfiyyətli, elmi əsaslı sistemin formalaşmasına şərait yaradır.

İnnovasiya metodlarının seçilməsində yaradıcılıq və təşkilatçılıq əsas məsələdir. Korporativ proseslər, həmçinin də innovasiyalar işçi qüvvəsinin köməyi ilə həyata keçirilir. Hal- hazırda sənaye kompleksi inkişaf sferasında balansızlıq, məhsulların zəif rəqabətliliyi və elmi işlərin aşağı səviyyədə olması ilə xarakterizə olunur. Bu proses eyni zamanda qabaqcıl ölkələrin sənaye inkişafında da nəzərə çarpır. Bu baxımdan hazırda texnologiyanın yerinə yetirilmə xüsusiyyətlərinə uyğun olaraq yenilənməni sürətləndirməklə, biliklərinin əldə edilməsi ilə innovativ cəmiyyət formalaşır. Elmi, texniki və sənaye inkişafına görə, elm tutumlu məhsulların dünya bazarında Rusiya Federasiyasının payı - 0,3-0,5% səviyyəsində, Almaniyanın payı 17%, Yaponiyanın - 30%, ABŞ-ın payı isə 36% təşkil edir.

Hal-hazırda Azərbaycan Respublikasında olan sənaye sahələrində yüksək texnologiyalara və müasir avadanlıqlara ehtiyac yaranmışdır. Ölkənin ixracyönümlü sənaye sahələrindən kimya və neft-kimya kompleksində olan müəssisələrdə innovativ inkişafın intensivləşməsi nəticəsi olaraq Sumqayıt sənaye parkı yaradılmışdır. Burada müasir və yüksək texnologiyalı müəssisələrin yaradılması innovativ yanaşmanı əks etdirir.

İndiki şəraitdə innovativ inkişaf tədbirlərinin səviyyəsini aktivləşdirmək və innovativ fəaliyyətin intensivləşdirilməsini təmin etmək üçün effektiv tədbirləri gücləndirmək məqsədəuyğun hesab olunur.

Ədəbiyyat

1. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416 səh.

2. Əhmədov İ. B. İnnovativ cəmiyyət və təhsil. ―Ölkə iqtisadiyyatının inkişafında elmi-tədqiqat informasiya sisteminin rolu. II Beynəlxalq elmi-praktiki konfransın materialları. ETİ- 50‖. Bakı, 2008, səh. 359-365.

3. A.H.Tağıyev. İnnovasiya (nəzəri və tətbiqi səpkidə) I cild Bakı-Təknur. 2018, 552 səh.

4. Гамидов Г. С., Исмаилов Т. А., Туккель И. Л. Инновационная экономика: стратегия, политика, решения. — СПб.: Политехника, 2007 . 356 с.

5.Образование и наука в XXI веке. VII Международная конференция. – София, 2011. – Т. 5. – С. 70-73.

6. Габибов Ф.Г. Управление научно-техническими инновациями. Баку - 2003, 255 с.

7. www.kitab.az

Резюме

Багирова Н.Дж.

Деятельность промышленных предприятий на основе инновационного развития

Хозяйственная деятельность предприятий требует эффективного использования достижений научно-технического прогресса. В современном мире организация производства и обслуживания на основе новаторских идей формирует деятельность по увеличению доходов предприятий и удовлетворению постоянно обновляющихся запросов потребителей. Здесь особое значение придается организации производства на промышленных предприятиях по технологической последовательности, формированию предпринимательских структур типа создания индустриальных парков.

Ключевые слова: *инновация, предприятие, технологический процесс, производство, услуга, эффективность*

Summary
Bagirova N.C.
Activity of Industrial Enterprises on the Basis of Innovative Development

The economic activity of enterprises requires the effective use of the achievements of their scientific and technological progress. In the modern world, the organization of production and service, based on innovative ideas, forms activities to increase the income of enterprises and meet the constantly updated needs of consumers. Here, special importance is attached to the organization of production at industrial enterprises according to the technological sequence, the formation of business structures such as the creation of industrial parks.

***Key words**: innovation, enterprise, technological process, production, service, efficiency*

RESPUBLİKAMIZIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN ROLU

Behbudova Könül Elman qızı, Nəsirova Aysel Nofəl qızı, Seyfullayeva Türkan Rasim qızı
Sumqayıt Dövlət Universiteti
kbehbudova28@gmail.com ; aysel.nesirli.1999@mail.ruəvəv ; tseyfullayeva9@gmail.com

***Xülasə:** Məqalədə sahibkarlıq fəaliyyəti milli iqtisadiyyatın sosial-iqtisadi inkişafına təkan verən sahə kimi araşdırılır. Burada sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi əsaslı şəkildə göstərilir. Statistik məlumatlara əsasən sahibkarlıq fəaliyyəti illər üzrə müqayisə edilmişdir. Respublikamızın sosial-iqtisadi inkişafına təkan verən sahibkarlıq fəaliyyətinin ölkə ərazisində inkişaf perspektivlərini artırmaq üçün bir sıra təkliflər irəli sürülür.*

***Açar sözlər:** sahibkarlıq fəaliyyəti, sosial-iqtisadi inkişaf, iqtisad , dövlət proqramları, dövlət dəstəyi*

Sahibkarlıq fəaliyyəti əsas məqsəd kimi əmlakın istifadəsindən, malların satışından, iş görməkdən və ya xidmətlər göstərməkdən mənfəət əldə etmək məqsədi güdən şəxsin öz riski ilə apardığı müstəqil fəaliyyətdir. Sahibkarlıq fəaliyyəti həmişə perspektivlidir və buna görə də müəyyən risklərə məruz qalır. Sahibkarlığın inkişafı ölkənin milli iqtisadiyyatının hərəkətverici qüvvəsi hesab olunur. Sahibkarlıq innovasiyalar, məşğulluq və kapitalın formalaşması üçün geniş faydalar təmin edən iqtisadi fəaliyyətin əsas hərəkətverici amillərindən biridir.

Sahibkar biznes modelini inkişaf etdirən, yeni bir işə başlamaq üçün lazımi fiziki və insan kapitalını əldə edən, onu fəaliyyətə keçirən və onun uğur və ya uğursuzluğuna görə məsuliyyət daşıyan şəxsdir. Sahibkar peşəkar menecerdən onunla fərqlənir ki, o ya öz resurslarını yatırır, ya da xarici mənbələrdən kapital cəlb edir və bununla da, uğursuzluğun günahını öz üzərinə götürür. Müvəffəqiyyət halında mükafatlarını alır, halbuki sonuncu və ya peşəkar menecer pul qarşılığında ona tapşırılan işi görür. Başqa sözlə, sahibkar yeni müəssisələrin yaradıcısı olmaqla yanaşı risk edən və yenilikçidir. Onlar yenilikçi və məşğulluğu təmin edən olduqları üçün şöhrət qazanıblar və cəmiyyətə fayda verirlər. Sahibkarlar xalq üçün hər cür imkanlar qazandırdığı, həvəsləndirdiyi və yaratdığı üçün milli sərvət hesab olunur. Böyük sahibkarlar düşüncə tərzimizi, işimizi və yaşamağımızı dəyişə bilər. Sahibkarlıq müəssisələri gənclər üçün məşğulluq imkanları yaradır. Onların təkcə iqtisadi artıma deyil, həm də cəmiyyətin ümumi inkişafına müsbət təsir etdiyini söyləmək düzgün olardı.

Sahibkarlar iqtisadi artıma təkan verir. Onların məhsul və xidmətləri ölkə iqtisadiyyatının yüksəlişinə çox müsbət təsir göstərir. Onlar öz bizneslərinə bum verməklə yanaşı, onlardan asılı olan digər biznesləri də stimullaşdırırlar. Sahibkarlar bazarda yeni təşəbbüsləri dəstəkləyir və məşğulluq imkanları yaradırlar. Sahibkarlıq daha çox yerli icmalara diqqət yetirir. Onlar yerli əhali və yerli icmalar üçün sərvət yaradırlar. İlkin olaraq onlar öz bizneslərini yerli səviyyədə uğurlu etməyi hədəfləyirlər. Onlar da öz müştərilərini buna uyğun yaradırlar. Bu, sahibkarların digər resurslardan asılı olduğu digər kiçik müəssisələrə də inkişaf etmə imkanlar verir.

Sahibkarlıq təşəbbüsü yerli səviyyədə uğur qazandıqdan sonra onlar genişlənməyə başlayırlar. Əgər onların böyük ideyası varsa, onlar da xarici sərmayələri cəlb edə və beləliklə, yerli bazarları yüksəldə bilərlər. İnnovasiyalar ölkənin işçi qüvvəsinin strukturunu sürətlə dəyişir, köhnə, praktiki montaj işləri azalır və müxtəlif peşələr artıq mövcud olmur. Sahibkarlar bu irəliləyişləri izləyir və boşluqları doldurmaq üçün addım atırlar. Onlar başlanğıc iqtisadiyyatın yüksəlişində yeniliyin gətirdiyi bəzi peşələrin mənfi nəticələrini və bədbəxtliklərini görürlər, lakin yeni səhnədə açılışlar hiss edirlər. Buna uyğun olaraq sahibkarlar inkişaf edir. Onlar innovasiyaya təkan verən yeni maddələr yaradırlar. Sahibkarlıq bazar vasitəsilə iqtisadi artım və

inkişafı dəstəkləyir. Sahibkarlıq fəaliyyətinin inkişafı inkişaf etməkdə olan ölkələrə (İEOÖ) daha çox təsir edir. Sahibkarlığın inkişafı hər bir ölkənin sosial-iqtisadi inkişafının təminatıdır.

Qərb ölkələrinin təcrübəsinə əsasən deyə bilərik ki, sahibkarlığın inkişafı dövlətin daimi diqqət və qayğısı sayəsində mümkündür. Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində tədbirlərin görülməsi dahi lider Heydər Əliyev tərəfindən əsası qoyulmuşdur. Sahibkarlığın inkişafı yönündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı ilə iqtisadi inkişaf strategiyası davamlı olaraq yerinə yetirilir.

Respublika iqtisadiyyatının fasiləsiz inkişafının təmin edilməsi, həmçinin regionların iqtisadi inkişafının sürətləndirilməsi, sahibkarlıq fəaliyyətinin yerinə yetirilməsi üçün əlverişli mühitin yaradılmasında əsas amil olan sahibkarlığa dövlət maliyyə köməkliyi mexanizminin yaradılması Respublikamızın Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu siyasətin əsasında formalaşmışdır.

Xaricdən əksər investisiyaların cəlb edilməsi, eləcə də ölkənin ixrac qabiliyyətinin artırılması kimi əsas məqsədlərin həyata keçirilməsinə istiqamətlənmiş, 2003-cü ildə təsis edilən Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), sahibkarlığın inkişafına təkan verən 1992-ci ildə təsis edilmiş SKMF-nın hüquqi bazası əsasında təsis edilmiş, Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyevin 31.07.2018 tarixli Fərmanı ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsinin yaradılması KOB-un inkişafını dəstəkləyən, sahibkarlara bir sıra dəstək və xidmətlər göstərən, Prezident cənab İlham Əliyevin 28.12.2017 il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının KOBİA-nın təsis edilməsi, sahibkarlığın inkişafına təkan verən bir sıra qanunların verilməsi, bir sıra dövlət proqramlarının, eləcə də sahibkarlığın inkişafı sahəsində aparılmış islahatlar və icazələr sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyinin bariz nümunəsidir. [4]

Cədvəl 1.

2019-2020-ci illərdə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı

Göstəricilər	2019			2020		
	Cəmi	o cümlədən		Cəmi	o cümlədən	
		Hüquqi şəxslər	Fərdi sahibkarlar		Hüquqi şəxslər	Fərdi sahibkarlar
Sahibkarlıq subyektlərinin ümumi sayı	271304	31196	240108	316370	33450	282920
Mikro sahibkarlıq subyektlərinin sayı	262622	22514	240108	307717	24797	282920
Kiçik sahibkarlıq subyekti olan müəssisələrin sayı	5956	5956	-	5943	5943	-
Orta sahibkarlıq subyekti olan müəssisələrin sayı	2726	2726	-	2710	2710	-

Dövlət Statistika Komitəsinin 2019-2020-ci illərdə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı haqqında verdiyi məlumata nəzər salsaq, 2020-ci ildə sahibkarlıq subyektlərinin ümumi sayının 45 066 qədər artdığını görə bilərik. Bu artım da Covid-19 pandemiyasının ölkə ərazisində yayılması ilə əlaqədar olaraq mikro sahibkarlıq subyektlərinin sayının artması hesabınadır. [3]

Ümumiyyətlə, son zamanlarda respublikamızda sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli perspektivlər var. Böyük Qarabağ zəfərindən sonra Azərbaycanda yeni və tarixi sosial-iqtisadi prioritetlər və strateji vəzifələr formalaşmışdır. Erməni hərbi təcavüzünün nəticəsində dağıdılmış şəhər və kəndlərin, yaşayış məntəqələrinin sosial-iqtisadi reabilitasiyasının təmin edilməsi, ərazilərin inkişafının sürətləndirilməsi və bütövlükdə Qarabağın dirçəldilməsi vəzifələrinin öhdəsindən gəlmək lazımdır. İşğaldan azad olunmuş ərazilərdə daha da təkmilləşdirilmiş və səmərəli formada əlverişli biznes mühiti, KOS-un formalaşması və inkişafı təmin olunmalı və bununla əlaqədar kompleks tədbirlərin görülməsi təmin edilməlidir. Əlbəttə dövlət tərəfindən bu işlərə start verilmiş və geniş miqyaslı layihələrin icrasına başlanmışdır. Hesab edirik ki, bu proseslərdə maliyyə mənbələrinin və investisiya resurslarının yatırılması mənbələrinin diversifikasiyalaşdırılması vacib rol oynayır. Yəni, bu proseslərə dövlətlə yanaşı özəl sektor subyektlərinin, xarici investisiya fondlarının və qurumlarının, maliyyə-kredit holdinq və kompaniyalarının cəlb olunması mümkündür. Düşmən tapdağından azad edilmiş ərazilərdə zəngin xammal ehtiyatlarının olması göstərir ki, burada sahibkarlığın müxtəlif mülkiyyət formalarında geniş şəbəkəsinin təsis edilməsi üçün əlverişli şərait mövcuddur. Bu resurslardan səmərəli istifadə edərək sahibkarlıq fəaliyyətini inkişaf

etdirmək, Qarabağda dayanıqlı, ardıcıl, daimi iqtisadi, eləcə də sosial inkişafı təchiz etmək bu gün qarşımızda duran ən öncül vəzifələrdəndir.

Milli iqtisadiyyatın sosial-iqtisadi inkişafına təkan verən sahibkarlıq fəaliyyətinin ölkə ərazisində inkişaf perspektivlərini artırmaq üçün aqroparklar, iqtisadi zonalar, sənaye parkları, sanaye məhəlləri yaradılmalıdır. Eləcə də yeni sahibkarlıq fəaliyyəti həyata keçirən sahibkarlara güzəştli vergilər tətbiq olunmalı, onlar əksər vergilərdən tam, ya da qismən azad edilməlidirlər, kömək məqsədilə subsidiyalar verilməli və bunun kimi digər dövlət dəstəyi tədbirləri artırılmalıdır.

Ədəbiyyat

1. Niftullayev V.M. "Sahibkarlığın əsasları". Bakı: Zaman, 2002, 609 s.
2. Vəliyev T.S. , Babayev Ə.P. , Meybullayev M.X. İqtisadi nəzəriyyə. Bakı: Çaşıoğlu, 2001, 692 s.
3. https://www.stat.gov.az/
4. https://e-qanun.az/framework/3849

Резюме

Бейбутова К.Е., Насирова А.Н., Сейфуллаева Т.Р.

Роль предпринимательской деятельности в социально-экономическом развитии Азербайджанской Республики

В статье исследуется предпринимательская деятельность как сфера, способствующая социально-экономическому развитию национальной экономики. Здесь государственная поддержка предпринимательской деятельности проявляется принципиально. На основе статистических данных сравнивалась предпринимательская активность по годам. Выдвинут ряд предложений по повышению перспектив развития предпринимательской деятельности в стране, что способствует социально-экономическому развитию Азербайджанской Республики.

Ключевые слова: *предпринимательство, социально-экономическое развитие, экономика, государственные программы, государственная поддержка*

Summary

Behbudova K.E, Nasirova A.N, Seyfullayeva T.R.

The Role of Entrepreneurial Activity in the Socio-Economic Development of the Republic of Azerbaijan

The article examines entrepreneurial activity as a sphere contributing to the social and economic development of the national economy. Here, the state support of entrepreneurial activity is shown principally. Entrepreneurial activity over the years was compared based on statistical data. A number of proposals have been put forward to improve the prospects for the development of entrepreneurial activity in the country, which contributes to the socio-economic development of the Republic of Azerbaijan.

Key words: *entrepreneurship, social-economic development, economy, state programs, state support*

NEFT-QAZ SƏNAYESİNDƏ İNNOVATİV FƏALİYYƏTİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

Bədəlov Mayis Məmməd oğlu

Azərbaycan Memarlıq və İnşaat Universiteti

mayis.badalov@gmail.com

Xülasə: *Yeni iqtisadi mühit iqtisadiyyatda rəqabət amilini ön plana çıxarır. Belə ki, ölkə iqtisadiyyatının əsasını təşkil edən neft sənayesi beynəlxalq proseslərin tərkib hissəsi kimi müxtəlif sahələr üzrə rəqabət mühitində innovasiyalardan istifadəni intensivləşdirmişdir. Müvafiq şəraitdə innovativ fəaliyyətin təşkili və idarə edilməsi ilə əlaqədar fundamental elmi tədqiqatlar innovasiyanın neft-qaz sənayesində tətbiqi üçün mühüm əhəmiyyətə malikdir. Bu baxımdan məqalədə həm beynəlxaq təcrübənin mühüm istiqamətləri, həm də ölkədə fəaliyyət göstərən neft şirkətlərinin fəaliyyətinin zəruri istiqamətləri tədqiq edilmişdir.*

Açar sözlər: *innovasiya, qazma, hasilat, emal, elmi-texniki potensial.*

Müasir iqtisadi şəraitdə neft-qaz sektorunun inkişafına təsir edən ən başlıca cəhət texnoloji innovasiyaların əldə edilməsi ilə yanaşı onların səmərəli tətbiqidir. Səmərəliliyə nail olunması əsasən

innovasiya menecmentinin uğurundan asılıdır. İnnovativ idarəetmə neft və qaz sənaye müəssisə və şirkətlərindən müxtəlif imkan, eləcə də vasitələrin müəyyən edilməsi və keyfiyyətinin yüksəldilməsini tələb edir.

Neft və qaz yataqlarında kəşfiyyat, hasilat və logistika kimi əhəmiyyətli proseslərdə qarşıya qoyulan mühüm tələblərdən biri innovativ vasitənin formalaşdırılması, eləcə də tətbiqi prosesində investisiyaların mənfəətliliyə səbəb olması imkanlarının qiymətləndirilməsidir [2, s. 429]. İnvestisiyalar yeni hasilat mərhələsində, yəni daha mürəkkəb şəraitə malik relyefdə, o cümlədən çətin iş şəraitində müxtəlif standart və normaların tələblərinə riayət etməklə innovasiya yolu ilə məqsədə çatmaqda mühüm rol oynayır.

Belə ki, xüsusilə su hövzələrinin son dərəcə dərin hissəsinin kəşfiyyatı və neft hasilatı infrastrukturunun inkişafı texnoloji innovasiya tətbiq edilmədən mümkün deyil. Yeni texnologiyalara iri həcmli investisiyalar son dövrlərdə neft kəşfiyyatı və hasilatında inqilaba səbəb olmuşdur. Daha müasir kəşfiyyat üsulları hava ilə və ya daha çox peyk fotoşəkillərindən istifadə etməklə həyata keçirilən səth və landşaft xüsusiyyətlərinin təhlili, neftin, suyun və qazın hərəkəti nəticəsində yerin cazibə sahəsindəki dəyişiklikləri ölçən cazibə sayğacları, yerin neft, su və ya qazın hərəkəti nəticəsində meydana gələn maqnit sahəsindəki dəyişiklikləri ölçən maqnitometrlər, karbohidrogeni müəyyən edən elektron ölçüləri olan "sensorlar" və nəhayət, seysmologiya vasitəsilə, səthdə əmələ gələn, əks olunan səs dalğaları haqqında məlumat toplayaraq yeraltı təbəqələrin xəritələşdirilməsi qeyd edilə bilər.

Yuxarıda sadalanan innovativ imkanlardan əlavə neft-qaz sənayesində hasilata çəkilən xərclərin minimumlaşdırılması məqsədilə bir sıra istiqamətlərdə səmərəli fəaliyyətlərin reallaşdırılması tələb olunur.

Ümumiyyətlə, müəyyənləşdirilən fəaliyyətlərin reallaşdırılması xərclərin optimallaşdırılması yolu ilə gəlirliyin yüksəlməsinə, eləcə də səmərəliliyə səbəb olur. Azərbaycan iqtisadiyyatının davamlı inkişafının təmin olunmasında neft sektorunun innovativ əsaslarda yenidən qurulması və təkmilləşdirilməsinə yönəlmiş layihələrin SOCAR tərəfindən icrası mühüm əhəmiyyətə malikdir [5]. Qeyd edək ki, şirkətin innovativ potensialı, innovativ fəaliyyətin həyata keçirilməsi üçün tələb olunan mənbələr toplusudur. Bu cür mənbələrə, xüsusən, elmi-texniki, texnoloji, infrastruktur, informasiya, maddi və istehsal, maliyyə, kadr, intellektual, təşkilati və idarəçilik və s. daxildir.

Digər iri neft şirkəti olan BP də Azərbaycanda innovativ fəaliyyətin səmərəli təşkilinə çox ciddi yatırımlar edir. Belə ki, risklərə qarşı önəmli addımların atılması istiqamətində fəaliyyətlərə təkan olaraq informasiyaların təhlili prosesi daha geniş sferada tətbiq olunmağa başlamışdır. İnformasiyaların mexaniki toplanılması yerinə, daha böyük həcmdə informasiyaların təhlil edilməsi məqsədilə texnoloji imkanlardan, eləcə də proqram təminatı vasitələrindən istifadə edilməyə başlanılmışdır. Real-zaman rejimində əldə olunan informasiya trendlərinə əsasən məlumat formalaşdırılması potensial yayınma hallarını daha tez müəyyən etmək qabiliyyətini yüksəldir [1, s. 22].

Neft-qaz kompleksində istifadə olunan innovasiyalar təkcə müəssisələrin son maliyyə göstəricilərinə deyil, bütövlükdə milli iqtisadiyyatın vəziyyətinə təsir göstərir. Bu sahədəki innovativ fəaliyyətlər yalnız xammalın çıxarılması üçün yeni üsulların işlənib hazırlanmasına deyil, həm də istehsal proseslərinin təhlükəsizliyinin artırılmasına yönəlib. İnnovasiyanın səmərəli istifadəsinə yeni texnoloji həllərin axtarışı, qabaqcıl idarəetmə sistemlərinin yaradılması və avadanlıqlara texniki xidmət daxildir.

Neft və qaz sənayesində şirkətlər əsasən ekstremal şəraitdə fəaliyyət göstərir. Belə ki, Xəzər dənizində hava şəraitində çox vaxt gözlənilməz dəyişikliklər olduğu hallarda dəniz platformalarında aktiv neft hasilatı əksər hallarda davam etdirilir. Elmi-texniki imkanlardan istifadə mürəkkəb hasilat proseslərində təhlükəsizliyi təmin etməyə imkan verir. Həmçinin qazma platformalarının dayanıqlığını yaxşılaşdırmaq üçün fiber-optik sensor sistemləri fəal şəkildə inkişaf etdirilir [6].

Enerji strategiyasında dövlətin səmərəliləşdirici tədbirləri neft-qaz kompleksi də daxil olmaqla bütün sahələrə texnoloji dəstəyin modernləşdirilməsini nəzərdə tutur. Bu proqramın bir hissəsi olaraq, istehsal xərclərini minimuma endirmək üçün hər il bu sahədəki müəssisələrin işində, o cümlədən nəqletmə prosesində resurslara qənaət edən və enerjiyə qənaət edən texnologiyalar tətbiq olunur.

Neft-qaz kompleksindəki logistika zənciri neft və neft məhsullarının, qazın nəqlini təmin edir. Müasir neft və qaz sənayesinin inkişafının prioritet istiqamətləri bu cür xammalın son nöqtəyə çatdırılması zamanı yarana biləcək xərcləri innovativ imkanlarla azaltmaqdır. Bu vəziyyətdə istər-istəməz ortaya çıxan xərclər problemi hərtərəfli şəkildə həll edilməlidir. Dövlət neft boru kəmərlərinin keyfiyyətini yaxşılaşdırmaq üçün texnologiyalar tətbiq etməli və xammal bazasının saxlanılması üsullarını modernləşdirməlidir.

Neft-qaz kompleksinin logistikası onun iqtisadi komponenti ilə birbaşa bağlıdır. Neft istehsal edən neft emalı zavodlarının işinin səmərəliliyi nəqliyyat problemlərinin hansı dərəcədə uğurla həll edilməsindən asılıdır. Beləliklə, sənayedə innovasiyaların axınına, o cümlədən iri neft-qaz müəssisələrin innovativ texnologiyalar tədarükünə ciddi nəzarətin təmin edilməsi üçün tədbirlər görülməlidir.

Azərbaycanın neft-qaz sənayesinin iqtisadi imkanları elmi-texniki inkişafın, innovasiyanın təkmilləşdirilməsində böyük əhəmiyyətə malikdir. Müvafiq potensial, həmçinin səmərəli istifadə olunmaqla neft-qaz sənayesinin texnoloji yenidən qurulmasına, sahəyə aid elmi yanaşmaların inkişafına nail olmaqla innovasiyanı inkişaf etdirməyə qadirdir.

Vergi güzəşti yeni texniki avadanlıqların tətbiqinə təkan verə biər. Bu istiqamətdə fəaliyyət innovasiya tətbiqində vergi güzəştlərindən istifadənin aktuallığını zamanla azalır. Deməli innovasiyanın hasilat və emalın artmasına təsiri vergi daxilolmalarını artıracaq [4, s. 31].

Yeni innovasiya sisteminin təminatı isə neft-qaz sənayesində material və enerji məsrəfinə, əmək haqqına, maya dəyərinə, mənfəətə, fondveriminə, rentabelliyə və bütün texniki-iqtisadi indikatorlara təsir edərək sahəvi səmərəliliyi artıracaq, bununla da digər sektorlarda da adekvat silsiləvi multiplikativ effektlər doğuracaqdır.

Qlobal səviyyədə neft hasilatının azalması neft və qazın hasilatı sahəsində müasir texnoloji imkanaların tətbiqini zəruri edərək innovativ hasilat üsullarını aktuallaşdırır. Qeyd edək ki, müasir texnologiyalar var ki, onlar mürəkkəb relyefə malik neft və qaz yataqlarının işlənməsinə imkan verir. Ən mühüm texnoloji imkanlardan hesab edilən nanotexnologiya neft hasilatında ciddi risklərin diqqətə alınması yolu ilə yataqların işlənilməsinə imkan verən innovativ texnologiyalardan biridir. Müvafiq innovasiyalar oxşar xarakterə malik olsa da, nanotexnologiyalardan istifadə yolu ilə neft və qaz sektorunda tətbiq edilən avadanlıqlara, eləcə də elementlərə müxtəlif cür təsir etməklə müəyyən edilmiş nəticələrə nail olunur. Nanotexnologiyalar neft və qaz sektorunda fərqli istiqamətlərdə uğurun əldə edilməsinə səbəb olurlar. Bu istiqamətlər çərçivəsində quyuların yüksək keyfiyyətli sementdən istifadə yolu ilə hazırlanması, aşınmanın, eləcə də korroziyanın idarə edilməsi, mürəkkəb vəziyyətlərdə fəaliyyət göstərən qurğuların keyfiyyət göstəricilərinin artırılması, istifadə olunan tikinti materiallarının yararlılıq müddətinin artırılması sayəsində təmir işlərinin minimuma enməsi, bununla da təmir mərsəflərinin aşağı enməsi, boş dayanmaların avadanlıqların texnoloji imkanlarının artırılması səbəbindən azalması, onların uzun müddət xidmət etməsi səbəbindən əsaslı vəsait qoyuluşu xərclərin azalması baş verir. İnnovasiyaların nano səviyyəli texnologiyaları vasitəsilə neft quyularının dib hissəsinə suyun, həmçinin qumun daxil olmasının qarşısının alınması vasitəsilə hasilatın həcminin artırılması ilə pul vəsaitlərinin daxil olmasının sürətlənməsi və gəlirlərin yüksəlməsi kimi müsbət nəticələrə səbəb olur. Neft və qaz sənayesində innovasiyaların, habelə nanotexnoloji imkanların mühüm həcmdə istifadəsinin artması investisiya qoyuluşlarından asılıdır.

Nəzərə almaq lazımdır ki, neft və qaz sənayesinin innovativ fəaliyyətinin özünəməxsus xüsusiyyətləri var. İstehsaldan kənar mücərrəd olaraq bu sahə üçün elmi məhsullar yaratmaq mümkün deyil. Yalnız bir elmi müəssisənin və istehsal müəssisəsinin kollektiv işi və innovativ layihələr çərçivəsində fundamental elmi, texnoloji və istehsal problemlərinin həllinə çoxşaxəli sistemli yanaşma gözlənilən nəticəni verə bilər. Lazımi texnoloji innovasiya marketinq axtarışları, elm adamlarının, mütəxəssis innovatorların, o cümlədən innovasiyanın inkişafı və tətbiqi strateji maraq zonasında olan sənaye müəssisələrinin texnoloji xidmət struktur qurumları ilə daimi əlaqəsi sayəsində qurulur. Bu qaydada yaradılan innovasiyalar əvvəlcədən hədəf alınacaq və həyata keçirilməyə hazır olacaqdır.

Qeyd edək ki, ciddi dəyişilmiş və ya yeni xüsusiyyətlər əlavə edilmiş məhsullar radikal innovasiyanın nəticəsi kimi qəbul edir. Bunun sayəsində sənayedə uzunmüddətli, faydalı əmtəə və innovativ avadanlıq formalaşır [3, s. 146].

Neft və qaz sənayesindəki innovasiyalar təkcə hasilatın artırılmasına xidmət etməklə bitmir. Əməliyyatların təhlükəsiz keçməsini təmin etmək özü də başqa bir prioritetdir. Bu, dəyişən mühitlərdə materialların bütövlüyünü müşahidə altında saxlamaq və ya yoxlamaq, texniki xidmət və təmir üçün yeni sistemlər yaratmaq üçün yeni yollar tapmaq deməkdir. Sənayedə hasilatın artırılması zamanı daha çətin şərait yaranarkən təhlükəsizliyi təmin etmək üçün innovasiyalar daha həyati əhəmiyyət kəsb edir.

İnnovativ qərarların hazırlanmasında növbəti addım çoxsəviyyəli alternativ həllər sisteminin inkişafıdır. Birinci səviyyə qərarların innovativ proqnoz layihələrinin həyata keçirilməsinə cəmləşməsini əhatə edir. Bu səviyyə ilə əlaqəli alternativ həllərin payı nisbətən az olur. Lakin uzunmüddətli inkişaf yolunu qurmaq və innovativ potensialını artıracağı üçün şirkət üçün kifayət qədər əhəmiyyətli hesab edilir.

Bildiyimiz kimi respublikanın enerji kompleksinin inkişafı naminə elmi tədqiqatlarla məşğul olan kifayət qədər böyük elmi-texniki potensialı var. Aydındır ki, istər bütövlükdə respublika iqtisadiyyatında, istərsə də neft və qaz hasilatı kompleksində innovativ inkişafın geriləməsi yerli tədqiqat potensialının zəifliyinin nəticəsi deyil, əksər hallarda innovasiya sahəsinin infrastrukturunun zəif olması halları, öz növbəsində, respublikanın elmi-texniki potensialına tələbatın olmamasına səbəb olur.

Effektiv innovasiya prosesləri, ideyaların toplanmasından başlayaraq, onların prioritetləşdirilməsi, təcrübənin aparılması və hansı ideyaların kommersiyalaşdırılmalı olduğuna qərar vermək, innovasiyaların reallaşdırılması və gəlirin əldə edilməsi mərhələlərindən keçməklə təkrar olunandır. Yaxşı işlədiyi zaman bu

proses müvəffəqiyyətli ideyaları tez bir zamanda inkişaf etdirməyə, eləcə də əks xarakterliləri isə tez bir zamanda uğursuz kimi qəbul etməyə imkan verir. Kapital qoyuluşlarının çox vaxt uzunmüddətli olduğu və bəzi ideyaların nəticə verməzdən əvvəl diqqətlə araşdırılmasını tələb edən neft və qaz sektorunun kəşfiyyat və hasilat seqmenti üçün əhəmiyyətli çatışmazlıqları tapmaq daha çətinləşir. Buna görə də bir çox şirkət üçün ortaqlıq innovasiya prosesinin vacib bir hissəsidir.

İnnovativ qərarların hazırlanmasının bütün sistemi şirkətin aydın şəkildə formalaşdırılmış innovativ strategiyasına əsaslanmalı və korporativ strategiyaya uyğun olmalıdır. İnnovativ qərarların hazırlanması prosesi, şirkətin bütün əməliyyat seqmentlərində tətbiq edilməsi mümkün olan yeniliklərlə əlaqədar yenilənmiş məlumat sahəsinin formalaşdırılması ilə başlayır. Hər şeydən əvvəl, sərt qoruyucu ehtiyatların payının artması, neftin çıxarılması faktorunun azalması və hər bir müəssisənin digər vacib texnoloji parametrlərində dəyişikliklərlə əlaqədar problemlərin ciddiliyindən qaynaqlanan texnoloji yeniliklərə diqqət yetirilməlidir. İkincisi, idarəetmə yeniliklərinin tətbiqi imkanları nəzərə alınmalıdır.

Eyni zmanda qeyd edilməlidir ki, istedadlı və bacarıqlı insanlara əsaslanan kadr-innovasiya potensialı olmadan neft və qaz şirkətlərində heç bir innovativ idarəetmə qərarının səmərəli həyata keçirilməsi mümkün deyil. Bütün bunlar, neft və qaz şirkətlərinin qarşısında innovativ yönümlü kadrların hazırlanması sahəsində fəaliyyətin əhəmiyyətini artırmaq üçün xüsusi vəzifələr qoymaq ehtiyacını qabaqcadan müəyyənləşdirir. Bu qrupa aid edilə bilən kadrlar yüksək motivasiya, inkişaf etmiş yaradıcı təxəyyül, fikir və analitik fəaliyyət həyata keçirmək qabiliyyəti, orijinallıq, məntiq, intuisiya, komanda işi və yüksək intellekt kimi tələblərə uyğun olmalıdır. İnnovasiyaların yaradılması ilə bağlı təlimin vahid texnologiyası hələ yoxdur.

Qazma xərcləri neft hasilatına ümumi kapital qoyuluşunun təxminən yarısını təşkil etdiyi üçün innovativ texnologiyaların müvafiq sahədə rolu çox yüksəkdir. Neft sənayesində təqdim edilən xidmətlər çərçivəsində yeni texniki həllərin və yeniliklərin daha sürətli tətbiqi üçün ilkin şərtlər yaradılır və yüksək ixtisaslı kadrlara tələbat artır.

Bu problemi həll etmək üçün neft və qaz şirkətləri korporativ təlim sisteminin funksiyalarını genişləndirmək yolunu seçə bilərlər. Hər hansı bir şirkət üçün tipik olan standart komponentlərə əlavə olaraq, korporativ təlim və kadr hazırlığı funksiyası bir-biri ilə əlaqəli iki son dərəcə vacib komponentə malik olmalıdır:

- şirkət daxilində innovativ layihələrin və tədqiqat layihələrinin həyata keçirilməsi üçün kadrların təkmilləşdirilməsi;
- işçilərin yeni mühəndislik həllərini tez tapma qabiliyyətinin inkişafı.

Ədəbiyyat

1. BP Azərbaycanda, Davamlı İnkişaf haqqında hesabat, Bakı - 2019, 52 səh

2. Əliyev M.Ə., Hüseynov A.G. Neft-qaz sənayesinin iqtisadiyyatı və idarə edilməsi. Ali məktəbləriiçün dərslik. Bakı. «Letterpress» Nəşriyyat evi. 2016. səh. 553

3. Qasımzadə E. Azərbaycanin neft sənayesində nanotexnologiyalardan istifadənin cari vəziyyəti və nanotexnologiyalarin iqtisadi təsirlərinin araşdirilmasi, İpək Yolu, No.2, 2019, səh.141-153

4. Гасумов Эльдар Рамизович. Принципы государственной инновационной политики в отношении газовой отрасли Азербайджана, Евразийский Союз Ученых (ЕСУ) # 11(80), 2020, с 29-33

5. https://www.socar.az/socar/az/home/

6. bp.com/en_az/azerbaijan/home.html

Резюме

Бадалов М.М.

Организация и управление инновационной деятельностью в нефтегазовой отрасли

Новая экономическая среда выдвигает на первый план конкурентный фактор в экономике. Таким образом, нефтяная отрасль, составляющая основу экономики страны, активизировала использование инноваций в качестве участника конкуренции в различных сферах как составной части международных процессов. При соответствующих условиях фундаментальные научные исследования по организации и управлению инновационной деятельностью имеют большое значение для применения инноваций в нефтегазовой отрасли. С этой точки зрения в статье изучены как важные направления зарубежного опыта, так и необходимые направления деятельности нефтяных компаний, действующих в стране.

Ключевые слова: *инновации, бурение, добыча, переработка, научно-технический потенциал*

Summary
Badalov M.M.
Organization and Management of Innovative Activity in the Oil and gas Industry

The new economic environment brings to the fore the competitive factor in the economy. Thus, the oil industry, which is the basis of the country's economy, has intensified the use of innovations as a participant in competition in various fields as a component of international processes. Under appropriate conditions, fundamental scientific research on the organization and management of innovative activity is of great importance for the application of innovation in the oil and gas industry. From this point of view, the article has studied both the important directions of international experience and the necessary directions of the activities of the oil companies operating in the country.

Key words: *innovation, drilling, production, processing, scientific and technical potential.*

BİZNESİN İNKİŞAFINDA ELEKTRON TİCARƏTİN ROLU

Əhmədova Gülnarə Sabir qızı
Sumqayıt Dövlət Universiteti
gulnaraahmadova.ga@gmail.com

Xülasə: *Məqalədə elektron ticarət prosesi bazar münasibətlərinin ayrıca bir seqmenti kimi nəzərdən keçirilir. İnternet ticarətin müsbət və mənfi tərəfləri, bu prosesin biznesə və fərdi istehlakçılara təsiri, eləcə də tələb və təklifin əsas tendensiyaları təhlil edilir. Məqalə internet ticarətinin inkişafı problemlərinin öyrənilməsinə və onların həlli yollarına həsr edilmişdir. Bu istiqamətin inkişaf perspektivləri olduqca böyükdür. Bu, çox sayda İnternet istifadəçiləri və hər bir istifadəçi üçün əlçatanlıq ilə bağlıdır. Elektron ticarətin artan təsiri kiçik və orta biznesin geniş istehlakçı dairəsi sayəsində iri müəssisələrlə rəqabət qabiliyyətini artırır. Məqalədə yalnız istehsalçılar üçün deyil, həm də istehlakçılar üçün faydalar müzakirə olunur.*

Açar sözlər: *elektron ticarət, qloballaşma, onlayn ticarət, kommersiya, kompüterləşmə, satış, mal, xidmət, maliyyə bazarı, biznes, təşkilati inkişaf, müasir biznes*

Müasir şəraitdə demək olar ki, hər ikinci internet istifadəçisi onlayn olaraq alqı-satqı əməliyyatı həyata keçirmişdir. Müasir texnologiyalar yeni biznes imkanları açır, alıcılar və ya satıcılarla uzaqdan əlaqə saxlamağa, təchizatı genişləndirməyə və təkrar istehsalı artırmağa imkan verir. Qeyd etmək lazımdır ki, internet müasir insanın həyatına böyük təsir göstərir və bu da öz növbəsində elektron iqtisadiyyat kimi bir fenomenin yaranmasına səbəb olmuşdur. O sürətli artımı, satışların sayının artması şəklində yeni imkanların yaranması və yeni əlavə iş yerlərinin açılması ilə xarakterizə olunur. İnformasiya texnologiyalarının inkişafı elektron ticarətin yaranmasına səbəb oldu. Elektron ticarət dedikdə, elektron vasitələrdən istifadə etməklə kommersiya əməliyyatlarının həyata keçirilməsi ilə bağlı olan təsərrüfat subyektlərinin fəaliyyəti başa düşülə bilər. Belə texnologiyalar bazar münasibətlərinin demək olar ki, bütün sahələrində ticarəti genişləndirməyə imkan verir. İnternet ənənəvi mübadilədən daha səmərəlidir. Bu üsul malların istehsalçıdan alıcıya keçmə sürətini artırmağa imkan verir, xərcləri azaldır və mənfəəti artırır. Bu texnologiya sayəsində tez bir zamanda alqı-satqı əməliyyatlarını həyata keçirmək, maliyyə əməliyyatları aparmaq, müqavilələr bağlamaq mümkündür [1]. İnformasiya və kommunikasiya texnologiyaları hazırda e-ticarətdə mühüm amillərdən biridir. Kommersiya əməliyyatının yaranmasına diqqət yetirmək lazımdır, onun bağlanması fiziki şəxslər olmadan baş verir. Nəticədə məhsulun mülkiyyət hüququ bir şəxsdən digərinə keçir.

Elektron ticarətin əhatə etdiyi aşağıdakı əməliyyatları qeyd etmək olar:

1. Onlayn marketinq. Onun mahiyyəti ondan ibarətdir ki, ənənəvi aspekt əvəzinə artıq internetdən məhsul satmaq və ya bir xidməti tanıtmaq üçün istifadə etmək mümkündür.

2. Pul vəsaitlərinin bir təsərrüfat subyektindən digərinə köçürülməsini təmin edən qaydalar və prosedurlar qrupundan ibarət olan ödəniş sistemi.

3. Logistika və malların satışı.

Öz növbəsində logistikanı malların təchizatçıdan daşınmasına, anbarda saxlanmasına və alıcıya doğru hərəkətinə bölmək olar. İnternet xidmətləri bu prosesi sürətləndirir və itkiləri minimuma endirir. [2] İnternet vasitəçiləri satıcı ilə alıcı arasında məlumatların ötürülməsini sürətləndirirlər. Onlar məlumat vermək, maraqlar üzrə alıcıları və satıcıları tapmaq və lazımi araşdırma aparmaq kimi müxtəlif marketinq xidmətləri göstərir.

Dünyal iqtisadiyyatında internet biznesi böyük əhəmiyyət kəsb edir. Çinin sürətli inkişafı sayəsində bu sektorun lideri Asiya-Sakit Okean regionudur. Məhz o Şimali Amerikanı demək olar ki, iki dəfə qabaqlayır. Bu Asiya ölkələrinin sürətli iqtisadi inkişafı, informasiyalaşma və qloballaşma ilə bağlıdır. Bəzən dövlətlərdən birinin ərazisində qüvvədə olan müxtəlif hüqüq və qaydalara görə ölkələr arasında onlayn ticarətdə çətinliklər yaranır. Bununla belə transərhəd ticarəti tənzimləmək üçün vahid üsul yoxdur. Eyni zamanda yerli məhsulların dəstəklənməsi üçün proteksionist tədbirlər yaradılır. Elektron ticarət xammalın alınması və malların satışı xərclərini əhəmiyyətli dərəcədə azaldır. Dəfələrlə ucuz olması və daha çox istifadəçinin onu görəcəyi üçün reklam xərcləri azalır. Həm də evdə işçi götürməklə, ofisin icarəsi xərcləri azalır. Dövriyyə vəsaiti daha səmərəli işləyir, bu da intensiv istehsal üçün artım yaradır. Alıcı üçün effektiv rol davamlı alışdır. Günün istənilən vaxtı edilə bilər və onlayn alış-verişdən sonra alqı-satqı əməliyyatı tamamlanacaq. Yalnız seçilmiş məhsulu gözləmək qalır.

İnformasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə hər kəs öz biznesini açmaq imkanını qazandı. Belə işin başqa bir üstünlüyü odur ki, hətta fiziki mədudiyyətli şəxs də bununla məşğul ola bilər. Hal-hazırda mümkün olan bütün sərhədlər pozulur və stasionar kompüterlərə artıq ehtiyac qalmır, çünki biznes üçün əlinin altında bir smartfonun olması kifayətdir. Telefonsuz kiçik biznesi idarə etmək çətindir. İnformasiya texnologiyalarsız artıq şəxsi biznesin müəyyən proseslərini həyata keçirmək mümkün deyil.

Kiçik sahibkarlıq üçün xərcləri azaltmaq həmişə vacibdir. Rəqiblər üzərində üstünlük məhz informasiya və kommunikasiya texnologiyaları ilə mümkün olur. Reklam xərclərinin azalması bazarda inamı artırır. Texnologiya bankların internet üzərindən izlədiyi maliyyə fəaliyyətlərinə sərf olunan vaxtı azaldır [3]. Hər il bazar getdikcə daha çox yeni texnologiyalar tələb edir və ənənəvi satış böyük rəqabətlə üzləşir və iflasa uğradığı üçün tarixə çevrilir. Məhz alıcılar üçün rahatlıq tələb olunur ki, bu da istehsalçının saytında çeşidi göstərmək və satın almaqla ifadə olunur. Pandemiya zamanı onlayn satışlar əhəmiyyətli dərəcədə artdı ki, bu da bazarın çökməsinə deyil, onun inkişafına səbəb oldu. Elektron ticarətin mənfi tərəfləri də var. İstənilən mənfi cəhətləri məntiqlə izah etmək olar və buna görə də tez bir zamanda aradan qaldırmaq olar.

İnformasiya və kommunikasiya texnologiyaları üzrə biliklər kompüter ticarətinə kömək edə bilər. Düzgün strategiya bütün texnologiya məsələlərini həll edir və biznesi irəli aparır.

Alıcını itələyən mənfi cəhətlərə gəldikdə, aşağıdakıları demək olar. Birincisi, malların keyfiyyətini ətraflı öyrənmək üçün heç bir imkan yoxdur və vicdansız istehsalçının zədələnmiş və ya yararsız məhsul göndərməsi şansı həmişə var. Buna görə saytlar müştəri rəyləri olan səhifə yaradır. Bununla belə, pis niyyətli rəqiblər özlərinin xeyrinə mənfi rəy yaza bilər ki, bu da istehlakçıların itkisinə səbəb olacaq. İkincisi, məhsulların qaytarılması və ya dəyişdirilməsi problemi var. Onlayn mağazada ayaqqabı və ya paltar seçərkən düzgün ölçü və ya rəngi seçmək çətin olur. Bəzi istehsalçılar özləri pulun qaytarılması və ya malın dəyişdirilməsi prosedurunu çətinləşdirirlər, buna görə alıcılar sadəcə belə bir satıcı ilə əlaqə saxlamaq istəmir. Üçüncüsü, internetdə çox vaxt özünü rəsmi istehsalçı kimi göstərən fırıldaqçılar var. İnsanlar pullarını və firmaya etibarını itirirlər [4]. İşin düzgün aparılması ilə istənilən müsbət cəhətlər həmişə mənfi cəhətləri üstələyir. Təhlükəsizliyin inkişafı istehsalçının reytinqinin artmasına kömək edir və istehlakçılara vicdanlı münasibət satış və mənfəəti artırır. Elektron ticarətdən istifadə transaksiya xərclərinin azaldılmasını, elektron ofislərin tətbiqi ilə inzibati xərclərin sayının azaldılmasını təmin edir.

Bu gün informasiya texnologiyaları biznesin aparılması üçün əsas vasitədir, sahibkarlar məhz buna üstünlük verir, internet yeni biznes mühitinə çevrilir, elektron ticarət isə insanın həyatını xeyli asanlaşdırır. Rasional istehlakçılar həmişə nə istədiklərini bilir və onlar daha uyğun olan məhsul və ya xidmət axtararır. Sahibkar bunu nəzərə almalı və alıcının tələbini maksimum ödəməyə, bununla da bazarda öz mövqeyini yüksəltməyə çalışmalıdır.

Beləliklə müasir dünyada elektron ticarətin əhəmiyyəti getdikcə artır. Müasir şəraitdə elektron ticarət iqtisadi inkişafın yüksək templərini təmin edən ən mühüm texnologiyalardan biridir. Müasir biznes üçün e-ticarət xərclərin azaldılması, mal və xidmətlərin vasitəçilərsiz təşviqi və rəqabət qabiliyyətinin artırılması ilə bağlı bir çox problemləri həll edir.

Ədəbiyyat

1. Понятие новой экономики. Управление бизнес-процессами торгового предприятия в Интернет-среде [Электронный ресурс]–URL: http://wiasite.com/elektronnoy-kommertsii-osnovy/ponyatienovoy-ekonomiki.html

2. Третьякова, А. С. Электронная торговля как особый канал распределения товаров / А. С. Третьякова, М. А. Петруша //Экономика и социум. – 2016.

3. Тимошкина, Е. В. Риски электронной торговли и пути их минимизации / Е. В. Тимошкина, Е. С. Третьякова // Наука Удмуртии. – 2018.

4. Шабанова Л. Б. Традиционная и электронная торговля потребительскими товарами и услугами: достоинства, недостатки и перспективы развития / Л. Б. Шабанова, С. В. Зюзина // Бизнес. Образование. Право. – 2016.

Резюме
Ахмедова Г.С.
Роль электронной торговли для развития бизнеса

В данной статье рассмотрен процесс электронной торговли как отдельный сегмент рыночных отношений. Был проведен анализ положительных и отрицательных аспектов интернет-торговли, влияние данного процесса на бизнес и отдельных потребителей, а также основные тенденции спроса и предложения. Статья посвящена изучению проблем развития интернет-торговли, и пути их решения. Перспективы развития такого направления довольно огромные, это объясняется большим количеством пользователей Интернета и доступность для каждого пользователя. Возрастание влияния электронной торговли увеличивает возможности малого и среднего бизнеса конкурировать с крупными предприятиями из-за расширенного круга потребителей. В статье рассматриваются преимущества не только для производителей, но и для потребителей.

Ключевые слова: *электронная торговля, глобализация, онлайн-торговля, коммерция, компьютеризация, продажи, товар, услуга, финансовый рынок, бизнес, организационное развитие, современный бизнес.*

Summary
Akhmedova G.S.
The Role of E-Commerce for Business Development

This article discusses the process of electronic commerce as a separate segment of market relations. The analysis of positive and negative aspects of ecommerce, the impact of this process on business and individual consumers, as well as the main trends in supply and demand were carried out. The article is devoted to the study of the problems of the development of e-commerce, and ways to solve them. The prospects for the development of such a direction are quite huge, this is due to the large number of Internet users and accessibility for each user. The increasing influence of e-commerce increases the opportunities for small and medium-sized businesses to compete with large enterprises due to an expanded range of consumers. The article discusses the advantages not only for manufacturers, but also for consumers.

Key words: *e-commerce, globalization, online commerce, commerce, computerization, sales, goods, services, financial market, business, organizational development, modern business.*

DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ YERLƏŞDİRMƏ MÜƏSSİSƏLƏRİN ROLU

Əhmədzadə Fidan Müslüm qızı
Azərbaycan Turizm və Menecment Universiteti
fidanehmedzade99@gmail.com

Xülasə: *Təkcə ölkə ərazisində deyil, dünya ölkələrində də COVİD epidemiyası qonaqpərvərlik sənayesinin kökündən dəyişməsinə səbəb olmuşdur. Bu özünü kadr çatışmazlığı, artan qiymətlər, beynəlxalq iğtişaşlar və bu kimi məsələlərdə göstərmiş və yeni planların hazırlanmasını, daha əsaslı strategiyaların qarşıya qoyulmasını şərtləndirmişdir. Bununla bağlı olaraq, ilk növbədə, mehmanxanalarda brendinq üsullarının, milli və beynəlxalq səviyyədə standartların tətbiqi, həm daxili, həm xarici müştərilərin cəlb olunmasında loyallıq proqramlarının tətbiq olunması əsas şərtlərdən biridir.*

Açar sözlər: *mehmanxana, sosial, iqtisadi, texnologiya, personal*

Ölkə ərazisində mehmanxana sənayesinin inkişafı təkcə iqtisadi və siyasi yönümlü deyil, həmçinin sosial baxımdan əhalinin işlə təmin olunması, gəlirlilik səviyyəsinin, ən önəmli məqamlardan biri kimi təhsillilik səviyyəsinin artırılması ilə bağlıdır. Bununla bağlı olaraq mehmanxanalarda tətbiq olunan yeni istiqamətləri müəyyən etmək və onların qiymətləndirilməsi vacibdir. Bunları həyata keçirmədən qarşıya qoyulan strategiyanın reallaşdırılması mümkün deyildir.

AHLA (American Hotel & Lodging Association) - nın Accenture ilə əməkdaşlığı ilə nəşr edilmiş 2022-ci il Mehmanxana Sənayesinin Vəziyyəti adlı materialda qeyd etmişdir ki, otel sektorunun tam bərpası bir neçə ilə, təxmini 2025-ci ilə işarə edilir. Lakin bu məlumatlara baxmayaraq mehmanxana sənayesi müsbətə doğru inkişaf etməkdədir. Həmçinin texnologiyaların inkişafı səbəbindən, xüsusilə pandemiyadan sonra istehlakçıların tələblərinin dəyişdiyini nəzərə alaraq onlara yeni xidmətlərin təklif edilməsi vacib amil olaraq qəbul edilməlidir. Buna misal olaraq, işgüzar səyahət edənlərlə asudə vaxtı keçirilən qonaqlara xidmətin fərqləndirilməsidir. AHLA- nin apardığı araşdırılmalarına əsasən yuxarıdakı səbəblərdən işgüzar səyahət edənlərin 89% -i öz işgüzar səfərlərinə şəxsi tətillərini daxil edəcəklər. Bu tipli qonaqlar xidmətin qiymətinə deyil, daha çox göstərilən xidmətin davamlılığına, sürətli xidmətə diqqət edirlər. Bu məqamları nəzərə alaraq onların həm işgüzar fəaliyyətləri zamanı, həm də asudə vaxtın dəyərləndirilməsini yüksək səviyyədə təşkil etmək üçün innovasiyaların tətbiqi, otellərin təkamül etməsi, otellərin rəqəmsal olaraq transformasiyasının tətbiqi, təkcə müştəri yönümlü deyil, həm də personalların təkliflərinin dəyərləndirilməsi qaçılmazdır. Bu da öz növbəsində yeni ehtiyacı- texnoloji həll anlayışını özündə formalaşdırır. [2]

Mehmanxana sənayesi hər bir ölkə üçün yüksək sosial-iqtisadi əhəmiyyətə malikdir. Bu sənayenin iqtisadi mənası gəlir əldə etmək olsa da, sosial əhəmiyyəti iş yerlərinin açılması, turizm bölgələrində sahibkarlığın və ev təsərrüfatlarının inkişafı, həmçinin cəmiyyətdə işsizliyin qarşısını almaq məqsədilə əhalinin ehtiyaclarına uyğun olaraq xidmət sektorunun yaradılmasıdır. Dünya təcrübəsi bizə göstərir ki, sürətli inkişaf edən mehmanxana sənayesi əhalinin gəlirinin əsas hissəsini təşkil edir.

Sosial infrastruktura əsasən nəqliyyat, iaşə, otel xidmətlərinin inkişafı aiddir. Mehmanxana infrastrukturu ölkə regionlarının vahid ərazi kimi inkişafını təmin edən əsas sahələrdən biridir. Bu sahənin inkişafında sosial amillərin rolu əsasən özündə demoqrafik və təhsil səviyyələrini birləşdirir. Belə ki, təhsil, səhiyyə, ictimai nəqliyyat, pullu xidmət, qonaqpərvərlik, ev təsərrüfatları sosial amillərə aid edilir.

Turizmin, o cümlədən mehmanxana sənayesinin sosial-iqtisadi inkişaf səviyyəsi insanların həyat səviyyəsinin artmasına, onların rifah halının yaxşılaşmasına kömək edir. Bölgələrdə iş adamları və ya hökumət tərəfindən, mehmanxana sənayesi dinamik şəkildə inkişaf etdirilsə, bunun nəticəsində on minlərlə iş yerinin yaradılması, kənd təsərrüfatı məhsullarının satışının reallaşdırılması və əhalisinin sosial rifahının daha da yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.

Qonaqpərvərlik sənayesinə təsir edən üç amil əsas götürülür ki, bunlara iqtisadi, ətraf mühit, sosial-mədəni amillər daxildir, məhz bunlar birbaşa mehmanxana sənayesinə təsir edir. Buraya ölkənin ümumi iqtisadi göstəriciləri, əmək haqqının verilməsi, siyasi vəziyyət, valyutanın dəyişən məzənnəsi, baş verə biləcək iqtisadi böhranlar, siyasi münaqişələr, müharibə şəraiti və s. aiddir. Ətraf mühitin qorunması, bununla bağlı olaraq həm mehmanxana sənayesinin işçilərinin, həm də gələn turistlərin maarifləndirilməsi önəmlidir. Çünki gələn qonaq təkcə oteldə gecələməyə deyil, həmçinin təbiət qoynunda da vaxt keçirməyə gəlirlər. Ən mühim amillərdən biri də, əhalinin təhsil səviyyəsidir. Bununla bağlı olaraq təhsil müəssisələrində, təhsil olacaqlarında tələbələrin bu sahə ilə bağlı lazımı biliklərin ötürülməsi, onlara təlimlərin keçirilməsi önəmlidir. Buna görə də müasir dövrümüzdə ölkədə ən böyük problem- kadr təcrübəsizliyidir. Çünki işə daxil olmaq istəyən hər bir gənc yuxarı pillələrdən başlamaq istədiyindən, sonradan iş prosesində müəyyən problemlərin yaranmasına səbəb olur. Buna görə də yeni personallara öz təcrübələrinə uyğun olaraq işlərinin bölüşdürülməsi və onlara daimi təlimlərin keçirilməsi vacibdir.

Müstəqillik əldə etdikdən sonra ölkə ərazisinin qonşu ölkələrlə sərhədlərinin açılması getmə turizmin inkişaf etməsinə və qonaqpərvərlik sənayesində mehmanxanaların fəaliyyətinin özbaşınalığının artması ölkə iqtisadiyyatına birbaşa təsir edirdi ki, bununla bağlı olaraq müəyyən tədbirlər həyata keçirildi. Müstəqilliyini əldə etdikdən sonra yeni sosial- iqtisadi dönəmə addım atan Azərbaycan bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq mehmanxana sənayesində öz inkişaf strategiyasını müəyyən etmiş və bunu mehmanxana sahəsində sübut etmişdir. Artıq qonaqpərvərlik sənayesi ölkə iqtisadiyyatının əsas parçasına çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyev ölkədə turizmin intensiv inkişafına böyük əhəmiyyət verirdi. 2002-ci ildə yaradılan "2002-2005-ci illərdə Azərbaycanda Turizmin İnkişafı Proqramı" Ümummilli liderin müvafiq fərmanı ilə təsdiq edilmiş "Turizm haqqında" qanun, Azərbaycanda turizm sektorunun inkişafında əhəmiyyətli rol oynamışdır. 2002-ci ildən başlayaraq, hər il ənənəvi olaraq Bakıda keçirilən Beynəlxalq Turizm Sərgisi dövlətimizin turizmin inkişafına böyük əhəmiyyət verdiyini təsdiqləyir [1, s.233].

Ölkə ərazisində və xaricdə məlumat şəbəkələrinin genişlənndirilməsi məqsədilə öz nümayəndəliklərinin, filiallarının yaradılması, keyfiyyətli fəaliyyəti təmin etmək məqsədilə hotellərdə, restoranlarda, turizm şirkətlərində kompleks ekspertizasiyanın keçirilməsi, qonaqpərvərlik sənayesi üçün müxtəlif xidmətlərin istehsaçılarının məlumat bazalarının yaradılması, müştəri dairəsinin genişləndirilməsi və turistlərin cəlb olunması məqsədilə turizm agentlikləri, turizm operatorları və digər qurumlarla əməkdaşlıq əsas prioritetlərdən birini təşkil edir. [3]

Qonaqpərvərlik sənayesində mehmanxanaların ölkə iqtisadiyyatının perspektivli inkişafında böyük rolu vardır. Bu da öz növbəsində özünü həm yerli, həm xarici investorların cəlb olunmasında əks etdirir, nəticədə Azərbaycanın beynəlxalq sferada nüfuzunun artmasına təkan verir. Ölkənin tanıdılması təkcə iqtisadi baxımdan deyil, həm də sosial vəziyyətin, işgüzarlığın artmasına, statistik göstəricilərin müsbətə doğru dəyişməsinə təsir edir.

Hər il öllkə ərazisinə qəbul edilmiş turistlərin sayı arasında müəyyən fərqlər müşahidə edilir. Aşağıdakı cədvəldə buna nəzər yetirə bilərik.

Cədvəl.

Mehmanxana və mehmanxana tipli obyektlərin əsas göstəriciləri

İllər	2016	2017	2018	2019	2020
Gələnlərin sayı	8,949	13,455	12,777	30,950	2,304
Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid	548	563	596	642	655
Birdəfəlik tutum, yer	40, 042	41,611	46,693	49,980	50,687
Nömrələrin sayı, vahid	20,330	20,778	22,192	23,865	24,195
Gecələmələr üçün çarpayı-sutka, vahid	2,125,266	2,590,641	3,002,959	3,345,285	999,786

Mənbə: *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi [4]*

Qrafikdən göründüyü kimi, 2016-cı ildən başlayaraq ölkəyə gələn turistərin sayı hər il üzrə qeyri-bərabər paylanmışdır. Ölkəyə gələn turistlərin sayı 2017-ci ildən etibarən artmağa başlamışdır. Sosial vəziyyətin qeyri-sabitliyi turistlərin bu sahələrə marağının azalması ilə nəticələnir. 2020-ci ildə pandemiya şəraiti ilə bağlı olaraq sərhədlərin bağlanması və xəstəliklərin geniş yayılması səbəbindən ölkə ərazisinə gələn turistlərin sayı azalmışdır. Digər tərəfdən qonşu dövlətlərin sosial-vəziyyətinin də bu sahədə xüsusi rolu vardır. Ölkədə turizm məhsullarının normadan baha olması, xidmətin keyfiyyətinin aşağı səviyyəsi kimi amillər turistlərin sayının azalmasına gətirib çıxarır. Son illərdə turistlərin sayının azalması mehmanxana sənayesinin geriləməsinə səbəb olmuşdur.

Booking.com -dan əldə edilən məlumatlara əsasən Bakı şəhəri ərazisində yerləşən mehmanxana və mehmanxana tipli obyektlərdə gecələyən qonaqların qiymətləndirməsinə diqqət etsək bunlardan 15% mehmanxana və mehmanxana tipli obyektlər 9, 25% mehmanxana və mehmanxana tipli obyektlər 8, 29% mehmanxana və mehmanxana tipli obyektlər 7, 31% mehmanxana və mehmanxana tipli obyektlər 6 üzərindən qiymətləndirilmişdir. Əldə onunan statistika əsasında qeyd edə bilərik ki, Bakı şəhəri ərazisində xidmət səviyyəsi orta olaraq qalmaqdadır və bu da özünü müştəri məmnunluğuna, onların loyallığına təsir etməkdədir.

Azərbaycanda qonaqpərvərlik sənayesinin dayanaqlı inkişafını təmin etmək, gələcək perspektivlərinin reallaşdırılması üçün ilk öncə ölkəmizin, regionlarımızın müsbət imicinin formalaşdırılması, adət-ənənələrimizin təşviq edilməsi, həm yerli, həm də xarici turistlərin cəlb olunmasında informasiya vasitlərinin genişləndirilməsi, beynəlxalq səviyyədə uğurlu marketinq strategiyasının tətbiqi, konfrans və sərgilərin keçirilməsi, xarici əməkdaşlıqların gücləndirilməsi, milli və beynəlxalq standartların qaydalı olaraq tətbiqini həyata keçirmək və nəzarəti gücləndirmək ən mühim məqsədlər olaraq qarşıya qoyulmalıdır.

Ədəbiyyat

1. Bilalov B.Ə. Turizmin tarixi. Bakı: Mütərcim nəşriyyatı, 2008, 233s.
2. https://www.travelpulse.com/news/hotels-and-resorts/new-report-reveals-the-current-state-of-the-hotel-industry.html
3. https://travelnews.az/2017/12/09/samir-dubendi-il%c9%99-uz-uze-qeyri-resmi-hisse/
4. https://stat.gov.az/source/tourism/

Резюме

Ахмедзаде Ф.М.

Роль предприятий размещения в обеспечении устойчивого развития

Не только в стране, но и в странах мира эпидемия COVID-19 вызвала радикальные изменения в индустрии гостеприимства. Эта добровольная нехватка персонала, рост цен, международные встречи и подобные проблемы обусловили подготовку новых планов и внедрение более фундаментальных стратегий. В связи с этим, прежде всего, одним из основных условий является

внедрение в гостиницах методов брендинга, национальных и международных стандартов, программ лояльности для привлечения как отечественных, так и зарубежных клиентов.
Ключевые слова: *гостиница, социальнный, экономический, технология, персонал*

Summary
Ahmedzade F.M.
The role of accommodation enterprises in ensuring sustainable development

Not only in the country, but also in the countries of the world, the COVID-19 epidemic has caused a radical change in the hospitality industry. This self-imposed shortage of staff, rising prices, international gatherings and similar issues have conditioned the preparation of new plans and the introduction of more fundamental strategies. In this regard, first of all, the implementation of branding methods, national and international standards in hotels, and loyalty programs for attracting both domestic and foreign customers is one of the main conditions.
Key words: *hotel, social, economic, technology, personnel*

KLASTERLƏŞMƏNİN İQTİSADİ ƏHƏMİYYƏTİ VƏ ÜMUMİ NƏZƏRİ ASPEKTLƏRİ

Ələkbərov Arif Ələkbər oğlu, Xasiyev Eldost Ceyhun oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
eldostxasiyev2000@mail.ru

Xülasə: *Müasir dövrdə şirkətlər dünyanın hər yerindən, tez-tez bir siçan klikləməklə kapital, mal, məlumat və texnologiya əldə edə bilir və buna görə də şirkətlərin və xalqların necə rəqabət aparacağına dair ənənəvi müdrikliyin çox hissəsi əsaslı şəkildə dəyişdirilməlidir. Nəzəri olaraq, daha açıq qlobal bazarlar və daha sürətli nəqliyyat, rabitə rəqabətdə yerləşmənin rolunu azaltmalıdır. Axı qlobal bazarlar və korporativ şəbəkələr vasitəsilə uzaqdan səmərəli şəkildə əldə edilə bilən hər şey istənilən şirkət üçün əlçatandır.*
Açar sözlər: *bazar iqtisadiyyatı, klaster, sənaye, şirkətlər, sosial-iqtisadi vəziyyət*

Bazar iqtisadiyyatı şəraitində istehsalın ərazi təşkilinin xüsusi forması kimi “klaster” (ingilis dilindən tərcümədə – yığım, bağlama, sürü) anlayışı hazırda iqtisadi coğrafiyada getdikcə daha çox elmi dövriyyəyə daxil edilir [3, s 27]. Şərti ola bilən bir çox "klaster" anlayışı var və onlar iki qrupa bölünür;

- birinci qrupa diqqətli müəlliflər daxildir;
- ikinci qrupa isə müəyyən edən müəlliflər daxildir.

İlk dəfə “klaster” anlayışını amerikalı iqtisadçı professor M. Porter istifadə etmişdir. O, klasteri belə müəyyənləşdirir: “Klaster, coğrafi cəhətdən bir-birinə bitişik və əlaqəli şirkətlər qrupudur. Klasterlər həmçinin tez-tez kanallara və müştərilərə, yan tərəfdən isə tamamlayıcı məhsulların istehsalçılarına, bacarıqlar, texnologiyalar və ya ümumi girişlərlə əlaqəli sənaye şirkətlərinə qədər uzanır. Nəhayət, bir çox klasterlərə xüsusi təlim, təhsil, məlumat, tədqiqat və texniki dəstək verən dövlət və digər institutlar, məsələn, universitetlər, standartlar təyin edən agentliklər, beyin mərkəzləri, peşə təhsili təminatçıları və ticarət birlikləri daxildir. Dünyanın bugünkü iqtisadi xəritəsində klasterlər üstünlük təşkil edir. Klasterlər demək olar ki, hər bir milli, regional, əyalət və hətta metropoliten iqtisadiyyatın, xüsusən də iqtisadi cəhətdən daha inkişaf etmiş ölkələrdə diqqəti çəkən xüsusiyyətdir [5, s 32]. Silikon Vadisi və Hollivud dünyanın ən məşhur klasterləri ola bilər. Bununla belə, klasterlər unikal deyil; onlar olduqca tipikdir və burada bir paradoks var: qlobal iqtisadiyyatda davamlı rəqabət üstünlükləri getdikcə daha çox yerli şeylərə - biliklərə, münasibətlərə, motivasiyaya - uzaq rəqiblərin uyğun gələ bilməyəcəyinə bağlıdır.

Bu nəzəriyyənin əhəmiyyəti rəqabət subyektlərinin məcmusunda “klasterlər iqtisadiyyatın təşkilinin yeni və əlavə üsulunu, onun dinamik inkişaf və regionlarda dövlət siyasətinin aparılması prinsipini anlamaq və bölgədəki klasterlərin vəziyyəti klaster iqtisadiyyatının istehsal potensialının daxili xassələri və onların gələcək inkişafı üçün mövcud olan məhdudiyyətlər haqqında mühüm təsəvvür yaradır”.

Şirkətlərin daxilində baş verənlər vacibdir, lakin klasterlər şirkətlərdən kənarda olan bilavasitə biznes mühitinin də mühüm rol oynadığını ortaya qoyur. Hollivudda əyləncə, Wall Street-də maliyyə və ya Yaponiyada istehlak elektronikası olsun, bir çox sahələrdə innovasiya və rəqabət uğurunun coğrafi baxımdan cəmləşdiyinə dair təəccüblü sübutlara baxmayaraq, məkanların bu rolu çoxdan nəzərdən qaçırılıb.

Qlobal iqtisadiyyatda yerləşmə paradoksunu aradan qaldırmaq şirkətlərin davamlı olaraq rəqabət üstünlüyü yaratdıqlarına dair fikirlər təklif edir [7, s 46]. Həm ölkə daxilində, həm də milli sərhədlər boyu klaster rəqabət qabiliyyətinə təsir göstərir. Buna görə də, onlar təkcə qlobal miqyasda rəqabət aparan deyil, bütün biznes rəhbərləri üçün yeni gündəmlərə səbəb olur. Daha geniş şəkildə desək, klasterlər şirkətlərin

necə konfiqurasiya edilməli olduğu, universitetlər kimi institutların rəqabət uğuruna necə töhfə verə biləcəyi və hökumətlərin iqtisadi inkişaf və rifahı necə təşviq edə biləcəyi ilə bağlı ənənəvi müdrikliyin çoxuna meydan oxuyan yerlə bağlı yeni düşüncə tərzini təmsil edir.

Klasterlər qrupları öz növbəsində ixrac məhsulları və xidmətlərin göstərilməsi üçün şirkətlər qurur. Sənaye klasteri tam sənaye zənciri, təchizatçılardan sonuna qədər məhsul, o cümlədən əlavə xidmətlər və ixtisaslaşdırılmış infrastrukturlar anlayışını təmsil edir [4, s 58]. Klasterdəki müəssisələr coğrafi cəhətdən cəmləşmişdir və əmtəə xidmətlərinin axını ilə bir-birinə bağlıdır.

S.İ. Sokolenko klasterin formalaşmasının aşağıdakı determinantlarını qeyd etdi:

- istehsalda miqyas iqtisadiyyatı;
- informasiyaya tam çıxış imkanı;
- spesifik təbii mövcudluğu;
- marketlərə yaxınlıq;
- ixtisaslaşmış işçi qüvvəsinin təmin edilməsi
- əməliyyatın aşağı qiyməti;
- əməkdaşlıq imkanı.

Fikrimizcə, belə əsas xüsusiyyətlərdə şərh odur ki, klasterin sərhədləri artıq mövcud olan sənaye bölgəsi tərəfindən müəyyən edilir və formalaşmışdırılır. Klasterə nümunələrdən biri də Kaliforniya şərab klasteri ola bilər. Buraya 680 kommersiya şərab zavodu, eləcə də bir neçə min müstəqil üzümçü daxildir [2, s 18]. Üzüm ehtiyatı, suvarma və yığım avadanlığı, çəlləklər və etiketlər tədarükçüləri də daxil olmaqla, həm şərabçılığı, həm də üzümçülüyü dəstəkləyən sənayelərin geniş tərkib hissəsi; ixtisaslaşmış ictimaiyyətlə əlaqələr və reklam firmaları; istehlakçı və ticarət auditoriyasına yönəlmiş çoxsaylı şərab nəşrləri mövcuddur. Devisdəki Kaliforniya Universitetində, Şərab İnstitutunda Kaliforniya senatının və assambleyasının xüsusi komitələrində dünyaca məşhur üzümçülük və şərabçılıq proqramı kimi bir sıra yerli qurumlar şərabla məşğuldur. Klaster, həmçinin kənd təsərrüfatı, qida və restoranlar, şərab ölkəsi turizmindəki digər Kaliforniya klasterləri ilə daha zəif əlaqələrə malikdir.

Növbəti qrup alimlər ərazi faktorunun daha az əhəmiyyət kəsb etdiyini deyir. Beləliklə, V. M. Kutyinə görə, klaster assosiasiyadır. Kutyin etdiyi araşdırmada Rusiyanın mövcud bölgələrini təsnif etdi və onları parçalayaraq yenidən bölgələrin xəritəsini hazırladı, oxşar iqtisadi vəziyyətə malik bölgələri yeddi qrupa böldü. Kutsin sənaye istehsalı indeksi, mənzil tikintisi, pərakəndə ticarət dövriyyəsi, kənd təsərrüfatı məhsulları kimi göstəriciləri seçdi . V. M. Kutinin nöqteyi-nəzərindən, klasterlərdə coğrafi determinizm yoxdur. Bundan əlavə, A. Voronov bu məsələni araşdıraraq belə bir nəticəyə gəldi ki, "klaster" ixtisaslaşdırılmış bir sıralı dəstdir.

Bütün yuxarıda deyilənləri təhlil edərək deyə bilərik ki, bir-biri ilə əlaqəli şirkətlər, ixtisaslaşmış mal və xidmət təchizatçıları, firmalar əsasında müvafiq sənaye sahələri, eləcə də onların təşkilatlarının müəyyən sahələrdə fəaliyyət göstərməsi, rəqabət aparan, lakin eyni zamanda birlikdə işləməsi klaster adlanır.

Beləliklə, coğrafi əhatə dairəsi bir şəhərdən fərli ola bilər klasterlər bir şəhərdən fərqli ola bilər və bölgəni bir ölkəyə və ya hətta bir sıra qonşu ölkələr. Klasterlər dərinliyindən və mürəkkəbliyindən asılı olaraq müxtəlif formalarda olur, lakin əksər hallarda hazır məhsul şirkətləri və ya xidmət şirkətləri də buna daxildir; ixtisaslaşdırılmış istehsal amilləri, komponentlər, maşınlar, eləcə də xidmət tədarükçüləri xidmətlər; maliyyə institutları; əlaqəli sənaye şirkətləri[6, s 19].

Klasterin bir hissəsi olmaq şirkətlərə mənbələrin əldə edilməsində daha məhsuldar fəaliyyət göstərməyə imkan verir: informasiya, texnologiya və lazım olan institutlara çıxış; əlaqəli şirkətlərlə əlaqələndirmə; təkmilləşdirmənin ölçülməsi və həvəsləndirilməsi. Canlı klasterlərdəki şirkətlər ixtisaslaşdırılmış və təcrübəli işçilərdən ibarət mövcud hovuza daxil ola bilər və bununla da işə qəbul zamanı onların axtarış və əməliyyat xərclərini azalda bilər. Klaster fürsət siqnalı verdiyinə və işçilər üçün yerdəyişmə riskini azaltdığına görə, digər yerlərdən istedadlı insanları cəlb etmək də asan ola bilər ki, bu da bəzi sənayelərdə həlledici üstünlükdür [1, s 78].

Yaxşı işlənmiş klaster həmçinin digər vacib məlumatları əldə etmək üçün səmərəli vasitələr təqdim edir. Belə bir klaster dərin və ixtisaslaşmış təchizatçı bazası təklif edir. Uzaq tədarükçülərdən deyil, yerli olaraq satınalma əməliyyat xərclərini azaldır. O, inventar ehtiyacını minimuma endirir, idxal xərclərini və gecikmələri aradan qaldırır və yerli reputasiya vacib olduğu üçün tədarükçülərin həddən artıq qiymət qoyması və ya öhdəliklərdən boyun qaçırması riskini azaldır. Yaxınlıq kommunikasiyanı təkmilləşdirir və təchizatçıların quraşdırma və sazlama kimi köməkçi və ya dəstək xidmətləri göstərməsini asanlaşdırır. Digər şeylər bərabər olduqda, yerli autsorsinq, xüsusən də daxil edilmiş texnologiya, məlumat və xidmət məzmununu əhatə edən qabaqcıl və ixtisaslaşmış daxilolmalar üçün uzaq autsorsinqdən daha yaxşı həlldir.

Uzaq tədarükçülərlə rəsmi ittifaqlar uzaq autsorsinqin bəzi mənfi cəhətlərini azalda bilər. Lakin bütün rəsmi ittifaqlar öz mürəkkəb sövdələşmə və idarəetmə problemlərini ehtiva edir və şirkətin çevikliyinə mane ola bilər. Bir klasterdəki şirkətlər arasında mümkün olan sıx, qeyri-rəsmi əlaqələr çox vaxt üstün bir

razılaşmadır. Beləliklə, klasterlərin formalaşması və inkişafı regionun rəqabət qabiliyyətinin səviyyəsini əhəmiyyətli dərəcədə artıracaq və eyni zamanda təkcə sosial-iqtisadi vəziyyəti deyil, bütövlükdə ölkə və regiona güclü təsir edəcək.

Ədəbiyyat

1. Боровик, С., //Ермакова Е.Е., Похвощев В.А. //Занятость населения: "Учебное пособие". - Ростов-но-Дону: Феникс, 2012, 138 с.

2. Кучуков Р. //Бэзальтернативность неоидустриальной модели. // № 5/2014, с. 92.

3. Мингалева Ж, Ткачева //С. Кластеры и формирование структуры региона / Мировая экономика , международные отношения, //№6 2014, С.48-55

4.Адамова, К.З. //Кластерная политика как инструмент повышения конкурентоспособности национальной экономики / № 18-18 - 2010. С.115

5. Мохначев, С А., Мохначева// Е.С. Тенденции кластеризации в региональной хозяйственной системе // Региональная экономика//теория и практика. 2011 №9(83).

6.Черников, ЕА. Использование кластерного подхода при реализации региональной политики // Региональная экономика: теория и практика. 2008, №2(45).

7. Developing Economies with Industrial Policy: //Towards a Toolbox for Economic Growth. //With Case Studies of Jordan and Egypt Maximilian Benner 2014.

8. Ferri G., & Liu L. Honor Thy Creditors Beforan Thy Shareholders: // Asian Economic Papers, 9(3), 2010, pp. 78-85.

Резюме

Алекберов А.А., Хасиев Э. Дж

Экономическая значимость и общие аспекты кластеризации

На сегодняшней экономической карте мира преобладают кластеры. Кластеры являются отличительной чертой почти каждой национальной, региональной, государственной и даже столичной экономики, особенно в экономически более развитых странах. Силиконовая долина и Голливуд могут быть самыми известными кластерами в мире. Однако кластеры не уникальны; они вполне типичны — и здесь кроется парадокс: устойчивое конкурентное преимущество в глобальной экономике все больше и больше зависит от местных вещей — знаний, отношений, мотивации, — с которыми далекие конкуренты не могут сравниться.

Ключевые слова: *рыночная экономика, кластер, отрасль, предприятия, социально-экономическая ситуация*

Summary

Alekbarov A.A., Khasiyev E.C

Economic Significance and General Aspects of Clustering

Today's economic map of the world is dominated by clusters. Clusters are a prominent feature of almost every national, regional, state and even metropolitan economy, especially in the more economically developed countries. Silicon Valley and Hollywood may be the most famous clusters in the world. However, clusters are not unique; they are quite typical - and here lies a paradox: sustainable competitive advantage in the global economy depends more and more on local things - knowledge, attitudes, motivation - that distant competitors cannot match.

Key words: *market economy, cluster, industry, companies, socio-economic situation*

BİZNES PROSESLƏRİNİN FORMALAŞMASINA NƏZƏRİ-METODOLOJİ YANAŞMALAR

Ələkbərov Arif Ələkbər oğlu, Həziyeva Sara Qulam qızı

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

heziyevasara6@gmail.com

Xülasə: *Biznes prosesi dedikdə, məzmun, zaman və məntiqi ardıcıllıqla müəyyən edilən iqtisadi əhəmiyyətli obyektin həyata keçirilməsi üçün zəruri olan əməliyyatların tam ardıcıllığı başa düşülür. Müəssisənin əsas məqsədlərinin (biznes məqsədləri) həyata keçirilməsinə kömək edən və onun fəaliyyətinin mühüm miqyasını təyin edən xüsusi proses "biznes prosesi"dir. Biznes prosesi çox mürəkkəb bir anlayışdır. Biznesin inkişafı bir-biri ilə əlaqəli əməliyyatlardan, prosedurlardan və fəaliyyətlərdən çox asılıdır.*

Açar sözlər: *biznes prosesləri, müəssisə, məhsul, istehsalçı, istehlakçı*

Müasir dünyada baş verən dinamik dəyişikliklər müəssisələrdən bu dəyişikliklərə adekvat reaksiya vermək zərurətini və onlardan müəssisələrin sahibkarlıq fəaliyyətinin təşkili və aparılmasının asanlaşdırılması üçün müvafiq tədbirlər görməyi tələb edir. Hər bir təşkilatın fəaliyyətinin əsasında müəssisənin məqsəd və vəzifələri ilə müəyyən edilən biznes prosesləri dayanır. Onların sayəsində müəssisənin əmtəə və xidmət istehsalı ilə əlaqəli fəaliyyətlərinin həyata keçirilməsi təmin edilir.

Proses anlayışının müəyyən dərəcədə ənənəvi olmasına və istənilən təşkilatda istifadə olunmasına baxmayaraq, bu gün ayrı-ayrı müəssisələrdə bu anlayışdan idarəetmə obyekti kimi istifadə edilməsinə ehtiyac vardır. Ümumiyyətlə, proseslər müəyyən nəticənin əldə edilməsinə kömək edən funksional əməliyyatların ardıcıl və sistemli icrası kimi müəyyən edilə bilər.

Geniş mənada biznes prosesi müəssisənin həyat dövrünün hər bir mərhələsində müvafiq fəaliyyətləri yerinə yetirməyə imkan verən strukturlaşdırılmış hərəkətlər ardıcıllığı kimi xarakterizə olunur. Biznes prosesi həm də müxtəlif fəaliyyətlərin məcmusu kimi təqdim oluna bilər ki, onların ilkin mərhələlərində tək və ya çoxlu resurslardan istifadə edilir və nəticədə son mərhələdə istehlakçı üçün dəyərli məhsul yaranır [1,s. 17].

Hal-hazırda biznes prosesləri konsepsiyasının bir çox tərifləri vardır. Onların hamısı biznes prosesini müxtəlif nöqteyi-nəzərdən təsvir edir. Aşağıda müxtəlif müəlliflər tərəfindən biznes proseslərinin tərifləri göstərilmişdir.

Cədvəl 1.

Biznes prosesinin tərifləri

Müəllif	Tərif
M.Porter və V.Miller	Biznes prosesi, giriş və çıxış nöqtələri, interfeyslər və təşkilati qurğular vasitəsilə müəyyən edilmiş bir anlayışdır.
M.Hammer və C. Çampi.	Biznes prosesi sistemli, qapalı bir axın prosesidir. Bu prosesin başlanğıcı ("giriş"), müəyyən sayda fəaliyyət mərhələləri və "çıxışda" əldə edilən nəticəsi vardır.
L.M.Eriksson	Biznes prosesi: daxili və xarici istehlakçıları qane etmək, müəyyən nəticələrə və ya məhsullara nail olmaq, müəssisənin resurslarını emal etmək üçün istifadə olunan məntiqi, əlaqəli və təkrarlanan hərəkətlər zənciridir.

Mənbə: *Дубровин И.А. Бизнес-планирование на предприятии: учебник для бакалавров, 2013.s, 42.*

Təşkilatın həyat dövrünün strukturunda müəyyən edilmiş biznes prosesləri təşkilatın müəyyən iqtisadi bölmələri üçün aşağıdakı tələblərə əsaslanır:

1. Biznes prosesləri müəyyən edilə və müvafiq sərhədlərlə məhdudlaşdırıla bilər;
2. Biznes prosesi çərçivəsində fəaliyyət nəticəsində əldə edilən məhsulun (xidmətin) istər şirkət daxilində, istərsə də ondan kənarda son istifadəçisi olmalıdır;
3. Biznes prosesinin hüdudları texnoloji və ya funksional prinsiplərlə müəyyən edilmir, onlar istehlakçı-müştəri müraciətinə əsaslanır;
4. Biznes proseslərinin sərhədlərinin müəyyən edilməsində əsas və ən mühüm fiqurlar mühəndis və texnoloqlar deyil, menecerlər və iqtisadçılardır.

Müəssisənin biznes proseslərini xarakterizə edən bir neçə təsnifat var. Biznes proseslərinin ən müfəssəl təsnifatlarından birinə aşağıdakı elementlər daxildir:

- əsas proseslər;
- müşaiyət prosesləri;
- köməkçi prosesləri;
- dəstəkləyici proseslər;
- idarəetmə prosesləri;
- inkişaf prosesləri.

Müəssisənin yaradılmasının hədəf obyektləri olan və gəlir əldə etməyə töhfə verən xidmət və ya son məhsul istehsalına yönəlmiş proseslər müəssisənin əsas biznes proseslərindəndir [4,s.173].

Müşaiyət olunan proseslərə əsas istehsalı müşayiət edən və gəlir əldə etməyə töhfə verən istehsal fəaliyyətləri vasitəsilə məhsul istehsalına və ya xidmətin göstərilməsinə imkan verən proseslər daxildir.

Köməkçi biznes proseslərinə əsas biznes proseslərinin həyata keçirilməsini təmin edən və onların əsas xüsusiyyətlərini müəyyən edən proseslər daxildir.

Dəstək biznes proseslərinə bütün digər biznes proseslərinin həyati dəstəyinə imkan verən və onların əsas universal xüsusiyyətlərini (mühəndis-texniki təminat, kadr təminatı, fəaliyyətin maliyyə təminatı və s. prosesləri) müəyyən edən proseslər daxildir.

İdarəetmə biznes proseslərinə həm bütövlükdə biznes sistemi səviyyəsində, həm də vahid biznes prosesi səviyyəsində idarəetmə sistemini təmsil edən proseslər (idarəetmə tədbirlərinin formalaşması və həyata keçirilməsi, strateji, əməliyyat və cari planlaşdırma prosesləri) daxildir [5,s.39].

İnkişaf biznes proseslərinə istehsal olunan əmtəə və xidmətlərin, texnologiyaların, avadanlığın modifikasiyası (iqtisadiyyatın müxtəlif sahələrində texniki yenidən təchizat prosesi, elmi-tədqiqat işlərinin aparılması və s.) təkmilləşdirilməsinə kömək edən proseslər daxildir [4,s. 175].

Cədvəl 2.

Biznes proseslərin ümumi təsnifatı

Növləri	Xüsusiyyətləri
Əsas biznes proseslər	Məhsul və xidmətin dəyərini yaradır; Xarici istehlakçı üçün maraqlı olan məhsul yaradır; İstehlakçının pul ödəməyə hazır olduğu nəticəni formalaşdırır.
Dəstəkləyici biznes prosesləri	Müəssisənin infrastruktunu əmələ gətirir; Daxili və xarici imici formalaşdırır.
Köməkçi biznes prosesləri	Əlavə dəyər yaradır; Müştəri rəğbətinin artırılmasına kömək edir.
İnkişaf biznes prosesləri	Uzunmüddətli perspektivdə gəlir əldə olunmasına məqsədlənir; Müəssisənin fəaliyyətinin mükəmməlləşdirilməsini təmin edir.
İdarəetmə biznes prosesləri	Müəssisənin ümumi idarəedilməsinə fokuslanır.

Mənbə:*https://studref.com/354145/menedzhment/biznes_protsessy_kommercheskoy_organizatsii /İstinad tarixi:10.09.2022.*

Biznes proseslərini təsvir edərkən müəssisə qarşıya aşağıdakı məqsədləri qoyur:

- fəaliyyətin təşkilinin ümumi strukturunu başa düşmək və onun inkişaf dinamikasını müəyyən etmək;
- mövcud problemləri və onların aradan qaldırılması imkanlarını müəyyən etmək;
- bütün iştirakçılar (inkişafçılar, istifadəçilər, müştərilər və s.) üçün başa düşülən məqsəd və vəzifələr sistemini yaratmaq;
- lazımi proqram təminatına tələbləri formalaşdırmaq.

Sxem. Biznes proseslərin kommersiya məqsədləri

Mənbə:*https://studref.com/354145/menedzhment/biznes_protsessy_kommercheskoy_organizatsii /İstinad tarixi:10.09.2022.*

Məhsulların (xidmətlərin) layihələndirilməsi - müştəri tələblərinin toplanması və təhlili, bu tələblərə cavab verən məhsulların (xidmətlərin) hazırlanması prosesidir.

Marketinq və satış - satış əməliyyatlarının həyata keçirilməsi üçün bazarın tədqiqi, reklam, malların paylanması və təşviqi fəaliyyətlərini özündə birləşdirmiş olur.

Satınalma - xammal və materialların planlaşdırılması, alınması və əsas istehsalatın vacib xammalla təmin edilməsi buraya daxildir.

İstehsal - tədarük zənciri tərəfindən alınan girişləri xarici müştərilərə təklif olunan çıxışlara çevirən bir biznes prosesdir.

İdarəetmə - strateji, cari, təşkilatlanma, əlaqələndirmə və tənzimləmə proseslərini özündə birləşdirir.

Təminat - sənaye binalarının saxlanması prosesləri və digər ümumi daxili proseslər daxildir.

Bütün təşkilati proseslər bir-biri ilə bağlıdır və bəzən bir-birini ciddi şəkildə tamamlamış olurlar [2, s. 295].

Şərti olaraq, biznes prosesini bir neçə mərhələyə bölmək olar:

- Hazırlıq mərhələsi - daxiletmə obyektlərinin, transformasiya funksiyası üçün resursların hazırlanması.

-Təsir mərhələsi - resursların köməyi ilə giriş obyektlərinin nəticəyə çevrilməsi həyata keçirilir.

- Qiymətləndirmə mərhələsi - transformasiya funksiyasından alınan nəticə proqnozlaşdırılan verilənlərlə müqayisə edilir.

- İstehlakçı mərhələsi - transformasiya funksiyasının nəticəsi istehlakçıya ötürülür, bununla da zəruri hallarda çatışmazlıqlara tez reaksiya verməyə imkan verir.

Biznes prosesləri aşağıdakı "ölçülərə" malikdir [3, s.68]:

- Məhsuldarlıq (məhsuldarlıq) - prosesdən istifadə etməklə nə qədər gəlir əldə ediləcək;
- Xərclər (xərclər) - prosesə nə qədər xərcləməli olduğunuz;
- Səmərəlilik - məhsuldarlıq və xərclərin nisbəti.

Müəssisəni xammal, onların emalı, dəzgahlarda işləyən işçilər və mühasiblər olmadan təsəvvür etmək mümkün deyil. Müəssisə bütöv bir orqanizm kimi fəaliyyət göstərən qapalı sistemdir [6,s.125].

Ədəbiyyat

1. Abbasov A.B. “Biznesin əsasları” Bakı 2005., 644 səh.

2. Кондратьева, В. В. 7 нот менеджмента. Настольная книга руководителя / под ред. В. В. Кондратьева. М., 2007. 832 с.

3. Вайкок, М.А. Особенности влияния бизнес-процессов на эффективность деятельности предприятия // Инфраструктурные отрасли экономики: проблемы и перспективы развития. 2014. №4. С. 172–176.

4. Вайкок, М.А. Формирование системы показателей для оценки эффективности бизнес-процессов на промышленном предприятии // Экономика и современный менеджмент: теория и практика. 2014. №40. С. 35–44.

5. Дубинина, В. В. Управление бизнес-процессами предприятия // Вестник Самарского государственного университета. 2015. №5 (127). С. 39–47

6. Козлов, А. С. Проектирование и исследование бизнес-процессов: учеб. пособие / А. С. Козлов. – 4-е изд., стер. – М. : Флинта, 2011. – 267 с.

Резюме

Алекберов А.А., Хазиева С.Г.

Теоретико-методологические подходы к формированию бизнес-процессов

Под бизнес-процессом понимается полная последовательность операций, необходимых для реализации экономически значимого объекта, определяемая содержанием, временем и логической последовательностью. Особый процесс, способствующий реализации основных целей предприятия (бизнес-целей) и определяющий важные масштабы его деятельности, называется «бизнес-процесслом». Бизнес-процесс также может быть представлен как совокупность различных видов деятельности, на начальных этапах которых используется один или несколько ресурсов, а в результате на конечном этапе создается продукт, представляющий ценность для потребителя.

Ключевые слова: *бизнес-процессы, предприятие, товар, производитель, потребитель*

Summary

Alekbarov A.A., Haziyeva S.G

Theoretical-Methodological Approaches to the Formation of Business Processes

Business process means the complete sequence of operations necessary for the implementation of an economically significant object, determined by content, time and logical sequence. A special process that contributes to the realization of the enterprise's main goals (business goals) and determines the important scale of its activity is a "business process". A business process can also be represented as a set of different activities, the initial stages of which use single or multiple resources, and as a result, a product of value to the consumer is created at the final stage.

Key words: *business processes, enterprise, product, producer, consumer*

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ ƏMƏK EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Əliyev Elnur Məhəmməd oğlu
Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
elnur.aliyev@ereforms.gov.az

Xülasə: *Məqalədə müəssisənin əmək ehtiyatlarından istifadənin səmərəliliyi göstəricilərinin təhlilinin əsas vəzifələri açıqlanmışdır. Həmin ehtiyatlardan istifadə göstəriciləri qiymətləndirilmiş və səmərəliliyinin təhlili metodologiyası ardıcıl mərhələlərlə nəzərdən keçirilmişdir. Dövlət Statistika Komitəsinin məlumatları əsasında Azərbaycan sənayesi üzrə əmək ehtiyatlarından istifadə üzrə bəzi göstəricilər təhlil edilmişdir. Aparılan təhlil prosesində bir sıra tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür.*

Açar sözlər: *əmək ehtiyatları, kadr, əmək məhsuldarlığı, əməkhaqqı, məhsul, istehsal, səmərə, göstərici, sənaye, müəssisə*

İnsan əməyinin iştirakı olmadan hər hansı bir məhsul istehsalı qeyri-mümkündür. Üstəlik, bazarlarda fəaliyyət göstərən müəssisələr rəqabət üstünlüklərini qazanmaq üçün əmək ehtiyatlarından istifadənin səmərəliliyini artırmalıdır. Bu ehtiyatların səmərəli idarə olunması kadrların işə qəbulu, saxlanılması, ixtisas səviyyəsinin yüksəldilməsi və işçilərin layiqli rifahının təmin edilməsi yönümlü təşkilati və sosial-iqtisadi tədbirlərin görülməsindən asılıdır. Bu baxımdan, həmin ehtiyatların istifadəsinin səmərəliliyinin artırılması məqsədilə ehtiyat və amillərin axtarışı, əmək xərclərinin optimal planlaşdırılması və proqnozlaşdırılması prioritet idarəetmə vəzifələridir.

Əməkdən istifadənin səmərəliliyi göstəricilərinin təhlilinin əsas vəzifələri aşağıdakılardır:

1. Məqsədə çatma səviyyəsini müəyyənləşdirmək və qiymətləndirmək, əmək məhsuldarlığının daha da artması yollarını müəyyənləşdirmək;

2. Əmək haqqı fondunun, idarəetmə səmərəliliyinin dərəcəsini və istehsalın artırılması yollarını müəyyənləşdirmək.

Bir çox iqtisadçılar əməyin istifadəsinin səmərəliliyini əks etdirən göstəricilərin qiymətləndirilməsi metodlarının inkişafına xüsusi diqqət yetirir. Ənənəvi qiymətləndirmə metodları daima dəyişən bazar şəraiti səbəbindən hər gün genişlənir [4].

Bu gün müəssisənin bütün sahələrdə - istehsal, maliyyə və əmək ehtiyatlarının rasional idarə olunmasına ehtiyac var. Əmək ehtiyatlarının mövcudluq səviyyəsi və onlardan istifadənin səmərəliliyi istehsal həcminin artmasına, məhsul satışına və bütövlükdə müəssisənin səmərəliliyinin yüksəldilməsinə təsir edən birbaşa göstəricilərdir. Hər bir təşkilat üçün kadr potensialının saxlanılması, işçilərin əmək haqlarının və sosial müavinətlərin artırılması, eyni zamanda əmək məhsuldarlığının, iş vaxtının səmərəliliyinin artırılması məsələləri mühüm olaraq qalır. Kiçik müəssisələrdə əmək ehtiyatları problemləri kompleksinin tədqiqi ölkədə onlardan istifadənin bazar mexanizminin formalaşmasını izləməyə imkan verir. Rəhbərliyin əmək ehtiyatlarının təhlili üçün effektiv alətləri olmadıqda, kadrların səmərəliliyinin artırılması zərurəti bütün mənasını itirəcəkdir. Bazar şəraitində əmək ehtiyatlarından istifadənin səmərəliliyinin təhlili metodologiyası aşağıdakı mərhələləri əhatə edir:

1) Əmək ehtiyatlarından istifadənin vəziyyətinin və səmərəliliyinin xüsusiyyətlərini təhlil etmək üçün göstəricilərin müəyyənləşdirilməsi.

2) Seçilmiş göstəricilərin qiymətlərinin müəyyənləşdirilməsi və onların dəyişmə dinamikasının hesablanması.

3) Əmək ehtiyatlarından istifadə göstəricilərinin dəyişməsinə təsir edən amillərin və səbəblərin müəyyənləşdirilməsi.

4) Müəyyən edilmiş amillərin hər birinin ayrı-ayrılıqda və digər amillərlə bağlı təhlilinin aparılması.

5) Əmək ehtiyatlarından istifadənin səmərəliliyini yüksəltməyə yönəlmiş qərarların qəbulu üçün tövsiyələrin hazırlanması [1].

Əmək ehtiyatlarının təhlilinin təklif olunan mərhələləri əsasında onlardan istifadənin səmərəliliyini artırmaq və əmək haqqı fonduna qənaət etmək üçün amilləri müəyyənləşdirmək olar:

- texnika və texnologiyanın vəziyyətinin yaxşılaşdırılması, istehsalın innovasiya və modernləşdirilməsinin tətbiqi;
- məhsulların çeşidinin və keyfiyyətinin genişləndirilməsi;
- iş vaxtı itkisinin azaldılması;
- işçilərin məhsuldarlığının artırılması;
- işçilərin əməyinin ödənilməsinin səmərəli təşkili və işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi.

Kadrlarla bağlı idarəetmə qərarları qəbul etmək və onlardan istifadənin effektivliyini təhlil etmək üçün yuxarıda göstərilən təhlil mərhələlərini və tələb olunan göstəricilərin hesablanması zəruridir.

Müəssisənin kadrlarla təmin edilməsi işçilərin həqiqi sayını kateqoriyaya və peşəyə görə planlaşdırılan ehtiyacla müqayisə etməklə müəyyən edilir. Plan bir il ərzində tərtib olunan ştat cədvəlidir. Bundan əlavə, hər bir işçinin faktiki təhsil səviyyəsinin tutduğu vəzifəyə uyğunluğu üçün kadrların keyfiyyəti təhlil edilir və kadr seçimi, onların hazırlanması və ixtisasartırma ilə bağlı məsələlər öyrənilir. Əmək ehtiyatlarının ümumi qiymətləndirilməsi dinamikada həyata keçirilə bilər ki, bu da ümumilikdə müəssisə üçün kadr dəyişikliyi faktlarını işçilərin kateqoriyası, struktur bölmələri, fəaliyyət sahələri kontekstində müəyyənləşdirməyə imkan verir [5].

Fərqli iqtisadi fəaliyyət növləri arasında onların yenidən bölüşdürülməsinə səbəb olan işçilərin sayının dəyişməsi prosesinə əməyin hərəkəti deyilir. Əməyin hərəkətini, onun səmərəli idarə edilməsini və paylanmasını qiymətləndirmək prosesində mütləq və nisbi göstəricilər hesablanır. Əməyin hərəkətinin mütləq göstəricilərinə aşağıdakılar daxildir: dövrün əvvəlindəki işçilərin sayı, dövrün sonundakı işçilərin sayı, işə götürülmüş işçilərin sayı, məzuniyyətdə olan işçilərin sayı, faktiki işləyənlərin sayı. Əməyin hərəkətinin nisbi göstəricilərinə daxildir: qəbul üzrə dövriyyə əmsalı, sərəncamda olan dövriyyə əmsalı, kadr dəyişikliyi, ümumi dövriyyə əmsalı.

İş vaxtının istifadəsini qiymətləndirmə prosesində, təhlil olunmuş müddətdə işlənmiş günlərin və saatların sayı müəyyənləşdirilməklə iş vaxtından istifadə dərəcəsi də müəyyənləşdirilir. İş vaxtının istifadəsinin təhlili işçilərin hər kateqoriyası üçün və bütövlükdə müəssisə üzrə aparılır. İş vaxtı məhsul istehsalına və işlərin (xidmətlərin) yerinə yetirilməsinə sərf olunan təqvim vaxtının bir hissəsidir. Adam-gün və adam saatları ilə ölçülür [3].

Şəkil. İqtisadi fəaliyyət sahələri üzrə muzdla çalışan işçilərin sayı, min nəfər

Şəkildən davamlı olaraq iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin sayında davamlı artım müşahidə olunmuşdur. Ən çox muzdla çalışanların sayı 2021-ci ildə olmuşdur (1709,1 min nəfər). Həmin ildə iqtisadi sahələrdə muzdla çalışanların sayı 2020-ci ilə görə, 0,6%, 2019-cu ilə görə 3,8%, 2015-ci ilə görə 13,8%, 2010-cu ilə görə 23,6%, 2005-ci ilə görə isə 31,8% artmışdır.

Ümumiyyətlə, əmək ehtiyatlarından istifadənin səmərəliliyini təhlil etmək metodologiyası, bir qayda olaraq, aşağıdakı ardıcıl mərhələlərlə həyata keçirilir:

1. Müəyyən bir müddət ərzində müəssisəsinin əmək ehtiyatlarından istifadənin vəziyyətini və səmərəliliyini xarakterizə etmək baxımından təhlil üçün zəruri göstəricilərin müəyyənləşdirilməsi.

2. Seçilmiş göstəricilərin dəyərlərini müəyyənləşdirmək və keçmiş dövrlərlə müqayisədə onların dəyişmə dinamikasını hesablamaq.

3. Müəssisəsinin işçi qüvvəsinin fəaliyyətində və istifadəsində dəyişikliklərə təsir edən amillərin və səbəblərin müəyyən edilməsi.

4. Müəyyən edilmiş amillərin hər birini ayrı-ayrılıqda və digər amillərlə əlaqəli şəkildə təhlil etmək.

5. Baxılan göstəricilərin həm istehsal, həm də satılan məhsulların keyfiyyətinə və həcminə təsir dərəcəsinin müəyyənləşdirilməsi.

6. Böhran vəziyyətində əməyin istifadəsinin səmərəliliyinin artırılmasına yönəlmiş qərarlar qəbul etmək məqsədilə iqtisadi təhlil əsasında tövsiyələrin hazırlanması.

Fikrimizcə, müəssisə rəhbəri, idarəetmə qərarı verərkən, əmək ehtiyatlarından istifadənin səmərəliliyi göstəricilərinin təhlilinin nəticələrinə diqqət yetirməlidir.

Ədəbiyyat

1. Abbasov A.B. və başqaları. Biznesin təşkili və idarə edilməsi. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2011. 464 s.
2. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2019, 252 s.
3. Bazarov T. Y., Yereminin B.L. Heyətin idarə edilməsi. (tərcümə) Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2012. 248 s.
4. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı, Azərnəşr, 2009, 600 s.
5. Лытнева Н.А. и др. Бухгалтерский учет и анализ. Ростов н/Д: Феникс, 2011, 604 с.

Резюме

Алиев Э.М.

Оценка эффективности использования трудовых ресурсов на промышленных предприятиях

В статье разъясняются основные задачи анализа показателей эффективности использования трудовых ресурсов предприятия. Последовательно оцениваются показатели использования этих ресурсов и последовательно пересматривалась методология анализа эффективности. На основе данных Госкомстата проанализированы некоторые показатели использования трудовых ресурсов в промышленности Азербайджана. В процессе анализа был выдвинут ряд рекомендаций.

***Ключевые слова**: трудовые ресурсы, персонал, производительность труда, заработная плата, продукт, производство, эффективность, показатель, отрасль, предприятие.*

Summary

Aliyev E.M.

Evaluation of the Efficiency of the Use of Labor Resources at Industrial Enterprises

The article explains the main tasks of the analysis of indicators of the effectiveness of the use of labor resources of the enterprise. The use of these resources was consistently assessed and the methodology for performance analysis was consistently revised. Based on the data of the State Statistics Committee, some indicators of the use of labor resources in the industry of Azerbaijan are analyzed. During the analysis, a number of recommendations were put forward.

***Key words:** labor resources, cadre, labor productivity, wages, product, production, efficiency, indicator, industry, enterprise.*

MÜASİR MƏRHƏLƏDƏ TİKİNTİ ŞİRKƏTLƏRİNİN İDARƏ EDİLMƏSİ SİSTEMİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

Əliyev Ə.M., Məmmədov Ş.N.

Azərbaycan Memarlıq və İnşaat Universiteti

elesger-eliyev@list.ru ; sabanmamedov@gmail.com

***Xülasə:** Məqalədə tikinti şirkətlərinin idarə edilməsi,kompleks təşkilinin yenidən qurulmasi kimi məsələlər araşdırılmışdır. Məlum olduğu kimi biznesin mənfəətliliyinin təmin olunmasinda idarəetmə sisteminin formalaşması böyük əhəmiyyətə malikdir. Bununla bağlı məqalədə idarəetmə anlayışını aydinlaşdırmaq üçün bir sıra konsepsiyalardan istifadə edilir.Məqalədə həmçinin maddi istehsalın spesifik sahəsi kimi tikinti şirkətinin xüsusiyyətləri öyrənilir. Yekunda tikinti şirkəti üçün mühüm məqsədlər göstərilir.*

***Açar sözlər:** tikinti şirkəti, təşkilati struktur, idarəetmə sistemi, missiya, xarici mühit, idarəetmə metodları, maliyyə sabitliyi*

Ölkə iqtisadiyyatında investisiyanın canlanması üçün tikinti şirkətlərinin idarə edilməsinin təşkilati strukturlarının təkmilləşdirilməsinin metodoloji əsaslarının işlənilməsi aktuallığı daha da artır.

Rəqabət mühiti şəraitində tikinti şirkətlərinin fəaliyyət dinamikasının yüksəlməsi onların çevik və yerli mühitə uyğunlaşmasını tələb edir. Eyni zamanda tikinti şirkətlərinin təşkilati strukturları dəyişilən informasiyalar axınının yükünə davam gətirmək qabiliyyətinə malik deyillər, ənənəvi olmayan qərarların işlənməsi üsulları ləngiyir və baş verən dəyişikliklərə tikinti şirkətlərinin səmərəli reaksiyasına maneçilik törədilir. Belə fəaliyyətdə olan tikinti şirkətlərinin kompleks təşkilinin yenidən qurulması obyektiv zərurətə çevrilir.

Müəssisə belə halda özünəməxsus, yəni müxtəlif sosial-iqtisadi prosesləri vaxt və məkanda birləşdirən, bütöv iqtisadi subyekt kimi rolunu yerinə yetirir. Burada vaxta görə birləşmə əsas olur və müəssisənin mövcudluğu və təhlükəsizliyini təmin edir. Bu zaman müəssisəyə birləşmə konsepsiyasına uyğun müstəqil sosial-iqtisadi sistem kimi baxılır və məhsulun istehsal prosesi vaxt və məkana görə birləşdiilrir. Belə halda sosial-iqtisadi sistemə istifadə olunan resursların (material, əmək) və istehsal münasibətlərin məcmusu kimi baxılır, həmin sistem müəyyən növdə məhsulu (xidmətləti) bölüşdürə , yenidən bölüşdürə və mübadilə edə bilər [5].

Sosial sistem kimi müəssisə müəyyən sosial məqsədlərə nail olmaq üçün təşkilati struktur kimi fəaliyyət göstərir və insanları müxtəlif funksiyalar ilə birləşdirir. İqtisadi sistem kimi müəssisə vahid məqsədə nail olmaq üçün tətbiq olunan resursların cəmi kimi xarakterizə olunur [3]. Yuxarıda göstərdiklərimiz tikinti şirkətlətinə (müəssisələrinə) tamamilə aiddir.

İdarəetmə sisteminin formalaşması tikinti şirkətinin məqsədyönlü fəaliyyəti və qarşıya qoyulan tapşırığın yerinə yetirilməsi nəticəsində biznesin mənfəətliliyini təmin etməlidir. Belə halda tikinti şirkəti öz nailiyyətlərinə nail olmaq üçün idarəetmə sisteminin rolunu artırmalıdır. Deməli, tikinti şirkətinin qarşıya qoyduğu məqsədlərə nail olması idarəetmə sisteminin effektliyini göstərir.

Sistem haqqında danışmazdan əvvəl "idarəetmə" terminini aydınlaşdırmaq zəruridir. Bu anlayış haqqında çoxlu fikirlər mövcuddur. Belə ki, Rusiyanın böyük iqtisadi lüğətində idarəetmə "rəhbərlik, kiminsə fəaliyyətinin istiqaməti" kimi izah olunur. İqtisadi mənbələrdə "idarəetmə" anlayışından əlavə müəssisə səviyyəsində sosial- iqtisadi prosesləri izah etmək məqsədilə "menecment" terminindən istifadə olunur. Belə ki, "istehsalın effektivliyi və mənfəətin artırılması məqsədilə işlənilən və tətbiq olunan, istehsalın idarə edilməsinin prinsipləri, metodları, vasitələri və formalarının cəmi" menecmenti müəyyən edir [4]. Menecment sahəsində ən məşhur mütəxəssislərdən biri olan U.X.Ansoff menecment anlayışını vəziyyətin, qərarların qəbul edilməsinin, liderliyin, kommunikasiyaların, motivasiyaların, uçot və nəzarətin təhlilindən ibarət proses kimi dəyərləndirir [4]. Biz U.X.Ansoffun mövqeyi ilə razıyıq, çünki menecment müxtəlif kommersiya strukturlarının iqtisadi və idarəetmə sahəsində cəmiyyətin ümumiləşdirmiş təcrübəsini əks etdirən elm kimi başa düşülür.

İdarəetmə sistemində sosial-iqtisadi, texniki və təşkilati resursların səmərəli istifadə edilməsi onun istehsal fəaliyyətinin əsas məqsədini təşkil edir.

İdarəetmənin əsas sisteminə tədqiqat, layihələndirmə, şirkətin idarə edilməsi obyekti və s. aiddir, onlar isə sistemli yanaşmaya əsasən icra olunurlar. İdarəetmənin hər hansı bir sistemi müstəqil olaraq istehsal fəaliyyətinin məqsədlərini əks edir və ya proseslərin, strukturun və resursların birgə əlaqəsi ilə birlikdə baxılır. Tikinti şirkətinin bütün elementlərinə birgə baxılması və öyrənilməsi sistemli yanaşmaya əsasən yerinə yetirilir. İdarəetmə sistemində müxtəlif məktəblərin yanaşması sayəsində əsas diqqət seçilən bir elementə cəmləşdirilir. ancaq ona təsir edən amillərin idarə edilməsinin səmərəliliyi müəyyən edilmir.

Sistemli yanaşma idarə edən üçün prinsiplərin cəmləşdirilməsi olmaqla bərabər idarəetmə sahəsində müəyyən münasibətlərin yaxşılaşdırılması üsuludur.

İnsanlar şirkətin sosial tərkibi və ya komponentləri olduğuna görə sistemi texnika vasitəsilə işlərin yerinə yetirilməsində istifadə edirlər və ona görə də onu sosial texniki sistem adlandırırlar. Hal-hazırda sistemin qapalı və açıq üsulu mövcuddur. Qapalı sistemin fəaliyyəti ətraf mühitdən nisbi asılı olmur.

İdarəetmə sisteminin açıq üsulu isə xarici mühitdən asılı olur. Sistemin sərhədləri vasitəsilə informasiya, materiallar, enerji xarici mühitdən asılı olaraq dəyişilir. Belə sistem özünü təmin etmir və xaricdən alınan materiallar, informasiyalar və enerjidən asılı olur. Ona görə də tikinti şirkətlərinin mövcudluğu xarici mühitin vəziyyətindən asılıdır. Tikinti şirkətinin xüsusiyyətlərinə məxsus onun spesifikası öyrənilir. Mürəkkəb sistemə malik olan şirkətlər (insan və maşınlar) çox halda özləri sistemə çevrilirlər. Belə halda onları alt sistem adlandırırlar. Şirkətin daxilində şöbələrin rəhbərləri alt sistemi yaratmağa çalışırlar.Tikinti şirkətinin alt sisteminə onun texniki, texnoloji, sosial, təşkilat-iqtisadi tərkib hissələri aiddirlər. Şirkətin alt sistemləri mürəkkəb açıq sistemin qarşılıqlı əlaqələrini yaradırlar. Tikinti şirkətinin biznes-proseslərinə uyğun meyarları tətbiq etməklə idarəetmə sistemini qiymətləndirirlər: məhsulun reallaşdırılması, əməkdaşların inkişafı, maliyyə vəziyyətini və s.

Tikinti şirkətlərinin təşkilati-hüququ formalarından asılı olaraq qapalı dairədə idarəetmənin nisbəti dəyişilir. Qapalı dairədə idarəetmə adətən səhmdar cəmiyyətlərində reallaşdırılır, törəmə şirkətlərində isə nisbətən azlıq təşkil edir.

İdarəetmənin elmi əsaslarına uyğun istehsalın elmi idarə edilməsi şirkətin rəhbərliyinin nəzəri və metodoloji biliyə malik olmasını formalaşdırır. Idarəetmə nəzəriyyəsi və idarəetmə sənətinin sıx əlaqəsi elmi idarəetməni xarakterizə edir. İdarəetmə sistemi müxtəlif təsərrüfat problemlərinin icrasının başlanğıcını xarakterizə edir və müəyyən dərəcədə subyektiv olur.

Şirkətin idarə edilməsinə aiddir: informasiya sistemi,təşkilati struktur, idarəçilik qərarları nəzəriyyəsi, idarəetmənin metodları və prinsipləri. Qabaqcıl ölkələrin şirkətlərinin təcrübəsinin öyrənilməsi göstərir ki, onların idarə edilməsinin strukturu mövcuddur və funksiyalara bölünürlər. Qabaqcıl şirkətlərin heyəti idarəetmə nəzəriyyəsinin metodlarınnın yeni alətlərini öyrənmiş, mənimsəmiş və təkmilləşdirmişdir. Həmin şirkətlərin idarəetmə sistemi müstəqil, dəqiq, mürəkkəb və səmərəli olmuşdur. Onların menecerləri qabaqcıl təcrübəni istifadə edərək təkmilləşdirilmiş alətləri tətbiq etməklə, rəqabətdə üstünlük əldə edərək iqtisadiyyatını yaxşılaşdırmış və səmərəli sistem yaratmışlar. Son illərdə ölkəmizdə və xaricdə həmin sistemin əsasını şirkətlərin strateji idarə edilməsi ideyası təşkil edir.

Tikinti şirkətlərinin təşkilat strukturu da onun imkanlarına təsir edir. Qeyd etmək lazımdır ki, şirkətlərin bəziləri öz strategiyasını işləmək və reallaşdırmaq qabiliyyətinə malik deyillər. Ona görə də perspektivə onların mövcud olması və mənfəət əldə etməsi üçün xarici mühitə uyğunlaşmaları lazımdır. Strategiyanın formalaşması, reallaşdırılması xarici və daxili mühitə uyğunlaşması üçün strateji menecment subyektinin kifayət olan qədər imkanları vardır.

Tikinti şirkəti hər şeydən əvvəl onun yaradılmasının təşkilati hüquqi formasının seçilməsi və konkret məqsəd və vəzifələri ilə xarakterizə edilir və öz fəaliyyətini qarşıda duran uzun dövr üçün müəyyən edir. Öz məqsəd və vəzifələrinin müəyyən edilməsinin başlanmasına qədər tikinti şirkəti öz vəzifəsini formalaşdırmalıdır.

Hazırda tikinti şirkəti üçün birinci növbəli və mühüm məqsədlər aşağıdakılardır:

- zəruri səmərəliliyin (rentabelliyin, mənfəətin, gəlirliliyin) təmin edilməsi;
- rəqabət qabiliyyətli məhsulun istehsalı üzrə şəraitin yaradılması və funksiyaların reallaşdırılması;
- ödəmə qabiliyyətinin saxlanılması, maliyyə sabitliyinin təmin edilməsi və öz öhdəliklərinin icra edilməsi.

Nəticə.

1.İdarəetmənin təşkilat strukturu idarəetmənin bölmələri, idarəetmə proseslərinin yerinə yetirilməsi gedişində onların arasındakı münasibətlər və əlaqələr başa düşülür.

Təşkilati strukturların tiplərinin təhlilinə əsasən demək olar ki, hal-hazırda ölkənin tikinti şirkətlərinin əksəriyyəti üçün idarəetmənin ierarxiya strukturu xarakterdir. Onlarda üstünlük rolunu xətt-ştat və xətt-funksional strukturları təşkil edirlər. Ancaq müəyyən mərhələdə şirkətlərin inkişafında idarəetmə strukturunun dəyişdirilməsi və optimallaşdırılması mühüm vəzifə olmalıdır.

2.İdarəetmənin müxtəlif təşkilat strukturunun öyrənilməsi göstərdi ki, matrisa strukturu tikinti şirkətinin idarə edilməsi sisteminin ən optimalı hesab edilir. Təşkilat strukturunun layihələndirilməsində şirkətlərin rəhbərləri uyğunlaşdırma metoduna üstünlük verirlər. Kəmiyyət və keyfiyyət uyğunluğuna əsaslanan qiymətləndirmə tikinti şirkətinin idarəetmə sisteminin təşkilati strukturunun optimal variantının seçilməsinə imkan yaradır.

3.Tikintinin idarə edilməsinin yeni təşkilat formalarının əmələ gəlməsi və inkişafı tikinti bazarına güclü təsir göstərir. Yüksək səviyyəli rəqabət qabiliyyətinə nail olmağa cəhd göstərən, tikinti şirkəti mövcud təşkilat formalarının bütün üstünlüklərini istifadə etməlidir. İdarəetmənin əlverişli təşkilat formasının seçilməsini həyata keçirərək, şirkət tikinti bazarının inkişafının vəziyyətini və dinamikasını, həm də bazarda özünün xüsusi çəkisini nəzərə almalıdır. İdarəetmənin təşkilat strukturunun seçilməsi birbaşa funksiyalardan asılıdır və tikinti obyektləri sazişlərinin bağlanmasında ixtisaslaşan şirkət onları öz üzərinə götürməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının şəhərsalma və tikinti məcəlləsi. Bakı, 29 iyun 2012-ci il – 52s.

2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, ADSK – 2019-cu il.

3. Асаул, А.Н Маркетинг – менеджмент в строительстве / Асаул А.Н, В.П.Трахов – СПБ: гуманистика, 2017 – 248с.

4. Ансоф, И. Новая корпоративная стратеги / И.Фнсоф – СПБ: Пщер 2019 – 357с.

5. Мельник, М.В. Анализ и оценка систем управления на предприятиях. / М.В.Мельник – М: Финансы и статистка – 2019 – 136с.

Резюме

Алиев А.М., Мамедов Ш.Н.

Теоретико-методологические основы системы управления строительными компаниями на современном этапе

В статье рассматриваются такие вопросы, как управление строительными компаниями *и комплексная организация реконструкции. Как известно, формирование системы управления имеет большое значение в обеспечении прибыльности бизнеса, в связи с этим в статье используется ряд понятий для уточнения понятия управления. Также в статье изучены особенности строительного предприятия как специфической сферы материального производства. В заключение обозначены важные вопросы и цели для строительной компании.*

Ключевые слова: *строительная компания, организационная структура, система управления, миссия, внешняя среда, методы управления, финансовая устойчивость*

Summary

Aliyev A.M., Mamedov Sh.N.

Theoretical-Methodological Basics of the Management System of Construction Companies in the Modern Stage

The article examines issues such as the management of construction companies and the reconstruction of complex organization.As it is known, the formation of the management system is of great importance in ensuring the profitability of the business. In this regard, the article uses a number of concepts to clarify the concept of management. The article also studied the characteristics of the construction company as a specific field of material production. In conclusion, the important issues and goals for the construction company are indicated.

Key words: *construction company, organizational structure, management system, mission, external environment, management methods, financial stability*

AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ EMAL POTENSİALININ ARTIRILMASI SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Əliyev Pərviz Fuad oğlu

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi

parviz.aliyev@atm.gov.az

Xülasə: *Məqalədə kənd təsərrüfatının dövlət tənzimləməsinin təsnifatı təqdim edilmiş və sektorun inkişafı ilə bağlı prioritetlər sadalanmışdır. Daha sonra Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı cari situasiya təsvir edilmiş, emal olunmuş mühüm ərzaq məhsullarının istehsalı və ticarəti ilə bağlı məlumatlar verilmiş, habelə İqtisadi Mürəkkəblik İndeksi vasitəsilə ölkədə emalla bağlı cari vəziyyət qiymətləndirilmişdir. Həmçinin dövlət tərəfindən həyata keçirilən tənzimləmə tədbirləri ilə bağlı məlumatlar verilmiş, əsas strateji sənədlər sadalanmışdır.*

Sonda ölkədə kənd təsərrüfatı məhsullarının emal potensialının artırılması baxımından dövlət tənzimlənməsinin təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir.

Açar sözlər: *aqrar sektor, dövlət tənzimləməsi, İqtisadi Mürəkkəblik İndeksi, emal potensialı*

Aqrar sektor ərzaq təhlükəsizliyinin təmin olunması baxımından iqtisadiyyatın ən mühüm sahəsi kimi çıxış edir. Bu baxımdan, bu sahənin inkişafı hər zaman dövlət tənzimləməsinin mühüm predmeti kimi çıxış edir. Kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı dövlət tənzimləməsinin prioritetləri kimi isə birinci növbədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac həcminin artırılması, həmçinin sektorun ÜDM-dəki payının və məşğulluğun artırılması çıxış edə bilər. Bu baxımdan, ayrı-ayrı ölkələrin aqrar sektorun inkişafına yanaşmaları müxtəlifdir. Qərbi Avropa, ABŞ və Yaponiya kimi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsi ərzaq təhlükəsizliyinin əsas təminatçısı kimi çıxış etməklə yanaşı, kənd yerlərinin inkişafı baxımından da böyük əhəmiyyət kəsb edir. Bu ölkələrdə aqrar sahədə yaradılan əlavə dəyər adətən ÜDM-nin çox kiçik hissəsini (1-2% civarında) təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə isə kənd təsərrüfatı sahəsi iqtisadiyyatın əsas sektoru olmaqla yanaşı, məşğulluq baxımından

mühüm əhəmiyyət daşıyır. Odur ki, bu xüsusiyyətlər nəzərə alınmaqla ayrı-ayrı ölkələrin kənd təsərrüfatı sahəsində apardıqları tənzimləyici fəaliyyətlər bu ölkələrin iqtisadi inkişaf səviyyələrinə uyğun şəkildə təşkil olunmalıdır. Kənd təsərrüfatı sahəsi iqtisadiyyatın digər sahələri ilə müqayisədə dəstəyə daha çox ehtiyacı olan və bu səbəbdən ciddi dövlət tənzimləməsi tələb edən bir sahədir.

Bu sahənin tənzimlənməsi ilə bağlı dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) tərəfindən ərzaq və kənd təsərrüfatı sektorunun dövlət tənzimləməsi məsələləri bütün fəaliyyətləri əhatə edəcək şəkildə təsnifləşdirilmiş və sektor üzrə siyasi qərarların qəul olunması baxımından üç istiqamət fərqləndirilmişdir: istehlakçıya, istehsalçıya və ticarətə oriyentasiya edən siyasət tədbirləri [1]. Məqalədə əsas diqqət məhz istehsalçılara oriyentasiya edən, daha dəqiq desək, kənd təsərrüfatı məhsullarının emal potensialının artırılması baxımından həyata keçirilən siyasət tədbirləri üzərində cəmlənmişdir. FAO tərəfindən işlənib hazırlanmış təsnifatda bu məsələlər kənd təsərrüfatı sahəsində dəyər zəncirlərinin inkişafı məsələləri, o cümlədən istehsaldan sonrakı mərhələdə göstərilən dəstək tədbirləri (məsələn, anbarların, emal infrastrukturunun və s. tikintisi) baxımından nəzərdən keçirilir.

Azərbaycanda aqrar sektorun emal potensialının artırılması baxımından dövlət tənzimləməsinin özünəməxsus xüsusiyyətləri var. Azərbaycan dünyanın əsas neft/qaz ixracatçılarından biri olmaqla yanaşı, həm də aqrar ölkədir. 2021-ci ilin məlumatlarına əsasən ölkənin məşğul əhalisinin 36,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində çalışır və bu göstəriciyə görə aqrar sektor iqtisadiyyatın digər sektorları arasında birinci yerdədir. Buna baxmayaraq, aqrar sahədə yaradılan əlavə dəyər (5456,8 milyon manat) ölkənin Ümumi Daxili Məhsulunun 5,9%-ni təşkil edir [8]. Sektorda yaradılan əlavə dəyərin artırılması baxımından kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsinin müstəsna əhəmiyyəti var. Ancaq ölkədə kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsi ilə bağlı konkret istiqamətlərin müəyyənləşdirilməsindən əvvəl emalla bağlı cari vəziyyət qiymətləndirilməlidir. Bunun üçün ilkin olaraq, vəziyyətin deskriptiv təhlilini aparaq.

Azərbaycan, kiçik ölkə olmasına baxmayaraq, bir sıra məhsulların ixracı üzrə kifayət qədər böyük paya sahibdir. Məsələn, 2021-ci il üçün ölkə fındıq ləpəsinin ixracına (18,3 min ton) görə Türkiyə və İtaliyadan sonra üçüncü, xurma ixracına (174,2 min ton) görə isə İspaniyadan sonra ikinci yerdədir [7]. Bundan başqa, Azərbaycan pomidor, pambıq lifi, nar, gilas və digər meyvə və tərəvəzlərin ixracına görə də müəyyən paya sahibdir. Ancaq, qeyd etmək lazımdır ki, bu məhsullar əsasən ilkin şəkildə ixrac olunurlar. Bu məhsulların emal olunaraq ixrac olunması ölkəyə valyuta axınını genişləndirməklə bərabər, bu sahədə məşğulluğun artırılmasına da töhfə verə bilərdi.

Hazırda ölkədə kənd təsərrüfatı məhsullarının həm sənaye üsulu ilə, həm də ənənəvi formada emalı həyata keçirilir. Azərbaycanın ən böyük kənd təsərrüfatı məhsulları emalı müəssisəsi olan Azersun Holding MMC şirkəti tərəfindən bir çox adda ərzaq məhsulları istehsal olunur. Şirkətin məhsulları həm daxili, həm də xarici bazarlara çıxarılır. Bundan başqa, Aznar və Azgranata kimi yerli iri şirkətlər tərəfindən xarici ölkələrə, xüsusən Avropa ölkələrinə meyvə şirələrinin və ekstraktlarının ixracı da həyata keçirilir.

Aşağıdakı qrafikdə 2005-2020-ci illər ərzində ölkədə emal olunmuş mühüm ərzaq və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı məlumat təqdim edilmişdir.

Qeyd: *Müqayisəliliyin təmin edilməsi məqsədilə göstəricilər natural loqarifmlə ifadə olunmuşdur.*

Qrafik 1. Emal olunmuş mühüm ərzaq və kənd təsərrüfatı məhsullarının istehsalı [10]

Qrafikdən göründüyü kimi, əksər məhsullar üzrə istehsal göstəriciləri artma trendinə malikdir. Ölkədə bəzi məhsullar üzrə emal fəaliyyəti reeksport istiqamətlidir. Bu məhsullara bitki yağları, şəkər, çay, tütün və s. aiddir. Bu məhsulların emalı əsasən xarici ölkələrdən idxal edilən xammal əsasında həyata keçirilir. Məsələn, 2021-ci ildə ölkəyə təxminən 62 milyon USD dəyərində 50,5 min ton xam palma yağı, 73,6 milyon USD dəyərində 54,3 min ton xam günəbaxan yağı və 35,8 milyon USD dəyərində 20,5 min ton

xam qarğıdalı yağı idxal edilmiş və bu xammaldan istifadə edilərək 13,8 min ton saf qarğıdalı yağı və 36 min ton saf günəbaxan yağı istehsal edilmiş, 6 min ton günəbaxan yağı isə ixrac edilmişdir. 2021-ci ildə ölkəyə təxminən 11,6 min ton (50 milyon USD) fermentləşdirilmiş çay idxal olunmuş və bu məhsulun bir qismi (min tonu) yerli zavod tərəfindən paketləşdirilərək ixrac edilmiş və bu zaman ixrac olunan məhsulun hər tonunda 3654 USD məbləğində qazanc əldə edilmişdir[2]. Eyni zamanda, nəzərdən keçirilən dövrdə ölkəyə 304 min tondan çox (146 milyon USD) xam şəkər idxal olunmuş və əvəzində 59 min ton saflaşdırılmış şəkər (32 milyon USD) ixrac edilmişdir. Göründüyü kimi, bu məhsullar üzrə ölkənin kifayət qədər güclü emal bazası mövcuddur.

Onu da qeyd etmək lazımdır ki, ölkəyə 2021-ci ildə təxminən 39 min ton (10,5 milyon USD) günəbaxan yağının ekstraksiyası nəticəsində alınan cecələr və digər bərk tullantılar idxal edilmişdir. Halbuki, ölkədə yerli xammal hesabına günəbaxan yağının istehsalı təşkil olunduğu təqdirdə bu məhsullar (cecələr və digər tullantılar) istehsal prosesinin ikinci dərəcəli məhsulları olaraq yerli heyvandarlığın yem tələbatının ödənilməsində istifadə edilə bilərdi.

Ölkədə kənd təsərrüfatı məhsullarının ənənəvi üsullarla emalı da həyata keçirilir. Buna regionlarda əsasən fermer təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının ilkin emalı (qurudulması, konservləşdirilməsi, bişirilməsi və s.) fəaliyyətləri aiddir. Bu fəaliyyətlər uzun tarixi dövrlər ərzində formalaşmış və ənənəyə çevrilmişdir. Bir çox hallarda belə məhsulların istehsalı ilə bağlı qida təhlükəsizliyi, habelə saxlama və daşıma tələblərinə riayət edilmir. Nəticədə isə belə məhsulların həm daxili, həm də xarici bazarlarda satılmasında problemlər yaranır. Belə məhsulların əksər hissəsi fermerlərin öz şəxsi ehtiyaclarını ödəmək üçün istehsal edilir.

Ölkədə kənd təsərrüfatı məhsullarının emalı həyata keçirilsə də, bu, daha çox daxili tələbatı ödəmək məqsədi daşıyır. Belə ki, ölkənin cəmi ixracında ilkin formada olan kənd təsərrüfatı məhsulları üstünlük təşkil edirlər. 2021-ci ildə ümumi ixracda (22,2 milyard USD) kənd təsərrüfatı və ərzaq məhsullarının payı 5%, idxalında (11,7 milyard USD) isə 19% təşkil etmişdir [2]. Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə ixracda ilk sıradakı məhsullar pambıq lifi və ipliyi, pomidor, xurma, fındıq, kartof, alma, ağ şəkər, gilas və nardır və ölkənin ərzaq və kənd təsərrüfatı məhsulları üzrə ixracın 73%-i məhz bu məhsulların payına düşür. Gördüyümüz kimi, ən çox ixrac olunan ərzaq və kənd təsərrüfatı məhsullarının demək olar ki, hamısı ilkin kənd təsərrüfatı məhsullarıdır. Onlar heç bir emal mərhələsi keçmədən xammal şəklində ixrac olunurlar. Bu isə həm əldə edilən gəlir, həm də məşğulluq baxımından qənaətbəxş hal deyil. Ölkənin ərzaq və kənd təsərrüfatı məhsulları üzrə idxalında isə şəkər siropları, kərə yağı, emal olunmuş tütün, şokolad, qənnadı məmulatları, çörək-bulka məmulatları, hazır qida məhsulları, mineral və qazlı sular kimi emal məhsulları böyük xüsusi çəkiyə malikdir.

İqtisadi ədəbiyyatda ölkənin emal vəziyyətinin qiymətləndirilməsi üçün əsasən İqtisadi Mürəkkəblik İndeksindən (*Economic Compexity Index, ECI*) [4] istifadə edilir. İqtisadi mürəkkəblik cəmiyyətin biliyinin onun istehsal etdiyi məhsullarda ifadə olunma dərəcəsidir. Bu göstəricisi vasitəsilə ölkənin iqtisadi mürəkkəbliyi həmin ölkənin ixrac etdiyi məhsulların müxtəlifliyi və unikallığı əsasında müəyyən edilir. Mürəkkəblik ixrac səbətinin şaxələnməsini ifadə edir. Təhlillər nəticəsində müəyyən olunmuşdur ki, adətən çox mürəkkəb nou-hauları istehsal edən ölkələr böyük iqtisadi müxtəlifliyə malik olurlar. Digər tərəfdən, bir ölkənin ixracının mürəkkəbliyi həmin ölkədəki gəlir səviyyəsindən yüksəkdirsə və ya ölkənin gəlir səviyyəsi ilə bağlı gözləntiləri üstələyirsə, bu, ölkə iqtisadiyyatının gələcəkdə daha sürətlə böyüyəcəyindən xəbər verir. Buna görə də ECI həmçinin iqtisadi inkişafın faydalı ölçüsü kimi də çıxış edir. İqtisadi mürəkkəblik göstəricisi Harvard Kennedy School tərəfindən mütəmadi olaraq bütün ölkələr üçün hesablanır və iqtisadi mürəkkəblik xəritəsi vasitəsilə vizuallaşdırılır. Aşağıda Azərbaycanın 2020-ci il üçün iqtisadi mürəkkəbliyi ilə bağlı qrafik təqdim edilmişdir.

Qrafikdən göründüyü kimi, ölkə ixracında əsas pay xam neftə məxsusdur və ölkə ixracı nisbətən az mürəkkəbliyə malikdir. Ölkə üzrə iqtisadi mürəkkəblik göstəricisi üzrə nəticədən də göründüyü kimi, ölkədə emal sahəsinin və əlavə dəyər yaradan məhsulların istehsalının genişləndirilməsinə, həmçinin ixracın artırılmasına ehtiyac var. Buraya həm sənaye, həm də kənd təsərrüfatı sektorlarının məhsulları aiddir. Qeyd etmək lazımdır ki, ölkədə kənd təsərrüfatı məhsullarının emal potensialı kifayət qədər böyükdür.

Hazırda ölkədə aqrar sektorun emal potensialının artırılması və bunun sayəsində kənd təsərrüfatında yaradılan əlavə dəyərin, habelə məşğulluğun yüksəldilməsi kənd təsərrüfatı sahəsinin dövlət tənzimləməsinin əsas istiqamətlərindən biri kimi çıxış edir. Bu məqsədlə hökumət tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üzrə əsas strateji sənədlər Azərbaycan Respublikası Prezidenti tərəfindən 2021-ci il 2 fevral tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər [5]" sənədi və 22 iyul 2022-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının

[2] Qeyd: xammalın idxal qiyməti ilə hazır məhsulun ixrac qiyməti arasındakı fərq. Emal xərcləri nəzərə alınmamışdır.

2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası [6]”dır. Bu sənədlər yaxın gələcək üçün ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin reallaşdırılmasını nəzərdə tutur ki, bu prioritetlərdən biri də dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyata nail olmaqdır. Bu sənədlərdə iqtisadi artımın davamlı olmasına, milli iqtisadiyyatın dərin şaxələnməsinə, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılmasına, habelə iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaq əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Qrafik 2. Azərbaycan ixracının iqtisadi mürəkkəbliyi, 2020 [1]

Ölkədə əvvəllər mövcud olan emal ənənələrinin bərpası istiqamətində fəaliyyətlər həyata keçirilir. Belə ki, ölkə tərəfindən baramaçılıq, arıçılıq, tütünçülük kimi ənənəvi fəaliyyətlərin genişləndirilməsi hərtərəfli dəstəklənir. Bu məhsulların istehsalçıları üçün xüsusi dövlət subsidiyaları tətbiq edilir. Nəticədə sözügedən sahələrdə müəyyən irəliləyişlər əldə edilməkdədir.

Ölkədə pambıqçılığın inkişafı da dövlətin diqqət mərkəzindədir. Bu sahənin inkişafında əsas məqsəd əlavə dəyərin yaradılması, eləcə də məşğulluğun artırılmasıdır. Pambıq emalı zavodları əvvəlcədən müəyyən edilmiş qiymətlərlə xam pambığı fermerlərdən tədarük edir. Bunun sayəsində fermerlər məhsul satışı ilə bağlı narahat olmayaraq diqqətlərini istehsal prosesi üzərində cəmləşdirə bilirlər.

Həmçinin qeyd edilməlidir ki, ölkədə ümumən kənd təsərrüfatı məhsulları emalı ƏDV-dən azaddır. Ancaq, bir sıra hallarda emalçılar bu tədbirin onlar üçün sərfəli olmadığı hallarla (ƏDV-nin əvəzləşdirilməsi ilə bağlı) qarşılaşırlar. Ancaq qeyd etmək lazımdır ki, bu məsələlər də dövlətin diqqət mərkəzindədir. Məsələn, heyvan və quş yeminə ƏDV-nin tətbiq olunduğu dövrlərdə broylerlər və intensiv maldarlıq fermaları istehsal xərclərinin yüksəlməsindən əziyyət çəkirdilər. 2022-ci ildən başlayaraq isə bu məhsullar ƏDV-dən azaddırlar və cari ilin may ayından etibarən ölkədə yem və yem əlavələrinin idxalına görə rüsum da tətbiq edilmir.

Qeyd edək ki, hazırda ölkədə ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı fəaliyyətlərə də diqqət artmışdır. Yerli istehsalçılar həm dövlət, həm də qeyri-dövlət (beynəlxalq və yerli layihələr, QHT və s.) xətti ilə ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı stimullaşdırılır. Dövlət tərəfindən həyata keçirilən dəstək tədbirlərinə AMAL və ABAD layihələrini, habelə KOBİA agentliyi tərəfindən kənd təsərrüfatı istehsalçılarına göstərilən satış dəstəyini göstərmək olar.

Deyilənləri nəzərə alaraq, ölkədə kənd təsərrüfatı məhsullarının emal potensialının artırılması üzrə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi baxımından aşağıdakı təkliflər irəli sürülə bilər:

- Fermerlərin fermer birliklərində və kooperativlərdə birləşməsi üzrə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi. Bu, emal fəaliyyətinin təşkili üçün ilkin kapitalın formalaşması baxımından mühüm tədbirdir.

- Fermerlərin satış bazarlarına çıxşının asanlaşdırılması. İri topdansatış bazarlarına və supermarket şəbəkələrinə çıxışın təmin edilməsi fermerlərin satış probleminin həlli baxımından çox önəmlidir.

- Fermerlərin emalla bağlı bilik və bacarıqlarının artırılması. Bu məqsədlə informasiya-məsləhət xidmətləri şəbəkəsinin genişləndirilməsi və beynəlxalq ekspertlərin cəlb edilməsi tələb olunur.

- İxrac sertifikatlaşmasına dəstək. Avropa İttifaqı ölkələrinin bazarlarına çıxışın təmin edilməsi baxımından bu sertifikatların önəmi çox yüksəkdir.

Ədəbiyyat

1. Atlas of Economic Complexity, https://atlas.cid.harvard.edu/what-is-the-atlas
2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/
3. Food and Agriculture Policy Classification, FAPDA, https://www.fao.org/3/bc358e/bc358e.pdf
4. https://atlas.cid.harvard.edu/explore?country=16&product=undefined&year=2006&productClass=HS&target=Product&partner=undefined&startYear=1995
5. https://president.az/az/articles/view/50474
6. https://president.az/az/articles/view/56725
7. https://www.trademap.org/
8. State Statistical Committee of the Republic of Azerbaijan, https://stat.gov.az/source/agriculture/
9. State Statistical Committee of the Republic of Azerbaijan, https://stat.gov.az/source/industry/

Резюме

Алиев Р.Ф.

Совершенствование государственного регулирования в области повышения потенциала переработки сельскохозяйственной продукции в Азербайджане

В статье представлена классификация государственного регулирования сельского хозяйства и перечислены приоритеты, связанные с развитием отрасли. Затем была описана текущая ситуация, связанная с переработкой сельскохозяйственной продукции в Азербайджане, представлена информация о производстве и торговле важными переработанными пищевыми продуктами, а текущая ситуация, связанная с переработкой в стране, была оценена с помощью Индекса Экономической Сложности. Также была дана информация о мерах регулирования, реализуемых государством, и перечислены основные стратегические документы.

В завершение были выдвинуты предложения по совершенствованию государственного регулирования в части повышения перерабатывающего потенциала сельскохозяйственной продукции в стране.

Ключевые слова: *аграрный сектор, государственное регулирование, Индекс Экономической Сложности, потенциал переработки*

Summary

Aliyev P.F.

Improvement of State Regulatıon ın the Fıeld of Increasıng the Processıng Potentıal of Agrıcultural Products ın Azerbaıjan

The article presents a classification of state regulation of agriculture and lists the priorities associated with the development of the industry. Then, the current situation related to the processing of agricultural products in Azerbaijan was described, information was provided on the production and trade of important processed foods, and the current situation related to processing in the country was assessed using the Economic Complexity Index. Information was also given on the regulatory measures implemented by the state, and the main strategic documents were listed.

In conclusion, proposals were put forward to improve state regulation in terms of increasing the processing potential of agricultural products in the country.

Key words*: agricultural sector, government regulation, Economic Complexity Index, processing potential*

AZƏRBAYCANDA BİZNES MÜHİTİNİN İQTİSADİ İNKİŞAFA TƏSİRİ

Əliyev Tərbiz Nəsib oğlu
İqtisadiyyat İnstitutu
tarbiz.aliyev@bk.ru

Xülasə: *Məqalədə Azərbaycanda biznes mühitinin formalaşdırılmasını şərtləndirən təşkilati – hüquqi aspektlər açıqlanmış, çoxillik statistik məlumatlar əsasında sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri təhlil edilmişdir.Həmin subyektlərin iqtisadi artıma təsirini müəyyən etmək üçün ölkə iqtisadiyyatında bir sıra göstəricilər üzrə subyektlərdə qeydə alınan pozitiv dəyişikliklər göstərilmişdir. Təhlil nəticəsində ölkənin biznes mühitində mövcud olan boşluqlar təsnifləşdirilmiş və onların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.*

Açar sözlər: *biznes mühit, sahibkarlıq subyektləri, iqtisadi artım, investisiya.*

Son 15 il ərzində Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində çoxsaylı islahatlar aparılmış, bir sıra mühüm qərarlar qəbul edilmişdir. Aparılan islahatların məntiqi nəticəsi olaraq qeyri-neft sektorunda əsaslı canlanma yer almış, biznes fəaliyyətinin daha da asanlaşdırılması təmin edilmişdir.

Dünya bankının "Doing Biznes 2020" hesabatında Azərbaycanın biznes sahəsində əldə etdiyi nailiyyətlər yüksək qiymətləndrilmiş və o qlobal reytinq sıralamasında 191 ölkə arasında 28-ci yerdə qərarlaşmışdır [4, s.10]. Əldə edilən nailiyyətlərə baxmayaraq ölkəmizdə biznes mühitinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması və innovativ inkişafı təmin etmək üçün bir sıra təşkilati-iqtisadi tədbirlərin işlənilməsi və həyata keçirilməsinə zəruri ehtiyac duyulur.

Son illər qəbul edilmiş mühüm dövlət sənədlərində **[1,2]** sahibkarlığın davamlı inkişafı üçün mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi artımın qabaqcıl və səmərəli özəl təşəbbüslərə söykənməsi, özəl sektorda innovativ fəallığın artırılması, dövlət-özəl əməkdaşlığın gücləndirilməsi, haqsız rəqabətin qarşısının alınması, biznesin təşviqi mexanizminin təkmilləşdirilməsi məsələləri prioritet istiqamət kimi nəzərdə tutulmuşdur. Bəs real vəziyyət necədir?

Rəsmi statistik məlumatlar əsasında apardığımız araşdırmalar və hesablamalar göstərir ki, son illər Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin makroiqtisadi göstəricilərində yüksək dinamika müşahidə edilir. Belə ki, 2016-2020-ci illərdə məhsul istehsalı 3,4 dəfə, işçilərin sayı 124,1%, onların orta aylıq əmək haqqı 1,8 dəfə, yaranan əlavə dəyər 3,1 dəfə artmış, yalnız sahibkarlıq subyektlərində əsas kapitala yönəldilən investisiyaların məbləği 4,5% azalmışdır (cədvəl 1).

Cədvəl 1.

Azərbaycanda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri

Göstəricilər	İllər					2016-2020-ci illərdə artım tempi (%-lə)
	2016	2017	2018	2019	2020	
Məhsulun (işin, xidmətin) həcmi (mln.man.)	5831,2	6270	17402	19579,4	19725,7	3,4 dəfə
Yaranan əlavə dəyər (mln.man.)	3587,2	3807,6	9836,6	11072	10941,0	3,1 dəfə
Əsas kapitala yönəldilən investisiyalar (mln.man.)	2830,2	3298,6	6953	3422,2	2674,1	94,5
İşçilərin sayı (min nəfər)	281,0	290,1	283,4	332,2	348,7	124,1
Orta aylıq nominal əmək haqqı (man.)	338,6	352,8	445,3	531	612,3	180,8

Mənbə: *Cədvəl "Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq" statistik məcmuələrin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib hesablanmışdır. Bakı, DSK, 2018, s.8; 2019, s.10; 2021, s.23.*

Ölkədə sahibkarlıq subyektlərinin makroiqtisadi göstəricilərində pozitiv dəyişikliklərin baş verməsi nəticəsində həmin subyektlərin ölkə iqtisadiyyatındakı payı da ildən-ilə artmışdır. Belə ki, təhlilin əhatə etdiyi dövrdə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulun

(işin, ximətin) xüsusi çəkisi ölkə iqtisadiyyatında 17,6%, yaranan əlavə dəyər 10,3%, əsas kapitala yönəldilən investisiyalarda 5,2%, işçilərin ümumi sayında isə 21,7% artmışdır (cədvəl 2).

Ölkə iqtisadiyyatında mikro, kiçik v orta sahibkarlıq subyektlərinin payı (faizlə)

Cədvəl 2

Göstəricilər	İllər					Kənarlaşma (+/-)
	2016	2017	2018	2019	2020	
Məhsulun (işin, xidmətin)həcmi	6,6	6,0	20,9	23,4	24,2	+17,6
Yaranan əlavə dəyər	6,4	5,9	13,4	14,9	16,7	+ 10,3
Əsas kapitala yönəldilən investisiyalar	18,0	18,9	41,8	21,0	23,2	+ 5,2
İşçilərin sayı	20,4	20,8	42,9	43,7	42,1	+ 21,7
Mənbə: *"Azərbaycan mikro, kiçik və orta sahibkarlıq". Statistik məcmuə. Bakı, DSK, 2018, s.8; 2019, s.10; 2021, s.23*						

Onu da qeyd etmək vacibdir ki, ölkənin qeyri-neft sektoru üzrə həmin göstəricilərin xüsusi çəkisi daha yüksək olmuşdur. Belə ki, əgər 2016-cı ildə həmin subyektlərin əlavə dəyərdəki payı 9,9% olmuşdusa, 2020-ci ildə onun səviyyəsi 16,7%-ə, o cümlədən, orta sahibkarlıq subyektləri üzrə 1,8%-dən 10,3%-ə yüksəlmişdir. Lakin təəssüflə qeyd edilməlidir ki, qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilən investisiyaların xüsusi çəkisi 39,8%-dən 11,5%-ə enmişdir [3, s.8; 23].

Tərəfimizdən aparılan araşdırmalar göstərir ki, təkcə 2019-2020-ci illərdə hüquqi şəxs statusunda müxtəlif obyektiv və subyektiv səbəblərdən 747 sahibkarlıq subyekti ləğv edilmişdir. Onların 93%-ni mikro, 2,3%-ni isə orta sahibkarlıq subyektləri təşkil etmişdir [3, s.29]. Nəticədə çoxsaylı şərti iş yerlərinə və şərti məhsul itkilərinə yol verilmişdir.

Qeyd edilən faktlar onu göstərir ki, ölkəmizin biznes mühitində aradan qaldırılması vacib olan bir sıra boşluqlar mövcuddur. Onların içərisində aşağıdakılar daha qabarıq şəkildə biruzə verir:

- Rəqabət mübarizəsinə tab gətirməyən çoxsaylı fərdi, mikro, kiçik və orta müəssisələr ləğv edilir;
- Subyektlər rəqabət qabiliyyətli məhsul istehsal edə bilmir, məhsullar əsasən daxili bazarlarda satılır;
- Hazır məhsul qalığının məbləği yüksələn xətlə artır;
- Sahibkarlıq subyektlərində beynəlxalq standartlar ləng tətbiq edilir;
- Subyektlərdə işçi axıcılığı yüksəkdir;
- İşgüzar tərəfdaşlıq əlaqələri zəifdir;
- Tətbiq edilən məqsədli investisiya-innovasiya və startap layihələrinin sayı azlıq təşkil edir və az sayda subyektləri əhatə edir;
- Yüksək kredit faizləri səbəbindən sahibkarların maliyyə-kredit sistemindən yararlanmaq imkanı zəifdir;
- Biznes obyektlərinin beynəlxalq təcrübə haqqında məlumat almaq imkanı aşağıdır.

Beynəlxalq təcrübəyə əsasən belə qənaətə gəlmək olar ki, həmin boşluqların aradan qaldırılmasının mümkün yollarından biri – mikro, kiçik və orta sahibkarlıq subyektlərinin mövcud sənaye məhəllələrinin, texnoparkların tərkibinə daxil edilməsidir. Həmin innovasiya infrastrukturu olmayan bölgələrdə müvafiq assosiasiyaların, müştərək müəssisələrin, biznes mərkəzlərinin, aqroparkların yaradılması biznes fəaliyyətinin səmərəli təşkilinə imkan yarada bilər. Emal sənayesində fəaliyyət göstərən orta və iri sahibkarlıq subyektlərində dəyər zənciri üzrə texnoloji prosesin təşkili, elmtutumlu layihələrin icrası, innovativliyi stimullaşdıran ekosistemin qurulması yüksək sinerji effekti verə bilər.

Ədəbiyyat

1. "Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetlər". Bakı, 2021, s.3.
2. Azərbaycan Respublikasının 2022 – 2026 – cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. Bakı, 2022, s.83
3. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Bakı; DSK, 2018, s.196; 2019, s.272; 2021, s.221.
4. Azərbaycanda biznes mühiti – 2020: reallıqlar və perspektivlər. Bakı; "Elm və Bilik", 2021, s.120

Резюме
Алиев Т.Н.
Влияние бизнес - среды на экономический рост в Азербайджане

В статье раскрыты организационно-правовые аспекты, обеспечивающие формирование бизнес-среды в Азербайджане. На основе многолетних статических данных проанализированы основные макроэкономические показатели предпринимательских субъектов. Для определения влияния бизнес-среды на экономический рост страны указаны позитивные изменения этих субъектов с помощью отдельных показателей. На основе анализа были выявлены ресурсы в бизнес-среде и даны рекомендации по их эффективному использованию.

Ключевые слова: *бизнес-среда, предпринимательские субъекты, экономический рост, инвестиции*

Summary
Aliyev T.N.
Impact of the Business Environment on Economic Growth in Azerbaijan

The article reveals the organizational and legal aspects that ensure the formation of the business environment in Azerbaijan. Based on long-term static data, the main macroeconomic indicators of business entities are analyzed. To determine the impact of the business environment on the country's of economic growth, positive changes in these subjects are indicated using individual indicators. Based on the analysis, resources in the business environment were identified and given recommendations for their effective use.

Key words: *business environment, business entities, economic growth, investment*

KORPORATİV İDARƏETMƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN MODEL VƏ SİSTEMLƏRİ

Əliyeva Şöhrət İzzət qızı
Sumqayıt Dövlət Universiteti
Sh_aliyev@mail.ru

Xülasə: *Korporativ idarəetmənin təkmilləşdirilməsi şirkətin gəlirliliyinin artmasına kömək edir. Bütün tədqiqatlar göstərir ki, korporativ idarəetmənin təkmilləşdirilməsi birbaşa şirkətin səhmlərinin dəyərinin artmasına səbəb olur. Korporativ idarəetmə sistemi nə qədər yaxşı olarsa, investorların etimadı bir o qədər yüksək olar və nəticədə risk bir o qədər aşağı olar. Şirkətdə Direktorlar Şurasının əsas vəzifəsi səhmdarlar üçün cəlbediciliyi maksimum dərəcədə artırmaqdır. Şirkətin gəlirliliyinin artırılması kapitalı daha sərfəli şərtlərlə cəlb etmək imkanından asılıdır.*

Açar sözlər: *korporativ idarəetmə sistemi, potensial investor, korporativ idarəetmə mexanizmləri, səhmdar, korporativ nəzarət*

Öz təcrübəsində effektiv korporativ idarəetmə prinsiplərinə əməl edən şirkət investisiya cəmiyyətinin etimadını qazanır [1, s. 99]. Səhmlərin alınması və bu cür şirkətlərə kredit verilməsi investorlar və kreditorlar üçün cəlbedicidir. Bu cür şirkətlərdə səhmin qiyməti daha yüksəkdir və borc götürmə onlara daha az başa gəlir və ya investorlar onlara etibar etdikdə daha sərfəli şərtlərlə təklif olunur ki, bu da yaxşı korporativ idarəetmə ilə baş verir.

Effektiv korporativ idarəetmə sövdələşmənin ədalətli aparılmasından asılıdır. İnvestorlar bunu yüksək qiymətləndirir, belə bir korporasiyaya sərmayə qoyurlar. Bu, şirkətin bazar dəyərinin və cəlbediciliyinin artmasına birbaşa təsir edir və onun investorların vəsaitlərinə çıxışını asanlaşdırır.

İnvestisiya cəmiyyəti həm yerli, həm də xarici səhmdarlardan, potensial investorlardan və investisiya xidmətləri təklif edən şirkətlərdən, xüsusən kredit agentliklərindən, investisiya reytinqi şirkətlərindən, investisiya nəşrlərindən və s. ibarətdir. Korporativ idarəetmə dürüst, açıq və ədalətli idarəetməni nəzərdə tutan bir sistemdir. İnvestorların, səhmdarların və cəmiyyətin etibarı və etimadının davamlı artması üçün şirkət ədalətli və dürüst idarəetmə dəyərlərini qorumalıdır. Səhmdarlar şirkətin səriştəli şəkildə idarə olunduğuna və onlara münasibətdə dürüst və vicdanla hərəkət edildiyinə əmin olmalıdır. Yaxşı korporativ idarəetmə şirkəti avtomatik olaraq investisiya cəmiyyətinin etimadını qazanmayan şirkətlərdən fərqləndirir və onu eyni açıqlıq və ədalətlilik təcrübələrinə əməl edən təşkilatlarla bərabər səviyyəyə qoyur. Düzdür, müvəffəqiyyətə zəmanət yoxdur. Bununla belə, öz işçilərinin, səhmdarlarının, tədarükçülərinin və investisiya

cəmiyyətinin etimadını qazanan şirkət rəqibləri qarşısında üstünlüyə malikdir və buna görə də uğur şansı daha yüksəkdir.

Şirkətin idarə olunmasının təkmilləşdirilməsi şirkətlərə işin səmərəliliyini və səhmdarlar qarşısında hesabatlılığı artırmağa imkan verir. Peşəkar fəaliyyət göstərən Direktorlar Şurası strateji planlaşdırmanı və rəhbərliyin hərəkətlərinə nəzarəti təmin edir, peşəkar və düzgün motivasiya edilmiş rəhbərlik isə cari fəaliyyətində şirkəti idarə etmək üçün qarşıya qoyulan hədəflərə çatmaq üçün hər cür səy göstərir. Eyni zamanda, şirkətin sahibləri üçün aktivlərin və maliyyə axınının qorunması baxımından idarəetmə nəzarət altına alınır [3, s. 197]. Düzgün qurulmuş korporativ idarəetmə sistemi ilə şirkət sahibləri bu nəzarətə sərf etdiyi vaxtı azaltmaqla nəzarətin və biznesin idarə edilməsinin səmərəliliyini artıra bilərlər.

Sahibkarın biznesinə nəzarətinin effektivliyini qiymətləndirmək üçün aşağıdakı düsturdan istifadə edə bilərik:

$$S = D/T$$

S - vaxt vahidi ərzində nəzarətin effektivliyi (əslində şirkətin idarə edilməsində iştirak etmək hüququnu həyata keçirir);

T- sahibinin D mənfəəti gətirən biznesin fəaliyyətinə (inkişafına deyil!) nəzarət etmək üçün sərf etdiyi vaxtdır.

Aydındır ki, burada öz məhsuldarlığını artırmaqla, sahibi bu vaxtı minimuma endirməyə çalışmalıdır, yəni. $T \rightarrow 0$.

Buradan belə nəticə çıxır ki, sahibkar biznesə nəzarətdə bilavasitə iştiraka sərf etdiyi vaxtı azaltmaqla bərabər, operativ idarəetmənin bütün funksiyalarını həvalə etməli və ya onların əksəriyyətini muzdlu menecerlərə verməli və düzgün daxili nəzarət sistemini təşkil etməlidir. Bundan əlavə, korporativ nəzarət sisteminə sahiblik nəzarətinin bəzi funksiyalarını həvalə edərək, yalnız müvafiq funksiyaları və səlahiyyətləri özündə saxlayır [2, s.321].

Korporativ idarəetmə sisteminin effektivliyi korporasiyaların fəaliyyət xüsusiyyətlərini xarakterizə edən müəyyən amillərlə müəyyən edilir [4, s. 43]. Korporativ idarəetmə sisteminin əsas elementlərinə bu cür nəzarətlər daxildir (şəkil 1.):

- **korporativ idarəetmə strategiyası** korporativ məqsədlərə nail olmaq üçün korporativ idarəetmə prinsiplərinin həyata keçirilməsi istiqamətində kurs kimi xarakterizə olunur;

- **korporativ idarəetməni təmin edən təşkilati struktur** korporativ strategiyanın və korporativ idarəetmə prinsiplərinin həyata keçirilməsini təmin edən şöbələr arasında qarşılıqlı fəaliyyətin təşkilati sxeminin xüsusiyyətlərinin təsviri kimi xarakterizə olunur;

Şəkil 1. Korporativ idarəetmə sistemi

- **korporativ idarəetmə sistemləri və prosedurları** korporativ idarəetmə proseslərinin və müəyyən edilmiş prosedurların təsviri kimi xarakterizə olunur;

- **korporativ idarəetmə tərzi** şirkətin korporativ məqsədlərinə çatmaq üçün aparıcı menecerlərin hərəkətlərinin xarakteri kimi xarakterizə olunur;

- **kadrların korporativ bacarıqlarının məcmusu** korporativ strateji məqsədlərin həyata keçirilməsində təzahür edən, korporativ idarəetmə prinsiplərinin həyata keçirilməsinə yönəlmiş, heyəti və bütövlükdə şirkəti fərqləndirən qabiliyyətlər kimi xarakterizə olunur;

- **ortaq korporativ dəyərlər** ən vacib korporativ dəyərlər və ya şirkətin bütün işçilərinin şüuruna çatdırılan əsas anlayışlar kimi xarakterizə olunur [5, s.65].

Korporativ idarəetmədə təkmilləşdirmələr çox vaxt praktikada səthi olur və korporasiyaya səhmdarların etimadını qazanmağa, maliyyə böhranları riskini azaltmağa və kapitala çıxışı yaxşılaşdırmağa imkan verən struktur və prosedurların tətbiqi yolu kimi deyil, məqsədləri təşviq etmək üçün istifadə olunur. Ədalətlilik, şəffaflıq, hesabatlılıq və məsuliyyət prinsiplərinə əsaslanan daxili strukturların və prosedurların yaradılması korporativ idarəetmə islahatları prosesində rəhbərliyin həll etməli olduğu ilk vəzifədir.

Korporativ idarəetmənin təkmilləşdirilməsi iqtisadiyyatın bütün sahələrinə istər yerli, istərsə də xarici investorlar tərəfindən investisiya axınının artırılması üçün zəruri olan ən mühüm tədbirdir. Bunun üçün səhmdarlarla münasibətlərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi mexanizmi tələb olunur (şəkil 2.). Bu istiqamətin həyata keçirilməsi ilə bağlı əsas vəzifə ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərindən biri kimi səhmdarların hüquqlarının müdafiəsidir.

Şəkil 2. Korporativ idarəetmənin təkmilləşdirilməsi modeli

Korporativ idarəetmə mexanizmləri ümumiyyətlə, aşağıdakı elementləri əhatə edir:

Mərkəzi orqan qanunvericiliklə müəyyən edilmiş qaydada Direktorlar Şurasıdır. Məhz Direktorlar Şurası öz maraqlarını qorumağa və müvafiq olaraq menecerlər arasında əlaqələr qurmağa çağırır. Maraqların tarazlaşdırılması sisteminin digər mühüm komponenti top menecerlərin motivasiyasının qiymətləndirilməsi sistemidir. Söhbət təkcə maddi mükafatlardan deyil, həm də qeyri-maddi həvəsləndirmələrdən gedir. Təcrübə göstərir ki, bu olduqca çətin bir işdir. Adi işçilərlə bunu necə həll etmək az-çox aydındır, lakin yüksək vəzifələrdə çalışan, fərd kimi formalaşmış, yüksək peşəkar menecerlər artıq korporativ tədbirlərə o qədər də maraq göstərmirlər. Onlar hər zaman peşəkar kimi gələcək inkişafda maraqlıdırlar. Onlar bazarda uzunmüddətli hədəfləri və perspektivləri olan iri şirkətlərdə işləməkdə maraqlıdırlar ki, bu da onların peşəkar yüksəlişinə və əmək bazarında öz dəyərinin artmasına səbəb olacaq. Buna görə də maraqlı kompleks layihələr menecerlər üçün böyük stimuldur.

Şirkətlərin öz səmərəliliyinə və səhmdarların maraqlarına xələl gətirmədən xeyriyyəçilik və sponsorluqla məşğul olması üçün sosial təşəbbüslərini öz bizneslərini inkişaf etdirmək strategiyasına daxil

etmək lazımdır. Yalnız bu halda biznesin strateji sabitliyini və strateji təhlükəsizliyini təmin edən alət kimi sosial məsuliyyətindən danışmaq olar [6, s. 23].

Təşkilat yüksək texnologiyalı istehsalın dəyərini elan edirsə, bu iş yerlərinin müvafiq avadanlıqla təchiz edilməsi ilə müşayiət olunmalı, onun səmərəli və bacarıqlı işləməsi üçün şərait yaradılmalıdır. Yüksək keyfiyyətli məhsul istehsalına gəldikdə, keyfiyyətə nəzarət təmin edilməlidir. İşçilərin peşəkarlığının təşkilatın ən vacib dəyərlərindən biri olduğu deyilirsə, o zaman maddi fəaliyyət səviyyəsində onların peşəkar inkişafı və peşəkar bacarıqlarının reallaşdırılması üçün imkanlar təmin edilməlidir. İşçilərin müvafiq davranışı qiymətləndirilməzsə, rəhbərliyin davranışı onları nüfuzdan salırsa, mənəvi standartlardan danışmaq mənasızdır.

Sonda qeyd etmək lazımdır ki, həyatın məntiqi kimi idarəetmənin də məntiqi var. İstənilən tanınmış idarəetmə vasitələrindən istifadə edə bilərsiniz, lakin onlar şirkətin inkişaf mərhələsinə adekvat olmadıqda heç bir effekt verməyəcəklər. Odur ki, idarəetmə vasitələrini şirkətin inkişaf mərhələsindən və maliyyə resurslarından, ən əsası isə buna ehtiyac olub-olmamasından asılı olaraq seçmək lazımdır.

Ədəbiyyat

1. Асаул Н. А. Теория и методология институциональных взаимодействий субъектов инвестиционно- строительного комплекса / А.Н. Асаул .–СПб. : Гуманистика.-2004. -280с.

2. А. Н. Асаул, В. И. Павлов, Ф. И. Бескиерь, О. А. Мышко Менеджмент корпорации и корпоративное управление. - СПб. : Гуманистика. -2006. – 328с.

3. Фрышкин В. К. Управление развитием акционерных обществ в строительстве в условиях перехода к рынку / Автореф. дис. канд. экон. наук / РАУ. Центр пробл. рыночной экономики. Каф. упр. соц.-экон. процессами. - М.: 1992. - 26 с. Грачева М.В. Эффективное корпоративное управление: роль информационных технологий // Журнал управление компанией. – 2004.-№10. (41). – с. 40-47

4. Уфимкин А.Я. Корпоративное управление в действии // Журнал управление компанией. - 2005. -01(№44). –с. 64-67

5. Костенчук И. А. Внутрикорпоративный PR и развитие корпоративной культуры // Управление компанией. -2002. - №10 (17) с.23

Резюме

Алиева Ш.И.

Модели и системы совершенствования корпоративного управления

Улучшение корпоративного управления помогает повысить прибыльность компании. Все исследования показывают, что улучшение корпоративного управления напрямую ведет к увеличению стоимости акций компании. Чем лучше система корпоративного управления, тем выше доверие инвесторов и, следовательно, ниже риск. Основной задачей совета директоров в компании является максимальное увеличение привлекательности для акционеров. Повышение прибыльности компании зависит от возможности привлечения капитала на более выгодных условиях.

Ключевые слова: *система корпоративного управления, потенциальный инвестор, механизмы корпоративного управления, акционер, корпоративный контроль*

Summary

Alieva Sh.I.

Models and Systems for İmproving Corporate Governance

Improving corporate governance helps increase the company's profitability. All studies show that improved corporate governance directly leads to an increase in the value of a company's shares. The better the corporate governance system, the higher the confidence of investors and, therefore, the lower the risk. The main task of the board of directors in the company is to maximize the attractiveness for shareholders. Increasing the profitability of the company depends on the possibility of raising capital on more favorable terms.

Key words: *corporate governance system, potential investor, corporate governance mechanisms, shareholder, corporate control*

İQTİSADİ MƏKANDA RƏQƏMSALLAŞMA DƏYİŞİKLİYİ

Əsədov Z.R., Abbasova N.H., İsmayılova L.H., Tağızadə S.S., Səməndərov S.M.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
zaur.asadov@asoiu.edu.az

Xülasə: *Məqalədə dövlətin iqtisadi sisteminin innovativ inkişafı üçün obyektiv şərt olan iqtisadiyyatın rəqəmsallaşdırılmasının rolu və xüsusiyyətləri müzakirə olunur, həmçinin nəticələr araşdırılır və ölkədə rəqəmsal iqtisadiyyatın tətbiqi perspektivləri müəyyən edilir. İnformasiyanın rəqəmsal təqdimatının xüsusiyyətləri, ilkin şərtlər, rəqəmsallaşmanın həyata keçirilməsi və nəticələri nəzərdən keçirilir. Biznes modellərinin qurulmasında"rəqəmsallaşma", "rəqəmsal iqtisadiyyat", "rəqəmsal transformasiya" anlayışları arasındakı əlaqənin təhlili bu kateqoriyaların bir proses kimi spesifik xüsusiyyətlərinin öyrənilməsi, onun nəticələrinin tikintidə tətbiqi və həyata keçirilməsi əsasında aparılmışdır. Biznesdə rəqəmsal texnologiyalardan istifadə, informasiya texnologiyaları platformalarının yaradılması, yeni dəyərlər, üstünlüklər, virtual xidmətlərin göstərilməsi üçün yeni imkanlar əldə etmək üçün ölkənin ayrı-ayrı sahələrinin rəqəmsallaşmanın əhatə dairəsinin qiymətləndirilməsi forma və üsulları nəzərdə tutulur. Ölkənin İT şirkətlərinin media-kontent, elektron ticarət, e-hökumət, rəqəmsal bank texnologiyaları, təcrübə mübadiləsi, innovasiya mərkəzlərinin inkişafı, texnoparkların idarə edilməsi və texnoloji infrastrukturun inkişafı kimi sahələrdə əməkdaşlığı nəzərdə tutulur.*

Açar sözlər: *rəqəmsal transformasiya, iqtisadi məkan, əmək məhsuldarlığı, rəqəmsal təhlükəsizlik, rəqəmsal hökümət, süni intellekt, robototexnika*

Rəqəmsal transformasiya dedikdə biz rəqəmsal texnologiyaların cəmiyyətin bütün aspektlərinə inteqrasiyası, tətbiqi və nüfuzu prosesini nəzərdə tuturuq ki, bu da yeni məhsul və xidmətlərin yaradılması texnologiyalarında əsaslı dəyişikliklər, sosial-iqtisadi münasibətlər mədəniyyətində dəyişikliklər, davamlı dəyişikliklər və dövlətin və biznesin yeni modellərinin qurulması prinsiplərini özündə əks etdirir.

Qlobal pandemiya və məcburi özünütəcrid dövlətlərin, ev təsərrüfatlarının və biznesin bəzi sferalarının parçalanmasına səbəb olmaqla, sosial-iqtisadi münasibətlərin post-koronavirus inteqral rəqəmsal transformasiyası prosesini başlatdı. Pandemiyanın "köhnə ümumi bazar" institutuna və açıq sərhədlərə təsiri qloballaşmanın və beynəlxalq münasibətlərin digər prinsiplər və digər formalarda sonrakı inkişafını da stimullaşdıra bilər. Mövcud reallıq və pandemiya şəraitində yaşamağın acı təcrübəsi maliyyə axınlarının sürətləndirilməsi və şəffaflığının şərti, yeni siyasi və iqtisadi münasibətlərin formalaşması, sistemli institusional disbalansın düzəldilməsi üçün mümkün mexanizm kimi rəqəmsallaşmanın inkişafı üçün stimuldur. .

Əslində, ictimaiyyətlə əlaqələr son dövrlərdə köklü dəyişikliklərə məruz qalıb. Onlayn görüşlər, hökumətin və şirkətlərin və bankların direktorlar şurasının iclasları, müxtəlif təyinatlı klubların onlayn görüşləri, Skype-partilər və səhər yeməyi, toyları və ad günlərini keçirmək, uzaqdan iş və təhsil, yemək sifarişi və birbaşa ünsiyyət imkanı olmadan həyata keçirilə bilən daha çox xidmətlər qısa müddət ərzində meydana çıxdı. Rəqəmsal cəmiyyətin formalaşması, yeni rəqəmsal əlaqələrin dizaynı və həyata keçirilməsi prosesinə öz təkanını verdi. İş proseslərinin uzaqdan rəqəmsal qeydiyyatı, işin həcminin və əmək məhsuldarlığının yoxlanılması, podratçının şirkətin ümumi işinə töhfəsi korporativ idarəetmənin bir çox məsələlərini yenidən düşünməsinə və fərqli prizmadan baxılmasına imkan yaratdı.

Əmək məhsuldarlığının və iş vaxtının rəqəmsal uçotunun effektivliyi sayəsində ofis icarəsi və digər xərclərə qənaətin qiymətləndirilməsi, "icazəsiz iştirak", "prinsipal-agent" nəzəriyyəsi ilə bağlı yeni həll yolları və baxışlar, autsorsinqin inkişafı, ierarxik deyil, uzaqdan işçiləri olan buludlu üfüqi firmaların yaradılması tendensiyasının kəskin artımı müşahidə edilmişdir.

Beləliklə, indi biznesin iqtisadi təhlükəsizliyi dedikdə, təkcə xarici mühitdə qeyri-sabitlik şəraitində şirkətin, onun strukturunun, ayrı-ayrı elementlərinin və investisiya layihələrinin iqtisadi dayanıqlığını və inkişafını təmin etmək qabiliyyəti kimi başa düşülmür. Biznes iştirakçıları və şirkətin daxili mühitində insan amilinin təhdidləri, eyni zamanda "təhlükəsizlik bufer"ini yaratmaq, dövrün tələblərinə və qarşıya qoyulan vəzifəyə uyğun olaraq bütün biznes proseslərinin özünün rəqəmsal transformasiyasını həyata keçirmək bacarığı mənfi amillərin uzunmüddətli təsirinə qarşı mübarizə əsas rəqəmsal transformasiyanın məqsədlərinə çevrilir. Əslində, bu gün şirkətin iqtisadi təhlükəsizliyi yeni biznes modelləri yaratmaq bacarığı, süni intellekt (AI), robototexnika, AR və VR (artırılmış və virtual reallıq), blokçeyn, əşyaların interneti, böyük verilənlərin təhlili, sahibliyin qabaqcıl layihə idarəetmə üsulları (Agile, 6 Sigma, DevOps, Scrum, Kanban, Lean, PRINCE2 və s.) kimi ən son texnologiyalarla işləmək bacarığını əks etdirir.

Rəqəmsallaşma yeni şəraitdə yüksək rəqabət mühiti yaradır, çünki daha çox istehsalçı və pərakəndə satış şirkəti yeni kommunikasiya sistemləri vasitəsilə "rəqəmləşdirilmiş" istehlakçıya çata bilir.Dünyada siyasi və sosial-iqtisadi qarşılıqlı əlaqənin konsolidasiyası və mərkəzləşdirilməsi istiqamətində köklü dəyişikliklər baş verir, məsələn, qanunvericilik sənədlərinə yeni düzəlişlər üçün elektron və uzaqdan səsvermə haqqında qanunun qəbulu. Rəqəmsal iqtisadiyyatın inkişafı rəqəmsal qanunvericiliyinin aydınlaşdırılmasını, sadələşdirilməsini və yenidən nəzərdən keçirilməsini tələb edir, lakin idarəetmə heyətinin yenilənməsi çox ləng gedir.Yaxın dövrlərədək ölkəmizdə bir idarədə verilən elektron imza digər instansiyada çox nadir hallarda qəbul edilir ki, bu da əlavə xərclərə və narahatlıqlara səbəb olur. Bu, özünü təcrid dövründə, bir sıra dövlət qurumlarında növbələrin düzüldüyü zaman açıq şəkildə özünü göstərdi.

Rəqəmsallaşma informasiya məkanının transformasiyasını davam etdirir, sosial şəbəkələr, rabitə kanalları və çat messencerlər vasitəsilə informasiya mənbələrinin şaxələndirilmiş ötürülməsi müşahidə olunur.İnformasiya məkanını idarə edən rəqəmsal alətlər çap materiallarını istifadəsini məhdudlaşdıraraq informasiya və aktual xəbərlərin çatdırılması üçün əvəzedilməz və daha effektiv mexanizmə çevrilmişdir. İcmalar arasında kommunikasiya kanalları və dövlətlər tərəfindən idarə olunmayan biznes mühiti arasında qarşılıqlı əlaqə formalaşmişdır və inkişaf etməkdə davam edir. Rəqəmsal kommunikasiya vasitələrinin yaranması ilə yeni nəslin media mühitində artan tələb və maraqlarını əks etdirən, sosial-iqtisadi məkanın islahatları və transformasiyası ilə bağlı yeni mövzuları yayımlayan ictimai qruplar yaranmasi dövrün zərurətindən irəli gəlmişdir.

Son zamanlar yeni bir tendensiya rəqəmsal kadrlaşmadır, yəni təlim keçmiş menecerlərin rəqəmsal bilik və rəqəmsal mühitin yaradılmasında təcrübəsi olan yeni texnologiyaların köməyi ilə strateji problemləri həll etmək bacarığının üzə çıxarılaraq tətbiq edilməsidir. Rəqəmsal bilik iqtisadiyyatın həm özəl, həm də dövlət sektorunda yeni tip liderlər üçün zəruri təkmilləşdirməyə çevrilmişdir. Dövlət orqanlarının, ləng və səmərəsiz qərar qəbuletmə mexanizmi olan dövlət aparatının yeni müasir alətlərə və rəqəmsal texnologiyalara keçidə ciddi ehtiyacı var ki, bu da dövlət idarəçiliyi kadrlarını ixtisar edəcək və dövlətin daha səmərəli modelini qurulmasına səmərəli tövhə verəcəkdir. Rəqəmsallaşma, ilk növbədə, rəqəmsal texnologiyalardan, süni intellektdən və BigData verilənlərinin təhlili texnologiyalarından istifadə etməklə dövlət aparatının özünün səmərəliliyinin artırılmasını təşviq edir.

Son illər rəqəmsallaşmanın dövlət hakimiyyəti və idarəetmə sisteminə nüfuz etmə səviyyəsi ilə təşkilat və idarələr tərəfindən strateji vəzifələrin və sosial proqramların icrasının keyfiyyəti arasında aydın əlaqə mövcuddur. Beləliklə, güc strukturlarına nəzarətin rəqəmsallaşması bürokratiyanın iqtisadi nəzəriyyəsini transformasiya etməyə başlayır, fürsətçi davranış, oğurluq və fırıldaqçılıq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır.

"Mygov", "Egov", "ASAN", "Esosial", "Enotarius" və s elektron portallarının, uzaqdan asanlıqla əldə edilə bilən vergi ödəyicisinin ofisinin şəxsi hesablarının yaradılması – bütün bunlar vətəndaşlarla dövlət arasında münasibətlərdə tranzaksiya xərclərinin azaldılmasına, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini və rahatlığını yaxşılaşdırmasına yaxşı misal ola bilər.Rəqəmsal məlumatların emalı üçün dövlət mərkəzlərinin yaradılması və istifadəsi böyük miqdarda müxtəlif məlumatların, xüsusən də iqtisadi məlumatların təhlili, planlaşdırılması və saxlanması üçün idarəetmə prinsipini tətbiq etməyə geniş imkanlar yaradır.

Süni intellekt təkcə kosmik gəmiləri idarə etməyə imkan vermir, həm də dövlət və bələdiyyə işçilərinin hərəkətlərinin effektivliyini görməyə, daha dəqiq dövlət statistikasını yaratmağa, büdcə xərclərinin və gəlirlərinin icrasının auditini aparmağa, dövlət xərclərini və əsas xərclərini hesablamağa, məqsədli proqramlar, korrupsiyaya nəzarət və biznesin inkişafı indekslərini izləməyə kömək edəcəkdir.

Rəqəmsallaşma dövlətin iqtisadiyyata əsassız müdaxiləsini azaltmağa və dövlət tənzimləmə mexanizminin səmərəliliyini artırmağa kömək etmək üçün nəzərdə tutulub. Eyni zamanda Blockchain texnologiyasının tətbiqi, dövlət idarəçiliyində ən son rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı hüquqi maneələrin aradan qaldırılması, iqtisadi və sosial proqramların planlaşdırılmasında şəffaflığa, əldə edilmiş nəticələrin təhlilinin mövcudluğuna gətirib çıxaracaq ki, bu da dövlət idarəçiliyinin keyfiyyətinin artırılmasına xidmət edəcək.

Rəqəmsal transformasiya təkcə yeni ideyalar və texnologiyalar deyil, həm də yeni yerli intellektual liderlər və səriştəli icraçılar da tələb edir ki, bu da orta və ali təhsil sistemi qarşısında yeni vəzifələr qoyur. Pandemiya ölkədəki bir çox məktəb və universitetlərin bilik əldə etməyin yeni reallığına hazır olmadığını göstərdi. Bu problemi həll etmək üçün intellektual platformalar, ideya fabrikləri lazımdır, dövlət arasında mövcud münasibətlər modellərini dəyişdirmək üçün zəruri olan təhsil sisteminin rəqəmsal transformasiyası üçün təhsil müəssisələrinin, valideynlərin, tələbələrin, müəllimlərin və tələbələrin əməkdaşlığı zəruridir.

Süni intellekt, BigData sistemləri ekoloji problemlərin, iqlimin qorunması, təbii və texnogen fəlakətlərin və epidemiyaların qarşısının alınması ilə bağlı tətbiq edilə bilər. Çinin koronavirusla

mübarizədəki uğuru buna misal ola bilər. Bu, ilk növbədə, virusla mübarizə üzrə səlahiyyətli tədbirlər, karantinin təmin edilməsi, rəqəmsal texnologiyalardan, yeni cihazlardan, təmas zəncirlərini axtarmaq üçün süni intellektin imkanlarından istifadə etməklə hərtərəfli epidemioloji və tibbi araşdırmaların aparılması və hər bir xəstəlik halında sıfır xəstənin tapılması ilə sıx bağlıdır.

Cəmiyyətin müasir rəqəmsal transformasiyası bir sıra mühüm təhlükələri, şəxsi məlumatların itirilməsi və məxfiliyin pozulması risklərini də daşıyır. Bu, təkcə banklara, firmalara, ayrı-ayrı vətəndaşlara kütləvi haker hücumları nəticəsində kiberməhv və zərər deyil, həm də seçki prosesinə müdaxilə və ya düşmən ölkələrin kritik infrastrukturuna ciddi ziyan vurmaqla kompüter və hibrid müharibələrinin (haker müharibələri) aparılmasıdır.

Müasir silahların və döyüş vasitələrinin rəqəmsal transformasiyası, məsələn, döyüş təyyarələrini və yerüstü artilleriyasını pilotsuz uçuş aparatları və döyüş təyyarələri ilə əvəz etməklə, silah istehsalının xərclərini optimallaşdırmağa və gücdən istifadənin səmərəliliyini artırmağa imkan verir (44 günlük müharibə zamanı dronlardan və peyk rabitəsindən çox effektiv istifadə olunması). Ordunun rəqəmsallaşması təkcə onun döyüş qabiliyyətinin və səmərəliliyinin artırılması deyil, hər şeydən əvvəl "ağıllı" silahların, strateji və taktiki müdafiə vasitələrinin, rəqəmsal silahların tətbiqi ilə müasir əsgərin həyatının qorunmasıdır.

Koronavirus pandemiyası Sənaye 4.0 texnologiyalarının daha erkən həyata keçirilməsinə təkan verdi. Distant təhsil sistemində VR (virtual reallıq) hüceyrələrin, atomların, mühərriklərin və digər mürəkkəb mexanizmlərin və proseslərin öyrənilməsində yeni tendensiyaların yaranmasına kömək etdi. Sinxua xəbər agentliyinin Çin telekanalı 3D-də süni intellekt tərəfindən yaradılan virtual teleaparıcının köməyi ilə yayımlanır.Bəzi məlumatlara görə, uzaqdan işləmə meyli beş il ərzində uzaqdan işləyən işçilərin sayını 200% artırıb; Koronavirus və özünütəcrid bir neçə ay ərzində demək olar ki, eyni nəticəyə nail oldu. Virus AI (süni intellekt) tətbiqi tendensiyalarını ən azı 5 il qabağa çəkilməsinə səbəb oldu.

Yeni rəqəmsal sistemlər üz ifadələrini, insanın əhval-ruhiyyəsini tanıyır, bir neçə dəqiqə əvvəl insanın nə etdiyini görür, onun davranış aktivliyinin indeksini müəyyənləşdirir. Buna, əslində uzaq komandaların işini optimallaşdırmaq adı altında işçilərin tam nəzarəti də demək olar. Digər tərəfdən, yeni texnologiyalar, o cümlədən, ZOOM, Skype və digər proqramlar komanda üzvlərinin məsafədən daha yaxşı inteqrasiyasına imkan verir.

Rəqəmsallaşdırma bəzi sənaye sahələrinin investisiya inkişafı üçün təkanverici rolunu oynadı və resursların bir investisiya sahəsindən digərinə axınını sürətləndirdi. Əvvəllər işlərin real vəziyyəti haqqında etibarlı məlumat mənbəyi hesab edilən sağlamlıq göstəriciləri statistikasında və əhalinin sağlamlıq vəziyyətinin monitorinqində tam miqyaslı inqilab baş verdi. Səhiyyənin rəqəmsallaşmasının sürətləndirilməsinə misal olaraq Moskvada onlayn kliniki dəstək və diaqnostika ilə, real həkimlər tərəfindən chatda onlayn konsultasiyaların təqdim olunduğu, adi klinikanın strukturuna və digər atributlarına malik "Bestdoctor virtual klinikası"nın açılmasını göstərmək olar.

Mədəni məkanın transformasiyasına misal olaraq rəqəmsallaşmaya görə "Muzeylər Gecəsi" beynəlxalq festivalının koronavirusa görə ləğv edilməməsi, virtual olaraq keçirilməsi və dünyanın bir çox muzeylərinin internetdə öz qapılarını ziyarətçilərin üzünə açmasıdır (məs: Azərbaycanda Xalça muzeyi, Britaniya Muzeyi – London, Louvre Muzeyi – Paris, Metropolitan İncəsənət Muzeyi – Nyu York, Van Gogh Muzeyi – Amsterdam, Vatikan Muzeyi – Vatikan, Ermitaj Muzeyi – Sankt Peterburq).

Dövlətin sosial-iqtisadi sisteminin transformasiyası bütün istiqamətlərdə baş verir və bu zaman tendensiyanın bütün iştirakçılarının hərəkətlərini qarşılıqlı əlaqələndirmək zəruridir. Vahid rəqəmsal məkanın formalaşdırılması üçün inteqrasiya olunmuş informasiya sisteminin (bulud platforması) yaradılması tələb olunur ki, bu da milli təhlükəsizliyi qorumaq üçün yerli tərtibatçılarının və şirkətlərinin yerli proqram təminatı və kompüter təhlükəsizliyi alətlərinə əsaslanmalı və istifadə edilməlidir. Sosial-iqtisadi məkanın rəqəmsal transformasiyasının əsas məqsədi qlobal rəqəmsal sərişta və intensiv istehsal biliyi vasitəsilə zəngin və səmərəli vətəndaşların güclü dövlətini qurmaqdır ki, bu da bizi dövlətin, biznesin və insanların sosial şəbəkələrin yeni rəqəmsal cəmiyyətin yaradılmasında rolunu yenidən nəzərdən keçirməyə məcbur edir.

Ölkəmizdə rəqəmsal məkanının formalaşması və inkişafı texnoloji innovasiyaların inkişafı və rəqəmsal transformasiyanın qlobal çağırışlarına cavab verən ölkələrin və bütövlükdə dünyanın iqtisadi inkişafı üçün ilkin şərtdir.Rəqəmsal Məkanın formalaşması və inkişafı müxtəlif fəal subyektlərin öz maraqlarını güdən və məqsədlərini həyata keçirən fəaliyyətinin nəticəsi kimi qiymətləndirilə bilər. Rəqəmsal Məkanın formalaşması və inkişafından maksimum effekt əldə etmək üçün bu sahədə mütəşəkkil birgə iş və əlaqələndirilmiş siyasət tələb olunur.

Rəqəmsal məkanın formalaşması və inkişafının məqsədləri:

- dövlət idarəçiliyinin, iqtisadiyyatın və sosial sferanın rəqəmsal transformasiyasının verdiyi imkanlardan ölkəmizin və sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin gücləndirilməsi və iqtisadiyyatın inkişafı üçün istifadə etmək;

- əməkdaşlığın qlobal, makro-regional və regional dəyişiklik proseslərinə daxil edilməsi,
- yeni rəqəmsal sənaye və bazarların formalaşması;
- dünyanın mövcud ümumi bazarlarına rəqəmsal transformasiyanın multiplikativ müsbət təsirinin həyata keçirilməsi;
- rəqəmsal iqtisadiyyatın formalaşması prosesində insan aktivlərinin inkişafı;
- istehlakçılar və biznes subyektləri (ilk növbədə texnoloji sahibkarlar, yeni istedadlar, rəhbərlər və startaplar) üçün Rəqəmsal Məkanın cəlbediciliyinin təmin edilməsi.

Rəqəmsal Məkanın formalaşması və inkişafının keyfiyyət strateji hədəfləri bunlardır:

- inteqrasiya və biznes təşəbbüslərinin bütün sahələrində dünya ölkələrinin iqtisadiyyatlarının sistemli rəqəmsal transformasiyası;
- iqtisadi proseslərin və onların rəqəmsallaşdırılması nəticəsində xidmət mühitinin qüsursuzluğunun artırılması;
- qlobal bazarlarda aktivliyi genişlənmək üçün birgə rəqəmsal vasitələrin yaradılması və işə salınması;
- rəqəmsal iqtisadiyyata təsir edə biləcək iqtisadi risklər kompleksinin azaldılması;
- rəqəmsal iqtisadiyyatda iş yerlərinin sayında keyfiyyət artımı;
- əhalinin rəqəmsal alətlərdən istifadəsində əhəmiyyətli artımı.

Hədəf modelinə nail olmaq üçün rəqəmsal məkanının formalaşması və inkişafı kontekstində rəqəmsal transformasiya aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

- sənaye sahələrinin rəqəmsal transformasiyası;
- idarəetmə mexanizmlərinin və inteqrasiya proseslərinin rəqəmsal modernləşdirilməsi;
- rəqəmsal bazarının formalaşması;
- rəqəmsal infrastrukturun inkişafı;
- transformasiya prosesinin hüquqi təminatı.

Ədəbiyyat

1. Chuvakhina L.G., Terskaya G.A., Buevich S.Y. Innovations as a factor of state's improved performance in the world economic system // Revista ESPACIOS Vol. 39 (#04) Year 2018.
2. European Commission (2018a) Digital Economy. https://joint-research-centre.ec.europa.eu/scientific-activities-z/digital-economy_en
3. OECD (2016). Skills for a Digital World. http://www.oecd.org/els/emp/Skillsfor-a-Digital-World.pdf
4. Удалов, Д.В., Коблова, *Ю.А.* "Роль государства в обеспечении экономической безопасности в условиях цифровизации", Вестник Саратовского государственного социально-экономического университета, 2019, № 3 (77), с 28–33
5. Кешелав, А.В., "Введение в «Цифровую» экономику" М.: ВНИИГеосистем, 2017

Резюме

Асадов З.Р., Абасова Н.Х., Исмаилова Л.Х., Тагизаде С.С., Самандаров С.М.

Цифровизация экономического пространства

В статье рассматриваются роль и особенности цифровизации экономики, являющаяся объективным условием инновационного развития экономической системы государства, а также исследуются результаты и определяются перспективы внедрения цифровой экономики в стране. Рассмотрены особенности цифрового представления информации, предпосылки, реализация и последствия цифровизации. Проведен анализ соотношения понятий "цифровизация", "цифровая экономика", "цифровая трансформация" на основе изучения специфических особенностей данных категорий как процесса, применения и реализации его результатов при постороении бизнес-моделей. Рассмотрены формы и методы оценки степени охвата цифровизацией отдельных отраслей страны для получения новых возможностей применение цифровых технологий в бизнесе, создания информационно-технологических платформ, новых ценностей, благ, предоставления виртуальных услуг. Рассмотрено сотрудничество IT-компаний страны по таким направлениям, как медиа-контент, электронная коммерция, электронное правительство, цифровые банковские технологии, обмен опытом, развитие инновационных центров, управление технопарками и развитие технологической инфраструктуры.

Ключевые слова: цифровая трансформация, экономическое пространство, производительность труда, цифровая безопасность, цифровое правительство, искусственный интеллект, робототехника

Summary

Asadov Z.R., Abbasova N.H., Ismayilova L.H., Tagizade S.S., Samandarov S.M.

Digitalization Change in Economic Field

The article discusses the role and features of the digitalization of the economy, which is an objective condition for the innovative development of the economic system of the state, and also examines the results and determines the prospects for the introduction of the digital economy in the country. The features of digital representation of information, prerequisites, implementation and consequences of digitalization are considered. The analysis of the relationship between the concepts of "digitalization", "digital economy", "digital transformation" was carried out based on the study of the specific features of these categories as a process, the application and implementation of its results when building business models. The forms and methods for assessing the degree of digitalization coverage of individual sectors of the country are considered in order to obtain new opportunities for the use of digital technologies in business, the creation of information technology platforms, new values, benefits, and the provision of virtual services. The cooperation of IT companies of the country in such areas as media content, e-commerce, e-government, digital banking technologies, exchange of experience, development of innovation centers, management of technology parks and development of technological infrastructure is considered.

Keywords: *digital transformation, economic space, labor productivity, digital security, digital government, artificial intelligence, robotics*

BİZNESİN ŞAXƏLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ MÜASİR TƏCRÜBƏLƏR

Əsədov Zaur Rauf oğlu, Cəfərli Əmrah Ülfət oğlu

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

cfrlimrah147@gmail.com

Xülasə: *Məqalədə biznes şaxələndirməsi sahəsində müasir təcrübələr, onların məzmunu, məqsədi və həyata keçirilmə biznes növləri, qazandırdıqları maliyyə imkanları və onların üstünlükləri tədqiq edilir. Bu məqsədlə məqalədə müasir təcrübi şaxələndirmələr öyrənilir və bu fəaliyyətin təkmilləşdirilmə yolları təsvir edilir. Bununla yanaşı, məqalədə biznes şaxələndirilməsi üzrə mövcud dünya tendensiyaları öyrənilmiş və həyata keçirilən mümkün alətlər toplusuna nəzər yetirilmişdir. Məqalənin sonunda isə biznes şaxələndirilməsinin aparılması istiqamətində müxtəlif təkliflər edilmişdir.*

Açar sözləri: *biznes, şaxələndirmə, iqtisadi artım, istehsal, müasir təcrübələr, risklər*

Hər bir idarəetmə subyektinin mövcud biznesin şaxələndirilməsi strategiyasının hazırlanması və həyata keçirilməsi barədə düşünməsinin ən azı üç səbəbi vardır:

Birincisi, təşkilatın arzu olunan nəticələrə doğru marşrutu müəyyənləşdirmək və buna görə də özünü rəqiblərdən qorumaq, rəqabətqabiliyyətli və firavan qalmaq üçün strategiyaya ehtiyacı var. Bu mənada strategiya biznesin hansı istiqamətə can atmalı olduğu istiqaməti, məqsədi müəyyən edir [2, s. 71].

İkincisi, strategiya təşkilata öz hərəkətlərini və enerjisini müəyyən yekun nəticələrə yönəltməyə və bu hərəkətləri əlaqələndirməyə kömək edir. Başqa sözlə, strategiya bütün təşkilatın bir istiqamətdə toplanmasına kömək edə bilər.

Üçüncüsü, xarakter və ya şəxsiyyət fərdi müəyyən etdiyi kimi strategiya təşkilatın simasını müəyyən etməyə kömək edir. Bu mənada strategiya firmanı həm işçilər, həm də kənar şəxslər üçün mövqeləndirir [4, s. 120].

Biznesin şaxələndirilməsi əksər müəssisələr üçün idarəetmə prosesinin vacib hissəsidir. Beynəlxalq təcrübədə firmaların biznesin şaxələndirilməsi strategiyalarına əməl etməkdə uğur qazandıqlarına dair çoxlu nümunələr vardır [3].

Biznesin şaxələndirilməsinin bir səbəbi, firmaların yeni bazarlarda və yeni məhsul və xidmətlərdə korporativ idarəetmə imkanlarından faydalanmasıdır. Korporativ ana şirkət səviyyəsində menecerlər müxtəlif məhsul və xidmətlərin toplusunu idarə etmək qabiliyyətinə malikdirlər, hətta əməliyyat vahidi səviyyəsində ümumi resursları olmasa belə, belə idarəetmə bu məhsul və xidmətlərin uğuruna töhfə verir.

Diversifikasiyanın bir neçə başqa ümumi səbəbi var, lakin onlar səhmdarlara nisbətən daha az açıq-aydın dəyər yaradır və bəzən şirkət rəhbərliyinin marağındadır. Təşkilatlar xarici dəyişikliklərə cavab olaraq çox vaxt diversifikasiyaya müraciət edirlər.

Bəzən bu addım, məsələn, bazarlar və ya texnologiyalar birləşdikdə, ən azı mövcud dəyəri qorumaq ehtiyacı ilə əsaslandırılır. Məsələn, Microsoft Xbox elektron oyun dəstinin inkişafına böyük sərmayə qoydu,

çünki getdikcə daha təkmilləşən oyun konsollarının kompüter sənayesindəki ənənəvi üstünlüklərini sarsıdacağını başa düşmüşdü.

Adi maliyyə nəzəriyyəsi riskin diversifikasiyanın aparıcı qüvvəsi olması iddiasına çox şübhə ilə yanaşır. İnvestorlar özləri investisiyalarını portfel investisiyaları vasitəsilə kifayət qədər effektiv şəkildə diversifikasiya edirlər. Menecerlər biznes müxtəlifliyinin təmin etdiyi təhlükəsizliyi bəyənə bilər, lakin investorlar sərmayə qoyduqları hər şirkətin də diversifikasiya olunmasını istəmirlər.

Ancaq bu məntiqi özəl şirkətlərə tətbiq etmək o qədər də asan deyil, çünki sahiblərin aktivlərinin əhəmiyyətli bir hissəsi bu bizneslə bağlıdır və investisiyaları diversifikasiya etmək artıq o qədər də asan deyil. Özəl şirkətlər üçün riski bir neçə ayrı fəaliyyət növü üzrə diversifikasiya etmək məntiqlidir ki, hər hansı bir problem bütün biznesi dibinə çəkməsin.

Təşkilatlar bəzən güclü maraqlı tərəflərin, o cümlədən top menecmentin gözləntilərinə cavab olaraq diversifikasiyadan istifadə edirlər.

Diversifikasiya, ilk növbədə, əsas biznes növünün gəlirliliyinin azalması, rəqabətin artması və s. kimi böhran amillərinin təsirinin zəifləməsində özünü göstərən şirkət üçün iqtisadi faydalara və onların nəticələrinin yumşaldılmasına əsaslanır. Diversifikasiya işin səmərəliliyini təmin etmək, müxtəlif bazarlarda mövqelərini möhkəmləndirmək məqsədilə iri firmaların, birliklərin, müəssisələrin və bütöv sənaye sahələrinin fəaliyyətinin əsas fəaliyyətindən kənarda genişləndirilməsidir.

Biznes fəaliyyətinin şaxələndirilməsi strategiyası yeni bazarların inkişafı ilə eyni vaxtda yeni məhsul növlərinin inkişafını nəzərdə tutur. Eyni zamanda, mallar hədəf bazarda fəaliyyət göstərən bütün müəssisələr üçün və ya yalnız bu müəssisə üçün yeni ola bilər. Belə bir strategiya şirkətin mənfəətini, bu günkü sabitliyini və uzaq gələcəkdə sabitliyini təmin edir. Müəssisələr kapital qoyuluşları riskini minimuma endirmək üçün diversifikasiya edirlər. Bununla belə, diversifikasiyanın özü müəyyən risklər və xərclərlə əlaqələndirilir və buna görə də diqqətli ilkin təhlil tələb olunur.

Biznesin şaxələndirilməsinin, diversifikasiyasının Mercedes nümunəsi. Ağır sənaye sahəsində xüsusi çəkiyə malik olan bu şirkət, birdən-birə bazara yeni məhsulu - öz brendi altında eynək kolleksiyasını təqdim edən Mercedes-in strategiyasıdır. Bu sahəd, şirkət heç bir texnologiyaya malik deyildi, lakin o, Mercedes Benz-in əsas məhsullarını satın alan eyni hədəf seqmentini hədəf aldı. Beləliklə, əsas vəzifə texnologiya bilikləri olan tərəfdaş tapmaq idi. Şirkət müxtəlif növ eynəklər istehsal edən Alison Spa ilə birgə müəssisə yaratmaq qərarına gəldi. Yeni kolleksiyada həm kişilər, həm də qadınlar üçün nəzərdə tutulmuş 40-a yaxın model var idi.

Bir qayda olaraq, əksər şirkətlər öz fəaliyyətlərinə təksənaye və bir biznes növü üzrə cəmləşmənin özünəməxsus təşkilati, idarəetmə və strateji üstünlüklərə malik olduğuna haqlı olaraq inanaraq öz iqtisadi artım templərini saxlamaq üçün diversifikasiyaya əl atmadan uzun illər uğurla fəaliyyət göstərirlər [5, s.37-42].

Bu halda, bütün təşkilati imkanlar əsas biznesin təkmilləşdirilməsinə və yeni coğrafi bazarların inkişafına yönəldilir. Şirkət rəhbərliyinin səylərinin konsentrasiyası bir fəaliyyət növü səmərəliliyin artmasına, təkmilləşdirilmiş istehsal texnologiyasına və dəyər zəncirində diferensiallaşma üçün yeni imkanların yaranmasına kömək edir. Buna görə də, tək sənaye şirkəti nə qədər uğurla inkişaf edərsə, bir o qədər şanslar olur, toplanmış unikal imkanlar, təcrübə və yaxşı reputasiya ona bazarda güclü mövqe tutaraq sənaye lideri olmağa kömək edir.

Amma eyni zamanda, təksənaye müəssisələrinin dayanması riski var. Yüksək doyma səbəbiylə bazar, artan rəqabət və xüsusilə yeni texnologiyaların və ya məhsulların meydana gəlməsi ilə, istehlakçı seçimlərinin kəskin dəyişməsinə səbəb olan, hazırda uğurla fəaliyyət göstərən şirkət öz inkişaf perspektivini itirmək riski altındadır. Çox vaxt dəyişən istehlakçı ehtiyacları, texnoloji yeniliklər və ya yeni əvəzedici məhsullara tələb, tək sənaye şirkətinin gəlirliliyi azalır və onun dağılmasına səbəb olur.

Zodiac şirkətinin biznesin şaxələndirilməsi nümunəsi. Zodiac şirkəti Paris yaxınlığında Maurice Malle tərəfindən isti hava şarında ilk uçuşundan dərhal sonra yaradılmışdır. Uzun illər şirkət yalnız havadan yüngül olan idarə olunan təyyarələr (yəni hava gəmiləri) istehsal edirdi. Lakin alman zeplininin Nyu-York yaxınlığında baş verən məşhur "Hindenburg" qəzası, havadan yüngül təyyarə bazarının inkişafını kəskin şəkildə ləngitdi. Adi fəaliyyətlərini davam etdirmək imkanını itirən Zodiac, texniki biliklərini başqa bir sahədə tətbiq etmək qərarına gəldi və şişmə qayıqlar istehsal etməyə başladı.

Bu diversifikasiya çox uğurlu oldu: şirkət bir milyondan çox qayıq satdı, günü bu gün də yüksək qiymətlərə baxmayaraq, bütün dünyada olduqca populyar olaraq qalır.

Xüsusilə italyan istehsalçılarının artan rəqabəti Zodiac-ı bir daha biznes maraqlarını şaxələndirməyə məcbur etdi.

Düzdür, bəzən menecerlər yalnız yüksək mövqelərini qorumaq üçün tənəzzülə uğrayan bazarlardan böyüyən bazarlara doğru diversifikasiyaya əl atırlar.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, diversifikasiya strategiyası heç də həmişə istənilən nəticəyə gətirib çıxarmır [6, s. 48-54].

Başa düşmək lazımdır ki, müəyyən strategiyaya əməl etməzdən əvvəl müəssisəni təhlil etmək, güclü və zəif tərəflərini müəyyən etmək və ən uyğun inkişaf yolunu seçmək lazımdır. Rəqabət mühiti, istehlakçılar, ölkənin iqtisadi vəziyyəti - bütün bu amillər biznes fəaliyyətinin şaxələndirliməsini seçərkən həlledici ola bilər. Yalnız bütün bu amillər nəzərə alındıqda, təhlil aparıldıqda və ən uyğun inkişaf strategiyası seçildikdə onun uğurlu və səmərəli həyata keçirilməsinə ümid etmək olar.

Müəssisələrin şaxələndirilməsinin bir sıra səbəbləri var, o cümlədən:

- biznesin ilkin sahələrində rəqabət üstünlüklərini qorumaq üçün lazım olandan artıq maliyyə resurslarının çevrilməsi;
- rəqabət mühitində sağ qalmaq və öz mövqeyini möhkəmləndirmək istəyi;
- sahibkarlıq risklərinin müxtəlif fəaliyyət sahələri arasında bölüşdürülməsi yolu ilə azaldılması cəhdi;
- istehsal həcmlərinin sadə artımı ilə müqayisədə daha çox qazanc əldə etmək imkanı.

Yuxarıda göstərilənlər arasında əsas səbəblər riski azaltmaq və ya bölüşdürmək istəyi, eləcə də durğun bazarlardan çıxmaq və yeni sahələrdə işləməkdən maliyyə faydaları əldə etmək istəyidir. Bu amillər bazar iqtisadiyyatı üzrə idarəolunan müəssisələrin şaxələndirilməsinin əsas səbəbləridir.

Fəaliyyətlərin əsaslı şəkildə həyata keçirilən diversifikasiyası ayrı-ayrı bölmələrin səmərəliliyinin artırılması üçün ilkin şərt ola bilər. Məsələn, əgər sənaye daxilində məsrəflər mahiyyətcə sabitdirsə, onda onların böyük satış həcmləri ilə müxtəlif sahələrə bölünməsi vahid məsrəflərin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır[7, s. 30-33].

Diversifikasiyanın bir səbəbi, firmaların yeni bazarlarda və yeni məhsul və xidmətlərdə korporativ idarəetmə imkanlarından faydalanmasıdır. Korporativ ana şirkət səviyyəsində menecerlər müxtəlif məhsul və xidmətlərin toplusunu idarə etmək qabiliyyətinə malikdirlər, hətta əməliyyat vahidi səviyyəsində ümumi resursları olmasa belə, belə idarəetmə bu məhsul və xidmətlərin uğuruna töhfə verir [1, s.53].

Beləliklə, əgər biz müasir təcrübə nümunələrini ümumiləşdirsək, biznes fəaliyyətinin şaxələndirilməsinin əsasən aşağıdakı səbəblərdən baş verdiyini vurğulaya bilərik:

– əlaqəli olmayan bir çox fəaliyyətin (istehsal, satış, biznes) eyni vaxtda inkişafı (Mercedes nümunəsi);

– məhsul və xidmətlərin növlərinin və adlarının sayının artması(Mercedes və Microsoft nümunəsi);

– riskləri azaltmaq məqsədilə müxtəlif (bir sıra parametrlərə görə) aktivlər arasında vəsaitlərin bölüşdürülməsi(Microsoft nümunəsi);

- Şirkətin digər sənaye sahələrinə nüfuz etməsi(Zodiac nümunəsi).

Ədəbiyyat

1. İmanov.Ə.Ş. “ Biznesin investisiya strategiyası ”. Bakı.2014.
2. İsmayılov S.F. “Muəssisənin diversifikasiyası strategiyası”, Azərbaycanın vergi xəbərləri.6/2011, s.61-72
3. Аакер, Д. Стратегическое рыночное управление. 7-е изд. / Дэвид Аакер. Пер. с англ. под ред. С. Г. Божук. — СПб.: Питер, 2007. — 496 с.
4. Лезнов, С.И. Обслуживание электрооборудования электростанций и подстанций: Учебник / С.И.Лезнов, А.А.Тайц. – М. : Высшая школа, 1980.– 301с.
5. Львов, М. А. Методы и проблемы оценки эффективности управ- ления знаниями при реализации проекта / М. А. Львов // Экономика ре- гиона и управление. – 2013. – № 18. – С. 37-42.
6. Ляпина, С. Управление знаниями в организации как основное направление повышения конкурентоспособности / С. Ляпина, Т. Григорьева // Вестник Национальной ассоциации участников фондового рынка. – 2013. – № 4. – С. 48-54.
7. Макаров, А.В. Диверсификация как инструмент развития современного предприятия / А.В. Макаров, А.Р. Гарифуллин // Известия УрГЭУ. – 2010. – Вып. 1. – С. 27-36.

Резюме

Асадов З.Р., Джафарли А.У

Современная практика в области диверсификации бизнеса

В статье рассматриваются современная практика в области диверсификации бизнеса, их содержание, цели и виды бизнеса, финансовые возможности, которые они приносят, и их преимущества. С этой целью в статье исследуются современные экспериментальные диверсификации и описываются пути совершенствования этой деятельности. Кроме того, в

статье были изучены современные мировые тенденции диверсификации бизнеса и рассмотрен набор возможных инструментов. В конце статьи были сделаны различные предложения в направлении диверсификации бизнеса.

Ключевые слова: *бизнес, диверсификация, экономический рост, производство, современная практика, риски*

Summary

Asadov Z.R., Jafarli A.U

Modern Practices in the Field of Business Diversification

The article discusses modern practices in the field of business diversification, their content, goals and types of business, the financial opportunities they bring, and their benefits.

To this end, the article explores modern experimental diversification and describes ways to improve this activity. In addition, the article studied the current global trends in business diversification and considered a set of possible tools. At the end of the article, various proposals were made in the direction of business diversification.

Key words: *business, diversification, economic growth, production, modern practice, risks*

BAZARA ÇIXIŞIN YAXŞILAŞDIRILMASI İLƏ AQRAR İSTEHSALIN ARTIRILMASI İMKANLARI

Hacıyeva Səadət İntiqam qızı
Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi
haciyevaseadet@gmail.com

Xülasə: *Məqalədə aqrar sektorun inkişafına təsirləri baxımından kənd təsərrüfatı məhsulları istehsalçılarının bazara çıxış problemləri araşdırılır. Aqrar sektorun dayanıqlı inkişafı baxımından bazar infrastrukturu istehsalın artımına şərait yaradan əsas amillərdən biri kimi qiymətləndirilir. Əlverişli bazar şərtləri istehsalçıları inkişafa və istehsalın kəmiyyət, keyfiyyət və çeşidliliyini artırmağa təşviq edir. Bu baxımdan fermerlərin, xüsusilə kiçik və orta istehsalçıların bazara çıxış imkanlarının yaxşılaşdırılması aktual hesab edilir. Məqalədə bununla bağlı müəllif fikirləri verilir və bu istiqamətdə tədbirlərin davam etdirilməsinin vacibliyi qeyd edilir.*

Açar sözlər: *bazara çıxış, kənd təsərrüfatı məhsulları, bazar məhdudiyyətləri, bazar infrastrukturu, real artım tempi.*

Kənd təsərrüfatının inkişafı kəskin yoxsulluğa son qoymaq, ümumi rifahı artırmaq və 2050-ci ilə qədər proqnozlaşdırılan əhalini ərzaqla təmin etmək üçün ən güclü vasitələrdən biridir. Dünya Bankının 2016-cı ildə aparılan araşdırmalarına əsasən, aşağı gəlirli insanların təqribən 65%-i kənd təsərrüfatı hesabına dolanır. Kənd təsərrüfatı iqtisadi artım üçün də mühüm əhəmiyyət kəsb edir. 2018-ci ildə kənd təsərrüfatı qlobal ümumi daxili məhsulun (ÜDM) 4%-ni təşkil edib və bəzi aşağı inkişaf etməkdə olan ölkələrdə ÜDM-in 25%-dən çoxunu təşkil edib [10].

Kənd təsərrüfatının inkişafı iqlim, relyef, torpaq və su ehtiyatları kimi təbii amillərlə yanaşı, ölkələrin inkişaf səviyyələri, iqtisadi sistemlər, idarəetmə formaları, qlobal bazarlara inteqrasiya səviyyəsi kimi faktorlardan da asılıdır. Aqrar sahənin inkişafına təsir edən əhəmiyyətli amillərdən biri də fermerlərin bazara çıxış imkanlarıdır. Bazara çıxış imkanlarının yaxşılaşdırılması bazar infrastruktunun inkişafını tələb edir. Bazar infrastrukturu yol və nəqliyyat, daşıma vasitələri, saxlama anbarları, həmçinin qablaşdırma, çeşidləmə xidmətləri, topdan və pərakəndə satış mərkəzlərinə, bazar informasiyalarına fermerlərin əlçatanlığının təmin edilməsinə imkan verməlidir.

Bazara çıxışda olan məhdudiyyətlər və onların kənd təsərrüfatının inkişafına təsiri ilə bağlı iqtisadi ədəbiyyatlarda, o cümlədən beynəlxalq təşkilatların hesabatlarında kifayət qədər araşdırma və təhlillər mövcuddur.

İFAD-ın qiymətləndirmələrinə əsasən bazara etibarlı çıxış imkanları məhsuldarlığı və gəlirləri artırır və ərzaq təhlükəsizliyini gücləndirir. Həmçinin bazar risklərinin və qeyri-bərabər bazar güclərinin azaldılması kənd yerlərində iqtisadi inkişafa töhfə verə bilər. İFAD-ın araşdırmalarına görə kənd təsərrüfatı məhsulları istehsalçıları, xüsusilə də kiçik istehsalçılar bazara çıxışda bir sıra çətinliklərlə üzləşirlər ki, bunlar da daha çox, uzaq məsafədə yerləşmə, yüksək nəqliyyat xərcləri, məhdud biliklər, biznes bacarıqlarının və digər bazar vasitəçiləri ilə bərabər şərtlərdə qarşılıqlı əlaqələrə kömək edə bilən təşkilatlanmanın olmaması ilə bağlıdır. Fermerlərin bazarlara çıxış imkanlarının artırılması IFAD üçün əsas

prioritetlərdən biridir. Daxili və beynəlxalq bazarlara daha yaxşı çıxış kiçik istehsalçılara daha çox məhsulu daha keyfiyyətli və daha yüksək qiymətlərlə etibarlı şəkildə satmağa imkan verir. Bu da öz növbəsində fermerləri öz bizneslərinə investisiya qoymağa, istehsal etdikləri məhsulların kəmiyyətini, keyfiyyətini və çeşidliyini artırmağa sövq edir [7].

Beynəlxalq Əmək Təşkilatının araşdırmalarına görə kiçik sahibkarlar regional, kapital və ya ixrac dəyər zəncirlərinə xidmət edən daha gəlirli bazarlardan "bloklanmış" vəziyyətdə fəaliyyət göstəririlər. Bu vəziyyət, əsasən miqyas iqtisadiyyatının olmaması, bazar tələbi haqqında məlumatlılığın aşağı olması, eləcə də bu tələbi ödəmək üçün lazım olan istehsal təcrübələri haqqında kifayət qədər məlumatın olmaması və yüksək tranzaksiya xərcləri ilə nəticələnən zəif infrastrukturla bağlıdır [8].

OECD-yə görə bazara çıxış, kənd təsərrüfatının kənd yerlərində gəlirlərin artırılmasının əsas elementinə çevrilməsi üçün çox vacibdir. Bazara zəif çıxışın səbəblərinə qlobal "oyun qaydaları"- məhdudiyyətlər, standartlar və inkişaf etmiş ölkələrin subsidiyaları və yerli səviyyəli amillər, həmçinin istehsalçıların zəif təşkilatlanması, zəif nəqliyyat və kommunikasiya infrastrukturu və məhdud bazar məlumatı daxildir [9].

Araşdırmalardan məlum olur ki, bazara çıxış problemləri xüsusilə kiçik fermerlər üçün daha aktualdır. Azərbaycanda aqrar istehsalın 90%-dən çoxu ailə kəndli və ev təsərrüfatlarının payına düşür [2]. Kənd yerlərində yaşayan əhali sayı, ev təsərrüfatlarının orta ölçüsü və əkin təyinatlı kənd təsərrüfatı torpaq sahələri nəzərə alınmaqla, ölkədə orta təsərrüfat ölçüsü 1.88 ha təşkil edir [3,4,5]. Beləliklə, ölkədə aqrar sektorun inkişafında kiçik təsərrüfatların payı daha yüksəkdir.

Bununla belə, aqrar sahənin son illər üzrə inkişaf tempinə baxdıqda görünür ki, 2021-ci ildə institutlaşmış müəssisələrin real artım tempi 2017-ci ilə nəzərən 34.5% olduğu halda, istehsalın 90%-nə sahib olan ailə-kəndli və ev təsərrüfatlarında bu temp 22.1% təşkil edib. Bitkiçilik və heyvandarlıq sektorları üzrə baxdıqda isə müəssisələrin istehsalı son 5 ildə müvafiq olaraq 80.9% və 8.3% olub. Kiçik ölçüdə torpaq sahəsinə malik olan ailə-kəndli və ev təsərrüfatlarında isə son 5 ildə bitkiçilik məhsulları istehsalı 28.9%, heyvandarlıq məhsulları istehsalı isə 16.6% artmışdır. Son 5 il ərzində kənd təsərrüfatı məhsulları istehsalının ölkə üzrə orta illik artım tempi 4.3%, kənd təsərrüfatı müəssisələrində və ailə-kəndli və ev təsərrüfatlarında bu göstərici müvafiq olaraq 6.1% və 4.1% olub [6].

Göstəricilərdən aydın olur ki, ölkədə kiçik təsərrüfatların payı daha çox olsa da, inkişaf tempi ixtisaslaşmış müəssisələrdən daha aşağıdır. Bu da öz növbəsində bazara çıxış problemlərinin aradan qaldırılması istiqamətində, xüsusilə kiçik təsərrüfatlara yönəlmiş tədbirlərin davam etdirilməsini aktual edir.

Ölkədə kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf ehtiyaclarını aşağıdakı kimi qruplaşdırmaq olar: i) regionlarda logistika mərkəzlərinin yaradılması; ii) xüsusilə kiçik və orta istehsalçıların tələbatına uyğun olaraq regionlarda meyvə-tərəvəz məhsulları üzrə soyuducu anbar şəbəkəsinin inkişaf etdirilməsi; iii) istehsalçıların daxili və xarici bazarlara çıxışının yaxşılaşdırılması baxımından yükdaşıma xidmətlərinin inkişafı, o cümlədən istehsalçılar üçün əlverişli şərtlərin təmin edilməsi üçün bu xidmətlərin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi [1].

Beləliklə, təhlil və qiymətləndirmələrdən aydın olur ki, Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalı əsas etibarı ilə kiçik ölçülü təsərrüfatlar tərəfindən təmin edilir. Dünya təcrübəsi göstərir ki, kiçik təsərrüfatçılığa malik ölkələr üçün aqrar sektorun inkişafı problemlərinin aradan qaldırılması daha mürəkkəbdir. Bununla belə, Azərbaycanda aqrar sahənin inkişaf tempi artan dinamikaya malikdir. Eyni zamanda gələcək perspektivdə bazar infrastrukturunun tələblərə uyğun olaraq təkmilləşdirilməsi aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi baxımından əsas çağırışlardan biri kimi qarşıda durur.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", 2016, s.104, https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf;
2. Dövlət Statistika Komitəsi 2021, "Kənd təsərrüfatının ümumi məhsulunun strukturu", https://stat.gov.az/source/agriculture/az/1.11.xls;
3. Dövlət Statistika Komitəsi 2021, "2021-ci ildə iqtisadi rayonlar üzrə tədqiq olunan ev təsərrüfatlarının orta ölçüsü", https://stat.gov.az/source/budget_households/az/001_2.xls;
4. Dövlət Statistika Komitəsi 2021, "Əhalinin sayının dəyişməsi", https://stat.gov.az/source/demoqraphy/az/001_4-6.xls;
5. Dövlət Statistika Komitəsi 2021, "Əhali və ərazi", https://stat.gov.az/source/agriculture/az/1.2.xls;
6. Dövlət Statistika Komitəsi 2015-2021, "Kənd təsərrüfatı məhsulları istehsalının təsərrüfat kateqoriyaları üzrə fiziki həcm indeksi", https://stat.gov.az/source/agriculture/az/1.10.xls;

7. International Fund for Agricultural Development (IFAD), “Poverty reduction through market participation”, https://www.ifad.org/en/market-access;
8. International Labor Organization (ILO) 2017, “Improving market access for smallholder farmers”, səh.1. https://www.ilo.org/wcmsp5/groups/public/---ed_emp/---emp_ent/documents/publication/wcms_547157.pdf;
9. OECD 2007, “Promoting pro-poor growth: Policy guidance for donors”, səh. 20. https://www.oecd-ilibrary.org/docserver/9789264024786-16-en.pdf;
10. World Bank 2022, “Agriculture and Food, https://www.worldbank.org/en/topic/agriculture/overview#1

Резюме
Гаджиева С. И.
Возможности увеличения сельскохозяйственного производства через улучшенный выход к рынкам

В статье рассматриваются проблемы выхода на рынок сельскохозяйственных товаропроизводителей с точки зрения их влияния на развитие аграрного сектора. С позиции устойчивого развития аграрного сектора рыночная инфраструктура рассматривается как один из основных факторов, создающих условия для роста производства. Благоприятная рыночная конъюнктура стимулирует производителей к развитию и увеличению количества, качества и разнообразия продукции. В связи с этим считается неотложным улучшить возможности доступа на рынок для фермеров, особенно мелких и средних производителей. В статье дается мнение автора по этому поводу и отмечается важность продолжения мероприятий в этом направлении.

Ключевые слова: *выход на рынок, сельскохозяйственная продукция, рыночные ограничения, рыночная инфраструктура, реальный темп роста*

Summary
Hajiyeva S.I.
Opportunities to Increase Agricultural Production by Improving Market Access

The article examines the market access problems of agricultural producers in terms of their effects on the development of the agricultural sector. In terms of sustainable development of the agricultural sector, market infrastructure is recognized as one of the main factors creating conditions for the growth of production. Favorable market conditions encourage producers to develop and increase production quantity, quality and variety. In this context, improving the market access opportunities of farmers, especially small and medium-sized producers, is considered urgently. The author's opinion on this subject is included in the article and attention is drawn to the importance of continuing the measures in this direction.

Key words: *market access, agricultural products, market restrictions, market infrastructure, real growth rate*

MİLLİ İQTİSADİYYATIN DİVERSİFİKASİYA OLUNMASINDA TURİZMİN ROLU

Həsənov Həsən Atababa oğlu
İqtisadiyyat İnstitutu

Həsənov Tofiq Atababa oğlu
Dağıstan Dövlət Aqrar Universiteti
xazar_baki@mail.ru

Xülasə: *Turizm sahəsi milli iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən hesab olunur. Tezisdə son illər turizm sahəsində qeydə alınan proseslər ətraflı olaraq təhlil olunmuş, mövcud çatışmazlıqlar müəyyənləşdirilmişdir. Aparılmış təhlil olun göstərir ki, turizm sahəsinin inkişafında yerli sahibkarların fəaliyyəti stimullaşdırılmalı və genişləndirilməlidir. Məqalədə mövcud problemlərin aradan qaldırılmasının əsas istiqamətləri geniş olaraq göstərilmişdir. Ümumiyyətlə, yaxın illərdə bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsi əsaslandırılmışdır.*

Açar sözlər: *iqtisadiyyat, turizm, inkişaf, investisiya, tənzimləmə, idarəetmə*

Turistlərə və istirahət edənlərə xidmətlərin göstərilməsi, kiçik şirkətlər tərəfindən həyata keçirilir ki, bu da, rekreasiya və turist xidmətləri bazarı üçün xarakterik xüsusiyyətlərdən biridir. Bu səbəbdən turizm-rekreasiya bazarı özünün rəngarəngliyi və qeyri-yekcinsliyi ilə seçilir. Belə bir vəziyyət isə, öz növbəsində, həmin bazarın dövlət tərəfindən tənzimlənməsini və dəstəklənməsini tələb edir.

Digər tərəfdən, turizm-kapital tutumlu biznes sahəsidir. Müasir turizm sənayesinin yaradılması üçün çox böyük maddi və maliyyə resurslarına ehtiyac vardır ki, burada da dövlət dəstəyinin əhəmiyyəti böyükdür.

Göründüyü kimi, turizm-rekreasiya bazarının dövlət tərəfindən tənzimlənməsi və dəstəklənməsi dedikdə, hökumət, qanunverici, icraedici, nəzarətedici orqanlar sistemi tərəfindən iqtisadi sistemin və o cümlədən, onun ayrı-ayrı sektorlarının, aparıcı sahələrinin dəyişilən şəraitə uyğunlaşması və inkişaf imkanları əldə edə bilmələri üçün həyata keçirilən tədbirlər sistemi nəzərdə tutulur. Belə bir yanaşma hər hansı bir sahənin, o cümlədən turizm-rekreasiya bazarının dövlət tərəfindən tənzimlənməsini tələb edir.

Qeyd etmək lazımdır ki, turizm-rekreasiya bazarının dövlət tərəfindən tənzimlənməsi və dəstəklənməsi üçün aşağıdakı müddəa və prinsiplər nəzərə alınmalıdır:

-turizm-rekreasiya sahəsinin, eyni zamanda turizm-rekreasiya xidmətləri bazarının inkişaf məqsədləri və vəzifələrinin formalaşdırılması;

-tənzimlənmə obyektlərinin müəyyənləşdirilməsi;

-idarəetmə sisteminin təşkil edilməsi;

-tənzimlənmə subyektlərinin seçilməsi, onların strukturlarının formalaşdırılması;

-funksiyalar bölgüsünün aparılması və zəruri tənzimlənmə üsullarının seçilməsi;

-tənzimlənmənin nəticələrinin qiymətləndirilməsi.

Nəzərə almaq lazımdır ki, turizm-rekreasiya bazarının dövlət tərəfindən tənzimlənməsi və dəstəklənməsi bütövlükdə turizm kompleksini əhatə edir, həmin kompleksə daxil olan obyektlər dövlət, bələdiyyə, müxtəlif sahibkar strukturlarını əhatə edir. Burada önəmli olan, dövlət tərəfindən turizm-rekreasiya bazarının hər bir iştirakçısı üçün inkişaf edə bilmək və rəqabətqabiliyyətliliyinin təmin olunması üçün zəruri şəraitin yaradılmasına nail olunmasıdır . Qeyd etmək lazımdır ki, dünyada turizm-rekreasiya bazarının dövlət tərəfindən tənzimlənməsi və dəstəklənməsinin bir sıra formaları vardır. Bunlar aşağıdakılardır: maliyyə-kredit, maddi-texniki, vergi, informasiya dəstəyi, konsultasiya yardımı [1].

Ümumiyyətlə, beynəlxalq hesabatlarda Azərbaycanın mövqeyinin yüksədilməsi üçün milli turizm sahəsinin inkişafı və xarici turistlərin miqdarının artırılması məqsədilə aşağıdakı zəruri olan bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir [2]:

- hava limanlarında xarici turistlər üçün gəliş vizalarının verilməsi birbaşa sənədləşdirmək (təmin etmək) mümkündür.
- Azərbaycanın turizm sektoruna xarici investorları cəlb etmək məqsədilə əlverişli investisiya mühitinin yaradılması;
- Naftalan şəhərində, (eləcə də işğaldan azad olunmuş digər rayonlarda) neftinin müalicəvi xüsusiyyətlərindən tam istifadə etmək üçün bu şəhərdə əlavə yeni otellərin, müalicəvi sanatoriyaların yaradılması turistlərin il ərzində məhdudiyyətsiz olaraq qəbuluna imkan verə bilər. Beynəlxalq təcrübəyə əsasən demək olar ki, məsələn, Almaniyanın dünyaca məşhur kurortlarıdır. Baden-Baden şəhərində 20 otel mövcuddur.
- Dövlət tərəfindən özəl investorlara regionlar üzrə turizmin inkişaf etdirilməsi üçün investisiya qoyuluşlarının həyata keçirilməsi məqsədilə müəyyən dövrü əhatə edən vergi ödənişlərindən onlar azad oluna bilərlər [3].

Ədəbiyyat

1. Dərgahov V.Ş. “Reaksiya turizm ehtiyatları”. Bakı : Təhsil, 2008, 214 səh

2. Yeganlı Ş. T., Haciyev E.M. “ Turizm”. Dərs vəsaiti. Bakı: ABU, 2006, 324 səh.,

3. Məmmədov C.A. Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı: Mütərcim 2004, 212 s.

Резюме

Гасанов Г.А., Гасанов Т.А.

Роль туризма в диверсификации национальной экономики

Сфера туризма считается одной из наиболее динамично развивающихся сфер национальной экономики. В диссертации подробно анализируются процессы, зафиксированные в сфере туризма в последние годы, и выявляются имеющиеся недостатки. Проведенный анализ показывает, что деятельность местных предпринимателей необходимо стимулировать и расширять в сфере

развития туризма. В статье подробно показаны основные направления устранения существующих проблем. В целом реализация необходимых мер в этом направлении в ближайшие годы оправдана.
Ключевые слова: *экономика, туризм, развитие, инвестиции, регулирование, управление*

Summary
Hasanov H.A., Hasanov T.A.
The Role of Tourism in Diversifying the National Economy

The field of tourism is considered one of the most dynamically developing fields of the national economy. In the thesis, the processes recorded in the field of tourism in recent years are analyzed in detail, and the existing deficiencies are identified. The conducted analysis shows that the activity of local entrepreneurs should be stimulated and expanded in the development of tourism. In the article, the main directions of elimination of existing problems are shown in detail. In general, the implementation of necessary measures in this direction in the coming years is justified.
Key words: *economics, tourism, development, investment, regulation, management*

NEFT-QAZ SƏNAYESİNİN EKOLOJİ MƏSƏLƏLƏRİ

Hüseynov Arif Güləhməd oğlu, Bayramova Günel Azər qızı
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
gunelbayramova2112@gmail.com

Xülasə: *Məqalədə respublikamızın neft-qaz sənayesinin ətraf mühitə neqativ təsirləri, hava, torpaq qatı və su hövzələrinin çirklənmə səbəbləri tədqiq edilmiş və onların azaldılması yolları göstərilmişdir. Ekoloji problemlərin həlli məqsədilə həm respublikamızda həm də qlobal miqyas-da dayanıqlı inkişaf konsepsiyasından irəli gələn vəzifələrin önəmi qeyd edilmişdir.*
Açar sözlər: *neft-qazçıxarma, ətraf mühit, dayanıqlı inkişaf, neqativ təsirlər*

Neft-qazçıxarma müəssisələrinin ətraf təbii mühitə, həmçinin insan sağlamlığına təsir edən zərərli tullantıları daha çox ekoloji problem törədən amillərdən hesab olunur. Bu tullantıların yığılaraq zərərsizləşdirilməsi və mümkün qədər təkrar başqa sahələrin təkrar emal prosesində xammal kimi istifadəsi və təsirinin azaldılması qlobal miqyasda qarşıda duran mühüm məsələlərdəndir. Neftqazçıxarma müəssisələrinin ətraf mühitə mənfi təsirləri əsasən atmosfer, su hövzələri və torpaq sahələrində özünü biruzə verir. Əsas çirkləndiricilər isə təbii ki, karbohidrogenlər, karbon oksidləri, hidrogen sulfid, kükürd qazı, kükürd dioksidi və azotdur [1].

Neftqazçıxarma müəssisələrinin fəaliyyəti zamanı ətraf mühitin çirklənməsi bir çox hallarda, istehsalın bütün mərhələlərində təkrarlanan bir proses kimi hasilat-emal prosesində biosferdə ciddi pozuntulara səbəb olur. Bu isə təbii proseslərin balansında yalnız azot və kükürd oksidləri deyil, həmçinin atmosferdə miqdarı getdikcə artan karbon qazını da ehtiva edir. Yanmış ağır neft qalıqlarının, mazut və səmt qazının tərkibində olan zərərli emissiyanın isə təxminən 50-65%-i tutulur. Neft-qaz sənayesinin mənfi təsirlərindən biri də yanar qaz və hidrogen-sulfid tərkibli yataqların işlənməsi, eləcə də qaz və kondensatın emal həcminin artmasından yaranan neqativ təsirlərdir. Belə ki, qazdan maksimum səmərəli istifadə, axma və itkinin miqdarının azaldılması hazırda neft-qaz sənayesinin ekoloji problemlərindən biridir. Qaz və kondensatın emalı və işlənməsi prosesində yaranan itkinin ekoloji təhlükəsi isə göz önündədir. Neft-qaz sənayesinin spesifik xüsusiyyəti çıxarılan qazın tərkibindən asılı olub, 25% hidrogen sulfid və 1,4% dördoksidli karbohidrogendən ibarət olmasındadır [2].

Ətraf mühitə neqativ təsirləri və mineral resurs kompleksinin zərərlərini minimallaşdırmaq üçün atmosferə atılan yanacaq emissiyalarını azaltma metodunu iki qrupa ayırmaq olar: 1) Mövcud yeni texnologiyalardan istifadə edərək zərərli təsirlərin azaldılması və zərərsizləşdirilməsi; 2) Ətraf mühitə mənfi təsir etməyən qapalı texnoloji proseslərin təşkili.

Bu baxımdan hesab edirik ki, neftqazçıxarma sənayesində ekoloji təmiz fəaliyyətin təmin edilməsi məqsədilə yeni iş üsullarının işlənməsi və tətbiqi də dayanıqlı inkişafa mühüm töhfə vermiş olar. Belə ki, neftqazçıxarma sənayesində mənəvi və fiziki baxımdan köhnəlmiş qurğuların yenidən qurulması, müasir avadanlıqlarla əvəzlənməsi hava, su hövzələrinin və ümumən ətraf təbii mühitin qorunmasına müsbət təsir göstərəcəkdir. Az miqdarda NO2 çıxışı olan yeni qurğuların quraşdırılması və elektrostatik çöküntülərdən, siklonlardan istifadə etməklə zərərli komponentlərin azaldılması da mühüm amil kimi qeyd edilməlidir. Siklonlar lazımi səviyyədə işləmədikdə kiçik katalizator hissəciklərinin reaktor vasitəsilə karbohidrogen

buxarlarına qarışaraq havaya buraxılmasına səbəb olur. Tullantı qazların da aerozollardan təmizlənməsi prosesində elektrostatik çöküntü quraşdırılmaqla siklonların istifadəsi məqsədəuyğun hesab edilir. Siklonların eləcə də, orta və yüksək enerji sərfiyyatlı təmizləyicilər əsasən 40 mikrondan böyük hissəciklər çıxardığına görə lazımi təmizləmə dərəcəsini təmin etmir. Buna görə də, CO2 emissiyalarının səviyyəsini azaltmaq üçün normativ parametrləri qorumaq məqsədilə xeyli dərəcədə aşağı regenerasiya temperaturundan istifadə olunması məqsədəuyğun hesab edilir.

Neft-qaz sənayesində yaranan tullantılar su hövzələrinin də bioloji vəziyyətinə neqativ təsir göstərir. Ən son məlumatlara görə hər il dünya okeanına təxminən 10 milyon tona yaxın neft axır. Kosmosdan çəkilən şəkillərə əsasən görürük ki, dəniz və okeanların 1/3 hissəsinin səthi nazik əlvan örtüyə boyanmışdır. Bunun nəticəsində buxarlanma 60% azalır ki, bu da su səthinin daha çox qızmasına və atmosferlə su səthi arasındakı qaz nisbətinin artmasına, eyni zamanda dəniz və okeanlarda yaşayan canlılar üçün lazım olan oksigenin azalması ilə nəticələnir. Su səthinə yayılmış 1 lt. neft 40 litr suyu oksigendən məhrum edir, 1t. neft isə 12 km^2 su səthini çirkləndirərək oradakı bütün canlıları məhv edə bilər. Neftin hasilatı, emalı zamanı hidrosferin çirklənməsinə əsasən aşağıdakılar aiddir: boru kəmərlərində, anbarlarda və çənlərdə baş verən istehsal materiallarının dağılması və emissiyası; kimya, neft emalı və neft hasilatı müəssisələrinin tullantı suları; su hövzələrinin yaxınlığında yerləşən neft emalı və neft-qaz hasilatı tullantıları, texnoloji kondensatlar, sənaye müəssisələrinin tullantı poliqonlarından süzülən sular, yeraltı çənlərin və boru kəmərlərinin sızması, yanacaqdoldurma məntəqələrindəki çənlərdən benzin sızması, texnoloji avadanlıqların müxtəlif birləşmələrində baş verən sızmalar və s. [3].

Beləliklə, torpaq qatını neft-kimya tullantılarından qorumaq üçün qoruyucu xəbərdarlıq ekranlarının, geomembranların quraşdırılması, ərazinin meliorasiya və fitomeliorasiyası kimi müxtəlif vacib tədbirlərin reallaşdırılmasını məqsədəuyğun hesab edirik. Ətraf mühitə zərərli təsirin azaldılmasında ekoloji baxımdan mütərəqqi texnologiyanın tətbiqi həlli vacib olan əsas amillərdən biridir. Fikrimizcə, ətraf mühitin mühafizəsi və insan sağlamlığı sahəsində iki yeni yanaşmanın tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bunlardan birincisi, respublikamızda həyata keçirilən dayanıqlı inkişafa keçid konsepsiyasının tətbiqi ilə bağlıdır. Bu, bütövlükdə biosferin ekoloji problemlərinin cəmiyyətin həyatında daim diqqətdə saxlanılmasını şərtləndirir. Bu səbəbdən də, ilkin olaraq qlobal və regional müstəvidə təbii balansın mühafizəsini nəzərə almayan bütün növ texniki-iqtisadi layihələrin reallaşdırılması dayandırılmalıdır. İkinci vacib yanaşma təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində məqbul risk konsepsiyasının tətbiqi ola bilər.

Beləliklə, ətraf mühitin mühafizəsi məqsədilə neft-qaz sənayesində qabaqcıl texnologiyaların tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Əsas prioritetlər sırasında yataqlarının işlənməsi, istismarı və emalı zamanı lay sularının və səmt qazlarının düzgün idarə olunması, istilik effekti yaradan qazların minimallaşdırılması, neftlə çirklənmiş torpaqların təmizlənərək, yaşıllaşdırma tədbirlərinin genişləndirilməsi öz əhəmiyyətinə görə ön plana çıxarılmalıdır. Neft-qaz müəssisələrinin texniki-iqtisadi dayanıqlığının yaxşılaşdırılması və ətraf mühitin vəziyyətini qiymətləndirmək məqsədilə istismar olunan dəniz və quru yataqlarında daima ekoloji monitorinq və tədbirlər həyata keçirməlidirlər.

Ədəbiyyat

1. Давыдова С.Л. Загрязнение окружающей среды нефтью и нефтепродуктами: учеб. пособие / С. Л. Давыдова, В.И. Тагасов. Москва: Изд-во Рос. ун-та дружбы народов, 2006 (М.: Тип. ИПК РУДН), 155 с.
2. Nurəliyeva R.N. Azərbaycanın yanacaq-enerji kompleksinin inkişafının iqtisadi-ekoloji problemləri. Bakı, 2010, 221 s.
3. https://az.wikipedia.org/wiki/Okean_v%C9%99_d%C9%99nizl%C9%99rin_%C3%A7irkl%C9%99nm%C9%99si
4. A.G.Hüseynov. Neft və ekoloji təhlükəsizlik. Monoqrafiya, Bakı: AFPoliqrAF mətbəəsi, 2022, 338 səh.

Резюме

Гусейнов А.Г., Байрамова Г.А.

Экологические проблемы нефтегазовой отрасли

В статье изучены негативные воздействия нефтегазовой отрасли нашей республики на окружающую среду, причины загрязнения атмосферного воздуха, почвенного слоя и водоемов и показаны пути его снижения. Для решения экологических проблем была отмечена важность задач, вытекающих из концепции устойчивого развития как в нашей республике, так и в глобальном масштабе.

***Ключевые слова**: добыча нефти и газа, окружающая среда, устойчивое развитие, негативные последствия.*

Summary
Huseynov A.G., Bayramova G.A.
Enviromental issues of the oil and gas industry

The article studies the negative impacts of the oil and gas industry of our republic on the environment, the causes of pollution of the atmospheric air, soil layer and water bodies and shows ways to reduce them. For solving environmental problems, the importance of the tasks arising from the concept of sustainable development both in our republic and on a global scale was noted.

***Key words**: oil and gas extraction, environment, sustainable development, negative effects*

SƏNAYE MÜƏSSİSƏLƏRİNİN DAYANIQLI İNKİŞAFININ AKTUAL MƏSƏLƏLƏRİ

Hüseynzadə Gülşən Qalib qızı
Sumqayıt Dövlət Universiteti
gulsen396@mail.ru

***Xülasə:** Məqalədə sənaye müəssisələrinin dayaniqli inkişafinin aktual məsələlərinə baxılmışdır. Sənaye müəssisələrinin dayanıqlı inkişafının problemləri açıqlanmış, onların mahiyyəti araşdırılmışdır. Müasir dövrdə sənaye müəssisələrinin fəaliyyətinin gücləndirilməsi üçün vacib amillər verilmişdir. Sənaye müəssisələrinin yeni şərtlər daxilində dayanıqlı inkişaf etdirilməsinin aktual məsələləri üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

***Açar sözlər:** dayanıqlı inkişaf, sənaye müəssisəsi, sənaye müəssisələrinin aktual problemləri, dayanıqlı inkişafın müasir tələbləri, sənaye müəssisələrinin inkişaf perspektivləri*

Hazırda Azərbaycan iqtisadiyyatının aktual məsələlərindən biri sənaye sahələrinin, müəssisələrinin, komplekslərinin dayanıqlı inkişafının formalaşdırılmasıdır. Ölkənin, regionun uzun müddət ərzində iqtisadi, sosial və ekoloji vəziyyətinin yüksək göstəriciləri dayanıqlı inkişafın əsasını təşkil edir [1, səh. 151]. Belə ki, ölkənin dayanıqlı inkişafı yalnız onun ayrı-ayrı regionlarının sabit inkişafına nail olmaqla mümkündür. Hər bir region çox spesifikdir ki, bu da dayanıqlı inkişafa keçidi təmin edə biləcək regional xüsusiyyətlərin axtarışının zəruriliyini müəyyən edir.

Dayanıqlılıq, sənaye və ya müəssisənin maliyyə və iqtisadi fəaliyyəti kimi dərin, sistemli bir anlayışdır. Müəssisənin dayanıqlılığı, qəbul edilmiş təfsirdə, müəssisənin fəaliyyətinin iqtisadi cəhətdən səmərəli olmaya biləcəyi şərtlərdə belə, müəyyən bir müddət ərzində maliyyə-təsərrüfat fəaliyyətinin göstəricilərini saxlamaq qabiliyyəti kimi başa düşülür [3, səh. 9]. Müəssisənin dayanıqlılığı tam və ya qismən istehsal, idarəetmə, qiymət, maliyyə, sosial sabitlik, işgüzar fəaliyyətin dayanıqlılığının nəticəsi ola bilər ki, bu da müəssisənin dayanıqlılığına müxtəlif yollarla təsir göstərir. Müasir mərhələdə sənaye müəssisələrinin dayanıqlı inkişafı problemlərinin həlli yollarının axtarışı ilə bağlı elmi işlərə tələbat yüksəkdir. Bu, iki aspektdən qaynaqlanır. Birincisi, ənənəvi olaraq sənaye müəssisələrinin rolu təsərrüfat subyektlərinin maddi ehtiyacları vasitəsilə ifadə olunur. İkincisi, sənaye müəssisələrinin biznesi təkcə özünü təmin etmir, həm də ölkə iqtisadiyyatının bütün digər sahələrini istehsal vasitələri ilə təmin edir

Müxtəlif iyerarxik subyektlərin, o cümlədən sənayelərin, istehsal komplekslərinin, ayrı-ayrı müəssisələrin dayanıqlı inkişaf mexanizmləri iqtisadi resursların (maliyyə, əmək, informasiya və s.) məcmusunu təşkil edir. Resurslar dayanıqlı inkişafı həyata keçirmək üçün öz aralarında qarşılıqlı əlaqədədirlər.

Sənaye sahələrinin, komplekslərinin, müəssisələrinin dayanıqlı inkişafı mexanizmini formalaşdırmaq üçün əvvəlcə sabit inkişaf üçün zəruri olan resurslar təhlil edilir, sonra bu resursların qarşılıqlı əlaqəsi həyata keçirilir və dayanıqlı inkişaf meyarı hesablanır [2, səh. 85]. Resursların qarşılıqlı əlaqəsi sənayelərin, komplekslərin və müəssisələrin dayanıqlı inkişafı üçün idarəetmə sistemi ilə təmin edilir. Bu sistemdə bir-biri ilə əlaqəli olan bir sıra alt sistemləri və müəssisənin xarici mühitini ayırd etmək olar.

Hədəf altsistem sənayelərin dayanıqlı inkişafını nəzərdə tutur. Hədəf altsisteminə aşağıdakılar daxildir: resurslara qənaət, rəqabətqabiliyyətli məhsulların istehsalı, bazarın və məhsul çeşidinin genişləndirilməsi, həmçinin innovativ iqtisadiyyatın inkişafı. Bu altsistem çərçivəsində idarəetmə strategiyası formalaşdırılır, dayanıqlı inkişafı təmin edən məqsəd və vəzifələr müəyyən edilir.

Dəstəkləyici alt sistemin elementlərinə kadr, resurs və informasiya dəstəyi daxildir. Onların köməyi ilə hədəf altsistem tərəfindən müəyyən edilmiş dayanıqlı inkişaf üçün zəruri şərtlər əldə edilir. Təmin edən alt sistem vasitəsilə mexanizm resursları bir-birinə bağlıdır. "İdarəetmənin təşkili" alt sistemi dayanıqlı inkişafın idarə edilməsi proseslərini təmin edir: idarəetmə sisteminin fəaliyyətinin tənzimlənməsi və

əlaqələndirilməsi; proqnozlaşdırma, təhlil və nəzarət, idarəetmə qərarlarının hazırlanması və həyata keçirilməsi, kadrların idarə edilməsi. İdarə olunan alt sistemə hədəf altsistem tərəfindən qoyulan məqsədlərə nail olmaq üçün istifadə oluna bilən elementlər daxildir [4, səh. 123]. İqtisadi fəaliyyətin məqsəd və vəzifələri strategiyası perspektivli gələcəkdə sabit inkişafı nəzərdə tutan sənaye sahələrinin, komplekslərin, müəssisələrin dayanıqlı inkişafının idarə edilməsi mexanizmini müəyyən edir.

Ölkənin sabit inkişaf strategiyasının əsasını iqtisadiyyatın ilkin həlqəsi kimi müəssisənin dayanıqlı inkişafının idarə edilməsi təşkil edir. Bu baxımdan hazırda sənaye müəssisələrinin dayanıqlı inkişafının idarə edilməsinin təkmilləşdirilməsi təkcə nəzəri deyil, həm də böyük praktiki əhəmiyyət kəsb edir.

Müasir mərhələdə sənaye müəssisələrinin dayanıqlı inkişafının əsas problemlərini formalaşdırmaq mümkündür:

a) texnologiya və avadanlıqların mənəvi və fiziki cəhətdən korlanması; işçilərin və mühəndis-texniki ixtisasların nüfuzunun azalması; aşağı əmək haqqı; ixtisaslı mütəxəssislərin olmaması;

b) aşağı investisiya və kredit cəlbediciliyinə görə maliyyə resurslarının olmaması

c) istifadə olunmamış köhnəlmiş istehsal müəssisələrinin olması;

d) istehsal müəssisələrinin infrastrukturu texnoloji cəhətdən köhnəlmişdir;

e) sənaye müəssisələrinin biznesin idarə edilməsi sistemi heç də həmişə iqtisadi fəaliyyətin mövcud inkişaf səviyyəsinə cavab vermir;

f) marketinq siyasəti üzrə təcrübənin olmaması və ya az olması;

g) istehsal olunan məhsullara xidmət və texniki təminat sistemin kifayət qədər inkişaf etməməsi.

h) xarici rəqiblərin olması.

Dayanıqlı inkişafın, onun rolunun və sənaye müəssisələrinin səmərəliliyinin öyrənilməsinin metodoloji aspektləri kifayət qədər işlənib hazırlanmamışdır. Müəssisələrin idarəetmə sistemlərində sənaye müəssisələrinin iqtisadiyyatının dayanıqlı inkişafı mexanizminin formalaşdırılması təcrübəsinə xüsusi diqqət yetirmək lazımdır. Beləliklə, mühüm elmi-praktik vəzifə sənaye müəssisələrinin iqtisadiyyatının dayanıqlı inkişafı problemini inkişaf etdirməkdir. Bu problemin həlli sənaye müəssisələrinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılmasının idarəetmə metodologiyasına və təcrübəsinə mühüm töhfə verəcəkdir. Müəssisələrin iqtisadi dayanıqlığının qiymətləndirilməsi üçün müxtəlif göstəricilər qruplarına əsaslanan bir çox üsullar mövcuddur: maliyyə-iqtisadi; istehsal və iqtisadi; ətraf mühit; istehsal və texnoloji potensialın göstəriciləri; təchizatçıların və istehlakçıların qiymətləndirilməsi; rəqabət mühiti; sənaye və istehsal potensialını xarakterizə edən göstəricilər məcmusu və s. Sənaye müəssisəsinin inkişafının dayanıqlılığı xarici mühitlə münasibətləri uyğunlaşdırmaqla sosial-iqtisadi prosesləri yaxşılaşdırmaq məqsədilə onun daxili mühitinin transformasiyası ilə təmin edilir.

Xarici dayanıqlılıq xarici mühitlə münaqişəsiz qarşılıqlı əlaqədir. Xarici mühit dedikdə təchizatçılar, rəqiblər, istehlakçılar, maliyyə və kredit təşkilatları, vergi və digər tənzimləyici orqanlar başa düşülür. Daxili sabitlik sənaye müəssisəsinin bütün hissələrinin qarşılıqlı əlaqəsini təmin edir ki, bu da istehsalın genişləndirilməsini təmin edir və əsas maliyyə-iqtisadi fəaliyyət göstəricilərinin müsbət dinamikasına töhfə verir. Bütövlükdə müəssisənin sabitliyi həm xarici, həm də daxili sabitlik ilə formalaşır. Müəssisənin xarici mühiti daxili sabitliyə təsir göstərir və əksinə, daxili sabitlik xarici mühitdə əks olunur, müəssisə üçün müvafiq imici formalaşdırır və yüksək rəqabət qabiliyyətini təmin edir.

Müəssisənin inkişaf mərhələsindən asılı olaraq, dayanıqlı inkişafa nail olmaq üçün müxtəlif strategiyaların tətbiqi zəruridir, ona görə də islahat mərhələsində sistemin zərərsiz işləməsini təmin etmək, intensiv inkişaf mərhələsində inkişaf - məhsulların rəqabət qabiliyyətini və müəssisənin kapitalının aktiv yenilənməsini təmin etmək, sabitləşmə dövründə - əldə edilmiş səviyyəni saxlamaq və sistemin fəaliyyətinin yaxşılaşdırılmasına töhfə vermək.

Müəssisənin maliyyə, iqtisadiyyat, investisiya sahəsində siyasəti, innovasiya, ekologiya və s. düzgün təşkil edilməsi bu müəssisənin dayanıqlı inkişafına kömək edir. Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətindəki zəif tərəfləri müəyyən etmək üçün göstəricilərdən istifadə edərək iqtisadi sabitlik kateqoriyalarının qiymətləndirilməsi aparılır, bunlardan ən vacibləri:

– istehsalın dayanıqlığının göstəriciləri (əsas fondların qüvvədə olma və yenilənmə faktoru, əsas fondların köhnəlmə norması);

– sosial dayanıqlılıq göstəriciləri (peşəkar kadrların işə qəbulunda dövriyyənin sayı əmsalı, kadrların dəyişdirilməsi əmsalı və s.);

– biznes fəaliyyətinin dayanıqlılığının göstəriciləri (satış bazarlarının genişliyi, istehsal olunan məhsulların (işlərin, xidmətlərin) satışının həcmi), kapitalın ümumi dövriyyəsi əmsalı,

– kapitalın məhsuldarlığı və s.);

– maliyyə sabitliyinin göstəriciləri (məhsulun likvidlik əmsalı, maliyyə sabitliyi əmsalı və s.).

Mövcud şəraitdə müəssisənin dayanıqlığı kompleks amillərin təsiri altında formalaşır. Bu amillər sırasında istehsaldaxili, iqtisadi, maliyyə, marketinq, texnoloji və s. Müəssisənin idarəetmə sistemi ətraf mühitdəki ən kiçik dəyişikliklərə tez reaksiya verməli və dəyişmiş vəziyyətə uyğunlaşmalıdır. Qeyd etmək lazımdır ki, iqtisadi inkişafın yüksək templəri müsbət təsir göstərən əlverişli xarici mühitin mövcudluğu ilə təmin edilir.

Sənaye müəssisəsinin dayanıqlı inkişafının idarə edilməsində sistemli yanaşmadan istifadə etmək lazımdır. Hər hansı bir müəssisə, hər birinin öz məqsəd və vəzifələri olan, son nəticədə istehsal fəaliyyətinin ümumi səmərəliliyinə nail olmağa kömək edən müxtəlif hissələrdən ibarət sistemdir.

Sistemli yanaşmadan istifadə etməklə sənaye müəssisəsinin dayanıqlı inkişafına nail olmaq problemləri həll edilmir. Lakin problemin sistemli formalaşdırılması idarəetmə obyektini ayırmağa imkan verir, dayanıqlılıq xüsusiyyətlərini və onların əlaqəsini müəyyən etməyə kömək edir, həmçinin sənaye müəssisəsinin dayanıqlı inkişafının idarə edilməsində prioritet sahələri müəyyənləşdirir. Müəssisənin iqtisadi dayanıqlığının əsas komponenti müəssisənin istehsal-təsərrüfat fəaliyyəti prosesində formalaşan maliyyə sabitliyidir. Maliyyə sabitliyi gəlirlərin xərclərdən sabit artıqlığını əks etdirir, həmçinin vəsaitlərdən səmərəli istifadə etməklə məhsul istehsalı və satışı prosesinin fasiləsiz olmasını təmin edir. Sənaye müəssisəsinin dayanıqlı inkişafının qiymətləndirilməsi mexanizmini formalaşdırmaq üçün aşağıdakı prinsipləri formalaşdırmaq olar:

-Müəssisənin müxtəlif alt sistemlərinin (sənaye, iqtisadi, ekoloji, sosial və s.) inkişafı arasında əlaqənin nəzərə alınması prinsipi. Bu prinsip bütün müəssisə alt sistemlərinin inkişafında tarazlığın qorunmasının vacibliyinə əsaslanır.

-İqtisadi səmərəlilik, sosial təminat, ekoloji təhlükəsizlik və bütün mümkün risk nəticələri nəzərə alınmaqla sənaye müəssisəsinin sabit inkişafı dinamikasının formalaşdırılması prinsipi. Prinsip, sənaye müəssisəsinin bütün alt sistemlərinin inkişaf göstəricilərinin dəyərlərini nəzərə alaraq inkişafının dayanıqlılıq səviyyəsini müəyyən edir.

-Son məqsədi müəssisənin inkişafının dayanıqlılığı üçün bütün resursları müəyyən etmək olan prioritet prinsipi. Bu prinsipə uyğun olaraq, sənaye müəssisəsinin inkişafının dayanıqlılığının qiymətləndirilməsi müəssisənin bütün alt sistemlərinin göstəricilərinin dəyərləri haqqında etibarlı məlumatları ehtiva etməlidir. Bu göstəricilərin dəyərləri rəhbərliyin müəssisənin dayanıqlı inkişaf səviyyəsinə təsir dərəcəsini aşkar edəcəkdir. Bu nəticələr sənaye müəssisəsinin dayanıqlığını yaxşılaşdırmağa yönəlmiş idarəetmə tövsiyələrini hazırlamağa imkan verəcəkdir.

Beləliklə, müəssisə iqtisadiyyatının dayanıqlı inkişafı dəyişmək qabiliyyətini, çevikliyi və daim dəyişən xarici və daxili şəraitə uyğunlaşma qabiliyyətini, habelə itki və itki risklərinə qarşı durma qabiliyyətini nəzərdə tutur. Müəssisə iqtisadiyyatının dayanıqlı inkişafına nail olmaq üçün aşağıdakılar lazımdır:

– xarici və daxili mühitdə risklərin başlanğıcını əvvəlcədən müəyyən etmək və qarşısını almaq qabiliyyətindən ibarət olan müəssisə mühitindəki dəyişiklikləri qabaqcadan görmək;

– dağıdıcı amillərin təsirinə lazımi və kifayət qədər müqaviməti təmin etmək və müəssisənin fəaliyyətini optimal səviyyədə saxlamaq;

– yeni dəyişən şəraitdə müəssisənin gələcək inkişafı üçün bazar davranışını proqnozlaşdırmaq, uyğunlaşdırmaq və çevikliyini göstərmək.

Ədəbiyyat

1. Abbasov İ.M., Əliyev T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı: Elm və Təhsil, 2017, 501 s.

2. Əliyev, Ş.T. Sumqayıtın sənaye mərkəzi kimi inkişafının strateji aspektləri (1970-1985-ci illər) // Audit № 03, 2019. - S.83-94.

3. Mehdiyev, A. Azərbaycanın qida sənayesi müəssisələrində istehsal sahibkarlığının səmərəli təşkili. 2020. - 2. - S.7-10.

4. Sadıqov R.F. Sənaye müəssisələrində insan resurslarının idarə edilməsinin strateji aspektləri// Audit 3, 2020, Cild 29, səh. 118-126.

Резюме

Гусейнзаде Г.Г.

Актуальные вопросы устойчивого развития промышленных предприятий

В статье рассмотрены актуальные вопросы устойчивого развития промышленных предприятий. Раскрыты проблемы и сущность устойчивого развития промышленных предприятий в

современных условиях. Представлены важнейшие условия для усиление деятельности промышленных предприятий. Подготовлены рекомендации и предложения по актуальным вопросам устойчивого развития промышленных предприятий.

Ключевые слова: *устойчивое развитие, промышленное предприятие, актуальные проблемы промышленных предприятий, современные требования устойчивого развития, перспективы развития промышленных предприятий*

Summary

Huseynzade G.Q.

Current Issues of Sustainable Development of Industrial Enterprises

The article investigates current issues of sustainable development of industrial enterprises. The problems and essence of sustainable development of industrial enterprises in modern conditions are disclosed. The most important factors for strengthening the activities of industrial enterprises are given. Recommendations and proposals have been prepared on main issues of sustainable development of industrial enterprises according to modern conditions.

Key words: *sustainable development, industrial enterprise, actual problems of industrial enterprises, modern requirements of sustainable development, perspectives of industrial enterprises development*

İQTİSADİ ARTIM MƏNBƏLƏRİNİN YARADILMASINDA KİMYA VƏ NEFTKİMYA MÜƏSSİSƏLƏRİNİN POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

Kərimli Akif Sabir oğlu

Sumqayıt Dövlət Universiteti

akif_kerimli@mail.ru

Xülasə: *Məqalədə Azərbaycanda iqtisadi artım mənbələrinin yaradılmasında kimya və neftkimya müəssisələrinin potensialının qiymətləndirilməsi əksini tapmışdır. Ölkə iqtisadiyyatının strukturunun genişləndirilməsi problemlərinə baxılmış və perspektivli iqtisadiyyat sahələrinin imkanları araşdırılmışdır. Kimya və neftkimya müəssisələrinin əlavə dəyər zənciri üzrə yeni iqtisadi artım yaratmaq imkanları təhlil olunmuşdur. Ölkəmizdə neft və təbii qaz xammallarının daha geniş həcmdə emal edilməsi perspektivləri diqqətə çatdırılmışdır. Bu proseslərdə kimya və neftkimya müəssisələrinin səmərəliliyi qiymətləndirilmişdir. Yaxın dövrdə Azərbaycanda məhsuldar yeni artım mənbələrinin formalaşdırılmasında kimya və neftkimya müəssisələrinin rolunun gücləndirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

Açar sözlər: *Azərbaycan, iqtisadi artım, iqtisadi artım mənbələri, kimya və neftkimya müəssisələri, kimya və neftkimya müəssisələrinin potensialının qiymətləndirilməsi.*

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və milli strukturunun diversifikasiyalaşdırılması son illərdə vacib vəzifələr kimi qarşıda durmuşdur. Belə ki, qlobal təhdidlər nəticəsində ölkə iqtisadiyyatının ənənəvi sahələrinin mövcud mexanizmlərinin yenilənməsi daha məhsuldar və ixracyönümlü iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi, idxaləvəzedici istehsalın stimullaşdırılması olduqca vacib məsələlər kimi xarakterizə olunurlar. Bu baxımdan, Azərbaycan iqtisadiyyatının neftdən asılılığının azaldılması prioritet vəzifələrindən biri kimi diqqət çəkir.

Son 10 il ərzində bununla bağlı dövlətin davamlı iqtisadi siyasəti həyata keçirilir. Bir-birinin ardınca strategiyalar, kompleks tədbirlər məqsədli dövlət proqramları reallaşdırılır. Xüsusilə, 2016-cı il 6 dekabr tarixli ölkə Prezidentinin fərmanı ilə təsdiq olunmuş milli iqtisadiyyatın 11 istiqaməti üzrə strateji yol xəritələrinin reallaşdırılması nəticəsində artıq ölkəmizdə qeyri-neft sektorunun şaxələndirilməsi, bu sektorun imkanlarından daha səmərəli istifadə olunması yolunda önəmli addımlar atılmışdır. Təkcə, Bakı Sumqayıt və Gəncə şəhərlərində yox, eyni zamanda ölkənin digər şəhərlərində və iqtisadi rayonlarında bu istiqamətdə xeyli işlər görülmüş, regionların iqtisadi gücü artırılmış və sosial-iqtisadi inkişafın daha dayanıqlı edilməsi üçün, orada mövcud olan təbii resurslardan səmərəli istifadə edilməsi, bunların əsasında rəqabətqabiliyyətli emal müəssisələrin yaradılması prosesləri təmin olunmuşdur.

Bütün bunlarla bərabər, milli iqtisadiyyatın strukturunda və onun qeyri-neft sektorununun inkişafında xüsusi çəkiyə malik olan iqtisadiyyat sahələrinin potensialına daha çox diqqət yetirilməsi prioritetlərini qeyd etmək olar. Bunların sırasında kimya və neftkimya kompleksi olduqca mühüm əhəmiyyət kəsb edir. Kimya və neftkimya kompleksi sovetlər birliyi dövründə Sumqayıt sənaye mərkəzində yaradılmışdır, burada onlarla iri müəssisələr fəaliyyət göstərmiş, keçmiş SSR-in müxtəlif respublikalarına,

həmçinin sosializm sisteminə daxil olan xarici ölkələrə məhsullar göndərmişlər. 1970-80 illər ərzində Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda kimya və neftkimya müəssisələrinin yenidən qurulması, modernizasiya edilməsi mümkün olmuşdur və həmin dövrdə artıq 1980-cı illərin sonunda Sumqayıt sənaye mərkəzində yerləşən müəssisələrdən, o cümlədən Bakı və digər şəhərlərdə yerləşən kimya və neftkimya müəssisələrindən keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə 500-ə yaxın kimya və neftkimya məhsulları göndərilirdi [2, s.87]. Sumqayıt sənaye mərkəzi və kimya müəssisələri bir çox məhsullar üzrə demək olar ki, əsas təchizatlar sırasında idi, bunların içərisində sintetik kauçuk, yuyucu vasitələr, sulfanol, sulfat turşusu, dixloretan, propilen, polietilen, izopropil spirti, polefir qətranları, propilenqlikol və s. kimya və neftkimya məhsulları daha çox üstünlük təşkil edirdilər.

Lakin keçmiş SSRİ-nin süqutu ilə əlaqədar olaraq, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bu sahədə yeni yanaşmalar təmin olunmalı və modernizasiya işləri aparılmalı idi. Bu işlərin görülməsi üçün uzunmüddətli addımlar atılmış və yenə də Ulu Öndərin hakimiyyətə qayıdışından sonra kimya və neftkimya kompleksinin gücləndirilməsi, onun maddi-texniki bazasının təmin edilməsi tədbirləri görülmüşdür. Əsas etibarilə kimya və neftkimya müəssisələrinin əlavə dəyər zənciri üzrə inkişaf etməsində çox mühüm komponent olan yüksək təzyiqli su buxarının istehsalı üçün Yaponiyadan dövlət zəmanəti ilə 100 mln. dollar dəyərində "Buxar Generator Kompleksi" alınmış və Sumqayıt Etilen-Polietilen zavodunda istismara verilmişdir. Məhz bundan sonra Azərbaycanın kimya və neftkimya kompleksinə yeni nəfəs gəlmiş və müəssisələrin fəaliyyət göstərməsi üçün əlverişli şərait yaradılmışdır. Son 10 il ərzində isə ümümiyyətlə bu sahədə xeyli irəliləyişlər diqqət çəkir. İlk növbədə, kimya və neftkimya müəssisələrinin idarəedilməsi strukturu təkmilləşdirilmiş, müasir dövrün çağırışları nəzərə alınmışdır. Bundan əlavə, Sumqayıtda yüksək texnologiyalar əsaslı "Sumqayıt Kimya Sənaye Parkı" yaradılmışdır. Bu parkın güclü infrastrukturu formalaşdırılmış və rezidentlərin fəaliyyət göstərməsi üçün hər cür şərait təmin edilmişdir [1, s.13**].**

Parkda dövlət tərəfindən enerjidaşıyıcılarla təminat məsələləri, yəni elektrik enerjisi, təbii qaz, su ilə təminat, rabitə müəssisələri, yol infrastrukturu formalaşdırılmış, bir sözlə kimya və neftkimya müəssisələrinin səmərəli fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılmışdır. Məhz bu görülən tədbirlərin nəticəsində "Sumqayıt Kimya Sənaye Parkı"nda artıq 30-dan çox rezident fəaliyyət göstərir. Ümumilikdə investisiya layihələrinin dəyəri 3,5 mlrd. dollardan çoxdur və artıq 3,2 mlrd. dollar həcmində investisiyalar yatırılmışdır. Diqqət çəkən məqam isə burada fəaliyyətə başlayan müəssisələrin əksəriyyətinin ixracyönümlü müəssisələr olmasıdır. Yəni, daxili tələbatla yanaşı, eyni zamanda ənənəvi ixrac bazarlarından yeni ixrac bazarlarına çıxmaq üçün daha rəqabətqabiliyyətli ixrac məhsulldarının istehsal gücləri yaradılmaqdadır. Digər tərəfdən, "Sumqayıt kimya sənaye parkı"nın inkişafı hesabına regionda məşğulluğun gücləndirilməsi və dayanıqlı iş yerlərinin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Burada yaradılan iş yerləri bir tərəfdən dayanıqlı, digər tərəfdən yüksək əməkhaqqı ilə fərqlənirlər. Ölkəmizdə kimya və neftkimya müəssisələrinin sistemli və kompleks şəkildə inkişaf etdirilməsi, ölkəmizin sosial-iqtisadi inkişafına əlavə töhfələrin verilməsində mühüm əhəmiyyət kəsb edir [4, səh. 182**].** Məhz bunların nəticəsidir ki, son illərdə ölkə iqtisadiyyatının artımında əsas pay qeyri-neft sənayesinə və onun dinamik inkişaf edən kimya və neftkimya müəssisələrinə aiddir. Təkcə Sumqayıtda istismara verilən Sumqayıt Polimer və Sumqayıt Karbamid istehsal güclərinin yaradılmasına 1,6 milyard dollara yaxın investisiya yönəldilmişdir və bu yüksək texnologiyalar əsaslı müəssisələrin ixrac potensialı 500-600 milyon dollar səviyyəsində qiymətləndirilir.

Bütün bunlar ölkəmizin iqtisadi gücünün artımında və qeyri-neft sənayesinin inkişafı hesabına milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsində, əlavə dəyər zənciri üzrə yaradılan istehsalın verdiyi töhfələr hesabına iqtisadiyyatın neftdən asılılığının azaldılmasında yeni reallıqlar yaratmışdır. Belə ki, milli iqtisadiyyatın inkişaf hədəfləri sırasında növbəti illərdə neftdən asılılığın minimuma endirilməsi və qeyri-neft sektoru sahələrinin mümkün əlavə dəyər zənciri üzrə inkişafının təmin olunmasıdır. Hesab edirik ki, bu istiqamətdə kimya və neftkimya müəssisələrinin xüsusi rolu diqqət çəkir və bunun üçün bir çox əsaslar da vardır. İlk növbədə, qeyd etmək lazımdır ki, kimya müəssisələrinin dərin emal imkanları mövcuddur və bunun üçün əsas xammallar da kənardan gətirilmir, yəni nəqliyyat xərcləri o qədər də yüksək deyildir.

Azərbaycanda kimya və neftkimya müəssisələrinin əsas xammalı neft və təbii qazdır, bunlar isə məlumdur ki, ölkəmizdə istehsal olunur. Neft və təbii qaz kimi qiymətli xammalların istehsalçıları sırasında Azərbaycan xüsusi çəkiyə malikdir. Ölkəmiz hazırda neft və qaz xammalarını əsas etibarilə ixrac edir və bu ilk növbədə neft strategiyasından, neft kontraktlarından irəli gələn öhdəliklərlə bağlıdır. Lakin, zaman keçdikcə bu resursların bir hissəsinin emala yönəldilməsi imkanları formalaşacaqdır [3, s.91]. Bu imkanlar yarandıqca Azərbaycan dərin neft və təbii qaz emalı hesabına, kimya və neftkimya müəssisələrinin rəqabət qabiliyyətinin daha da artırmaq imkanı əldə edəcəkdir.

Beləliklə, yaxın illərdə fikrimizcə, bunlarla bağlı bir sıra tədbirlərin sistemli və uzaq perspektivləri nəzərə alınması ilə baxılması tələb olunur:

1) İlk növbədə kimya və neftkimya müəssisələrinin əlavə dəyər zənciri üzrə istehsal artımının və istehsalın diversifikasiyasının təmin edilməsi alqoritmi təşkil edilməlidir və bunun əsasında fəaliyyət strategiyası həyata keçirilməlidir.

2) Ölkənin kimya və neftkimya müəssisələrinin xammal təminatına daha ciddi önəm verilməli və hazırda bu istiqamətə yönəldilən neft xammalı – NAFTA və təbii qaz xammallarının həcminin artırılması vacibdir.

3) Hesab edirik ki, ölkəmizdə müasir texnologiyalar, əsas etibarı ilə "ağıllı" texnologiyalar əsasında müasir kimya və neftkimya kompleksi tikilməlidir və daha çox neft – təbii qaz emalına imkan verən çoxfunksiyalı iri kimya və neftkimya qurğuları istismara verilməlidir. Bunların hesabına əlavə dəyər və istehsal zənciri üzrə nəinki Sumqayıt sənaye mərkəzində, eyni zamanda ölkənin regionlarında kiçik və orta kimya və neftkimya emal müəssisələri şəbəkəsini yaratmaqla, yeni iş yerlərinin təşkili, həm də iqtisadi artım mənbələrinin şaxələndirilməsi mümkündür və s.

Ədəbiyyat

1. Abdalova, M.Ə. Sumqayıt şəhərində sənayenin innovasiya yönümlü inkişafı və strukturunun təkmilləşməsi istiqamətləri: / İ.e.f.d. dis. avtoreferatı. / – Bakı, 2017. – 25 s.

2. Əliyev, Ş.T. Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt: “Azəri” nəşriyyatı, 2019, – 368 s.

3. Əzizova, G., Süleymanova, Ə. Azərbaycanda emal sənayesinin texnoloji intensivlik üzrə qiymətləndirilməsi və maliyyələşdirmə istiqamətləri. Azərbaycanın vergi jurnalı, 2019, 1 (138), s.85-96.

4. Алиев, Ш.Т. Роль специальных экономических зон в развитии предпринимательства и инвестиционной активности// Российское предпринимательство.- Москва, 2012. №7 (205), – с. 180-184.

Резюме

Керимли А.С.

Оценка потенциала химических и нефтехимических предприятий в создании источников экономического роста

В статье рассмотрена оценка потенциала химических и нефтехимических предприятий в создании источников экономического роста. Исследована возможность перспективных сфер экономики и рассмотрены проблемы расширения структуры экономики страны. Анализировано углубление перерабатывающих процессов по производственной добавочной сети предприятий химии и нефтехимии. Обращено внимание на перспективы увеличения объёма переработки сырьевых ресурсов в стране. Подготовлены и даны предложения по объективному обеспечению оценки потенциала химических и нефтехимических субъектов в формировании продуктивных источников экономического роста в Азербайджане.

Ключевые слова: *экономический рост, химия и нефтехимия, химические и нефтехимические предприятия, оценка, объективная оценка источников экономического роста*

Summary

Karimli A.S.

Assessment of the Potential of Chemical and Petrochemical Enterprises to Create Sources of Economic Rowthg

The article considers the assessment of the potential of chemical and petrochemical enterprises in creating sources of economic growth. The possibility of promising areas of the economy is investigated and the problems of expanding the structure of the country's economy are considered. It analyzed the deepening of processing processes for the production additional network of chemical and petrochemical enterprises. Attention is drawn to the prospects for increasing the volume of processing of raw materials in the country. Proposals for objective assessment of the potential of chemical and petrochemical entities in the formation of productive sources of economic growth in Azerbaijan have been prepared and given.

Key words: *economic growth, chemistry, petrochemistry, chemical and petrochemical enterprises, assessment, objective assessment of sources of economic growth*

MÜƏSSİSƏNİN MALİYYƏSİNİN İDARƏ EDİLMƏSİNDƏ MALİYYƏ SABİTLİYİNİN ROLU

Kərimli Babək Əyyub oğlu
Şuşa şəhər Dövlət Qoruğu İdarəsi
kerimoveyyub@mail.ru

Xülasə: *Məqalədə müəssisənin maliyyə sabitliyinin xüsusiyyətləri təsvir edilmişdir. Müəssisənin maliyyəsinin idarə edilməsində onun rolu əsaslandırılmışdır. Müəssisənin maliyyə sabitliyinin təmin edilməsi problemləri və bu problemlərin həlli yolları açıqlanmışdır. Maliyyə sabitliyi ilə bağlı problemlərin aradan qaldırılması üçün müəyyən tövsiyələr verilmişdir.*

Açar sözlər: *müəssisənin maliyyə sabitliyi, balansın likvidliyi, ödəmə qabiliyyəti, kredit qabiliyyəti*

Müəssisənin maliyyə sabitliyi, şübhəsiz ki, müəssisənin maliyyə idarəçiliyinin effektivliyini və onun gələcək fəaliyyət perspektivlərini müəyyən edən ən vacib xüsusiyyətlərdən biridir. Bu tədqiqat sahəsinin aktuallığı, ilk növbədə, bu gün müəssisənin maliyyə sabitliyinin təmin edilməsi problemlərinin son dərəcə vacib olması ilə əlaqədardır. Bu daha çox iqtisadi qeyri-sabitliyin artması, eləcə də maliyyə bazarının qeyri-sabitliyi şəklində təhdidlərin sayının artmasına, enerji daşıyıcılarının, ilk növbədə neftin qiymətlərinin qeyri-sabit dəyişməsinə səbəb olan iqtisadi məkanın qloballaşması ilə bağlıdır. Məhz buna görə də müasir şəraitdə sahibkarlıq subyektlərinin əksəriyyəti maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı yaranan problemlərin həlli zərurəti ilə üzləşir və müvafiq olaraq onun təmin edilməsinə yeni yanaşmaların formalaşdırılması zərurəti yaranır. Bu baxımdan müasir müəssisənin maliyyə sabitliyinin təmin edilməsində yaranan əsas problemlərin müəyyənləşdirilməsinə ehtiyac vardır.

Müəssisənin maliyyə sabitliyinin təmin edilməsi problemini həll etmək üçün qarşıya aşağıdakı vəzifələr qoyulmalıdır:

1) müəssisəni maliyyə cəhətdən sabit kimi xarakterizə edən əsas göstəricilərin araşdırılması;

2) müəssisənin maliyyə sabitliyinin təmin edilməsi problemlərinin ətraflı nəzərdən keçirilməsi;

3) müəssisənin maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı mümkün problemlərin qarşısını almaq üçün mümkün həll yollarının axtarılması.

Müasir iqtisadi şəraitdə eləcə də qeyri-sabit xarici mühitdə həm yeni, həm də təcrübəli müəssisələr üçün onların fəaliyyətinin uğurla həyata keçirilməsinin ən vacib amili maliyyə sabitliyidir. Başqa sözlə, əgər müəssisə maliyyə cəhətdən sabitdirsə, o zaman rəqib müəssisələrə nisbətən mühüm üstünlüklərə malikdir. Məsələn, kreditlərin alınması, təchizatçıların və ya ixtisaslı kadrların seçilməsi.

Müəssisə bir sıra xüsusiyyətlərə malik olduqda maliyyə cəhətdən sabit hesab olunur [2, c.101]:

1. Balansın yüksək likvidliyi: Balansın likvidliyi nə qədər yüksəkdirsə, şirkətin borclarının ödənilməsi sürəti bir o qədər yüksəkdir. Qeyd etmək lazımdır ki, balansın aşağı likvidliyi iflas ehtimalının ilk əlamətidir.

2. Yüksək ödəmə qabiliyyəti: Təsərrüfat subyektinin sərəncamında olan pul vəsaitləri hesabına qanunla və ya müqavilədə nəzərdə tutulmuş pul öhdəliklərini vaxtında yerinə yetirmək qabiliyyətidir.

3. Yüksək kredit qabiliyyəti: Şirkətin qısamüddətli öhdəliklərini vaxtında və tam şəkildə ödəmək qabiliyyəti. Başqa sözlə, bu göstərici müəssisənin kreditlərini ödəmək, onlar üzrə faizləri ödəmək, həmçinin vaxtında ödəmək qabiliyyətini xarakterizə edir.

4. Yüksək rentabellik: Maddi, əmək, pul və digər resurslardan istifadənin səmərəliliyini əks etdirən göstərici. Rentabellik göstəriciləri sistemi təşkilatın iqtisadi səmərəliliyi haqqında təsəvvür yaradır və idarəetmə qərarlarının qəbul edilməsinə kömək edir.

Müəssisənin yuxarıda göstərilən xüsusiyyətlərinin olması onun yüksək maliyyə sabitliyini göstərir. Bununla belə qeyd etmək lazımdır ki, hazırda maliyyə sabitliyinin təmin edilməsi müasir müəssisələr üçün kifayət qədər problemlidir. Müəssisənin cari maliyyə sabitliyinin aşağı düşməsinə səbəb olan əsas problemlərdən biri cari istehsalı təmin etmək üçün zəruri olan dövriyyə vəsaitlərinin olmamasıdır. Bu problemin formalaşmasına təsir edən əsas səbəblər arasında alıcıların ödəniş etməməsi, eləcə də təchiz edilmiş məhsullar üzrə ödənişlərdə pul komponentinin əhəmiyyətli payı var.

Bu problemi həll etmək üçün müəssisənin rəhbərliyinin səmərəsiz layihələrdə iştirak etməməsi, biznesi daha rasional şəkildə həyata keçirməsi və mənfəətin əsas hissəsini şəxsi gəlir kimi deyil, dövriyyə kapitalı kimi istifadə etməsi daha məqsədəuyğundur. Maliyyə sabitliyini təmin edilməsinin daha bir ciddi problemi borclanmanın xüsusi kapitalın artırılması tədbirlərindən artıq olmasıdır. Bu tendensiya iqtisadiyyatın demək olar ki, istənilən sahəsinin əksər müəssisələri üçün xarakterikdir. Məhz buna görə də kiçik biznesin fəaliyyəti üçün kredit almaq kifayət qədər çətindir, çünki bir çox banklar sadəcə olaraq onların

ödəmə qabiliyyətinə inanmırlar. Bundan əlavə müəssisənin xarici kreditorlardan və investorlardan həddən artıq aslılığı da kapitalda borc vəsaitlərinin həddən artıq yüksək olmasını göstərir ki, bu da təbii ki, maliyyə sabitliyinə mənfi təsir göstərir.

Yuxarıdakı problemdən belə bir nəticə çıxır ki, müəssisənin işçilərə, təchizatçılara və banklara vaxtı keçmiş borcları vardır. Müvafiq olaraq müəssisənin kreditor borcları ilə debitor borcları arasında nisbət pisləşir ki, bu da maliyyə sabitliyinin azalmasına səbəb olur. Müəssisə bu problemlərin qarşısını almaq üçün borc kapitalı ilə xüsusi kapital arasında balansı yaratmalıdır ki, bu da şirkətin borc vəsaitlərini artırmasına və mövcud əsas vəsaitlərdən səmərəsiz istifadə etməyə imkan verməyəcək.

Tədqiqat sahəsində mühüm problem həm də maliyyə planlaşdırması və proqnozlaşdırılması sahəsində rəhbər kadrların ixtisas səviyyəsinin aşağı olmasıdır. Problem kifayət qədər hazırlığı olmayan mütəxəssisin müəssisənin adekvat siyasətini həyata keçirə bilməməsi ilə daha da ağırlaşır ki, bu da iqtisadi nəticələrin strukturunda itkilərə səbəb olur və nəticədə müəssisənin maliyyə sabitliyini pozur.

Bu problemi həll etmək üçün müəssisə rəhbərliyi kadrların hazırlanması və ixtisasartırmasının aydın sistemini işləyib hazırlamalı və kadrların inkişafı üçün tədbirlərin həyata keçirilməsini maliyyə cəhətdən təmin etməlidir, çünki kadrlara qənaət qaçılmaz olaraq maliyyə sabitliyi səviyyəsinin və maliyyə menecerlərinin ixtisas imkanlarının azalmasına səbəb olur. Şübhəsiz ki, sadalanan problemlər bu gün yerli müəssisələrin maliyyə sabitliyinin səviyyəsinə mənfi təsir göstərir. Onlar yerli sahibkarlıq subyektlərinin fəaliyyətinin əsas göstəricisinə - xalis mənfəətə birbaşa təsir göstərir.

Eyni zamanda qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində müəssisənin maliyyə sabitliyini artırmaq üçün onun aktivlərinin strukturunun səriştəli balansı, onların daxili nəzarəti, habelə onları idarə etmək üçün hazırlanmış sistemin olması vacibdir. Həmçinin mühit şəraiti, xüsusilə çox vaxt eyni anda bir çox ölkələrə təsir göstərən qlobal böhranlar maliyyə sabitliyinə təsir edən amil kimi çıxış edir.

Müəssisə xarici mühitdə böhran vəziyyətləri zamanı itkiləri minimuma endirməyə çalışarsa, maliyyə sabitliyinin yaxşılaşdırılması problemini də həll etmək imkanına malik olacaqdır. Məhz bu ona bütün aktivlərindən daha səmərəli istifadə etməyə, həmçinin mənfəətin aşağı düşməsi halında əlavə xərcləri ehtiyatlarla qarşılamağa və uğurla fəaliyyət göstərməyə imkan verəcək. Həmçinin müəssisənin maliyyə sabitliyinin təmin edilməsi və təkmilləşdirilməsi ilə bağlı yaranan problemlərin həllinin mümkün variantı onun sabit artımını təmin etmək və xarici mühitdə qeyri-sabit vəziyyət yarandıqda öhdəliklərinin tələb olunan müddətdə ödənilməməsi ehtimalının qarşısını almaq üçün kreditlərin məhdudlaşdırılması ola bilər.

Bundan əlavə qeyd etmək lazımdır ki, böhran prosesləri qeyri-sabitliyə və differensasiyaya səbəb olur ki, bu da O.A. Volkovanın fikirincə, qısa müddətdə münaqişə mənbəyinə çevrilə bilər [1, s. 90]. Bu cür hadisələr idarə olunmur, lakin şəraitdən asılı olmayaraq müəssisə qlobal böhran zamanı öz fəaliyyətinin risklərini qiymətləndirməlidir, çünki bu, həm də maliyyə sabitliyinin aşağı düşməsi riskini azaldacaqdır.

Bütün yuxarıda deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, müasir şəraitdə fəaliyyət göstərən hər bir müəssisə istər-istəməz maliyyə sabitliyi səviyyəsinin aşağı düşməsinə səbəb ola biləcək bir sıra problemlərlə üzləşir. Məhz buna görə də şirkət rəhbərliyi yaranan problemlərin aradan qaldırılması üçün vaxtında tədbirlər görməlidir.

Ədəbiyyat

1. Волкова, Н.В. Финансовый менеджмент. Конспект лекций: учебное пособие / Н.В. Волкова; под редакцией Д. С. Демиденко. – Санкт-Петербург: СПбГПУ, 2017. – 283 с.

2. Мазурина, Т.Ю. Финансы организаций (предприятий): Учебное пособие / Т.Ю. Мазурина. – М.: ИНФРА-М, 2017. – 160 с.

Резюме

Керимли Б.А.

Роль финансовой устойчивости в управлении финансами предприятия

В статье дается характеристика финансовой устойчивости предприятия. Обосновывается ее роль в управлении финансами предприятия. Раскрываются проблемы обеспечения финансовой устойчивости предприятия и пути решения данных проблем. Даются определенные рекомендации по устранению проблем, связанных с финансовой устойчивостью.

Ключевые слова: *финансовая устойчивость, ликвидность баланса, платежеспособность, кредитоспособность*

Summary
Karimli B.A.
The Role of Financial Stability in Enterprise Financial Management

The article describes the characteristics of the financial stability of the enterprise. Its role in the financial management of the enterprise is substantiated. The problems of ensuring the financial stability of the enterprise and ways to solve these problems are revealed. Certain recommendations are given to eliminate the problems associated with financial stability.

Key words: *financial stability, balance sheet liquidity, solvency, creditworthiness*

AZƏRBAYCANDA KƏND TURİZMİNİN İNKİŞAFI PERSPEKTİVLƏRİ VƏ MÖVCUD PROBLEMLƏRİ

Qurbanov Əziz Əlvan oğlu
Azərbaycan Turizm və Menecment Universiteti
eziz.qurbanov98@gmail.com

Xülasə: *Məqalədə kənd turizminin mahiyyəti və turizm sektorunda kənd turizminin yeri geniş şəkildə araşdırılmışdır. Bu baxımdan bəzi dünya ölkələri üzrə kənd turizmindən istifadəyə nəzəri baxış həyata keçirilmiş, ölkəmizdə kənd turizminin mövcud potensialı və perspektivləri araşdırılmış, kənd turizmindən hansı səviyyədə istifadə olunduğuna dair tədqiqatlar həyata keçirilmiş, kənd turizminin inkişafı qarşısında olan problemlər öyrənilmiş və həmin problemlərin həlli iqtiqamətində fikirlər qeyd olunmuşdur*

Açar sözlər: *kənd turizmi, kənd yerləri, kənd təsərrüfatı, məşğulluq, turizm*

Alternativ turizm növü kimi ortaya çıxan kənd turizmi anlayışı 19-cu əsrdə sürətlə inkişaf edən sənaye şəhərlərində mövcud olan gərginlik və stress, ekologiyanın pozulmasına cavab olaraq kənd yerlərində turizm fəaliyyətləri ilə inkişaf etməyə başladı. Xüsusi ilə də kənd ərazilərindən turizm məqsədləri ilə istifadə ötən əsrin 70-ci illərin etibarən sürətlənməyə başladı [12. s.10].

Kənd turizmi 1970-ci illərdən sonra yeni tanınan bir anlayış deyil. 18-ci əsrin sonlarında inkişaf etməyə başlayan və 19-cu əsrdə inkişaf edən romantizm hərəkatından qaynaqlanan bir fenomendir. Romantizm "təbii həyat" şüarını məşhur edən intellektual anlayış kimi tanınır.

1970-ci illərdən sonra kənd turizmi daha çox diferensiallaşdı və kənd turizminə qatılan turistlərin sayı əhəmiyyətli dərəcədə artdı [4. s.39]. Kənd turizminin tərifinə olan yanaşmalar müxtəlifdir. Kənd turizminin bəzi tərifləri xarici ədəbiyyatdan nümunələrlə aşağıdakı kimi sadalamaq olar:

- Kənd yerlərində həyata keçirilən bütün turizm fəaliyyətləri kənd turizmi hesab edilir(AB/Avropa Birliyi)
- Kənd turizmi kənd yerlərinin sosial-iqtisadi inkişafının açarıdır. Əsas komponent kimi görülən kənd turizmi "kənd mühitində davamlı biznesin turizm fəaliyyəti" kimi müəyyən edilir [5. s.104].
- Kənd turizmi anlayışı bölgədən bölgəyə fərqli mənalar daşımaqdadır [10. s.39].

Ümumdünya Turizm Təşkilatına görə isə, kənd turizmi, kənd mühiti və kənd cəmiyyəti ilə məqsədli və real şəkildə qarşılıqlı əlaqədə olmaq istəyən ziyarətçilər tərəfindən, məlum klassik ənənələrdən uzaqda həyata keçirilən turizm növü kimi müəyyən edilir [6. s.143] . Kənd turizminin əsas xüusuiyyətləri şəhər məskənlərindən uzaqda, kəndlərə xas təbii və mədəni quruluşun qorunub saxlandığı, süniliyə rast gəlinməyən ərazi olaraq qeyd olunmaqdadır.

Kənd turizmi kənd yerlərində, xüsusilə fermerlər və kənd əhalisi arasında həyata keçirilən turizmin alternativ formasıdır. Burada turistlərin əsas məqsədi kənddə, fermada və ya dağ evində qalaraq kənd mədəniyyəti ilə tanış olmaqdır. Kənd turizm mərkəzlərinin seçilməsi üçün ümumi meyarlar:

- Zəngin təbii sərvətlər;
- Memarlıq zənginliyi ;
- Şəhər mərkəzinə asan giriş.

Kənd turizmini müəyyən etmək üçün dörd əsas xüsusiyyətə diqqət yetirmək lazımdır:

- Kənd yerlərində baş verir;
- Kənd funksiyaları vasitəsilə aktivləşdirilir;
- Kənd miqyasında inkişaf edir;
- Ənənəvi xüsusiyyətlərin sağ qalmasından asılıdır.

Kənd turizmi növlərində iştirak edən turistlərin əksəriyyəti aşağıdakılardır:

- Ali təhsilli turistlər;

- Səyahət müxtəlifliyini sevən turistlər;
- Yüksək sosial-iqtisadi qruplar.

Dünyanın bəzi ölkələri üzrə kənd turizminə nəzər yetirək.

Yaponiyada kənd turizmi. Kənd Turizmi Yaponiyada yeni başa düşülməyə başlanan bir turizm növüdür. Yaponiyada şəhər həyatı ilə kənd həyatı arasında böyük bir uçurum mövcuddur. İşçilərin və tələbələrin asudə vaxtı çox məhduddur, tətil imkanları isə minimum səviyyəsindədir. Yaponiyada vaxt anlayışı mühüm amil kimi önə çıxır, insanların öz bölgələrindən kənara səyahət etmək üçün ya çox az vaxtı olur, ya da heç vaxtları yoxdur. Vaxt məhdudiyyətlərinə görə, Yaponiyada daha yüksək qiymətli, daha prestijli otellər də xüsusi olaraq hazırlanmış yaşayış seçimlərinə üz tuturlar. Yaponiyanın ərazisinin 64%-i meşə torpaqlarından ibarətdir. Bu ölkədə əkin sahələri 12,7% təşkil edir. Otlaqların nisbəti və kənd təsərrüfatı məhsullarının müxtəlifliyi də aşağı səviyyədədir [9. s.9]. Yaponiyada kənd turizmi fəaliyyəti daha çox kənd yerlərində fermerlər tərəfindən idarə olunan "ferma mehmanxanası" adlanan kiçik müəssisələr vasitəsilə həyata keçirilir. "Farm Inns", ferma sahələrində qurulan ferma evlərində qonaqlara yerləşdirmə, yemək və içmə imkanları təqdim edir, həmçinin iştirakçılara təsərrüfat işlərində, balıq ovu və məhsul yığımında fəal rol oynamağa imkan verir. 1995-ci ildə Yaponiyada kənd yerlərinin turizm üçün istifadə edilməsi haqqında qanunun qəbulundan sonra Yaponiyanın Kənd Təsərrüfatı, Meşə və Balıqçılıq Nazirliyi xarici ədəbiyyatlara "ferma mehmanxanası" kimi tanınan bu obyektlərin yaradılmasına dəstək verdi [8. s.9].

Qlobal ticarətin liberallaşması nəticəsində rəqabət şansını itirmiş və əhalisi getdikcə azalan əraziləri dirçəltmək üçün Yaponiya hökuməti kənd turizmi ilə bağlı araşdırmaları sürətləndirib. Yaponiyada Asudə Vaxt İnkişaf Mərkəzinin apardığı araşdırmada kənd yerlərini seçənlərin əsasən tələbələr, şirkət rəhbərləri, ali təhsilli insanlar və böyük şəhərlərdə yaşayan insanlar olduğu bildirilib [7. s.26].

Macarıstanda kənd turizmi: Macarıstandakı xarici turistlər daha çox Balaton gölü ətrafında təşkil edilən at şouları və folklor proqramlarında iştirak edirlər. Çoxlu göllərin yerləşdiyi Göllər Bölgəsi mühüm turizm destinasiyası hesab olunur. Göldə su idmanı üçün istifadə edilən iribuynuzlu heyvanlar və reaktiv xizəklər göl kənarındakı ağacların altında yan-yana görünür. Bundan əlavə, qədim zamanlarda mədən kimi istifadə edilərək tərk edilmiş bir çox mağarada hazırlanmış səs, işıq və vizual animasiyalar var. Bundan əlavə, bir çox tarixi qalalar turistlərin ən çox ziyarət etdiyi yerlər sırasındadır [7. s.27]. Macarıstan Kənd Təsərrüfatı və Kənd Turizm Assosiasiyası (Macar Kənd və Aqroturizm Assosiasiyası) kənd turizmini dəstəkləyən təşkilatlardan biridir. Macarıstanda kənd turizmindən intensiv istifadə əsrimizin əvvəllərindən etibarən istifadə olunmağa başlayıb. Statistikaya əsasən kənd turizmindən istifadə etmə baxımından əsas turistlər paytaxt Budapeşt sakinləridir.

ABŞ-da kənd turizmi: ABŞ-da kənd turizminin bir əsrə yaxın tarixi var. 1970-ci illərdə yaradılmış milli turizm ehtiyatlarının araşdırılması komissiyası Birləşmiş Ştatların turizmin inkişafı adına göstərilə bilən mühüm addımlardan biridir. Economic Research Associates tərəfindən aparılan araşdırmada kənd turizmini və kiçik biznesin canlandırılmasını təşviq edən milli qanunvericilik planı layihəsi Amerikada kənd yerlərinin iqtisadi inkişafa ehtiyacı olduğunu ortaya qoydu [11. s.64]. ABŞ-ın Vayominq, Montana və Aydaho ştatlarında kənd turizmi ilə məşğul olan müəssisələrin sayı 1985-ci ildə 5 ikən, 1992-ci ildə 90-a çatıb [7. s.26]. Regional müxtəliflikdən asılı olaraq demək olar ki, Amerikanın hər əyalətində kənd turizminin müxtəlif növləri tətbiq edilir. Amerika Avropa ölkələri ilə yanaşı, kənd turizmində şüur sahəsində öndə gedən ölkələrdən biridir. Bu gün Amerika əhalisinin 70%-i kənd turizmində iştirak edir [4. s.40].

Respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından turizm sektoru burada əsas prioritet rolunu oynamaqdadır. Ona görə ki, ölkəmiz turizm baxımından çox böyük potensiala və resurslara malikdir. Təbii ki turizmin inkişaf etdirilməsi hazırda ölkənin əsas maraqlarından biridir. Kənd turizmi də bu baxımdan önəmli mahiyyət daşımaqdadır.

Azərbaycan Respublikasında üç mindən çox kənd və kənd tipli yaşayış məntəqlərinin olması, həmin kəndlərinin hər birində ayrı-ayırılıqda özünə məxsus adət-ənənələrin, tarixi və memarlıq abidələrinin, sənətkarlıq nümunələri və muzeylərin, yerli kulinariyanın zənginliyi ölkəmizdə kənd turizminin necə bir potensiala malik olduğunu göstərir. Xüsusi ilə kənd turizminin inkişafı baxımından Astara, Lənkəran, Lerik, Quba, Qusar, Qəbələ, Şəki, Şamaxı, Oğuz, Qax rayonlarında kənd turizminin potensialı digərlərindən daha üstündür.

Kənd turizmi hər nə qədər perspektivli bir sahə olmasına baxmayaraq qeyd olunan turizm xərclərində kənd turizminin rolunun çox az olduğu bilinməkdədir. Halbuki kənd turizminin inkişaf etdirilməsi nəticəsində aşağıdakı nailiyyətlər əldə oluna bilər:

- Kənd turizmi, kənd əhalisinin iri şəhərlər miqrasiya etməsinin qarşısını ala bilər;
- Şəhər və kənd əlaqələrini inkişaf etdirə bilər;
- Kənd yerlərindı məşğulluğun artırılması;
- Kənd ərazilərinin inkişafı və dolayısı ilə ölkə iqtisadiyyatına müsbət təsir [2. s.94-95].

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2020, s.50

Diaqram. 2019-cu ildə iqtisadi rayonlar üzrə turizm məqsədilə çəkilən xərclər

Hər nə qədər kənd turizmi ölkəmizdə perspektivli bir sahə olmasına baxmayaraq, bu sahə hələdə istənilən səviyyəyə gəlib çatmamışdır. Təbii olaraq da bunun müxtəlif səbəbləri vardır. İlkin olaraq infrastruktur problemləridir ki, kənd ərazilərində bu özünü daha bariz şəkildə göstərməkədir. Daha bir problem isə qiymət məsələsidir. Məsələn, cənub və qərb zonalarında standart bir kənd evinin günlük kirayəsi 30-50 manat arası dəyişirsə, lüks şəraitli evlərin qiyməti 350 manatadək və bəzən daha yüksək qiymətə təklif olunur ki, bu da turistlər tərəfindən birmənalı qarşılanmaqdadır [3]. Başqa bir məsələ isə yerli sakinlərin bu sahə üzrə biliklərinin azlığı və həvəssiz yanaşmaları göstərilə bilər.

Qeyd olunan problemlərin həlli istiqamətində əsas addımlar aşağıdakı kimi həyata keçirilə bilər:

1. İnfrastrukturun yaxşılaşdırılması, xüsusi ilə də yol infrastrukturu burada ən vacib elementdir.
2. Kənd yerlərində turistlərə təklif olan evlərin qiymətlərinə nəzarət olunması və bu sahə üzrə monitorinqlərin aparılması
3. Kənd sakinlərinin kənd turizmi barədə maarifləndirilməsi və məlumatlanıdırılması
4. İdman, ekstrim, macəra, dağ turizmi kimi turizm növlərinin kənd turizmi ilə əlaqələndirilməsi nəticəsi olaraq kənd turizminin inkişafını həyata keçirmək mümkündür.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2020, s.50
2. Hüseyn A. A. (2021), “ Kənd turizminin ölkənin sosial-iqtisadi inkişafına təsirlərinin dəyəndirilməsi” məqalə, s.94-95
3. Rəsuloğlu M. (2021), Kənd turizmi: Mövcud vəziyyət və perspektivlər. Məqalə, İkisahil nəşriyyatı, http://ikisahil.az/post/238870-kend-turizmi-movcud-veziyyet-ve-perspektivler adresindən alınıb.
4. Aydın O. (2012), “ AB’de Kırsal Turizmde İlk 5 Ülke ve Türkiye’de Kırsal Turizm, KMÜ Sosyal ve Ekonomik Araştirmalar Dergisi, Adnan Menderes Üniversitesi, Nazilli Meslek Yüksekokulu, s.39-41
5. Ayaz N., Yeşiltaş M., Türkmen F. (2012), “Turizm Eğitimi Alan Öğrencilerin Kırsal Turizme Bakış Açıları ve Algıları Üzerine Bir Araştırma”, KMÜ Sosyal ve Ekonomik Araştirmalar Dergisi s.104
6. Uygur S. M., Akdu U. (2009), “Çiftlik Turizmi, Kırsal, Tarım ve Ekoturizminin Kavramsal Açıdan İrdelenmesi”, Journal of Commerce & Tourism Education Faculty, Year: 2009 No: 1 s.143
7. Yılmaz G.Ö., Gürol, N. K. (2012), “Balıkesir İlinin Kırsal Turizm Potansiyelinin Değerlendirilmesi”, KMÜ Sosyal ve Ekonomi k Araştirmalar Dergisi 14 (23): s.26-27
8. Arahi Y. (2008), Rural Tourism in Japan: The Regeneration of Rural Communities, Rural Life Research Institute Zenkoku Nogyou Kyousai Kaikan, s.9
9. Breiling M. (2005), “Rural Tourism: Experiences from Austria, Opportunities for Japan, Japanese Rural Planning Society, Kinki Meeting, Awaji Landscape Planning and Horticultural Academy”, Hokudancho, Hyogo Aug. 6th, s.9

10.Darău A.P., Corneliu M., Brad M.L., Avram E.(2010), “The Concept of Rural Tourism and Agritourism, “Vasile Goldiş” Western University of Arad s.39

11.Long P., EdgellnD. (1997), Rural Tourism in the United States: The Peak to Peak Scenic Byway and KOA: 64

12.Lane B. (2009),” Rural Tourism: An Overview, Chapter 20, in The SAGE Handbook of Tourism”, s.10

Резюме

Гурбанов А.А.

Перспективы развития и текущие проблемы сельского туризма в Азербайджане

В статье подробно исследованы сущность сельского туризма и его место в этой сфере. В связи с этим проведен теоретический обзор использования сельского туризма в некоторых странах мира, широко исследованы существующий потенциал и перспективы его развития в нашей стране, проведено исследование уровня использования сельского туризма. Были изучены проблемы, стоящие перед развитием сельского туризма, и отмечены идеи в направлении решения этих проблем.

Ключевые слова: *сельский туризм, сельские местности, сельское хозяйство, занятость, туризм*

Summary

Gurbanov A.A.

Development prospects and current problems of rural tourism in Azerbaijan

The article explores in detail the essence of rural tourism and the place of rural tourism in the field of tourism. In this regard, a theoretical review of the use of rural tourism in some countries of the world was carried out, the existing potential and prospects for the development of rural tourism in our country were widely studied, and a study was made of the level of use of rural tourism. the problems facing the development of rural tourism were studied, and ideas were noted in the direction of solving these problems.

Key words: *rural tourism, rural areas, agriculture, employment, tourism*

RESPUBLİKAMIZDA ƏTRAF MÜHİTİN QORUNMASI VƏ ONUN TƏNZİMLƏNMƏSİNDƏ YENİ MEXANİZMLƏRİN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Qurbanova Röya Vilayət qızı

Sumqayıt Dövlət Universiteti

roya.qurbanova.80@inbox.ru

Xülasə: *Bazar təsərrüfatçılığı sistemində ekoloji tənzimləmənin yeni mexanizminin formalaşdırılması nəzərdə tutulur. Bu proses iqtisadi sistemin transformasiyasının ümumi məcrasında həyata keçirilir. Ekoloji tənzimləmənin iqtisadi mexanimləri bazar sisteminin yeni qərarlaşan ümumi fundamenti üzərində, sistemin digər müvafiq sütunlararına söykənməklə təşəkkül tapır. Məqalədə bununla əlaqədar ətraf mühitin mühafizəsi sahəsində təsirli iqtisadi vasitələrin stimullaşdırılması və istifadəsi bu sahədə zəruri institusional zəminlərin yaradılması ilə bağlı məsələlərə aydınlıq gətirilmişdi.*

Açar sözlər: *ekoloji tənzimləmə, ətraf mühitin mühafizəsi, beynəlxalq əməkdaşlıq, təbii resurslar, dövlət*

Ekoloji tənzimləmənin iqtisadi mexanizminin müasir tələblərə uyğun formalaşdırılmasına təminat yaradılması baxımından qeyd edilən zəminlərin əsasında ətraf mühitin mühafizəsi probleminə müasir şəraitdə bütün ictimai həyatın ekologiyalaşması, cəmiyyətlə təbiət arasında maddələr, enerji və informasiyanın səmərəli mübadiləsinin zəruriliyindən yanaşılması vacibdir. Bu zərurət ətraf mühitlə bağlı hüquqların digər insan hüquqları ilə bir sıraya qoyulmasını, daha doğrusu hər bir ölkə vətəndaşının təmiz havaya, təmiz suya, əl dəyməmiş təbiətin gözəllyindən həzz almağa olan hüququnun tanınmasını tələb edir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsinin ilkin dövründə qəbul edilmiş qanunvericilik aktları ətraf mühitin mühafizəsi sahəsində bazar təsərrüfatçılığı sisteminə adekvat iqtisadi vasitələrin formalaşdırılması üçün müəyyən zəmin yaratmışdır. Lakin, ətraf mühitin mühafizəsi ilə bağlı həmin dövrdə mövcud olan qanunvericiliyin xüsusiyyətləri öz növbəsində qeyd edilən zəminlərin kifayət qədər möhkəm olmasını təmin edə bilməmişdir.

Həmin qanunda ekoloji nəzarətin, idarəetmənin, tənzimləmənin bütün məsələləri ümumi şəkildə əks edilmişdir. Bu nöqteyi nəzərdən qeyd edilən qanunun müddəalarına istinad etməklə ətraf mühitin mühafizəsinin konkret iqtisadi mexanizmlərinin formalaşdırılmasında çətinliklər yaranırdı. Ətraf mühitin mühafizəsinin səmərəli iqtisadi mexanizminin formalaşdırılmasının mühüm institusional zəminlərdən biri ekoloji problemlərin həllində ölkənin beynəlxalq əməkdaşlıq mexanimlərinə qoşulmasıdır.

Ekologiya sferasında beynəlxalq əməkdaşlığın obyektiv zəruriliyi təbiətin dövlət sərhədlərinin tanınması, onun vahidliyi ilə şərtlənir. Müasir şəraitdə ətraf mühitin mühafizəsi sahəsində milli planlar və proqramlar onların müvafiq beynəlxalq əməkdaşlıq əlaqələrinə qoşulduğu hallarda uğurla həyata keçirilə bilər. Bəzi təbii resursların beynəlxalq statusa malik olması, həmçinin qlobal səviyyəli ekoloji problemlərin kəskinləşməsi ekologiya sahəsində dölərlərin səylərinin əlaqələndirilməsi məsələsini daha da aktuallaşdırmış olur [1].

Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq milli ekoloji proqramların həyata keçirilməsi üzrə təcrübə mübadiləsini, dövlətlərarası proqramlar və sazişlərin hazırlanması və reallaşdırılmasını, ətraf mühitin vəziyyətinə və qəbul olunmuş qərarların yerinə yetirilməsinə nəzarətin təşkili ilə məşğul olan beynəlxalq orqanların və təşkilatların təsis edilməsi və s. məsələləri əhatə edir.

Respublikamızın indiki dövründə onun ən mühüm vəzifələrindən biri yeni iqtisadi münasibətləri formalaşdırmaqdır. Bu yaranmış böhran vəziyyətindən çıxmağın, iqtisadi inkişafın normalməcraya qaytarmaq və dünya iqtisadi sivilyasiyasına qoşulmaq üçün düzgün yol hesab edilir. Buna nail olmaq üçün iqtisadiyyatın obyektiv inkişaf qanunları əsasında tənzimlənməsi, istehsalın strukturunun və inkişafının yenidən qurulması lazımdır.

Bazar iqtisadiyyatına uyğun olaraq iqtisadi münasibələrin formalaşması, xüsusilə müxtəlif mülkiyyət formalarının inkişafı təbii sərvətlərdən səmərəli istifadə və ekologiyanın qorunması üçün tədbirlər sisteminin həyata keçirilməsi zəruriliyini qarşıya qoyur. İndiki mərhələdə təbii sərvətlərdən kompleksli, səmərəli istifadə edilməsi onların təkrar istehsalı, ekoloji mühitin mühafizəsi respublikada yeni iqtisadi münasibətlərin formalaşmasının tərkib hissəsidir. Çünki təbii sərvətlərdən səmərəli istifadə edilməsi, ekoloji problemin həlli, maddi nemətlər istahsalını artırır, bu da əhalinin maddi və mənəvi tələbatının yaxşılaşdırılmasında mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, təbii sərvətlərdən səmərəli istifadə edilməsi ekoloji mühitin qorunub saxlanması mühümsosial-texniki tərəqqinin inkişafı ilə əlaqədardır. Son dövrlər iqtisadiyyatda baş verən qeyri-sabitlik, müəssisələr arasındakı qarşılıqlı əlaqənin zəifləməsi nəticəsində bəzi müəssisələr təbii ehtiyyatlardan hələ də kompleks və səmərəli şəkildə istifadə etməyi bacarmırlar, bu da ekoloji mühitin qorunması tədbirlərinin həyata keçirilməsini ləngidir. Bildiyimiz kimi iqtisadiyyatla ekologiya bir-birilə qarşılıqlı əlaqədədir. Ona görə də hər bir müəssisə ekoloji problemin həllinə daimi diqqət yetirməlidir. Məlumdur ki, bazar iqtisadiyyatı sistemində bəzi səbəblərdən bir çox müəssisələrin maliyyə çətinlikləri ilə üzləşməsi ətraf mühitin qorunmasını təmin edən qurğuların alinmasını çətinləşdirir, bu da nəzarətedici cihazların çatışmamasına və ya heç olmamasına gətirib çıxarır [2].

Nəticədə məhsuldar qüvvələrin, eləcə də ayrı-ayrı müəssisələrin yerləşdirilməsində, planlaşdırılmasında, stimullaşdırılmasında səmərəliliyin müəyyən edilməsində ətraf mühitin çirklənməsinə görə ayrılan vəsaitin miqdarı, qarçısını alınacaq tədbirlərin həyata keçirilmə xərcləri çox olur. Bu da müəssisələrin yeni texnologiyanın mütərəqqi qurğuların alınması miqdarını azaldır. Əsas məqsəd ətraf mühitin çirklənməsinə görə müəssisələr tərəfindən ayrılan vəsaitin miqdarının müəyyən edilməsidir.

Ətraf mühitə dəyən ziyanın kəmiyyəti müəssisənin özündən asılı amillərdən, digər hissəsi isə özündən asılı olmayan amillərlə bağlı olur. Ona görə də ekologiyanın qorunması üçün ayrılan vəsait həm müəssisənin mənfəəti hesabına, həm də dövlətin vəsaiti hesabına formalaşmalıdır.

Hal-hazırda ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması məqsədi ilə təsərrüfat subyektlərinə tətbiq edilən məhdudlaşdırıcı tədbirlər aşağıdakı kimdi:

-Tullantıların həcmi müvafiq normaya qədər olan obyektlər üzrə ödəniş normaları;

-Tullantıların həcmi müəyyənləşmiş limit həddində olan obyektlər üzrə ödəniş normaları;

-Tullantıların həcmi normativlərdə müəyyən olunmuş həddlərdən çox olan obyektlər üzrə ödəniş normaları;

İndi biz elmi-texniki inqlab əsrində yaşayırıq. Bu inqilab bir tərəfdən insanın təbiətə təsir imkanlarını artırmış, təbiətdən asılılığını azaltmış, təbii ehtiyatların istifadəsini asanlaşdırmışdır. Digər tərəfdən isə o, ekoloji sistemdə mənfi iz buraxmış- hava, dəniz akvatoriyaları, şirin su hövzələri çirklənmiş, torpaq örtüyü və meşə ehtiyatları korlanmış və bu proses bu və ya digər dərəcədə yenə davam edir.

Sənayenin inkişafı və müxtəlif texniki sistemlərdən kütləvi surətdə istifadə edilməsi nəticəsində hazırda təbii mühitin fiziki, kimyəvi parametrlərində dəyişikliklər əmələ gəldiyi müşahidə olunur. İstehsalda yaranan tullantılar yaranma mənbəyindən və növlərindən asılı olmayaraq ekoloji tarazlığı pozur, atmosfer havasını çirkləndirir, ətraf mühiti zibilləyir, torpaq fondunu azaldır, faydalı torpaq sahələrinin eroziyasını

genişləndirir və təsərrüfat subyetlərini əlavə gəlirdən məhrum edir. Buna görə də qarşıda duran əsas vəzifələrdən biri istehsalda yaranan tullantıların səmərəli istifadə edilməsi məsələlərinin həlli, tullantısız və ya az tullantılı texnologiya yaratmaq sahəsində mütəxəsislər tərəfindən mütəmadi iş aparılması hesab edilir.

Yeni texnikanın səmərəliliyinə dair kompleks göstəricilərin mövcud olması yalnız istehsaldan mənfəət götürmək mənafeyini üstün tutmaqdan çəkindirərdi, torpaqdan, meşədən, sudan və təbiətin başqa sərvətlərindən təsərrüfatçılıqda istifadə olunması hallarını minimuma endirməyə imkan verərdi. Texnika nəinki təkcə "bu gün" baxımından, həm də uzaq perspektiv baxımından əlverişli olmalıdır.

Ətraf mühiti çirkləndirən təsərrüfat obyektlərinə qarşı məhdudlaşdırıcı mexanizmlərlə yanaşı stimullaşdırıcı mexanizmlər də tətbiq edilə bilər. Bu da dövlətin fiskal (vergi) siyasətinə bağlıdır. Bu sahədə mütərəqqi müəssisələrə güzəştlirin tətbiq edilməsi sahibkarlarda təkrar xammal və tullantıların istifadəsinə maraq yaradacaq, əvvəllər istifadəsiz qalan ətraf mühitə atılmış və onu çirkləndirən tullantılar isə dəyərli xammala çevriləcəkdir.

Aparılan tədqiqatlar göstərir ki, respublikamızda ətraf mühitin qorunması və onun tənzimlənməsi sahəsində aparılan işlər real tələbatdan azdır. Buna görə də ətraf mühitin istehsal və istehlak tullantıları ilə çirkləndirilməsi sahəsində vəziyyət dəyişməz olaraq qalır. Bu sahədə dönüş yaratmaq üçün ilk növbədə ətraf mühitin çirkləndirilməsi səbəblərini aradan qaldırmaq lazımdır.Təkrar xammal və tullantılar bazının formalaşdırılması buna zəmin ola bilər. Nəzərə alsaq ki, toplanmış tullantıların tam istifadəsi olunmamasına baxmayaraq belə tip bazarlarda potensial təklif tələbatı xeyli qabaqlayır. Belə ki, keyfiyyətli tullantı ehtiyatları həmişə məhdud olur və belə tullantılardan hazırlanan məhsulun keyfiyyəti heç də ilkin xammaldan hazırlanan məhsulun keyfiyyəti ilə müqayisə edilə bilməz. Bundan başqa əksər alıcılar təkrar xammal bazarına yalnız təbii xmmala müəyyən çatışmamazlıq olduqda müraciət edirlər.

Sonda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququna malik olması, əsas insan hüquqlarından biri kimi təsdiq edilmişdir. Həmçinin hər bir vətəndaşa ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq haqları verilmişdir[4].

Ədəbiyyat

1. A.Sadıqov, İ. Xəlilov Ekologiya və ətraf mühitin mühafizəsi.Bakı,-2009, 345s.

2. Əliyev T.N. Ekoloji menecment. Bakı: Çinar-Çap, 2006,454s.

3. Экология, охрана природы и экологическая безопасность. Под. Ред. В.И.Данилова-Данилова. М.: МНЭПУ, 2017

4. www. azerbaijan.news.az

Резюме

Курбанова Р.В.

Значение применения новых механизмов в охране окружающей среды и ее регулирования в нашей республике

Планируется формирование нового механизма экологического регулирования в системе товарного земледелия. Этот процесс осуществляется в общем ходе преобразования экономической системы. Экономические механизмы экологического регулирования формируются на вновь созданной общей основе рыночной системы, с опорой на другие соответствующие системы. В связи с этим в статье уточнены вопросы, связанные с созданием необходимых институциональных основ в сфере охраны окружающей среды, стимулированием и использованием эффективных экономических средств.

Ключевые слова: *экологическое регулирование, охрана окружающей среды, международное сотрудничество, природные ресурсы, государство*

Summary

Gurbanova R.V.

The Importance of the Application of New Mechanisms in Environmental Protection and its Regulation in our Republic

It is planned to form a new mechanism of environmental regulation in the market farming system. This process is carried out in the general course of transformation of the economic system. The economic mechanisms of ecological regulation are formed on the newly established general foundation of the market system, relying on other relevant pillars of the system. In this regard, the article clarified the issues related to the creation of the necessary institutional foundations in the field of environmental protection, stimulation and use of effective economic means.

Key words: *environmental regulation, environmental protection, international cooperation, natural resources, state*

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İSTEHSALIN İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNSAN AMİLİNİN TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məmmədova Elnarə Şəmsi qızı
Sumqayıt Dövlət Universiteti
Mamedovaelnara80@gmail.com

Xülasə: *Bu işin məqsədi peşə səriştələri prizmasından iş prosesinin səmərəliliyinə insan amilinin təsirinin mahiyyətini nəzərdən keçirmək, habelə orta və kiçik sənaye müəssisələrində işçilərin səriştələrinin praktiki diaqnostikasını aparmaq və tövsiyələr verməkdir. İnsan amilinin iş prosesinin səmərəliliyinə təsirinin təhlili üçün müasir metodlardan istifadə edilməsinə dair daim ehtiyac vardır. Kiçik və orta sənaye müəssisələrinin işçilərinin səlahiyyətləri "səriştələr" anlayışının müəyyənləşdirilməsi, peşə səriştələrinin təsnifatı və müvafiq ölçmə metodlarının tətbiqi əsasında diaqnoz qoyulur. Aparılmış araşdırmalar işçilərin qeyri-adekvat davranışı, tapşırıqların yerinə yetirilməsi ilə bağlı məlumatsızlıq və ya müzakirələrin aparılmaması, ehtiyac olmadıqca risk alma, səmərəsiz münasibətlər və insanların reaksiyası, ixtisas səviyyəsinin aşağı olması, bu prosesə nəzarətin qeyri-kafi olması səbəbindən əməyin mühafizəsinin aşağı səviyyəsini aşkar etməyə imkan verdi. İnsan səhvinin iş prosesinin səmərəliliyinə təsirini minimuma endirmək üçün Dekker metodundan istifadə etmək təklif olunur.*

Açar sözlər: *insan potensialı, sərişta, əməyin mühafizəsi, kadrların qiymətləndirilməsi, səriştələrin növləri, səriştələrin diaqnostikası, insan səhvi*

Müasir şəraitində müəssisələrin uğurlu fəaliyyəti bütün iqtisadi sistemin müəyyən potensiala malik olan insan üzərində qurulduğunu nəzərə almağı tələb edir. Müəssisə daxilində bu potensialdan istifadə ilk növbədə müəssisədə insan resurslarının idarə edilməsi üsul və vasitələrinin idarə edilməsindən və sistemindən habelə insan amilinin işin səmərəliliyinə təsirinin təhlilindən asılıdır [7, s. 277].

İnsan amilinin iş prosesinin səmərəliliyinə təsirinin müəyyənləşdirilməsi sahəsində aparılan tədqiqatlar işçilərin səriştələrinin qiymətləndirilməsində nəzəri və praktiki nəticələr arasında əsaslı uyğunsuzluqlar olduğunu göstərir. Bu, öz-özünə diaqnostikanın nəticələri (çox vaxt əsassız olaraq şişirdilmiş) və işin keyfiyyətsizliyi arasındakı boşluqların aradan qaldırılmasını tələb edir ki, bu da təkcə fərdi bacarıqların olmaması səbəbindən deyil, həm də səhvlər şəklində insan amili ilə əlaqələndirilir. Buna görə də, müəssisənin fəaliyyətinin səmərəliliyini artırmaq üçün işçilərin səlahiyyətlərinin diaqnostikası prosedurlarını insan səhvlərini minimuma endirməyə və müəssisədə əməyin mühafizəsini yaxşılaşdırmağa yönəlmiş tədbirlərlə birləşdirərək istehsal prosesinin təkmilləşdirilməsinə yönəlmiş kompleks yanaşma təklif olunur. İşçilərin kompetensiyalarına aid bütün təriflər əsasən ötən əsrin 70-ci illərində elmi-tədqiqat işlərinə başlayan D.Makklelandın əsərlərindən qaynaqlanır. D.Makklelanda görə, səriştələr qarşıya qoyulan vəzifələrin düzgün yerinə yetirilməsi üçün zəruri olan bilik, bacarıq, qabiliyyət və şəxsi keyfiyyətlərdən ibarətdir[4, s. 239]. İşçilərin davranış səriştələri prizmasından qiymətləndirilməsi ideyasını təbliğ edən D.Makklelandın davamçısı R.Boyatzisin nəzəriyyəsindən sonra[2,s.354], L.M.Spenser və S.M. Spenser səriştənin aşağıdakı tərifini təklif etdi: "Sərişta, işdə və ya müəyyən bir vəziyyətdə müstəsna nailiyyətlərə əsaslanan xüsusi meyarlarla səbəb nəticəsini təyin edən hər bir işçinin daxili xüsusiyyətidir"[6, s. 48]. Yuxarıdakı tərif işin və ya müəyyən vəzifələrin sərişta yerinə yetirilməsi qabiliyyətinə, eləcə də hər hansı bir şəxsə xas olmalı olan davranış keyfiyyətləri toplusuna aiddir. Beləliklə, yuxarıdakı termini nəzərdən keçirərkən anlaşılmazlıq və fəsadların qarşısını almaq üçün biz səlahiyyətin iki mənasını aydın şəkildə ayırmalıyıq:

- sərişta, sərişta hərəkətlərin əsasını təşkil edən insanlara və müəyyən insani keyfiyyətlərə aid anlayış kimi;
- sərişta, insanın sərişta olduğu iş və iş mərhələləri ilə əlaqəli bir anlayış kimi.

İşçi yönümlü yanaşmada sərişta insana xasdır. İş zamanı işçinin səmərəli fəaliyyətinin və davranışının əsasını məhz sərişta təşkil edir. Bu funksiyalar adətən bilik, bacarıq, qabiliyyət və əlaqələri özündə birləşdirən kateqoriyalara qruplaşdırıla bilər. İlkin diqqətin insana verildiyi işçi yönümlü yanaşmada işə diqqət də mövcuddur. Bu yanaşmaya əsasən, birinci mərhələdə işi yerinə yetirmək üçün lazım olan addımların siyahısını tərtib etməkdir. Daha sonra lazımi mərhələlərə uyğun olaraq işçilər tələb olunan şəxsi

keyfiyyət və bacarıqlarından asılı olaraq seçilir. Bu mənada, "səriştə" termini bir insanın bacarıqlı və uğurla yerinə yetirə biləcəyi hərəkətləri və ya rolları müəyyən etmək üçün istifadə olunur [6, s. 623].

Bu kontekstdə, bir sıra alimlərin fikrinə görə səriştə termini, bir insanın tapşırığı səriştəli şəkildə yerinə yetirmək üçün sahib olmalı olduğu davranış dəstlərindən birinə aiddir. Buna görə də, səlahiyyətlər konkret işin icrası ilə bağlıdır. Aydındır ki, səlahiyyətlər hər iki mənada fəaliyyət yönümlü və işçi yönümlü kimi başa düşülməlidir.

Beləliklə, səriştələr müəyyən səviyyədə peşəkar vəzifələri yerinə yetirməyə imkan verən bilik, bacarıq və bacarıqlar sahəsindəki meyllər kimi başa düşülür. Beləliklə, peşəkar səriştə üç komponentdən ibarətdir:

– məktəbdə və məktəbdənkənar təhsil zamanı əldə edilmiş biliklər;

– bilikləri praktikada tətbiq etməyə imkan verən bacarıqlar;

– işçilərin peşə tapşırıqlarının yerinə yetirilməsinə münasibətini əks etdirən üstünlüklər.

Bilik və bacarıqlar inkişaf sahəsində tapşırıqları yerinə yetirmək qabiliyyətinin səviyyəsini ortaya qoyur, halbuki üstünlük neytral münasibətdən keçərək mənfidən müsbətə qədər dəyişə bilən vəzifələrə işçilərin münasibətini göstərir.

Bacarıqların təsnifatının müxtəlif növləri var. Bu təsnifatlar inkişaf sahəsində konkret vəzifələri yerinə yetirmək üçün zəruri olan səlahiyyətlərlə tamamlana bilər. Bacarıqların növləri və onların əhatə dairəsi təqdim olunur.

Cədvəl

Bacarıqların növləri və onların əhatə dairəsi

Bacarıqların növləri	**Bacarıqların əhatə dairəsi**
Sosial səlahiyyətlər	Şirkətlə identifikasiya, əlaqələr qurmaq, ünsiyyət qurmaq, əməkdaşlıq etmək, həm şirkət daxilində, həm də üçüncü şəxslərlə əməkdaşlıq etmək, münaqişələri həll etmək bacarığı, danışıqlar aparmaq bacarığı, dinləmək bacarığı, özünə inam, yazılı ünsiyyət və müştəri yönümlü yanaşma.
Şəxsi səlahiyyətlər	Fəaliyyətə motivasiya, nəticələrə can atma, yenilik, müstəqillik, çeviklik, təxəyyül, stressi aradan qaldırmaq bacarığı, özünü idarə etmə bacarığı, analitik və sintetik düşünmə, qərar qəbul etmə və problem həll etmə bacarığı.
Peşəkar səlahiyyətlər	Peşəkar biliklər, məlumatların idarə edilməsi, layihənin idarə edilməsi, proseslərin idarə edilməsi, ofis bacarıqları, biznes istiqamətləri, biliklərin tətbiqi prosedurları, təlim və təkmilləşdirməyə hazırlıq.
İdarəetmə səlahiyyətləri	Effektiv təşkilat yaratmaq bacarığı, planlaşdırma bacarıqları, hədəflərin idarə edilməsi, komanda qurmaq, dəyişikliklərin idarə edilməsi, nümayəndə heyəti, motivasiya, kouçinq, öhdəlik, strateji düşüncə, idarəetməyə nəzarət və liderlik bacarıqları.

Əsas səlahiyyətlər üç kateqoriyada nəzərdən keçirilir: konseptual, sosial və texniki. Buna görə də, məsələn, müxtəlif səviyyəli idarəetmə müxtəlif nisbətlərdə müəyyən bacarıq tələb edir [4, s. 196]. Beləliklə, ən aşağı səviyyəli menecerlər əhəmiyyətli dərəcədə texniki səriştələrə və daha az dərəcədə konseptual və sosial səriştələrə (bərabər nisbətdə) malik olmalıdırlar. Orta səviyyəli menecerlər yuxarıda göstərilən hər üç bacarıq bərabər nisbətdə olmalıdır. Yüksək səviyyəli menecerlər eyni dərəcədə yüksək konseptual və sosial səriştələrlə səciyyələnməlidir, eyni zamanda bir qədər aşağı texniki səriştələrə malik ola bilər.

Bacarıq bir çox cəhətdən ölçülə bilər. Bacarıqların ölçülməsi üsullarına aşağıdakılar daxildir:

– məhsuldarlıq səviyyəsini müəyyən edən göstəricilərdən istifadə etməklə seçilmiş səlahiyyətlərin əhatə dairəsinin öyrənilməsi;

– səriştə adını ifadə edən və konkret tapşırığın icrası üçün tələbləri təsvir edən səriştə kartlarından istifadə etməklə. Bacarıq kartı işçinin səriştələrə yiyələnmə səviyyəsini yoxlamaq üçün istifadə edilə bilər;

– səriştə göstəricilərindən birinə aid bir sıra ifadələri özündə əks etdirən və təklif olunan miqyasda qiymətləndirilən sorğu əsasında sorğu vasitəsilə səriştə diaqnostikasının aparılması. Sorğudan istifadə edərək, işçinin özünü qiymətləndirməsi və digər işçilərin davranışı haqqında məlumat əldə etmək olar;

– müxtəlif vəziyyətlərdə mümkün fəaliyyət yollarını təsvir edən ifadələr toplusunu təmsil edən ixtisas testlərinin aparılması;

– test zamanı işçi müəyyən bir vəziyyətdə optimal davranışı təsvir edir;

– işçinin iş yerində davranışının müəyyən edilməsi ilə bağlı söhbətlərin və müsahibələrin aparılması;

– işçinin iş yerində davranışına nəzarət etmək.

Bacarıqların inkişafı işçinin peşəkar inkişafının elementidir. İşçinin peşəkar inkişafı əsasən iş yerində peşəkar tapşırıqların icrası zamanı (70%), başqalarından alınan məlumat və tövsiyələrin təsiri altında (20%) və təlim vasitəsilə (10%) baş verir[3, s. 344].. Bütün yuxarıda qeyd olunan keyfiyyətləri komanda işi təlimi və öz vəzifələrini lazımi şəkildə yerinə yetirmək üçün lazım olan bacarıqları inkişaf etdirmək vasitəsilə inkişaf etdirmək vacibdir.

Beləliklə, insan və onun fəaliyyəti əmək prosesində mühüm rol oynayır və eyni zamanda insan prosesin ən zəif həlqəsidir. Dekker S. səhvin səbəbini dəqiq müəyyən etməyə və onu ətraflı təhlil etməyə imkan verən, davamlı təkmilləşdirmə elementlərindən birinə çevrilə bilən, işçilər və menecerlər arasında ünsiyyəti və qarşıya qoyulmuş tapşırıqların əsas elementlərini başa düşməyə imkan verən bir üsul təklif etmişdir [8, s. 85]. (3). Bu texnika insan səhvlərini aradan qaldırmağa, ciddi nasazlıqların və dayanma vaxtlarının qarşısını almağa və bununla da müəssisənin fəaliyyətinin səmərəliliyini artırmağa imkan verir. Qəzalar və ya fövqəladə hallar təkcə şirkətin imicinə deyil, həm də işçilərin iş prosesinə cəlb edilməsinə potensial olaraq mənfi təsir göstərir. İş zamanı təhlükəsizliyin təmin edilməsi işçilərin rifahını və rahatlığını yaxşılaşdırır.

Dekker metodu WCM (World Class Manufacturing-Dünya Səviyyəli İstehsal) daha geniş konsepsiyasının elementlərindən biridir. WCM-nin əsas məqsədi keyfiyyətin yüksəldilməsi, xərclərin azaldılması, səmərəliliyin artırılması və tullantıların minimuma endirilməsi yolu ilə istehsal proseslərini təkmilləşdirməkdir. Digər qabaqcıl təcrübə sistemləri kimi, WCM seçilmiş sahələrin onların cari vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlərin obyektinə çevrildiyi fərziyyəsindən irəli gəlir ki, bu da şirkətin proseslərini təkmilləşdirmək üçün əsasları müəyyən edir [5, s. 27].

Dekker metodu əməyin mühafizəsi prinsipləri ilə sıx əlaqəli olan kadrların inkişafı prinsipləri ilə əlaqəli üsullardan biridir. Kadrların idarə edilməsi getdikcə daha populyarlaşır, mahiyyətcə qərar qəbuletmə proseslərinə təsir göstərir (işçilərin bacarıq və maraqları əsasında seçilməsi). İnsan Resursları (kadrlar) Departamentinin əməkdaşları işəgötürənlə birlikdə Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş standartlar nəzərə alınmaqla işçilər üçün fəaliyyət dairəsini müəyyən etmək üçün işlərin inventarını aparırlar. İnsan Resursları Departamenti səlahiyyətləri "müəssisənin rəqabət üstünlüyü yaradan insan faktorları ilə texnoloji proses arasında unikal inteqrasiyanın yaradılmasından" ibarət prinsip əsasında təyin edir [1, s.254]. İnsan kapitalının idarə edilməsində əsas uğur amillərindən biri işçilərin buraxdığı səhvlərin səbəblərinin təhlilidir.

Bu tədqiqatın məqsədi orta və kiçik sənaye müəssisələrinin timsalında səriştənin diaqnostikasından, özünüdiaqnostikanın nəticələrini işin nəticələri ilə müqayisə etməkdən, problem sahələrini müəyyənləşdirməkdən və insanların mənfi təsirini minimuma endirmək imkanlarını araşdırmaqdan ibarətdir.

Ədəbiyyat

1. Baber C. and Stanton N.A. Analysis of tasks to identify errors. Ergonomics, 37, 1923-1941.2004
2. Boyatzis R.E. The Competent Manager: A Model for Effective Performance, John Wiley &. Sons, Inc.2008
3. Dekker S. A field guide to human error research. Aldershot, Ashgate.2002
4. Desfontaines L.G. and Semenova Yu.E. Prinyatie upravlencheskih reshenij s pozizij koncepcii ehkvifinal'nosti [Management decision-making from the perspective of the concept of equality]. Science and Business: Pathways to Development, 6, 38-41. 2017
5. Hendry L. Applying world-class manufacturing to make-to-order companies: Challenges and solutions. International Journal of Operations & Production Management, 18(11), 1086-1100. 2008
6. Flowers K. Hand motion and controlled motion. British Journal of Psychology, 66, 39-52. 2005
7. Kennedy, R., & Kirwan, B. Development of a threat- and performance-based method for identifying security management vulnerabilities in high-risk systems. Security Science, 30, 249-274. 2011
8. Lukina O.V. and Panova A.Yu. 2017.

Резюме

Мамедова Э.Ш.

Оценка влияния человеческого фактора на повышение эффективности управления производством в промышленных учреждениях

Целью данной работы является рассмотрение сущности влияния человеческого фактора на эффективность трудового процесса с позиций профессиональных компетенций, а также проведение практической диагностики компетенций работников средних и малых промышленных предприятий.

а также предложение рекомендации. Существует постоянная необходимость использования современных методов анализа влияния человеческого фактора на эффективность рабочего процесса. Компетенции работников малых и средних промышленных предприятий диагностируются на основе определения понятия «компетенции», классификации профессиональных компетенций и применения соответствующих методов измерения. Проведенное исследование позволило выявить низкий уровень охраны труда из-за неадекватного поведения работников, незнания или отсутствия обсуждения выполнения заданий, неоправданного риска, неэффективных взаимоотношений и реакции людей, низкого уровня квалификации, недостаточной контроль над этим процессом. Для минимизации влияния человеческого фактора на эффективность рабочего процесса предлагается использовать метод Деккера.

Ключевые слова: *человеческий потенциал, компетентность, охрана труда, оценка персонала, виды компетенций, диагностика компетенций, человеческий фактор.*

Summary

Mammadova E.Ş

Assessment of the effect of the human factor in improving the efficiency of production Management in Industrial enterprises

The purpose of this work is to consider the essence of the influence of the human factor on the efficiency of the labor process from the standpoint of professional competences, as well as conducting a practical diagnosis of the competences of employees of medium and small industrial enterprises. and give recommendations. There is a constant need to use modern methods of analyzing the influence of the human factor on the efficiency of the work process. Competences of employees of small and medium-sized industrial enterprises are diagnosed based on the definition of the concept of "competencies", the classification of professional competencies and the application of appropriate measurement methods. The conducted study revealed a low level of labor protection due to inadequate behavior of employees, ignorance or lack of discussion of task performance, unjustified risk, ineffective relationships and people's reactions, low level of qualification, insufficient control over this process. To minimize the influence of the human factor on the efficiency of the working process, it is suggested to use the Dekker method.

Key words: *human potential, competence, labor protection, personnel assessment, types of competences, diagnosis of competences, human factor*

MÜƏSSİSƏNİN İQTİSADİYYATI ÜÇÜN ELMİ-TEXNİKİ TƏRƏQQİNİN SƏMƏRƏLİLİYİ

Məmmədova Sevinc Ağabala qızı
Azərbaycan Dövlət Neft və Sənaye Unversiteti
n.a.mamedova.87@gmail.com

Xülasə: *Məqalədə elmi-texniki tərəqqinin əsas əlamətləri və xüsusiyyətləri, müəssisədə innovasiyaların tətbiqinin səmərəliliyi, habelə elmi-texniki tərəqqinin inkişafının prioritet istiqamətləri nəzərdən keçirilir. Belə nəticəyə gəlinir ki, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin səmərəli təşkili və elmi biliklərin istifadəsi dövlətlərin və transmilli korporasiyaların yüksək texnologiya bazarlarında uğurunu, bu ölkələrdə iqtisadi artımı təmin edir.*

Açar sözlər: *elmi-texniki tərəqqi, iqtisadiyyat, müəssisə, avtomatlaşdırma, istehsal*

Elmi-texniki tərəqqi (ETT) yeni texnika və texnologiyanın tətbiqi, elmi biliklər əsasında istehsalın və əməyin təşkilinin davamlı prosesidir.

ETT aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

– avtomatik rejimdə işləyən prinsipcə yeni maşın və maşın sistemlərin hazırlanmsaı və geniş istifadəsi;

– keyfiyyətcə yeni istehsal texnologiyalarının yaradılması və inkişafı;

– yeni növ enerji mənbələrinin kəşfi və istifadəsi;

– əvvəlcədən təyin edilmiş xassələri olan yeni növ materialların yaradılması və geniş istifadəsi;

– ədədi proqram idarəetmə ilə dəzgahların, avtomatik xətlərin, sənaye robotlarının, çevik istehsal sistemlərinin istifadəsi əsasında istehsal proseslərinin avtomatlaşdırılmasının geniş inkişafı;

– əməyin və istehsalın təşkilinin yeni formalarının tətbiqi.

Müasir mərhələdə elmi-texniki tərəqqinin aşağıdakı xüsusiyyətləri müşahidə olunur [1, s. 98]:

1. Elmi-texniki tərəqqinin texnoloji yönümlüyünün, onun texnoloji komponentinin artması müşahidə olunur. Mütərəqqi texnologiyalar indi həm tətbiq miqyasına, həm də nəticələrinə görə elmi-texniki tərəqqinin əsas həlqəsidir.

2. Elmi-texniki tərəqqinin intensivləşməsi müşahidə olunur: elmi biliklərin həcmi artır, elmi kadrlar heyyətinin keyfiyyəti yaxşılaşır, onun həyata keçirilməsi xərclərinin səmərəliliyi, ETT tətbirlərin nəticəliliyi artır.

3. İndiki mərhələdə elmi-texniki tərəqqi getdikcə daha mürəkkəb, sistemli xarakter alır. Bu ilk növbədə onunla ifadə olunur ki, elmi-texniki tərəqqi indi iqtisadiyyatın bütün sahələrini, o cümlədən xidmət sahəsini əhatə edir. İctimai istehsalın bütün elementlərinə: maddi-texniki bazaya, istehsalın təşkili prosesinə, kadr hazırlığı prosesinə və idarəetmənin təşkilnə nüfuz edir. Kəmiyyət baxımından komplekslilik həm də elmi-texniki nailiyyətlərin kütləvi şəkildə tətbiqində özünü göstərir.

4. Elmi-texniki tərəqqinin mühüm qanunauyğunluğu onun resursa qənaət yönümünün gücləndirilməsidir. Elmi-texniki nailiyyətlərin tətbiqi nəticəsində maddi-texniki və əmək resurslarına qənaət edilir və bu elmi-texniki tərəqqinin səmərəliliyinin mühüm meyarıdır.

5. ETT-nin sosial yönümünün artması müşahidə olunur ki, bu da ETT-nin insan həyatının sosial amillərinə (iş, təhsil, həyat şəraiti) artan təsirində özünü göstərir.

6. Ətraf mühitin qorunması üçün elm və texnikanın inkişafında artan tendensiya - elmi-texniki tərəqqinin "ekolojiləşməsi" müşahidə olunur. Bu az tullantılı və tullantısız texnologiyaların işlənib hazırlanması və tətbiqi, təbii resursların kompleks istifadəsi və emalının səmərəli üsullarının tətbiqi, istehsal və istehlak tullantılarının təsərrüfat dövriyyəsinə tam cəlb edilməsidir.

İqtisadiyyatın səmərəli fəaliyyətini təmin etmək üçün vahid dövlət elmi-texniki siyasətini həyata keçirmək lazımdır. Bunun üçün planlaşdırmanın hər bir mərhələsində elm və texnikanın inkişafı üçün prioritet istiqamətlər seçilməlidir.

Elmi-texniki tərəqqinin əsas istiqamətləri elektrikləşdirmə, kompleks mexanikləşdirmə, istehsalın avtomatlaşdırılması və istehsalın kimyəviləşdirilməsidir.

Elektrikləşdirmə elektrik enerjisinin ictimai istehsalda və məişətdə geniş şəkildə istifadəsi prosesidir. O istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması, eləcə də kimyəviləşdirilməsi üçün əsasdır.

İstehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması istehsalın bütün sahələrində əl əməyinin maşın, aparat və alətlər sistemi ilə əvəz edilməsi prosesidir. Bu proses aşağı formalardan yüksək formalara, yəni əl əməyindən qismən, kiçik və kompleks mexanikləşdirməyə və daha sonra mexanikləşdirmənin ən yüksək formasına - avtomatlaşdırmaya keçidlə müşayiət olunur.

İstehsalın kimyəviləşdirilməsi kimyəvi materialların istehsalı və istifadəsi, habelə kimyəvi üsul və proseslərin texnologiyaya tətbiqi prosesidir.

Müasir mərhələdə elmi-texniki tərəqqinin prioritet istiqamətləri aşağıdakılardır [1]:

-biotexnologiya;

- xalq təsərrüfatının elektronlaşdırılması;
- kompleks avtomatlaşdırma;
- nüvə energetikasının sürətləndirilmiş inkişafı;
- yeni materialların yaradılması və tətbiqi;
- prinsipcə yeni texnologiyaların mənimsənilməsi.

ETT aşağıdakı vəzifələri həll etməyə imkan verir:

Birincisi, ETT əmək məhsuldarlığının artırılmasının, istehsal xərclərinin azaldılmasının, istehsalın artırılmasının və məhsulun keyfiyyətinin yaxşılaşdırılmasının əsas vasitəsidir.

İkincisi, ETT nəticəsində iş şəraitini yaxşılaşdıran və istehsal olunan məhsulların əmək tutumunu azaldan yeni səmərəli maşınlar, materiallar, texnoloji proseslər yaradılır.

Üçüncüsü, ETT istehsalın təşkilinə güclü təsir göstərir, istehsalın təmərküzləşməsinin artımını stimullaşdırır, onun ixtisaslaşmasının və kooperasiyasının inkişafını sürətləndirir.

Dördüncüsü, elm və texnikanın tərəqqisi sosial-iqtisadi problemlərin (əhalinin məşğulluğu, əməyin yüngülləşdirilməsi və s.) həllini təmin edir, həm bütövlükdə cəmiyyətin, həm də fərdi olaraq insanların tələbatının daha yaxşı ödənilməsinə xidmət edir.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin həyata keçirilməsinin nəticəsi xalq təsərrüfatının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsidir. Elmi-texniki tərəqqinin səmərəliliyi dedikdə effektin və bu effekti yaradan xərclərin nisbəti başa düşülür. Effekt elmi-texniki tərəqqinin nailiyyətlərinin həyata keçirilməsi nəticəsində əldə edilən müsbət nəticə kimi başa düşülür.

Effekt aşağıdakı kimi ola bilər [2]:

- iqtisadi (məhsulun maya dəyərinin aşağı salınması, mənfəətin, əmək məhsuldarlığının artırılması və s.);

- siyasi (iqtisadi müstəqilliyin təmin edilməsi, müdafiə qabiliyyətinin gücləndirilməsi);
- sosial (iş şəraitinin yaxşılaşdırılması, vətəndaşların maddi və mədəni səviyyəsinin artırılması və s.);
– ekoloji (ətraf mühitin çirklənməsinin azaldılması).

Eyni zamanda effekt, bir qayda olaraq, məhsulun maya dəyərinin azalması nəticəsində mənfəətin artması kimi çıxış edir. Xərclər isə daha yaxşı variantda dəyərin azaldılmasını təmin edən əlavə kapital qoyuluşları kimi çıxış edir. Elmi-texniki tərəqqinin həyata keçirilməsinin sosial və ekoloji nəticələri sosial və ekoloji göstəricilərin müəyyən edilmiş standartlardan kənara çıxma dərəcəsi, habelə ətraf mühitə və sosial sferaya təsirin miqyası ilə müəyyən edilir.

Elmi-texniki tərəqqi kənd təsərrüfatına onun inkişafının maddi, iqtisadi və təşkilati amilləri kimi çıxış edən mühüm sahələri vasitəsilə birbaşa təsir göstərir.

Hər bir ölkənin elmi-texniki potensialı mühüm milli sərvətdir, sənayenin inkişafının, ictimai və elmi həyatın yenilənməsinin əsaslarından biridir. Tədqiqat və təcrübi-konstruktor işlərinin səmərəli təşkili və elmi biliklərdən istifadəsi dövlətlərin və transmilli korporasiyaların yüksək texnologiya bazarlarında uğurunu və bu ölkələrdə iqtisadi artımı təmin edir.

Bununla belə insanlar müasir sivilizasiyanın bütün rahatlıqlarını təbii hesab edirlər, çünki elmi nəticələrin ortaya çıxması və onlara əsaslanan texnoloji nailiyyətlər arasındakı zaman kəsiyi çox vaxt insan ömründən artıq olur. Ona görə də cəmiyyət, əgər gələcəyi düşünürsə, təkcə ani praktiki tələbat ilə müəyyən edilən elmi istiqamətləri təmin etməməlidir.

Ədəbiyyat

1. Лобачева, Е.Н. Научно-технический прогресс. – Москва.: Экзамен, 2004. –192 с.
2. Скляренко, В.К., Прудников, В.М. Экономика предприятия. – Москва.: ИНФРА-М, 2005. – 528 с.

Резюме
Мамедова С. А.
Эффективность научно-технического прогресса для экономики предприятия

В статье рассмотрены основные признаки и особенности научно-технического прогресса, эффективность внедрения новых разработок на предприятии, а также приоритетные направления развития научно-технического прогресса. Выявлено что, организация научно-исследовательских и опытно-конструкторских работ и использование научных знаний обеспечивают успех государств и транснациональных корпораций на рынках высоких технологий, экономический рост в этих странах.

Ключевые слова: *научно-технический прогресс, экономика, предприятие, автоматизация, производство*

Summary
Mammadova S. A.
Efficiency of Scientific and Technical Progress for the Economy of the Enterprise

The article considers the main signs and features of scientific and technological progress, the effectiveness of the introduction of new developments at the enterprise, as well as priority areas for the development of scientific and technological progress. It was revealed that the organization of research and development work and the use of scientific knowledge ensure the success of states and transnational corporations in the high-tech markets, economic growth in these countries.

Key words: *scientific and technological progress, economics, enterprise, automation, production*

MÜƏSSİSƏLƏRİN STRATEJİ PLANLAŞDIRILMASINDA DİVERSİFİKASİYA SİYASƏTİNİN ROLU

Məmmədova Şəlalə Rəhim qızı
Sumqayıt Dövlət Universiteti
memmedovashelale@mail.ru

Xülasə: *Müasir bazar iqtisadiyyatı şəraitində müəssisələrin üzləşdiyi problemlərin əksəriyyəti xarici mühitlə ünsiyyətdən qaynaqlanır. Buna görə də müasir müəssisənin səmərəli idarə olunmasında şaxələndirmə strategiyasına üstünlük verilir. Bazar institutlarının təkmilləşdirildiyi indiki mərhələdə əksər müəssisələrin daha adekvat diversifikasiya strategiyası var. Şirkətin diversifikasiya strategiyası dörd ayrı səviyyədə formalaşır. Birinci səviyyədə müəssisənin strategiyası və onun fəaliyyəti hazırlanır. İkinci*

səviyyədə müəssisəni şaxələndirən hər bir biznes növü üçün ayrıca strategiya hazırlanır. Bunu biznes strategiyası adlandırmaq olar. Üçüncü səviyyədə funksional strategiya hazırlanır. Burada biznes daxilində hər bir funksional xidmət - istehsal, marketinq, maliyyə və s. inklüziv strategiya hazırlayır. Dördüncü səviyyədə əsas iş bölmələrinin əməliyyat strategiyası formalaşır.

Açar sözlər: *diversifikasiya, strategiya, rəqabət mühiti, biznes qərarları, müxtəliflik, risklər, bazar infrastrukturu*

Strateji planlaşdırma idarəetmənin əsas funksiyalarından biridir, o cümlədən konkret məqsəd qoymaq və ona nail olmaq yollarını hazırlamaq, idarəetmə qərarlarının qəbulu üçün əsasdır və rəqabət mühitində inkişaf perspektivlərinə nəzər salmaqdır.

Bu baxımdan, müəssisələrin istehsal etdiyi məhsulların çeşidinin genişləndirilməsi, növünün dəyişdirilməsi, səmərəliliyin artırılması məqsədilə yeni sənaye sahələrinin inkişaf etdirilməsi, iflas zamanı iqtisadi səmərələrin əldə edilməsi, itki riskinin azaldılması və iqtisadiyyata yönəldilmiş pul vəsaitlərinin bölüşdürülməsi, yaxud müxtəlif qurumlar arasında yüksək gəlir əldə etmək istiqamətində kreditlər strateji planlaşdırmada diversifikasiya konsepsiyası mühüm əhəmiyyət kəsb edir.

Başqa bir yanaşmada diversifikasiya riski azaltmaq və ya müəssisənin istehsal etdiyi məhsulların çeşidini genişləndirmək, yeni istehsal müəssisələri yaratmaq və iflasın qarşısını almaq üçün müxtəlif obyektlər arasında kapital və investisiyaların bölüşdürülməsi yollarından biri kimi xarakterizə olunur.

Qeyd etmək lazımdır ki, müxtəlif fəaliyyət növü olan müəssisələrdə diversifikasiya strategiyasının iyerarxiyası cəmi üç səviyyəyə malikdir - biznes strategiyası, funksional strategiya və əməliyyat strategiyası.

Əksər istehsalçılar üçün inkişafın daxili formasına üstünlük verən ixtisaslaşmaya və ya dominantlığa əsaslanan diversifikasiya strategiyası əsaslandırılır. Diversifikasiya rəqabətlə mübarizənin bir yoludur.

Diversifikasiya strategiyası firmanı cari məhsul və xidmətlərin istehsalından kənar əlavə fəaliyyətlərə istiqamətləndirir [1, s. 119].

Şaxələndirmə strategiyasını hazırlayarkən aşağıdakı meyarlara üstünlük verilir:

- sənayenin cari və gələcək cəlbediciliyi;
- şirkətin dəyərinin hesablanması;
- sinergetik effekt əldə etmək.

Diversifikasiyanın üstünlüklərinə aşağıdakılar daxildir:

• satış bazarlarının genişləndirilməsi;
• sərbəst resursların gəlirli formada yenidən bölüşdürülməsi;
• iflas riskinin azaldılması;
• çeviklik və uyğunlaşma səviyyəsinin artırılması;
• müəssisənin mövcud istehsal güclərindən tam istifadə edilməsi;

Şaxələndirmə strategiyasının işlənib hazırlanması zərurəti müəssisə üçün güclü rəqiblərin olması, mallara tələbatın azalması və mənfəətin azalması şəraitində yaranır.

Belə bir strategiyanın mərkəzində müəssisənin fəaliyyətinin dəyişdirilməsi ideyası dayanır: məhsullar, paylama kanalları, fəaliyyət sahələri və şirkətin yerdəki mövqeyi. Şirkət diversifikasiya etdikdə vergi planlaması da nəzərdən keçirilməlidir. Müvafiq qanunvericilikdə nəzərdə tutulmuş vergi rejimləri əsasında vergi ödəyicisinin vergi öhdəliklərinin optimallaşdırılmasına əsaslanır. Müəssisədə diversifikasiya strategiyasını həyata keçirərkən bu istiqamətdə mümkün riskləri əvvəlcədən hesablamaq lazımdır. Belə risklər ən çox diversifikasiya prosesinin nəticələri ilə bağlı xarici iqtisadi fəaliyyətin genişləndirilməsi zamanı yaranır [2, s. 35].

Ona görə də müəssisənin şaxələndirilməsi ölkə hüdudlarından kənara çıxanda qarşı tərəfin mövcud vergi qanunvericiliyini öyrənmək lazımdır. Bütün bu zəruri məlumatlar əsasında müəssisədə aktivlərin səmərəli yerləşdirilməsi və digər istehsal və maliyyə axınları ilə əlaqədar vergilərin optimallaşdırılması üçün ayrıca strategiya müəyyən edilir. Vergi planlaşdırmasında müəssisənin uçot siyasəti də mühüm əhəmiyyət kəsb edir. Burada istehsalın yenilənməsi üçün məqbul olan optimal amortizasiya taktikası seçilir və rentabellik baxımından hər bir istehsal amilinin müvafiq vergi yükü hesablanır.

Digər tərəfdən, qeyd etmək lazımdır ki, şirkətin diversifikasiya strategiyası iqtisadi artımla müşayiət olunduğundan, onun ölkənin və regionun inkişafına təsiri də vacibdir. Belə ki, şirkətin diversifikasiya strategiyası maksimum mənfəət əldə etməyə xidmət etdiyi üçün büdcə gəlirlərinin artmasına da təsir edir. Bu proses, şübhəsiz ki, müəssisələrdə vergi ödənişlərinin həcminin artması ilə müşayiət olunur. Təbii ki, bu fərq ofşor zonada qeydiyyatdan keçmiş müəssisələr üçün görünməsə də, əksər müəssisələrdə diversifikasiya effekti vergitutma bazasının genişlənməsinə gətirib çıxarır [3, s. 253].

Bu sahədə ən böyük genişlənmə gəlir vergisi ilə bağlıdır. Beləliklə, strategiyanın həyata keçirilməsi nəticəsində diversifikasiya ilə vergi bazası arasında mütənasib əlaqə yaranır. Daha dəqiq desək,

diversifikasiya effekti nə qədər çox olarsa, büdcənin müvafiq gəlirləri də bir o qədər çoxalır. Odur ki, mülkiyyət formasından asılı olmayaraq, dövlət, regional və yerli özünüidarəetmə orqanları müəssisədə diversifikasiyanın genişləndirilməsində maraqlı olmalı və mümkün olduqda, öz tənzimləyici və həvəsləndirici resursları ilə prosesin tərəqqisinə töhfə verməlidirlər.

Ədəbiyyat

1. İsmayılov S.F. Müəssisənin diversifikasiya strategiyası. // Azərbaycanın Vergi Xəbərləri. №6. Bakı, 2011, s. 61-72.
2. . Əliyev T.N., Həsənov Ə.H. Rəqabət qabiliyyətli sənayedə sahibkarlığın inkişafı. Bakı ; 2013, Avropa, 76 s.
3. Уткин , Э.А. Стратегическое планирование. Mockba : ЭКМОС, 2007, 350 с.

Резюме

Мамедова Ш.Р.

Роль политики диверсификации в стратегическом планировании предприятий

Большинство проблем, с которыми сталкиваются предприятия в условиях современной рыночной экономики, вызваны коммуникацией с внешней средой. Поэтому в эффективном управлении современным предприятием предпочтение отдается стратегии диверсификации. На современном этапе, когда совершенствуются рыночные институты, у большинства предприятий более адекватная стратегия диверсификации. Стратегия диверсификации компании формируется на четырех разных уровнях. На первом уровне подготавливается стратегия компании и ее деятельность. На втором уровне разрабатывается отдельная стратегия для каждого вида бизнеса, диверсифицирующего предприятие. Это можно назвать бизнес-стратегией. На третьем уровне разрабатывается функциональная стратегия. Здесь каждая функциональная служба в рамках бизнеса — производство, маркетинг, финансы и т. д. разрабатывает инклюзивную стратегию. На четвертом уровне формируется операционная стратегия основных бизнес-единиц.

Ключевые слова: *диверсификация, стратегия, конкурентная среда, бизнес-решения, разнообразие, риски, рыночная инфраструктура*

Summary

Mammadova Sh.R.

The Role of Diversification Policy in Strategic Planning of Enterprises

Most of the problems that enterprises face in a modern market economy are caused by communication with the external environment. Therefore, in the effective management of a modern enterprise, preference is given to a diversification strategy. At the present stage, when market institutions are being improved, most enterprises have a more adequate diversification strategy. The company's diversification strategy is formed at four different levels. At the first level, the company's strategy and activities are prepared. At the second level, a separate strategy is developed for each type of business that diversifies the enterprise. You can call it a business strategy. At the third level, a functional strategy is developed. Here, each functional function within the business - production, marketing, finance, etc. - develops an inclusive strategy. At the fourth level, the operational strategy of the main business units is formed.

Key words: *diversification, strategy, competitive environment, business solutions, diversity, risks, market infrastructure*

HOLŞTİNLƏŞMƏ ZAMANI QARA - ALA CİNSLİ QARAMALIN BİOLOJİ VƏ TƏSƏRRÜFAT XÜSUSİYYƏTLƏRİ

Mirzəyev Vüsal Adil oğlu

Azərbaycan Dövlət Aqrar Universiteti

vs.mirzayev@gmail.com

Xülasə: *İribuynuzlu heyvanların məhsuldar uzunömürlülüyü seleksiya prosesi ilə bağlıdır və son illərdə buna daha çox diqqət yetirilir. Məhsuldar uzunömürlülüyün bütün ölkə təsərrüfatları üzrə aşağı düşməsi müşahidə olunur. İnəklər genetik cəhətdən proqramlaşdırılmış məhsuldarlıq potensialını maksimal dərəcədə reallaşdıracaq yaşa qədər sağ qalmırlar.*

Açar sözlər: *cins, buğa, süd, yağ, məhsuldar uzunömürlülük, laktasiya*

İribuynuzlu heyvanların məhsuldar uzunömürlülüyü seleksiya prosesi ilə bağlıdır və son illərdə buna daha çox diqqət yetirilir. Məhsuldar uzunömürlülüyün bütün ölkə təsərrüfatları üzrə aşağı düşməsi müşahidə olunur. İnəklər genetik cəhətdən proqramlaşdırılmış məhsuldarlıq potensialını maksimum dərəcədə reallaşdıracaq yaşa qədər sağ qalmırlar [1].

İnəklərdən davamlı istifadə seleksiya-damazlıq işlərinin daha yüksək səviyyədə aparılmasına imkan verir. Yüksək məhsuldarlıqlı heyvanlardan uzun müddətli istifadə naxırın keyfiyyətinin yaxşılaşmasına (seleksiya difersiallığının artması hesabına) müsbət təsir göstərir və naxırda uzun müddət istifadə olunan rekordçu inəklər bədən quruluşunun möhkəmliyinin və xəstəliklərə davamlılığın qiymətləndirilməsinin ən etibarlı meyarı hesab olunur. Bundan əlavə, heyvanların təkcə məhsuldarlığına, xarici görünüşünə, mənşəyinə görə yox, həm də balavermə üzrə qiymətləndirilməsinə imkan verir [2,4].

Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunda Qara - ala cinsinin formalaşması 4 mərhələdə aparılmışdır. Birinci mərhələ "ASK Heyvandarlıq" MMC – nin heyvandarlıq təsərrüfatının bazasında baş vermişdir. 2007 – cı ilində bura Hollandiyadan Ost-friz cinsindən olan 80 baş inək, 700 düyə, 2500 doza törədici buğa toxumu gətirilmişdir. Bunun da 1120 dozası digər təsərrüfatlara paylanmışdır.

Ost-friz cinsi təsərrüfatda təmizqanlı cins naxırının yaranmasının əsasını qoymuşdur. 2008 – ci ildə təsərrüfata Hollandiyaadan əlavə olaraq Barbarossa və Beerbum buğalarının toxumları gətirilmişdir. Bunlar əvvəl gətirilmiş Capone, Carenzo, Dynamic P, Bonum ilə birlikdə nəslin əcdadlarına çevrildilər.

"ASK Heyvandarlıq" təsərrüfatının seleksiya xətlərinin törədicilərini Şəki – Zaqatala, Dağlıq Şirvan iqtisadi rayonunda və ölkənin digər təsərrüfatlarında mayalama şəbəkələrində geniş istifadə edilmişdir. Onların köməyi ilə Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunun təsərrüfatlarında yerli yaxşılaşdırılmış qaramalın diri çəkisinin artması və heyvanların eksteryerlərinin yaxşılaşması məqsədilə təsərrüfatlarda olan heyvanların mayalandıılması aparılmışdır.

Yaradılmış Ost - friz mənşəli Qara - ala cinsli mal yüksək məhsuldarlığı ilə seçilirdi. İnəklərin südünün yağlılığı 3,6 % - dən aşağı olmasına baxmayaraq, laktasiyada sağım 6500 kq təşkil edirdi.

Qara-ala cinsinin formalaşdırılmasının 2 – ci mərhələsi 2013 - cü ildə südün yağlılığının artırılması məqsədilə "ASK Heyvandarlıq" MMC – nin heyvandarlıq təsərrüfatında 4 buğa toxumundan istifadə olunmuşdur. Bu buğalar naxırda genetik dəyişkənliyə səbəb olsalar da, gözlənilən nəticə əldə olunmamışdır.

Həmin dövrdə bir sıra səbəblərə görə və leykoza daha çox meyllənmə nəzərə alınaraq təsərrüfatdan Bonum, Carenzo və Capone çıxarılmışdır.

Qara - ala cinsli qaramalın formalaşdırılmasının 3 – cü mərhələsi iqtisadi rayona uyğun təmizqanlı cins buğaların toxumlarının və Holland cinsindən olan düyələrin gətirilməsi səbəb olmuşdur. Çoxlu sayda heyvanlar geniş yayılmış Rafting və Harvest xətlərinə mənsub idilər. Holland nəsillərin genefondunun istifadəsi Qara - ala cinsli malın südünün yağlılığını artırmağa imkan vermişdir. Eləcə də, məhsuldarlığın genotipik dəyişməsinə səbəb olmuş və sonradan səmərəli seçim üçün əlverişli ilk şəraitlərin yaradılmasına təkan vermişdir. 2018 - ci ildən başlayaraq "ASK Heyvandarlıq" MMC - nin heyvandarlıq təsərrüfatında südün yağlılığı 3,8 % -dən çox olmaqla 5200 mq təşkil etmişdir. Həmin illərdə "Gilan Dairy Farms" MMC – nin heyvandarlıq təsərrüfatı Qara - ala cins üzrə damazlıq təsərrüfatı olaraq rəsmi təsdiq edilmişdir. Bu damazlıq təsərrüfatları təkcə rayonun deyil, həm də regionlarda Qara - ala cinsli heyvanların yaxşılaşdırılmasına təsir göstərmişdir.

Ancaq Holland heyvanlarının genefondunun istifadəsi müsbət təsirlərlə bərabər neqativ nəticələrə də gətirib çıxarmışdır. Heyvanların bir qismi qarışıq məhsuldarlıq istiqamətinə yönəlmiş və yelinin texnoloji xüsusiyyətləri nisbətən zəif olmuşdur [3].

Bununla əlaqədar olaraq südlüyün artırılması, bədən quruluşunun yaxşılaşdırılması, inəklərin yelininin texnoloji xüsusiyyətlərinin yaxşılaşdırılması zəruriliyi yaranmışdır. 4 - cü mərhələdə Holştin heyvanlarının genefondundan istifadə olunmuşdur. Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonuna Almaniya, İsrail, ABŞ və Kanada seleksiyasının Holştin heyvanları, eləcə də, müxtəlif qan qohumları olan holştinləşmiş Qara - ala cins törədicilərinin toxumları, Holştin cinsindən olan 400 düyə (Almaniya seleksiyası) gətirilmişdir.

Beləliklə müasir Qara - ala cinsli heyvanlarda cinsin yüksək əlamətləri cəmlənmişdir. Fermerlərin mqsədyönlü damazlıq işləri isə Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunda yüksək genetik potensiala malik yeni Qara - ala populyasiyasının alınmasına dəstək vermişdir.

Südlük məhsuldarlıq istiqamətində iribuynuzlu qaramalın Qara – ala və Simmental mədəni cinsləri yetişdirilir. Qara-ala cinsli heyvanların populyasiyası çoxluq təşkil edir. Hal-hazırda mövcud olan Qara-ala cinsli heyvanların genetik - bioloji xüsusiyyətləri çox müxtəlifdir. Onlar təsərrüafatda olan yerli Qara-ala və Holştinləşmiş heyvanlarda müşahidə olunur (Cədvəl 1).

Cədvəl 1

Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunda Qara-ala cinsli iribuynuzlu heyvanların şəcərə qrupları üzrə say dinamikası

İllər	Qara - ala cinsin sayı, baş	Müxtəlif mənşəli buğaların nəsil nisbətinin xüsusi çəkisi			
		Qara – ala		Holştinləşmiş	
		Baş	%	Baş	%
2013	12400	10478	84,5	1922	15,5
2015	11000	9031	82,1	1969	17,9
2017	9561	7496	78,4	2065	21,6
2019	9348	6450	69,0	2898	31,0
2021	7897	3490	44,2	4407	45,8

Cədvəl 1 - dən görünür ki, Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunun Qara - ala cinsli heyvanlarının şəcərə üzrə say dinamikasından aydın olur ki, 2013 – ci ildən 2021 – ci ilə qədər Holştin törədicilərinin toxumu ilə mayalanmadan alınan balaların xüsusi çəkisi 15, % - dən 45,8 % - dək yüksəlmişdir. Eyni zamanda Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunda olan Qara – ala cinsli heyvanlarda mayalanmadan alınan balaların xüsusi çəkisinin 84,5 % - dən 44,2 % - dək azaldığı müşahidə olunmuşdur.

Heyvanların genetik potensialının artırılmasının və onun realizəsinin ən vacib şərti yüksək dəyərli törədici buğa toxumlarının seçimi və intensiv istifadəsidir (Cədvəl 2).

Cədvəl 2

Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunun damazlıq təsərrüfatlarında törədici buğaların qara-ala cinsli heyvanların qohumluq mənsubiyyətinə görə bölgüsü

İllər	Qara – ala cinsli bütün buğa toxumu, doza	O cümlədən valideyn cinslər			
		Qara – ala cinsi		Holştinləşmiş	
		Baş	%	Baş	%
2013	7750	6727	86,8	1023	13,2
2015	5250	4179	79,6	1071	20,4
2017	2000	1460	73,0	540	27,0
2019	3250	2249	69,2	1001	30,8
2021	4375	2415	55,2	1960	44,8

Cədvəl 2 - dən görünür ki, təhlil olunan dövr ərzində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Xüsusilə də, Holştin nəslindən olan buğaların 13,2 % - dən 44,8 % - dək çoxalması və eyni vaxtda Qara-ala cinsli törədici buğaların toxumundan istiafdə 2013 - cü ildən 86,8 % - dən 2021 - ci ilədək 55,2 % azalması müşahidə olunmuşdur.

Törədici buğaların damazlıq istiqamətində istifadəsi ana heyvanların məhsuldarlığının hər il artmasına səbəb olmuşdur (Cədvəl 3). Belə ki, 2013 - cü ildən 2021 - ci ilədək birinci laktasiya üzrə sağım 1325 kq, tam yaş dövrü üzrə 3835 kq, orta hesabla bütün laktasiya üzrə 3534 kq artmışdır.

Cədvəl 3

Şəki – Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunun 305 laktasiya günü ərzində Qara-ala cinsli inəklərin məhsuldarlıq dinamikası

İllər	1 – ci laktasiya			3 – cü laktasiya			Orta hesabla bütün laktasiyalar üzrə		
	İnək sayı, baş	Sağım, kq	Yağ,%	İnək sayı, baş	Sağım, kq	Yağ, %	İnək sayı, baş	Sağım, kq	Yağ, %
2013	1145	4930	3,60	3130	5508	3,58	6324	5493	3,53
2015	1382	5290	3,59	3025	5771	3,57	5907	5713	3,57
2017	1109	5047	3,67	2072	5628	3,63	4136	5445	3,65

2019	988	6255	3,68	2117	6919	3,66	4010	6709	3,67
2021	504	8310	3,70	936	9343	3,70	1887	9027	3,70

İnəklərin ümumi məhsuldarlıq səviyyəsi artdıqca laktasiyada südü 7000 kq və daha çox olan inəklərin sayı da artmışdır (Cədvəl 4).

Cədvəl 4

Təsərrüfatda süd məhsuldarlığına görə inəklərin xüsusi çəkisi

İllər	Göstəricilər, (kq, %)							
	7000 - ə qədər	7001-7500	7501-8000	8001-8500	8501-9000	9001-9501	9501-9000	9000 – dən yuxarı
2013	80,2	8,1	6,3	2,4	1,1	1,0	0,6	0,3
2015	79,5	7,1	6,5	2,5	1,6	1,3	0,8	0,7
2017	81,5	6,3	4,8	2,8	1,8	1,1	0,9	0,8
2019	62,6	9,4	6,9	5,5	3,5	3,0	3,4	5,7
2021	28,9	11,5	12,6	10,1	9,1	7,9	5,9	14,0

Cədvəl 5 - dən görünür ki, 2013 - cü ildə laktasiya üzrə süd sağımı 9000 kq olan heyvanlar təsərrüfatın 0,3 % - ni təşkil etmişdirsə, 2021 - ci ildə 14,0 % - ə çatmışdır. Laktasiya dövründə sağım səviyyəsinə görə Qara – ala cinsli inəklərin paylanması 14,0 % olmuşdur.

Uyğun olaraq 7000 kq süd verən heyvanların xüsusi çəkisində 80,2 % - dən 28,9 % - ə qədər, yəni 2,7 dəfə azalma baş vermişdir.

Ümumilikdə, inəklərin sağım səviyyəsi artdıqca, süddə yağın kütlə payı da artmışdır. Süddə yağın kütlə payı 4 % və daha çox olan inəklərin sayı 11,4 % - dən 13,6 % - ə qədər artmışdır. Bununla da südünün yağlılığı 3,19 % olan heyvanları sayı 3,3 % - dən 1,6 % - ə qədər azalmışdır.

Südlük heyvanların möhkəm bədən quruluşu olmalıdır. İnəklər intensiv südvermə qabiliyyətinə malik olmalı, südləri özündə yüksək süd və zülal göstəricilərini birləşdirməlidir. Kərə yağı və pendir hazırlamaq üçün keyfiyyətini qoruyub saxlamalıdır. Heyvanlar yüksək məhsuldar uzunömürlülüklə fərqlənməli və intensiv bəslənmə texnologiyalarına uyğunlaşmış olmalıdır.

Ədəbiyyat

1. Abdullayev Q.Q., Mirzəyev V.A. İntensiv və ekstensiv maldarlıq / Bakı: Ecoprint, -2022, -248 s.
2. Abbasov S.A, Abbasov R.T. Respublikanın zonalarında törədicilərin qiymətləndirilməsinin əhəmiyyəti // AMEA Gəncə Regional Elmi Mərkəz, Xəbərlər Məcmuəsi, № 73. Gəncə: -2018, -s. 157...163
3. Mirzəyev V.A. Mədəni qaramal cinsinin və onun məlezlərinin yerli mühitə rayonlaşdırılması və göstəricilərinin təkmilləşdirilməsi // Azərbaycan Aqrar Elmi, № 4. Bakı: -2012, -s. 16...117
4. Mirzəyev V.A. Müxtəlif tip südlük qaramalın bədən quruluşunun qiymətləndirilməsi // Azərbaycan Texnologiya Universiteti, Elmi Xəbərlər, № 1. Gəncə: -2022, -s. 129...134

Резюме

Мирзоев В.А.

Биологические и хозяйственные особенности черно-пестрого скота при голштинизации

Продуктивное долголетие крупного рогатого скота связано с племенным процессом, которому в последние годы уделяется все больше внимания. Снижение продуктивного долголетия наблюдается во всех крестьянских хозяйствах. Коровы не доживают до возраста, в котором они максимизируют свой генетически запрограммированный потенциал фертильности.

Непрерывное использование коров позволяет вести селекционно-племенную работу на более высоком уровне. Длительное использование высокопродуктивных животных положительно влияет на улучшение качества стойла (за счет повышения селекционного дифференциала), а рекордные коровы, длительное время находящиеся в стойле, считаются наиболее надежными критериями оценка прочности по строению тела и устойчивости к заболеваниям. Кроме того, он позволяет оценивать животных не только по их продуктивности, внешнему виду, происхождению, но и по отелам.

Ключевые слова: *порода, бык, молоко, масло, продуктивное долголетие, лактация*

Summary

Mirzayev V.A.

Biological and Economic Characteristics of Black - and – White Cattle During Holstinization

The productive longevity of cattle is associated with the breeding process, which has received more and more attention in recent years. A decrease in productive longevity is observed in all peasant farms. Cows do not live to the age at which they maximize their genetically programmed fertility potential.

The continuous use of cows allows for selection and breeding work at a higher level. Long-term use of highly productive animals has a positive effect on improving the quality of the stall (by increasing the selection differential), and record cows that are in the stall for a long time are considered the most reliable criteria for assessing the strength of the body structure and disease resistance. In addition, it allows you to evaluate animals not only by their productivity, appearance, origin, but also by calving.

Key words: *breed, bull, milk, fat, productive longevity, lactation*

POSTKONFLİKT ƏRAZİLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAF PROBLEMLƏRİNİN HƏLLİNDƏ KLASTER İNSTİTUTUNUN ROLU

Musayeva Sevda Fərəc qızı
Sumqayıt Dövlət Universiteti
sevda.musayeva83@gmail.com

Xülasə: *Tezisdə postkonflikt ərazilərdə sosial-iqtisadi inkişaf problemlərinin həllində klaster institutunun roluna baxılır. İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və investisiya-innovasiya layihələrinin reallaşdırılmasında dünya təcrübəsində özünü doğrultmuş iqtisadi mexanizmlərdən biri kimi klasterlərin səmərəliliyi araşdırılmışdır. Klasterlər çoxfunksiyalı iqtisadi mexanizmlər kimi iqtisadi inkişaf problemlərinin həllində məhsuldarlıq nümayiş etdirir və investorların marağına səbəb olur. Azərbaycanda klaster institutunun formalaşdırılması baxımından, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında pilot-layihə kimi klasterlərin yaradılması imkanları genişdir. İşğaldan azad olunmuş əraizlərdə sosial-iqtisadi inkişafın intensivləşdirilməsində klasterlərin rolu üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

Açar sözlər: *postkonflikt ərazilər, klasterlər, sosial-iqtisadi inkişaf problemləri, işğaldan azad olunmuş ərazilər, Qarabağ, Şərqi Zəngəzur.*

Müasir dövrdə qlobal təhdidlərin artdığı bir şəraitdə və qlobal problemlərin çoxaldığı dövrdə Azərbaycan dövlətinin qarşısında kifayət qədər çoxşaxəli vəzifələrin reallaşdırılması nəzərdə tutulmuşdur. Bir tərəfdən qlobal iqlim dəyişiklikləri və qlobal səviyyədə ərzaq təhlükəsizliyi problemlərinin artması, ölkələrarası maliyyə resurslarının və təbii resursların bölüşdürülməsində çətinliklərin çoxalması prosesləri sürətlənməkdədir. Digər tərəfdən, son illərdə dünya səviyyəsində baş verən qlobal problemlərin nəticəsində iqtisadi artım mənbələrinin zəifləməsi diqqət çəkir [4, s. 1**].** Belə bir şəraitdə sosial-iqtisadi inkişafın surətləndirilməsi, onun aktual problemlərinin həll edilməsi kifayət qədər vacibdir. Xüsusilə sosial-iqtisadi inkişafın tarazlığına səbəb ola biləcək amillərin nəzərə alınması, təbii və iqtisadi resurslardan məhsuldar istifadə edilməsi mühüm şərtlərdəndir.

Azərbaycan üçün bu məsələlər daha aktualdır, belə ki, son illərdə Covid-19 pandemiyasının təsirindən milli iqtisadiyyatın bir sıra sahələrində kifayət qədər gerilik baş vermişdir. Turizm sektoru demək olar ki, iflic vəziyyətinə düşmüş, xidmət sektorunda xeyli məhdudiyyətlər səbəbindən son illərdə yığılmış və toplanmış iqtisadi artım sürəti zəifləmiş və eyni zamanda, sosial-iqtisadi inkişafının gücləndirilməsində yeni formalaşdırılmış maliyyə mənbələri, əlavə dəyər mənbələrinin postpandemiya dövründə bərpa edilməsi, daha da surətləndirilməsi tələb olunur. Bunlarla bərabər, Azərbaycanda işğaldan azad edilmiş ərazilərin reabilitasiya olunması, dirçəldilməsi, işğaldan azad olunmuş ərazilərdə infrasturukturun yaradılması və

sosial-iqtisadi inkişafın təmin edilməsi üçün davamlı işlərin görülməsi, kompleks tədbirlərin həyata keçirilməsi vacibdir.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişafın təmin edilməsi hazırda ölkəmiz üçün tarixi və şərəfli bir vəzifə kimi qarşıda durmuşdur. Artıq bu tədbirlərə geniş miqyaslı həcmdə başlanılmışdır. Torpaqlarımızın erməni qəsbkarlardan, işğalçılardan azad olunmasından dərhal sonra konseptual səviyyədə dövlət başçısının tapşırıqlarına və onun dəfələrlə işğaldan azad olunmuş ərazilərə səfər edərək, yerlərdə verdiyi tapşırıqlara əsasən ərazilərimizin bərpa edilməsi, dirçəldilməsi və məcburi köçkünlərin "Böyük köç" qayıdışının təmin edilməsi üçün işlər başlanılmışdır. Burada əsas məqsəd işğaldan azad olunmuş ərazilərin planlı və yüksək texnologiyalar, yəni dünya təcrübəsi səviyyəsində bərpa edilməsi, dirçəldilməsi, sosial-iqtisadi inkişafın daha dayanıqlı özüllər üzərində formalaşdırılması və inkişaf etdirilməsindən ibarətdir.

Məlumdur ki, ərazilərin əvvəlki formatda bərpa edilməsi qeyri-mümkündür. Birincisi əksər ərazilərdə, o cümlədən iri şəhərlərdə – Ağdam və Füzulidə ermənilər daşı daş üstündə qoymamışlar. Bu şəhərlər tamamilə dağıdılmış, ictimai binalar, obyektlər, infrasturuktur şəbəkəsi yerlə-yeksan edilmiş, bütün ərazilər boz və şoran torpaq sahəsinə çevrilmiş, meşə ehtiyatları məhv edilmiş, təbiət, flora, təbii resurslar talan olunmuş, torpaq fondu deqradasiyaya uğradılmışdır. Təsadüfi deyildir ki, xarici ekspertlər və dünyanın hər yerindən işğaldan azad olunmuş ərazilərə səyahət edənlər Ağdamı "ruhlar şəhəri" adlandırırlar və yaxud Ağdamı İkinci Dünya Müharibəsindən sonra – ABŞ tərəfindən atom bombası atılmış Xirosima şəhəri ilə müqayisə edirlər. Füzuli şəhərində isə salamat obyekt və yaxud bina qalmamışdır. Bu baxımdan, ərazilərin dirçəldilməsi və bununla bağlı tədbirlərin görülməsi, böyük maliyyə resursları tələb edir, eyni zamanda müasir yanaşmaları, müasir iqtisadi mexanizmləri, daha səmərəli iqtisadi, yəni investorlar üçün maraqlı olan iqtisadi mexanizmləri tələb edir. Hazırda işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işlərinin qısaca xarakterini vermək istəsək, bunları qeyd etmək olar: 1) İşğaldan azad olunmuş ərazilərdə konseptual yanaşmalar dövlət başçısı tərəfindən formalaşdırılmış və demək olar ki, bu istiqamətdə artıq əsas fəaliyyət növləri və trendləri müəyyənləşdirilmişdir; 2) İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi ilk növbədə dövlət büdcəsindən maliyyələşdirilir. Amma, gələcəkdə, yəni perspektivdə alternativ maliyyə mənbələrinin formalaşdırılması və xarici investisyaların cəlb edilməsi perspektivləri qalmaqdadır; 3) Postkonflikt ərazilərin dirçəldilməsində və sosial-iqtisadi inkişafın təmin edilməsində dünya təcrübəsindən istifadə etməklə, yeni yanaşmalar, müasir texnologiyaların – "ağıllı texnologiya"ların tətbiqinə üstünlük verilir; 4) Bu məqsədlə hazırda pilot lahiyələr həyata keçirilir və Zəngilan rayonunun 3 Ağalı kəndlərinin bazasında yaradılan Ağalı "ağıllı kənd" pilot lahiyəsi artıq reallaşdırılmışdır. "Böyük köç" qayıdışı da məhz bu "ağıllı kənd" ilə bağlıdır. Kənddə demək olar ki bütün sosial-iqtisadi infrasturuktur yaradılmış, kəndin "ağıllı" texnologiyalar, smart texnologiyalar əsasında idarə olunması, elektrik enerjisi təminatının təşkili, sosial rahatlıq, komfort, kəndin ərazisində dünya texnologiyalarına əsaslanmış infarsturukturun yaradılması artıq həmin kəndə qayıdan məcburi köçkünlərin tam məmnunluğuna cavab vermiş və dünya ekspertlərinin bu sahədə Azərbaycanın gördüyü tədbirlərin yüksək zövqlə aparıldığı qeyd edilir. Ağalı kəndlərində pilot layihənin təşkili və artıq ilk ailələrin kəndə qayıtması yaxın perspektivdə kütləvi şəkildə məcburi köçkünlərin doğma yurdlarına dönmələri üçün ciddi əsaslar yaradır. Hazırda Füzuli rayonunun Dövlətyarlı kəndində, Füzuli şəhərinə bitişik olan bir kənddə yeni "ağıllı kənd" pilot lahiyəsi reallaşdırılmaqdadır.

Bu qeyd olunanlar baxımından, fikrimizcə, sosial infrasturukturun qurulması, sosial təminatın gücləndirilməsi, sosial-iqtisadi inkişafının aktual problemlərin həll olunması istiqamətində ardıcıl addımların atılmasında müasir və dünya iqtisadiyyatında özünü doğrultmuş iqtisadi mexanizmlərdən istifadə olunması məsələləri ciddi şəkildə nəzərə alınmalı və dəyərləndirilməlidir. Dünya təcrübəsində belə yanaşmalardan, mexanizmlərdən biri də klasterlərdir. Klaster institutu iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə daha geniş yayılmışdır [1, s.48]. Texnoliji uklada keçid dövründə innovasiyaların işlənməsində, elmi-texniki yeniliklərin istehsala cəlb olunmasında və tətbiq edilməsində daha səmərəli iqtisadi yanaşmaların formalaşdırılmasında klasterlər çoxfunksiyalı fəaliyyət mexanizmi kimi daha çox tələb olunandır [4, s.61]. Klasterlər adi fəaliyyət məkanı deyildir. Dünya təcrübəsində dövlətlər klasterlərə güzəştlər verməklə bərabər klasterlərin ərazisində potensial investorlar üçün kifayət qədər əlverişli fəaliyyət sahələri yaradırlar [3, s.142].

Azərbaycanda yaxın perspektivdə işğaldan azad olunmuş ərazilərin dirçəldilməsində hazırda görülən işlərin dəfələrlə artacağını proqnozlaşdırmaq olar. Artıq 2023-cü ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, bu ərazilərdə sosial-iqtisadi inkişaf problemlərinin həll olunması, infrasturukturla yanaşı, eyni zamanda digər problemlərin həlli məqsədilə dövlət büdcəsindən 3 milyard manat vəsaitin ayrılması gözlənilir. Bundan əlavə, çoxlu sayda özəl qurumlar artıq işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərmək, bu və ya digər layihəni reallaşdırmaq üçün müraciətlər etməkdədirlər və belə şirkətlərin sayı minə yaxındır. Onlarla xarici şirkətlər, ilk növbədə dost ölkələrdən olan xarici şirkətlər işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərmək, sosial-iqtisadi inkişafının surətləndirilməsinə öz

töhfələrini verməkdədirlər və hazırda infrastruktur layihələrinin icra edilməsində iştirak edirlər. Bütün bunlardan çıxış etməklə, bizə görə işğaldan azad olunmuş ərazilərdə klasterlərin yaradılması perspektivləri ciddi şəkildə baxılmalı və nəzərə alınmalıdır. Bunun üçün bir sıra tədbirlərin görülməsi vacibdir:

– Klaster institutunun formalaşdırılması üçün tələb olunan qanunvericilik bazasının işlənməsi, hazırlanması və təsdiq edilməsi vacibdir;

– Dünya səviyyəsində klaster institutunun inkişaf etdirilməsi təcrübəsinin fundamental şəkildə ölkəmizə gətirilməsi və yaradılması proseslərində milli-iqtisadi inkişaf modelinin xüsusisiyyətlərinin nəzərə alınması vacibdir;

– İşğaldan azad olunmuş ərazilərdə pilot xarakterli klasterin yaradılması prosesinin tezləşdirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir və bu pilot layihənin uğurlu alınması sonrakı mərhələlərdə klasterlərin, xüsusilə regionlarda güclü turizm rekrasiya ehtiyatları olduğunu nəzərə alsaq turizm klasterlərinin yaradılmasından ötrü ciddi əsaslar ola bilər və hesab edirik ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ilk klaster məhz turizm-rekrasiya ehtiyatlarından istifadə edilməsi sahəsində yaradıla bilər;

– Digər tərəfdən, tikinti materiallarının istehsalında və regionda "tikinti bumu"nda tələb olunan tikinti materiallarının istehsalında kompleks yanaşmanı təmin etmək üçün klasterlərin çoxfunksiyalı imkanlarından istifadə etmək daha çox səmərə verə bilərdi.

Bütün bunlar onu deməyə əsas verir ki, yaxın perspektivdə işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişafın sürətləndirilməsində klasterlərin yaradılmasına maraq daha da artacaq və bu istiqamətdə önəmli addımlar atılacaqdır və s.

Ədəbiyyat

1. Əliyev, T.N. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Monoqrafiya. – Bakı: Elm və təhsil, – 2019, –536 s.

2. Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, 19 sentyabr 2018-ci il.

3. Алиев, Ш.Т. Вопросы модернизации и кластеризации промышленных отраслей Азербайджана в современных условиях / Материалы конференции «Макро - и микроэкономика: теория и практика». Караганда, Казахстан, – 02 сентября 2009, – с. 141-143.

4. Innovation Union Scoreboard 2011: The Innovation Union's performance for Research and Innovation. Pro Inno Europe, 2012.- 114 p.

Резюме

Мусаева С.Ф.

Роль института кластера в решении проблем социально-экономического развития на постконфликтных территориях

В тезисах рассмотрена роль института кластера в решении проблем социально-экономического развития на постконфликтных территориях. Исследована эффективность кластеров в качестве продуктивных механизмов по реализации инвестиционно-инновационных проектов, которые необходимы в возрождении освобождённых от армянской оккупаций территорий. В качестве многофункциональных экономических механизмов кластеры представляют большой интерес для потенциальных инвесторов и демонстрируют продуктивность в решении проблем экономического развития страны. Отмечаются перспективы реализации пилотного проекта по созданию кластерного образования во вновь созданном Карабахском и Восточно-Зангезурском экономических районах с целью формирования и развития института кластера в Азербайджане. Подготовлены рекомендации и даны предложения по укреплению политики создания кластеров в интенсификации социально-экономического развития на освобождённых от оккупации землях.

Ключевые слова: *постконфликтные территории, кластеры, проблемы социально-экономического развития, освобождённые от оккупации территории, Карабах, Восточный Зангезур.*

Summary
Musaeva S.F.
The Role of the Cluster Institution in Solving the Problems of Socio-Economic Development in Post-Conflict Territories

The thesis considers the role of the cluster institution in solving the problems of socio-economic development in post-conflict areas. The effectiveness of clusters as productive mechanisms for the implementation of investment and innovation projects, which are necessary in the revival of the territory liberated from Armenian occupation, has been studied. As multifunctional economic mechanisms, clusters are of great interest to potential investors and demonstrate productivity in solving the problems of the country's economic development. The perspectives for the implementation of a pilot project to create a cluster formation in the newly created Karabakh and East Zangezur economic regions are noted in order to form and develop the cluster institution in Azerbaijan. Recommendations are prepared and proposals are made to strengthen the policy of creating clusters in the intensification of socio-economic development in the lands liberated from occupation.

Key words: *post-conflict territories, clusters, problems of socio-economic development, territories liberated from occupation, Karabakh, Eastern Zangezur*

NEFT-QAZ ÇIXARMA MÜƏSSİSƏLƏRİNİN EKOLOJİ-İQTİSADİ DAYANIQLIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ METODİKASI

Nəsibov İsgəndər Musa oğlu
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
musa014@mail.ru

Xülasə: *Məqalədə təkmilləşdirilmiş metodologiyalardan istifadə etməklə neft-qaz çıxarma müəssisələrinin yerləşdiyi ərazilərin ekoloji-iqtisadi vəziyyətinin qiymətləndirilməsinin tədqiqini, ekoloji-iqtisadi siyasətin prioritet istiqamətlərinin müəyyən edilməsini, proqram-hədəf mexanizminin təkmilləşdirməsini, ərazilərin regional səviyyədə inkişaf strategiyalarının müəyyən edilməsini həyata keçirtmək imkanları araşdırılır.*

Açar sözlər: *ekologiya, iqtisadiyyat, dayanıqlılıq, ətraf mühit, Abşeron yarımadası*

Abşeron yarmadasındakı yüksək texnogen yüklərin təsirinin nəticəsində biosferin bütün komponentləri həddindən artıq çirklənməyə məruz qalmışdır. Bakı və Abşeron yarmadasının eko-iqtisadi vəziyyətinin pisləşməsini müəyyən edən əsas amillərdən biri ekoloji təhlükəli neftqazçıxartma sənayesidir. Bunun əsas səbəbləri: Enerji və resurslardan istifadədə intensiv texnologiyaların mövcudlugu; istehsal vəsaitlərinin mənəvi və fiziki köhnəlməsi; səmərəli sutəmizləyici qurğuların olmaması və sair ilə bağlıdır. Bakı və Abşeron yarmadasının son on il ərzində ətraf mühitə mənfi təsirinin miqyasını formalaşdırmaq üçün aparıcı ekoloji amillərin tam siyahısı hələdə mövcud deyil. Hər bir sənaye müəssisəsinin çirklənməsinin səbəbini müəyyən amilləri cədvəl 1-də verilmiş məlumatlar əsında izah etmək olar [4].

Cədvəl 1.

İqtisadi fəaliyyət növləri üzrə istifadə edilməsi (min ton)

Sahənin adı	2013	2014	2015	2016	2017	2018	2019	2020
Ümumi sənaye	269.5	266.0	181.3	184.7	169.7	144.8	133.5	130.8
Elektrik enerjisi sənayesi	39.7	28.6	28.9	37.2	39.2	39.5	31.4	33.1
Mədənçıxarma Sənayesi	5.1	10	10.9	117.7	106	188.9	35.6	124
Emal sənayesi	472.2	407.2	684.5	571.6	608	634.5	615.3	570.0
Su təchizatı, Tullantıların təmizlənməsi və emalı	1.1	1.4	3.9	7.0	2.3	2.5	4.0	0.3

Mənbə: *ARDSK-nin məlumtları əsasında müəllif tərəfindən tərtib edilib.*

Cədvəl 1-dən göründüyü kimi sənaye müəssisələrin illər üzrə ümumi çirklənmədə payı ümumi sənaye üçün 2013-2020-ci illər üzrə 269.5 min tondan -130.8 min tona, elektrik enerjisi üzrə 39.7 min tondan 33.1 min tona, mədən çıxarma sənayesi üzrə 5.1 min tondan – 124 min tona, emal sənayesi üzrə 472.2 min tondan – 570 min tona, su təhcizatı, tullantıların təmizlənməsi və emalı üzrə isə 1.1 min tondan – 0.3 min tona qədər dəyişmişdir. Statik məlumatlardan da göründüyü kimi müsbət dinamika ümumi sənayedə, elektrik

enerjisi sənayesində və su təhcizatı, tullantıların təmizlənməsi və emalı sənayelərində olmüşdur. Mənfi dinamikaya isə mədənçıxarma və emal səayeləri səbəb olmuşdur. Bu səbəbdəndə bu sahələrin ekoloji-iqtisadi dayanıqlılığının tənzimlənməsi vacib məsələlərdəndir.

Müşahidə olunan məlumatlar ətraf mühitin mühafizəsi sisteminin fəaliyyəti və təbii ehtiyatlardan səmərəli istifadənin nəticəsidir, çünki çirklənmə kütləsinin azalması ətraf mühitə istismar olunan sahələrdə istehsal həcminin azalması ilə nəticələnmişdir.

Zəhərli maddələr olan tullantıların formalaşması və yığılması xüsusi narahatlıq doğurur (Cədvəl 2).

Cədvəl 2

Abşeron yarmadasında zəhərli tullantıların formalaşması, min t.

Sahənin adi	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
kimya və neft-kimya sənayesi	11	14	12	63	-	51,8	59,3	-	340,15
tikinti materialları sənayesi	180	149	32	208	-	619,5	53,5	150,6	821,44
Cəmi	191	163	44	272	-	671.3	112.8	150.6	1161.59

***Mənbə**: ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib*

Cədvəl 2-dən də göründüyü kimi 2012-2020 ci illər üzrə kimya və neft-kimya səanyesindən zəhərli tullantıların miqdarı 11 min tondan 340.15 min tona, tikinti materialları sənayesində isə 2012 – 2020 – ci illər arasında 180 min tondan 821.44 min tona qalxmışdır. Cəm olaraq hər iki istehsal sahələri üzrə isə 2012-2020 – ci illər arasında 191 min tondan 1161.59 min ton miqdarında artmışdır. Buda Abşeron yarmadasında zəhərli tullantıların formalaşmasının mənfi dinamikasında təxminən çox böyük artım deməkdir [5].

Aparılan araşdırmalar nəticəsində məlum olurki, sənaye sahələrindən istehsal zamanı yaranan zərərli tullantıların ümumi həcmindən yalnız 36,2% təkrar istifadə edilir və ya istehsalda zərərsizləşdirilir. Tullantıların qalan hissəsi saxlama məntəqələrində, saxlama çənlərində, depozitlərdə, döküntülərdə və digər obyektlərdə yığılır və ətraf mühitə mənfi təsir göstərərək insan həyatına və sağlamlığına qarşı potensial təhlükə mənbəyinə çevrilir. [1]

Ərazinin yol verilə bilən maksimum antropogen yükünün qiymətləndirilməsinin mövcud metodikasının təkmilləşdirilməsini həyata keçirək. Bu məqsədlə Abşeron yarımadasında enerji baxımından maksimal icazə verilən antropogen yükün hesablanması üçün zəruri məlumatlardan istifadə edək (Cədvəl 3).

Cədvəl 3.

Abşeron yarımadasında maksimal icazə verilən antropogen yükün ümumi enerji ekvivalentinin hesablanması üçün ilkin məlumatlar.

№	Göstərici	Təyinat	Ölçü vahidi	Dəyər
1	ərazinin əhalisinin sıxlığı	S	Nəfər/km^2	2200
2	bir ölkənin orta sıxlığı	S_o	Nəfər/km^2	111
3	ümumi günəş radiasiyası	G_r	Kkal\$sm^{2*}$il	135
4	ərazinin sahəsi	S	km^2	2110
5	ərazinin radioaktiv balansı	$Ə_r$	Kkal\$sm^{2*}$il	25
6	illik yağış	y	mm	435
7	Biokütədə quru maddələrin xüsusi istehsalı	$B_{x.i.}$	t\(km^{2*}il)	841,7
8	Hər bir nəfər üçün ev təsərrüfatının enerji istehlakının normativ minimumu	N_e	ş.t.($nəfər^*$il)	1
9	ərazinin ümumi əhalisinin sayı	S	Nəfər	4642097
10	elektrik enerjisi ərazisində istehlak	E	Mln. kVt^*i\il	110428
11	istilik enerjisi	İ	Min Qkal\il	10475
12	Qazın yanması	Q	Min t ş.t.\il	43530
13	(mazut, dizel yanacağı, benzin və s.) yandırılması	J	Min t ş.t.\il	657

***Mənbə:** ARDSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.*

Ərazidə enerji ekvivalentinin hesablaması üçün ümumi yanacaq, yanacaq və yanacağa bərabər enerji istehlakını hesablamaq lazımdır:

$$D=123*E + 143*İ + 10^{3*}(Q + J) \quad (1)$$

$$D=123\cdot 110428+143\cdot 10475+10^3\cdot(43530+657)=59267569\ (t.ş.t.)$$

$$İ_{ed}=1+\frac{0{,}01\cdot 2200\cdot 59267569}{111\cdot 135\cdot 2110}=1{,}4125 \qquad (2)$$

Abşeron yarmadasının ümumi maksimum icazə verilən texnogen yükün ümumi enerji ekvivalenti aşağıdakı kimi hesablanır:

$$\beta=1+1g1{,}4125=1{,}043; \qquad (3)$$

$$W=0{,}01\cdot 435=4.35; \qquad (4)$$

$$E=1{,}043\cdot(72\cdot 25+123\cdot 435+0{,}6\cdot 841{,}7)\cdot 2110-1\cdot 4642097=118180688.3(ş.t) \qquad (5)$$

Ümumi icazə verilən enerji yükünün limiti Abşeron yarımadasinda istehlak olunan enerjinin miqdarı ilə müqayisə edilir.

$$K=\frac{59267569}{118180688.3}=0.5014 \qquad (6)$$

Alınan yük əmsalı ərazidə yaşayan əhali tərəfindən istehlaka icazə verilən enerji yükünün neçə faizini istifadə etdiyini göstərir. Abşeron yarımadasında bu göstərici 50.1 %-ə bərabərdir.

Yuxarıda verilmlş metodikanın bazası əsasında ərazidə antropogen təsirin qiymətləndirilməsi həyata keçirilir. Buna uyğun olaraq hər bir müəyyən edilmiş mühit üçün (hava, su və torpağa) antropogen təsir qiymətləndirilə bilər [3].

Ərazini eko-iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi metodologiyası aşagıdakıları etməyə imkan verir: prioritetli ekoloji problemlərin müəyyən etmək; ərazilərin ekoloji-iqtisadi vəziyyətinə görə fərqləndirilməsi;ərazilərin eko-iqtisadi qiymətləndirilməsi ilə baglı təxirə salınmaz qərarların verilməsi; eko-iqtisadi təhlükəsizliyin idarə edilməsi və zərərləşdirilməsi; yumşaldılması və aradan qaldırılması üçün proqram məqsədli tədbirlərin hazırlanması sahəsində görülən qabaqlayıcı tədbirlər [2].

Ətraf mühitin mühafizəsi səviyyəsinin qiymətləndirilməsi metodikasının üstünlükləri və səmərəliliyi aşağıdakılardır.

1. Ərazidə yerləşən rəhbər orqanların verdiyi dəqiq informasiyanın üstünlüyü, nəzarət və diaqnostika xidmətləri, eləcə də regional informasiya bankları ilə əlaqənin olması.

2. Ekoloji sabitlik səviyyəsini hesablanması üçün metodoloji yanaşma, ekoloji dəyişiklikləri izləmək və bu vəziyyət haqqında məlumat vermək.

3. Metodologiyada istifadə olunan göstəricilər, ətraf mühitin mühafizəsinin əsas keyfiyyət və kəmiyyət xüsusiyyətlərini əks etdirir, həssaslıq, dəqiq qiymətləndirmə, əlçatanlığın olması təqdim olunur. Ekoloji təhlükəsizliyin təklif olunan göstəriciləri ekoloji təhlükəsizliyə dair kartoqrafiya və qrafik , vizual məlumat üçün rahatlığı və kompaktlığı təmin edir.

Neftqazçıxarma prosesində ətraf mühitin çirklənməsi nəticəsində yaranan iqtisadi zərər çirklənmənin baş vermə səbəbindən asılı olaraq faktiki və potensial itkilərin qiymətləndirilməsi kimi başa düşülür.

Ədəbiyyat

1. Polulyakh Yu.G., Adadimova L.Yu., Tverdova I.V. (2015). Analiz riskovix situaciy ustoychivogo razvitiya agrarnogo proizvodstva s ispolzovaniem ekonomiko-matematicheskoy modeli. Nauchnoe obozrenie: teoriya i praktika. №4, 122-127. [in Russian].

2. Tolstonogov A.A. (2015). Ocenka vozdeystviya ekologicheskix riskov na effektivnost deyatelnosti neftyanogo kompleksa. Fundamentalnie issledovaniya. № 2, 100-103 [in Russian].

3. Hüseynov A.G. “İqtisadi amillərin çirklənməyə təsirinin riyazi modellərinin işlənməsi” Azərbaycan Dövlət İnşaat və Memarlıq Universiteti, Tikintinin İqtisadiyyatı və menecment elmi-praktiki Jurnal Bakı 2020. №7 s. 255-266

4. Azərbaycan Respublikasinda ekologiyaya dair milli proqramlarin təsdiq edilməsi haqqinda Azərbaycan Respublikasi Prezidentinin sərəncami 18.02.2009

5. http://stat.gov.az

Резюме

Насибов И.М.

Методика оценки эколого-экономической устойчивости нефтегазодобывающих предприятий

В статье рассматриваются возможности проведения исследования оценки эколого-экономического состояния территорий расположения нефтегазодобывающих предприятий с использованием усовершенствованных методик, определения приоритетных направлений эколого-экономической политики, совершенствования программно-целевого механизма, определения стратегий развития территорий на региональном уровне.

Ключевые слова: *экология, экономика, устойчивость, окружающая среда, Абшеронский полуостров*

Summary
Nasibov I.M.
Methodology for Assessing the Environmental and Economic Sustainability of Oil and Gas Producing Enterprises

The article discusses the possibilities of conducting a study of the assessment of the ecological and economic condition of the territories of the location of oil and gas producing enterprises using improved methods, determining priority directions of ecological and economic policy, improving the program-target mechanism, determining strategies for the development of territories at the regional level.

Key words: *ecology, economy, sustainability, environment, Absheron peninsula*

BİZNES FƏALİYYƏTİNDƏ İNVESTİSİYA LAYİHƏSİ RİSKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ AZALDILMASI

Osmanov İlqar Osman oğlu
Sumqayıt Dövlət Universiteti
ilqarosmanov1975@mail.ru

Abdalova Mətanət Əli qızı
İqtisadiyyat İnstitutu
metanet.abdalova@mail.ru

Xülasə: *məqalədə biznes layihələrin qiymətləndirilməsi zamanı qeyri-müəyyənlik və investisiya risklərinin əsas növləri haqqında məlumat verilmişdir. Biznes fəaliyyəti nəticəsində meydana çıxan risklər qiymətləndirilmiş və onların azaldılması yolları tədqiq edilmişdir. Riskin azaldılmasında sığortanın rolu nəzərdən keçirilmişdir. Risk səviyyəsinin qiymətləndirilməsi matrisi qurulmuş və təhlil edilmişdir.*

Açar sözlər: *investisiya, risk, qiymət, qiymətləndirmə, layihələndirmə, qeyri-müəyyənlik, sığorta, xərc, zərər, istehsal*

Riskin təbiəti obyektiv və subyektiv baxımından nəzərdən keçirilə bilər. Risklərin obyektiv təbiəti risklərin sosial-iqtisadi sistemlərin və bütövlükdə cəmiyyətin fəaliyyətinin və inkişafının obyektiv qanunlarının meydana çıxması ilə ifadə olunur. Riskin subyektiv təbiəti bir şəxs və ya müəyyən bir cəmiyyət tərəfindən onun qavranmasının xüsusiyyətlərində özünü göstərir. Bu qavrayışın xüsusiyyətindən asılı olaraq riskə reaksiya yaranır. Subyektiv fərdi risk qavrayışı onun təhlükəsinin həqiqi dərəcəsindən və nəticələrinin ağırlığından, baş verməsinin əsl səbəblərindən əhəmiyyətli dərəcədə fərqlənə bilər. Nəticə etibarilə, bir insanın riskə reaksiyası tamamilə real vəziyyətə uyğun ola bilməz. Buna görə, obyektiv parametrlərini açıqlamaqla ciddi bir elmi əsasda risk qiymətləndirməsi iqtisadi təhlükəsizlik problemlərinin həllində çox vacibdir.

Riskin qiymətləndirilməsində iştirak edən mütəxəssislərdən tələb olunur:

- layihə haqqında məlumat əldə etmək (məlumat əlçatan və əhatəli olmalıdır);
- düşüncə, yaradıcılıq səviyyəsinə sahib olmalıdır;
- müvafiq bilik dərəcəsinə sahib olmalıdır;
- müəssisənin müəyyən edilmiş hər hansı bir riskini qiymətləndirə bilmək.

Layihələrin qiymətləndirilməsi zamanı qeyri-müəyyənlik və investisiya risklərinin ən mühüm növləri aşağıdakılardır:

- iqtisadi qanunvericilik və cari iqtisadi vəziyyətlə bağlı yaranan qeyri-sabitliklə, investisiya şəraiti və mənfəətin istifadəsi ilə əlaqədar olan risk;
- xarici iqtisadi risk;
- siyasi vəziyyətin qeyri-müəyyənliyi, ölkədə və ya regionda əlverişsiz sosial-iqtisadi dəyişikliklərlə bağlı olan risk;
- texniki-iqtisadi göstəricilərin dinamikası barədə, yeni texnika və texnologiyanın parametrləri haqqında informasiyanın natamam və ya yanlış olması;
- bazar konyunkturasının, qiymətlərin, valyuta məzənnələrinin və s. dəyişməsi;
- təbii iqlim şəraitində qeyri-müəyyənlik, təbii fəlakətlər;

- istehsal-texnoloji risk (qəzalar və avadanlıqların sıradan çıxması və s);
- iştirakçıların məqsəd, maraq və davranışlarında qeyri-müəyyənlik;
- iştirakçı müəssisələrin maliyyə vəziyyəti və işgüzar bacarığı barədə məlumatın natamam və ya yanlış olması [1].

Layihənin reallaşdırılmasının təşkilati-iqtisadi mexanizmləri ilə bağlı olan riskin azaldılmasını təmin edən spesifik elementləri də özündə birləşdirməlidir.

Layihənin dayanıqlığının yoxlanılması üsulundan istifadə zamanı iştirakçılardan hər hansı biri üçün layihənin ən "təhlükəli" bir şəraitdə reallaşdırılmasının ssenarisi hazırlanmalıdır. Hər bir ssenari üzrə müvafiq şəraitdə layihənin tətbiqinin təşkilati-iqtisadi mexanizmlərin fəaliyyəti, səmərəlilik göstəriciləri təhlil edilməlidir. Əgər nəzərdən keçirilən bütün situasiyalarda iştirakçıların maraqları gözlənilirsə, mümkün əlverişsiz nəticələr yaradılmış ehtiyatlar və ya sığorta vəsaitləri hesabına ödənilirsə, layihəni dayanıqlı və səmərəli hesab etmək olar. Layihənin parametrlərinin və hesablamalarda tətbiq edilən iqtisadi normativlərin dəqiqləşdirilməsi, layihə göstəricilərinin gözlənilən göstəricilərlə əvəz edilməsi onun tətbiqinin mümkün qeyri-müəyyənliklərinin nəzərə alınmasını təmin edir. Bu məqsədlə aşağıdakılar yerinə yetirilir [4, s.151]:

- tikinti müddəti mümkün xərclərin həcmindən asılı olaraq uzadılmalıdır;
- layihə təşkilatlarının səhvləri, layihə qərarlarının dəyişdirilməsi və gözlənilməz xərclərlə əlaqədar tikintinin dəyərinin artması nəzərə alınmalıdır;
- ödənişlərin gecikdirilməsi, xammal, material tədarükündə ahəngdarlığın pozulması, avadanlığın sıradan çıxması, işçilər tərəfindən istehsal texnologiyasının gözlənilməməsi, ödənilən və alınan cərimələr və müqavilə öhdəliklərinin pozulması ilə bağlı digər sanksiyalar nəzərə alınmalıdır;
- əgər müəyyən növ investisiya riski ilə bağlı layihə iştirakçılarının sığortası nəzərdə tutulmayıbsa, həmin layihə məsrəflərinin tərkibinə bu cür riskə görə gözlənilən itkilər daxil edilməlidir.

Qeyri-müəyyənliyin formal təsviri metodu ilə investisiya layihələrinin qiymətləndirilməsi aşağıdakı üç mərhələdə aparılır:

- layihənin tətbiqinin bütün mümkün şəraitinin və bu şəraitlə tələb olunan xərclərin, nəticələr və səmərəlilik göstəricilərinin təsvir edilməsi;
- qeyri-müəyyənlik amilləri haqqında ilkin informasiyanın layihənin tətbiqinin ehtimal olunan şərtlərinə çevrilməsi;
- layihənin tətbiqində mümkün qeyri-müəyyənliklər nəzərə alınmaqla layihənin səmərəlilik göstəricilərinin müəyyənləşdirilməsi [3. s.71].

Qeyd edək ki, investisiya layihələrində iştirak edənlərin başlıca məqsədi əsas fəaliyyət ilə müqayisədə qısa müddət ərzində daha çox mənfəət əldə etməkdir. Bu səbəbdən də iştirakçıların hamısı istehsal-istismar mərhələsinədək olan bütün dövr ərzində investisiya layihəsinin səmərəliliyini mütəmadi olaraq təhlil edir. İstehsal-istismar mərhələsi investisiya üzrə layihələndirmənin son mərhələsidir və istehsal gücünün təhvil verilməsini və sifarişçi tərəfindən qəbul edilməsini xarakterizə edir. Maliyyə, maddi və intellektual resurslardan istifadə etmək müqabilində uzunmüddətli dövr ərzində mənfəət əldə etmək arzusu investisiya layihəsi iştirakçıları üçün böyük riskdir.

Aşağıdakı cədvəl vasitəsilə risk anlayışının təbiəti ilə təşkilatın strategiyası arasındakı əlaqənin matrisini təsvir edə bilərik (cədvəl 1).

Cədvəl 1.

Riskin təbiəti ilə biznes strategiyası arasındakı əlaqə matrisii

Risk anlayışı	Strategiya	Strateji məqsəd	Tədbirlər	Cavabdehlər
Təhlükə	Mühafizəkar (ənənəyə sadiqlik, riskdən yayınma)	Resurs bölgüsü ilə mənfi hadisələrin baş vermə ehtima-lını azaltmaq	Risk sığortası tədbir-ləri üçün korporativ qaydalara uyğunluq	Maliyyə nəzarət-çiləri, auditorlar, sığorta menecerləri
Qeyri-müəyyənlik	Orta (hecirləmə, nəticələrə diqqət yetirmə)	Gözləntilərlə real nəticələr arasındakı boşluğu aradan qaldırmaq	Məlumatların təhlili və qiymətləndiril-məsi, ssenarilər və proqnoz sahələri ağacı yaratmaq	Təhlilçilər, xətt menecerləri
Mümkündür	Təcavüzkar (risk artırma iştahı, şir-kətin dəyərini artır-mağa diqqət etmə)	Faydaları artırmaq	Yüksək risk, yüksək gəlir imkanları istifadə	Top menecerlər, iqtisadi menecerlər

Biznes fəaliyyətinin kreditləşməsi riskinin yüksək olması, sövdələşmə xərclərinin çoxluğu ilə əlaqədar kommersiya banklarının sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi məsələsinə ehtiyatla yanaşmağa vadar edir. Bank kreditlərinin sahibkarlıq subyektlərinə çatdırılmasını təmin etmək üçün dövlətin bu sahədə əsaslı iqtisadi siyasət həyata keçirməsi lazımdır. Əks halda sahibkarlıq subyektləri ümumi şərtlərlə bank kreditlərindən istifadə etməkdə maraqlı ola bilməzlər. Bank kreditlərindən səmərəli və geniş istifadəni təmin etmək üçün dövlətin həmin kreditlərin müəyyən hissəsinə təminat verməsi mexanizminin tətbiqinə də diqqət yetirmək lazımdır. Bu zaman sahibkarlıq subyektlərinin maraqlarının nəzərə alınması əsas şərtlərdən biridir. Çünki, bank kreditləri biznes fəaliyyətinin müflisləşmə riskinin azaldılmasının mühüm vasitəsi kimi çıxış edə bilər. Odur ki, biznes fəaliyyətində bank kreditlərindən səmərəli istifadə iqtisadiyyatın qloballaşdığı müasir dövrdə aktual problemlərdən biridir.

Risklərin sıralanması ikiölçülü metrikanın yığılması prosedurundan ibarətdir və risk siyahılarının vahid qaydaya gətirilməsinə əsaslanır. Risklərin sıralanmasının əsas mexanizmi kimi adi bal sistemindən istifadə olunur. Risklərin sıralanması proseduru yekun risk qiymətlərindən başlayır: qiymətləndirmə mərhələsində hər bir riskə qoyulmuş bal əsasında ehtimal və nəticə bir-birinə vurulur və riskin yekun qiyməti (və ya həssaslığı) alınır. Meyarların bir-birinə vurulması, sıralanma zamanı hər bir qiymətin təxminən eyni şəkildə olmasını nəzərdə tutur. Məsələn, X riski aşağıdakı meyarlarla qiymətləndirilmişdir: ehtimal 2 bal, təsir 3 bal. Onda X riskinin yekun qiyməti (və ya həssaslığı) $X = 2 \times 3 = 6$.

Gözlənilən itkilərin səviyyəsini qiymətləndirmək üçün əlavə göstərici – orta çəkili maliyyə qiyməti tətbiq olunur, bu göstərici risk hadisəsinin baş vermə ehtimalının (hesabatda ehtimalın müvafiq qiymətləri tətbiq olunur) və riskin maliyyə qiymətinin (hesabatda riskin maksimal maliyyə qiymətinin pulla ifadəsi tətbiq olunur) bir-birinə vurulması ilə alınır. Məsələn, ehtimal şkalasında orta çəkili qiymətlər ballara uyğun olaraq 0,05-dən 0,8-ə qədər dəyişir. Tutaq ki, X riski aşağıdakı meyarlarla qiymətləndirilir: ehtimal 1 bal (bu da 0,05 orta çəkiyə uyğundur). Təsir isə 30 min ABŞ dolları qiymətləndirilir. Onda riskin orta çəkili qiyməti $X = 0{,}05 \times 30 = 1{,}5$ min ABŞ dolları. Yekun qiymətlərə uyğun olaraq bütün risklər aşağı (əhəmiyyətsiz) risklərdən yüksək (kritik) risklərə qədər sıralanır. Bu sıralanma aşağıdakı cədvələ uyğun şəkildə aparılır [2].

Cədvəl 2

Risk səviyyəsi

Balların orta çəkili qiyməti	Riskin səviyyəsi	Riskin qəbul edilmə səviyyəsinin müəyyən edilməsi
01 – 04	Aşağı (əhəmiyyətsiz risk)	Riskin idarə olunması adi prosedurlara əsasən reallaşdırılır, dövri əsasda diqqətin yetirilməsi tələb olunur, illik yenidən qiymətləndirmə aparılır
05 – 13	Orta risk	Riskin idarə olunması risklər üzrə komitə tərəfindən reallaşdırılır. Onların aradan qaldırılması (azaldılması) üçün real tədbirlər görülür.
14 – 30	Yüksək (kritik) risk	Qəbul olunmaz, ciddi risk; riskin səviyyəsi azalmayanadək şirkətin fəaliyyəti davam edilmir, ali rəhbərlik, təfərrüatlı tədbirlər planından istifadə edərək riskin dərhal aradan qaldırılması (azaldılması) məqsədi ilə müvafiq təcili tədbirlər görülür.

Riskin azaldılmasında sığortanın rolu böyükdür. Sığortanın mahiyyəti müəyyən bir ödəniş üçün riskin başqasına təhvil verilməsidir. Yəni, sığorta iştirakçıları arasında zərərin bölüşdürülməsidir. Sığorta mənfi və bədbəxt hadisələrdən qorunma üçün sosial və şəxsi ehtiyacları ödəyir. Sığortanın üç sahəsi var: fərdi, əmlak və məsuliyyət sığortası. İqtisadi risklərin sığortalanması sistemində əmlak sığortası və məsuliyyət sığortası üstünlük təşkil etmişdir. Əmlak sığortası sığorta münasibətlərinin obyekti müxtəlif əmlak növləri (binalar, avadanlıqlar, nəqliyyat vasitələri, xammal, məhsullar, mal-qara, əkin sahələri və s.) və əmlak maraqları olan sığorta sahəsidir. Çox vaxt əmlak təbii fəlakətlər, qəzalar, yanğınlar, xəstəliklər, oğurluqlar və s. nəticəsində məhv olmaqdan və ya zərərdən sığortalanır. Əmlak maraqları mənfəət və ya gəlir itkisi (mənfəətin itirilməsi), məhsul satıcılarının hesablarında defolt, avadanlıqların işləməməsi, valyuta məzənnələrinin dəyişməsi və s.-dən sığortalanır.

Sığorta şirkətinin daşıdığı riskə nəzarət üzrə xərclər aşağıdakı üç tərkib hissədən yaranır:

1) riskə nəzarət və onun profilaktikası ilə bağlı olan birbaşa xərclər;
2) heç bir halda qabaqcadan görülməsi və qabağının alınması mümkün olmayan qaçılmaz itkilər;
3) inzibati nəzarət xərcləri [3].

Mülkiyyət maraqlarının sığortasının spesifik formalarından biri hedcinqdir. Hedcinq - gələcək valyuta məzənnələrində, mal qiymətlərində, faiz dərəcələrində və s. mənfi dəyişikliklər nəticəsində maliyyə əməliyyatlarının risklərini aradan qaldırmaq və ya məhdudlaşdırmaq üçün tədbirlər sistemidir. Bu cür tədbirlər bunlardır: valyuta mübadiləsi, forvard əməliyyatları, opsionlar və s. Beləliklə, opsionlarla hedcinq, sığorta olunanın müəyyən edilmiş vaxtda müəyyən olunmuş bir valyuta ilə digər bir valyuta almaq və ya satmaq hüququnu təmin edir. Burada opsionun dəyəri mükafatın analoqudur. Bu vəziyyətdə, seçim sahibi, məzənnə dəyişikliyinin onun üçün nə qədər əlverişli olacağından asılı olaraq seçim etmək və ya ondan imtina etmək hüququna malikdir. Bu vəziyyəti, opsionun reallaşdırıldığı anda müqavilə ilə müəyyənləşdirilmiş məzənnə ilə mövcud alış məzənnəsi arasındakı əlaqəni misal göstərmək olar. Gördüyümüz kimi, opsionun reallaşdırılmasından imtina edildiyi təqdirdə opsion sahibinin maksimum zərərləri valyuta riskinin sığortası üçün ödəniş kimi qəbul edilməli olan seçim mükafatının məbləğinə bərabər olacaqdır.

Ümumiyyətlə, risklərin aşkara çıxarılması və qiymətləndirilməsi bir-birilə sıx əlaqədardır. Adətən, təhlil risklərin qiymətləndirilməsindən aşkara çıxarılmasına doğru istiqamətdə müəyyən edilir. Əgər bu proses risklərin qiymətləndirilməsindən risklərin aşkar edilməsinə doğru gedirsə, demək, artıq zərərlər məlumdur və onların səbəblərini aşkar etmək zəruridir. Əksinə, əgər bu proses risklərin aşkar edilməsindən risklərin qiymətləndirilməsinə doğru gedirsə, onda sistemin təhlili əsasında risklər və habelə mümkün ola biləcək nəticələr aşkar edilir.

Ədəbiyyat

1. Kazımlı X.H., Quliyev İ.İ. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi. Baki, İqtisad Universitetinin nəşriyyatı, 2011, 187 s.
2. Рэдхед К. Управление финансовыми рисками. М.: ИНФРА – М, 2015, 234 с.
3. Шевелев А.Е. Риски в бухгалтерском учете. М.: КНОРУС, 2007, 280 с.
4. Черняк В.З. Управление инвестиционными проектами и. ЮНИТИ, 2004, 359 с.

Резюме

Османов И.О., Абдалова М.А.

Оценка и снижение рисков инвестиционных проектов в хозяйственной деятельности

В статье представлена информация об основных видах неопределенности и инвестиционных рисков при оценке бизнес-проектов. Оценены риски, возникающие в результате хозяйственной деятельности, и изучены пути их снижения. Рассмотрена роль страхования в снижении риска. Построена и проанализирована матрица оценки уровня риска.

Ключевые слова: *инвестиции, риск, цена, оценка, дизайн, неопределенность, страхование, стоимость, убыток, производство*

Summary

Osmanov I.O., Abdalova M.A.

Assessment and Reduction of Risks of Investment Projects in Economic Activity

The article provides information on the main types of uncertainty and investment risks in the evaluation of business projects. The risks arising as a result of economic activity are assessed, and ways to reduce them are studied. The role of insurance in risk reduction is considered. A risk assessment matrix has been constructed and analyzed.

Key words: *investment, risk, price, assessment, design, uncertainty, insurance, cost, loss, production*

BİZNES PROSESLƏRİNİN SƏMƏRƏLİLİYİNİN ÖLÇÜLMƏSİ VƏ ARTIRILMASI YOLLARI

Tağıyeva Aidə Valeh qızı
Sumqayıt Dövlət Universiteti
aidatagiyeva02@gmail.com

Xülasə: *Məqalədə biznes proseslərinin mahiyyəti və müəssisələrin fəaliyyətinə təsiri haqqında məlumat verilmişdir. Biznes proseslərinin səmərəliliyinin artırılmasının zəruriliyi əsaslandırılmışdır. Biznes proseslərinin səmərəliliyinin ölçülməsi və artırılması yolları tədqiq edilmişdir. Biznes proseslərinin səmərəliliyini qiymətləndirmək üçün göstəricilər sistemi müəyyənləşdirilmiş, iqtisadi əlavə dəyərin yaradılmasının zəruriliyi əsaslandırılmışdır.*

Açar sözlər: *biznes prosesləri, səmərəlilik, əlavə dəyər, məhsul, müəssisə, maliyyə*

Biznes prosesi müəyyən vaxt çərçivəsi, xüsusi giriş resursları olan və istehlakçılar üçün konkret məhsul və ya xidmət yaratmağa yönəlmiş bir-biri ilə əlaqəli fəaliyyətlər toplusudur. Müasir dövrün əsas tələbi biznes proseslərinin səmərəliliyinin artırılmasıdır. Biznes proseslərinin səmərəliliyi istənilən bir müəssisənin səmərəliliyi məsələlərinin həllində əsas mərhələlərdən biridir.

İdarəetmə texnologiyalarının davamlı inkişafı müəssisə və təşkilatların rəqabətqabiliyyətliliyinə olan tələbləri əsaslı şəkildə yeni səviyyəyə qaldırır və bir çox müəssisələri öz bizneslərinin səmərəliliyini artırmaq üçün innovativ həllər axtarmağa məcbur edir. Müəssisə üçün yeni resurslar və imkanlar açа bilən strateji qərarlardan biri də müəssisə fəaliyyətinin təhlilinə və bu fəaliyyətin idarə edilməsinə proses yanaşmasının tətbiqidir. Odur ki, biznes proseslərini və onların xüsusiyyətlərini öyrənmək zəruridir. Biznes prosesi müştərinin ehtiyac duyduğu məhsulun yaradılması ilə başa çatan bir, bir neçə və ya çoxlu sayda daxili proseslərdir. Biznes prosesinin nəticəsi həmişə müştərinin tələb etdiyi məlumat, xidmət və ya maldır.

Biznes prosesləri əsas və köməkçi (dəstəkləyici) növlərə bölünür. Birincisi, üçüncü tərəf istehlakçıları üçün dəyər formalaşdırmaq, ikincisi, bu dəyəri formalaşdırmaq üçün ən yaxşı şərait yaratmaq məqsədilə həyata keçirilir. Təşkilat çərçivəsində birinciyə məhsulların buraxılması (xidmətlərin göstərilməsi), ikincisinə, istehsalın saxlanması, uçotu, avtomatlaşdırılmış idarəetmə sisteminin formalaşdırılması və s. aid edilə bilər. Əsas biznes prosesləri şirkətin əsas gəlir axını yaradır və biznesin əsasını təşkil edir, köməkçi proseslər isə öz növbəsində əsaslara xidmət edir. Əsas biznes prosesinə misal olaraq satış və istehsal, köməkçi kimi isə işə götürmə və mühasibatlığı göstərmək olar [4, s.792]. Hər bir biznes prosesində müvafiq hüquqlar verilmiş sahibkar, həmçinin biznes prosesi üçün resursları təmin edən provayder və biznes prosesinin məhsulunu alan istehlakçı çıxış edir.

Müəssisənin biznes proseslərinin strukturu sənaye və idarəetmə standartlarına uyğun qurulur, müəssisə yüksək səviyyəli rəhbərləri tərəfindən dəstəklənir və əsas strateji və əməliyyat məqsədlərinə nail olmağa imkan verir. Müəssisənin bazar dəyərini artırmağa yönəlmiş əsas vəzifələrini yerinə yetirməyə imkan verəcək aydın biznes prosesinin idarə edilməsi strategiyasına sahib olmaq lazımdır. Belə strategiya biznes proseslərinin səmərəliliyinin artırılması baxımından əhəmiyyətlidir.

Səmərəlilik, biznes məqsədlərinə nailolma kimi müəyyənləşdirilə bilər. Kommersiya təşkilatları müxtəlif məqsədlər güdə bilər. Bu məqsədlər müxtəlif ola bilər:

a) müvəqqəti əsasda - uzunmüddətli, ortamüddətli və qısamüddətli;

b) funksional əsasda: strateji, taktiki və operativ.

Biznesin əsas məqsədi sahiblərinin sərvətini artırmaqdır. Bu məqsəd biznes mühitinin vəziyyəti nəzərə alınmaqla, yerli məqsədlər sisteminə təfərrüatlı şəkildə çatdırıla bilər ki, bunlar arasında ən çox yayılmışları aşağıdakılardır:

- əsas fəaliyyətdən gəlirin (satış gəlirlərinin, satış həcminin) artırılması;
- xərclərin (xərclərin, məsrəflərin) azaldılması və bu istiqamətdə rəhbər vəzifələrə nail olunması;
- müəyyən edilmiş iqtisadi artım templərinə nail olunması (gəlir və rentabelliyin artım templəri);
- sənayedə texnoloji liderlik;
- iflas riskinin azaldılması;
- biznesin bazar dəyərinin artırılması.

Səmərəliliyin artırılması təşkilatı daha rəqabətli etməklə gəliri artırır və biznes fəaliyyətinin yaxşılaşdırılması ilə ziddiyyət təşkil etməməli olan məqsədlərə nail olunması üçün xərcləri azaldır.

Biznes proseslərinin səmərəliliyi ölçülə bilən olmalıdır. Biznes proseslərinin səmərəliliyini qiymətləndirmək üçün beş qrup göstəricilər vardır, o cümlədən:

1) biznes prosesinin yekun nəticəsi;

2) biznes prosesinin dəyərinin qiymətləndirilməsi;

3) biznes prosesinin tam dövrünün müddəti;

4) biznes prosesinin keyfiyyəti;

5) biznes prosesinin bölünməsi.

İstənilən müəssisə dəyər və ya kəmiyyət baxımından ifadə oluna bilən planlaşdırılan nəticəyə nail olmağa yönəlib. Nəticənin qiymətləndirilməsi obyektivdir və nəzərdən keçirilən biznes prosesi üzrə idarəetmə qərarlarının qəbulu üçün əsas rolunu oynayır.

Səmərəli idarəetmə qərarları qəbul etmək üçün sənaye müəssisələri hədəfləri vahid informasiya sistemi ilə əlaqələndirməlidirlər. Biznes proseslərinin idarə edilməsinə sistemli yanaşma idarəetmə dövrünün hər bir mərhələsində bir-biri ilə əlaqəli göstəricilərin, qiymətləndirmə meyarlarının və məsuliyyət səviyyələrinin kompleks istifadəsini nəzərdə tutur ki, bunlar aşağıdakılardır:

- müəssisənin inkişafının prioritet istiqamətlərinin və yeni biznes modellərinin yaradılması yolu ilə mövcud istehsal ehtiyatlarının təkmilləşdirilməsi və optimallaşdırılması üsullarının hazırlanması;

- hazırkı mərhələdə aktual olan müəssisənin inkişaf strategiyalarını seçmək üçün ekzogen və endogen amillərin təhlili;

- məqsədlərə nail olunması üçün inkişaf trayektoriyasının seçilməsi və resursların optimal bölüşdürülməsi konsepsiyasının hazırlanması;

- müəssisənin təşkilati strukturundan və maliyyə komponentindən istifadə edərək büdcə prosesinin yaradılması;

- fəaliyyət göstəriciləri sisteminin maliyyə məsuliyyəti mərkəzlərinə uyğunluğu;

- müəssisənin istehsal-maliyyə fəaliyyətinin səmərəliliyinə nəzarət, təhlil və tənzimlənmə üsullarının hazırlanması.

Biznes proseslərinin səmərəliliyinin əsas ölçüsü iqtisadi əlavə dəyərdir. İqtisadi əlavə dəyər müəssisənin fəaliyyətinin müxtəlif kateqoriyalarını əks etdirir: investisiya cəlbediciliyi, rəqabət qabiliyyəti, maliyyə sabitliyi, ödəmə qabiliyyəti, inkişafın davamlılığı və gəlirliliyi.

İstənilən proses məhsul və ya xidmətdə ifadə olunan nəticənin əldə edilməsinə yönəlir. Yaradılan dəyər məhsulun bazar qiymətində müəyyənedici amildir. Məhsulun rentabelliyi nə qədər çox olarsa, onun əlavə dəyəri də bir o qədər yüksək olar. İqtisadi əlavə dəyər konsepsiyası müəssisənin idarə edilməsinin əsas sahələrini əhatə edir: investisiya, maliyyə və insan kapitalının idarə edilməsi. İqtisadi əlavə dəyərin istifadəsi davamlı təkmilləşdirmə sisteminin və müasir idarəetmə vasitələrinin tətbiqi istiqamətində ilk addımdır. Bu konsepsiya şirkətin biznes proseslərini təkmilləşdirmir, lakin idarə heyətini müəssisədə təkmilləşdirmə üçün düzgün istiqamət seçmək üçün adekvat informasiya ilə təmin edir.

Biznes proseslərinin səmərəliliyi əlavə dəyərin formalaşmasında mühüm rola malikdir. Biznes fəaliyyətinin düzgün təşkili əlavə dəyərin formalaşması üçün lazımi şərait yaradır. Əlavə dəyər yaratmaq üçün əsas kimi şirkət və ya ümumilikdə onun struktur bölməsi deyil, konkret biznes prosesi çıxış edir. Geniş mənada biznes prosesi istehlakçı üçün faydalılıq yaradan bir-biri ilə əlaqəli əməliyyatlar ardıcıllığıdır. Əməliyyat müəyyən bir şirkətdə reallaşdırılan fəaliyyət növüdür. Məsələn, demək olar ki, hər hansı bir iş prosesinə daxil olan zəruri əməliyyat istehsaldır. Hər bir kommersiya təşkilatı məhsul, mal və xidmətlər bazarında bu təşkilatın yerinə uyğun gələn bir sıra biznes prosesləri reallaşdırır.

Biznes prosesində səmərəsiz sahələri müəyyənləşdirən və onları düzəltməyə imkan verən xərc göstəricisidir. Biznes prosesinin dəyəri qiymətqoymanın əsasını və müvafiq olaraq təşkilatın bazarda rəqabət qabiliyyətini təşkil edir. Adətən, menecerlərin motivasiyasında nəzərdə tutulan göstəricilər əvvəlki dövrlə müqayisədə prosesin maya dəyərinin azaldılmasına yönəldilir. Prosesin müddəti onun bütün dəyər zəncirinə təsiri ilə bağlıdır. Proses nə qədər uzun olarsa, bir o qədər çox resurs sərf edilər. Buna görə də, müddət həmişə nəticə ilə əlaqələndirilir.

Adətən hər hansı bir iş üçün ən vacib fəaliyyət göstəricisi xalis mənfəətdir. Müəssisənin sahibləri və investorları üçün onun fəaliyyətinin yüksək maliyyə göstəricilərinə nail olub-olmadığını bilmək son dərəcə vacibdir. Məsələn, müəssisə əla satış göstəricilərinə malik ola bilər, lakin o, xalis mənfəət əldə etməsə və onu perspektivli biznes sahələrinə yatırmasa, şirkət tezliklə effektivliyini dayandıracaq. Biznes fəaliyyətinin ölçülməsi və qiymətləndirilməsi problemi bu gün getdikcə aktuallaşır. Spontan biznesin inkişafı artıq keçmişdə qalıb. Yüksək artım templəri və biznesin səmərəliliyinə artan tələblər müəssisələri onun qiymətləndirilməsi üsullarını yenidən nəzərdən keçirməyə sövq edir. Geniş mənada biznesin səmərəliliyi ona qoyulan kapitalın və ya istifadə olunan vəsaitin məhsuldarlığı kimi şərh olunur [5, s.183]

Müasir şəraitdə keyfiyyəti ölçməklə biznes proseslərinin səmərəliliyinin qiymətləndirilməsi də son dərəcə vacibdir. Keyfiyyət göstəriciləri hər bir iş prosesi üçün fərdi olur. Onların ölçülə bilən olması çox vacibdir.

Son onilliklərdə biznes prosesləri təkmilləşdirmək və sürətləndirmək üçün müxtəlif alətlər və üsullar hazırlanmışdır. Bu vasitələrdən biri də elm adamlarının geniş diqqətini cəlb edən və idarəetmədə məşhur fenomenə çevrilən biznes proseslərinin reinjinirinqidir [2, s.177].

Biznes proseslərinin reinjiniringi həm də müəssisələrin fəaliyyətinin səmərəliliyinin köklü şəkildə artırılmasına nail olunması məqsədilə ən mühüm vasitələrdən biridir. Müəssisənin əsas fəaliyyət göstəricilərinin dəfələrlə artımına nail olmaq məqsədi ilə biznes proseslərinin köklü şəkildə yenidən qurulması reinjinirinq adlanır. Müəssisədə iqtisadi vəziyyətin sabitliyi pozulduqda, idarəetmə yeni metodların, formaların, texnikaların öyrənilməsi və fəal tətbiqi üzərində qurulmalıdır. Bu baxımdan reinjinirinq son zamanlar idarəetmə fəaliyyətində ən təsirli yeniliklərdən birinə çevrilmişdir. Reinjinirinq ayrı-ayrı biznes bölmələri arasında belə qarşılıqlı əlaqəyə nail olmağa, bütövlükdə bütün sistemin məhsuldarlığının artmasına və biznes proseslərinin optimallaşdırılmasına səbəb olacaq maksimum multiplikator effektə can atmağa yönəlib [3, s.30].

Məlumdur ki, biznes proseslərinə təsir edən əsas amillərdən biri təşkilati səmərəlilikdir. Müəssisənin təşkilati səmərəliliyi obyektiv və subyektiv göstəricilərin müxtəlif qrupları ilə qiymətləndirilə bilər. Obyektiv göstəricilər ölçülə biləndir və müəssisənin iqtisadi və maliyyə modelini əks etdirir. Bunlara aşağıdakı

göstəricilər daxildir: əmək məhsuldarlığı, məhsulun marjinallığı, əməliyyat fəaliyyətindən planlaşdırılan sərbəst pul vəsaitlərinin hərəkətinin icra səviyyəsi, əvvəlki dövrlə müqayisədə satışın artımı, satışdan əldə olunan gəlir və s [1, s.29].

Biznes proseslərinin səmərəliliyi onların təkmilləşdirilməsini zəruri edir. Lakin biznes proseslərində hər hansı təkmilləşdirmədən əvvəl işin görülməsinə mövcud yanaşmaların təhlili aparılmalıdır. Təşkilatda həmişə rəsmiləşdirilmiş və qeyri-rəsmi fəaliyyət göstəriciləri mövcuddur. İş axınının təşkilinin düzgünlüyünü göstərən bu meyarlardan biri işçinin və ya şöbənin səmərəliliyinin göstəricisidir. Səmərəlilik göstəricisi yalnız prosesin zəif tərəfləri aradan qaldırıldıqda maksimuma çata bilər.

Ümumiyyətlə biznes proseslərinin səmərəliliyi onların idarə edilməsi səviyyəsindən asılıdır. Bu proseslərin idarə edilməsi onların şəffaflığını və müəssisənin daxili qaydalarına uyğunluğunu artırmağa, biznesi daha səmərəli etməyə, məhsulun keyfiyyətini daha da yaxşılaşdırmağa, xərcləri azaltmağa, müştəri məmnuniyyətini və işçilərin potensialını maksimum dərəcədə artırmağa imkan verir.

Ədəbiyyat

1. Бабич, В. В. Факторы, влияющие на эффективность бизнес-процессов / В. В. Бабич // Экономика и бизнес: теория и практика. – 2019. – № 9. – С. 28-31
2. Дремайлова, Л. С. Реинжиниринг бизнес-процессов: факторы успеха / Л. С. Дремайлова, Д. В. Варламова // Вестник Алтайской академии экономики и права. – 2022. – № 4-2. – С. 177-180
3. Коноплева, И. А. Реинжиниринг бизнес-процессов как инструмент повышения эффективности функционирования предприятия / И. А. Коноплева // Общество, экономика, управление. – 2019. – Т. 4. – № 3. – С. 30-36
4. Попова, А. А. Понятие бизнес-процесса и сеть бизнес-процессов организации / А. А. Попова // Экономика и региональное управление : Сборник статей международной научно-практической конференции, Брянск, 06–07 декабря 2017.– С. 792-795
5. Чернова, А. А. Повышение эффективности бизнес-процессов компании / А. А. Чернова // Столица науки. – 2019. – № 6(11). – С. 182-185

Резюме

Тагиева А.В.

Способы измерения и повышения эффективности бизнес-процессов

В статье представлена информация о сущности бизнес-процессов и их влиянии на деятельность предприятий. Обоснована необходимость повышения эффективности бизнес-процессов. Изучены способы измерения и повышения эффективности бизнес-процессов. Для оценки эффективности бизнес-процессов определена система показателей и обоснована необходимость создания экономической добавленной стоимости.

Ключевые слова: *бизнес-процессы, эффективность, добавленная стоимость, продукт, предприятие, финансы*

Summary

Taghiyeva A.V.

Ways to Measure and Improve the Efficiency of Business Processes

The article provides information about the essence of business processes and their impact on the activities of enterprises. The necessity of increasing the efficiency of business processes is substantiated. Studies ways to measure and improve the efficiency of business processes. To assess the effectiveness of business processes, a system of indicators is defined and the need to create economic value added is substantiated.

Key words: *business processes, efficiency, added value, product, enterprise, finance*

İSTİLİK EFFEKTİ YARADAN QAZLARIN NEONATAL ÖLÜMƏ TƏSİRİNİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ

Tağıyeva Arzu Valeh qızı

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin

Dayanıqlı İnkişaf Statistikası Şöbəsi

arzu.taghiyeva@stat.gov.az

Xülasə: *Təqiqatda istilik effekti yaradan qazların emissiyasının artmasının həm istilik effektinin yaranmasına, həm də atmosfer havasının çirklənməsinə səbəb olması fonunda yenidoğulanlara təsirləri*

nəzəri cəhətdən araşdırılmışdır. Daha sonra, antropogen amillərin təsiri nəticəsində yaranan istilik effekti yaradan qazların emissiyasının neonatal ölümə təsiri Azərbaycan nümunəsində ekonometrik qiymətləndirilmişdir. 2010-2020-ci illəri əhatə edən dövr üzrə İEYQ-nin emissiyasının zaman ənənələri də nəzərə alınmaqla neonatal ölümə təsirini əks etdirən reqressiya modelləri "Eviews" proqramında realizasiya edilmişdir. Əldə olunmuş ekonometrik modelin parametrlərinin statistik cəhətdən əhəmiyyətliliyi sübut olunaraq nəticə izah edilmişdir.

Açar sözlər: *istilik effekti yaradan qazlar, iqlim dəyişikliyi, havanın çirklənməsi, neonatal ölüm, ekonometrik model*

Giriş

Sənaye İnqilabı ilə başlayan sürətli inkişafın nəticəsi olaraq dünyada yaşayan canlılar üçün həyati önəmə sahib olan atmosfer havasının tərkibində istilik effekti yaradan qazların (İEYQ) miqdarı əhəmiyyətli dərəcədə artmışdır. Atmosferdə İEYQ-nin konsentrasiyasının artması isə birbaşa olaraq həm havanın çirklənməsinə, həm də qlobal iqlim dəyişikliyinə səbəb olan başlıca amildir. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin hesabatında qeyd edilmişdir ki, növbəti onilliklərdə karbon qazı və digər İEYQ-nin emissiyalarında əhəmiyyətli dərəcədə azalmalar baş verməsə, 21-ci əsrdə qlobal temperaturun artım səviyyəsi 1,5°C və 2°C-ni üstələyəcəkdir [7].

İEYQ-nin emissiyasındakı artım 21-ci əsrin ən böyük qlobal sağlamlıq təhdidlərindən birini təmsil edir və ən həssas əhali qrupları, xüsusən də iqlim dəyişikliyinə uyğunlaşmaq qabiliyyəti ən az olan yoxsul ölkələr üçün dərhal və uzunmüddətli nəticələrə gətirib çıxarır. Hamilə qadınlar və yeni doğulmuş körpələr isə iqlim dəyişikliyi kontekstində getdikcə daha çox həssas əhali kimi tanınırlar.

Son dövrlər antropogen amillərin təsiri nəticəsində İEYQ-nin emissiyasının insan sağlamlığına təsirlərinin tədqiqinə marağın artmasına baxmayaraq, bu mövzuya dair məsələlər ölkə səviyyəsində kifayət qədər araşdırılmamışdır. Bununla belə, Chersich, Bekkar, Pacheco, Basu, DeNicola, Smith, Cil, Cameron və sair kimi xarici tədqiqatçıların əsərlərində istilik effektinin və havanın çirklənməsinin yenidoğulanlara təsirləri ətraflı tədqiq edilmişdir.

Tədqiqatın əsas məqsədi İEYQ-nin emissiyasının neonatal ölümə təsirinin Azərbaycan timsalında qiymətləndirilməsidir. Bu məqsədlə, İEYQ-nin yenidoğulanlara potensial təsirləri nəzəri cəhətdən araşdırılmalı, tədqiqatda istifadə olunacaq statistik məlumatlar təhlil edilməli, ekonometrik modellər qiymətləndirilməlidir.

Tədqiqatda Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet portalından əldə edilmiş məlumatlardan istifadə edilmişdir. Ekonometrik təhlil üsullarından istifadə edilərək EViews Tətbiqi Proqram Paketində hesablamalar aparılmışdır.

Qeyd edək ki, İEYQ-nin emissiyasına dair statistik məlumatların məhdudluğu tədqiqatda qarşıya çıxan əsas çətinlik kimi qiymətləndirilmişdir.

İstilik effekti yaradan qazların yenidoğulanlara təsirləri

İEYQ-nin səbəb olduğu iqlim dəyişikliyi bir neçə mexanizm vasitəsilə ana və perinatal sağlamlığa təsir edir. Hamiləlik və neonatal dövrlər termorequlyasiya qabiliyyətini azaldan fizioloji və anatomik dəyişikliklərlə xarakterizə olunur. Çoxlu sayda tədqiqatlar istiliyə məruz qalma ilə vaxtından əvvəl doğuş, aşağı doğum çəkisi və ölü doğum riski arasında əlaqə olduğunu göstərir. Aşağı doğum çəkisi olan körpələrdə infeksiyalar da daxil olmaqla bir sıra ağırlaşmalara qarşı həssaslıq artmışdır. Bundan əlavə, hamilə qadınlarda artan tərləmə nəticəsində yaranan dehidrasiya erkən doğuşun başlamasına səbəb olur [1,4].

İstilik döllərdə və yenidoğulanlarda klinik simptomlar və əlamətlər kimi təzahür edən bir sıra patofizioloji proseslərin yaranmasına şərait yaradır. Bunlara artan fetal taxikardiya və fetal hərəkətlərin azalması [6] və fetal distress daxildir [5]. Yenidoğulanlarda istilik stressinin klinik təzahürlərinə mekonium aspirasiya sindromu [5], neonatal sarılıq [11], nevroloji disfunksiya və dehidrasiya [3] daxildir ki, bu da neonatal ölümə səbəb olur. Yenidoğulanlar və körpələr istiliyi yaymaq və termorequlyasiya etmək qabiliyyətinə daha az malikdir [12] və yüksək rütubət tərləmə ilə istilik itirmə qabiliyyətini məhdudlaşdırır ki, bu da hipertermiyaya səbəb ola bilər [3,8]. Kritik istilik xəstəliyi və dehidrasiya daha sonra kəskin dövrdə elektrolit pozğunluqları, periferik qanqren, konvulsiyalar, mərkəzi venoz və aorta trombozu və koma ilə müşayiət oluna bilər.

Digər tərfdən, havanın çirklənməsinin aşağı çəkili körpələrin dünyaya gəlməsinə təsiri və vaxtından əvvəl doğuş riskini artırdığı da sübuta yetirilmişdir. Belə ki, 2010-cu ildə havanın çirklənməsi ilə bağlı vaxtından əvvəl doğulanların sayının 2,7 milyon nəfər olduğu, bu da dünya üzrə ümumi vaxtından əvvəl doğulanların 18 faizini təşkil etdiyi təxmin edilmişdir [9]. Vaxtından əvvəl doğuşlar qlobal miqyasda bütün

doğuşların 11 faizini, bütün neonatal ölümlərin isə 35 faizini təşkil edir. Belə ki, vaxtından əvvəl doğuşlar qlobal miqyasda neonatal ölümlərin əsas səbəbi kimi göstərilir [1,2].

Bununla yanaşı, İEYQ içməli suyun əlçatanlığına və keyfiyyətinə, qida çatışmazlığı riskinə səbəb olacaq şəkildə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına təsir edir. Kifayət qədər qidalanmama isə həssas əhali qruplarından olan hamilə qadınların immun sisteminin zəifləməsinə və nəticə etibarı ilə isə daha çox xəstəliklərə yoluxma hallarının baş verməsinə səbəb olur ki, bu da körpənin ana bətnində inkişafına maneə olur. Həmçinin yoluxucu infeksion xəstəliklərə, eləcə də hava çirkləndiricilərinin atmosferdəki konsentrasiyasının artması səbəbindən tənəffüs sistemi xəstəliklərinə məruz qalırlar [10]. Bu kimi hallar isə neonatal ölümün əsas səbəbi olan vaxtından əvvəl doğuşlar və aşağı çəkili uşaqların dünyaya gəlməsi ilə nəticələnir [1].

Məlumatların toplanması, emalı və ekonometrik modelləşdirilməsi

Aşağıdakı qrafikdə İEYQ-nin emissiya miqdarı və neonatal ölümlə bağlı statistik məlumatların 2010-2020-ci illər üzrə dinamikası təqdim olunmuşdur.

Qeyd edək ki, ümumi İEYQ Karbon qazı (CO2), Azot bir oksid (N2O), Metan (CH4) və F qazlarının CO_2 ekvivalentində cəmini əks etdirir. Neonatal ölüm isə həyatlarının ilk 28 günü ərzində (0-27 gün) ölən yenidoğulanların sayını bildirir.

	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
İEYQ-nin emissiyası, milyon ton CO2 ekvivalentində	46,0	49,0	51,4	52,4	52,9	54,2	54,0	53,4	53,6	54,1	53,9
Neonatal ölüm, nəfər	1095	1152	1202	1205	1032	981	872	953	897	970	608

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (22.07.2022)*

Qrafik: Azərbaycanda İEYQ -nin emissiyası (milyon ton CO2 ekvivalentində) və neonatal ölüm göstəricilərinin 2010-2020-ci illər üzrə dinamikası

Azərbaycanda İEYQ-nin emissiyasının neonatal ölümə təsirini ekonometrik qiymətləndirmək üçün aşağıdakı kimi reqressiya tənliyi qurulmuşdur:

$$LOG(NO) = C(1) + C(2)*CO2 + C(3)*SQR(@TREND) \quad (1)$$

Burada NO – neonatal dövrdə olan ölümlərin sayını, CO2 – İEYQ-nin CO_2 ekvivalentində olan emissiya miqdarını, @TREND isə zaman ənənəsini bildirir.

(1) reqressiya tənliyinin EViews Tətbiqi Proqram Paketində ekonometrik qiymətləndirilməsinin nəticəsi aşağıdakı kimidir:

$$LOG(NO) = 3.14613348831 + 0.0855255955146*CO2 - 0.355952252914*SQR(@TREND) \quad (2)$$

modelinin statistik göstəriciləri şəkil (1)-də təqdim edilmişdir.

(2) modelinin statistik xarakteristikaları modelin adekvat alındığını göstərir. Belə ki, tapılmış C(2) reqressiya əmsalının qiyməti 0.10 əhəmiyyətlilik dərəcəsində (90 faiz əhəmiyyətlilik səviyyəsi), C(3) əmsalının qiyməti isə 0.05 əhəmiyyətlilik dərəcəsində (95 faiz əhəmiyyətlilik səviyyəsində) etibarlıdır. Qurulmuş model isə 0.05 əhəmiyyətlilik dərəcəsində etibarlıdır. Eyni zamanda modelin adekvat olması üçün vacib sayılan digər Qauss-Markov şərtləri də yoxlanılmış və modelin adekvat olduğu qənaətinə gəlinmişdir.

Dependent Variable: LOG(NO)
Method: Least Squares
Date: 08/10/22 Time: 00:30
Sample: 2010 2020
Included observations: 11

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
C	3.146133	2.121917	1.482685	0.1764
CO2	0.085526	0.045016	1.899900	0.0940
SQR(@TREND)	-0.355952	0.122050	-2.916435	0.0194

R-squared	0.634658	Mean dependent var	6.888954
Adjusted R-squared	0.543322	S.D. dependent var	0.193846
S.E. of regression	0.130997	Akaike info criterion	-1.000281
Sum squared resid	0.137282	Schwarz criterion	-0.891764
Log likelihood	8.501548	Hannan-Quinn criter.	-1.068686
F-statistic	6.948640	Durbin-Watson stat	1.808463
Prob(F-statistic)	0.017816		

Şəkil: Model (2)-nin əsas statistik xarakteristikaları

Nəticə

Tədqiqat işində zaman ənənəsini də əlavə etməklə İEYQ-nin emissiyasının neonatal ölümə təsiri araşdırılmış və (2) modeli əldə edilmişdir. (2) modelinə əsasən qeyd etmək olar ki, atmosfer havasına atılan İEYQ-nin 1 milyon ton (CO_2 ekvivalentində) artması neonatal ölümü təqribən 8.6 faiz artırır. Lakin zaman ənənəsinin təsiri ilə isə müsbət nəticə olaraq neonatal ölümdə ilbəil azalma tendensiyası aşkarlanmışdır. Determinasiya əmsalı R^2-nın 63.5 faiz olması isə 2010-2020-ci illərdə baş vermiş neonatal olümlərin 63.5 faizi İEYQ-nin yaratdığı mənfi təsirlər və zaman ənənələri ilə izah edilməsi deməkdir. (2) modelinin interpretasiyası bu mövzuda aparılmış digər tədqiqatçıların (Muhammad Iftikhar Ul Husnain, Muhammad Khan, Azad Haider və s.) hipotezlərini təsdiqləyərək ekonometrik cəhətdən neonatal ölüm ilə İEYQ-nin emissiyası arasında müsbət əlaqənin olduğunu sübuta yetirdi.

Təhlili dərinləşdirmək üçün neonatal ölümə təsir edən digər faktorları aşakarlayaraq modelə daxil etmək lazımdır.

Ədəbiyyat

1. Bekkar B, Pacheco S, Basu R, DeNicola N. Association of air pollution and heat exposure with preterm birth, low birth weight and stillbirth in the US: a systematic review. JAMA Netw Open. 2020;3:e208243.
2. Blencowe H, Cousens S, Chou D, et al. Born too soon: the global epidemiology of 15 million preterm births. Reprod Health. 2013;10:S2.
3. Cheng TL, Partridge JC. Effect of bundling and high environmental temperature on neonatal body temperature. Pediatrics. 1993 Aug; 92(2):238–40
4. Chersich MF, Pham MD, Areal A, et al. Associations between high temperatures in pregnancy and risk of preterm birth, low birth weight, and stillbirths: systematic review and meta-analysis. BMJ. 2020;371:m3811.
5. Cil G, Cameron TA. Potential climate change health risks from increases in heat waves: abnormal birth outcomes and adverse maternal health conditions. Risk Anal. 2017 Nov; 37(11):2066–79.
6. Cronjé HS. Intra-uterine temperature measurements during fetal tachycardia. S Afr Med J. 1977 Sep 10;52(12):476–8.
7. IPCC. Summary for policymakers. In: Masson-Delmotte V, Zhai P, Pirani A, Connors SL, Péan C, Berger S, et al., editors. Climate Change 2021: the physical science basis contribution of working group I to the sixth assessment report of the intergovernmental panel on climate change. London, UK and New York, NY, USA; 2021.
8. Kenefick RW, Cheuvront SN. Physiological adjustments to hypohydration: impact on thermoregulation. Auton Neurosci. 2016 Apr;196:47–51.
9. Malley CS, Kuylenstierna JC, Vallack HW, Henze DK, Blencowe H, Ashmore MR. Preterm birth associated with maternal fine particulate matter exposure: a global, regional and national assessment. Environ Int. 2017;101:173–182.
10. McMichael, A.J., R.E. Woodruff and S. Hales, 2006. Climate change and human health: Present and future risks. Lancet 367(9513): 859-869.

11.Scrafford CG, Mullany LC, Katz J, Khatry SK, LeClerq SC, Darmstadt GL, et al. Incidence of and risk factors for neonatal jaundice among newborns in southern Nepal. Trop Med Int Health. 2013 Nov;18(11):1317–28.

12.Smith CJ. Pediatric thermoregulation: considerations in the face of global climate change. Nutrients. 2019 Aug 26;11(9):2010.

Резюме

Тагиева А.В.

Эконометрическая оценка влияния тепловых газов на смертность новорожденных

В статве влияние выбросов парниковых газов (ПГ) на новорожденных теоретически исследовалось в рамках того факта, что увеличение выбросов парниковых газов создает как тепловой эффект, так и загрязнение атмосферного воздуха. Затем эконометрически оценивали влияние антропогенных ПГ на неонатальную смертность на притере Азербайджана. Для временного периода 2010-2020 гг. регрессионные модели с учетом временных традиций, отражающие влияние эмиссии ПГ на неонатальную смертность, реализованы в ППК «Eviews». Доказана статистическая значимость параметров полученной эконометрической модели и объяснен результат.

Ключевые слова: *парниковые газы, изменение климата, загрязнение воздуха, неонатальная смертность, эконометрическая модель*

Summary

Taghiyeva A.V.

Econometrical Evalution of the Effect of Thermal Gases on Neonatal Mortality

In the research, the effects of greenhouse gases emissions (GHG) on newborns were theoretically investigated in the framework of the fact that the increase in the emissions of greenhouse gases that create both heat effect and atmospheric air pollution. Then, the effect of the anthropogenic GHG on neonatal mortality was evaluated econometrically in the sample of Azerbaijan. For the 2010-2020 time period, regression models with taking into account the time traditions reflecting the effects of the emission of GHG on neonatal mortality, were implemented in the "Eviews" Application Software Package. The statistical significance of the parameters of the obtained econometric model was proved and the result was explained.

Key words: *greenhouse gases, climate change, air pollution, neonatal mortality, econometric model*

MÜƏSSİSƏNİN BİZNES STRATEGİYASININ FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

Sadıqova Səbinə Sabir qızı, Əliyeva İlahə Bağı qızı

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

sabina-w@mail.ru; cimbomcu@mail.ru

Xülasə: *Məqalədə qeyd edilir ki, biznes strategiyası müəssisənin bazarda öz məqsədlərinə necə nail olacağına dair sənədləşdirilmiş plandır. O, müəssisənin missiyasına əsaslanmalı, böyümə nöqtələrini verməli və komandaya hansı mütəxəssisləri qəbul etmək üçün təşkilati qərarları müəyyənləşdirməlidir. Məqalədə həmçinin qeyd edilir ki, biznes strategiyanın reallaşdırılmasının səmərəli nəticələrinə nail olmaq məqsədi ilə onun formalaşdırılması zamanı səhfə yol verməmək üçün iqtisadiyyatda baş verən dəyişikliklər, ölkənin qanunları və müəssisənin öz göstəriciləri ciddi təhlil edilməli, müəssisənin güclü və zəif tərəfləri nəzərə alınmalıdır. Bu məqsədə nail olmaq üçün məqalədə müvafiq tövsiyələr irəli sürülür.*

Açar sözlər: *müəssisə, biznes strategiya, formalaşması, xüsusiyyətləri, təkliflər*

Müasir şəraitdə fəaliyyət göstərən müəssisələri şərti olaraq iki düşərgəyə bölmək olar. Bəziləri öz fəaliyyətlərini “burada və indi” prinsipi ilə həyata keçirir və bunu tez-tez dəyişən dünyasda proqnoz vermənin faydasız olduğu ilə izah edirlər. Digərləri, əksinə, mümkün riskləri minimuma endirmək üçün hər bir addımı diqqətlə planlaşdırırlar. Birincilər şansa, ikincilər isə biznes strategiyasına güvənirlər. Sonuncu yanaşma müəssisənin və işçilərinin “taleyi” əlində olan insanlar üçün daha məntiqli görünür.

Biznes strategiyası müəssisənin bazarda öz məqsədlərinə necə nail olacağına dair sənədləşdirilmiş plandır. Bu, müəssisənin missiyasına əsaslanmalı, böyümə nöqtələri verməli və komandaya hansı mütəxəssisləri qəbul etmək üçün təşkilati qərarları müəyyənləşdirməlidir. Biznes strategiyası ardıcıl hərəkətlərin alqoritmidir, burada əvvəlki addımın həyata keçirilməsinin nəticəsi yenisinin həyata keçirilməsi

üçün mənbəyə çevrilməlidir. Müəssisənin biznes strategiyası onun rəhbərləri tərəfindən yaradılmalıdır, çünki yalnız onlar hansı məqsədlərə nail olmaq lazım olduğunu bilirlər. Biznes strategiyanın hazırlanmasını müəssisə bu sahədə ixtisaslaşmış şirkətlərə də həvalə edilə bilər. Ancaq bu zaman həmin şirkətlərə müəssisənin planları haqqında tam məlumat verilməli, satışlar, gəlirlər və xərclər, müəssisənin bütün bölmələrinin vəzifələri haqqında dürüst məlumatlar çatdırılmalıdır. Biznes strategiyasının hansı dövr üçün hazırlanacağını müəyyən etmək üçün bazardakı vəziyyət və müəssisənin mövqeyi nəzərə alınmalıdır. Əgər ölkədə mövcud iqtisadi vəziyyət qeyri-sabitdirsə, müəssisədə problemlər yarana bilər. Bu halda yaxşı olar ki, biznes strategiya 1-2 il üçün tərtib edilsin ki, onu düzəltmək daha asan olsun. Vəziyyət sabitdirsə, növbəti bir neçə il üçün strategiya hazırlana bilər.

Biznes strategiya inkişaf üçün prioritet sahələri seçmək, müəssisənin idarə edilməsi üsullarını müəyyən etmək üçün hazırlanmalıdır. O, menecerlərə və işçilərə müəssisənin hər bir şöbəsi üçün perspektivləri başa düşməyə və tapşırıqları planlaşdırmağa imkan verməlidir. Biznes strategiya:müəssisənin struktur bölmələrinin işini əlaqələndirməyə; maliyyə, vaxt və digər resursları müəyyən etməyə; riskləri qiymətləndirməyə və qarşısını almağa kömək etməlidir. Müəssisənin ölçüsündən (böyüklüyündən, kiçikliyindən), məqsədlərindən və böyümə imkanlarından asılı olaraq müxtəlif biznes strategiyaları seçilə bilər. Ancaq onlardan biri üzərində dayanmamaq da olar, iki və ya üçünü bir-biri ilə birləşdirmək mümkündür. Əsasən aşağıdakı üç biznes strategiyarı fərqləndirilir: əsas (baza); rəqabətli; funksional. Əsas (baza) biznes-strategiya mal və xidmətlərin, bütövlükdə müəssisənin və onun bölmələrinin inkişafını planlaşdırmaqdır. Əsas strategiya: müəssisənin struktur bölmələri arasında resursların necə bölüşdürülməsini; idarəetmə strukturunda nəyin dəyişdirilməsini; biznesin inkişafı üçün hansı biznes proseslərin həyata keçirilməsini müəyyən etməliddir. Bu müəssisənin fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün ən mürəkkəb və iddialı strategiyadır. Müəssisənin bazarda lider mövqeyə nail olması üçün rəqabət strategiyası hazırlanmalıdır. Belə strategiya müştəriləri cəlb etmək, mənfəətin miqdarını artırmaq, satışların sayını çoxaltmaq, daimi müştərilərə malik olmaq və s. göstəricilər üzrə rəqibləri önləmək məqsədi ilə tərtib edilməlidir. Rəqabət strategiyasının üç növü vardır:

1. Xərclərin minimuma endirilməsi. Məqsəd marketinq, məhsul istehsalı və satışının dəyərini rəqiblərinkindən aşağı etməkdir.

2. Fərqləndirmə. Müəssisə unikal məhsul yaradır. Məsələn, bir müəssisə digərlərindən fərqli yeni məhsul istehsal edir.

3. Fokuslanma. Dar alıcılar qrupunun seçiminə əsaslanır.

Funksional strategiya müəssisənin struktur bölkmələrinin daxili iş proseslərinə diqqət yetirməlidir. O, istehsal, marketinq, maliyyə və satışa təsir etməlidir. Hər bir struktur bölkməsində proseslər ayrıca qurulmalı və onların düzgün işləməsinə köməklik göstərilməlidr.

Digər funksional strategiyaya elmi-tədqiqat və təcrübi-konctruktor işlərinə aid edilir. Onlara təcrübələr, ideyalar və yeni məhsulların satışa çıxarılması üçün fəaliyyətlər daxildir. Strategiyanı qiymətləndirmək üçün motivasiya sistemini işləyib hazırlamaq lazımdır. Bu məqsədlə müəssisə haqqında məlumatlar sistemləşdirilməlidir. Bunun üçün müxtəlif dövrlərdə işçilər arasında aparılan sorğuların və bağlanan sövdələşmələrin sayı, xərclər və gəlirlər, struktur bölmələrinin problemləri öyrənilməlidir. Strategiyanı qiymətləndirmək üçün həm də onun reallaşdırılması mümkünlüyü müəyyən edilməlidir.

Menecer işçiləri səmərəli işləməyə nəyin motivasiya etdiyini müəyyən etməlidir. Bu peşəkar inkişaf, karyera yüksəlişi və ya gəlirlərini artırmaq istəyi ola bilər. Sonra işçilərin əməyinin qiymətləndiriləcəyi əsas göstəriciləri müəyyən etmək lazımdr. Bunlar məsələn, gündə müştərilərlə edilən zənglərin və ya görüşlərin sayı, ayda satışın həcmi, vəzifədən asılı olaraq orta yoxlamaların sayı və s. ola bilər. Göstəricilərin öhdəsindən gələn işçiləri həvəsləndirmək lazımdır. Bu, maaş artımı, vəzifə pillələri üzrə yüksəliş, pulsuz təlim kursları ola bilər. Rəhbərlər bütün struktur bölmələrindən əks əlaqə sistemi qurmalıdırlar. Bu, satış bazarının, öz resurslarının və müəssisədəki proseslərin adekvat qiymətləndirilməsi üçün lazımdır. Həmçinin strategiyanın uğurla həyata keçirilməsi üçün cari göstəriciləri təhlil etmək və onlardan hansının və necə dəyişməli olduğunu müəyyən etmək lazımdır. Məsələn, satış planlarına baxılmalı, resurslar qiymətləndirilməli və məhsul satışı həcminin nə qədər və nə vaxt artacağını müəyyənləşdirilməlidir. Biznes strategiya hazırlanarkən aşağıdakı parametrlərə diqqət yetirmək lazımdır:

– ardıcıllığa - seçilmiş strategiyanın müəssisənin missiyasına necə uyğun gəlməsinə;

– uyğunluğa – bazar vəziyyəti nəzərə alınmaqla strategiyanın həyata keçirilməsinin mümkün

– olub-olmamasına;

– imkanlılığıa - hazırda vaxt, maliyyə, insan və digər resursların olub-olmamasına;

– məqbulluğa - strategiyanın əsas işçilərin – struktur bölmələrinin rəhbərlərinin və top menecerlərin-maraqlarına uyğun gəlib-gəlməməsinə;

–üstünlüyə - hansı göstəricilərlə rəqiblərdən üstünlüyün mümkün olub-olmayacağına.

Biznes strategiya qiymətləndiriləndən sonra menecerlər aşağıdakı suallara cavab verməlidirlər: müəssisə nə satmağı planlaşdırır və bunun üçün nə lazımdır; hansı resurslara ehtiyac var, müəssisədə hazırda bunlar varmı; strategiyaya nail olmaq üçün nə qədər pul lazımdır; müştəriləri necə cəlb etməli və bunun üçün nə lazımdır; strategiyada hansı struktur bölmələri və necə iştirak edəcək, onların motivasiyası nə olacaq; müəssisədə və bazarda vəziyyət nəzərə alınmaqla strategiyanın nəticələrinə nail olunmasının real olub-olmamasına; strategiyanın reallaşdırılması hansı uğurdan asılı olacaq, onları hansı meyarlarla müəyyən etmək olar.

Sualların cavabları strategiyanı tənzimləməyə və yaxşı nəticəyə nail olmaq üçün daha ətraflı plan hazırlamağa kömək etməlidir. Müəssisənin biznes strategiyasını hazırlamaq üçün rəqibləri, müəssisədaxili prosesləri, məqsəd və vəzifələri təhlil etməyə çox vaxt sərf etmək tələb oluna bilər. Bunlarla yanaşı, müəssisənin güclü və zəif tərəfləri də hərtərəfli təhlil edilməlidir.

Müəssisənin biznes strategiyası hazırlanarkən makro mühit amilləri (məsələn, ölkədəki iqtisadi vəziyyət, dünyada böhranlı vəziyyətin olub-olmaması və s.) nəzərə alınmalıdır . Bu amillərə daxildir:

- yeni qanunlar - buna görə, müəssisə lisenziya tələb edən yeni malları satmağı bacararmı;
- bazar liderlərinin əməliyyatları - müəssisələrin birləşməsi, yeni filialların açılması, yeni məhsulların elanlarının rəqabəti gücləndiməsi ehtimalı;
- əhalinin gəlirlərinin səviyyəsi - gəlirlər azalırsa aşağı qiymətli məhsulların istehsalına keçməli, artırsa- bazara yeni bahalı məhsulla çıxarılmalı.

Biznes strategiyası hazırlanarkən mikromühit də təhlil edilməlidir. Mikromühit biznesin qarşılıqlı əlaqədə olduğu mühitdir. Bu mahitə təchizatçılar, rəqiblər, tərəfdaşlar, müştərilər, işçilər daxildir. Müəssisə mikromühitə təsir göstərə bilər: tədarükçüləri daha əlverişli şərtlər tapdıqları təqdirdə dəyişdirə, müştərilərin ehtiyaclarını nəzərə ala, daha çox tərəfdaş axtara bilər.

Mikromühiti öyrənmək üçün marketinq tədqiqatları aparmaq lazımdır. Marketinq tədqiqatları bazar meyllərini, alıcıların ehtiyac və davranışlarını, rəqiblərin iş üsullarını müəyyən etməyə imkan verir. Onun nəticələrinə əsasən müəssisənin fəaliyyət göstərdiyi sahənin necə inkişaf etdiyini, müştərilərin nəyə ehtiyacı olduğunu, hansı qiymət siyasətinin daha səmərəli olduğunu müəyyən etmək olar.

Müəssisənin imkanlarını qiymətləndirmək üçün SWOT (GZİT) təhlil aparılmalıdır. GZİT (güclü, zəif, imkanlar, təhlükələr) təhlili müəssisənin zəif və üstünlüklərini obyektiv qiymətləndirməyə - müəssisə haqqında məlumatları sistemləşdirməyə, uzunmüddətli məqsədləri müəyyən etməyə, perspektivləri və riskləri görməyə imkan yarada bilər.

Təhlil üçün dörd sütunlu bir cədvəl hazırlayıb yazmaq lazımdır. Bu cədvəldə: müəssisənin digər müəssisələrə nisbətən üstünlükləri; müəssisənin zəif, mənfi cəhətləri; artımı təmin edən daxili və xarici amillər (imkanlar); xarici mühitdən gələn təhlükələr qeyd edilməlidir.

Bütün istiqamətlər üzrə tədqiqat və təhlillərin - makro və mikromühit tədqiqatlarının, SWOT təhlilinin- nəticələrini müqayisə etməklə müəssisə hansı istiqamət üzrə daha çox gəlir əldə edə biləcəyini müəyyənləşdirrə bilər. Bu istiqamətlər aşağıdakılar ola bilər: köhnə bazarda köhnə məhsulun satışının artırılması; köhnə məhsulun yeni bazara çıxarılması; köhnə bazarda yeni malların satışı; həm məhsulun, həm də bazarın dəyişdirilməsi.

Müəssisənin biznes strategiyasının hazırlanmasında məqsəd və vəzifələr aydın, konkret nəticələrlə ölçülə bilən, həyata keçirilə bilən olmalıdır. Məsələn, yaxın üç (altı və s.) ay ərzində neçə yeni məhsul istehsalını həyata keçirmək olar, gələn ilin sonuna qədər satışın həcmini neçə dəfə artırmaq və ya üç il ərzində daha neçə yeni satış məntəqəsi açmaq olar. Sonra, bu məqsədə (məqsədlərə) aparan vəzifələri ətraflı şəkildə müəyyənləşdirmək lazımdır.

Müəyyən etmək lazımdır ki, məqsədə çatmaq üçün nə lazımdır, hansı addımlar həyata keçirilməlidir. Məsələn, satışın həcmini artırmaq üçün menecerlər nəyi yenidən işləməlidirlər və daha neçə işçini işə götürmək, müştərilərlə ünsiyyət üçün nələri yenidən işləmək lazımdır, reklam xərclərini optimallaşdırmaq lazımdırmı. Əsas məsələlərdən biri hazırlanmış biznes strategiyanın necə, hansı yollarla reallaşdırılması ilə bağlıdır. Biznes strategiyanın səmərəli üsüllarla reallaşdırılması üçün aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilməlidir:

1.Müəssisənin cari vəziyyətinin müəyyənləşdirilməsi. Bunun üçün müəssisənin fəaliyyəti ilə bağlı aşağıdakı ən son məlumatları toplamaq lazımdır: satışın həcmi; təsərrüfat-istehsal fəaliyyəti nəticəsində əldə etdiyi mənfəət; məhsulların istehsalına və reallaşdırlmasına çəkilə xərclər.

Bunlarla yanaşı, işçilərin və menecerlərin fəaliyyətlərinin nəticələri, təchizatçılar və digər tərəfdaşlarla əməkdaşlıq şərtləri təhlil edilməlidir.

2.Müəssisənin imkanlarının müəyyənləşdirilməsi. Müəssisənin real imkanlarını qiymətləndirmək, onun güclü və zəif tərəflərini öyrənmək lazımdır. Müəssisə özünün güclü tərəflərini düzgünt qiymətləndirərsə, düzgün strategiya seçə bilər.

3.Müəssisənin idarəetmə strukturunda dəyişikliklərin hazırlanması. Bu, zəruri hallarda yeni bölmələr açmaq, əlavə işçilər işə götürmək və ya müəssisənin logistika şöbəsini yaratmaq üçün lazımdır. Mümkün kadr dəyişiklikləri əvvəlcədən təxmin edilərsə, müəssisə kritik anda düzgün çıxış yolunu tez tapa bilər.

4. Mümkün risklərin aradan qaldırılması. Bu addım mümkün itkilərin qarşısını almağa və müəssisəni iflasdan qorumağa kömək edə bilər. Bunun üçün meydana çıxan problemlər zamanı nə etmək lazım olduğunu müəyyənləşdirmək lazımdır. Məsələn, bir rəqib yaxınlıqda analoji müəssisə açırsa və ya təchizatçı qiymətləri qaldırırsa çıxış yolları müəyyən edilməlidir.

5. Biznes strategiyasında düzəlişlərin edilməsi. Bunun üçün makro və mikromühitdə baş verənləri daim təhlil etmək lazımdır. Məsələn, qanunvericilikdəki dəyişikliklər, yeni bazarların və ya rəqiblərin meydana gəlməsi nəzərə alınmalıdır. Strategiyada edilən dəyişikliklərə baxmayaraq, onlar səmərəli nəticələr əldə etməyə kömək edə bilər.

Təbiidir ki, müəssisəni hazirlanan biznes strategiyasının reallaşdırılmasının nəticələri maraqlandırır. Bunu müəyyən etmək üçün proqnozlaşdırılan göstəriciləri faktiki nəticələrlə müqayisə etmək lazımdır. Aralıq göstəriciləri müəyyən etmək üçün üçün biznes strategiyanın əhatə etdiyi müddəti mərhələlərə bölmək olar. Əgər strategiyanın məqsədi mənfəəti ildə iki dəfə artırmaqdırsa, hər ay satışın həcmi ilkin məlumatlarla müqayisə edilməlidir. Plandan kənarlaşmalar baş verərsə, biznes proseslərinə düzəlişlər edilməlidir: göstəricilərin yerinə yetirilməsinə cavabdeh olan menecerlər dəyişdirilə, yeni işçilər işə götürülə və ya köhnə işçilər öyrədilə bilər. Və dəyişikliklərdən sonra göstəriciləri yenidən təhlil etmək lazımdır.

Ancaq yadan çıxarmaq olmaz ki, biznes strategiyasının həyata keçirilməsində müəyyən risklər meydana çıxa bilər. Onların bəzilərindən yayınmaq, bəzilərini bölüşmək, digərlərini minimuma endirmək olar. Lakin qarşısını almaq mümkün olmayan risklər də vardır və onlar da nəzərə alınmalıdır. Belə risklərə aşağıdakılar aiddir: ölkənin siyasətində və iqtisadiyyatında baş verən dəyişikliklər; sərf edilən istehsal xərclərini geri qaytara bilməmək; bazarın müəssisənin eyni adlı məhsullarlı ilə həddindən artıq dolması; rəqiblərin istehlakçılara daha sərfəli təklifləri; standartların pozulması nəticəsində keyfiyyətin aşağı düşməsi; müqavilələrdə buraxılan səhvlər; zəif müştəri xidməti. Nəzərə almaq lazımdır ki, biznes strategiyanın gözlənilən nəticə verməməsinin əsas səbəblərindən biri tədqiqat və planlaşdırma mərhələsində baş verən səhvlərdən irəli gəlir. Bu səhvlər reallıqları düzgün qiymətləndirməmək və resursların səhv təhlili ilə əlaqədar ola bilər. Bəzi müəssisələr rəqib strategiyalarını və ya bazar dəyişikliklərini nəzərə almırlar. İşçilər arasında nəticə əldə etmək yollarını başa düşməmək və onları düzgün motivasiya etməmək də tipik səhvlərə daxildir. Ona görə də biznes strategiya formalaşdırarkən səhfə yol verməmək üçün iqtisadiyyatda baş verən dəyişikliklər, ölkənin qanunları və müəssisənin öz göstəriciləri ciddi təhlil edilməli, müəssisənin güclü və zəif tərəfləri nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Большаков Н. Бизнес-стратегия: что это такое, как ее разработать и реализовать. https://www.calltouch.ru/blog/biznes-strategiya-chto-eto-takoe-kak-ee-razrabotat-i-realizovat/

2. Кабаков И. Бизнес-стратегия компании или как занять свое место в будущем? В чем суть, зачем нужна и как разработать? https://vc.ru/marketing /185862-biznes-strategiya-kompanii-ili-kak-zanyat-svoe-mesto-v-budushchem-v-chem-sut-zachem-nuzhna-i-kak-razrabotat

3. Jinson Varghese. 10 Business Strategy Examples (And Why It Helps To Have One). https://www.indeed.com/career-advice/career-development/business-strategy-examples

Резюме

Садыгова С.С., Алиева И.Б.

Особенности формирования бизнес-стратегии предприятия

В статье отмечается, что бизнес-стратегия представляет собой документально оформленный план того, как предприятие будет достигать своих целей на рынке. Он должен основываться на миссии предприятия, давать точки роста и определять организационные решения о том, каких специалистов принимать в команду. В статье также упоминается, что для достижения эффективных результатов реализации бизнес-стратегии следует тщательно проанализировать изменения в экономике, законодательстве страны и собственных показателях предприятия, а также выявить сильные и слабые стороны предприятии, Для достижения поставленной цели в статье выдвинуты соответствующие рекомендации.

Ключевые слова: *предприятие, бизнес-стратегия, формирование, характеристики, предложения*

Summary
Sadigova S.S., Aliyeva I.B.
Features of Forming A Business Strategy For An Enterprise

The article notes that a business strategy is a documented plan of how an enterprise will achieve its goals in the market. It should be based on the mission of the enterprise, give growth points and determine organizational decisions about which specialists to take on the team. The article also mentions that in order to achieve effective results in the implementation of a business strategy, one should carefully analyze changes in the economy, the country's legislation and the company's own indicators, as well as identify the strengths and weaknesses of the enterprise. To achieve this goal, the article puts forward appropriate recommendations.

Key words: *enterprise, business strategy, formation, characteristics, proposals*

ORTA VƏ KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ STRUKTURUNUN TƏŞKİLİ

Seyidova Səmirə Rasim qızı
Sumqayıt Dövlət Universiteti
samira_seyidova@inbox.ru

Xülasə: *Bazar iqtisadiyyatının mühüm tərkib hissəsi olan sahibkarlıq özünü kiçik biznesdə göstərir. Kiçik biznes iqtisadi artım tempinə, ümumi milli məhsulun strukturuna və keyfiyyətinə təsir göstərir. Kiçik biznesin ən mühüm xüsusiyyətlərindən biri onun tez-tez dəyişən bazar mühitinə asanlıqla uyğunlaşma qabiliyyətidir. Bu vəziyyətdə, çevik hərəkətliliyi olan kiçik müəssisələr daha az məhsul istehsal edirlər, buna görə də onlardan böyük miqdarda inventar tələb olunmur. Kiçik bizneslə məşğul olan sahibkarlar maliyyə vəziyyətindən asılı olaraq qısa müddətdə öz fəaliyyətlərinin istehsal və satışının həcmini müəyyən edirlər. Digər tərəfdən, kiçik və orta müəssisələr texniki yenilikləri və onların sənaye nümunələrini tez bir zamanda tətbiq etmək imkanına malikdirlər.*

Açar sözlər: *kiçik biznes, maliyyə, orta biznes, müəssisə, fondlar, sahibkarlıq fəaliyyəti, risk, marketinq.*

Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında və inkişafında, yeni iş yerlərinin yaradılmasında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində kiçik sahibkarlığın rolu çox böyükdür. Qlobal iqtisadiyyatda diqqəti cəlb edən tendensiyalardan biri də kiçik və orta istehsal müəssisələrinin yaradılmasına və inkişafına diqqətin artırılmasıdır. Kiçik biznesə üstünlük verilməsi bir sıra iqtisadi və sosial səbəblərlə bağlıdır. Bunlara iri müəssisələrin buraxılması, istehsalın və əməyin təşkilində çevik formaların tətbiqi, məhsulların çeşidinin genişləndirilməsi və keyfiyyətinin yaxşılaşdırılması, istehsalçılar arasında rəqabətin artması və s. aid edilə bilər. Eyni zamanda, tədqiqatlar göstərir ki, son illərdə iqtisadi artım və iş yerlərinin yaradılması iri müəssisələrdən daha çox kiçik və orta istehsal müəssisələri tərəfindən təmin edilib.

Kiçik və orta sənaye müəssisələrinin yaradılması və inkişafı nəticəsində iqtisadiyyata elmi-texniki yeniliklərin, qabaqcıl texnologiyaların tətbiqi sürətlənir, əhalinin məşğulluq səviyyəsi yüksəlir, azad rəqabət mühiti yaranır. yaradılır. formalaşır. , sahibkarlar isə keyfiyyətli məhsul istehsal etmək üçün ciddi səy göstərirlər. Kiçik müəssisələrin xarakterini müəyyən edən əsas xüsusiyyət onların böyük həcmdə kapital qoyuluşu tələb etməməsi, bazar konyukturasının dəyişməsinə tez reaksiya verməsi, bazar iqtisadiyyatı şəraitində yüksək hərəkətliliyə və çevikliyə malik olmasıdır [1, s.164].

Azərbaycanda kiçik sahibkarlığın inkişafının növbəti mərhələsi dövlət müəssisələrinin özəlləşdirilməsi ilə bağlıdır, bundan sonra bu müəssisələrin bazasında səhmdar cəmiyyətləri yaradılmışdır . Əvvəllər mövcud olan müəssisələrdən fərqli olaraq, yeni yaradılmış kiçik (özəl) müəssisə təkcə lizinq yolu ilə alınmış maşın və avadanlıqlar hesabına deyil, həm də müəssisə sahibinin şəxsi maliyyə vəsaiti hesabına yaradıla bilər. Bu vəziyyət sahibkarların daha geniş fəaliyyət sahəsinə malik olmasına imkan verir və onlar istər istehsalat, istərsə də xidmət və satış sahələrində işləyə bilirlər . Bazar iqtisadiyyatına keçidlə əlaqədar həyata keçirilən genişmiqyaslı iqtisadi islahatlar, dövlət əmlakının özəlləşdirilməsi, torpaq islahatı və idarəetmədə mütərəqqi struktur dəyişiklikləri nəticəsində ölkədə makroiqtisadi sabitlik bərqərar olmuş, ölkədə sahibkarlıq fəaliyyəti daha da gücləndirilmişdir.

Müəssisənin maliyyə münasibətlərinə aşağıdakılar daxildir. Kiçik biznesin maliyyələşdirilməsinə aşağıdakılar daxil ola bilər [2, s.289]:

- xammal, material və yanacağın alınması, hazır məhsulların satışı, yeni binaların, emalatxanaların, anbarların, yaşayış binalarının tikintisi, yüklərin daşınması və s .
- müəssisə daxilində gəlirin ehtiyaclara uyğun bölüşdürülməsi; - müəssisənin işçilərindən əmək haqqının, səhm üzrə dividendlərin ödənilməsi, vergilərin yığılması;
- kreditlərin alınması və ödənilməsi zamanı bank sistemi ilə əlaqələrin qurulması;
- müxtəlif səviyyəli büdcələrə vergilərin və digər daxili ödənişlərin ödənilməsi zamanı dövlət maliyyə sistemi ilə sıx qarşılıqlı əlaqə;
- sığorta şirkətləri və əmlak sığortası təşkilatları, müəssisənin ayrı-ayrı kateqoriya işçiləri, kommersiya və maliyyə riskləri ilə əlaqələrin qurulması;
- sənaye və maliyyə aktivləri ilə əməliyyatlar üzrə əmtəə, əmtəə və fond birjaları ilə daimi əlaqə saxlamaq;
- özəlləşdirmə, investisiyaların yerləşdirilməsi və müxtəlif investisiya fondları və şirkətləri ilə digər əməkdaşlıq;
- əmək kollektivlərinin üzvü olmayan səhmdarlarla işgüzar münasibətlərin qurulması.

İstənilən müəssisənin maliyyə fəaliyyətinin əsas istiqaməti onun istehsal ehtiyaclarını, habelə müxtəlif növ təsərrüfat müəssisələrinin sadə və geniş təkrar istehsalı üçün vəsait təmin edən pul fondunun yaradılmasından ibarətdir. Müəssisənin pul fondunun yaradılması onun təşkilindən başlayır. Nizamnamə kapitalı şirkətin öz vəsaitlərinin əsas mənbəyidir. Onun ölçüsü təşkilatın nizamnaməsində göstərilir və mövcud prosedurla müəyyən edilir. Əsas və dövriyyə kapitalı nizamnamə kapitalından yaradılır. Onlar əsas və dövriyyə kapitalının yaradılması üçün istifadə olunur.

Maliyyə vəsaitlərinin hərəkəti aşağıdakı vasitələrdən ibarətdir [3, s.197]:

- şirkətin maliyyə-təsərrüfat fəaliyyəti nəticəsində alınan;
- maliyyə bazarında səhmlərin, istiqrazların və kreditlərin satışı ilə əldə edilən;
- kapitalın ödənilməsi üçün faizlər və dividendlər şəklində maliyyə bazarı subyektlərinə qaytarılır.

Yuxarıda sadalananan vasitələr bir biri ilə əlaqəli olmaqla maliyyə vəsaitlərinin hərəkətini xarakterizə edir.

Ədəbiyyat

1. Agayev A. Maliyyə: Terminlər lüğəti. Bakı, “Elm”, 2005, 416 s.
2. Novruzov N., Hüseynov X. Maliyyə: Dərslik, Bakı, “Elm”, 2007, 530 s.
3. Yahudov X. Müəssisələrin iqtisadiyyatı: Dərslik, Bakı, “Elm”, 2002, 339 s.

Резюме

Сеидова С.Р.

Организация финансовой структуры средних и малых предприятий

Предпринимательство, являющееся важной составляющей рыночной экономики, проявляется в малом бизнесе. Малый бизнес влияет на темпы экономического роста, структуру и качество валового национального продукта. Одной из важнейших характеристик малого бизнеса является его способность легко адаптироваться к часто меняющейся рыночной среде. В этом случае малые предприятия с гибкой мобильностью производят меньше продукции, поэтому им не нужен большой объем товарных запасов. Предприниматели, занимающиеся малым бизнесом, определяют объемы производства и реализации своей деятельности в короткий период времени в зависимости от своего материального положения. С другой стороны, малые и средние предприятия имеют возможность быстро применять технические новшества и их промышленные модели.

Ключевые слова: *малый бизнес, финансы, средний бизнес, предприятие, фонды, предпринимательская деятельность, риск, маркетинг*

Summary

Seidova S.R.

Organization of the Financial Structure of Medium and Small Enterprises

Entrepreneurship, which is an important component of a market economy, is manifested in small businesses. Small business affects the rate of economic growth, the structure and quality of the gross national product. One of the most important characteristics of a small business is its ability to easily adapt to a frequently changing market environment. In this case, small enterprises with flexible mobility produce less products, so they do not need a large amount of inventory. Entrepreneurs engaged in small business

determine the volume of production and sales of their activities in a short period of time, depending on their financial situation. On the other hand, small and medium-sized enterprises have the ability to quickly apply technical innovations and their industrial models.

Key words: *small business, finance, medium business, enterprise, funds, entrepreneurial activity, risk, marketing*

MÜƏSSİSƏNİN FƏALİYYƏTİNDƏ MALİYYƏNİN ROLU

Səlimova İlahiyə Sərdar qızı, Qəmbərova Xalidə Niyaz qızı
Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci
ilahiyeselimova1968@gmail.com

Xülasə: *Məqalədə müəssisədə maliyyənin rolundan bəhs edilir. Maliyyənin öyrənilməsinin aktuallığı ondan ibarətdir ki, onlar müəssisənin fəaliyyətində mühüm rol oynayır. Tədqiqatın məqsədi müəssisənin fəaliyyətində maliyyənin rolunu müəyyən etməkdir. Burada maliyyə anlayışı, onların hansı funksiyaları yerinə yetirməsi, maliyyənin müəssisə daxilində necə yenidən bölüşdürülməsi öyrənilir.*

Açar sözlər: *maliyyə, gəlir, pul münasibətləri, müəssisənin resursları*

Hazırda maliyyə müəssisənin fəaliyyətini təmin edən əsas resurslardan biridir. Müəssisənin maliyyəsi dedikdə yığım və gəlir əldə etmək kimi mənbələrə əsaslanan formalaşmış pul münasibətləri sistemi başa düşülür. Bazar iqtisadiyyatı şəraitində müəssisənin səmərəli idarə olunmasını təmin edən mühüm şərtlərdən biri maliyyə resurslarının idarə olunmasıdır. Bu proses həm də müəssisənin sabitliyini və səmərəliliyini artırmağa kömək edən maliyyə idarəetməsi adlanır [1, s. 23]. Maliyyə menecmentinin əsasını müəssisənin tələbatını ödəmək, investisiya fəaliyyətini təmin etmək və dövlət orqanları qarşısında maliyyə öhdəliklərini yerinə yetirmək üçün akual və vaxtında resurslarla təmin etməkdən ibarət olan maliyyə fəaliyyəti təşkil edir.

Müəssisənin maliyyəsi dövlət maliyyə sisteminin nisbətən müstəqil sahəsidir, müxtəlif pul vəsaitlərinin hərəkətində ifadə olunan müəssisənin vəsaitlərinin dövriyyəsi prosesində kapitalın, gəlirin, pul vəsaitlərinin formalaşması və istifadəsi ilə bağlı pul münasibətlərinin geniş spektrini əhatə edir. Məhz bu maliyyə sahəsində gəlirlərin əsas hissəsi formalaşır, sonradan milli iqtisadi siyasətdə müxtəlif kanallar vasitəsilə yenidən bölüşdürülür, iqtisadi artımın və cəmiyyətin sosial inkişafının əsas mənbəyi kimi çıxış edir.

Maliyyə fəaliyyətinə aşağıdakı fəaliyyətlər daxildir:

- maliyyə planlaşdırması, büdcənin tərtibi;
- maliyyə təhlili;
- maliyyə və pul vəsaitlərinin hərəkətinin idarə edilməsi;
- investisiya siyasətinin müəyyən edilməsi və idarə edilməsi;
- dövlət orqanları ilə əlaqələrin təşkili və s.

Qeyd etmək lazımdır ki, maliyyə fəaliyyəti çoxşaxəli anlayışdır. Maliyyə fəaliyyəti müəssisənin maliyyə resurslarının idarə edilməsinə dair elm kimi başa düşülə bilər ki, hansı ki onlardan istifadənin səmərəliliyinin artırmasına yönəlmişdir. Həmçinin müəssisənin maliyyə fəaliyyəti müəssisədə maliyyə resurslarının idarə edilməsinin ekosistemdir ki, onlardan rasional və səmərəli istifadəni təmin etməlidir. Bu konsepsiya müəssisələrə maliyyə və pul resurslarının səmərəli idarə edilməsi üsullarını formalaşmasına kömək etməyə yönəlmiş müəyyən bir fəaliyyət növü kimi başa düşülə bilər [2, s. 53].

Müəssisənin iqtisadi fəaliyyətində maliyyənin rolu ondan ibarətdir ki, onun köməyi ilə aşağıdakılar həyata keçirilir:

- fondların individual dövriyyəsinə xidmət, yəni dəyər formalarında dəyişiklik baş verir: pul forması əmtəəyə çevrilir, sonra isə əmtəə dəyərin pul formasına qayıdır (istehsal prosesləri başa çatdıqdan sonra məhsulların satışından əldə edilən gəlirlər şəklində hazır məhsulların satışı);
- malların satışından əldə edilən gəlirin (dolayı vergilər ödənildikdən sonra) maddi xərclərin, o cümlədən amortizasiyanın, əmək haqqı fondunun və mənfəət şəklində fəaliyyət göstərən xalis gəlirin ödənilməsi fonduna bölüşdürülməsi;
- büdcəyə ödənişlər üzrə xalis gəlirin (mənfəət vergisi) istehsal və sosial sahədə inkişafı üçün müəssisənin sərəncamında qalan mənfəətin yenidən bölüşdürülməsi;
– müəssisənin sərəncamında qalan mənfəətdən (xalis mənfəət) istehlak fondlarına, əmanətlərə və onun maliyyə planında nəzərdə tutulmuş digər məqsədlərə istifadə edilməsi;

- fondların indiviual dövriyyəsi prosesində maddi və pul vəsaitlərinin hərəkəti, yəni müəssisənin likvidlik vəziyyəti, ödəmə qabiliyyəti və xarici maliyyələşdirmə mənbələrindən maliyyə müstəqilliyi arasındakı uyğunluğa riayət edilməsinə nəzarət [3, s. 197].

Müəssisələrin maliyyəsi ölkənin bütün maliyyə sisteminin ilkin əsasını təşkil edir. Onlar ictimai məhsulun yaradıldığı, milli sərvətin və milli gəlirin ölkənin maliyyə resurslarının əsas mənbəyi olduğu ictimai təkrar istehsal sferasında bütün pul münasibətlərinin ən mühüm hissəsini əhatə etdiyi üçün bu sistemdə həlledici mövqe tutur. Maliyyə resursları təsərrüfat subyektinin sərəncamında olan bütün vəsaitlərin və daxilolmaların məcmusudur [2, s. 86]. Qeyd edək ki, maliyyə əməliyyatları istənilən müəssisədə həyata keçirilir. Nəticə etibarilə, maliyyə müəssisənin fəaliyyətinin həyata keçirilməsi prosesində mühüm elementdir, ona görə də onların səmərəli idarə olunmasını təmin etmək lazımdır. Müəssisədə maliyyənin formalaşması həm xüsusi, həm də cəlb olunan mənbələr hesabına baş verir. Amma əsas mənbə mənfəətdir. Eyni zamanda maliyyə vəsaiti aşağıdakı məqsədlər üçün istifadə edilə bilər:

- əmək haqqı fondunun formalaşdırılması;
- müəssisənin inkişafı fondunun formalaşdırılması;
- müəssisə borclarının ödənilməsi;
- büdcəyə ayırmaların ödənilməsi;
- zəruri materialların, xammalın alınması [1, s. 24].

Müəssisələrin maliyyəsi maliyyə münasibətləri sisteminin bir hissəsi olmaqla, xalq təsərrüfatının müxtəlif sahələrində olan müəssisələrdə gəlirlərin formalaşması, bölüşdürülməsi və istifadəsi prosesini əks etdirir və sahibkarlıq fəaliyyəti ilə sıx bağlıdır, çünki müəssisə sahibkarlıq fəaliyyətinin bir formasıdır.

Maliyyənin bir neçə funksiyası var: bölüşdürücü, nəzarət, tənzimləyici və stimullaşdırıcı. Müəssisə və təşkilatların maliyyə funksiyaları ümumdövlət funksiyaları ilə eynidir. Əsas funksiyalara bölüşdürücü və nəzarət daxildir. Bununla belə, bir çox iqtisadçılar maliyyənin tənzimləyici və stimullaşdırıcı funksiyalarını da qeyd edirlər. Bütün funksiyalar bir-biri ilə sıx bağlıdır.

Bölüşdürmə funksiyası vasitəsilə təsisçilərin investisiyası hesabına formalaşan ilkin kapitalın formalaşması, onun istehsala avanslaşdırılması, kapitalın təkrar istehsalı, ayrı-ayrı istehsalçıların, təsərrüfat subyektlərinin və bütövlükdə dövlətin maraqlarının optimal təmin edən gəlirlərin və maliyyə resurslarının bölüşdürülməsində əsas proporsiyaların yaradılması baş verir. Maliyyənin bölüşdürmə funksiyası daxil olan gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi yolu ilə kommersiya müəssisə və təşkilatlarının pul fondlarının formalaşması ilə bağlıdır. Bunlara aşağıdakılar aiddir: nizamnamə kapitalı və ya nizamnamə fondu, ehtiyat fondu, əlavə kapital, yığım fondu, istehlak fondu, valyuta fondu və s.

Bölüşdürmə münasibətləri həm bütövlükdə cəmiyyətin, həm də ayrı-ayrı təsərrüfat subyektlərinin, onların işçilərinin, səhmdarlarının, kredit və sığorta təşkilatlarının maraqlarına toxunur. Buna görə də əsas vəzifə onların optimal təşkilidir. Bu vəzifəni maliyyənin nəzarət funksiyası yerinə yetirir.

Vəsaitlərin normal dövriyyəsi pozulduqda, məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi xərcləri artdıqda, təsərrüfat subyektinin və bütövlükdə cəmiyyətin gəlirləri azalır ki, bu da istehsal prosesində nöqsanları, bölgü münasibətlərinin istehsalın səmərəliliyinə kifayət qədər təsir göstərməməsi haqqında xəbər verir. Maliyyə göstəricilərinin təhlili təsərrüfat fəaliyyətinin nəticələrini qiymətləndirməyə və zərurət yarandıqda maliyyə nəticələrini yaxşılaşdırmaq üçün maliyyə təsir tədbirlərini tətbiq etməyə imkan verir.

Nəzarət funksiyasının obyektiv əsasını məhsulların istehsalı və satışı, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi, gəlir və pul vəsaitlərinin yaradılması prosesi üzrə məsrəflərin uçotu təşkil edir. Maliyyə bölgü münasibətləri kimi təkrar istehsal prosesinin (bölüşdürmə funksiyası) maliyyə mənbələrini təmin edir və bununla da təkrar istehsal prosesinin bütün mərhələlərini: istehsal, mübadilə, istehlakı birləşdirir. Lakin məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi prosesində yaranan və satışdan sonra əldə edilən gəlirdən artıq gəliri bölüşdürmək və istifadə etmək mümkün deyil. Təsərrüfat subyektinin əldə etdiyi gəlirin miqdarı onun gələcək inkişafı imkanlarını müəyyən edir. Müəssisənin rəqabət qabiliyyəti, maliyyə sabitliyi istehsalın səmərəliliyindən, xərclərin azaldılmasından, maliyyə resurslarından rasional istifadədən asılıdır.

Maliyyənin tənzimləmə funksiyası dövlət tərəfindən icazə verilən münasibətlər kimi maliyyənin əsas xarakterik xüsusiyyəti ilə müəyyən edilir. Maliyyə və onların mexanizmləri vasitəsilə iqtisadiyyatın əsas makroiqtisadi proporsiyaları tənzimlənir: qiymət səviyyəsi, ümumi milli məhsulun həcmi, faiz dərəcələri və s. Məhz maliyyə genişlənmiş təkrar istehsalı stimullaşdırır və cəmiyyətin istehsal və sosial tələbatı üçün istifadə olunan mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaitlərinin yaradılması üzrə məqsədəuyğun fəaliyyəti müəyyən edir. Sadə dillə desək tənzimləmə funksiyası cəmiyyətin və dövlətin mövcud tələbat və imkanlarını təsnif etmək və sistemləşdirməkdən ibarətdir.

Maliyyənin stimullaşdırıcı funksiyası ondan ibarətdir ki, dövlət bütöv maliyyə rıçaqları sisteminin köməyi ilə müəssisələrin və ya bütövlükdə sənayenin inkişafına cəmiyyət üçün lazım olan istiqamətdə təsir göstərə bilər. Pul gəlirlərinin bölüşdürülməsi kimi maliyyə rıçaqlarına malik olan dövlət istənilən iqtisadi prosesin inkişafını səmərəli şəkildə stimullaşdıra və ya əngəlləyə bilər. Həmçinin iqtisadi proseslərə təsir rıçaqlarına aşağıdakılar daxildir: büdcə, qiymətlər və tariflər, vergilər, ixrac-idxal rüsumları, dotasiyalar.

Beləliklə, belə nəticəyə gələ bilərik ki, maliyyə müəssisənin fəaliyyətində mühüm rol oynayır, çünki bütün istehsal prosesi məhz bu resurs hesabına təmin edilir. Buna görə də müəssisənin səmərəli fəaliyyəti üçün bu resursa ciddi diqqət yetirmək lazımdır.

Ədəbiyyat

1. Баскакова О.В. Экономика организаций (предприятий). М.: Дашков и К, 2019. 315 с.

2. Колчина Н.В. Финансы предприятий: Учебник для вузов. 2-е изд., перераб. и доп. М.: ЮНИТИ-ДАНА, 2019. 447 с.

3.Нацыбулина А.К. Теоретические основы анализа и оценки финансовой деятельности предприятия// Трибуна ученого. 2019. № 11. С.197-213

Резюме

Салимова И.С., Гамбарова Х.Н.

Роль финансов в деятельности предприятия

В статье рассматривается роль финансов на предприятии. Актуальность изучения финансов состоит в том, что они играют важную роль в деятельности предприятия. Цель исследования – выявить роль финансов в деятельности предприятия. Здесь изучается понятие финансов, какие функции они выполняет, как происходит перераспределение финансов внутри предприятия.

Ключевые слова: *финансы, доходы, денежные отношения, ресурсы предприятия*

Summary

Salimova I.S., Gambarova Kh.N.

The Role of Finance in the Company's Activities

The article discusses the role of finance in the enterprise. The relevance of the study of finance is that they play an important role in the activities of the enterprise. The purpose of the study is to identify the role of finance in the company's activities. Here we study the concept of finance, what functions it performs, and how finance is redistributed within the enterprise.

Key words: *finance, income, monetary relations, enterprise resources*

BİRGƏ MÜƏSSİSƏDƏ İNVESTİSİYANIN UÇOTUNUN APARILMASI XÜSUSİYYƏTLƏRİ

Şükürova Esmira Həsən qızı, Bağırova Tahirə Hasil qızı

Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci

esmirashukurova14@gmail.com

Xülasə: *Biznesin inkişafının ən güclü alətlərindən biri birgə müəssisələrdir, çünki onlar şirkətlərə və fiziki şəxslərə hər bir tərəfin riskini azaltmaqla potensial gəlirli sövdələşmələri bağlamaq üçün bilik, təcrübə və resursları birləşdirməyin rahat yolunu təklif edir. Məqalədə birgə müəssisələrin formaları, habelə pay metodundan istifadə etməklə birgə müəssisədə investisiya uçotunun xüsusiyyətləri araşdırılır.*

Açar sözlər: *birgə müəssisə, birgə müəssisədə mühasibat uçotu, nəzarət, pay iştirakı metodu, əhəmiyyətli təsir, investor*

Təcrübədə birgə müəssisənin (BM) yaradılması hüquqi və maliyyə cəhətdən bir-birindən asılı olmayan iki və ya daha çox şirkətin əməkdaşlığa başlamaq qərarına gəlməsi deməkdir. Bundan əlavə hər bir müəssisə birgə müəssisəyə daxil olmayan digər kommersiya fəaliyyəti ilə məşğul olmağa davam edə bilər. Muxtariyyəti qorumaqla tərəfdaşlar birgə layihələri həyata keçirmək və bununla da öz məqsədlərinə nail olmaq üçün qüvvələri və resursları konkret sektorda birləşdirir. Tərəfdaşlar maliyyə riskini üzərlərinə birgə götürürlər və həm uğurda, həm də uğursuzluqda mənfəət və ya zərəri bölüşürlər. Aydındır ki, bu halda

məsələlərin həllində səs hüququ və mənfəətin faizi müqavilə ilə müəyyən edilən tərəfdaşların investisiyasının məbləğinə uyğundur [1].

Birgə müəssisələr adətən 2 yerə bölünür:

- müqaviləli birgə müəssisələr;

-korporativ formada birgə müəssisələr.

Korporativ birgə müəssisə dedikdə tərəfdaşların muxtar üçüncü şirkət yaratdıqlarını nəzərdə tuturuq. Bu ayrı-ayrı tərəfdaşların qeyri-məhdud maliyyə məsuliyyətini istisna edir. Korporativ birgə müəssisədən fərqli olaraq müqaviləli birgə müəssisədə və ya qeyri-korporativ birgə müəssisədə tərəfdaşlar heç bir törəmə müəssisə yaratmır və buna görə də muxtar hüquqi şəxs kimi formalaşmır. Burada iştirakçı şirkətlər arasında xərclərin, risklərin və mənfəətin bölüşdürülməsi müqavilələrlə tənzimlənir. Müqaviləli birgə müəssisənin üstünlükləri fondun yaradılması xərclərinin aşağı olması, müqavilə şərtlərinin daha çevik olması, zərər və mənfəətin sərbəst bölgüsü və biznes qərarlarında səs hüququna malik olmasıdır. Bu halda tərəfdaş şirkətlərdən öz kapitallarına zəmanət tələb olunmur, lakin onlar birbaşa məsuliyyət daşıyır [2].

Birgə müəssisələrin uçot əməliyyatlarının əks etdirilməsi iki metodla həyata keçirilir. Hansı birinin istifadə edilməsi şirkətlərin balans və maliyyə nəticələrinin hesabatlarının bu tərəfdaşlığı necə əks etdirməsindən asılıdır.

Birinci metod pay iştirakı. Pay iştirakı metodu şirkətin başqa şirkətdə (və ya şirkətlərdə) əhəmiyyətli payı olduqda istifadə olunur. Tutaq ki, A şirkəti B şirkətində 50% səhmlərin nəzarət zərfinə malikdir. Bu halda A şirkəti biznes gəlirlərindən başqa öz maliyyə hesabatlarında mənfəət və ya zərərləri qeyd etmək üçün pay iştirakı metodundan istifadə edəcək. Məsələn, B şirkətinin illik xalis gəliri 10 milyon ABŞ dolları təşkil edirsə, o zaman nəzarət edən A şirkəti 5 milyon dollar mənfəəti hesabatına əlavə edəcək.

İkinci metod konsolidasiyadır. İnvestor şirkəti investisiya qoyduğu şirkət üzərində tam nəzarəti həyata keçirdikdə, bu şirkətləri əsas və törəmə şirkət adlandırmaq olar. Bu halda əsas şirkət tərəfindən törəmə şirkətə qoyulmuş investisiya konsolidasiya metodundan istifadə etməklə uçota alınır.

Bu məqalədə birinci metodu nəzərdən keçirəcəyik, çünki investorun şirkətə əhəmiyyətli təsir göstərdiyi hallara daha çox rast gəlinir. İnvestisiya uçotu qaydaları MHBS (IAS) 28 “Assosiasiya və birgə müəssisələrə investisiyalar” [3] ilə müəyyən edilir. Standartın məqsədi aşağıdakıları müəyyən etməkdir:

− assosiasiya şirkətinə investisiyaların uçotu qaydaları;

− assosiasiya və birgə şirkətlərə investisiyaların uçotu zamanı pay iştirakı metodunun istifadəsinə dair tələblər.

Qeyd edək ki, assosiasiya şirkətinə investor əhəmiyyətli dərəcədə təsir edir. Digər tərəfdən, birgə müəssisə tərəflərin şirkət üzərində birgə nəzarəti həyata keçirdikləri və xalis aktivlər üzərində hüquqlara malik olduqları ümumi fəaliyyətdir. MHBS (IAS) 28 tam və ya birgə nəzarət olmadan şirkətin maliyyə və əməliyyat (iqtisadi) siyasəti ilə bağlı qərarların qəbulunda iştirak etmək hüququna "əhəmiyyətli təsir"i müəyyən edir [4]. Bununla belə bu nəzarəti və ya əhəmiyyətli təsir olduğunu müəyyən etmək bəzən çətindir, buna baxmayaraq, mühasib bu məsələdə yanıla bilməz, çünki mühasibat uçotu və maliyyə hesabatı bu təsnifatdan asılıdır.

Əhəmiyyətli təsirin əsas göstəricisi (birbaşa və ya dolayı) investisiya obyektinin səs verən səhmlərinin 20%-dən çoxuna sahib olmasıdır. Qeyd etmək lazımdır ki, bu, ciddi bir qayda deyil və əslində belə bir pay çox vaxt əhəmiyyətli təsirə uyğun gəlmir.

Belə olur ki, investor səslərin 20%-dən çoxuna (lakin 50-dən az) sahibdir və investisiya obyekti üzərində nəzarəti əldə edir.

Əhəmiyyətli təsiri sübut etməyin digər yolları aşağıdakılardır:

- investor şirkətin direktorlar şurasında (və ya digər ekvivalent idarəetmə orqanında) yer tutur;

- investor şirkətin siyasətinin işlənib hazırlanması prosesində (dividendlərin ödənilməsi ilə bağlı qərarlar daxil olmaqla) iştirak edir;

− investorla şirkət arasında əhəmiyyətli əməliyyatlar aparılır;

− investor və şirkət arasında idarəetmə kadrlarının mübadiləsi aparılır;

− şirkət investoru lazımi texniki və idarəetmə məlumatları ilə təmin edir.

Beləliklə investor birgə müəssisə üzərində əhəmiyyətli təsir və ya nəzarət əldə etdikdən sonra o, uçotda pay iştirakı metodundan istifadə etməlidir.

Pay iştirakı metodunun əsas prinsipləri aşağıdakılardır:

− birgə müəssisədə investisiyalar maya dəyəri ilə tanınır;

− investisiyanın maya dəyəri ilə investorun şirkətdəki payı arasında fərq varsa (müəyyən edilən aktiv və öhdəliklərin ədalətli dəyəri ilə qiymətləndirilən), onda uçot bu fərqin müsbət və ya mənfi olmasından asılıdır;

− fərq müsbət olarsa (maya dəyəri investorun payından yüksəkdir), onda ayrıca tanınmayan qudvil mövcuddur. O, investisiyanın dəyərinə daxil edilir və amortizasiya olunmur;

− fərq mənfi olduqda (maya dəyəri investorun payından aşağıdır), o, investisiyanın əldə edildiyi dövrdə mənfəət və ya zərərin daxilində gəlir kimi tanınır.

İlkin tanındıqdan sonra növbəti uçot aşağıdakı kimi həyata keçirilir:

- investisiyanın balans dəyəri investorun əldə etmə tarixindən sonra investisiya üzrə xalis mənfəət və ya zərərdəki payı qədər artır və ya azalır;

− assosiasiya şirkəti və ya birgə müəssisə itki verirsə və bu itkilər investisiyanın balans dəyərindən artıqdırsa, investor investisiyanın balans dəyərini sıfırdan aşağı endirə bilməz. O sadəcə daha itki vermir;

− şirkət investora dividendlər payladıqda, belə bölgü investisiyanın balans dəyərini azaldır.

Beləliklə birgə müəssisənin uçotu müəssisə üzərində nəzarətin səviyyəsindən asılıdır. Pay iştirakı metodundan istifadə edib-etməmək barədə qərar qəbulunun əsas elementi investorun birgə müəssisəyə təsirinin dərəcəsidir (əhəmiyyətidir).

Birgə müəssisənin uçotu biznesinizi genişləndirməyin vacib və sərfəli üsuludur. Yeni bazarlara genişlənmək istəyən şirkətlər adətən dünya mühasibat standartlarına və biznes tələblərinə uyğun olaraq dəyişən birgə uçotdan istifadə edirlər. Bu baxımdan bu gün pay iştirakı metodu daha çox yayılmışdır.

Ədəbiyyat

1.ЛазаревaТ.Г. К вопросу о требованиях, предъявляемых к совместному предпринимательству / Т. Г. Лазарева. – Текст: непосредственный // Молодой ученый. – 2016. — № 6.5 (110.5). – С. 123-125

2. Edward A. Haman Are you thinking about creating a joint venture? [Электронный ресурс]//Режим доступа: https://www.legalzoom.com/articles/thinking-of-forming-a-joint-ventureheres-what-you-need-to-know(дата обращения: 19.10.2021)

3. Консультант Плюс Международный стандарт финансовой отчетности (IAS) 28 «Инвестиции в ассоциированные организации и совместные предприятия» (введен в действие на территории Российской Федерации приказом Минфина России от 28.12.2015 N 217н) (ред.от 04.06.2018) [Электронный ресурс]//Режимдоступа: http://www.consultant. ru/document/cons_doc_LAW_193601/8018a4dab20cf5c1dc166729a67b665 17176ef08/(дата обращения: 19.10.2021)

4. МСФО (IAS) 28 Международный стандарт финансовой отчетности (IAS) 28 «Инвестиции в ассоциированные организации и совместные предприятия» [Электронный ресурс] // Режимдоступа: https://www.minfin.ru/common/upload/library/2017/01/main/MSFO_IAS_28.pdf (дата обращения: 19.10.2021)

Резюме

Шукурова Э. Х., Багирова Т. Х.

Специфика бухгалтерского учета инвестиций на совместном предприятии

Одним из самых мощных инструментов для развития бизнеса являются совместные предприятия, которые предлагают компаниям и частным лицам удобный способ объединения знаний, опыта и ресурсов для заключения потенциально прибыльных сделок, снижая при этом подверженность риску каждой стороны. В данной статье рассмотрены формы совместных предприятий, а также специфика бухгалтерского учета инвестиции на совместном предприятии с использованием метода долевого участия.

Ключевые слова: *совместное предприятие, бухгалтерский учет на совместном предприятии, контроль, метод долевого участия, значительное влияние, инвестор*

Summary

Shukurova E. H., Bagirova T. H.

Specifics of Accounting for Investments in a Joint Venture

One of the most powerful tools for business development is joint ventures, which offer companies and individuals a convenient way to combine knowledge, experience and resources to close potentially profitable deals, while reducing the risk exposure of each party. This article discusses the forms of joint ventures, as well as the specifics of accounting for investments in a joint venture using the equity method.

Key words: *joint venture, accounting in a joint venture, control, equity method, significant influence, investor*

AZƏRBAYCANDA SAHİBKARLIĞIN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAFI XÜSUSİYYƏTLƏRİ

Zeynalov Mahir Həmzə oğlu
İqtisadiyyat İnstitutu
zeynalli75@mail.ru

Xülasə: *Məqalədə Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi islahatlar nəticəsində biznes mühitinin yaxşılaşdırılmasından, dövlətin sahibkarlığın inkişafına dəstəyindən, iqtisadiyyatda özəl sektorun rolunun və əhəmiyyətinin artmasından bəhs olunur. Hökumətin iqtisadi islahatlar üzrə əsas hədəfləri arasında yer alan kiçik və orta sahibkarlığın inkişafı meyilləri, dövlət dəstəyi alətlərindən biri kimi sahibkarlara güzəştli kreditlərin verilməsi, pandemiyadan zərər çəkmiş sahibkarlara bank kreditləri üzrə dövlət zəmanəti mexanizmi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması təhlil olunur.*

Açar sözlər: *biznes mühiti, sahibkarlıq, özəl sektor, iqtisadi islahatlar, dövlət dəstəyi, güzəştli kredit*

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafına dəstək göstərilməsi dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Dövlət müxtəlif iqtisadi yollarla sahibkarlığın inkişafını təşviq edir. Çünki sahibkarlıq fəaliyyətinə iqtisadi artımın əsası kimi baxılır. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ində bunlarla baglı konseptual məsələlər baxılmışdır[1].

Bütün bu hədəflər birbaşa sahibkarlıq fəaliyyətilə bağlı olmaqla yanaşı, onun inkişaf etirilməsini əsas prioritet kimi özündə cəmləşdirir.

Əldə edilən nailiyyətləri yüksək qiymətləndirərkən onu da qeyd etmək lazımdır ki, beynəlxalq təcrübəyə uyğun ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması və innovativ sahibkarlığın inkişafı baxımından bu sahədə görüləcək işlər kifayət qədərdir [2, s.4].

Ölkədə həyata keçirilən uğurlu iqtisadi islahatların nəticəsidir ki, biznes mühiti yaxşılaşır, sahibkarların sayı artır, iqtisadiyyatda özəl sektorun rolu və payı yüksəlir. Belə ki, əgər 1995-ci ildə ölkədə ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı 30,3 faiz təşkil edirdisə, sonrakı illərdə artaraq 2000-ci ildə 70,8%-ə, 2005-ci ildə 77,8%-ə, 2010-cu ildə 81,7%-ə, 2019-cu ildə 85%-ə yüksəlmiş, 2021-ci ildə 83,5% təşkil etmişdir. 2020-ci ildə ildə əvvəlki ilə nisbətən 4,2% azalma baş versə də, 2021-ci ildə yenidən artım qeydə alınmışdır. 2020-ci ildə azalmanın əsas səbəbi isə COVİD-19 pandemiyasının iqtisadiyyata, xüsusən də xəstəliklə əlaqədar olaraq həyata keçirilən məcburi qapanmalar nəticəsində özəl sektorun fəaliyyətinə mənfi təsiri ilə bağlıdır. Bu özünü daha çox sənaye, nəqliyyat, rabitə, sosial və digər xidmətlər sahəsində göstərib (Cədvəl 1).

Cədvəl 1

ÜDM-də qeyri-dövlət bölməsinin payı, illər və sahələr üzrə, faizlə

	1995	2000	2005	2010	2015	2017	2018	2019	2020	2021
ÜDM - cəmi	30,3	70,8	77,8	81,7	81,2	83,8	84,7	85,0	80,8	83,5
Sənaye	5,5	48,4	84,5	87,4	83,0	87,9	89,6	89,3	85,6	88,8
Tikinti	79,0	63,5	90,4	72,0	84,5	84,6	80,2	82,9	84,6	87,5
Kənd təsərrüfatı	61,5	99,0	97,8	99,7	99,8	99,9	99,9	99,9	99,9	99,9
Ticarət və xidmətlər	82,4	98,3	97,8	99,2	99,6	99,7	99,8	99,7	99,9	99,7
Nəqliyyat	4,6	62,6	37,5	75,3	81,7	82,4	83,1	83,4	80,1	84,8
Rabitə	10,0	57,8	80,2	78,6	81,0	81,2	82,0	82,4	80,8	81,5
Sosial xidmətlər	24,1	78,8	31,8	47,0	57,8	56,1	56,4	60,0	51,0	52,5

Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts/ 12.10.2022

1995-2021-ci illərdə iqtisadiyyatın bütün sahələrində özəl sektorun xüsusi çəkisinin artımı müşahidə edilmişdir. Belə ki, ÜDM-də özıl sektorun payı 1995-ci ildə sənayedə 5,5%-dən 2021-ci ildə 88,8%-ə,

tikintidə 79%-dən 87,5%-ə, kənd təsərrüfatında 61,5%-dən 99,9%-ə, ticarət və xidmətlər sahəsində 82,4%-dən 99,7%-ə, nəqliyyatda 4,6%-dən 84,8%-ə, rabitədə 10%-dən 81,5%-ə, sosial və s. xidmətlər üzrə 24,1%-dən 52,5%-ə yüksəlmişdir. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin proqnozlarına görə, ÜDM-də özəl sektorun payı 2025-ci ilədək 88%-ə çatacaq [3].

Özəlləşdirmənin nəticəsi olaraq və yeni yaradılan müəssisələrin hesabına Azərbaycanda dövlət müəssisələrinin sayı azalmış, xüsusi müəssisələrin sayı isə artmışdır. Habelə bələdiyyə müəssisələri yaradılmışdır. 2021-ci il oktyabrın 1-nə olan vəziyyətə görə, ölkəmizdə mülkiyyət növləri üzrə bütün müəssisələrin 92,4%-i xüsusi (151511), 6,5%-i dövlət (10 730), 1,1%-i (1738) bələdiyyə müəssisələridir (Cədvəl 2). Bu isə ölkə iqtisadiyyatında özəl sektorda müəssisələrin yüksək payından və mühüm rola malik olmasından xəbər verir.

Cədvəl 2

Müəssisələrin mülkiyyət növlərinə görə bölgüsü (2021-ci il oktyabrın 1-nə)

Mülkiyyət növləri									
Dövlət müəssisələri		Bələdiyyə müəssisələri		Xüsusi müəssisələr		ondan:			
						Xarici müəssisələr		Birgə müəssisələr	
Sayı	%	Sayı	%	Sayı	%	Sayı	%	Sayı	%
10730	6,5	1738	1,1	151 511	92,4	12 885	7,9	3135	1,9

***Mənbə**: AR Dövlət Statistika Komitəsi*

Özəl bölmənin dövlət dəstək alətlərindən biri də sahibkarlara güzəştli kreditlərin verilməsidir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun həmin güzəştli vəsaitləri əsasən qeyri-neft sektorunun inkişafı ilə bağlı investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. Fond ölkədə sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafında və işgüzarlığın artırılmasında əhəmiyyətli rola malikdir. Fond öz fəaliyyəti dövründə 42 minədək sahibkara 2,8 milyard manat güzəştli kredit verib [4].

Bu, Azərbaycanda kiçik və orta biznesin davamlı və dayanıqlı inkişafı naminə mühün dövlət maliyyə dəstəyi mexanizmi kimi çox əhəmiyyətlidir.

Həyata keçirilən kompleks tədbirlər pandemiyanın sahibkarlığın inkişafına təsirinin minimum səviyyəyə endirilməsinə imkan vermişdir. Bütövlükdə Azərbaycan iqtisadiyyatında özəl sektorun xüsusi çəkisi əhəmiyyətli həcmdə artmışdır. Ölkədə sahibkarlıq fəaliyyətinə iqtisadi artımın əsası kimi baxılır ki, bu da özəl sektorun bundan sonra da iqtisadiyyatın bütün sahələrində aparıcı qüvvə kimi çıxış edəcəyindən xəbər verir.

Ədəbiyyat

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. https://president.az/az/articles/view/50474

2. “Azərbaycanda biznes mühiti – 2020: reallıqlar və perspektivlər”. Monoqrafiya. AMEA İqtisadiyyat İnstitutu. Bakı, “Elm və Bilik” 2021, 120 s.

3. Fərdi sahibkarların sayı 1 milyon 168 mini ötüb. “Vergilər” qəzeti, 25 yanvar 2022. https://vergiler.az/news/economy/16683.html

4. Sahibkarlığın İnkişafı Fondunun yaradılmasından 30 il ötür. http://edf.gov.az/az/news/2697 12.10.2022

Резюме

Зейналов М.Х

Современное состояние и особенности развития предпринимательства в Азербайджане

В статье говорится об улучшении бизнес-среды в результате успешных экономических реформ, проводимых в Азербайджане, о государственной поддержке развития предпринимательства, повышении роли и значения частного сектора в экономике. Анализируются некоторые входящие в число основных целей правительства по проведению экономических реформ вопросы, такие, как тенденции развития малого и среднего предпринимательства, предоставление льготных кредитов предпринимателям как один из инструментов государственной поддержки,

механизм государственных гарантий банковских кредитов для предпринимателей, пострадавших от пандемии, и субсидирование процентов по этим кредитам.

Ключевые слова: *бизнес-среда, предпринимательство, частный сектор, экономические реформы, государственная поддержка, льготный кредит*

Summary

Zeynalov M.H

Contemporary Condition and of Development Characteristics of Entrepreneurship in Azerbaijan

In the scientific article has talked about the improvement of the business environment as a result of the successful economic reforms implemented in Azerbaijan, the state's support for the development of entrepreneurship, and increasing its role and importance of the private sector in economy. The trends of the development of small and medium enterprises, which are among the main goals of the government for economic reforms, the provision of concessional loans to entrepreneurs as one of the tools of the state support, the mechanism of state guarantees for bank loans to entrepreneurs affected by the pandemic, and analyzed the subsidization of interest on those loans.

Key words: *business environment, entrepreneurship, private sector, economic reforms, state support, preferential credit*

DÖRDÜNCÜ SƏNAYE İNQİLABI (İNDUSTRY 4.0) ŞƏRAİTİNDƏ İSTEHSALATIN İDARƏ EDİLMƏSİ

Zeynalova Səadət Cümşüd qızı, Orucov Elnur Cəbrayıl oğlu

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

s_zeynalova@mail.ru

Xülasə: *Sənaye sektoru hələ də əsasən xətti istehsal və istehlak modellərini dəstəkləyən bir sistemə bağlansa da, perspektivdə daha sərt ekoloji standartlar, resurs çatışmazlığı və dəyişən istehlakçı gözləntiləri təşkilatları alternativlər tapmağa məcbur edəcək. Buna görə də, tədarük zənciri boyunca materialları izləmək və məhsulun bütün ömrü boyu vəziyyətinə nəzarət etmək üçün yeni texnologiyalardan istifadə edilə bilər. Bu inkişaf dövri iqtisadiyyat modelinə keçidin sürətləndirilməsinə imkanlar yaradacaq. Keysin tədqiqatları göstərib ki, şirkətlər istehsalı, xidmətləri, biznes modellərini və ya bütün təşkilatları daha davamlı şəkildə yenidən təşkil etmək üçün inkişaf etməkdə olan texnologiyaların potensialından istifadə etməyə başlayacaqlar.*

Açar sözlər: *Sənaye 4.0, Dördüncü Sənaye İnqilabı, istehsalat sənayesi, sənaye biznesi, idarəetmə, təşkilat, iqtisadi təsirin təhlili, sənaye məhsulunun dəyər zənciri*

Dünya əhalisinin artan artım tempi, ÜDM səviyyəsinin artması və cəmiyyətin həyat tərzinin yaxşılaşması ilə bəşəriyyət getdikcə daha çox resurs istehlak edir. Bu vəziyyət bərpa olunan və bərpa olunmayan mənbələrə tələbi daim artırır. Dünyanın böyük bir hissəsində əhalinin bu artımı və artan iqtisadi rifahı misli görünməmiş təbii ehtiyatların istehlakı və ətraf mühitə təsirlərdən qaynaqlanır. Beləliklə, resurs çatışmazlığı problemi yaranır. Çünki təbii resursların məhdud olduğu bir dünyada bu iqtisadi artımın davamlı olub-olmaması haqqında sual yarada bilər [5]. Təbii ehtiyatların azalan miqdarı, xüsusilə, qlobal təchizat zəncirinə malik istehsal şirkətləri üçün problem yarada bilər. Bu şirkətlər, məsələn, artan resurs qiymətləri və təchizat qeyri-müəyyənliyi ilə mübarizə aparmalı ola bilər [8]. Bu problemlərlə üzləşən insanlar qıt təbii sərvətlər probleminin həlli yollarını tapmaqda kifayət qədər yaradıcı olublar. Bəlkə də ən mühüm yanaşma qıt resurslara qənaət edən və ya əvvəllər iqtisadi olmayan resurslardan istifadəyə imkan verən yeni texnologiyaların inkişafıdır. Bu yeni texnologiyaların inkişafı ilə bağlı bütün işlər əslində daim artan istehlakı qarşılamaq üçün lazım olan məhsuldarlığın artırılmasına nail olmaq məqsədi daşıyır [1].

Bu gün Dördüncü Sənaye İnqilabının (Sənaye 4.0) sosial, siyasi və iqtisadi sahələrdə tətbiqlərinin başlaması ilə birlikdə intensivliyin gündən-günə artdığı rəqəmsallaşma prosesi yaşanmaqdadır. Başqa sözlə, Sənaye 4.0 rəqəmsal şəbəkələr, yeni informasiya və kommunikasiya texnologiyaları əsasında yaranmış və yeni istehsal üsullarının yaranmasına səbəb olmuşdur [Horx, 2015; Heuer 2015]. Bu inkişaflar səmərəliliyi və çevikliyi təkmilləşdirməklə resurslardan səmərəli istifadəni, eləcə də, bütün rəqabət üstünlüklərini təmin edir. Bu kontekstdə, Sənaye 4.0-da istehsal prosesləri yeni sənaye istehsalına istiqamət verən və formalaşdıran vahid balanslaşdırılmış sxemlər kimi nəzərdən keçirilməlidir [1]. Ətraf mühitin çirklənməsi və

tükənən resurslar cəmiyyətin sənaye müəssisələrinə təzyiqini tədricən artırmışdır. Bu şəraitdə sənaye müəssisələri hökumətlər tərəfindən müəyyən edilən ekoloji tənzimləmələrin təzyiqi, resurs qiymətlərinin hərəkətliliyi çətinlikləri, qıt resurslar və resurs təchizatı riskləri ilə üzləşmişdir.

Bugünkü iqtisadi siyasət, ümumiyyətlə, istehsal və istehlakın xətti modelini hələ də dəstəkləyən bir sistemə yönəldilmişdir. Lakin bu diqqət müxtəlif destruktiv cərəyanların təzyiqi altında zəifləyir. Bu dəyişiklikləri nəzərdən keçirməyin yeni yollarını taparkən, görünür ki, qabaqcıl informasiya texnologiyaları lazımi xüsusiyyətləri və keyfiyyətləri təmin edə bilər. İstehsalın yeni erasında ortaya çıxan bu texnologiyalar tədarük zənciri boyunca materialları izləmək, məhsulları və material fraksiyalarını müəyyən etmək və istifadə zamanı məhsulun vəziyyətinə nəzarət etmək üçün istifadə edilə bilər. Bu günün və sabahın çətin ekoloji, iqtisadi və sosial problemlərinin öhdəsindən gəlmək üçün texnologiya və məlumatların hərtərəfli inteqrasiya olunmuş anlayışı ilə birlikdə sistemlər haqqında düşünmə bacarıqları tələb olunacaq. Texnologiyanın bu sürətli və çoxölçülü inkişafı dairəvi iqtisadiyyat modelinə keçidi sürətləndirmək üçün daha böyük imkanlar yaradacaq.

Sənaye 4.0-ın texnoloji elementləri daha effektiv və dayanıqlı istehsal üsulları və yeni modellər hazırlamağa imkan verir. Üstəlik, ortaya çıxan yeni biznes modelləri bizneslərə səmərəli şəkildə yenidən formalaşdırmaq üçün müxtəlif imkanlar təklif edir. Bu izahatlar göstərir ki, Dördüncü Sənaye İnqilabından sonra ortaya çıxan texnologiya və dəyişikliklərdən istifadə etməklə hətta dairəvi iqtisadiyyatın həyata keçirilməsi daha asan həyata keçiriləcək. Ümumilikdə, ağıllı fabriklər və Sənaye 4.0 texnologiyaları əhəmiyyətli iqtisadi, ekoloji və sosial faydalar verə bilər və beləliklə, dövri iqtisadiyyat istiqamətində səylərə töhfə verə bilər. Bu aspekt Sənaye 4.0-ın dəyər amillərinin və dəyər zəncirlərinin yenidən uyğunlaşdırılması potensialını təhlil edərkən ətraflı müzakirə olunur.

Sənaye inqilabları ilə birlikdə inkişaf edən texnologiyalar və qloballaşan bazar quruluşunu nəzərə alsaq, böyümək və inkişaf etmək və yox olmamaq üçün müəssisələrin inkişaflara uyğunlaşması zəruridir. İnkişaf edən texnologiyalar müəssisələrə dünya bazarında söz sahibi olmaq imkanı verir, çünki onlar şirkətin xərclərini azaldır və məhsulun keyfiyyətini artırır. Sənaye 4.0 ilə gələn texnologiyalar biznesdə köklü dəyişikliklərə səbəb olacaq. Müəssisələrin idarəetmə və təşkilati strukturu, istehsal sistemləri, istehsal olunan məhsul, kadr strukturu, tədarük zəncirinin tərəqqisi, materialların istifadəsi kimi bir çox sahədə müəssisələrin yenidən qurulması lazımdır. İstehsal sənayesini nəzərə alsaq, Sənaye 4.0 texnologiyalarının əhəmiyyətinin daha böyük olduğu görünür. İnkişaf edən texnologiyalar həm istehsal məhsulları istehsal edən sənaye müəssisələrinə, həm də istehlak malları istehsal edən sənaye müəssisələrinə birbaşa təsir göstərir. İstehsal məhsulları istehsal edən sənaye müəssisələrinin bazar paylarının artdığı müşahidə olunur. "Ağıllı" fabriklərə tələbatın artması və istehsal müəssisələrində avtonom robotların istifadəsi istehsal məhsulları istehsal edən müəssisələr üçün yeni bazar yaratmağa imkan verdi.

2019-cu ildə dünyada 2722000 avtonom robot olmuşdur. 2018-ci illə müqayisədə bu robotların sayı 166% artmışdır. Çin bu bazarın 44%-nə sahibdir. 2019-cu ildə 140.500 avtonom robot satan Çin bu satışlardan milyardlarla dollar qazanıb. 2009-2019-cu illərdə Çin istehsal sənayesinin inkişafı ilə Çinin milli gəliri 6035 trilyon dollar artıb (4). Bu məlumatlar araşdırıldığında, Sənaye 4.0-ın gətirdiyi yeni texnologiyalara investisiyanın iqtisadiyyatı necə yaxşılaşdırdığı görülür. 2020-ci ilə qədər müəssisələrin robot yönümlü avtonom istehsal müəssisələrinin yaradılması nəzərdə tutulur. Kiberfiziki sistemlər və əşyaların internet texnologiyaları vasitəsilə ünsiyyət qura bilən avtonom robotlar sayəsində istehsal xəttində görülən işlərin keyfiyyətinin yüksəldiyi, istehsal xərclərinin azalacağı proqnozlaşdırılır. Gələcəkdə dünyada avtonom robotlara tələbatın artması bu sektorda fəaliyyət göstərən şirkətlərin artmasına imkan verəcək.

Bundan əlavə, istehsal xəttindəki sürətlənmə sayəsində şirkətin tələblərə cavab verməsi sürətlənəcək. İnventarların idarə edilməsi və istehsal xəttinin robotlar vasitəsilə inteqrasiya olunmuş işləməsi lazımsız məhsul tədarükü və ehtiyatının qarşısını alacaq. Bu, biznesin lazımsız kapital qoyuluşlarının qarşısını alacaq və gəlirlilik dərəcəsini artıracaqdır. Yüksək fiziki güc və əmək tələb edən işləri robotlar qısa müddətdə və səhvsiz yerinə yetirə biləcək. Bu, müəssisələrdə istehsal xəttinin işləmə sürətini artıracaq və qısa müddətdə daha çox tələblərə cavab verməyə imkan verəcək. Sənaye 4.0-ın gəlişi ilə istehsal sektorunda əhəmiyyətli bir inkişafın ağıllı məhsullar olacağı gözlənilir. Məhsullara yerləşdirilən avtomatlaşdırma texnologiyaları, sensorlar, aktuatorlar və RFID texnologiyası sayəsində istehsalın hər mərhələsində məhsulları avtonom robotlarla idarə etmək mümkün olacaq. Bu məhsulların istehsal xəttində problemsiz, minimum xərclə və şəffaf şəkildə istehsalı həm əməliyyat səmərəliliyini artıracaq, həm də maddi israfın qarşısını alacaq. Bu halda müəssisənin mənfəətinin maksimallaşdırılmasına nail olunacaqdır. İstehsal edilən məhsullardakı sensorlar, aktuatorlar və ya RFID texnologiyası sayəsində məhsullar məhsulun həyat dövrü boyunca izlənilə bilər. Bu zaman məhsullarda yarana biləcək hər hansı problem əvvəlcədən aşkarlana bilər və bu problemlərə erkən müdaxilə etmək mümkün olacaq. Bundan əlavə, məhsulun istifadə şərtləri və aşınma dərəcəsi kimi məlumatlar məhsulun həyat dövrü ərzində avtonom robotlar tərəfindən qeyd olunacaq. Bu məlumatlardan

istifadə etməklə məhsullardakı qüsurları aradan qaldırmaq və məhsulların istifadə şərtlərinə uyğun inkişaf etdirmək mümkün olacaq. İstehsalat sektorunda istehsal olunan məhsullarda qiymətli və nadir materiallardan istifadə edilə bilər (Məsələn, qızıl çox keçirici metal olduğu üçün qızıl çiplərdə istifadə edilə bilər). Sənaye 4.0 texnologiyaları ilə istehsal olunan məhsulların məhsulun həyat dövrünü izləməsi, məhsulun həyat dövrü tamamlandıqdan sonra məhsulun yerini tapmağı asanlaşdıracaq. Bu, istifadə olunan materialların toplanmasına və təkrar istifadəsinə imkan verəcək. İstehsal sektorunda təkrar emaldan geniş istifadə bizneslər üçün böyük iqtisadi qazanc təmin edəcək. Dövri iqtisadiyyatın xarakterini nəzərə alsaq, Sənaye 4.0 texnologiyalarının istifadəsi çox vacib olacaqdır.

Sənaye 4.0 ilə gələn texnologiyalar, şübhəsiz ki, istehsal sektorunun idarəetmə və təşkilati strukturunda köklü dəyişikliklər gətirəcək. Sektor menecerləri yeni texnologiyalara əməl etməli və bu texnologiyalara uyğunlaşmalı olacaqlar. Sənaye 4.0-a uyğunlaşa bilməyən müəssisələrin zamanla yox olacağı proqnozlaşdırılır. Şirkət strukturlarının dəyişməsinin menecerlərin xüsusiyyətlərini dəyişəcəyi proqnozlaşdırılır. Yeni tipli biznes menecerləri avtonom robot iş prinsipləri haqqında məlumatlı olmalı və məlumatların təhlilini yaxşı bilməlidirlər. İnkişaf edən texnologiyalarla birlikdə mavi yaxalıq hesab etdiyimiz fiziki güc və bacarıq tələb edən kadrların yerini mühəndis, proqram mütəxəssisi, məlumat analitiki, AR-GE mütəxəssisi kimi ağ yaxalıq adlandırılan peşələr alacaq. Menecerlərin diqqətini bu kadrların işə götürülməsinə və bu işçilər üçün uyğun iş mühitinin yaradılmasına yönəltmələri faydalı olardı. Çünki bu kadrlara ehtiyac günü-gündən artacaq. Müəssisələrin əməliyyat strukturuna nəzər salındıqda, mavi yaxalı sayılan kadrlara (qaynaqçı, quraşdırıcı, sürücü, anbar işçisi kimi) ehtiyacın aradan qalxdığı görünür. Bu personal bir-biri ilə inteqrasiyada işləyə bilən avtonom robotlarla əvəz olunacaq. Bu, müəssisələrdə xəta marjasını, istifadə olunan materialın miqdarını və istehsal vaxtını azaldacaq, həmçinin görülən işlərin keyfiyyətini yüksəldəcəkdir. Bu kadrlara olan ehtiyacın aradan qalxması işsizlik kimi problemə səbəb ola bilər. Bu istiqamətdə müəssisələr mövcud kadrların hazırlanmasına önəm verməlidirlər.

Müəssisələrin ehtiyaclarına uyğun kadrların yetişdirilməsi və təchizatı böyük əhəmiyyət kəsb edir. McKinsey üçün şirkətlərini Sənaye 4.0-ı uyğunlaşma prosesinə daxil edərkən 7S nəzəriyyəsinə əsaslanan araşdırmalar aparmaq faydalı olardı. Dördüncü Sənaye İnqilabına uyğunlaşma prosesini nəzərə alsaq, 7S nəzəriyyəsi ən uyğun model kimi görünür.

Araşdırma nəticəsində belə qənaətə gəlinib ki, emal sənayesində fəaliyyət göstərən müəssisənin idarəetmə və təşkilati strukturunda baş verən dəyişikliklər istehsal sektoruna müsbət və çoxşaxəli təsir göstərir.

Ədəbiyyat

1. Arbeitskreis Industrie 4.0 („AK4.0“) wurde im Jahr 2014
2. Aoun, Rosy; Doumith, Elias. A.; Gagnaire, Maurice (2011). “Resource Provisioning for Enriched Services in Cloud Environment”, IEEE Second International Conference on Cloud Computing Technology and Science, Indianapolis, IN, 2010, pp. 296-303.
3. “Change in the Staff Structure of Media Institutions in Industry 4.0 Process”, Route Educational and Social Science Journal, vol. 6(8), ss. 126-134.
4. “Chapter 2 Concepts, Uses, and Classifications of Consumer Price Indices”, International Money Fund. IMF (2020).
5. Economics of Natural Resource Scarcity: The State of the Debate (Krautkraemer, Jeffrey A.2005)
6. Howeth, Linwood.S. (1963). History of communications-electronics in the United States Navy. Washington: Bureau of Ships and Office of Naval History.
7. Hudson, Pat (1992). The Industrial Revolution. London: Edward Arnold
8. Robert E. Preston and James Herron Eckels (2011)

Резюме

Зейналова С. Д., Оруджев Э. Д.

Управление производством в условиях Четвертой промышленной революции (İndustry 4.0)

Промышленный сектор по-прежнему в значительной степени привязан к системе, поддерживающей линейные модели производства и потребления, в будущем более строгие экологические стандарты, нехватка ресурсов и меняющиеся ожидания потребителей заставят организации искать новые альтернативы. Поэтому новые технологии можно использовать для отслеживания материалов по всей цепочке поставок и мониторинга состояния продукта на протяжении всего срока его службы. Подобное развитие создаст возможности для ускорения перехода к модели экономики замкнутого цикла. Тематические исследования показали, что компании

начнут использовать потенциал новых технологий для более рациональной реорганизации производства, услуг, бизнес-моделей или в целом самих организаций.

Ключевые слова: *Индустрия 4.0, Четвертая промышленная революция, обрабатывающая промышленность, промышленный бизнес, управление, организация, анализ экономического воздействия, цепочка стоимости промышленного* продукта

Summary

Zeynalova S. J., Orujov E. J.

Production Management in the Conditions of the Fourth Industrial Revolution (Industry 4.0)

Although the industrial sector is still largely locked into a system that supports linear production and consumption models, in the future stricter environmental standards, resource scarcity and changing consumer expectations will force organizations to find new alternatives. Therefore, new technologies can be used to track materials throughout the supply chain and monitor the condition of the product throughout its life. This development will create opportunities to accelerate the transition to a circular economy model. Case studies have shown that companies will begin to use the potential of emerging technologies to reorganize production, services, business models or entire organizations in a more sustainable way.

Key words: *Industry 4.0, Fourth Industrial Revolution, Manufacturing Industry, Industrial Business, Management, Organization, Economic Impact Analysis, Industrial product value chain*

HEYVANDARLIQ MƏHSULLARINA TƏLƏBATIN ÖDƏNİLMƏSİ İMKANLARI

Vəliyev Fərid Şakir oğlu
Azərbaycan Dövlət Aqrar Universiteti
ferid.veliyev.89@mail.ru

Xülasə: *Heyvandarlıq məhsullarına tələbatın yerli istehsal hesabına ödənilməsi ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb etməklə, bir tərəfdən emal sənayesinin xammala olan ehtiyacını ödəyir, digər tərəfdən ilboyu məşğulluğu təmin etməyə imkan verir. Bu sahədə iqtisadi əlçatanlığın təmin edilməsi heyvandarlıq məhsullarına sabit tələbatın formalaşdırılmasında və yerli istehsal hesabına özünütəminetmə imkanlarının yüksəldilməsində əhəmiyyətli rol oynayır. Ona görə heyvandarlığın dayanıqlı inkişafının təmin edilməsi, onun texnoloji modernləşdirilməsi, dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində daha təkmil tədbirlərin həyata keçirilməsi zəruridir.*

Açar sözlər: *tələb, bazar, idxal, səmərə, istehsal potensialı, rəqabət qabiliyyəti*

Heyvandarlıq məhsullarına tələbatın yerli istehsal hesabına ödənilməsi hazırda aqrar siyasətin prioritetlərindən hesab edilir. Heyvandarlıq sahəsi təkcə ərzaq təhlükəsizliyi baxımından deyil, eyni zamanda emal sənayesinin xammala olan ehtiyacını ödəməklə və ilboyu məşğulluğu təmin etməyə imkan verməklə iqtisadi asılılığın azaldılmasında və sosial problemlərin həllində mühüm rol oynayır. Ona görə yüksək keyfiyyətli və rəqabət qabiliyyətli heyvandarlıq məhsullarının iqtisadi əlçatanlığının təmin edilməsi probleminin həlli bu sahədə səmərəli mexanizmlərin hazırlanmasını tələb edir. Qeyd edilənlərlə yanaşı, heyvandarlıq məhsulları istehlakçıların büdcə xərclərində əhəmiyyətli paya malik olmaqla, sosial əhəmiyyətli ərzaq məhsulları qrupuna daxildir. Heyvandarlıq məhsulları istehsalının artırılması, heyvandarlıq məhsulları bazarının fəaliyyətinə təsir göstərən amillərin müəyyən edilməsi daxili istehsal hesabına özünütəminetmə imkanlarının yüksəldilməsində də xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, ölkənin tələbatının yerli istehsal hesabına ödənilməsi və idxalın əvəzlənməsi hədəflərinin icrası çərçivəsində heyvandarlıq istehsalının həcminin və onun istehlakçılar üçün əlçatanlığının artırılması mövcud istehsal potensialı nəzərə alınmaqla zəruri tədbirlərin həyata keçirilməsini tələb edir. Bu baxımdan heyvandarlığın inkişaf etdirilməsini nəzərdə tutan dövlət proqramında 2023-cü ildə ət məhsulları ilə özünütəminetmə səviyyəsinin 92,5%-ə, süd və süd məhsulları üzrə 98,6%-ə çatdırılması nəzərdə tutulur [1].

Araşdırmalar göstərir ki, son illərdə, daha konkret olaraq 2017-ci ildə ət və ət məhsulları ilə özünütəminetmə səviyyəsi 84,7%, 2018-ci ildə 82,7%, 2019-cu ildə 82,5%, 2020-ci ildə 84,5%, süd və süd məhsulları üzrə müvafiq illərdə 86,1%, 86,7%, 86,3% və 83,5% təşkil etmişdir [4]. Göründüyü kimi, ət və ət məhsulları ilə özünütəminetmə səviyyəsi 2023-cü ilin hədəf göstəricisindən 8,0 bənd, süd və süd məhsulları 15,1 bənd aşağıdır.

Təhlillərə əsaslanaraq müasir iqtisadi şəraitdə heyvandarlığın davamlı inkişafının təmin olunmasını, heyvandarlıq məhsullarının istehsalı və satışından sabit rentabellik səviyyəsinin formalaşması ilə

əlaqələndirmək olar. Qeyd etmək lazımdır ki, texnoloji proseslərin fasiləsizliyini təmin etmək və geniş təkrar istehsal prosesini həyata keçirmək ilk növbədə maddi-texniki bazanın modernləşdirilməsi ilə bağlıdır. Bu, bir tərəfdən heyvandarlığın istehsal potensialını yüksəltməyə, digər tərəfdən həmin potensialdan daha səmərəli istifadə etməklə rəqabətqabiliyyətli heyvandarlıq məhsulları istehsalını artırmağa imkan yarada bilər. Təsadüfi deyil ki, göstərilən istiqamətlərdə, o cümlədən resursa qənaət edən istehsal texnologiyalarının və yüksək məhsuldar resursların tətbiqi hesabına son illər heyvandarlıq məhsullarının istehsalında əhəmiyyətli artım qeydə alınmışdır. Belə ki, 2017-ci illə müqayisədə 2020-ci ildə natural formada ət və ət məhsulları istehsalında 9,2%, süd və süd məhsulları istehsalında 8,3% artım müşahidə edilir.

İstehsalda baş verən belə müsbət tendensiya, eləcə də istehsal olunmuş məhsullara fiziki və iqtisadi əlçatanlığın təmin edilməsi faktiki istehlakın minimum istehlak səbəti üzrə əsas növ heyvandarlıq məhsullarının illik istehlak normalarını üstələməsinə səbəb olmuşdur: ət və ət məhsulları üzrə 9,3 kq və ya 29,5%, süd və süd məhsulları üzrə 25,3 kq və ya 10,9% [4]. Bununla belə, hesablamalardan aydın olur ki, heyvandarlıq məhsullarına tələbatın müəyyən hissəsi (15-17%-i) hələ də idxal hesabına ödənilir. Baxmayaraq ki, ölkə tələbatının həm bu sahə məhsulları ilə təmin edilməsi potensialı, həm də ixracın artırılması imkanları mövcuddur.

Qeyd etmək lazımdır ki, heyvandarlıq məhsulları istehlakının artması və özünütəminetmə səviyyəsinin yüksəlməsi əmtəələrin bölgüsü zəncirində effektivliyin təmin olunması ilə bilavasitə əlaqəlidir. Belə ki, bir tərəfdən yerli istehsalın stimullaşdırılması, digər tərəfdən daxili bazarın qorunması müsbət tendensiyaları şərtləndirən əsas amillər sırasındadır [2, s.334]. Bunlar, nəticə etibarilə heyvandarlıq məhsulları istehsalının genişlənməsinə imkan yaradır, ticarət şəbəkəsində istehlakçıların tələbatını əhəmiyyətli dərəcədə artırır ki, bu da daxili bazarın inkişafında əhəmiyyətli rol oynayır. Heyvandarlığın inkişafında müəyyən qeyri-mütənasibliklərə də rast gəlinir. Belə ki, ayrı-ayrı kənd təsərrüfatı heyvanlarının yetişdirilməsinin iqtisadi və bioloji xüsusiyyətlərində fərqliliklər, heyvandarlıq məhsullarının istehsalı üçün təbii-iqlim şəraiti, istehsal və bazar infrastrukturunun inkişaf səviyyəsi, istehsalın kapital tutumu və s. bu sahənin inkişafına ciddi təsir göstərir. Qeyd edilən məsələlər həmçinin, istehsal potensialından istifadənin səmərəliliyini, ayrı-ayrı sahələrin gəlirinin səviyyəsini və investisiya cəlbediciliyini şərtləndirir. Bu o deməkdir ki, adı çəkilən amillər əsasən heyvandarlıq məhsulları bazarının strukturunu və rəqabət mühitinin səviyyəsini formalaşdırır, istehlakçı üçün heyvan mənşəli məhsullara tələbatın həcmini müəyyən edir və nəhayət, özünütəminetmə imkanlarını formalaşdırır.

Göstərilənləri ümumiləşdirərək heyvandarlıq məhsulları istehsalının və yerli istehsal hesabına tələbatın ödənilməsi imkanlarının artırılmasına müsbət təsir edən amillərə aşağıdakıları aid edə bilərik: istehsalın əlverişli təbii-iqlim şəraitində yerləşməsi; xarici bazarlara çıxışı təmin edən tədbirlərin həyata keçirilməsi və ixracın təşviqi; heyvandarlıq məhsullarına sabit tələbatın formalaşdırılması və daxili bazarın yüksək tutumunun təmin edilməsi; heyvandarlıq məhsullarının idxalına xüsusi məhdudlaşdırıcı tədbirlərin tətbiqi; subsidiyaların genişləndirilməsi və s. Doğrudur, son illər müxtəlif heyvandarlıq sahələrinin inkişafı məqsədilə subsidiyalar ayrılmışdır: 2020-ci ildə süni mayalanma yolu ilə alınmış buzova görə 8 389,5 min man. [5]. Lakin araşdırmalar göstərir ki, bu tədbirin davamlı olmasına ehtiyac var. Heyvandarlığın inkişafına mənfi təsir edən amilləri aşağıdakı kimi ümumiləşdirmək olar: qlobal iqtisadiyyatda mənfi makroiqtisadi meyllərin güclənməsi [3, s.226]; xarici texnoloji avadanlıqlardan, heyvandarlıq üçün zəruri yem əlavələrindən, baytarlıq preparatlarından və genetik ehtiyatlardan asılılıq; bəzi əhali qrupu arasında səmərəli tələbatın azalması; müəyyən hallarda heyvan mənşəli məhsulların bitki mənşəli və qida kimyası komponentləri ilə əvəzlənməsi; heyvandarlıqda istifadə olunan texnoloji avadanlıqların, yemlərin, dərmanların, baytarlıq preparatlarının qiymətlərinin yüksək səviyyəsi; rəqabətin aşağı səviyyəsi; təbii-iqlim şəraitindən asılılıq və s.

Araşdırmalara əsaslanaraq heyvandarlıq məhsulları istehsalının və yerli istehsal hesabına tələbatın ödənilməsi imkanlarının artırılması üçün aşağıdakı tədbirlərin məqsədəuyğunluğunu qeyd edə bilərik:

- heyvandarlıq məhsullarının istehsalı məqsədilə həyata keçirilən investisiya layihələri üçün güzəştli kreditlərdən istifadə imkanlarının yaradılması;
- kənd yerlərində əhalinin məşğulluğunun təmin edilməsi və kəndin sosial infrastrukturunun davamlı inkişafı;
- dövlət dəstəyinin təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi;
- heyvandarlığın texnoloji avadanlıq, yem məhsulları, baytarlıq preparatları və genetik ehtiyatlarının idxaldan asılılığının azaldılması;
- rəqabətqabiliyyətli və iqtisadi cəhətdən daha səmərəli heyvandarlıq məhsulları istehsalının artımına imkan verən istehsal və bazar infrastrukturunun inkişaf etdirilməsi;
- mənfi makroiqtisadi amillərin təsirinin minimuma endirilməsi tədbirlərinin həyata keçirilməsi və s.

Beləliklə, qeyd olunanlardan aydın olur ki, heyvandarlığın dayanıqlı inkişafının təmin edilməsi onun texnoloji modernləşdirilməsi və intensivləşdirilməsinin həyata keçirilməsinə, dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsinə və bu sahə məhsullarının əlçatanlığının artırılmasına yönəlmiş daha təkmil tədbirlərin hazırlanması və həyata keçirilməsini tələb edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında 2019-2023-ci illərdə heyvandarlığın inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı
2. Лактюшина, Е.В. Факторы и условия повышения эффективности сельскохозяйственного производства крестьянских (фермерских) хозяйств. В сборнике: актуальные вопросы экономики, права и образования в XXI веке материалы III Международной научно-практической конференции, 2017.- С. 329-337
3. Полянский, С.Я. Особенности формирования эффективной системы управления сельским хозяйством в современных условиях: макро- и микроэкономические аспекты. В сборнике: научные труды московского университета имени С.Ю. Витте. - М., 2013. - С. 220-229
4. www.stat.gov.az
5. www.agro.gov.az

Резюме

Велиев Ф.Ш.

Возможности удовлетворения спроса продукции животноводства

Удовлетворение спроса на продукцию животноводства за счет местного производства с точки зрения продовольственной безопасности важно с одной стороны для удовлетворения потребности в сырье перерабатывающей промышленности, а с другой для обеспечения круглогодной занятости. Обеспечение экономической доступности в этой сфере играет важную роль в формировании стабильного спроса на продукцию животноводства и повышении возможностей самообеспечения за счет местного производства. Поэтому необходимо осуществлять более опережающие меры в направлении обеспечения устойчивого развития животноводства, его технологической модернизации, совершенствования механизмов государственной поддержки.

Ключевые слова: *спрос, рынок, импорт, эффективность, производственный потенциал, конкурентоспособность*

Summary

Valiyev F.Sh.

The Opportunities to meet the Demand for Livestock Products

Meeting the demand for livestock products at the expense of local production is important from the point of view of food security, on the one hand, it satisfies the need for raw materials of the processing industry, and on the other hand, it allows to ensure year-round employment. Ensuring economic accessibility in this area plays an important role in forming a stable demand for livestock products and increasing self-sufficiency opportunities due to local production. Therefore, it is necessary to implement more advanced measures in the direction of ensuring sustainable development of animal husbandry, its technological modernization, improvement of state support mechanisms.

Key words: *demand, market, import, efficiency, production potential, competitiveness*

АЛЬТЕРНАТИВНЫЕ ЭНЕРГЕТИЧЕСКИЕ РЕСУРСЫ В МИРЕ

Ахмедова Акима Амир кызы

Азербайджанский государственный университет нефти и промышленности

akima.ahmedova@gmail.com

Резюме: *В современном мире резкий рост численности населения, развитие экономики, в том числе энергоемкой промышленности, повышение уровня благосостояния людей, увеличение спроса на бытовые электроприборы и транспортные средства также резко увеличили спрос на энергоносители.*

Ключевые слова: *энергия, рекуперация, альтернатива, солнечная энергия, энергия ветра*

Особое внимание уделяется расширению использования возобновляемых источников энергии развитыми странами мира. США, Китай, Япония, страны-члены Евросоюза и многие экономически

развивающиеся страны ставят задачи в этой области и заявляют, что высоко оценивают роль возобновляемых источников энергии в обеспечении энергетической безопасности.

Среди возобновляемых источников энергии важное место занимают энергия солнца и ветра, и в настоящее время этим двум видам энергии уделяется особое внимание. Многие страны мира обладают потенциалом солнечной и ветровой энергетики. Мы уже можем наблюдать, что эти два вида энергии занимают значительное место на энергетическом рынке большинства стран Европы и многих развитых и развивающихся стран мира, и эта доля с каждым годом значительно растет.

Солнечная энергия – это тепловая энергия, вырабатываемая химическими реакциями в солнечном ядре. Эта энергия является важным видом энергии для мира, для существования мира, для существ, живущих в мире. Даже небольшая часть этой энергии, достигающей мира, намного больше, чем текущее потребление энергии человечеством. Количество солнечной энергии после прохождения через слои литосферы, гидросферы и облачного покрова зависит от загрязнения воздуха, уровня моря, высоты местности, времени суток и года. Ежедневная энергия, поступающая в мир от солнца, преодолевающего 150 млн км, примерно в 1,5 раза превышает годовую энергию, используемую в мире. Около 50 % солнечной радиации проходит через атмосферу и достигает земной поверхности. Использование солнечной энергии С 1970-х годов системы солнечной энергетики развивались технологически, в результате чего стоимость снизилась, и она зарекомендовала себя как экологически чистый источник энергии. Использование солнечной энергии, которая ранее использовалась в качестве тепловой энергии, было расширено для производства электроэнергии с помощью фотоэлектрических панелей. Солнечная энергия используется во многих областях хозяйства и хозяйства.

В 2015 году мировое потребление солнечной энергии увеличилось на 32,6% по сравнению с 2014 годом и составило 253 млрд киловатт-часов. По сравнению с 2005 годом (10 лет) потребление солнечной энергии в 2015 году было в 64,9 раза выше. В 2015 году потребление солнечной энергии составило 0,8% от общего объема производства электроэнергии. Китай был лидером в 2015 году, достигнув 39,2 миллиарда киловатт-часов общего потребления солнечной энергии. За Китаем, который лидирует с долей 15,5%, следуют США с 15,4%, Германия с 15,2%, Япония с 12,2% и Италия с 10,0%. Доля этих пяти стран в потреблении солнечной энергии составила 68,3%. В 2015 году рост был зафиксирован в Великобритании (86,6%), Китае (69,7%) и Японии (58,6%).

Согласно анализам и прогнозам, проведенным влиятельными международными организациями, к концу 2020 года мощность солнечной энергетики возрастет до 500 ГВт. В «Докладе о производстве солнечной энергии», подготовленном парламентом Европейского союза, говорится, что в 2020 году электроэнергия, производимая солнечной энергией, достигнет 1 миллиарда человек в мире, 2,2 миллиона человек будут обеспечены работой в этой сфере, а выбросы CO2 сократятся на 169 миллионов тонн в год.

Энергия ветра – это энергия движения (кинетическая) энергии, которой обладает воздушный поток, создающий ветер. Он считается одним из альтернативных и возобновляемых источников энергии. Часть этой энергии может быть преобразована в полезную механическую или электрическую энергию. Энергия ветра является наиболее выгодной среди других альтернативных источников энергии, таких как солнечная, гидроэнергия, геотермальная энергия и энергия биомассы, благодаря своей стоимости, экологической чистоте и неисчерпаемости [2].

Люди использовали силу ветра для приведения лодок и кораблей в движение под парусами по крайней мере 5500 лет. Использование ветра в мельницах и ирригационных процессах началось в 7 веке. В конце 19 века и в начале 20 века научные исследования по получению электроэнергии из энергии ветра дали свои практические результаты и были созданы ветроустановки и ветряные турбины. Современная ветроэнергетика началась в 1979 году, когда датские компании Kuriant, Vestas, Nordtank и Bonus начали серийное производство ветряных турбин. Они были небольшими по нынешним меркам и каждый имел мощность 20-30 кВт. В настоящее время ветроустановки мощностью более 7 МВт производятся и энергия ветра используется во многих частях мира.

Потребление энергии ветра, составившее в 2017 году 716,5 млрд киловатт-часов, увеличилось на 17,4% до 841,2 млрд киловатт-часов в 2018 году. В 2015-2017 годах потребление энергии ветра увеличилось в 8 раз. Наибольшая доля потребления энергии ветра принадлежит США – 22,9%. Следующие места занимают Китай с 22,0%, Германия с 10,5%, Испания с 5,9% и Индия с 4,9%. Среди 16 стран в 2015 году самый большой рост был зафиксирован в Бразилии — 78%. Снижение зафиксировано только в Испании, Италии и Португалии. В США рост составил 5,1%, в Китае – 15,8%, в Германии – 53,4%. В 2014 году на энергию ветра приходилось 3,4 процента мирового производства электроэнергии. Страной-лидером по доле энергии ветра в общем объеме производства

энергии в стране является Дания. Доля энергии ветра в общем производстве энергии в Дании составила 39,1% [4].

Одним из основных шагов, предпринятых для эффективного использования потенциала возобновляемых источников энергии в нашей стране, стало принятие в 2004 году «Государственной программы по использованию альтернативных и возобновляемых источников энергии в Азербайджанской Республике». Принятие программы создало широкие возможности для осуществления кардинальных изменений в использовании возобновляемых источников энергии и оценки потенциала нашей страны в этой области.

Таким образом, помимо увеличения использования альтернативных источников энергии в мире, одним из основных условий является увеличение количества технологий, применяемых в этой области. Помимо реализованных мер, по всему миру подготовлено множество проектов, которые планируется реализовать в будущем в сфере использования возобновляемых источников энергии.

Литература

1. АР ЭТСН – http://www.eco.gov.az
2. АР АБЕМДА- http://www.area.gov.az/
3. Министерство экономики и промышленности АР - http://economy.gov.az
4. Государственный комитет по статистике Азербайджана - http://www.stat.gov.az

Xülasə

Əhmədova A.Ə.

Dünyada alternativ enerji resursları

Müasir dünyada əhalinin sayının kəskin artması, iqtisadiyyatın, o cümlədən enerjitutumlu sənayenin inkişafı, insanların rifah halının yaxşılaşması, məişət elektrik cihazlarına və nəqliyyat vasitələrinə tələbatın artması enerji üçün tələbatı da kəskin şəkildə artırıb.

Açar sözlər: *enerji, bərpa, alternativ, günəş enerjisi, külək enerjisi*

Summary

Ahmedova A. A.

Alternative Energy Resources in the World

The sharp increase in the number of people in the modern period has dramatically increased demand for energy carriers in parallel with the growth of the economy, including the development of the industry with a high capacity, the welfare of the people, the increasing demand for electrical appliances and vehicles.

Key words: energy, recovery, alternative, solar energy, wind energy

BUSINESS AND INVESTMENT CLIMATE AS A FACTOR OF DEVELOPMENT OF FOREIGN ECONOMIC ACTIVITY IN AZERBAIJAN

Dadashov Elmar Rahib
Baku State University
elmar-dadashov@mail.ru

Adigozalova Venera Rashid
Baku State University
venera.adigezalova@gmail.com

Summary: *This article considers the formation and development process of business and investment climate in Azerbaijan from the moment it gained state independence. It analyses the reforms carried out by the government to support entrepreneurship within the country and to improve investment attractiveness for foreign investors. It learns the country business environment indicators determined by the international rating index of ease of doing business. It identifies main economic investors and priority directions and ways of strengthening foreign economic relations.*

Key words: *business climate, investment attractiveness, foreign economic relations*

Development of foreign economic relations together with the learning of the world market requires also understanding of the world tendencies in business. This understanding helps to identify the forms of foreign economic activity as types of international business in different countries as well as managing approaches in making decisions. Azerbaijan is not an exception in this regard. Building of foreign economic relations in the direction required for development of national economy is one of the main goals of the government.

After gaining the independence in 1991 Azerbaijan faced the wide range of actual problems that required immediate response. It was necessary to build the national economy almost from scratch because after the collapse of USSR formation of national economy in post-soviet countries was not going from system to system but from splinters of former system to multiple independent national economics. As such, there was no institutional system in the country necessary to conduct economic activity. It was required to build the entire system that develops over the long term under the influence of political, ideological and economic factors; that reflects the form of state government, strategic development objectives of the country, mental peculiarities of people living in the country and historically conditioned principles of governing the economy. The situation was further complicated to an extreme degree by the military aggression against the country and occupation of twenty percent of the territory of the country and exile of 1 million of Azerbaijanis from their native lands. In such situation, it seemed that there was no even possible to think of favorable business and investment climate in the country. The country has begun to revive since mid of 1990s. Sustainability of newly gained independence firstly was ensured as well as political stability inside the country. Basis for usage of hydrocarbon recourses of Azerbaijan on favor of the people was laid during that period by conclusion of the "Contract of the Century" on joint development of three oil fields between Azerbaijan and 13 large companies from 8 countries including USA, UK, Russia, Turkey, Norway, Japan & Saudi Arabia. Thoughtful diplomacy of compromises of the leadership of the country and creation of positive expectations among foreign investors allowed establishing competitive environment. Through this, it became possible to involve in the very first contracts on oil fields development the major TNCs and capitals from various countries. Simultaneously the start was given to implementation of thoughtful and large-scale reforms intended for the following: to replace remaining from soviet time administrative-command way of management by new relations of free competition; to take targeted political measures to form market economic system; to privatize state-owned property; to perform land reforms. Allocation of oil-&-gas revenues into non-oil sector led to serious successes and by the end of the first decade of 2000s average annual growth of non-oil sector made almost 11% in 2011. Real GDP three times increased in comparison with 2003. Strategic currency reserves, in turn, during the same period more than twenty two times increased and made 41 billion by the end of 2011 that was approximately ten times more than state external debt at that time. Opening of new production areas, creation of new work places in non-oil sector, development of production, transport and communal infrastructure, construction of new educational, health and sports institutions was the basis for dynamic and sustained progress in whole. It has restructured the system of social protection in accordance with advanced international standards. State tax service underwent significant reforms with regard to support of entrepreneurship development, reducing shadow economy, organization of electronic services provision and development of electronic payment system. Formation of investment attractiveness became an important component of foreign economic activity of Azerbaijan Republic. The president of the country approved two main laws to regulate the investment activity in the country: "Law about protection of foreign investments" of 1992 and "Law of investment activity" of 1995. Besides, the government of Azerbaijan Republic has signed a number of bilateral agreements with different countries on regulation of double taxation and investment protection. [2; 7]

All the above reforms together directly affected the development of business climate in the country since the very concept of business climate means a set of conditions for doing business. These conditions include the extent of state intervention in private business, state economic policy and attitude to expansion and strengthening the rule of law and security, severity of taxation applied, people's trust in the state and in each other in business relations, the possibility of investment, etc. Over recent years there were adopted a variety of legislative acts in Azerbaijan and created a number of administrative and legal mechanisms to establish favorable environment for development of private sector. The law "About suspension of inspections in the sphere of entrepreneurship excluding those related to taxes, human health and social security" of 2015 shall be noted here. This law allowed mitigation of administrative pressure on business. They have extended the law twice for its high effectiveness in 2017 and 2021. This decision became one of the factors supporting investment climate in the country. Continuous improvement of business environment resulted in creation of equal rights and opportunities both for local and foreign investors. Today legislative of Azerbaijan Republic including tax legislative precludes any discrimination between local and foreign

investors, e.g. requirements on issuance of permissions for foreign investment, limitation of amount of foreign currency during exchange, limitation of amount of foreign capital, limitation of rights on ownership and transfer of technologies. Absence of limitation on repatriation of profit and continuous demand for local partners by investors are good indicators of favorable business climate created in the country. The volume of direct foreign investments into economy of Azerbaijan increases from year to year. According to Central Bank, volume of direct foreign investments into economy of Azerbaijan in 2021 made 4 billion 795271 million USD which is 6% more than in 2020. As many as 83.5 percent of this amount has been invested into oil-&-gas sector. Volume of direct foreign investments into non-oil sector made 790.3 million with an increase of 30.5% in comparison with 2020. The following countries ranked in the top five by volume of direct foreign investments: UK, Turkey, USA, Malaysia, Cyprus. Top-10 also included Japan, Iran, Norway, Georgia and UAE. [1; 4; 6]

The results of the reforms directly influencing the business and investment attractiveness conducted in the country clearly evidenced by the indicators of widely known index of ease of business conduct. Arranged by the World Bank and International Financial Corporation, "Doing Business" is a large-scale research in the sphere of business climate conducted in different countries of the world on annual basis. Azerbaijan got into the rating in 2015 for the first time ranking 80th position. The position of Azerbaijan within several subsequent years in the rating has changed as follows: 2016 – 63rd place, 2017 – 65th place, 2018 – 57th years, 2019 – 25th place, 2020 – 28th place. The above statistics shows that Azerbaijan has only been improving its ranking. Loss of several points in the last report was due to the impact of combination of external and internal factors the country faced during that period. They included the fight against the pandemic spread over the world and significantly slowed down the world economy, volatility of oil prices and also the Second Karabakh War and its subsequent victorious for Azerbaijan completion and restoration of territorial integrity of the country. All the above required significant efforts and financial expenditures that affected negatively the basic indicators of business environment. The most negative evaluation received from representatives of transport and logistical, wholesale and retail, tourism and hospitality, consulting and audit sectors. Meanwhile the representatives of oil-&-gas, agricultural, engineering-construction and Information & Communication Technologies evaluated the situation in their spheres as quite stable. Political and social stability traditionally remained the highest indicator of business and investment climate of the country confidently holding the level higher than "satisfactory" during the recent years. More than 80% of the interviewed European companies working in Azerbaijan re-confirmed their intention to continue their work in the country. As per the report "Doing Business 2020", Azerbaijan ranked first among 190 countries on the availability of credit recourses. The country ranked 9th on the ease of business registration and 28th on enforcing contracts. The rating on taxation system effectiveness significantly dropped to 40th position in comparison with 29th in 2019 report. The country ranked 44th on registration of property (17th in 2019 report), 47th in resolving insolvency, 59th in issuance of permissions for construction, 80th in ease to getting electricity, 83rd in international trading. The worst indicator 105th was in protection of minority investors. Just a year ago, Azerbaijan ranked second in the category. Too significant drop connected to worsening of protection of shareholders' rights, index of corporative transparency and quality of wielding control. General position of the country in Doing Business 2020 report is quite high in the availability of credit recourses and registration business only. The rest directions require serious government intervention to create more favorable environment for foreign investors. [3]

Favorable geographical location plays a big role in creation of business climate in the country, availability of enormous transit potential in implementation of big regional and international oil-&-gas and infrastructure projects. It is worth noting the following important for Azerbaijan projects defining it as a geopolitical player and improving its international image: oil pipeline Baku-Tbilisi-Ceyhan & gas pipeline Baku-Tbilisi-Erzurum, transport corridors "East-West" and "North-South" determining the country as an important logistical center, gas pipeline TANAP & TAP leading through Turkey and Georgia to Greece border. All these projects were successfully completed. Completion of construction of railway Baku-Tbilisi-Kars became a strategic regional project identifying Azerbaijan as transit country for transportation of goods between Europe and Asia. Europe Union and Azerbaijan Republic have signed a "Memorandum of understanding on strategic partnership" in energetic sphere in 2022. According to the memorandum, it is planned to increase minimum twice export of gas to Europe by 2027. Considering the opening of gas interconnector between Bulgaria and Greece to be connected to TAP gas pipeline and allow export of Azerbaijani gas to European markets, Azerbaijan acquires the status of reliable supplier of Europe. [5]

During the independent existence of the country, the government has done much for development of national economy. All the above achievements will certainly be incentive in the medium and long term.

However, it is required to continue initiated reforms in development of attractiveness of the business and investment climate in the country.

Literature

1. Azerbaijan.com/content_1614_ru.html-Investment environment in Azerbaijan
2. Economy and foreign economic activity of Azerbaijan Republic, A.G. Akhundova, Norwegian Journal of International Science Development No. 67/2021
3. EU Business Climate Report, Azerbaijan 2020, 5th annual edition
4. General information http://www.taxes.gov.az/ru/page/umumi-melumat
5. http://haqqin.az/news/261652
6. interfax.az/view/862123#:text=прямые иностранные инвестиции
7. National Economic Interests, Textbook, H.B. Rustambeyov, Baku State University publication 2015.

Xülasə

Dadaşov E.R., Adıgözəlova V.R.

Azərbaycanda xarici iqtisadi fəaliyyətin inkişaf amili kimi biznes və investisiya mühiti

Bu məqalədə Azərbaycanda dövlət müstəqilliyini əldə etdiyi andan biznes və investisiya mühitinin formalaşması və inkişafı prosesi nəzərdən keçirilir. Ölkə daxilində sahibkarlığın dəstəklənməsi, o cümlədən xarici investorlar üçün investisiya cəlbediciliyinin artırılması istiqamətində dövlət tərəfindən aparılan islahatlar təhlil edilir. Biznesin aparılmasının asanlığı üzrə beynəlxalq reytinq indeksi ilə müəyyən edilən ölkənin biznes mühitinin göstəriciləri öyrənilir. Əsas iqtisadi investorlar və xarici iqtisadi əlaqələrin gücləndirilməsinin prioritet istiqamətləri və yolları müəyyən edilir.

Açar sözlər: *biznes mühiti, investisiya cəlbediciliyi, xarici iqtisadi əlaqələr*

Резюме

Дадашов Э.Р., Адигезалова В.Р.

Деловой и инвестиционный климат как фактор развития внешнеэкономической деятельности Азербайджана

В данной статье рассматривается процесс становления и развития делового и инвестиционного климата Азербайджана с момента обретения им государственной независимости. Анализируются реформы, проведенные со стороны государства, для поддержки предпринимательства внутри страны, а также для улучшения инвестиционной привлекательности для зарубежных инвесторов. Изучаются показатели деловой среды страны, определенные международным рейтинговым индексом легкости ведения бизнеса. Выявляются основные экономические инвесторы и приоритетные направления и пути усиления внешнеэкономических отношений.

Ключевые слова: *бизнес-климат, инвестиционная привлекательность, внешнеэкономические связи.*

THE ROLE OF THE DIGITAL MANAGER IN ENSURING ECONOMIC GROWTH AND MACROECONOMIC STABILITY IN AZERBAIJAN

Hasanov Matin Jeyhun

UNEC

metinhesenov12@gmail.com

Summary: *One of the best methods to lessen the shadow economy and boost transparency is through digitalization. The quick advancement of digital technologies provides fresh opportunities for human improvement. The "Fourth Industrial Revolution" is currently underway across the world. This entails widespread use of robotics, automation of production, artificial intelligence, and other digital technologies across the board. In all fields related to digitalization, the new industrial revolution promotes the employment of the newest, most innovative, and most cost-effective technological infrastructure.*

Key words: *digitization, economy, economic growth, macroeconomics*

The competition between developed nations is being shaped by their strategies for a quicker integration of the digitalization process into social and economic life. Large volumes of data are processed by great powers using cutting-edge, competitive technologies. These digital technologies are also being used by people more frequently every day. Modern markets for technology behemoths are shaped by the consequent advantageous environment [2]. The manufacturing of mobile phones is currently rising quickly, and other storage technologies like the cloud are also being developed. All of these things are integrating into our daily life. [4]

The information and communication sector contributed 2% of Azerbaijan's GDP in 2020, according to data. Over the period 2005–2019, the information and communication technologies (ICT) industry added value increased by 279 million manats to 320 million manats. The "one-stop" system in Azerbaijan now offers more than 450 government services online. In total, public and commercial organizations provide more than 1,000 e-services. Mobile phone communication takes the top spot in the ICT sector's structure with a 41% market share, and a full mobile network covers the entire nation. More than 100 million transactions have been carried out using mobile electronic devices during the past seven years.

Of course, technological advancements and digitization have a favorable impact on each state's economy, industry, and other sectors [4]. In particular, the development of reliable and secure infrastructure is intimately tied to the digitalization of the economy. There is no denying that Azerbaijan is continually implementing significant reforms in the socioeconomic sector, notably in the area of public administration, as well as creative projects, enhanced electronic services, and a move toward digitalized services in all disciplines. [4]

Arrangement of "Electronic Government" (e-Government in English) is considered one of the components that advance create the improvement slant of nations in later a long time. This makes conditions for the arrangement of data and e-services to all citizens, lawful and characteristic people, outside citizens and stateless people living within the domain of the Republic of Azerbaijan by state teach using modern data advances. The most reason of the openings made is to reduce the "separate" between respectful workers and citizens within the arrangement of social administrations, as well as to streamline and make these relations more straightforward. Wide application of electronic administrations by state bodies, expanding their number and quality, expanding citizens' fulfillment with administrations are the implies of accomplishing this objective.

We can take the foundation of "ASAN benefit" as an case. The reason of the institution, which was made on the activity of President Ilham Aliyev, was to extend straightforwardness within the exercises of state bodies, to supply administrations to citizens with tall quality, helpful and present day advancements. Since one of the most errands set by the head of state is to realize modern guidelines within the arrangement of open administrations. These guidelines guarantee operational proficiency, straightforwardness, advancement, tall innovative capabilities, etc. of open and private administrations in a single space was shaped based on its standards. In common, the advancement of advanced government in Azerbaijan, the arrangements connected within the money related division, and the method of adjusting the enactment to modern innovative patterns are being proceeded at a tall speed.[9]

Too, after the Moment Karabakh War, which finished with triumph, numerous works were begun within the course of the execution of urban arranging on innovative bases in our lands liberated from occupation. The "Savvy Town" extend, wealthy in mechanical conceivable outcomes, is the premise of the reproduction work. The most goal of the usage of this extend is to make conditions for people in rustic zones so that all the services that individuals can get within the city can be effortlessly gotten to within the towns. At the same time, more pay and work openings ought to be made for individuals within the town. The third point is the arrangement of full conditions for giving get to to state administrations for provincial inhabitants. In other words, within the "Savvy Town" concept, the contrast between country and urban ranges in terms of benefit, benefit, and profiting from government administrations is for all intents and purposes killed.

"Keen farming" could be a unused concept that uses present day data and communication innovations to extend the amount and quality of products while optimizing the human labor required for generation. The extend, which can be actualized in 5 components, comprises of ranges of lodging, generation, social administrations, "savvy horticulture" and elective vitality. The indoor building communication and warming frameworks here will be built on the premise of keen innovations. Present day schools, kindergartens, polyclinics and electronic administration centers will be built in these towns, tourism framework will be shaped. All homes, social offices, authoritative and open catering buildings, handling and generation of agrarian items will be given with elective vitality sources.

Concurring to the "Shrewd Town" concept, the electronicization of the method improves generation capabilities. In this way, it is an robotized, centrally controlled and co-managed framework of the whole

stage, from the water system framework to the planting and development of the soil, harvesting, and it moreover includes the application of the foremost progressed advances and techno-transfers. The integration of this framework into other regions of rustic foundation - elective vitality sources and present day transport framework - will total the concept of "Savvy Town".

All the recorded highlights are demonstrative of the unused accomplishments of our nation in digitalization and electronic administrations. As of now, the changes carried out in our nation as well as vital programs executed by the state and private segment shape an critical premise for building a computerized economy. Having the status of the Vitality and Transport Center of the locale, Azerbaijan has the opportunity to construct a computerized economy and gotten to be the Advanced Center of the locale in a brief time by utilizing the accessible assets and progressed world encounter within the modern time.

Reference

1. Daniel E. and Storey C. (2019). Online banking: strategic and management challenges. Long Range Planning, 30(6):p.890-895.
2. Deitel H.M, Deitel P.J and Steinbuhler K. (2020). E-Business and E-Commerce for Managers. Prentice Hall, New Jersey, 352p.
3. Gomber P., Koch JA, Siering M. (2017). Digital Finance and FinTech: current research and future research directions. Journal of Business Economics, 87(5), p.537-580.
4. Gubbi J., Buyya R., Marusic S., Palaniswami M. (2013). Internet of things (IoT): A vision, architectural elements, and future directions. Future Generation Computer Systems,29(7).
5. Kurnia S., Peng F. and Liu Y.R (2010). Understanding the Adoption of Electronic Banking in China. Proceedings of the 43rd Hawaii International Conference on System Sciences, p.1-10.
6. Lara M.P, Martinez JA, Saucedo JA, Fierro TE, Vasant P. (2019). VerticalandhorizontalintegrationsystemsinIndustry4.0.WirelessNetworks, p.1-9.
7. Osho G.S (2018). How technology is breaking traditional barriers in the banking industry: Evidence from financial management perspective. European Journal of Economics, Finance and Administrative Sciences, (11):15-21.
8. Central Bank of the Republic of Azerbaijan:https://www.cbar.az/
9. Statistical Committee of the Republic of Azerbaijan:https://www.stat.gov.az/

Xülasə

Həsənov M.C.

Azərbaycanda iqtisadi artımın və makroiqtisadi sabitliyin təmin edilməsində rəqəmsal menecerin rolu

Rəqəmsallaşma kölgə iqtisadiyyatının azaldılması, şəffaflığın təmn edilməsinin ən səmərəli üsullarından biridir. Rəqəmsal texnologiyaların sürətlə inkişaf etməsi bəşəriyyət qarşısında yüksək tərəqqi üçün yeni yollar açmışdır. Hazırda iqtisadiyyatımız IV sənaye inqilabına qədəm qoyur. Bu isə süni intellektdən geniş istifadə, istehsalın avtomatlaşdırılması, robotlaşması, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi probleminin zəruriliyi deməkdir. Ümumilikdə iqtisadi inkişafın rəqəmsallaşma ilə bağlı bütün sahələrdə ən yeni, fərqli və daha əlverişli texnoloji infrastrukturdan istifadəyə gətirib çıxarmışdır.

Açar sözlər: *rəqəmsallaşma, iqtisadiyyat, iqtisadi artım, makroiqtisadiyyat*

Резюме

Гасанов М.Дж.

Роль цифрового менеджера в обеспечении экономического роста и макроэкономической стабильности в Азербайджане

Цифровизация - один из самых эффективных способов сокращения теневой экономики и повышения уровня прозрачности. Стремительное развитие цифровых технологий открывает перед человечеством новые пути прогресса. Сейчас мир вступает в «Четвертую промышленную революцию». Это означает широкое использование искусственного интеллекта, автоматизацию производства, роботизацию, применение цифровых технологий во всех сферах экономики. В целом новая промышленная революция приводит к использованию новейшей, разнообразной и более доступной технологической инфраструктуры во всех областях, связанных с цифровизацией.

Ключевые слова*: цифровизация, экономика, экономический рост, макроэкономика*

THE ROLE OF NATURAL MONOPOLIES IN THE ECONOMIC AND SOCIAL DEVELOPMENT OF THE STATE

Huseynov Galib Siraj oglu
Sumgayit State University
qalib.huseynov69@mail.ru

Summary: *Natural monopolies play a special role in the formation of conditions for the economic and social development of the state and in ensuring national security. The social function of natural monopolies is expressed by their serving socially important areas of the economy. The system of state regulation of the activities of natural monopolies can be one of the most effective tools that help local producers adapt to market economic conditions. By regulating the activities of the natural monopoly entities operating in the most important socially important areas of the state economy, it also keeps the citizens' livelihood under its control.*

Key words: *natural monopoly, economy, social, electric power, regulation, area, function*

In the conditions of globalization and integration of economic relations, problems related to increasing the efficiency of socio-economic systems are of particular relevance. The duty of the state, represented by the executive and legislative bodies, is to create conditions for the formation and development of market relations and the successful course of market processes. In this case, the system of state regulation of the activities of natural monopoly subjects can be one of the most effective tools that help local producers adapt to market economic conditions.

Currently, natural monopolies play an important role in ensuring the stable development of national economic systems in the market economy. These include industries such as oil and gas, electricity, telecommunications and transportation. Apart from producing a significant part of the gross domestic product, these industries are also important in solving many social issues. At the same time, natural monopolies represent a special segment of the economy, their activity cannot be imagined without the participation of the state. [1, p. 247-250].

It should also be noted that natural monopolies are areas of the economy that are excluded from market competition due to the fact that they play a special role in the formation of general conditions for the economic and social development of the state, in ensuring national security, and the goods and services they produce are of a special social nature. The activity of natural monopoly subjects has an important impact on the last macroeconomic indicators, the social sphere and the security of the country.

One of the main functions of natural monopolies is a social or societal function. It is expressed by the fact that natural monopolies serve socially important areas of the economy. Due to this social importance, competition to provide the population with everything they need at the lowest cost and maximum efficiency is unacceptable. This is why natural monopolies usually receive government subsidies or investment support.

Natural monopolies form the basis of the entire economic system because they form a significant part of the costs of other producers. As a result, they indirectly affect the price level of all goods. Also, the goods and services produced by natural monopolies satisfy the vital needs of the population. It follows that the considered type of monopoly has a significant impact on the increase or decrease in the welfare of citizens of each country.

Natural monopolies, like other monopolies, serve to fulfill two functions that ensure the effective functioning of state security and at the same time are socially important for life activity. The interests of socio-economic stability and defense ability condition the mandatory provision of services to certain consumer groups. They are social and economic objects, military units, state administration bodies, special service bodies that ensure the rule of law and the safety of citizens. Failure to perform these functions by natural monopolists could lead to political, social, and legal destabilization, chaos in the economy, and disrupt the unified economic space.

In the field of natural monopolies, the economic imperatives and requirements of the European Commission are supplemented by social realities - the protection of jobs and traditions.

Returning to the social function performed by natural monopolies, we would like to note that its purpose cannot be called purely economic. The social function is aimed at increasing the efficiency of satisfying consumer demand in the same, specific commodity market. The economic point can be traced in the effect of demand. The main thing is that the state regulates the activities of natural monopoly entities operating in the most important socially important areas of economic activity, and controls the granting of concessions aimed at ensuring the life support of citizens (housing and utilities, transport services, etc.).

Based on the above, the main goal is to improve the welfare of society, to meet all needs as much as possible, to provide everyone with a normal standard of living, even to support organizations with low income levels due to the financial support of the state. That is, within the framework of this function, the state is not focused on achieving economic efficiency, its interest here is broader: only by providing the population with a normal standard of living, the state will obtain profitable labor resources. Since the characteristic feature of natural monopolies is their extremely close relationship with the state, considering them as subjects of economic activity, the issue of state regulation of monopolies cannot be overlooked. [2, p. 147-152].

In general, state regulation is a purposeful influence of the state on the development processes of the national economy with the aim of achieving higher socio-economic efficiency.

The participation of the state in the capital of natural monopolies and maintenance of management by it is an objective necessity. One of the reasons for this is that they also maintain external economic levers of influence on the economic and socio-political development of other countries and the development of the world as a whole. At the same time, it is necessary to improve the strategy and tactics of the state's participation in natural monopolies, to prevent its excessive politicization and bureaucratization, and at the same time, to prevent their transformation into state corporations so that they are not used for the greedy purposes of officials.

Electric energy, which is attributed to natural monopolies, plays the role of a donor for the development of all areas, being an integral part of the economy of Azerbaijan today. Therefore, forming a competitive environment by attracting foreign investments to the electric power sector in our country, increasing the efficiency of the management mechanisms of field organizations operating in the sector is considered one of the priority issues in our country. [3, p. 74-79].

When predetermining the requirements for the introduction of self-regulation in electric energy, it is also necessary to take into account that the specificity of the activity, the social importance and importance of natural monopoly products for the well-being of consumers implies the formation of a self-regulation mechanism with the participation of both the state and stakeholders in this mechanism. [4, p. 161].

"Azerenergy", "Azersu", "Azerigas", which are among the largest natural monopolies in Azerbaijan, are also the largest employers and taxpayers. Therefore, the state is interested in the efficiency of the relevant type of firms, because their activity can be a factor not only in budget revenues, but also in ensuring the employment of the population.

References

1. Balakhontsev, V. I. Естественные монополии в экономике современной России / V. I. Balakhontsev, N. S. Fedorova, S. P. Khokhlov // Innovations. The science. Education. - 2022. - No. 49. - P. 247-250. – EDN EUHVNX.

2. Radyukova Y.Y. О возможностях адаптации зарубежного опыта государственного регулирования естественных монополий в современных российских условиях // Socio-economic phenomena and processes. 2013. No. 1 (047).

3. Saidov, M. S. Analysis of the economic activities of natural monopoly organizations / M. S. Saidov // Инвестиции, градостроительство, недвижимость как драйверы социально-экономического развития территории и повышения качества жизни населения: materials of the XII International Scientific and Practical Conference, Tomsk, March 01–04, 2022. - Tomsk: Tomsk State University of Architecture and Civil Engineering, 2022.

4. Trachuk A.V. Реформирование естественных монополий: цели, результаты и направления развития. Moscow: Economics, 2011. p. 87.

Xülasə

Hüseynov Q.S.

Təbii inhisarların dövlətin iqtisadi və sosial inkişafında rolu

Təbii inhisarlar dövlətin iqtisadi və sosial inkişafı üçün şəraitin formalaşmasında, milli təhlükəsizliyin təmin edilməsində xüsusi rol oynayırlar. Təbii inhisarların sosial funksiyası onların iqtisadiyyatın sosial əhəmiyyətli sahələrinə xidmət etməsi ilə ifadə olunur. Təbii inhisar subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsi sistemi yerli istehsalçıların bazar iqtisadi şəraitinə uyğunlaşmasına kömək edən ən təsirli vasitələrdən biri ola bilər. Dövlət təsərrüfat fəaliyyətinin ən mühüm sosial əhəmiyyətli sahələrində fəaliyyət göstərən təbii inhisar subyektlərinin fəaliyyətini tənzimləməklə, vətəndaşların həyat təminatını da öz nəzarətində saxlayır.

Açar sözlər: *təbii inhisar, iqtisadiyyat, sosial, elektroenergetika, tənzimləmə, sahə, funksiya*

Резюме

Гусейнов Г.С.

Роль естественных монополий в экономическом и социальном развитии государства

Естественные монополии играют особую роль в формировании условий экономического и социального развития государства, в обеспечении национальной безопасности. Социальная функция естественных монополий выражается в их обслуживании социально значимых сфер экономики. Система государственного регулирования деятельности естественных монополий может стать одним из наиболее эффективных инструментов, помогающих местным производителям адаптироваться к рыночным экономическим условиям. Регулируя деятельность субъектов естественных монополий, действующих в важнейших социально значимых сферах государственной экономики, оно также держит под своим контролем жизнедеятельность граждан.

Ключевые слова: *естественная монополия, экономика, социальная, электроэнергетика, регулирование, сфера, функция*

MÜNDƏRİCAT

PLENAR İCLAS

1. *Quliyev M.İ.* Qlobal çağırışlar şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf perspektivləri. *(Azərbaycan Respublikasının Milli Məclisi)* 3
2. *Rzayev T.M.* Azərbaycanda sosial-iqtisadi inkişafin yeni səviyyəyə qaldırılmasında aqrar sahənin rolu. *(Azərbaycan Respublikasının Milli Məclisi)* 5
3. *Abdullayev L.İ.* Azərbaycan Respublikasında kredit münasibətlərinin inkişafında zəmanət mexanizminin rolu. *(SDU)* 8
4. *Novruzov V.T.* Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının şəffaflıq amili. *(Azərbaycan Respublikası Auditorlar Palatası)* 10

I BÖLMƏ: AZƏRBAYCANDA İQTİSADİ ARTIM VƏ MAKROİQTİSADİ SABİTLİYİN TƏMİN OLUNMASININ AKTUAL MƏSƏLƏLƏRİ. SOSİAL SİYASƏT MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNİN DAVAMLI İNKİŞAFINI TƏMİN EDƏN ALƏT KİMİ

5. *Abbasov N.Y.* İnsan və müəssisə arasında qarşılıqlı əlaqələrin qurulması. *(GDU)* 13
6. *Abbasova-Zeynalova N.N.* Qeyri-neft sektorunun inkişafının tənzimlənməsinin mövcud tendensiyaları. *(MDU)* 15
7. *Ağayarova A.A.* Miqrasiyanın ölçülməsi metodları: ədəbiyyatlara baxış. *(İİ)* 18
8. *Aslanov H.H., Eyvazov Z.S.* İnvestisiya qoyuluşlarının sosial-iqtisadi mahiyyəti və iqtisadi inkişafa təsirinin qısa nəzəri təhlili. *(BDU)* 21
9. *Cəfərova T.Ş.* Azərbaycanda sosial təhlükəsizlik siyasətinin nəzəri-praktiki əsasları. *(Azərbaycan Respublikasının Milli Məclisi)* 24
10. *Cəmilzadə Ş.V.* Elektron ticarətin ölkənin iqtisadi inkişafında rolu. *(SDU)* 26
11. *Əhmədov Z.T., Əhmədova T.S.* Sənaye rayonlarının ərzaq təminatının yaxşılaşdırılmasına təsir edən amillər. *(GDU, ATU)* 30
12. *Əliyev T.Q., Əliyeva Ş.T.* Regional rəqabətli innovativ insan kapitalının formalaşması problemləri. *(ADNSU)* 32
13. *Əliyeva M.A.* Azərbaycanda həyat sığortasının əhalinin sosial müdafiəsinin gücləndirilməsində rolu. *(İİ)* 36
14. *Əliyeva Ü.Z.* Dağ turizmi və onun Azərbaycanda inkişaf perspektivləri. *(AKU)* 39
15. *Əzizova K.V.* Aqrar sferada dövlət investisiyaları və dövlət sifarişləri. *(SDU)* 42
16. *Həmidova A.M.* Logistikanın müəssisənin fəaliyyətinə təsiri. *(SDU)* 44
17. *Həsənov P.S., Nəbiyeva G.İ.* Azərbaycanda ilkin səhiyyə xidmətləri və həyat keyfiyyəti (sosial tərəqqi indeksinin göstəriciləri əsasında). *(İİ)* 46
18. *Hüseynova M.S.* Azərbaycanın sosial-iqtisadi inkişafında nəqliyyat-logistika sistemlərinin rolunun qiymətləndirilməsi. *(SDU)* 51
19. *İbrahimov E.Y.* Regional siyasətdə iqtisadi artımın əldə olunması imkanları. *(Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun İqtisadiyyat şöbəsi)* 54
20. *İbrahimov F.M.* Aqrar-sənaye sahələrində innovasiyalı inkişafın maliyyə stimullaşdırılması. *(Sosial-iqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi İctimai Birliyi)* 57
21. *İbrahimova N.V.* İnnovasiyaların əhalinin həyat səviyyəsinin yüksəldilməsində rolunun tədqiqi. *(ADNSU)* 60
22. *İsmayılova L.F.* Ölkədə demoqrafik vəziyyətin və həyat səviyyəsinin qiymətləndirilməsinin bəzi məsələləri. *(SDU)* 63
23. *Kərimov K.S., Ağayev A.S.* Rəqəmsal iqtisadiyyatda insan kapitalından səmərəli istifadəsinin müəyyənləşdirilməsi. *(ADNSU)* 66
24. *Kərimov K.S., Əlizadə Ş.R.* Rəqəmsal iqtisadiyyat insan həyatının yeni sosial-iqtisadi paradiqması kimi. *(ADNSU)* 69
25. *Köçərli H.R.* Aqrar sahədə təsərrüfat subyektlərinin satış fəaliyyətinin təşkili. *(SDU)* 71
26. *Qazıyeva S.T., Məmmədova E.M.* İqtisadiyyatın rəqəmsallaşması şəraitində logistikanın rolunun qiymətləndirilməsi. *(SDU)* 73

27. *Quluyeva A.A.* Qarabağ iqtisadi rayonunda nəqliyyatın inkişafı. *(Coğrafiya İnstitutu)* 76
28. *Mahmudova L.F.* İnnovativ iqtisadiyyat iqtisadi inkişafın keyfiyyət amili kimi. *(SDU)* 78
29. *Məmmədova S.T.* İntensiv iqtisadi artım və insan kapitalı. *(SDU)* 81
30. *Məmmədova Ş.S.* Azərbaycanın təbii resursları və onların strukturu. *(SDU)* 85
31. *Mikayılova S.M.* Aqrar sahənin ölkənin iqtisadi inkişafında rolu. *(İİ)* 88
32. *Mirzəbəyova J.S.* Azərbaycanda təhsil sisteminin mövcud vəziyyəti və inkişaf perspektivləri əlaqədar dəyərləndirmələr. *(İİ)* 92
33. *Mustafayev R.A.* Fiskal siyasətin iqtisadi inkişafa təsirinin əsas aspektləri. *(AKU)* 94
34. *Nəsibov A.C.* Kənd təsərrüfatının dövlət tənzimlənməsinin ölkənin iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi. *(AKU)* 96
35. *Nuriyev Ə.X.* Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyaları: nailiyyətlər və perspektivlər. *(Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Regional iqtisadi və sosial araşdırmalar institutu")* 99
36. *Osmanov İ.O., Osmanov N.İ.* Beynəlxalq elmi-texniki əməkdaşlığın ölkənin iqtisadi inkişafında rolu. *(SDU)* 101
37. *Ramazanov V.Z.* Regionların tarazlı inkişafı: imkanlar və perspektivlər. *(İİ)* 104
38. *Rüstəmova G.R., Rəhimli E.Ş.* Azərbaycanın xarici iqtisadi siyasətinin strateji aspektləri. *(SDU)* 107
39. *Vəliyeva L.M., Fərhadi P.O.* Milli təhlükəsizlik sisteminin struktur elementi olan iqtisadi təhlükəsizliyin təmin edilməsi yolları. *(SDU, BBU)* 111
40. *Yəhyayeva A.Y.* Sosial əhəmiyyətli investisiya layihələrinin tətbiqi nəticəsində yaranan təsirlər. *(SDU)* 114

II BÖLMƏ: İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA YARADILAN İNFRASTRUKTURUN SOSİAL-İQTİSADİ İNKİŞAFA TƏSİRİ

41. *Abbasov R.C., Qasımova R.V.* İşğaldan azad olunmuş Şuşa şəhərində turizm problemləri. *(QKU)* 118
42. *Abbasova V.M., Şirinova R.V.* İşğaldan azad olmuş ərazilərdə aqrar sahənin inkişafında kredit təminatı. *(İİ)* 120
43. *Abdullayev İ.M., Əliyeva S.F.* Xəzər dənizi səviyyə tərəddüdlərinin Abşeron sahillərinə təsiri. *(BDU)* 123
44. *Abdullayev K.N.* "Zəngəzur" nəqliyyat dəhlizinin ölkənin iqtisadi inkişafında rolu. *(İİ)* 126
45. *Bayramova S.H.* Qarabağ və Şərqi-Zəngəzurda yaradilan yol-nəqliyyat infrastrukturunun strateji əhəmiyyəti. *(İİ)* 128
46. *Əhmədova Ə.Ə., Beybutov A.S.* İşğaldan azad edilmiş ərazilərdə yeni müəssisələrin yaradılmasınn və idarə edilməsinin xüsusiyyətləri. *(ADNSU)* 131
47. *Ələkbərov A.Ə., Xasiyev E.C.* Sənayenin klasterləşməsində beynəlxalq təcrübə. *(ADNSU)* 134
48. *Əliyev Ş.T.* Qlobal təhdidlər kontekstində Azərbaycanda iqtisadi artım və makroiqtisadi sabitlik məsələlərinə konseptual yanaşmalar. *(SDU)* 137
49. *Əhmədzadə M.İ.* İşğaldan azad edilmiş Azərbaycan ərazilərində bərpa və yenidənqurma işlərinin maliyyələşdirilməsi problemləri. *(SDU)* 140
50. *Əliyev T.Q., Yahyayev R.R.* Elektron biznesin təhlükəsizliyinin təmin edilməsi prinsipləri. *(ADNSU)* 143
51. *Əliyev R.T., Mahmudova S.F.* İşğaldan azad edilmiş ərazilərin bərpa olunması problemləri. *(İİ)* 147
52. *Əliyeva A.H.* Ticarət müəssisələrinin fəaliyyətində mal əməliyyatlarının mövqeyi. *(SDU)* 150
53. *Əliyeva S.Y.* Turizmin inkişafına təsir göstərən amillər. *(SDU)* 153
54. *Əmiraslanova D.Ə.* Müəssisənin maliyyə siyasətinin onun innovativ inkişafına təsiri. *(SDU)* 156
55. *Əsədov A.M., Satıcı A.S.* Şərqi Zəngəzur iqtisadi rayonunda nəqliyyat-logistika infrastrukturunun inkişaf istiqamətləri. *(Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi)* 158
56. *Hacıyeva Z.E.* Kənd təsərrüfatında mühasibat uçotunun əhəmiyyəti. *(SDU)* 161
57. *Hüseynov N.R.* İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişaf etdirilməsində Türkiyə 164

təcrübəsi. *(SDU)*
58. *Hüseynova R.A.* Xarici iqtisadi əlaqələrin inkişafı şəraitində Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi yolları. *(MDU)* 167
59. *Xankişiyeva C.X.* Azərbaycanda sosial-iqtisadi sistemlərin rəqəmsal transformasiyasının amilləri. *(UNEC)* 171
60. *İmanova S.O.* Kredit və faiz risklərinin kommersiya bankının aktiv və öhdəliklərinin idarə edilməsinə təsiri. *(BDU)* 175
61. *İsgəndərov R.K., Əbdüləzimov E.M.* İnvestisiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi. *(ATU, SDU)* 177
62. *Kərimli V.B.* Yuxarı Qarabağ və Kəlbəcər-Laçin iqtisadi rayonlarının ixrac potensialının qiymətləndirilməsi. *(İİ)* 181
63. *Qələndərova Ü.M.* Beynəlxalq iqtisadi təşkilatlar və Azərbaycanın onlarla əlaqələri. *(BDU)* 183
64. *Mahmudov M.B.* Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılan nəqliyyat-logistika infrastrukturunun sosial-iqtisadi inkişafa təsiri. *(Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin 1 saylı Bakı DOST Mərkəzi)* 185
65. *Məmmədova S.Y.* Qarabağda bazar infrastrukturunun iqtisadi inkişafda əhəmiyyəti. *(AKU)* 188
66. *Mirzəyev E.M.* İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı və iqtisadiyyatın inkişafı məsələləri. *(İİ)* 191
67. *Mürsəlov M.M.* İşğaldan azad edilmiş ərazilərdə biznes strategiyasının seçilməsi. *(ADNSU)* 193
68. *Pənahəliyeva M.Ö., Babayeva T.P.* Beynəlxalq turizm və onun ölkənin sosial-iqtisadi inkişafında rolu. *(SDU)* 195
69. *Rəhimov H.A.* İşğaldan azad edilmiş ərazilərdə aqrar sektorun inkişaf perspektivləri. *(AKU)* 199
70. *Rüstəmova N.F.* Logistika coğrafiyasının əhəmiyyəti: dünya ölkələri və Azərbaycan. *(ATMU)* 202
71. *Salih Şimşek, Hümbətəliyeva S.Ə.* İşğaldan azad olunan torpaqlarımızda iqtisadi təhlükəsizliyin əsas istiqamətləri. *(Sakarya Universiteti, SDU)* 205
72. *Səmədova Z.İ.* Logistikanın beynəlxalq ticarətin inkişafında rolu. *(BDU)* 208
73. *Süleymanov Q.S., Şeydai T.Ə., Səfərli Z.H.* Sənaye müəssisələrinin maliyyə təminatının yüksəldilməsnin innovativ mexanizmləri. *(ADNSU)* 210
74. *Tanrıverdi Paşa.* İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında mədəni irsin iqtisadi dövriyyəyə cəlb olunması. *(İİ)* 214
75. *Tağıyeva V.E.* Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılan nəqliyyat – logistika infrastrukturunun sosial-iqtisadi inkişafa təsiri. *(ADPU)* 219
76. *Yusifov E.M.,* Əsədzadə N.K. Qarabağ regionunun bərpasında Azərbaycan dövləti ilə Türkiyə şirkətlərinin strateji tərəfdaşlığının formaları və perspektivlər. *(AMİU, BAU)* 222
77. *Yusifova K.X.* Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında nəqliyyat-logistika infrastrukturunun yaradılması. *(ADU)* 225
78. *Asadova S.S.* Digital environment: as a factor of socio-economic development of Karabakh and East-Zangazur economic regions. *(İİ)* 228
79. *Gulahmadov M.* Economic assessment of the transport-logistics infrastructure in Karabakh and Eastern Zangezur economic regions. *(İİ)* 231

III BÖLMƏ: KREATİV İQTİSADİYYATIN İNKİŞAF PERSPEKTİVLƏRİ. İNKLÜZİV İQTİSADİYYATIN İNKİŞAF ETDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

80. *Abbaslı Y.Z.* Rəqəmsal sığortanın inkişafında dövlət dəstəyinin rolu. *(İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Mühasibatlıq və xəzinədarlıq şöbəsi)* 235
81. *Abbasov S.M.* Antiinflyasiya yönümlü monetar siyasətin inkişaf etməkdə olan ölkələr timsalında təhlili. *(UNEC)* 238
82. *Abdullayeva R.S.* Azərbaycanda sosial sahibkarlığın inkişafı. *(İİ)* 241
83. *Abdullayeva Y.T., Şəfiyeva T.İ.* İnnovasiya fəaliyyətinin tənzimlənməsi istiqamətləri. *(SDU)* 245
84. *Dadaşova J.B.* Beynəlxalq iqtisadi münasibətlərdə kreativ iqtisadiyyatın yeri və rolu. 248

(MAA)
85. *Əhmədov B.S.* Azərbaycanda regionlararası bərabərsiziliyin azaldılmasının investisiya aspektləri. *(UNEC)* 251
86. *Əhmədova T.M.* İnnovasiya fəaliyyətinin stimullaşdırılması. *(SDU)* 255
87. *Əhmədzadə C.V.* İşğaldan azad olunmuş ərazilərdə innovasiya problemi və həyata keçirilən innovasiya layihələrinin təhlili. *(Azərbaycan Beynəxalq Bankı Əməliyyat departamenti)* 258
88. *Əliyev Ş.H., Nuriyeva N.Ə.* Azərbaycanda turizm sənayesinin inkişafına innovasiya fəaliyyətinin təsiri. *(SDU, DİA)* 262
89. *Əmirov İ.B., Mirzəbəyov A.Ə.* Azərbaycanın yaşıl iqtisadiyyata keçməsi problemləri. *(SDU)* 265
90. *Həsənov İ.C.* İnvestisiya prosesində layihə həllərinin keyfiyyətinin idarə edilməsi. *(BBU)* 267
91. *Həsənova N.E.* Qeyri-neft iqtisadiyyatının inkişafının davamlı inkişaf və yaşıl iqtisadiyyatın genişlənməsində rolu. *(GDU)* 272
92. *Hüseynov T.H.* Azərbaycanın sosial-iqtisadi inkişafında tənzimləmə problemləri. *(İİ)* 274
93. *Xankişiyev X.S.* Milli inkşaf və iqtisadi artımın keyfiyyəti. *(UNEC)* 278
94. *İbrahimli L.N., Mirzəyeva G.N.* Azərbaycan regionlarının dayanıqlı inkişafı: yaşıl iqtisadiyyat. *(AMİU)* 281
95. *İsmayılova L.N, Rzayeva Y.S.* Xidmətlərin keyfiyyətinin formalaşması və idarə edilməsinin nəzəri aspektləri. *(ADAU)* 283
96. *Kərimli T.V.* Azərbaycanın dayanıqlı iqtisadi inkişafının təmin edilməsində innovasiyanın rolu. *(AKU)* 285
97. *Qasımova N.Ə.* Meyvəçiliyin innovativ inkişafının iqtisadi əhəmiyyəti. *(AKU)* 288
98. *Qasımova Z.M.* Bilik iqtisadiyyatında əsas göstəricilər və onların qiymətləndirilməsi. *(SDU)* 290
99. *Quliyeva A.A.* İnnovasiya əsaslı inkişafın qeyri-neft sənayesinə iqtisadi təsirləri. *(ADNSU)* 295
100. *Quliyeva M.B.* Kreativ iqtisadiyyatın inkişaf perspektivləri. (*SOCAR "Azərikimya" İstehsalat Birliyi)* 296
101. *Məmmədov İ.S.* Texnoparkların fəaliyyətinin investisiyalaşdırılması və stimullaşdırılması. *(SDU)* 299
102. *Məmmədov T.V.* Naxçıvan turizminin inkişafına təsir edən əsas amillər. *(İİ)* 303
103. *Məmmədov Y.Ə.* Müasir dövrdə kreativ sənayenin inkişafı. *(İİ)* 306
104. *Məmmədova S.R.* Müəssisələrdə idarəetmə innovasiyalarının tətbiqini şərtləndirən amillər. *(SDU)* 310
105. *Mikayılova S.M., Əhmədov M.Ə.* Müəssisənin iqtisadi fəaliyyətinin təkmilləşdirilməsi məsələləri. *(İİ, SDU)* 313
106. *Mirzəbəyov A.Ə.* İnnovativ iqtisadiyyatın inkişafında elmin rolu. *(SDU)* 315
107. *Muxtarova P.E., Nəsənova N.T., Tağıyev M.A.* İnnovasiya prosesində investisiyaların rolu. *(ADAU)* 318
108. *Musayev A.R.* Təhsil, elm və biznesin inteqrasiyasında müasir universitet modelinin qurulmasının təşkilati-iqtisadi mexanizmi. *(UNEC)* 320
109. *Mustafayeva R.R.* Dövlət-özəl tərəfdaşlığının inkişafı innovasiyalı inkişafın əsası kimi. *(ADAU)* 324
110. *Nəcəfova Ç.M.* Azərbaycanda inklüziv iqtisadiyyatın inkişaf perspektivləri. *(SDU)* 327
111. *Niftiyev F.Q.* Dəyişən iqtisadi mühitdə insan kapitalı. *(Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik Hüquqi Şəxs)* 330
112. *Rəsulova G.R.* Azərbaycan Respublikasında fond bazarının inkişaf istiqamətləri. *(BBU)* 332
113. *Süleymanov Q.S., Bayramova N.B.* Azərbaycanda sənayenin yeni inkişaf mərhələsinin tətbiqi imkanları və perspektivləri. *(ADNSU)* 334
114. *Şirvani K.V.* Texnoparklar innovativ inkişafın əsas mexanizmi kimi. *(SDU)* 339
115. *Vəliyev Ş.X.* Pandemiya dövründə "ABB" şirkətinin investisiya fəaliyyətinin təkmilləşdirilməsi üsulları. *(İİ)* 341
116. *Vəliyeva R.A., Pənahova G.T.* Bilik iqtisadiyyatı ölkənin sosial-iqtisadi inkişafının hərəkətverici qüvvəsi kimi. *(SDU)* 345
117. *Yahyayev C.D.* Nəqliyyat vasitələrində, cihaz və aparatlarda panellərin 348

uzunömürlülüyünün artırılması. *(Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti Aparatı İşlər İdarəsi)*
118. *Huseyin B.A.* Development perspectives of the creative economy in Azerbaijan. *(BAAU)* 350

IV BÖLMƏ: BİZNES VƏ TƏHSİL. İQTİSADİYYATIN, MENECMENTİN VƏ MALİYYƏNİN AKTUAL MƏSƏLƏLƏRİ

119. *Bağırova N.C.* Sənaye müəssisələrinin innovativ inkişafa əsaslanan fəaliyyəti. *(SDU)* 354
120. *Behbudova K.E., Nəsirova A.N., Seyfullayeva T.R.* Respublikamızın sosial-iqtisadi inkişafında sahibkarlıq fəaliyyətinin rolu. *(SDU)* 356
121. *Bədəlov M.M.* Neft-qaz sənayesində innovativ fəaliyyətin təşkili və idarə edilməsi. *(AMİU)* 358
122. *Əhmədova G.S.* Biznesin inkişafında elektron ticarətin rolu. *(SDU)* 362
123. *Əhmədzadə F.M.* Dayanaqlı inkişafın təmin edilməsində yerləşdirmə müəssisələrin rolu. *(ATMİ)* 364
124. *Ələkbərov A.Ə., Xasiyev E.C.* Klasterləşmənin iqtisadi əhəmiyyəti və ümumi nəzəri aspektləri. *(ADNSU)* 367
125. *Ələkbərov A.Ə., Həziyeva S.Q.* Biznes proseslərin formalaşmasına nəzəri-metodoloji yanaşmalar. *(ADNSU)* 369
126. *Əliyev E.M.* Sənaye müəssisələrində əmək ehtiyatlarından səmərəli istifadənin qiymətləndirilməsi. *(Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi)* 373
127. *Əliyev Ə.M., Məmmədov Ş.N.* Müasir mərhələdə tikinti şirkətlərinin idarə edilməsi sisteminin nəzəri-metodoloji əsasları. *(AMİU)* 375
128. *Əliyev P.F.* Azərbaycanda kənd təsərrüfatı məhsullarının emal potensialının artırılması sahəsində dövlət tənzimləməsinin təkmilləşdirilməsi. *(Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi)* 378
129. *Əliyev T.N.* Azərbaycanda biznes mühitinin iqtisadi inkişafa təsiri. *(İİ)* 383
130. *Əliyeva Ş.İ.* Korporativ idarəetmənin təkmilləşdirilməsinin model və sistemləri. *(SDU)* 385
131. *Əsədov Z.R., Abbasova N.H., İsmayılova L.H., Tağızadə S.S., Səməndərov S.M.* İqtisadi məkanda rəqəmsallaşma dəyişikliyi. *(ADNSU)* 389
132. *Əsədov Z.R., Cəfərli Ə.Ü.* Biznesin şaxələndirilməsi sahəsində müasir təcrübələr. *(ADNSU)* 393
133. *Hacıyeva S.İ.* Bazara çıxışın yaxşılaşdırılması ilə aqrar istehsalın artırılması imkanları. *(Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzi)* 396
134. *Həsənov H.A., Həsənov T.A.* Milli iqtisadiyyatın diversifikasiya olunmasında turizmin rolu. *(İİ, Dağıstan Dövlət Aqrar Universiteti)* 398
135. *Hüseynov A.G., Bayramova G.A.* Neft-qaz sənayesinin ekoloji məsələləri. *(ADNSU)* 400
136. *Hüseynzadə G.Q.* Sənaye müəssisələrinin dayanıqlı inkişafının aktual məsələləri. *(SDU)* 402
137. *Kərimli A.S.* İqtisadi artım mənbələrinin yaradılmasında kimya və neftkimya müəssisələrinin potensialının qiymətləndirilməsi. *(SDU)* 405
138. *Kərimli B.Ə.* Müəssisənin maliyyəsinin idarə edilməsində maliyyə sabitliyinin rolu. *(Şuşa şəhər Dövlət Qoruğu İdarəsi)* 408
139. *Qurbanov Ə.Ə.* Azərbaycanda kənd turizminin inkişafı perspektivləri və mövcud problemləri. *(ATMU)* 410
140. *Qurbanov R.V.* Respublikamızda ətraf mühitin qorunması və onun tənzimlənməsində yeni mexanizmlərin tətbiqinin əhəmiyyəti. *(SDU)* 413
141. *Məmmədova E.Ş.* Sənaye müəssisələrində istehsalın idarə edilməsinin səmərəliliyinin yüksəldilməsində insan amilinin təsirinin qiymətləndirilməsi. *(SDU)* 416
142. *Məmmədova S.A.* Müəssisənin iqtisadiyyatı üçün elmi-texniki tərəqqinin səmərəliliyi. *(ADNSU)* 419
143. *Məmmədova Ş.R.* Müəssisələrin strateji planlaşdırılmasında diversifikasiya siyasətinin rolu. *(SDU)* 421
144. *Mirzəyev V.A.* Holştinləşmə zamanı qara - ala cinsli qaramalın bioloji və təsərrüfat xüsusiyyətləri. *(ADAU)* 423
145. *Musayeva S.F.* Postkonflikt ərazilərdə sosial-iqtisadi inkşaf problemlərinin həllində klaster instıtutunun rolu. *(SDU)* 427

146. *Nəsibov İ.M.* Neft-qaz çıxarma müəssisələrinin ekoloji-iqtisadi dayanıqlığının qiymətləndirilməsi metodikası. *(ADNSU)* 430
147. *Osmanov İ.O., Abdalova M.Ə.* Biznes fəaliyyətində investisiya layihəsi risklərinin qiymətləndirilməsi və azaldılması. *(SDU, İİ)* 433
148. *Tağıyeva A.V.* Biznes proseslərinin səmərəliliyinin ölçülməsi və artırılması yolları. *(SDU)* 436
149. *Tağıyeva A.V.* İstilik effekti yaradan qazların neonatal ölümə təsirinin ekonometrik qiymətləndirilməsi. *(Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Dayanıqlı İnkişaf Statistikası Şöbəsi)* 439
150. *Sadıqova S.S., Əliyeva İ.B.* Müəssisənin biznes strategiyasının formalaşması xüsusiyyətləri. *(ADNSU)* 443
151. *Seyidova S.R.* Orta və kiçik müəssisələrin maliyyə strukturunun təşkili. *(SDU)* 447
152. *Səlimova İ.S., Qəmbərova X.N.* Müəssisənin fəaliyyətində maliyyənin rolu. *(Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci)* 449
153. *Şükürova E.H., Bağırova T.H.* Birgə müəssisədə investisiyanın uçotunun aparılması xüsusiyyətləri. *(Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci)* 451
154. *Zeynalov M.H.* Azərbaycanda sahibkarlığın müasir vəziyyəti və inkişafı xüsusiyyətləri. *(İİ)* 454
155. *Zeynalova S.C., Orucov E.C.* Dördüncü sənaye inqilabı (industry 4.0) şəraitində istehsalatın idarə edilməsi. *(ADNSU)* 456
156. *Vəliyev F.Ş.* Heyvandarlıq məhsullarına tələbatın ödənilməsi imkanları. *(ADAU)* 459
157. *Ахмедова А.А.* Альтернативные энергетические ресурсы в мире. *(ADNSU)* 461
158. *Dadashov E.R., Adigozalova V.R.* Business and investment climate as a factor of development of foreign economic activity in Azerbaijan. *(BSU)* 463
159. *Hasanov M.J.* The role of the digital manager in ensuring economic growth and macroeconomic stability in Azerbaijan. *(UNEC)* 466
160. *Huseynov Q.S.* The role of natural monopolies in the economic and social development of the state. *(SDU)* 469

İXTİSARLAR

ADAU	Azərbaycan Dövlət Aqrar Universiteti
ADU	Azərbaycan Dillər Universiteti
ADNSU	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
ADPU	Azərbaycan Dövlət Pedaqoji Universiteti
AKU	Azərbaycan Kooperasiya Universiteti
AzMİU	Azərbaycan Memarlıq və İnşaat Universiteti
DİA	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
ATMU	Azərbaycan Turizm və Menecment Universiteti
ATU	Azərbaycan Texniki Universiteti
BAAU	Bakı Avrasiya Universiteti
BBU	Bakı Biznes Universiteti
BDU	Bakı Dövlət Universiteti
GDU	Gəncə Dövlət Universiteti
İİ	İqtisadiyyat İnstitutu
MAA	Milli Aviasiya Akademiyası
MDU	Mingəçevir Dövlət Universiteti
SDU	Sumqayıt Dövlət Universiteti
UNEC	Azərbaycan Dövlət İqtisad Universiteti